




downloaded from KitabYurdu.org

# QAN LƏKƏSİ roman

Elxan Elatlı

# QAN LƏKƏSİ

“Qan ləkəsi” romanı tanınmış detektiv ustası, vətənpərvər yazıçı Elxan Elatlının yaradıcılığında ən irihəcmli əsərdir. Buna baxmayaraq, birnəfəsə oxunur və indiyədək saysız-hesabsız oxucu kütləsinin qəlbini fəth etmişdir. Romanda Azərbaycan milli təhlükəsizlik orqanları əməkdaşlarının, Azərbaycan polisinin çətin və şərəfli fəaliyyətindən, düşmənlərimizin iyrənc siyasətindən, ağlasığmaz cinayətlərdən, iki güclü Azərbaycan türkü ailəsinin qanlı qarşıdurmasından bəhs olunur. Fikrimizcə, “Qan ləkəsi” romanı ədəbiyyatımızda milli birliyi təbliğ edən ən güclü əsərdir.

Elxan Elatlı. QAN LƏKƏSİ

Bakı, Qanun Nəşriyyatı, 2015 Korrektor: Ceyran Abbasova Qanun Nəşriyyatı

Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76 Ten.: (+994 12) 431-16-62; 431-38-18 Mobil: (+994 55)212 42 37 e-mail: info@qanun.az www.qanun.az www.fb.com/Qanunpublishing www.instagram.com/Qanunpublishing ISBN 978-9952-36-061-5 Qanun Nəşriyyatı, 2015 ©

© E.Elatlı, 2015

## PROLOQ

«Get, mənim əziz Leopardım! Get, amma sənə dediklərimi də unutma! Bilirəm, sən maskalanmaqdan, başqa ad altında gizlənib, düşmənə tələ qurmaqdan açıq döyüşü daha üstün tutursan. Hətta belə döyüşlərdə dəfələrlə öz qəhrəmanlığını sübut etmisən. Mən heç inanmıram ki,



downloaded from KitabYurdu.org

təkbətək açıq döyüşdə sənə qalib gələ bilən bir igid tapılsın.

Amma yadında saxla ki, sən bu cəsarətinlə, bu gücünlə aslanlarla, qurdlarla döyüşə bilərsən, ilanlarla yox! İlanla düşmən olana fiziki gücdən daha çox ayıqlıq, ehtiyatlılıq və hiyləgərlik lazımdır. Əgər
bu keyfiyyətləri də fiziki gücünlə birləşdirə bilsən, əmin ola bilərsən ki, qələbə həmişə sənin olacaq!» (Məxfi şöbənin rəisi polkovnik Baratovun Leopardı kəşfiyyata göndərərkən dediklərindən. Sentyabr 1993-cü il).

- Qalx ayağa, türk oğlu!

Taxta döşəməyə sərilib qalmış gənc qarnına dəyən təpiyin təsirindən ayılıb gözlərini açdı. Onun qolları arxasına çatılıb sıx bağlanmış, ayaqları dizlərindən topuqlarına qədər kəndirlə sarınmışdı. Ayağa qalxmağı imkansız idi. Üstəlik, sir-sifəti qana bulaşmış, dodağı bir neçə yerdən partlamışdı. Cırılmış köynəyi qan ləkələri ilə dolu idi. Qəzəbindən ağır-ağır nəfəs alır, başının üstündə dayanmış gödək boylu, yekəqarın kişiyə və onun yanında durmuş silahlı erməni əsgərinə nifrətlə baxırdı.

Yekəqarın kişi buranın, yəni gizli əsir düşərgəsinin komendantı Robert Xaçikyan idi. O,
qarşısında yerə sərilmiş bu ucaboylu, qıvraq, sağlam bədənli, tanınmamaq məqsədilə nazik saqqal saxlamış gənci bir daha təpiklə vurub rişxəndlə dedi:

- Ara, qalx da, qalx! Nə baxırsan? Qalxa bilmirsən, hə? Daha heç vaxt qalxa bilməyəcəksən! Göstərəcəyik sənə bizi dolamaq nə deməkdir, it oğlu it!

Ağrıdan üz-gözünü turşudan gənc altdan yuxarı düşməninə baxıb:



downloaded from KitabYurdu.org

- Darıxma, vaxtı çatanda qalxacam! - dedi.
Robert istehza ilə güldü:

- Qalx da, qalx görüm, necə qalxırsan? Qalxa bilsən, azad edəcəm səni!

Gəncin də partlayıb şişmiş dodaqlarında istehzalı təbəssüm göründü:

- Mən qalxsam, sən ayaq üstə dayana bilməyəcəksən!

- Sən öləsən! - Robert bunu deyib, gənci bir də təpiklə vurdu. - Kökünüzü kəsəcəyik sizin! Bələkdəki körpələrinizə qədər qıracağıq hamınızı!

Bu zaman heç kəsin ağlına gətirə bilməyəcəyi bir hadisə baş verdi. Yerdə uzanıb qalmış gənc qəflətən koramal kimi qıvrılıb, bir-birinə sarınmış ayaqlarını Xaçikyanın ayaqlarına çırpdı.

Zərbə o qədər sərrast və gözlənilməz oldu ki, ağır gövdəli komendant bu zərbəyə tab gətirməyib, döşəməyə sərildi. Gənc ona qalxmağa imkan verməyib yerində fırlandı və başıyla düşməninin sifətinə zərbə endirdi. Xaçikyanın sifəti qana boyandı. Əsgər qabağa yeriyib qızışmış gənci tutmağa çalışdı. Amma gənc bir də yerində qıvrıldı
və özünü qabağa atıb, dişlərini komendantın qoluna keçirtdi. Robertin qışqırığı otağa yayıldı. O biri qolu öz bədəninin altında qalmışdı. Nə qədər dartınsa da, qanına susamış gəncin ayaqlarını bütün gücüylə təpikləsə də, onun dişlərindən qopa bilmədi. Bu yandan da cavan əsgər, komendantı xilas etmək üçün qolubağlı gənci avtomatının qundağı ilə vururdu.

Robertin naləsini eşidib, həyətdən də köməyə gələnlər oldu.


downloaded from KitabYurdu.org

Nəhayət, gənc öz ovunu ağzından buraxdı. Amma Xaçikyanın qolundan qopmuş ət və köynəyin bir parçası onun ağzında qalmışdı. Bunları yerə tüpürüb, onu hər tərəfdən insafsızcasına vuran əsgərlərə çığırdı:

- Hamınızı parça-parça edəcəm, it uşağı!

Əsgərlər birdən-birə dayandılar. Üz-gözü qana bulaşmış gəncin inadındanmı, ya yerə tüpürdüyü ət parçasındanmı qorxub sarsılmışdılar, elə bil... Bu yandan da, yerə sərilmiş komendantın naləsi onları məcbur edirdi ki, intiqam almağı sonraya saxlayıb, öz rəislərinə yardım etsinlər.

Köməkləşib, qanı axan Roberti ayağa qaldırdılar. Onu otaqdan çıxarıb, qapını arxadan bağladılar və əsir düşərgəsinin həyətində yerləşən bu ikimərtəbəli evin pilləkənləri ilə aşağı düşdülər.

Bədəni kəndirlə sarınmış gənc, onlar çıxandan sonra o biri böyrü üstə çevrilib, otağa göz gəzdirdi. Yalnız bu zaman otağın bir küncündə büzüşüb oturmuş və heyrətlə ona baxan qadını gördü. Bu cavan və gözəl bir qadın idi. Gənc onu bir qədər maraqla süzüb, ağzına bulaşmış düşmən qanını
təmizləmək üçün dalbadal bir neçə dəfə yerə tüpürdü.

O, Azərbaycanın gizli kəşfiyyat orqanının Leopard ləqəbli agenti idi. Son dərəcə güclü, eyni zamanda zirək və diqqətli olan bu gənc ilk ciddi kəşfiyyat işində, taleyin uğursuz təsadüfü nəticəsində, ifşa olunub bu hala salınmışdı.

Diqqətini toplayıb, başına gələnləri xatırlamağa çalışdı. Lap əvvəldən - müəllimi və rəisi polkovnik Baratovun onun əlini sıxıb, müvəffəqiyyət diləyərək yola saldığı


downloaded from KitabYurdu.org

andan. Bu iki gün əvvəl olmuşdu...

Həmin vaxt 1993-cü ilin sentyabrı idi. Azərbaycanın Dağlıq Qarabağ vilayəti artıq bütünlüklə düşmən əsarətinə keçmişdi. Üstəlik, ətraf rayonlar olan Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı rayonları, dalbadal, xaincəsinə işğal
olunmuş, buralarda yaşayan azəri türkləri və kürdlər olmazın zülmlərə məruz qalaraq torpaqlarından çıxarılmışdılar. Dünyanın böyük, gizli qüvvələri artıq dəfələrlə sınaqdan çıxmış qorxunc erməni xəyanəti ilə dalbadal vururdu Azərbaycanı.

Evindən-eşiyindən didərgin düşmüş milyondan çox qaçqın Azərbaycanın müxtəlif guşələrinə səpələnmişdilər. Şəhid qəbiristanlıqları gündən-günə artır, gündən-günə böyüyürdü. Əsir alınanların, itkin düşənlərin dəqiq sayını-hesabını bilən yox idi.

Leoparda bir neçə gizli tapşırıq verilmişdi ki, bunlardan biri də əsirlikdə olan azərbaycanlılar və onların saxlandıqları yerlər barədə məlumat toplamaq idi. Xüsusilə, əsirlərə vəhşiliklə divan tutulması, onların üzərində qanunsuz cərrahiyyə əməliyyatlarının aparılması, daxili orqanlarının
çıxarılıb başqa ölkələrə satılması kimi xəbərlərin dəqiqləşdirilməsi vəzifəsi dururdu onun qarşısında.

Digər tərəfdən, həmin vaxt, əvvəllər də uzun müddət respublikaya rəhbərlik etmiş Heydər Əliyev ikinci dəfə, yenicə hakimiyyətə qayıtmışdı və şəxsən onun başçılığı altında Milli Ordunun, Milli təhlükəsizlik və kəşfiyyat orqanlarının gücləndiriləcəyi gözlənilirdi. Bacarıqlı kəşfiyyatçılar yetişdirilməsinə xüsusi maraq göstərən


downloaded from KitabYurdu.org

polkovnik Baratov da Leopardın gələcəyinə böyük ümid bəsləyirdi və hərbi kəşfiyyat məktəbinə göndərmək istədiyi bu gənci ilk ciddi, riskli tapşırıqla sınamaq fikrindəydi.

Leopard Dağlıq Qarabağa Rusiya qəzetlərindən birinin erməni milliyyətli jurnalisti adı ilə gəlmişdi. Bir neçə yeri gəzib, əhəmiyyətli məlumatlar toplaya
bilmişdi. Bu işdə rus və erməni dillərini təmiz bilməsi ona kömək olmuşdu. Nəhayət, gəlib əsas şübhə hədəfi olan bu qapalı düşərgəyə çıxmışdı ki, ifşa olunmasına səbəb olan adamla da burada rastlaşmışdı.
O, heç cür ağlına gətirə bilməzdi ki, burada Arturla rastlaşacaq. Artur Saqiyanla... O Artur Saqiyanla ki, onunla uşaqlıqları Bakıda, köhnə məhəllələrin birində eyni bir həyətdə keçmişdi. Hər ikisi bu kiçik həyətdə doğulmuş və burada böyümüşdülər.

Atası Suren, anası Haykanuş, bacısı Suzanna ilə həmin həyətdə 1988-ci ilə kimi yaşamışdı Artur. Atasına çəpgöz Suren deyirdilər. Kömürçü bazarının tinində öz balaca köşkündə oturub ayaqqabı yamayırdı. Anası isə alverçi idi. Pal-paltar alıb satırdı.

Leoparddan cəmi bir yaş böyük olan Artur arıq, ağbəniz bir uşaq idi. İlk baxışdan həmişə xəstə təsiri
bağışlayırdı. Xırda gözləri, uzunsov sifətindən azacıq qabağa çıxmış sallaq çənəsi var idi. Həmişə xoşagəlməz bir qoxu gəlirdi ondan. Ən çox da tərləyəndə.

Əvvəllər çox mehriban idilər. Arturun günü Leopardgilin evində keçirdi. Hərdən də balaca həyətdə bir oyun fikirləşib başlarını qatırdılar. Ancaq sonra elə oldu ki, onların həyatı birdən-birə, tamamilə dəyişdi. Onlar əvvəlcə


downloaded from KitabYurdu.org

bir-birinin rəqibinə, daha sonra isə düşməninə çevrildilər.

Onların hələ anadan olmalarından bir neçə il əvvəl Rusiyanın Rostov şəhərindən gəlmiş Mixail Barsov adlı bir rus qonşu həyəti alıb oraya köçmüşdü. Tək yaşayan bu adam ora köçəndə otuz beş-otuz altı yaşı olardı. Onun Bakıya nə üçün gəldiyini və hansı peşənin sahibi olduğunu heç kəs
bilmirdi. Amma karate ustası olduğunu artıq tək-tək adamlar öyrənmişdilər. O, başını qatmaq üçün, ya nədənsə, Leopardla Arturu şagirdliyə götürüb qaydasız əlbəyaxa döyüşün bütün sirlərini onlara öyrətməyə başladı.

Onda Leopardın on, Arturun isə on bir yaşı var idi. Hər iki uşaq məktəbdən qayıdan kimi, nahar edib Mixailin həyətinə qaçırdılar. Bəzən isə səhər dərsə getmək bəhanəsilə evdən çıxıb, gizlicə qonşu həyətə keçirdilər.

Daha onları nə oyunlardan çıxartmırdı Mixail Barsov?! Nəfəsləri kəsilənə qədər məşqlər etdirir, vuruşdurur, kəndirlə qonşu evin uca divarına dırmandırır, yalın əllə kərpic, taxta sındırmağı öyrədirdi. Qum, çınqıl və arpanı bir yeşikdə qarışdırıb, əllərini bu qarışığın içinə salıb-çıxartmağa
məcbur edirdi. Uşaqların barmaqları sıyrılıb qana bulaşır, amma yenə də bir-birlərinin bəhsinə bu işdən imtina etmirdilər.

Bir də iri bir kisəyə qum doldurub həyətdəki zeytun ağacından asmışdı. Boks məşqləri bu kisənin köməyilə keçirdi. Sonra uşaqlara həmin kisəni yalın əllə deşməyi öyrətməyə çalışdı. Amma bu heç cür alınmırdı. Ardıcıl məşqlərdə və aramsız əlbəyaxa döyüşlərdə bədənlərinin xeyli bərkiməsinə baxmayaraq, necə olmasa, hələ uşaq


downloaded from KitabYurdu.org

idilər.

Əlbəyaxa döyüşlər, demək olar ki, çox vaxt heç kəsin qələbəsi ilə nəticələnmirdi. Gözlərinin qızıb, nifrətlərinin coşduğu anlarda Mixail onları bir- birlərindən ayırırdı. Bir çox dəfə isə Leopard qalib gəlmişdi. Yəni tam qələbə qazanmışdı. Amma bu qələbələr heç də asanlıqla başa gəlmirdi. Çünki

Artur ilk baxışdan zəif təsir bağışlayan olsa da, çox güclü və cəld idi. Hiyləgərliyinə isə heç söz ola bilməzdi.

Hər gün evə üst-başları cırılmış, ağız-burunları yaralanmış qayıdan uşaqlar evdə o ki var danlanırdılar. Ancaq bu danlaqlardan bir nəticə çıxartmayıb, səhər yenə Mixail Barsovun yanına qaçırdılar.

Artıq Leopardın on altı, Arturun isə on yeddi yaşı tamam olmuşdu. İndi onlar daha çətin fəndləri öyrənir, daha mürəkkəb məşqlər keçirdilər. Müəllimləri onlara sərrast bıçaq atmağı, rəqibin əlindən bıçaq və ya tapançanı almağı, daha sonrası isə adam öldürməyin bütün üsullarını öyrətməyə başlamışdı. Artıq hiss olunurdu ki, Mixail onlardan hansısa məqsədlər üçün istifadə etməyə hazırlaşır.

Bunu Leopard sonralardaha dəqiq anladı. Mixail Bakıdan gedəndən və bir-iki il sonra, çoxdan axtarışda olan təhlükəli cinayətkar kimi həbs edilib güllələnəndən sonra.

O vaxt isə, ağlı kəsəndən bir şeyi anlamağa başlamışdı ki, Mixail əlbəyaxa döyüşlər zamanı tərəfkeşlik edir. Cavanlar vuruşanda Artura açıq- aydın kömək göstərməsə də onun qələbə çalmağını ürəkdən arzulayır...

Bir dəfə elə oldu ki, Artur tam qələbə çaldı və bu məğlubiyyət Leopardı əməlli-başlı sarsıtdı. Həmin gün



downloaded from KitabYurdu.org

Mixail də cavanların arasında başlanacaq döyüşə xüsusi maraq göstərirdi. Döyüş başlandı və az keçmiş, Leopard dəfələrlə etdiyi kimi, Arturu qolları arasına alıb bərk-bərk özünə sıxdı. Beləcə onu gücdən salıb, sonra kürəyi üstə yerə çırpacaqdı.
Amma birdən, heç gözləmədiyi halda, Artur düz onun gözlərinə tüpürdü. Özünü itirən və heç nə görməyən Leopardın qolları boşaldı. Elə həmin anda da qasığına dəyən diz zərbəsindən ikiyə qatlandı. Sonra daha bir güclü zərbə aldı və yerə sərildi. Artur onda onu, həqiqi mənada, ürəklə təpikləməyə başladı. Sən demə, həmişə rəqibinə məğlub olmuş bu oğlanın qəlbində nə qədər kin yığılıb qalıbmış. Heç geriyə çəkilmək istəmirdi. Ancaq Mixail onu tutub kənarlaşdırdı. Leopardı ayağa qaldıranda məğlub olmuş gənc onun gözlərində hiyləgər bir təbəssüm oxudu və başa düşdü ki, müəllimləri bu fəndi Artura bir az əvvəl, təklikdə öyrədib. O gün, həmin qələbədən sonra Mixail Arturu xeyli tərifədi və ona «Kobra» ləqəbini verdi.

Yarım saat sonra isə içinə qum yığılmış kisə ilə məşqlər başlayarkən, qəzəblənmiş Leopard elə hərəkət etdi ki, rəqibini də, müəllimini də təəccübləndirməklə bərabər, hətta bir az qorxutdu da: bütün gücünü sağ əlinin barmaqlarına verib, kisəyə necə zərbə endirdisə, kisə o saat cırıldı və içinə yığılmış qum həyətə dağıldı.

Müəlliminin ona qarşı etdiyi namərd hərəkəti də əvəzsiz qoymadı. Bir neçə gün sonra Mixail hansısa müdafiə fəndini bir daha göstərmək məqsədilə, ona öz üstünə atılmağı tapşırdı. Əlinə yaxşı fürsət düşdüyünü hiss edən Leopard qeyri-adi cəldliklə irəli atılıb, Mixaili


downloaded from KitabYurdu.org

çaşdırdı və ayağına vurduğu zərbə ilə onu yerə sərdi. O vaxtdan sol dizində şikəstlik qalan Mixail Barsov bir müddət onları məşqə çağırmadı. Sonra isə, birdən-birə evini satıb, Bakıdan getdi.

Ən maraqlısı isə o oldu ki, o, gedərkən Arturu da özüylə apardı. Artur ona ata-anasından gizlin qoşulub getmişdi. Beləliklə, Arturun əslində Mixailin oğlu olması barədə çoxdan pıçıldaşan qonşuların fikri bir daha qətiləşdi. Qonşular hələ Artur anadan olmamış Haykanuşla Mixailin gizlin görüşlərindən xəbərdar olduqları üçün, onu bu rusun oğlu saymışdılar. Hə... Artur öz həqiqi atasına qoşulub Bakıdan getdi və onun sonrakı taleyindən heç kəsin xəbəri olmadı.

Bir-iki ay sonra 1988-ci ilin hadisələri başlandı. Ermənistan dövlətinin ərazisində, öz tarixi torpaqlarında yaşayan azəri türkləri oradan qovuldular. Bunu görən və daha bir yerdə yaşamağın mümkün olmayacağını başa düşən Bakıdakı ermənilər də Azərbaycanın başqa bölgələrində olduğu kimi, öz evlərini baha qiymətə sadəlövh azərbaycanlılara satıb aradan çıxdılar.

Suren də evini satıb, arvadıyla Ermənistana köçdü. Bir az sonra məhəlləyə xəbər gəldi ki, bir-iki il əvvəl bir bakılı türkə ərə getmiş Suzanna da ərindən ayrılıb, Ermənistana gedib. Daha doğrusu, danışırdılar ki, əri özü onu boşayıb, evdən qovub...

Bəli... İndi Leopardın heç cür ağlına gələ bilməzdi ki, beş ildən sonra burada - bu əsir düşərgəsində Arturla rastlaşacaq. Amma burada onu Artur yox, Valeri deyə çağırırdılar. Belə çıxırdı ki, Rostova gedəndən sonra hansısa cinayətdə ifşa olunaraq, tanınmamaq üçün adını



downloaded from KitabYurdu.org

dəyişib. Ya bəlkə də heç belə deyildi. Kim bilir?..

Leopard russayağı saqqal saxlayıb qrimlənsə də, Artur onu görən kimi tanıdı. İstehza ilə gülüb, öz nazik, ciyiltili səsilə dedi:

- Baho, Alik, xoş gördük səni!

Uşaqlıqda hamı onu Alik deyə çağırırdı. Elə Artur da. Leopard bir anlıq düşündü ki, Artur bəlkə
də onunla qatı düşmən kimi rəftar etməyəcək. Necə olmasa, on altı il bir həyətdə yaşamışdılar. Bir süfrədən çörək yeyib, bir qabdan su içmişdilər. Anası həmişə qayğı göstərmişdi bu erməni balasına.
Ancaq tez də səhv etdiyini başa düşdü.

Artur Leopardın Bakıdan göndərilmiş kəşfiyyatçı olduğunu deyib, onu tutmağı əsgərlərə əmr etdi. Vəziyyətin çıxılmaz olduğunu başa düşən gənc kəşfiyyatçı, indi uzanıb qaldığı bu evin qarşısında, düşərgənin asfalt döşənmiş meydançasında, on nəfərdən çox əsgərin üstünə atılmağa məcbur oldu. Bu döyüşü görən hər kəs onun əsl leopard kimi vuruşduğunu etiraf edərdi. O, artıq düşmənlərinin bir neçəsini vurub şil-küt eləmişdi. Onların ayağa qalxmağa heyləri qalmamışdı. Ancaq digərlərinin hər tərəfdən vurduğu zərbələr onun özünü də gücdən
saldı və o, nəhayət, yerə yıxıldı. Erməni əsgərləri quzğun dəstəsi kimi üstünə tökülüb, harası oldu vurmağa başladılar. Bu zaman düşərgənin komendantı onlara geri çəkilməyi əmr etdi:

- Bəsdir, çəkilin! - dedi və sonra istehza ilə əlavə etdi: - Bunun çox sağlam orqanları var. Yaxşı pula gedəcək.

O, əslində, bu sözüylə düşərgədə aparılan qanunsuz


downloaded from KitabYurdu.org

cərrahiyyə əməliyyatlarının sirrini açmış olurdu. Amma digər tərəfdən baxanda, bunun daha nə əhəmiyyəti vardı ki?..

Komendantın göstərişi ilə gənc kəşfiyyatçının qollarını arxaya çatıb, kəndirlə möhkəm bağladılar. Bu zaman yaxına gələn Artur ağzı üstə yerə sərilmiş Leoparda nifrətlə baxıb:

- Ayaqlarını da sarıyın! - dedi. - Mən bunu yaxşı tanıyıram. Dərin quyunun dibinə atıb, üstünü torpaqlasan da eşib çıxacaq.

Beləliklə, heysiz uzanıb qalmış Leopardın ayaqlarını da sarıdılar və yarıhuşsuz vəziyyətdə gətirib bu otağa atdılar.

IV

Komendantın iniltisi və əsgərlərin hay-küyü uzaqlaşıb eşidilməz oldu. Leopard yerində çevrilib, ayaqlarını uzadaraq döşəmənin üstündə oturdu və küncə qısılmış gənc qadına baxmağa başladı. İyirmi üç-iyirmi dörd yaşlarında olan bu qadının da əlləri arxasında bağlanmışdı. Qara, uzun saçları dağılıb çiyinlərinə tökülmüş, bir topası isə sifətinin yarısını örtmüşdü. Qarşısında oturan oğlana maraq və mərhəmət ifadə edən nəzərlərlə baxırdı. Baxışlarında həm də ümidsiz bir kədər, bir nisgil duyulurdu. Ancaq hörmətə layiq bir mərdanəlik, bir qətiyyət də var idi bu baxışlarda... Leopardı beləcə, bir xeyli süzüb, nəhayət, dilləndi:

- Çox sağ ol qardaş, yaxşı divan tutdun o əclafa!

Leopard dinmədi. Burada, amansız və qəddar düşmənlərin əhatəsində doğma azəri qızının şirin və məlahətli səsini eşitmək onu bir qədər həyəcanlandırmışdı. Azacıq sükutdan sonra yenə də qadın dilləndi. Bu səfər,



downloaded from KitabYurdu.org

daha çox, təəssüf duyulurdu səsində:

-Ancaq... Çətin olacaq sənin üçün...

- Nə çətin olacaq? - Leopard ağzındakı pis tamdan qurtulmaq üçün yerə tüpürüb soruşdu.

- Ölmək... - qadın astadan dedi. - Rahat ölümü də çox görürlər bunlar adama.

- Mən buraya ölməyə gəlməmişəm! Məni Bakıda gözləyirlər.

- Kim gözləyir?

- Buraya göndərənlər...

Oğlan qeyri-müəyyən cavab verib, yenə də yerə tüpürdü. Xaçikyanın ətinin murdar tamından qurtula bilmirdi ki, bilmirdi.

- Sən kimsən? - qadın onu bir daha diqqətlə süzüb, sual verdi.

- Əsgər... Adicə bir Azərbaycan əsgəri. - Leopard cavab verdi və tez də soruşdu: - Bəs sən kimsən? Buraya necə düşmüsən?

- Soruşma!... - gənc qadın ağlamamaq üçün alt dodağını bərk-bərk dişləyib, başını silkələdi. - İki həftə əvvəl ermənilər Cəbrayıla girəndə ərimi, onun ata-anasını, bir də 5 yaşlı oğlumu gözümün qabağında öldürdülər. Mənisə əsir etdilər...

Daha danışa bilmədi. Gözlərindən süzülən yaş damlaları yanaqlarını islatdı. Leopard ona təskinlik verməyin mənasız olduğunu başa düşüb, susurdu. Bir qədər belə keçdi. Qadın indi Leoparda yox, kənara baxırdı. Ancaq onun baxdığı səmtdə çılpaq divardan başqa bir şey yox idi və belə aydın olurdu ki, onun məhzun baxışları bu çılpaq divara yox, daha uzaqlara dikilib. Daha ağlamırdı.



downloaded from KitabYurdu.org

Hətta arada təbəssüm də qondu dodaqlarına. Birdən incə və mülayim bir səslə danışmağa başladı:

- Oğlumu görsəniz, sizin də xoşunuza gələr.

Çox qəşəng uşaqdır. Beş yaşı var, amma elə dillidir ki!.. Nə qədər şeir bilir. Gələn il məktəbə gedəcək, inşallah!

- Bəs axı dedin ki, oğlunu öldürüblər?!

Leopard bunu deməyinə peşman oldu. Qadın

onun burada olduğunu unudubmuş kimi, diksinib başını çevirdi və bir xeyli lal baxışlarla onun üzünə

baxdı. Sonra səyriyən dodaqlarını dişlərilə tutub sıxdısa da ağlamağını saxlaya bilmədi. Doyunca ağlayıb, nəhayət, toxtadı və yenə danışmağa başladı:

- Allah bu zülmü necə götürür, bilmirəm. İnsan qanı yox imiş bunlarda... Bizim həyətə soxulanlara ilana oxşayan biri başçılıq edirdi. Bilmirəm heç rusdu, ya ermənidi... Adını Valeri çağırırdılar.

Oğlumu o öldürdü... Ərimi öldürəndə oğlum onun üstünə yüyürdü. Balaca yumruqları ilə onun qıçlarına vurdu... Qıçları sınsın onun görüm. Bıçaqla tifilin qarnını yarıb, bağırsaqlarını çıxartdı. Mənə göstərmək üçün...

Yenə susdu. Onun, nifrətlə dolu olsa da, sakit və təmkinli danışığı gənc kəşfiyyatçını heyran etmişdi.

Dərdini yüngülləşdirə bilməsə də, bu kədərli söhbəti dəyişmək üçün:

- Adın nədir sənin? - deyə soruşdu.

Qadın bir qədər susub, gənc həmyerlisinə baxdı və nəhayət, dilləndi:

- Mahirə.
- Deməli, Cəbrayıldansan?

- Daha heç yandan, qardaş, heç yandan... - Mahirə



downloaded from KitabYurdu.org

dərindən ah çəkdi. - Cəbrayılda ərdə idim... Öz rayonumuza soxulanda ata-anamı da bunlar öldürmüşdülər. Bu vəhşilər!.. Dərdimi içimə salıb dözürdüm birtəhər. Ata-anamın iyini bircə balamdan, ata yurdumun iyini Cəbrayıldan alırdım. Onları da çox gördülər mənə... Əzizlərimi öldürüb, məni əsir götürdülər... Cəbrayıl kimi, Kəlbəcər kimi, Laçın kimi... Öldürmədilər ki, canım qurtarsın mənim də.

İnsanın ürəyinə nə qədər dərd sığarmış? Bilmirsən ana dərdi çəkəsən, yoxsa bala dərdi... Öz namusunun dərdini çəkəsən, yoxsa torpağının dərdini...

Susub baxışlarını taxta döşəməyə dikdi. Gözləri yol çəkirdi, sanki.

- Bacıdan, qardaşdan da heç kəsin qalmayıb? - Leopard qadını yenə danışdırmaq üçün sual verdi.

- Bir bacım qalıb, Bakıda universitetdə oxuyur.

- Mahirənin incə dodaqlarında yenə təbəssüm gəzdi. - Çox gözəldir, həm də mehriban, səmimi qızdır. Hamı çox istəyirdi onu. Qohumlar, qonşular... Belə, necə deyim, istiqanlıdır, şirindildir. Amma o mənim kimi dözümlü deyil, bir az zəifdi, iradəsizdi.

Nə yaxşı ki, o faciələri gözüylə görmədi. Yoxsa dözməzdi, dözə bilməzdi...

Danışığına ara verdisə də, Leopard susub, onun yenidən danışmağını gözlədi. Mahirənin şirin danışığı ona layla kimi doğma gəlirdi. Bu səs ona əsirlikdə olduğunu da, ayaqlarını, qollarını sıxan kəndirin verdiyi ağrını da unutdururdu. Yenə həmin incə dodaqlar aralandı və yenə həmin doğma səs onun qulaqlarını oxşamağa başladı:

- Şükür, min şükür ki, o azadlıqdadır. Özününkülərin


downloaded from KitabYurdu.org

arasındadır. Mənim kimi qolubağlı, düşmənin ixtiyarında deyil. İndi ən böyük arzum budur ki, heç olmasa, o xoşbəxt olsun. Pis gün görməsin. Bundan böyük arzum yoxdur, vallah! Mən heç! Mən bədbəxt oldum! Taleyim belə yazılıbmış mənim...

Susub, baxışlarını birdən-birə, nədənsə, Leopardın sarınmış ayaqlarına zillədi. Bu baxışlarda nəsə bir qeyri-adilik duydu Leopard. Amma bu qeyri-adiliyin nə olduğunu anlaya bilmədi. Çılğın bir ümid də var idi bu baxışlarda, kədərli bir ümidsizlik də. Nəhayət, Mahirə özü açdı bu qəribəliyin sirrini və Leopardın üzünə baxıb:

- Sən məni öldürə bilərsən? - deyə soruşdu.

- Səni niyə öldürməliyəm ki? - Leopard təəccübləndi.

- Valeri dediyim o əclaf məni özü üçün gətirib bura... - Mahirə nifrətlə dilləndi. - Neçə gün idi, görünmürdü. Dünən gəlib. Namusumu ondan qorumaq üçün, ölməkdən başqa çıxış yolum yoxdur. Sən istəsən, öldürə bilərsən məni! O ayıya oxşayanı necə vurdun, eləcə vur, ayağınla tapdala, öldür məni! Vallah, dözəcəm, inciməyəcəm!.. Onsuz, onlar səni də öldürəcəklər! Razı olma, millətinin qızı bu kafirlərə qismət olsun. Səni and verirəm bütün istədiklərinin canına, öldür, qurtar məni!

Leopard qəzəbindən dartınıb, qollarına güc verdi. Ancaq qoluna bağlanmış kəndir, heç də qırılana oxşamırdı. Dişlərini qıcayıb ətrafına boylandı.

İkinci mərtəbədə yerləşən bu otaqda yalnız bir stol və iki stul var idi. Divarda asılmış iri bir güzgü və zövqsüz çəkilmiş mənzərə rəsmi nəzərə alınmazsa, divarlar da


downloaded from KitabYurdu.org

çılpaq idi.

Çarəsiz qalmış gəncin qəlbində, sanki sərt fırtınalar baş qaldırmışdı. Qoluna bağlanmış kəndiri qırmağa elə güc sərf edirdi ki, bu qüvvənin təsirindən, az qalırdı, ürəyi partlasın. Dişlərini qıcayıb, təngnəfəs halda dilləndi:

- Onlar sənə toxunsalar!..

- Onlar ancaq mənim meyitimə toxuna bilərlər! - hiddətlənmiş qadın onun sözünü kəsdi. - İnsan deyillər onlar, murdar həşəratdırlar, mənim nəzərimdə! Onların baxışları da təhqirdir mənim üçün! O iyrənc baxışları, o murdar nəfəsləri! Kimdi axı onlar, mənə toxuna biləl追?! Babam Soltan bəyin nökəri olub onlar! Qapısında yallanıblar, süləniblər it kimi. Goru od tutub yanar kişinin, toxunsalar mənə!

- Sakit ol, bacım, sakit ol!

Özü çarəsiz və ümidsiz vəziyyətə düşmüş gənc, millətinin bu qeyrətli qızına deməyə, təskinlik, ümid verməyə başqa söz tapa bilmirdi.

- Öldür məni, nə olar?! - Qadın yenə təkid etdi.

- Hələ bir sakit ol, səbirli ol...

Sonra neçə dəqiqələr keçdi və heç biri danışmadı. Hər ikisi susub, öz aləminə qapılmışdı.

Nəhayət, gənc kəşfiyyatçı Mahirənin, sanki sakitləşdiyini görüb, onu maraqlandıran sualı verdi:

- Burada azərbaycanlı əsir çoxdur?

- Bilmirəm... - Mahirə boğuq səslə dilləndi və başını astadan yellədi. - Ancaq biri var burada, adı Nadirdir, deyəsən. Bizim rayonda könüllülərdən düzəlmiş batalyonun fəallarından idi. Adını eşitmişdim. Tanıyırsız? Leopard başını buladı.



downloaded from KitabYurdu.org

- Hə... Bax onu neçə gündür həyətə çıxarıb, olmazın işgəncə verirlər... - Mahirə sözünə davam etdi. - Mən pəncərədən baxıb hər şeyi görürdüm. Bizim bayrağımızı yerə atıb, onu tapdalamağı əmr edirdilər. Ancaq o, bundan imtina edirdi. Nə qədər əzab versələr də, onların dediklərini eləmirdi. Dünən yenə çıxartmışdılar meydançaya... Yenə həmin
hərəkəti təkrar elədilər. Bayrağı qaldırıb öpdü, sonra sinəsinə basdı. Əlindən ala bilmirdilər bayrağı... O qədər döydülər ki, bədbəxti, daha ürəyim tab gətirmədi baxmağa...

- Başqa əsirləri görməmisən? - Leopard soruşdu.

-Yox, görmüşəm... Ancaq nə qədər olmaqlarını bilmirəm. Bir dəfə on nəfərdən çox əsiri gördüm. Beş-altı gün qabaq. Deyəsən, onları təzə gətirirdilər buraya.

- Bəs səni bu otaqda niyə saxlayırlar?

- Məni buraya o gətirdi...

-Kim?

- O da... O alçaq! Valeri... Onun istədiyini eləmək istəmədim. O da dedi ki, «Sən gec-tez mənim olacaqsan». Sonra da məni buraya qoyub
getdi. Tapşırdı ki, fikirləşim. Amma mən ölməkdən başqa heç nə fikirləşmirəm... Nə də fikirləşmək istəmirəm...

Bu vaxt pilləkənlə qalxan adamların səsi eşidildi. Onlar rus dilində danışırdılar. Mahirə sözünü kəsib, həyəcanla qapıya baxdı.

V

Qapı açıldı. Qabaqda Artur Saqiyan, arxasınca bir silahlı əsgər içəri daxil oldular. Artur Leopardın Mahirə ilə üzbəüz oturduğunu görüb, ucadan güldü:



downloaded from KitabYurdu.org

- Dərdləşirsiniz?

Ona cavab verən olmadı. Artur Mahirəyə tərəf gedib, yenə də azəri türkcəsində öz cır səsi ilə dedi:

- Fikirləşdin, gözəl xanım?

Mahirə qəfəsə salınmış qurd balası kimi fınxırıb həqarətlə düşməninə baxdı, amma ona cavab vermədi. Əvəzinə Leopard dilləndi:

- Vicdanın olsun, Artur, ona toxunma!

Artur ona tərəf çevrildi:

- Əvvəla, adımı səhv salma, mən Valeriyəm. Valeri Barsov! İkincisi də, bu mənim əsirimdir. Necə istəsəm elə də rəftar edərəm.

Leopard ona ikrahla baxıb başını yırğaladı:

- Bağışla, sənin bic doğulmağını unutmuşdum. Ancaq biz müharibə aparırıqsa, bizimkilərdən səngərdə nə qədər bacarsan, öldürə bilərsən. Əsirlərə işgəncə verməyə, ya da qadınların namusu ilə oynamağa isə haqqın yoxdur.

- Niyə? - Artur rişxəndlə soruşdu. - Erməni qızlarının namusu ilə az oynamısınız? Bunu kim bilməsə də mən ki bilirəm?!

- Bu olubsa da onların öz arzusuyla olub. - Leopard dedi. - Birdə ki öz qancıqlarınızı bizim qadınlarla müqayisə etmə!

- Niyə? - hövsələdən çıxmış Artur bağırdı. - Siz kimsiniz axı? Kimsiniz ki, özünüzü həmişə bizdən üstün tutursunuz? Hə?! Kimsiniz axı siz?!

Leopard ondan fərqli olaraq sakit cavab verdi:

- Bizim kimliyimizi indiyədək bilmirsənsə, göstərəcəyik sənə kimliyimizi!

Artur təpiklə Leopardın sinəsindən vurub, onu kürəyi


downloaded from KitabYurdu.org

üstə yıxdı.

- Sənin cərrahiyyə əməliyyatına ehtiyacın var, Alik! - dedi. - Bir azdan səni əməliyyat stoluna göndərəcəm. Ancaq köhnə yoldaşlığımız xatirinə əvvəlcə bir az kef verəcəm sənə. Canlı parnotamaşaya baxacaqsan burada!

Bunları deyib, özüylə gətirdiyi əsgərə baxdı:

- Bunu dikəlt, kürəyini söykə o divara. Qoy, rahat baxa bilsin.

Əsgər Leopardın bağlı ayaqlarına qorxu ilə baxıb, baş tərəfdən ona yaxınlaşdı. Çiyinlərindən yapışıb qarşı divara tərəf sürüdü. Kürəyini divara söykəyib, cəld kənara çəkildi.

Artur ona iztehza ilə baxıb:

- Nədən qorxursan, ay axmaq?! - dedi və Mahirəni göstərdi: - Gəl, aç bunun qollarını!

Əsgər iri, qatlama bıçağını çıxarıb Mahirəyə yaxınlaşdı. Dəhşətdən gözləri böyümüş qadın yerində çırpınmağa başladı:

- Mənə yaxın gəlmə!

Əsgər onun sözünə məhəl qoymayıb, yaxınlaşırdı.

- Toxunmayın mənə, it uşağı!

Artur Saqiyan iyrənc bir istehza ilə gah ürəyi sinəsinə sığmayıb partlamaq dərəcəsinə gələn qadına, gah da qollarındakı kəndirə güc verib, ayaqlarını döşəməyə vuran Leoparda baxırdı.

- Güllələyin, ancaq əl vurmayın mənə!

Əsgər bu sözlərə də əhəmiyyət vermədi.
Qadının saçlarından tutub başını aşağı əydi və qollarına bağlanmış kəndiri bıçaqla kəsdi. Mahirə son dəfə və bütün gücüylə:



downloaded from KitabYurdu.org

- Sizi görüm, qan qusasınız!!! - deyə çığırdı.
Bu zaman otaqdakıları, o cümlədən Leopardı da heyrətə salan bir hadisə baş verdi. Qolları azad olmuş Mahirə sıçrayıb, bu hücumu gözləməyən əsgərin əlindən bıçağı qapdı və bir an da tərəddüd etmədən, onu öz sinəsinə soxdu.

İrəli atılan Artur da bu hərəkətin qarşısını ala bilmədi. O, qadının sinəsindən fəvvarə vuran qanı görcək, əsgərin üstünə bağırdı:

- Maymaq oğlu maymaq, tez bunu əməliyyat otağına çatdır! Cəld ol!

Əsgər heyrətindən yerindəcə quruyub qalmışdı. Dodaqları səssizcə titrəyir, sanki nəsə pıçıldayırdı. Gözlərini yerdə, qan içində çapalayan qadına diksə də, özünü yuxuda hesab edirdi, elə bil.

- Eşitmirsən?!

Arturun səsi onu ayıltdı və o, yaralı qadını qucağına götürüb, tələsik otaqdan çıxdı. Onun ardınca gedən Artur qapıya çatanda dönüb Leoparda baxdı:

- Tamaşa baş tutmadı, Alik! Çox təəssüf!

- Sən bunun üçün cavab verməli olacaqsan, Artur! - Leopard düşməninin də təəccübünə səbəb olan bir sakitliklə dedi.

Artur güldü:

- İndi sən özün cərrahiyyə əməliyyatına hazırlaş. Mən sənin orqanlarına baxmaq istəyirəm. Xüsusilə də, ürəyinə. Mənim üçün çox maraqlıdır, görüm onda nə var ki, sən qorxub-çəkinmədən gəlib buraya çıxmısan.

Leopard eyni təmkinlə onun gözlərinin içinə baxdı:

- Başqa vaxt olsaydı, ürəyimdə çox şey görərdin.


downloaded from KitabYurdu.org

Ancaq indi sənə olan nifrətdən başqa heç nə görməyəcəksən onda...

Artur heç nə demədən otaqdan çıxıb, qapını çırpdı və onu arxadan bağlayıb getdi.

VI

Leopardın sakitliyi təbiətin fırtınaqabağı sakitliyini xatırladırdı. Ya, bəlkə də qəzəbinin, hiddətinin çoxluğundan sakitləşmişdi? Ya bəlkə də gördüyü hadisədən sarsılmışdı o?.. Hər nə isə, Artur otaqdan çıxandan sonra yenidən yaralı gürzə kimi yerində qıvrılıb, bədənini döşəməyə, divara çırpmağa başladı. Qollarının bütün əzələləri gərilmiş, gicgahlarındakı damarları şişib qabarmışdı.

Mahirənin öz namusunu qorumaq üçün etdiyi hərəkət gənc kəşfiyyatçıya hər şeyi - hətta buraya nə üçün gəldiyini və qarşıda onu gözləyən dəhşətləri belə unutdurmuşdu. Beynində yalnız bir fikir, bir məqsəd qalmışdı ki, o da intiqam almaq idi. Bu
namuslu azəri qızının intiqamını almaq istəyirdi. Ancaq qolları bağlı, ayaqları sarıqlı idi. Silahlı düşmənlərin əsirliyində, silahsız və çarəsiz bir vəziyyətdə idi.

Amma yox! Kifayət idi daha! Leopard razılaşmayacaqdı çarəsizliyi ilə! Taleyi belə yazılmışdısa, boyun əyməyəcəkdi bu taleyə!

Özünü sakitləşməyə məcbur edib, vəhşi baxışlarla otağa bir daha göz gəzdirdi. Bu dəfə, nədənsə, divardakı güzgüyə daha çox baxdı. Sonra isə bir anda ağlına gələn fikri həyata keçirmək üçün güzgüyə tərəf diyirləndi. Divara çatanda dikəlib, dizləri üstündə oturdu. Bədəninə dəyən zərbələrdən bütün əzaları ağrıyırdı. Qəzəbindən enli


downloaded from KitabYurdu.org

sinəsi aramsız olaraq qalxıb enirdi. Dayanıb yenə də bir qədər sakitləşməyini gözlədi.

Sonra bütün qüvvəsini toplayıb, bir sıçrayışla ayağa qalxmağa çalışdı. Buna nail ola bilsə də, özünü saxlaya bilməyib, böyrü üstə yerə sərildi. Ayaqları bir-birinə çox bərk sıxılıb bağlanmışdı. Qan dizlərindən aşağıda yaxşı işləmirdi. Ayaqlarının tamamilə keyləşib sıradan çıxmaması üçün ayaq barmaqlarını tez-tez oynatmağa məcbur olurdu. Belə vəziyyətdə ayağa qalxıb, müvazinəti saxlamaq o qədər də asan deyildi.

Dikəlib, təzədən dizi üstə oturdu. Bir an özünü toplayaraq, yenidən sıçrayıb, ayağa qalxdı. Bu dəfə yıxılmamaq üçün başını qarşısındakı güzgüyə söykədi. Bir az beləcə dayanıb, müvazinətini düzəltdi. Sonra başını geri çəkib, güzgüdə öz sifətinə baxdı. Güzgüdə gördüyü qəzəbli və nifrətli baxışlar az qala özünü də sarsıtdı. Daha vaxt itirmədən,
başını geri atıb, bütün qüvvəsi ilə güzgüyə zərbə endirdi. Zərbənin təsirindən güzgü parça-parça oldu. Lakin çərçivə iri xəncərləri xatırladan şüşə parçalarını sıxıb saxladığı üçün onlar yerə tökülmədilər...

Leopard başında kəskin ağrı hiss etdi. Beyni qüvvətlə uğuldamağa başladı. Başı dumanlandığı üçün, güzgünü ala-toran görürdü. Yıxılacağını anladı və daha heç nə düşünmədən, son gücünü səfərbər edib güzgüyə ikinci və daha qüvvətli zərbə endirdi. Güzgünün parçaları hamısı yerə töküldü. Alnından axan qan göz qapaqlarının üstündən süzülüb, sifətini buladı. Yenə müvazinətini saxlaya bilməyib yerə sərildi.

Beynində qədim türk nağaralarının səsi kimi ağır və


downloaded from KitabYurdu.org

gurultulu bir səs var idi. Ancaq nə yaxşı ki,
huşunu itirməmişdi. Ağlı üstündə idi. Yenə özünü sakitləşməyə məcbur etdi. Başqa çarəsi də yox idi. Nə qədər çılğın təbiətli olsa da, bu saat sakitlik və təmkinli davranış ona çox vacib idi.

Yerində fırlanıb güzgü qırıntılarının üstündə kürəyi üstə uzandı. Çiyinlərini döşəməyə basıb bədənini bir qədər qaldırdı və iti qırıntılardan birini əlinə götürdü. Əsl əzablı iş də bundan sonra başlandı. Böyrü üstə çevrilib, əlindəki güzgü parçasını, qollarını sıxmış kəndirə nə qədər sürtsə də, istədiyini əldə edə bilmirdi.

Nəhayət, yorulub əldən düşdü və böyrü üstə uzanıb qalmış halda nəfəsini dərib qarşısına göz gəzdirdi. Bundan sonra nə edəcəyini düşünməyə çalışdı. Ancaq bu zaman gözü otağın o biri başında, döşəmədəki kiçik qan gölməçəsinə sataşdı. Bu
Mahirənin qanı idi. Nə qədər özünü tox tutmağa səy göstərdisə də, alınmadı. Namuslu və günahsız el qızının başına gələn faciədən daha çox, onun intiqamını ala bilməməsi və özünün məğlubiyyəti Leopardı yandırırdı. Bu yanğı göz yaşlarına çevrilib sifətindən süzülür, sifətindəki qurumaq üzrə olan qana qarışaraq qızarıb döşəməyə tökülürdü.

Leopardın indiyə qədər ağladığı heç yadına gəlmirdi. Hətta bir dəfə, on ya da on bir yaşında Mixail onu hündür divara dırmaşdırarkən, divarın başından daş döşəməyə yıxıldı. Az qala öləcəkdi onda. Mixail onu güclə özünə gətirdi. Ancaq ayağa qalxan uşaq heç ağlamadı da. Təəccüblənən müəllimi onu Artura nümunə göstərdi: «Görürsən? - dedi. - Belə hündür yerdən yıxılıb, heç


downloaded from KitabYurdu.org

ağlamır.
Amma sən, bircə yerin qanayan kimi ağlayıb- sızlayırsan!»

Amma indi ağlayırdı Leopard. Ömründə görmədiyi, bircə saat əvvəl tanış olduğu Mahirə üçün ağlayırdı. Onu xilas edə bilmədiyi üçün, nəhayət, gec də olsa, onun intiqamını ala bilmədiyi üçün ağlayırdı...

Yenə də daxilindəki güc hesabına özünü ələ alıb, sakitləşdi və nə edəcəyini düşünməyə başladı. Bu zaman döşəməyə vurulmuş uzun taxtaların aralarındakı yarıqlar diqqətini cəlb etdi. Bu yarıqların eni bəzi taxtaların arasında bir santimetrə çatırdı.

Əlindəki güzgü qırığını belə yarıqlardan birinə salmağa çalışdı və çətinliklə də olsa buna nail oldu. Bu zaman şüşənin əlini kəsməsi onu heç narahat da etmədi.

Başını döşəməyə dirəyib, sinəsini yuxarı qaldırdı və körpü vəziyyətini aldı. Bundan sonra qoluna bağlanmış kəndiri güzgü qırığına sürtməyə başladı. Əsgərlər qollarını bağlayarkən onları bir- birinə elə sıxmışdılar ki, şüşə hərdən kəndirin əvəzinə qollarına sürtünürdü. Ancaq Leopard indi heç bir ağrı-filan hiss etmirdi. Beynindəki intiqam fikri bütün bədənini keyitmişdi, elə bil...

Axır ki, qolundakı kəndir didilib nazildi və nəhayət, qırıldı. Leopard kənara sürüşüb, kürəyi üstə uzandı. Kəndirdən azad olmuş qollarını yuxarı uzadıb, onlara tamaşa etdi. Didilmiş qolları qana bulaşmışdı. Keyləşmiş barmaqlarını, qollarını hərəkət etdirib, damarlarındakı qanın hərəkətini bərpa etdi. Sonra isə döşəmədə oturub güzgü qırığı
ilə ayağına sarınmış kəndiri kəsdi. Açılmış kəndiri kənara tullayıb ayaqlarını ovxaladı.


downloaded from KitabYurdu.org

Ayağa qalxıb, otaqda gəzişdi. Əlini alnına çəkdi. Başından axan qan dayanmışdı. Üzündəki qan izləri də quruyurdu. Çöl tərəfdən dəmir barmaqlıqlar vurulmuş pəncərəyə yaxınlaşıb, ehtiyatla həyətə boylandı. Həyətdə iki silahlı əsgər gəzişirdi. Buradan darvaza aydın görünürdü. Leopard bu darvazanın o tayında on beşə qədər əsgərin keşik çəkdiyini bilirdi. Darvazadan çıxıb, qaçmaq mümkün olmayacaqdı. Düşərgəni dörd tərəfdən əhatə edən hasar isə çox hündür idi. Hətta bəlkə iki adam boyu olardı. Hələ, üstəlik, hasarın başından bir qarış yuxarıdan bir qat tikanlı məftil çəkilmişdi.

Yerə tökülmüş güzgü qırıqlarından xəncər tiyəsinə oxşayan birini seçib götürdü. Yerə atdığı
kəndir parçasını qaldırıb, əlini kəsməmək üçün şüşənin enli tərəfinə doladı. Elə həmin tərəfini də əlində tutub gözləməyə başladı.

VII

Ona nə qədər uzun görünsə də, yarım saat, ya bir saat keçdi. Pilləkəndən danışıq səsləri gələndə cəld gedib qapının ağzında dayandı və əlində xəncər kimi tutduğu güzgü qırığını bərk-bərk sıxdı.

Qapı açıldı. Kandarda hündürboylu, saqqallı bir nəfər göründü. Onun da, onun arxasında dayanmış dazbaş, əyriburun erməninin də boynundan avtomat asılmışdı. Bunlar bayaq pəncərədən gördüyü əsgərlər deyildilər. Həyətin o biri başındakı birmərtəbəli, uzun binadan Leopardı aparmaq üçün gəlmişdilər.

Saqqallı ermıni yaraqlısı əsiri ayaq üstə görüb bir anlığa şaşırdı. Leopard elə həmin anda:

- Al gəldi, köpək oğlu! - deyib əlindəki uzun şüşə



downloaded from KitabYurdu.org

parçasını axıradək onun sinəsinə sapladı.

Kəskin və ətürpəşdirici xırçıltı səsi eşidildi. Leopard əlini geri çəkəndə tiyəni əvəz edən hissənin sınıb, büsbütün, düşmənin sinəsində qaldığını gördü. Bircə an, əlində qalmış şüşə parçasına baxıb, onu döşəməyə tulladı.

Vurduğu adam qapının ağzındaca yerə çökəndə, arxada dayanmış dazbaş avtomatını Leoparda tərəf çevirdi. Lakin qüvvətli gənc düşməninin atəş açmağına imkan verməyib, sol əliylə avtomatdan yapışdı və elə həmin anda da sağ əlinin pəncəsini onun sifətinə endirdi. Zərbə çox ani və qüvvətli alınmışdı. Geniş açılmış barmaqlarının ikisi rəqibinin gözlərinə düşdüyü üçün, Leopard onun göz gilələrinin necə töküldüyünü açıq-aydın gördü...

Bircə an da vaxt itirmədən, kor olmuş düşməninin avtomatını qapıb otaqdan çıxdı və pilləkənin başından həyətə tullandı. Həyətdə keşik çəkən iki əsgər onu görüb, nə baş verdiyini anlayana kimi, sərrast atdığı atəşlə ikisini də yerə sərdi.

Bu zaman açılmış dəmir darvazanın gurultusunu eşitdi. Buradan darvaza görünməsə də, keşikçi əsgərlərin həyətə daxil olduğunu başa düşdü. Cəld əks tərəfdəki hasara tərəf döndü. Durduğu yerdən oraya qədər otuz metr olardı. Sonra əlindəki avtomata baxdı. Yox!... Bu ona mane olacaqdı. Ona indi silahdan daha çox, yalın və qüvvətli pəncələri, bir də möhkəm ayaqları kömək edə bilərdi.

Avtomatı yerə atıb, sürətlə hasara doğru yüyürdü. Elə yüyürürdü ki, elə bil qarşısında uzun, çox uzun bir açıq yol vardı. Ancaq qarşısını kəsmiş
uca hasar onu lap yaxında gözləyirdi. O bu hasara çatanda ya dayanıb arxadan gələn düşmən əsgərləri tərəfindən



downloaded from KitabYurdu.org

yaxalanmalı, ya da qaçış sürətini azaltmadan ani sıçrayışla hasara dırmanmalı idi. Leopard bu yollardan ikincisini qarşıya məqsəd qoymuşdu. Ancaq bu məqsəd heç də arxadan gələn düşmənlərin qorxusundan irəli gəlmirdi. Gənc kəşfiyyatçının qəlbi alovlu intiqam hissilə dolmuşdu və bu güclü, cəsarətli gənc, nəyin bahasına olursa olsun, intiqam almağı qərara almışdı. İntiqam almaq üçünsə ilk və son dərəcə vacib mərhələ bu maneəni adlamaq idi. O, mütləq bu hasarı aşmalıydı!

Hasara çatıb ayağını ona vuranda güclü təkan Leopardı xeyli hündürə tulladı. O, elə həmin anda da, pəncəsini həqiqi leopard cəldliyi ilə hasarın başına keçirə bildi. Daha sonra qeyri-adi bir
qüvvənin təkanıyla bədənini yuxarı tullayıb ani göz qırpımında tikanlı məftilin üstündən aşdı və hasarın o biri tərəfinə düşdü.

Arxasınca atılan güllələrin bir neçəsi daş hasara dəydi. Daha çoxu isə hasarın üstündən uçub boşluğa istiqamətləndi.

Əsirin belə möcüzəli şəkildə yoxa çıxdığını görən əsgərlər, heyrətdən yerlərindəcə donub qaldılar. Sonra isə birinci olaraq özünə gəlib vəziyyəti anlayan komandirlərinin əmrilə darvazaya doğru yüyürdülər.

VIII

Hasarın çöl tərəfindən ensiz asfalt yol keçirdi. Bu yolun bir ucu Əsgərana gedən magistral yola qoşulurdu. Yolun o biri tərəfində ucu-bucağı görünməyən üzüm plantasiyası uzanıb gedirdi. Asfalt yolla hasarın arasında o qədər də dərin olmayan xəndək qazılmışdı. Onun içilə nazik su arxı gedirdi. Ətrafını gicitkən və başqa yabanı otlar basmışdı.


downloaded from KitabYurdu.org

Hasarın üstündən atılan Leopard həmin bu xəndəyin içinə düşmüşdü.

Cəld ayağa qalxıb, ətrafına boylandı. Bircə dəqiqə keçməmiş onu təqib edən əsgərlər görünəcəkdi. Gənc kəşfiyyatçının isə döyüşmək üçün silahı da yox idi. Bir də, lap olsaydı da, bu bir
xeyir verə bilməzdi. O, tamamilə, düşmənlərin əhatəsində idi. Onu tutub, əzab verə-verə öldürəcəkdilər.

Leopard əsir düşərgəsindən qaçarkən daha sonra nə edəcəyini düşünməmişdi. İlk məqsədi bu hasardan kənara çıxmaq idi ki, ona da nail olmuşdu. İndi isə çox kiçik zaman anında nə edəcəyini, onu təqib edənlərdən necə yayınacağını düşünüb tapmalı idi. Əvvəlcə istədi ki, yolu keçib üzüm tənəklərinin arasında gizlənsin. Amma tez də anladı ki, orada uzun müddət gözdən yayına bilməyəcək. Qabağa yüyürüb maşınların çox seyrək hərəkət etdiyi yolun düz ortasında dayandı. Qabağından keçib Əsgəran istiqamətində gedən birinci maşını buraxdı. Bu, minik avtomobili olsa da, adamla dolu idi və pəncərələri bağlanmışdı. Saniyələr keçdikcə
Leopardın narahatlığı artırdı. Amma ikinci maşını da buraxmalı oldu. Bunun da sürücüsü şüşələri qaldırmışdı. Günəşli hava olmasına baxmayaraq, payızın soyuğu özünü göstərirdi. Saniyələr isə ötürdü. Leopard boylanıb arxaya baxdı. Əsgərlər hələ görünmürdülər. Yenə qabağa döndü və «Jeep» markalı, qara rəngli bir maşının ona çatmaq üzrə olduğunu gördü. Sükan arxasında oturmuş sarışın, gənc qız dirsəyini açıq pəncərədən çölə çıxartmışdı.

Leopard cəld irəli atılıb qızın biləyindən yapışdı və bir neçə metr maşının getdiyi istiqamətdə qaçdı. Bu çox ani


downloaded from KitabYurdu.org

baş verdi. Biləyi geriyə qanrılan qız çığırdı və qolunu sınmaqdan qorumaq üçün, qeyri- iradi olaraq əyləci basdı. Asfalta sürtünən təkərlər kəskin səs çıxarıb dayandı. Bundan istifadə edən

Leopard arxa qapını açıb içəri atıldı. Qapını bərk çırpıb:

- Sür! - deyə əmr etdi. - Dayansan, özünü ölmüş bil!

Qız, deyəsən, bərk qorxmuşdu. Belə qeyri-adi hərəkətlə maşını saxlayıb, özünü içəri salan, erməni dilində danışan və onu ölümlə hədələyən bu gənc silahsız idi. Amma o, sol əlinin pəncəsilə qızın zərif boğazından yapışmışdı. Tabe olub, maşını hərəkətə gətirdi. Yalnız bundan sonra əliylə oğlanın barmaqlarını boğazından ayırmağa çalışdısa da buna nail ola bilmədi. Bu barmaqlar çox güclü idi və qızın boğazını dəmir məngənə kimi sıxırdı.

- Boğuluram, əlini çək! - deyə yalvardı.

Leopard barmaqlarını bir qədər boşaldıb, arxaya baxdı. Silahlı gözətçilər yolu keçib, üzümlüyə girirdilər. Demək, onun maşına mindiyini görə bilməmişdilər. Bir qədər arxayınlaşıb, qabağa döndü:

- Bir az sürəti artır!

Qız onun göstərişinə əməl edib:

- Sən kimsən? - deyə soruşdu.
- Azərbaycanlıyam. - Leopard cavab verdi.
- Türksən?

-Hə!

- Əsirlikdən qaçmısan?

-Hə!

Qız daha sual verməyib, susdu. Maşının güzgüsündə oğlanı diqqətlə gözdən keçirirdi. Vəhşi baxışları ilə hey qabağa boylanan Leopardın alnında və sifətində quruyub



downloaded from KitabYurdu.org

qalmış qan ləkələri onu əcaib göstərsə də, boy-buxunu, yaxası açıq, cırıq
köynəkdən görünən enli sinəsi və nəhayət, etdiyi cəsarətli hərəkət qızın xoşuna gəlmişdi.

O, Amerika universitetlərinin birində iqtisadiyyat fakültəsini bitirib, Xankəndiyə yenicə qayıtmışdı. Uşaqlıq illərində türklərin vəhşilikləri barədə valideynlərindən eşitdiyi uydurmalar yaddaşında iz qoysa da, xaricdə keçən təhsil illəri onun bu millətə olan nifrətini bir qədər zəiflətmişdi. Ancaq pəncəsini onun boğazına keçirən bu gənc, hər necə olsa, düşmən idi və onu öldürə bilərdi. Gözucu sağ tərəfindəki oturacağın üstünə atdığı çantasına baxdı. Çantada dolu tapança var idi. Əgər onu götürə bilsəydi, yəqin ki, bu adamın caynağından qurtara bilərdi. Əlini uzadıb çantanı götürdü. Həmin an Leopard onu qızın əlindən aldı və:

- Sənə nə lazımdır? - deyə soruşdu.

- Orada nəm salfetkalar var... - qız tərəddüdlə dedi. - Götürün, üz-gözünüzün qanını silin!

Leopard çantanı açdı. Oradakı kiçik tapançanı görüb, mənalı nəzərlə qıza baxdı və silahı götürüb yanına qoydu. Sonra qızın boğazını buraxıb, laqeyd səslə soruşdu:

- Məni vurmaq istəyirdin?

- Mən heç vaxt adam öldürməmişəm... - qız pərt halda cavab verdi. - Ancaq düzünü desəm, özümü xilas etmək istəyirdim. Axı...

- Sənin adın nədir? - gənc kəşfiyyatçı onun sözünü kəsdi.

- Nona, - qız dedi. - Mən, neçə illərdir ki, Amerikada təhsil alırdım. Buraya yeni qayıtmışam. Bu müharibənin



downloaded from KitabYurdu.org

niyə başlandığını, əslində, anlaya bilmirəm...

Birdən qarşıdakı hərbi postu görən Leopard tapançanı götürüb, aşağı yatdı:

- Məni ələ verməyi ağlına gətirmə!

- Elə bir fikrim yoxdur. - Nona narahat halda dilləndi.

Bir neçə üzücü dəqiqə keçdi. Qız titrək səslə:

- Daha qalxa bilərsən! - dedi.

Leopard qalxıb yerində oturdu və arxaya boylandı. Hərbi post artıq uzaqda qalmışdı.

- Bizi niyə saxlamadılar? - deyə sual verdi. Nona bir qədər gec dilləndi:

- Mənim atam generaldır. Maşını tanıyırlar... Leopard buna sevinib, bir qədər rahatlaşdı:

- Kimdir sənin atan?

- Sarkis Karapetyan - Nona cavab verdi və arxaya döndü: - Siz məndən nə istəyirsiniz? Haraya qədər aparmalıyam sizi?

- Sən özün hara gedirdin? - Leopard suala sualla cavab verdi.

- Ağdama. Atam oradadır.

- Elə məni də oraya qədər aparacaqsan. Sərhəd postuna qədər.

- Bizi oraya yaxın buraxmazlar. - Nona qətiyyətlə dedi.

- Buraxarlar!

Leopard bunu deyib bir qədər susdu və fikirləşdi ki, onu təqib edənlər hansısa maşını saxlatdırıb mindiyini anlayacaqlar. Deməli, məlumat verilən kimi yol boyu daha ciddi nəzarət postları qurulacaq. Qabaqdan sağa burulan yola işarə edib:

- Məncə bu yol Ağbulağa getməlidir, - dedi.


downloaded from KitabYurdu.org

- Hə, - qız cavab verdi.
- Döndər maşını oraya!

- Siz nə etmək istəyirsiniz? - Nona təəccübləndi.

- Sən, nə əmr edirəmsə, ona əməl et! - Leopard acıqlandı.

Nona maşını döndərib Ağbulaq kəndinə gedən yola saldı. Dolama yollarla bir xeyli gedib dövrə vurdular və yenə Əsgəran - Ağdam yoluna çıxdılar. Yol boyu iki dəfə maşını saxlamışdılar. Nona atasının yanına getdiyini söyləyən kimi ona uğurlu yol arzulayıb, kənara çəkilirdilər. Artıq Ağdam şəhərinə yaxınlaşmaq üzrə idilər. Bura da bir qədər əvvəl ermənilər tərəfindən işğal olunmuşdu.

Leopard buralardan birinci dəfə keçirdi və doğma vətəninin gözəl mənzərələrinə - dağlarına, meşələrinə fərəhlə baxırdı. Eyni zamanda, bu
yerlərin düşmən əsarətində olması onu hiddətləndirirdi:

- Alacağıq! - deyə qəfil dilləndi. - Bu torpaqların hamısını geri alacağıq!

- Bəs deyilmi bu döyüşlər, tökülən qanlar? - Nona arxaya boylanıb məzəmmətlə dedi. - Amerikada bütün millətlər bir yerdə mehriban yaşayır. Olmazmı ki, biz də mehriban qonşuluq edək?

- Bütün bu olanlardan sonra? - Leopard istehza ilə dilləndi. - Bizimkiləri öz doğmaca torpaqlarından qovdunuz, bu azmış kimi gəlib buraya qədər soxulmuşunuz!

Nona onu əsəbiləşdirməmək üçün sülh yolunu tutmağı qərara aldı:

- Bizim hamımız günahkar deyilik ki, bu işlərdə?! Mən



downloaded from KitabYurdu.org

şəxsən istəməzdim, bizimkilər türkləri qırsın, torpaqlarından qovsun. Axı yazıq türklərin nə günahı var?

Hiddətlənmiş gənc yenə də onun boğazından yapışdı, ancaq tez də peşman olub əlini geri çəkdi:

-Əgərqadın olmasaydın...

Qorxudan rəngi ağarmış Nona kəkələdi:

-Axı... axı mən nə dedim?..

- Bunu yadında saxla, - Leopard dodaqlarını gəmirdi. - Biz heç vaxt yazıq olmamışıq, olmayacağıq da! Yazıq sizin millətdir. Ona görə yazıqdır ki, heç vaxt üzbəüz döyüşə bilməyib. Tarix boyu, aramızda nə qədər açıq döyüş olubsa, biz qalib gəlmişik. Siz isə, həmişə arxadan zərbə vurmaqla, dinc, əliyalın, silahsız adamlara, qadınlara-uşaqlara divan tutmaqla öyünmüsüz! Onu da bil ki, biz hələ sizinlə müharibəyə başlamamışıq. Əgər başlasaq, heç ola bilməz ki, bu müharibə bizim qələbəmizlə başa çatmasın!

- Amma... hər halda, sizinkilər də qırıb erməniləri... - Nona qorxa-qorxa dilləndi.

- Ona qırmaq demirlər, ay qız! Ona xəyanətlə arxadan zərbə vurana qulaqburması vermək deyirlər. Türklər ermənilərə o vaxt əl qaldırıblar ki, onun cinayətinin cəzasını vermək məqamı gəlib. İndi əsl yazıq vəziyyətində olan sizsiniz. Çünki bu dəfəki cinayətlərinizin cəzası daha böyük olacaq!

- Necə? - Nona sakitcə soruşdu.

- Məndən soruşursansa, - Leopard da sakitcə cavab verdi. - Aldığınız torpaqları geri qaytarıb, tövbə etməsəniz, içinizdə erkək cinsindən bir nəfər də sağ qoymayacağıq. Siz də gedib, başqa millətdən



downloaded from KitabYurdu.org

özünüzə kişi axtaracaqsınız.

Nona əvvəlcə bu sözlərdən diksindi. Sonra isə, nə düşündüsə, güzgüdən süzgün baxışlarla baxıb dilləndi:

- Təsəvvür edin ki, elə olub. Mən də özümə sizi seçmişəm. Qəbul edərdiniz?

- Yox! - gənc başını buladı.

- Niyə axı mən pisəm? - qız işvə ilə geriyə boylandı.

- Xarici görkəmcə, bəlkə də yox. Ancaq bizimkilərə çata bilməzsən. Üstəlik də daxiliniz bir şey deyil sizin!

- Niyə? - Nona pərt oldu.

- Çünki nankorsunuz, xəyanətkarsınız, riyakarsınız. Mən, şəxsən belə xarakterli qadınlara
heç vaxt yaxın durmaram.

Nona daha dinmədi. Gəlib Ağdama çatmışdılar. Burada da maşını saxlayan olmadı. Leopardın əmri ilə şəhərdən çıxıb, sərhəd postu qurulmuş kəndə doğru yol aldılar.

Leopard susub fikrə getmişdi. Xankəndidə qoyub gəldiyi Mahirə haqqında düşünürdü. Əslində heç bir an da beynindən çıxmamışdı bu qadın... «Görəsən, onun başına nə gəldi? - deyə düşündü. - Öldümü?.. Ya xilas edə bildilərmi onu? Amma kaş öləydi!.. Ölüb qurtulaydı o namussuz əclafın əlindən...»

Sonra Nadir adlı o oğlan haqqında fikirləşdi: «İndi daha ağır işgəncələr verəcəklər ona... Yenə bayrağı tapdalamağını istəyəcəklər... Yenə yerdən qaldırıb öpəcək... Yenə döyəcəklər onu... Yenə...»

Qabaqda sərhəd postu göründü. Yolda xeyli silahlı erməni əsgəri vardı. Leopard maşını saxlatdırdı:

- Saxla, keç sağda otur!

Nona maşını saxlayıb təəccüblə ona baxdı:



downloaded from KitabYurdu.org

- Nə etmək istəyirsiniz?

- Postu maşınla keçəcəyəm! - Leopard sakitcə dilləndi.

- Bəs mənim maşınım?

- Qorxma, qaytaracam maşınını.

- Necə axı?

- Görəcəksən.

- Onlar səni vurarlar... - Nona deyəsən onun vurulmağını doğrudan da istəmirdi.

- Vurmazlar, - Leopard dedi. - Bir də ki, sən yanımda olacaqsan.

- Bəs məni burada düşürtməyəcəksiniz? - qız heyrətləndi.

- Yox! Amma qorxma, səni sağ-salamat geri qaytaracam.

- Qorxuram... - Nona başını silkələdi.

- Qorxma, biz qadınları öldürmürük, - yenə Mahirəni xatırlayıb, hiddətləndi. - Nə deyirəm, ona əməl et! Keç sağa!

Nona əmrə tabe olub sağdakı oturacağa keçdi. Leopard sükanın arxasında oturub, maşını hərəkətə gətirdi və posta lap yaxınlaşdılar. O istəyirdi ki, postda dayananlar Nonanı yaxşı görsünlər. Elə də oldu. Postda dayanmış əsgərlərin komandiri nəinki Nonanı gördü, hətta onu tanıdı da! Əlini hörmətlə qaldırıb, maşını saxlamaq işarəsi verdi.

Ancaq qara rəngli «Jeep», birdən-birə yüksək sürətlə irəli şığıdı. Yolun ortasında dayanmış əsgəri kənara tullayıb postu keçdi. Əsgərlər sürətlə gedən maşını arxadan atəşə tutdular.

Leopard sükandan bərk-bərk yapışıb bütün diqqətini yola vermişdi. Maşın kələ-kötür və narahat yolda atılıb



downloaded from KitabYurdu.org

düşür, güllələrdən yayınmaq üçün manevrlər edərək sürətlə irəliləyirdi. Nonanın rəngi qorxudan ağappaq ağarmışdı. O, sanki qorxulu bir yuxu görürdü və bu yuxunu sonralar da, ömrü boyu unutmayacaqdı.

İndi isə, arxadan açılan atəşlər ara vermirdi. Amma generallarının qızının maşında olduğunu bilən ermənilər bir qədər cəsarətsiz atəş açır, qıza ziyan yetirə biləcəklərindən qorxurdular.

Əsgərlərin bir neçəsi, nisbətən daha cəsarətli olanları, qeyrətə gəlib, Leopardı maşınla təqib etmək istədilər. Lakin çox tez də fikirlərindən daşınıb geriyə qayıtmalı oldular. Çünki Azərbaycan ordusunun mövqelərindən onları atəşə tutmağa başladılar. Azərbaycan əsgərləri Leopardın sürdüyü maşını görmüşdülər. Onlar bu maşında kimin və nə məqsədlə gəldiyini bilməsələr də onun öz mövqelərinə yaxınlaşmağına imkan yaratmağa çalışırdılar. Aləm bir-birinə qarışmışdı. Bundan istifadə edən Leopard maşını Azərbaycan ordusu mövqelərinin yerləşmiş olduğu təpənin altındakı meşəliyə saldı.

IX

Maşını qol-budaqlı bir palıd ağacının altında saxlayıb dərindən nəfəs aldı. Bəli!... Qurtardı! Heç inanmağı gəlmirdi ki, üç-dörd saat əvvəl əlləri, qolları bağlı vəziyyətdə, düşmən əsirliyində idi və xilas olacağına elə bir ümid də görmürdü. İndisə, budur, tamamilə azadlıqdadır! Azadlıqda! Bu ki, möcüzə idi?! Bu ki, ən böyük xoşbəxtlik idi?!

Amma... Görəsən, bəs niyə ürəkdən sevinə bilmirdi Leopard? Nə idi bu azadlıq sevincinə mane olan? Nə idi onun içini göynədən bu boşluq?



downloaded from KitabYurdu.org

Birdən-birə anladı ki, onun azadlıq sevincinə zəhər qatan Mahirə adlı o namuslu qadını xilas edə bilməməsi, intiqamını layiqincə ala bilməməsi və nəhayət, ölübsə meyitini düşmənlərin əlində qoyub gəlməsidir. Birdə ki, Nadir adlı o qəhrəman əsgər... O da qəddar yağıların əlində qalmışdı və onu bu gün, ya da sabah işgəncə verə-verə öldürəcəkdilər yəqin ki... Leopard isə yalnız öz canını xilas etmişdi... İstəyirdi özünə haqq qazandırsın, nə vaxtsa Mahirənin intiqamını almaq üçün özünü xilas etməyin zəruri olduğuna özünü inandırsın. Amma alınmırdı ki, alınmırdı! Heç ömründə özünü bu qədər təhqir olunmuş hiss etməmişdi Leopard!..

- Nə fikirləşirsiniz? - yanında oturmuş Nona qəfil soruşdu.

Daxilində sanki fırtına baş qaldırmış gənc dönüb ona baxdısa da, cavab vermədi. Heç vaxt üzünü görmədiyi o oğlanı gözləri önünə gətirmişdi. Nadir yerə atılmış bayrağı götürüb bərk-bərk sinəsinə basırdı. Qana bulaşmış bayrağı əlindən almaq üçün vəhşicəsinə təpikləyirdilər bədbəxti...

- Mən geriyə qayıda bilərəmmi? - qız bir qədər ucadan dilləndi.

Leopard onun gözlərinə baxdı. Bu gözlərin dərinliyindəki qorxu və həyəcanı görməmək mümkün deyildi. Bəli, bu qız bu saat onun əsiriydi. General Karapetyanın qızı...

Qəti qərara gəlib maşından düşdü. Yük yerinin qapağını qaldırıb, oradan nazik, uzun kəndir topasını götürdü. Sağ tərəfdən qapını açıb, sakit, həm də qətiyyətli səslə:



downloaded from KitabYurdu.org

- Düş! - deyə qıza əmr etdi.

Heç nə anlamayan Nona onun əlindəki kəndirə təəccüblə baxıb, maşından çıxdı:

- Siz nə etmək istəyirsiniz?

Leopard heç nə demədən qızın qollarını tutub arxasına qatladı və onları kəndirlə bir-birinə bağladı.

- Axı mən sizə nə pislik etmişəm? - Nona kövrəldi. - Buraxın məni, xahiş edirəm!

- Mən də sənə pislik etmək fikrində deyiləm. - Oğlan onu palıd ağacının gövdəsinə tərəf çəkdi. - Sakit olsan, tezliklə atanın yanında olacaqsan.

Sonra onu ağaca bağladı.

- Uzağı dörd saat sonra azad edəcəm səni, - dedi. - Əgər qayıda bilsəm...

- Siz hara gedirsiniz? - Nonanın gözlərindən yaş süzülməyə başladı.

Leopard cavab vermədi.

- Birdən qayıda bilmədiniz?..

- Qayıda bilməsəm, qurda-quşa yem olarsan. - Leopard istehza ilə dedi. - Ya da bizimkilər gəlib aparar səni. Onlar lap yaxındadırlar.

- Onlar məni neyləyəcəklər? - qız sadəlövhlüklə soruşdu.

- Daha orasını deyə bilmərəm!

Leopard kinayə ilə cavab verib, maşına tərəf addımladı. Sükanın arxasında oturub, fikirli halda açardan tutdu. Edəcəyi hərəkəti son dəfə götür-qoy etmək istəyirdi. Ancaq tez də fikrindən daşındı. Heç nəyi götür-qoy etmək lazım deyildi! Bir şeyi ki, qərara almışdı, deməli, onu yerinə yetirməliydi. Ya o oğlanı azad etməli, ya da



downloaded from KitabYurdu.org

ölməliydi. Yoxsa ömrü boyu xəcalətlə yaşayacaqdı.

Açarı burub mühərriki işə saldı. Elə həmin anda da Nonanın qışqırığını eşitdi:

- Yalvarıram sizə, məni belə qoyub getməyin, azad edin məni!

Maşını meşədən çıxarıb asfalt yola saldı. Sonra isə sürəti artırıb düşmən mövqelərinə tərəf sürməyə başladı.

Son dərəcə sakit idi. Onda bayaqkı qəzəbdən, təlatümdən, qızğınlıqdan əsər-əlamət qalmamışdı. Ölümlə barışıb, onu qəbul edəndə, adətən, belə olur. Leopard da barışmışdı ölümüylə. Bu saat öz gələcəyi barədə heç nə düşünmürdü və düşünmək də istəmirdi.

Bayaqkı maşının indi geriyə qayıtdığını görən Azərbaycan tərəfi onu atəşə tutmağa başladı. Güllələr maşının ətrafında səpələnirdi. Bir neçəsi, hətta dəydi də maşına.

Ermənilər də cavab atəşi açdılar. Yenə avtomatların, pulemyotların taqqıltısı aləmə yayıldı. Bu dəfə, təbii olaraq, onu erməni tərəfi qoruyurdu.

Onlar generalın qızının geri qayıtdığını zənn edirdilər.

Qorxulu sahəni arxada qoydu. Bir təpənin arxasına burulmaqla, özününkülərin gözündən yayındı. Qarşıda erməni postu görünürdü. Sürəti bir qədər azaltdı. Maşın posta çatıb dayandı. İyirmidən çox düşmən əsgəri avtomatlarını ona tuşlamışdı. Hamısı gözlərini nifrət və həyəcanla, sanki qurd ürəyi yemiş bu gəncə dikmişdi.

Leopard qapını açıb maşından endi. Əllərini yuxarı qaldırıb yenə yanına salaraq ucadan:

- Mən silahsızam! - dedi.

- Qızı neylədin əclaf?! - Onu əhatə edənlərin başçısı



downloaded from KitabYurdu.org

olan arıq, qarayanız erməni qəzəblə soruşdu.

Onlar maşını və onun içində gördükləri Nonanı tanıdıqları üçün bu barədə artıq qızın atasına xəbər göndərmişdilər. General Karapetyan indicə buraya gəlməli idi.

Leopard əsgərləri təmkinli nəzərlərlə süzüb dilləndi:

- General Karapetyanın qızı bizim əsirimizdir. Uzağı dörd saata sağ-salamat və istədiyim kimi geriyə qayıtmasam onu öldürəcəklər!

- Nə istəyirsiniz? - başçı səsinin tonunu bir qədər aşağı saldı.

- O barədə atası ilə danışmaq istəyirəm.

Buradakılar Karapetyana tabe idilər və ondan bərk qorxurdular. Onun qızının həyatı ilə risk etməyi ağıllarına belə gətirmirdilər. Amma buna baxmayaraq, komandir yenə də hirsini boğa bilmədi

- İndi səni burada elə hala salarıq ki, haraya gəldiyini və nə etmək istədiyini yaxşıca anlayarsan, köpək oğlu!

Leopard qırx yaşlarında olan, amma sifəti əcaib qırışlarla dolmuş komandirə istehza ilə baxdı:

- Mən generalla danışmaq istəyirəm. Şərtlərimi də ona deyəcəm. Amma elə eləmə ki, bu şərtlərə yeni maddə əlavə edim.

- Nə maddə?! - komandir çığırdı.

- Generala deyərəm ki, əlavə olaraq, onun gözü qarşısında səni təpiyimin altına salmağa icazə versin.

Komandir əlini böyrünə aparıb tapançasını çıxartdı. Amma nə düşündüsə, tez də onu yerinə qoydu və hirsindən fısıldayıb kənara çəkildi. Leopard rişxəndlə başını bulayıb əsgərlərə göz yetirdi:


downloaded from KitabYurdu.org

- Yaman dəlisov komandiriniz var. Hiss olunur ki, bu anadan olandan doqquz ay əvvəl anası bizimkilərdən kimisə yoldan çıxarıb.

Nə edəcəklərini bilməyən əsgərlər silahlarını ona tuşlayıb dayanmışdılar. Əllərində odlu silahın olmasına baxmayaraq, bu silahdan istifadə etməyə ixtiyarları olmadığını başa düşür və odur ki, qarşılarında dayanmış üst-başı cırıq, alnında qanlı çapıq yeri olan bu ucaboy gəncə bir qədər qorxu hissilə baxırdılar.

- Generalı çağırın, vaxt gedir! - Leopard dilləndi.

- O, indi buraya gələcək, - əsgərlərdən biri astadan dedi.

Doğrudan da, az keçmiş, general gəlib çıxdı. Bu, əlli yaşlarında, orta boylu, sərt şimalı bir kişi idi.

Onu bir neçə maşın müşayiət edirdi. Maşından düşən kimi, əsgərlər geri çəkilib ona yol verdilər. General Leoparda yaxınlaşdı və:

- Qızımı sən əsir götürmüsən? - deyə soruşdu.

- Hə! - Leopard cavab verdi. - Şərtlərim yerinə yetirilməsə, bu gün saat yeddidə onu öldürəcəklər.

- Nədi şərtləriniz? - generalın qaşları çatıldı.

- Birinci şərtim odur ki, Xankəndidə Nadir adlı əsir var, onu sağ-salamat mənə verməlisiniz!

- Orada elə əsir yoxdur! - general özündən çıxdı.

- Var! - Leopard sakitcə cavab verdi. - Xaçikyanın komendant olduğu düşərgədədir.

- O ölüb! - general əsəbini boğa bilmirdi. - Meyitini verə bilərik!

- Nə olar?! - Leopard çiynini çəkdi. - Biz də qızınızın meyitini verərik.



downloaded from KitabYurdu.org

General məsələnin ciddiliyini sanki indi dərk etdi. Saatına baxdı. Artıq saat dördün yarısı idi. Deyilən vaxta üç saat yarım qalırdı.

- Yaxşı, biz onu verərik, - dedi. - Daha nə şərtiniz var?

- Bir də həmin düşərgədə Mahirə adlı gənc qadın var...

General yanında dayanmış zabitə tərəf döndü Zabit onun qulağına nəsə pıçıldadı. Karapetyan bundan sonra qəribə nəzərlərlə Leoparda baxdı:

- O bu gün intihar edib. Özünü vurub...

- Onda cəsədini verin! - Leopard qəzəbləndi. Yoxsa qızınızı bir də heç vaxt görməyəcəksiniz!

- Verərik, - general əlini yellədi. - Onu da verərik. Ancaq mən necə inanım ki, siz qızımı salamat qaytaracaqsınız? Gedin, qızı gətirin, onları burda dəyişək. Axı biz həmişə əsirləri belə dəyişmişik?!

Leopard başını buladı:

- Mən bu qaydanı pozuram! İstəyirəm ki, təcili olaraq, Nadiri və o qadının cəsədini buradaca mənə verib, maşınla geri qayıtmağıma şərait yaradasınız. Belə olarsa, qızınızı dərhal qaytarmağa söz verirəm. Yoxsa...

- Yəni indi sözün bir qiyməti varmı? - general kinayə ilə dedi.

- Bizdə var! - Leopard cavab verdi. - Amma sizdə, bilmirəm...

Çarəsiz qalmış general yanındakı zabitə üz tutdu:

- Deyilənləri dərhal buraya gətirin! Geciksəniz, özünüzdən küsün!

Zabit cəld əl-ayağa düşüb, daha iki nəfəri özüylə götürdü və gəldiyi maşına minib yola düşdülər.

General isə Leopardı həqarətlə süzüb, öz maşınının



downloaded from KitabYurdu.org

yanına getdi. Çox narahat görünür, tez-tez qolundakı saata baxırdı.

O, qızını çox sevirdi. Hətta oğlu Eduarddan da çox! Nona Amerikada olanda onunla bircə gün danışmasaydı özünə yer tapa bilmirdi. Elə qızı da, anasından daha çox ona meyl edirdi. Bütün dərdini- sərini, sirrini ona açırdı həmişə...

Generalı çıxmaq şərtilə, buradakıların hamısı üçün dəqiqələr çox ağır ötürdü. Əsgərlər, əlləri tətikdə, qarşılarında durmuş düşmən kəşfiyyatçısına baxmaqdan bezmişdilər.

Leopard isə, hələlik, səbirlə gözləyirdi. Artıq hər şeyin yoluna düşdüyünü hiss etdiyi üçün bir o qədər də narahatlıq keçirmirdi. Ancaq Mahirənin də surəti yadından çıxmırdı. Onun sinəsindən fəvvarə vuran qanı və özünü vurandan sonra Leoparda zillənmiş son baxışlarını xatırlayanda qəzəbindən dişlərini bir- birinə sıxırdı. Heyif ki, onun intiqamını layiqincə ala bilmədi. Heyif ki, Artur Saqiyanla üzləşə bilmədi düşərgədən qaçanda. Yoxsa Mahirənin də, qarnı cırılıb bağırsaqları çıxarılmış uşağının da intiqamını alardı ondan. Heyif!

Karapetyanın narahatlığı getdikcə artırdı. Bir yerdə dayana bilməyib gəzişir, tez-tez saatına baxırdı.

Leopard indi arxasını Nonanın maşınına söykəyib dayanmışdı. Səhər yediyi bir tikə çörəyin üstündə idi. Üstəlik də bədəninin ağrıları, yorğunluğu... Amma bunlar onun o qədər də gözündə deyildi. Vaxt ötdükcə artıq o da narahat olmağa başlayır, «Bunlar harada qaldılar?» - deyə düşünürdü.

Nəhayət, Ağdam tərəfdən gələn üç maşın göründü.



downloaded from KitabYurdu.org

Onlar gəlib postda dayandılar. Leopard maşınların birindən düşürülən azərbaycanlı əsir oğlanı görəndə sevindi. Bu, yəqin ki, o idi... Nadir... O, çox çətinliklə yeriyirdi. Verilən işgəncələrin təsiri üz-gözündən də hiss olunurdu. Başqa bir maşından düşən Artur Saqiyanı görəndə isə Leopardın qanı yenidən qaraldı.

Artur generalın adamlarından bir qədər kənarda durub, uşaqlıq yoldaşına qəzəblə baxırdı. İmkanı olsaydı, onu parça-parça edərdi bu saat. Elə Leopardın da imkanı olsaydı, yəqin ki, belə edərdi.

Əsir oğlanı ona tərəf itələdilər.

- Nadir sənsən? - Leopard öz doğma dilində soruşdu.

- Hə, qardaş! - Oğlan cavab verdi. Onun gözlərində kədərlə qarışıq sevinc və ümid oxunurdu.

Leopardın bir gözü qara, uzun, yanları örtülü maşında qalmışdı. Dodaqları həyəcandan əsirdi. Buna baxmayaraq, bu oğlanı sınamaq qərarına gəldi:

- Bunlar sənə bayrağımızı tapdamağı əmr edəndə nə edirdin?

- Onu yerdən qaldırıb öpürdüm! - Oğlan qürurla dedi.

- Keç maşında otur! - Leopard əliylə «Jeep»i göstərdi. Nadir ağır addımlarla sağ tərəfdən maşına yaxınlaşıb, qabaqda oturdu. Bu zaman yanları örtülü maşından xərəkdə parçaya bükülmüş bir cəsəd çıxartdılar.

Leopard cəsədin həqiqətən Mahirənin olub- olmadığını bilmək üçün yaxınlaşıb, baş tərəfdən parçanı araladı. Sanki ağır bir qaya uçdu onun başına. Gördüyü dəhşətin ağırlığından beli əyildi sanki... Mahirənin özünü vurandan sonra ona baxan lal baxışlarını xatırladı yenə... O ala gözlərin kədərini xatırladı. Amma indi o gözlər yerində


downloaded from KitabYurdu.org

yox idi! Çıxartmışdılar o gözləri!

Leopardın üzündə necə bir əzab nişanəsi görmüşdülərsə, əsgərlərin də bir neçəsi sarsılmışdı bu mənzərədən. O, başını qaldırıb adamların arasında Arturu aradı və sonsuz bir nifrətlə baxdı ona. Artur bu baxışların mənasını başa düşüb, ucadan dilləndi:

- O öz gözlərini sənin vurub kor elədiyin adama bağışladı, Alik!

Leopard bir sıçrayışla irəli atılıb onu vurmağa cəhd etdi. Amma həmin anda silahlı əsgərlər canlı hasar kimi aranı kəsdilər. Gənc kəşfiyyatçı dişlərini qıcayıb generala baxdı və əliylə Arturu göstərib:

- Mən bunu da sizdən istəyirəm, general! - dedi.

Artur bu sözlərdən bir qədər qorxuya düşüb, geri çəkildi və öz maşınına yaxınlaşdı.

- Mən onu tələb edirəm! - Leopard çığırdı.

- Sən şərti pozursan, əsgər! - general əsəbiləşdi. - Bir də ki, o bizə tabe deyil.

Amma Artur vəziyyətin ciddiləşdiyini anlayıb maşınına oturdu və onu döndərib Ağdam istiqamətində yola düşdü.

- Tüpürüm bütün şərtlərə də, sizə də! Sizin hamınızın ananızı... - Leopardın ürəyi hirsindən sinəsinə sığmırdı. - Onu tutub, mənə verməlisiniz! Yoxsa qızının tikələrini alacaqsan, özünü yox!

General saatına baxıb:

- Yeddiyə on beş dəqiqə qalıb. - dedi. - Mən qızımı sizdən istəyirəm!

Leopard birdən-birə ayılıb başa düşdü ki, bütün işləri korlaya bilər. Mahirənin cəsədini artıq Nonanın maşınına qoymuşdular. Leopard axırıncı dəfə


downloaded from KitabYurdu.org

düşmənlərinə qanlı nəzər yetirib maşına oturdu. Onu kəskin hərəkətlə döndərib yola düşəndə yanında oturan oğlana bir daha sınayıcı nəzər yetirdi:

- Özünü necə hiss edirsən? Deyəsən, halın yaxşı deyil.

Oğlan kövrəlmişdi:

- Şükür Allaha! Min dəfə şükür! Azadlığa ki çıxdım, bəsimdir. Bundan artıq heç nə istəmirəm. Heç sağlamlığımı da!..

Leopard başı ilə arxa oturacaqda uzadılmış cəsədə işarə etdi:

- Mən bu qadından eşitdim sənin başına gətirilənlər haqqında... Səni onların əlində qoyub gəlmək istəmədim.

- Sən kimsən, qardaş? - Nadir soruşdu.

- Adicə əsgərəm. - Leopard cavab verdi. - Mən də əsir düşmüşdüm.

- Yəni adın nədir?

- Bağışla, adımı deyə bilməyəcəm.

- O Valeri köpəkoğlu səni «Alik» deyə çağırdı.

- Elə sən də Alik çağıra bilərsən.

- Mən söz tapmıram sənə minnətdarlığımı bildirməyə. Ömrümün axırına kimi borcluyam sənə!

Leopard birdən-birə dəyişilmişdi. Sarsıldığına görəmi, ya nəyə görəsə, xeyli sakit danışırdı.

- Bilirsən, Nadir, - dedi. - Mən bəlkə də sənə görə riskə getməzdim heç. Ancaq biləndə ki, sən bayrağımızdan ötrü canından keçirsən, biləndə ki, onlara əyilmirsən, düşündüm ki, mənim də sənin yolunda canımdan keçməyimə dəyər. Yoxsa elə bilmə ki, mən həyatımdan bezmişəm.

Heç bir tərəfdən güllə atmırdılar. Maşın gəlib



downloaded from KitabYurdu.org

Leopardın Nonanı qoyub getdiyi yerə çatdı. Burada üç Azərbaycan əsgəri var idi. Onlar Nonanı ağacdan açmışdılar. Ancaq qolları hələ də bağlı idi. Əsgərlər silahlarını maşından düşən Leoparda və Nadirə tuşladılar:

- Əllərinizi qaldırın!

Leopard bu əmrə məhəl qoymadı. Başçı hesab olunan çavuşa baxıb acıqlı səslə:

- Mən vacib tapşırıq yerinə yetirirəm! - dedi. - Bu oğlan da özümüzünküdür. Mən onu, bir də maşındakı meyiti bu qızla dəyişmişəm. Meyiti maşından götürün. Qızı isə buraxın, o öz maşını ilə geri qayıtmalıdır!

- Elə şey yoxdur! - çavuş etiraz etdi. - Onu da, sizi də komandirin yanına aparacağıq.

Onsuz da hövsələsi daralmış Leopard özünü ələ ala bilmədi. Əlini uzadıb çavuşun yaxasından yapışdı və onun kürəyini zərblə arxadakı palıd ağacına vurdu:

- Yekəbaşlıq eləmə! - dedi. - Nə deyirəm, ona qulaq as! Qızı burax, bizi isə komandirin yanına apar!

Əsgərlər bir anlıq özlərini itirib, nə edəcəklərini bilmədilər. Bu cəsarətli gəncin əmrinə qulaq assınlarmı? Amma Leopard onların nə düşünməyinə əhəmiyyət vermədi. Cəsədi maşından götürüb ehtiyatla yerə qoydu. Sonra isə Nonanın qollarını açdı və:

- Get, atan səni gözləyir! - dedi.

Nona əsgərlərin ona mane olmadıqlarını görüb, maşına yaxınlaşdı. Qapını açıb, rəğbət dolu
baxışlarla Leoparda baxdı:

- Mənə başqa sözünüz yoxdur?

Leopard bir an duruxdu. Sonra isə irəli gedib qızın gözlərinin içinə baxdı:


downloaded from KitabYurdu.org

- Ərə getsən, doğduğun uşaqları bizə nifrət ruhunda böyütmə! Yoxsa onlar da yazıq olacaqlar böyüyəndə.

Nona onun baxışlarında oxuduğu ifadədən sarsılıb, üzünü yana çevirdi. Sonra əsəbi hərəkətlə maşına oturub yola düşdü. Az sonra Azərbaycan mövqeləri tərəfdən atəş səsləri eşidildi. Maşına atəş açırdılar. Leopard başını qaldırıb, narahat halda yuxarı baxdı. Amma nə yaxşı ki, ermənilərin açdığı cavab atəşləri sərrast atəşlə maşını vurmağa imkan vermədi və Nona sağ-salamat gedib atasının yanına çatdı.

X

Bir gün sonra Leopard xüsusi şöbənin rəisi polkovnik Baratovun kabinetində ona raport verirdi. Polkovnik kəşfiyyatın uğurla keçməsindən çox razı qalmışdı. Onun gizli agentinin əsirlikdən xilas etdiyi oğlan həbs düşərgəsində baş verənlər haqqında Milli Təhlükəsizlik və Müdafiə nazirliklərinə geniş məlumat vermişdi.

Amma Leopard düşərgədə rastlaşdığı Valeri Barsovun uşaqlıq yoldaşı Artur olduğu barədə heç kimə bir kəlmə də söyləmədi.

Baxmayaraq ki, gənc kəşfiyyatçı Mahirənin Bakıda bacısının olduğunu bildirmişdi, onu axtarıb tapmağa səy göstərmədilər və bədbəxt qadın tələsik dəfn edildi.

Leopardı isə Baratovun təqdimatı ilə oxumağa göndərdilər. Amma nə çətin və maraqlı təhsil illəri, nə də sonradan başlanan peşəkar kəşfiyyatçı ömrü ona Xankəndi ilə bağlı acı xatirəni unutdura bildi. Namusunu qorumaq üçün özünə qəsd edən el qızının son anda ona dikilmiş lal baxışları hər dəfə yadına düşəndə səbəbini anlaya



downloaded from KitabYurdu.org

bilmədiyi bir xəcalət hissi hakim olurdu qəlbinə. Ona elə gəlirdi ki, Mahirənin ruhu, hələ də, öz intiqamının nə vaxtsa alınacağını gözləyir. Kobra ləqəbli o zəhərli ilandan...

# I HİSSƏ

«Allahverdi Cavad oğlu Əbilov.

1970-ci ildə Bakı şəhərində anadan olub. Polis Akademiyasını bitirib. Rayon polis idarəsində əməliyyat müvəkkili vəzifəsində çalışır. Polis kapitanıdır.

Cinayət axtarışı işində kifayət qədər biliyə və təcrübəyə malik təhqiqatçıdır. İntizamlıdır, öz işini sevir və peşəsinə qəlbən bağlıdır. Mənəvi təmizliyi hər şeydən uca tutur. Yüksək məntiqi düşünmə qabiliyyətinə malikdir, fikirlərini elmi əsaslarla sübut etməyi sevir.

1992-1993-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Sevdiyi məşğuliyyətlər: boks idmanıyla məşğul olmaq, qədim filosofların məntiqə aid əsərlərini və detektiv romanları oxumaq.

Evlidir. İki uşağı var...»

(Polis rəisi, polkovnik Mirzəyevin verdiyi xasiyyətnamədən. 16 mart 2005-ci il)

«Ələmdar Vələddin oğlu Məlikov.

1971-ci ildə Şamaxı şəhərində anadan olub. Atası - kriminal aləmdə avtoritet kimi tanınmış Vələddin Məlikov etdiyi cinayətlərə görə üst-üstə 27 il həbsdə olub. Həbsxanada vəfat edib.

Ələmdar Məlikov 1991-ci ildə bədənə ağır xəsarət yetirməkdə təqsirli bilinərək, azadlıqdan məhrum edilib. Bir il sonra, həbsdən qeyri-qanuni buraxılaraq, döyüş



downloaded from KitabYurdu.org

bölgəsinə göndərilib.

Nəhayət, həbs müddətini bitirərək, hansı məqsədləsə Türkiyəyə gedib. Əldə olan məlumata görə beş il Ankaradakı otellərin birində gecə gözətçisi işləyib. Bakıya qayıdandan sonra bir müddət tüfeyli həyat sürüb. 2003-cü ildən özünün təsis etdiyi «Döyüş» idman klubuna nəzarət edir.

Orta təhsillidir. Heç bir ixtisası və ya peşəsi yoxdur. Şübhəli həyat tərzi keçirir. Bir neçə dəfə müxtəlif polis bölmələri tərəfindən xuliqanlıq üstündə saxlanılıb.

Subaydır...»

(Kapitan A.Əbilovun topladığı məlumatdan.

10 aprel 2006-cı il).

Birinci fəsil

Bakı... 2006-cı il, aprel ayının 5-i idi. Buraya qədər danışdığımız o kədərli hadisələrdən on üç ilə yaxın bir müddət keçirdi...

İlk baxışdan şəhərdə müharibə əhval-ruhiyyəsi, demək olar ki, hiss olunmurdu. Restoranlar, kafelər, barlar bütün gücü ilə işləyir, şadlıq evlərinin və digər əyləncə yerlərinin sayı durmadan artırdı. Televiziya kanalları bir-birlərilə bəhsə girib yeni-yeni şou proqramlar hazırlayır, müğənni müsabiqələri keçirirdilər. Hamı oxumaq istəyirdi, oynamaq istəyirdi. Geyinib paltarlarını nümayiş etdirmək istəyirdilər, soyunub paltarsızlıqlarını nümayiş etdirmək istəyirdilər. Şou-qalmaqal bürümüşdü şəhəri.

Hamı özünü tərifləyirdi, hamı özünü birinci hesab edirdi. Hamı tanınmaq, sevilmək, alqışlanmaq istəyirdi. Ən çox da müğənnilər, aktyorlar, siyasətçilər. Bir adət də lap təzə-təzə yaranırdı şəhərdə: səhnəyə birinci dəfə çıxan


downloaded from KitabYurdu.org

istedadsız bir müğənni də «Alqışları görmürəm!» deyib, camaatın üstünə bağırırdı. Yazıq tamaşaçılar da, utandıqlarından başlayırdılar əl çalmağa. Alqış sədaları bürümüşdü şəhəri! Bürüdükcə də iki qonşu dövlət arasında gedən müharibə unudulurdu, elə bil...

Ancaq bu, hadisələrin gözə görünən tərəfi idi. Daha doğrusu, gözə soxulan tərəfi! Diqqətcil adamlar səkilərdə hərəkət edən, avtobus dayanacaqlarında dayanan adamların sifətinə hopmuş qaranlıq kölgədən müharibənin hələ də davam etdiyini asanlıqla duya bilərdilər. Bəli, on iki ildən çox idi ki, tərəflər arasında «atəşkəs» hökm sürsə də, müharibə hələ davam edirdi. Dağlıq Qarabağ vilayəti bütövlükdə və daha altı rayon düşmən əsarətində idi. Üstəlik, erməni tərəfi tez-tez atəşkəs rejimini pozurdu. Yenə də evlərə ağzı bağlı, qara əsgər tabutları gəlməkdə idi...

Azərbaycan tərəfi məsələnin sülh yolu ilə həll olunması üçün, əlindən gələni edirdi. Amma hələ ki, bir nəticə hasil olmamışdı. Danışıqlar uzandıqca uzanırdı. Əhali bir tərəfdən düşmənlərin bu həyasızlığından, bir tərəfdən isə müharibənin yaratmış olduğu maddi çətinliklərdən bezmişdilər.

Universitetin qarşısında, səkinin kənarında dayanmış boz rəngli «Mersedes»də oturmuş iki gənc isə bir çox həmtayları kimi bu qayğılardan uzaq idilər. Müharibə heç onların yadına da düşmürdü. Onlar ali məktəbi bu il bitirəcəkdilər və ataları onların gələcək firavan həyatını təmin etmək üçün əllərindən gələni edəcəkdi.

Maşın Əlifağa Sadıxovun oğlunun idi. Rafiqin... Arıq, orta boylu, solğun dərili, qara saçları çox vaxt qıyıq və


downloaded from KitabYurdu.org

xırda gözlərinin üstünə tökülən Rafiq valideynlərinin yeganə övladı idi və bəlkə də buna görə onun hər bir nazına dözür, bütün istəklərini yerinə yetirməyə çalışırdılar.

Sükanın arxasında Rafiqin tələbə yoldaşı və dostu Fuad oturmuşdu. Onun atası polkovnik Mirzəyev Bakı rayonlarının birində polis idarəsinin rəisi idi. Mirzəyev xaraktercə ciddi və bir qədər sadə adam olsa da, iki qızını lazımi qaydada tərbiyələndirib ərə versə də, oğlunu öz nəzarəti çərçivəsində saxlaya bilmirdi. Buna onun vaxtı da yox idi və həm də düşünürdü ki, qoy Fuad cavanlığını öz istədiyi kimi, qayğısız keçirsin. Belə bir qayğısızlıq onun gəncliyinə nəsib olmamışdı və deyirdi ki, qoy heç olmasa, Fuad bir gün görsün.

Fuadla müqayisədə Rafiqin arzu-istəkləri daha çox idi ki, bu istəklərin də, demək olar, hamısı yerinə yetirdi. Xüsusilə də qızlar barədə. Xoşuna gələn qızları öz toruna sala bilirdi. Pulunun və bir də dilinin köməyi ilə. Anası Şərafət xanım da onun bu qabiliyyəti ilə fəxr edirdi. «Kişidi balam, - deyirdi, - kişi! Qızların ürəyi gedir ondan ötrü». Ancaq son vaxtlar «Daha bəsdir, evlənməyin vaxtı çatır» deyib onu tələsdirməyə başlamışdı.

Rafiqin də təzəlikcə bir qıza gözü düşmüşdü. Lap, deyəsən, evlənmək fikrində idi onunla. Qız elə öz universitetlərində, üçüncü kursda oxuyurdu. Fatimə idi adı.

Allah elə bil bu zalım qızını öz möcüzəsinin gücünü bir daha sübut etmək üçün yaratmışdı. Yox, o saat gözlərinizin önünə ağappaq, qırmızı yanaq, incə dodaqlı, alagözlü birini gətirməyin. Belə deyildi Fatimə. Dərisinin rəngi bir


downloaded from KitabYurdu.org

qədər qaraya çalan, uca boylu, mütənasib və cəlbedici bədəni olan bir qız idi o... Belinə tökülən qara, qıvrımtəhər saçları, uzun kirpiklərlə əhatə olunmuş qonur gözləri, eyni bərabər düzülmüş ağappaq dişləri, bir qədər iri ağzı var idi. Fikrimizi daha qısa və aydın çatdırmaq istəsək,
demək olar ki, onun gözəlliyi ceyran və ya dovşan gözəlliyi yox, dişi pələng gözəlliyi idi.

Rafiq, bax belə bir qıza bənd olmuşdu və bəlkə də ilk dəfə kəskin rədd cavabını da bu qızdan almışdı. Fatimə elə həmin universitetdə dərs deyən bir professorun oğluna nişanlı idi. Yəni ki, əslində Rafiqin arzusu mümkünsüz görünürdü. Ancaq ərköyün böyümüş, atasının pulu və adı qarşısında dayana bilən qüvvə görməmiş və bütün istəklərinə çatmağa adət etmiş oğlan qızın, necə deyərlər, başının bağlı olduğunu nəzərə almaq istəməmiş, ona elçi getməyi anasından xahiş etmişdi.

Mənəmliyi, hikkəsi göylə gedən Şərafət də bu barədə Nihatın arvadı Hicrana demiş, onun ağzını aramaq istəmişdi. Nihat Fatimənin beş qardaşından
biri idi. Əli Mazanovun bankında filial müdiri işləyirdi. Amma bundan əvvəl iki il Sadıxovun işçisi olmuşdu.

Hicran, əslində, Sadıxovla qohum olmağın tərəfdarı olsa da, Şərafət xanımın təklifindən heyrətlənmişdi. Bu işin baş tuta biləcəyinə heç cür inanmadığı üçün etiraz etməyə məcbur olmuşdu:

- Nə danışırsınız, Şərafət xanım, qız başqasına nişanlıdır. Mən belə sözü ağzıma alıb danışa bilmərəm. Nihat bir şey eləməsə də, Xanəli öldürər məni!

Xanəli də Fatimənin qardaşı idi. Dəlisov və tündxasiyyət olduğu üçün o biri qardaşları da,



downloaded from KitabYurdu.org

Fatimə də ondan çəkinirdilər.

Məsələ beləcə qalmışdı. Rafiq qızdan əl çəkmək fikrində deyildi və elə indi də, maşında oturub səkiyə baxır, Fatimənin dərsdən çıxıb,
buradan keçməyini gözləyirdi. Artıq, indiyədək, bir-iki dəfə qıza yaxınlaşıb, öz fikrini bildirmişdi. Fatimə də hər dəfə ona rədd cavabı verib, uzaqlaşmışdı. Ancaq Rafiqin qıza olan ehtirası gündən-günə şiddətlənir, qarşısı alınmaz bir istəyə çevrilirdi. O, gecələr də soyunub yatağına girəndə Fatiməni gözləri önünə gətirir, xəyalında onu da soyundurub öz yanına salırdı...

- Sənin bu ceyranın nə gec gəldi? - deyən Fuadın səsi Rafiqi xoş xəyallardan ayırdı.

- Gələcək, daha vaxtdır, - qolundakı qızıl saata baxıb cavab verdi.

Fuad əlindəki kiçik təsbehi oynada-oynada dilləndi:

- Ancaq müsibət şey imiş ha, mən heç fikir verməmişdim. O gün arxadan tamaşa elədim.
Zövqün var imiş. Özü də dar şalvar necə yaraşır bu köpək qızına?! Nə elə kök deyil, nə də elə arıq deyil ki, üfürəndə yıxılsın. Beləsiylə olmaq...

- Atovun başı üçün! - Rafiq ona tərs-tərs baxdı.

- Yaxşı görək! - Fuad şit-şit güldü. - Onsuz da evlənə bilməyəcəksən onunla. Sənə görə nişanını qaytarmayacaq ki?!

- Lazım olsa qaytarar! - Rafiq əlində oynatdığı bıçağı qatlayıb cibinə qoydu. - Yox, əgər alası olmasam, bir-iki dəfədən sonra ötürərəm sənə.

- Neynirəm alə, sənin artığını? - Fuad sanki incidi.

Rafiq güldü. Güləndə gözləri lap balacalaşır, arıq, uzun


downloaded from KitabYurdu.org

çənəsi elə bil, laxlayırdı:

- O qədər fahişə ilə olmusan, heç bilmişən kimlərin artığıdır?

- Bilməmək başqa... - Fuad dedi. - Amma biləndə yaxşı olmur axı?!

- Özüm elə-belə deyirdim. - Rafiq ciddiləşdi. - Fatiməni heç kəsə verməərəm. Mamamın canı üçün!

- İnanmıram, əşi! - Fuad başını buladı. - Hansı qızla bir-iki dəfədən artıq görüşmüsən ki?

Rafiq dərindən ah çəkdi:

- Fuad, qardaşımsan, başqalarına baxma, yanıram bundan ötrü, alışıram, başa düşürsən?

- Başa düşürəm, niyə düşmürəm ki? Onun o atəş saçan bədəni daşı da yandırar. Keçən bazar saunadakı arvada fikir verdin?

- Səninkinə? - Rafiq soruşdu.

- Hə! - Fuad əlini yellədi. - Ətli, üstəlik də süd kimi ağappaq! Mikroskopla da baxsan dərisində bir dənə tükdən, xaldan, ləkədən tapmazdın ki, deyəsən canlı insandır... Mən, şəxsən iyrəndim ondan. Bu ölsün! - əlini sifətinə şappıldatdı. - Ancaq bu köpək qızının...

- Yaxşı, mumla görək, qız gəlir! - Səkiyə boylanan Rafiq dostunun sözünü ağzında qoydu.

Fatimə bir qızla söhbət edə-edə gəlib maşının bərabərinə çatdı. Rafiq cəld qapını açıb, maşından düşdü və qızların qabağına keçdi:

- Salam, ceyran!

Qızlar onun qəfil hərəkətindən diksinib dayandılar. Fatimə ətrafına boylanıb, Rafiqin həyasızlıq ifadə edən sifətinə baxdı:



downloaded from KitabYurdu.org

- Çəkil yolumuzdan, ayıbdır!

Rafiq onsuz da ayıb-filan başa düşən deyildi. Bu yandan da bir az əvvəl heroin qəbul etmişdi. Dünya- aləm vecinə deyildi.

- Səninlə ciddi söhbətim var, - dedi. - Təklikdə.

Fatimənin yanağına qızartı çökdü. Hirsindən dodaqları səyridi:

- Nə söhbət?! Rədd ol başımdan! - deyib onun yanından burularaq keçdi və əsəbi addımlarla yoluna davam etdi.

Rəfiqəsi də Rafiqə tənəli baxışlarla baxıb Fatiməyə qoşuldu. Oğlan dayanıb onların arxasınca baxmağa başladı. Yaman pərt olmuşdu. Hirsindən nə edəcəyini bilmirdi.

Qızlar dayanacağa çatanda, Fatimə avtobus gözləməyə dayanmadı. Nədənsə, rəfiqəsindən ayrılıb sağa döndü və prospektin səkisi ilə üzüyuxarı getməyə başladı.

Rafiq tez maşına oturub dostuna:

- Sür dalınca, - dedi. - Deyəsən, yola gəlib, arxasınca getməyimi istəyir.

Fuad maşını işə salıb, yavaş-yavaş qızın arxasınca sürməyə başladı. Fatimə səki ilə çox getmədi. Sola dönüb prospekti keçdi və qarşıdakı parka girib skamyaların birində oturdu.

Nişanlısı Şakirlə burada görüş təyin etmişdilər. Saat ikiyə. İndi isə hələ on dəqiqə qalırdı görüşə. Narahat halda ətrafına boylanıb, cib telefonunu çıxartdı və nişanlısına zəng vurdu. Şakir bildirdi ki, elmi rəhbərinin yanındadır, çıxan kimi gələcək. O, yaxınlıqdakı Elmi-Tədqiqat İnstitutunda işləyirdi. Oradan parka bir-iki dəqiqəlik yol



downloaded from KitabYurdu.org

olardı.

Boz rəngli «Mersedes» parkın qarşısında dayandı. Dostlar maşından düşüb parka girdilər. Rafiq yaxınlaşıb qızın yanında oturdu. Fuad isə skamyanın yanında gəzişməyə başladı. Bunu görən Fatimə əvvəlcə qalxıb uzaqlaşmaq istədi. Sonra isə, nə düşündüsə, üzünü parkın girəcəyinə tutub gözləməyə başladı.

Rafiq qızın ayaqlarına, xüsusilə də incə belinə və aşağı getdikcə enlənən mütənasib gərdəninə böyük bir iştahayla tamaşa edirdi. Bunu duyan Fatimənin yanaqlarına özünəməxsus bir qızartı gəldi və əlini arxasına aparıb koftasını aşağı dartdı. Özü də başa düşürdü ki, bununla qabarıq əzalarını şorgöz baxışlardan gizlədə bilməyəcək, ancaq buna baxmayaraq, özündən asılı olmayaraq belə edirdi.

Onun bu hərəkəti Rafiqə lap ləzzət verdi:

- Sən məndən niyə qaçırsan, ay qız? - dedi. - Heç bilirsən mən səni necə xoşbəxt edə bilərəm? Dünyanın ən bəxtəvər xanımı eləyərəm səni. Başa düşmürəm, nədən qorxursan? Nişanlısan, qaytar nişanını! Yox, əgər bunu bacarmırsansa, nişanlına, ya da birbaş onun o professor papasına xəbər göndərtdirim ki, əl çəksinlər səndən.

Fatimə dönüb onun özündən razı sifətini məzəmmət dolu baxışlarla süzdü:

- Sən mənim nişanlımın heç kəsilib atılan dırnağı da ola bilməzsən!

Rafiq ağzını əyib istehza ilə güldü:

- Yox əşi?! Pah atonan!

- Zəhrimar! - Fatimə özünü ələ ala bilməyib əsəbiləşdi.



downloaded from KitabYurdu.org

- Dur, cəhənnəm ol burdan! İndi nişanlım gələcək.

- Pah! - Rafiq yenə ağzını əydi. - Birincisi, bu sənin atanın skamyası deyil, kefim istəyir, burada otururam. İkincisi də, məni o gonbul nişanlınla
qorxuzma. Zürafəyə oxşayır. Bədən yekə, ayaq nazik!

- Sənin kimi siçovula oxşamır ki?! - qız onun üstünə çımxırıb yenə üzünü parkın girişinə çevirdi.

Söz Rafiqə toxundu:

- Sən öləsən, sənin o nişanlının başına ip bağlayıb bütün Bakını gəzdirərəm!

- Ədə, bilirsən nə var, get tullanmağının dalınca!

Fatimə bunu deyib sərt hərəkətlə ayağa qalxdı və keçib başqa skamyada əyləşdi. Bunu görən Rafiq də durdu. Mənalı nəzərlə Fuada baxıb qıza yaxınlaşdı və yenidən onun yanında oturdu. Fatimə dodağını çeynəyib özünü ələ almağa çalışdı. Hövsələsini basıb, nisbətən sakit səslə:

- Məndən nə istəyirsiniz? - dedi. - Axı eşitdiniz ki, mən nişanlımı gözləyirəm.

- Elə mən də onu gözləyirəm. - Rafiq kinayə ilə cavab verdi. - Qoy gəlsin, tanış olaq onunla!

Diqqəti parkın girişində olan Fatimə «Volvo - S70» markalı, tünd yaşıl rəngli avtomobilin səkinin düz kənarında dayandığını gördü. Sükanın arxasında oturmuş hündürboy, sağlam bədənli, qarayanız gənc qapını açıb maşından düşdü və arxaya keçib təkərləri gözdən keçirməyə başladı. İdmançı stilində geyinmiş bu gəncin əynində cins şalvar və onunla uyuşan gödəkcə vardı. Tərtəmiz qırxılmış uzunsov, qarayanız sifətində qətiyyət və özünəarxayınlıq hiss olunurdu. Təpiklə təkərlərin birini vurub, boşalmadığına əmin olandan sonra



downloaded from KitabYurdu.org

əllərini şalvarının cibinə qoyub ətrafa boylandı.
Parka ani nəzər yetirən kimi gözü Fatiməni aldı.

Fatimə də gənci görən kimi tanımışdı. Bu Ələmdar idi. Qız onu üç ay əvvəl universitetin idman kafedrasında görmüşdü. Baxmayaraq ki, həmin görüşdə Ələmdarın ona köməyi dəymişdi, Fatimə bu oğlanla bir daha görüşməyi heç arzulamırdı.

Keçən semestr bir neçə dərs məşğələsində iştirak etmədiyinə görə Kamil müəllim ona idmandan «qeyri-məqbul» yazmışdı. Həm də, aralarında nə olmuşdusa, Fatimə Kamil müəllimə qarşı kobudluq etmişdi. Ona görə də inada düşmüş müəllim qıza «məqbul» yazmayacağına söz vermişdi.

Kafedraya, ikinci dəfə Kamil müəllimin yanına gedəndə həmin bu Ələmdarı onun yanında gördü. Həmin vaxt Ələmdar sağollaşıb otaqdan çıxmaq
istəyirdi. Fatiməni görüb, bir az ləngidi. Məsələnin nə yerdə olduğunu öyrənəndə qızın adını soruşdu. Qız onun diqqətli baxışlarından xoşlanmasa da, adını dedi. Ələmdar üzünü Kamil müəllimə tutub:

- Adam heç belə gözəl qızı incidər? Mənim xətrimə qiymətini yaz, getsin! - dedi və özü də daha orada dayanmayıb otaqdan çıxdı.

O gedən kimi Kamil müəllim:

- Ancaq Ələmdarın xətri üçün! - deyib zaçot kitabçasını Fatimədən aldı və oraya «məqbul» yazıb kitabçanı qıza qaytardı.

Yaxındakı stolun arxasında oturmuş bir müəllim Kamilə məzəmmətlə baxıb, başını buladı:

- Sən də elə adamlarla oturub-durursan ki!..



downloaded from KitabYurdu.org

- Nə olub ona? - Kamil incik halda soruşdu.

- Atası ömrünü türmədə keçirib. Elə özü də banditin biridir. Bir dəfə yatıb çıxıb.

- Nə olsun?! - Kamil etiraz etdi. - O da indi idmançı yetişdirməklə məşğuldur. Bizim kimi...

- Onun yetişdirdiyi idmançılar da özü kimi bandit olacaq yəqin ki...

Fatimə otaqdan çıxdığı üçün daha söhbətin ardını eşitmədi...

Baxışlarıyla yanındakı qızı, sanki parçalayıb yemək istəyən Rafiq, nə düşündüsə, birdən-birə komplimentə keçdi:

- Mən ömrümdə sənin kimi gözəl qız görməmişəm. Sənin saçlarından tutmuş ayaqlarına kimi hər yerin gözəldir.

Fatimə cavab vermədi. Diqqəti onlara tərəf addımlayan Ələmdarda idi. Bilmirdi ki, arzulamadığı bu adamın birdən-birə burada peyda olmağı onun xeyrinədir, yoxsa ziyanına. Ancaq yaman narahat idi qız... Ən çox da ona görə ki, nişanlısı indicə buraya gələcəkdi və gözləri ayaqlarının altını görməyən bu adamlarla münaqişədə xoşagəlməz hadisələr baş verə bilərdi. Üstəlik, düşünəndə ki, Rafiq də onun nişanlısının gəlməyini gözləyir, lap həyəcanlanırdı. Şakir elm adamıydı və davayla işi olan deyildi. Bu harınlamış cavanlar hər cür xətər yetirə bilərdilər ona...

Rafiq gözlərini qızın sinəsinə dikmişdi. Yuxarıdakı iki düymə açıq olsa da, köynəyi qabardan şux döşlərin ara xətti görünmürdü. Fatimənin dinmədiyini görüb, bir az da həyasızlaşan oğlan əlini uzadıb, barmağı ilə köynəyin


downloaded from KitabYurdu.org

yaxasını aşağı dartdı:

- Bunu bir az aşağı çəkə bilməzsən?

Xətt göründü və bu xəttin ətrafında cinsi duyğuların bitirdiyi xırda, incə tüklərə gözü sataşan oğlanın ehtirasdan beyni dumanlandı.

Fatimə onun əlini kəskin hərəkətlə itələyib ayağa qalxdı:

- Dedim ki, əl çəkin məndən!

Bu zaman gəlib onun bərabərinə çatmış Ələmdar:

- Nə olub, ay qız? - deyə ciddi şəkildə soruşdu. Fuad da o saat onlara yaxınlaşdı. Rafiq

Ələmdarı tanımırdı. Onu acıqlı baxışlarla süzüb ayağa qalxdı:

- Sən kimsən?!

Ancaq Ələmdar Fatimədən cavab gözləyirdi. Ona görə də gözlərini onun ağzına dikmişdi.

Qız birdən əliylə Rafiqi göstərib:

- Bu məndən əl çəkmir... - dedi.

Ələmdar indi Rafiqin üzünə baxdı:

- Qızdan nə istəyirsən?

Rafiq qarşısındakı bu yad adama kinayə ilə baxıb, nəsə demək istəyirdi ki, dostu onu qabaqladı:

- Qaqaş, bu iş sənlik deyil, çıx yolunla get!

Fuad üç-dörd il karate idmanı ilə məşğul

olmuşdu və istənilən adamla təkbətək bacara biləcəyinə tam arxayın idi. Ələmdar bir neçə an sakitcə onun üzünə baxıb, yenə Rafiqə tərəf döndü:

- Sürüşün burdan!

Fuad onun qolundan tutub özünə tərəf dartdı:

- Yoxsa almısan bu parkı, xəbərimiz yoxdur?!



downloaded from KitabYurdu.org

Ələmdar qolunu onun əlindən çıxaranda, necə elədisə, Fuad səndirləyib yıxıldı. Bunu görən Rafiq cəld cibindən bıçağını çıxarıb açdı və Ələmdarın üstünə yeridi:

- Alə, lotusan sən?! - deyib bıçaq olan əlini ona qolayladı: - Al gəldi!

Qorxudan sarsılmış Fatimə əlləri ilə üzünü tutub çığırdı. Amma sonra əllərini üzündən götürəndə bıçağı Rafiqin yox, Ələmdarın əlində gördü. Rafiq isə dalı üstə yerə yıxılmışdı...

Ələmdar bıçağı qatlayıb, artıq ayaq üstə olan Fuada uzatdı:

- Al, dostunu da götür, rədd olun burdan!

Qəzəblənib özündən çıxmış Rafiq birdən ayağa qalxıb, rəqibinin üstünə şığıdı:

- Səni öldürəcəm, köpək oğlu!

Ələmdarın vurduğu zərbə bu dəfə daha qüvvətli oldu və ağzı qana boyanan Rafiq sərildiyi yerdən yalnız dostunun köməyilə qalxa bildi. Fatimə heyrətindən donub qalmış halda bu hadisəni seyr edirdi.

Ələmdar yaxınlaşıb, bərk qorxmuş Rafiqin çənəsindən yapışdı. Onun qana bulaşmış sifətini ikrahla süzüb, astadan dedi:

- Bu söyüşünə görə səni buradaca öldürərdim, ancaq bu qızın polisdə şahidlik etməsini istəmirəm!

Rafiqin daha deyiləsi bir sözü qalmamışdı və yalnız nifrətlə:

- Baxarsan, sən peşman olacaqsan! - deyib Fuadla birlikdə oradan uzaqlaşdı.

Ələmdar bir qədər onların arxasınca baxıb, skamyada



downloaded from KitabYurdu.org

oturdu. Qızı diqqətlə süzüb, birdən gülümsədi:
- Kamil daha səni incitmir ki, Fatimə?
Fatimənin sifəti işıqlandı:
- Adım nə yaxşı yadınızda qalıb?

- Bilmirəm... - Ələmdar çiynini çəkdi. - Sən burada neyləyirdin?

- Nişanlımı gözləyirəm... - qız utancaq cavab verdi.
- Kimdir nişanlın?

- Bizdə Qurbanşah müəllim var, onun oğludur. Özü də aspirantdır... Şakir...

- Lap yaxşı, xoşbəxt olun! - Ələmdar ayağa qalxdı. - Budur, nişanlın da gəldi.

Fatimə çevriləndə, iri gövdəli, nazik ayaqları ilə qabağa çıxmış qarnı uyuşmayan, sifəti isə uşaq sifətinə oxşayan Şakirin onlara tərəf gəldiyini gördü. Ələmdar ilk dəfə gördüyü bu oğlanın çatmağını gözləyib:

- Görüşə gecikməzlər, əzizim! - dedi və qıza tərəf döndü:
- Yaxşı, salamat qal, Fatimə, mən getdim!
Şakir öz maşınına tərəf gedən Ələmdara şübhə
ilə baxıb nişanlısından soruşdu:
- Bu kimdir?

- İdman müəllimidir, - qız ağlına qəfil gələn cavabı verdi.

- Onun səninlə nə alış-verişi?! - Şakir acıqlı soruşdu və hərəkətə gəlib parkdan uzaqlaşmaqda olan maşının arxasınca baxdı.

Fatimə əvvəlcə istədi ki, baş vermiş xoşagəlməz əhvalat barədə nişanlısına heç nə deməsin. Ancaq onun görüşə gecikməyinə baxmayaraq, bu cür köntöy sorğu-sual


downloaded from KitabYurdu.org

aparması qıza toxundu və hər şeyi olduğu kimi danışmaq qərarına gəldi.

- Kimdi ki, o oğlan? - Şakir yenə acıqla soruşdu. Ancaq bu dəfə səsinə bir az da qorxu qarışmışdı elə bil.

- Rafiqdi adı... Beşinci kursda oxuyur. Hüquqda...

Şakir əsəbi halda skamyada oturdu:

- Heyif ki, bir az gecikdim. Yoxsa o çaqqal oğlunun meyitini sərərdim bura!

- Yaxşı, yaxşı! Elə şey danışma, qurban olum! - Fatimə onu sakitləşdirməyə çalışdı.

Şakir isə Rafiqin qarasınca asıb-kəsməkdə davam edirdi:

- Onu iti qovan kimi qovdurtduraram universitetdən!

- Yaxşı, əsəbiləşmə, lazım deyil ona baş qoşmaq.

- İndi sən baxarsan, onun başına nə oyun gətizdirəcəm.

Fatimə bunu dilinə gətirməsə də, yaxşı başa düşürdü ki, nişanlısı Rafiqə heç nə eləyə bilməyəcək. Və bir də onu bilirdi ki, atasına arxayın olan nişanlısı, Rafiqin kimin oğlu olduğunu bilsəydi, belə danışmazdı...

İkinci fəsil

Qara, zəhmli «Prado» Bakı kəndlərinin birində,
Xəzər dənizinin sahilində yerləşən, hər tərəfdən uca hasara alınmış böyük mülkün darvazası qarşısında dayandı. Siqnal səsini eşidib darvazanı açdılar və sükan arxasında oturmuş Saleh maşını sürüb həyətə saldı.

O, Əlifağa Sadıxovun şəxsi sürücüsü vəzifəsini daşıyırdı. Sürdüyü maşın da, daxil olduğu mülk də şefinə məxsus idi. Artıq həyətin ortasında ucalan, hər tərəfə geniş balkonları baxan üçmərtəbəli villanın əsas daş işləri görülüb qurtarmışdı. Ancaq görüləsi işlər hələ də çox idi.



downloaded from KitabYurdu.org

Buna görə də hər tərəfinə tikinti materialları tökülmüş həyət tör-töküntü içində idi.

Şəhərin ən imkanlı adamlarından biri hesab olunan Əlifağanın başqa yerdə də çox gözəl bir bağ evi var idi. Ancaq o, buraya daha çox üstünlük verirdi ki, bəlkə də bu yeni mülkün dənizdən vur-tut on beş- iyirmi metr aralı yerləşməsi ilə əlaqədar idi. Həyətin dənizə baxan tərəfi bir qədər aşağı səviyyədə yerləşdiyi üçün, uca hasarlara baxmayaraq, dəniz həyətdən çox aydın görünürdü. Bundan başqa, həyət çox iri idi. Burada başqa ölkələrdən gətirilmiş nadir ağaclar əkilir, böyük gül bağçası yaradılırdı. Əlifağa həyətdə ceyran-cüyür, həyətin aşağısında tikilmiş hovuzda qiymətli balıqlar saxlamağı da qərara almışdı...

Saleh maşının qapısını açıb həyat yoldaşı Məltəmi və on yaşı bu gün tamam olmuş qızı Gültayı
yerə düşürtdü. Məltəm utancaq baxışlarıyla ətrafa boylanıb yavaşca dilləndi:

- Vallah, heç yaxşı olmadı bu. Gərək evdə oturaydıq. Eləcə özümüz...

- Yaxşı da, - Saleh məzəmmətlə başını buladı, - dedim axı sənə, etiraz edə bilmədim kişiyə.

- Ata, buraya niyə gəldik? - təəccüblə ətrafdakı qarışıqlığa baxan Gültay soruşdu.

- Qonaq gəlmişik qızım, baba səni qonaq çağırıb. - Saleh əlini qızının başına çəkdi.

- Hansı baba?

- Əlifağa baba! İndi sizi tanış edəcəm, görəcəksən.

Bir qədər aralıda, qalaqlanmış taxtaların üstündə iki gənc fəhlə oturmuşdu. İkisi də boy- buxunlu, qüvvətli oğlanlar idilər. Açıq havada



downloaded from KitabYurdu.org

işləməkdən qapqara qaralmışdılar. Salehgilə tərəf baxıb, öz aralarında astadan söhbət edirdilər.

Bu həyətin torpağı alınandan, hasar çəkilib, müvəqqəti yaşayış üçün ikiotaqlı kiçik ev tikiləndən, bir qədər kənarda taxtadan quraşdırılmış və hamam vəzifəsini icra edən evcik hazır olandan sonra burada iş dayanmamışdı. Bir-birini əvəz edən briqadalar öz işlərini qurtarıb getsə də, həyətdə xırda-xuruş işlər üçün həmişə iki fəhlə görmək olardı. Şərafət xanım, yəni Sadıxovun həyat yoldaşı, tikinti işləri başlayandan, demək olar ki, buraya köçmüşdü. Şəhərdəki evlərində gündüzlər çox az-az olurdu. Həyətdəki işlərin gedişinə nəzarəti də şəxsən öz boynuna götürmüşdü. Əri əvvəlcə buna razı olmasa da arvadının inadını görüb razılaşmışdı.

Kənardan tikinti materiallarının alınıb gətirilməsini Sadıxovun ən yaxın adamı hesab olunan Nəcməddin təşkil edirdi. Ustalarla, tikinti briqadalarıyla danışıqları da o aparırdı. Daxildəki işlərə rəhbərlik isə Şərafət xanımın əlində idi. O, hətta əldə-ayaqda işləyəcək fəhlələri də özü tapıb gətirirdi. Bunun üçün Salehin sürdüyü maşına oturub işsiz adamların iş axtarmaq üçün yığıldıqları yerlərə baş çəkirdi. Elə maşındanca fəhlələrə göz qoyur, bəyəndiklərini Salehə göstərirdi. Bunlar da, adətən, seçmə, sağlam gənclər olurdu.

- Pulumuzu ki veririk, heç olmasa, iş görə bilən olsunlar, - deyirdi Şərafət xanım.

Belə vaxtlarda Salehin yadına tarix kitablarından oxuduğu bəzi epizodlar düşürdü. Keçmişdə qul alan quldarlar onların boy-buxununa, dişlərinə, gözlərinin içinə baxandan sonra qulun üzünü günəşə çevirib, günəşlə



downloaded from KitabYurdu.org

onun gözləri arasında araba çarxı kimi taxta çarx hərlədirlərmiş. Bir neçə dəqiqədən sonra ürəyi gedib yıxılan qulu heç kəs almazmış.

Ancaq Şərafət xanım, deyəsən, daha təcrübəli quldar idi və sadəcə, kənardan baxmaqla istədiyini seçə bilirdi. Düzdür, seçdiklərini bəzən elə səhəri gün qovmalı olurdu. Çox ərköyün xasiyyəti var idi onun. Amma hər halda, bu saat taxta qalağının üstündə oturmuş bu iki gənc artıq bir ay idi ki, öz üzərilərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirdilər.

Salehgil yeni tikilmiş imarətin arxasına keçdilər. İkiotaqlı, müvəqqəti yaşayış evi burada idi. Şərafət xanım səs eşidib, içəridən çıxdı və qollarını açıb onların üstünə gəldi:

- Bəh! Bəh! Gör kimlər gəliblər bizə! Ay siz xoş gəlmisiniz!

Əvvəlcə Gültayı qucaqlayıb üzündən öpdü. Sonra isə Məltəmlə görüşüb onları açıq havada qoyulmuş stolun arxasına dəvət etdi:

- Keçin əyləşin, Əlifağagil də, harda olsa, bu saat gələrlər.

Məltəm yaman sıxılırdı. Elə Gültay da burada ilk dəfə olduğu üçün duruxub qalmışdı. Yalnız Saleh stolun ətrafında taxtadan düzəlmiş oturacaqları onlara göstərəndən sonra keçib əyləşdilər.

Dediyimiz kimi, bu gün Gültayın on yaşı tamam olurdu. Dünən, bununla əlaqədar Saleh öz şefindən birgünlük icazə istəyəndə, Sadıxov səbəbi ilə maraqlanmış və məsələni biləndən sonra demişdi:

- Heç elə şey yoxdur! Sabah günorta arvadını da,



downloaded from KitabYurdu.org

uşaqları da götürüb gətirirsən buraya. On yaş artıq yubiley hesab olunur. Onu gərək birlikdə qeyd edək.

Artıq üç ilə yaxın idi ki, Saleh Əlifağa Sadıxovun şəxsi sürücüsü işləyirdi. Bu müddətdə şefinin də, onun xanımının da inamını qazanıb ev adamına çevrilmişdi. Amma nə Əlifağa, nə də Şərafət xanım Salehin ailə üzvlərini indiyədək görməmişdilər.

Saleh qızının ad gününü öz evində keçirməyi arzu etsə də, Məltəmi buraya gətirmək istəməsə də, şefinin sözündən çıxa bilməyib razılaşmışdı. Balaca Eltayın süfrə başında nadinclik edəcəyini düşünüb, onu qonşuya tapşırmış, özləri isə yığışıb buraya gəlmişdilər.

Salehlə Məltəmin Bakıda elə bir qohumları yox idi. Hər ikisi Bakıya on dörd-on beş il bundan əvvəl oxumağa gəlmişdilər. Saleh Sabirabaddan, Məltəm isə, deyəsən, Ermənistanla sərhəd rayonların birindən...

Saleh universitetin mexanika-riyaziyyat fakültəsində oxuyurdu. Qrup nümayəndəsi olduğu üçün tez-tez dekanlığa girib-çıxan gənc, axır vaxtlar katibə Gülyanın yanında gözəl bir qızla rastlaşırdı. İçəri girəndə, gözəlliyin bütün vacib şərtlərini özündə cəmləmiş bu qız bircə anlığa başını qaldırıb ona baxırdı ki, həmin bir anlıq baxış sevginin nə olduğunu o vaxtadək bilməyən oğlanın bütün vücudunu titrədirdi.

Onda Saleh bu qızın kim olduğunu bilmirdi və doğrusu, heç öyrənməyə də o qədər cəhd göstərmirdi. Ona görə yox ki, qızı bəyənmirdi, əksinə, ona görə ki, belə bir qıza yaxınlaşmağı, onu sevməyi, hətta onunla mehriban söhbət etməyi əlçatmaz bir xəyal hesab edirdi.



downloaded from KitabYurdu.org

Ancaq sonra, təsadüfən, öyrəndi ki, qızın adı Məltəmdir, başqa fakültədə, ondan bir kurs aşağı oxuyur. Və daha sonralar bunu da öyrəndi ki, Məltəm dekanlığa onu görmək üçün gəlirmiş. Amma o vaxt Saleh bunu, təəssüf ki, bilmirdi...

Bir il o sayaq ötüşdü və Saleh universiteti bitirdi. O günü ömrünün axırına kimi unutmayacaqdı. Diplomunu aldığı günü...

Beşinci kursu bitirən məzunlar dəhlizdə düzülmüş stullarda sıra ilə oturmuş, bəziləri isə ayaq üstə dayanıb, qarşıdakı otağa girərək diplomlarını alacaqları anı gözləyirdilər.

Saleh gördü ki, Məltəm də buradadır. O, Salehlə bir qrupda oxuyan qızların yanında oturmuşdu. Onun buraya nə üçün gəldiyini, əvvəlcə, anlaya bilmədi. Ancaq sonra hər şey aydın oldu. Növbə Salehə çatdı və o, kabinetə girib bir az sonra əlində diplom dəhlizə çıxdı. Bu zaman, heç gözləmədiyi halda, Məltəm yerindən qalxıb onun üstünə gəldi. Utancaq bir təbəssümlə əlini irəli uzadıb:

- Təbrik edirəm! - dedi.

Özünü itirmiş Saleh cəld qızın əlini tutdu və elə bil həmin anda bütün bədəninə elektrik cərəyanı buraxdılar.

- Çox sağ olun... Minnətdaram... - deyə çətinliklə dilləndi.

-Təyinatınızı hara almısınız?

İlahi, bu qızın dilində nə qədər şirinlik var idi?!

- Sabirabada... - dedi və o saat da qızın ala gözlərinin dərinliyində kədərli bir ifadə oxudu.

- Gedəcəksiniz?

Burada «hə, gedəcəm!» demək bəlkə də cinayət idi və



downloaded from KitabYurdu.org

Saleh bu «cinayəti» etmədi.

- Hələ baxacam vəziyyətə... - deyə qeyri- müəyyən bir cavab verdi.

Sonra bir-birlərini necə duydular, necə başa düşdülərsə, yavaş-yavaş yanaşı addımlamağa başladılar. Bir də gördülər ki, artıq universitetin həyətindədirlər. Hər şey, bax beləcə başladı və bu başlanğıc onların gələcək talelərini birləşdirdi.

Sən demə, o görüşdən il yarım əvvəl Məltəmgilin rayonları ermənilər tərəfindən işğal olunanda yazıq qızın bütün ailəsi vəhşicəsinə öldürülübmüş. Onda biçarə qız Bakıda nələr

çəkmişdi, bir Allah bilirdi, bir də özü... Bəzən Saleh düşünürdü ki, kaş o vaxt Məltəmlə tanış olmuş olaydılar. Heç olmazsa, onun dərdinə şərik çıxar, onu ovundurmağa çalışardı.

Məltəm, nəhayət, əzizlərinin yoxluğuna alışa bildi. Şən, şux, zarafatcıl xarakterinə əbədi bir qəmlilik, bir kövrəklik qatışdısa da, alışa bildi. Bəlkə də ona görə alışa bildi ki, bu yoxluq onun üçün ancaq yoxluq, ancaq ayrılıq idi. Həmin dəhşətli faciələri, həmin qanlı ölüm səhnələrini öz gözlərilə görməmişdi axı?!

Məltəm universiteti qurtaran kimi evləndilər. Salehin atası oğlunun Sabirabada qayıtmaq istəmədiyini görüb Bakıda onun üçün ev və maşın aldı. Fermer olan atasının maddi imkanı pis deyildi o vaxt. Qarpız yetişdirib satırdı. Amma indi yazıq kişi

ayaqlarının xəstəliyi ilə əlaqədar yaman düşmüşdü. Daha heç oğlu ilə maraqlana bilmirdi.

Saleh elə əvvəldən müəllim işləmək istəmədi. Bildi ki,



downloaded from KitabYurdu.org

müəllimlik maaşı ilə ailə dolandıra bilməyəcək. Hansısa bir ticarət firmasında işə düzəldi. Sonra oradan əli çıxdığı üçün bir az rəngsazlıq elədi. Bunu bir rəngsazın əli altında fəhlə işləməklə öyrənmişdi. Daha sonra atasının onunçün aldığı maşınla iki il taksi sürücüsü işlədi, sərnişin daşıdı. Nəhayət, üç il əvvəl təsadüfən tanış olduğu bank işçisi onu Əlifağa Sadıxova təqdim etdi. Bu işə düzələndən qazancı pis deyildi, ailəsini dolandıra bilirdi.

Məltəm isə dörd il müəllimə işlədi. Sonra Saleh razı olmadı onun işləməyinə. Təkcə böyüklərə yox, səkkizinci sinifdə oxuyan oğlan uşaqlarına da
qısqanırdı arvadını. Yaman çox sevirdi onu, yaman çox! Elə indi də! Elə bilirdi ki, canının bir parçasıdır Məltəm.

Gənc qadın evdə oturub, uşaqlarının tərbiyəsilə məşğul olmağa başladı. Yaxşı da ana idi. Qayğıkeş, mehriban... Uşaqların məktəbi ilə ciddi əlaqə saxlayır, dərslərini hazırlamaqda onlara köməklik edirdi. Uşaqlar da, maşallah, çox şirin, çox ağıllı uşaqlar idilər. Xüsusilə də Gültay! Ağıllı, şirindil, işgüzar bir qız idi. Qəşəngliyinə də heç söz ola bilməzdi. Lap anası kimi...

- Maşallah, nə qəşəng arvadın var, ay Saleh?!

Şərafət xanımın gur səsi Salehi diksindirdi. Ev sahibəsi evdən çıxıb onlara tərəf gəldi və əllərini belinə qoyub, şaqqanaq çəkdi:

- Deyirəm axı, Saleh nəyə görə ətrafındakılara baxıb eləmir!

Onun bu zarafatından Məltəm utanıb, başını aşağı dikdi. Saleh gülümsədi. O, ev sahibəsinin belə açıq zarafatlarına bir az öyrəşmişdi. Şərafət xanım dil-ağız elədi:


downloaded from KitabYurdu.org

- Darıxmayın, bu saat Nəcməddingil də şey-şüy alıb gələcəklər.

- Hər şey lap yaxşıdır, siz narahat olmayın, - Saleh dedi.

- Bu Rafiq harada itib-batdı, bilmədim! - Şərafət gileyləndi.

- Cavan oğlandı də, gəzir özü üçün. Harada olsa gələr, narahat olmayın.

- Saleh, dur canım-gözüm, o gədələrə başa sal, kabab üçün taxta-talaş yığsınlar. - Şərafət xanım dedi. - Kişi gələn kimi əti çəkək.

Saleh ayağa qalxıb fəhlələrin yanına getdi.

Onun bu qadına xüsusi hörməti var idi. Şərafət xanım Əlifağa kimi bir adamın arvadı olsa da, özünü çəkməz, tabeliyində olanların mənliyinə toxunan hərəkətlər etməzdi. Hərdənbir, kimisə acılaşa da, şux, bir az da açıq-saçıq zarafatları ilə könlünü almağı bacarırdı. Yaşı qırxa təzə çatsa da, köklüyü onu yaşından artıq göstərirdi. Bədəninə görə bir az da iri olan arxasını əsdirə-əsdirə həyətdə gəzir, əllərini belinə qoyub, gur səsilə göstərişlər verirdi. Salehin fikrincə, Şərafət xanım kişi xarakterli bir qadın idi. Belə qadınlarda qadınlıq duyğuları çox dərində olur və onlar heç bir pis şeyi ağıllarına gətirmədən əks cinsin nümayəndələri ilə də sərbəst rəftar edə bilirlər.

Ancaq bəzən zarafatının, sərbəstliyinin həddini o yerə çatdırırdı ki, onu tanımayan adam, haqqında pis fikrə də düşə bilərdi. Bir dəfə, keçən yay idi deyəsən, Saleh Şərafət xanımla bu həyətdə tək qalmışdı. Qadın ona həyətdə bir neçə iş buyurandan sonra, hamamı əvəz edən taxta evciyə ılıq su gətirib:



downloaded from KitabYurdu.org

- Tərləmisən, gəl bir az yaxalan! - deyə onu səslədi.

Saleh onun çağırışına gəlsə də, yuyunmaq istəmədi. Amma Şərafət xanımın sözünü yerə salmaq da çətin məsələ idi.

- Keç yuyun, it iyi verəcəksən yoxsa! - deyə qadın təkid etdi.

Bu sözlərdən sonra Saleh içəri girib soyundu. Ancaq evciyin qapısı əvəzinə yuxarıdan, sadəcə, bir bez parçası asıldığı üçün trusiyini əynində saxladı.

Demə, yaxşı ki, çıxarmayıbmış onu... Bədənini təzəcə islatmışdı ki, əlində dəsmal tutmuş ev sahibəsi qapını əvəz edən parçanı aralayıb, başını içəri soxdu:

- Al, bu da dəsmal! - dedi və təəccübləndi: - Niyə əməlli-başlı soyunub yuyunmursan?

Saleh utandığından qıpqırmızı qızarıb:

- Eybi yoxdur, belə yaxşıdır... - dedi.

Şərafət xanım içəri girib dəsmalı divara vurulmuş mıxdan asdı.

- Bu nədir? - deyə Salehin bədənini göstərib, onu məzəmmət etdi. - Niyə özünə baxıb ətə-cana gəlmirsən?

Sonra şaqqanaq çəkib güldü:

- Bu can-cəsədlə arvadının öhdəsindən necə gəlirsən? Birdən qaçırdarsan ha, arvadı əlindən?!

Saleh xəcalətindən danışmırdı. Qadın parçı götürüb onun üstünə su tökdü. Sonra isə kürəyini sabunlamağa başladı. O gün yazıq sürücünün bədənindən, Şərafət xanımın onun üstünə tökdüyü sudan daha çox tər çıxdı. İstidən yox, utandığından...

Amma heç Şərafət xanıma olan hörməti azalıb eləmədi bu işdən sonra. Əksinə, özündən cəmi beş- altı yaş böyük



downloaded from KitabYurdu.org

olmağına baxmayaraq, demək olar ki, anası gözüylə baxmağa başladı ona...

Darvaza tərəfdən siqnal səsi gəldi. Gənc fəhlələrdən biri yüyürüb darvazanı açdı və Rafiqin boz rəngli «Mersedes»i həyətə daxil oldu. Dünən, parkda baş vermiş hadisədən sonra, hələ də qanıqara olan Rafiq maşından düşüb imarətin
arxasına keçdi. Salehgili görüb, candərdi də olsa, gülümsədi:

- Paho! Salam, Saleh!

Sonra Məltəmə lazım olandan bir az artıq nəzər yetirib, anası ilə rus dilində danışmağa başladı:

- Papam haradadı bəs?

- İndi gəlməlidirlər, nəyə görəsə gecikdilər, - anası cavab verdi. - Keç tanış ol Salehin arvadı ilə! Bu da qızıdır. Bu gün on yaşı tamam olur.

- Lap yaxşı, təbrik edirəm! - Rafiq gəlib Gültayın saçlarını qarışdırdı. - Nə gözəl qızdı bu... Kuklinka!
Sonra Məltəmə əl uzatdı:

- Xoş gəlmisiniz!

Məltəm də utancaq təbəssümlə ona əl verdi:

- Çox sağ olun...

- Deyəsən, hələ heç nə hazır deyil? - Rafiq dönüb, evə girmiş anasını səslədi.

- Hazırdır, - anası əlində bir mətbəx bıçağı və bülöv daşı evdən çıxdı. - Qalan şeyləri də Nəcməddin alıb gətirəcək. Əti-filanı...

Sonra bıçaqla daşı Salehin qabağına qoydu:

- Saleh, bu bıçağı daşa çək, yaman kütləşib.

Saleh bıçağı götürüb itiləməyə başladı.



downloaded from KitabYurdu.org

Bu vaxt sakit maşın səsi eşidildi. Açıq darvazadan həyətə daxil olmuş qara rəngli «Ford- Mondeo» gəlib düz stolun yanında dayandı. Sükan arxasında oturmuş Nəcməddin qıvraq hərəkətlə maşından düşüb, sağdakı arxa qapını açdı. O, vaxtilə polisdə işləyib mayor rütbəsində istefaya çıxmış, qırx-qırx beş yaşlarında bir kişi idi. Orta boylu, sağlam bədənli bu kişi istefaya çıxandan
sonra Əlifağanın yanında qulluğa girmiş, az vaxtda, demək olar ki, onun «sağ əli» olmuşdu. Sadıxovun şəxsi obyektlərinə də nəzarət və rəhbərliyi o həyata keçirirdi. Mərd, eyni zamanda sadiq adam olduğu üçün şefinin ona xüsusi rəğbəti yaranmışdı.

Əlifağa Sadıxov Nəcməddinin açdığı qapıdan çıxıb ətrafa göz gəzdirdi. Ucaboylu, möhkəm bədənli bu kişi, bu yaxınlarda əlli beş illik yubileyini keçirməsinə baxmayaraq çox şux və qıvraq görünürdü. Təmiz qırxılmış üzündə qətiyyət və hakimiyyət cizgiləri özünə yer tapmışdı. Əyninə, çallaşmış saçlarına uyğun gələn boz rəngli kostyum geyinmişdi. Sol əlinin orta barmağında çox bahalı bir üzük bərq vururdu.

Müxtəlif, sanballı dövlət vəzifələrində işləmiş Sadıxov sonra birdən-birə vəzifədən uzaqlaşmış,
özünün şəxsi müəssisələrinə rəhbərlik etməklə sərbəst hakimiyyətini yaratmağa üstünlük vermişdi. Yeznəsinin və oturub-durduğu bəzi yaxın dostlarının böyük vəzifələrdə işləməsi onun bu sərbəst hakimiyyətinin gücünü bir qədər də artırır, hüdudunu bir qədər də genişləndirirdi.

Stolun arxasında oturanlar ayağa qalxdılar. Əlifağa yaxınlaşıb, birinci olaraq, Gültaya əl uzatdı və gümrah



downloaded from KitabYurdu.org

səslə:

- Yubilyarımız bizə xoş gəlib! - dedi.

Qızı əlləri ilə yuxarı qaldırıb, üzündən öpdü. Məltəmə isə əl verməyib, sadəcə:

- Xoş gəlmisən, qızım! - dedi.

Onun bu hərəkəti Salehə çox xoş gəldi və bayaqdan qəlbində yaranmış narahatlıq sovuşub getdi.

- Bayaqdan harada qalmısınız? - Şərafət xanım ərindən soruşdu.

- Bazarlıq vaxtımızı aldı, - Əlifağa cavab verib Salehə tərəf döndü. - Hə, başlayın kababı çəkin, süfrəni düzəldin. Öz ürəyiniz necə istəyir, eləcə.

Hamı əl-ayağa düşdü. Əti doğrayan kim, ocaq qalayan kim... Fəhlələrdə kababın hazırlanmasına kömək edirdilər. Az keçmiş süfrə tamam hazır oldu. Bayaqdan təzə tikilmiş imarətin eyvanında söhbət edən Əlifağa ilə Nəcməddin də düşüb gəldilər.

Stolun başında oturan ev sahibi sağ tərəfindəki stulu Gültaya göstərdi:

- Qızım, sən gəl burada, babanın yanında otur. Bu süfrədə bu saat ən hörmətli adam sənsən!

Məltəm utandığından dinib-danışmayan qızı gətirib onun dediyi yerdə oturtdu. Sonra özü də
qızının sağında əyləşdi. Bu vaxt Rafiq də gəlib onun yanında oturdu. Saleh ərinin solunda əyləşmiş Şərafət xanımın yanına, yəni Məltəmlə üzbəüz düşdü. Nəcməddin də axırıncı şişləri gətirib, Salehin yanında özünə yer tapdı və o saat da şefinin göstərişi ilə bahalı araq şüşələrindən birini götürüb badələrə araq süzdü.

Rafiqin dodağı künc tərəfdən azacıq partlayıb



downloaded from KitabYurdu.org

göyərmişdi. Bu bir gün əvvəl Ələmdarın vurduğu zərbənin nişanəsi idi ki, hələ də qalırdı. Rafiq yarasını atasından gizlətməyə çalışsa da, bu Əlifağanın gözündən yayınmadı.

- Dodağına nə olub, ay bala? - deyə narahatlıqla soruşdu.

Dünən tünd yaşıl rəngli «Volvo»nun nömrəsini götürmüş Rafiq bu gün onun kimə məxsus olduğunu öyrənə bilmişdi. O, Ələmdar adlı həmin oğlan üçün yaddaqalan bir intiqam planı fikirləşirdi və ona görə də bu barədə atasına, özü də Məltəm kimi gözəl bir xanımın yanında heç nə demək istəmirdi. Odur ki, əvvəldən düşünüb hazırladığı yalanı dedi:

- Dünən dostumla karate məşqi keçirdik. Onda oldu...

Əlifağa oğluna məzəmmətedici nəzərlərlə baxıb, başını buladı:

- Güclü olmaq istəyirsən, buna sözüm yoxdur. Amma yadında saxla ki, qol gücünün zəmanəsi gedib daha. İndi adama güclü qoldan çox, güclü ağıl lazımdır.

Bunu deyib öz badəsini əlinə götürdü:

- Hə, qaldırın görək! Bunu içirik bu balamızın... - dönüb Salehə baxdı. - Adı nə oldu?

- Gültay, - Saleh cəld cavab verdi.

- Hə, Gültay balamızın sağlığına! O gün olsun ki, böyük qız olsun, ali məktəbə qəbul olunsun və yığışaq, elə buradaca onu qeyd edək!

- Çox sağ olun! - Salehlə Məltəm bir ağızdan razılıq etdilər.

Kişilər və bir də Şərafət xanım içdilər. Rafiq Məltəmə baxıb astadan soruşdu:

- Siz niyə içmirsiniz?



downloaded from KitabYurdu.org

- Yox, mən heç ömrümdə içməmişəm. - Məltəm başını buladı.

- Onda sizə şampan süzüm.

- Yox, yox, çox sağ olun, içə bilmirəm.

Saleh üzünü ev sahibinə tutub minnətdarlığını elədi:

- Hər şeyə görə çox sağ olun, Əlifağa müəllim! Allah sizin kölgənizi bizim üstümüzdən əskik eləməsin... O gün olsun, burada Rafiqin toyuna yığışaq!

- Burada? - Sadıxov güldü və tez də ciddiləşdi. - Ancaq düz deyirsən. Ev hazır olsun, həyət qaydaya salınsın, burada yaxşı toy eləmək olar. Özün yaxşı bilirsən ki, Rafiq bizim gözümüzün işığıdır. Şəxsən mən heç nəyimi ondan əsirgəmərəm. Ancaq di gəl, bu da bir tərpənmək istəmir. İki aya universiteti qurtaracaq. Perspektivli bir iş yeri də nəzərdə tutmuşam bunun üçün. Şəhərdə ayrıca mənzil də hazırdır. Ancaq bu indi gərək nişanlanmış olaydı ki, üzümüzə gələn payızda toyunu edəydik.

- Eybi yoxdur, yayda nişanlanar, payızda da toyunu edərik. - Şərafət xanım dilləndi. - Təki bir yaxşı qız tapsın.

Əlifağa ağzındakı tikəni yeyib, dəsmalla dodaqlarını sildi və oğluna baxdı:

- Burada özgə adam yoxdur. Qulağıma çatır ki, gedib nişanlı qıza ilişmək istəyirsən. Söhbət, əlbəttə, nişanlı olmasında deyil onun. Nişan pozula da bilər. Ancaq məsələ orasındadır ki, ürəyi səninlə olmayan qız nəyinə gərəkdir?

Rafiq pərt halda, nə isə, anlaşılmaz bir şey mızıldadı.

- Yəni elə bir qız tapıla bilər ki, mənim oğluma rədd cavabı versin? - Anası onun yerinə cavab verdi.

Əlifağa başını bulayıb, söhbətin mövzusunu dəyişmək



downloaded from KitabYurdu.org

qərarına gəldi. Gültayın saçlarını sığallayaraq, onun dərsləri ilə maraqlandı:

- Dərslərini necə oxuyur bizim gözəl balamız?
- Əlaçıdır. - Saleh dilləndi.

- Maşallah! - ev sahibi yenə qızın saçlarını sığalladı. - Qoy oxusun! Böyüyəndə nə təhsil xərci olsa, babasının boynuna!

Məltəm öz utancaq təbəssümü ilə gülümsəyib:

- Allah ömrünüzü uzun eləsin! - dedi.

Şərafət xanım yağlı kabab tikələrindən bir
boşqaba yığıb, çörəkdən-salatdan götürdü və ayağa qalxdı.

- Fəhlələrə verim, yesinlər, yazıqdılar, - dedi.

- Orada paylarını saxlamışam. - Nəcməddin cəld dilləndi.

- Eybi yoxdur, onsuz da artıqdır.

Ev sahibəsi yeməyi özü aparıb, sönmüş ocağın yanında oturmuş fəhlələrə verdi və geri qayıtdı.

Məclis, nədənsə, o qədər də şən keçmirdi. Əlifağa indi ancaq Nəcməddinlə iş barəsində söhbət edirdi. Gültayın darıxması açıq-aydın hiss olunurdu. Şərafət xanım hərdən Salehə nəsə deyirdi. Ancaq Salehin fikri dağınıq olduğu üçün onu yaxşı anlaya bilmirdi. Onun fikrini yayındıran və hətta bir az əsəbiləşdirən Rafiqin Məltəmə həddən artıq «hörmət» göstərməsi idi. Az qalırdı tikələri də öz əliylə qadının ağzına qoysun. Həm də bayaqdan hansısa bir söhbət başlamışdı ki, Saleh sözləri adda- budda eşitsə də, bir şey anlaya bilmirdi. Məltəm isə tez-tez özünəməxsus həyalı təbəssümlə gülümsəyirdi.

Saleh arvadının hər şeyini sevirdi. Bəlkə də ən çox bu utancaq təbəssümünü! Ancaq daha bu təbəssüm özünü hər


downloaded from KitabYurdu.org

yerdə göstərməyəydi! Düzdür, Saleh başa düşürdü ki, arvadı burada qaşqabağını sallaya bilməz və boğazından yuxarı olsa da gülümsəməlidir. Ancaq hər halda, zalım qızının təbəssümü o qədər şirin, o qədər cəlbedici idi ki, Saleh onu qısqanmaya bilmirdi.

Doğrudan da, yaman qısqanırdı Məltəmi. Qocaya da, cavana da, lap uşaq-muşağa da! İşləməyə qoymaması bir yana dursun, heç mağazaya, bazara getməyinə də bir o qədər razı deyildi. Hərdən uşaqların oxuduğu məktəbə gedib- gəlirdi, vəssalam!

Qadınların, qızların əyinlərinə dar şalvar geyinməsi, artıq Bakıda adi hala çevrilsə də, Məltəm həmişə dizdən aşağı uzun yubka və ya don geyinərdi. Şalvar geyinməyinə heç vaxt razı olmazdı Saleh. Gözəl boy-buxunu və bədən quruluşu elə kənardan da cəlbedici görünən Məltəmin özünün də marağı yox idi şalvar geyinməyə.

Saleh düşünürdü ki, incə belləri və mütənasib arxa gərdənləri olan bir çox qadınlar var ki, əyinlərinə don və ya yubka geyinəndə çox gözəl görünürlər. Ancaq şalvar geyəndə oturacaq yerlərinin nöqsanları ucbatından əvvəlki gözəl görünüşlərini itirirlər. Məltəmin isə bu baxımdan heç bir nöqsanı-filanı yox idi və əgər o şalvar geysəydi, Allahın ona bəxş etdiyi sirli gözəllik bir daha qabarıq şəkildə üzə çıxardı. Bax, elə ən çox da buna görə Saleh razı deyildi onun şalvar geyinməyinə. Axı nəyə görə hər yoldan ötənin gözü onun arvadında qalmalıydı?

İndi də bu Rafiq... Məltəmə baxanda ağzının suyu axırdı. Həm də, kim bilməsə də, Saleh yaxşı bilirdi onun necə qadın düşkünü olduğunu. Saleh baş aça bilmirdi, o


downloaded from KitabYurdu.org

kimə oxşamışdı? Atası elə deyildi. Ağır və ciddi xasiyyəti var idi Əlifağanın.

Növbə ilə Şərafət xanımın, Məltəmlə Salehin, nəhayət, ev sahibinin özünün şərəfinə badə qaldırılandan sonra məclis bitdi.

Ayağa qalxanda Əlifağa bir yüz dollarlıq əsginası Gültayın balaca cibinə basdı və Salehə dedi:

- Hədiyyə ala bilmədim. Buna qızımız üçün bir don alarsan.

- Vallah, xəcalət verirsiz... - Saleh başını buladı.

- Heç bir xəcalətlik iş yoxdur. Mən sədaqəti də, hörməti də qiymətləndirməyi bacarıram. Bu sizə halaldır.

- Çox sağ olun! - Məltəm də təşəkkürünü bildirdi.

- Dəyməz, qızım! - Əlifağa dil-ağız etdi. - Bura sizin öz evinizdi. İstədiyiniz vaxt gəlib-gedə bilərsiniz. Bir çətinliyiniz də olsa, qətiyyən çəkinməyin. Saleh də bizim balamızdı.

- Allah köməyiniz olsun! - Məltəm dedi və Gültaya tərəf çevrildi. - Baba ilə sağollaş, gedək!

- Sağ olun... - Gültay astadan dilləndi.

- Sən də sağ ol, quzu bala! - ev sahibi əyilib qızın yanağından öpdü.

Rafiq Məltəmgili maşına qədər ötürdü. Ayrılanda:

- Hərdən gəlin-gedin! - dedi.

Məltəm dinmədi. Maşına mindilər. Saleh maşını işə salıb onu həyətdən çıxartdı və şəhərə yola düşdülər. Bir qədər gedəndən sonra arxaya dönüb:

- Necədir, təzə tanışlar xoşuna gəldi? - deyə arvadından soruşdu.

- Kişi, hə... - deyə Məltəm cavab verdi. - Ancaq



downloaded from KitabYurdu.org

arvadıyla oğlu bir o qədər də yox.

Saleh, nədənsə, Rafiqlə anası barədə deyilən fikrə münasibət bildirmək istəmədi və:

- Hə, kişi, həqiqətən, yaxşı kişidir, - deməklə kifayətləndi.

## Üçüncü fəsil

Əhali arasında «Qul bazarı» adlandırılan yer ilk baxışdan heç bir bazara-filana bənzəmirdi. Sadəcə, daimi iş yeri olmayan adamlar iki geniş yolun kəsişməsində, yolun kənarındakı şam ağaclarının kölgəsinə qoyulmuş daşların üstündə oturub, onlara hər hansı iş təklif edəcək müştəriləri gözləyirdilər. Aralarında tək-tək bənnalar, daşyonanlar, rəngsazlar və başqa-başqa ustalar da gözə dəyirdi. Onlar alətlərini və ya dəzgahlarını özləri ilə gətirib, qarşılarına qoymuşdular. Heç bir sənəti olmayan, «qara» fəhlələr isə yalnız bir sellofan torbada köhnə iş paltarlarını gətirmişdilər ki, onu da ağacların budaqlarından asmışdılar. Əslində, bu torbalar həm də reklam lövhəsi rolunu oynayırdı. Çünki bu «bazara» başqa cür lövhə vurmaq mümkün deyildi və buna heç icazə də verməzdilər.

Artıq günortadan keçmişdi. Saatın üç olmağına az qalırdı. Kölgəliyə yığılmış adamlar xeyli seyrəlmişdilər. Bəziləri gözləməkdən bezib evə qayıtmış, bəziləri müştəri tapıb işləməyə getmişdi. Tək-tək təcrübəsiz, yararsız və həm də çarəsiz olanlar qalmışdılar.

Bir qədər kənarda, ağacın gövdəsinə söykənib oturmuş iki nəfər də belələrindən idilər. Onlardan birinin əlliyə yaxın yaşı olardı. Ağ saçları pırtlaşıq, üzünü tük basmış bu kişinin adı Sədulla idi. Əyninə cırıq şalvar, ondan da betər


downloaded from KitabYurdu.org

ayaqqabı geyinmişdi. O qədər arıq idi ki, şalvarının əynindən düşməməsi üçün ona ip keçirib bağlamışdı. Danışanda başının
tez-tez əsməsindən içki düşkünü olduğu qənaətinə gəlmək olardı.

O biri isə Fərhad adında cavan oğlan idi və heç yatanda yuxusuna da girməzdi ki, bir vaxt gəlib burada oturacaq. Saatlarla oturub, ona hər hansı bir iş təklif edəcək adamı gözləməli olacaq.

Bir il idi ki, ali məktəbi bitirib neft mühəndisi diplomu almışdı. Bir il idi ki, özünə iş axtarırdı, ancaq tapa bilmirdi. Beləcə atasının, qardaşının qoltuğuna qısılıb yaşayırdı. Bəlkə hələ bir az da belə yaşayacaqdı. Ancaq daha dözə bilmədi. Böyük qardaşının arvadı Kamilənin baldızına, yəni Fərhadın bacısı Əsmərə dediyi sözləri eşidəndən sonra!

Kamilə əri Ələkbərin yanında qorxusundan bu barədə danışa bilməsə də, təklikdə Əsmər
müəlliməyə gileylənmişdi:

- Ay Əsmər, olmaz ki, Fərhad gedib bir iş tapıb işləsin?! Nə vaxta qədər qardaş hesabına yaşayacaq? Sən, qadınlığınla, işləyib güclə də olsa özünü, oğlunu dolandırırsan. Kişinin, arvadın pensiyaları özlərinə, dava-dərmanlarına heç bəs eləmir. Qantural işsizdi, ancaq, hər halda, buraya əziyyəti düşmür, özünü necə dolandırır, özü bilir. Ələkbər də ki, vallah, nə zülmlə pul qazanır, özün görürsən. Səhərdən axşama kimi o taksidə, ora sür, bura sür! Hər xasiyyətdə adama rast gəlir. Asandı elə bilirsən? Yekə kişidi Fərhad, getsin özünə bir iş tapıb işləsin, heç olmasa, pal-paltarını özü alsın.


downloaded from KitabYurdu.org

Bu sözləri dünən axşamüstü, təsadüfən eşitmişdi. Bir xeyli fikirləşdikdən sonra qərara
gəlmişdi ki, bu gün səhər tezdən durub buraya gəlsin və belə də eləmişdi.

Sədulla ilə də burada tapışmışdı. O da, bədbəxt oğlu, üç uşaq atası imiş, üçü də balaca. Böyüyünün on yaşı varmış. Hər halda, Sədulla özü belə demişdi Fərhada. Özü də orta məktəblərin birində gecə gözətçisi işləyirmiş. Çox içdiyinə, bir də çox danışdığına görə dalından dəyiblərmiş. Doğrudan da, zalım oğlu nə qədər danışırdı?! Heç dil-boğaza qoymurdu. Həmişə gecələr gözətçilik edib, gündüzlər yatdığı üçün söhbət etməyə adam tapmamışdı axı?!

İndi də danışığına təzəcə ara vermişdi. Başını əsdirə-əsdirə ətrafına boylanıb yenidən başladı:

- Bir köpək oğlu gəlib aparmadı ki, bir-iki manat qazanıb, heç olmasa, siqaret alım.

Nə qədər zəhləsini töksə də, Fərhadın ona yazığı gəldi.

- Sənin də, mənim kimi, heç pulun yoxdu? - deyə soruşdu.

- Pul nə gəzir?! - Sədulla ucadan, istehza ilə dilləndi.

- Bəs uşaqlar nə yeyir evdə?

Sədulla xırıltılı səslə güldü. Ağzında cəmi iki-üç dənə diş qalmışdı.

- Dünən iki manatım var idi. Qorxdum ki, ora- bura xərcləyərəm, gedib düz iyirmi dənə çörək aldım. Aparıb tökdüm uşaqların qabağına, dedim, yeyin, kef eləyin! - bir az ara verib özü öz əməlindən cuşa gələn adamlar kimi lap ucadan səsləndi. - İyirmi dənə ha!!! İyirmi dənə! Qonşuların gözü kəlləsinə çıxmışdı. Ha-ha-ha!..



downloaded from KitabYurdu.org

Birdən gülməyini kəsib, susdu. Nədənsə gözləri yol çəkməyə başladı. Pərtlik yağan baxışlarını bir nöqtəyə dikib durmuşdu. Deyəsən, kiminsə, çəkib yerə atdığı siqaret kötüyünə baxırdı...

Sədullanın üzündəki kədəri görən Fərhad bilmədi ki, ona necə təsəlli versin. Özünün, heç olmasa, bəd ayaqda, istədiyi vaxt yeməyə çörəyi var idi. Atası Zəkixan varlı olmasa da mərd, ağayana kişi kimi tanınırdı. Fərhaddan heç nəyini əsirgəməzdi. Kamilənin dedikləri onun qulağına çatsaydı, lap yəqin, aşının suyunu verərdi. Elə Ələkbər də! Yaxşı qardaş idi, insafla deyəndə. Dost-tanış arasında da əməlli-başlı hörməti, çəkisi var idi. Üç qardaş, bir bacı idilər. Fərhad ən kiçikləri hesab olunurdu. O biri ortancıl qardaş Qantural öz əmisi qızı ilə evlənəndən sonra atasından ayrılıb, ayrı yaşayırdı.
Doqquzmərtəbəli binada ikiotaqlı mənzil almışdı. Bir dənə də köhnə «Volqa»sı var idi. Uşaqlıqdan dalaşqan, kəmhövsələ olan Qantural Qarabağ uğrunda döyüşlərdə iştirak edib, yaralı qayıdandan sonra lap dəlisov olmuşdu. Söz demək mümkün deyildi ona. Elə bil hər şeydən dava axtarırdı. Ancaq ehtiyac olsaydı, o da Fərhaddan öz köməyini əsirgəməzdi...

Sədullanın səsi onu xəyallardan ayırdı:

- Mən belə olmamışam ha! Sovet vaxtı marşrut avtobusda şofer işləyirdim. Özüm də milyonlar qazanırdım. Bəs nə?! Adamın birini beş qəpikdən hesab elə! O avtobuslar neçə adam tutardı?

- Otuz, qırx... - Fərhad candərdi cavab verdi.

Sədullanın gözləri bərəldi:

- Nə otuz, nə qırx?! Mən o böyük avtobuslardan


downloaded from KitabYurdu.org

sürürdüm. Bilirsən, nə boyda idi? - fikirləşib müqayisə üçün bir şey axtardı və deyəsən, tapdı: - Eşşək boyda! Mindən çox adam tuturdu.

Fərhad gülüb başını buladı: «Yalan nə qədər olarmış adamda?» Sədulla da, deyəsən lap ağ elədiyini başa düşüb susdu. Yazığın başının əsməsi dayanmırdı ki, dayanmırdı. Əlini salıb cibindən yekə, köhnəlmiş, uzun antenalı bir mobil telefon çıxartdı. Ona bir müddət təəssüf dolu nəzərlərlə baxıb gileyləndi:

- Buna da bir qəpik verən yoxdur ki, satım. Deyirlər dəbdən düşüb. Lap milçək öldürənə oxşayır.

Həmsöhbətinin dillənmədiyini görüb, telefonu cibinə qoydu.

- Bakı-Ceyhan kəməri də istifadəyə verildi. Deyirlər, hamıya pul paylayacaqlar, hə?

- Bilmirəm! - Fərhad könülsüz cavab verdi. Sədulla telefonunu yenidən çıxartdı:

- Payımı versəydilər, bir təzə telefon alardım. Adam bunu gəzdirməyə lap utanır. Özü də elə ağırdır ki, ağırlığından az qalır şalvarım düşsün...

Birdən asfaltın kənarında, onların düz yaxınlığında boz rəngli bir «Mersedes» dayandı. Maşında iki oğlan oturmuşdu. Arıq, donqar burunlu, danışanda saqqız çeynəyirmiş kimi çənəsini oynadan oğlan qapını açıb, barmağının işarəsi ilə Sədullanı yanına çağırdı:

-A kişi, bizimlə gedərsən? Yarım saatlıq iş var. Sədulla sevincək ayağa qalxdı:

- Niyə getmirəm?! Bəs burada niyə oturmuşam?!

- Onda gəl otur, getdik!

Maşına minməyə tələsən Sədulla, qəfil yadına düşmüş



downloaded from KitabYurdu.org

kimi, dönüb Fərhadı göstərdi:
- İş varsa, qoy bu da gəlsin. Yaxşı oğlandır.
İş sahibi Fərhadı müştəri gözü ilə süzdü:
- Yaxşı oğlandırsa, qoy o da gəlsin!
Fərhad ayağa qalxdı:
- Bilmək olarmı nə işdir?
Maşından düşməyən oğlan ona rişxəndlə baxdı:

- Pul qazanmaq istəyən üçün işin nə fərqi var? İşdir də! Bağda yüngül bir iş var. Tez qurtarsanız, on- on beş dəqiqəlik.

- Nə verəcəksiz? - Fərhad aldanmaq istəmirdi.
- Hərənizə iki manat.
-Azdır axı?!..
- Elə iş də yüngüldür. Yaxşı... Hərənizə üç manat.
- Nə deyirəm, gedək!

Fərhad razılaşsa da, daxilində yaman əzab çəkirdi bu işə görə. Mənliyini tapdanmış hiss edirdi. Amma fikrindən də dönən deyildi. Pul qazanmağa başlayacaqdı. Bunun üçün zir- zibil təmizləməyə də, hər cür ağır yük daşımağa da hazır idi. Ancaq o bilmirdi ki...

Onlarla danışan Əlifağa Sadıxovun oğlu Rafiq, maşının sükanı arxasında oturan isə polis rəisinin oğlu Fuad idi. Onlar bu gün kafedə doyunca yeyib- içəndən sonra Fuadgilin böyük həyətinə gəlmişdilər. Həyətdə heç kəs yox idi. Ağacın kölgəsinə qoyulmuş stolun arxasında oturub bir qədər kart oynayandan
sonra Rafiq bezib oyunu dayandırmışdı. Hasarın dibində, qəfəsdə saxlanılan tək dovşanı görüb:

- Bunu neyləyirsiniz? - deyə soruşmuşdu.

- Üç dənə idi, - Fuad cavab vermişdi, - ikisini kəsib,


downloaded from KitabYurdu.org

kabab elədik. Bu qalıb...

Rafiq ayağa qalxıb dovşanı qəfəsdən çıxarmış, azadlığa çıxan dovşan o saat həyətboyu üzüaşağı qaçmışdı.

- Vay, qaçdı! - deyən Rafiq beş-on metr onun dalınca yüyürsə də, çata bilməyəcəyini görüb geri qayıtmışdı.

- Qaça bilməz, hər yan hasardır, - Fuad demişdi.

Bayaqdan onsuz da özünə əyləncə axtaran Rafiqin ağlına haradansa, belə bir fikir gəlmişdi:

- Bilirsən neyləyək, Fuad? Gedib bir fəhlə tapıb gətirək, qovub tutsun bu dovşanı bizim üçün. Həm yaxşıca əyləncəyə baxarıq, həm də axırda kabab eləyib yeyərik dovşanı.

- Qəribə fikirlər gəlir ağlına! - dostu gülmüşdü.

- Yox e, getdik! - Rafiq qəti sözünü deyib, maşına minmişdi...

Arxa oturacaqda oturmuş Sədulla ilə Fərhad yolboyu heç nə danışmadan, görəcəkləri iş barədə və qazanacaqları pul barədə düşünürdülər. Maşın Rafiqin olsa da, onu Fuad sürürdü. Qabaqda oturmuş Rafiq isə siqaretini tüstülədə-tüstülədə söhbətin birini qurtarıb, o birinə keçirdi:

- Fuad, kafedə yadımdan çıxdı sənə deyim, dünən bir təzə cananla tanış olmuşam.

- Harada? - dostu maraqlandı.

- Salehin arvadıdır də, papanın şoferinin. Dənizkənarı həyətimizə qonaq gəlmişdilər.

- Yox əşi?! Babat şeydir?

- Babat nədir? - Rafiq ağzını marçıldatdı. - Qiyamətdir e, qiyamət. Saleh haradan tapıb onu, baş açmıram. Gözəlliyi gözəllik, fiqurası da fiqura! Naz- qəmzəsi də öz yerində. Lap yandırdı tökdü məni!


downloaded from KitabYurdu.org

- Yola gətirə bildin? - «ağzı sulanmış» Fuad soruşdu.

- Hələ yox... - Rafiq başını buladı. - Ancaq inanıram ki, yola gələcək. Bir az qaş-göz elədim, əl gəzdirdim, etiraz-filan olmadı.

- Bura bax, - Fuad kinayə ilə güldü. - Fatimə nə tez gözündən düşdü?

- Kim dedi ki, gözümdən düşüb? Onun ayrı yeri var, bunun ayrı. O quzudur, bu ağ balıq. Hərəsinin öz dadı, öz ləzzəti...

- Ancaq o gün parkda o allahsız oğlu yaman su qatdı aşımıza. Yadıma düşəndə hirsimdən partlayıram. İnan, Rafiq, atamın canı üçün, mən gözləmirdim o məni vura bilər, yoxsa onu meyit eləyərdim orada!

Rafiq ciddiləşdi:

- Bura bax, sənə demək istəmirdim, istəyirdim sonra sürpriz olsun, ancaq deyəcəm... Onun maşınının nömrəsini götürmüşdüm. Öyrəndim kim olduğunu. Ələmdardı adı... İdman klubunda məşqçi işləyir. Atası avtoritet olub. Elə özü də bir dəfə yatıb- çıxıb türmədə...

- İndi nə etmək istəyirsən? - Fuad da ciddi tərzdə soruşdu.

- Sən bu işə qarışma. - Rafiq dedi. - Ayın 9-da, sabah yox, birisi gün bizim uşaqlar onu tutub ölümcül olana qədər döyəcəklər. Sonra verəcəklər mənim əlimə. Onda heyfimizi alacam ondan! İndi görərsən, ayaqqabılarımı yalatdıracam ona!

- Necə axtarıb tapdın sən onu?..

- Bəs məni nə bilmişdin? - Rafiq ağzını əydi. - Yoxsa elə bilirdin bağışlayacaqdım onun hərəkətini?!

- Hər halda, ehtiyatlı ol! - Fuad məsləhət gördü.



downloaded from KitabYurdu.org

- Heç bir problem yoxdur! - Rafiq çəkib qurtardığı siqaretin kötüyünü maşının açıq pəncərəsindən atdı.

Gəlib bağa çatdılar. Fuad maşını içəri saldı. Dördü də maşından düşdü. Rafiq dayanıb həyətə göz gəzdirdi. Üzüm tənəklərinin arasında
gizlənməyə çalışan dovşanı Sədullagilə göstərib dedi:

- Baxın, bu dovşanı bizim üçün tutmalısınız!

Sədulla ilə Fərhad təəccüblə bir-birinə baxdılar.

- Vəssalam? Elə bu? - Sədulla soruşdu.
- Hə, elə bu!

- Tutaq daa! - Sədulla dedi. Ancaq pərt olduğu qırımından görünürdü.

- Di başlayın görək! - Rafiq bunu deyib stolun arxasındakı stulların birində oturdu və ayağını ayağının üstünə aşırdı.

Sədulla çevrilib dovşana tərəf getdi. Getməmişdən əvvəl isə başı ilə Fərhada işarə etdi:

- Gəl dalımca, bu saat tutacağıq. Nə var ki bunu tutmağa?!

Ancaq Fərhad yerindən tərpənmədi. O, indiyədək belə təhqir olunmamışdı. Nə edəcəyini, nə deyəcəyini götür-qoy edir, hirsindən dodaqlarını gəmirirdi. Onun hərəkəti Rafiqə toxundu:

- Sən niyə getmirsən?

- Bizi buna görə gətiribsiniz buraya? - Fərhad deməyə başqa söz tapmadı.

- Nədi, işdi də! - Rafiq rişxəndlə dedi. - Boş- bekar oturmuşdunuz orada. Ancaq indi pul qazanacaqsınız.

Fərhad dönüb həyətin o biri başına baxdı. Sədulla geniş həyətdə, şaqqanaq günəşin altında dovşanın dalınca


downloaded from KitabYurdu.org

qaçırdı. Qorxudan bağrı yarılmış dovşan var gücü ilə özünü xilas etməyə çalışır, qəfil sıçrayışlarla Sədullanı çaşdırırdı. Sədulla hərdən az qalırdı dovşanı tutsun. Ancaq həmin anda ağzı üstə
yerə sərilir, qorxmuş heyvan əlindən çıxıb qaçırdı. Yenidən ayağa qalxan Sədulla bir əliylə şalvarını yuxarı dartıb, dovşanı söyə-söyə onun dalınca yüyürürdü. Ayağına boş olan cırıq ayaqqabıları da ona yaxşı qaçmağa mane olurdu.

Fuad gülməkdən uğunub getmişdi. Elə Rafiq də. Ancaq o, birdən gülməyini kəsib Fərhada baxdı:

- İndi demək istəyirsən ki, sən kömək etməyəcəksən ona?

Fərhad onun həyasızlıq yağan sifətinə baxıb, handan-hana dilləndi:

- Eyibdir, atanız yaşında kişidir o!

Söz Rafiqin acığına gəldi:

- Mənim atamı kiminlə müqayisə edirsən ə, maygülü?!
- Danışığına fikir ver, qudurma! - Fərhad acıqla dedi.

Rafiq cəld ayağa qalxıb maşına yaxınlaşdı. Qapını açıb oradan bir tapança götürdü. Geriyə qayıdıb silahı Fərhada tuşladı:

- Üçəcən sayacam, dovşanı tutmağa getməsən, təpəni dağıdacam!

Fərhad azğınlaşmış bu oğlanın üzünə nifrətlə baxıb susdu. İçində isə dəhşətli bir burulğan baş qaldırmışdı. Fuad da tamaşaya baxmağı dayandırıb yaxına gəldi və gah gözü qızmış dostuna, gah da tərsliyinə salıb yerindən tərpənməyən Fərhada baxmağa başladı.

- Bir! - Rafiq dodağını gəmirib ucadan dilləndi.



downloaded from KitabYurdu.org

Fərhad dönüb arxaya baxdı. Sədulla qan-tər içində dovşanı qovurdu. Yenə Rafiqə tərəf çevrildi:

-Ağlını başına yığ!

- İki! - Rafiq daha ucadan dilləndi.

- Qardaşlarım səni sağ buraxmaz! - Fərhad ölümünü tamamilə gözünün önünə alsa da, bu ərköyün oğlanın dediyini eləməyə heç cür ayağı getmirdi.

-Üç!

Atəş açıldı. Güllə Fərhadın başının üstündən getdi. Rafiq tapançanı stolun üstünə tullayıb heykəl kimi dayanmış oğlanın üstünə gəldi:

- Nə qardaş-qardaş salmısan ə, köpək oğlu?! Fərhad Rafiqin birinci zərbəsini dəf edə bildi.

İkincini də... Ancaq bu zaman Fuad dostunun köməyinə çatıb, rəqibinə yandan zərbə endirdi. Səntirləyən Fərhad daha Rafiqin zərbələrinin qarşısını ala bilmədi. Qarnına dəyən təpikdən dizləri qatlandı.

Rafiqlə Fuad yerə yıxılmış Fərhadı bütün gücləri ilə təpikləməyə başladılar. Fərhad bacardığı qədər özünü müdafiə edir, heç olmasa, başını təpiklərdən qorumağa çalışırdı. Dostlar yorulub dayananda qucağında dovşan tutmuş Sədullanın onlara tərəf gəldiyini gördülər.

Rafiq gedib stulda oturdu. Tapançasını əlinə götürüb, qarşısında dayanmış Sədullaya baxdı və rişxəndlə dedi:

- Hə, bu başqa məsələ! Sən pulunu alacaqsan. Ancaq bu əclaf imkan vermədi ləzzətlə tamaşa eləyək sənə!

Sədulla yıxıldığı yerdən ayağa qalxıb ağzının qanını silən Fərhada baxdı. Deyəsən, nəsə anlamağa başlamışdı.



downloaded from KitabYurdu.org

- Apar dovşanı sal qəfəsə! - Rafiq ona əmr etdi. Kişi duruxub, yerində qalmışdı.

- Səninlə deyiləm?! - Rafiq səsini qaldırdı. Sədulla birdən dovşanı qucağından yerə
buraxdı. Azad olmuş heyvan yenidən qaçıb həyətin aşağısına doğru getdi. Rafiq əlini-əlinə vurub güldü:

- Əla! Bu lap yaxşı oldu. İndi təzədən tut onu! Sədulla başını əsdirə-əsdirə bir müddət
dovşanın arxasınca, sonra isə Fərhada baxdı. Birdən-birə dönüb darvazaya tərəf getdi.

- A kişi, hara gedirsən? - Rafiq çığırdı. - Qayıt, dovşanı tut!

Sədulla bir anlıq ayaq saxlayıb əlini yellədi:

- Get, özün tut!
- A kişi, qayıt, pulunu ikiqat verəcəm!
- Lazım deyil mənə sənin pulun!

- Niyə, nə olub mənim puluma? - Rafiq onun arxasınca çığırdı.

- Azərbaycanlı qanı yoxdu səndə, ermənisən sən! - Sədulla bir də əlini yelləyib darvazadan çıxdı.

Bu vaxt Fərhad da üstünün tozunu təmizləyib onun ardınca yollandı. Ancaq getməmişdən qabaq o da Rafiqə öz sözünü dedi:

- Nə olar, əlbət bir də görüşərik səninlə!

Rafiq, nədənsə, ona heç bir cavab vermək
istəmədi. Deyəsən, Sədullanın sözü yaman tutmuşdu onu...

Dördüncü fəsil

- Ana, bu gün ayın neçəsidir?

- Bu gün aprelin doqquzudur, - mətbəxdə şam yeməyi hazırlayan Məltəm balaca Eltayın otaqdan



downloaded from KitabYurdu.org

qışqıraraq verdiyi suala cavab verdi.

- Gördün?! - Gültayın qalibanə səsi gəldi. Daha Eltaydan səs çıxmadı. Deyəsən, kiçik məğlubiyyətinə görə pərt olmuşdu. Məltəm gülümsəyib başını buladı.

Bu dəfə Gültay, əlində tutduğu bir kitabla mətbəxə girdi.

- Ana, leopard nədir?

- O da pələng kimi vəhşi heyvandır. - Məltəm çəkilmiş əti əlində yumurlayıb üzüm yarpağına bükərək cavab verdi.

- Necə olur? - qız maraqla soruşdu.

- Demədim? Pələngə oxşayır. Çox güclü, cəld, həm də ağıllı heyvandır. Üstəlik, yaxşı iy də bilir.

Gültay əlindəki kitabı açdı:

- Başa düşdüm. Sağ ol! Burada heyvanlar haqqında maraqlı nağıl var. Yazıblar ki, bir səhrada çoxlu aslan, pələng, leopard olurmuş. Bir dəfə başqa yerlərdən buraya çoxlu pis heyvanlar hücum edirlər. Ayılar, tülkülər, çaqqallar... Bu səhranın heyvanları ayağa qalxıb, vuruşmaq üçün onların qabağına çıxırlar. Başlarını dik tutub düşməni gözləyirlər. Birdən o biri tərəfdən bir zəhərli ilan sürünə-sürünə gəlir. Aslanlar, pələnglər onu görə bilmirlər. İlan aslanlardan birini gizlicə çalır. Aslan ölür. Sonra başqasını...

-Yaxşı, Gültay, qurban olum, ilandan danışma! - Məltəm başını silkələdi. - Get, get özün oxu, ana qurban!

Ancaq Gültay otağa gedənədək ucadan və tələsik nağılı tamamladı:

- Heyvanların arasına qarışıqlıq düşür. Amma



downloaded from KitabYurdu.org

ayaqlarının altına baxmırlar. Bir-birləri ilə vuruşurlar və düşmənə məğlub olurlar.

Qızın axırıncı sözləri öz otaqlarında eşidildi. Məltəmin çöhrəsinə yenə təbəssüm qondu. Beş dəqiqə keçməmiş, Gültay yenidən mətbəxə girdi:

-Ana!

- Haycan!

Bu Məltəmin ən çox işlətdiyi ifadələrdən biri idi. Salehin də çağırışına çox vaxt belə cavab verirdi.

- Leopard kimi adam ola bilər?

- Niyə olmur? Bizdə o qədər leopard kimi oğlanlar var kil... Ancaq üzə çıxmırlar.

Gültay əl çəkmədi:

- Əgər bizdə elə adamlar varsa, bəs onda niyə biz ermənilərə məğlub oluruq?

Məltəm əlindəki işini yarımçıq qoyub, qızına baxdı:

- Ona görə ki, bizim də aramıza ilan girib! - əli bulaşıq olduğu üçün birqoluyla Gültayın başını qucaqladı. - Get canım, get dərsini oxu, atan gələnə mən də xörəyi bişirib qurtarım.

Qız dönüb sakitcə otağına getdi. Məltəmin yadına yenə də rayonlarının işğal olunması və ailəsinin faciəli surətdə qırılması xəbərini aldığı gün düşdü. Dərindən ah çəkib, əlindəki işi sürətləndirməyə və bununla başını qarışdırmağa çalışdı.

Yarpaq dolması bişirirdi. Bu, ərinin çox sevdiyi xörək idi. Bilən kimi sevinəcəkdi. Yəqin, saat altıya kimi, harada olsa, gələrdi. Bu gün bazar günü idi, yəqin ki, çox işi olmazdı.

Məltəm ərini bu gün xüsusi intizarla gözləyirdi. Ayda



downloaded from KitabYurdu.org

bir dəfə baş verən qadın xəstəliyindən dünən qurtarmışdı. Özündə bir yüngüllük, rahatlıq hiss edirdi. Salehlə keçirəcəyi gecə haqqında fikirləşəndə bədəninin hər yerinə xoş bir ovqat hakim olurdu. O, əriylə keçirdiyi anlardan həmişə xüsusi ləzzət alırdı. Təkcə ona görə yox ki, ərindən kişi təması, kişi nəvazişi görürdü. Yox! Əslində, neçə ildən bəri ər- arvad olmaqlarına baxmayaraq, Saleh hələ də onunla öz arasında müəyyən pərdə saxlayırdı, hələ də onunla yatağa girəndə həyəcandan nəfəsi tutulurdu. Daha çox ona görə ləzzət alırdı ki, ərini sevirdi və Salehin bədəninin hər bir əzası onun üçün doğma idi, əziz idi.

Əslində, onun Salehdən və iki balasından başqa kimi var idi ki bu dünyada? Heç kimi! Qohum-qardaş
bir yana dursun, heç lazım gələndə dərdini-sərini bölüşməyə bir rəfiqəsi də yox idi. Məktəbdə işləyəndə Aynur adlı bir müəllimə ilə dostluq edirdi. İndi onunla da əlaqələri kəsilmişdi. Tələbə yoldaşlarından da heç kəslə nə görüşür, nə də zəngləşirdi.

Amma tələbəlik illərində belə deyildi Məltəm. Çox şən, deyib-gülən, qılıqlı bir qız idi. Hamı xətrini çox istəyirdi, bir bacı kimi. Oğlanlarda, qızlarda... Sonra Salehi gördü və ona vuruldu. Bəzən gedib, saatlarla dekanlıqda, bir katibə tanışının yanında otururdu ki, Saleh oraya girəndə onu yaxından görsün, səsini eşitsin. Saleh isə bunu başa düşmür, ona tərəf heç baxmırdı da... Salehin universiteti bitirib rayona gedəcəyini fikirləşəndə, elə qorxurdu ki
Məltəm. Ona görə də Saleh diplomunu aldığı gün, özü dözməyib yaxınlaşdı sevdiyi oğlana...

Məltəmin yadına düşdü ki, hamamda qızdırıcını yandırıb. Tələsik, işini qurtarıb, qazanı qaz piltəsinin



downloaded from KitabYurdu.org

üstünə qoydu və qaçaraq həyətə düşüb hamamda suyun istiliyini yoxladı.

Onlar köhnə Bakı məhəllələrinin birində olurdular. Dar, uzun həyətdə onlardan başqa üç ailə də yaşayırdı. Məltəmgilin ikinci mərtəbədə yerləşən üçotaqlı mənzili bu ailələrinkindən yaxşı idi. İşıqlı, nəmişlik-filan da yox idi. Həyətdəki hamamın da yaxşısı onlara məxsus idi. Ümumiyyətlə isə, bu məhəllədə su, qaz, elektrik heç vaxt kəsilmirdi. Üstəlik, bazar özü də çox uzaqda deyildi.

Ancaq necə olmasa, köhnə məhəllə idi. Küçələr dar, evlər bir-birinə yapışmış. Damların üstü qır
olduğu üçün yay aylarında evlərin içi çox isti olurdu. Ona görə də bütün yaşlı kişilər çıxıb axşama kimi səkidə otururdular. Onların baxışları altında bu dar küçələri addımlamaq bəzən Məltəmi çox sıxırdı. Adama yaman diqqətlə fikir verirdilər. Ancaq insafla deyəndə, məhəllədə heç kəs heç kəsin arvadına, qızına pis gözlə baxmırdı. Bu lap köhnədən bakılıların ciddi adəti olmuşdu. Sonradan müxtəlif kənd rayonlarından adamlar köçüb bakılılara qarışsalar da, bu adət qorunub saxlanmışdı.

Məhəlləyə yeni köçənlərin hamısını göz qoymaqla yoxlayıb öyrənirdilər. Elə Salehgili də belə öyrənmişdilər. Artıq bilirdilər ki, Saleh imkanlı bir adamın sürücüsü işləyir. Bilirdilər ki, sakit, mərifətli oğlandır. Başını aşağı salıb, öz işiylə məşğul olur. Arvadı da, maşallah, maşallah, çox gözəl qadındır.
Küçəyə çıxanda bütün məhəlləyə işıq saçır, elə bil. Ancaq küçəyə çıxmağı da az-az olur. Uşaqların məktəbinə gedib-gəlir, hərdən də yaxındakı mağazaya, vəssalam!

Həyalı-abırlı gəlindir. Küçədə heç kəslə salamlaşmır.



downloaded from KitabYurdu.org

Amma elə xoş, nurlu sifəti var ki, eləcə baxışı salama bərabər tutula bilər. Burdan-bura bazara da getmir. Əsas bazarlığı həmişə Saleh özü edir. Yaxın adamları və evlərinə gəlib-gedənləri yoxdur...

Məltəm xalat, dəsmal və sabun-filan götürüb hamama düşdü. Qapını içəridən bağlayıb, paltarsoyunulan yerdə, iri güzgünün qarşısında soyundu. Güzgüdə öz əksinə nəzər yetirib, həmişəki kimi, yenə də özündə bir eyib tapa bilmədi. Ancaq deyəsən, bir balaca, lap az arıqlasaydı pis olmazdı.

Ya bəlkə heç lazım deyildi? Saleh onu belə daha çox bəyənirdi.

Qadınlıq duyğuları yenə baş qaldırdı. Daha doğrusu, güclü baş qaldırdı. Çünki onun bu duyğulardan azad olduğu vaxt olmurdu. Hələ gənc idi, sağlam idi. Sağlamlığından da, qadınlığından da zövq alırdı həmişə.

İçəri keçib duşu açdı və hər bir kəsi heyran edə biləcək çılpaq bədənini ılıq su axınının ixtiyarına verdi. Qara, uzun saçlarını sığallayıb incə belinə süzülən gur su damcıları burada üç hissəyə ayrılırdı. İki hissəsi sağdan və soldan, ağappaq, enli, hamar və bir qədər yastı təpələri aşıb üzüaşağı tökülür, bir hissəsi isə həmin təpələrin arasındakı dərin və isti yarğandan axıb gedirdi. Məltəm çevrilib, başını geri ataraq şux sinəsini duşun altına verəndə də, qismən
buna oxşar mənzərə yaranırdı. Fərq onda idi ki, buradakı təpələr çox dik və balaca, araları isə o biri yarğanla müqayisədə çox dayaz idi.

Kənara çəkilib, bədənini başdan ayağa sabunladı və yenidən duşun altına girdi. Ağ köpüyə bürünmüş gözəl


downloaded from KitabYurdu.org

əndamını sığalladıqca bihuşedici bir hiss daxilinə hakim kəsilirdi. Sığallanmaq, əzizlənmək, öpülmək arzusunu heç cür boğa bilmirdi. Axşamın tez düşməsini və Salehlə yataqda qovuşacağı anı səbirsizliklə gözləyirdi.

Nəhayət, yuyunub əvvəlki otağa qayıtdı və qurulandı. Ağ rəngli, üstündə çox xırda güllər olan pambıq parçadan tikilmiş, yumşaq alt paltarını əyninə keçirib, xalatını geyindi. Belə alt paltarını Salehin zövqünə görə geyinirdi. Tünd rəngli, ipək və ya sintetik alt paltarlarından zəhləsi gedirdi Salehin.
Deyirdi ki, belə paltarları geyəndə, yadlaşırsan, elə bil, gözümdə. Ancaq, qəribədir ki, qara kalqotkadan və o rəngli yubkadan xoşu gəlirdi. Nə isə... ürəyi nə cür istəyir, özü bilər. Onun istədiyi kimi də geyinəcək Məltəm!

Hamamdan çıxıb, pilləkənlə evə qalxdı. Həyətdə rastlaşdığı qonşu kişi onu görüb üzünü yana çevirdi. Ancaq Məltəm dəqiq bilirdi ki, bu kişi bu saat arxadan ona baxır. Gözünün ucu ilə görüb, hiss etmişdi bir neçə dəfə. Üzünə baxa bilmirdi, amma çevrilən kimi arxadan tamaşa edirdi.

Əşi, özü bilər! Gedib gözlərini qapamayacaqdı ki, əlləriylə? Əsas odur ki, həyasızlıqla gözlərini sifətinə zilləmirdi. Məltəmin şit-şit söz atıb üzə gülən, kompliment deyən kişilərdən xoşu gəlmirdi. Bir də ki, heç komplimentə ehtiyacı da yox idi onun. Kişilərin
oğrun və mənalı, qadınların qibtə dolu baxışları özü haqqında hər şeyi deyirdi ona. Əslində, kişilərin, demək olar hamısı, gözəl qadın görəndə ona mütləq baxırlar. Ancaq bəziləri açıq-aydın, bəziləri isə bu qonşuları kimi gizlicə, oğru kimi... Bəziləri isə, gözəl qadınlara, sadəcə, hörmətlə yanaşır və bu hörməti baxışlarında da,


downloaded from KitabYurdu.org

davranışlarında da bildirirlər.

Məltəmin yadına srağagün ilk dəfə gördüyü Əlifağa düşdü. Doğrudan, xoşu gəlmişdi o kişidən. Bir-iki saatlıq məclisdə daim ona öz hörmətini və qayğısını hiss etdirsə də, gözünü üzünə zilləməmiş, artıq-əskik söz atmamışdı. Kaş elə bir ciddi, təmkinli atası olaydı indi. Ya da əmisi, dayısı... O məclisdən sonra hiss edirdi ki, o qədər də arxasız, adamsız deyillər Bakıda. Elə bil arxasında böyük bir dağ hiss edirdi o gündən sonra.

Ancaq onun oğlu... Bəlkə də yüksək mövqeli, imkanlı ailələrdə adət belədir. Bəlkə də o oğlan qonaqpərvərliyə görə elə edirdi. Ancaq hər halda, Məltəmin xoşu gəlmədi ondan. Lap qır-saqqız olub yapışmışdı Məltəmə. Elə bil körpə uşaq yedizdirirdi. Hətta bir neçə dəfə çiyninə, ayaqlarına da toxundu. Məltəm, bəzi qadınlar kimi hər belə hərəkətdən söz düzəldən deyildi. Bəlkə də o hərəkətlər bir təsadüf idi. Amma hər halda, Məltəmin xoşu gəlmədi ondan, vəssalam!

Əlifağa haqqında fikirləşəndə öz atası yadına düşdü. Atası da yaxşı kişi idi, rəhmətlik. Özü də, iki qız, bir oğul övladından ən çox, yaşca ən kiçik olduğuna görə, Məltəmi istəyirdi. Atasının ölməyindən xəbər tutdu, qardaşının da... Ancaq bacısının öldüsündən, qaldısından indi də bir xəbər eşidə bilmədi. Bir oğlu da var idi bacısının. Məltəm onu axırıncı dəfə görəndə dörd yaşında idi. Allah bəlasını versin ermənilərin!..

Qapı döyüldü. Məltəm cəld gedib, pəncərənin pərdəsini araladı. Ərinin pilləkənin başında dayandığını görən kimi qapını açdı. Saleh salam da vermədən onun yanından sovuşub otağa keçdi. Arxasınca gələn Məltəm ərinin sol


downloaded from KitabYurdu.org

qolunun ağ parça ilə sarındığını və sarğının qana bulaşdığını görüb əlini üzünə apardı:

- Bu nədir, ay Saleh, nə olub sənə?

- Uşaqlar buraya gəlməsinlər! - qonşu otağa tərəf boylanan Saleh dilləndi. Onun rəngi tamam ağarmışdı.

Məltəm uşaqların olduğu otağa qaçıb:

- Burdan çıxmayın! - dedi və qapını arxadan bağlayıb ərinin yanına gəldi. O, əməlli-başlı kövrəlmişdi. Ağlamamaq üçün dodaqlarını dişləyirdi.

- Sənə qurban olum, Saleh, nə olub sənə? Kim vurub səni?

- Bilmirəm. - Saleh həyəcanlı halda başını buladı. - Qabağımı kəsmişdilər. Dalaşdıq. Vurub qaçdılar...

- Kim idi axı onlar? Nə istəyirdilər səndən?

- Bilmirəm... - Saleh üzünü yana çevirdi.

Məltəm sarğını açıb, qanlı köynəyi ərinin əynindən çıxartdı. Bıçaq çiyindən bir az aşağı, sol qolun yumşaq əzələlərini parçalamışdısa da, yara bir o qədər qorxulu deyildi. Ancaq yaradan axan qan hələ kəsilməmişdi.

- Həkim çağırmaq lazımdır! - başını itirmiş Məltəm telefona baxdı.

- Yox, yox! Lazım deyil! - Saleh etiraz etdi.

- Niyə axı?

- Dedim ki, olmaz! Özün sarı!

Məltəm qalxıb kətan gətirdi. Evdə təmiz spirt olmadığı üçün yaranı araqla yuyub, sarıdı. Qanlı köynəklə, döşəkağından cırılmış qanlı parçanı divanın altında gizlədib, ərinə təzə köynək geyindirdi. Sonra divanda, ərinin yanında oturdu. Nəsə demək istəyirdi ki, Saleh



downloaded from KitabYurdu.org

dilləndi:
- Məltəm!
- Haycan?... - Məltəm canıyananlıqla ona baxdı.

Saleh demək istədiyi sözü sanki boğazından geri qaytardı.

- Nədi, qurban olum, nə istəyirsən? - qadın ağlamsındı.
- Məni tutacaqlar!

Saleh bunu dedi və özünün də dodaqları səyridi, gözləri yaşardı.

- Nə?! - Məltəm qulaqlarına inanmadı.
- Deyirəm, məni tutacaqlar...
- Niyə axı, neyləmisən sən?
- Heç nə...
- Bəs onda niyə tuturlar səni? Ayağının altında ölüm, Saleh, məndən heç nə gizlətmə!

Saleh susub, başını aşağı dikdi.

- Axı sənin nə günahın var? - qadın bir də təkidlə soruşdu.
- Heç nə ... - Saleh başını qaldırdı. - Ancaq yəqin ki, məni tutacaqlar. Elə bu gün...

Məltəm birdən özünü saxlaya bilməyib hönkürtü ilə ağlamağa başladı. O qədər yanıqlı və ürəkdən ağlayırdı ki, Saleh dözə bilməyib öz dərdini unutdu və ona təskinlik verməyə başladı:

- Bəsdir, ağlama, Məltəm, uşaqlar eşidər.

Eltay içəridən qapını yumruqlamağa başlamışdı:

- Ana, gəl aç qapını!

Gültay isə onun səsini kəsməyə çalışırdı:

- Çəkil bu tərəfə, özü gəlib açacaq! - deyirdi.

Məltəm handan-hana özünü ələ alıb göz


downloaded from KitabYurdu.org

yaşlarını quruladı. Tutulmağın, həbs olunmağın nə demək olduğunu dərindən bilməsə də, bu barədə yalnız kinolarda görüb, kitablardan oxusa da indi bir şeyi anlayırdı: onları ayrılıq hədələyirdi! Uzun və üzücü bir ayrılıq! Yenə ağlamamaq üçün dodaqlarını dişlədi.

- Axı sənin nə günahın var? - deyə bir də soruşdu. - Səni vurublar, sən ki, heç kimi vurmamısan?! Əgər səni nahaqdan şərləmək istəyən varsa, nə qədər gec deyil, hər şeyi Əlifağa müəllimə danış. O sənə kömək edər.

Saleh başını qaldırıb arvadının üzünə baxdı və dərdli-dərdli başını buladı:

- Heç bilirsən, nə olub?

- Nə olub, axı? - Məltəm gözünü onun ağzına dikdi.

Saleh yaxşı danışa bilmirdi. Boğazı qurumuşdu. Rəngi ağarmış, gözləri hədəqəsindən çıxmaq dərəcəsinə gəlmişdi. Bədənində də elə bil titrətmə var idi. Nə qədər çalışırdısa da, özünü ələ ala bilmirdi.

Məltəm stəkanda su gətirdi.

- İç, özünü ələ al! - dedi.

Saleh əli əsə-əsə suyu alıb içdi.

-Axı nə olub?

- Əlifağa müəllimin oğlunu öldürüblər! Rafiqi...

Məltəm heyrətindən yerindəcə dondu:

- Necə?!. Kim öldürüb?

- Bilmirəm... - Saleh başını silkələdi.

Eltay bağlı qapını təpikləyirdi. Məltəm keyləşmiş kimi bir müddət ətrafına baxdı. Sonra gedib qapını açdı. Uşaqlar içəri girib, atalarının üstünə yüyürdülər. Eltay qalxıb divanda, onun yanında oturdu.

- Haçan gəldin, ata?



downloaded from KitabYurdu.org

Gültay isə atasının boynuna sarılıb, onu öpməyə başladı:

-Yaxşı nağıl oxumuşam, danışım sənə?

Sonra isə danışmağa başladı:

- Bir səhrada çoxlu aslan, pələng, leopard olurmuş. Leopard bilirsən nədi, ata? Leopard...

Məltəm birdən gördü ki, Saleh Gültayı bağrına basıb ağlayır. O da dözə bilmədi. Mətbəxə qaçıb, pəncərəni açdı. Özünü elə göstərdi ki, guya həyətə baxır. Amma gözlərindən qaynayan acı göz yaşları yanaqları boyu süzülür, oradan da birbaş həyətə tökülürdü.

Beşinci fəsil

Əlifağa Sadıxovun dənizkənarı mülkündə qeyri-adi narahatlıq hökm sürürdü. Şərafət xanım müvəqqəti yaşayış üçün tikilmiş kiçik evin qarşısında əsəbi və həyəcanlı yerişlə o baş-bu başa gəzişirdi. Burnunun altında hey kiminsə qarasına deyinir, kimisə sözlə «asıb-kəsirdi». Üç gün əvvəl, Gültayın ad günündə burada gördüyümüz həmin iki gənc fəhlə də bir qədər kənarda dayanıb, pərt halda başlarını aşağı dikmişdilər. Bu zaman onlara diqqətlə fikir verən olsaydı, simalarında pərtlikdən daha çox qorxu və peşmançılıq ifadəsi oxumuş olardı.

Ev sahibəsi birdən dayanıb üzünü onlara çevirdi və hökmlə:

- Daha nə gözünüzü döyürsünüz? - dedi. - Çıxın gedin xarabanıza! Dediklərimi də yadınızdan çıxarmayın!

Fəhlələr əmrə tabe olub, dinməz-söyləməz darvazaya tərəf üz tutdular. Gedə-gedə öz aralarında astadan nəsə danışırdılar. Yəqin ki, azacıq əvvəl baş vermiş xoşagəlməz hadisəni müzakirə edirdilər. Həmin hadisə onları,


downloaded from KitabYurdu.org

doğrudan da çox bərk qorxutmuş və həyəcanlandırmışdı.

Darvazanı açıb küçəyə çıxdılar. Bu zaman ilk gördükləri Rafiqin boz rəngli «Mersedes»i oldu. Maşın darvazadan beş-altı metr aralı, hasarın yaxınlığında dayanmışdı. Sonra gördükləri isə onlara o qədər sarsıdıcı təsir etdi ki, onsuz da həyəcandan çırpınan ürəkləri az qaldı ağızlarına gəlsin:

Əlifağanın oğlunu öldürmüşdülər!

Cansız cəsəd maşınla hasarın arasında qalan iki metrlik yerdə arxası üstə sərilmişdi. Rafiqin dəhşət ifadə edən gözləri bərəlmiş vəziyyətdə, açıq qalmışdı. Göyərib şişmiş gicgahından axan qan sifətində bir neçə nazik cığır açmışdı.

Fəhlələrdən biri yaxınlaşıb meyitə nəzər saldı və cəld geri çəkilib, heyrətlə yoldaşına baxdı:

- O ölüb, Yaqub, o ölüb!

Yaqub əlləri ilə başını tutub, yavaş-yavaş aşağı çökdü.

- Vay dədə! Bu nə oyundu gəldi başımıza?!

Bir qədər beləcə dayanandan sonra başını qaldırdı:

- Umud, keç içəri, arvada xəbər ver!

Umud adlandırılan oğlan cəld həyətə girib, qaçaraq imarətin arxasına keçdi və:

- Şərafət xanım, Şərafət xanım! - deyə səsləndi.

Qadın evdən çıxdı:

- Nə olub, a gədə?

- Rafiqi vurublar! - Umud həyəcandan titrəyən əlini darvazaya tərəf uzatdı.

Yüksək qan təzyiqi olan adama qəflətən belə xəbəri vermək qorxulu idi. Qadının halı o saat pisləşdi və bu


downloaded from KitabYurdu.org

sözləri güclə deyə bildi:

- Kimi...vurublar? Ra...fi...qi?

Umud məcbur oldu ki, Yaqubu da köməyə çağırsın. Köməkləşib qadını rahat yerdə uzatdılar və bildikləri primitiv üsullarla onu özünə gətirməyə çalışdılar. Şərafət xanım, nəhayət ki, özünə gəldi və bəd xəbəri ona bir də deməyə məcbur oldular. O, fəhlələrin köməyilə küçəyə çıxdı. Oğlunun meyitini
görəndə üz-gözünü cırmağa, qışqırıb hay-küy salmağa başladı. Fəhlələr ona meyitə əl vurmağa imkan vermədilər. Müstəntiq gəlib baxmasa, əl vurmaq olmaz! - dedilər. Sonra onu birtəhər yola gətirib, həyətə saldılar.

Həyətə tökülmüş daşların birinin üstündə oturan Şərafət xanımın artıq ağlı üstündə idi. Əllərini dizinə vura-vura astadan deyirdi:

- Saleh öldürdü balamı, Saleh!

Küçədə nə adam, nə də bir maşın görünürdü. Yol boyu, sağda və solda yalnız təzə mülklərin hasarları uzanıb gedirdi. Umud evdən ağ bir parça gətirib meyitin üstünə sərdi. Sonra, yavaş-yavaş qalxan küləyin parçanı kənara atmaması üçün, onun üstünə künc tərəflərdən kiçik daşlar qoydu.

Bu işi görüb qurtarandan sonra hər ikisi nə edəcəklərini bilmədən dayanıb, durdular. Yaxşı bilirdilər ki, indi Əlifağaya, ya da birbaş polisə zəng vurmaq lazımdır. Ancaq digər tərəfdən, bu işdə şahid qismində iştirak etmək də istəmirdilər. Çox arzu edirdilər ki, ev sahibəsi bir qədər əvvəl onlara demiş olduğu sözləri bir daha təkrar etsin: - «Çıxın gedin xarabanıza!»

Ancaq ev sahibəsi bu sözləri demədi. Tam sakitləşib,



downloaded from KitabYurdu.org

bir qədər də fikirləşəndən sonra evdən cib telefonunu gətizdirdi. Nədənsə, ərinə yox, Nəcməddinə zəng vurdu və baş vermiş hadisəni ona bildirdi. Bu vaxt, artıq, saat altı idi. Bu həmin saat idi ki, həmin vaxt Saleh yaralı vəziyyətdə evinə girmiş, onu intizarla gözləyən həyat yoldaşını son dərəcə heyrətləndirmişdi.

Gözləməyə başladılar. Umudla Yaqub küçədə dayandılar ki, meyitə toxunan olmasın. Şərafət xanım isə həyətdə oturub, əllərini qoynuna qoyaraq nəyin barəsindəsə dərindən düşünürdü...

Təqribən qırx dəqiqə sonra Nəcməddinin sürdüyü qara rəngli «Ford» və daha bir xarici markalı maşın gəlib düz darvazanın qarşısında dayandı. İkinci maşından dörd nəfər səliqəli geyimli gənc kişi çıxıb, əmrə müntəzir halda yerlərində durdular. Bunlar Əlifağa Sadıxovun ən etibarlı adamlarından idilər. Dördü də boy-buxunları və qüvvətli bədənləri ilə seçilirdilər.

Əlifağa Sadıxov aramla «Ford»dan düşüb, əvvəlcə qorxudan özlərini itirmiş fəhlələrə, sonra isə saçları bir-birinə qarışmış, üzü-gözü cırılmış vəziyyətdə hövlnak darvazadan çıxan arvadına
nəzər saldı. Daha sonra təmkinli addımlarla yaxınlaşıb, meyitin üstünə sərilmiş mələfəni kənara atdı. Bir qədər sakitcə ayaq üstə dayanıb, oğlunun cansız cəsədinə tamaşa etdi. Üzdən çox sakit görünürdü və bu anlarda nə hisslər keçirdiyini anlamaq çətin məsələ idi. Birdən çevrilib Nəcməddinə ani nəzər salaraq həyətə girdi. Nəcməddin cangüdənlərə burada qalmağı tapşırıb, mələfəni təzədən meyitin üstünə sərdi və fəhlələrə də ardınca gəlməyi əmr edib, içəri keçdi.


downloaded from KitabYurdu.org

Əlifağa həyətdəki stolun arxasında oturub, qarşısında dayanmış arvadına, Nəcməddinə və fəhlələrə baxırdı. Nəhayət, gözlərini arvadına zilləyib, astadan, boğuq səslə dilləndi:

- Danış görüm!

Şərafət əllərini sinəsinə çırpıb, zarıdı:

- Belim sınıb, ay Əlifağa, nə danışım?

- Danış görüm, burada nə baş verib?! - Sadıxov səsini bir az qaldırdı.

Həmişə naz-qəmzəsi, ağlayıb-sıtqaması ilə ərinin diqqət və rəğbətini qazanmağa adət etmiş qadın onun qırımının tamam başqa cür olduğunu görüb, bir az sakit danışmağa başladı:

- Bir saat əvvəl bu gədələrə dedim ki, daha yorulmusunuz, çıxın gedin evinizə. Bunlar da getdilər... Darvazadan çıxmaqları ilə qayıtmaqları bir oldu. Qayıdıb xəbər verdilər ki... Sözünün dalını gətirə bilmədi... Yaylığını çıxarıb gözlərindən axan yaşı qurulamağa başladı. Əlifağa sualedici nəzərlərini fəhlələrə çevirdi.

- Bəli, belə olub... - Umud dərhal dilləndi.

Sadıxov yenə arvadına üz tutdu:

- Biz Salehlə bəzi şeylər alıb göndərmişdik. Bəs o gəlməyib buraya?

- Gəlmişdi, - arvadı cavab verdi. - Gətirdiyi şeyləri verib getdi. O, Umudgildən bir az əvvəl çıxdı.

- Verdi və çıxıb getdi. Elə bu?!

- Hə... - Şərafət başını aşağı saldı.

Əlifağa, başını tərpətməklə, kişilərə uzaqlaşmağı əmr etdi. Nəcməddinlə fəhlələr bir qədər kənara çəkildilər. Bundan sonra sərt baxışlarla arvadının



downloaded from KitabYurdu.org

düz gözlərinin içinə baxaraq dedi:

- Şərafət, mən səni anlaya bilmirəm. Bizim oğlumuzu öldürüblər. Başa düşürsən, oğlumuzu?! Mən bilməliyəm ki, onu kim öldürüb! Saleh niyə mənim yanıma qayıtmadı? Niyə telefonunu söndürüb? Nə hadisə baş verib burada?

Şərafət xanım yenə yaylığı ilə gözlərini silib kəskin hərəkətlə başını silkələdi. Bir qədər susandan sonra ərinin nüfuzedici baxışlarının üzünə zilləndiyini görüb, danışmaq qərarına gəldi:

- Onsuz da, görürəm, bunu gizlin saxlaya bilməyəcəm, Əlifağa, mən Salehi yaralamışdım...

- Necə yəni, yaralamışdım? Nə ilə?! - əri heyrətləndi.

- Bıçaqla...
- Niyə?
- Oğraş mənə əl atırdı...

- Sən nə danışırsan, Şərafət? - Əlifağa hirsləndi, ancaq səsini qaldırmadı. - Qurd ürəyi yemişdi o?

- Nə qurd ürəyi, Əlifağa, oğraş elə oğraşdı! - Şərafət xanımın ağzından elə bil od tökülürdü. - O məni çoxdan marıtlayırdı. Ancaq baş qoşmurdum. O gün buradakı məclisdə ayaqlarıma sürtünürdü. İstəyirsən öldür məni, yenə fikir vermədim. Dedim axırı özü başa düşüb dayanar. Bu gün də gəlib göndərdiyin şeyləri yerbəyer eləyəndə mən qaz piltəsinin qabağında dayanıb, xörək hazırlayırdım. Gah sağıma keçdi, gah soluma keçdi. İki dəfə dedim ki, cəhənnəm ol, saya salmadı. Arxadan qucaqlayanda, başım xarab oldu, stolun üstündən mətbəx bıçağını götürüb vurdum. Ancaq bıçaq ürəyini tutmadı, sol qolunu deşdi. Sonra ağlım başıma gəldi. Qorxdum ölüb-eləyər. Qolunu sarıyıb, özünü də qovdum həyətdən. O da



downloaded from KitabYurdu.org

məni söyə-söyə küçəyə çıxdı. Bax, onda yazıq balamla üz-üzə gəlibmiş yəqin...

- O niyə söyürdü ki səni? - Əlifağa soruşdu. - Dediklərin düzdürsə, o gərək xəcalətdən başını götürüb qaçaydı. Ya da sənə yalvarıb üzr istəyəydi.

- Necə yəni, düzdürsə, Əlifağa? - qadın təəccübləndi. - Əvvəla, mənim iki şahidim var, çağır onlardan soruş! Sonrası da, ona görə söyürdü ki, guya mən bunu əvvəl şirnikləndirib, arxayın eləyib, sonra belə hərəkət eləmişəm. Guya qıçlarıma sürtünəndə, orama-burama göz qoyanda dinməməyim bunu şirnikləndirmək imiş. Guya mən soyunub bir dənə çimərlik paltarında bunun qabağında gəzmişəm. Adama deyərlər, sən məni niyə güdürsən, a köpək oğlu?!

Əlifağa əli ilə çənəsini ovuşdurub fikrə getdi. Sonra yenə arvadını zəndlə süzüb dilləndi:

- Mən sənə deyəndə ki, ev hazır olmamış burada işin yoxdur, deyəndə ki, heç olmasa, qulluqçu götür özünə, gördün ki, haqlı imişəm?!

- Bunun nə dəxli var, Əlifağa? - Şərafət kövrəldi. - Olan, onsuz da oldu. O bizim sürücümüzdü. Onsuz da öz xasiyyətini nə vaxtsa göstərəcəkdi. Kül mənim başıma ki, gərək mən bu qələti eləməyəydim. Mənim ucbatımdan getdi balamız. Gərək mən vurub yaralamayaydım o əclafı. Ya heç vurmayaydım, ya da öldürəydim birdəfəlik!

- Əlbəttə, gərək öldürəydin! - Sadıxov başıyla kənarda dayanmış fəhlələri göstərdi. - Öldürsəydin, bu yetimçələrin biri boynuna götürüb, yatardı türmədə. Ancaq mən heç istəməzdim ki, mənim adım olan yerdə belə xoşagəlməz işlər baş versin. Bu çox pis iş oldu! Çox pis!


downloaded from KitabYurdu.org

Nəcməddini yaxına çağırıb, oturmaq üçün stul göstərdi. Sonra isə Umudu barmağının işarəsilə çağırıb, gördüklərini danışmağı əmr etdi. Sarsıntıdan hələ də xilas ola bilməmiş gənc danışmağa başladı: - Yaqubla ikimiz həyətdə işləyirdik. Şərafət xanım evdə idi. Saleh hər əlində bir torba, gəlib evə girdi. Bir azdan, səs-küy eşidib yaxınlaşdıq. Gördük ki, Salehin qolundan qan axır. Şərafət xanım, nəyə görəsə, onu söyürdü. Çox hirslənmişdi. Bizə də çölə çıxmağı əmr etdi. Biz həyətə çıxdıq. Dalımızca Salehin də çıxdığını və Şərafət xanımı hədələyə- hədələyə getdiyini gördük. Daha, nə baş verdiyindən xəbərimiz olmadı... Bir az sonra evimizə getmək üçün darvazadan çıxanda, Rafiqi bu vəziyyətdə görüb Şərafət xanıma xəbər verdik...

Əlifağa Sadıxov Yaqub adlı o biri fəhləni də ayrıca danışdırdı. O da öz yoldaşının dediklərini eynilə təkrar etdi. Ev sahibi yenə də onlara uzaqlaşmağı əmr edib Nəcməddinə dedi:

- Çıx, uşaqlardan ikisini göndər, gedib Salehi tapıb bura gətirsinlər!

Nəcməddin:

- Baş üstə! - deyib cəld ayağa qalxdı və küçədə dayanmış cangüdənlərin yanına getdi.

O, yanında işlədiyi müddətdə öz şefinin xasiyyətini az-çox öyrənmişdi. Bilirdi ki, Əlifağa Sadıxovun səbrinin həddi-hüdudu yoxdur. Heç vaxt qızışıb özündən çıxmaz. İstər sevincini, istərsə də kədərini hər yetənlə bölüşüb, hər yetənə sirr verməzdi. Bir də onu bilirdi ki, Əlifağa çox kinli adamdır. Ona sataşanı heç vaxt bağışlamaz, cəzasız qoymazdı.



downloaded from KitabYurdu.org

Saat səkkiz olmuşdu. Hava yavaş-yavaş qaralmağa başlayırdı. Həyətdə qorxunc bir sakitlik, cansıxıcı bir narahatlıq dolaşırdı. Üstünə ağ mələfə çəkilmiş meyit hələ də küçədə idi. Əlifağa Sadıxov, nədənsə, hələ də polisə xəbər verməyə tələsmirdi. Hələ nəsə düşünürdü. Nəcməddin cangüdənlərin ikisini Salehin dalınca göndərib, geri qayıdan kimi, arvadının danışdıqlarını da ona çatdırıb, fikrini bildirməyi əmr etdi.

Nəcməddin, dediyimiz kimi, əvvəllər polisdə işləyib mayor rütbəsində istefaya çıxmışdı. İndi şefinin ondan ağıllı bir təklif gözlədiyini görüb, bir qədər fikirləşməli oldu. Yalnız bəzi məsələləri götür-
qoy edib fikrini qətiləşdirəndən sonra danışmağa başladı:

- Əlbəttə, mən mərhumun meyitini ciddi müayinə etməmişəm. Qətlin kim tərəfindən və necə törədilməsi barədə qəti fikri yalnız polis təhqiqatından sonra demək olacaq. Ancaq mən deyə bilərəm ki, uşağı küt bir alətlə, ola bilsin ki, daşla gicgahından vuraraq öldürüblər. Burada iki variant ola bilər: Birincisi, onu kənarda qətlə yetirib, öz maşınında gətirərək buraya ata bilərdilər. İkincisi, onu elə buradaca, darvazanın qarşısında, özü gəlib maşından düşəndən sonra vura bilərdilər...

İstefada olan mayor bir anlıq ara verib, Əlifağanın onu diqqətlə dinlədiyini gördü və söhbətinə davam etdi:

- Birinci variant o qədər də ağlıma batmır. Niyə görə? Ona görə ki, kimsə bu uşağı hər hansı səbəbdən kənarda öldürmüşdüsə, elə həmin yerdə qoyub gedərdi, ya da aparıb xəlvət bir yerə, məsələn, dənizə atardı. Onu şəhərdən bir saatlıq yolla buraya gətirmək, özü də mərhumun öz maşınında gətirmək, lap açıq düşmənçilik



downloaded from KitabYurdu.org

məqsədilə, açıq intiqam məqsədilə edilsə də, ağlabatan deyil. Rafiqin maşınını şəhərdə çox adam tanıyır. O cümlədən də bütün yol polisləri! Onlar maşının sükanı arxasında yad adam görüb, onu saxlaya bilərdilər. Hər halda, belə bir adam gərək, doğrudan da, qurd ürəyi yemiş olsun!..

- Yaxşı, ikinci varianta keç! - Əlifağa dedi.

- İkinci variant odur ki, Rafiqi darvazanın qarşısında vurublar. Ola bilərdi ki, onun maşınını izləyib, burayacan gələr, Rafiq maşından düşəndə onu vurub qaçardılar. Ancaq mən küçəyə diqqətlə baxdım. Bütün küçə daş tozu ilə suvanıb. Buna görə də, izlər aydın bilinir. Orada yad maşın dayanmayıb. Bir də ki, onu öldürmək məqsədilə izləyən olsaydı, tapança, ya bıçaqla vurardı, daşla yox! Deməli, belə çıxır ki, onu izləməyiblər. Digər tərəfdən, küçə boyu yaxında darvaza yox, gizlənməyə yer yox... Bütün bunlar söyləməyə əsas verir ki, Rafiqi bu həyətdən çıxan adam vurub.

- Yəni ki, Saleh! - Əlifağa yenə xarakterinə yaraşmayan səbirsizlik göstərdi.

- Bəli! - Nəcməddin təsdiq etdi. - Lap yəqin ki, bu belədir!

Araya üzücü bir sükut çökdü və yaranmış bu sükutu yenə birinci olaraq, keçmiş polis əməkdaşı pozdu:

- İndi icazə verərsinizsə, keçək bu biri məsələyə. Şərafət xanımın Salehi vurmağına... Bunu bu şəkildə polisə bildirməyi, yəqin ki, siz də istəməzsiniz?!

- Sözsüz! - Əlifağa başını yellədi.



downloaded from KitabYurdu.org

Nəcməddin onlara diqqətlə qulaq asan ev sahibəsinə baxdı:

- Siz o mətbəx bıçağını buraya gətirə bilərsiniz?
- Hə, bu saat!

Şərafət xanım evə keçib, uzun tiyəli bir mətbəx bıçağı ilə qayıtdı və onu Nəcməddinə verdi. Bıçağın uc hissəsində qurumuş qan ləkəsi qalmışdı. Nəcməddin onu gözünün qabağında tutub diqqətlə nəzərdən keçirtdi.

- Gəlin, bu bıçağı, - Şərafət xanım astadan dilləndi. - Rafiqin əlinə verək. Guya ki, dalaşıblar və Salehi o vurub...

Əlifağa Sadıxov bir müddət matdım-matdım arvadının üzünə baxdı. Deyəsən, əvvəlcə nəsə demək istədi. Ancaq demədi. Başını bulayıb, üzünü Nəcməddinə çevirdi.

Onun cavab gözlədiyini başa düşən köməkçisi cəld dilləndi:

- Bu pis fikir deyil, Əlifağa müəllim. Bunu mən də sizə təklif edəcəkdim. Amma onu da deyim ki, belə edəriksə, Saleh özünü müdafiə maddəsilə az iş alacaq. Üstəlik, rəhmətliyin adına ləkə də gələ bilər.

Sadıxov bir qədər qabağa əyilib, qəzəbli baxışlarını Nəcməddinin üzünə dikdi:

- Məni kiminsə nə qədər iş alacağı qətiyyən maraqlandırmır. Təki özüm oğlumun qatilini tanıyım. Tamdımmı, deməli, o nə vaxtsa əsl cəzasına çatacaq. Özü də artıqlamasıyla! Qaldı ki, oğlumun adına nəsə xələl gəlməsi, bəs nə edək, Şərafətin adı hallansın bu işdə?

- Yox, - Nəcməddin cavab verdi. - Mən dedim ki, Şərafət xanımın təklifiylə razıyam. Ancaq onu da deyim ki, bu bıçağı Rafiqin əlinə vermək olmaz. Çünki bu mətbəx bıçağıdır. Hadisə isə küçədə baş verib. Bu şübhə yaradacaq



downloaded from KitabYurdu.org

və heç kəs inanmayacaq ki, Rafiq maşınında mətbəx bıçağı gəzdirib.

- Bəs onda nə edək? - Şərafət kinayə ilə soruşdu.

- Bir dəqiqə gözləyin, xahiş edirəm. - Nəcməddin ayağa qalxdı. - O, maşınında bıçaq
gəzdirməmiş olmazdı.

Bunu deyib, darvazaya tərəf getdi. Beş-altı dəqiqə sonra qayıdıb, hasarın yaxınlığında dayanaraq siqaret çəkən fəhlələrə şübhəli bir nəzər saldı və əlindəki bıçaqla tapançanı stolun üstünə qoydu.

- Onda tapança nə gəzirmiş? - Əlifağa acıqla arvadına baxdı.

Şərafət kədərli halda başını bulayıb, çiynini çəkdi. Əvəzinə Nəcməddin dilləndi:

- Hər halda, bunu götürün, görünməsə yaxşıdır.

Sonra ev sahibəsindən su istədi. Barmağını
onun stəkanda gətirdiyi suya batırıb mətbəx bıçağında qalmış qan ləkəsini sildi və barmağındakı qanı maşından gətirdiyi bıçağın ucuna yaxdı. Bir neçə dəfə bunu təkrar edəndən sonra, həmin
bıçağın dəstəyini yaş dəsmalla silib, elə dəsmalla da yapışdı və küçəyə çıxıb onu meyitin sağ əlinə verdi. Geri qayıdandan sonra mətbəx bıçağını diqqətlə təmizləyib ev sahibəsinə qaytardı. Şərafət xanım bir qədər arxayınlaşmış halda bıçağı alıb içəri apardı.

- Bəs bunları neyləyək? - Əlifağa başı ilə fəhlələri göstərdi.

Hava qaranlıqlaşmağa başladığı üçün Umudla Yaqub çətin görünürdülər. İmarətin divarına vurulmuş elektrik fənərinin işığı daha çox stola və onun yaxın ətrafına



downloaded from KitabYurdu.org

düşürdü.

- Onları aradan çıxartmaq düz olmazdı. - Nəcməddin dedi. - Əksinə, təlimatlandırmaq lazımdır onları. Saleh, hər halda, polisdə onlar barədə ağzından söz qaçıracaq. Orada adamı danışdırmağı yaxşı bacarırlar.

- Salehə qalsa, - Əlifağa əsəbi dilləndi, - ağzından çox şey qaçırar. Elə Şərafətin onu vurmağını da! Gərək lazımi qaydada başa salaq onu.

- Bir də... - Nəcməddin bir qədər duruxub, davam etdi, - fəhlələr olmasa, Saleh gələndə Şərafət xanımın guya burada tək olması və sonra Rafiqlə bu davanın düşməsi xoşagəlməz söz-söhbət yarada bilər.

- Yaxşı! - Əlifağa razılaşdı. - Çağır onları gəlsinlər!

Fəhlələr stola yaxınlaşan kimi sınayıcı baxışlarla onların üzünə göz gəzdirib ağır-ağır danışmağa başladı:

- Mənə diqqətlə qulaq asın! Siz hələ çox cavansınız və gələcək həyatınızın necə olacağı
bəlkə də bu gün, bu gecə özünüzü necə aparmağınızdan asılı olacaq... Siz oğlumun öldürülməsi ilə əlaqədar, şahid kimi danışdırılacaqsınız. Yadınızda saxlayın, Şərafət xanımla Salehin arasında heç bir münaqişə olmayıb! Siz Salehi yaralanmış vəziyyətdə görməmisiniz. O bu gün buraya gəlib, gətirdiyi torbaları Şərafət xanıma verərək həyətdən çıxıb. Siz onu darvazadan çıxan görmüsünüz. Həmin anda da maşın səsi və daha sonra nəsə bir səs-küy eşitmisiniz. Ancaq buna fikir verməyib, öz işinizlə məşğul olmusunuz. Bir qədər sonra evə gedərkən, küçədə meyiti görüb xanıma xəbər vermisiniz. Rafiq, əlində bıçaq tutmuş halda yerə yıxılıbmış... Siz məni başa düşdünüz?

Umud, deyəsən yaman qorxmuşdu. Birinci də o


downloaded from KitabYurdu.org

dilləndi:

- Bizə inanın, Əlifağa müəllim, sizin dediyinizdən başqa bir kəlmə söz danışmayacağıq.

- Görəcəyik! - Əlifağa dedi. - Elə olarsa, mən sizi yaxşı işə də götürə bilərəm. Özünüz də, maşallah, boylu-buxunlu oğlanlarsınız.

Sonra cibindən iki dənə yüz dollarlıq pul çıxarıb stolun üstünə atdı:

- Bu da sizin bu günlük zəhmət haqqınız! Götürün, özünüz də polis gələnədək buralarda olun!

Fəhlələr pulu götürüb kənara çəkildilər və gedərkən hər ikisi dodaqaltı mızıldanıb:

- Allah rəhmət eləsin! - dedilər.

Əlifağanın sifəti birdən-birə tutuldu. On dəqiqədən çox başını əlləri arasına alıb, beləcə oturdu. Onun belə vəziyyətində heç kəs danışmağa, yaranmış üzüntülü sükutu pozmağa cəsarət etmirdi.

Elə bil sevimli oğlunun yoxluğunu indi dərk etmişdi Əlifağa... O, oğlunun ölümünə bir əzizi kimi acıyırdı. Onun öz əcəli ilə yox, kiminsə əlində ölməsi isə ata ürəyinə lap qızmar köz basırdı.

Amma... Əlifağanı daha çox ağrıdan, ruhdan salan, sındıran başqa şey idi. Yaşamağının, çalışmağının, çarpışmağının mənasını itirmişdi bu gün. Nə qədər ki oğlu var idi, o öz ömrünü sonsuz hesab edirdi. İnanırdı ki, öləndə ruhu Rafiqin bədəninə keçəcək və ondan da nəvəsinə, nəticəsinə ötürülüb, beləcə dünya durduqca yaşayacaq. Əlifağa qurub-yaratdığı dəbdəbəli həyatı buna görə inamla yaradırdı, topladığı var-dövləti buna görə inamla toplayırdı, adının təmizliyini, saflığını buna görə


downloaded from KitabYurdu.org

inamla qorumağa çalışırdı...

İndi isə yeganə övladı olan Rafiq həyatdan getmişdi. Ataya elə gəlirdi ki, sonsuz hesab etdiyi ömrünün arasına möhkəm bir sədd çəkildi bu gün. Və həmin səddin üstünə iri hərflərlə «Son» yazıldı. Bu «son» onun ömrünün sonu idi. Bundan sonra iyirmi il yaşayacaqdı, ya uzaq başı otuz il yaşayacaqdı, ancaq, axır ki, gəlib bu səddə çatacaqdı. Öləcəkdi və bununla da ömrü birdəfəlik bitəcəkdi. Belə çıxırdı ki, bundan sonra çalışmağın, çarpışmağın, uzaq gələcək üçün nəsə etməyin bir mənası yox idi daha...

Düzdür, Əlifağanın əlli beş yaşı var idi və əgər istəsəydi, bundan sonra da övladı ola bilərdi. Ancaq, qəribədir ki, o, bircə anlığa da olsa bu barədə düşünəndə, doğula biləcək o yeni övladının özünə doğma olacağına inana bilmirdi. Bəlkə də bu ona
görə belə idi ki, o, Rafiqi özünün yeganə övladı hesab etməyə alışmışdı və kiminsə onu əvəz edə biləcəyini ağlına da gətirmirdi.

Bəli, gələcəyini ölmüş hesab edirdi Əlifağa... Bu gününü, sabahını birtəhər yaşayacaqdı özü üçün. «Ölənlə ölmürlər!» deyirlər. Ancaq gələcəyini yaşayan, yaşadan olmayacaqdı onun...

Ləng hərəkətlə ayağa qalxıb darvazaya tərəf getdi. Bunu görən Nəcməddin də dinib-danışmadan onun arxasınca düşdü.

Küçə tamamilə qaranlıq idi. Maşınları və bayaqdan burada ayaq üstə dayanmış cangüdənləri güclə seçmək olurdu. Nəcməddin cəld maşınına oturub, faraları yandırdı. Maşını döndərib işığı yerə sərilib qalmış meyitin üstünə saldı. Bu zaman


downloaded from KitabYurdu.org

Əlifağanın və cangüdənlərin hasara düşmüş nəhəng kölgələri sirli şəkildə oynaşıb yox oldular.

Əlifağa meyitin yanında dizi üstə yerə çökdü. Mələfəni qaldırıb, oğlunun solğun sifətinə bir qədər tamaşa etdi.

Sonra ağzını onun qulağına yaxınlaşdırıb, yalnız özünün və oğlunun eşidə biləcəyi bir səslə dedi:

- Səni kim öldürüb, niyə öldürüb, bilmirəm. Ancaq qisasını yerdə qoymayacam! Buna arxayın ola bilərsən. Cəhənnəmin nə olduğunu bu dünyada göstərəcəm o adama!

Meyitin üzünü yenidən örtüb, yavaş-yavaş ayağa qalxdı. Qaranlığa boylanıb, heç kəsin üzünə baxmadan, zəhmli səslə, ucadan əmr etdi:

- Söndürün işığı!

Küçə yenidən zülmət qaranlığa qərq oldu...

Altıncı fəsil

- Ata, niyə ağlayırsan? - Gültay başını atasının sinəsindən ayırıb təəccüblə soruşdu.

- Heç, qızım, heç...

Saleh başa düşdü ki, uşaqların da, Məltəmin də ürəklərinə xal salıb bağırlarını yarmaqda düz iş görmür. Qızının başını sığallayıb özündən araladı. Mətbəxə keçib su kranında əl-üzünü yudu. Özünə söz verdi ki, möhkəm olub hər şeyə səbirlə dözəcək. Bir də ki, dözüm-filan öz yerində, Saleh bu saat bir məsələni həll etməli, özünü necə aparacağı, nə danışacağı barədə fikirləşib bir qərara gəlməli idi. Həm də ki, təcili! Vaxt dayanmırdı. Saniyələr külək
kimi uçub gedirdi. Saleh isə dərindən fikirləşib bir qərara gələ bilmirdi. Beyni tutulmuşdu, elə bil...



downloaded from KitabYurdu.org

Yaxınlaşıb, pəncərədən həyətə baxan Məltəmin saçlarına sığal çəkdi, çiynini qucaqladı. Belə bir gözəldən də ayrılmaq olardımı? İnsafdan idimi belə bir gözəli gözüyaşlı qoymaq? Bir də ki, nə gözəl?.. Məltəm onun canı idi, ürəyi idi, özü idi. İndi birdən- birə, daha dərindən başa düşdü ki, necə də xoşbəxt imiş bu qadınla...

Məltəm geriyə çevrildi. Göz yaşları dayanmışdısa da ağlamağı bilinirdi. Salehin əllərindən tutub, bərk-bərk sıxdı və həyəcanlı səslə, astadan dilləndi:

- Saleh, səni and verirəm uşaqlarımızın canına, məndən heç nə gizlətmə. Onu kim öldürüb?

- Dedim axı, bilmirəm, neçə dəfə deyərlər bir sözü?

Saleh bu acıqlı sözləri özündən asılı olmayaraq dedi və tez də peşman oldu. Deyəsən, əsəbləri korlanmışdı. Özünü ələ ala bilmirdi. Məltəm pərt oldusa da, bunu üzə vurmadı. Əksinə, ərinə ürəkdirək vermək üçün ona sığındı:

-Yaxşı, daha soruşmayacam... Əgər bilmirsənsə, daha nədən qorxursan? Hər şeyi olduğu kimi, bildiyin kimi Əlifağa müəllimə danış. Lap polisə də düşsən, o səni müdafiə edəcək.

Sonra ərinin qolundan tutub onu otağa çəkdi:

- Gəl, gəl yeməyini ye!

Xörəyi boşqablara çəkib gətirdi. Yarımçıq araq şüşəsini də dolabdan çıxarıb süfrəyə qoydu. Saleh içki həvəskarı olmasa da həyəcanını yatırmaq üçün
araqdan stəkana süzüb başına çəkdi. Buna baxmayaraq, şam yeməyi çox soyuq keçdi. Saleh, ilk dəfə idi ki, yarpaq dolmasını belə iştahasız yeyirdi.

Süfrə yığışan kimi, Məltəm uşaqları öz otaqlarına aparıb yatağa saldı. Sonra gəlib Salehin qolundakı sarğını


downloaded from KitabYurdu.org

açdı. Yaranın üstünə yenə araq töküb bağladı.
- Dur, keç uzan, dincəl, - dedi.
- Niyə belə tez? - Saleh soruşdu.
- Tez deyil. Yat, əsəblərin bir az sakitləşsin.
Saleh qalxıb yataq otağına keçdi. Çarpayının
üstündə oturanda, Məltəm gəlib onun corablarını çıxartdı. Ayaqlarında hiss etdiyi əllərin təmasından bir qədər sakitləşdi, sanki. Bu əllər necə doğma, necə əziz idi onun üçün. Bu əllərdən yapışıb sinəsinə basmaq, doyunca öpmək keçdi ürəyindən.

Hələ dizləri... Gözəl dizləri var idi Məltəmin. Ağappaq, girdə, təravətli... Xalatın kənara sürüşmüş ətəklərinin gizlədə bilmədiyi bu dizlər hamının görə biləcəyi aşkar gözəlliyin sonu, eyni zamanda, yalnız Salehin görə biləcəyi gizli, sirli və hərarətli gözəlliyin başlanğıcı idi...

Məltəm ərinin yatağa uzanmağına da kömək etdi. Elə bu vaxt o biri otaqda telefon uzun və zəhmli səslə zəng çaldı. Başqa şəhərdən, yaxud mobil telefondan zəng vuranda belə uzun zəng çalınırdı. Bu səs hər ikisini diksindirdi. Məltəm keçib dəstəyi götürdü:
- Alo!

- Salehi çağır! - səs qadın səsi idi. Həm də çox yavaş danışırdı.
- Kimdi soruşan?

- Salehi çağır! - Səs yenə də yavaş, ancaq bayaqkından daha inadlı idi.

Məltəm həyəcanlandı. Çevriləndə Salehi arxasında dayanmış gördü və dəstəyi ona uzatdı:
- Səni istəyirlər...
Boğazı qurumuş Saleh dəstəyi əlinə aldı:


downloaded from KitabYurdu.org

- Alo!.. - Ancaq səsi çox yavaş çıxdı.
Dəstəkdə tanış, hökmlü səs eşidildi:

- Döz, mənə sataşma, yoxsa sonrasına heç dözə bilməyəcəksən!

Əlaqə kəsildi... Bu Şərafət xanımın səsi idi. Nə demək istəyirdi o?.. Necə yəni?.. Hə, deyəsən, bir az başa düşdü Saleh... Yaxşı, bəs bu «döz!» nə deməkdir?

- Kim idi? - Məltəm narahatlıqla soruşdu.

Saleh cavab verməyib, fikirli halda yataq otağına keçdi. Çarpayının üstündə oturub corabları ayağına geydi. Köynəyini geyinməyə arvadı da kömək etdi.

Ancaq Məltəm daha heç nə soruşmurdu. Onun da içini dəhşətli bir narahatlıq bürümüşdü. Danışmırdılar. Elə bil ki, hər ikisi nəyisə gözləyirdi. Saleh otaqdan-otağa keçib, məqsədsiz, kor-koranə gəzişirdi. Məltəm isə əllərini qoynuna qoyub, heykəl kimi dayanmışdı.

Elə bu vaxt qapı döyüldü. Əslində hər ikisi bayaqdan bunu gözləsələr də, heyrətlə bir-birlərinin üzünə baxdılar. Yenə döyüldü. Məltəm gedib pərdəni araladı. Həyətə işıq düşdüyü üçün gələnlər görünürdü. İki gənc kişinin biri pillələkəndə, biri isə həyətdə dayanmışdı.

- Kimdir? - ev sahibəsi ucadan soruşdu.

- Açın, polisdənik! - sakit, ancaq hökmlü səs eşidildi.

Bu vaxt Saleh də qapıya yaxınlaşdı.

- Polisdəndirlər!.. - Məltəmin səsi titrəyirdi.

Saleh qapını açdı. Gələnlər Əlifağanın adamları idilər. Onları yaxşı tanıyırdı. Yaşca da, bədəncə də o birindən böyük görünən qıvrımsaç oğlan Salehi xoşagəlməz baxışlarla başdan ayağa süzüb, təkcə bunu dedi:


downloaded from KitabYurdu.org

-Gəl!

Verilmiş əmrə kor-koranə tabe olub qapıdan çıxmaq istəyəndə, arvadı dizi üstə yerə çöküb, onun ayaqlarını qucaqladı:

- Bunu gecə vaxtı hara aparırsınız? Heç bir günahı yoxdu bunun.

Bu dəfə xalat daha çox sıyrılmışdı və qadının çılpaq qıçı açıqda qalmışdı. Axıra qədər... Qıvrımsaçın da mənalı baxışları birbaş ora baxırdı, deyəsən. Saleh arvadına acıqlanmaq istədi. Ancaq nədənsə, bundan vaz keçdi. Sanki bu ixtiyarını da əlindən almışdılar onun.

Əli ilə qadını özündən kənarlaşdırıb, evdən çıxdı. Məltəm ağlayırdı...

Yeddinci fəsil

Sükanın arxasında həmin qıvrımsaç oğlan idi. Saleh isə onun yanında oturmuşdu. Həmişə Salehin sürdüyü «Prado» dallarınca gəlirdi. Onu o biri oğlan sürürdü. Yol boyu heç nə danışmadılar. Saleh ancaq öz şefinə nə deyəcəyi barədə düşünürdüsə də, qəti bir qərara gələ bilmirdi ki, bilmirdi.

Onlar Əlifağa Sadıxovun dənizkənarı mülkünə çatanda, artıq saat 10-un yarısı idi. O biri iki cangüdən hələ də küçədə dayanmışdılar. Saleh faraların işığında, ani olaraq, üstünə ağ mələfə çəkilmiş meyiti gördü. «Hələ gəlib aparmayıblar!» - deyə təəccüblə fikirləşdi. Onu maşından düşürüb, həyətə apardılar.

Əlifağa həyətdə, stolun arxasında oturmuşdu. Nəcməddin cangüdənlərə kənarlaşmağı əmr edib Salehi onun qarşısına gətirdi. Saleh yavaş səslə salam verdi:

-Axşamınız xeyir!



downloaded from KitabYurdu.org

Ancaq salamının nə qədər yersiz olduğunu özü də başa düşdü. Əlifağa onu hiddətli baxışlarla başdan-ayağa süzüb susurdu.

Şərafət xanım da evdən çıxıb gəldi. Alnını yaylıqla çəkib bağlamış, əyninə qalın jaket geyinmişdi. Salehi görüb, onun üstünə gəldi:

- Sən mənim oğlumu öldürmüsən, namussuz köpək oğlu?!

Koppuş əllərilə vurduğu qapaz Salehin başını tutdu. Həmin an Nəcməddin cəld tərpənib onların arasına girdi:

- Xahiş edirəm, Şərafət xanım, xahiş edirəm, özünüzü ələ alın, səbirli olun!

Qadın dayandı. Nifrətli baxışlarla Salehi süzüb, kənara çəkildi və taxta oturacaqda oturdu. Onun xahişi qəbul edib belə tez sakitləşməsi Nəcməddini bir qədər təəccübləndirsə də, hər halda, razı qalıb, üzünü Sadıxova çevirdi və şefinin nə deyəcəyini gözlədi.

Əlifağa gözünü hələ Salehdən çəkməmişdi. Sərt baxışları ilə onu hiddətlə gözdən keçirirdi. Ancaq o, arvadı kimi səbirsiz deyildi. Nəcməddinin həmişə qibtəsinə səbəb olan sakit və təmkinli səslə dilləndi:

- Nə olubsa, hamısını düzgün danış!

Saleh nə danışacağını hələ də qərarlaşdıra bilməmişdi. Ancaq ondan nəsə gözləyirdilər və odur ki, çətinliklə də olsa, danışmağa başladı:

- Mən gəlib, gətirdiyim şeyləri Şərafət xanıma verdim. Sonra həyətdən çıxdım... Çıxanda gördüm ki, Rafiqi vurublar. Küçədə yıxılıb qalmışdı... Başqa heç kəs yox idi...

- Niyə qayıdıb anasına xəbər vermədin? - Əlifağa



downloaded from KitabYurdu.org

sakitcə soruşdu. - Niyə mənə zəng vurmadın?

- Qorxdum... - Saleh başını aşağı dikdi.

- Nədən, kimdən qorxdun?

- Özümü elə itirdim ki, nə edəcəyimi bilmədim. Maşına minib evimizə sürdüm.

-Aha!... - Sadıxov başını yellədi. - Köynəyini çıxart, görüm!

Saleh dinməzcə köynəyini soyundu. Məltəm sol qolunu tənziflə sarımışdı.

- Qolunu kim yaralayıb?

Saleh gözünün lap kənarı ilə Şərafət xanımı görməyə çalışdı. Ev sahibəsi də o birilər kimi gözlərini onun ağzına dikmişdi.

- Qolunu kim yaralayıb?! - Əlifağa sualını təkrar etdi.

- Yolda qabağımı kəsmişdilər... - çarəsiz qalan Saleh evdə arvadına dediyi sözləri burada da deməkdən başqa yol görmədi.

-Kim?

- Bilmirəm... Tanımadım.

Əlifağa dərindən ah çəkib başını yırğaladı və Nəcməddinə baxdı:

- Görürsən, budur bizim millətimiz! Mən deyəndə, ağız-burun əyirlər. Kimə etibar edəsən, kimə inanasan, bilmirsən! Üzdə adama quyruq bulayırlar, özlərini mələk kimi göstərirlər, ancaq arxada...

Sözünü yarımçıq qoyub, üzünü yenə Salehə çevirdi və əlini zərblə stola vurdu:

- Üç ildi mənim yanımda işləyirsən. Süfrəmdə yallanırsan. Səni mən adam eləmişəm. İnsan kimi



downloaded from KitabYurdu.org

yaşamağın nə olduğunu bilmişən bu üç ildə. Qarnın yemək nə olduğunu bilib, ev-eşik sahibi olmusan, arvadını bəsləyib dalını böyütmüsən mənim hesabıma! İndi gəlib mənim arvadıma sataşırsan? Oğluma əl qaldırırsan? Cavab ver, nankor köpək oğlu!

Salehin, sanki, gözləri böyüdü. Durduğu yerdə qıçları əsməyə başladı:

- Əlifağa müəllim, sizə qurban olum, - dedi, - balalarımın canı üçün mənim heç bir günahım
yoxdur. Mən sizə heç vaxt xəyanət etməmişəm. Mən sizi özümə ata bilmişəm.

Əlifağa əlinin işarəsilə yaxınlıqda dayanmış adamlarını çağırdı. Salehi gətirən cangüdənlər cəld ona yaxınlaşdılar. Başıyla Salehi göstərib:

- Elə edin, görünən yerlərində xəsarət qalmasın! - dedi və özü ayağa qalxıb stoldan bir qədər kənarda gəzişməyə başladı.

Qıvrımsaç oğlan gəlib Salehin qarşısında durdu. Baxışlarında istehzalı bir laqeydlik oxunurdu. Saleh onunla çoxdan tanış idi. Burada işə girəndən. Lap bir süfrə başında da oturmuşdular neçə dəfə. Ancaq çox da elə yaxın münasibətləri yox idi.

Baxışlarını döndərib Şərafət xanıma baxdı. Qadının da gözləri onda idi. Lakin heç bir məna ifadə etmirdi...

- Ayy!!!

Qıvrımsaçın qəflətən vurduğu zərbədən Saleh ikiyə qatlandı. Əlləriylə qarnını tutub müvazinətini saxlamağa çalışdı. Sol əliylə onun saçından yapışıb yuxarı dartan cangüdən də bu işdə ona kömək etdi. Ancaq qarnına dəyən qüvvətli yumruq zərbələrindən heysiz hala düşən Saleh


downloaded from KitabYurdu.org

yerə yıxıldı. Bu zaman o biri cangüdən də işə qarışdı və yerdə qıvrılan sürücünü təpikləməyə başladılar. Əllərilə bədənini qorumağa çalışan Saleh anlaşılmaz səslə yalvarır, nəsə deyirdi. Ancaq ona qulaq asan yox idi.

Bir azdan Əlifağa yaxına gəldi və sağ əlini yuxarı qaldırıb:

- Dayanın! - dedi.

Cangüdənlər Salehi ayağa qaldırıb, onun qabağında saxladılar. Salehin burnundan axan qan ağzının ətrafını və çənəsini bulamışdı. Əlifağa sürücüsünün miskin görkəminə bir qədər tamaşa edib dedi:

- O işinin cəzası ayrı olacaq. Ancaq de görüm, oğlumu niyə öldürdün?

- Onu mən öldürməmişəm! - ağır-ağır nəfəs alan Saleh çətinliklə dilləndi.

- Polisə zəng vur! - Sadıxov Nəcməddinə dedi. - Mirzəyevin özünə! Bura onun ərazisi olmasa da, öldürən onun rayonunda yaşayır.

- Baş üstə! - Nəcməddin cib telefonunu çıxarıb, kənara çəkildi.

- İndi, qulaq as! - Əlifağa lap yaxına gəlib, zəhmli gözlərini Salehin çaşqın sifətinə zillədi. - Sən bu gün buraya gəlib, gətirdiyin ərzağı və digər şeyləri evə qoyandan sonra həyətdən çıxmısan. Bu zaman küçədə Rafiqə rast gəlmisən. Mübahisə etmisiniz. Daha nə mübahisə etmisiniz, onu özün bilirsən. O səni bıçaqla yaralayıb. Sən də onu vurmusan. Görürsənmi, necə bəxtin var, cəzan bir az yüngül olacaq. Ancaq bu işdə, Şərafət xanımın adı yoxdur. Onun adını çəksən, özünü ölmüş bil! Aydın oldu dediklərim?



downloaded from KitabYurdu.org

Saleh başını bulayıb, zarıdı:

-Əlifağa müəllim, inanın...

Əlifağa onun çənəsinə var gücü ilə bir yumruq vurdu. Saleh yerə sərildi. Yaman acınacaqlı halda idi. Köynəyini çıxarandan sonra bir maykada qalmışdı. Qolunun yarası təzədən açılmış, üst-başı qana boyanmışdı.

- Onu qaydaya salın! - Sadıxov cangüdənlərə göstəriş verdi.

Bu zaman Şərafət xanım qalxıb yaxına gəldi və əyilib Salehin üzünə tüpürdü:

- Öl, it oğlu it! İt kimi gəbərəcəksən! - deyə onun üstünə çığırdı. - Yazıq uşağın nə günahı var idi, ay arvadı qəhbə?!

Güclə ayağa qalxan Saleh bu saat ancaq ölmək istəyirdi. Ölmək!.. Ancaq haradaydı ölüm?

## Səkkizinci fəsil

Gecə saat 11-də polis rəisi polkovnik Mirzəyevin öz başçılığı ilə əməliyyat qrupu gəlib çıxdı. Onları küçədə iki cangüdənlə Nəcməddin qarşıladı.

Rəis idarənin baş əməliyyat müvəkkili Canəli Qismətovla əməliyyat müvəkkili Allahverdi Əbilova təhqiqata başlamağı əmr edib bir polis əməkdaşı ilə həyətə keçdi. Orada onu ev sahibi qarşılayıb stolun arxasında oturmağa dəvət etdi.

- Allah səbrinizi versin, Əlifağa müəllim. - Mirzəyev göstərilən stulda oturub təəssüflə dilləndi. - Bu nə bəladır başınıza gəldi?

Sadıxov ürək dolusu ah çəkib, başını silkələdi:

- Allah mənə səbir verib, Mirzəyev, özü də lap çox səbir verib. Ancaq gərək bu cür sınamayaydı səbrimi...

Mirzəyev onun dərdinə şərik olmağa çalışdı:



downloaded from KitabYurdu.org

- Əlbəttə, çox böyük dərddir. Hamımız üçün... Hələ Fuad bilsə özünü öldürəcək. Əsl dost idilər bu rəhmətliklə. Ancaq neyləmək olar? Olacağa çarə yoxdur... - Bir az ara verib, qəfil soruşdu: - Şübhələndiyiniz bir adam varmı bu hadisədə?

Sadıxov başıyla bir qədər kənarda, cangüdənlərin yanında dayanmış Salehi göstərdi:

- Qatil məlumdur! Öz sürücüm öldürüb oğlumu...

- Nə üçün axı? - rəis təəccübləndi.

- Hələ ki, bilmirəm. - Əlifağa çiynini çəkdi. - Ancaq zənnimcə, adi mübahisə zəminində olub bu iş. Oğlum da onun üstünə bıçaq çəkib, qolunu yaralayıb. Bəlkə də, bu, sadəcə, özünü müdafiə edib. Hər halda mənə görə cəzasını ağırlaşdırmayın. Qoy hər şey ədalətli olsun. Cinayətini boynuna alıb, cəzası nədirsə onu çəksin. Burada şahidlər də var. İki fəhlədir. Onlar da həyətdə olublar həmin vaxt. Aparıb izahatlarını alıb, buraxarsınız. Onları da çox incitməyin.

- Yaxşı... - Mirzəyev başını tərpətdi. - Bəs Şərafət xanım haradadır? Xəbəri varmı hadisədən?

- Hə, buradadır. Evdə. Onun da qan təzyiqi çox yüksəkdir. Halı pisləşmişdi.

Araya sükut çökdü. Polkovnik Mirzəyev bundan istifadə edib, arxasında dayanmış polis əməkdaşına Salehi tutub maşına aparmağı əmr etdi.

Polis işçisi alaqaranlıqda cangüdənlərin arasında dayanmış Salehə yaxınlaşdı. Qanuna əsasən, ona tutulmasının səbəbini və vacib hüquqlarını izah etdi. Amma Saleh, demək olar ki, heç nə eşitmirdi. Gördüyü hər bir şey ona yuxu təsiri bağışlayırdı. Qollarına qandal



downloaded from KitabYurdu.org

keçiriləndə də, dinib- danışmadı. Onu küçəyə çıxarıb, maşınların birinə saldılar.

Küçə maşın faralarının işıqları ilə işıqlandırılmışdı. Mayor Qismətov meyitdən bir az kənarda Nəcməddinlə söhbət edirdi. O da artıq, qatilin məlum olduğunu Nəcməddindən eşitmişdi. Və buna görə də aparılan təhqiqata elə bir ciddi əhəmiyyət vermirdi. Onun özünəməxsus iş prinsipi var idi və şübhəli şəxs məlum olduqda, hadisənin
bütün təfərrüatını, hansı vasitə ilə olursa olsun, onun dilindən öyrənməyə adət etmişdi.

Kapitan Əbilov isə leytenant Etibar Nəsirovla birlikdə ciddi təhqiqata başlamışdı. O, idarənin ən zirək əməliyyat işçisi, ən bacarıqlı təhqiqatçısı hesab olunurdu. Yoldaşları hətta ona Şerlok Holms adı qoymuşdular. Apardığı təhqiqatlarda hər şeyi məntiqi baxımdan əsaslandırmağa çalışırdı. Rəis onun xətrini istəyir, ona bütün işçilərindən çox inanırdı.

Allahverdi Əbilov Qarabağ uğrunda döyüşlərdə könüllü iştirak etmiş, əsirlikdə olmuşdu. Sonra uşaqlıqdan arzu etdiyi polis sisteminə keçməkdə və Akademiyaya qəbul olunmaqda Müdafiə Nazirliyinin nüfuzlu bir polkovniki ona kömək etmişdi.

Əbilov, əvvəlcə meyitin üstünə salınmış mələfəni götürüb, kənara atdı. Aşağı əyilib meyiti
diqqətlə gözdən keçirməyə başladı. Meyitin sol gicgahı şişib göyərmişdi. Yaradan sızan azacıq qan alın hissəsində bir neçə şırım açaraq, quruyub qalmışdı. Yerdə heç bir qan izinə rast gəlinmirdi. Başının arxası torpaqda olan Rafiqin qorxunc baxışları qaranlıq səmaya dikilmişdi. Ucu qana


downloaded from KitabYurdu.org

bulaşmış bıçağın dəstəyi yarıbükülü əlində idi...

Allahverdi ayağa qalxıb, yanında dayanmış leytenant Nəsirova baxdı və astadan dedi:

- Başına nə isə, küt bir şeylə vurublar. Ola bilsin, daşla. Özü də, zərbə çox qüvvətli olub. Mənim fikrimcə, mərhum elə o saat da keçinib. Ölüm qanitirmədən yox, beyin zədələnməsindən olub...

- Hə...- Nəsirov onunla razılaşdığını bildirdi.

- Ancaq... - kapitan Əbilov davam etdi. - Mənim fikrimcə, məntiqə görə, bu zərbədən dərhal
sonra bıçaq əlindən yerə düşməli idi.

- Demək istəyirsiniz ki...

- Yox, doğrusu hələ heç nə demək istəmirəm. - kapitan Etibarın sözünü kəsdi. - Ancaq mən belə düşünürəm ki, burada nəsə qəribəlik var. Bir bu qan izlərinə bax! Görürsənmi, sanki yaradan çıxan qan üzüyuxarı axıb.

Leytenant əyilib meyitin başına diqqətlə nəzər saldı. Rafiq yerə kürəyi üstə yıxılmışdı və sifəti düz istiqamətdə yuxarı baxırdı. Ancaq doğrudan da sol gicgahdan sızan qan alına doğru axıb onu bulamışdı.

- Nə deyirsən? - Əbilov ayağa qalxan leytenantdan soruşdu.

Etibar Nəsirov kapitan Əbilova çox inanırdı. Ancaq öz ağlına gələn fikri də bildirmək istədi:

- Bəlkə bizdən qabaq meyitin vəziyyətini dəyişiblər?..

- İnanmıram, amma bu saat öyrənərik.

Əbilov bunu deyib ucadan Nəcməddini səslədi:

- Meyitə əl vuran olub?

- Yox! - Nəcməddin qətiyyətlə cavab verdi.

- Gördün? - kapitan mənalı nəzərlə Etibara baxdı.



downloaded from KitabYurdu.org

Sonra meyitin əlindəki bıçağı dəsmalla götürüb bükdü. Onu portfelinə qoyub, meyitin ciblərini axtardı. Götürdüyü mobil telefonu da portfelə atıb Nəsirova ətrafı diqqətlə axtarmağı tapşırdı:

- Axtar, görək, bu bədbəxtin ölümünə səbəb olan küt aləti tapa bilərsənmi?.. - dedi və sonra nə düşündüsə, əlavə etdi. - Ancaq heç inanmıram, bir şey tapasan.

Özü isə boz rəngli «Mersedes»ə girib orada axtarış aparmağa başladı. Bir az keçmiş leytenant Nəsirovu maşına çağırdı.

- Bir şey tapa bildin?

Etibar əlindəki üç dənə yumruq böyüklüyündə daş parçasını ona göstərdi:

- Bunlardan başqa küçədə heç nə yoxdur.

Əbilov daşları alıb baxdı və kənara tulladı:

- Yox, bunlar bizim işimizə yaramır, - dedi və bir kibrit qutusunu Etibara uzatdı: - Ancaq mən nəsə tapmışam.

- Narkotik maddədir? - Nəsirov cəld soruşdu.

- Hə! - Əbilov cavab verdi. - İndi isə, mənə elə gəlir ki, biz buradakı işimizi qurtarmışıq. Sən başla protokol yazmağa.

Mayor Qismətovun, Nəcməddinin və cangüdənlərin dayandıqları yerə yaxınlaşdılar.

- Mister Şerlok Holms, bir şey tapa bildiniz? - Qismətov yarıistehzalı səslə soruşdu.

- Yox. - Allahverdi narazı halda başını buladı. Cinayət zamanı istifadə olunan küt alət tapılmadı.

- Ancaq biz cinayətkarın özünü tapmışıq, - mayor başıyla Salehin oturduğu maşına işarə etdi. O özü tapıb bizə göstərəcək həmin küt aləti.



downloaded from KitabYurdu.org

- Kimdir ki o? - Əbilov maraqla soruşdu.
- Əlifağa müəllimin öz sürücüsü.

Kapitan Əbilov daha bir söz deməyib, həyətə keçdi. Onun Canəli Qismətovdan qətiyyən xoşu gəlmirdi. Kobud, həm də lovğa adam hesab edirdi onu. Allahverdi ilə də heç vaxt düz gəlmirdi Qismətov. Yəni ki, əslində, paxıllıq edirdi ona.

Qorxurdu ki, birdən onun yerinə keçirərlər bu zirək əməliyyatçını.

Mirzəyev əməliyyat müvəkkilinin gəldiyini görüb ucadan səsləndi:

- Gəl görək, Allahverdi. Nə oldu, bir şey öyrənə bildinmi?

Əbilov özünün fərziyyələri barədə burada danışmaq fikrində deyildi. Odur ki, qısaca məlumat verməklə kifayətləndi:

- Rəis, maşın işığında ətrafa baxış keçirmək bir az çətindir, həm də hər yer adamların ayaqları altında tapdanıb. Ancaq hər halda, nə lazımsa elədik. Protokol tərtib olundu...

- Onda, gedək! - rəis ayağa qalxıb ev sahibi ilə görüşdü. - Bir daha sizə Allahdan səbir diləyirəm, Əlifağa müəllim! Arxayın olun, hər şey istədiyiniz kimi olacaq. Birdə ... icazənizlə, rəhmətliyin meyitini aparmalıyıq.

Əlifağa etiraz eləmədi:

- Nə vaxt götürə bilərəm uşağın meyitini?

Rəis bir an fikirləşib:

- Özüm sabah sizə zəng vuraram! - dedi.

Meyiti özlərilə gətirdikləri xüsusi maşına qoyub



downloaded from KitabYurdu.org

yola düşdülər. Gedərkən Umudla Yaqubu da apardılar. Əməliyyat qrupunu yola salan Nəcməddin və cangüdənlər həyətə keçdilər. Əlifağa Sadıxov stolun arxasında oturub gözlərini həyətin aşağılarındakı qaranlığa zilləmişdi.

Doqquzuncu fəsil

Hadisənin səhəri günü, yəni aprelin 10-da polkovnik Mirzəyev yuxudan bir az gec ayıldı. Səbəbi də bu idi ki, gecə evə saat 3-də, özü də yorğun qayıtmışdı. İdarədəki kabinetində Salehi də, həmin iki şahid fəhləni də şəxsən özü dindirmişdi. Mayor Qismətovla kapitan Əbilovun iştirakilə. Saleh, əleyhinə olan dəlillərə baxmayaraq, cinayəti boynuna almamışdı. Darvazadan çıxarkən Rafiqin meyitinə rast gəldiyini, özünü itirib, maşınla evə qaçdığını, evin yaxınlığında naməlum şəxslərin onun qarşısını kəsərək qolunu yaraladıqlarını deyib, durmuşdu. Fəhlələrin birbaşa Salehin əleyhinə yönəlmiş izahatlarını alıb evə buraxmış, Salehi isə müvəqqəti saxlama kamerasına
salmışdılar. Meyiti də, ucunda qan ləkəsi olan bıçağı da gecəykən ekspertizaya göndərmişdilər.

Canəlidən fərqli olaraq, kapitan Əbilov cinayətin Saleh tərəfindən törədilməsinə şübhə edirdi. Ancaq o, hələlik, şübhələri barədə öz rəisinə də tam açıq danışmırdı. Dediyi bu idi ki, cinayət aləti tapılmayıb, meyitin görünüşü şübhə doğururdu, vəssalam. Ancaq bu dəlillər nə rəisi, nə də mayor Qismətovu qane edirdi. Rafiqin əlində qanlı bıçaq tapılmışdı. Saleh isə qolundan bıçaq zərbəsi almışdı... Hər halda, ekspertizanın nəticəsi bilinəndən sonra kimin daha haqlı olduğu məlum olacaqdı.

Rəis Allahverdi Əbilovun sözlərini də qulaqardına


downloaded from KitabYurdu.org

vurmaq fikrində deyildi. O, otuz altı yaşı yenicə tamam olmuş bu gəncə inanırdı. Kapitan Əbilov cinayət axtarışı işində bir çoxlarından üstün
olduğunu dəfələrlə sübut etmişdi. O biri iş yoldaşlarından mədəni danışığı, səbirli və təmkinli davranışı ilə də seçilirdi. Hərdən sözləri, fikirləri düz gəlməsə də, belə bacarıqlı əməkdaşa Mirzəyevin çox ehtiyacı var idi.

Mirzəyev oğlunun yatdığı otağın qapısını açıb içəri boylandı. Fuad hələ qalxmamışdı. Başqa vaxt olsaydı, atası buna əsəbiləşərdi. Amma indi işə getməmiş onunla söhbət edə biləcəyinə sevindi. Üzünü qırxıb, yuyundu. Qurulanıb süfrənin arxasında oturdu və arvadına tapşırdı ki, Fuadı oyatsın, ona sözü var.

İşə, adətən, əməkdaşların hamısından tez gələn rəis, səhər yeməyini də çox vaxt idarənin bufetində yeyirdi. Bu gün isə, o, işə gecikəcəkdi və bu da,
yəqin ki, idarənin işçilərini təəccübləndirəcəkdi. Ancaq əslində, oğlu ilə söhbəti də işlə əlaqədar idi.

Fuad qalxıb atası ilə salamlaşdı və vanna otağına keçdi. Yuyunandan sonra gəlib onun qarşısında dayandı. Anası mətbəxdə qulluqçu ilə söhbət edirdi. Otaqda yalnız ikisi idi. Mirzəyev haradan və necə başlamaq barədə çox da düşünmək istəmədi. Elə birbaşa mətləbə keçdi:

- Dostunun ölümündən xəbərin var?

Fuad qəfil sualdan heyrətlənib stula çökdü:

- Hansı dostumun?
- Rafiqin.
- Öldürüblər?!

- Hə! - oğlunu sınayıcı baxışların süzgəcindən keçirən Mirzəyev asta-asta başını tərpətdi. - Dünən,



downloaded from KitabYurdu.org

təxminən altının yarısında meyiti təzə dənizkənarı bağlarının darvazası yanında tapılıb.

- Kim öldürüb?

- Hələ dəqiq bilinmir. Ancaq ilk qənaətimizə görə, atasının sürücüsü.

Fuad, nədənsə, dərin fikrə getdi. Elə bil gözləri yol çəkirdi.

- İndi icazə verirsənmi, mən sual verim? - atası təmkinlə dilləndi.

- Nə sual? - oğlan diksinib atasının üzünə baxdı.

- Dünən siz görüşmüsünüz?

- Yox... - Fuad dedi və tez də sözünü dəyişdi. - Hə, günortaya qədər bir yerdə olmuşuq.

- Harada? - Mirzəyev bir qədər sərt səslə soruşdu.

- «Gürcü yeməkləri» kafesində. Yeyib-içib, sonra ayrılmışıq.

- Saat neçədə?

- Üçə işləmiş...

- O hara gedib?

- Bilmirəm... Dedi ki, evə gedəcək.

- Onun maşını ilə idiniz?

- Hə... Mən ondan ayrılıb, taksi ilə evə gəldim. Fuadın «Daewoo» markalı maşını var idi. Ancaq
Rafiqin son buraxılışdan olan «Mersedes»indən istəyirdi. Atası isə, hələ ki, onun bu arzusunu yerinə yetirməyə tələsmirdi. Onu da bilirdi ki, Fuad çox vaxt dostunun maşınında gəzir.

- Bəs niyə tez ayrıldın ondan? Niyə taksi ilə gəldin?

- Bir az çox içmişdim. Özümü yaxşı hiss etmirdim. Ona görə evə tez gəlmək istəyirdim.



downloaded from KitabYurdu.org

Dünən bazar günü olduğu üçün Mirzəyev arvadı ilə birlikdə ərdə olan böyük qızına baş çəkməyə getmişdi. Evə saat altıda qayıtmışdılar. Qulluqçu qadın da evdə olmamışdı dünən. Ona görə də Fuadın, doğrudan da, dediyi vaxt qayıdıb- qayıtmamasını yoxlamaq çətin idi. Ancaq Fuad atasına heç vaxt yalan danışmadığı üçün Mirzəyev ona yenə də inanmaq məcburiyyətində qaldı.

- Mənə yalan demirsən ki?

- Niyə yalan deməliyəm? - Fuad çiyinlərini çəkdi. - Kafedən çıxdıq, təklif elədi ki, gedək gəzək. Razılaşmadım, dedim evə gedəcəm. Dedi ki, onda mən də gedirəm evə. Daha, sonra nə olub, mən haradan bilim?

- Yaxşı, bəs ondan əvvəlki günlər birlikdə olmusunuzmu? Kimlərlə görüşmüsünüz, haralarda olmusunuz? Bütün bunları mənə danış ki, sonra müstəntiqlər səni uzun-uzadı sorğu-suala tutmasınlar.

Fuad bir az düşünüb, astadan dilləndi:

- Ayın 5-də Rafiq parkda bir nəfərlə dalaşdı...

- Harada? Kiminlə? - Mirzəyev çayının soyumasına da əhəmiyyət verməyib, diqqətini topladı və stulu bir qədər arxaya verib gözlərini oğluna dikdi.

Hiss olunurdu ki, Fuad qorxur və danışmağa tərəddüd edir:

- Biz onun kimliyini bilmirdik. Ancaq Rafiq maşınının nömrəsini götürmüşdü. Öyrənmişdi ki,
Vələddinin oğlu imiş... Avtoritet olub ha, bax onun oğlu... Ələmdardı adı.

- Onun sizinlə nə işi vardı ki?

- Rafiq universitetdə oxuyan Fatimə adlı bir qızı sevirdi. Atasının adını eşidərsən, yəqin. Dördbarmaq


downloaded from KitabYurdu.org

Ağaşamilin qızıdı...

- Hə, sonra? - atası başını tərpətdi.

- Rafiq ayın 5-də qızın dalınca düşdü. Mən də onunla idim. Qız parka girib skamyada oturdu. Rafiq də ona yaxınlaşıb söhbət etməyə başladı. Mən kənarda dayandım. Qız nişanlıdır axı?! Rafiqə əl vermək istəmirdi. Sonra həmin o Ələmdar gəlib çıxdı. Rafiqə dedi ki, bəs qızla nə işin var, çıx get burdan.

- Qızın nişanlısı odur? - Mirzəyev oğlunun sözünü kəsdi.

-Yox, nişanlısı başqa oğlandır. Aspirantdır...

- Hə, davam elə!

- Ələmdar Rafiqi itələdi. Rafiq onun üstünə bıçaq çəkdi. O, bıçağı alıb Rafiqi yumruqla vurdu. Yox, bıçağı alıb mənə verdi. Sonra Rafiq onu söyəndə, o, Rafiqi bərk vurdu. Rafiq yıxıldı. Ağzı da qanamışdı. Sonra Ələmdar dedi ki, bu söyüşünə görə səni öldürəcəm...

- Bəs sonra? - Polkovnik, deyəsən, bu söhbətlə maraqlanmışdı.

- Sonra biz çıxıb getdik.

- Daha başqa vaxt ona rast gəlmədiniz?

-Yox...

- Düzünü de, Fuad, məndən heç nə gizlətmə! - Mirzəyev barmağını oğluna silkələdi.

- Anamın canı üçün, ona rast gəlməmişik. Ancaq dedim axı, Rafiq onun kimliyini öyrənmişdi. Kimlərəsə tapşırıbmış ki, tutub Ələmdarı döysünlər. Sonra da özü ondan heyfini çıxmaq istəyirmiş... Öyrənmişdi ki, bazar günləri çox vaxt klubda tək olur. O, idman klubunda məşqçidir axı?! Hə, dünən Rafiqin adamları Ələmdarı



downloaded from KitabYurdu.org

orada tutmalı imişlər. Biz kafedə oturanda Rafiq onların zəngini gözləyirdi. Sonra zəng oldu... Düzdür, Rafiq mənə bir söz demədi, amma başa düşdüm ki, adamları bir şey eləyə bilməyiblər Ələmdara. Çünki çox pərt oldu o zəngdən sonra. Ancaq bir az yeyib-içəndən sonra, deyəsən, hər şey yadından çıxdı...

Fuad sözünü bitirib susdu. Atası bir müddət heç nə demədən ona tamaşa edib, nəhayət dilləndi:

- Bəs ayın 5-dən sonra daha harada olmusunuz?

Fuad əvvəlcə istədi ki, dovşan məsələsini atasına danışmasın. O, həmin hadisəyə o qədər də əhəmiyyət vermirdi. Amma bir az götür-qoy edəndən sonra onu da danışmaq qərarına gəldi:

- Ayın 7-də görüşmüşdük. Yenə kafedə yeyib-içdikdən sonra bizim bağa getdik.

- Hansına? - Polkovnik oğluna, nədənsə, acıqla baxdı.

-Təzəyə.

- Niyə?

- Elə-belə. Bir az oturub kart oynadıq. Sonra Rafiq dovşan kababı yemək istədi. Bizdə də bir dovşan qalmışdı. Onu qəfəsdən çıxaranda əlindən
düşüb qaçdı. Rafiq dedi ki, gedib bazardan fəhlə gətirəcəm, dovşanı tutsun.

Mirzəyev burada dözməyib səsini qaldırdı:

- Yəni bu qədər qudurmuşdunuz siz?

- Nə bilim, o dedi də... - Fuad başını aşağı saldı.

- Sonra nə oldu?

Fuad həmin gün baş verənləri, necə olmuşdusa, atasına danışdı. Təkcə özünün Fərhadı vurması barədə bir söz demədi.


downloaded from KitabYurdu.org

- Heç bilirsən, siz neyləmisiniz? - hirslənmiş polkovnik əlini havada oynatdı. - Onların mənliyi ilə, heysiyyəti ilə oynamısımz. Belə olanda adamı öldürərlər də, hələ bir... Sözünü yarımçıq kəsib, ayağa qalxdı:

- Qalx, geyin! Mənimlə şöbəyə gedəcəksən. Bütün bunların hamısını orada da danışmalısan!

Onuncu fəsil

Rayon polis idarəsində, polkovnik Mirzəyevin kabinetində oturmuşdular. Rəis özü, mayor Qismətov, kapitan Əbilov və bir də Fuad. Rəisin oğlu evdə atasına danışdıqlarını eynilə təkrar edib qurtarmışdı. Arada bir qədər sükut yaranandan sonra polkovnik dilləndi:

- Fuada sualınız var?

Allahverdi Əbilov yerində qurcuxub, sual vermək üçün icazə istədi.

- Buyur, Əbilov, sualını ver! - rəis razılıqla başını tərpətdi.

Əməliyyat müvəkkili üzünü Fuada tutub sorğu- suala başladı:

- Necə bilirsən, dünən Rafiq səndən ayrılandan sonra haraya gedə bilərdi?

- Bilmirəm, mənə dedi ki, evə gedəcək, - Fuad cavab verdi.

- Dediyiniz həmin o Ələmdarla görüşə bilərdi?

- Deyə bilmərəm, - oğlan başını silkələdi.

- O dovşan məsələsindəki cavan oğlanın adını öyrəndiniz?

-Yox, soruşmadıq.

- Onun, ya o biri yaşlı kişinin sifətini xatırlaya, ya görsən tanıya bilərsən?



downloaded from KitabYurdu.org

- Hə!
- Dünən kafedə Rafiq də çox içmişdi?
- Hə, ancaq ağlı başında idi.

- Onun narkotik maddə qəbul etdiyindən xəbərin vardı?

- Yox! - Fuad başını yellədi və bu vaxt Qismətov narazılıqla Əbilova baxdı. Yəni ki, atasının yanında bu sualın yeri deyildi.

- Başqa sualım yoxdur, - kapitan dilləndi.

Rəis Canəliyə baxdı:

- Bəs sənin?

- Cinayətin Saleh tərəfindən törədilməsinə mənim heç bir şübhəm yoxdur. - Qismətov cavab verdi. - Zənnimcə, bu sorğu-sual da artıq idi.

Bu dəfə Əbilov ona narazılıqla baxdı. Söhbəti yekunlaşdırmaq istəyən rəis əlini stola vurub sözə başladı:

- Bizim vəzifəmiz hər şeyi incəliyinə qədər yoxlayıb, dəqiqləşdirməkdir. Qoy ekspert rəyi hazır olsun, məsələ bir az da aydınlaşacaq. Hələlik isə, Canəli, sən Fuadın köməyilə, həmin cavan oğlanla
yaşlı kişinin fotorobotunu hazırlat. Bu bizə lazım ola bilər. Sən isə, Əbilov, parkda Rafiqlə dalaşmış Ələmdar Vələddin oğlunu tapıb buraya gətir!

- Oldu, rəis! - kapitan Əbilov ayağa qalxdı.
- Gedə bilərsiniz!

Polkovnik bunu deyib əlini telefonun dəstəyinə uzatdı. Təhqiqatın gedişi barədə prokurora məlumat verməli idi.

On birinci fəsil

İki-üç gündən bir oğlunu danlamağı, söyüb- yamanlamağı adət etmiş Əminə arvadın ağzı yenə yaman açılmışdı. Özü



downloaded from KitabYurdu.org

də, deyəsən, bu dəfə sakitləşmək fikri yox idi. Səsi otağı başına götürmüşdü.

Səhər yeməyini indicə yeyib, çayını içmiş Ələmdar isə stolun arxasında oturub, qaşıqla boş stəkanın içini qarışdırır, hərdən də oğrun-oğrun divardakı kəfkirli saata baxırdı. Cəhalənin neçə aylıq yalvarışından sonra onunla bu gün təklikdə görüşməyə razılıq vermişdi. Saat on birdə qadın idman klubuna gəlməliydi. Artıq görüş vaxtına beş dəqiqə qalırdı. Evdən kluba isə azı iyirmi dəqiqəlik
yol vardı. Hələ yollarda tıxaca rast gəlməsəydi... Ancaq Ələmdarın ixtiyarı nə idi ki, anasının sözünü kəsib, danlağını yarımçıq qoyub ayağa qalxsın.
Hələ, şükür ki, bu danlaq idi. Əgər əlinə keçəni götürüb oğlunu döyməyə başlasaydı, əsl tamaşa onda olacaqdı.

Anası deyirdi:

- Bəsdi də! Bəsdi məni bezdirdin! Atan goru çatlamış türmələrdə gün keçirdi, elə türmədə də öldü. Dedim, bəlkə sən bir adam olacaqsan, ancaq sən də atanın yoluyla gedib düşdün ora. Dedim bəlkə başın daşa dəyib, ayılacaqsan. Sonra da iki-üç aydan bir yoxa çıxdın. Bir ay, iki ay! Nə bilim, lotuluq eləyirsən, arvadbazlıq eləyirsən?.. Sənin tayların hamısı nəsə bir sənət sahibidir. Sənətini işlədib, pul qazanır...

- Ay ana, - Ələmdar cəsarətsiz halda onun sözünü kəsdi. - Mənim sənətim yoxdu? Mən pul qazanmıram?

- Kəs səsini! - anası onun üstünə bozardı. - Avara uşaqları başına yığıb, kəllə vurmaq, təpik atmaq öyrədirsən, o sənətdir? Elə o cür şeylərə həvəsindən oldu də, gedib düşdün o xarabaya!

Ələmdar yenə də, gözucu, saata baxdı. Cəhalə indi,


downloaded from KitabYurdu.org

yəqin ki, klubda idi. Özü də, Ələmdarın fikrincə, görüşə yaxşıca hazırlaşmış, geyinib-kecinmişdi. Lap yəqin, bu görüşə qısa yubkada gələcəkdi, şalvarda yox... Ələmdarın bu qadından xoşu gəlirdisə də, onunla ciddi yaxınlığa bir o qədər həvəs göstərmirdi. Necə olmasa, əri var idi. Yaxşı olmazdı belə işin axırı.

Əminə arvad hələ danışırdı:

- Sənin taylarının neçə uşağı var, ay əclaf! Bəs nə vaxt bir adam balası tapıb evlənəcəksən? Sifət səndə, boy-buxun səndə. Üzdən baxanda nə biləcəklər ki, adamlığın yoxdu? Heç olmasa birini toruna sal, evlən də!..

Ələmdarın, baxmayaraq ki, otuz beş yaşı vardı, hələ evlənmək fikrində deyildi. Heç sevdiyi bir qız da yox idi. İndiyədək, neçəsilə münasibətdə olmuşdu, amma məhəbbət-filan olmamışdı aralarında. Məhəbbət də elə bir şeydir ki, insanın öz əlində deyil onu yaratmaq. Özü gəlir və çox vaxt da yerinə düşmür heç! Ya vaxtından tez, ya vaxtından gec, ya da ki... Birdə görürsən ki, tamamilə zövqünə uyğun gələn birinə rast gəlirsən. Görürsən ki, ailə qurmaq da problem deyil onunla. Üstəlik, o da səni bəyənir, hələ bəlkə də sevir. Qalır bircə sənin onu sevməyin... Az qalırsan, Allaha əl açıb yalvarasan ki, o məhəbbət deyilən şeydən azacıq da olsa, göndərsin qəlbinə. Amma göndərmir ki, göndərmir. Bir də görürsən, eləsini sevməyə başlamısan ki, ya evlidir, ya yaşı uyğun gəlmir səninlə, ya da ki, başqa bir problemi var. Nə isə... Çox qəribə məsələdir bu sevib-sevilmək məsələsi.

Ancaq hərdən Ələmdara elə gəlirdi ki, ömründə üzünü görmədiyi bir qızı sevir. Buna sevgi demək olardı, ya olmazdı, amma hər halda ürəyinin dərinliyində yuva


downloaded from KitabYurdu.org

salmışdı üzünü görmədiyi o qız. Maraqlıdır ki, Ələmdar o qızın sir-sifətini xəyalında canlandıra da bilmirdi. Görmədiyi sifəti necə canlandıracaqdı ki?.. Amma onun həmin qızın quruca varlığına bəslədiyi münasibətə məhəbbətdən başqa bir ad vermək də çətin idi. Bu, əslində, ilahi bir

məhəbbət idi ki, bəlkə də əsl məhəbbət elə belə olmalı idi. Ala gözləri, püstə dodaqları, al yanaqları, incə beli, şux gərdəni görmədən sevmək... Onsuz da bunlar hamısı gəldi-gedər şeylər idi. Məhəbbət isə, müdriklərin deməsinə görə, əbədi olmalı idi.

Pəncərəyə qoyduğu cib telefonu səsləndi. Ələmdar musiqidən bildi ki, bu Cəhalədir. Ancaq ayağa qalxmadı. Anası danışırdı... Əminə arvad səsini kəsib, özü telefonu götürdü. Zəndlə ekrana baxıb:

- Al! - dedi, - Məmməddir. Allah bilir, ya oğrudur, ya quldur! Sənin ağıllı-başlı dostun-tanışın olmaz!

Nə Məmməd? Ələmdarın özü Cəhalənin nömrəsinə bu adı yazmışdı ki, zəng vurub eləsə, anası görüb şübhələnməsin.

Telefonu anasından alıb düyməni basdı:

- Bəli!

Cəhalənin incə səsi gəldi:

- Ələmdar, sən haradasan?

Ələmdar telefonu qulağına sıxıb, eyni zamanda əlindəki qaşıqla boş stəkanı çaqqıldatmağa başladı ki, anası qadının səsini eşitməsin.

- Evdəyəm, - dedi.
- İşə gəlmirsən?
- Bəlkə qayıdıb gedəsən, sonra görüşərik... - Ələmdar


downloaded from KitabYurdu.org

gözucu anasına baxdı. Əminə arvad dayanıb onun danışığının qurtarmasını gözləyirdi.

- Sən niyə belə eləyirsən axı?! - Cəhalənin səsində açıq-aydın inciklik hiss olunurdu.

- Yaxşı, bir az da gözlə, gələcəm, - Ələmdar söhbəti tez kəsmək istədi.

- Gözləyirəm, - qadın astadan dedi.

Ələmdar telefonu qapayıb stolun üstünə qoydu.

- Kimdi bu Məmməd? - anası soruşdu.

- Təzə müştəridir. - Ələmdar cavab verdi. - Sambo öyrənmək istəyir.

-Nə?

- Sambo!

- Külü qoyum onun başına!

Əminə arvad, əslində olmayan Məmmədin qarasına deyinib, yenə oğlunun üstünə qayıtdı. Ancaq daha Ələmdar ona qulaq asmırdı. Cəhalə haqqında düşünürdü.

O, anasının həkimi idi. Anası şəkər xəstəliyindən əziyyət çəkirdi və vaxtaşırı müalicə olunmalıydı. Neçə həkim dəyişdikdən sonra həmin bu Cəhaləni bəyənmişdi. İyirmi altı-iyirmi yeddi
yaşlarında, sarışın saçlı, ağbəniz, gözəl qamətli bu qadının şirin dili ilanı da yuvasından çıxara bilərdi.

Əri də həkim idi. Eyni poliklinikada işləyirdilər. Anasını həkimin yanına həmişə Ələmdar aparırdı və Cəhalə ilə də burada tanış olmuşdu. Mehriban münasibətləri var idi. Ərdə olduğu üçün, Ələmdar əvvəllər ona başqa gözlə baxmaq istəmirdi. Xoşu gəlirdi ondan, vəssalam! Cəhalə isə, sən demə, artıq ona əməlli-başlı vurulubmuş. Hərdən lap incə atmacaları olurdu ki, Ələmdar bunlara



downloaded from KitabYurdu.org

gülümsəməklə cavab verir, özü də bəzən elə-belə, dilxoşluq xətrinə xoş sözlər deyirdi. Axır ki, necə oldusa, tanışlığın beşinci, ya altıncı ayında aradakı pərdə qismən yırtıldı. Kabinetdən çıxanda, Cəhalə imkan tapıb Əminə arvadın eşitməməsi üçün astadan:

- Sabah ikinci növbədəyəm. Gələrsən! - dedi.

Bunu dedi və qızarıb üzünü çevirdi. Başqa cür olsaydı, səhəri gün Ələmdar onun görüşünə getməyəcəkdi. Ancaq bu həya qızartısı və onunla uyuşmayan təklif gənc, subay oğlana maraqlı gəldi. Odur ki, səhəri gün poliklinikaya getdi.

Atası böyük vəzifədə işlədiyi üçün poliklinika rəhbərliyi Cəhaləyə xüsusi hörmət göstərirdi. Hər şəraiti olan ayrıca kabinet də vermişdilər ona. Elə həmin kabinetdə görüşüb ordan-burdan söhbət etdilər. Arada imkan tapıb, doyunca öpüşdülər də... Həmin çılğınlıq anlarında Cəhalə Ələmdarı sevdiyini etiraf etdi.

O görüşdən sonra yalvarırdı ki, Ələmdar özü onu harasa aparsın. Elə bir yerə ki, orada tam sərbəst ola bilsinlər. Ələmdar isə hər dəfə bir bəhanə
gətirirdi. Səxavət həkimi cəmi bir-iki dəfə görsə də, onunla heç bir yaxınlığı-filanı olmasa da, kişiliyinə toxunub, arvadıyla yatağa girmək istəmirdi. Cəhalənin də bu təklifinə çox pis baxırdı əvvəllər. Amma sonra başa düşdü ki, bu qadın onu doğrudan da sevir. Sevir də! Neyləsin? Özünü öldürməyəcəkdi ki?!

Ələmdar ona neçə dəfə xəbərdarlıq etdi ki, sənin ailən var, mən sənin ailəni dağıtmaq istəmirəm. Ancaq Cəhalə fikrindən dönmədi. Qurulmayan ailənin harası dağılacaqdı ki? Heç uşaqları da yox idi. Həm də, Cəhalə getdikcə daha


downloaded from KitabYurdu.org

artıq başa düşürdü ki, Səxavəti sevmir.

Bax, məsələ bu yerdə idi. Ancaq hələ ki, Ələmdarla da aralarında ciddi bir şey olmamışdı...

- Sən mənə qulaq asmırsan?! - anasının çığırtısı Ələmdarı diksindirdi.

- Əlbəttə, qulaq asıram, - dedi.
- Deyirəm, işə getməyəcəksən?
- Gedəcəm!

Bunu deyib ayağa qalxdı. Güzgünün qarşısında dayanıb saçlarını daradı. İdman stilində olan nazik gödəkəsini əyninə geydi.

Cəhalə, yəqin ki, incimişdi indi ondan. Ancaq incimişdisə də, dayanıb gözləyəcəkdi. Ələmdar buna yüz faiz arxayın idi. Cəhalə çoxdan gözlədiyi bu görüşün belə asanlıqla pozulmasına razı olmazdı. Ələmdar isə ondan fərqli olaraq, bu görüşə o qədər də ciddi əhəmiyyət vermirdi. Baxmayaraq ki, həmin bu idman klubuna indiyədək heç bir qadın-filan
gətirməmişdi. Hələ uşaqlar da Cəhaləni görəndə təəccüblənibiblər yəqin...

«Görəsən, kimə rast gəlib klubda? - deyə düşündü. - İlqara, Tələtə, ya Orxana? Ya bəlkə üçünə də?..»

Klub Ələmdarın özünə məxsus idi. Xudmani, geniş bir otağı da var idi orada. Divan, çarpayı, televizor, kompüter, bir sözlə, hər şeylə təchiz olunmuşdu. Klubda gedən məşqlərə İlqar, Tələt, Orxan rəhbərlik edirdilər. İlqar boks, Tələt sambo, Orxan isə karate üzrə. Üçü də gənc olmasına baxmayaraq, peşəkar idmançılar idilər. Üçü də Ələmdarı özlərinə həm böyük, həm də müəllim hesab edir, ona «Ələmdar qədeş» deyə müraciət edirdilər. Üçü də onun



downloaded from KitabYurdu.org

yolunda canından keçməyə
hazır idi. Hələ başqa işçiləri də var idi klubun. Geniş zalları, hər cür avadanlıqları da öz yerində...

Qapının zəngi çalındı. Gələnlər polisdən idilər. Allahverdi Əbilov və başqa bir polis əməkdaşı. Kapitan Əbilov qapını açan Ələmdara salam verdi. Təəccüblü baxışlarını onun üzünə dikən Ələmdar salamı bir qədər gec aldı:

- Salam!

- Bizə Ələmdar lazımdır! - kapitan ciddi və quru ahənglə dedi.

- Mənəm Ələmdar, nə olub ki?

- Bizimlə getməlisiniz!

Bu vaxt Ələmdarın arxasında dayanmış Əminə arvad özünü qabağa verdi:

- Nə olub, ay bala, neyləyirsiniz onu?

- Oğlunuz şübhəli şəxs qismində istintaqa cəlb olunmalıdır! - Əbilov cavab verdi. - Baş vermiş ölüm hadisəsi ilə əlaqədar.

- Başa düşmədim, - Əminə arvad əlini yellədi.

- Savadsız arvaddır, adam kimi danış, başa düşsün nə deyirsən! - qanı qaralmış Ələmdar dilləndi.

Söz kapitana toxundu. Qandalı əlində hazır tutmuş polis əməkdaşına başı ilə işarə edib acıqlı səslə dedi:

- Sadıxov Rafiq Əlifağa oğlunun ölümündə şübhəlisiniz. Ona görə də bizimlə polis idarəsinə getməlisiniz!

Ələmdar qandalın qoluna keçirilməsinə etiraz
etdi:

- Lazım deyil, özüm gedərəm sizinlə!


downloaded from KitabYurdu.org

- Yox, olmaz! - Allahverdi qəti şəkildə fikrini bildirdi və polis əməkdaşı qandalın bir halqasını Ələmdarın sağ qoluna keçirdi. O biri halqa isə onun öz qoluna taxılmışdı.

Bu vaxt Əminə arvadın çığırtısı onların hər üçünü diksindirdi:

- Ədə, adam öldürmüsən?!

Ələmdar ona tərəf döndü:

- Ay ana, sözdü də, deyirlər. Mən adam öldürənəm? Sən əsəbiləşmə, yenə şəkərin qalxacaq.

Anası sakitləşmək fikrində deyildi:

- Mən bilirdim, bilirdim ki, sənin də yerin gec-tez elə oradır. Aton gorbagor kimi! Səni görüm, türmələrdə çürüyəsən elə! Səni görüm belin sınsın, necə ki, belimi sındırdın!

Ələmdar dayanıb anasına qulaq asırdı. Ancaq Allahverdi buna mane oldu. Kobud şəkildə qolundan tutub pilləkənə tərəf dartdı:

- Gedək!

Ələmdar müqavimətin mənasız olduğunu görüb, qandalla bağlanmış olduğu polis əməkdaşıyla yanaşı pillələri düşməyə başladı. Pilləkənin lap ayağına çatanda da arxadan anasının səsi eşidilirdi:

- Dalınca gəlsəm, atamın qızı deyiləm! Get banditin oğlu bandit! Sənin adda oğlum yoxdu daha mənim!

On ikinci fəsil

Fərhadla Sədullanm fotorobotları hazırlanıb bir neçə əməkdaşa verildi ki, özlərinə iş axtaran adamların toplaşdıqları yerləri gəzib onları tapsınlar. Mayor Qismətov bu gün səhər Salehi bir də danışdırmışdı. Bir gecənin içində rəngi solmuş, gözlərinin altı qaralmış Saleh


downloaded from KitabYurdu.org

baxışlarını bir nöqtəyə zilləyib susur, ya da birinci istintaqda verdiyi ifadəni olduğu kimi təkrar edirdi. Yəni ki, həyətdən çıxanda meyiti görüb qorxmuş, maşına minib evə sürmüş, evin yanında qabağını kəsib qolunu yaralamışlar. Ancaq bu söhbət Canəliyə cəfəngiyat kimi görünürdü və inanırdı ki, əsl həqiqəti gec-tez Salehdən qopara
biləcək. Ona görə də, hələlik, onunla bir qədər səbirlə davranırdı.

Koppuş sifətli, qarnı qabağa çıxıb sallanmış Canəli qırx yaşını yeni keçməsinə baxmayaraq, daha yaşlı görünürdü.

Bundan əvvəl kənd rayonlarının hansındasa cinayət-axtarış bölməsində işləyən Qismətov, deyilənə görə, rayon camaatını zara gətiribmiş. Babalı deyənlərin boynuna, hətta rayon rəhbərliyi onu rayondan buna görə uzaqlaşdırıbmış. Kobud, acgöz və özündən razı olan bu adam caynağına keçənlərin dərisini soymamış buraxan deyildi. Üstəlik, qıza-qadına əyri gözlə baxmağı var idi ki, buna görə də iş yoldaşlarının çoxu onu xoşlamırdı.

Kabinetində, kresloya yayxanıb, ayağını ayağının üstünə aşırmışdı. Elə bil suala haradan
başlamağı müəyyənləşdirə bilmirdi. Qarşısında oturmuş gənc qadının məsum, təmiz, bakirə gözəlliyi onu valeh etmişdi.

Məltəm ilk dəfə polis idarəsinə ayaq basdığı, qarşıda onu və sevimli ərini nə gözlədiyini bilmədiyi üçün bərk həyəcanlı idi.

Nəhayət, Canəli istintaqa başladı:

- Həyəcanlanmayın, özünüzü ələ alın. Adınız nədir sizin?



downloaded from KitabYurdu.org

- Məltəm...

- Gözəl adınız var. Bu adı, adətən, Türkiyədə qoyurlar.

Məltəm dinmədi. Gözlərini Qismətovun gözlərindən yayındırmağa çalışsa da, onun xoşagəlməz məna ifadə edən baxışlarını üzündə hiss edirdi.

- Qohumdan, qardaşdan nəyin var? - Canəli bu dəfə birbaşa «sən»ə keçdi.

- Heç kəsim... - qadın yüngülcə ah çəkdi. - Rayonumuz alınanda ailəmizin hamısını ermənilər öldürüb.

- Bəs ərin tərəfdən?

- Onun da qohumu azdır. Atası, bacıları Sabirabadda yaşayır. Atası xəstədir. Ayaqları tutulub.

Canəli qadını bir daha müştəri gözü ilə nəzərdən keçirdi.

«Gözəl qadındır, - deyə düşündü. - özü də yad əl dəyməmiş, üzü üzlər görməmiş gözəllərdəndir. Qohum-əqrabası yox, əri də ki... Daha ona da yox demək olar. Beləsini əldən çıxarmaq heç ağıllı iş olmazdı...»

- İşləyirsən? - deyə soruşdu.

-Xeyr...

- Niyə?

- Ərim razı deyildi...

- Daha bundan sonra razı olar! - Canəli kresloda yerini bir az da rahatladı. - Danış görüm, ərin dünən evə nə vaxt gəldi, nə danışdı?

Məltəm udqunub boğazını arıtladı.

- Evə gələndə saat altı olardı. Pis vəziyyətdə gəldi. Gördüm, qolu sarıqlıdır. Bıçaqla yaralamışdılar. Soruşdum, dedi ki, yolda qabağımı kəsmişdilər, vurub qaçdılar. Sonra dedi ki, Əlifağa müəllimin oğlunu



downloaded from KitabYurdu.org

öldürüblər. Sonra...

- Sonra nə dedi? - qadının ilişdiyini görən mayor cəld soruşdu.

- Dedi ki, məni tutacaqlar...

- Elə beləcə dedi?

- Bəli... - Məltəm düşündü ki, bəlkə bunu deməsəydi, yaxşı olardı. Ancaq daha gec idi.

- Bəs demədi, niyə tutacaqlar?

- Xeyr, nə qədər soruşdum, demədi.

- Hm... - Canəli dayanıb özünü itirmiş qadını, diqqətlə süzdü. - Ərin çox həyəcanlı idi onda?

- Bəli, hətta ağladı da...

- Hələ çox ağlayacaq! - mayor istehzalı tərzdə dedi, - O cür cavan oğlanı vurub öldürəndə, gərək, heç olmasa, səni düşünəydi.

Məltəm ağlamsındı. Bu kobud, ürəksiz adamın hər bir sözü onu getdikcə daha çox ruhdan salırdı.

- Mən inanmıram ki... - deyə astadan başını silkələdi. - Saleh adam öldürsün. O çox ürəyiyumşaq, təmiz adamdır.

- Sevirsən onu? - Canəli qabağa əyilib Məltəmin yaşarmış ala gözlərinə baxdı. - Düzünü de!

Məltəm utandı. Bilmədi nə desin.

- Məndən utanma, düzünü de!

-Bəli...

- Ancaq belə çıxır ki, - Qismətov səsini qaldıdı. - O səni sevməyib. Yoxsa səni, ya uşaqlarını düşünərdi bu qələti eləyəndə. Neçə uşağınız var?

- İki.

- İndi kim saxlayacaq onları? Qohum-qardaş da yoxdur.



downloaded from KitabYurdu.org

- Bilmirəm... - Məltəm başını aşağı saldı. - Məni daha çox onun vəziyyəti düşündürür. Onun işi necə olacaq? Axı o günahsızdır?!

- Bəsdir! - mayor acıqlandı. - Artıq sübut olunub ki, bu cinayəti sənin ərin törədib. Niyə, nə səbəbə, bu artıq başqa söhbətin mövzusudur, ancaq hər halda, cinayəti o edib!

Məltəm bərkdən hönkürdü. Bunu görən Canəli qalxıb qrafindən stəkana su süzdü. Stəkanı qadının qarşısına qoyaraq, əlini onun əlinə toxundurdu:

- Ağlama, su iç! Mən bacardığım qədər onu müdafiə edəcəm. Çalışacam, sübut edim ki, Saleh bu cinayəti özünümüdafiə məqsədilə edib. Rafiq onun üstünə bıçaq çəkib, qolunu yaralayıb, o da Rafiqi vurub... - Əlini bu dəfə Məltəmin kürəyinə qoydu. - Götür iç, özünü üzmə!

Məltəm elə vəziyyətdə idi ki, Qismətovun hərəkəti ona bir o qədər də qeyri-adi görünmədi. Ancaq hər halda, daxilində narahat bir duyğu baş
qaldırdı. Stəkanı götürüb, sudan bir qurtum içdi və yenə yerinə qoydu.

- Mən sənə kömək edəcəm, - mayor bunu deyib, yerinə keçdi. - Ancaq sən də gərək mənə kömək edəsən. Mən bilməliyəm ki onlar nəyin üstündə dalaşıblar... Bir-iki gün əvvəl siz Sadıxovun bağında qızınızın ad gününü keçirmisiniz, düzdü?

- Bəli... - Məltəm başıyla da təsdiq etdi.
- Ondan əvvəl Rafiqlə tanış deyildiniz ki?
- Xeyr!
- Bəs sonra görüşmüsünüz?
- Xeyr. Ondan sonra görməmişəm onu.
- Ad günündə aranızda bir şey olmuşdu?


downloaded from KitabYurdu.org

- Yox! - Məltəm başını silkələdi. - Nə ola bilərdi axı?

- Yəni heç, - Canəli gözünü qıydı, - sənin kimi gözəl qadına nəzər də yetirmirdi o?

Məltəm duruxub qaldı. Bu adama necə cavab versəydi, Salehin xeyrinə olardı, görəsən?

Mayor Qismətov qadının tərəddüdündən istifadə etdi:

- Bax, Məltəm xanım, ərinin işinin yüngülləşməsi bundan çox asılıdır. Heç nə gizlətmə. Onsuz da, biz hər şeyi bilirik.

Əlbəttə, o, ad günündə Rafiqin özünü necə aparmasından xəbərdar deyildi. Sadəcə olaraq, öz təcrübəsindən bəhrələnib, qadından söz almağa çalışırdı.

- Sən necə oturmuşdun süfrə arxasında?
- Onunla yanaşı... - Məltəm cavab verdi.
- Sənə xüsusi diqqət göstərirdi, düzdü?
- Belə də... - qadın düşünmədən dilləndi.

- Necə yəni? - Qismətov əl çəkmədi. - Heç bilərəkdən, ya təsadüfən toxunmurdu sənə?

-Toxunurdu, ancaq...

- Üstəlik, kompliment də deyirdi, düzdür?

-Bəli...

- Bəs Saleh necə baxırdı buna? Harada oturmuşdu o?
- Bizimlə üzbəüz oturmuşdu.
- Ərin qısqancdır?
- Qısqanc olmağına qısqancdır, amma...
- Nə amma?
- Nə o gün, nə də sonra narazılığını bildirmədi mənə.
- Nə narazılıq bildirəcəkdi? - Canəli gülümsədi. -



downloaded from KitabYurdu.org

Sənin ki günahın olmayıb o məsələdə?! Günah hamısı Rafiqdə olub. Ərinin gözü qabağında sənə sürtünüb, əl atıb, komplimentlər söyləyib. Saleh yəqin dünən onunla qarşılaşanda, nəsə deyib bu barədə. Rafiq də harınlamış, ərköyün cavan...
Bunun üstünə bıçaq çəkib, yaralayıb. Belə olanda yaralanmış, ağlı başından çıxmış Saleh daşla vurub öldürüb onu... Məncə, ərinin cəzası çox ağır olmaz iş bu cür verilsə məhkəməyə...

Məltəm dinmirdi. Sanki daha inanmışdı ərinin qatil olduğuna.

Mayor Qismətov qadının dediklərini izahat formasında yazıb ona qol çəkdirdi. Sonra Məltəmin dəqiq ev ünvanını, telefonunu dəftərçəyə qeyd etdi. Özünün mobil nömrəsini də ona verib dedi:

- Dur get, Məltəm xanım! Biz yenə görüşəcəyik. Çalışacam sənə kömək edim. Sən də, bir çətinliyin olarsa, dərhal mənə zəng vur!

Məltəm ayağa qalxdı. Yaylığı ilə gözlərini qurulayıb:

- O, buradadır? - deyə soruşdu.
- Hə... Nədi ki? - Canəli tərəddüdlə dilləndi.
- Görə bilərəm onu?
- İndi yox! Sonra səninlə zəngləşərik. Lazım olsa, görüşdürərəm sizi.
- Sağ olun! - Məltəm çevrilib qapıya doğru getdi.

Əyninə yumşaq parçadan yanlarına kip oturmuş don və üstdən nazik jaket geyinmişdi. Arxadan onun qabarıq əzalarının zərif titrəyişini izləyən Canəli əlini stola vurub öz-özünə:

- Heç keçməli can deyil! - dedi. - Heç!


downloaded from KitabYurdu.org

On üçüncü fəsil

Fatiməni də polis idarəsinə çağırmışdılar. Canəli Qismətov Məltəmdən sonra onu danışdırdı. Qız aprelin 5-də parkda baş vermiş hadisəni olduğu kimi danışıb, mayorun suallarına cavab verdi. Qismətov Rafiqin öldürülməsi barədə Fatiməyə heç nə deməmişdi və hiss olunurdu ki, qız baş vermiş qətl haqqında hələ heç nə eşitməyib. Daha sualı qalmayan və əslində, fikrinin çoxu bayaq danışdırdığı gözəl qadının yanında olan Canəli əlindəki qələmi oynada-oynada bu qaraşın, suyuşirin, çinar qamətli qızı gözdən keçirirdi. Qızın iri, qonur gözlərinin dərinliklərində qorxu və həyəcan əlamətləri hiss etsə də, qurumuş, ətli dodaqlarını tez-tez yalamasını görsə də, bunu onun ilk dəfə istintaq stulunda oturması ilə izah edirdi. Ancaq ümumiyyətlə, cəsarətli və möhkəm iradəli bir qız təsiri bağışlayırdı Fatimə. Canəlinin normadan kənar baxışlarına özünəməxsus qaşqabaqlı sifət göstərirdi. Canəli: «Lap canavar balasına oxşayır, - deyə düşündü. - Beləsini tumarlamaq da qorxuludur.
Atılıb əlini dişləyə bilər...»

Mayor Qismətov, əslində, inanırdı ki, Rafiqi Saleh öldürüb. Fatiməni isə danışdırmaqda məqsədi başqa idi. İstəyirdi ki, parkda baş vermiş kiçik münaqişə ilə bağlı Ələmdar deyilən həmin oğlanı ilişdirib, ondan bir şey qopartsın.

Qıza izahat yazdırdı. Fatimə danışdıqlarının hamısını yazıb, altında da imzasını qoydu. İzahatı alıb oxuyan mayor razı qalsa da, onu dərhal buraxmadı.

- Deməli, filologiya fakültəsində oxuyursan? - deyə soruşdu.


downloaded from KitabYurdu.org

-Hə!
- Qurtarıb nə olacaqsan?
- Hələ bilmirəm! - qız qaşqabaqlı cavab verdi.
Bu vaxt kabinetin qapısı açıldı və Allahverdi
Əbilov içəri daxil oldu. Fatiməyə ötəri nəzər yetirib, onunla üzbəüz, stolun arxasında oturdu...

- Gətirdin? - deyə Canəli soruşdu. O, Ələmdarı nəzərdə tuturdu.
- Hə! - Əbilov cavab verdi.
- Mən də Salehin arvadını danışdırdım, - mayor bunu deyib başıyla Fatiməni göstərdi. - İndi isə Fatimə xanımla söhbət edirdik. Fuadın danışdığı həmin park əhvalatındakı qızdır.
- Heyif! - Əbilov təəssüflə başını yırğaladı. - İstəyərdim, Salehin həyat yoldaşını danışdıranda mən də burada olum.

Canəli əlini yellədi:

- Burada olub neyləyəcəkdin? Nə lazımdır soruşdum. Götür izahatını oxu. Görəcəksən ki, doğrudan da, mən haqlıyam.

Əbilov izahatı əlinə aldısa da, hələlik oxumadı:

- İcazə verirsinizsə, Fatimə xanıma mən də bir neçə sual verərdim.
- Buyur! - Qismətov çiyinlərini dartdı.

Kapitan Əbilov üzünü qıza çevirdi:

- Fatimə xanım, siz Ələmdar Məlikovu əvvəldən tanıyırdınızmı?
- Ələmdarı? - Fatimə soruşdu. - Hə, bir dəfə universitetdə, idman kafedrasında görmüşdüm.
- Onun sizə qarşı münasibəti necə idi?


downloaded from KitabYurdu.org

- Qəribə sual verirsiniz, - qız istehza ilə dilləndi. - Dedim ki, bircə dəfə rastlaşmışdıq. Həmin gün də parka təsadüfən gəlmişdi. Mən orada nişanlımı gözləyirdim.

- Rafiqi necə, tanıyırdınız?
- Hə, bir-iki dəfə qabağımı kəsmişdi.

- Yaxşı, deyin görüm, həmin gün Ələmdar Rafiqi vurdumu?

Fatimə bir az duruxub başını aşağı dikdi. Sonra birdən, nə düşündüsə, başını qaldırıb Əbilova baxdı:

- Rafiq kişidirsə, gərək sizə şikayət etməyəydi. Çünki o Ələmdarın üstünə bıçaq çıxartdı, onu söydü, Ələmdar da onu vurdu. Siz əslində Rafiqin özünü çağırıb danışdırmalısınız. Onun atasından qorxursunuz yəqin, düşmüsünüz Ələmdarın üstünə!

Əbilov mayor Qismətovla mənalı tərzdə baxışıb yenə Fatiməyə üz tutdu:

- Lazım olsa, Rafiqi də danışdıracağıq. Ancaq siz deyin görüm, həmin hadisəni sonradan kiməsə danışmısınızmı?

- Xeyr! - Fatimə başını yellədi. - Təkcə, nişanlım bildi, vəssalam.

- Bəs o necə münasibət göstərdi həmin hadisəyə?

- O mədəni adamdır. Rafiq kimilərin tayı deyil ki, ona baş qoşsun.

- Yəni heç bir söz demədi bunu biləndə?

- Yox! - Fatimənin cavabı daha çox canavar balasının fınxırtısına oxşadı.

Əbilov başını bulayıb mayora baxdı:

- Mənim başqa sualım yoxdur.

- Sən gedə bilərsən! - Qismətov Fatiməyə qapını



downloaded from KitabYurdu.org

göstərdi.

Fatimə cəld ayağa qalxıb, sağollaşmadan qapıya getdi və kabinetdən çıxdı. Qapı örtülən kimi Canəli yerindən durub pəncərəyə yaxınlaşdı. Buradan polis idarəsinin qapısı və qarşıdan keçən küçə görünürdü. Həyət boyu addımlayan Fatimənin yerişinə arxadan tamaşa etdi. Qız həyətdən çıxıb onu gözləyən qara rəngli, «Nissan» markalı minik maşınına oturdu. Qapı örtüləndən bir neçə dəqiqə sonra «Nissan» hərəkətə gəlib küçə ilə şütüyən maşınlara qarışdı.

Mayor qayıdıb stolun arxasına keçdi:

- Bilirsən bu işdə bizim qazancımız nə olacaq?
- Nə olacaq? - Allahverdi kinayə ilə soruşdu.

- Saleh heç! - Canəli laqeyd halda əlini yellədi. - Onun bizə bir xeyri olmayacaq. Basacaqlar, gedəcək türməyə. Yüz faiz inanıram ki, Sadıxovun oğlunu o öldürüb. Ancaq o Ələmdardı, nədi, ondan lazım olan qədər qopartmaq olar. Həmin gün parkda Rafiqi döydüyünə görə.

Kapitan Əbilov, üzə vurmasa da, daxilində bərk hiddətləndi. O, çiyninə poqon taxandan heç kəsin bir manatına göz dikməmişdi. Bunu digər iş yoldaşları kimi, idarəyə təzə gəlməyinə baxmayaraq, Canəli də bilməli idi və bilirdi də, yəqin ki. Ancaq buna baxmayaraq, həyasızcasına onu da özünə ortaq etmək istəyirdi.

Canəlinin necə kinli, necə kəmfürsət bir adam olduğunu bildiyi üçün ürəyindən keçən kəskin sözləri dilinə gətirmək istəmədi. Amma onun Saleh barədə dediklərinə münasibət bildirməyə məcbur oldu.

- Axı siz Salehin cinayətkar olması barədə niyə belə



downloaded from KitabYurdu.org

arxayın danışırsınız? Mən şəxsən bunun üçün
nə real əsas, nə də kifayət qədər məntiqi əsas görmürəm.

Qismətov özündən razı halda, barmağ iylə stolu taqqıldatdı:

- Real əsas da var, məntiqi əsas da, mister Holms!

- Nədir real əsas? - Əbilov kinayəli maraqla soruşdu.

- Aprelin 6-da Sadıxovun bağında keçirilən məclisdə Rafiq Salehin arvadına başqa gözlə baxıb. Əlləşdirirmiş onu ərinin gözü qabağında. Salehin arvadı özü danışdı bunu. Dünən də mübahisə elə bunun üstündə düşüb aralarında.

Kapitan bir neçə anlıq duruxub, nəhayət dilləndi:

- Bu barədə mən hələ bir söz deyə bilmərəm. Salehin arvadını siz danışdırmısımz.

- Mənə inanmırsan? - Canəli məzəmmətlə dedi.

- Bəs məntiqi əsaslarınız hansılardır? - Əbilov suala sualla cavab verdi.

- Meyitin əlindəki bıçaq, Salehin yaralanması...

- Hələ bir dayanın, - Əbilov onun sözünü kəsdi. - Qoyun ekspert təsdiq etsin ki, bıçaqdakı qan Salehindir.

- Sənin də bu tərsliyin olmaya! - Canəli dedi. - Yaxşısı budur, gəl Ələmdarı danışdıraq. Salehin işiylə, onsuz da, prokurorluğun müstəntiqi məşğul olacaq.

On dördüncü fəsil

Beş dəqiqə sonra polis əməkdaşı Ələmdarı mayor Qismətovun kabinetinə gətirdi. Baş əməliyyat müvəkkili onun dindirilməsini, buna daha çox maraq göstərən kapitan Əbilova tapşırdı.

Əbilov Ələmdara öz qarşısında oturmaq üçün yer göstərib, kağız-qələm götürdü və birbaşa sorğu- suala



downloaded from KitabYurdu.org

başladı:

-Adınız, soyadınız?

- Məlikov Ələmdar Vələddin oğlu.
- Neçənci ildə anadan olmusunuz?
- 1971-ci ildə.

- Nəzərinizə çatdırım ki, siz Sadıxov Rafiq Əlifağa oğlunun ölümündə şübhəli bilinirsiniz.

İstintaq zamanı suallara cavab verməkdən imtina edə bilərsiniz. Dediyiniz hər bir sözdən əleyhinizə istifadə oluna bilər. Sizin özünüzə vəkil tələb etmək hüququnuz var.

- Mənə vəkil lazım deyil. Nə də ki, həmin o Rafiqi mən öldürməmişəm. - Ələmdar laqeyd halda dedi və tez də əlavə etdi. - Əgər o, doğrudan da ölübsə.

- O nə deməkdir? - kapitan soruşdu.

- O deməkdir ki, mən Rafiqin guya öldüyünü yalnız sizdən eşitmişəm.

- Hə, sizə doğrudan da vəkil lazım deyil. - Əbilov rişxəndlə dedi. - Siz iyirmi yaşınızda bədənə ağır xəsarət yetirmək üstündə azadlıqdan məhrum edilmisiniz, düzdür?

- Bəli.
- Ancaq vaxtından tez buraxılmısınız. Niyə?

- Çünki orada da bir neçəsini döyməli oldum. O cümlədən də nəzarətçini...

- Buna görə adamı vaxtından əvvəl buraxmırlar ordan, - Allahverdi istehza ilə gülümsədi.

- Buraxıb kurorta göndərmədilər. - Ələmdar ciddi şəkildə dilləndi. - Döyüşə göndərdilər. Özü də ən ağır nöqtələrə.

- Bəs sonra? - kapitan səibrlə soruşdu. - Məncə, orada



downloaded from KitabYurdu.org

da axıradək tab gətirib dayanmamısımz.

- Siz ki, tərcümeyi-halımı bilirsiniz. - Ələmdar kapitan Əbilovu qəribə bir diqqətlə süzüb dedi. - Daha məndən niyə soruşursunuz bunları?

- Bəli, bilirik. - Əbilov bir az da ciddiləşdi. - O vaxt döyüşdüyünüz batalyondan şübhəli bir şəkildə buraxılmısınız. Sonra aradan çıxıb, Türkiyəyə getmiş, orada uzun müddət otellərin birində gecə gözətçisi işləmisiniz. Bura qayıdandan sonra da bir müddət tüfeyli həyat sürmüsünüz. Neçə dəfə müxtəlif rayonların polis bölmələri tərəfindən xuliqanlıq üstündə saxlanmısınız. İndi də bir neçə ildir, idman klubu açmısımz. Hansı pulla? Özünüz yaxşı bilirsiniz... Elə idmançılığınız da şübhəlidir sizin. İndiyədək heç bir mötəbər yarışda iştirak etməmisiniz. «Volvo S70» markalı təzə avtomobiliniz var. Bəsdir, yoxsa yenə sayım?

- Bəsdir, xahiş edirəm, əsas məsələyə keçin! - Ələmdar üz-gözünü turşutdu.

- Yaxşı, keçək əsas məsələyə. - Əbilov stulda yerini rahatladı. - Siz universitetdə Fatimə adlı tələbə qız tanıyırsınız?

- Hə, tanıyıram. Bir dəfə universitetdə görmüşdüm. Üç-dörd gün əvvəl, daha dəqiq desəm, aprelin 5-də ikinci dəfə ona parkda rast gəldim. Təsadüfən, gördüm ki, iki oğlan ona sataşır. Yaxınlaşıb onlara başa saldım ki, əgər qız özü sizi yaxına buraxmaq istəmirsə, həyasızlıq etmək lazım deyil.

- Onun biri bizim rəisin oğlu olub! - mayor Qismətov acıqlı dilləndi.

- Nə fərqi var ki?! - Ələmdar çiynini çəkdi.



downloaded from KitabYurdu.org

- Fərqi çoxdur! - Canəli onun üstünə bozardı. - Ayın 9-da, yəni dünən harada olmusan?

- «Olmusan» yox «olmusunuz!» - Ələmdar onun sözünə düzəliş verdi.

- Mənə ağıl öyrətmə! - Canəli səsini qaldırdı. - Vurub yıxdığın, sonra da ölümlə hədələdiyin həmin oğlan dünən öldürülüb!

Ələmdar bir an duruxub, cavab verdi:

- Mən həmin hadisədən sonra onu görməmişəm.

- Dünən Rafiq sizin üstünüzə öz adamlarını göndərib, - kapitan Əbilov yenidən söhbətə qarışdı. - Siz onlarla dalaşmısınız. Sonra isə, yəqin ki, Rafiqlə haqq-hesabı çürütmək üçün onunla görüşmüsünüz.

Ələmdar başını yırğaladı:

- Heç bir dalaşma, vuruşma olmayıb. Dünən bazar günü idi. Onun göndərdiyi dəstə düşünüb ki, mən klubda tək olacam. Ancaq bizim məşqçilər də, təsadüfən, orada idilər. Biz onları mədəni dildə başa saldıq ki, klubdan xərəkdə yox, öz ayaqları ilə getmələri daha yaxşı olar. Onlar da bunu başa düşdülər.

- Siz həmin gün Rafiqi öldürəcəyinizlə hədələmisiniz. Bunu təsdiq edirsiniz? - kapitan sual verdi.

- Yox, - Ələmdar başını sərt şəkildə yırğaladı, - mən elə bir söz desəydim, sözümün üstündə durub, onu doğrudan da öldürərdim. O mənim atamı söymüşdü. Mən də nə lazımdırsa, elə orada elədim. Bu gün mümkün olan işi sabaha saxlamıram mən!

- Sən nə yekə-yekə danışırsan ə?! - Allahverdi birdən əsəbi halda səsini ucaltdı. - Özünü nə hesab edirsən?

- Qışqırmayın, cənab kapitan, səbirli olun! - Ələmdar



downloaded from KitabYurdu.org

istehzalı səslə dilləndi. - Siz vəzifə başındasınız.

Ancaq kapitan Əbilov, doğrudan da, özündən çıxmışdı. Belə vəziyyət onda nadir hallarda olurdu. İdarədə də səbirli, təmkinli bir adam kimi tanınmışdı. Amma indi onu əsəbiləşdirib özündən çıxaran, bəlkə də bayaqdan içinə yığılıb qalmış qəzəb və hiddət idi. Canəlinin bu işdən şəxsi mənfəət güdməsi öz peşəsinə, poqonuna hörmətlə yanaşan kapitanı təhqir etmişdi elə bil. Bu yandan da qarşısında oturub ona istehza ilə baxan bu adamın mənəm- mənəmliyi odun üstünə benzin tökmüşdü, sanki... Əlini şappıltı ilə stola çırpıb ayağa qalxdı:

- Sənin kimi tüfeylilləri, avaraları çox görmüşəm mən! İçiniz boş olur sizin! Tülkü kimi qorxaq olursunuz siz! Küçədə yolunuzu dar eləyən birini bıçaqlaya bilirsiniz, amma ermənilər o qədər torpağımızı alıb, yerimizi dar eləyiblər, onların
qabağına çıxmağa cəsarətiniz yoxdur! Əsir düşmüş analarımızın, bacılarımızın namusuna toxunurlar, gözlərini ovub çıxarırlar, vecinizə gəlmir, amma bir söyüşün, özü də öz millətindən olan birinin söyüşünün intiqamını almaq istəyirsiniz. Bir-birinizin ətini yeməyə, badalaq vurub yıxmağa, ilişdirib çığırda-çığırda dərisini soymağa hazırsınız! Kişi hesab edirsiniz özünüzü!

Ələmdar susub, qəribə bir sakitliklə kapitana baxırdı. Elə Canəli də dillənmirdi. Deyəsən, o da kapitanın tənəsindən öz payını götürmüşdü. Heç vaxt bu vəziyyətdə görmədiyi Allahverdiyə heyrətlə baxırdı.

Əbilov isə sakitləşmək bilmirdi hələ. Ələmdarın qarşısında durub az qalırdı əllərini onun gözünə soxsun:

- Burda yekəbaşlıq eləməyə, özünü qürurlu göstərməyə



downloaded from KitabYurdu.org

nə var?! Bilirsən ki, biz səni öldürən deyilik, başını kəsən deyilik. Gedib üç-dörd güllə atıb gəlmisən, bəlkə də özünü qəhrəman hesab edirsən. Amma düşmənlə həqiqətən üz-üzə dayansaydın, bəlkə də diz çökərdin qabağında. Bağrın yarılardı bizim gördüklərimizi görsəydin!

Birdən sözünü kəsib, hirslə əlini yellədi və kabinetdən çıxdı. Ələmdar onu baxışlarıyla ötürüb, üzünü Qismətova çevirdi:

- Bu nə demək istəyirdi, cənab mayor?

- Başa düşmədin? - Canəli mənalı tərzdə gözünü qıydı.

- Yox!

- O səni ilişdirmək istəyir. Heç nə olmasa da, parkdakı xuliqanlıq hərəkətinə görə. Ancaq mən
istəmirəm pislik eləyək sənə. Cavan oğlansan. Gör neyləyə bilərsən?

Onun nə demək istədiyini anlayan Ələmdar birdən ayağa qalxdı:

- Getmək olar?
- Haraya? - Canəli təəccübləndi.
- Kameraya!

Mayor onun üzünə bir müddət matdım-matdım baxıb stolun üstündəki düyməni basdı. İçəri daxil olan polis əməkdaşına:

- Aparın bunu salın kameraya! - dedi. Ələmdar polis işçisinin qabağına düşüb
kabinetdən çıxdı.

On beşinci fəsil

Cəhalə, artıq bir saatdan çox idi ki, idman klubunda Ələmdarı gözləyirdi. Ələmdar isə gəlib çıxmaq bilmirdi. Üstəlik, hələ cib telefonunu da söndürmüşdü. Cəhalə gah


downloaded from KitabYurdu.org

foyedə qoyulmuş uzun, yumşaq oturacaqda oturur, gah da qalxıb əsəbi və narahat hərəkətlə gəzişirdi. Klubun məşqçilərindən Orxan adlı cavan oğlan, gedib-gəlib, yolunu onun yanından salır, şefini gözləyən bu gözəl qadına maraqla göz qoyurdu. Onun baxışlarında istehzaya oxşayan bir şey duyulurdu ki, bu da əri ola-ola yad bir oğlanın görüşünə gəlmiş qadını ürküdürdü.

Cəhalə bu görüşə böyük həvəslə hazırlaşmışdı. Əyninə geydiyi nazik köynək və dizlərini açıqda
saxlayan ağ yubka ona xüsusi yaraşıq verirdi. Əksər vaxtlar geydiyi cins şalvar bədənini, xüsusilə, bir qədər normadan artıq qabarıq olan arxa hissəsini daha qabarıq göstərirdi ki, bu da gözəllik aşiqlərindən daha çox şorgözlərin baxışlarını özünə cəlb edirdi. İndi geydiyi bu zərif yubka isə həmin ifrat qabarıq cizgiləri bir qədər gizlədir, baxanların nəzərində zərif bir gözəllik yaradırdı.

Amma sifəti həmişə zərif, təravətli, xoşagələn olurdu. Bu zərifliyi, bu təravəti görənlər ağıllarına heç də başqa bir şey gətirmək istəmirdilər. Daha çox, təmiz gözəlliyinə valeh olurdular onun.

Bu gün saçlarını da yeni, cəlbedici bir formada düzəltmişdi. Onu bu görkəmdə iyirmi yaşlı qızla dəyişik salmaq olardı. Lakin əslində Cəhalənin uşaq sifətini xatırladan çöhrəsi o qədər işıqlı və təravətli idi
ki, daha gənc və yeniyetmə qızların böyük əksəriyyəti ona qibtə edə bilərdilər.

Cəhalə, artıq əsəbiləşməyə başlamışdı. Neçə vaxtdan bəri intizarında olduğu bu görüşün də baş tutmayacağını düşünəndə özünü əməlli-başlı təhqir olunmuş hiss edirdi. Ələmdarın bu hərəkətini və ümumiyyətlə, ona qarşı


downloaded from KitabYurdu.org

laqeydliyini heç cür anlaya bilmirdi.

Cəhalənin fikrincə, əgər istəsəydi, ən yaraşıqlı, ən imkanlı kişilər onunla görüşmək üçün çox şeylərindən keçərdilər. O, ərə gedəndən sonra ərindən savayı heç kəslə ciddi bir intim münasibətdə olmasa da, kişilərin ona qarşı laqeyd olmadığını dəqiq bilirdi. Həm də elə-belə, yoldan ötən kişilərin yox, çox qadınların qəlbini fəth edən kişilərin.

Lap elə Əli Mazanov! Qırx beş yaşı ancaq olardı. Boy-buxun, yaraşıq, cazibədarlıq da öz yerində. Nə də ki, balaca adam deyildi. Nihatın işlədiyi bankın sahibi, tanınmış iqtisadçı alım...

Onunla Nihatın ad günündə tanış olmuşdular. Sonra məlum oldu ki, Cəhalənin atası ilə də bağ qonşusudur. Qonşuluqdan əlavə yaxın münasibətləri də varmış Miraslanovla.

Keçən ilin yay günlərinin birində atası Cəhaləni özünün idarə maşınında bağa aparmışdı. Səxavətin vacib işi olduğu üçün şəhərdə qalmışdı onda. Bağda təşkil olunmuş nahar süfrəsində Mazanov da iştirak edirdi. O, məclis boyu cəmi bir neçə dəfə, həm də ötəri, ciddi baxışlarla baxmışdı Cəhaləyə. Ancaq Cəhalə qadınlara məxsus fitri duyma qabiliyyəti ilə bu baxışlardakı gizli arzunu, təmənnanı o saat
duymuşdu. Duymuşdu və buna baxmayaraq, qətiyyən narahat olmamış, əksinə, qəlbinin dərinliyində öz gözəlliyi, cazibədarlığı ilə qürrələnmişdi. Şəhərə qayıdanda elə oldu ki, Cəhalə Mazanovun maşınında qayıtmalı oldu. Təkcə ikisi idi maşında...

Yol boyu özünü çox yaxşı hiss edirdi. Danışırdı,


downloaded from KitabYurdu.org

gülürdü... Mazanovun maşının güzgüsündən ona baxan mənalı baxışlarına bir az utancaq, bir az xumarlı baxışlarıyla cavab verirdi. Bəlkə məclisdə içdiyi konyakın da rolu az deyildi onun bu davranışında. Ancaq sərxoş da deyildi, qətiyyən. Sadəcə, öz gəncliyindən, gözəlliyindən xumarlanır, onu bəyənən və özünün də müsbət qiymətləndirdiyi kişiylə intim anlaşmadan zövq alırdı. Burada bədənlər bir-birindən aralı olsa da, duyğular bir-birinə toxunur, bir-birinə sürtünür, bir-birinə sarılırdılar. Adətən, naməhrəm əks cinslər arasında baş verən belə gizli anlaşmalar, belə duyğu görüşləri, sonda öz mahiyyətini açmadan, eləcə üstüörtülü qurtarıb gedir, tərəflərin heç biri öz hərəkətində bir qəbahət-filan da görmür.

Ancaq Cəhalə qətiyyən gözləmirdi ki, öz arzusunu həyata keçirmək yolunda riskə getməyi və cəsarət göstərməyi bacaran bir adam kimi tanıdığı Mazanov ona birdən-birə belə bir təkliflə müraciət edəcək.

Söz, deyəsən, onun indiyədək nə üçün evlənməməsindən düşmüşdü. Onsuz da, davranışında həmişə ciddi olan Mazanov birdən-birə bir az da ciddiləşdi:

- Bu vaxta qədər qarşıma qoyduğum bir çox məqsədlərə çatmaq yolunda çalışdığım üçün qadınlardan, ümumiyyətlə, uzaq olmuşam. İnanın mənə, Cəhalə xanm, siz ilk qadınsınız ki, diqqətimi bir qadın kimi cəlb etmisiniz. Cəlb etməklə yanaşı, ürəyimə girmisiniz elə bil, duyğularıma hakim olmusunuz.

Cəhalə tutulub durmuşdu. Qəribə, narahat hisslər keçirirdi. Yox, hirslənib eləməmişdi. Heç inciməmişdi də bu sözlərdən. Əksinə, ürəyinin lap gizli dərinliyində ləzzət


downloaded from KitabYurdu.org

alırdı. Amma özünü itirib, bir az da qızarmışdı. Doğrudan, gözləmirdi axı cəmi iki dəfə məclisdə, adamların əhatəsində gördüyü bu kişinin etiraflarını.

Maşın hərəkətdə idi. Sükanın arxasında oturub maşını idarə edən və gözləri yola baxan Mazanov təmkinlə danışırdı:

- Siz hər şeyi başa düşən, müasir fikirli qadınsınız. Zənnimcə, məni başa düşüb, sözlərimdən inciməyəcəksiniz. Əgər ərdə olmasaydınız, mən sizə evlənmək təklifi ilə müraciət edərdim. Amma siz evlisiniz. Görürəm ki, daimi olaraq sizə qovuşmağım mümkün deyil. Xarakterim elədir ki, sizə olan münasibətimdən sonra bu, başqası ilə də mümkün olmayacaq. Odur ki, sizinlə, heç olmasa, bir neçə xoşbəxt saat keçirmək arzusu rahatlıq vermir mənə...

Onun sözünə ara verdiyini görən Cəhalə dilləndi:

- Axı bu mümkün olan şey deyil?! Özünüz dediniz ki, mən ərdəyəm. Xəyanət edə bilmərəm axı ona...

- Bəlkə də siz düz deyirsiniz. Amma adam sevməyə başlayanda, hər şeyə tamam başqa gözlə baxır, nədənsə...

- Bir də ki, bir neçə saatla siz nə qazanacaqsınız axı? - Cəhalə onun sözünü kəsdi.

- Məsələ bir neçə saatda olsaydı, - Mazanov dedi. - Mən bu arzumu qoparıb ata bilərdim ürəyimdən. Ancaq o saatlarda duyacağım xoşbəxtlik elə güclü ola bilər ki, sonradan bütün ömrümə bəs edə bilər.

Cəhalə heç vaxt Səxavətdən buna bənzər etiraf eşitməmişdi. Yaman təsir etmişdi ona bu sözlər. Ancaq başqa cür bacarmadığı üçün, yenə etiraz etməyə məcbur oldu:


downloaded from KitabYurdu.org

-Yox, Əli müəllim, inciməyin, bu mümkün deyil. Mən sizi başa düşürəm və xətrinizi də uca tuturam. İstəsəniz, dost kimi davrana bilərik bundan sonra. Ancaq...

- Dost!.. Mənim heç bir dostum yoxdur indiyədək. Yox, əgər varsa da, o elə mən özüməm.

Mazanovun bu sözlərində istehza da var idi, elə bil. Sonra daha heç danışmadılar. Bir də Cəhaləgilin evinin yanına çatanda maşını saxlayan Mazanov geriyə çevrilib vizit kartını ona uzatdı:

- Hər halda, sizdən xahiş edirəm, bunu alın, təklifimi bir daha götür-qoy edərsiniz. Əgər razılıq versəniz, zəng vurub bildirərsiniz mənə. Sirrimizin həmişəlik öz aramızda qalacağına söz verirəm!

Onda vizit kartını alıb çantasına qoyan Cəhalə heç bir cavab vermədi. Nə də ki, üstündən bir il keçməyinə baxmayaraq, zəng də vurmadı ona. Çünki əvvəla, daxilində elə bir güclü tələbat hiss etmirdi buna, sonrası da ki, Miraslanovun qızı, Ağaşamilin gəlini kimi özünü ağır aparmağa, adını dilə-dişə sala bilən hərəkətlərdən uzaq olmağa məcbur idi.

Ancaq indi belə çıxırdı ki, Ələmdara doğrudan-doğruya vurulmuşdu. Dayana bilmirdi onsuz! Bədənini də, qəlbini də təslim etmək istəyirdi ona. Kim idi axı bu Ələmdar?! Sadəcə, bir idman klubunun sahibi... Düzdür, cavandır, boy- buxunludur... Ancaq heç Mazanovun yüzdə biri qədər imkanı, pulu ola bilməzdi. Nə də savadı, qabiliyyəti! Buna baxmayaraq, bəyənmir hələ Cəhaləni! Lovğa! Qudurğan!

Cəhalə gözləməkdən bezib, əsəbi hərəkətlə klubdan çıxdı. Atasının ona hədiyyə etdiyi süd rəngli


downloaded from KitabYurdu.org

«Mersedes»inə oturub birbaş evə sürdü. Ələmdarın saymaz hərəkəti onu özündən elə çıxartmışdı ki, maşını düzgün idarə edə bilmirdi. İki dəfə, az qala, qəza da törədəcəkdi. Dəlisov hərəkətlə çaşdırdığı sürücülərdən biri başını maşının pəncərəsindən çıxarıb, onu yağlı bir söyüşə qonaq etmək istəyirdi ki, onun qadın - özü də gözəl bir qadın olduğunu görüb, susmağa məcbur oldu.

Səxavət evdə deyildi. O, poliklinikada hər iki növbədə işləyirdi. Cəhalə isə, əsasən, ikinci növbə işləyirdi. Hirsindən-hikkəsindən evdə də qərar tuta bilmədi. Qadınlıq qürurunun təhqir olunması onun ağlını başından almışdı elə bil... Məqsədsiz halda otaqları gəzib, mətbəxə keçdi. Əlinə gələn bir neçə boşqabı yerə vurub sındırdı. Bu hərəkəti onu, sanki bir qədər özünə gətirdi və sakitləşib bundan sonra nə edəcəyini düşünməyə başladı.

Axı Ələmdar nəyə görə ona belə laqeyd idi? Axı o, ərli qadın, Miraslanov kimi adamın qızı, başqaları üçün olduqca əlçatmaz olan gözəl bir qadın Ələmdar kimi adi bir oğlanla görüşməyə can atırdısa, bəs o nə üçün buna həvəs göstərmirdi? Belə çıxırdı ki, onun görüşdüyü, sevdiyi başqa qadın var? Belə çıxırdı ki, o, Cəhaləni aldadırmış? Ələ salırmış? Nə olar?! Cəhalə də heyfini çıxar ondan! Göstərər ki, heç də möhtac deyil ona!

Ağlına gələn fikir özünə də qeyri-adi göründü. Yəni eləyərmi o, belə bir şey?! Cəhalə - Miraslanovun qızı - Ağaşamilin gəlini?! Yəni doğrudanmı, o belə bir hərəkət edərdi?

Hə! Edəcəkdi! Ələmdarın acığına edəcəkdi bunu! Cəhənnəmə olsun hər şey! Cəhalə hər kişiyə möhtac olan adi qadınlardan deyildi və Ələmdar da



downloaded from KitabYurdu.org

bunu başa düşməliydi. Ələmdar, lap yüz faiz onu aldadır, ona xəyanət edirdi və Cəhalə bu xəyanəti bağışlamayacaqdı!

Kitab şkafını, sonra isə termonun siyirməsini axtarıb, Əli Mazanovun vizit kartını tapdı. Cib telefonunu çantasından çıxarıb, əlləri əsə-əsə nömrəni yığdı. Çağırış göndərən düyməni basan kimi ürəyi həyəcandan döyünməyə başladı və cəld çağırışı saxlayıb, telefonu qapadı.

Etmək istədiyi hərəkətin mahiyyəti barədə düşünməyə çalışdı. Amma bu alınmadı. Hirsi-hikkəsi heç cür yatmaq bilmirdi. Nəfəsini dərib, özünü bir qədər sakitləşdirdi və bir də zəng vurdu. Telefondan sakit və təmkinli kişi səsi eşidəndə:

- Salam... - deyə titrək səslə astadan dilləndi. - Mənəm... Cəhalə...

Mazanov, deyəsən, karıxdı. Ancaq bu lap bircə an çəkdi:

- Hə, Cəhalə xanım, salam! Necəsiniz? Sizdən nə əcəb?

- Əgər fikrinizi dəyişməmisinizsə, sizinlə görüşməyə razıyam.

Cəhalə bunu birnəfəsə dedi və həyəcandan damarlarındakı qan sürətlə gicgahlarına vurmağa başladı. Mazanov, nədənsə, bir qədər gec cavab verdi:

-Yox, əlbəttə, mən fikrimi dəyişməmişəm. Nə vaxt görüşmək istəyirsiniz?

- Elə bu saat! - Cəhalənin fikri sanki getdikcə qətiləşirdi.

- Bu saat?!

- Bəli. İmkanınız yoxdur?



downloaded from KitabYurdu.org

Mazanov bir anlığa duruxdu. İki gün sonra beynəlxalq simpoziumda iştirak etmək üçün Amerikaya uçacaqdı. Bununla əlaqədar bu gün şöbə və filial müdirlərinin iclasını çağırmışdı. İclas bir saatdan sonra başlamalı idi. Amma bu qəfil təklif onu çox maraqlandırmış, hətta bir qədər həyəcanlandırmışdı.

- Niyə yoxdu? Var imkanım... Siz indi haradasınız?
- Evimizdə. - Cəhalə cavab verdi.
- Onda on beş dəqiqə sonra evin qabağına düşün, maşın gələcək.

-Yaxşı!

Hər iki tərəfi həyəcanlandıran telefon söhbəti beləcə bitdi və Cəhalə on beş dəqiqənin gəlib keçməsini gözləməyə başladı. Hazırlaşmağa ehtiyac yox idi. O cür ki, Ələmdarın görüşünə hazırlaşmışdı, bundan yaxşısını təsəvvür etmək mümkün deyildi.

Vaxt tamam olanda, sonuncu dəfə güzgüdə özünə baxıb mənzildən çıxdı. Həyətə düşüb, evin qabağına keçdi və səkidə dayandı. Tutduğu işin qeyri-adi olduğunu anlamağa başladığı üçün narahatlıq keçirirdi. Ona elə gəlirdi ki, indi balkonlardan bütün qonşular ona gizlicə göz qoyurlar. Fikirləşirdi ki, gərək belə etməyəydi, öz maşını ilə gedəydi görüş yerinə. Ancaq daha gec idi. Danışmışdılar.

Beş dəqiqə keçmiş, bir maşın düz qarşısında dayandı. Bu qara rəngli «Leksus» idi. Cəhalə daha heç nə düşünmədən, onun üçün açılmış arxa qapıdan maşına mindi. Qapı örtüldü və o saat da maşın hərəkətə gəlib yola düşdü. Sükan arxasında oturmuş qara eynəkli adam geriyə çevrilib onu salamladı. Bu Əli Mazanovun özü idi:


downloaded from KitabYurdu.org

- Bir daha salam, Cəhalə xanım! Necəsiniz?
Özünü itirmiş qadın dinmədi.

- Haraya gedək? - Mazanov növbəti sualı verdi. - Restorana gedəkmi?
- Yox! - Cəhalə cəld dilləndi. - Görərlər bizi!
- Yaxşı, onda evə gedək!

Az keçmiş, maşın boz rəngli iri bir darvazanın önündə dayandı. Bu, şəhərin içində yerləşən villalardan birinin darvazası idi. Mazanovun pultla göndərdiyi siqnalı qəbul edən darvaza avtomatik olaraq açıldı və maşın yaşıllığa qərq olmuş həyətə daxil olan kimi yenidən bağlandı.

Maşından düşdülər. Mazanov narahat halda ətrafına boylanan qadını başdan-ayağa diqqətlə
süzüb:

- Bizim bu kasıb məkanımıza xoş gəlmisiniz, Cəhalə xanım! - dedi.

Cəhalə cavab vermədi. Bu andan başlayaraq onun ürəyində bayaqkılardan fərqli bir çırpıntı baş qaldırmışdı. Bu çırpıntı, yəqin ki, peşmançılıqdan doğan bir narahatlığın əks-sədası idi. Qadın artıq tərəddüd etməyə başlamışdı: «Mən düz iş görürəmmi? Yəni doğrudanmı Ələmdardan belə bir intiqam almaq lazımdır? Əgər Ələmdar məni sevmirsə bu hərəkətimin ona nə təsiri olacaq? Yox, əgər sevirsə, lazımdırmı bu hərəkət? Bəs sonra Ələmdarın üzünə necə baxacam? Yəni bir də heç vaxt görüşməyəcəyəmmi onunla?..»

Qəribədir ki, o, xəyanəti ərinə yox, Ələmdara etdiyini düşünürdü və bəlkə də elə buna görə
tərəddüd göstərməyə başlamışdı.

Həyətdəki ikimərtəbəli, yaraşıqlı evə gedən yola qara


downloaded from KitabYurdu.org

daşlar döşənmiş, yolun hər iki tərəfinə rəngbərəng qızılgül kolları əkilmişdi. Sağ tərəfdə, yaşıllığın içində qoyulmuş pələng heykəli diqqəti cəlb edirdi.

Ev sahibi yanaqları pörtmüş qadını ikinci mərtəbəyə dəvət etdi. Cəhalə kor-koranə onun qarşısına düşüb pilləkənlə qalxdı və evə daxil oldular. Otaqlar da xüsusi səliqə ilə bəzədilmişdi. Nə həyətdə, nə də evdə heç kəsə rast gəlməməsi Cəhaləyə qəribə göründü. Düzdür, Mazanovun tək yaşadığını bilirdi, amma gözətçidən, qulluqçudan kimsə olmalı idi axı?! Yəni bu hər tərəfi bağlı olan malikanədə təkcə ikisi idimi? Bunu düşünəndə qadının qəlbinə, mənasını tam başa düşə bilmədiyi bir qorxu hissi də doldu.

Dayandıqları otaqda döşəməyə bahalı xalçalar sərilmişdi. İri divan və kreslolar alçaq, lakin çox geniş bir stolun ətrafına düzülmüşdü. Başdan-başa şüşədən ibarət olan bir divar həyətə baxırdı. Yan divara bitişik böyük dibçəkdən Afrikadan gətirilmiş iri yarpaqlı qəribə bir bitki qol-budaq atıb tavana qədər qalxmış, bütün divarı tutaraq, tavanın da bir hissəsini örtmüşdü. Otağı Cəhalənin indiyə qədər duymadığı qəribə, xoş bir ətir doldurmuşdu ki, bu da çox güman, həmin bitkinin ətri idi.

Mazanov divanın birini Cəhaləyə göstərdi:

- Əyləşin, niyə ayaq üstə durmusunuz?

Cəhalə qeyri-ixtiyari olaraq, divanda oturdu. Bir- birinə zidd olan fikirlər beynində qarışmışdı. Daha çox isə Ələmdar barədə düşünürdü. «Bəlkə heç onun günahı yoxdur bugünkü görüşə gəlməməkdə? - deyə düşündü. - Bəlkə başında bir iş var onun? Axı mən niyə belə tələsdim? Bu adam özü nə düşünəcək mənim


downloaded from KitabYurdu.org

barəmdə? Qürrələnəcək ki, Miraslanovun qızına sahib olmuşam? Əlbəttə, elə fikirləşəcək!.. Mən niyə belə edirəm axı?.. Axı elə bir daxili ehtiyac da hiss etmirəm bu adamla əlaqədə olmağa?!»

Bütün bunları düşünən Cəhalə, eyni zamanda hiss edirdi ki, bu saat ixtiyarı tamamilə öz əlində deyil və ev sahibi onunla ürəyi istədiyi kimi rəftar edə biləcək. Düşünmədən atdığı addımın ucbatından çıxılmaz vəziyyətdə olduğunu anlayır və bu onu kövrəldirdi. Dirsəklərini çılpaq dizlərinə dirəyib, əlləri ilə üzünü örtdü və gözlərini bərk-bərk yumub,
yuxuda, yaxud real həyatda olduğunu dərk etməyə çalışdı.

Bayaqdan ona baxan ev sahibi qadının bu hərəkətini onun utanması və həyəcanlanması ilə izah etdi. Elə özü də, əslində, az həyəcanlanmırdı...

Əli Mazanov möhkəm iradəli, prinsipial adam idi. Qarşısına qoyduğu məqsədə, nəyin bahasına olursa olsun, çatmağa adət etmişdi. İndi çatmış olduğu bu mərtəbəni də öz gücünə qazanmışdı.
Həm də az şey qazanmamışdı. Sıfırdan başlayaraq böyük və perspektivli bank yaratmışdı. Güclü və etibarlı adamlardan ibarət dairəsi var idi. Onu yaxşı tanıyır və onunla hesablaşırdılar.

Ancaq evlənməyə, ya qadınlarla vaxt keçirməyə nə həvəsi, nə də vaxtı olmuşdu. Cəhalə onun, doğrudan da, ilk bəyəndiyi qadın olmuşdu ki, o da
bədbəxtlikdən ərdə idi. Ancaq buna baxmayaraq, Əli bu qadına sahib olmağa qarşısıalınmaz bir ehtiyac duymuşdu və bunu keçən yay qadının özünə bildirmişdi. İndi o söhbətdən bir ilə yaxın bir vaxt keçəndən sonra arzusuna


downloaded from KitabYurdu.org

yetdiyini görən Mazanov həm sevinir, həm də bir qədər həyəcanlanırdı.

Onun həyəcanlanmağına ciddi səbəblər var idi. Biri o idi ki, ömründə bircə dəfə cinsi əlaqədə olmuşdu. Rusiyada, Tanya adlı bir qızla... İkincisi də o idi ki, onun qarşısındakı bu qadın Cəhalə idi... Cəhalə!..

Bu qadın başqa qadınların tayı deyildi Mazanovun nəzərində. Onun hər şeyi əziz idi Mazanov üçün. Üzü, gözü, bədəninin hər bir əzası, hətta paltarları da... Onun çox şeyi qaranlıq idi Mazanov üçün və bu naməhrəm qaranlıqları bir-bir
kəşf edib işıqlandıracaqdı indicə. Qəlbinin dərinliyindəki duyğuları, hərarəti, təmasındakı şirinliyi, paltarın gizlətdiyi əzalarını, alt paltarının özünü... Hərtərəfli duyacaqdı, hərtərəfli kəşf edəcəkdi Cəhaləni bu gün. Amma qərara gəldi ki, gərək tələsməsin bu dəfə, Tanya ilə olduğu kimi... Elə etsin ki, keçirəcəyi bir neçə saatın hər dəqiqəsi sonralar da yadda qalsın. Duyacağı xoşbəxtlik qanına elə hopsun ki, ölənə qədər çıxmasın.

Qara şüşəli eynəyini çıxarıb stolun üstünə qoydu. Pencəyini soyunub asılqandan asdı. Qalstukunun düyününü bir az boşaldıb büllur dolabdan bir şüşə şərab və iki büllur qədəh götürdü. Onları gətirib Cəhalənin qarşısında, stolun üstünə qoydu. Sonra divara yaxınlaşıb hansısa bir düyməni basdı. Yaşıl pərdələr hərəkətə gəlib şüşədən
düzəlmiş divarı tamamilə örtdü və həmin anda da otaq yaşıl işığa qərq oldu. İndi iri dibçəklərdən sanki buxar çıxıb dalğa-dalğa otağa yayılırdı. Cəhalə özünü yaşıl bir cəngəlliyin içindəki talada hiss etdi. Afrika bitkisinin



downloaded from KitabYurdu.org

yarpaqları arasından süzülən və günəş şüasını xatırladan qəribə bir işıq otağın bu əsrarəngiz görkəmini daha da artırırdı.

Ev sahibi qədəhlərə şərab süzüb Cəhalə ilə yanaşı oturdu:

- Sizə nə olub, Cəhalə xanım? - dedi. - Nəsə narahat görünürsünüz.

Cəhalə başını silkələdi. Mazanov əlini uzadıb, qadının əlini üzündən qoparmağa çalışdı:

- Axı nə olub sizə?

Cəhalə əllərini üzündən götürdü və ev sahibi otağın ala-toran işığında onun yanaqları ilə süzülən
göz yaşlarını gördü.

- Bu nədir, siz ağlayırsınız? - deyə təəccüblə soruşdu.

Qadın yaylığını çıxarıb göz yaşlarını quruladı. Sonra yaylığı ovcunda saxlayıb ev sahibinə baxdı:

- Xahiş edirəm, məni buraxın gedim!

Mazanov eşitdiyi sözlərdən son dərəcə
heyrətləndi:

- Nə üçün? Axı siz özünüz görüşmək istədiniz?!

- Mən başımı itirmişəm. - Cəhalə yenidən ağlamamaq üçün dodağını bərk-bərk dişlədi. - Mən dəli olmuşam. Xahiş edirəm, məni bağışlayın, bu hərəkətimə görə. Mənim sizə böyük hörmətim var. Ancaq... Sizinlə ola bilmərəm... İstəmirəm xəyanətkar olum.

- Bəs onda nə üçün zəng vurdunuz mənə? - Mazanov acıqlı səslə soruşdu. - Yoxsa məni ələ salmaq istəyirdiniz?

- Yox, atamın canı üçün, yox! - Cəhalə yenə başını silkələdi. - Mən heç ağlıma da gətirə bilmərəm sizi ələ salmağı. Ancaq pis vəziyyətdə idim. Ağlımı itirmişdim.



downloaded from KitabYurdu.org

Mənə xəyanət etdiklərini zənn etmişdim.

- Ərinizin? - ev sahibi istehza ilə soruşdu.

Cəhalə başını tərpətdi. Lakin bunu təsdiq kimi də başa düşmək olardı, inkar kimi də.

- Deməli, məni öz intiqamınıza vasitə seçmisiniz! - Mazanov səsini qaldırdı. - Alət kimi! Eləmi?!

- Siz nə danışırsınız? Vasitə axtarsaydım, ətrafımda çox adam tapardım. Ancaq inanın, mən sizinlə görüşmək istədim. Sizi arzuladım həmin anda.

- Bəs indi nə oldu sizə? - Mazanov sərt şəkildə sual verdi.

- Düz iş görmədiyimi başa düşdüm.

Ev sahibi öz qədəhini götürüb şərabdan içdi. Sonra bir siqaret yandırıb tüstüsünü əsəbi halda ciyərlərinə çəkdi.

- Başa düşürsünüzmü ki, mənim əlimdəsiniz?

- Hə... - Cəhalə astadan dilləndi.

- Anlayırsınızmı ki, sizin burada olduğunuzu heç kəs bilmir və siz daha buradan çıxmaya bilərsiniz?

-Hə...

- Mənimlə olmaq istəyirsinizmi? - Mazanov bu dəfə sakit səslə soruşdu.

Cəhalə yenə əlləri ilə üzünü qapadı:

- Yalvarıram sizə, məni bağışlayın. Buraxın məni... Atamla kəsdiyiniz çörəyə and verirəm, bu işdən heç kəs xəbər tutmasın!

Mazanov birdən ayağa qalxaraq divara tərəf getdi və bayaqkı düyməni basdı. Pərdələrin çəkilməsi və yaşıl işığın yoxa çıxması ilə otaq əvvəlki vəziyyətinə qayıtdı. Ev sahibi pencəyini geyinib, eynəyini gözünə taxdı. Sonra əli ilə Cəhaləyə işarə edib:



downloaded from KitabYurdu.org

- Qalxın, gedək! - dedi.

Cəhalə qulaqlarına inanmırmış kimi, bir müddət anlaqsız nəzərlərlə onun üzünə baxdı.

- Nə durmusunuz, qalxın dedim!

Qadın onun fikrinin ciddi olduğunu anlayıb cəld ayağa qalxdı və qapıya doğru getdi.

... Yol boyu heç nə danışmadılar. Birdə maşın Cəhaləgilin evinin yaxınlığında dayananda Mazanov arxaya qanrıldı:

- Düşün! - dedi - Ancaq yadınızda saxlayın ki, bu hərəkəti istənilən bir başqa qadın etsəydi mən onunla başqa cür rəftar edərdim.

Cəhalə onun sözlərini tam anlamasa da:

- Çox sağ olun! Sizdən dönə-dönə üzr istəyirəm! - deyib maşından düşdü və yan-yörəsinə baxmadan evə qaçdı.

On altıncı fəsil

Poliklinikada ikinci növbə saat ikinin yarısında başlayırdı. İndi isə saat ikini keçmişdi. Cəhalə, heç əslində, gəlmək istəmirdi işə. Amma Mazanovdan ayrılıb evə gedəndən sonra, orada da bir qərar tuta bilmədi. Etdiyi hərəkətin məsuliyyətindən, xəcalətindən bütün bədəni titrəyirdi. Yenə, çox şükür ki, xətanın yarısından qayıda bilmişdi. Çox şükür ki, namusunu əldən verməmişdi. Sağ olsun, Əli də başa düşə bildi onu. Təmkinli və ağıllı adam imiş. Cəhalə kimi hisslərinin əsirinə çevrilən deyilmiş.

Bir az divanda uzanıb, başına gələnləri saf- çürük edəndən sonra ürəyi darıxmağa başlamış,

ayağa qalxıb, heç paltarını da dəyişmədən poliklinikaya gəlmişdi.



downloaded from KitabYurdu.org

Onun işə vaxtından gec, həm də belə bəzənib-düzənmiş gəlməsi dəhlizdə onunla üz-üzə gələn Təriqəni təəccübləndirdi:

- Bu nədi, ay qız? - dedi. - Görüşdən gələn adamlara oxşayırsan?! Səxavət həkim buradadır haa!..

Sonra şaqqanaq çəkib güldü. Guya zarafat edir. Ancaq üzündəki pərtlik açıq-aydın duyulurdu. Qanı, onsuz da, qaralmış Cəhalənin əhvalı lap pozuldu:

- Düz tapmısan! Görüşdən gəlirəm! - dedi.

- Bay?! Kim idi o bəxtəvər? - Təriqə ayaq saxladı.

- Gözəl bir oğlan!

Cəhalə bunu ciddi tərzdə dedi və çox istəyərdi ki, Təriqə ona inansın. İnansın və içində yanıb- tökülsün. Necə ki, onsuz da, tüstülənir çoxdandır.

- Maşallah?! - Təriqə səsini uzatdı.

«Zəhrimar maşallah, çor maşallah!» - Cəhalə, təbii ki, bunu ürəyində dedi və ondan ayrılıb öz kabinetinə girdi.

«Qancıq! Burnunu onun-bunun daxili işinə soxmaqdan başqa bir şey bilmir! Guya Dəyanət həkimlə əlaqədar söz-söhbəti poliklinikaya bu yaymamışdı. Hansı ki, onunla Cəhalənin arasında bacı-qardaş münasibətlərindən, dostluqdan başqa bir şey olmamışdı».

Təriqə həkim, qırx yaşına çatmağına baxmayaraq, hələ də ərə getməmişdi. Yaşı ötdükcə sifətində gizli qırışlar əmələ gəlir, gözlərinin dərinliyinə haradansa kin-küdurət yığılırdı. Cəhalənin fikrincə, bədən quruluşu da bir qəpiklik deyildi. Arıq, uzun, qarayanız bir qız idi. Belə olanda, sözsüz ki, özündən on üç-on dörd yaş kiçik, gözəl-göyçək Cəhaləyə paxıllıq etməliydi və edirdi də! Təkcə Cəhaləyə yox, elə ərdə olan



downloaded from KitabYurdu.org

həkimlərin, tibb bacılarının hamısına. Çünki o da onların gördüyünü görmək, duyduğunu duymaq istəyirdi. Amma bu xasiyyət ki onda var idi, çətin ki bir köpək oğlu ona yaxın durardı...

Cəhalə kreslosunda oturub ayağını ayağının üstünə aşırdı. Başını silkələyib ah çəkdi: Guya ki, o ərdə olmaqla bir fərli şey görmüşdü... Belədə deyirlər ki, içim özümü yandırır, çölüm özgəsini. A həyasız, get də, get bacarırsansa özünü sıra həmin o Dəyanətə, kef elə! Cəhalə gəlib səni onunla görsə
də, ağzını açıb bir yerdə danışmayacaq. Nəyinə lazımdı axı Cəhalənin, kim nə işlə məşğul olur?..

Bir dəfə həmin bu Təriqədən söz düşəndə, şəbədə qoşmağın ustalarından olan Zeynəb həkim dedi ki, «Haradan bilirsiniz o, qızdır? Allah bilir, indiyədək neçəsiylə gəzib». Onda Cəhalə ona etiraz edib, qəti şəkildə bildirdi ki, Təriqə ömründə kişi üzü görməyib. Yoxsa bu qədər qaramat, bu qədər paxıl olmazdı...

Ayağa qalxıb, güzgüdə özünə baxdı. Doğrudan da, xeyli dəyişilibmiş bu gün. Sarışın saçlarının bir hissəsini çiyinlərinə, bir hissəsini isə yuxarıda xüsusi formada burub alnına tökmüşdü. Mavi gözləri sifətindəki işığı, təravəti bir az da artırırdı. Bir də ki, toppuş dizləri, ağappaq ayaqları... Əksər vaxtlar şalvar geyməklə gizlətmişdi bunları. İndi isə...

Təriqəni də yandırıb-tökən, lap yəqin, onun bu görünüşü olmuşdu. Özünün göstərməli sifəti, çölə çıxartmalı ayaqları yox idi axı?!

«ö gün, görün, nə deyir. Deyir ki, mənim kompliment deyən kişilərdən xoşum gəlmir. Külü töküm sənin başına!


downloaded from KitabYurdu.org

Əgər mən kişi olsaydım, bütün dünyadakı qadınlar da qırılıb, təkcə sən qalsaydın, yenə sənə tamah salmazdım!»

Nə isə!.. Cəhənnəm olsun Təriqə!

Bir neçə saat əvvəl Əli Mazanovun evində keçirdiyi anları xatırladı. Hələ tam anlaya bilmirdi ki, bu yuxu idi, yoxsa həqiqət...

Olduqları otağın qəribə, xoş ab-havası, ev sahibinin əsl centlmenlərə məxsus hörmətkar hərəkətləri... Çox qadın özünü xoşbəxt hesab edərdi orada, həmin dəqiqələrdə. Çox qadın unudardı
özünü o əsrarəngiz işıqda. Yarım saat, bir saat tamamilə yad və cəlbedici bir aləmdə yaşamaq istəyərdi və özünü o kişiyə təslim edərdi çoxları. Ancaq bəs necə oldu ki, Cəhalə uymadı o cazibədar!ığa? Necə oldu ki, özündə bir anlıq iradə tapıb etiraz etdi onu gözləyən məhəbbət oyunlarına? Etiraz etdi və nə yaxşı ki, ev sahibi də dəstək oldu onun etirazına. Məcbur etmədi onu. Yola gətirməyə də çalışmadı. Yoxsa bəlkə də nəsə ola bilərdi... Ya bəlkə də yox?! O otaq, o xoş münasibət Cəhaləyə indi burada, poliklinikadakı kabinetində oturub düşünərkən cəlbedici görünürdü. Orada isə onun hissləri başqa cür köklənmişdi axı! Orada onun ürəyində namusunu itirmək və Ələmdara xəyanət etmək qorxusundan başqa bir şey yox idi.
Axı niyə o, bu dəliliyi elədi? Niyə getdi oraya?

İstər-istəməz, Ələmdar haqqında düşünməyə başladı. Şənbə günü burada demişdi ki, bazar ertəsi, istəsən, gündüz saat 11-də gələrsən idman klubuna. Cəhalə elə sevinmişdi ki! Çünki indiyə qədər bu otaqdan başqa heç yerdə görüşməmişdilər. Burada da bir şey eləmək olmurdu axı?! Xəstələr bir yana dursun, Təriqə kimilərin biri girir,



downloaded from KitabYurdu.org

biri çıxır. Hamısının da gözləri, qulaqları axtarışda!

Ancaq keçən dəfə imkan düşdü və doyunca öpüşdülər burada... Cəhalə bunu xatırlayanda özündən asılı olmayaraq gülümsədi. O cür güclü, boylu-buxunlu oğlanın başı fırlanırdı, az qalırdı ki, yıxılsın. Çılğınlaşıb özünü unutmuş Cəhalənin əlindən güclə qurtuldu.

Bu gün isə... Nahaq belə etdi o! Gərək bu qədər saymamazlıq etməyəydi. Cəhalə üst-başına nəzər
salıb, ah çəkdi. Axşamkı xoş, gözəl xəyalların hamısı puç olmuşdu. Gör o, nə qədər insafsız və laqeyd idi ki, onu sevən qadını bir saatdan çox boş-boşuna gözlətmiş, heç olmasa, zəng vurub bir söz də deməmişdi.

Cəhalə Ələmdar barədə özünü çox sorğu-suala tutmuşdu və axırda qəti qərara gəlmişdi ki, bu kobud, qəddar, insafsız və hər şeyə laqeyd olan oğlanı sevir. Kim bilir ki, sevgi necə olur? Harada yazılıb onun əlamətləri? Hamısı boş şeydir! Yalnız sevəndən sonra başa düşürsən ki, sevgi bu imiş. Ancaq nə imiş? Onu başqasına deyə bilmirsən ki, o da öyrənsin. Əvvəl Ələmdardan xoşu gəlmişdi.
Sonra öyrəşmişdi ona. Sonra... Yox, deyə bilsəydi, nə vardı ki? Onda elə hamı öyrənərdi bunun nə olduğunu.

Sevəndə bütün başqa hisslər, söz-söhbətlər xırdalaşır adamın gözündə. Cəhalə daha qayınxatınlarından da inciyib-eləmirdi. Nəzakətin fors-fasonu, Hicranın paxıllıqdan partlaması, Həmidənin qaşqabağı daha onun üçün ən adi, xırda- xuruş, əhəmiyyətsiz şeylər idi. Odur ki, onları başa düşməyə, bağışlamağa çalışırdı.

Onlar isə əməllərindən qalmaq istəmirdilər. Ən çox da, təkliyə düşəndə Həmidə müəllimə ilə Hicran Cəhalənin


downloaded from KitabYurdu.org

qeybətini eləyirdilər. Ay nə bilim kip şalvar geyinib əzalarını camaata göstərir, ay nə bilim, göbəyi açıqda qalıb... Özlərinin imkanı yox idi axı, bunları etməyə?!

Həmidə ayağını əyri qoysaydı, Xanəli tikə-tikə doğrayardı onu. Hicranın da bir vid-fasonu yox idi ki, göstərsin. Paxıllıqdan əriyib qurtarmışdı. Yenə
Nəzakət az danışırdı ondan. Böyük qardaş olan Cahangir, yəni Nəzakətin əri pullu olmaqla bərabər, ailəcanlı idi. Arvadını yağ içində böyrək kimi saxlayırdı. Ancaq, ətli-əndamlı Nəzakət də öz gözəlliyini istədiyi kimi nümayiş etdirə bilməzdi.
Onun da əri bir az qapalı adam idi. Nəzakət göstərsə də, ancaq qızılını-brilyantını, bahalı paltarlarını göstərib qürrələnə bilərdi.

Dördbarmaq Ağaşamilin beş oğlundan dördü özünə çəkmişdi. Hamısından da çox Xanəli. Amma Səxavət, nədənsə, heç atasına oxşamırdı. Sakit, fağır adam idi. Üstəlik, bir az xəsisliyi, bir az da qorxaqlığı var idi ki, bu xasiyyətlər Ağaşamilin adına heç yaraşmırdı.

Səxavət həkim, Cahangirin yarısı qədər imkanlı olmasa da, Cəhalə özü, Nəzakətdən fərqli olaraq,
işləyir və yaxşı da qazanırdı. Bir az savadına, bir az da şirin dilinə görə xəstəsi çox olurdu. Üstəlik, böyük vəzifəli, imkanlı atası tez-tez onunla maraqlanır, hər bir arzusunu yerinə yetirməyə çalışırdı. Miraslanovun adının kölgəsi təkcə Cəhalənin, ya Səxavətin yox, o biri qardaşların, hətta Ağaşamilin də üstünə düşürdü. Ağaşamilə də, yeri gələndə öz avtoritetinə görə, yeri gələndə isə qudasına görə hörmət edirdilər.

Ancaq Cəhalə heç vaxt özünü çəkməzdi. Qayınxatınları


downloaded from KitabYurdu.org

ilə mehriban olmağa, onların hər işinə yarımağa çalışırdı. Lazım olanda pul verməyi, biri xəstələnəndə aparıb yaxşı həkimlərə göstərməyi, hansısa idarədə hansısa işi gördürmək lazım olanda qabağa düşməyi öz yerində... Bir də gördün Nəzakət, ya Həmidə, ya da Hicran özü Cəhaləni evə çağırdı. Ya mürəbbə bişirməkdə, ya evi səliqə-sahmana salmaqda, hansısa məclis üçün süfrə hazırlamaqda kömək etməyə. Cəhalənin özünün vacib işi olsa da, heç vaxt etiraz etmirdi bunlara. Əl qabiliyyəti də yaxşı idi. Cürbəcür şirniyyat hazırlamağa, mürəbbə bişirməyə, süfrə açmağa həm bacarığı, həm də həvəsi var idi.

Amma üzünü o yana çevirən kimi, dalınca yüz şəbədə qoşurdular. Guya Cəhalə özünü Ağaşamilin gəlini adına layiq aparmırdı. Bəs, görəsən Ağaşamilin gəlini necə olmalı idi? Onun-bunun adına yüz cür söz qoşub, ara vurmalı, ev yıxmalı idi? Deyib-gülmək əvəzinə, mütləq qaşqabağı yer süpürməli idi? Ya, Həmidə kimi, başını bağlayıb, namaz qılıb, sonra da dərs dediyi uşaqların dərisinə saman təpməliydi? Eşitdiyinə görə müəllimliyi də bir şey deyildi onun.

Ağ xalatını dolabdan götürüb geyindi. Yenə gəlib kreslosunda oturdu. Hələ ki, xəstədən-filandan gələn yox idi. Üç otaq o yanda, Səxavət həkim indi, yəqin ki, hansısa xəstəsini qəbul edirdi. Öz yastı səsiylə məsləhət verib, resept yazırdı. Yazdığı resept də ki... Allah göstərməsin! Nə qədər dərman adı bilirdi, hamısını yazırdı bir reseptə. Hələ Cəhalə neçə dəfə ona demişdi ki, dərmanı az yedizdir, içizdir bu yazıqlara. Ziyandır çoxu. Əsl həkim odur ki, az dərmanla əlac eləsin xəstəsinə. Kimə deyirsən? Bir az


downloaded from KitabYurdu.org

tərsliyi də var idi Səxavətin. Bildiyini dədəsinə də verən deyildi.

Cəhalə Ələmdara vurulana qədər elə bilirdi ki, Səxavəti sevir. Bəlkə doğrudan da əvvəllər sevirmiş. İnstitutda bir qrupda oxumuşdular. Atası heç vermək istəmirdi onu Səxavətə. Özü yola gətirdi atasını.

Evliliklərinin ilk günündən Səxavət onu sevib-əzizləməyə, hər arzusunu yerinə yetirməyə başladı. Bir toya, bir ad gününə gedəndə özündən çox Cəhalənin geyim-keciminə fikir verərdi. Elə bil istəyirdi ki, hamının gözü onun arvadında olsun. Cəhalə də ki, maşallah, onsuz da çıraq kimi yanırdı, geyinib-kecinəndə gör necə olardı...

Yataqda da Cəhalənin gözəlliyini, cazibədarlığını təriflməkdən yorulmazdı. Sonradan, necə oldusa, qəribə bir xasiyyəti ortaya çıxdı. Arvadından, əvvəllər kiminləsə intim münasibətdə olub-olmadığını soruşmağa başladı. O qədər təkidlə soruşurdu və davranışıyla Cəhaləni elə arxayınlaşdırırdı ki, qadın nəsə danışmaq istəyirdi. Ancaq nə danışaydı ki? Səxavətə ərə gələnə kimi əks cinsin heç bir nümayəndəsi ilə intim əlaqədə
olmamışdı... Hə, bircə qrup yoldaşları Hikmətdən başqa. Birinci kursda oxuyanda bu oğlanın yağlı dilinə inanmışdı. İnanmışdı ki, sevir onu bu dilli- dilavər oğlan. Üç-dörd ay gizli eşq yaşadılar onunla və bir dəfə imkan tapıb boş auditoriyaların birində bir-birlərinə sarıldılar... Vəssalam! Sonra başqa qızlara da eyni baxışla baxan, onlara da eyni komplimentləri söyləyən Hikməti tez tanıdı və birdən- birə ondan uzaqlaşdı. O vaxt onların arasında olanları heç kəs, o cümlədən Səxavət də bilmədi. Səxavətlə isə dördüncü kursda oxuyandan sevişməyə başladılar.



downloaded from KitabYurdu.org

İndi, üstündən bu qədər keçəndən sonra bunu ərinə danışmalıydımı? Əlbəttə, yox! Amma əri həmin sualına yenə qayıtdı və axır bir gün, yataqda olarkən, ehtirasın beynini dumanlandırdığı bir vaxtda
həmin əhvalatı Səxavətə danışdı. Əri ona çox diqqətlə və maraqla qulaq asdı, hətta arada suallar da verdi. Qəribə də olsa, Cəhalə hiss etdi ki, bu etirafdan sonra ərinin gözündən qətiyyən düşməyib. Ən qəribəsi isə bu oldu ki, qadın özünün ərinə qarşı soyuduğunu hiss etməyə başladı...

Stolun üstündəki telefon zəng çaldı. Cəhalə əlini uzadıb dəstəyi götürdü. Xətdə Əminə arvad idi. Ələmdarın anası.

- Mənəm, ay qızım, tanıdın?

- Bəli, tanıdım, anacan! - Cəhalə sevincək dilləndi. - Necəsiniz? Özünüzü necə hiss edirsiniz? Xeyir ola?

- Xeyir deyil, ay qızım. - Əminə arvad kövrək səslə dedi. - Bu yazıq tifili tutub apardılar.

- Tifil kimdir? - Cəhalə heç nə başa düşmədi.

- Oğlumu deyirəm də! Ələmdarı. Polislər gəlmişdilər. Dedilər, kimisə öldürüblər. Qolunu qandallayıb apardılar.

- Nə danışırsınız?!

- Hə, sənə qurban olum, ay bala, bayaqdan baş sındırıram, Bakıda bir tanışımız da yoxdur ki, kömək eləsin. Dedim, bəlkə atan...

Cəhalə bir anlıq fikirləşib, dilləndi:

- Yaxşı, anacan, yaxşı, baxım görüm neyləyirəm... Siz həyəcanlanmayın, şəkəriniz qalxa bilər. Hər şey yaxşı olacaq. Oğlunuz, yəqin ki, günahsızdır. Danışdırıb buraxarlar.

- Nə bilim, ay qızım, sənin o göy gözlərinə qurban


downloaded from KitabYurdu.org

olum, belə pis apardılar e, nəsə!... Günahı yoxdusa da döyüb boynuna qoyacaqlar. Dilsiz- ağızsızın biridir.

- Darıxma, anacan, hər şey yaxşı olar!

Cəhalə dəstəyi yerinə qoyub otaqda narahat halda gəzişməyə başladı: «Deməli, görüşə gəlməməkdə Ələmdarın heç bir günahı yox imiş.
Mən də gic kimi intiqam almağa başlamışdım ondan. İndi neyləyim? Bunu atama necə deyim? Deyəcək, sənin nəyindir? Əşi, ən yaxşısı, xəstəmin oğludur, vəssalam! Atam sözümü yerə salmaz».

Atasının iş yerinə zəng vurdu. Dedilər ki, nümayəndə heyəti ilə Gürcüstana gedib, bir də gecə gələcək. Cib telefonu da bağlı idi. Cəhalənin gecəni gözləməkdən başqa çarəsi qalmadı. Amma heç özü də bilmirdi ki, o vaxta qədər necə dözəcək?..

On yeddinci fəsil

Həmin günün axşamı Ələmdarla Saleh polis idarəsinin zirzəmisində, müvəqqəti saxlama kamerasında oturmuşdular. Otaqda onlardan başqa heç kəs yox idi. Onlar bir-birləri ilə tanış olub, buraya salınmaqlarının səbəbini qısaca anladandan sonra, danışmağa sözləri olmadığı üçün susmuşdular.

Saleh Məltəm haqqında düşünürdü: «Görəsən, onu da danışdırıblar? Yəqin ki, danışdıracaqlar. Polis idarəsində yad kişilərlə üzbəüz oturmalı olacaq. Özü də mənim ucbatımdan... Böyük səhv elədim! Çox böyük!.. Gərək özümü ələ alaydım. Özümü də bədbəxt elədim, ailəmi də!...»

Uşaqlarını xatırladı: «Saat 10-u keçib. İndi yəqin ki, yatmağa hazırlaşırlar. Məltəm o biri otağa keçib, uşaqlarla



downloaded from KitabYurdu.org

yatacaq. Eltay anasından məni soruşur, yəqin. Gözünə yuxu gedənə qədər soruşacaq. Gültay yox! O, ürəyində xiffət eləyəcək. Bəlkə də yorğanı başına çəkib, gizlicə ağlayacaq. Çox kövrək qəlbli uşaqdır, hər şeyi ürəyinə salandır...»

Uşaqlarını birdən-birə elə arzuladı ki, özündən asılı olmayaraq ucadan:

- Uşaqlar üçün yaman darıxıram! - dedi.
- Neçə uşağın var? - Ələmdar maraqlandı.
- İki... Bir qız, bir oğlandır. Gültay, Eltay...
- Allah saxlasın!
- Çox sağ ol! - Saleh ah çəkdi. - Bəs sənin?

- Mən subayam. - Ələmdar laqeydliklə cavab verdi və oturduğu, ona yatmaq üçün verilmiş qalın taxtanın üstündə arxası üstə uzandı.

Araya yenə sükut çökdü. Saleh yenə arvadı, uşağı barədə fikirləşirdi. Ələmdarın isə yadına on beş il əvvəlki xatirələr düşmüşdü.

Ömrünün çoxunu həbsxanada keçirən atası, Ələmdarın anadan olmasından bir necə ay əvvəl, sonuncu dəfə azadlıqdan məhrum edilmiş, elə ömrünü də həbsxanada başa vurmuşdu. Yeganə övladının üzünü də görməmişdi. Anasının ümidinə qalan Ələmdar uşaqlıqdan nadinc, davakar olmuşdu. Məktəbdə daha dalaşmadığı bir oğlan uşağı olmazdı. Bunun üstündə, hətta məktəbdən qovlamışdılar onu. Anası yalvar-yaxar eləyib, onu başqa bir məktəbə qəbul etdirmişdi. Ancaq burada da dinc oturmamış, elə ilk gündən müəllimləri də, uşaqları da zara gətirmişdi. Anası onu nə qədər döyürdü, nə qədər danlayırdı, bir nəticəsi olmurdu.


downloaded from KitabYurdu.org

Axır ki, orta məktəbi ölüm-zülm qurtardı. Ali məktəbə girməkdən söhbət belə gedə bilməzdi. Əsgərlik yaşı çatan kimi hərbi xidmətə apardılar. Onda elə vaxt idi ki, ermənilər təzə-təzə baş qaldırır, azəri türklərini öz tarixi torpaqlarından zorla çıxarırdılar.

Hərbi hissədə də davakarlığı ilə ad qazandı. Xidmətinin sonuna kimi üst-üstə neçə sutka həbs aldı. Hamısı da yoldaşları ilə dalaşması üstündə. Amma bir dəfə lap əlli-ayaqlı gedəcəkdi. 1990-cı ilin yanvarında rus-erməni birləşmələrinin Bakıda törətdikləri qanlı qırğından bir ay sonra, gecə qarovulda durarkən, ermənilər tərəfə keçmiş, bir erməni əsgərinin qulağını kəsib gətirmişdi. Ələmdar onda öz dayaz ağlıyla elə düşünmüşdü ki, komandir onu tərifləyəcək. Ancaq adını «ekstremist» qoydular və az qalmışdı ki, həbs edib türməyə göndərsinlər. Onda da Əminə arvad qanının arasına girdi.

Əhvalatı eşidən kimi avtobusa minib, birbaşa hərbi hissənin yerləşdiyi rayona getdi. Komandirin yaxasından tutub, az qaldı ki, üzünə tüpürsün:

- Utanmırsınız?! - dedi. - Analarınızı, bacılarınızı yerindən-yurdundan didərgin saldılar. Başlarına olmazın oyun gətirdilər. Bakıda güllələbaran elədilər milləti. Siz isə bir erməni qulağının təəssübünü çəkirsiniz?

Nə isə... Əsgərliyi də birtəhər başa vurdu. Bir-iki ay işsiz-gücsüz gəzib, avaraçılıq elədi. İxtisası yox, sənəti yox, nə işləyəcəkdi ki? Hər gün məhəllədə vaxtını boş-boşuna keçirir, ancaq yemək vaxtında evə gəlirdi. Heç yerdə işləməyən anasının evi necə dolandırdığı barədə maraqlanmaq heç ağlına da gəlmirdi onda. Həmin vaxt artıq dörd-beş ay olardı ki, atası


downloaded from KitabYurdu.org

həbsxanada ölmüşdü. Deyirdilər ki, yanvar qırğını haqqında eşidəndən infarkt keçirmiş və elə o səbəbdən də bir az sonra vəfat edibmiş. Hə,
Ələmdar bir az sonra öyrəndi ki, atasının köhnə dostları anasına vaxtaşırı yardım edirlərmiş. Ancaq o vaxt iyirmi yaşlı Ələmdar heç nə bilmirdi və bilmək də istəmirdi. Özünü məhəllənin qoçusu hesab edir, gününü qalmaqallı, dava-dalaşlı macəralar axtarmaqla keçirirdi.

Bir gün yenə evdən çıxıb harasa gedirdi. Axşam möhkəm yağış yağdığı üçün məhəllənin küçələri palçıq və su gölməçələri ilə dolmuşdu. Ancaq küçədən bir qədər hündür olan dar səkilər təmiz
qalmışdı. Qonşu məhəllənin səkisi ilə addımlayan Ələmdar özündən üç-dörd yaş böyük olan üç oğlanın həmin səkidə dayanıb söhbət etdiyini gördü. Onlar səkini tamam tutduqları üçün Ələmdardan bir neçə addım qabaqda gedən yaşlı kişi yolundan dönüb palçıqlı küçəyə girdi. Oğlanların yanından dövrə vuraraq yenidən səkiyə çıxdı və yoluna davam etdi.

Oğlanlardan biri əlində tutduğu bıçağı oynada- oynada ucadan danışırdı. Ələmdar onu tanıdı. Bu, bir tin yuxarıdakı universal mağazanın müdirinin oğlu idi. Onlara yaxınlaşan Ələmdara laqeyd bir nəzər salıb, söhbətinə davam etdi. Onlar divarın dibində dayansaydılar, yanlarından keçib getmək olardı. Amma elə durmuşdular ki, aralarından bir adam rahat keçə bilməzdi.

Ələmdar da həmin yaşlı kişi kimi səkidən çıxmağa məcbur oldu. Gölməçələrin arasından tullanıb keçmək istəyəndə ayağı suya düşdü və islandı. Bu, onu birdən-birə cin atına mindirdi. Artıq oğlanların yanından sovuşduğuna



downloaded from KitabYurdu.org

baxmayaraq, küçəyə adladığı həmin yerə qayıdıb, oradan səkiyə çıxdı və birbaş yolu kəsmiş oğlanların üstünə gəldi. Onların arasından kobudluqla keçəndə çiyni mağaza müdirinin oğluna toxundu. Bu gözlənilməz hərəkətdən heyrətlənmiş oğlan onun qolundan yapışdı:

- Alə, korsan? - deyə çığırdı. - O boyda yolu görmürsən?

Ələmdar sərt hərəkətlə qolunu onun əlindən çıxardı:

- Kor sənsən, sənin atandır! Mən istədim burdan keçim, keçdim də! Nə sözün ola bilər mənə?

Oğlan əlindəki bıçağı açıb:

- Çaşdın ha, qaqaş! - dedi. - Möhkəm çaşdın!

Ələmdar cəld tərpənib yumruqla onun çənəsinə vurdu. Bıçaq oğlanın əlindən yerə düşdü. O birilər Ələmdarın üstünə atılmaq istəsələr də, zərbə alıb geri çəkilməli oldular. Bıçağın sahibi onu yerdən qaldırıb bir də rəqibinin üstünə atıldı. Tutaşdılar. Ələmdar bıçağı oğlanın əlindən aldı və dalbadal üç dəfə onun qarnına soxub çıxartdı...

İndi üstündən on beş il keçəndən sonra həmin hadisəni xatırlayan Ələmdar fikirləşirdi ki, onda nə qədər mənasız bir iş tutubmuş. Ancaq o vaxt o, heç həbs olunandan sonra da peşman olmadı. «Yolumu kəsmişdi, onun ucbatından ayağım islandı, mən də vurdum!» dedi.

Yaxşı ki, həmin oğlan ölməmişdi. Birtəhər xəstəxanaya çatdırıb xilas edə bilmişdilər. Yoxsa cəzası daha ağır ola bilərdi Ələmdarın.

Məhkəmədə Əminə arvad üzünü oğluna tutub:

- Daha sənin adda oğlum yoxdu! - dedi.


downloaded from KitabYurdu.org

Axırda isə, əsgərlər Ələmdarı aparanda dalınca öz «xeyir-duasını» verdi:

- Get köpək oğlu, atan kimi türmələrdə öləcəksən sən də!

Bu sözlər heç təsir də eləmədi Ələmdara. Laqeyd halda əsgərlərin qabağına düşüb məhkəmə zalından çıxdı. Onu da atasının uzun müddət cəza çəkdiyi və axırda canını tapşırdığı həbsxanaya saldılar.

...Koloniyaya xəbər yayıldı ki, lotu Vələddinin oğlu gəlib. Vələddini tanıyan və ondan yaxşılıq görmüş dustaqlar oğlunu yaxşı qarşıladılar. Xüsusilə də Rizvan adlı bir gənc. O, sən demə, Vələddinin ən etibarlı adamlarından biri olubmuş. Vələddin ölәndən sonra dustaqların yeni başçısı seçilmiş Səməndər isə Ələmdarı pis qarşıladı. O, koloniyada özündən savayı nüfuz sahibi görmək istəmirdi və buna görə də ilk gündən Ələmdarı özünə tabe etməyə çalışdı. Bu işi özünün «sağ əli» sayılan, dustaqlar arasında fiziki gücü, boy-buxunu ilə seçilən Məhiyəddinə tapşırmışdı. Məhiyəddin isə, hələlik, özü Ələmdarla üz-üzə gəlmir, müxtəlif dustaqları öyrədib qabağa verərək, onların vasitəsilə bu dikbaş oğlanı sındırmağa səy göstərirdi. Ancaq Ələmdar da Ələmdar idi! Sınmamağı bir yana dursun, koloniyada özündən güclü bir adam tanımaq istəmirdi. Həbsxanada olduğu birillik müddətin çoxunu təkadamlıq kamerada keçirtdi. Oradan çıxan kimi yeni bir dava salıb geri qaytarılırdı.

Onu, əslində, kənardan müdafiə edənlər də var imiş. Yoxsa vəziyyəti, yəqin ki, daha pis olardı. Vələddinin azadlıqda olan keçmiş dostları onun oğlunu Səməndərə də,



downloaded from KitabYurdu.org

həbsxana rəhbərliyinə də tapşırıblarmış.

Ancaq vəziyyət gərgin olaraq qalırdı. İki qoçun başı bir qazanda qaynaya bilməzdi. Artıq hamı bilirdi ki, Məhiyəddin özü Ələmdarla vuruşmaq istəyir. Dustaqların bir qismi Məhiyəddinə, bir qismi isə Ələmdara rəğbət göstərirdi və bu qarşılaşmanı həyəcanla gözləyirdilər.

Bir dəfə dustaqların həyətdə gəzintisi zamanı Ələmdar özündən on dörd yaş böyük Məhiyəddini vuruşa çağırdı. Bir dustaqdan aldığı bıçağı da cibinə qoymuşdu. Məqsədi Məhiyəddini öldürmək idi. O bu işin sonunu düşünmək belə istəmirdi və təkcə onu düşünürdü ki, belə edərsə, bundan sonra dustaqların hamısı hazırkı başçıya yox, ona itaət edəcək.

Amma istəmirdi bıçağı birinci işə salsın. Öz gücünə arxayın idi. Əsgərlikdə, ya elə buranın özündə neçə dəfə dörd-beş nəfərlə təkbaşına vuruşub qalib gəlmişdi. Bilirdi ki, Məhiyəddin gücdə özündən geri qalana oxşamasa da, uzağı üçüncü zərbədə onu yerə sərəcək. Düşündüyü kimi də oldu. Sinəsinə dəyən təpik zərbəsindən yerə yıxılan rəqibini dustaqların gözü qarşısında ölümcül hala düşənədək döydü. Bıçağı çıxarıb onu vurmaq istəyəndə nəzarətçilər özlərini yetirdilər.

Onda Ələmdar nəzarətçilərdən də birini yumruqla bərk vurdu. Bıçağı birtəhər əlindən alıb, özünü də təkadamlıq kameraya saldılar. Onu apararkən başını geriyə çevirib Məhiyəddini hədələdi:

- Səni onsuz da öldürəcəm! - dedi.

Məhiyəddin isə güclə ayağa qalxıb, ağzının qanını əlinin dalıyla sildi və onun arxasınca astadan pıçıldadı:



downloaded from KitabYurdu.org

- Baxarıq kim kimi öldürəcək, Ələmdar!
Onda Ələmdarı bu son hərəkətinə, xüsusilə də nəzarətçini vurduğuna görə nələr gözləyirdi, bir Allah bilir. Amma gözləmədiyi, ağlına gətirmədiyi bir möcüzə nəticəsində, iki gün sonra təkcə təkadamlıq kameradan yox, ümumiyyətlə, həbsxanadan çıxdı.

O vaxt Qarabağ uğrunda döyüşlər şiddətlənmişdi və döyüşmək istəyən dustaqları da, əslində qeyri-qanuni olaraq, müharibəyə göndərmək qərarına gəlmişdilər. Ələmdarı da çıxarıb həbsxana rəisinin kabinetinə gətirdilər. Kabinetdə oturmuş yüksək vəzifəli general qarşısındakı qovluğu vərəqləyib, sonra eynəyinin altından düz onun gözlərinin içinə baxdı və:

- Lotusan? - deyə ciddi səslə soruşdu.

Ələmdar susub dodaqlarını gəmirdi. General onun cavab verməyəcəyini görüb qarşısındakı siyahıda Məlikov Ələmdar Vələddin oğlunun adı qarşısında işarə qoydu və yenə başını qaldırıb Ələmdara baxdı:

- Lotusansa, get gücünü düşmənə göstər!

Onu ən çətin, ən qanlı döyüş nöqtəsinə göndərdilər. Həmin koloniyadan döyüşə göndərilənlərin içində Məhiyəddin də var idi və təsadüfdənmi, ya nədənsə, o da Ələmdarla eyni batalyona düşdü. Bu, əslində, Ələmdarın ürəyindən oldu. Bir daha qəti qərara gəldi ki, ilk imkan düşən kimi Məhiyəddini vuracaq...

Batalyon könüllülərdən təşkil olunmuşdu və burada yaşca ən kiçik olan Ələmdar idi. Əsgərlər hamısı onun dustaq olduğunu və adam bıçaqlamaq üstündə həbs olunduğunu bilirdilər. İlk günlər pis baxırdılar ona. Lakin qorxunun nə olduğunu bilməyən Ələmdarın döyüşlər


downloaded from KitabYurdu.org

zamanı etdiyi cəsarətli hərəkətlər ona olan münasibəti bir qədər dəyişdirdi. Döyüşməyə gəldiyi bir ay müddətində, artıq Ələmdar
bir neçə dəfə, özbaşına düşmənin mövqelərinə yaxınlaşıb, onlara tələfat vermişdi.

Bir neçə gün idi ki, batalyonun mövqeyi qarşıda görünən hündür qayadan atəşə tutulurdu. Gecələr də sığınacaqlardan çıxmaq, işıq yandırmaq, hətta siqaret çəkmək qorxulu idi. Qarşıdakı qayanın başında gizlənmiş snayper sərrast atəşlə işıq gələn ən kiçik nöqtələri belə vururdu.

Bir axşam Ələmdar dedi ki, həmin qayaya gedib snayperi aradan götürmək istəyir. Komandir onunla razılaşmadı. Çünki bu o qədər də ağlabatan məsələ deyildi. Bunun üçün aradakı dərədə axan çayı keçib, ön tərəfdən birbaşa qayaya dırmanmaq lazım idi. Bu tərəf qayanın ən sərt tərəfi idi. Onun başına dolanıb nisbətən rahat yol axtaran isə mütləq düşmən batalyonunun üstünə çıxmalıydı. Deməli, yenə də
qayaya ön tərəfdən dırmanmaq daha məqsədəuyğun idi. Lakin hələ bununla iş bitmirdi. Qayanın başına çatıb, snayperə yaxınlaşanda onu duyuq salmamaq üçün son dərəcə ehtiyatlı olmaq lazım gəlirdi.

Amma Ələmdar belə macəraları xoşlayırdı. Komandiri birtəhər razı salıb, qaranlığın daha da qatılaşmasım gözlədi. Gecə düşəndə,
Məhiyəddindən başqa, yoldaşlarının hamısıyla bir-bir görüşüb, qərargah və kazarma kimi istifadə etdikləri məktəb binasından çıxdı. Həbsxanadakı o vuruşmadan sonra Məhiyəddinlə düşmən münasibətində idilər. Hə...


downloaded from KitabYurdu.org

Məktəb binası kəndin kənarında, düşmənlərin mövqeyinə yaxın yerləşirdi. Ələmdar binadan uzaqlaşıb dərəyə gedən cığırın başında dayandı. Qaranlıqda uzaqdan silueti güclə görünən
qayaya baxdı. Ay buludların arxasında gizlənsə də səmanın açıq yerlərində sayrışan ulduzların zəif işığı qayanın yerini nişan verirdi. Əyninə yüngül idman paltarı və ayaqqabısı geymiş, özüylə yalnız bir bıçaq götürmüşdü. Bir daha uzaqdan güclə görünən şiş qayaya baxıb yola düşmək istəyirdi ki, hənirti duyub, cəld geriyə çevrildi. Məhiyəddinin qaranlıqda iti addımlarla ona yaxınlaşdığını görüb əlini qayışına taxdığı bıçağa uzatdı...

- Bizi burada çox saxlayacaqlar, görəsən? - Salehin səsi Ələmdarı xəyallardan ayırdı.

- Sən elədiyin cinayəti boynuna alana qədər! - deyə narazılıqla cavab verdi.

- Mən neyləmişəm ki, boynuma alım?

- Məndən niyə soruşursan? - Ələmdar yerində böyrü üstə çevrilib ona baxdı. - Kişi kimi düzünü de,
sənin qolunu kim yaralayıb?

- Dedim axı... - Saleh mızıldandı. - Tanımadım onları...

- Harada vurdular səni?

- Evimizin yaxınlığında.

- Sən darvazadan çıxanda o oğlanın meyitinə rast gəlmisən, elədir?

-Hə...

- Bəs o, əlindəki bıçağı kimin üstünə çəkib?

- Onun əlində bıçaq yox idi. - Saleh başını yellədi.

- Necə yəni yox idi? - Ələmdar istehza ilə gülümsədi. - Mən bu gün mayor Qismətovun stolunun üstündə meyitin



downloaded from KitabYurdu.org

fotoşəklini gördüm.
Düzdür, çox da elə diqqətlə baxmadım, amma and içə bilərəm ki, onun əlində bıçaq var idi.
- Nə bilim... - Saleh çiynini çəkdi.

- Sən onu bilirsənmi ki, həmin bıçaqda qan izi varsa, sənin qanınla onu tutuşduracaqlar?

Söz Salehi bərk tutdu və bu Ələmdarın gözündən qaçmadı.

- Hətta sənin yarana görə bıçağın ölçülərini də təyin edəcəklər. - dedi. - Səni nə cür bıçaqla vurdular?

- İri bıçaq idi. - Saleh qeyri-ixtiyari olaraq dilləndi. - Mətbəx bıçağı.

- Yox, o mətbəx bıçağı deyildi. - Ələmdar bir qədər təəccüblə dilləndi. - Yaxşı, bəs dəstəyi nə rəngdə idi?
Saleh:

- Yaşıl! - deyə cavab verdi və tez də sözünü dəyişdi. - Yox, yadımda deyil dəstəyinin rəngi...

Ələmdar başını buladı:

- Özün bilərsən, Saleh, ancaq mənə elə gəlir ki, sən nəyisə gizlədirsən. Həyətdən çıxanda görmüsən ki, şefinin oğlunu vurub o dünyalıq eləyiblər. Qayıdıb anasına xəbər verməmisən. Eləcə qoyub qaçmısan. Ya, sən həddindən artıq qorxaqsan, ya da... Onu da deyim ki, mənim zəhləm gedir qorxaq adamlardan.

- Mən qorxaq deyiləm! - Saleh narazı səslə dedi.

- Heç qoçağa da oxşamırsan! - Ələmdar kinayə ilə cavab verdi.

- Mənim yerimdə sən olsaydın, neyləyərdin?

- O gədəni öldürmüş olsaydım?

- Yox, küçədə meyitə rast gəlsəydin.


downloaded from KitabYurdu.org

- Qayıdıb, anasına bildirərdim.

- Mən bacarmadım... - Saleh kədərli bir ah çəkdi.

- Özün bilərsən! - Ələmdar əlini yellədi. - Mənə dəxli yoxdur!

Bu vaxt kameranın qapısı gurultu ilə açıldı. Mayor Qismətov bir nəfər irigövdəli polis çavuşu ilə içəri daxil oldu. Saleh Canəlini görüb cəld ayağa qalxdı. Böyrü üstə uzanmış Ələmdar isə dikəlib yerində oturdu və əvvəlcə mayoru, sonra isə çavuşu narazı baxışlarla süzməyə başladı.

- Ayağa dur! - deyə çavuş ona əmr etdi.

Ələmdar onun əmrinə məhəl qoymadı:

- Qışqırma! İstəsəm oturaram, istəsəm uzanaram. Gecənin bu vaxtı bizi narahat etməyə ixtiyarınız yoxdur. Bizim yatmaq vaxtımızdı.

- Yox əşi?! - çavuş rişxəndlə dilləndi. - Bağışla, mən ölüm, narahat elədik səni.

- Mən sözümü dedim. Getməsəniz, prokurora sizdən şikayət edəcəm!

Ələmdar bunu deyib onun üçün bu gecə çarpayını əvəz edəcək taxtanın üstündə arxası üstə uzandı və əllərini boynunun altına keçirdi. Canəli çavuşa baxıb əlini qaldırdı:

- Onunla işin olmasın. O hələ öz vəziyyətini başa düşmür.

Sonra üzünü qarşısında dayanmış Salehə çevirdi:

- Bir şey fikirləşə bildin?

- Nə fikirləşim, cənab mayor? - Saleh əllərini yanlarına açdı. - Nə bilirəm, hamısını demişəm sizə.

Canəli ətli yanaqlarını əli ilə qaşıyıb, özü-özüylə danışırmış kimi:



downloaded from KitabYurdu.org

- Mənim günümə bax e! - dedi və birdən sağ əlini qaldırıb Salehin qarşısında silkələdi: - Ə, sən dolamısan bizi? Camaat indi evində ya yatır, ya da oturub televizora baxır, istirahət edir, ancaq mən burda sənin həyasız sifətinlə üzbəüz qalmışam. Nə qeyrətsiz adamsan sən?! Kişilikdən əsər-əlamət yox imiş səndə! Sənə çörək verən kişinin oğlunu vurub öldürməyin bəs deyil, hələ bizi də gic yerinə qoymaq istəyirsən. Sən onu yaxşı bil ki, mənim hər şeydən xəbərim var. Qızının ad günündə Sadıxovun oğlu sənin gözünün qabağında arvadına yaxınlıq göstərib, onu ələ almağa çalışıb. Üç gün sonra onunla mübahisəniz də bunun üstündə düşüb. Vurub öldürmüsən onu. Amma kişiliyin çatmır ki, bunu boynuna alasan!

- Arvadımın bu işə dəxli yoxdur... - mayorun sözlərindən heyrətlənmiş Saleh dilləndi.

- Yaxşı, - Qismətov razılıqla başını tərpətdi, - onda de görüm, nəyin üstündə düşüb mübahisəniz?

- Onu mən öldürməmişəm.
- Bəs kim öldürüb onu?
- Bilmirəm...
- Sənin qolunu kim yaralayıb?
- Tanımadığım adamlar idi.

- Nə istəyirdilər səndən? - mayor sualları ara vermədən yağdırırdı.

- Demədilər...

- Evdə niyə demisən ki, səni tutacaqlar? Arvadın hər şeyi danışdı mənə.

Əməliyyat müvəkkilinin sözü Salehi diksindirdi: Deməli, bu adam Məltəmi danışdırıb artıq. Ancaq necə


downloaded from KitabYurdu.org

olub ki, Məltəm dünən gecə evdə danışılan söhbətin hamısını buna çatdırıb?

- Səninləyəm! Karsan? - Qismətov səsini qaldırdı.

- İnanın mənə, - bezmiş Saleh çətinliklə dilləndi. - Mən heç kəsi öldürməmişəm!

Mayor mənalı nəzərlə çavuşa baxdı. Elə həmin anda çavuş əlindəki dəyənəklə Salehin kürəyinə zərbə endirdi. Saleh səndirlədi. Əlini divara verib, özünü yıxılmaqdan güclə saxladı.

Bu an Ələmdar, gözlənilmədən yerindən sıçrayıb ayağa qalxdı və onların arasına girdi:

- Ona toxunmayın! - deyə hər iki əlini çiyinləri bərabərində qaldırdı.

Onun bu hərəkəti çavuşu özündən çıxartdı:

- Ə, keç bu tərəfə! - dedi - Sənə də növbə çatacaq indi.

Ələmdarın tərpənmədiyini görüb, onun yaxasından yapışmaq istədi. Ancaq buna imkan verməyən Ələmdar onu necə itələdisə, az qaldı Qismətovun üstünə yıxılsın. Zərbənin təsirindən sarsılan çavuş özünə gəlib dəyənəyi yuxarı qaldırdı

- Sən mənə əl qaldırırsan?!

Ələmdar havada oynayan dəyənəyi tutub saxladı. Bir müddət hər ikisi nifrət və həqarətlə bir- birinin gözünün içinə baxdı. Çavuş dəyənəyi Ələmdarın əlindən qopara bilmirdi. Başqa fənd işlətməyə də cəsarət etmirdi. Qarşısındakı adamın ondan güclü oduğunu hiss etmişdi artıq. Bu

mənzərəni heyrətlə seyr edən Qismətov da hələlik danışmırdı.

- Gövdənin yekəliyinə baxma ha, - Ələmdar dişlərini



downloaded from KitabYurdu.org

qıcadı, - adamını tanı!

- Burax! - çavuş qəzəblə fısıldadı. - Sonra sənin üçün pis olacaq!

Ələmdar dəyənəyi ehtiyatla buraxıb, bir addım geri çəkildi. Əllərini yenə başı bərabərində qaldırıb, vuruşa hazır vəziyyət aldı:

- Sonra kimin üçün pis olacaq, deyə bilmərəm. Ancaq burada bizim birimizə əl qaldırsan, atamın qəbrinə and içirəm, on iki qabırğandan, heç olmasa, altısını sındıracam!

Çavuş bir müddət matdım-matdım onun üzünə baxıb, birdən:

- Adə, dayan görüm! - deyib qapıya yüyürdü.

Deyəsən, yoldaşlarından köməyə çağırmağa gedirdi. Ancaq Qismətov onu saxladı.

- Dayan! - dedi. - Onunla işin olmasın! Gedək, qoy yatsınlar.

Sonra kinli nəzərlə Ələmdara baxıb çavuşla birlikdə kameradan çıxdı. Dəhlizdə çavuşun qolundan tutub:

- Bilirsən bu kimdir? - dedi.
- Kimdir? - hirsindən tövşüyən çavuş soruşdu.
- Vələddin vardı ha, onun oğludur.
- Belə de!..

- Hə! - Qismətov onun qolunu buraxmadan dedi. - Özü də əclafın biridir. Biz indi burada akt tərtib edə bilməzdik. Gecə keçib. Qoy səhər açılsın, bir-iki nəfər özünlə götürüb, onu öz dediyi hala salarsınız. Üstəlik də, polisə müqavimət göstərməsi
barədə akt yazarıq. Sonra baxarıq, görək, hansı havanı çalacaq?!

- Nə olar, - Çavuş astadan başını tərpətdi, - sabah


downloaded from KitabYurdu.org

baxarıq onun işinə!

Səhər tezdən, işə gələn kimi, mayor Qismətovla kapitan Əbilovu rəisin kabinetinə çağırdılar. Polkovnik Mirzəyev prokurorluğun müstəntiqi Eldar İmanovla oturub ekspertizanın rəyini müzakirə edirdilər.

Rəydə göstərilirdi ki, Rafiqin əlində tapılmış bıçaqdakı qan ləkəsi Salehə məxsusdur. Onun qolundakı yaranın uzunluğu 2, dərinliyi isə 3 santimetr göstərilirdi.

Daha sonra qeyd olunurdu ki, Rafiq həmin gün saat 3:00-4:00 radələrində başına dəyən küt alətin zərbəsindən dərhal keçinib. Bu zaman yaradan çox
az qan çıxıb. Bədənində başqa heç bir xəsarət olmayıb. Mərhum ölümündən bir qədər qabaq spirtli içki və heroin qəbul edibmiş...

Rəis təzə gələnləri də ekspert rəyi ilə tanış edib, Qismətovdan dünənki istintaqın nəticəsini soruşdu. Mayor danışmağa başladı:

- Bütün dəlillər və şahidlərin danışdıqları göstərir ki, cinayət Saleh tərəfindən törədilib. Gördüyünüz kimi, tibbi ekspertin də rəyi bunu təsdiq etdi. Məncə, hər şey aydındır. Saleh arvadını Rafiqə qısqandığı üçün, onunla mübahisəyə başlayıb və nəticəsi də məlumdur. Təkcə, qalır hər şeyi boynuna almağı.

Rəis onun fikrilə razı olduğunu başı ilə bildirib müstəntiqə baxdı:

- Məncə, sənin işin o qədər də çətin olmayacaq, Eldar müəllim.

Müstəntiq gülümsədi:

- Dünən Əlifağa müəllimlə söhbət etmişəm. Şərafət xanımın, iki şahid oğlanın izahatlarını almışam. Bu gün



downloaded from KitabYurdu.org

istəyirəm Salehin arvadını, sonra isə özünü danışdırım. Mən də elə fikirləşirəm ki, istintaq çox uzanmayacaq... - bir an susub qarşısındakı sənədlərə göz gəzdirdi. Sonra başını qaldırıb Qismətovdan soruşdu: - Ələmdar adlı o oğlanı danışdırmısız?

- Bəli. - Canəli cavab verdi. - O da özünü şübhəli aparır. Bir dəfə də məhkum olunub. Bu cinayətdə əli olmasa da, ayın 5-də parkda etdiyi xuliqanlıq hərəkətinə görə cəzalanmalıdır.

Kapitan Əbilov dözməyib sözə qarışdı:

- Cənab polkovnik, mənə elə gəlir ki, Ələmdarla daha ciddi məşğul olmaq lazımdır. Mən Salehin qatil olduğuna inana bilmirəm. Görürsünüzmü, tibb eksperti ölümün 3-4 radələrində baş verdiyini göstərir. Saleh isə o gün həyətdən təxminən saat 5- də çıxıb.

Rəis əli ilə saçlarını arxaya darayıb dərin fikrə getdi. Ancaq tez də qərara gəlib, təmkinlə dilləndi:

- İş Eldar müəllimin icraatına verilib. O, hər şeyi özü araşdıracaq. Mən, şəxsən, indi heç bir qəti söz deyə bilməyəcəm bu barədə. O ki qaldı Ələmdar, onu hələlik buraxın getsin!

- Rəis, - Canəli cəld dilləndi. - Onu hələ danışdırmalıyıq. Həm də parkdakı...

Mirzəyev əlindəki qələmlə stolu döyəcləyib kapitan Əbilova əmr etdi:

- Buraxın getsin! Özü də, elə bu saat! Birincisi, onun bu işdə iştirakı görünmür. İkincisi də, prokuror Eldar müəllimi ona görə göndərib səhər tezdən. Bilmirəm, cənab Miraslanovla onun nə əlaqəsi var, amma kişi şəxsən özü axşam prokurorun evinə zəng vurubmuş.



downloaded from KitabYurdu.org

Beş dəqiqə sonra kapitan Əbilov müvəqqəti saxlama kamerasının qapısını açdırıb, Ələmdarı oradan çıxartdı. Özüylə idarənin həyətinə qədər gətirib:

- Sən gedə bilərsən! - dedi.

- Məni niyə buraxırsınız? - Ələmdar təəccüblə soruşdu.

- Məndən olsaydı, buraxmazdım. - kapitan açıq dedi. - Rəisin göstərişidir. Miraslanov tapşırıb səni.

- Miraslanov? - Ələmdar soruşdu və tez də hər şeyi başa düşdü. Bildi ki, bu Cəhalənin işidir.

- Bəli! - kapitan Əbilov ciddi tərzdə dilləndi. - Sənin nə əlaqən var onunla?

- Qızı anamın həkimidir.

- Deyirəm axı, - Əbilov başını mənalı tərzdə yırğaladı, - elə bir hörmətli kişinin sənin kimi tanışı olmaz.

Ələmdar əməliyyat müvəkkilini qəribə nəzərlərlə süzüb dedi:

- Məndən nə istəyirsən, kapitan?

- Hələ heç nə! Təəssüf ki, bu cinayətdə iştirakın barədə əlimdə ciddi əsas yoxdur.

- Heç olmayacaq da!

- Ona hələ baxarıq! İndisə get!

Ələmdar nəsə demək istədi. Amma tez də fikrini dəyişib kapitandan ayrıldı və darvazaya doğru addımlamağa başladı. Onun arxasınca baxan Əbilov dərin fikrə getdi:

«Əgər Rafiqi bu öldürübsə, ucunda Salehin qan izinə rast gəlinmiş bıçaq meyitin əlinə kim tərəfindən və nə üçün verilib? Ya, bəlkə mən hissə qapılıram? Bəlkə elə Saleh öldürüb Rafiqi?.. Bunu qəbul etmək daha asan deyilmi? Bəs onda ekspertin ölümün baş vermə vaxtı barədəki



downloaded from KitabYurdu.org

rəyi?..»

On səkkizinci fəsil

Polis idarəsinin rəisi polkovnik Mirzəyev, müstəntiq İmanov və baş əməliyyat müvəkkili Canəli Qismətov aprelin 9-da baş vermiş cinayətin Saleh tərəfindən törədilməsinə şübhə etmirdilər. Onların fikrincə, burada hər şey aydın və sadə idi. Salehin
arvadı izahatında göstərmişdi ki, aprelin 6-da keçirilən ad günündə Rafiq ona qarşı qəbul ediləndən artıq diqqətcil olmuşdu. Aprelin 9-da Sadıxovun mülkündə işləyən iki gənc fəhlə bildirmişdi ki, həmin gün Saleh axşamüstü, saat 5-ə qalmış həyətə girib, gətirdiyi şeyləri verərək 17.20-də həyətdən çıxıb. Bu zaman fəhlələr küçədən qarışıq səs eşidiblər. Yarım saat sonra darvazadan çıxanda Rafiqin meyitini görüblər. Yaralı vəziyyətdə evinə gedən Saleh, arvadına son dərəcə həyəcanlı halda, «Məni tutacaqlar!» - deyib. Həbs olunandan sonra isə kimin tərəfindən bıçaqlandığını deyə bilmir və bu hadisəni olduqca qeyri-inandırıcı təsvir edir.
Nəhayət, tibb eksperti meyitin əlində qalmış bıçaqdakı qan ləkəsinin Salehin qanından olduğunu
təsdiq edib. Bütün bunlar, sözsüz ki, qatilin Saleh olduğunu göstərirdi.

Əlbəttə, təcrübəli polis işçisi olan Mirzəyev, baş vermiş cinayət hadisəsi nə qədər aydın görünsə də, onu ən incə məqamlarına qədər araşdırmağı məqsədəuyğun sayırdı. İş təcrübəsində o qədər belə hallar olmuşdu ki, ilk baxışdan tamamilə aydın görünən cinayət baş vermiş, hətta kimsə bu cinayəti boynuna götürmüş, Mirzəyev işi daha dərindən araşdırandan sonra məlum olmuşdu ki, cinayət ayrı bir


downloaded from KitabYurdu.org

səbəbdən və başqa şəxs tərəfindən törədilib.

Rafiqin qətlə yetirilməsi hadisəsi isə nə qədər aydın görünsə də, şübhəli şəxs qismində tutulmuş Saleh hələ ki, cinayəti boynuna almamışdı. Mirzəyev üçün bu hadisənin üstü o vaxt tamamilə açılmış hesab ediləcəkdi ki, Saleh əməlini boynuna alsın və
işlətdiyi cinayət alətinin yerini əməliyyat qrupuna nişan versin.

Müstəntiq İmanov istintaq işində o qədər də təcrübəli deyildi. O da rəis kimi Salehin qatil olduğuna inanırdı və istintaqı da elə bu yöndə aparacaqdı. Çalışacaqdı ki, Saleh cinayəti tezliklə boynuna götürsün və o da qərarını yazıb təsdiq üçün prokurora versin. Amma Mirzəyev istəyirdi ki, öz iş prinsipinə sadiq qalaraq, şübhə doğuran ən xırda məqamları dönə-dönə yoxlatdırsın. Buna mane olan Əlifağa Sadıxovla aralarında olan münasibət və Sadıxovun nüfuzlu bir adam olması idi. Rəis yaxşı bilirdi ki, Əlifağa özünü nə qədər sadə aparsa da, bir o qədər güclü, prinsipial və kinli adamdır. O, Saleh barədə öz sözünü demişdi və bütün dəlillər də Salehin əleyhinə idi. Daha bundan sonra yeganə
övladını itirmiş Əlifağa Sadıxovu narahat etmək, ona inamsızlıq göstərmək, Mirzəyevin fikrincə, artıq və mənasız iş idi.

İdarənin ən bacarıqlı və qətiyyətli əməkdaşı hesab olunan Allahverdi Əbilov isə baş vermiş cinayət hadisəsinə başqa gözlə baxırdı. O bu vaxta qədər müstəqil olaraq açdığı cinayət işlərinin hamısını məntiqi düşüncənin köməyilə açmışdı. Bu cinayətin açılmasında isə, onun fikirləri əməlli-başlı düyünə düşmüşdü. Həmişə istinad



downloaded from KitabYurdu.org

etdiyi və bəzən iş yoldaşlarının istehzasına səbəb olan həmin məntiq elmi indi özü onu çətin vəziyyətə salmışdı.

Aristotelin ziddiyyət qanununda deyilir ki, bir- birini inkar edən iki fikir eyni zamanda və eyni şəraitdə düzgün ola bilməz. Burada da iki fikir var idi. Biri o idi ki, Rafiq həyətdən saat 17.20-də çıxan
Saleh tərəfindən, həmin vaxtda öldürülüb. Buna sübutlar da var idi. Üstəlik, tibb ekspertizası Rafiqin əlindəki bıçaqda qalmış qan izlərinin Salehin qanından olduğunu göstərmişdi. Kapitan Əbilov məhkəmə tibb eksperti Aqşin Babayevin təcrübəsinə və biliyinə şübhə etmirdi. O, kənd rayonlarında uzun müddət bu işdə çalışmışdı.

İkinci fikir ondan ibarət idi ki, Rafiq təxminən saat 15:00-16:00 radələrində, haradasa kənarda öldürülüb və 16:50-17:20 arasında gətirilib darvazanın yanında atılıb. Ölümün baş vermiş olduğu bu müddəti də təcrübəsinə inandığı həmin Aqşin Babayev göstərmişdi.

Allahverdi ikinci fikrin üzərində daha çox dayanırdı, çünki özünün də bu fikri təsdiq edən mülahizələri vardı. Həmin qaranlıq gecədə, maşın
faralarının işığında meyitə baxarkən, yaradan çıxan qanın axma istiqaməti, bıçağın yarıbükülü əldə olması ona şübhəli görünmüş və o bu şübhələrini leytenant Nəsirova da bildirmişdi. Ekspertin Salehin qolundakı yaranın ölçüləri barədəki rəyindən sonra hələ yeni şübhələr də ortaya çıxmışdı.

Ancaq ikinci fikrin üzərində dayananda ortaya bir çox suallar çıxırdı ki, bu suallara Əbilov hələlik heç bir cavab tapa bilmirdi. Qəbul edəndə ki, Rafiq başqa yerdə öldürülüb, onda belə çıxırdı ki, bıçağı meyitin əlinə


downloaded from KitabYurdu.org

sonradan qoyublar. Bıçaqda da Salehin qanı ... Belə olduqda, məsələ həddindən artıq qəlizləşirdi.

Baxmayaraq ki, cinayət işi prokurorluğun müstəntiqi Eldar İmanovun icraatında idi, kapitan Əbilov özünə qaranlıq görünən məqamların, heç
olmasa, bir hissəsini aydınlatmaq üçün bu gün hökmən Əlifağa Sadıxov və onun arvadı Şərafət xanımla görüşməyi qərara almışdı. Onun fikrincə, aprelin 9-da dənizkənarı mülkdə polisdən gizlədilən bəzi hadisələr baş vermişdi ki, ev sahibləri ilə söhbət zamanı bu hadisələr barədə müəyyən təsəvvür əldə etmək olardı.

Əlifağanın şəhərdəki mənzilinə polis leytenantı Etibar Nəsirovla, onun «Jiquli»sində gəldi. Leytenanta maşında gözləməyi tapşırıb, beşmərtəbəli binaya daxil oldu. Sadıxovla necə danışacağını ürəyində bir daha götür-qoy edə-edə, pilləkənlə dördüncü mərtəbəyə çıxdı.

Rafiqin dəfninin üç günü dünən tamam olmuşdu. Ancaq yenə də mənzilin qapısı açıq idi. Pilləkənin başında, kiçik meydançada dayanmış iki
cangüdən başsağlığı verməyə gələnləri, bir söz demədən, əllərinin hərəkəti ilə mənzilə dəvət edir, eyni zamanda, girib-çıxanlara diqqətlə göz qoyurdular. Ən böyük otaqda gəlib-gedənlər üçün çay süfrəsi açılmışdı. Adamlar ikibir-üçbir çay içə-içə astadan söhbət edirdilər. Bu asta danışıqlar otaqda ağır kədərdən xəbər verən bir uğultu yaratmışdı. Hər kəs baş vermiş qətl barədə öz fərziyyəsini bildirməyə çalışırdı. Ancaq daha çox Salehdən danışırdılar. Salehdən, birdə, ümumiyyətlə, nankorluqdan, qudurğanlıqdan...

Sadıxov kapitan Əbilovu sakit bir otaqda - öz iş


downloaded from KitabYurdu.org

otağında qarşıladı. Stolunun arxasında, kresloda əyləşmişdi. Arxasında sıra ilə düzülmüş dolablar əksəriyyəti rus, bəziləri ingilis dilində olan elmi, siyasi kitablarla dolu idi. Otaq bahalı mebellərlə, olduqca zövqlə bəzədilmişdi.

Söhbətdə Nəcməddin də iştirak edirdi. O, stolun yanında şax dayanıb gözünü Allahverdiyə zilləmişdi. Lakin hiss olunurdu ki, əsas diqqəti şefindədir və onun söz, yaxud hərəkətlə verə biləcəyi hər hansı əmri yerinə yetirməyə hazırdır.

- Hə, eşidirəm, kapitan! - Əlifağa ayağını ayağının üstünə aşırıb, əlini dizinin üstünə qoydu.

- Əvvəla, sizə başsağlığı vermək istəyirəm. - Allahverdi dilləndi. - Allah oğlunuza rəhmət eləsin! Allah səbrinizi versin!

- Sağ ol! - ev sahibi astadan başını tərpətdi.

- Mən gəldim ki, sizinlə və Şərafət xanımla söhbət edib, baş vermiş cinayətlə əlaqədar bəzi məsələləri dəqiqləşdirim.

Sadıxov narazı halda qaşlarını çatdı:

- Mən öz bildiklərimi rəisinizə demişəm. Şərafət xanımın da izahatını müstəntiqə göndərmişik. Bütün faktlar mənim sürücümün, daha dəqiq desəm, keçmiş sürücümün təqsirli olduğunu sübut edir. Başa düşmürəm, sizə daha nə lazımdır?

Kapitan Əbilov da Nəcməddin kimi ayaq üstə dayanmışdı və buna görə də özünü bir qədər narahat hiss edirdi. Buna baxmayaraq, fikrini səbirlə izah etməyi qərara aldı:

- Əlifağa müəllim, siz özünüz də yaxşı bilirsiniz, lap


downloaded from KitabYurdu.org

keçmişdən də belə qəbul olunub ki, hər bir fikrin gərək dəqiq əsası olsun. Formal məntiqin dörd əsas qanunundan biri olan əsasların kafiliyi qanununda da göstərilir ki, hər cür fikir o vaxt həqiqi sayılır ki, onun kifayət qədər əsası olsun. Əsaslar da iki cür olur:
Real əsas və məntiqi əsas. Burada real əsas hələlik ki, görünmür. Yəni Salehin mərhum Rafiqlə hansı səbəbdən münaqişəyə girməsi qaranlıqdır. Düzdür, arvadının verdiyi izahata görə, guya ayın 6-da keçirilən məclisdə Rafiq Salehin qısqanclığına səbəb ola biləcək hərəkətlər edib. Amma bu o qədər də inandırıcı deyil və siz, şəxsən, özünüz də orada olmusunuz. Qaldı ki, məntiqi əsas, yəni Salehin cinayətkar olduğunu sübut edən dəlillər, bu da lazımi qədər deyil...

- Bizə dərs keçməyə gəlmisən? - ev sahibi kapitanı başdan-ayağa istehza ilə süzüb soruşdu.

- Xeyr, Əlifağa müəllim, Allah eləməsin! - Əbilov pərt oldu.

- Bəs onda nə demək istəyirsən? - Sadıxov acıqlı dilləndi: - Sübutun var, şahidin var, daha nə lazımdır sənə?

- Söhbət ondan gedir ki, Rafiqin Salehi bıçaqla vurmasını sübut etmək azdır. Lap qəbul etsək ki, Rafiq Salehi bıçaqlayıb, bu hələ o demək deyil ki, rəhmətliyi Saleh öldürüb...

Allahverdi birdən dayandı və hiss etdi ki, özünü dolaşdırıb. Ev sahibinin istehzalı baxışları, özünün ayaq üstə qalması, ürəyindəki şübhələri dilinə gətirə bilməməsi idi onu dolaşdıran. Özü də bildi ki, mənasız söz danışdı. Necə yəni qəbul etsək? Salehi Rafiq bıçaqlayıbsa, deməli,


downloaded from KitabYurdu.org

həmin vaxt, yəni saat 17:20-də Rafiq sağ-salamat darvazanın ağzında olub. Orada olubsa, deməli, onun kənarda öldürülməsi fərziyyəsinin üstündən xətt çəkilir. Bunu düşünəndə tamamilə dilxor oldu.

Ev sahibi ona rişxəndlə baxıb:

- Mirzəyev sənin kimi işçilərlə necə işləyir? - dedi.

Allahverdi geri çəkilməməyi qərara aldı:

- Mən xahiş edirəm, mənimlə belə danışmayın. Və bir də xahiş edirəm, özünüz və xanımınız bir neçə sualıma cavab verin, çıxıb gedim. Mən sizin oğlunuzun qatilini axtarmaqla məşğulam.

- Sən başqa işlə məşğulsan! - Sadıxov səsini bir qədər qaldırdı. - Yəqin, o Saleh küçüyün adamları sənə nəsə boyun olub, başlamısan onun xeyrinə dəlillər toplamağa. Ancaq yadında saxla ki, öldürülən mənim oğlumdur! Əlifağa Sadıxovun! Bir şey başa düşdün?

Allahverdi həm yaşa, həm də tutduğu mövqeyə görə ondan xeyli yuxarı olan bu adama nə
deyəcəyini bilməyib susdu. Sadıxov əlini yelləyib Nəcməddinə baxdı:

- Bunu qınamıram, bizim qanımızdadır bu! Cavan oğlandır, etimad göstərib vəzifə veriblər, qanunun keşiyində durmağı tapşırıblar, ancaq belə bir faciədən də öz mənfəətini güdür. Bizim bəyənmədiyimiz erməni bunu eləməz. Heç vaxt eləməz!

- Məni təhqir etməyə ixtiyarınız yoxdur! - kapitan Əbilov sərt şəkildə dilləndi.

- Çıx çölə! - Əlifağa ona əli ilə qapını göstərdi. Allahverdi əsəbi halda mənzildən çıxıb aşağı
düşdü. Maşına əyləşib Etibardan bir siqaret istədi.



downloaded from KitabYurdu.org

- Nə olub? - siqareti ona uzadan leytenant təəccüblə soruşdu.

Əbilov siqareti yandırıb tüstüsünü bir neçə dəfə ciyərlərinə çəkdi və handan-hana dilləndi:

- Heç! Sür gedək! Ya doğrudan da mənim başım xarab olub, ya da...

Cib telefonu səsləndiyi üçün fikrini tamamlaya bilmədi.

Telefonu açdı. Zəng vuran polkovnik Mirzəyev idi:

- Allahverdi?
- Bəli, rəis, eşidirəm!

- Sən haradasan bu saat? - rəisin səsi, nədənsə, acıqlı idi.

- Maşındayam, rəis, - kapitan cavab verdi, - idarəyə gəlirəm.

- Əvvəlcə qayıt, Əlifağa müəllimdən üzr istə, sonra gəl yanıma!

- Axı niyə, cənab polkovnik? - Allahverdi narazı qalmışdı və bu səsində də aşkar hiss olunurdu.

- Yekəbaşlığına görə! Cəld ol!
- Rəis, heç olmasa poqona...

- İstəmirsən poqonun sökülsün, nə deyirəm onu da elə!

Mirzəyev sözünü bitirib, telefonu qapadı. Bu, artıq əmr idi. Özünü çox pis vəziyyətdə hiss edən Allahverdi maşından çıxdı. Leytenant Nəsirov ondan nəsə soruşdu. Ancaq eşitmədiyi üçün sualı cavabsız qoyub, bloka girdi. Pillələri ağır-ağır qalxıb, yenidən, cangüdənlərin təəccüblü baxışları altında mənzilə daxil oldu. Nəcməddin birinci otaqda bir neçə kişi ilə oturub söhbət edirdi. Geri qayıtmış kapitanı görüb qətiyyən təəccüblənmədi. Sağ əlinin bir barmağını qaldırıb:



downloaded from KitabYurdu.org

- Bir dəqiqə gözlə, məşğuldur, - dedi.
Başsağlığı verməyə gələnlər Allahverdiyə qəribə nəzərlə baxdılar. Ya bəlkə bu ona belə gəldi? Axır ki, özünü çox təhqir olunmuş hiss edirdi. Hələ, yaxşı ki, buraya polis formasında gəlməmişdi. Yoxsa halı lap pis olardı, yəqin ki... Əynində nazik zolaqlı mixəyi kostyum var idi.

On beş-iyirmi dəqiqə keçdi. Ancaq Allahverdiyə elə gəldi ki, daha çox müddət keçib. Nəhayət, Nəcməddin söhbəti bitirib ayağa qalxdı və onu bayaqkı kabinetə apardı. Sadıxov məşğul-zad deyildi. Kreslosunda oturub Amerika siqarı tüstülədirdi. Siqaret çəkən olmasa da, hərdənbir, sevdiyi bu siqardan istifadə edirdi.

- Niyə qayıtdın? - aldadıcı təəccüblə kapitana baxıb soruşdu.

- Əlifağa müəllim, - Əbilov tərəddüdlə dilləndi, - mən belə bir vəziyyətinizdə gəlib sizi narahat etdiyim üçün üzr istəyirəm.

- Narahat etdiyin üçün yox, kobudluğun üçün üzr istəməlisən!

- Bəli... - Allahverdi bunu deməklə kifayətləndi.

- Əyləş! - Sadıxov ona oturmaq üçün yer göstərdi. - İndi bir-bir say görüm, Salehin cinayətkar olması əleyhinə hansı dəlillərin var?

Kapitan Əbilov tibb ekspertinin ölümün baş vermə vaxtı haqqında rəyini və özünün şübhələrini bildirdi. Təkcə, bıçağın meyitin əlinə verilə biləcəyindən şübhələndiyini demədi. O barədə şübhəsini axırda başqa formada çatdırdı:

- Meyitin əlində gördüyümüz bıçaq və ondakı qan



downloaded from KitabYurdu.org

izlərinin Salehə məxsus olması fakt kimi
qarşımda olmasaydı, mən qəti deyərdim ki, oğlunuz başqa yerdə öldürülüb.

Sadıxov dərin fikrə getdi. Arada, əlində tutduğu siqarı damağına qoyub sümürürdü. Onun bu zaman nə düşündüyünü təkcə kapitan Əbilov yox, ən yaxın adamı hesab olunan Nəcməddin də anlaya bilmirdi. Əlifağanın gözlərinin lap dərinliklərində qatı və dəhşətli bir kin-küdurət hiss olunurdu ki, bunun o dərinlikdən çıxıb ətrafı bürüməsinə heç kəs razı olmazdı. O, nəhayət, öz qərarını vermiş adamlar kimi qətiyyətlə dilləndi:

- Fakt elə faktdır, mənim əzizim! Onu danmaq olmaz! Qaldı ki, sənin dəlillərin, onlar o qədər də güclü dəlillər deyil. Sən yaxşı detektiv olmaq üçün hələ çox təcrübə toplamalı olacaqsan.

- Mən o faktı, yəni bıçaqlanma məsələsini qəbul etməyə bilmərəm, Əlifağa müəllim... - Allahverdi duruxdu. - Ancaq söhbət ondan gedir ki...

- Söhbət ondan gedir ki, - Sadıxov onu yamsıladı, - mən artıq boş söhbətdən ötrü sənə xeyli vaxt ayırdım.

- Bağışlayın... - Allahverdi ayağa qalxdı.

- Get, kapitan! - ev sahibi hövsələsiz halda əlini yellədi. - Sən özün də yaxşı bilirsən ki, mənim oğlumun qatili Salehdir. Amma bunu bilə-bilə yersiz şübhələrini mənimlə bölməyə gəlmisən.

Əbilov onun son sözlərinə münasibət bildirmədi. Oğlunun ölümü ilə əlaqədar bir daha başsağlığı verib, otaqdan çıxdı. O, otaqdan çıxıb, qapını arxasınca örtən kimi Əlifağa Sadıxov Nəcməddini yaxına dəvət etdi:

- Gəl otur, səninlə söhbətim var, - dedi.


downloaded from KitabYurdu.org

Kapitan Əbilov, şübhəsiz ki, nə bu sözləri eşitdi, nə də bu sözlərin dalınca başlanan son dərəcə ciddi söhbətdən xəbəri oldu. Həyətə düşüb maşına oturdu və leytenant Nəsirova idarəyə sürməyi tapşırdı. Onu rəisin yanında danlaq və töhmətlərlə dolu söhbət gözləyirdi. Özbaşınalıq eləmişdi və sözsüz ki, polkovnik Mirzəyev bunu cəzasız buraxmayacaqdı.

On doqquzuncu fəsil

Bu gün Rafiqin dəfninin yeddinci günü idi. Sadıxovun şəhərdəki mənzilinin yerləşdiyi binanın qarşısında böyük bir yasxana qurulmuşdu. Yasxananın içi adamla dolu idi. Rafiq üçün ikinci dəfə idi ki, dəbdəbəli ehsan verilirdi. Qadınlar üçün mənzildə, kişilər üçün həyətdəki çadırda. Bu başdan baxanda o biri başı görünməyən stol sıralarının üstü hər cür ləziz təamlarla dolu idi. Bircə spirtli içkilərdən başqa hər şey tapmaq olardı süfrədə.

Çadırın qapısı yanında dayanmış cavanlar astadan söhbət edir, lazım olanda, onlara başçı təyin edilmiş zəhmli bir kişinin göstərişi ilə yaxındakı mətbəx çadırına qaçıb, oradan yasxanaya yemək
daşıyırdılar. Fuad həmin cavanlardan bir az kənarda dayanmışdı. Polkovnik Mirzəyev oğluna tapşırmışdı ki, səhərdən buraya gəlib əl-ayaq işlərində ev adamlarına kömək etsin. Fuad da səhər yeməyini yeyəndən sonra durub buraya gəlmişdi. Əslində, burada ona bir o qədər ehtiyac olmasa da, yeməklərin süfrəyə düzülməsində cavanlara kömək etmiş, iş yüngülləşəndən sonra isə çəkilib bir kənarda durmuşdu. Çox fikirli görünürdü. Bu yeddi gündə nəzərəçarpan dərəcədə arıqlamış, üzünü tük basmışdı.


downloaded from KitabYurdu.org

Əlifağa Sadıxov Fuadın durduğu yerdən iki metr aralıda, bacısının əri və Fuadın tanımadığı daha iki nəfərlə söhbət edirdi. Böyük vəzifə sahibi olan bu adamı, yəni Rafiqin bibisinin ərini hamı kimi, Fuad da yaxşı tanıyırdı. Ancaq heç belə yaxından
görməmişdi. Söhbətlərini eşitmək üçün Sadıxova bir az da yaxınlaşdı. Hətta o qədər yaxınlaşdı ki, Əlifağadan gələn tünd odekolon iyi burnuna dəydi.

Ancaq daha heç nə danışmırdılar. Eləcə susub durmuşdular. Fuad elə dayanmışdı ki, Sadıxovun yeznəsini aydın görə bilirdi. Sadıxovun özünü isə sol çiyni tərəfdən görürdü. Yeznə qolundakı saata baxdı. Deyəsən, getmək istəyirdi.

Bu vaxt Fuadın gözü, onlardan on-on beş metr aralıda, binanın tinində dayanmış qadına sataşdı. Əyninə qara don geyinib, başına qara örpək bağlamış bu qadına əlli yaşdan artıq vermək olmazdı. Ancaq vaxtından tez qocaldığı hiss olunurdu. Ağ saçlarının bir topası qara örpəyin altından görünürdü. Baxışlarındakı kədər o qədər qüvvətli idi ki, uzaqdan da aydın nəzərə çarpırdı.

Fuada elə gəldi ki, bu qadın Əlifağa Sadıxova baxır. Hə, lap yəqin ki, ona baxırdı. Sadıxov isə çox güman ki, onu görmürdü. Fuad düşündü ki, yəqin, Rafiqin qohumlarındandı bu qadın. Yaxınlaşıb, başsağlığı vermək istəyir Əlifağaya. Ancaq yanında yad kişilər olduğu üçün utanır yaxınlaşmağa.

Sadıxovun yeznəsi onunla sağollaşıb, adamları ilə birlikdə, yaxında dayanmış maşına mindi. Onlar gedən kimi, qadın irəliyə bir addım atdı və tez də dayanmalı oldu: Yasxanadan çıxmış bir neçə adam başsağlığı vermək üçün


downloaded from KitabYurdu.org

Əlifağaya yaxınlaşmışdı. Onlar aralanıb gedəndə, qadın yenə də hüzr sahibinə yaxınlaşa bilmədi. Çadırdan daha bir qrup çıxıb Əlifağaya tərəf gəldi. Fuad Miraslanovla yanaşı gələn oğlu Mirkəlamı da tanıdı. Onun şəhərin bir neçə yerində yaxşı gəlir gətirən restoranlarının olduğunu bilirdi.

Miraslanov çıxan kimi, iri, qara rəngli, «Toyota»nı sürüb yaxına gətirdilər. Fuada elə gəldi ki, Miraslanov Əlifağadan yeznəsini soruşdu. Əlifağa isə onun indicə getdiyini dedi. Fuad düşündü ki, bu vəzifəli şəxs Rafiqin yasına, onun bibisinin ərinə görə gəlib.

Onu da başa düşdü ki, Rafiqin atasıyla Miraslanovun elə bir yaxın münasibəti yoxdur. Bunu onların soyuq görüşmələrindən anlamışdı. Miraslanov tələsik başsağlığı verib, yanındakı adamlarla birlikdə çıxıb getdi.

Qadın yenə də Əlifağaya yaxınlaşa bilmədi...

Bu anda Dördbarmaq Ağaşamil orta boylu, yaraşıqlı, səliqəli geyinmiş bir gənc kişi ilə çadırdan çıxdı. Ağ saçları uzanıb boynuna tökülən hündürboylu, gödək bığları qırışlarla örtülmüş sifətini bir az da zəhmli göstərən qocanı görəndə Fuad özünü əməlli-başlı itirdi. Heç özü də başa düşmədi ki, niyə bu qədər həyəcanlanır... Ağaşamil ona neyləyəcəkdi ki?..

Onun haqqında bir tanışından eşitmişdi. Tanışı demişdi ki, cavanlığında adam öldürmək üstündə həbsxanaya düşübmüş bu kişi. Orada qumar oynayanda pullarını uduzub qurtardığı üçün sağ əlinin baş barmağını qumara qoymuş, uduzanda isə, tərəddüd etmədən həmin barmağını kəsib, qumar stolunun üstünə atıbmış. O vaxtdan da adı Dördbarmaq Ağaşamil qalıbmış. Ümumiyyətlə, Fuad çox


downloaded from KitabYurdu.org

şey eşitmişdi bu zəhmli qoca haqqında...

Ağaşamil hüzr sahibinə başıyla salam verib, bir addım geridə dayandı. Tanışlıqları yox idi, deyəsən, Sadıxovla. Yanındakı kişi isə, çox güman ki, oğlu idi. Sadıxova yaxınlaşıb başsağlığı verdi.

Əlifağa başı ilə razılığını bildirib, soruşdu:

- İşlərin necə gedir, Nihat?

- Çox çağ olun, - Nihat cavab verdi. - Kölgənizdə dolanırıq.

- Mazanov incitmir səni?

Əlifağa, deyəsən, Mazanovun adını bir qədər istehza ilə çəkdi.

- Xeyr, dolanırıq. - Nihat dedi və tez də əlavə etdi: - Düzdür, əlbəttə, sizin böyüklüyünüzün, xeyirxahlığınızın yerini heç kəs verə bilməz, amma şükür Allaha...

- Hm... - Əlifağa başını tərpətdi.

Nihat atasına tərəf dönüb, onu hüzr sahibinə təqdim etdi:

- Atamdır. Onun da sizə böyük hörməti var. Başsağlığı verməyə gəlib.

- Sağ olsun! - Əlifağa yenə başını tərpətdi. Ağaşamil cibindən siqaretlə müştük çıxartdı.
Filtirli siqaretin filtirini qoparıb ataraq onu tələsmədən müştüyə keçirtdi. Yandırıb, yalnız bundan sonra üzünü Sadıxova tutdu:

- Allah böyükdür, Əlifağa müəllim! O, hər şeyi görür, hər şeyi öz yoluna qoyur. O bilən məsləhətdir. Allah səbrinizi versin!

- Sağ ol, ağsaqqal! - Əlifağa razılığını bildirdi. Ağaşamil Nihata tərəf çevrilib:


downloaded from KitabYurdu.org

- Gedək! - dedi.

Evin tinində dayanmış qadın hələ də gözlərini Əlifağaya zilləyib durmuşdu. Başqa adamlar hüzr sahibinə yaxınlaşdılar. Fuad Ağaşamilin arxasınca baxa-baxa qalmışdı. Onlar Nihatın küçənin qırağında saxladığı mixəyi rəngli «Opel»inə minib getdilər.

Polkovnik Mirzəyev bir neçə polis zabitinin əhatəsində yasxanadan çıxdı. Fuada ötəri nəzər salıb Sadıxova yaxınlaşdı. Onlar da başsağlığı verib, dil-ağız eləyib getdilər.

Əlifağa Sadıxov bir anlıq tək qaldı və bunu görən qadın tələsik addımlarla ona yaxınlaşdı.

Fuada elə gəldi ki, bu zaman Əlifağa özünü itirdi. Elə qadın da həyəcanlı görünürdü. Həm də çox qəmli siması var idi. Nə qədər asta danışmağa çalışsa da, Fuad onun titrək səslə dediyi sözləri eşidə bildi.

- Allah oğluna rəhmət eləsin! - dedi qadın.

Çadırdan ikibir, üçbir çıxanlar dayanıb astadan söhbət edirdilər. Fuad bu xəfif uğultuda Əlifağanın nə dediyini eşitmədi. Bəlkə də o, heç nə demədi. Sadəcə, başını tərpətdi. Amma Fuad yenə də qadının səsini ayıra bildi:

- Dünən eşitdim... Başın sağ olsun! Böyük dərddir... Bilirəm axı, oğul itirmək nə deməkdir...

- Hə... - Əlifağa ah səkdi. - Mən xaricdə idim Babək öləndə... Gələndən sonra bildim, onda da baş qarışdı... Harada dəfn elədiniz?

Qadın kövrəldi. Kövrəldiyini bildirməmək üçün alt dodağını dişləyib, kinayəli səslə:

- On bir il keçib dəfnindən... - dedi və tez də özünü ələ alıb bir qədər qürurla əlavə etdi: - Şəhidlər Xiyabanında!



downloaded from KitabYurdu.org

- Döyüşdə ölmüşdü? - Sadıxov soruşdu.

- Hə! İki dəfə komandirindən tərif məktubu gəldi. Yaxşı qulluq elədiyinə görə. Sonra qara xəbərini aldıq. Ermənilərlə atışmada vurmuşdular...

Sadıxov:

- Allah rəhmət eləsin! - dedi və birdən-birə söhbəti dəyişdi. - Necə dolanırsan?

- Lap yaxşı! - qadın dedi. - İşləyirəm, qardaşım kömək edir...

Ancaq Fuad başa düşdü ki, qadın bunu yalandan deyir. Heç yaxşı dolanana oxşamırdı. Bu onun sir-sifətindən də, geyimindən də açıq bilinirdi.

- Adı nə idi oğlunun? - qadın birdən soruşdu.
- Rafiq...
- Sənə oxşayırdı?

- Nə deyim... - Sadıxov çiynini çəkdi. - Daha çox o biri tərəfə oxşayırdı.

- Ancaq Babək bədəncə də, sifətcə də sənə çəkmişdi...

Fuad yenə də Sadıxovun nə dediyini eşitmədi.

- Niyə öldürdülər onu? Nəyin üstündə? - qadının səsi gəldi.

- Bilmirəm...

- Başın sağ olsun, neyləmək olar?.. Allah səbir versin!

- Sağ ol...

Susdular. Yaranmış sükut, deyəsən, ikisini də narahat edirdi. Bu vaxt Sadıxovun gözü binanın tinində dayanan maşına sataşdı. Maşından düşən yüksək rütbəli adamı görüncə, qadına:

- Bağışla... - deyib, cəld maşına tərəf getdi.

Bir anlıq onun arxasınca baxan qadın da dönüb



downloaded from KitabYurdu.org

oradan uzaqlaşdı... Fuad bir qədər Əlifağa Sadıxovun yeni gəlmiş hörmətli qonaqla davranışına göz qoydu. Qonaq hüzr sahibi ilə bir neçə dəqiqə söhbət edəndən sonra, elə oradan maşına minib geri qayıtdı. Dəstə-dəstə adamlar yenidən Sadıxovun qarşısına gedib başsağlığı verməyə başladılar. Fuadın gözü yenə də çadırdan çıxan adamlarda olsa da, fikri başqa yerdə idi. Rafiqlə axırıncı görüşünü xatırlamışdı.

O gün, aprelin 9-u Fuadın yadından ölənə qədər çıxmayacaqdı. Çox pis gün idi o gün... Saat ikiyə qədər kafedə oturdular. Doyunca yeyib-içmişdilər. Ancaq nədənsə, Rafiq lap çox içmişdi o gün. Həm də həyəcanlı idi yaman. Bəlkə də elə bu həyəcanını yatırmaq üçün çox içirdi. Onun həyəcanı, yəqin ki, bir azdan həmin o Ələmdarla görüşəcəyi ilə bağlıydı. Lotu Vələddinin oğlu ilə... Sonra ona zəng vurdular.

Qanı yaman qaraldı o danışıqdan sonra... Yenə içməyə başladı... Daha hər şeyi unutmuşdu deyəsən. Kafedən çıxanda Fuad çox təkid elədi ki, getməsin oraya... Amma Rafiq dostunun sözünə baxmadı. Hələ sükanın arxasında özü oturmaq istəyirdi. O cür sərxoş vəziyyətdə. Fuad onu birtəhər razı salıb, maşını özü sürdü...

Tanımadığı bir oğlan ona yaxınlaşdı:

- Küçədəki ağ «Daewoo» sizindir?

- Hə, mənimdir! - xəyaldan ayrılan Fuad cavab verdi.

- Zəhmət olmasa, onu kənara çəkin, mən maşınımı çıxarım.

Fuad:

- Hə, bu saat! - deyib oğlanın ardınca küçəyə tərəf getdi.



downloaded from KitabYurdu.org

Rafiqin yasına o qədər adam gəlmişdi ki, binanın həndəvərində, səkidə və küçənin kənarında maşın əlindən tərpənmək mümkün deyildi. Fuad fikirli halda maşınına oturub, onu işə saldı. Bir az arxaya sürüb, küçəyə çıxdı və burada saxladı. Bu vaxt qalın bığlı, gözlərinə tünd rəngli eynək taxmış bir kişi yaxınlaşıb, maşının qapısını açdı və əlində tutduğu tapançanı Fuadın böyrünə dirəyib:

- Keç o tərəfə! - deyə hökm etdi.

- Sən kimsən?! - diksinmiş Fuad az qala çığırdı.

- Anqırma! - kişi onun çiynindən itələdi. - Keç o tərəfə dedim!

Fuad tabe olmaqdan başqa çarə görməyib, sağdakı oturacağa keçdi. Çıxıb qaçmaq haqqında fikirləşirdi ki, ikinci bir naməlum gənc arxa qapını
açıb maşına oturdu. O, qapını örtən kimi, maşın hərəkətə gəlib küçənin ortasına çıxdı və küçəboyu şütüyən maşınlara qarışdı.

- Siz kimsiniz? Məni haraya aparırsınız? - Fuad özünü ələ almağa çalışıb, sakit səslə soruşdu.

- Danışma! - maşını idarə edən kişi onun üzünə baxmadan dilləndi.

Fuad düşündü ki, bəlkə də bu adamlar onun kimin oğlu olduğunu bilmirlər.

- Siz məni tanıyırsınız? - dedi. - Mən polis rəisinin...

- Bilirik! - qalınbığlı kişi yenə onun üzünə baxmadı. - Sakit ol! Hər şey özündən asılı olacaq. Özünü necə aparacağından...

- Atamdan pul istəyəcəksiniz? - Fuad bunu istehza ilə dedi.

İstəyirdi ki, özünü cəsarətli aparsın və qorxduğunu


downloaded from KitabYurdu.org

büruzə verməsin.

- Biz səndən heç nə istəmirik, - arxadakı dedi. - Təkcə sakit olmağından başqa.

Fuad başa düşdü ki, bu adamlar kiminsə göstərişini yerinə yetirirlər. Ancaq görəsən, kimin? Kimə lazım idi onu oğurlatdırmaq? Ondan nə istəyirdilər?

Ürəyinə bir fikir gəldi və o saat da bu fikirdən qorxuya düşdü.

«Bəlkə onun adamlarıdır? Ancaq o məni orada görməyib axı? Bir də ki, mənim nə günahım vardı o işdə?..»

Daha heç biri danışmırdı. Maşın, artıq, şəhəri arxada qoyub, qarşıdakı gölə tərəf yol almışdı...

Fuad birdən fikirləşdi ki, cəsarət göstərib cəld tərpənə bilsə, atasına zəng vura bilər. Cib telefonunun ikinci düyməsini basıb saxlamaq kifayət idi ki, birbaşa atasının cib telefonuna zəng getsin. Sonra ani hərəkətlə telefonu qaldırıb bir cümləylə onu xəbərdar edə bilər. «Məni tutublar, filan gölün yanındayıq» Atası o saat bütün rayon polisini buraya tökə bilərdi... Heç, əslində qaldırmaq da lazım deyildi telefonu. Yüksək keyfiyyətli telefonun mikrofonu çox güclü idi və təkcə, həmin düyməni basmaq kifayət idi ki, yanındakıları şübhələndirməyən danışığını atasına çatdıra bilsin.

Özünü toxtadıb, əlini telefonun qayışa keçirilmiş qoburuna uzatdı. Elə həmin anda da arxada oturmuş oğlan əlindəki tapançanı onun boynuna toxundurdu: - Əlini çək, axmaq, canına yazığın gəlsin!

Sonra telefonu özü qoburdan çıxarıb arxa oturacağa atdı.


downloaded from KitabYurdu.org

- Danışığına fikir ver! - Fuad bunu yalançı bir cəsarətlə dedi.

- Nə dedin? - arxadakı güldü.

- Dedim ki, danışığına fikir ver, mən axmaq deyiləm!

- Axmaq olmasaydın belə axmaq hərəkət etməzdin.

- Bəsdir, qurtarın! - sükanın arxasında oturan kişi mübahisəni kəsdi.

Nəhayət, gəlib gölün sahilinə çatdılar. Sahilin bu hissəsi təpəlik idi. Maşını həmin bu təpələrdən birinin üstündə saxlayıb yerə düşdülər və Fuada da düşməyi əmr etdilər. Sonra onu gölün lap qırağına gətirdilər. Buradan Fuadı bərk itələsəydilər, birbaşa
gölə düşə bilərdi. Yanlarında orta böyüklükdə bir daş var idi ki, bu daşa da nazik məftil bağlanmışdı. Artıq qorxmağa başlayan Fuad ətrafına boylandı. Göldən azacıq kənarda qara rəngli bir maşın arxası onlara tərəf dayanmışdı. Arxasına atılmış bir əl-üz dəsmalı maşının nömrəsi ilə bərabər, marka-nişanını da gizlətmişdi. Ancaq Fuad onun «BMW» markasından olduğunu tanıdı.

- Bu daşı görürsən? - qalın bığlı kişi məftil bağlanmış daşı Fuada göstərib soruşdu.

- Görürəm... - Fuad udqundu.

- Bu məftili də görürsən?

Fuad dinmədi. Bu suallar artıq idi axı?! Olmazdı ki, birdəfəlik nə istədiklərini desinlər?

Üç-dörd il karate idmanı ilə məşğul olmuş və saysız-hesabsız əlbəyaxa döyüş filmlərinə baxmış
Fuad həmişə elə hesab etmişdi ki, kifayət qədər gücə malikdir və bir çətin vəziyyətə düşərsə, dörd- beş adamın öhdəsindən asanlıqla gələ bilər. İlk dəfə, aprelin 5-də



downloaded from KitabYurdu.org

Ələmdarla olan münaqişədən sonra bu inamı xeyli zəifləmişdi. İndi isə, burada, ölümlə üz- üzə dayandığı bir vaxtda xəyallarla əsl həqiqətin arasında nə qədər böyük fərq olduğunu bütün çılpaqlığı ilə anlamağa başlamışdı. Sən demə, özünü nə qədər güclü hesab etsən də, özündən güclünün əlində aciz vəziyyətə düşə bilərsənmiş...

- Görürsən? - qalın bığlı kişi bir də soruşdu.
- Kor deyiləm! - bu dəfə acıqlı cavab verdi.

Müsahibi ona rişxəndlə baxıb, başını buladı.

Sonra əlini daşa bağlanmış məftilə uzadıb dedi:

- Bax, məftilin bu biri ucunu sənin ayağına bağlayacağıq. Sonra da səni təpən üstə tullayacağıq gölə! Burada göl çox dərindir. Heç meyitini də tapa bilməyəcəklər.

- Niyə axı? Mən neyləmişəm? - Fuad, deyəsən, artıq yalvarmağa hazırlaşırdı.

Kişi əlini kənarda dayanmış qara rəngli maşına uzatdı:

- Get o maşının sağdan arxa qapısını aç, otur içəridə. Orada biləcəksən, neyləmisən!

- Kimdir orada? - Fuad qeyri-ixtiyari soruşdu.
- Əşi, qurtar görək, nə deyirəmsə, onu da elə!

Fuad dinməz-söyləməz onlardan aralanıb həmin maşına doğru getdi. Sağdan arxadakı qapını açıb, maşına oturdu. Onun qabağındakı oturacaqda bir kişi əyləşmişdi. Fuad onun yalnız başının arxasını və tünd göy rəngli pencəyinin boynunu görə bilirdi.

Kişinin səliqə ilə vurulmuş saçlarında tək-tək ağ tüklər nəzərə çarpırdı.

Fuad susub, bu naməlum adamın danışmağını gözləyirdi. Kişi isə danışmağa tələsmirdi hələ. O,



downloaded from KitabYurdu.org

qarşısındakı kiçik ekranda Fuadın həyəcanlı sifətinə tamaşa edirdi. Nə bundan, nə də maşındakı, artıq işə düşmüş səsyazan cihazdan Fuadın xəbəri yox idi. Nəhayət, kişi danışmağa başladı və onun qəfil səsi onsuz da qorxu içində olan oğlanı diksindirdi:

- Yaşamaq istəyirsən, bacıoğlu?

Fuad başa düşürdü ki, burada qəhrəmanlıq həvəsinə düşməyin heç bir mənası yoxdur. Bu adamlar istəsələr, onu doğrudan da öldürüb gölə ata bilərdilər. Sonra heç bilinməzdi də bunu kimlər edib və bilinməyinin bir mənası da olmazdı. Odur ki, müti olmaq qərarına gəlib:

- Bəli... - deyə cavab verdi.

- Yaşamaq istəyirsənsə, suallarıma düzgün cavab ver və məndən heç nə gizlətmə!

- Baş üstə!.. - Fuadın qorxusu artmağa başladı. Deməli, ondan pul-zad istəməyəcəklər bu adamlar. Məqsəd başqa imiş.

- De görüm, - naməlum adam dilləndi. - dostun Rafiqlə son günlər haralarda olmusunuz? Xüsusilə də onun öldürüldüyü gün, saat ikidən beşə kimi!

Fuad düşünmək istəyirdi. Nəyi desin, nəyi deməsin? Ancaq düşünə bilmirdi. Vaxtı boş yerə ötürürdü.

- Gözləyirəm! - Kişi sakit səslə dedi. Lakin səsində hədələyici bir çalar da var idi.

Fuad danışmağa başladı. Nə bilirdi, nə görmüşdü hamısını. Danışmadığını da kişi soruşub öyrəndi. Hər şeyi deyib qurtarandan sonra bir az sükut yarandı.

- Heç nəyi gizlətmədin ki, məndən? - deyə kişi birdən soruşdu.


downloaded from KitabYurdu.org

-Yox, atamın canı üçün, nə bilirdim, hamısını dedim. - Fuad yalvarmağa başladı. - Ancaq sizdən xahiş edirəm, bunları atam bilməsin.

- Düş get! - naməlum adam sakitcə dedi. - Maşınına min, sür get! Birbaş evinizə! Buralarda dayanma! Bura gətirilməyini də unut, heç kəsə danışma!

- Baş üstə! - Fuad cəld dilləndi.
- Düş get!

Fuad düşüb öz maşınına doğru addımladı. Bu dəfə daha bərk qorxurdu, deyəsən. Qorxurdu ki, maşının yanında dayanmış, onu buraya gətirən
həmin iki adam onu indicə öldürəcək, sonra isə ayağına daş bağlayıb gölə atacaqlar.

Gəlib maşınına çatdı. Dayanıb ona diqqətlə baxır, amma dillənmirdilər. Yox, deyəsən, onu öldürmək fikirləri yox idi. Qapını açıb maşına əyləşdi. Əli əsə-əsə açarı burub, maşını işə saldı. Naməlum adamlar hələ də yerlərində dayanmışdılar. Maşını arxaya verib döndərdi və sürəti artırıb oradan uzaqlaşdı.

O, bir də evə çatandan sonra özünə gəlib, arxayınlıq hiss etdi və qəti qərara gəldi ki, bu barədə heç kəsə, o cümlədən də atasına heç nə danışmayacaq.

İyirminci fəsil

Baş vermiş ölüm hadisəsindən on bir gün ötmüşdü. Müstəntiq İmanov istintaqı demək olar ki, yekunlaşdırmaq üzrə idi. Onun gündüzlər ardıcıl olaraq apardığı istintaqlar zamanı qarşıya qoyduğu dəlillər və Canəlinin gecələr etdiyi sorğu-suallar qarşısında çarəsiz qalan Saleh cinayəti boynuna götürmüşdü.

İmanov ona demişdi ki, aprelin 6-da Sadıxovun



downloaded from KitabYurdu.org

mülkündə təşkil olunmuş məclisdə Rafiq sənin arvadına xüsusi diqqət yetirdiyi üçün ona çox kinli baxmısan və bunu onun anası da hiss edib.

Saleh də, elə beləcə boynuna almışdı. Demişdi ki, həmin məclisdən sonra Rafiqə nifrət edirmiş.
Onun arvadına qarşı normadan artıq isti münasibətini gözləri ilə gördüyü üçün daxilində çox güclü qısqanclıq hissləri baş qaldırıbmış. Demişdi ki, ayın 9-da Sadıxovun dənizkənarı mülkə göndərdiyi ərzağı aparıb Şərafət xanıma verib və geri qayıdanda küçədə maşından yenicə düşmüş Rafiqlə rastlaşıb. Guya yadında deyilmiş Rafiq ona nə deyib, amma bu zaman o, şefinin oğluna kobud cavab qaytarıb. Beləliklə, aralarında mübahisə düşüb.
Rafiq öz maşınından bıçaq götürüb onun üstünə şığıyıb və qoluna zərbə endirib. Bıçaq Salehin qolunu yaralayıb. Bundan qəzəblənən və hər şeyi unudan Saleh yerdən bir daş götürüb Rafiqin gicgahına vurub. Rafiq yerə sərilib və dərhal keçinib. Bunu görən Saleh qorxusundan özünü itirərək maşına minib, birbaş öz evinə sürüb.

Məltəm ərinin cinayəti boynuna aldığını eşidəndə dəhşətə gəlmişdi: «Yəni doğrudanmı o oğlanı Saleh öldürüb? Həm də belə çıxır ki, mənim üstümdə?» Fikirləşməkdən üzülüb əldən düşmüşdü daha.

Məltəm istəmişdi ki, həmin məclisdə Rafiqin ona xüsusi qulluq göstərməsini, ələ almaq məqsədilə xoş sözlər söyləməsini, guya təsadüfən ayaqlarına sürtünməsini, Qismətova deməsinə baxmayaraq, müstəntiq İmanovdan gizlətsin. Ancaq müstəntiq elə ona görə müstəntiqdir ki, istintaqa cəlb edilmiş şəxsin demək istəmədiyini də dedirdə bilir. Eldar İmanov həmin gün Rafiqin


downloaded from KitabYurdu.org

münasibətində özünü göstərən ən xırda cəhətləri də Məltəmdən asta-asta qoparıb izahatda qeyd etmiş və ona imza etdirmişdi.

Məltəm özünü çox çarəsiz, çox bədbəxt hiss edirdi. Axı bütün bunlar niyə belə oldu? Axı onlar Gültayın ad gününü orada - o xarabada keçirməyə niyə razı oldular? Axı Məltəm niyə polis idarəsində, prokurorluqda kabinetlərin qapısı ağzında dayanmalıdır? Axı niyə yad kişilər onu şorgöz baxışlarla süzə-süzə sorğu-suala tutmalıdırlar? Guya Məltəmin adını, qeyrətini qoruyan, namusunun təəssübünü çəkən Saleh düşünmürdü ki, bu hərəkəti ilə arvadını, təkcə arvadını yox, uşaqlarını da necə çətinliyə salacaq?

Əslində, Məltəm heç bilmirdi ki, bu işdə Salehi günahlandırsın, yoxsa yox. Bircə onu bilirdi ki, bədbəxtlik gəlib onların da ailəsini tapdı. Taledən qaçmaq olmazmış, sən demə! Gül kimi ailələri var idi. Allah çox gördü onlara bu xoşbəxtliyi...

Məltəm qorxurdu... Qabaqda onları gözləyən çətinliklərdən, tənələrdən, pisliklərdən. Bir sözlə, hər şeydən! Kimsəsiz və arxasız olduqlarını bu qədər dərindən hiss etməmişdi indiyədək. Ən böyük, ən ülvi arzusu uşaqlarını sağlam, tərbiyəli, xoşbəxt böyütmək idi ki, indi artıq bu arzusu da məhv olmaq təhlükəsində idi. Əslində, iradəsiz, gücsüz bir qadın olan Məltəm bu uşaqları necə böyüdəcəkdi, necə tərbiyə edəcəkdi? Bundan sonra iş tapıb işləyə biləcəkdimi? Məktəblərdə boş müəllimlik yeri tapmaq da müşkül məsələ olmuşdu indi. Kim iş tapacaqdı onun üçün? Bakıda heç elə bir adam haqqında eşitməmişdi ki, yanına gedib dərdini, vəziyyətini anlatsan, sənə


downloaded from KitabYurdu.org

təmənnasız arxa duracaq. Yox idi belə bir adam! Kasıblar öz kasıbçılıqlarının hayında idi, varlılar, imkanlılar da qazandıqlarını qəpiyinədək
özlərinə, övladlarına sərf etməkdə. Ya da ki, qazandıqlarını qızıl külçələrinə çevirib, xarici banklara qoyub «dar gün» üçün saxlayırdılar.

Bağda Əlifağa Sadıxovu görəndən sonra Məltəmdə belə bir fikir yaranmışdı ki, bəd ayaqda onların da arxalana biləcəyi güclü adamları var. Bu kişi, doğrudan da, onun ürəyinə yatmışdı və düşünürdü ki, kaş belə bir atası olaydı indi. Ancaq başlarına gələn bu iş həmin xəyallara da son qoydu...

Necə dözə biləcəkdi Salehsiz? Axı sevirdi onu Məltəm?!

Hər gün axşama qədər onun işdən qayıtmasını gözləyə-gözləyə darıxırdı onsuz. Bəs bundan sonra nə qədər gözləməli olacaqdı onu?..

Gündüz vaxtı idi. Uşaqlar məktəbə getmişdilər. Məltəm stolun üstünə ağ mələfə salıb dünən yuduğu paltarları ütüləyirdi. Əyninə sadə pambıq parçadan ev xalatı geyinmişdi. Xalat köhnə olsa da və bir neçə yerdən süzülsə də təmiz idi. Məltəm təmizliyə həmişə xüsusi fikir verirdi və həmişə paltarlarından da, üst-başından da, hətta duruşundan da təmizlik yağırdı.

Qapı döyüldü...

Gələn Əlifağa Sadıxov idi. Qapını açan Məltəm qeyri-iradi olaraq geriyə çəkildi və çağırılmamış qonaq evə daxil oldu.

- Salam, Məltəm xanım, gözləmirdiniz deyəsən, hə?

- Salam...



downloaded from KitabYurdu.org

Məltəm özünü yaman itirmişdi. Bir əli çiyinlərinə tökülmüş saçını düzəldir, bir əli isə xalatın qarın tərəfdə qırılmış düyməsini əvəz etməyə çalışırdı. Əlifağa kiçik, dar dəhlizdən otağa keçərkən, ev sahibəsi də onun dalınca otağa girdi və bu dəfə özünü daha çox itirdi. Qıpqırmızı qızarıb, cəld stolun üstünə ütüləmək üçün atdığı alt paltarını götürdü. Sonra ağ mələfəni və ütünü yığışdırıb, qonşu otağa keçdi. Onları çarpayının üstünə atıb geri qayıtdı. Otağın ortasında durub ətrafına göz gəzdirən Sadıxova:

- Buyurun, əyləşin! - deyib yenə o biri otağa keçdi.

Xalatını dəyişmək istəyirdi. Amma tez də bu fikrindən daşınıb qonağın yanına qayıtdı. Vurduğu bahalı odekolonun qoxusu otağı doldurmuş Əlifağa, artıq, stolun arxasındakı stulların birində oturmuşdu.

Sakitləşdirici bir səslə Məltəmə:

- Narahat olma, gəl əyləş, qızım! - dedi.

Ancaq eyni zamanda, nəzərlərini qadının çaşqın sifətindən yavaş-yavaş çılpaq ayaqlarına qədər endirdi. Məltəm nimdaş, nazik çit xalatda da gözəl görünürdü. Cəlbedici, isindirici görkəmi var idi.

Qadın gözlənilməz qonağın mehriban danışığından bir qədər sakitləşsə də, həyəcanını tamamilə boğa bilmirdi. Titrək əllərilə yenə gah saçlarını düzəltməyə, gah da xalatının açıq qalan yerini örtməyə çalışırdı.

Onun bir qədər utancaq, bir qədər çəkingən davranışı Əlifağanın yadına birdən-birə Xavəri saldı. Birinci həyat yoldaşını... Xavər də həmişə yad adamların qarşısında belə sıxılırdı, özünü itirirdi... Amma onu Məltəmlə eyniləşdirmək də olmazdı. Məltəm daha



downloaded from KitabYurdu.org

gözəl idi və onda qadın həyası ilə, qadın utancaqlığı ilə bərabər, gözlərinin lap dərinliyində qızlıq vaxtından qalmış bir şıltaqlıq da var idi. Bir də ki, hərəkətlərinə, duruşuna təbii bir işvə, təbii bir naz hopmuşdu elə bil.

Xavərin xasiyyəti isə bir az qapalı, bir az quru idi. Utancaqlığı da, əslində, Məltəminkinə bənzəmirdi. Məltəmin utancaqlığı öz gözəlliyini dərk edən bir qadının qadınlıq duyğularından doğan utancaqlıq idi. Xavərin utanmağı isə təsadüfən dərsə hazır gəlməmiş çalışqan şagirdin müəllim qarşısında utanmağına oxşayırdı. Elə bil özünü həmişə günahkar bilirdi nədəsə...

Dörd gün əvvəl Rafiqin yasına gəlmişdi. Əlifağa nə vaxtsa onunla bir də qarşılaşacağını gözləmirdi heç. Düz iyirmi iki il idi ki, görmürdü onu. Hə, iyirmi iki il! 1984-cü ildə ondan ayrılıb Şərafətlə evlənmişdi.

Bəs Xavərlə? Hə, Xavərlə 1975-ci ildə evləndilər. Çoxdandı ki, onu və onunla bağlı illəri xatırlamasa da, indi bir gözü Məltəmdə olan Əlifağa xəyalında otuz bir il əvvələ qayıtmışdı və o illərin epizodlarını köhnə kino lenti kimi beynindən keçirirdi.

Xavər qonşuluqda yaşayırdı. Onu Əlifağanın anası bəyənmişdi oğlu üçün. Sakit, abırlı-həyalı bir qız idi. Anası onu hər gün oğluna tərifləyib deyirdi ki, belə qızı əldən buraxmaq olmaz, az-az tapılır belə halal süd əmmişlər. Axır, Əlifağa da onu bəyəndi və evləndilər. Məlum oldu ki, Xavər də gizlicə Əlifağanı
sevirmiş. Sevirmiş, amma bu sevgini bildirməyi, aşkar etməyi ağlına belə gətirmirmiş.

Evlənəndən bir il sonra oğulları dünyaya gəldi. Adını Babək qoydular. Bir az kasıbçılıqla da olsa, mehriban


downloaded from KitabYurdu.org

yaşayırdılar. Əlifağa arvadının hər işindən, hər xasiyyətindən razı idi. İlk illər elə yataqda da qane edirdi ərini... Amma sonra, çox tez doydu ondan. O vaxt on yeddi yaşı olan Şərafətə rast gəlib onunla gəzəndən sonra isə, arvadı lap gözündən düşdü.

Əsgəri xidmətini Rusiyada keçirmiş və orada xeyli rus, erməni qızları ilə yaxın təmasda olmuş Əlifağa, əslində, ümumiyyətlə, Azərbaycan qızlarını bəyənmirdi. Deyirdi ki, onlar sevməyin nə olduğunu anlamırlar heç. Bacardıqları uşaq doğub böyütmək, ərin qulluğunda qulluqçu kimi dayanmaq, evə baxmaq, xörək bişirmək və sair belə şeylərdir ancaq. Heç əməlli-başlı öpüşməyi də bacarmır, deyirdi, onlar. Elə oldu ki, Xavərlə evlənməli oldu və bir daha gördü ki, düz fikirləşibmiş... Zalımın qızının nə dili var idi, nə də... Yataqda da elə bilirdi bunun vəzifəsi ancaq ərinin hökmünə, göstərişinə tabe olmaqdır, vəssalam.

Elə ki Şərafətə rast gəldi, gördü, yox, balam, hələ həyat davam eləyirmiş onun üçün. Beləsi Bakıda da tapıla bilərmiş sən demə... Şərafətin odlu- alovlu öpüşlərindən, qəlbini təlatümə gətirən ehtiraslı sözlərindən beyni dumanlanan Əlifağa arvadı kimi, 6 yaşlı oğlundan da soyumağa başladı.

İki il görüşəndən sonra Şərafəti sevdiyini, onsuz yaşaya bilməyəcəyini başa düşüb, Xavərdən ayrıldı. Mənzilini iki birotaqlı mənzilə dəyişib, Şərafəti onların birinə gətirdi. O biri mənzil isə Xavərlə Babəkə qaldı. Elə o unudan da unutdu onları. Əsl xoşbəxtliyin nə olduğunu Şərafətlə evlənəndən sonra anladı. Bir də onu anladı ki, Xavər heç əslində onu sevmirmiş. Sevsəydi, ayrılmağa


downloaded from KitabYurdu.org

belə tezliklə razılaşmazdı və heç olmasa, sonra axtarardı onu. Əsl sevgi Şərafətin sevgisi idi ki, Şərafət bunu gündə neçə dəfə anladırdı Əlifağaya. Həm şirin, qılıqlı dili, həm də ehtiraslı, nazlı-qəmzəli hərəkətləri ilə.

Şərafətin zirəkliyi, fəallığı özünü hər şeydə göstərirdi. Əlifağa onun sayəsində, onun uzaq qohumlarının köməyilə tezliklə böyük vəzifəyə sahib ola bildi və sayılıb-seçilən adamlardan biri oldu.

Şərafətlə evlənəndən az sonra Rafiq doğuldu və o vaxtadək hərdənbir Babəki xatırlayan Əlifağa mehrini tamamilə yeni doğulan övladına saldı. Hər ikisi doğma övladı sayılsa da, Rafiq onun üçün daha əziz, daha sevimli idi. Çünki onu canı qədər sevdiyi Şərafət dünyaya gətirmişdi və Şərafətə bənzəyirdi o.

Əlifağa inanırdı ki, Şərafət də onu ürəkdən sevir, bütün qəlbi ilə ona sadiqdir və onun yolunda hər bir əziyyətə qatlaşmağa hazırdır.

Şərafəti yaxından tanımayanlar onun açıq-saçıq xasiyyətini görüb, onun haqqında pis fikrə də düşə bilərdilər. Ancaq onunla neçə illər bir yastığa baş qoymuş Əlifağa bilirdi ki, Şərafət ona sadiqdir və ölənəcən də sadiq olacaq. Salehi vurmağı bir daha sübut edirdi ki, Əlifağa səhv etməmişdi ona inanmaqda. Bəlkə də Xavərin başına gəlsəydi bu iş, elə bir qətiyyət göstərə bilməzdi. Bəlkə də daha tez yoldan çıxardı Xavər. Ümumiyyətlə, bir qadın kimi soyuq olan, intim əlaqələrə maraq göstərməyənlərin sədaqətinə də inanmırdı Əlifağa. Deyirdi, sədaqət ona deyərəm ki, qadın ehtiraslı olsun, hər bir an qadınlığını duyub başa düşsün və bununla belə ərindən savayı heç bir kişini yaxına buraxmasın. Şərafət kimi...


downloaded from KitabYurdu.org

Əlifağa Xavər haqqındakı düşüncələri beynindən qovub bayaqdan ayaq üstə dayanmış Məltəmə qəribə nəzərlərlə baxdı. Sanki tələbkar alıcı almaq istədiyi mala baxırdı.

- Əyləş!

Məltəm bu hökmlü səsə tabe olub stulda oturdu.

Əlifağa onun müstəntiqə verdiyi izahatdan xəbərdar idi. Bərk acığı tutmuşdu həmin izahatdakı Rafiqi ləkələyən cümlələrə. Onun fikrincə, Məltəm, öz əri əclafın biri olduğu halda Rafiqə qara yaxmayaydı gərək. Sadıxov oğlunun həmin məclisdə
nalayiq hərəkətlər etməsinə inanmırdı və düşünürdü ki, heç də üzdən göründüyü kimi həyalı olmayan bu qadın, qəlbi təmiz olmadığı üçün Rafiqin hər hansı təsadüfi hərəkətini istədiyi kimi yozmuşdu. O bu qadını ilk dəfə görərkən bəyənmiş, ancaq ağlına heç bir başqa fikir gətirməmişdi. Lakin onun izahatını oxuyarkən, öz zənnində yanıldığını başa düşmüş, ondan intiqam almaq qərarına gəlmişdi. Elə buraya gəlməkdə də məqsədi o idi. Həm də bu intiqam eyni zamanda Salehə də aid olacaqdı. Nankor sürücüsü o qədər qudurmuşdu ki, Əlifağa Sadıxov adlı adamın varlığını belə unutmuş, onun arvadına göz dikmişdi. Əlifağa bunu bağışlaya bilməzdi və bağışlamayacaqdı da!

- Uşaqlar dərsdədirlər? - səsində ciddilik var idi və daha heç yumşaq danışmaq fikri də yox idi.

- Bəli... - astadan cavab verən Məltəm müsahibinin üzünə baxmırdı.

- Gördün də, ərin neylədi?

Məltəm cavab verməyib susdu.

- İnsanı tanımaq olmazmış... - Sadıxov dərindən ah



downloaded from KitabYurdu.org

çəkdi. - Heç vaxt ağlıma gətirə bilməzdim ki, o belə bir əclaf iş tutsun. Ona çörək verdim, adam elədim onu. Belədi də, bizim millət! Çox tez qudurur! Yeməyə çörək tapan kimi gözü qızır, ayağının altını görmür...

Sadıxov Salehin Şərafətə qarşı etdiyi hərəkəti onun arvadına bildirmək istəmirdi. Ümumiyyətlə, heç kəsin bunu bilməyini istəmirdi. O öz adına kiçik də olsa ləkə gətirə bilən bir işin kimlərinsə dilinə düşməsini qəbul etmirdi. O işdən, təkcə Nəcməddin xəbərdar idi, bir də azdan-çoxdan o iki fəhlə...
Düzdür, o işdə Şərafət xanım öz kişi qeyrətini nümayiş etdirmişdi, amma hər halda, Əlifağa istəməzdi ki, arvadının adı yad dillərdə şübhəli söhbətlərin hədəfi olsun.

Məltəm başını qaldıra bilmirdi. Elə bil ağır yük var idi boynunda və onu aşağıya doğru dartırdı.

- Sənə bir söz deyib o? - Sadıxov qəfil soruşdu.

- Nə barədə? - qadın başını azacıq qaldırdı. Amma Əlifağanın üzünə baxa bilməyib, baxışlarını yenə yerə dikdi.

- Nə barədə olacaq, oğlumu öldürməsi barədə!

- Mənə dedi ki... - Məltəm udqundu. - həyətdən çıxanda meyiti görüb. And içdi ki, onun heç bir günahı yoxdur.

- And sizə qənim olsun! - Əlifağa səsinin tonunu qaldırdı. - Heç bilirsən, onların davası nəyin
üstündə düşüb?

Məltəm susub, başını silkələdi.

- Sənin üstündə! - Əlifağa barmağını ona silkələdi. - Daha doğrusu, sənin işvəkar hərəkətlərinin və böhtanlarının ucbatından. Düz deyirlərmiş ki, qadın yıxan evi fələk də yıxa bilməz!



downloaded from KitabYurdu.org

- Mən Salehə heç nə deməmişdim. - Məltəm özünü müdafiə etməyə çalışdı.

- Bəs o izahatda yazdıqların nədir? - Sadıxov hirsləndi. - Niyə haqq dünyasında olan bir cavana şər atmısan? Mənim oğlum beş adamın gözü qarşısında əl atırmış sənə? Olmayan şeyləri, yalnız könlündən keçənləri yazmısan sən! - Bir an susub əlavə etdi. - Yadında saxla, sən bais olmusan bu faciəyə və əvəzini verməlisən!

Bayaqdan dolub durmuş Məltəm daha ağlamağını saxlaya bilmədi. İndi, doğrudan da, özünü günahkar sayırdı o və xəcalətindən, yer yarılsaydı, yerə girməyə hazır idi.

Sadıxov onun titrəyən yumru çiyinlərini görürdü, üzünü tutmuş və göz yaşlarından islanmış əllərini görürdü. Bu gördüklərindən, uzaqdan-uzağa onun hərarətini duyurdu. Hərarətini duyduqca ona sahib olmağın vaxtının yetişdiyini hiss edirdi...

Ayağa qalxıb Məltəmə yaxınlaşdı və əlini onun saçlarında gəzdirdi:

-Yaxşı!.. Bəsdir, ağlama!

Məltəm saçlarında gəzən bu əldən başını qaçırtmaq istədi.

Amma cəsarəti çatmadı buna. Ona elə gəldi ki, belə edərsə, kobudluq etmiş olar bu kişiyə qarşı.

Ancaq bədəninə bir titrəyiş yayılırdı bu naməhrəm əldən və bu titrəyiş qadının ixtiyarını əlindən alırdı. O, anlaya bilmirdi Əlifağanı... «Bəlkə heç pis məqsədi yoxdur mənə qarşı?..» - deyə fikirləşirdi.

Əlifağanın isə ehtirası getdikcə alovlanırdı. Qadının kürəyindən üzü aşağı nəzər yetirdikcə, bir az aşağı əyilmiş


downloaded from KitabYurdu.org

Məltəmin gərilmiş bədəni onun ürəyində tutduğu məqsədi getdikcə qətiləşdirirdi.

Birdən, qəfil hərəkətlə qadının başını geri qaldırıb isti dodaqlarından öpməyə başladı. Məltəmin sifəti od tutub yanırdı və göz yaşlarından tamam islanmışdı. Bu onun namusuna susamış kişini daha da çılğınlaşdırırdı və Məltəm nə qədər çırpınıb-dartınsa da ondan qopa bilmirdi.

Əlifağa onun qolundan tutub ayağa qaldırdı və yaxındakı divanın üstünə itələdi. Ehtirasdan boğulduğu üçün özü də heç nə danışa bilmirdi.

Məltəm əlləri ilə özünü qorumağa çalışaraq, yalvarmağa başladı:

- Toxunmayın mənə! Yalvarıram, toxunmayın mənə!

Vücuduna çökmüş kişi onun yalvarışlarına məhəl qoymaq fikrində deyildi. Dartıb cırdığı xalatın düymələri yerə töküldü. Məltəm bədəninin görünən hissələrini yad kişinin baxışlarından gizlətmək üçün nə qədər cəhd göstərsə də, bir şey alınmır, əksinə, getdikcə çılpaqlaşırdı.

Rüsvay olmaqdan qorxduğu üçün qışqırıb səs salmırdı. Ancaq elə sürətlə nəfəs alırdı ki, az qalırdı ciyərləri ağzına gəlsin. Nəhayət, döşlərindən basan enli sinənin ağırlığı onu sıxıb divana yapışdıranda və tərpənməyi qeyri-mümkün olanda, tamamilə soyundurulduğunu hiss etdi. Qeyri-ixtiyari olaraq qışqırmaq istədisə də, ağzını qapamış, Amerika siqarının qoxusunu verən dodaqlar buna imkan vermədi.

Bircə an da keçdi... Qadın məğlub olduğunu və hər şeyin bitdiyini bütün ağrısıyla hiss etdi. İndi mübarizəni davam etdirmək həm çətinləşmişdi, həm də gec idi daha!..

Məltəm daha heç nəyə çalışmır, heç nə fikirləşmirdi.


downloaded from KitabYurdu.org

Ətrafı duymaq, nə baş verdiyini qiymətləndirmək qabiliyyətini də itirmişdi, elə bil. Bədəni bu otaqda, divanın üstündə sərilib qalsa da, ruhu uzaqlara uçub getmişdi, sanki... Bəlkə elə ona görə, köməyi də, lap uzaqlardan, xəyallar aləmindən çağırdı:

- Ay ana!..

Qələbəyə belə asanlıqla nail olmasından həzz alan Əlifağanın da dili açılmışdı:

- Sən möcüzə imişsən, demə! Necə olub ki, elə bir gədəyə qismət olmusan?!

- Ay ana!... - Məltəm daha bərkdən səsləndi bu dəfə.

Bu vaxta qədər sahib olduğu qadınlar özləri könüllü təslim olmuşdular Əlifağaya. Pula görə. Onu razı salmaq üçün etdikləri çılğın hərəkətlər, erotik danışıqlar, gülüşlər, baxışlar nə qədər təbii görünsə də, əslində saxtalığını anlamışdı həmişə. Amma indi öz fiziki gücü hesabına qazandığı qələbədən daha çox həzz alırdı. Cisminə hakim olduğu qadının təmizdən təmiz, sirlidən sirli, istidən isti bətninin qəribə təmasını duyduqca, indiyədək duya bilmədiyi başgicəlləndirən xoş hisslər keçirirdi.

- Sən daha mənimsən! - deyirdi. - Mənim, ancaq mənim!

-Ay ana!!!

Bu sözləri ara vermədən, iniltili səslə təkrar edən Məltəm az qala qulağına deyilən sözlərin mahiyyətini anlaya bilmirdi. Duyduğu, ancaq, vücudunu qapayan ağırlıq, siqar qoxusu qarışmış odekolon iyi və bir də bu vaxta qədər yad gözlərdən, yad müdaxilələrdən qoruduğu gizli ismət evinə soxulmuş quduz canavarın vurnuxması idi...


downloaded from KitabYurdu.org

- Ay ana!.. - harayına səs verən olmasa da, hələ çağırırdı.

- Ananı niyə çağırırsan, Salehi çağır! - Əlifağa istehza ilə dedi. - Qoy gəlib xilas eləsin səni.

- Ay ana... - Məltəm daha gücdən düşmək üzrə idi.

Əlifağa isə getdikcə vəhşiləşirdi. Vəhşiləşdikcə ətrafı duymaq hissi azalır, beyninə yığılan duman qatılaşırdı. Bu vəhşiləşmə, bu şəhvət çılğınlığı ona qida verən sirli maddənin yerindən qopub hərəkətə gəlməsinə qədər davam etdi. Və yalnız bundan sonra Əlifağa, hər şey bitibmiş kimi, birdən-birə sakitləşdi.

Onun sakitləşməsindən hər şeyin qurtardığını başa düşən Məltəm də səsini kəsdi. Bütün bədəni, başdan-ayağa süstləşmişdi, elə bil. Gözlərini yumub, zəif səslə zarıdı:

- İstədiyinizə çatdınız!.. Aldınız intiqamınızı!

Əlifağa ona cavab verməyib ayağa qalxdı. Hər şey adiləşmişdi gözündə. Çılpaq halda uzanıb qalmış və üstünü örtməyə cəhd belə göstərməyən qadın da!

O biri otağa keçib güzgüyə baxdı. Özünü düzəldib geri qayıtdı və dayanıb Məltəmə tamaşa etdi. Bir az əvvəl ondan utanan, dizinin belə görünməsini istəməyən qadın indi çılpaq şəkildə ağzı üstə uzanmışdı. Yuxarı sıyrılmış cırıq xalat yalnız kürəyini və boynunu örtmüşdü...

- Mən gedirəm. - Əlifağa dilləndi. - Çalış, ağılsız hərəkət eləmə! Uşaqlarına, ərinə yazığın gəlsin!

Ağzı üstə uzanıb qalmış və ağır-ağır nəfəs alan qadından cavab almayıb qapıya doğru getdi. Qapıya çatanda dönüb bir də ona tamaşa etdi.

- Ancaq sən, doğrudan, çox gözəlsən! Xoşum gəldi səndən! - deyib otaqdan çıxdı.



downloaded from KitabYurdu.org

Məltəm nə qədər beləcə uzanıb qalmışdı, xəbəri yox idi. Arxası üstə çevrilib, dəli kimi ətrafına
boylandı. Beynində qəribə bir uğultu var idi. Bədəni ağrıdan gizildəyirdi. Çılpaq vəziyyətdə yatdığı üçün möhkəm soyuq dəymişdi, deyəsən.

Ağır-ağır ayağa qalxdı. Ətrafa boylanıb, alt paltarını axtardı. Gözü stolun üstündəki üç dənə yüz dollarlıq əsginasa sataşanda, dayanıb bir müddət matdım-matdım onlara tamaşa etdi. Sonra birdən dizləri üstə yerə çöküb, əlləri ilə üzünü qapadı və yanıqlı səslə nalə çəkib ağlamağa başladı.

II HİSSƏ

«Həsənov Saleh Muxtar oğlu - Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə təqsirli bilinərək, cəzasını ciddi rejimli islah-əmək koloniyasında çəkməklə on bir il müddətinə azadlıqdan məhrum edilsin...»

(28 aprel 2006-cı il tarixli məhkəmə hökmündən)

«Vallah, Əsmər, heç baş aça bilmirəm ki, nə olub mənə. Ən yaxın rəfiqəmin toyunda idim. Dözüb, axıradək otura bilmədim, durub gəldim evə. Burda narahatlığım bir az da artdı. Hər şey gözümə qorxunc görünür. Elə bil kimsə ürəyimi tutub, bərk- bərk sıxır. Bircə, Qantural tez gəlib çıxsaydı... Sənə də ona görə zəng vurdum ki, dərdim dağılsın.

Yaman qorxuram, Əsmər! Yaman qorxuram! Amma heç özüm də bilmirəm ki, nədən qorxuram.

(Sənihənin öz əmisi qızı Əsmərlə telefon danışığından.

30 aprel 2006-cı il).

İyirmi birinci fəsil



downloaded from KitabYurdu.org

Aprelin 23-ü səhər Bakıdan Heydər Əliyev adına hava limanına doğru üstünə «Taksi» nişanı qoyulmuş qara rəngli bir «Volqa» şütüyürdü.
Maşında hər ikisi otuz beş yaşlarında olan iki kişi oturmuşdu. Sükanın arxasındakı Qantural, yanındakı isə Nihat idi.

Onlar üç il olardı ki, tanış idilər. Aralarında yaxşı münasibət var idi. Üstəlik, Qanturalın arvadı Sənihə Nihatın rəhbərlik etdiyi bank filialında işləyirdi. Ancaq özləri bir o qədər də tez-tez görüşmürdülər. Bu da yəqin ki, onların müxtəlif xarakterli, müxtəlif həyat tərzli adamlar olmasından irəli gəlirdi.

Qantural Qarabağ müharibəsi əlili idi. Aldığı güllə yarasından sağ ayağını azacıq çəkirdi. Qaşının üstündəki çapıq da ermənilərlə döyüşdən yadigar qalmışdı. Lakin hələ də davam edən müharibənin onda qoyduğu izlər bununla bitmirdi. Onsuz da əvvəldən dəlisov, əsəbi olan Qantural döyüşdən əsəb sistemi pozulmuş halda qayıtmışdı. Bununla əlaqədar, uşağı da olmurdu heç.

Bu yandan da kasıbçılıq bezdirmişdi onu. Ürəyincə olan bir iş tapmadığı üçün atasının onun üçün aldığı maşınını taksi kimi işlədirdi. Amma küçələri gəzib müştəri axtarmağı heç xoşlamırdı. Taksi sürücülüyü böyük qardaşı Ələkbərə yaraşırdı. O, artıq, neçə illər idi ki, öz köhnə «Jiquli»sini taksi kimi işlədirdi. Adını da məhəllədə Taksi Ələkbər qoymuşdular.

Qantural düşmənlərlə döyüşə könüllü getmişdi. Aldığı güllə yarası heç, o qədər dəhşətli, tükürpərdən mənzərələr görmüşdü ki... Təkcə ermənilərin Xocalıda törətdiyi ağlasığmaz qırğının nəticələrini görməsi onu dəli edə


downloaded from KitabYurdu.org

bilərdi və əslində, etmişdi də!..

Son vaxtlar içkiyə də qurşanmışdı. İki gündən- üç gündən bir həyətdə dava salırdı. Kimin hünəri vardı ki, bina sakinlərindən bir qıza-qadına söz atsın, ya bərkdən söyüş söysün, ya musiqiyə gur səs verib başqalarını narahat etsin. Ümumiyyətlə, dava etməyə hər dəfə bir bəhanə tapırdı. Ona görə də, Sənihə bacardığı qədər çalışırdı ki, əri sərxoş vəziyyətdə olanda onu həyətə düşməyə qoymasın.

Sənihə onun doğmaca əmisi qızı idi. Arvadını hələ də ürəkdən sevirdi və sevməklə bərabər, hər gün incidib gününü qara edirdi onun. Uzaq rayonların birindəki kəndlərindən Bakıya zorla qaçırtdığı gündən. Bu, əlbəttə, heç də səbəbsiz deyildi. Ancaq bu səbəbi Qantural, heç vaxt, heç kimə deməmişdi və deməzdi də!

Evlənəndən sonra atasının köməyilə ikiotaqlı mənzil almışdı. Sənihə ilə ikisi yaşayırdı orada. Atasıgil isə köhnə məhəllələrin birində, həyət evində yaşayırdılar. Ata-anası, Ələkbərin ailəsi, kiçik qardaşları Fərhad və dul qalmış bacıları Əsmər öz on dörd yaşlı oğluyla.

Zəkixan kişi son dərəcə təmkinli, ağırtəbiətli bir adam idi. O qədər az danışırdı ki, tay-tuşları ona Lal Zəkixan deyirdilər. Məhəllədə hörməti-izzəti var idi. Özünə məxsus həyətdəki otaqların bir neçəsini kirayəyə verməklə dolanırdı. Üstəlik də, özünün, arvadının pensiyası, Ələkbərin qazancı. Pis yaşamırdılar. Hələ Əsmər də məktəbdə dərs deməklə özünün, uşağının çörək pulunu qazana bilirdi.

Qantural isə öz həyatından heç razı olmamışdı. Həmişə


downloaded from KitabYurdu.org

əsəb, qanıqaralıq, ümidsizlik... Amma bir həftə idi ki, onda da gələcəyə bəzi ümidlər yaranmağa başlamışdı. Yanında oturmuş həmin bu Nihat onun üçün yaxşı iş tapmışdı. Beş-altı gün əvvəl onu iş sahibi ilə də görüşdürmüş, razılıq alınmışdı. Beləliklə, Qantural taksi sürücülüyünü atıb, yeni işə başlayacaqdı. Ya bəlkə də artıq başlamışdı həmin işə? Bəlkə də bu gün hava limanına gedib Moskvadan gələcək hörmətli qonağı qarşılamağı ona verilmiş ilk tapşırıq, ilk sınaq idi?

Ola bilərdi. Şefi olacaq adam ilk baxışdan Qanturalın xoşuna gəlmişdi. Güclü, qətiyyətli adama oxşayırdı.

Bu Nihat da ki, əməlli-başlı yaltaqlanırdı ona. Elə bil başının ağası idi o adam.

Nihat yaşda, hətta boy-buxunda Qanturala uyğun gəlsə də, xasiyyətcə tamam başqa adam idi. Onu vəzifə, pul, karyera daha çox düşündürürdü. Ona görə də, hər hansı böyük, imkanlı bir adamla tanışlığı yaranan kimi onun ətəyini əlindən buraxmaq istəmirdi. Artıq, ümid bəslədiyi bir neçə belə adam var idi. Əsas da elə öz şefi Əli Mazanov. İşlədiyi bankın sahibi. Nihat onun bütün göstərişlərini yerinə yetirmək, ona xoş gəlmək üçün dəridən-qabıqdan çıxırdı. Bilirdi ki, Mazanov istəsə, onun üçün daha böyük imkanlar yarada bilər. Əli Mazanovun Azərbaycandan başqa, hələ Rusiyada, Türkiyədə nə qədər imkanlı, nüfuzlu dostları var idi. Nihat onu özünün ən güclü arxası hesab edirdi.

Hələ, Miraslanov özü!.. Balaca adam deyildi. O boyda vəzifənin sahibi idi. Sözü keçmədiyi bir idarə, bir adam çətin tapılardı. Həm də, necə olmasa, Nihatın qohumu sayılırdı. Səxavətin qayınatası idi. Lazım gələrsə, istənilən


downloaded from KitabYurdu.org

ciddi məsələ üçün ona müraciət etmək olardı.

Nihat Ağaşamilin üçüncü oğlu idi. Cahangirdən və Xanəlidən sonra. Nihatdan kiçiyi Səxavət idi, ondan da sonra subay qardaşları Tamerlan. Sonbeşik Fatimə yeganə bacıları idi ki, onu hamısı çox istəyirdi.

Qardaşların içində bəlkə də ən gözəgəlimlisi və həm də ən qabiliyyətlisi Nihat olardı. Di gəl ki, özünün fikrincə, arvad sarıdan yarımamışdı. Hicran qarayanız, ortaboy, arıq bir qadın idi. Arıq deyəndə ki, lap əriyib qurtarmışdı. Xəstəliyi, dərdi nə idi, nə
yaxınları baş açırdı, nə də həkimlər. Özü də intim münasibətlərə heç həvəsi-filanı yox idi zalım qızının. Elə bil ruhu ölmüşdü tamam. Ancaq deyəsən, bir dəfə Cəhalə həkim onun diaqnozunu başqa cür qoyubmuş. Deyibmiş ki, onun xəstəliyi xəbislikdən, paxıllıqdan başqa bir şey deyil. Sonra hələ müalicəsini də göstərib, deyibmiş ki, əgər bircə həftə onun-bunun hərəkətinə göz qoymağı, ətinə-əndamına, gözəlliyinə paxıllıq edib şəbədə qoşmağı tərgitsə, hər şey keçib gedər və ətə-cana gəlməyə başlayar.

Nihat hərdən düşünürdü ki, evdə intim münasibətlər sarıdan təmin olunsaydı və gözü başqa qadınlarda qalmasaydı, neçə illərdi ki, Hicrandan ayrılıb-ayrılmamaq barədə fikirlərlə ömrünü puç etməsəydi, daha irəli gedə bilərdi. İndi, əslində, kim
idi ki? Sadəcə, bank filialının müdiri. Beş-altı işçisi var idi cəmi...

Ancaq Hicranı boşaya da bilmirdi. Həm uşaqlarına görə, həm də öz atasına görə.
Ağaşamilin dostu olmuşdu Hicranın atası. Nihat başqasıyla görüşürdü, gözəl qadınlar görəndə, bəzən başqa


downloaded from KitabYurdu.org

gözlə də baxırdı onlara, amma əslində, heç belə olmağını da istəmirdi. Ağaşamilin oğlanlarının heç birində belə xasiyyət yox idi. Başqa qadınlara qarşı laqeyd və ciddi idi hamısı. Ona görə də bəzən Nihatın öz-özündən zəhləsi gedirdi.

Hərdən də Hicrana acığı tuturdu. Deyirdi ki, kişini gərək arvadı kişi eləsin. Əsl yaxşı arvad elə etməlidir ki, səhər evdən çıxan kişinin yadına ta axşama kimi qadın düşməsin. Deyirdi, elə olarsa, kişi də bütün vaxtını, diqqətini, gücünü başqa vacib işlərə sərf
edər, gələcəyi üçün çalışar, daha gözü qadın axtarmaz.

İş yerində iki qadın işləyirdi. Biri Xədicə adında qız idi. Bu günlərdə ərə gedəcəkdi. Onu ancaq qəşəngliyinə görə işə götürmüşdü. Yoxsa, iş-güc bacaran deyildi. Kompüteri də təzəcə öyrənirdi.

O biri isə həmin bu Qanturalın arvadı idi. Sənihə... O da pis deyildi...

- Gələn bazar Xədicənin toyudur, hə? - darıxdırıcı sükutun yarandığını görən Qantural ortaya söz atdı.

- Hə... - düşüncələrdən ayrılmağa məcbur olan Nihat cavab verdi. - Gedəcəksən?

- Nə bilim?.. Ailəvi dəvət edib. Gərək gedək.

- Gedərik də... - Nihat dedi. - Çoxdandı səninlə bir süfrədə oturmuruq. Yaxşıca yeyib-içərik.

Amma heç toya-zada həvəsi yox idi Qanturalın. Əksinə, bunu da özünə dərd eləyirdi ki, gərək yaxşıca pul yazdıralar Xədicənin toyuna. Sənihənin iş yoldaşı idi, necə olmasa. Rəfiqə idilər.

Susdular. Sükutu bir azdan yenə də gözü maşının güzgüsündə olan Qantural pozdu:


downloaded from KitabYurdu.org

- Nihat, deyəsən, bu «BMV» bizi izləyir. Bayaqdan dalımıza düşüb. Sürəti azaltsam da, keçib getmədi.

Nihat arxaya boylanıb, maşını gördüsə də:

- Yox əşi! - dedi. - Kimin nə işi var ki, bizimlə?
Qantural dinmədi. Diqqətini arxalarınca gələn
maşına verib sürəti bir az da azaltdı. Qara rəngli «BMV» bu dəfə onları ötüb qabağa keçdi və bir qədərdən sonra görünməz oldu.

Qantural yenə sürəti artırıb Nihata baxdı:

- Şef sənə də demədi ki, kimi qarşılamağa gedirik?

- Yox! - Nihat başını buladı. - Adını demədi. Ancaq dedi ki, Moskvada yaşayan azərbaycanlı biznesmendir. Gənc kişidir.

- Bəs biz onu necə tanıyacağıq? - Qantural təəccüblə soruşdu.

Nihat cibindən qırmızı rəngli bir daraq çıxartdı:

- O özü bizə yaxınlaşacaq. Biz aeroportda «Bakı» kafesində oturacağıq. Mən əlimdə bu darağı tutacam. O da darağı görən kimi biləcək ki, onu qarşılamağa göndərilən bizik.

Qantural başını buladı:

- Belə də adam qarşılamaq olar? Mənim gözüm heç su içmədi bu işdən! Heç olmasa, adını soruşaydın bu adamın!

- Böyüklərin işinə qarışmağa adət etməmişəm.
- Nihat dedi. - Heç sənə də məsləhət görmürəm bunu.

- Niyə? - Qantural etiraz etdi. - Bəlkə düşməndir qarşılayacağımız adam?!

- Yaxşı görək, - Nihat onu yamsıladı. - «Düşmən...» Ola bilsin, heç şef özü də bilmir kim gələcək... Hər halda, qonağı gəlir, o da bizi göndərib qarşılamağa.



downloaded from KitabYurdu.org

Nihat belə desə də, qəlbində özünün də baş aça bilmədiyi bir narahatçılıq baş qaldırmışdı. Axı niyə onu göndərmişdilər bu qonağı qarşılamağa? Özü də yaxşı, rahat bir maşının əvəzinə, Qanturalın bu köhnə taksisi ilə... Bir də bu qara «BMV»... Doğrudanmı onları izləyirdi bu maşın?

- Bilirsən səni necə tərifləmişəm kişiyə? - dedi. - Ona etibarlı adamlar lazımdır. Həm də qoçaq.
Sənin kimi!

Qantural başını yırğaladı:

- Qoçaqlığımı deyə bilmərəm, amma etibarsız deyiləm. Mənə etibar edənə xəyanət etmərəm, mənə xəyanət edəni də heç vaxt bağışlamaram!

Nihata bir anlıq elə gəldi ki, onun Sənihəyə olan münasibətinə işarə vurur Qantural. Narahat halda yerində qurcuxdu. Ancaq tez də düşündü ki, arvadına hərdənbir oğrun-oğrun göz yetirməyini haradan biləcəkdi o?...

Gəlib hava limanına yetişdilər. Qantural şlaqbaumun önündə maşını saxlayıb, aparatdan giriş vaxtını göstərən kağızı götürdü. Maşın yuxarı qalxan şlaqbaumun altından keçib içəri daxil oldu.

Hava limanında, nəyə görəsə, ciddi yoxlanış var idi. Qarşıdakı iki qara maşının yanında dayanmış mülki və hərbi geyimli adamlar onları da saxladılar. Bir zabit başını əyib, maşının içinə göz gəzdirdi və əlini uzadaraq:

- Xahiş edirəm, sənədlərinizi verin! - dedi.

Nihat şəxsiyyət vəsiqəsini zabitə verdi. Zabit
vəsiqəni alıb, yanındakı mülki geyimli şəxsə ötürdü. Müəyyən qeydlər götürüb vəsiqəni qaytardılar.

- Haraya uçursunuz? - zabit soruşdu.


downloaded from KitabYurdu.org

Nihat az qaldı desin ki, «Moskvaya!». Çünki ona verilən bu tapşırıq artıq özünü də şübhələndirmişdi və bu yoxlanışı görəndən sonra özünü lap itirmişdi. Ancaq yaxşı ki, belə demədi. Ondan bilet tələb edə bilərdilər. Tezcə fikrini dəyişib:

- Heç hara uçmuram, - dedi.

- Onda bəs kimi qarşılamağa gəlmisiniz? Beynini sürətlə işlətməyə çalışdı. Hər şeyi
olduğu kimi desinmi? Amma yox!.. Ürəyinə nəsə dammışdı elə bil. Ona görə də bu sözlər ağzından qəfil çıxdı:

- Heç kimi!

Zabit təəccübünü ifadə etməyə macal tapmamış, Qantural dilləndi:

- Qardaş, bu mənim müştərimdir. Mərdəkandan şəhərə aparırdım. Dedim, tələsmirsə, burulaq buraya, bir nəfər də şəhərə gedən sərnişin götürüm. Allah köməyi olsun, razılaşdı. Nədi, girmək olmaz aeroporta?

- Niyə olmur? - zabit kənara çəkildi. - Keçin! Qantural maşını sıra ilə düzülmüş çoxlu sayda
maşınların arasıyla sürüb, saxlamağa yer tapdı.
Maşından düşüb, saata baxdılar. Gözlədikləri reysin gəlməsinə az qalırdı. Binaya girdilər. Gözləmə zalına keçib «Bakı» kafesində boş stolların birinin arxasında oturdular. Nihat çay sifariş verdi. Sonra bir siqaret yandırıb üzünü Qanturala tutdu:

- Amma nə yaxşı, bu Mərdəkan söhbəti ağlına gəldi?! Afərin sənə!

Qantural fikrə dalmışdı. Ona görə də bir az gec cavab verdi:



downloaded from KitabYurdu.org

- Bir dəfə doğrudan da, bir müştərini Mərdəkandan Bakıya aparırdım. Dedim, incimirsənsə, keçək, aeroportdan adam götürüm şəhərə. Beş-altı manat verər, yenə böyük şeydi. Amma o razılaşmadı...

- Hər nə isə... Sağ ol! - Nihat bir də təşəkkür etdi.

Gözlədikləri reyslə gələn təyyarənin yerə endiyini xəbər verdilər. Hər ikisi gözlərini sərnişinlərin çıxacağı qapıya dikdi. Bu gömrük zonasının qapısı idi və yanları açıq kafedən aydın görünürdü. Nihat təzə bir siqaret yandırdı.

- Belə tezliklə çıxmazlar. - Qantural gözünü uzaqda görünən qapıdan çəkdi.

- Hə! Darıxma, o özü bizə yaxınlaşacaq.

Nihat siqaretini sümürüb, barmağındakı iri, sədəf qaşlı üzüyə tamaşa etməyə başladı.

Sonra qırmızı rəngli darağını çıxarıb əlində saxladı. İndi bir gözü qarşıdakı bufetin divarından asılmış saatda idi. Onun fikrincə, dəqiqələr həddindən artıq yavaş keçib gedirdi.

Ətrafını şübhəli baxışlarla nəzərdən keçirən Qanturalın diqqətini iki stol kənarda tək oturmuş kişi cəlb etdi. Saçları, demək olar ki, dibdən qırxılmış bu kişi gözünə qara rəngli eynək taxmışdı. Sağ əlində tutduğu ağ dənələri olan uzun təsbehi oynadırdı. Qanturala elə gəldi ki, bu adam onlara xüsusi diqqət yetirir. Bu şübhəsini Nihata da bildirdi:

- Arxa tərəfində oturan o eynəkli, deyəsən, bizə göz qoyur.

Nihat ehtiyatla arxaya boylanıb, yenə Qanturala tərəf



downloaded from KitabYurdu.org

döndü:

- Bu gün hamı sənin gözünə şübhəli görünür, deyəsən.

Qantural bir gözü həmin adamda olduğu halda astadan dilləndi:

- Mən sözümü dedim... Bu adam bizə göz qoyur!

Bu zaman səsgücləndiricilər vasitəsilə verilən xəbər gözləmə zalına və kafeyə yayıldı:

- Hörmətli vətəndaşlar, Moskvadan gələn iş adamı Samir Tağıyevi qarşılayanlardan xahiş olunur ki, hava limanı rəisinin kabinetinə gəlsinlər.

Qanturalla Nihat bir-birlərinə baxıb, çiyinlərini çəkdilər...

Bir saata qədər vaxt keçdi. Öz adamlarını qarşılamağa gələnlər gömrük zonasının qapısı ağzına yığışıb, gözlərini ora dikmişdilər. Qapı hərdən açılıb örtülürdü. Amma oradan çıxanlar yalnız hava limanının işçiləri və Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları olurdu. Gözünə qara eynək taxmış həmin kişi hələ də stolun arxasında oturub, əlindəki təsbehi oynatmaqla məşğul idi.

Nəhayət, sərnişinlər zala daxil olmağa başladılar. Qarşılayanlar o qədər çox idi ki, Nihatgil daha oturduqları yerdən gömrük zonasını görə bilmirdilər. Bir neçə qrup adam səs-küylə kafeyə girib stolların arxasında oturdular.

Hündürboylu, arıq bir qadın da restorana daxil oldu. Ətrafına göz gəzdirib Nihatgilin yaxınlığındakı boş stolun arxasında əyləşdi. Bir daha ətrafına boylanıb, qara eynəkli kişiyə xüsusi diqqət yetirdi. Amma, deyəsən, daha çox onun əlindəki təsbehə baxırdı. Sonra çantasından güzgü və dodaq boyası çıxarıb, dodaqlarını boyamağa başladı.

Darağını əlində tutmuş Nihat gözaltı ona baxırdı.



downloaded from KitabYurdu.org

Qadının uzun və hamar saçları hündür boyuna yaraşırdı. Əyninə dəbə uyğun nazik kostyum və qara rəngli kalqotka geyinmişdi. Ancaq ona
qətiyyən gözəl demək olmazdı. Üz-gözünü çox boyamışdı. Birdə ki, belə arıq qadınları bəyənmirdi Nihat. Gözünü ondan çəkib, zala tərəf boylandı:

- Bu harada qaldı, görəsən?

Qantural da onun baxdığı səmtə baxdı:

- Darıxma, əgər tutmayıblarsa, gələcək.

- O nə sözdü? - deyən Nihatın narahatlığı bir az da artdı.

Sarı saçlı qadın birdən ayağa qalxıb onlara yaxınlaşdı və rus dilində:

- Sizinlə əyləşmək olar? - deyə soruşdu.

Nihat bir anlıq tərəddüddən sonra boş stulu
göstərib:

- Buyurun, əyləşin! - dedi.

Qadın oturan kimi özünü təqdim etdi:

- Natalya Nikitinə. Jurnalistəm. Şəhərinizdə ilk dəfə oluram.

Onun səsində, azacıq da olsun, qadın məlahəti hiss olunmurdu. Danışığı da, davranışı da quru və ciddi idi. Nihat ondan xoşlanmasa da qonaqpərvərlik xatirinə:

- Çox gözəl! Xoş gəlmisiniz! - dedi.

Natalya dırnağına qara rəng çəkilmiş uzun
barmağını Nihatın əlində tutduğu darağa uzatdı:

- Bunu cibinizə qoya bilərsiniz daha. Sizin gözlədiyiniz adam gələsi olmadı. Çox vacib iş çıxdığı üçün hava limanından geri qayıtmağa məcbur oldu. Bu vaxt onunla təsadüfən rastlaşdıq. Mənim də Bakıya uçacağımı bilib


downloaded from KitabYurdu.org

sevindi və bütün bunları sizə çatdırmağı xahiş etdi. İndi isə, qalxın gedək, məni öz şefinizlə görüşdürün. Mən Samirin sözünü ona
çatdırmalıyam. Şəxsən özünə. Həm də Samir dedi ki, sizin şefiniz mənə redaksiyamızdan verilən tapşırığı yerinə yetirməkdə və ümumiyyətlə, bir həftə Bakıda qalmağıma kömək edə bilər.

- Samir kimdir? - Nihat təəccüblə soruşdu.

- Siz qarşılamaq istədiyiniz adamın adını bilmirsiniz? - Natalya gülümsədi. - Samir sizin yerliniz, mənim isə köhnə tanışımdır. Çox bacarıqlı iş adamıdır.

- Belə de! - Nihat başını yellədi. - Demək, o gələsi olmadı...

- Bəli. - Natalya ayağa qalxdı. - Gedək!

Binadan çıxdılar. Maşının yanına gələn kimi
oturub yola düşdülər. Bu dəfə onları saxlayıb sorğu- suala tutan olmadı. Hava limanından uzaqlaşandan sonra Nihat dərindən nəfəs aldı:

- Şükür, hər şey yaxşı qurtardı! - Sonra arxaya çevrilib yeni tanışına baxdı və rus dilində:

- Necə gəldiniz, yol sizi yormadı ki? - dedi.

- Xeyr! - Natalya cavab verdi. - Yol yormadı. Ancaq burada çox saxladılar. Nədənsə, hamını ciddi yoxlayırdılar. Şəhər uzaqdadırmı?

- O qədər də yox. - Nihat dedi. - Yarım saata çatacağıq.

Qadın maşının pəncərəsindən ətrafa boylandı:

- Gözəl yerlərdir!

- Hələ, şəhəri görəndə daha çox xoşunuza gələcək.

Nihat bunu deyib, cib telefonunu çıxartdı və kiməsə zəng vurdu. Vəziyyəti başa salıb, lazımi göstəriş aldı. «Baş



downloaded from KitabYurdu.org

üstə!» - deyib, telefonu qapadı və yenidən kiməsə zəng vurdu:

-Alo, Mehdi, işlər necədir?.. Bax, məni biabır eləmə ha, hörmətli qonağım olacaq. Özü də səndən başqa heç kəs girməsin oraya. Soruşan olsa, deyərsən Mirkəlamın tanışlarıdır. Yarım saata ordayıq.

Telefonu qapayıb, cibinə qoydu və arxaya çevrilib, rus dilində:

- Əvvəlcə kafeyə gedəcəyik, - dedi. - Sizin gəlişinizi qeyd etməyə.

Natalya laqeyd halda çiynini çəkdi:

- Mənim üçün fərqi yoxdur, əsas odur ki, məni şefinizlə tanış edin.

Bayaqdan heç nə danışmayan Qantural birdən narahat halda astadan dilləndi:

- Bu bayaq bizi izləyən maşındır. Yenə arxamızca düşüb.

- Nə danışırsan? - Nihat arxaya boylandı.

- Hə, həmin maşındır!

- Bu nə pis oldu! - Nihat mızıldandı. - Nə istəyirlər bizdən?

Natalya da çevrilib arxaya baxdı. Sonra dönüb yerini rahatladı və istehza ilə dedi:

- Deyəsən, şefiniz sizə o qədər də etibar etmir... Amma narahat olmayın, o maşın, sadəcə olaraq, sizi qoruyur.

Qadının danışığından bir şey anlamadılar. Ancaq şəhərə girəndən sonra həmin «BMW» daha görünmədi.

- Hansı kafeyə gedəcəyik? - arxayınlaşmış Qantural soruşdu.

- Çəməndağa. - Nihat cavab verdi. - Tanıyırsan?



downloaded from KitabYurdu.org

İndi onlar Azərbaycan dilində danışırdılar.

- Tanıyıram. Amma içində olmamışam.

- Yaxşı yerdir. - Nihat dedi. - Bilirsən kimindir ora? Mirkəlamın... Miraslanovun oğlunun.

- Belə de! - Qantural səsini uzatdı. - Miraslanovun oğlu olsaydım, elə mənim də restoranım olardı.

- Darıxma, vaxt gələr, səninki də olar.

- İnanmıram! - Qantural əsəbi halda dilləndi. - Elə həmişə Mirkəlamkimilər yaxşı yaşayacaq. Mən ermənilərlə vuruşanda, güllə yarası alanda, onlar burda kef çəkirdilər.

- Yaxşı görək! - Nihat etiraz etdi. - Qohumum olduğuna görə demirəm, ancaq Mirkəlam da vuruşub. Hətta batalyon komandiri olub.

Qantural məğlub olmaq istəmirdi:

- Nə olsun? Elələri özlərinə gün ağlamağı bacarırlar. Mən, yəqin, ondan çox döyüşmüşəm, ondan çox erməni öldürmüşəm, amma çağırsalar yenə getməyə hazıram. O isə daha özünü tutub, yağlanıb. Bəlkə müharibə də çıxıb yadından.

Nihat daha mübahisə etmək istəmədi. Həm də qonağın yanında onun başa düşmədiyi dildə danışmağı hörmətsizlik hesab edirdi. Odur ki, söhbəti dəyişib, Natalyaya müraciət etdi:

- Bakıya gəlməkdə məqsədiniz nədir?

- Sizin qaçqınların vəziyyəti haqqında qəzetimiz üçün yazılar hazırlayacam. - qadın dedi.

- Yaxşı fikirdir. - Nihat kədərli halda başını tərpətdi.

Sonra daha danışmadılar. Bir qədərdən sonra maşın «Çəməndağ» kafesinin arxa qapısının



downloaded from KitabYurdu.org

önündə dayandı. Bura sakit bir küçə idi...

Nihat:

- Çatdıq! - deyib, birinci olaraq, maşından çıxdı və qonağın da çıxması üçün maşının arxa qapısını açdı.

Elə bu vaxt kafenin də qapısı açıldı. Gənc bir ofisiant Nihatı hörmətlə salamlayıb, onları içəri dəvət etdi.

İyirmi ikinci fəsil

Həmin günün axşamı hərbi kəşfiyyat idarəsinin məxfi şöbəsində qəribə bir canlanma hiss olunurdu. Birmərtəbəli binanın həyətinə qaranlıq çöksə də həyət qapısından tutmuş binanın ön qapısına qədər, adətən gündüzlər qarovulda durmuş silahlı əsgərlər hələ də öz yerlərində idilər. Binanın içində isə kabinetlərin qapıları tez-tez açılıb-örtülür, dəhlizdə narahat addımların səsi eşidilirdi. Əslində, bu canlanmanın qəribəliyi ondan ibarət idi ki, iş vaxtının qurtarmasına baxmayaraq, evə getməyən əməkdaşların özü də bu canlanmanın əsas səbəbini bilmirdi. Bilinən təkcə o idi ki, şöbənin rəisi polkovnik Baratov əməkdaşların evə getməməsi barədə göstəriş vermiş və özü də hələ kabinetində oturmuşdu.

Özünü həmişə Heydər Əliyevin yetirməsi hesab edən Baratov altmış yaşlarında, orta boylu, sağlam və qıvraq bədənli bir kişi idi. Uzun müddət Milli təhlükəsizlik orqanlarında işləmişdi. Millətini, xalqını ürəkdən sevən polkovnik saçlarını bu yolda ağartmış, bütün həyatını sevdiyi peşəsinə həsr etmişdi. İndiyədək dövlətin mənafeyinə xidmət edən onlarla ciddi əməliyyatın hazırlanmasında iştirak etmiş, dəfələrlə müxtəlif səviyyəli düşmən təxribatının qarşısını almışdı. Lakin polkovnik Baratovun xidmətləri bununla bitmirdi. O, şəxsən öz


downloaded from KitabYurdu.org

təşəbbüsü və əməyi ilə bir çox peşəkar kəşfiyyatçı hazırlamışdı ki, bunlardan biri də Leopard idi. Leopard şöbənin ən hazırlıqlı, fiziki cəhətdən ən
güclü, yüksək təfəkkürlü gizli agenti hesab olunurdu ki, bu məziyyətlərinə görə Baratov onunla fəxr edirdi.

Şöbənin rəisi bu gün axşamüstü səlahiyyətli və son dərəcə məxfi bir iclasda iştirak etmiş, orada eşitdiyi xəbərlərdən əməlli-başlı sarsılmışdı. İdarəyə qayıdan kimi əməkdaşların öz yerində qalmalarını əmr etməklə, məzuniyyətdə olan müavini mayor Cavadovu vaxtından əvvəl geriyə çağırmışdı.

Axır ki, o gəlib çıxdı. Kabinetə daxil olub, əvvəlcə hərbi qaydada salam verdi. Sonra isə rəisinə yaxınlaşıb onun irəli uzadılmış əlini sıxdı. Baratov ona oturmağa yer göstərib dərhal sözə başladı:

- Heç bilirsən, nə olub, Cavadov?

- Deyərsiniz, bilərəm, - qırx yaşlarında olan, sərt şimallı mayor cavab verdi.

Baratov qalxıb elektrik plitəsinin üstündə olan çaydanı götürdü. Yaman qəmgin və fikirli görkəmi var idi. Özünə və müavininə çay süzüb, yenidən stulunda əyləşdi. İsti çaydan bir qurtum içib, stəkanı yerinə qoydu. Müavininin təəccüb ifadə edən üzünə diqqətli bir nəzər yetirib təmkinlə dilləndi:

- Qulaq as! Rusiyada Samir Tağıyev adında bir iş adamı var. Bizim Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları Tağıyevin erməni kəşfiyyatı ilə əlaqəsindən şübhələndiyi üçün onu izləyirlərmiş. Moskvada... Keçən həftə də onu izləyib görüblər ki, aerokassaya girərək Bakıya uçmaq üçün bilet alıb. Bugünkü tarixə... Bu gün Heydər Əliyev



downloaded from KitabYurdu.org

adına hava limanında onu qarşılayıb həbs etmək üçün tədbirlər görülüb. Lakin o, təyyarədən düşən sərnişinlərin arasında olmayıb. Məlum olub ki, Samir Tağıyev Moskvada hava limanında qeydiyyatdan keçib yükünü baqaja verəndən bir az sonra qəflətən Bakıya uçmaq fikrindən vaz keçib və nə yollasa, gömrük postundan çıxıb geriyə qayıdıb. Burada belə düşünürlər ki, həmin vaxt kimsə ona xəbər çatdırıb. Bildirib ki, o ifşa olub və Bakıda təyyarədən düşən kimi tutulacaq...

Polkovnik sözünə ara verib, çayını içməyə başladı. Mayor Cavadov da çayından bir neçə qurtum içib sual verdi:

- Yəqin ki, onun izlənməsindən çox az adam xəbərdar imiş?

- Şübhəsiz! - şöbə rəisi başını tərpətdi.

- İndi siz düşünürsünüz ki, bizimkilərin içində onların adamı var və Tağıyevi o xəbərdar edib? Yəqin ki, buna görə narahatsınız?

- Bu da var... - rəis ağır-ağır dilləndi, - bu özü heç də kiçik məsələ deyil. Ancaq əsas məsələ başqadır... Samirin baqajdakı yükü MTN əməkdaşları tərəfindən götürülüb. Ehtiyatla və diqqətlə yoxlanılandan sonra o biri yüklərlə birlikdə sərnişinlərin qarşısına çıxarılıb. Gözləyiblər ki, bəlkə onu götürən olacaq. Amma sarı rəngli bu idmançı çantasına heç kəs əl uzatmayıb... Nə isə... Keçək əsas məsələyə. Çantanın içindən erməni təbliğatını əks etdirən dini və siyasi kitablar, bəzi gizli sənədlər tapılıb. Bu sənədlərdən belə məlum olur ki, burada böyük bir qrup düşmən kəşfiyyatına xidmət edir...

Cavadov heyrətlənib stulunu bir qədər də yaxına çəkdi:


downloaded from KitabYurdu.org

- Sizə məlumdurmu onlar, cənab polkovnik?

- Hə! - Baratov dedi. - Bu son dərəcə gizli saxlanılmalı bir sirdir. Amma sən bilməlisən bunu. Dörd polkovnikimizin də adı var həmin siyahıda. Bunlar tanınmış, inanılmış hesab etdiyimiz hərbi hissə komandirləridir.

Baratov dörd hərbçinin adı yazılmış vərəqi müavininə uzatdı. Cavadov vərəqi alıb oxuyarkən, sanki dəhşətə gəldi:

- Polkovnik Cəbrayılzadə?!

- Bəli! - Baratov başını mənalı tərzdə yellədi. Ən çox inandığımız adamlardan biri! Sənəddə bir neçə vəzifəli şəxsin, iqtidarda və müxalifətdə olan siyasətçinin, iş adamının adı var. Siyahı ilə ötəri tanış etdilər məni, nə gözlərimə, nə qulaqlarıma inanmaq istəmədim. Mənə, əsasən hərbçilərin
siyahısını verdilər. Amma qrupun ən əsas iki fiqurunu deyəcəm sənə: Mazanov və Miraslanov!

- Nə danışırsınız? - Cavadov özündən asılı olmayaraq, ayağa qalxdı. - Əli Mazanov?!

Rəis əli ilə ona oturmaq işarəsi verdi:

- Bəli, əzizim, bəli! Bank sahibi. Gələcək üçün ən ümidverən iqtisadçımız və iş adamımız. Bir çoxları onu gələcəkdə yüksək hökumət postlarında görmək istəyir, hətta! Fikir verirsənmi, polkovnik Cəbrayılzadə onun qohumudur. Miraslanov isə bağ qonşusudur. Oturub-durduğu adamlardandır.

- Düzdür! - Cavadov təsdiq etdi.

- Amma... - Baratov bunu deyib, sanki yenidən fikrə getdi və müavininin gözlərini onun ağzına dikdiyini görüb,



downloaded from KitabYurdu.org

davam etdi. - Mən inana bilmirəm bu boyda xəyanətə! İnana bilmirəm! Bu ola bilməz!

Bugünkü yığıncaqda da dedim öz fikrimi. Dedim ki, bu, sadəcə, ermənilərin bizə qarşı növbəti təxribatıdır. Onların xislətinə tamamilə uyğun işdir bu. Fikrimi sübut etməyə çalışıb, xahiş etdim ki, bu qədər qiymətli adamı şübhə hədəfinə çevirib ləkələməsinlər. Dedim ki, Samir Tağıyev qeydiyyatdan keçəndən sonra, ona verilən siqnal əsasında uçmaqdan imtina edibsə, o, hökmən yükünü baqajdan geri almağa çalışmalıydı. Çünki bilməliydi ki, onun yükü Bakıda ciddi yoxlanılacaq. Ancaq Cavadov, mənim özümü də bir şey düşündürür ki, əgər bu Samir Tağıyev doğrudan da azərbaycanlı iş adamıdırsa, bilərəkdən, təxribat məqsədilə o yükü Bakıya göndərəndə bilməliydi ki, nəyin bahasına olursa olsun, Moskvada bizim tərəfimizdən yaxalanacaq. O, niyə nəticəsi şübhəli

olan bir təxribatdan, şantajdan ötrü öz karyerasını, hətta öz həyatını təhlükəyə atmalıdır?.. Bir tərəfdən də düşünürəm ki, burada nəyisə gizlədirlər məndən. İnan ki, bu məni daha çox əsəbiləşdirir. Tağıyevi qarşılayanda da mənə heç nə deməmişdilər bu barədə. Belə olmaz! Mən şəxsən Heydər Əliyevlə işləmişəm. O kişi mənə etibar edib həmişə! İndi bunlar nə iş görmək istəyirlər, nə plan qururlar mənsiz, hələ ki, baş açmıram. İndi «Sarı çanta» əməliyyatı hazırlanır. Məni də, səni də əməliyyat qrupuna saldılar. Gizli sənəddə adıçəkilən həmin adamların hamısı nəzarət altına alınacaq. Telefonları dinləniləcək. Mazanov ABŞ-dadır, oradan qayıdan kimi hamısı həbs olunacaq. Ancaq məni maraqlandıran əsas suala - «kimdir bu Samir Tağıyev» sualına cavab vermək istəmirlər.



downloaded from KitabYurdu.org

- Deməli, siz də artıq bu xəyanətkar qrupun varlığına inanırsınız? - mayor soruşdu.

- Qismən! - Baratov cavab verdi. - Onlar işin içində olduqları üçün mənim bilmədiyim bəzi işləri bilirlər. Yenə deyirəm, nəyisə məndən gizlədirlər, amma bəzi şeyləri dedilər mənə. Dedilər ki, MTN zabitlərindən biri bu gün hava limanına daxil olan adamları yoxlayarkən birindən şübhələnib və sonra onun kimliyini yoxlayıb. Ağayev Nihat adlı bu adam Əli Mazanovun bankında filial müdiri imiş...

- Demək, o Samir Tağıyevi qarşılamağa gedibmiş oraya?

- Belə çıxır...

- Xainlər! - Cavadov açıq-aşkar hiddətləndi. - Azərbaycanın çörəyi, suyu gözünüzdən gəlsin sizin!

Baratov bir qədər susub, nəhayət, dilləndi:

- Hə, həmin çantadan bir sxem də tapılıb. Məktəb zirzəmisinin çertyojuna oxşayır. Özü də 25- 30 il əvvəl tikilmiş birtipli məktəblərin. Çertyojda sütunların birinin başına nöqtə qoyulub və dairəyə alınıb bu nöqtə. Belə qərara gəldik ki, hansısa məktəbin zirzəmisinə partlayıcı qurğu qoyulacaq.

Özü də, yəqin ki, sabah qoyulacaqmış bu qurğu. Bu mənim öz fikrimdir.

- Niyə məhz sabah? - Cavadov maraqla soruşdu.

- Çünki, sabah aprelin 24-dür. Qondarma erməni soyqırımı günü...

- Aha, doğrudur! - mayor heyrətlə rəisinə baxdı. - Biz təcili tədbir görməliyik.

- Hər ehtimala qarşı, hə! - polkovnik dedi. - Düzdür,



downloaded from KitabYurdu.org

çanta ələ keçib, plan aşkar edilib, ancaq
MTN yenə də tədbir görməyə çalışacaq.

Cavadov bir an fikrə gedib, birdən soruşdu:

- Bəs o sənəddə adları olan adamlara çatmayacaqmı ki, ifşa olunublar? Onlar bilməyəcəklərmi ki, çanta ələ keçib?

Baratov cavab verdi:

- Bizimkilər bunu düşünmüşdü. Tağıyevin gəlmədiyini biləndə və baqajdakı yükü tapanda onu çox ehtiyatla açıblar. Sənədlərin surətini çıxarıb, hər şeyi öz yerinə qoymaqla, axırda çantanı geriyə, sahibinin Moskva ünvanına göndəriblər. Ancaq mən təklif etdim ki, Samir Tağıyev təcili, Moskvada həbs edilməlidir. Ona görə ki, lazımi xəbəri Bakıya çatdıra bilməsin. Bir də təklif etdim ki, qrup üzvlərinin telefonlarına xaricdən gələn zənglərin qarşısı alınsın.

-Təklifinizi qəbul etdilərmi?

- Hə! Tağıyevi Moskvada həbs etmək üçün bir qrup adam təcili oraya uçdu.

- İndi biz nə etməliyik? - mayor soruşdu.

- Elə indicə gizli müşavirə keçirməliyik.

Baratov bunu deyib, kabinetə çağırılmalı olan əməkdaşların adını müavininə bildirdi. Az keçmiş əməkdaşlar kabinetə daxil olub uzun stolun arxasında oturdular. Müşavirə başlandı və Baratov vəziyyəti kabinetdəkilərə tam izah etmədən öz göstərişlərini verdi.

Günü sabahdan şübhəli siyahıda olan hərbçilərin hər bir addımı izlənilməli, hər bir danışığı dinlənilməli idi. Bununla əlaqədar xüsusi plan tərtib edildiyi üçün müşavirə gecə yarısınadək uzandı.

İyirmi üçüncü fəsil


downloaded from KitabYurdu.org

Tənəffüs bitdi. Məktəb zənginin cingiltili səsi ikinci dərsin başlandığını xəbər verdi. Lakin bu səs dəhlizlərdə qaçışan, qışqıran şagirdlərin az bir qisminə təsir edə bildi. Onların çoxu yalnız direktor müavini Arzu müəllimənin təhrikilə ikibir-üçbir söhbət edə-edə müəllimlər otağından çıxan müəllimləri görəndən sonra sinif otaqlarına girdilər. Dəhlizlərdə sakitlik yarandı.

Bu saatda Əsmər müəllimənin dərsi yox idi. Zəngdən bir az sonra rəhbərlik etdiyi beşinci sinfin dərs otağına baş çəkmək üçün müəllimlər otağından çıxdı. Dəhlizdə gedərkən sinfinin ən nadinc şagirdi olan Fətəlinin özündən bir-iki sinif yuxarı oxuyan üç
şagirdlə çıxışa doğru getdiyini gördü. Əvvəlcə istədi ki, Fətəlini səsləyib, dərsə nə üçün girmədiyini soruşsun. Ancaq tez də fikrini dəyişdi və şübhələndiyi üçün onların arxasınca düşdü.

Onun şübhələnməyə əsası var idi. Bir ay əvvəl məktəbin akt zalının səhnəsində divardan asılmış dövlət bayrağı yoxa çıxmışdı. Nə qədər axtarmışdılarsa da, onun hara yox olduğunu öyrənə bilməmişdilər. İndi Fətəlinin yanında dəhlizlə gedən həmin bu oğlanlardan biri keçən həftənin beşinci günü direktorun yanına girib, bayrağın Fətəli və onun bir neçə yoldaşı tərəfindən oğurlandığını xəbər vermişdi. O bildirmişdi ki, Fətəli həmin bayrağı məktəbin zirzəmisində gizlədib. Adı Seyran olan bu yeddinci sinif şagirdi bayrağın zirzəminin harasında gizlədildiyini dəqiq bilmirmiş. Direktor da, müavinləri
də bu xəbərdən çox təəccüblənmişdilər. Zirzəmiyə uzun illər idi ki, məktəbin təsərrüfat müdirindən başqa heç kəs girmirdi. Bir dəfə də Mülki Müdafiə Qərargahından gəlib


downloaded from KitabYurdu.org

baxmış, zirzəmidəki artıq tullantıları bir qədər təmizlədərək, oraya işıq çəkdirmişdilər. Ancaq uzun, dolanbac yolları olan alçaq tavanlı zirzəmi yenə də iri siçovulların ixtiyarında idi. Hətta bəziləri orada tülkü yaşadığını da deyirdilər.

Seyranın verdiyi xəbərdən sonra, direktorun göstərişi ilə təsərrüfat müdiri, süpürgəçilər zirzəmini axtarmışdılar. İdman müəllimləri də bu işdə onlara kömək etmişdi. Lakin bayraq tapılmamışdı.

Məktəbin direktoru Məmməd müəllim Fətəlini nə qədər dilə tutmuşdu, nə qədər şilləmişdisə də
bunların heç bir xeyri olmamışdı. Fətəli bayrağı oğurladığını qətiyyən boynuna almaq istəməmişdi.

Məmməd müəllim Fətəlinin Balta Xanəlinin oğlu olduğunu bilirdi. Bəlkə də buna görə, bir o qədər dərinə getmək istəməmiş, uşağı kabinetdən qovmuşdu. O çıxandan sonra isə, arxasınca xeyli asıb-kəsmişdi:

- Quldurun oğlu elə quldur olarmış. Bunun atası da, babası da həbsdə olub. Xalq düşmənidi köpək uşağı hamısı!

Pilləkənlə birinci mərtəbəyə enən uşaqların birdən-birə yoxa çıxdıqlarını görən Əsmər müəllimə onların zirzəmiyə düşdüyünü anladı. Foyeyə keçib ətrafa boylandı. Burada məktəbin gözətçisindən başqa heç kəsi görməyib qorxa-qorxa da olsa pilləkənin altına girdi. Zirzəmiyə yol buradan gedirdi.

Giriş hissəsinə azacıq işıq düşürdüsə də, irəli getdikcə qaranlıq qatılaşır, göz-gözü görmürdü. Ayağı nəyəsə ilişən Əsmər müəllimə səndirləyib dayandı. Daha bundan oyana getməyə cəsarəti çatmadı. Yerində dayanıb qorxunc qəbir



downloaded from KitabYurdu.org

sakitliyi içində hərdənbir eşidilən anlaşılmaz səsləri dinləməyə başladı. Zirzəmi çox soyuq idi və kəskin kif qoxusu ətrafı bürümüşdü.

Birdən o biri başda elektrik lampası yandı. Lampanın işığı zirzəminin yalnız kiçik bir hissəsini işıqlandırdı. Qalan hissələrin ala-toranlığını isə qalın sütunların çalın-çarpaz kölgələri bürüdü. Əsmər müəllimə, nəyəsə ilişib yıxılmamaq üçün ehtiyatla qabağa gedib işığa yaxınlaşdı və sütunların birinin arxasında gizləndi.

Bir qədər beləcə gözləyəndən sonra səs eşidib, işığa tərəf boylandı və gördüyü mənzərədən heyrətə gəldi. Seyran özündən iki yaş kiçik Fətəlinin qarşısında dizi üstə yerə çökmüşdü. Əllərində taxta parçasına oxşar bir şey tutmuş oğlanlardan biri onun sağında, biri isə solunda ayaq üstə dayanmışdılar. Əsmər müəllimə indi Fətəlinin səsini lap aydın eşidirdi:

- İndi de görək, bizi niyə satmısan? Daha Məmməd müəllim də köməyinə gələ bilməyəcək sənin!

Sonra Seyranın səsi gəldi:

- Bilməmişəm, Fətəli, qələt eləmişəm...

- Bununla yaxanı qurtara bilməyəcəksən, köpək oğlu, deynən atamla qələt eləmişəm! - əllərini belinə qoymuş Fətəli hökmlə dilləndi.

- Necə deyim axı, Fətəli?... - Seyran zarıdı.

- Vurun it oğlunu. - Fətəli hazır dayanmış oğlanlara əmr etdi.

Oğlanlar Seyranı taxta parçası ilə döyməyə başladılar. Onun iniltisini, vuranların söyüşünü eşidən Əsmər müəllimə yerindəcə quruyub qalmışdı. Nə edəcəyini bilmirdi. Sanki, gizləndiyi yerdən çıxıb özünü göstərməyə



downloaded from KitabYurdu.org

utanırdı.

- Atamla qələt eləmişəm... - nəhayət, Seyran ondan tələb olunan sözü dedi.

Ancaq Fətəli bununla kifayətlənmək fikrində deyildi:

- Deynən, anamla qələt eləmişəm!
- Deyə bilmirəm, axı?! - Seyran ağladı.
- Deynən, satqın oğlu satqın!
- Necə deyim axı?..
- Vurun! - Fətəli hökmlə «əlaltılarına» çığırdı. Yenə də Seyranı döyməyə başladılar və o
dözməyib təslim oldu:
- Anamla qələt eləmişəm...

Fətəli əlinin işarəsi ilə oğlanları dayandırdı:

- Deynən ki, bacımı Fətəli...

Əsmər müəllimə daha dözə bilməyib dirəyin arxasından çıxdı. Özünü Fətəliyə çatdırıb onu şilləməyə başladı:

- Əclafın biri əclaf! Neyləyirsiz siz?!

Daha deməyə söz, axtarmağa bəhanə
qalmamışdı. Əməlli-başlı ilişdiyini başa düşən Fətəli dinməzcə sinif rəhbərinin qabağına düşdü. Əsmər müəllimə onların dördünü də direktorun kabinetinə gətirdi və gördüklərini, eşitdiklərini Məmməd müəllimə danışdı.

Məktəbin direktoru eşitdiklərindən son dərəcə heyrətə gəlmişdi. İnanmağı gəlmirdi Əsmər müəllimənin hirsindən titrəyə-titrəyə dediklərinə... Handan-hana özünü ələ alıb:

- Yox! - dedi. - Mən bunu bir gün də məktəbdə saxlaya bilmərəm! Anasına deyin, götürüb aparsın bunu özünün işlədiyi məktəbə!

Ayağa qalxıb birbaş Fətəlinin üstünə getdi:



downloaded from KitabYurdu.org

- Ə, qudurmusan sən? Özündən iki yaş böyük uşaqlarla nə işin var?

- O məni niyə satıb? - Fətəli acıqlı səslə dilləndi.

- Kəs səsini, küçük!

Direktorun vurduğu şillənin səsindən Əsmər müəllimə də diksindi. Üzü od tutub yanan Fətəli
büdrəsə də, yıxılmadı. Başını qaldırıb direktorun üzünə baxdı və ucadan:

- Məni niyə vurursan? - deyə çığırdı.

İkinci şillə əvvəlkindən də bərk tutdu üzünü.

Əsmər müəllimə dözməyib Fətəlinin çiynindən yapışdı və onu özünə tərəf çəkdi:

- Xahiş edirəm, Məmməd müəllim, vurmayın! - dedi. - Bilməyib. Bir də belə şey eləməz...

Fətəli uzun, qara kirpiklərini qırpmadan direktorun üzünə baxırdı. Birdən hər gözündən bir damla göz yaşı axıb yanağıyla yuvarlanmağa başladı. Deyəsən, özünün xəbəri yox idi bundan. Göz yaşlarını silməyə də səy göstərmirdi. Yenə də gözlərini qırpmadan direktorun üzünə baxırdı. Bu qarayanız uşağa qəşəng demək olardı. Çox ifadəli, qəribə baxışları var idi.

Məmməd müəllim onun bu mənalı baxışlarına dözə bilməyib əlini yellədi:

- Çıxın! Çıxın, rədd olun! Valideynlərinizlə danışacam sizin!

Fətəli nümayişkaranə hərəkətlə kabinetdən çıxdı. O biri uşaqlar da başlarını aşağı dikib onun ardınca çıxdılar. Əsmər müəllimə dayanıb direktorun nə deyəcəyini gözlədi.

Məmməd müəllim isə sanki öz-özüylə danışırdı:



downloaded from KitabYurdu.org

- Heç cür anlaya bilmirəm, bu yaşda uşaqda bu hökmranlıq haradandır? Bu o vaxtkı xanların, bəylərin törəmələrindəndi, lap yəqin! Gör ha, beşinci sinifdə oxuyan uşaq yeddincidə oxuyanı qabağında döydürür. Əmrini yerinə yetirənlər də özündən bir yaş, iki yaş böyük! Qurd balasıdı, qurd!

... Yarım saat sonra katibə qapını açıb kabinetdə tək oturmuş direktora:

- Yanınıza gəlmək istəyirlər, - dedi.

- Valideyndir? - Məmməd müəllim cəld soruşdu.

-Yox, deyəsən...

-Yaxşı, de gəlsinlər!

Dörd nəfər mülki geyimli kişi içəri daxil oldu. Onlardan biri direktorla salamlaşıb, cibindən bir vəsiqə çıxartdı:

- Biz Milli Təhlükəsizlik Nazirliyinin rayon şöbəsindənik.

Direktor başını razılıqla tərpətdi:

- Çox gözəl! Xoş gəlmisiniz!

- Biz sizin zirzəminizə baxış keçirməliyik. - MTN-in əməkdaşı gəlişlərinin məqsədini qısa bildirdi.

- Xahiş edirik, bizi oraya ötürün. Bir də bizim kim olduğumuzu heç kəs bilməsin. Deyərsiniz ki, mülki müdafiə qərargahındanıq.

- Yaxşı, ancaq bilmək olarmı nə məsələdir?

- Təəssüf ki, yox! - zabit cavab verdi.

- Necə məsləhətdir, elə də olsun!

Məmməd müəllim ayağa qalxıb, qabağa düşdü və onları zirzəminin qapısına qədər gətirdi:

- Təsərrüfat müdirini çağırımmını? İşıqları yandırmaq üçün.



downloaded from KitabYurdu.org

- Narahat olmayın, siz kabinetinizə qayıda bilərsiniz, - gələnlərin başçısı dedi və dördü də zirzəmiyə daxil oldu.

İşıqları yandırdılar. Başçı cibindən bir vərəq çıxarıb ona baxdı. Bu Samir Tağıyevin çantasından çıxmış sxemin surəti idi. Orada, çox güman ki, belə
bir zirzəmi təsvir olunmuşdu. Sütunları bildirən kvadratların birində nöqtə qoyulmuş və həmin nöqtə dairəyə alınmışdı. Sxemə əsasən həmin dirəyi asanlıqla tapdılar. Dirəyə diqqətlə baxanda onun yuxarısındakı oyuq diqqətlərini cəlb etdi. Bu, bina tikilərkən dirəyə betonun yarımçıq tökülməsindən yaranmış bir oyuq idi. Zabit əlini uzadıb oyuğun içinə saldı...

Bir azdan işlərini görüb direktorun kabinetinə qayıdan MTN əməkdaşları Məmməd müəllimin qarşısına bir qəzet bükülüsü qoydular. Direktorun onlara təəccüblə baxdığını görən başçı:

- Maraqlı şagirdləriniz var, - dedi və bir an ara verib, gülümsədi. - Ancaq elə bilməyin ki, biz buna görə gəlmişdik.

- Deməli, gəlişinizin məqsədini mənə bildirməyəcəksiniz? - direktor soruşdu.

- Yox, deyə bilmərik! - zabit başını buladı. - Ancaq nəzərinizə çatdırıram ki, məktəbiniz bir neçə gün nəzarət altında olacaq. Həyətdə və ya içəridə yad adamlar görəndə təəccüblənməyin!

-Yaxşı... - direktor başını ağır-ağır tərpətdi.

Sonra onlar sağollaşıb getdilər. Qəzet bükülüsünü açan Məmməd müəllim orada bir şagird dəftəri, yeni pulla iyirmi manatdan çox pul və akt zalından oğurlanmış dövlət bayrağını görüb heyrətləndi. Bayrağı stolun kənarına


downloaded from KitabYurdu.org

qoyub, dəftəri açdı. Onun birinci səhifəsində yazı var idi. Direktor əyri-üyrü şagird xətti ilə yazılmış yazını oxumağa başladı:

«Biz yay tətili başlayan kimi, heç kimə bildirmədən Qarabağa gedəcəyik. Gecəykən Azərbaycanın bayrağını orada bir dağın başına sancacağıq. Əgər ermənilər bizi görüb öldürsələr, biz şəhid olacağıq. Qarabağa getmək üçün bizə qoşulanlar hər gün evdən bufet üçün ona verilən pulu burada toplamalıdır. Hamı bu sirri açmayacağına and içməlidir. Biz and içirik! Qarabağ bizimdir!»

Sonra adlar və imzalar gəlirdi. Fətəli, Elmar, Tofiq, Fəqan...

Məmməd müəllim dəftəri qapayıb stolun siyirməsinə qoydu və başını əlləri arasına alaraq dərin fikrə getdi.

İyirmi dördüncü fəsil

Bu gün aprelin 30-u idi... Bazar günü...

Şadlıq sarayı hələ saat altıdan dolmuşdusa da, əslində toy mərasimi indicə başlamışdı. Gözəl gəlinlik paltarında olan Xədicə və artıq əri hesab edilən Cabir gəlib öz başdakı yerlərinə əyləşəndən sonra. Bəylə gəlinin yaxın qohumları, dostları onları böyük sevinclə qarşılamış, salonun ortasında saxlayaraq, qarşılarında xeyli rəqs edəndən sonra öz yerlərinə ötürmüşdülər. Bundan sonra məclis bir qədər sakitləşmiş, qonaqları salamlamaq və bəylə gəlinə xeyir-dua vermək üçün söz Cabirin atasına verilmişdi...

Xədicə oturduğu yerdən boylanıb salona göz gəzdirdi. Toya gələnlərdən, onu daha çox öz iş yoldaşları maraqlandırırdı. Onları tez tapdı. Lap yaxında əyləşiblərmiş. Özü də bir stolda. Nihat baş tərəfdə oturmuşdu. Solunda Məcid, sonra Sənihənin əri Qantural,


downloaded from KitabYurdu.org

onun da yanında Sənihə özü oturmuşdu. Nihatın sağ tərəfində əyləşən ər-arvadı Xədicə tanımırdı. Yəqin, atasının tanışlarından idilər. Hə, deməli, Nihat yenə də arvadını gətirməmişdi. Neçə il bir yerdə işləmələrinə baxmayaraq, Xədicə müdirinin arvadını görə bilməmişdi. Onun fikrincə, bu qadın ya çox çirkin idi ki, əri onu üzə çıxartmaq istəmirdi, ya da çox gözəl idi ki, qorxurdu gözə aparalar.

Məcid heç, o subay idi. Qanturalla nə barədəsə söhbət edə-edə araqdan vururdu. Nihat kənarda
söhbətdən qaldığı üçün qarşısındakı təbii şirədən asta-asta içir, qonşu stollara göz gəzdirirdi. Xədicə düşündü ki, indiki Bakı toylarında üç nəfərin eyni zamanda söhbətə qoşulmağı mümkün olan şey deyil. Musiqinin səsini o qədər qaldırırdılar ki, yalnız yanaşı oturmuş iki nəfər bir-biri ilə söhbət edə bilərdi. Onda da gərək, danışan ağzını o birinin qulağına tutsun. Bu baxımdan, Məcid də tez-tez ağzını Qanturalın qulağına yaxınlaşdırmalı olurdu.

Yazıq Sənihə! Deyəsən, artıq darıxmağa başlamışdı. Solunda əyləşən yad qadın idi. Həm də həmin qadın tez-tez başını ərinin çiyninə söykəyib, onunla söhbət edirdi. Qanturalın da başı Məcidə qarışmışdı. Xədicə bir istədi ki, Sənihəni öz yanına çağırtdırsın. Amma yanında elə bir yer yox idi. Həm də toya gələnlər ayrı-ayrı qruplarla gəlib arxalarında
dayanır, xatirə şəkli çəkdirirdilər. Xədicə yenə Nihata baxdı. O da nəyə görəsə narahat görünürdü. Qanturalgilin söhbətinə də qoşulub eləmirdi. Birdən yadına düşdü ki, Qantural həftənin birinci günü onların iş yerinə gəlmişdi. Özü də qanı yaman qara idi onda. Birbaş Nihatın



downloaded from KitabYurdu.org

kabinetinə keçib, yarım saata qədər onunla söhbət etdi. Çıxanda da Xədicə ilə çox soyuq sağollaşıb getdi. Xədicə Sənihədən nə baş verdiyini soruşanda, «bilmirəm nə olub!» dedi.

Məclis iştirakçıları dəstə-dəstə qalxıb, geniş meydançada rəqs edirdilər. Bir dəfə də Sənihə durub, Qanturalı ayağa qaldırdı. Sonra Qantural Məcidi, Məcid də Nihatı rəqsə dəvət etdi. Nihat nəsə bir bəhanə gətirib, ayağa qalxmadı. Qantural, Sənihə və Məcid bəylə gəlinin qarşısında rəqs etməyə başladılar.

Xədicə ürəyinin dərinliyində Nihatdan incidi. Çünki onun xətrini həmişə əziz tutmuşdu özlüyündə. İşçilər hərdən-birdən dalınca qeybət eləyəndə, həmişə müdafiə etmişdi onu. Nihatın, iş yerində neçə dəfə ona mənalı göz yetirdiyini, kabinetə çağırıb məhrəmanə söhbət etdiyini xatırladı. Bir dəfə təklikdə olanda hər ikisi yolundan çıxdı, amma daha lap hədlərini aşmadılar... Xədicə fikirləşdi ki, bəlkə də Nihat onu sevirmiş?.. Bəlkə elə buna görə ürəyi açılmır indi?... Yoxsa başqa nə ola bilərdi ki?...

Rəqs bitdi. Sənihə yerinə keçməzdən əvvəl gəlib Xədicəni elə oturduğu yerdəcə qucaqladı. Üzündən öpüb:

- Xoşbəxt olasan, ceyran! - dedi.

- Çox çağ ol, Sena, çox sağ ol! - sevincdən gözləri yaşaran Xədicə də onu qucaqladı. -
Deyəsən, darıxırsan, hə?

- Düzdür, əslində, təkəm orada. Ancaq niyə darıxıram ki? Ən xoşbəxt günümdü bu gün. Sənin toyundu. Xoşbəxt olasan!

- Sağ ol, gözümün işığı, sağ ol! - Xədicə rəfiqəsinə təşəkkür etdi.


downloaded from KitabYurdu.org

- Kaş, sənin yerində olaydım indi. - Sənihə bu sözləri gülə-gülə onun qulağına pıçıldadı.

- Yoxsa nişanlıma gözün düşüb? - Xədicə bic- bic güldü. - Durum, gəl otur yerimdə!

- Yox, neynirəm sənin nişanlını? Özünə qismət olsun! - Sənihənin gülüşündə çətin duyulan bir kədər var idi. - Deyirəm, yəni Qanturalla toyum indi olaydı...

Xədicənin yadına düşdü ki, Sənihənin, heç əslində, toyu-zadı olmayıb. Əmisi oğlu Qanturala
qoşulub qaçıb. Sonra kəbin kəsdiriblər, yüngül bir məclis təşkil ediblər, vəssalam! Amma yenə söhbəti zarafata salmaq istədi:

- Elə hesab et ki, sizin də toyunuzdur bu gün. Toy qurtaranda Qanturalı da götür, get evə... Nə fərqi var?

Doyunca gülüşdülər. Sonra Sənihə rəfiqəsindən ayrılıb öz yerinə getdi. Cabir əyilib Xədicənin qulağına dedi:

- Fikir verirəm, sənin iş yoldaşların, xüsusilə də müdirin çox passiv iştirak edirlər toyda.

- Mənim iş yoldaşlarım mədəni adamlardı, səninkilər kimi görməmiş deyillər. - Xədicə cavab verib nazla gülümsədi.

Növbəti rəqs bitəndən sonra məclisin masabəyisi mikrofonu yenidən əlinə götürdü:

- Bu gözəl məclisimizdə gözəl gəlinimiz Xədicə xanımın iş yoldaşları da iştirak edir. - Əlindəki adlar yazılmış vərəqə baxdı. - Nihat bəy, Sənihə xanım, Məcid bəy... Mən istəyirəm, bu gözəl kollektivin adından söz demək üçün hörmətli Nihat müəllimi buraya dəvət edim.

Xədicə baxışlarını cəld Nihatgilin stoluna tərəf döndərdi. Çağırış, deyəsən, Nihatın o qədər də ürəyindən



downloaded from KitabYurdu.org

olmamışdı. Ayağa bir az ləng qalxıb, əlini saçlarına çəkdi, sonra qalstukunu düzəltdi. Masabəyiyə yaxınlaşıb mikrofonu ondan aldı və danışmağa başladı:

- Xədicə xanım bizim kiçik kollektivimizin ən sevimli üzvlərindəndir. Bu gün bizim işçilərimiz üçün və şəxsən mənim üçün çox fərəhli gündür. İş yoldaşımız Xədicə xanımın toy mərasimidir. - Bir
qədər duruxub söz axtardı və yenidən danışmağa başladı: - Bütün işçilərimiz adından ona xoşbəxtlik arzu edirəm. Arzu edirəm ki, onun gələcəkdə uşaqlarının toyunda iştirak edək...

Mikrofonu verib, yerinə keçmək istəyəndə masabəyi onu saxladı:

- Demək, sözünüzü deyib qaçırsınız? Heç elə şey yoxdur! İş yoldaşlarınızla birlikdə rəqs edəcəksiniz. Xahiş edirəm, öz ürəyiniz istəyən musiqini sifariş verin!

Məcidlə Sənihə qalxıb öz müdirlərinə yaxınlaşdılar. Qantural durmaq istəmədi.

- Mən sizin iş yoldaşınız deyiləm ki?! - dedi.

Nihat həvəssiz oynayırdı. Üçlükdə bir az rəqs
edəndən sonra ortalıqdan çıxıb öz yerinə keçdi. Sənihə yaxınlaşıb bəylə gəlini rəqsə dəvət etdi.

Onlar etiraz etmədilər. Ayağa qalxıb meydançaya düşdülər. Başqaları da onlara qoşuldu. Yorulana qədər oynayandan sonra hər kəs yenidən öz yerinə qayıtdı. Nihat stolun arxasında oturub, Qanturala baxmadan, özünü yeməklə məşğul olan kimi göstərirdi.

Xədicənin gözü Nihatda idi. Onun narahatlığının, Qanturala qarşı soyuq münasibətinin səbəbini anlamağa çalışırdı. Ancaq bir şey alınmırdı. Həftənin birinci günü



downloaded from KitabYurdu.org

Qantural Nihatla söhbət edib kabinetdən çıxarkən, otağa girmək istəyən Xədicə müdirin Qanturala dediyi axırıncı sözləri eşitmişdi:

- Vallah, Qantural, mən sənin xətrini istədiyimə görə deyirəm. Özünə də problem yaradarsan, mənə də. Cır at onları, getsin!

Görəsən, nəyi cırıb atmalıydı Qantural?!

Deyəsən, Nihatın cib telefonuna zəng gəldi. Nihat telefonu çıxarıb qulağına aparsa da, səs-küydə danışa bilməyib, ayağa qalxdı və tələsik addımlarla zaldan çıxdı. Az keçmiş qayıdıb, yenidən öz yerində oturdu.

Xədicə meydançada rəqs edənlərə tamaşa etsə də, ona yaxınlaşanların təbrikinə cavab versə də, bir gözü yenə Nihatda idi. Telefonuna zəng gələndən on dəqiqə sonra Nihat ayağa qalxıb yanındakılarla sağollaşdı və zaldan çıxdı. Xədicə cəld qolundakı qızıl saata baxdı: doqquza iyirmi dəqiqə qalmışdı. Bu dəfə müdirindən əməlli-başlı incidi. «Yaxşı, Nihat müəllim, nə olar... Eybi yoxdur!..»

Toy mərasimi öz axarı ilə davam edirdi. İndi ortada Xədicənin ata-anası öz yaxın qohumları ilə oynayırdılar. Cabir Xədicəyə tərəf əyildi:

- Maşallah, ananın gözəl oynamağı var.

-Hə...

- Nə olub, niyə söhbət eləmirsən?

- Söhbət etməyə vaxtımız çox olacaq. - Xədicə cavab verdi. - Ancaq bu gördüklərimi bir də görməyəcəm. Ona görə də baxıram.

- Lentə çəkilir axı gördüklərin.

- Nə olsun? Mənim üçün maraqlı olan hər şey oraya düşmür ki?



downloaded from KitabYurdu.org

Cabir onunla razılaşdı:

- Düz deyirsən. Bəzi səhnələr, bəzi anlar düşür, bəziləri heç düşmür. Sonra yadda ancaq lentə düşən həmin səhnələr qalır. O birilər isə elə bil heç olmayıbmış.

- Ancaq, - Xədicə ağzını Cabirin qulağına tutdu. - Elə anlar var ki, adamın yaddaşında
videolentindən də yaxşı qalır. Bir də hər şeyi lentə çəkmirlər ki, axıradək.

Cabir güldü. Yenə oynayanlara tamaşa etməyə başladılar.

Bir azdan Sənihə ayağa qalxıb Xədicənin yanına gəldi. Onu qucaqlayıb:

- Xədicə, bacım, mən istəyirəm gedim daha! - dedi.

- Niyə? - Xədicə təəccüblənib saatına baxdı. - Saat ondur hələ. Nə olub ki?

- Heç nə olmayıb, amma nəsə narahat hiss edirəm özümü.

- Ay qız, nə narahatbazlıqdır, nə olub axı? Toy hələ bundan sonra qızışacaq.

- Yox, Xədicə, qoy gedim. Xoşbəxt ol!.. İşə nə vaxt çıxacaqsan?

- Üç gündən sonra. - Xədicə cavab verdi. - Qantural da gedir?

- Yox, - Sənihə ərinə tərəf baxdı. - Onun başı Məcidlə söhbətə qarışıb. Yaxşı tapışıblar. O içən, bu içən...

- Bəs nəylə gedəcəksən?

- Bizim qonşu binadan adamlar var burda. Qanturalın dostu arvadıyla gəlib. Onun maşınıyla gedəcəm.

Xədicə salonun qapısına tərəf baxdı. Bir kişi və bir qadın qapının ağzında dayanıb onlara baxırdılar.


downloaded from KitabYurdu.org

- Darıxdın, hə? - Sənihədən soruşdu.

- Yox, bacı canı, ancaq bəsdi də, gedim evə, sabah işə gedəcəm.

- Yaxşı, get də... - Xədicə incik halda dilləndi.

- Xoşbəxt ol, canım mənim! - Sənihə onu qucaqlayıb üzündən öpdü. - Oğullu-qızlı ol!

- Çox sağ ol... - Xədicənin yenə gözləri yaşardı. - Allah birinci sənə uşaq versin!

- Yaxşı, sağ ol, xoşbəxt ol, mən getdim! - Sənihə bir də onun üzündən öpüb, qapıya tərəf getdi.

Xədicə onu baxışları ilə qapıya qədər ötürüb, Qanturalla Məcidə baxdı. Onlar hələ də, nə barədəsə şirin söhbət edirdilər. Xədicə, birdən-birə darıxdığını hiss etdi. Sənihənin belə tez çıxıb getməsini gözləmirdi heç. Məclis gözündən düşdü, elə bil. Əmisi qızı tez-tez gəlib yanında otursa da, qohum-əqrəba başına fırlansa da, onun əsas ürək sirdaşı Sənihə idi. Beş-altı yaş fərqləri olsa da, onunla dostluqları yaxşı tuturdu.

Sənihəgil ucqar kəndlərin birində yaşayırdılar. Əmisi Zəkixanın uşaqları hər il yay tətilində gəlib kənddə qalır, dərslər başlayanda Bakıya qayıdırdılar. Sən demə, Qantural özündən beş-altı yaş kiçik əmisi qızını sevirmiş və bu məhəbbətini cidd-cəhdlə ürəyində gizlədib saxlayırmış.

Ancaq Sənihə orta məktəbin son illərindən özündən bir sinif yuxarıda oxuyan Muradla sevişirmiş. Onlar tez-tez qonşuluqda tək yaşayan qoca qarının həyətində görüşürdülər. Sənihə gözləri nurdan düşmüş bu qadına ev işlərində kömək etmək üçün hər gün ona baş çəkirdi. Muradla evlənib, ailə quracaqlarına qəti söz vermişdilər.



downloaded from KitabYurdu.org

Sənihə artıq orta məktəbi qurtarmışdı. Murad isə rayon mərkəzindəki texnikumda oxuyurdu. Qarının həyətindəki gizli görüşlərin birində şeytan hər ikisini yoldan çıxartdı.
Dözüb, el adətilə qovuşacaqları günü gözləyə bilmədilər. Sənihə həmin gün bakirəliyini də, müstəqilliyini də itirdi və Murada məxsus oldu... O gün bir daha bir-birlərinə sadiq olacaqlarına and içdilər və Murad söz verdi ki, tezliklə elçilərini qız qapısına göndərəcək.

Ancaq elə oldu ki, bir həftə sonra Qantural kəndə gəldi və öz ürəyini ilk dəfə əmisi qızına açdı. Sənihə qəti etiraz edib, Muradı sevdiyini və onun elçilərini gözlədiyini dedi. Amma Muradla əlaqədə olması barədə, sözsüz ki, Qanturala bir kəlmə də bildirmədi.

Qızın sözləri Qanturalı fikrindən döndərmədi. Əksinə, Muradı tutub o ki var döydü, ölümlə hədələyib tapşırdı ki, bir də Sənihənin adını dilinə gətirməsin. Murad o gündən, doğrudan da,
Sənihədən uzaq gəzməyə başladı. Elçi-filan göndərmək də yaddan çıxdı.

Bir gün Qantural bir dostunun maşını ilə kəndə gəldi və Sənihə ilə görüşüb, onu qaçırmaq istədiyini bildirdi. Sənihə çox qorxduğu dəlisov əmisi oğlunun qarşısında nə qədər ağladı, nə qədər yalvardı, bir xeyri olmadı. Axırda məcbur olub Muradla əlaqədə olduğunu və bakirəliyini itirdiyini bildirdi. Həmin anda bu xəbər Qanturala qəfil zərbə kimi dəysə də, qəzəblənib ağlını itirmək dərəcəsinə gəlsə də, çox düşünüb-daşınmağa vaxt sərf etmədi və yenə də son qərarı Sənihəni dostunun maşınına mindirib Bakıya gətirmək oldu...

Sənihənin atası qızının Qantural tərəfindən qaçırıldığını


downloaded from KitabYurdu.org

biləndə araya narazılıq düşdü. Lakin, böyük qardaş olan Zəkixan kişi hər şeyi yoluna qoya bildi. Onların kəbinlərini kəsdirdi. İkiotaqlı ev alıb, oraya köçürtdü. Maşın aldı. Beləliklə, arada barışıq yarandı.

Ancaq, sən demə, Qantural, Sənihənin o vaxt Muradla əlaqədə olmasını bir gün də unutmurmuş. Bunu tez-tez arvadının başına qaxır, gününü qara eləyirmiş.

Bu əhvalatı Xədicəyə Səniha özü danışmışdı. Bir gün Xədicə onların evində olanda ikilikdə xeyli ordan-burdan danışdılar. Söz-sözü gətirdi və münasibətlərinin ən mehriban anında Səniha başına gələnlərin hamısını rəfiqəsinə danışdı. Sonra ağlaya- ağlaya ayağa qalxıb şkafı açdı və ərinin paltarlarının altından uzun, polad tiyəli bir bıçaq götürüb Xədicəyə göstərdi. Bıçaq xüsusi usta tərəfindən əldə düzəldilmişdi və dəstəyində «Q+S» yazısı həkk olunmuşdu.

Sənihənin deməyinə görə, bu bıçaq əvvəldən Qanturalda olubmuş. Bu mənzilə köçəndən sonra sərxoş vaxtlarının birində bıçağı arvadına göstərib və deyib ki, nə vaxtsa, imkan tapan kimi rayona gedib Muradı həmin bu bıçaqla öldürəcək.

Xədicə onda rəfiqəsinin sözlərindən xeyli qorxuya düşüb, heyrətə gəlmişdi:

- Ay qız, bəs onun məqsədini bilə-bilə niyə bu bıçağı burada saxlayırsan? Tulla getsin bunu!

Səniha etiraz edib bildirmişdi ki, birincisi, ərindən çox qorxur. Sonrası da bıçaq qəhətliyi deyildi və Qantural məqsədini başqa bıçaqla da həyata keçirə bilərdi...

Zalın işıqlarının söndürülməsi Xədicəni xəyallardan


downloaded from KitabYurdu.org

ayırdı. Rəqqasların əllərində tutduqları məşəllərin işıqları şadlıq sarayının geniş salonuna əsrarəngiz görkəm verirdi. Dəbdəbəli musiqi sədaları altında əvvəlcə bəylə gəlinin, sonra isə bütün qonaqların qarşısına aş gətirdilər. Xədicə bu vaxt Qanturalla Məcidin ayağa qalxıb, getməyə hazırlaşdıqlarını gördü. Məcid ayaq üstə güclə dururdu. Qanturalın isə çox içməsi yerişindən hiss olunmurdu. Elə həmin Qantural idi. Başını dik tutub şax yeriməyə çalışır, yalnız sağ ayağını azacıq çəkirdi.

Onlar gedəndən yarım saat sonra məclis dağılmağa başladı və bir azdan toy qurtardı. Həmin anlarda Xədicənin ürəyi birdən-birə narahatlıq içində çırpınmağa başladı. Cavid nə qədər soruşsa da bir
söz deyə bilmədi narahatlığının səbəbi barədə. Çünki özü də bilmirdi ona nə olub... Bilmirdi onu ruhdan salan, bu xoşbəxt anlarına ümidsizlik zəhəri qatan nədir...

Narahatlıq toy gecəsində də Xədicəni tamamilə tərk etmədi. Səhər yataqdan qalxan kimi, vücudunu bürümüş qeyri-müəyyənliyi bölüşmək üçün Sənihəgilin mənzilinə zəng vurdu. Telefonu götürən yox idi. Sonra Sənihənin cib telefonuna zəng vurdu. Çağırmağına baxmayaraq, ona da cavab verən olmadı. İş vaxtının başlanmasını gözləyib, Məcidlə əlaqə saxladı. Məcid bildirdi ki, nə Sənihə, nə də Nihat hələ işə gəlməyib.

Narahatlığı birə-beş artan və nə edəcəyini bilməyən Xədicənin gözləməkdən başqa çarəsi qalmadı.

İyirmi beşinci fəsil

Poliklinikada iş vaxtının qurtarmağına az qalırdı. Cəhalə kabinetində təkcə oturub televizora baxırdı. Həmişəki kimi bahalı və zövqlə geyinmişdi. Açıq şabalıdı rəngli koftası


downloaded from KitabYurdu.org

təravətli və dolğun saçlarına uyğun idi. Qara rəngli şalvarı bu uyğunluğu tamamlayıb, incə bir gözəllik yaradırdı. Boynunda, qulaqlarında, barmağında bərq vuran brilyantlar yaranmış bu gözəlliyi zənginləşdirir, vurduğu bahalı «Asmera» ətri isə bu zəngin gözəlliyə sirli müqəddəslik bəxş edirdi.

Lakin Cəhalənin gözəl sifəti, hiylədən, məkrdən, xəbislikdən uzaq təmiz baxışı, ən əsası isə, mütənasib bədən quruluşu olmasaydı, bütün bu sayılanlar öz əhəmiyyətini itirər, ona verdiklərini verə bilməzdilər.

Cəhalə özü də öz gözəlliyini yaxşı duyur, yaxşı başa düşürdü. Bu gözəllik çoxlarının etirafı, yaxud lal baxışlarıyla çoxdan öz təsdiqini tapmışdı. Bir dəfə isə... O əhvalat Cəhalənin yadından heç çıxmırdı. Keçən il bir cavan oğlan gəlmişdi qəbuluna.
Kabinetə girib Cəhaləni görəndən özünü itirmişdi yazıq. Sonra Cəhalə onu müayinə etməli oldu. Oğlan stulda oturmuş, Cəhalə isə onun yanında ayaq üstə dayanmışdı. Bir qədər aşağı əyildiyi üçün saçının bir topası oğlanın üzünə toxunurmuş. Bunun fərqinə varmayan və şirin dillə danışdıraraq, eyni zamanda onu müayinə edən Cəhalə oğlanda gedən qəribə dəyişikliyi əvvəl hiss etmədi. Lakin ondan adını soruşanda və oğlanın birdən-birə keyləşib qaldığını görəndə hər şeyi başa düşdü. Bəli, oğlan öz adını unutmuşdu!.. Onda Cəhaləni əməlli-başlı gülmək tutdu. Oğlandan aralandı və yalnız bundan sonra o öz adını xatırlaya bildi. Oğlanda heç bir xəstəlik-filan tapılmadı və Cəhalə öz qələbəsindən məmnun halda onu gülə-gülə yola


downloaded from KitabYurdu.org

saldı.

Ancaq indi qanıqara idi Cəhalənin. Həyatda özünə layiqli bir mövqe qazana bilməyən, əksinə, adı ölüm hadisəsində hallanan, şübhəli həyat tərzi keçirən Ələmdar onun bu gözəlliyinə laqeyd idi. Ya bəlkə də laqeydlik demək olmazdı onun münasibətinə? Cəhalə bilirdi ki, Ələmdarın ondan xoşu gəlir. Ancaq nə olsun? Bu Cəhalənin sevgisinin qarşısında nə idi ki? Cəhalə istəyirdi ki, Ələmdar onu sevsin, özü də Cəhalənin onu sevdiyi qədər sevsin. Ancaq Cəhalə hər şeyini ona verməyə razı olduğu
halda, onunla heç olmasa bircə saatlığa qovuşmağı həyatının mənası səviyyəsinə qaldırdığı halda, Ələmdar yenə üç həftə idi ki, yoxa çıxmışdı.
Polisdən buraxıldığı gün zəng vurub Cəhaləyə təşəkkür etmişdi. Səhəri gün Cəhalə özü ona zəng vurub, görüş təyin etsə də o razılaşmamışdı. Ondan sonra isə telefonunu da söndürüb yoxa çıxmışdı.

Axır qərara gəlmişdi ki, bu gün evlərinə zəng vursun. Özünü ələ alıb stolun üstündəki telefonun dəstəyini götürdü və Ələmdarın mənzilinə zəng vurdu. Nömrə məşğul idi...

Birdən televizorun ekranı diqqətini cəlb etdi. Atasını göstərirdilər. Miraslanov hansısa rayonda keçirilən tədbirdə, rəhbər işçilərin arasında idi. Sonra kadrlar dəyişdiyi üçün daha atası görünmədi.

Cəhalə atasını sevirdi. Sevirdi, həm də fəxr edirdi onunla. Onu arxasında dayanmış böyük bir dağ hesab edirdi.

Amma xəbəri yox idi ki, bu saat atasının hər bir hərəkəti


downloaded from KitabYurdu.org

MTN tərəfindən qeydə alınır, telefon danışıqları dinlənilir. Xəbəri yox idi ki, iki həftə sonra, mayın 16-da Mazanov xaricdən qayıdacaq və o qayıdan kimi şübhə hədəfinə çevrilmiş şəxslərin hamısı, o cümlədən atası da həbs ediləcək.

Samir Tağıyevi həbs etmək üçün Moskvaya uçmuş qrup əliboş qayıtmışdı. Dediklərinə görə, həbs etmək istədikləri şəxs yoxa çıxmış, bütün izlər itirilmişdi. Sarı çantadan götürülmüş məlum sənəddə adları olan bütün şəxsləri ciddi nəzarətdə saxlayan MTN bəzi xırda-para şübhəli şeylər aşkar etmişdi. Ancaq o, bir şeyi hələ dəqiqləşdirə bilməmişdi ki, bu
şəxslər sarı çantanın ələ keçirilməsindən, yəni özlərinin ifşa olunmasından xəbərdardırlar, yoxsa yox. Hər halda, belə görünürdü ki, xəbərdar deyildilər, çünki özlərini çox sakit aparırdılar. Əməliyyat qrupunun üzvlərindən biri hətta belə bir fərziyyə irəli sürürdü ki, ola bilsin, Tağıyevin mənsub olduğu gizli təşkilat Bakıdakıların xəbərdar edilməsini məsləhət bilməyib. Düşünüblər ki, xəbərdar edilsələr özlərini şübhəli apararlar və bununla da hər şey təsdiq olunar. Hər halda, şübhəli sənəddə adları göstərilən bütün şəxslərin həbs edilib, danışdırılması nəzərdə tutulmuşdu və bunun üçün Mazanovun xaricdən qayıtmasını gözləyirdilər.

Bakıda, həqiqətən, ermənilərə işləyən xəyanətkar qrupun olması barədə MTN-də müxtəlif rəylər var idi. Çantadan çıxmış sənədin qiymətli
adamları ləkələyib sıradan çıxarmaq üçün bir təxribat olduğunu deyən təcrübəli əməkdaşlar da az deyildi. Lakin bu əməkdaşlar öz fikirlərinin üstündə qəti israr edə


downloaded from KitabYurdu.org

bilmirdilər. Çünki Samir Tağıyevin Bakıya gələcəyi gün - aprelin 23-də Əli Mazanovun işçisi Nihatın hava limanında olması və özünü şübhəli aparması bir fakt idi!

Cəhalənin bütün bu işlərdən, hazırlanan «Sarı çanta» əməliyyatından qətiyyən xəbəri yox idi və sözsüz ki, ola da bilməzdi. Cəhaləni düşündürən, narahat edən, yalnız lotu Vələddinin oğlu Ələmdarın bu saat harada olması və onu nə üçün itirib- axtarmaması idi.

Bir də zəng vurdu. Bu dəfə uzun zumerlər və nəhayət, Əminə arvadın tanış səsi eşidildi:

- Alo?

- Salam, Əminə xala, necəsiniz? - deyən Cəhalə özü də başa düşmədi ki, nəyə görə belə həyəcanlanır.

- Kimdi? - Əminə arvadın səsi yorğun və narazı idi.

- Mənəm, Cəhalədi... Həkiminiz. Necəsiniz, anacan?

- Hə? Canım sənə qurban, ay qızım, babatam, pis deyiləm. Xeyir ola? - bu dəfə arvadın səsi şən və gümrah çıxdı.

- Zəng vurdum ki, bir hal-əhval tutum. Çoxdandı görmürəm.

Cəhalə istəyirdi ki, Ələmdardan bir xəbər öyrənsin. Ancaq bunu Əminə arvada açıq deyə bilməzdi axı?! Gözləyirdi ki, bəlkə arvadın ağzından
bir söz çıxa bu barədə. Əminə arvad da elə bil onun ürəyini oxumuşdu:

- Bu gədə də evdə tapılmır ki, tapılmır. Guya yenə idman yarışına gedib harasa. Nə bilim, Allah bilir, nə fırıldağı var yenə. Bu günlər gəlməlidi. Gələn kimi deyəcəm məni gətirsin yanına.

- Əlbəttə, gəlin! - Cəhalə bir az arxayınlaşdı. - Nə qədər


downloaded from KitabYurdu.org

tez-tez gəlib özünüzü yoxlatdırsanız, o qədər yaxşıdır. Sizin dərmanlarınızdan yenə alıb saxlamışam. Gələndə verəcəm.

- Sağ ol, ay qızım, sənin o göy gözlərinə, şirin dilinə qurban olum! - Əminə arvad lap ürəkdən alqış elədi. - Səni görüm sevgilindən gözü dolusu görəsən!

Cəhaləni gülmək tutdu:

- Sağ ol, anacan! Allah ağzından eşitsin! Hələlik! Gözləyəcəm sizi!

Dəstəyi yerinə qoyub təzəcə fikrə getmişdi ki, Səxavət həkim kabinetə daxil oldu. Əynində xalat yox idi. Deyəsən, evə getməyə hazırlaşmışdı. Kabineti ötəri nəzərdən keçirib:

- Çıxmırsan? - deyə soruşdu.

- Vaxt tamam olsun, çıxacam. - Ələmdar haqqında fikirləri yarımçıq qırılmış Cəhalə quru cavab verdi.

- Xanəli zəng vurmuşdu... - Səxavət dilxor halda dilləndi.

- Nə olub?

- Deyir, Nihat iki gündür yoxa çıxıb.

- Necə yəni yoxa çıxıb? - Cəhalə təəccübləndi.

- Srağagün axşam işçisinin toyunda olub. Oradan çıxandan sonra evə getməyib. Telefonu da bağlıdır.

Cəhalə bu xəbərdən bərk narahat oldu:

- Bəs Hicran bilmir, harada ola bilər o?

- Bilmirəm. - Səxavət başını yellədi. - Mənə indi Xanəli zəng vurub dedi. Gedək, evlərindən bir xəbər bilək.

- Hə, gedək!

Cəhalə cəld qalxıb qar kimi ağ, səliqəli ütülənmiş xalatını əynindən çıxartdı. Birlikdə aşağı düşüb,



downloaded from KitabYurdu.org

poliklinikanın qarşısında dayanmış süd rəngli «Mersedes»ə oturdular. Cəhalə maşını işə salıb birbaş Nihatgilin evinə sürdü.

Blokun qarşısına çatanda maşından düşən Xanəlini gördülər.

Qaşqabaqlı və tutqun görünən Xanəli onlara başı ilə salam verib bloka birinci girdi. Səxavətgil də onun arxasınca düşüb dördüncü mərtəbəyə qalxdılar.

Mənzilin qapısını Tamerlan açdı. Onun da qayğılı görkəmi var idi. Gələnləri sakitcə içəri buraxıb, qapının cəftəsini vurdu. Otağa keçdilər. Ağaşamil stolun arxasında oturub müştüyə taxılmış siqaret çəkirdi. Hicran on iki yaşlı oğlu Yasəf və on yaşlı qızı Aynazla divanda oturmuşdu. Bir-biri ilə qətiyyən uyuşmayan yubka və kofta geyinmişdi. Saçlarını səliqəsiz vəziyyətdə, tələm-tələsik yığıb arxada düyünləmişdi. Uşaqlar büzüşüb oturaraq kədər və eyni zamanda ümidlə babalarına baxırdılar. Fatimə də burada idi. Stulu bir kənara çəkib oturmuş, əllərini qoynuna qoymuşdu. Onun da
qürurlu sifətinə qüssə çökmüşdü. Gözləri yol çəkirdi, elə bil...

Cəhalə əvvəlcə qayınatasının, sonra isə uşaqların üzündən öpüb, Hicranın yanında əyləşdi. Xanəli ilə Səxavət isə stolun arxasına keçdilər. Tamerlan da onların yanında oturdu.

- Bir şey öyrənə bildin? - atası Xanəlidən soruşdu.

- O gün toydan çox tez çıxıb. - Xanəli dedi. - Ancaq haraya getdiyi məlum deyil.

Ağaşamil bir qədər susub, yenə öz xırıltılı səsiylə dilləndi:


downloaded from KitabYurdu.org

- Bəs maşından bir xəbər yoxdu ki?
-Yox... - Xanəli başını buladı.

- Bəlkə sərxoş olub, nəsə eləyib, polisə düşüb? - Səxavət söhbətə qarışdı.

Ağaşamil ona kəskin bir nəzər salıb, yenə Xanəliyə baxdı:

- Necə bilirsən, polisə xəbər verək, yoxsa gözləyək?

Xanəli əli ilə üzündəki kiçik çapıq yerini ovuşdurub bir az fikrə getdi. Sonra başını qaldırıb atasına baxdı.

- Hər halda, xəbər versək yaxşıdır. Başı üstündə olsaydı, indiyədək yerini bildirərdi.

Cəhalə gördü ki, Aynaz ağlayır. Qalxıb onunla Hicranın arasında özünə yer elədi. Qızın başını sığallayıb, ona ürək-dirək verməyə çalışdı:

- Niyə ağlayırsan? Nə olub ki bəyəm? Atan harasa gedib, yenə qayıdıb gələcək.

Aynaz bir söz deməyib, ona sığındı və əli ilə göz yaşlarını silməyə başladı. Cəhalə onun köynəyinin boyun hissəsinin kirli olduğunu görüb, ürəyində Hicranı qınadı. Yenə qızın başını sığallayıb Hicrana tərəf çevrildi və astadan:

- Nəzakətgil gəlmişdilər? - deyə soruşdu.

- Yox, - Hicran da astadan cavab verdi. - Nəzakətin nə vecinə?! Öz əri gözünün qabağındadır. Milyonlar qazanıb gətirir, o da geyinib-kecinir, yeyib- əylənir...

- Xanəliyə sən xəbər vermişdin Nihatın evə gəlmədiyini? - Cəhalə söhbətin mövzusunu dəyişmək istədi.

-Yox, Həmidə burada idi. O gedib deyib ərinə... - baxışları ilə Cəhalənin əynindəki koftanı göstərdi. - Bu


downloaded from KitabYurdu.org

koftadır Həmidə görən? Nə vaxt almısan bunu? Neçəyədir?

Cəhalə paltarlarının, bəzək əşyalarının qiymətindən danışmağı heç xoşlamırdı.

- Nə bilim, vallah! - dedi. - Çoxdan almışam, yadımda deyil.

Hicran səsini bir az da alçaldıb, pıçıltıya keçdi:

- Elə yanıb-tökülür ki, elə bil onun puluynan almısan. Həmidəni deyirəm... Deyir, bu paltarları Cəhaləyə atası alır yəqin. Yoxsa...

- Atam niyə alır? - Cəhalə onun sözünü kəsdi.
- Özüm bəs niyə işləyirəm?

- Mən də sənin kimi dedim elə... Dedim, özü az qazanır? Xəstələr növbəyə durur kabinetinin qapısında. Mən belə deyəndə nə desə yaxşıdır, deyir kimdi indi həkimə pul verən? İmkanlı adamları diliynən, naz-qəmzəsiynən cəlb eləyir, soyub buraxır. Deyirəm, ay qız, niyə helə deyirsən, həkimin dili şirin olmalıdır də!.. Sən Allah, üzünə vurub eləmə, sonra deyər mən xəbər vermişəm. Deyir, dili şirin olmalıdır daha şalvarı da dar olmalı deyil ki?..

- Yaxşı eləyirəm! - Dar şalvarının büküklərini qayınatasından və qayınlarından gizlətmək üçün Aynazı bir az da özünə sıxan Cəhalə acıqla dilləndi.

O, həmişə özünə söz verirdi ki, haqqında deyilən sözləri eşidəndə əsəbiləşməyəcək. Ancaq hər dəfə də onu özündən çıxarırdı belə sözlər. «Sən bir bunun sözlərinə bax! - ürəyində Həmidənin dalınca deyindi. - Xain köpək oğlunun qızı! Guya mən qəhbəlik eləyib pul qazanıram? Əziyyət çəkib oxumuşam, indi də işləyib pulumu özümə


downloaded from KitabYurdu.org

sərf edirəm də!.. Partlaya-partlaya qalacaqsınız siz öləsiniz!...»

Üzünü yana çevirdi. Hicran bunu görüb, susmağa məcbur oldu. Heç kişilər də danışmırdılar daha. Otağa cansıxıcı bir sükut çökmüşdü.

Bəlkə də bu sükut lap çox uzanacaqdı. Ancaq birdən Ağaşamil ayağa qalxıb:

- Durun, gedək! - dedi.

Sonra isə üzünü kiçik oğlu Tamerlana tutdu:

- Sən bu gecə burada qal, görək başımıza nə gəlir...

Ayağa qalxdılar. Fatimə Hicranla və uşaqlarla görüşdü. Cəhalə isə heç kəslə görüşüb-eləmədən mənzildən çıxdı.

Blokun qabağında, maşından yenicə düşmüş Cahangirlə Nəzakətə rast gəldilər. Cahangir Xanəli ilə görüşüb lal baxışlarını onun üzünə dikdi və beləliklə, nəsə öyrənmək istədi.

Xanəli:

- Heç bir xəbər yoxdur, - dedi. - Polisə xəbər verəcəm.

Cahangirlə arvadı Hicrana baş çəkmək üçün binaya girdilər. Cəhalə əvvəl qayınatası ilə Fatiməni aparıb evlərinin qabağında düşürdü, sonra isə maşını öz evlərinə sürdü.

Yolda Səxavət saatına baxıb:

- Mənim serialım on dəqiqədir ki, başlayıb, - dedi.

Televizorda hər axşam izlədiyi serialı nəzərdə tuturdu yəqin ki...

Amma Cəhalə onu yaxşı eşitmədi. Fikri başqa yerdə idi. Düşünürdü ki, bu saat Hicranla Nəzakət oturub onun qeybətini edirlər. O deyir, bu təsdiq
eləyir, bu deyir, o... Əşi, cəhənnəmə ki!.. Özləri bilərlər, nə



downloaded from KitabYurdu.org

danışırlar, qoy danışsınlar!

Nihat barədə fikirləşməyə başladı:

«Axı toydan çıxıb haraya gedə bilər bu? Özü də iki gün əvvəl... Nə isə!.. Təki, bir pis hadisə olmasın. Allahın yazığı gəlsin balalarına».

İyirmi altıncı fəsil

Nahar vaxtına az qalırdı. Divanda oturub televizora baxan Bəhmən birdən-birə acdığını hiss etdi.

Marşrut avtobusda sürücü işləyirdi. İşi elə idi ki, bir gün səhərdən axşama kimi işləyir, bir gün evdə otururdu. İşdə olanda günortalar o qədər də aclıq hiss etmirdi. Ancaq evdə qaldığı günlər həm darıxır, həm də günorta aclıq hiss edirdi. Üzünü mətbəxə tərəf tutub arvadını səslədi:

- Yemək gec hazır olacaq?

- Yemək hazırdır, - arvadı cavab verdi. - Biriniz düşün, çörək alın!

Bəhmən o biri otağa boylandı. Bu il on birinci sinfi bitirən oğlu kitab-dəftərini qabağına töküb, ali məktəb imtahanlarına hazırlaşırdı. Onu işindən ayırmağa qıymayıb, çörək almağa özü düşdü.

Həyətdə, blokun qapısı ilə lap üzbəüz bir kiçik köşk qoyulmuşdu. Kəlbəcər qaçqını olan qırx beş-əlli yaşlarında arıq bir qadın bu köşkdə oturub çörək satırdı. Bəhməngil neçə illər idi ki, çörəyi bu qadından alırdılar. Ancaq Bəhmən heç onun adını bilmirdi. Bircə onu bilirdi ki, kəlbəcərlidir, ərini, oğlunu ermənilər öldürüb, qonşu binaların hansındasa tək yaşayır.

Pulunu verib iki çörək aldı. Geri qayıdanda gözü yenə də blokun qapısından bir az aralı dayanmış mixəyi rəngli «Opel»ə sataşdı. Bu maşın artıq üç gün idi ki, həmin bu


downloaded from KitabYurdu.org

yerdə dayanmışdı. Bina sakinlərindən heç kimin belə bir maşını yox idi. Təzə almış olsaydılar da, Bəhmən bilərdi bunu. Bəs kimin
idi, görəsən, bu maşın? Birdən fikirləşdi ki, üzbəüz mənzildə yaşayan Qanturalın «Volqa»sı neçə gündür görünmür heç. Qantural öz maşınını blokun qarşısında saxlayırdı həmişə. «Bəlkə maşınını dəyişib, mənim xəbərim yoxdur?..» - deyə düşündü. Amma yox! Heç Qantural özü də neçə gündür, görünmürdü. Yadına saldı ki, onu axırıncı dəfə aprelin 30-da gecə tələsik öz maşınına minib gedən görüb. Səhəri gün, Bəhmən özü bütün günü işdə olub. Mayın 2-də bacısıgilə baş çəkməyə getmişdi. Mayın 3-ü yenə də işdə. Bir də bu gün... Yox, Qanturalı görməmişdi ondan sonra.

Pilləbəri yavaş-yavaş qalxıb, üçüncü mərtəbədə yerləşən mənzilinin qapısı ağzında dayandı və zəngin düyməsini basdı. Arvadı gəlib qapını açdı və tez də geri qayıtdı. Bəhmən mənzilə girməyə
tələsmədi. Elə bil nə isə bir qüvvə onu yerində dayanmağa məcbur edirdi. Ona elə gəldi ki, havadan leş iyinə bənzər xoşagəlməz bir iy gəlir. Bir neçə dəfə burnunu çəkdi. Hə, səhv etmirdi. Nəsə, üfunətli bir qoxu yayılmışdı bloka.

Dönüb üzbəüz mənzilin qapısına baxdı. Bu Qanturalın mənzili idi. Ürəyinə qorxunc şübhələr dolmağa başladı. Yaxınlaşıb mənzilin zəngini çaldı. Qapıya gələn olmadı. Burnunu qapı ilə çərçivəsinin arasına yaxınlaşdırıb qoxuladı və tez də geri çəkildi. Xoşagəlməz qoxu buradan - Qanturalın mənzilindən gəlirdi...

Qorxu və həyəcandan üzünün dərisi səyriməyə başladı. Sifətini bərk-bərk ovuşdurub, əlini qabarmış saçlarına



downloaded from KitabYurdu.org

çəkdi. Bir müddət elə qapının ağzındaca heykəl kimi dayanıb fikrə getdi.

Qəribədir, ona elə gəlirdi ki, elə bu saat, buradaca başına faciəli bir iş gələcək. Ya kimsə öldürəcək onu, ya tutub aparacaqlar... Düz on dörd il əvvəl ermənilər hərbi texnika ilə Şuşa şəhərinə soxulanda hiss etmişdi ölüm qorxusunun nə olduğunu. O vaxtdan Şuşa həsrəti ilə Bakıda yaşayan Bəhmən bir müddət yalnız yuxularında duymuşdu o qorxunu. Sonra iş-güc başını elə qatmışdı ki, yuxularından da çəkilib getmişdi o qorxu. Çörəyini əziyyətlə qazansa da, əmin- amanlıqda keçmişdi bütün bu illər. Amma indi sanki yenidən geriyə qayıtmışdı həmin qorxulu xəyallar...

- Niyə içəri keçmirsən?

Arvadının təəccüb ifadə edən sualından diksinən Bəhmən mənzilinə girib aldığı çörəyi stolun üstünə qoydu. Sonra fikirli halda telefona yaxınlaşıb dəstəyi götürdü. Əlləri əsə-əsə nömrəni yığıb polisə zəng vurdu.

Az keçmiş, polis rəisi şəxsən özü başda olmaqla, baş əməliyyat müvəkkili Canəli Qismətov, əməliyyat müvəkkili Allahverdi Əbilov, leytenant Etibar Nəsirov, daha iki nəfər polis əməkdaşı və iki nəfər adi geyimli şəxs maşınlardan düşüb binaya girdilər. Bəhmən onları mənzilin qapısı ağzında qarşıladı.

- Polisə zəng vuran siz olmusunuz? - polkovnik Mirzəyev ondan soruşdu.

- Bəli. - Bəhmən cavab verdi. - Qonşumun mənzili budur. Üç gündür görünmürlər. Qapını açan da yoxdur. Həm də, mənzildən pis iy gəlir.



downloaded from KitabYurdu.org

Rəis havanı qoxulayıb kapitan Əbilova baxdı.

- Bəli, rəis, - Əbilov dilləndi, - çürüməyə başlayan cəsəd qoxusuna bənzəyən bir iydir.

- Qapını açın! - Mirzəyev özləri ilə gətirdikləri ustaya göstəriş verdi.

Beş dəqiqə keçmədi ki, usta qapını açıb, kənara çəkildi. Üfunətli qoxu bütün kəskinliyi ilə özünü göstərib bloka yayıldı. Rəis qabaqda, o birilər isə onun ardınca mənzilə daxil oldular. Əli ilə burnunu tutan Bəhmən də içəri girənlərin arasında idi.

Onlar yataq otağında son dərəcə dəhşətli bir mənzərə ilə qarşılaşdılar. Bu mənzərə insanlığını itirməmiş hər bir insanın damarlarında axan qanı dondura bilərdi. Bu mənzərə ən qorxmaz, ən cəsur insanları belə sarsıda bilərdi. Bu mənzərə onu görən hər bir heyvanı ürküdüb qaçıra bilərdi!

İkinəfərlik çarpayıda başları kəsilib bədənlərindən ayrılmış iki insan meyiti var idi!

Bunlardan biri kişi, biri isə qadın meyiti idi. Hər ikisinin başsız bədəni, qolları yana açılmış halda çarpayıya sərilmiş, kəsilmiş qanlı başları yanlarına atılmışdı. Uzun, polad tiyəli bir bıçaq kişinin sinəsinə sancılmış vəziyyətdə diqqəti cəlb edirdi. Döşəyin üstünə salınmış döşəkağı başdan-başa qanla suvanıb, qırmızı rəngə boyanmışdı. Otağın ağır havası, baş vermiş ağır cinayətin sarsıntısı ilə birləşib içəridəkiləri boğurdu...

Bəhmən, əvvəlcə, ürəkparçalayan bu görüntüyə baxa bilməyib, üzünü yana döndərdi. Ancaq kapitan Əbilovun ona ünvanlanmış «Bunlar kimdir» sualını eşitdikdə baxmağa məcbur oldu. Allahverdi kəsilmiş başların üzünü



downloaded from KitabYurdu.org

ona tərəf çevirib göstərirdi.

Bəhmənin, az qaldı ki, ödü ağzına gəlsin. Öldürülmüş qadın Sənihə idi... Açıq qalmış gözlərini ona dikmiş kişi başının isə kimə məxsus olmasını tanıya bilmədi. Dili topuq vura-vura:

- Qadın Qanturalın arvadıdı... - dedi.

- Kimin dedin? - rəis hökmlə dilləndi. - Ucadan danış! Bəhmən təkrar etməyə məcbur oldu:

-Qadın Sənihədi... Ev sahibəsi... Kişini tanımadım...

- Mən bunu tanıyıram, deyəsən... - Allahverdinin yanında dayanmış leytenant Nəsirov dilləndi. - Bizim idarədən bir az aşağıda bank filialı var, onun müdiridir. Əli Mazanovun işçisi. Nihatdır adı. Mixəyi rəngə çalan «Opel» sürürdü.

- Elə bir maşın üç gündün aşağıda dayanıb. - Bəhmən dedi. - Blokun qabağında.

- Aydındır! - rəis başını tərpədib saatına baxdı. Prokurorluğun əməkdaşlarını gözləyirdi.

Onlar tez gəldilər. Rayon prokurorunun köməkçisi, müstəntiq, məhkəmə tibb eksperti və daha bir neçə nəfər... Başları kəsilmiş, yarıçılpaq meyitlərə baxan müstəntiq Eldar İmanov, deyəsən, yaman tutulmuşdu. Dönüb, sualedici nəzərlərini rəisin üzünə dikdi.

- Qısqanclıq zəminində olan işə oxşayır. - Mirzəyev dedi. - Özü də, belə görünür, qadının əri edib bunu. Mənzilin sahibi...

- Qantural! - mayor Qismətov rəisin sözünü dəqiqləşdirdi.

- Qatil qaçıb? - müstəntiq soruşdu.

- Belə çıxır ki, hə! - Qismətov cavab verdi.


downloaded from KitabYurdu.org

Mənzilin qapısı tərəfdən hay-küy səsləri gəlir və bu səslər getdikcə güclənirdi. Hadisədən xəbər tutmuş blok sakinləri qapının ağzına yığışmışdılar. Rəis üzünü İmanova tutdu:

- Nə edəcəksinizsə, tez eləyin, maşın çağırıb meyitləri aparmaq lazımdır. Sonra mayor Qismətova göstəriş verdi:

- Canəli, o adamları uzaqlaşdırın oradan, səs- küy salıb aləmi tökməsinlər buraya!

Canəli polis əməkdaşlarından biri ilə cəld mənzilin qapısına tərəf getdi. Qapının ağzındakı kiçik meydança və yaxın pilləkənlər adamla dolmuşdu. Çoxu da qadın idi.

- Çəkilin, çəkilin buradan! Səs-küy salmayın! - Qismətov ucadan əmr etdi.

Ancaq onun göstərişi qapıya yığılanlara təsir göstərmədi. Hamı danışırdı, hamı çığırırdı, heç kəs heç kəsə qulaq asmırdı. Canəli qarşısındakı uzun, üzünü tük basmış kişini itələdi:

- Nə durmusan burada, çıx get işinin dalınca!
- Niyə vurursan məni? - kişi bozardı.

Canəli bu dəfə onu daha bərk itələdi. Kişi və onun arxasında dayanmış bir qadın yerə yıxıldı.

- Sənə dedim, get işinlə məşğul ol! - bərkdən çığırdı.

Ümumi səs-küy narazılıq bildirən uğultuyla əvəz olundu. Adamların bir hissəsi pilləkənlə yuxarı, bir hissəsi aşağı düşdü. Beləliklə, kiçik meydança boşaldı və sakitlik yarandı.

İçəridə isə müstəntiq İmanovla kapitan Əbilov artıq təhqiqata başlamışdılar. Allahverdi Əbilov meyitlərin fotoşəkli çəkiləndən sonra birinci növbədə, bıçağı dartıb Nihatın sinəsindən çıxartdı.



downloaded from KitabYurdu.org

Bu, əldə düzəlmiş polad tiyəli bir bıçaq idi. Dəstəyində «Q+S» yazısı aydın oxunurdu. Əbilov bıçağı dəsmala büküb müstəntiqə verdi. Sonra başların və bədənlərin boyun hissəsində laxtalanıb qurumuş qandan nümunələr götürüb, ayrı-ayrı paketlərə yığdı. Prokurorluğun işçiləri Əbilovun ustalığına inanırdılar. Ona görə də onu qabağa buraxmışdılar. Bəziləri isə gördükləri dəhşətə və otaqdakı boğucu iyə dözə bilməyib mənzildən çıxmışdı.

Kapitan Əbilov Nihatın başını çarpayının üstünə qoyub, başsız bədəni diqqətlə müayinə etməyə başladı. Birinci bıçaq zərbəsindən deşilmiş qanlı mayka yuxarı sıyrılmış, qollarda ilişib qalmışdı.

Bədən bıçaq zərbələrindən deşik-deşik olmuş, ancaq sağ böyrünə daha çox zərbə endirilmişdi. Əbilov qadının da meyitinə ehtiyatla göz gəzdirib rəisinə baxdı:

- Qadının elə birinci dəfədən başı kəsilib, kişi isə əvvəlcə sinəsindən vurulan bir bıçaq zərbəsi ilə öldürülüb. Başı isə sonra kəsilib. Baxın, ən çox qan sinəsindəki bu tək yara yerindən axıb.

- Elədir, - otağa yenicə qayıtmış Canəli dilləndi. - Ona görə də başdan az qan axıb.

- Bu zərbələr isə, - Allahverdi kişinin bədənindəki çoxsaylı yaraları göstərdi. - Nihat öləndən sonra vurulub. Çünki gördüyünüz kimi, heç birindən qan axmayıb.

- Aydındır... - rəis bunu deyib otağa göz gəzdirdi.

Çarpayı otağın qapısının dörd addımlığında idi. Belə çıxırdı ki, qapı tərəfdə Nihat, o biri tərəfdə Sənihə uzanıbmış. Nihat uzanan tərəfdə, çarpayının yanına qoyulmuş stulun üstündə şalvar, corab və cib telefonu var idi. Telefon söndürülmüşdü. Stulun başına isə tünd göy


downloaded from KitabYurdu.org

rəngli kişi köynəyi keçirilmişdi.

Qadın tərəfdəki stulun üstündə onun paltarları atılmışdı. Koftası, yubkası, corabları... Onun da cib telefonu stulun üstündə idi.

Müstəntiq İmanov Nihatın barmağındakı iri sədəf qaşlı üzüyü kapitan Əbilova göstərib:

- Bunu çıxarın! - deyə göstəriş verdi.

Əbilov bir əliylə meyitin qolunu tutub yuxarı qaldırdı. O biri əliylə üzüyü barmaqdan çıxarmağa çalışdı. Barmaq bir qədər şişdiyi üçün üzük çox çətinliklə çıxdı. Bu zaman kapitanı özünün də baş
açа bilmədiyi narahatlıq bürüdü. Meyitin əlini əlindən buraxmadan dayanıb, qəribə nəzərlərlə ona baxırdı.

- Sənə nə olub, Allahverdi? - rəis təəccüblə soruşdu. - Nə fikirləşirsən?

Kapitan Əbilov:

- Heç! - deyib, bu dəfə həmin nəzərlərlə üzüyə baxdı və onu müstəntiqə verib, meyitin qolunu buraxdı.

- İstəyirsən, bir az təmiz havaya çıx! - Mirzəyev əlini Allahverdinin qoluna toxundurdu.

- Yox, yox! - Kapitan başını silkələdi. - İşimizi qurtarıb, gedək!

- Məncə, daha bir işimiz qalmadı burada, - mayor Qismətov dilləndi. - Məsələ aydındır. Qətli bu qadının əri törədib və qaçıb. Bizim işimiz yalnız onu
axtarmaq olacaq. Belə düşünürəm ki, uzağı bir sutkaya taparıq onu!

Müstəntiq İmanov ətrafına boylanıb dedi:

- Siz ev sahibinin ən çox işlətdiyi şəxsi əşyalarından bir neçəsini götürün. Onun əl izlərini müəyyənləşdirib,



downloaded from KitabYurdu.org

bıçaqdakı əl izləri ilə tutuşdurmaq üçün. Mənə elə gəlir ki, biz bıçağın dəstəyində əl izləri tapacağıq.

Polis işçiləri o biri otaqda stolun üstündə olan külqabını büküb, zərfə qoydular. Sonra vanna otağına keçib Qanturalın üz qırxmaq üçün işlətdiyi ləvazimatı və diş fırçasını götürdülər. Bu əşyalardan onun əl izlərini götürmək mümkün olacaqdı.

Axırda hal şahidlərinin iştirakı ilə protokol tərtib olundu. İndi daha meyitləri də götürüb mənzili tərk etməkdən başqa bir iş qalmamışdı.

Polis leytenantı hələ də mənzilin qapısına doğru can atan sakinləri kənara qovlayırdı. Səs-küy bütün bloku başına götürmüşdü. Sensasiyalı xəbər ağızdan-ağıza keçib məhəlləyə yayılırdı. Ancaq hələ də nə baş verdiyini tam dəqiqliyi ilə bilən yox idi.

Həyətə toplanmış adamların da sayı getdikcə artırdı. Meyitləri aparmaq üçün gətirilmiş yanları qapalı, qara maşın blokun qarşısında dayanmışdı. Polis işçiləri adamları pilləkənlərdən və blokun ağzından kənara itələyirdilər ki, meyitləri düşürmək üçün yol açsınlar.

Canəli bu dəfə bir qadını bərk itələməli oldu. Bu kobud hərəkətdən hiddətlənən qadın çığırıb qarğış tökməyə başladı. Qarğışa əhəmiyyət verməyən Canəli yanındakı polis əməkdaşları ilə köməkləşib
blokun qabağını doldurmuş sıx sıraları bir qədər arxaya sıxışdırmağa nail oldu.

Bu vaxt qara rəngli «Nissan» avtomobili adamları yararaq bloka yaxınlaşmağa can atdı, ancaq bu mümkün olmadığı üçün bir qədər kənarda dayandı. Dördbarmaq Ağaşamil oğlanları Xanəli və Tamerlanla maşından düşüb,


downloaded from KitabYurdu.org

adamların arasından özlərinə yol aça-aça blokun qarşısına yaxınlaşdılar. Sonra Cahangir bir neçə adamla birlikdə öz maşınıyla gəldi...

Qanturalın qohumları da üç-dörd maşında gəlib çıxdılar. Lal Zəkixan özü də Ələkbərin maşınında gəlmişdi. Polkovnik Mirzəyev meyit sahiblərinin gəldiyindən xəbər tutub, ailələr arasında qan düşə biləcəyindən narahat oldu və meyitləri aradan tez çıxarmaq haqqında göstəriş verdi. Binanın ətrafına, təcili olaraq, əlavə polis qüvvələri çağırıldı.

Ağaşamil özünü nə qədər möhkəm tutmağa çalışsa da, ona diqqətlə göz qoyan olsaydı, siqaret çəkməkdən bozarmış sərt dodaqlarının səyriməsindən daxilində nə qədər həyəcan keçirdiyini başa düşə bilərdi. Məsələnin nə yerdə olduğunu anlamağa başlayan ata özünü çətinliklə ələ ala bilirdi. Namussuz iş üstündə öldürülmüş adamın atası olduğunu heç kəsə bildirmək istəməsə də, blokun qapısı ağzında dayanmış mayor Qismətova yaxınlaşdı. Öldürülən kişinin atası olduğunu deyib, meyitin elə buradaca ona verilməsini xahiş etdi.

Canəli Dördbarmaq Ağaşamili də, Balta Xanəlini də qiyabi tanıyırdı. Ancaq üzlərini görməmişdi.
Nihatın da kimin oğlu olduğunu bilmədiyi üçün qarşısındakı tanımadığı kişini istehza ilə süzüb dedi:

- Başqa şey istəmirsən ki, ağsaqqal?

-Anlamadım!... -Ağaşamil sərt baxışlarını mayorun üzünə zillədi.

Canəli özünü bir az yığışdırmalı oldu:

- A kişi, biz meyiti sənə verə bilmərik. Aparıb yarılmalıdır. Tibb eksperti baxmalıdır ona.



downloaded from KitabYurdu.org

- Axı niyə? - Ağaşamil onunla razılaşmaq istəmədi. - Məlumdur ki, onu kim öldürüb, nəyin üstündə öldürüb. Daha baxmağın nə əhəmiyyəti var?

- Bizim üçün əhəmiyyəti var! - Canəli əliylə sərt hərəkət etdi. - Get, ağsaqqal, get, imkan ver, işimizi görək!

Ağaşamillə Xanəli adamların arasından keçib, sakitliyə çıxdılar və şam ağaclarının arasında, qohumların yanında dayanmış Cahangirə yaxınlaşdılar. Tamerlan da burada idi. Ağaclardan birinə söykənib ağlayırdı.

Xanəli ah çəkib cibindən siqaret qutusunu çıxartdı və böyük qardaşına baxıb başını buladı:

- Meyiti yarmağa aparacaqlar...

- Daha nə fərqi var, yardılar, yarmadılar... - Cahangir kədərlə dilləndi.

- Hər halda, Sərxan müəllimə zəng vuraq, tapşırsın bunlara, tez versinlər meyiti... - Ağaşamil dedi.

O, Miraslanovu nəzərdə tuturdu. Cəhalənin atasını. Meyiti tez almaq istəməkdə məqsədi başqa idi Ağaşamilin. O, qohum-qardaş, tanış-biliş xəbər tutmamış, elə bu gün Nihatı dəfn etmək istəyirdi. Heç bir dəbdəbəsiz-filansız... Oğlunun belə bir iş üstündə öldürülməsi ona çox ağır təsir etmişdi və Nihat üçün el adətincə yas tutmaq fikrində də deyildi. Cahangir cib telefonunda Miraslanovun nömrəsini yığıb telefonu atasına verdi. Ağaşamil qudası ilə danışmaq üçün bir az kənara çəkildi.

Polis işçiləri yanları bağlı qara maşının yanındakı adamları kənara qovub, iri paketlərə salınmış meyitləri maşına qoydular və maşın dərhal oradan uzaqlaşdı.

- Öldürürdün, təkcə arvadını öldürəydin, a it oğlu!


downloaded from KitabYurdu.org

Qardaşımın nə günahı var idi?!

Tamerlan bu sözləri bərkdən dedi və yaxınlıqda dayanmış Ələkbər eşidib qabağa çıxdı:

- Gəlib evinə soxulub, namusuna toxunub, başını sığallamalı idi?!

Tamerlan geri çəkilmək istəmədi:

- O qancıq qardaşımı içəri buraxmasaydı, nə işi vardı burda?

Ələkbər bir az da qabağa gəlib ağlamaqdan gözləri qızarmış Tamerlanla üz-üzə dayandı:

- Nə demək istəyirsən ə, küçük?!

Bunu görən Xanəli sıçrayıb onların arasına girdi. Bir əlini Ələkbərin çiyninə qoyub, bir əlini cibinə apardı:

- Sən öləsən, bağırsaqlarını ayağına dolayaram sənin!

Ələkbər Balta Xanəlini tanıyırdı. Bilirdi ki, dəli-cinləmənin biridir, həm də dediyini eləyəndir. Onu da bilirdi ki, Xanəliyə niyə Balta Xanəli deyirlər...

Onda Xanəligil köhnə həyət evində yaşayırdılar. Xanəlinin on altı-on yeddi yaşı olarmış həmin vaxt. Atasıyla türmədə yatıb çıxmış üç kişi, orada nə haqq-hesabları olubmuşsa, ailəsindən intiqam almaq məqsədilə həyətə gəlir. Hər üçü bıçağını çıxarıb, həyətdə tək olan Xanəlini öldürmək istəyirlər. Başqa çarəsi qalmayan Xanəli zirzəmidən baltanı götürüb gələnlərin üstünə şığıyır. Aralarında əməlli-başlı vuruşma başlayır. Xanəlinin vurduğu zərbələrdən kişilərin biri ölür, ikisi də ağır yaralanır. Onda Xanəlini tutmuşdularsa da, özünü müdafiə etdiyi üçün çox iş verməmişdilər. Cəzasını çəkib qayıtmışdı və qayıtdıqdan sonra adı qalmışdı Balta Xanəli.

Ələkbər bilirdi ki, bu saat bircə kəlmə artıq-əskik söz


downloaded from KitabYurdu.org

işlətsə, Xanəli cibindən bıçağı çıxaracaq. Amma buna baxmayaraq, onun qabağından çəkilmək fikrində də deyildi.

Yaxşı ki, həmin anda polis işçiləri özlərini çatdırıb, onları ayırdılar. Başda Lal Zəkixan özü olmaqla adamlarını maşınlarına mindirib yola saldılar. Sonra isə Ağaşamili və oğlanlarını sakitləşdirib oradan uzaqlaşdırdılar. Səs-küyə yığılmış adamlar da baş vermiş hadisəni müzakirə edə-edə dağılışmağa başladılar.

Bir az sonra isə bir-birinə düşmən kəsilmiş ailələr xəstəxananın həyətində - morqun qarşısında yenidən üz-üzə gəlməli oldular. Amma bunu əvvəlcədən düşünmüş polis əməkdaşları buranı da nəzarət altına almışdılar.

İyirmi yeddinci fəsil

Axşam Ağaşamil ailəsinin bütün üzvləri onun mənzilinə toplaşmışdı. Ata və dörd oğlu stolun arxasında, Fatimə ilə gəlinlər divanda, uşaqlar isə divarboyu qoyulmuş stullarda, yaxud yerə sərilmiş xalçanın üstündə oturmuşdular. Kədərli bir sükut hökm sürürdü otaqda.

Ağaşamil müştüyə taxılmış siqaretini çəkir, hərdən də gözaltı, oğrun baxışlarla bir-bir otaqdakıları gözdən keçirirdi. Cahangir bir əlini alnına dayayıb dərin fikrə getmişdi. Xanəli əlində tutduğu kiçik təsbehi oynadırdı. Sanki bütün diqqəti də bu təsbehin dənələrində idi. Səxavət əlləri qoynunda, heykəl kimi oturub gözlərini boş süfrənin naxışlarına dikmişdi. Tamerlan başını qollarının üstünə qoyduğu üçün sifəti görünmürdü. Bu gün neçə dəfə ağlamışdı o... Ən çox da qəbiristanlıqda. Qardaşı dəfn olunanda...

Miraslanov zəng vurub prokurordan xahiş etdiyi üçün


downloaded from KitabYurdu.org

Nihatın meyitini sahiblərinə tez vermişdilər. Ağaşamil əvvəl istəmişdi ki, cəsədi elə birbaş qəbiristanlığa aparıb dəfn etsin. Ancaq Xanəlinin təkidindən sonra onun məscidə aparılıb yuyulmağına razılıq vermişdi. Dəfndə də ancaq Ağaşamil özü, oğlanları, bacısı uşaqları, bir də molla iştirak etmişdi. Başqa heç kəsə xəbər verməmişdilər. Qalan qohum- əqrəbadan, tanış-bilişdən bu işi bilənlər bir də onda ayılmışdılar ki, Nihat artıq dəfn olunmuşdu və Ağaşamil onlara xəbər çatdırmışdı ki, heç kəs onun qapısına başsağlığına gəlib eləməsin.

Ağaşamilin belini sındıran oğlunun ölümü deyildi. Başqasının evinə girib, namusuna əl uzatması və bu səbəbdən rüsvayçılıqla öldürülməsi idi. Adam içinə çıxmağa xəcalət çəkirdi ata... Elə oğlanları da onun kimi fikirləşirdilər bu barədə. Ancaq Tamerlan qardaşını tutduğu bu işə görə lazımınca qınasa da, onun vəhşicəsinə öldürülməsi ilə heç cür barışa bilmirdi. Bu saat Qantural onun nəzərində vəhşiləşmiş bir cani, qorxunc bir düşmən idi ki, Tamerlan onun haqqında düşünəndə qəlbində dərin nifrət hissi coşurdu. Balta Xanəli də Nihatı namussuzluqda təqsirləndirməklə bərabər, onun kiminsə tərəfindən öldürülməsini bağışlaya bilmirdi. O da Tamerlan kimi, Qanturaldan intiqam almağın tərəfdarı idi və bunu şəxsən özünün edəcəyinə ürəyində söz vermişdi artıq.

Atası onları buraya yığmışdısa, deməli, öz sözünü deyəcəkdi burada. Söz də elə onun sözü olacaqdı şübhəsiz ki! Amma Xanəli bu saat burada oturmağı istəmirdi. Tək qalmağı və təklikdə düşünüb qərar qəbul etməyi daha üstün tuturdu. Üstəlik, bayaqdan siqaret çəkmədiyi üçün ciyəri yanırdı. Ancaq qardaşların heç biri indiyədək


downloaded from KitabYurdu.org

atalarının yanında siqaret çəkməmişdi. Hərdən gözaltı, atasının tüstülətdiyi siqaretə baxan Xanəlinin dözməkdən başqa heç bir çarəsi yox idi.

Xanəlinin oğlu Fətəli bacılarının, əmisi uşaqlarının yanında oturub gözünü babasına zilləmişdi. Sanki o da babasının nə deyəcəyini gözləyirdi. O biri nəvələr də susub, başlarını aşağı dikmişdilər. Təkcə Nihatın uşaqları analarının
qarşısında, xalçanın üstündə oturmuşdular və anaları kimi astadan ağlayırdılar.

Hicranın bu gün iki dəfə ürəyi getmişdi. İndi də divanda Cəhalə ilə yanaşı oturmuşdu və çox halsız görünürdü. Cəhalə hərdən pıçıltı ilə gah ona, gah da sağında oturmuş Fatiməyə ürək-dirək verirdi.

Deyəsən, bu ölümə ən çox yanan, ən çox dərd çəkən Fatimə idi. Gözləri ağlamaqdan qıpqırmızı qızarmışdı. Amma indi o da özünü ələ almağa, atasının qabağında qürurlu görünməyə çalışırdı.

Həmidə ilə Nəzakət divanın o biri tərəfində yanaşı oturmuşdular. Başını bağlamış Həmidə qaşqabaqlı görünsə də, ağlamırdı. Nəzakətin isə əlində tutduğu yaylıqla hərdən gözlərini qurulamasından ağladığını başa düşmək olardı.

- Sən ərli qadının hərəkətinə bax! - o, pıçıltıyla Həmidəyə dedi.

- Yad kişini gətir sal yatağına, düşünmə ki, ərim gəlib çıxa bilər.

- Hə! - Həmidə başını yellədi. - Bu da ona uyub özünü bədbəxt elədi, üstəlik də biz rüsvay olduq. İnan ki, Xanəlinin beli sınıb, elə bil!



downloaded from KitabYurdu.org

- Bizi demirsən? - Nəzakət dedi. - Cahangir də biabır oldu dost-tanış arasında.

Onların pıçıltısını başqaları eşitmirdi. Yaranmış ümumi sükutu birinci Cahangir pozdu:

- Mən baş aça bilmirəm, bu nə olan işdir?... Görün, bu nə qədər içib, ağlını itirib ki, gəlib kişinin evinə soxulub. Bir düşünməyib ki, gec-tez o da toydan çıxıb gələcək. Belə çıxır, heç qapının çəftəsini də vurmayıb içəridən.

Onun sözünə heç kəs münasibət bildirmədi. Elə bil hamı iyrənirdi bu barədə danışmaqdan. Ağaşamil susub, hələ də müştüyə taxdığı siqaretini tüstülədirdi. Xanəlinin nə düşündüyündən, ümumiyyətlə, baş açmaq olmurdu. Ancaq çox tutqun görkəmi var idi. Səxavət fikirləşirdi ki, görəsən, poliklinikada həkimlər necə baxacaq bu işə?.. Nihata görə onların gözündən düşməyəcək ki? Tamerlan isə xəyalında axtarıb Qanturalı tapır, tutub başını kəsirdi. Ya da ki, fikrində başqa-başqa planlar qururdu.

Yenidən yaranmış uzun sükutu, bu dəfə, Ağaşamilin xırıltılı səsi pozdu:

- Bu çox pis bir işdi ki, bizim başımıza gəldi. Mənim belimi əydi Nihatın bu hərəkəti. Şəxsən mən qınamıram o Qanturalı. Günah ancaq onun arvadında və mənim oğlumdadır. Gərək onlar düşünəydilər belə olacağını. Namusu itə atıblar, it də yeməyib...

Bir az ara verib, çəkib qurtardığı siqareti müştükdən çıxartdı və külqabına basıb söndürdü. Sonra yenə bir-bir otaqdakıların hamısını baxış süzgəcindən keçirib danışmağa başladı:

- Hər nə isə... İndi biz Lal Zəkixanın ailəsi ilə



downloaded from KitabYurdu.org

düşmənçilik vəziyyətindəyik. Amma onu da deyim ki, heç birimizin borcu yoxdu o birinə. Hər şey oldu, qurtardı. Biri onlardan getdi, biri bizdən... Üstəlik də, Qantural tutulacaq, cəzasını çəkəcək. Sizə tapşırığım budur ki, onun qohum-əqrəbası ilə qarşılaşmalı olsanız, düşmənçiliyi birinci siz göstərməyin! Bir də deyirəm, biz bərabər vəziyyətdəyik. Bir-birimizə borcumuz yoxdur!

Bu vaxt Hicran, birdən-birə, hıçqırıb ağlamağa başladı. Qayınatası onu acıqlı baxışlarla süzüb, səsini qaldırdı:

- Sən də bəsdi daha ağlayıb-sıtqadın! Bilmirəm, ərinizə necə arvadlıq eləyirsiniz ki, gözü onda-bunda qalır. Mən həmişə demişəm, kişi başqa qadına baxırsa, arvadı arvadlıq eləmir, arvad başqasına baxırsa, əri ərlik! Elə o Qantural köpək oğlu da, yəqin arvadına ərlik eləmirmiş!

Cəhalə fikirləşdi ki, qayınatası o qədər də düz demir. Məsələ heç də təkcə ərlik-arvadlıq eləməkdə deyil. Ürək məsələsi də var. Məsələn, o özü Ələmdarı...

Ağaşamilin hirsli səsi onu xəyaldan ayrılmağa məcbur etdi. Qayınatası üzünü yenə Hicrana tutmuşdu:

- O niyə sənsiz gedirdi toya-filana? Niyə bu sir-sifətinə, üst-başına fikir vermirdin ki, o da deyəydi, arvadım var!..

Ağaşamil bütün bunları bir ata kimi, yandığından deyirdi. Yadına düşmüşdü ki, Nihat Hicranı boşamaq istəyirdi, ancaq onun qorxusundan bu işə baş qoşmurdu. Düşünürdü ki, əgər oğlu Hicranı boşayıb, başqasıyla evlənsəydi, bəlkə də bu faciə baş verməzdi.

Təzə siqaret çıxarıb, müştüyə taxdı. Yandırıb, artıq səsini kəsmiş Hicrana baxdı:

- Heç olmasa, bundan sonra uşaqlarının tərbiyəsi ilə



downloaded from KitabYurdu.org

düzgün məşğul ol. Onların başına bir iş gəlsə, məndən incimə! Məndən, ya Cahangirdən, Xanəlidən icazəsiz bir iş tutmayın!

Sonra yenidən bir-bir hamını nəzərdən keçirib sərt və hökmlü səsilə dilləndi:

- Hamınıza deyirəm! Yadınızda saxlayın, sizin namusunuz mənim namusumdur. Mənim namusumla oynamayın!

Hamı başını aşağı dikmişdi. Təkcə Fatimə kədərlə oturanlara göz gəzdirirdi. Baxışları Xanəlinin baxışları ilə toqquşanda, özünü itirib gözlərini döşəmədəki xalçaya dikdi. Ancaq Xanəli heç ona baxmırdı, deyəsən. Eləcə, qaşqabağını turşutmuş halda gözlərini bir nöqtəyə zilləyib durmuşdu.

Bir azdan Ağaşamilin göstərişi ilə Cahangir, Xanəli və Səxavət arvad-uşaqları ilə birlikdə ayağa qalxıb öz evlərinə getdilər. Hicranla uşaqları isə gecəni Ağaşamilin mənzilində qalacaqdılar.

## İyirmi səkkizinci fəsil

Nihatınkından fərqli olaraq, Sənihənin meyitini sahiblərinə gec vermişdilər. Zəkixan, oğlanları, bir də Ələkbərin xalası uşaqları hava qaralana kimi morqun həyətində dayanıb gözləməli olmuşdular.

Zəkixan gəlininin meyitini alan kimi maşına qoydurmuş, yol haqqını da verərək, rayona - qardaşının yaşadığı kəndə göndərmişdi. Nə özü meyitlə getmiş, nə də oğlanlarını qoymuşdu getməyə. Rayona gedən adamlarla qardaşına xəbər də göndərmişdi: «Qancığının leşinə yiyə dur, məni biabır elədi tanış-biliş içində!»

Sonra yığışıb evə gəlmişdilər. Ən yaxın qohumlar gəlib



downloaded from KitabYurdu.org

onlara baş çəkmiş, yalnız gecə
keçəndən sonra evdə sakitlik yaranmışdı. Qəfil faciə hamısını elə sarsıtmışdı ki, nə aclıqları, nə yuxusuzluqları yadlarına düşürdü.

Zəkixan köhnə divanda oturub təsbehini çevirirdi. Gün ərzində keçirdikləri əsəb, sarsıntı və yorğunluqdan üzülmüş Ələkbərlə Fərhad da yanında idilər. Nisə arvad, Kamilə, Əsmər, bir də Ələkbərin on bir yaşlı qızı Vahidə bir küncdə büzüşüb oturmuşdular. Əsmərin on dörd yaşlı oğlu Elşadla Ələkbərin ondan bir yaş kiçik oğlu Vahid isə o biri otaqda idilər.

Belə görünürdü ki, ailə artıq Sənihədən əlini çəkmişdi. Onun ölümünə yanmır, onu evin gəlini hesab etmirdilər. Hamının dərdi Qanturalla bağlı idi. Bilirdilər ki, tutacaqlar onu gec-tez. Onun bu saat
harada olması və başına nələr gəlməsi maraqlandırırdı onları...

- Oğlum necə bədbəxt oldu, necə yerlə-yeksan oldu balam! - Nisə arvad əllərini dizinə vurub, neçənci dəfə idi ki, nalə çəkirdi.

Kamilə qayınanasını sakitləşdirməyə çalışdı:

- Yaxşı, ay ana, özünə zülm eləmə bu qədər. Allaha şükür ki, özü sağ-salamatdır. Tutacaqlar, canı sağ olsun, cəzasını çəkib çıxacaq. Nə yaşı var ki, hələ?..

Nisə arvad başını yırğalaya-yırğalaya zarıdı:

- Bu itin doğduğu o vaxt özünü sırıdı balama, bir gün görmədi balam onunla. Axırı da özünü gorbagor elətdirib, yazıq uşağı bədbəxt elədi.

Zəkixan dinmirdi, eləcə təsbehinin dənələrini çevirməklə məşğul idi. Ələkbər isə, neçə dəfə, artıq


downloaded from KitabYurdu.org

ölüb getmiş olsa da, Sənihənin dalınca asıb- kəsmişdi. İndi yenə də dözmədi:

- Əşi, südü xarab olub də!.. Südü xarab olub qancığın!

Fərhad hələ də dərk edə bilmirdi baş vermiş hadisənin mahiyyətini. Ona yuxu kimi gəlirdi bu gün gördüklərinin hamısı. Ömründə belə ağır günü olmamışdı heç! Dərd, qorxu, həyəcan, sarsıntı, fiziki yorğunluq... Hamısını görmüşdü bu gün Fərhad.

Fikirləşdi ki, indi bu saat uzaq rayonda - əmisigildə vay-şivən qurulub. Əmisinin halına acıdı. Yazıq kişi! Yazıq! Sonra qardaşı haqqında fikirləşdi. İndi haradasa gizlənib yəqin. Ancaq nə vaxtadək gizlənə biləcək? Qanturalın hərəkətinə haqq qazandırmırdı Fərhad. Onun fikrincə, gərək Qantural səbirli olaydı. Evinə soxulmuş o alçağa bir-ikisini
çəkib qovaydı, sonra da arvadını boşayıb yola salaydı rayona. Bu özü elə qeyrətli bir hərəkət olardı, Fərhadın fikrincə. Guya Qantural daha qeyrətli hərəkət göstərməklə nəyə nail olmuşdu ki?.. Budur, anası, bacısı bu vəziyyətə düşüb... Atasını infarkt öldürməsə yaxşıdır. Kişi heç nə deyib-danışmasa da, hər şeyi içinə salır... Hələ polisdən də onları get-gələ salıb incidəcəkdilər. Qantural bütün bunları düşünsəydi, bəlkə də o hərəkəti etməzdi... Həm də... O cür qəddarcasına! Fərhad qardaşının kobud və dəlisov olduğunu bilirdi, amma bu qədər qəddar, əzazil olduğunu ağlına da gətirməzdi.

Yadına bir ay əvvəl özünün başına gəlmiş o biabırçı əhvalat düşdü. Nə idi o kişinin adı?.. Hə, Sədulla... Sədullanın qan-tər içində dovşanın dalınca qaçmasını, özünün əclafcasına döyülməsini



downloaded from KitabYurdu.org

xatırladı. Xüsusilə, o arıq, danışanda sanki çənəsi laxlayan oğlan neçə gecə yuxusuna girmişdi ondan sonra.

Həmin gün o bağdan çıxıb, şəhərə gələn yola çatana kimi nə qədər piyada yol gəlmişdi Fərhadla Sədulla... Yol boyu hər ikisi bir-birlərindən utandığı üçün, demək olar ki, heç nə danışmamışdılar. Əksinə, tələsik bir avtobus dayanacağına çatıb, şəhərə gəlmək, bir-birindən tez ayrılmaq istəmişdilər.

Bağdan bir qədər aralandıqdan sonra Fərhadın üzünə baxmayan Sədulla başını əsdirə-əsdirə gülüb demişdi:

- Ancaq nə yaxşı elədim, dovşanı buraxdım yerə?! İndi canları çıxsın, özləri tutsun, görüm necə tuturlar... Ha-ha-ha!

Ancaq o cür ki, o gülmüşdü, ağlasaydı ondan yaxşı olardı. Onun bu yalançı gülüşündə Fərhad o qədər ağrı-acı hiss etmişdi ki, öz dərdi, az qala, yadından çıxmışdı.

Bir az dinməzcə gedəndən sonra Sədulla ikinci dəfə dillənmişdi:

- Gördün, şax üzünə dedim ki, get özün tut dovşanuvu! Qoy canı çıxsın, getsin tutsun! Guya onun puluna-zadına qalmışam. İt oğlu it!.. Elə bu telefonumu satsam, gör nə qədər çörək eləyir... Gördün, dedim azərbaycanlı qanı yoxdu səndə... Hünəri var idi cavabımı qaytaraydı. Mənim beləliyimə baxma, özüm baş qoşmaq istəmədim onlara...

Fərhad ona heç bir cavab verməmişdi və sonra ayrılana kimi heç nə danışmamışdılar. Hə... Bağ həyətindən çıxanda Fərhad o boz «Mersedes»in nömrəsini götürmüşdü. Özünə söz vermişdi ki, o oğlanı tapıb cəzasını verəcək. Amma sonra düşünmüşdü ki, həmin oğlan bir harınlamış əclafın oğludursa, ona ziyan yetirməklə özünü,



downloaded from KitabYurdu.org

hələ üstəlik atasını, anasını, bacısını pis vəziyyətdə qoyacaq. Hələ bəlkə elə olacaq ki, qeyrət, kişilik naminə atdığı addım axırda qeyrətsizliyə gətirib çıxaracaq. Bütün bunları dönə-dönə fikirləşəndən sonra, unutmağa çalışmışdı o hadisəni. Atası bir sözü tez-tez deyirdi ki, sizə ziyan vuran adamı, özünüz cəzalandırmağa tələsməyin, çalışın, Allaha tapşırın onu... Qoy Allah cəzasını versin! Fərhad o gündən həmin oğlanı Allaha tapşırmışdı. Ancaq bununla belə, həmin gün o oğlan tərəfindən o şəkildə təhqir olunmasını unuda bilmirdi və yəqin ki, ömrünün axırınadək unuda bilməyəcəkdi. Bir də pis olan o idi ki, Fərhad həmin oğlanı tanımırdı və Allahın ona nə kimi cəza verəcəyindən də xəbər tutmayacaqdı...

Zəkixan kişi dərindən ah çəkib ayağa qalxdı və üzünü Kamiləyə tutdu:

- Mən namazımı qılım, sən də qalx çaydan- çörəkdən ver bu uşaqlara. Allahın ətəyindən əlinizi üzməyin. O özü hər şeyi yoluna qoyacaq!

Sonra namaz qılmaq üçün o biri otağa keçdi. Kamilə ağır-ağır ayağa qalxıb yemək tədarükünə başladı. Əsmər istədi qalxıb ona kömək etsin. Ancaq tez də fikrindən daşındı. Heç nəyə həvəsi yox idi bu saat...

Yadına qanlı hadisənin baş verdiyi həmin gün Sənihə ilə telefonla danışmağı düşmüşdü. Qanturalgillə az əlaqə saxlayır, telefonla da az danışırdılar. Amma o axşam Sənihə özü zəng eləmişdi qayınatasıgilə. Telefonu Əsmər götürdü və on dəqiqəyə kimi söhbət elədilər. Sənihə dedi ki, Qanturalla toya gediblərmiş, özünü narahat hiss etdiyi üçün o qayıdıb,



downloaded from KitabYurdu.org

Qantural isə qalıb şadlıq evində.

Sonra nə dedi onda? Hə, deyəsən, dedi ki, elə bil indi də ürəyimi tutub sıxırlar. Rahat ola bilmirəm, dedi, nəsə... Onda Əsmər ona ürək-dirək verib dedi ki, narahat olma, belə şeylər olur adamda. Deməli, belə çıxırdı ki, bu həyasız onda oynaşını gözləyirmiş... Ona görə narahat imiş ürəyi... Utanmayıb, hələ bir, baldızı ilə də bölüşüb öz narahatçılığını...

Əsmər bu gün qardaşından ötrü o qədər başına, dizinə döymüşdü ki, hey qalmamışdı onda. İndi isə
Qantural haqqında düşünəndə özünü saxlaya bilmədi və göz yaşları qayadan süzülən bulaq kimi qaynamağa başladı. Astadan:

- Can, ay qardaş! - dedi. - İndi harada gizlənmisən? Bacın sənə qurban olsun, hara qaçacaqsan dövlətin əlindən?!

Ələkbərgil evə qayıdandan bir az sonra polis işçiləri gəlib Zəkixanın evini və həyətdəki kirayənişinlərin otaqlarını axtarıb getmişdilər. Qantural hələ tapılmamışdı...

Ələkbər qardaşının öz maşını ilə hara gedə biləcəyi barədə nə qədər baş sındırsa da, bir yana çıxa bilmirdi. Qanturalın Bakıda və müxtəlif kənd rayonlarında dostları, əsgərlik və müharibə yoldaşları çox idi. Görəsən, onların hansına pənah aparmışdı Qantural?..

İyirmi doqquzuncu fəsil

Baş vermiş dəhşətli cinayət hadisəsi ilə əlaqədar cinayət işi açılmışdı. Qanturalın tezliklə tutulub, istintaqa cəlb edilməsi üçün polis idarəsində əməliyyat-axtarış qrupu yaradılmış, baş əməliyyat müvəkkili Canəli



downloaded from KitabYurdu.org

Qismətov qrupun rəhbəri təyin edilmişdi.

Hadisənin aşkar edilməsinin səhəri günü mayor Qismətovun kabinetində Qanturalın qonşusu Bəhmənin dindirilməsinə başlandı. İstintaqda müstəntiq Eldar İmanov və əməliyyat müvəkkili Allahverdi Əbilov da iştirak edirdi.

Dünənki sarsıntının izləri Bəhməni hələ də tərk etməmişdi. Hələ də həyəcanlı idi və danışanda dili topuq vururdu. Bir neçə ənənəvi giriş sualından sonra müstəntiq əsas məsələyə keçdi:

- Deyin görüm, qonşunuz Qanturalı və həyat yoldaşı Sənihəni axırıncı dəfə nə vaxt görmüsünüz?

- Aprelin 30-da! - Bəhmən düşünmədən cavab verdi.

- Necə görmüsünüz, ətraflı danışın.

Bəhmən istintaqa əvvəlcədən hazırlaşıbmış
kimi, o saat danışmağa başladı:

- Mən marşrut avtobusda sürücü işləyirəm. Bir gün işdə oluram, bir gün də evdə. Həmin gün də evdə idim. Qanturalın arvadı ilə toya getməsindən xəbərim var idi. Özü demişdi. Qonşu kimi münasibətimiz yaxşı olub həmişə. Düzdür, bir az kəmhövsələliyi var, axır vaxtlar lap pis olmuşdu içkiyə başladığına görə, amma insafla deyəndə, mənimlə pis olmayıb. Həm də ikimiz də sürücüyük, necə olmasa...

Bilirsiniz də, taksi sürürdü Qantural. Hə, o gün siqaret çəkmək üçün tez-tez balkona çıxırdım. Evdə oturduğum günlər həmişə darıxıram, nədənsə. Saat on birin yarısı olardı, gördüm o bədbəxt qızı piyada evə gəlir. Qanturalın arvadını deyirəm... Hə, bir az təəccübləndim ki, görəsən, niyə əri ilə yox, tək qayıdır toydan. Gəlib bloka girdi.



downloaded from KitabYurdu.org

Vəssalam! Onu axırıncı dəfə belə görmüşəm.

- Saat neçədə oldu bu? - kapitan Əbilov sual verdi.

- Təxminən, on birin yarısında.

-Yaxşı, davam edin!

- Arada otağa girib çıxsam da, yenə balkonda oturub çay içirdim. - Bəhmən davam etdi. - Elə təzəcə çıxmışdım balkona, deyəsən. Arvadının gəlişindən bir saat, ya bir az artıq keçmiş olardı,

gördüm, Qantural öz maşını ilə gəldi. Maşını blokun qabağında saxlayıb, evə çıxdı... Bir az keçmiş, maşın pultunun səsini eşidib, aşağı boylandım. Gördüm ki, Qantural maşınına minir. Əlində də bir çanta var idi. Maşınını sürüb getdi...

- Binaya daxil olandan nə qədər vaxt keçmişdi o çıxanda? - müstəntiq sual verdi.

-Yarım saat olardı... - Bəhmən dedi.

- Ola bilməz, bir az yaxşı fikirləşin!

- Yox, azı yarım saat keçdi. - Bəhmən inamla dilləndi. - O içəri keçəndən sonra mən çayımı içib, otağa girdim. Bir az televizora baxıb yenə balkona çıxdım. O gedəndə saat 12-ni təzəcə keçmişdi. Televizorda «xəbərlər» başlamışdı...

Başda oturub, bayaqdan danışmayan və yalnız Bəhmənə diqqətlə qulaq asan Canəli soruşdu:

- Sən, Qantural gedərkən, onun sifətindən, ya hərəkətindən şübhəli bir şey hiss eləmədin? Fikirləşmədin ki, qonşum gecə vaxtı hara gedir?

Bəhmən müstəntiq İmanovdan fərqli olaraq, mayorun bir qədər kobudluqla verdiyi sualdan özünü itirdi:

- Mən onu elə vaxt gördüm ki, artıq maşına minirdi.



downloaded from KitabYurdu.org

Arxası mənə tərəf idi. Həyət də alaqaranlıq... Onun üzündə, ya hərəkətində bir şübhəli şey görə bilməzdim. Amma sizin dediyiniz kimi, mən də fikirləşdim ki, gəldiyi yarım saatdır, gecə vaxtı, belə tələsik hara gedir, görəsən? Sonra gedib yatdım. Səhər işə çıxmalıydım. Ondan sonra daha Qanturalı görməmişəm.

- Onun əlindəki çanta nə cür çanta idi? - kapitan Əbilov sual verdi.

- Qara rəngli çanta idi. - Bəhmən cavab verdi. - Belə, necə deyim, adamlar indi səfərə çıxanda çiyinlərindən asırlar ha, bax elə çanta idi. Orta böyüklükdə.

- Qantural o gün əyninə nə geymişdi? - yenə sualı Əbilov verdi.

- Ağ, qısaqol köynək idi əynində. - Bəhmən dedi. - Bir tərəfində qırmızı, bir tərəfində göy zolaq var idi.

- Yaxşı yaddaşınız var! - Müstəntiq İmanov gülümsədi.

Onun xoş rəftarı Bəhməni də bir az sakitləşdirdi:

- O bizim işimizlə əlaqədardır, cənab müstəntiq, marşrut sürücüləri yaddaşlı olmalıdır.

- Niyə? - müstəntiq maraqlandı.

- Bir də görürsən, biri düşür, başqa bir sərnişini göstərir ki, pulunu o verəcək. Ya da əksinə, kimsə düşəndə başqasının pulunu verir. Gərək yadda saxlaya biləsən bunları.

- Hə, ona görə? - İmanov başını yellədi və üzünü əməliyyat müvəkkilinə tutdu: - Başqa sualınız yoxdu ki, Bəhmənə?

- Var, - kapitan Əbilov qovluğundan Nihatın şəklini çıxarıb Bəhmənə göstərdi. - Dünən bu adamı tanıya bilmədin sən. Amma yenə bir diqqətlə bax, o gün bunu


downloaded from KitabYurdu.org

binanıza girən görmüsənmi?
- Yox. - Bəhmən başını yırğaladı.
- Bəs, başqa vaxt?
- Yox, heç vaxt görməmişəm onu.

- Qanturalın arvadı barədə nə deyə bilərsən? Onun əvvəllər də evə yad kişiləri gətirdiyi olubmu?

- Yox, yox! - Bəhmən başını silkələdi. - Elə şey nə eşitməmişəm, nə görməmişəm!

- Mənim başqa sualım yoxdur. - kapitan Əbilov müstəntiqə baxdı.

Müstəntiq üzünü mayor Qismətova tutdu:
- Bəs sizin?

- Hər şey aydındır! - Canəli Bəhməni hakimanə nəzərlə süzdü. - Amma sən onun qonşusu olmusan. Münasibətiniz yaxşı olub. Sən bilməlisən ki, o indi harada gizlənə bilər!

Bayaqdan bir qədər sakitləşib arxayınlaşmış Bəhmən yenə narahatlıqla büzüşdü:

- Rəis, mən onunla, elə-belə, qonşu kimi yaxın olmuşam. Onun nə qohumları, nə dostları haqqında məlumatım yoxdur.

- Olmamış olmaz?! - Canəli kinayə ilə gülümsədi.
- Oğlumun canı üçün, xəbərim yoxdu, rəis!

- Qoy getsin bu! - müstəntiq əlini yellədi: - Qantural, hər halda, o qədər də avam deyil ki, qonşusunun bildiyi yerdə gizlənsin.

İstintaq protokoluna qol çəkdikdən sonra Bəhməni buraxdılar. On dəqiqə keçmiş, onun yerində artıq, başqası oturmuşdu. Bu, Qanturalgilin bloku ilə üzbəüz köşkdə çörək satan kəlbəcərli qadın idi.

Müstəntiq İmanov ümumi tanışlıqdan sonra qadına


downloaded from KitabYurdu.org

mehribanlıqla baxıb, onu söhbətə tutmaq istədi:

- Ay ana, torpaqları geri alandan sonra qayıdacaqsanmı Kəlbəcərə?

- Boy?! - qadın təəccübləndi. - Niyə qayıtmıram, a bala?! Elim-obam döyülmü? Atamın, anamın, ərimin qəbri orada qalmayıbım?

Müstəntiq qadının yarasına toxunduğuna peşman oldu:

- Darıxma, ay ana, darıxma, qayıdarsan, inşallah! Ancaq, düzünü de, orada yaxşı yaşayırdın, yoxsa burada?

- Əlbəttə, orada! - qadın yenə təəccübləndi. - Orada təmiz bal yeyirdik, qaymaq yeyirdik, qoyun südü içirdik... Burda yediyimiz nədir? Kolbasa, iylənmiş pendir...

Müstəntiq bir qədər susub fikrə getdi. Sonra, nə düşündüsə, birdən-birə mətləbə keçdi:

- Özün bilirsən, səni nəyə görə çağırmışıq... Mümkünsə, yadına sal görüm, aprelin 30-da çörək satdığın köşklə üzbəüz bloka kimləri girib-çıxan görmüsən?

Çörək satan qadın bu sualı gözləyirdi və dərhal danışmağa başladı:

- Axşam saat 10-a lap az qalmışdı, gördüm, mixəyi rəngli bir xarici maşın gəlib həmin blokun qapısından bir az aralı dayandı. Əynində göy köynək olan bir kişi tələsik düşüb bloka girdi.

- Nə maşını idi o? - müstəntiq soruşdu.

- Vallah, bu təzə maşınların adını bilmirəm, - qadın üzünü turşutdu. - Amma o maşın düz üç gün orada qaldı. Dünən polislər apardılar onu.

- Sonra?

- Bir az sonra mən də çıxıb getdim evimizə.



downloaded from KitabYurdu.org

- O öldürülən qadını, onun ərini tanıyırdın?

- Hə, bala, tanıyırdım. - Qadın köksünü ötürdü. - Adamları yaxşı tanımaq olmurmuş. Baxanda pis gəlinə oxşamırdı.

- Bəs o gecə onların heç birini evə qayıdan görməmisən?

-Yox...

Kapitan Əbilov söhbətə qarışmağa məcbur oldu:

- Deyirsiniz, saat 10-a qalmışdı o kişi gələndə?

- Hə, qadanı alım! - çörəksatan başını tərpətdi.

- Bu bir az düz çıxmır axı?! Yaxşı fikirləşin, bəlkə gec gəlib o adam?

- Yox, ay bala, mən həmişə evə saat 10-da gedirəm.

Allahverdi Əbilov çiynini çəkib, müstəntiqə baxdı və stolun üstündən Nihatın şəklini götürüb qadına göstərdi:

- Gördüyünüz o adam bu idi?

- Ola bilər, sənə qurban olum, üzünü yaxşı görmədim.

- Özünü şübhəli aparmırdı ki?

Qadın bir az duruxdu:

- Nə deyim, vallah, maşından düşən kimi o yan- bu yana baxıb, bloka girdi. Əlində də nəsə var idi.

- Nə? - müstəntiq cəld soruşdu.

- Deyəsən, qara rəngli çanta idi.

Müstəntiqlə kapitan Əbilov mənalı tərzdə baxışdılar.

- Qara rəngli? - Əbilov soruşdu.

- Hə... - qadın ani olaraq düşünüb cavab verdi. - Qara idi, mən bilən...

- Daha nə şübhəli şey görmüsünüz o gecə?

- Daha heç nə!


downloaded from KitabYurdu.org

- Bu vaxta qədər o qadının yanına gəlib-gedən görmüşdünüzmü?

- Yox, yox, görüb-eləməmişəm!

- Sən gedə bilərsən, ay ana! - müstəntiq dedi. Qadın ayağa qalxdı. Qapıya doğru bir addım atıb, yenə Eldar İmanova tərəf döndü:

- Sən özün haradansan, ay bala?

İmanov gülümsədi:

- Göyçaydan... Nədi ki?

- Heç... - qadın duruxdu. - Bayaq mən Kəlbəcərdən danışanda yaman pis oldun, dedim bəlkə sən də oralardansan...

- Nə fərqi var, ay ana, - müstəntiq ah çəkdi. - İndi, əslində, biz hamımız Kəlbəcərliyik, Laçınlıyıq, Cəbrayıllıyıq... Ağdamlıyıq... Özün yaxşı bilirsən, adamın bir yeri ağrıyanda, elə bilir canı oradadır. Bu yerlər də indi bizim ağrıyan yerlərimizdir...

- Düz deyirsən, bala...

Qadın kədərli halda sağollaşıb otaqdan çıxdı. O çıxan kimi Canəli kinayə ilə qımışıb dedi:

- Bu qara çantada nə olubmuş, görəsən? Yoxsa Nihat adaxlıbazlığa pay-parça ilə gəlibmiş?..

Onun kinayəsinə heç biri cavab vermədi. Bir az susandan sonra kapitan Əbilov fikirli halda başını yellədi:

- Məni düşündürən bu qadının dediyi vaxt məsələsidir. Deyir ki, Nihat saat 10-a qalmış girib binaya. Əgər biz Qanturalın qonşusuna da, bu qadına da inanmalı olsaq, məntiqə görə belə çıxır ki, Nihat Sənihədən yarım saat tez gəlib mənzilə...

Allahverdi Əbilov haqqında çox eşitmiş, ona həm



downloaded from KitabYurdu.org

vətənpərvər insan, həm də bacarıqlı əməliyyatçı kimi hörmət edən müstəntiq öz fikrini bildirmək istədi:

- Bunun çox sadə məntiqi izahı ola bilər, Allahverdi. Binaya girmək, hələ mənzilə girmək deyil. Ola bilsin, o blokda Nihatın başqa tanışı var.

- Hər ehtimala qarşı, biz yoxlayarıq. - Əbilov dedi. - Amma mən heç inanmıram Nihatın o blokda başqa tanışı olsun.

- Bəs onda sən nə fikirləşirsən? - müstəntiq maraqla soruşdu.

- Mənim fikrimcə, Nihatda o mənzilin açarı olub.
- Haradan?
- Ola bilsin, Sənihə verib...

- Axı elə bir açar tapılmayıb, onun cibindən? - Canəli Qismətov söhbətə qarışdı.

- Yəqin, Qantural gedəndə aparıb onu. - Əbilov dedi.
- Niyə?

Kapitan bir an duruxub, Canəlinin sualına öz məntiqiylə cavab axtardı. Amma nəticədə tapmayıb, başını buladı:

- Bilmirəm...

Müstəntiq İmanov ayağa qalxıb, stolun üstündəki nazik portfelini götürdü:

- Mənim fikrimcə, bizim burada müzakirə açmağımız, hələ tezdir. Sabah prokurorun yanında bu işlə əlaqədar müşavirə olacaq. O vaxta qədər bizim üçün qaranlıq qalan məqamları işıqlandırmalıyıq. Mən xahiş edirəm, Qanturalın yaşadığı blokda bütün mənzilləri gəzib, hamı ilə söhbət aparın. Öyrənin görək, Nihatın orada tanışı var, ya yox...



downloaded from KitabYurdu.org

Sənsə, Allahverdi, bu gün Nihatın işləmiş olduğu bank filialına gedib, işçilərlə söhbət et. Əsasən, o gün toyda olanlarla. Səni öyrətmək artıqdır, özün hər şeyi məndən yaxşı bilirsən. Əsas məqsəd, Nihatla Sənihənin arasında olmuş münasibəti öyrənməkdir.

İmanov gedəndən sonra mayor Qismətov leytenant Nəsirovu başqa bir polis işçisi ilə Qanturalın yaşadığı binaya göndərdi. Onlar həmin blokda yaşayan bütün sakinlərlə söhbət aparıb, Nihatın o gecə Qanturalın mənzilinə girməzdən əvvəl hansı mənzildə ola bilməsini müəyyən etməli idilər.

Kapitan Əbilov isə polis idarəsindən çıxıb, Mazanov bankının yaxınlıqdakı filialına getdi.

Xədicə toydan sonra bu gün, birinci dəfə işə çıxmışdı. Hadisədən xəbəri var idi. Rəfiqəsinin və eyni zamanda müdirinin faciəli ölümü, bu ölümlərə səbəb olan xoşagəlməz və biabırçı iş onu sarsıtmışdı. Bu onun xarici görünüşündən də, davranışından da açıq-aydın hiss olunurdu.

Hadisədən Amerikada xəbər tutmuş Əli Mazanov telefonla, işçilərdən Oqtay adlı birini müvəqqəti olaraq müdir təyin etmişdi. Kapitan Əbilov yeni müdirdən xahiş etdi ki, Xədicə ilə asudə söhbət etmək üçün ona imkan yaratsın. Oqtay məmnuniyyətlə razılaşıb, kabineti onun ixtiyarına verdi və Xədicəni də ora göndərib, özü işçilərin yanında qaldı.

Polis kapitanı ilə üz-üzə oturmuş Xədicə toy günü şadlıq sarayında görüb müşahidə etdiklərini ona danışdı. Əbilov qorxu və həyəcandan daxili titrəməsi hələ də kəsilməyən, ilk evlilik günlərinin xoşbəxt duyğularından



downloaded from KitabYurdu.org

məhrum olmuş dörd günün gəlininə diqqətlə qulaq asıb, bəzi məqamları dəqiqləşdirmək üçün sual verdi:

- Xədicə xanım, siz deyirsiniz ki, Nihat toydan doqquza iyirmi dəqiqə qalmış çıxdı. Bu dəqiqdirmi?

- Bəli. - Xədicə dilləndi. - O çox tez çıxdı. Təəccübləndiyim üçün saata baxdım. Hətta incidim də ondan...

- Bəs Sənihə?

- Sənihə saat 11-ə işləmiş getdi. O qalxıb mənə yaxınlaşanda saata baxdım. Dedim, hələ saat 10- dur, niyə belə tez gedirsən? Bir az söhbət edib çıxdı.

Kapitan düşündü ki, saat 11-ə işləmiş şadlıq sarayından çıxan Sənihə öz binalarına 11-in yarısında giribsə, deməli, sarayla evin arasında 20 dəqiqəlik yol var. Nihat isə bloka təxminən saat 10- da daxil olub. Doqquza iyirmi dəqiqə qalmış toydan çıxıbsa, deməli, haradasa, bir saata yaxın ləngiyib... Niyə? Xədicə deyir ki, çıxmazdan əvvəl kimsə ona zəng vurub. O adamın kim olduğunu elə bu gün öyrənmək lazım idi. Əslində Nihatın cib telefonunda həmin zəngin tarixi qalmışdı. Gizlədilmiş nömrədən gəlmişdi həmin zəng...

Ancaq polis idarəsi o nömrəni bu gün biləcəkdi.

Xədicənin əhvalı yaxşı deyildi. Əbilov ona içmək üçün su təklif edib, növbəti sualını verdi:

- İdarədə onların münasibəti necə idi? Nihatla Sənihənin.

- Normal idi. - Xədicə dedi. - Bir pis şey duymamışdım onların davranışında.

Əbilov bilirdi ki, belə suala Xədicədən əsl düzgün cavabı almaq çətindir. Ancaq geri çəkilmək fikrində də



downloaded from KitabYurdu.org

deyildi:

- Bəs necə olur ki, Sənihə öz mənzillərinin açarını ona verir?

- Veribmiş? - Xədicə heyrətləndi. - Ola bilməz!

- Bəli, verib! - Allahverdi başını yelləməklə də sözünü təsdiq etdi.

Xədicə bir qədər fikrə daldı. Toydan iki gün əvvəl, cümə günü gördüyü epizodu xatırladı. O da, Sənihə də öz çantalarını oturduqları stulun arxa tərəfindəki şkafın açıq rəfinə qoyurdular. O gün Xədicəyə elə gəldi ki, arxalarına keçən Nihat
Sənihənin çantasına əl uzatdı. Onda Xədicə bu gördüyünə inanmaq istəməmişdi.

İndi isə... Bilmirdi bunu polis kapitanına danışsın, yoxsa yox...

- Xahiş edirəm, məndən heç nə gizlətməyin! - Xədicənin nəyisə gizlətdiyini duymuş Əbilov mehribanlıqla dedi. - Bizim işimiz elədir ki, bizdən nəyisə gizlətmək, onsuz da mümkün olmur. Görürsünüz, mən sizə hörmət qoyub, sizi danışdırmaq üçün özüm buraya gəlmişəm. Ancaq sizi polisə də çağırtdıra bilərdim. Bütün bildiklərinizi, bütün şübhələrinizi mənə burada deyin, sizinlə qurtaraq. Yoxsa sizi rəislər, müstəntiqlər hələ çox get-gələ salacaqlar.

- Yox, xahiş edirəm, elə etməyin! - Xədicə yalvardı. - Təzə ailə qurmuşuq. Yoldaşım da
qısqancdır.

- Onda nə bilirsiniz, mənə danışın. Söz verirəm ki, sizi incitməyəcəyik.

Xədicə, cümə günü gördüyü həmin epizodu əməliyyat



downloaded from KitabYurdu.org

müvəkkilinə danışdı. Lakin sonda özü öz sözünün əksinə çıxdı:

- Düzdür, mənə elə gəldi ki, o çantaya əl uzatdı. Ancaq o, açarı götürmüş olsaydı, Sənihə bunu evə gedəndən sonra da olsa, bilərdi axı?!

- Bu saat neçədə olmuşdu? - Əbilov soruşdu. - Təxminən, gündüz saat 10-11 arasında.

- Yaxşı, daha nə deyə bilərsiniz mənə?

Xədicə Qanturalın keçən bazar ertəsi ofisə gəlməsi və Nihatın kabinetində ciddi söhbət aparmalarını da kapitana danışdı.

- Baş açmadınız ki, Nihat Qanturala «Onu cır at!» deyəndə nəyi nəzərdə tuturdu?

- Xeyr, heç nə başa düşmədim. - Xədicə əli ilə üzünə tökülən saçını geriyə yığdı.

Sonra o, gənc kapitanın onunla çox mehriban rəftarına uyub Sənihənin bir sirr kimi ona danışdığı əhvalatı - Muradla əlaqə məsələsini də Allahverdiyə çatdırdı. Hətta Sənihənin ərinin gizlətdiyi bıçağı ona göstərməsini də...

Ona çox maraqla qulaq asan Əbilov:

- O necə bıçaq idi? - deyə soruşdu.

- Uzun bıçaq idi. Dəstəyində «Q+S» yazılmışdı.

- Deməli, Qantural o əhvalatla əlaqədar arvadını tez-tez incidirmiş?

- Bəli... - Xədicə ah çəkdi. - Günü qara idi yazığın.

- Siz toy günü Sənihənin belə tez, ərindən qabaq çıxıb getməsindən şübhələnmədiniz?

- Doğrusu, yox... - Xədicə başını yellədi. - Dedi, narahatdı, nəsə. Elə, doğrudan da, narahat görünürdü. Mən elə başa düşdüm ki, yenə köhnə məhəbbəti, uğursuz taleyi



downloaded from KitabYurdu.org

yadına düşüb. Həm də ərinin başı Məcidlə söhbətə bərk qarışıq idi. Bizim işçiylə.

- Deyirsiniz, Məcid olmasaydı, Qantural da arvadıyla çıxacaqdı?

- Yəqin ki! - Xədicə dedi. - O, Məciddən ayrıla bilmirdi. Elə hey içirdilər. Məcid nəsə danışırdı.

Kapitan Əbilovun daha Xədicəyə verməyə sualı qalmamışdı. Bu gənc qadının danışdıqlarının bəzisi baş vermiş cinayətin mahiyyətini aydınlaşdırır, bəzisi isə, əksinə, daha da qaranlıqlaşdırırdı.

Ayağa qalxıb, onunla sağollaşdı:

- Sağ ol bacım, xoşbəxt ol!

- Dəyməz! - Xədicə də ayağa qalxıb ağızucu gülümsədi.

- Xahiş edirəm, çıxanda o Məcidi mənə göstərin.

-Yaxşı!..

Onlar ümumi iş otağına keçəndə Xədicə Məcidi kapitana göstərdi. Əbilov bu gənc oğlana yarım saat sonra polis idarəsinə gəlməyi tapşırıb ofisdən çıxdı. Bank filialı ilə polis idarəsinin arasındakı o qədər də uzun olmayan məsafəni yenə piyada addımlamağa başladı.

Kapitan Əbilov yol boyu, möhkəm ürəkli və qanlı cinayətlərlə dəfələrlə üzləşmiş polis işçilərini belə həyəcanlandırmış amansız qətl hadisəsini gözləri önündə canlandırmağa çalışdı. Toydan sərxoş vəziyyətdə çıxıb evə qayıdan Qantural öz açarıyla mənzilin qapısını açıb, içəri girir. Murad adlı həmin oğlanla əlaqəsinə görə onsuz da tez-tez incitdiyi, şübhələndiyi arvadını Nihatla yataqda görəndə son dərəcə qəzəblənir. Şkafda gizlətdiyi bıçağı götürüb, Nihatı sinəsindən vurur. Sonra arvadının



downloaded from KitabYurdu.org

üstünə şığıyıb onun başını kəsir. Daha sonra Nihatın başını...

Bütün bunlar tamamilə aydın olan bir məsələ idi. Amma Nihatın həmin gecə o mənzilə getməsinin özündə nə isə bir qəribəlik, bir anlaşılmazlıq var idi. Əbilov Nihatın və Sənihənin etdiyi ağılsız hərəkəti anlayır və qəbul edirdi. Çünki öz təcrübəsində bu vaxta qədər çox-çox məntiqsiz, ağılsız hərəkətlərlə qarşılaşmışdı. Hamının ağlı eyni olmur və hamıdan
ağıllı, məntiqli hərəkət gözləmək də düzgün deyil. Ancaq bu qara çanta nəyə lazım idi? Nə var imiş onun içində? Nihat niyə mənzilə Sənihədən əvvəl girib? Ya bəlkə heç ondan əvvəl girməyib? Əgər girməyibsə, bəs onda harada, hansı mənzildə olub yarım saat? Blokda dayanıb gözləsəydi, onu görən olardı axı?! Kim bilir, bəlkə də görüblər. Bu axşam məlum olacaq. Nəsirov sakinlərlə görüşüb qayıdandan sonra... Bəs bu açar oğurlamaq məsələsi? Doğrudanmı, Nihat mənzilin açarlarını oğurlayıb? Ola bilər... Cümə günü açar oğurlanıb, şənbə-bazar iş yox, həm də bazar günü axşam bu hadisə baş verib.

Əbilov bank filialından bir az aralanmışdı ki, diqqətini yolun kənarında qoyulmuş açar təmiri köşkü cəlb etdi. Birdən-birə ağlına nə gəldisə,
burulub köşkə yaxınlaşdı və açar düzəldən yaşlı kişiyə salam verdi. Kişi polis formasında olan Allahverdiyə zəndlə baxıb salamı aldı.

- Ay əmi, - kapitan mehribanlıqla dilləndi: - Xahiş edirəm, mənim bir sualıma cavab ver.

- Buyur, qardaşoğlu, istəyirsən lap on sualına cavab verim. O da pulla deyil ki? - kişi də mehriban adama



downloaded from KitabYurdu.org

oxşayırdı.

Əbilov qoltuğundakı dəri qovluqdan Nihatın şəklini çıxarıb, kişiyə göstərdi:

- Yadına sal görək, bu adam sənə açar düzəltdirib?

Kişi diqqətlə şəklə baxdı:

- Hə... Düzəltdirib. Nə olub, oğru imiş? Oxşamır axı?!

- Yox, oğru deyil. Nə vaxt düzəltdirib?

- Bir həftədən az olar... - kişi fikrə getdi. - Keçən həftənin axırı idi, deyəsən. Beşinci, ya altıncı gün.

- Düz deyirsən, kişi, saat neçə radələrində gəlmişdi?

- Günortadan əvvəl idi. 11, ya 12 olardı saat.

- Nə cür açar idi?

- Açar idi də... Qapı açarı! - Kişi divardan asılmış açarları göstərdi. - Bunlardan.

- Çox sağ ol, əmi!

- Dəyməz...

Allahverdi yoluna davam edib fikirləşməyə başladı.

Şənbə günü Nihatgil işləmirdi. Deməli, həmin cümə günü olub bu iş... Açarı oğurlayıb, gəlib
burada surətini çıxartdırıb. Yarım saatlıq işdir bu. Sonra açarın özünü qaytarıb qoyub yerinə...

Yaxşı, bəs nə deməkdir bu? O deməkdir ki...
Hər halda, ən azı o deməkdir ki, o gecə həmin mənzildə olan görüş, hər iki tərəfin razılığı ilə olmayıb. Ya, heç bəlkə Nihat Sənihəyə görə girməyib o mənzilə? Xədicənin dediklərini xatırladı. Nihat necə deyibmiş Qanturala? «Özünə də problem yaradarsan, mənə də. Cır at, onları getsin!»
Görəsən, nəyi?..

Yarım saat sonra, polis idarəsindəki kabinetdə Məcidi


downloaded from KitabYurdu.org

danışdırarkən, fikri bir az da qətiləşdi Əbilovun: Nihatın o gecə həmin mənzilə girməkdə ciddi məqsədi var imiş!

Məcid, heç də hər şeyi könüllü danışmadı. Onun nazı ilə oynamağa vaxtı olmayan, bu cinayət işində
qarşısını kəsən qaranlığı tez işıqlandırmağa çalışan kapitan Əbilov onu qorxutmağa məcbur oldu.

Axır Məcid boynuna aldı ki, həmin gün toyda Qanturalı söhbətə tutmaq və onu yubandırmaq barədə Nihatdan göstəriş alıbmış. Müdiri ona bu barədə əlavə bir söz deməsə də, Məcid belə başa düşmüşdü ki, Nihat Sənihə ilə görüşmək istəyir. Sənihənin məclisdən tez durub getməsi də onun fikrini qətiləşdiribmiş.

Məcidi yola salandan sonra kapitan Əbilov yenə onu narahat edən əsas sualla baş-başa qaldı. «Nihat aprelin 30-u gecəsi, Qanturalın mənzilinə niyə girib? Həmin vaxt onun əlində tutduğu qara çantada nə olub?»

Otuzuncu fəsil

Səhəri gün, gündüz saat 10-da müstəntiq Eldar İmanov, əməliyyat müvəkkilləri Canəli Qismətovla Allahverdi Əbilov və tibb eksperti Aqşin Babayev rayon prokurorunun kabinetinə daxil oldular. Polkovnik Mirzəyev Daxili İşlər Nazirliyinə çağırıldığı üçün müşavirəyə gələ bilməmişdi.

Prokuror Atabəy Ataxanov telefonla danışırdı. İçəri girənlərə əlinin hərəkətilə oturmaq işarəsi verib, telefon söhbətini davam etdirdi:

- Yox, sabah şənbədir, saat 5-də buradan çıxsaq, 7-nin yarısında Şamaxıda olacağıq... Elə birbaş «Qoşabulağ»a gedərik. Olmusan orada?.. Yox, əla yerdir. İstirahət mərkəzidir... Əlbəttə, ailəvi



downloaded from KitabYurdu.org

qalmağa yerləri var. Uşaqlar da yaxşı dincələr. Bazar günü axşam çıxarıq oradan... Hə, hazırlaşın, sabah 4-də zəngləşərik... Sağ ol!

Dəstəyi yerinə qoyub, stolun arxasında oturanları bir-bir eynəyinin arxasından ciddi baxışlarla süzdü. Sonra nəzərlərini müstəntiqin üzərində saxlayıb:

- Danış görüm, neyləmisiniz? - dedi.

Eldar İmanov ayağa qalxıb, boğazını arıtlayaraq sözə başladı:

- Cənab prokuror, bir çox faktlar və apardığımız istintaqın nəticələri göstərir ki, hadisə qısqanclıq zəminində baş verib. Hadisə baş verən gecə qətlə yetirilənlər - Ağayev Nihat Ağaşamil oğlu və Təhməzova Səniһə Əlixan qızı, eyni zamanda, qətldə şübhəli bilinən şəxs - Səniһənin əri
Təhməzov Qantural Zəkixan oğlu toyda bir yerdə olublar. Təxminən saat 9-un yarısında Nihatın cib telefonuna zəng gəlib. O, zaldan çıxaraq kiminləsə danışıb və yenidən öz yerinə qayıdıb. Biz həmin vaxt ona hansı nömrədən zəng vurulduğunu müəyyənləşdirdik. Kapitan Əbilov həmin adamı tapıb danışdırıb. Bu əlli yaşlarında qadın imiş. Müəllim işləyən həmin qadın bildirib ki, hadisədən bir gün əvvəl, aprelin 29-da, onun telefonunu avtobusda oğurlayıblar. Əbilov bəzi araşdırmalar apararaq, qadının sözlərinin həqiqət olduğu qənaətinə gəlib.

Nihat 9-a 20 dəqiqə qalmış məclisi tərk edib və onun həmin vaxt haraya getdiyi bizə məlum deyil. Qanturalın yaşadığı blokun qarşısında çörək satan qadın onu saat 10-da bloka girən görüb. Əlində qara rəngli çanta var imiş...

- Çanta? - Ataxanov təəccüblə soruşdu.


downloaded from KitabYurdu.org

- Bəli, yol çantası kimi istifadə olunan orta böyüklükdə qara çanta olub.

- Belə başa düşdüm ki, həmin çanta mənzildə tapılmayıb?!

- Bəli, - müstəntiq cavab verdi. - Çanta bizim əlimizdə deyil və onun içində nə olmuş olduğu da məlum deyil. Qantural qətli törədib qaçarkən onu özüylə aparıb.

- Maraqlıdır... - prokuror çallaşmış, lakin simasına uyuşan səliqəli saçlarını əli ilə sığalladı. - Davam elə!

Müstəntiq bir anlıq fikrə gedib, yenə danışmağa başladı:

- Kapitan Əbilov təhqiqat zamanı müəyyən edib ki, Nihat aprelin 28-də öz işçisi olan Sənihənin çantasından onların mənzilinin açarını oğurlayıb. Sonra onun surətini özü üçün çıxartdıraraq açarı öz yerinə qoyub...

Aprelin 30-da toydan çıxıb, Qanturalın yaşadığı binaya gələn Nihat mənzilin qapısını açarla açaraq, içəri girib. Leytenant Nəsirov yoxlayıb ki, onun həmin blokda başqa heç bir tanışı yoxdur və blok sakinlərindən heç biri ona pilləkənlərdə rast gəlməyib. Bu onu deməyə əsas verir ki, Nihat, doğrudan da, bloka girən kimi yuxarı qalxıb, mənzilin qapısını açaraq içəri daxil olub... Toydan ərindən əvvəl çıxmış Sənihə mənzilə Nihatdan yarım saat sonra gəlib. Yeri gəlmişkən, onu deyim ki, Nihat toyda iştirak edən işçisi Məcidə Qanturalın başını qarışdırıb, toyda yubatmaq göstərişi veribmiş. Nəhayət, Qantural da toydan çıxıb 12-nin yarısında evinə gedib. Mənzilə daxil olarkən, arvadı ilə Nihatı çarpayıda görüb. Şkafdan özünə məxsus olan bıçağı


downloaded from KitabYurdu.org

götürüb onların üstünə hücum çəkib. Əvvəlcə Nihatın sinəsindən bıçaqla zərbə vurmaqla onu öldürüb. Sonra arvadının başını kəsib...

Stolun üstündəki telefon zəng çaldı. Prokuror barmağını qaldırmaqla, müstəntiqə dayanmaq işarəsi verib, dəstəyi götürdü:

- Həl... Yox, heç nə lazım deyil, orada hər şərait olacaq... Kababı onsuz da burada da yeyirik. Sən təmiz baldan, təzə qatıqdan, təndir çörəyindən danış... Nə?.. Altıaylıq çəpiş? Keçi balası? Ha-ha- ha! Deyə bilmərəm, yəqin ki, olar... Bir dəqiqə gözlə...

Dəstəyi qulağından ayırmadan cib telefonunu götürüb kiməsə

zəng vurdu:

- Salam qardaş, necəsən?.. Uşaqlar necədir?.. Şükür!.. Bura bax, sabah, Allah qoysa, bir dostumla sənin yanına gəlirik. Ailəvi. Bu dostumun, deyəsən, könlünə altıaylıq çəpiş düşüb. Təşkil edə biləcəksən? - susub dinlədi. - Hə, yaxşı, hər halda bir baxarsan! Sağ ol!

Cib telefonunu qapayıb, birinci danışdığı adamla söhbətini davam etdirdi:

- Restoran sahibi ilə danışdım. Deyir çəpişin yeməli vaxtı sentyabr, oktyabr aylarında olur... Hə... Bir də, deyir, ümumiyyətlə, may ayında altıaylıq çəpiş tapmaq çətindir... Bir sözlə, çəpiş qonaqlığı qaldı sentyabra. Sabah quzu ilə keçinərik... Yaxşı, sağ ol!

Gülüb dəstəyi yerinə qoydu. Həmin an siması yenidən ciddiləşdi və üzünü müstəntiqə tutub:

- Bıçaq harada olub? - deyə soruşdu.

- Şkafda, paltarların altında, - müstəntiq cavab verdi.



downloaded from KitabYurdu.org

Prokuror başını buladı:

- Yaxşı, mənim bildiyimə görə, Nihat yataqda öldürülüb. Həm də, mənimlə razılaşarsınız ki, həmin vaxt onlar yatmayıblar. Yəni yuxuda olmayıblar. Belə olan təqdirdə, nəyə görə Qantural şkafdan bıçağı götürənə qədər Nihat durub qaçmağa səy göstərməyib?

Müstəntiq bir anlıq duruxdu. Amma Ataxanovun eynəyinin üstündən diqqətlə ona baxaraq cavab gözlədiyini görüb dilləndi:

- Cənab prokuror, yəqin ki, Qanturalın otağa girdiyini görən Nihat qorxudan şok vəziyyətə düşüb...

Ataxanov istehza ilə gülümsədi:

- Qorxan köpək oğlu o qələti eləməzdi. Yaxşı, davam elə görək!

Ayaq üstə dayanmış müstəntiq sözünə davam etdi:

- Qantural arvadının başını kəsəndən sonra, Nihatın da başını kəsib. Sonra bununla kifayətlənməyib, onun bədəninə çoxsaylı bıçaq zərbələri endirib. Bundan sonra həmin müəmmalı qara çantanı da götürüb mənzildən çıxıb. Öz maşınına oturub gedəndə balkondan baxan qonşusu onu görüb...

Texniki ekspert qrupu Qanturalın şəxsi əşyalarından onun əl izlərini götürüb. Bu əl izləri ilə Nihatın sinəsinə sancılıb qalmış bıçaqdakı əl izləri eynidir. Beləliklə, dəqiq sübut olunub ki, qətli törədən şəxs mənzilin sahibi Təhməzov Qantural Zəkixan oğludur.

Prokuror Ataxanov müstəntiqin hesabatına heç bir münasibət bildirmədən, ona başı ilə oturmaq işarəsi verib, üzünü tibb ekspertinə çevirdi:


downloaded from KitabYurdu.org

- Tibbi ekspertizanın nəticəsi hazırdır?
Aqşin Babayev ayağa qalxıb, yazdığı rəyi
prokurora uzatdı. Kağızı alıb qarşısına qoyan Ataxanovun yenə gözlərini ona dikdiyini görüb rəydə yazdıqlarını dillə də deməyə başladı:

- Cənab Ataxanov, müəyyən etmişik ki, Nihatla Sənihə ölümlərindən qabaq cinsi əlaqədə olublar.
Hər ikisi aprelin 30-dan mayın 1-nə keçən gecə, saat 12 radələrində öldürülüb. Nihat sinəsinə vurulan və səkkiz santimetr bədənə işləyən bıçaq zərbəsi ilə öldürüləndən sonra, başı kəsilib. Daha sonra, alt köynəyi yuxarı çəkilərək açıq bədəninə 23 bıçaq zərbəsi vurulub. Bunun yeddisi demək olar ki, eyni yerə - mərhumun sağ böyrünə, üçü qasığın sol tərəfinə, on ikisi qarın nahiyəsinin müxtəlif yerlərinə, axırda isə biri, yenə sinəyə vurulmuşdur.

Prokuror ona əyləşməyə icazə verib, yenə oturanların hamısını bir-bir nəzərdən keçirdi:

- Mənə belə gəlir ki, bu cinayətdə qaranlıq qalmış nöqtələr heç də az deyil. Maraqlıdır, siz nə fikirdəsiniz bu hadisə barədə? - Canəliyə baxdı. - Məsələn, sən, Qismətov?!

Canəli cəld ayağa qalxdı:

- Mən belə düşünürəm ki, Nihatla Sənihənin arasında intim münasibətlər var imiş. Onlar həmin gecə toydan istifadə edərək, görüşmək qərarına gəliblər. Düzdür, mənə də şübhəli və maraqlı görünən bəzi suallar var ki, cavabını hələ tapa bilmirik. Amma artıq bu bir faktdır ki, onlar eyni yataqda öldürülüblər və tibb eksperti də onların cinsi əlaqədə olduğunu təsdiq etdi. Bunlar sübut edir ki, Nihat o gecə həmin mənzilə yalnız Sənihəyə görə girib.


downloaded from KitabYurdu.org

- Bəs o qara çanta? - prokuror soruşdu.
Mayor Qismətov bu barədə əvvəldən
düşünmüşdü:

- Ola bilsin, Nihat toydan çıxandan sonra, Sənihə ilə görüşünə heç də dəxli olmayan bir adamla görüşüb. Məncə, o çantada nəsə qiymətli bir
şey, ya da pul olub. Həmin görüşdən çıxıb Sənihəgilə gələn Nihat çantanı maşında saxlamaq istəməyib, özü ilə götürüb.

Ataxanov başını buladı:

- Sənin bu fərziyyən o qədər də ağlabatan deyil.

Sonra haqqında çox eşitdiyi və bacarığına
hörmət bəslədiyi Əbilova söz verdi.

- Sən danış görək, kapitan!

Kapitan Əbilov ayağa qalxıb, buraya gələrkən düşünüb hazırladığı nitqinə başladı:

- Cənab prokuror, mən Nihatın o mənzilə yalnız Sənihəyə görə girməsinə inanmıram. Bu şübhələrimi əsaslandırmaq üçün məntiqi dəlillərim də var. Birinci: Nihatla Sənihə o gecə mənzildə görüşməyi birlikdə qərara alıblarsa, nəyə görə Nihat mənzilin açarını ondan oğurlayaraq surətini çıxarıb? İkinci: Eldar
müəllim burada deməyi unutdu, mənzildə bir çox yerdə, o cümlədən paltar şkafında da Nihatın əl izlərinə rast gəlinib. Məntiqlə görünür ki, Nihat mənzildə axtarış aparıb. Üçüncü: Qantural aprelin 24-də Nihatın iş yerinə gedərək kabinetdə onunla söhbət edib. Bu zaman o çox qanıqara imiş. Filialın işçisi Xədicə Qantural kabinetdən çıxarkən, Nihatın ona dediyi sözləri eşidib. Nihat deyib ki, onu cır at, özünə də, mənə də problem yaradarsan. Nəyi cırıb


downloaded from KitabYurdu.org

atmalı idi o, bilinmir. Hətta toyda da Qanturalla Nihat küsülü kimi davranıblar. Dördüncü: Nihatgil düşünülmüş şəkildə o mənzildə görüşüblərsə, niyə yatağa girəndə qapının çəftəsini vurmayıblar? Nəhayət, beşinci, bu qara çanta! Görəsən, nə olub onun içində?..

- Öz şəxsi mülahizəni de görüm! - prokuror eynəyinin üstündən öz zəhmli baxışlarını kapitanın üzünə dikdi.

- Söhbət ondan gedir ki, - Əbilov dilləndi: - biz hələ araşdırmalıyıq görək, Nihat mənzilə hansı məqsədlə girib. Mən şəxsən belə düşünürəm ki, o mənzilə nəyisə axtarmağa girib. Ancaq nəyi? Sonra Sənihə qəflətən mənzilə gəlib çıxıb. Bu vaxt onlar necə dil tapıblar, bilmirəm, amma görünür ki, onların doğrudan da, əvvəlcədən isti münasibətləri olub. Onu da deyim ki, Nihat lap mənzilə girəndə çəftəni vurmuş olsa da, Sənihə gələndə onu açmalıydı. Yoxsa ev sahibəsi mənzilin içəridən bağlı olduğunu görüb, hay-küy sala bilərdi. Sonradan isə onlar cəftəni vurmağı unudublar, çünki hər ikisi həyəcanlı olub... - bir az ara verib, Ataxanovun ona maraq və diqqətlə qulaq asdığını gördü və davam etdi. - Cənab prokuror, mən bu fərziyyənin üstündə möhkəm dayanıram ki, Nihat mənzilə nəsə bir şeyi axtarmağa girib. O şeyi ki, Qanturala onu cırıb atmağı məsləhət görmüşdü. Bu lap yəqin, yazılı sənəddir, ya da şəkil... Biz bunu araşdırmalıyıq. Ona görə də həmin mənzildə bir daha axtarış aparmağa sizdən icazə istəyirəm.

Ataxanov kinayə ilə gülümsədi:

- Saleh Həsənovun cinayət işində də, sənin bir çox fərziyyələrin var imiş... - tez də ciddiləşib əlavə etdi. - Amma yox, bu dəfə fərziyyələrin mənim üçün



downloaded from KitabYurdu.org

inandırıcıdır. Əslində, sən bütün hadisənin gedişini ağlabatan bir şəkildə təsvir edirsən.

- Əslində, bəlkə də belə deyil. - Əbilov səmimi etiraf etdi. - Əldə elə bir dəlil var ki, onu mən də əsaslandıra bilmirəm və bu dəlil az qala fərziyyəmin üstündən xətt çəkir.

- Nədir o? - prokuror maraqlandı.

- Öyrənmişik ki, həmin gecə Qanturalın mənzili ilə atası Zəkixanın mənzili arasında, saat 10.40-dan 10.50-yə kimi, təqribən 10 dəqiqə telefon danışığı olub. Bu mənzildən danışan, yəqin ki, Sənihə olub və məntiqlə belə çıxır ki, Nihatın yanında olub bu danışıq...

- Bəs xəttin o biri başında kim olub? - Ataxanov soruşdu.

- Bilmirik. - Əbilov dedi. - Zəkixangili danışdıranda öyrənəcəyik bunu.

- Bəs niyə bu vaxta qədər öyrənməmisiniz? - prokuror açıq-aşkar əsəbiləşdi.

- Doğrusu, buna vaxtımız da olmayıb. - Müstəntiq İmanov cavab verdi. - Bu gün, hökmən öyrənərik.

Ataxanov yenə əli ilə saçlarını sığallayıb, bir qədər fikrə getdi. Sonra başını qaldırıb Əbilova baxdı:

- Kapitan, sən təhqiqatı davam etdir. Mənzildə bir daha axtarış apara bilərsən. Bu artıq faktdır ki, cinayət qısqanclıq zəminində olub. Nihat mənzilə hansı məqsədlə giribsə, dəxli yoxdur, Qantural onu arvadıyla yataqda gördüyünə görə öldürüb. Amma hər halda, bunu da öyrənmək vacibdir ki, Nihatın oraya getməkdə məqsədi nə olub? O nə axtarırmış və əlindəki qara çantada nə olub? Aydındır?


downloaded from KitabYurdu.org

- Bəli, cənab prokuror! - Əbilov dilləndi.
Ataxanov sonra üzünü Canəliyə tutdu:

- Sən isə Qismətov, nəyin bahasına olursa olsun, Qanturalı tezliklə tapmalısan. Əməliyyat- axtarış qrupunun rəhbəri sənsən və mən onu səndən istəyəcəm. Axtarış elan etmək lazımdır, bütün şübhəli yerləri axtarmaq lazımdır. Belə vəhşiliklə cinayət törətmiş şəxs, cəmiyyət üçün də təhlükəlidir. Nə qədər tez ələ keçsə, bir o qədər yaxşıdır. Ailə üzvlərini danışdırın, televiziya vasitəsilə elan verilsin, şəkli bütün polis bölmələrinin qarşısına vurulsun. Bir sözlə, hansı vasitəyə əl atırsansa at, Qanturalı ələ keçirt! Sənə bunun üçün uzağı bir həftə vaxt verirəm! Sözün var?

- Xeyr, cənab prokuror! - Qismətov ayağa qalxdı.
- Gedə bilərsiniz!

Otuz birinci fəsil

Saleh qızılgülü çox sevirdi. Həmişə bu gülə baxanda təbiətin möcüzəsinə bir daha valeh olur, sıx ləçəklərin yaratdığı əvəzolunmaz ahəng ruhuna sakitlik gətirirdi. Yaşadığı həyatın nə qədər qiymətli, nə qədər gözəl olduğunu ona bir daha xatırladırdı qızılgül kolları.

Amma indi... Həbsxananın həyətində, asfalt döşəmənin kənarındakı nazik torpaq zolaqda sıra ilə əkilmiş qızılgül kollarına baxan Saleh ömründə bu qədər dərindən kədərlənməmişdi. Qızılgüllər həmişə gördüyü, baxıb həzz aldığı, qoxuladığı həmin təravətli qızılgüllərdən idi. Amma indi Saleh heç bir təravət, heç bir gözəllik duya bilmədi bu güllərdə.

Saxta idilər elə bil onlar. Həyat bəxş etmək güclərini itirmişdilər elə bil və sanki özləri də bezmişdilər bu


downloaded from KitabYurdu.org

həyatdan...

Dərindən ah çəkib, ətrafına boylandı. Divarlarından buz kimi soyuqluq yağan tikililər, bu tikililəri əhatə edən uca hasarlar... Hasarın aşılmaz ucalığı, üstündən adlamaq istəyənlərin əlini doğramaq üçün düzülmüş iti şüşə qırıqları, onun da üstündən gedən yüksəkgərginlikli elektrik məftilləri azmış kimi, hələ bu hasarın özünə də yaxınlaşmaq mümkün deyildi. Hasara çatmağa iki metr qalmış, tikanlı məftillərdən ibarət başqa bir keçilməz sədd var idi. Həyətdə tək-tək dustaqlar gəzişirdi. Sifətlərinin rəngi də, görkəmləri də, duruşları da başqa cür idi onların. Sanki azadlıqda hər gün gördüyü adamlardan deyildi bu çarəsiz bədbəxtlər.

Başını yuxarı qaldırıb azad səmaya baxdı. Mavi səma da əvvəllər baxdığı səma deyildi. O da həbs olunub tora salınmışdı elə bil. Hasarın üstündən görünən hündür vışkada əli avtomatıı əsgər keşik çəkirdi.

Baxışlarını yenə də qarşısındakı qızılgül kollarına zillədi. Yox, bu gülləri nahaq əkmişdilər burada. Çox nahaq! Bu güllər heç bir qəlb rahatlığı gətirə bilməzdi dustaqlara. Əksinə, azadlıqdakı həyatın əvəzsiz gözəlliyini hər gün yada salıb, qəlblərini parçalayacaqdı onların. Salehin fikrincə, dustaqları ələ salmaq, onlara mənəvi əzab vermək üçün əkilmişdi bu güllər.

Ya bəlkə də belə deyildi? Bəlkə də dustaqlara azadlıqda olan həyatdan xəbər verərək, onları yaşamağa səsləyirdi bu güllər? Bəlkə bu güllərə
baxan dustaqlar dözüb, yaşayıb, buradan çıxacaqları o xoşbəxt günü gözləyirdilər? Bəlkə də... Amma hər halda, Saleh elə düşünmürdü və o qədər ruh düşkünlüyünə



downloaded from KitabYurdu.org

qapılmışdı ki, bir də nə vaxtsa, azadlığa çıxacağına ümidi qalmamışdı.

Uşaqlarını xatırladı. Gündə, bəlkə yüz dəfə olduğu kimi, yenə də acı bir qəhər sinəsindən qövr edib gözlərini yaşartdı. İndi Gültayın on, Eltayın səkkiz yaşı var idi. Nə vaxtsa çıxa bilsəydi buradan, Gültayın iyirmi bir, Eltayın on doqquz yaşı olacaqdı onda. Məltəmin də saçları ağarmağa başlayacaqdı. Yox, yox! Onları görəndə daha nə həmin Məltəm olacaq, nə həmin şirin-şəkər, şıltaq uşaqlar. Onların düz on bir illik həyatını itirəcək Saleh. Bu isə dəhşət idi onun üçün! Hələ bəlkə, dəhşətdən də pis bir şey idi bu!

Ona yaxınlaşmaqda olan iki dustağın istehzalı baxışlarını görüb, qızılgül kollarından aralandı. Onun heç kəsə qoşulmaması və gül kollarının qarşısında dayanıb qəmli xəyallara dalması qəribə görünürdü, deyəsən bu iki nəfərə. Saleh buraya düşəndən dustaq yoldaşlarından kənar gəzir, nə həbsxanaya, nə də buradakı adamların davranışına uyğunlaşa bilirdi. Ona elə gəlirdi ki, heç vaxt da uyğunlaşa bilməyəcək bu mühitə. Həyətin o biri başına tərəf addımlamağa başladı. O uğursuz günü - aprelin doqquzunu xatırladı. Baş verənləri hələ də tam mənası ilə anlaya bilmirdi. Niyə belə oldu axı? Niyə hər şey birdən-birə tərsinə çevrildi onun taleyində? Qəzəblənib özündən çıxdığı həmin anda niyə ailəsini xatırlayıb səbrini basa bilmədi? Düz iş gördümü onda? Yox, kişilik qürurunu, qeyrətini qoruyub
saxlamaq naminə etdiyi o hərəkətinin nəticəsində aciz, çıxılmaz vəziyyətə düşüb, buraya gəlib çıxmışdısa, deməli, düz iş görməmişdi. Gənc və gözəl arvadını on bir il ərsiz,



downloaded from KitabYurdu.org

gül qönçəsi kimi kövrək uşaqlarını on bir il atasız qoymuşdusa, deməli, düz iş görməmişdi.

Məhkəməyə qədərki istintaq da, məhkəmə prosesi özü də, indi ona yuxu kimi görünürdü. Bütün bunlar çox tez baş verib qurtardı və bir də onda ayıldı ki, artıq buradadır... Əvvəl ona demişdilər ki, işi özünümüdafiə zəminində quracaqlar. Guya, Saleh özünü müdafiə etmək məcburiyyətində qalaraq öldürüb Rafiqi. Amma sonra necə oldusa, işi əksinə çevirdilər. Salehdən elə bir izahat aldılar ki, nəticədə guya Rafiq özünü müdafiə edibmiş. Guya Saleh onu öldürməyi əvvəlcədən qarşısına ciddi məqsəd
qoyub. Guya onu öldürmək üçün üstünə gedəndə Rafiq bıçağını çıxarıb özünü müdafiə etməyə çalışıb. Beləliklə, düz on bir il iş kəsdilər Salehə...

Halı gündən-günə pisləşirdi. Buranın yad bir qoxusu var idi ki, bu xoşagəlməz qoxu koloniyanın daşına-divarına belə hopmuşdu, sanki. İndiyə qədər duymadığı bir qoxu idi bu və Saleh buraya düşdüyü gündən bütün vücuduna hakim kəsilmişdi. Verilən yeməklərə də uyğunlaşa bilmir, hər dəfə yemək stolunun arxasına keçəndə Məltəmin bişirdiyi dadlı xörəklər üçün burnunun ucu göynəyirdi. Amma onun ruh düşkünlüyünə, canından bezməsinə səbəb təkcə bunlar deyildi. İlk gündən onunku gətirməmişdi burada.

Salehlə ilk ciddi söhbəti dustaqlar arasında ikinci nüfuz sahibi sayılan Xudayar adlı biri elədi.
Ona həbsxananın daxili qanunlarını başa salmaq istəyirdi bu adam. Çox kobud, lovğa danışıq tərzi var idi. Onun təhqiredici danışığına dözməyən, əsəbləri onsuz da


downloaded from KitabYurdu.org

korlanmış Saleh öz qürurunu saxlamağa çalışdı və o saat da cəzasını alıb yerində oturdu. Xudayarın vurduğu zərbə ayıltdı elə bil onu.

- Ə, küçük, harada olduğunu unutma, ha! - dedi Xudayar. - Bilirsən, burada neyniyərlər adama?!

Sonra özü öz sualının cavabını Salehə ağır və təhqiramiz ifadələrlə anlatdı. Saleh başa düşdü ki, bura, doğrudan da, tamamilə ayrı bir yerdir. Başa düşdü ki, burada dözüb baş saxlamaq üçün, azadlıqdakı vərdişlərini unudub, nə qədər ağır olsa da, yeni qanunlara uyğunlaşmalıdır.

Sonra Rizvan özü danışdırdı onu. Rizvan dustaqlar arasında birinci şəxs hesab olunurdu və
Saleh onun haqqında bir dustaqdan eşitmişdi. Həmin dustaq demişdi ki, Rizvan hələ cavan ikən, o vaxt burada ağalıq eləyən Vələddinin ən yaxın adamı olub. Bir də demişdi ki, kəsdiyi başa sorğu- sual yoxdur onun. Çox sərt adamdır və verdiyi qərardan onu heç kəs döndərə bilməyib indiyədək.

O söhbətdə Saleh Rizvanın əlində oynatdığı təsbehə qəribə bir qorxu hissiylə baxırdı. Eşitmişdi ki, Rizvan bu təsbehi kimin başına vurardısa, həmin dustaq «sındırılmış» hesab edilirdi və ondan sonra digər dustaqlar arasında onun heç bir dəyəri qalmırdı. Onunla hər kəs alçaldıcı şəkildə rəftar edə bilərdi bu hərəkətdən sonra.

Rizvan onun həbsxanaya cinayət məcəlləsinin hansı maddəsilə düşdüyünü yaxşı bilirdi. Amma sən demə burada belə bir qanun var imiş ki, «daxili
rəhbərlik» heç bir rəsmi maddəyə-filana inanmırmış və dustağın hansı əməlin sahibi olduğunu özü öyrənib


downloaded from KitabYurdu.org

dəqiqləşdirirmiş.

Saleh, ondan buraya nə üstündə düşdüyü soruşulanda, necə oldusa, məhkəmədə boynuna aldıqlarını inkar etmək qərarına gəldi. O uğursuz gündə, həyətdən çıxanda küçədə Rafiqin meyitini gördüyünü və ondan şübhələnəcəklərindən qorxub evə qaçdığını dedi. Sonra da, guya yolda qabağını kəsib bıçaqlamışdılaronu. Birinci istintaq zamanı müstəntiqə də bu cür danışmışdı və müstəntiq İmanov kimi Rizvan da bu nağıla inanmadı. O, Salehə pis nəzərlərlə baxıb, yanından qovdu. Bildirdi ki, azadlıqda olan adamları vasitəsilə hər şeyi dəqiq öyrənəcək. Bir də onu dedi ki, sözlərində bircə dənə yalan üzə çıxarsa, Saleh daha heç kəsdən kömək gözləməsin!

Beləliklə, bu Salehin həbsxanadakı ikinci uğursuzluğu oldu.

Bunlar azmış kimi, üç gün sonra Salehin başına başqa bir bəla gəldi. Nəzarətçilərdən biri çağırıb ona 500 ABŞ dolları verdi və bu pulun naməlum bir adam tərəfindən göndərildiyini dedi. Saleh pulu qəbul etsə də, onun kim tərəfindən göndərildiyini anlaya bilmədi. Məltəm göndərə bilərdimi? Yox, qətiyyən! Birincisi, onda belə pul hardandı, ikincisi də o göndərmiş olsaydı, adını niyə gizlədirdi? Ona canı yanan başqa bir dostu, tanışı da ağlına gəlmirdi.

Pulu döşəyinin altında gizlədib, qərara gəldi ki, onu göndərən adam məlum olanadək xərcləməsin. Ancaq Xudayar haradansa həmin pul barədə xəbər tutubmuş. Pulu tapıb götürdü və üstəlik də gizli iş tutduğu üçün Salehi 300 dollar cərimə elədi. Deyilən pul vaxtında



downloaded from KitabYurdu.org

çatdırılmasaydı, ağır cəzalandırılmalı idi Saleh. O, yalvar-yaxar edib, heç kəsdən pul gözləmədiyini deyəndən sonra Xudayar verdiyi bir həftə vaxtı bir az uzatdı və mayın 21-i, bazar gününü axırıncı gün elan etdi.

İndi Salehi iki yerdən təhlükə hədələyirdi. Biri o idi ki, Rizvanın inandığı adamlar Salehin barəsində hər şeyi öyrənib ona çatdırmalıydılar. Onlar nə öyrənəcəkdilər, necə öyrənəcəkdilər, Saleh bu barədə heç nə deyə bilməzdi. Amma onun ürəyinə dammışdı ki, Rizvanın azadlıqdan alacağı məlumatlar heç də onun xeyrinə olmayacaq.

İkinci təhlükə isə ona yüklənmiş cərimənin deyilən vaxta kimi Xudayara çatdırılmaq məsələsi
idi. Nə qədər fikirləşirdisə də, pul ala biləcəyi bir adam ağlına gəlmirdi. Nə də Məltəmə xəbər göndərmək istəmirdi. İstəmirdi hansısa yad bir kişi gedib Məltəmlə bu barədə söhbət aparsın.

Çalışırdı ki, burada Məltəmi az xatırlasın. Canı qədər sevdiyi arvadının hətta xəyalının da günahlarla dolu bu yerə daxil olmağını istəmirdi. Ona elə gəlirdi ki, ləkələnə bilər Məltəmin xəyalı burada...

Amma bacarmırdı. Bir dəqiqə də unuda bilmirdi onu. Burada bir daha dərindən dərk etmişdi arvadının nə qədər gözəl, nə qədər sevimli olduğunu. Onsuz on bir il necə dözəcəyini fikirləşəndə bağrı çatlayırdı. Hələ uşaqlar... Gültay... Eltay... Necə böyüyəcəkdilər onsuz? Nə düşünəcəkdilər ataları barədə?

Gəzinti qurtardı. Dustaqları yenidən içəri apardılar. Qızılgül kollarının yanından keçən Saleh istər-istəməz yenə də onlara nəzər saldı. Amma bu bir anlıq baxış


downloaded from KitabYurdu.org

zamanı başqa şey düşündü onlar barədə. Düşündü ki, bir də növbəti gəzintiyə qədər görə bilməyəcək bu gülləri. Düşündü və ürəkdən təəssüfləndi buna...

Otuz ikinci fəsil

Prokurorun yanında keçirilən müşavirədən sonra mayor Qismətovla kapitan Əbilov Qanturalın axtarışı ilə daha ciddi şəkildə məşğul olmağa başlamışdılar. Əbilov Qanturalın gizlənə biləcəyi bütün yerlərin, pənah apara biləcəyi bütün adamların siyahısını tərtib etməklə məşğul idi. Canəli isə Zəkixan kişinin ailəsini danışdırmaq üçün polis idarəsinə çağırmışdı.

Zəkixan kişi stolun arxasında, mayorla üzbəüz oturub, aramla təsbehinin dənələrini çevirirdi. Üzdən çox sakit və təmkinli görünür, narahatlığını üzə vurmaq istəmirdi. Ancaq əslində bu gecə gördüyü qorxunc yuxunun narahatçılığı hələ də canından çıxmamışdı. Qanturalı görmüşdü yuxuda. Görmüşdü

ki, yenə müharibəyə gedib oğlu... Görmüşdü ki, ermənilər Qanturah yerə yıxıb, bıçaqla, harasına gəldi, vururlar, vururlar... Amma vurduqları yerlərdən bir damcı da qan çıxmır. Onlar yorulub dayananda Qantural birdən ayağa qalxır və bu zaman onun qucağında Sənihənin kəsilmiş başı görünür...

Diksinib ayılmışdı yuxudan. Ayılmışdı və daha səhərədək gözünə yuxu getməmişdi. Səhər namazını bitirəndə üzünü Allaha tutub:

- Ya rəbbim! - demişdi. - Doğru olan yol hansıdırsa, onu göstər oğluma!

Zəkixan kişi, başlarına gələn bu faciədən sonra bir neçə dəfə ağlından keçirtmişdi ki, kaş oğlu müharibədə şəhid


downloaded from KitabYurdu.org

olmuş olaydı. Kaş qayıtmayaydı müharibədən və qayıtmasaydı, yəqin ki, belə
rüsvayçılığa düşməz, əli qana batıb, cinayətkar adı daşımazdı.

- A kişi, oğlun haradadır? - Canəli sorğu-suala birbaşa və sərt şəkildə başladı.

Lal Zəkixan təsbehi oynatmağını bir anlıq saxlayıb, qarşısındakı dolu sifətli, iri, sallaq dodaqlı adama baxdı və handan-hana dilləndi:

- Bilmirəm, ay oğul, bilmirəm...

- Lap yaxşı bilirsən! - Canəli səsini bir az da qaldırdı. - Özünü bicliyə qoyma! De görüm, harada gizlənib oğlun?

Zəkixan dinmədi. Mayorun kobudluğu ona toxunmuşdu.

- O gecə gəlinin telefonda kiminlə danışıb sizdən? - Canəli başqa suala keçdi.

- Qızımla. - Zəkixan astadan dilləndi.
- Nə danışırdılar?
- Haradan bilim? Qulaq asmırdım ki...
- Harada gizlənə bilər oğlun?
- Deyə bilmərəm.

- A kişi, məni hövsələdən çıxartma! - Canəli onu barmağı ilə hədələdi. - Sənin oğlun qatı cinayətkardı. İki adamın başını kəsib. Bu saat o, cəmiyyət üçün təhlükəlidir. Onun azadlıqda gəzməsinə yol vermək olmaz!

- O cinayətkar deyil! - Zəkixan bunu deyib üzünü yana çevirdi.

- Bəs nədir? - mayor istehza ilə soruşdu.

- Sən girib arvadını yad kişinin qucağında görsən, neyləyərsən?


downloaded from KitabYurdu.org

- Danışığına fikir ver! - Canəli gözlərini bərəltdi.
- Yox, sualıma cavab ver! - Zəkixan israr etdi.
- Burada sualı mən verirəm!
- Deməli, boynunu burub baxardın, hə?
- Qanun var, qayda var! - Canəli əlini stola çırpdı.
- Sizin qanunlar xəyanəti cəzalandırmır...
- Bəs siz hansı qanunlarla iş görürsünüz?

Zəkixan dinmədi.

- Sən oğlunun yerini bilirsən, kişi, - Canəli yenə onu hədələdi, - deməsən səni buraxan deyiləm!

Zəkixan yenə cavab vermədi. Başını aşağı dikib əlində oynatdığı təsbehə baxırdı. Lakin fikri, deyəsən, təsbehdə yox, haradasa uzaqlarda idi. Elə bil gözləri yol çəkirdi kişinin...

Canəli birdən yumruğunu stola vurub gücü gəldikcə bağırdı:

- Sən öləsən, yaşına baxmaram sənin, saldıraram aşağı, başına oyun açdıraram!

O, «aşağı» deyəndə müvəqqəti saxlama kamerasını nəzərdə tuturdu. Ancaq elə bunu demişdi ki, Zəkixanın böyük oğlu Ələkbər qapını açıb, özünü içəri saldı. O, bacısı Əsmər və kiçik qardaşı Fərhad dəhlizdə, polis əməkdaşının yanında dayanıb istintaqa çağırılacaqlarını gözləyirdilər. Ələkbərin gözləri az qalırdı hədəqəsindən çıxsın:

- Nə qışqırırsan kişinin üstünə?! Atan yaşındadı o!

Polis də Ələkbərin arxasınca kabinetə girib, onu dəhlizə çıxarmağa çalışdı. Canəli Ələkbəri kameraya aparmağı əmr etdi. Polisin itələyib kabinetdən çıxartdığı Ələkbər qapının ağzında barmağını Canəliyə uzadıb:

- Baxarsan sən! - dedi.


downloaded from KitabYurdu.org

Qapı örtüldü. Mayor Qismətov hirsindən bir müddət nə deyəcəyini bilmədi. Sonra qanlı nəzərlərlə Zəkixana baxıb əlini yellədi:

- Sən çıx get, o biri oğluna de gəlsin!

Zəkixan çıxıb Fərhadı içəri göndərəndən sonra da getmədi. Əsmərin yanında dayanıb gözləməyə başladı. Əsmər atasını narahat halda süzüb ah çəkdi və yavaşdan:

- Nə soruşurlar, ata? - dedi.

Zəkixan təəccüblə qızına baxdı:

- Nə soruşacaqlar? Qanturalın yerini öyrənmək istəyirlər.

- Başqa şey soruşmurlar ki? Sənihədən...

- Onun adını çəkmə mənim yanımda!

- Soruşsalar, nə deyim mən?

- Nə bilirsən, onu da de! - Zəkixan hirslə əlini yellədi.

Bu vaxt Fərhad kabinetdə and-aman edib mayor Qismətovu inandırmağa çalışırdı ki, qardaşının harada olmasından xəbəri yoxdur. Nəhayət, Canəli ondan qardaşının ən yaxın dostlarının, tanışlarının kimlər olduğunu soruşdu. Fərhad əvvəlcə saymaq istədi. Amma birdən nə fikirləşdisə, susdu.

Canəli bu gənc, yaraşıqlı, boy-buxunlu və mərdanə sifətli oğlana baxır, onu harada gördüyünü xatırlamağa çalışırdı. Ancaq əslində, o, Fərhadın özünü yox, rəisin oğlunun təsvir etməsi ilə polis idarəsində hazırlanmış fotorobotunu görmüşdü.

Bunu yadına sala bilməyib, oğlanın özündən soruşdu:

- Sən burada olmusan, nə vaxtsa?

- Xeyr, - Fərhad cavab verdi.

- Məni görmüşdün?



downloaded from KitabYurdu.org

- Xeyr.

Canəli hiss edirdi ki, Fərhad qardaşının yerini bilmir. Odur ki, onunla sorğu-suala vaxt itirmək istəməyib:

- Dur get, bacın gəlsin! - dedi.

Fərhad çıxan kimi Əsmər müəllimə kabinetə daxil olub göstərilən stulda əyləşdi və ona veriləcək sualları narahatlıqla gözləməyə başladı.

- Müəllimələsiz? - Canəli suala kənardan başladı.

- Bəli.

- Nədən dərs deyirsiniz?

- Tarixdən.

- Tarixdə görünüb belə şey? - mayorun sualındakı istehza aydın duyulurdu.

- Nə kimi? - Əsmər sualı anlamadı.

- Qardaşının cinayəti kimi.

- Yəqin ki olub... - Əsmər başını aşağı dikdi.

- Haradadı qardaşınız?

- Bilmirəm.

- Bilirsiniz! - Canəlinin baxışlarında xoşagəlməz bir məna var idi və Əsmər onun gözlərinə baxmamağa çalışırdı.

- Ay qardaş, dedim ki, bilmirəm!

- Mən sizin qardaşınız deyiləm! - mayor sərtləşdi. - Qardaşınız Qanturaldır və biz onu onsuz da tapacağıq!

- Nə deyirəm, tapın. - Əsmər doluxsundu. - Ancaq o bir balamın canı üçün mən onun yerini
bilmirəm.

- O gecə qardaşınız arvadı sizə zəng vurub. Nə danışmısınız onunla?

Əsmər bir an duruxdu. Sonra isə:



downloaded from KitabYurdu.org

- Elə-belə zəng vurmuşdu, - dedi. - Toyda imişlər, oradan tək qayıdıbmış. Deyirdi ki, nədənsə, yaman narahatdır. Sonra mən ona təsəlli verdim. Dedim ki, adamda olur belə hallar. Sonra başqa şeylərdən danışdıq.

- Nədən? - Canəli soruşdu.

- Hamısı yadımda deyil... Bir az Qanturalın çox içməsindən danışdı. Sonra dedi ki, onunku da gətirmir. Özünə təzə iş tapmışdı, nədənsə alınmadı. Dedi ki, bir həftədi qanı yaman qaradır.

- Sonra?

- Sonra mən yenə ona ürək-dirək verdim. Sağollaşıb söhbəti qurtardıq.

Mayor Qismətov bunu heç cür anlaya bilmirdi. Necə ki, kapitan Əbilovu da çaşdırmışdı bu məsələ. Yenə zəng vuran Əsmər olsaydı, demək olardı ki, Nihatla bir yerdə, mənzildə olan Sənihə dəstəyi götürüb, istəməsə də, baldızı ilə danışmağa məcbur olub.

Amma məsələ burasında idi ki, zəng vuran Sənihə özü olmuşdu. Elə vaxtda zəng vurmuşdu ki, əməliyyat işçilərinin fikrincə, həmin vaxt Nihat onun yanında olmalıydı. Daha doğrusu, mənzildə olmalıydı Nihat. Bəlkə də Sənihə mənzilə daxil olanda, Nihat qorxudan gizlənib, sonradan üzə çıxıb. Əgər belədirsə, onda Allahverdinin fərziyyəsi təsdiq olunurdu. Təsdiq olunurdu ki, Nihat mənzilə Sənihəyə görə yox, başqa məqsəd üçün giribmiş...

Hər halda, Qantural tapılıb həbs olunandan sonra çox şey və bəlkə də hər şey aydın olacaqdı. Müxtəlif fərziyyələrin üzərində baş sındırmaqdansa, bütün qüvvələri Qanturalın tezliklə tapılmasına yönəltmək daha



downloaded from KitabYurdu.org

düzgün olardı.

- Sizin əriniz yoxdur? - Canəli qarşısındakı gənc qadını bir qədər gizlin tamahkar baxışlarla süzdü.

- Ərim Qarabağda şəhid olub!

Canəli gördü ki, Əsmər bu sözləri çox qürurla dedi və buna görə də özünü bir az yığışdırdı. Yadına birdən-birə bir ay əvvəl danışdırdığı gözəl qadın düşdü. Məltəm... O doğrudan da necə gözəl idi...

Gözəl idi, təmiz idi və həm də Canəlinin başa düşdüyünə görə nəsə bir yolagələnlik var idi onda.

O gündən sonra heç imkan tapmamışdı onunla əlaqə saxlamağa. Amma gərək vaxt tapıb bir zəng vura ona... Əldən buraxmaq olmazdı elə bir cananı. Canəlinin fikrincə, onsuz da ərsiz qaldığı üçün kimsə yoldan çıxaracaqdı onu. Əgər belədirsə, niyə Canəliyə qismət olmamalıydı o?

Əsmərin dediklərini yazıb, qol çəkdirəndən sonra, onu da buraxdı. Bunları danışdırmaqda daha bir məna görmürdü o. Bu ailədə Qanturalın yerini həqiqətən bilən bir nəfər vardısa, o da Ələkbər olmalı idi.

... Axşam polis bölmələrinin birinin yanından keçənlər küçələrdən aramsız olaraq keçən
maşınların uğultusu olmasaydı, sanki quyunun dibindən gələn nalə səsi eşidərdilər:

Bilmirəm! Bilmi...rəm! BiL.mL.rəm!!!

Bu Ələkbərin səsi idi. Ondan Qanturalın yerini soruşurdular...

Otuz üçüncü fəsil

Amansız qətlin aşkar edilməsindən bir həftə ötmüşdü. Polis idarəsi hələ də Qanturalın izinə düşə bilmirdi. Onun



downloaded from KitabYurdu.org

barəsində ciddi axtarış elan olunmuş, şəkilləri respublikanın hər yerində polis şöbələrinin qarşısında vurulmuşdu. Amma hələ də onu gördüm deyən yox idi.

Kapitan Əbilov qaçaq düşmüş caninin mənzilində bir daha ciddi axtarış aparmağa vaxt tapa bilmirdi. Bundan bir gün əvvəl də Lənkərana getməli olmuşdu. Orada Qanturalın əsgərlik yoldaşı və yaxın dostu yaşayırdı. Rayon polis şöbəsinin köməyilə həmin adamın və onun bəzi qohum-qardaşlarının evləri nəzarət altına alınmış, gecə ikən bu evlərdə
axtarış aparılmışdı. Lakin bu axtarışlar heç bir nəticə verməmişdi.

Mayor Qismətov isə daha çox Zəkixanın ailəsini incitməklə məşğul idi. O, inanırdı ki, ailə Qanturalın harada gizləndiyini bilir, lakin bunu demək istəmir. Xüsusilə, Zəkixan özünü daha şübhəli aparırdı.
Onun hey susması, əlində təsbehin dənələrini çevirə-çevirə gözləri yol çəkməsi oğlunun harada olduğunu bilməsi barədə təsəvvür yaradırdı. Canəli Ələkbəri evə buraxsa da, ondan əl çəkmir, nəzarətdə saxlamaqla, demək olar, hər gün polis idarəsinə çağırırdı.

Beləliklə, Zəkixanın ailəsi çox ağır günlər yaşayırdı. Ailə üzvlərindən heç birinin əli işə getmirdi. Hər saat, hər dəqiqə, nəsə pis bir xəbər gözləyirdilər.

Ağaşamilin ailəsində isə, dəfnin səkkizinci günü kədərli bir sakitlik yaşanırdı. Nihatın nə üçgünlük, nə də yeddigünlük yas mərasimi keçirilməmiş, ehsan verilməmişdi. Təəccüblü görünsə də, bəlkə elə buna görə, qeyri-adi vəhşiliklə törədilmiş bu cinayət hadisəsi şəhərə gözlənildiyindən az yayılmışdı. Elə televiziyada da bu


downloaded from KitabYurdu.org

barədə, nəyə görəsə, qısa və səthi məlumat verilmişdi. Deyilmişdi ki, filan küçədə, filan nömrəli evdə qanlı qətl hadisəsi baş verib. Gecə toydan evə sərxoş qayıdan ər arvadını və onun məşuqunu amansızcasına qətlə yetirib. Vəssalam! Belə məlumatlar veriləndə eşidənləri qısa bir müddətdə həyəcanlandırır, sonra tezliklə hər şey unudulub gedirdi. Heç kəs həmin hadisələrdə zərər çəkənlərin faciəsini dərindən dərk etmirdi və edə də bilməzdi. Ağaşamil ailəsinin də faciəsi belə faciələrdən idi. Səkkizinci gün idi ki, ailə üzvlərindən heç birinin eyni açılmırdı...

Tamerlan daha çox sarsılmışdı. Bu həm onun daha gənc olmasından, həm də Nihatı daha çox istəməsindən irəli gəlirdi, yəqin ki... Bu bir həftədə heç kəslə danışmaq istəməmiş, ancaq tənhalığa çəkilib düşünmüş, düşünmüşdü...

Heç Aytəkinlə də görüşüb kəlmə kəsməmişdi bu bir həftədə. Açıq-aydın arıqlayıb görünüşünü itirmiş, üzülmüşdü. Nəhayət, bu gün sevdiyi qızın xahişini yerə salmayıb onunla görüşə razılıq vermişdi. Elə, əslində, özü də daxili bir ehtiyac hiss etmişdi bu görüşə. Dərdini bölüşüb yüngülləşmək üçün. Yoxsa bir az da keçsə ruh düşkünlüyünə qapıla bilərdi.

Tamerlan orta məktəbi bitirdikdən sonra əsgəri xidmətə çağırılmışdı. Xidmətinin çox hissəsi Ermənistanla müharibənin ən çətin və qorxulu nöqtələrindən hesab olunan Murovdağda keçmişdi. Bütün çətinliklərə kişi kimi dözərək xidmətini başa vurmuş, geri qayıdandan sonra Xanəlinin benzindoldurma məntəqəsində işləməyə başlamışdı. Boy-buxunlu,



downloaded from KitabYurdu.org

yaraşıqlı, ciddi xarakterli bir oğlan idi. Bir qədər çılğınlığı olsa da düzlüyünə, mərdliyinə görə tay-tuşları arasında həmişə hörməti olmuşdu.

Bir neçə ay əvvəl tanış olduğu və aralarında artıq məhəbbət yaranmış Aytəkin də ona layiq bir qız idi. Tamerlanla görüşüb, onun dərdinə şərik olmağa çalışır, amma bir şey alınmırdı. Tamerlan cib telefonunu da söndürüb özünü hamıdan təcrid etmişdi. Axır, bu gün onunla danışa bilib, Milli parkda görüş təyin etmişdi.

Bu gün mayın 10-nu Azərbaycanda Gül bayramı idi. Hər il bu vaxt olduğu kimi, adamlar dəstə-dəstə dəniz kənarındakı Milli Parka tərəf axışırdı. Şəhər başdan-başa gül-çiçəklə, bayraqlarla bəzədilmişdi.

Sevdiyi oğlanın arıqlayıb solğunlaşmış çöhrəsini görüb doluxsunan Aytəkinin salamlaşandan sonra ilk sözü:

- Allah rəhmət eləsin! - oldu.

Bu sözü başqalarından eşidəndə təmkinlə cavab vermiş Tamerlan indi açıq-aydın kövrəldi. Heç cavab da verə bilmədi sevgilisinə. Aytəkin onun əlini tutub sıxdı və bununla da deyə bilmədiyi bir çox təskinlikverici sözləri sevdiyi oğlana çatdırmış oldu.

Bir qədər susdular və susduqları bu müddətdə bir-birlərini daha dərindən duydular. Bir-birlərinə daha yaxın oldular. Qız Nihatın ölümündən söhbət
salıb sevdiyi oğlanın yarasını sızıldatmaq istəmirdi. Əksinə, istəyirdi ki, onu yasdan çıxartsın, adi həyata qaytarıb yaşamağa həvəsləndirsin. Başlanan söhbət də bu istiqamətdə gedirdi.

- Telefonunu niyə söndürmüşdün? - deyə soruşdu.
- Tək qalmaq istəyirdim...



downloaded from KitabYurdu.org

- Niyə? Mən yanında olsaydım, qoymazdım özünü çox üzəsən.

- Düz deyirsən, amma...

- Nə amma? Belə çıxır ki, yadına düşməmişəm.

- Yox, nə danışırsan? - Tamerlan etiraz etdi. - Hər gün səni fikirləşmişəm. Ancaq elə bilirdim, görüşməyimiz ruhuna hörmətsizlik olar onun. Yəni ki...

- Elə niyə fikirləşirsən, Tamerlan? Qardaşının ölümünə mən də sənin qədər yanmışam. İkimiz də ayrılıqda dərd çəkmişik. Ancaq bir yerdə olsaydıq rahat olardı hər ikimiz üçün... - yenə oğlanın əlini sıxdı. - Mən istəyirəm, bundan sonra biz həmişə bir yerdə olaq.

- Nihatın qırxı çıxsın, elçi göndərəcəm. - Tamerlan ciddi şəkildə bildirdi.

- Heç demisən evdə? - Aytəkin maraqla soruşdu.

Tamerlan bir az gec dilləndi, nədənsə:

- Anam sağ olsaydı, birinci ona deyərdim. Atamla, qardaşlarımla pərdə var aramızda.

- Bəs bacın, qardaşlarının arvadları?

- Fatimə bilir, bir də Cəhalə... Gəlinlər arasında ən çox onun xətrini istəyirəm. Sözüm olanda deyə bilirəm ona. Ürəyiaçıqdı, qohumcanlıdı.

- Hələlik, ən kiçik gəlin odur, hə? - Aytəkin gələcək qohumları ilə yaxından tanış olmaq istəyirdi.

- Hə. - Tamerlan dedi. - Həkim işləyir. Çox mehribandır. Görsən, bilirəm ki, bəyənəcəksən sən də... Elə o biri gəlinbacılarım da yaxşıdır. Allah verən xasiyyətdi də, hərənin bir xasiyyəti var. Bu rəhmətliyin də arvadı həmişə nəyinsə dərdini çəkir elə bil. Həm də xəstədir. Xanəlinin arvadı Həmidənin xasiyyəti bir az



downloaded from KitabYurdu.org

ağırdı. Çox deyib-gülən adamlardan acığı gəlir. Geyim məsələsinə də ciddi fikir verir. Elə ərinin də çox tünd xasiyyəti var. Sözünün qabağında söz demək mümkün deyil.

- Bəs böyük qardaşının arvadı? - qız Tamerlanın danışmağa başladığını görüb sevinirdi.

- O heç də?! - oğlan kədərli şəkildə olsa da gülümsədi. - O, əməlli-başlı biznesmen arvadıdır. Nəzakətin gərək həmişə hörmətini saxlayasan, böyük tutasan.

- Nə olar, tutaram!

Aytəkin bunu o qədər sadəliklə, o qədər səmimiyyətlə dedi ki, Tamerlan əlini onun belinə dolayıb özünə tərəf çəkmək istədi. Ancaq tez də Nihat yadına düşdü və qolunu yanına saldı.

Nihat o biri qardaşlardan daha mehriban olmuşdu onunla. Bir də ki, nə fərqi var? Qardaş, qardaşdır!.. Onun etdiyi hərəkət, yəni başqasının evinə, ailəsinə soxulub namusu ilə oynaması Tamerlanda təəssüf hissi doğurduğu kimi, kiminsə onun qardaşının bədənini dəlik-deşik etməsi, başını vəhşicəsinə kəsməsi də qəlbində hiddət doğururdu.

Bu yadına düşəndə Qanturala qarşı qorxuqarışıq bir nifrət baş qaldırırdı ürəyində...

- Bəs Fatimənin nişanlısı kimdir? - Aytəkin qəfil soruşdu.

- Şakirdir adı. - Tamerlan dedi. - Aspirantdır.

- Necədir?

- Nə bilim!.. - oğlan çiyinlərini çəkdi. - Çox oturub-durmamışam. Bacım onu sevirsə, deməli, yaxşıdır.

- Fatiməni çox istəyirsən? - Aytəkin maraqla sual


downloaded from KitabYurdu.org

verdi.

- Hə, hamımız onu çox istəyirik. Həm yeganə bacımızdır, həm də sonbeşiyimizdir.

- Bir yerdə olursunuz?

- Əlbəttə! Atam, mən, bir də o...

Milli parkda bir xeyli gəzib, açıq havada verilən konsertə baxdılar. Ayaqüstü dönər alıb yedilər və gəzə-gəzə «Bakı Soveti» metrosuna doğru qalxıb, Əliağa Vahid bağında oturdular.

Artıq hava qaralmaq üzrə idi. Tamerlan, qızdan heç ayrılmaq istəmirdi. Elə Aytəkin də... Gör nə vaxtdı görüşmürdülər? Ancaq evə qayıtmaq lazım idi daha. Tamerlan saatına baxıb ayağa qalxdı:

- Ayka, gedək daha, indi məni gözləyirlər.

- Kim gözləyir?

Aytəkin sualı elə təəccüblə verdi ki, oğlan bir müddət onun üzünə matdım-matdım baxdı:

- Kim gözləyəcək? Atam, Fatimə...

- Nə ağıllı oğlansan, maşallah! Yaxşı, gedək!

Metronun arxasında avtobusa mindilər.
Tamerlan əvvəlcə qızı evlərinə qədər ötürdü. Sonra öz evlərinə getmək üçün başqa avtobusa mindi.

Dayanacaqda düşüb, yaşadıqları kvartala girəndə hava qaralmışdı. Fikirli halda addımlayıb sağa döndü və öz binalarının tininə çatdı. Alaqaranlıq həyətdə sakitlik hökm sürürdü. Yalnız qonşu blokun qapısı ağzında üç-dörd tanış cavan dayanıb söhbət edirdilər. Bina sakinləri öz maşınlarını blokların qarşısındakı yolun bir kənarında sıra ilə saxlamışdılar. Maşınların hərəkəti üçün saxladıqları yol boş idi. Ancaq həmin yolun o biri başında, üzü Tamerlana


downloaded from KitabYurdu.org

tərəf dayanan və qaranlıqda güclə görünən bir «Qaz-24» volqa avtomobili dayanmışdı.

Tamerlanın öz bloklarına çatmağına bir neçə metr qalmış, birdən-birə həmin avtomobilin işıqları yandırıldı. Faraların gur işığı oğlanın gözlərini
qamaşdırdı. Maşın yerindən götürülüb onun üstünə şığıyanda, özünü itirən Tamerlan sağ tərəfdəki ağaclığa doğru atıldı. Ancaq yoldan çıxmağa imkan tapa bilmədi. Maşın onu vurub zərblə kənara tulladı və sürətini azaltmadan tini burulub uzaqlaşdı.

Maşının çıxardığı tükürpərdən səsə bloklardan və pəncərələrdən xeyli adam boylandı. Qışqırıq və hay-küy səsi binanı başına götürdü. Qonşu blokun qarşısında söhbət edən cavanlar yüyürüb özlərini yerə sərilmiş Tamerlana çatdırdılar. Biri cəld bloka girib hadisəni Ağaşamilə bildirməyə qaçdı.

- Sağdır, deyəsən! - cavanlardan biri dedi.

- Dayanın, mən maşını sürüb gətirim. - bir başqası dedi. - Tez xəstəxanaya çatdıraq.

- Bir az cəld ol!

Bu vaxt cavanları itələyib özünü yaralı Tamerlanın üstünə atan bir qızın naləsi bina sakinlərinin səs-küyünü də eşidilməz etdi:

- Ay qardaş!!!

Bu Fatimə idi. Yüngül ev paltarında olan qız xəbəri eşidib mənzildən çıxarkən, ayaqqabılarını da geyinməmişdi.

- Ay qardaş, hey!!!

Dizlərini yerə atmış qız başını qaldırıb, hədəqəsindən çıxmağa hazır olan gözlərini qaranlıq səmaya dikdi. Onun



downloaded from KitabYurdu.org

bu duruşu və qurd ulamasını xatırladan naləsi baxanların vücudunu titrətdi.

Sanki qaranlıq səmada aləmin yaradıcısı olan gözəgörünməz varlığı axtarırdı. Baxışlarında acı bir tənə var idi, üsyan var idi bu varlığa qarşı. Ancaq nə düşündüsə, birdən-birə yazıqlaşdı. Gözlərini
səmadan çəkmədən ağlamağa başladı və ağlaya- ağlaya təkcə bunu deyə bildi:

- Öldürmə, sənə qurban olum, öldürmə qardaşımı!

Birdən çiynindən yapışmış qüvvətli əlin təmasından diksinib dəli kimi arxaya çevrildi və atasının qəzəbli sifətini gördü. Ağaşamil hökmlü səslə onu ayağa qaldırıb:

- Keç evə! - deyə əmr etdi.

Sonra isə özü oğluna tərəf əyilib, onun başını yerdən qaldırdı. Həmin anda Tamerlan gözlərini açıb atasına zillədi. Baxışlarında bir dəhşət, bir təəccüb duyulurdu. Atasını tanımamışdı, deyəsən...
Ağaşamil çevrilib başına yığılmış adamlara baxdı və titrək səslə:

- Kömək edin, həkimə çatdıraq! - dedi.

Bir saat sonra polkovnik Mirzəyev xəstəxanadan gələn Allahverdini kabinetində qəbul etdi və heç nə soruşmadan sualedici nəzərlərini onun üzünə dikdi. Olduqca pərt görünən kapitan Əbilov bircə kəlmə söz dedi:

- Keçindi...
- Bir söz deyə bildimi? - rəis soruşdu.

- Xeyr! - Əbilov təəssüflə başını buladı. - Yalnız Aytəkin adlı qızın adını çəkirdi.

Rəis ayağa qalxıb, kabinetində əsəbi halda gəzişməyə başladı:



downloaded from KitabYurdu.org

-Vuranın kimliyi müəyyənləşdimi? Görən olubmu hadisəni?

- Hadisə yerinə leytenant Nəsirov getmişdi. Yəqin ki, indi gələr.

Doğrudan da, bir neçə dəqiqə keçmiş, Etibar Nəsirov icazə alıb kabinetə girdi:

- Cənab rəis, oğlanı vuran «Qaz 24» markalı maşın qonşu binanın tinində tapıldı. Maşın Qanturala məxsusdur. Ancaq nömrəsi dəyişdirilib. Sürücülük vəsiqəsi də maşında idi. Maşını orada saxlayıb, özü isə aradan çıxıb!

- Hə!.. - Mirzəyev dalğın halda çənəsini ovuşdurub dilləndi. - Demək, onun intiqam hissi hələ də soyumayıb. Biz təcili tədbirlər görməliyik!

Artıq gecə olmasına baxmayaraq, bütün bölmələrin cinayət axtarışı ilə məşğul olan polis əməkdaşları idarəyə çağırıldı.

Otuz dördüncü fəsil

Səhəri gün Tamerlanı Nihatın yanında dəfn edib geri qayıtmışdılar. Qəbiristanlıqdan qayıdan maşınlar binanın ətrafını doldurmuşdu. Evin qarşısında çox uzun bir yasxana qurulmuşdu ki, bina sakinləri burada hələ belə böyüklükdə çadır görməmişdilər. Molla yasxananın qarşısına yığılıb dövrə vurmuş adamların qarşısında dua oxuyandan və bir oğlan uşağı adamların əlinə gülab çiləyəndən sonra Cahangir hamını çadıra dəvət etdi:

- Xahiş edirəm, keçin bir stəkan çay için!

Amma çoxu içəri keçmək istəmirdi, nədənsə... Bəlkə də bir həftədə iki oğul itirmiş bu ailənin
dərdinin böyüklüyü onları da əzirdi. Bəlkə də buna görə tez uzaqlaşmaq istəyirdilər buradan.



downloaded from KitabYurdu.org

Adamların bir hissəsi yas sahiblərindən keçə bilməyib çadıra daxil oldu, bir hissəsi isə ayaqüstü başsağlığı verib, üzrxahlıq edərək getdi. Çadırın girəcəyində yalnız ev adamları qaldılar.

Ağaşamil özünü sakit aparmağa, dost-düşmən qarşısında dərdini büruzə verməməyə çalışırdı. Ancaq ona diqqətlə baxanlar bir gecənin içində on yaş qocaldığını görə bilərdilər. Sifətinin dərisi çəkilmiş, başındakı az-çox qara tüklər də ağarmışdı.

Yanında dayanmış Xanəlinin isə üz-gözündən zəhrimar tökülürdü elə bil. Hirsini tökməyə adam axtarırmış kimi hamının üzünə qanlı nəzərlərlə baxırdı.

Cahangirin olduqca kədərli və bir az da yazıqlaşmış görkəmi var idi. Kövrək səslə yanında dayanmış cavanlara lazımi göstərişlər verirdi. Birisigün veriləcək ehsana indidən hazırlıq görmək lazım idi.

Bir az kənar dayanmış Səxavətin baxışlarında kədərdən də çox müdhiş bir qorxu yuva salmışdı. Belə bir qorxunu atasının yanında dayanmış Şakirin də simasından duymaq olardı. Elə onun atası da çox narahatçılıq keçirirdi, deyəsən. Professor kənardan Ağaşamillə Xanəliyə göz qoyur, onların nifrət dolu baxışlarından üşürgələnirdi.

O, çox istəyərdi ki, gəlini sakit, tərbiyəli bir ailənin qızı olsun. Ancaq neyləyə bilərdi ki, oğlu vaxtilə türmədə yatmış, qumarda barmağını itirmiş Dördbarmaq Ağaşamilin qızını, balta ilə adam doğramaqla ad qazanmış Balta Xanəlinin bacısını bəyənmişdi. Fikirləşirdi ki, ömrü boyu bu adamlara qohum deməli, bu adamlarla oturub-durmaliydı. Ancaq heç olmasa, Fatimə bunlara oxşamayaydı xasiyyətdə.



downloaded from KitabYurdu.org

Fikirləşirdi ki, Nihatın əxlaqdan kənar hərəkəti ucbatından günahsız qardaşı öldü, üstəlik bacısı da nə qədər əzab çəkəcək, qan düşmənçiliyinin acısı içində yaşayacaq. Oğluna tərəf dönüb:

- Fatiməni görmüsən? - deyə soruşdu.
- Yox. - Şakir başını buladı.

- Bu işdən heç gözüm su içmir mənim, - atası dedi. - Axırı yaxşı olmayacaq bu işin...

- Hə, düşmənçilik başlayacaq iki ailə arasında.

- Mən deyirdim, iyunun ortalarında toyunuzu edərdik. Amma belə görürəm, qardaşının ili
çıxmamış razılıq verməzlər.

- Yəqin ki... - iri gövdəli Şakir ətrafına boylandı. - Ancaq məni bu saat toy düşündürmür. Belə çıxır ki, hamımız ehtiyatlı olmalıyıq. Baş aça bilmirəm, niyə indiyədək bu Qanturalı tuta bilməyiblər?

- Tutacaqlar! - atası mənalı şəkildə başını yellədi. - Dövlətin əlindən heç yana qaça bilməyəcək. Bunu, yəqin ki, özü də başa düşür. Bilir ki, tutulub ömürlük həbs olunacaq. O barədə səninlə razıyam ki, onun üçün indi heç nəyin fərqi yoxdur. Gözünü intiqam duyğusu tutub onun...

Yasxanaya girənlərin içində polis kapitanı Allahverdi Əbilov da var idi. O, hamıdan əvvəl çadırdan çıxıb Ağaşamilə yaxınlaşdı.

- Allah rəhmət eləsin! - dedi. - Allah ehsanınızı qəbul eləsin!

Hüzr sahibi başını tərpətməklə razılığını bildirdi. Ancaq Xanəli səbrini basa bilmədi:

- O alçaq nə vaxta qədər azad gəzəcək, kapitan?

- Biz bacardığımızı edirik. - Əbilov təəssüflə dilləndi. -



downloaded from KitabYurdu.org

Bu saat bütün polis idarələri onu axtarır.

- Əlinizdən gəlmir, deyin, özümüz axtaraq! - Xanəli kobudluqla dedi. - Ancaq biz tapsaq, sizə onun ölüsünü verəcəyik!

Kapitan Əbilov haqqında eşitdiyi bu adamı təmkinli baxışlarla süzüb dilləndi:

- Siz qətiyyən narahat olmayın. Dedim ki, bu gündən bütün qüvvələri səfərbər etmişik. O, tezliklə tutulub öz cəzasını alacaq. Ancaq siz səbirli olun. Düşmənçiliyi böyütmək lazım deyil. Bu heç kəsə xeyir verməz!

Ağaşamil cibindən siqaret çıxarıb müştüyə taxdı. Onu səbirlə yandırıb üzünü kapitan Əbilova tutdu:

- Mən də sən deyən kimi demişdim uşaqlara. Demişdim ki, bizim bir-birimizə borcumuz-filanımız qalmayıb. Amma bu daha artıq oldu... Çox artıq oldu!

- Yenə sizdən xahiş edirəm. - Əbilov atası yaşında olan bu kişi ilə bacardığı qədər hörmətlə danışmağa çalışırdı. - Siz dünyagörmüş adamsınız, səbirli olun və adamlarınıza da belə tapşırın. Bir də
ki, qoy...

Deyəsən, «ehtiyatlı olsunlar» demək istəyirdi. Ancaq demədi. Balta Xanəlinin qırımını görüb, odun üstünə benzin tökmək istəmədi. Sözünü başqa cür tamamladı:

- Maraqlansınlar, soruşsunlar... Onu tapmaqda bizə köməkçi olsunlar.

Ata da, oğul da cavab verməyib susdular. Allahverdi onlara bir də başsağlığı verib, oradan uzaqlaşdı. Adamlar dəstə-dəstə çadırdan çıxmağa başlamışdılar.

Bu vaxt Ağaşamilin mənzilində daha üzüntülü anlar yaşanırdı. Ağlamaqdan gözləri şişib qızarmış, uzun,



downloaded from KitabYurdu.org

qıvrım saçları bir-birinə qarışmış Fatimə yerə atılmış döşəkcənin üstündə oturub, kürəyini divara söykəmişdi. O da yanında oturan gəlinlər də başdan- ayağa qara geyinmişdilər. Cəhalə bir tərəfində, Nəzakət isə o biri tərəfində oturub qardaş itkisindən az qala ağlını itirmiş qızı ovundurmağa çalışırdılar.

Ancaq Fatimə daha ağlamırdı. İriləşmiş ala gözlərini qarşı divara dikib heykəl kimi donmuşdu.

Otuz beşinci fəsil

Polis idarəsi gücləndirilmiş iş rejiminə keçmişdi. Qanturalı tezliklə ələ keçirmək üçün əməliyyat planları hazırlanır və bu planlar durmadan həyata keçirilirdi. Şəhərdə cinayət axtarışı ilə məşğul olan bütün əməkdaşların cibində Qanturalın şəkli var idi. Təhlükəli cinayətkar hesab olunan bu adamın axtarışı ilə əlaqədar elan vermək üçün bir daha televiziya kanallarına müraciət olunmuşdu.

Axşam idi. İş vaxtının qurtarmasına baxmayaraq, polkovnik Mirzəyev öz kabinetində oturmuşdu. Bir azdan yanında növbəti operativ müşavirə keçiriləcəkdi. İndi isə telefonda prokurorla yenicə danışıb qurtarmışdı. Ataxanov, demək olar,
hər iki-üç saatdan bir Qanturalın axtarışı ilə bağlı görülən işlərlə maraqlanır, öz göstərişlərini verirdi.

Yenidən qan tökülməsinin qarşısını almaq üçün də bəzi tədbirlər görülmüşdü. Lal Zəkixanın evi kənardan polis işçiləri tərəfindən qorunurdu. Üstəlik, Balta Xanəlinin və onun bir neçə dəliqanlı qohumunun hərəkətləri nəzarət altına alınmışdı. Mirzəyev iki qardaşını itirmiş Xanəlinin intiqam ala biləcəyindən ehtiyatlanırdı...

Qapı açıldı və kapitan Əbilov kabinetə daxil oldu:



downloaded from KitabYurdu.org

- Olar, cənab polkovnik?

- Gəl, Allahverdi, - rəis oturmaq üçün əməliyyat müvəkkilinə yer göstərdi.

Əbilovun yorğun və fikirli görkəmi var idi. Yaxınlaşıb əlindəki zərfi rəisin qarşısına qoyaraq,
göstərilən stulda əyləşdi.

- Cənab polkovnik, - dedi. - Mən prokurorun razılığı ilə bir daha Qanturalın mənzilində ciddi axtarış apardım. İki saatdan çox, diqqətlə apardığım axtarış nəticəsində bu fotoşəkilləri tapdım. Orada tualetin üstündə iki yüz litrlik su çəni var. Şəkillər bu çənlə tavanın arasında qalan dar yerə qoyulmuşdu.

Mirzəyev təmkinlə zərfi açdı. Onun içində iki fotoşəkil var idi. Keyfiyyətsiz çəkilmiş şəkillərin birinə yemək süfrəsinin arxasında oturmuş adamlar düşmüşdü. Daha doğrusu, sifəti aydın görünən tək bir adam var idi bu şəkildə. O da qara saçlı, gözəl və gənc bir qadın idi. Gözəl quruluşa malik dodaqları, üzündəki kiçik qara xal, zövqlü saç düzümü ona özünəməxsus yaraşıq verirdi. Sol tərəfində əynində qara kostyum olan, Mirzəyevin fikrincə qırx-qırx beş
yaş arasında bir kişi oturmuşdu. Kişinin gözündə qara eynək var idi. Yanındakı qadına tərəf əyildiyi və sol əlinin barmağını sifətinə qoyduğu üçün üzü, demək olar ki, görünmürdü. Görünən ancaq tək-tək ağarmağa başlayan qara saçları, sol əli, sol qulağı, burnu və eynəyin bir hissəsi idi ki, bununla da onu tanımaq çətin məsələ idi.

Həmin kişinin solunda, yəni stolun baş tərəfində kiminsə olub-olmaması bilinmirdi. Amma kişi ilə üzbəüz oturmuş sarışın saçlı bir qadının başının arxa hissəsi



downloaded from KitabYurdu.org

görünürdü. Bu qadından solda isə yenə kimin oturduğu bilinmirdi. Ümumiyyətlə, şəkli çəkən adam obyektivi düzgün yönəldə bilmədiyi üçün kadr yarımçıq alınmışdı. Heç süfrə özü də yaxşı görünmürdü. Amma əvəzində kadrda bir söyüd ağacının budağı, arxadakı divarda çəkilmiş mozaik
rəsmin bir hissəsi və divarın üstündən açıq səma görünürdü.

İkinci fotoşəkil isə daha dəqiq alınmışdı. Küçədə çəkilmiş bu şəkildə qara rəngli maşının arxa qapısını açan arıq, sarışın qadının sifəti, bir tərəfdən olsa da, aydın düşmüşdü. Maşına oturmaq istəyən qadın sol tərəfdə kiməsə baxırdı. Amma həmin adam kadra yerli-dibli düşməmişdi.

Hansı markaya mənsub olduğu anlaşılmayan maşın sakit və nisbətən dar olan bir küçənin kənarında dayanmışdı. Şəkilin çəkildiyi anda küçədən yalnız iki maşın keçirmiş. Bunlardan biri küçənin ortası ilə hərəkət edən «Fiat» idi ki, kadra yan tərəfdən düşdüyü üçün, nömrəsi-filanı görünmürdü. İkinci maşın - ağ rəngli «Jiquli» isə fotoşəklin yuxarı sağ küncündə yarımçıq düşmüşdü.
Onun yalnız yarıdan qabaq hissəsi, o da çox solğun görünürdü. Nömrəsi görünsə də, oxumaq mümkün deyildi.

Yolun o biri səkisi tərəfdə kubikdən tikilmiş hasar uzanıb gedirdi. Bu hasarı iki yerə ayıran darvazanın qarşısına altı-yeddi oğlan uşağı yığılmışdı. Onlar, deyəsən, nəsə bir oyun oynayırdılar. Bundan başqa, qarşı səkidə əkilmiş bir neçə ağac diqqəti cəlb edirdi.

Polkovnik Mirzəyev fotoşəkilləri diqqətlə nəzərdən


downloaded from KitabYurdu.org

keçirəndən sonra başını qaldırıb kapitan Əbilova baxdı:

- Maraqlı tapıntıdır. Çox sağ ol! Bax bu şəkil, mənə elə gəlir, hansısa bir kafedə çəkilib. Özü də kafenin həyətində. Bu kişi, üzü yaxşı görünməsə də, sanki kimisə xatırladır mənə. Ancaq bilmirəm kimi...

Əbilov, nədənsə, bir qədər həyəcanlı idi.

- Bəli, cənab polkovnik, - dedi, - şəkil kafedə çəkilib. Amma hansı kafedə, biz onu müəyyənləşdirməliyik. Bu kişi bir az mənə də tanış gəldi. Ola bilsin, tanınmış adamlardandır. Orta boylu, sağlam və qüvvətli adam təsiri bağışlayır. Bu qara saçlı, gözəl qadın isə, hiss olunur ki, belə məclislərdə olmayıb. Utancaqlığı, çəkingənliyi aydın görünür. Bir də... Fikir verdinizmi, o qarşı tərəfdəki sarışın qadına bir qədər qısqanc nəzərlərlə baxır.

- Hə, - rəis onun fikrini təsdiq etdi. - Bu qadın heç də fahişəyə oxşamır. Ancaq hər halda, yanındakı kişinin arvadı da deyil. Mənə elə gəlir ki, belə işlərə təzə başlayanlardandı bu qadın...

- Ancaq cənab polkovnik, - Əbilov tərəddüdlə dilləndi. - Məni bu şəkillərdə daha çox sarışın qadın maraqlandırdı. Mənə elə gəlir ki, mən bu qadını haradasa görmüşəm. Amma gördüyümüz kimi, o rusdur və heç buranın ruslarına da oxşamır. Gəlmədir...

- Düz deyirsən! - rəis dedi, - Yaxşı, belə çıxır ki, bu şəkilləri Qantural çəkib? Onun bu adamlarla nə əlaqəsi var?

Allahverdi çiynini çəkdi:

- Doğrusu, mən də sizin kimi düşünürdüm. Yadınızdadı, Xədicə adlı o qızın deməsinə görə, Nihat Qanturala nəyisə cırıb atmağı məsləhət görmüşdü.



downloaded from KitabYurdu.org

Amma...

- Nə amma? - rəis diqqətini topladı.

- Mən bu şəkilləri sizə gətirməmiş, əvvəlcə ekspertə verdim. Amma şəkilləri haradan tapmağım barədə heç nə deməmişəm ona. Ekspert bir az əvvəl
mənə bildirdi ki, bu fotolarda yalnız Nihatın barmaq izləri var.

- Nihatın? - Mirzəyev təəccübləndi.

- Bəli, Nihatın!

- Maraqlıdır... polkovnik fikirli halda sifətini qaşıdı. - Belə çıxır ki, fotoları Nihat çəkib və aprelin 30-da Qanturalın mənzilinə girərkən oraya qoyub... Deyəsən, biz hamımız səninlə razılaşmalı olacağıq. Nihat o gecə həmin mənzilə nə Sənihəyə görə, nə də oğurluğa görə girib. Onun tamamilə ayrı bir məqsədi olub, özü də təxribat xarakterli məqsədi... - bir an fasilə verib, birdən dilləndi, - Amma onların orada cinsi əlaqəyə girməsi artıq danılmaz bir faktdır, axı?!

- Bəli, cənab polkovnik, - Əbilov dedi, - mən bunu danmıram. Onların əvvəlcədən intim
münasibətləri olub. Həmin gecə Sənihə mənzilə girəndə Nihata gözləmədiyi halda rast gəlib. Nihat mənzilə girməsini ona necə izah edib, bilmirəm, amma onlar, hər halda, dil tapıblarmış.

- Bəs Sənihənin öz baldızı ilə telefon danışığı? Bu Nihatın yanında olub? Düz gəlmir axı?!

Kapitan Əbilovun bu suala cavabı hazır idi:

- Ola bilər, Sənihə mənzilə gələndə, Nihat əvvəlcə gizlənib. Sonra qadın telefonla danışdığı vaxt mənzildən çıxıb və qapının zəngini çalıb... Ya, başqa cür də ola bilər.



downloaded from KitabYurdu.org

- Yaxşı, sənin fikrincə, Nihat o şəkilləri nəyə görə qoyub o mənzilə?

- İlk ağlıma gələn fikir budur ki, - Əbilov izah etdi, - Nihat Qanturalı bu yolla ilişdirmək istəyib. Elə həmin qara çantada da təxribat xarakterli nəsə bir
şey olub. Bu silah da ola bilər, narkotik maddə də, düşmən təbliğatını əks etdirən ədəbiyyat da...

Rəis bir müddət yenə də şəkillərə tamaşa edib dilləndi:

- Mən bunları Milli Təhlükəsizlik Nazirliyinə verəcəm. Bu sarışın rus qadının kim olduğunu araşdırmaq artıq onların işidir. Amma sən qalx kompüterdə bu şəkillərin hərəsindən iki nüsxə surət çıxart. Bir də bu qarasaç qadının ayrıca götürülmüş şəklindən beş-altı dənə...

Əbilov qalxıb şəkilləri rəisindən aldı və bir kənarda qoyulmuş kompüter stolunun arxasına keçdi.

Polkovnik Mirzəyev daxili əlaqə telefonunun düyməsini basıb əməliyyat qrupunun əsas üzvlərinin
yanına çağırılmasını tapşırdı. Sonra Əbilova baxıb dedi:

- Allahverdi, qulaq as, bu kafe məsələsi ikimizin arasında qalsın hələlik. Panika qaldırmaq lazım deyil. Ancaq kafenin müəyyənləşdirilməsini sənə tapşırıram. Bunun üçün əlindəki fotolardan istifadə edə bilərsən. O mozaik rəsm, içəridəki söyüd ağacı, küçənin və qarşıdakı hasarın görünüşü axtarışa az da olsa kömək edə bilər. İstifadə etdiyin adamlar kafeni nə üçün axtardığını bilməsinlər. Bir də, bu qarasaç qadını tapmağa çalış. Onu tapsan, deməli, kafeni də tapmış olacaqsan. Onun axtarışını başqalarına da tapşıracam, amma ümidim sənə daha çoxdur. Bu gündən bütün diqqətini bu istiqamətə yönəlt. Qanturalın tapılmasına da kömək edə bilər bu kafe



downloaded from KitabYurdu.org

məsələsi.
- Oldu, cənab polkovnik!

Allahverdi ayağa qalxıb çıxartdığı fotoşəkilləri Mirzəyevin qarşısına qoydu. Polkovnik hər surətdən birini ona qaytarıb:
- Bunlar səndə qalsın, - dedi.

Əbilov şəkilləri alıb dəri qovluğun içinə qoydu və yenə bayaqkı yerində əyləşdi. Bir azdan mayor Qismətov da daxil olmaqla, bir neçə polis zabiti kabinetə girdilər. Operativ müşavirə başlandı.

Polkovnik Mirzəyev Canəlinin görülmüş işlər haqqında hesabatını dinləyəndən sonra Qanturalın axtarışı ilə əlaqədar yeni göstərişlərini verdi. Müşavirənin sonunda isə qarasaçlı qadının tək çıxarılmış şəkillərini oturanlara payladı:

- Bu qadın haqqında bizə heç nə məlum deyil. Ancaq şəkil əsasında onu axtarmalısınız. Düzdür, bu
heç də asan olmayacaq sizin üçün, amma başqa yol da yoxdur. Bu qadın hökmən tapılmalıdır!

Əməkdaşlar şəklə baxıb, onu ciblərinə qoydular. Canəli isə heyrətlənmişdi. Bu odurmu yəni? Hə, əlbəttə odur! Bunun nə əlaqəsi var?.. Əvvəlcə, istədi qadını tanıdığını rəisə desin. Ancaq nə düşündüsə, fikrindən daşındı. Şəkli cibinə qoyub rəisə dedi:
- Cənab rəis, bu qadın Qanturalla əlaqəlidirmi?

- Ola bilsin, hə! - Mirzəyev dedi, - Qanturalın qardaşlarına, bir də qonşularına göstərmək olar. Bir də onun orijinal saç düzümü var. Qadın salonları ilə də əlaqə saxlamaq olar. Ümumiyyətlə, nəyin bahasına olursa olsun, onu tapın! Gedə bilərsiniz!


downloaded from KitabYurdu.org

Bu vaxt onun cib telefonu səsləndi. Mirzəyev götürüb ekrana baxdı. İki cümlədən ibarət qısa mesaj gəlmişdi:

«Yaxınlarımı incitməyin! Məni onsuz da tapa bilməyəcəksiniz!»

Rəis qapıdan çıxmaq üzrə olan Əbilovu geri çağırıb telefonun ekranını onun gözləri qarşısında tutdu:

- Bu nömrə sənə tanışdır? Əgər tanış deyilsə, təcili öyrənmək lazımdır.

Allahverdi mesajı oxuyub, diqqətlə nömrəyə baxdı və birdən, sanki diksinib başını geri çəkdi:

- Bu Qanturalın nömrəsidir! - dedi. - Neçə dəfə zəng vurub yoxlamışam. Telefonu, çox güman ki, harasa tullayıb. Nömrəsi də bağlı olurdu.
Fikirləşirdim ki, onu da atmış olar...

Polkovnik mesaj göndərilən nömrəni yığıb, zəng vurdu. Telefonu açdılar.

- Alo! - rəis acıqlı səslə dilləndi.

Cavab gəlmədi.

- Mənə qulaq as! - Qanturalın danışmayacağını görüb, davam etdi. - Bizim əlimizdən qaçıb gizlənməyin mənası yoxdur. Yaxşısı budur, xoşluqla gəl təslim ol! Bu sənin xeyrinə olar!

Cavab əvəzinə istehzalı gülüş səsi eşidildi və telefon əlaqəsi kəsildi. Polkovnik bir də həmin nömrəni yığanda, artıq, telefon söndürülmüşdü...

Otuz altıncı fəsil

Məltəm mətbəxdəki işini yarımçıq qoyub, narahat halda otaqda vurnuxurdu. Mayor Qismətov indicə ona zəng vurmuş, evdə olduğunu bilərək, buraya gələcəyini demişdi.



downloaded from KitabYurdu.org

Məltəm ərinin məhkəməsindən sonra hər şeyin bitdiyini düşünürdü və inzibati orqanların onu bir daha narahat edəcəyini ağlına da gətirmirdi. İstintaq zamanı onu yalnız bir dəfə polis idarəsinə çağırmışdılar. Onda da Canəli danışdırmışdı onu. Həmin dindirmə zamanı bu şorgöz kişinin ona necə iştahayla baxdığını unutmamışdı hələ. Sonra da bir dəfə prokurorluqda olub müstəntiq İmanova izahat vermişdi. Axırda da məhkəmədə iştirak etdi,
vəssalam! Ondan sonra görməmişdi Salehi. Hər şey çox sürətlə baş vermişdi. Sürətlə baş verib, sürətlə də bitmişdi.

Məltəm ərini unutmamışdı. Hər gün xatırlayırdı onu və hər gün də narahatlıq keçirirdi onun üçün. Onun həbsdə necə gün keçirəcəyini özünə dərd edib ağlamışdı neçə dəfə. Ancaq məhkəmə günü Saleh ona demişdi ki, koloniyaya gəlib eləməsin. Məltəm də getməmişdi. Heç yolunu da tanımırdı oranın.
Necə getmək lazımdır, nə aparmaq lazımdır, bilmirdi. Həm də, incimşdi Salehdən. Arvadının, uşaqlarının gələcəyini düşünmədən etdiyi hərəkətə görə. Məhkəmədən sonra Məltəm inanırdı Salehin Rafiqi öldürməyinə. Əri hər şeyi boynuna alıb, danışmışdı məhkəmədə. Belə çıxırdı ki, Məltəmi qısqandığı üçün öldürmüşdü onu... Amma axırı nə oldu? Onun
bu yersiz hərəkətinin əvəzini Məltəm verməli oldu. Öz namusu hesabına...

O gün Məltəmin yadından ölənə qədər çıxmayacaqdı. Aprelin 20-si... Həmin gün tamamilə dəyişdi, başqa adam oldu. Xarakterimi dəyişdi? Yox... İnsan xarakteri belə tezliklə dəyişmir. Ancaq həyata baxışı dəyişdi o gün.


downloaded from KitabYurdu.org

Qadın mənəmliyini, daxili təmizliyini, nəhayət, insanlara olan inamını itirdi. Hörmət bəslədiyi, lazım olarsa, özünə, ailəsinə arxa bildiyi Əlifağa onu zorladı, namusuna təcavüz elədi. Əslində, kimin ucbatından? Salehin!.. Ancaq gərək etməyəydi bunu Əlifağa! Lap Saleh onun oğlunu öldürmüşdüsə də, etməyəydi! Məltəm onun qabağında diz çöküb, əllərindən öpərdi, onu özünə ata bilərdi ömrü boyu...

O gün Məltəm doyunca ağlayandan sonra, həyətə düşüb, hamama girdi. Yuyunub, paltarını dəyişdi. Uşaqları dərsdən qayıdanda nəsə hiss etmələrinə imkan vermədi. Mehriban danışdırdı onları, üzlərinə güldü. Axşam onları öz yataqlarına salıb yatızdırandan sonra yerinə girdisə də gecə yarısına kimi gözünə yuxu getmədi. Gözlərini yuman kimi özünü Əlifağanın qoynunda görüb diksinir, gözlərini açırdı. Çalışırdı Saleh haqqında düşünməsin, yadına salmasın onu. Yadına salanda daha çox əzab çəkirdi, daha çox çıxılmaz vəziyyətdə hiss edirdi özünü.

Səhəri gün uşaqları təzəcə məktəbə yola salmışdı ki, Sadıxov zəng vurub onu ofisinə çağırdı. Məltəm bir az düşünəndən sonra getməyi qərara aldı. Fikirləşdi ki, gedib Əlifağanın dünən qoyub getdiyi pulları özünə qaytarsın. Pulları geri qaytarıb, həm də tələb etsin ki, bir də onunla işi olmasın Əlifağanın. Getdi... İçəri girən kimi pulları stolun üstünə qoyub, həmin tələbi elədi də!..

Ancaq bəs?.. Ancaq bəs nəyə görə Məltəm həmin gün, Əlifağa ilə təklikdə olan ikinci görüşə gedərkən, dünən yuyunmağına baxmayaraq, bir də tələsik hamama girdi? Nəyə görə, əyninə hansı alt paltarını geymək barədə o



downloaded from KitabYurdu.org

qədər düşünməli oldu? Nəyə görə, geyinib-kecinib qurtarandan sonra güzgünün qabağında əvvəlkilərdən çox dayandı? Bütün bunlar nəyə lazım idi axı? O ki pulları stolun üstünə atıb, sözünü deyib geri qayıdacaqdı?..

Kim bilir?.. Qadın ürəyi o qədər sirli, qadın qəlbi o qədər qaranlıq olur ki, bundan heç kəs, bəzən heç özləri də baş aça bilmir. Ancaq gərək Məltəm
boynuna alaydı ki, Əlifağa onu zorlayarkən, o, qorxu, məğlubiyyət, alçalma, və sair hisslərlə bərabər, lap az da olsa, çox da olsa, qəribə, bir qədər yeni, bir qədər xoş duyğular da keçirmişdi. Məltəm bunu boynuna almaq istəmirdi. Ancaq onun boynuna alıb, almaması ilə deyildi ki?..

O görüşdə Əlifağa onu zorlamadı. Sadəcə, yola gətirdi. Bir az çətinliklə olsa da, axır ki, gətirdi. Çünki Məltəm də əvvəlki Məltəm deyildi daha. Dünən həmin bu kişi ilə əlaqədə olmuşdu. Etiraz etmək, müqavimət göstərmək artıq onun özünə də mənasız görünürdü. Bir şeydən baş aça bilmədi ki, əslində, buraya başqa məqsədlə gəldiyi halda, necə oldu ki, yumşaldı? Əlifağa ona ikinci dəfə sahib oldu və qadının stolun üstünə qoyduğu pulun üstünə bir o qədər də qoyub geri qaytarmağa çalışdı. Amma
Məltəm buna etiraz edib, oradan çıxdı və evə qayıtdı. Ayrılarkən Əlifağanın ona dediyi sözlər indi də qulağında səslənirdi, elə bil:

- İstəyirsən götür, istəmirsən götürmə! Mən səninlə işimi qurtardım. Elə bilmə ki, vurulmuşam sənə. Mənim arvadım var və ancaq onu sevirəm. Sənin kimi kəndçilər heç nədə onun yerini verə bilməz. Mən səndən ancaq ərinin elədiyi böyük bir qələtin intiqamını alırdım və aldım da!


downloaded from KitabYurdu.org

O görüşdən qayıdandan sonra Məltəmin ürəyi gah Əlifağaya, gah da Salehə qarşı nifrətlə dolub- daşdı. Nələr düşünmədi o gün, nələr söz vermədi özünə?..

İki gün sonra isə... Aprelin 23-də «Çəməndağ» kafesinə çağırılanda çağırışı qəbul edib gedəsi oldu. Salehin dostu kimi tanıdığı Nihat zəng vurmuşdu evə. Bildirmişdi ki, kafeyə gəlməyi Salehin xeyrinə ola bilər. Getdi və... Başqa kişi ilə əlaqədə oldu o gün. O kişi bundan əvvəl bircə dəfə görmüşdü Məltəmi və xoşu gəlibmiş ondan.

O gün Məltəm tamamilə keyləşmişdi elə bil. Kafenin həyətindəki görüş otağına girəndə də, arxasınca gələn kişi onun qulağına xoş sözlər deyə- deyə paltarını soyunduranda da...

Sadıxovdan fərqli olaraq, bu kişi on yaş cavan idi, evli deyildi, daha qızğın idi, Məltəmi xoşlayırdı və ondan heç bir intiqam almaq fikri yox idi. Ancaq hər halda bu ikinci yad kişi idi həyatında... İkinci... Məltəm, artıq, özü də uçuruma yuvarlandığını hiss edir, özünə nəzarəti unudurdu. Getdikcə hər şey hamıya məlum ola bilərdi. Elə həmin görüş zamanı Nihat da orada idi və o kişi ilə bir otaqda qalmasına şahid oldu. Əgər Məltəm onun orada olmasını nəzərə almadısa, demək, artıq öz yolunu müəyyənləşdirmişdi. Demək, gündə bir kişinin qucağında olacaqdı bundan sonra.

Aprelin 23-dən keçən vaxt ərzində iki dəfə də görüşmüşdü həmin kişi ilə. Ancaq bu dəfə kişi onu başqa yerə aparmışdı. Axırıncı görüşdə Məltəm üst paltarını özü soyunmuşdu və bu özü də onda gedən dəyişikliyin necə



downloaded from KitabYurdu.org

sürətlə baş verdiyini göstərirdi.

O görüş bir qədər uzun çəkmişdi. Evə qayıdan Məltəm uşaqların bağlı qapının qarşısında dayanıb onu gözlədiklərini görəndə xəcalətindən az qalmışdı yerə girsin. O vəziyyət indi də yadına düşəndə bədənini titrətmə tuturdu. Bütün bu işlərlə bərabər, neçə dəfə ağlamışdı Saleh üçün. Onunla keçirdiyi qayğısız, qorxusuz, xəcalətsiz, bir sözlə, xoşbəxt günləri xatırlamışdı. Fikirləşmişdi ki, keçdi, qurtardı daha bu xoşbəxt ailəlik həyatı. Fikirləşmişdi ki, daha heç cür qaytarmaq olmayacaq bu ailəni öz normal vəziyyətinə. Bədbəxt olub gedəcək hamısı! Elə uşaqlarda!..

Gültay da, Eltay da ataları üçün çox darıxır, çox dərd çəkirdilər. Son günlər analarının dərdini artırmamaq üçün bir o qədər də sual vermirdilər ona. Ancaq kədərli duruşlarından, lal baxışlarından necə xiffət etdikləri açıq-aydın görünürdü. Daha dərslərini də yaxşı oxuya bilmirdilər. Nə də anaları məşğul ola bilmirdi onlarla. Uşaqların gündəliklərində qiymətlərin getdikcə aşağı düşdüyünü görən Məltəm bunu da özünə bir dərd edirdi.

Dərd edirdi, amma bir çarə də bilmirdi daha bu dərdə. Bacara bilmirdi özüylə. Ona məsləhət verə biləcək, yol göstərə biləcək bir adama ehtiyac hiss edirdi. Ancaq yox idi belə bir adam. Ermənilər tərəfindən öldürülmüş ata-anasını, itkin düşmüş bacısını xatırlayıb zülüm-zülüm ağlayırdı. Onlardan biri yanında olsaydı, yəqin ki, qoymazdı onu ruhdan düşməyə.

Birdə Saleh... Bu hadisə baş verməsəydi, Saleh tutulmasaydı, bütün bu işlər də olmazdı. Bir az öz qeyrətindən, bir az ərinin qorxusundan ömrünün axırına


downloaded from KitabYurdu.org

kimi sadiq olardı ona və uşaqlarını böyüdüb bir yana çıxarar, özləri də təmiz adla qocalardılar.

İndi isə hər şey bitib qurtarmışdı. Tamam pozulmağa doğru gedirdi Məltəm. O kişi ilə birinci görüşdən sonra Əlifağaya nifrət edirdi, amma o kişinin özünə nifrət edə bilmirdi. Artıq məşuqəsinə
çevrilmişdi onun və bu işlərin axırı necə olacaqdı, bilmirdi.

Bu yandan da bu mayor! Evə gəlmək istəyir. Axı niyə? Sözü varsa, niyə idarəyə çağırmır? Məltəm onun istintaq zamanı atdığı atmacaları, xəbis niyyətdən xəbər verən baxışlarını xatırladı. Nə istəyirdi o Məltəmdən? Yox, sözsüz ki, onun nə istədiyini Məltəm anlayırdı. Ancaq niyə belə fikrə düşürdü bu adam? Niyə qoymurdu Məltəm öz həyatını yaşasın? Niyə müdaxilə etmək istəyirdi onun daxili hisslərinə?

Divanda oturub, bir az fikrə getdi. Sonra qalxıb güzgüdə özünə baxdı, saçlarını düzəltdi. Əyninə qara rəngli kalqotka və təzə ev xalatı geyinmişdi. Xalatını soyunub, əvəzinə don geyinmək istədi.
Ancaq sonra fikrini dəyişdi. Evə yüngül əl gəzdirib, çağırılmamış qonağı gözləməyə başladı.

Bir azdan Canəli gəldi. Ev sahibəsi qapını açıb onu içəri buraxdı. Adi mülki paltarda olan mayor ətrafına göz gəzdirib otağa keçdi və təklifsiz stul çəkib oturdu.

-Təksiniz?

- Bəli... - Məltəm tutqun halda cavab verdi. - Uşaqlar dərsdədirlər. İndi gələcəklər.

- Əyləşin! - Canəli divanı göstərdi. - Sizinlə vacib söhbətim var.

Məltəm keçib divanda, onunla üzbəüz oturdu.


downloaded from KitabYurdu.org

- Ərinin yanına gedib-gəlirsən? - Onu başdan- ayağa diqqətlə süzən mayor soruşdu.

- Xeyr.

- Niyə?

- Mən heç yanı tanımıram. Həm də deyib ki, gəlmə.

- Yəqin qorxur ki, sənin kimi gözəli görsələr, əlindən alarlar.

Məltəm dinmədi. Bundan istifadə edən Canəli gəlib onun yanında oturdu:

- Demişdim, bir şey lazım olsa, zəng elə, niyə zəng eləməmisən?

- Heç nə lazım olmayıb. - Başını aşağı dikmiş Məltəm quru cavab verdi.

Canəli əlini onun qara, hamar saçlarına çəkdi. Məltəm o saat başını silkələdi. Onun bu hərəkəti mayoru birdən-birə ciddiləşdirdi. Rəisinin dünən kabinetdə verdiyi fotoşəkli cibindən çıxarıb qadına göstərdi:

- Bu sənsən, eləmi?

Məltəm şəkli görən kimi diksindi. Ona gözucu baxıb, bu formada, bu saç düzümündə harada olduğunu xatırlamağa çalışdı və tez də tapdı. Bəli, «Çəməndağ» kafesində çəkilmişdi bu şəkil. Bəs kim çəkmişdi bu şəkli, görəsən? Nihatmı? Axı niyə? Nə üçün? Nə məqsədi ola bilərdi onun bu işdə? Ya, bəlkə o biri, uzun bığlı, alnında çapıq olan zəhmli oğlan? Nə deyirdilər onun adını? Hə, Qantural... O, hərdən acıqlı baxışlarla baxırdı Məltəmə ... Ancaq axı niyə biabır etmək istəyirdilər onu?

- Özünü tanımadın? - Canəli dilləndi.

- Mənəm, - qadın asta səslə dedi. - Bunu sizə kim verib?



downloaded from KitabYurdu.org

- Polis rəisi! - Canəli birbaşa cavab verdi, - Bütün polis idarəsi səni axtarır! Nə etdiyini isə özün çox gözəl bilirsən.

Mayor Qismətov özü bu qadının nə günah sahibi olduğunu bilməsə də, rəisin onun şəklini əməkdaşlara nahaq yerə paylamadığını anlayırdı.

İndi o, nə edəcəyini hələ tam müəyyənləşdirməmişdi. Bu qadını axıra qədər gizlədəcəkdi, yoxsa?.. Hər halda, Məltəmə sahib olmağı yaman arzulayırdı. Öz kabinetində olarkən, ona diqqətlə fikir vermiş və çox xoşuna gəlmişdi bu qadın. Öz arvadı və bu vaxta qədər əlaqədə olduğu qadınlardan kəskin fərqlənirdi Məltəm. Bir baş dumanlandıran şirinlik var idi bu qadının görünüşündə, hərəkətlərində, səsində. İncə beli, enli gərdəni lap «Min bir gecə» nağıllarında təsvir olunan şərq gözəllərini xatırladırdı.

Məltəmin əyninə geydiyi qara kalqotka dizdən azacıq yuxarıda, yan tərəfdən deşilmişdi. Canəli gözlərini həmin bu deşikdən görünən süd kimi ağlığa zilləmişdi. Bu görünən ağlıq sahə nə qədər kiçik olsa da, ona görünməyən sahələrin sirrindən xəbər verir və bu sirrin bu şəkildə açılması Canəlinin daxilində baş qaldıran şəhvəti gücləndirirdi.

- Mən nə etmişəm axı? - Məltəm qorxu içində dilləndi.

- Dedim ki, özün yaxşı bilirsən. Məndən soruşmaq lazım deyil. De görüm, harada və kiminlə olmusan bu şəkil çəkiləndə? - mayor elə bil istintaqa başlamışdı.

- Bilmirəm! Deyə bilmərəm! - Məltəm əlləri ilə üzünü örtdü.

Xalata nəzarəti itirdiyi üçün dizlərindən bir qədər yuxarı hissələr açıqda qaldı. Qadının ətli və hamar budları


downloaded from KitabYurdu.org

qara rəngin əhatəsində olsa da, bunu görən
Canəlinin ehtirası coşdu. Əlini uzadıb onun ayağına çəkdi. Məltəm bu qəfil hərəkətdən səksənib onun əlini kənara itələdi.

Mayor yenə ciddiləşdi:

- Səni polis idarəsinə aparmalıyam. Orada hər şeyi danışacaqsan. Özünü naza qoymağa başlasan, heç kəs qadınlığına baxmayacaq sənin! De görüm, Qantural adlı adam tanıyırsan?

- Yox! - Məltəm başını silkələdi.
- Bəs Nihatı necə, tanıyırsan?
- Bəli... Ərimin tanışıdır.
- Onun öldürülməsindən xəbərin varmı?
- Öldürülüb? - Qorxu və heyrətlə mayora baxdı.

- Bəli, həmin Qantural öldürüb Nihatı. Biz onu axtarırıq. Yəqin ki, səndən onun yerini soruşacaqlar.

- Mən onun yerini bilmirəm! - Məltəm səsini qaldırdı.

- Bilməsən də soruşacaqlar. - Canəli istehza ilə gülümsədi.

«Nə işə düşdüm, ay Allah! - Məltəm fikirləşdi. - Məni niyə bu işə qatıblar? Kim verib polisə şəklimi? Rüsvay oldum. Bədbəxt oldum ömürlük. İndi özümü öldürməkdən başqa çarəm yoxdu, daha!»

O, tamam ruhdan düşmüşdü. Canını qorxu bürümüş, ümidsizlik girdabına yuvarlanmışdı. Kaş bu adam bildirməyəydi onu. İdarəyə aparıb rüsvay etməyəydi. Məltəm nə danışacaqdı orada? Heç nə danışa bilməzdi axı?! Buna ixtiyarı yox idi onun. Ancaq deyir, səni danışdıracaqlar. Düz deyir, bir az qorxudan kimi dözməyəcək Məltəm, danışacaq hər şeyi. Sonra da... Aman


downloaded from KitabYurdu.org

Allah!

- Hə, mənə danışırsan hər şeyi, yoxsa yox?

- Gedin, xahiş edirəm, - Məltəm yalvarmağa başladı, - Məni rüsvay etməyin, bir azdan uşaqlar dərsdən gələcək.

- Səni oraya aparsam rüsvay olacaqsan, burada yox. Hə, nə deyirsən, mənim istədiyimi eləməyə razısan, yoxsa idarəyə getmək istəyirsən?

- Uşaqlar gələcək, gedin, xahiş edirəm!

Canəli əlini yenə onun ayağına sürtdü.

- Uşaqlar gələnədək çox şey eləmək olar! Məltəm yenə qəfil təmasdan çimçişib onun əlini kənarlaşdırdı. O bu kişidən qətiyyən xoşlanmırdı. Onun ətli sifətindən, qalın dodaqlarından, qadın buxağı kimi sallanan buxağından, tüklü, gonbul əllərindən iyrənirdi.

- Deyəsən, səninlə başqa cür danışmalı olacam! - Canəli qanıqara halda dedi.

Məltəm yenə əlləri ilə üzünü örtmüşdü. Ondan əl çəkmək istəməyən bu kişinin növbəti hərəkətinə dözmək üçün özünü hazırlayırdı. Əgər Canəli ona bir də əl uzatsaydı əlini kənara itələməyəcəkdi. Təki onu özüylə aparıb biabır eləməsin, dilə-dişə salmasın...

Amma ehtirasdan qovrulan Canəli qadının nə düşündüyünü anlamadı. Buna görə də növbəti cəhdə cəsarət etməyib, birdən ayağa qalxdı:

- Sabah vacib işim var. Birisi gün saat 11-də bura gələcəm. Əgər könüllü olaraq mənim olmağa razılıq versən, səni tapdığımı rəisə bildirməyəcəm. Onu da deyim ki, sənə görə böyük riskə gedirəm. Səni başqası tapsa, üstəlik, Salehin arvadı olduğunu bilsələr, rəis məndən şübhələnəcək. Deyəcək ki, bəs



downloaded from KitabYurdu.org

sən onu dindirməmişdin? Mən məcburam ki, sənin izahatını işdən götürüm. Qoy təkcə müstəntiqə verdiyin izahat qalsın. Görürsən də, sənə görə nələr edirəm. Sən də çalış, küçəyə az çıx. Ancaq bax, yenə deyirəm, birisigün gələndə mən deyəni eləməsən, gedəndə səni özümlə aparacam!

- Birisigün bazardır, - Məltəm əllərini üzündən götürmədən dilləndi, - Uşaqlar evdə olacaq.

- Dəxli yoxdur! - Canəli hirsləndi, - Uşaqları göndər harasa, özün saat 11-də məni gözlə!

Məltəm nə deyəcəyini bilmirdi. Düşdüyü vəziyyət elə qorxulu və acınacaqlı idi ki, nə düşünmək, nə də hərəkət etmək imkanı qalmışdı. Hər şeyi taleyin öhdəsinə buraxıb gözləyirdi. Tale isə onun xeyrinə işləmirdi, nədənsə...

- Eşitdin, nə dedim?! - çağırılmamış qonağın səsi onu diksindirdi.

- Eşitdim... - Məltəm başını qaldırmadan pıçıldadı.

Canəli dediyini bir də təkrar etdi:

- Birisigün saat 11-də burada olacam!

Sonra isə divanda oturmuş qadına sonuncu dəfə nəzər yetirib evdən çıxdı. O gedəndən sonra Məltəm çox düşünüb-daşındı. Heç cür arzu etmirdi bu adama təslim olmağı. Bir də düşünürdü ki, lap ona təslim olsa da, başqa polis işçiləri onu tapıb tutacaqlar.

Nəhayət, qəti qərara gəlib, telefonu götürdü və artıq məşuqəsi hesab olunduğu həmin adama zəng vurdu. Hər şeyi olduğu kimi danışandan sonra, həmin adam buna çox təəccübləndi və:

- Heç yerə çıxma, heç kimə heç nə danışma! - dedi. - Mən çalışacam səni qoruyum ki, bu işin güdazına


downloaded from KitabYurdu.org

getməyəsən.

Bu telefon danışığından sonra çarəsiz qalmış qadın heç də sakitləşmədi. Əksinə, qəlbini məchul bir qorxu hissi bürüməyə başladı. Bu qorxu bayaqkı qorxuya - polis idarəsinə aparılmaq qorxusuna bənzəmirdi. Bu, ölüm qorxusu idi.

## III HİSSƏ

«Onun məxfi şöbədə qeyd olunmuş gizli ləqəbi Leoparddır. 35 yaşı var. Milliyyətcə Azərbaycan türküdür. Ali kəşfiyyat məktəbini bitirib. Şöbənin ən etibarlı agenti hesab olunur. Hərbi rütbəsi mayordur.

Güclü qavrama, müşahidə qabiliyyətinə malik, son dərəcə cəsarətli bir kəşfiyyatçıdır. Gəldiyi düzgün məntiqi qərarlarda tərəddüd etmədən hökm verməsi əsas xüsusiyyətlərindən biridir. Rus, ingilis, erməni dillərini mükəmməl bilir. Vətənpərvərdir. Milli hissiyyatı çox güclüdür.

Qeyri-adi fiziki gücə və hazırlığa malikdir. Əlbəyaxa döyüşün bütün üsullarına bələd olmaqla,
silahlardan da bacarıqla istifadə edə bilir. «Qara kəmər» sahibidir.

Mənfi xüsusiyyətləri: kinlidir, çılğındır, şəxsi hissləri bəzən ümumi məqsədləri üstələyir.

(Məxfi şöbədəki şəxsi işdən)

«Şəkildə gördüyünüz, axtarışda olan təhlükəli cani Təhməzov Qantural Zəkixan oğlunun 37 yaşı var. Boyu 160 santimetrdir. Saçları qara, qıvrımdır. Sağ böyründən aldığı güllə yarasından ayağını çəkir. Sağ qaşının üstündə kiçik çapıq var. Ona rast gələnlərdən xahiş olunur ki, təcili olaraq, yaxınlıqdakı polis bölməsinə məlumat versinlər».


downloaded from KitabYurdu.org

(Televiziya ilə verilən elandan 13.05.2006-cı il).

Otuz yeddinci fəsil

Ölkənin mənafeyi üçün ciddi əhəmiyyətli işlər görən, lakin çox az adamın xəbərdar olduğu xüsusi məxfi şöbənin rəhbəri polkovnik Baratov kabinetə daxil olan müavini mayor Cavadova əyləşmək üçün yer göstərdi:

- Əyləş, Cavadov!

Qaşqabaqlı mayor onun göstərdiyi yerdə oturdu. «Sarı çanta» əməliyyatını keçirəcək qrupun əsas üzvlərindən olan Cavadov belə hesab edirdi ki, hər şey öz qaydasındadır. Belə ki, dörd gün sonra, mayın 16-da Əli Mazanov Bakıya qayıdacaqdı və həmin gün Miraslanov başda olmaqla xəyanətkar qrupun bütün üzvləri həbs olunacaqdı. Amma indi qocaman rəisinin bir qədər narahat olduğunu hiss edən mayor Cavadov bunun səbəbini anlaya bilmədi.

- Nəsə olub, cənab polkovnik? - deyə soruşdu.
- Hə, olub! - Baratov doğrudan da dilxor idi.

Əlində tutduğu iki fotoşəklə baxırdı. Danışmağa tələsmir, elə bil, nəyisə götür-qoy edirdi. Nəhayət, baxışlarını qaldırıb müavinini mənalı nəzərlə süzərək dilləndi:

- Mən sənə demişdim ki, Samir Tağiyevlə bağlı bizdən nəyisə gizlədirlər?
- Bəli! - Cavadov təsdiq etdi. - Nə baş verib?
- Qulaq as! - Baratov təmkinlə davam etdi. - Moskvada Samir Tağıyev adlı bir iş adamı, bəlkə də heç yoxdur. Aprelin 23-də Bakıya onun adı altında, saxta pasportla başqa bir adam, özü də son dərəcə təhlükəli bir cani gəlməli imiş...



downloaded from KitabYurdu.org

- Kimdir o cani? - Cavadov narahatlıqla yerində qurcuxdu...

- Sən onun haqqında çox eşitmisən, - polkovnik dedi, - Valeri Barsov!

- Kobra?! - Cavadov yerindən dikəldi.

- Bəli, Kobra! - Baratov qeyri-ixtiyari olaraq hiddətləndi. - Xalqımızın ən qəddar düşmənlərindən biri. Onun Ermənistanda və işğal olunmuş ərazilərimizdə bizimkilərə qarşı etdiyi amansız cinayətlər yaxşı məlumdur. Bu cinayətləri hətta yada salanda adamın vücudu titrəyir. İnsan sifətinə girmiş iblisdir o! Xocalı qırğınında da iştirak edib. Buna hətta şahidlər də var. Öldürdüyü adamların xəncərlə qarnını yarıb içalatını çıxarmaqdan həzz alırmış.
Xankəndidəki əsir düşərgələrinin birində əsirlərin daxili orqanlarının çıxarılıb xaricə satılmağına rəhbərlik edirmiş. Bunlar hamısı bir yana dursun, bayrağımızı təhqir edib o! Yadındadı, Leopardın əsirlikdən xilas etdiyi oğlan nə danışırdı? Özü tapdalamağı azmış kimi, onu da məcbur edirmiş ki, öz bayrağını ayağı altına salıb tapdalasın. Üstəlik, neçə qız-gəlinin namusuna toxunub bu alçaq!

Baratov sözünə ara verib bir siqaret yandırdı. Cavadov onun siqareti yandıran əlinin qəzəbdən necə titrədiyini görürdü. Söhbəti bir qədər başqa səmtə yönəltmək üçün soruşdu:

- O, Bakıya niyə gəlmək istəyirmiş, görəsən?

- Bilmirəm... - polkovnik başını yellədi və sonra əlavə etdi. - Yəqin ki, təxribat törətmək məqsədilə gəlirmiş. Hər halda xeyir işə gəlməz!

- Siz Samir Tağıyev adıyla Bakıya gəlmək istəyən



downloaded from KitabYurdu.org

adamın Kobra olduğunu necə öyrəndiniz? - Cavadov maraqlandı.

Baratov bir də əlindəki şəkillərə nəzər salıb danışmağa başladı:

- MTN məktub göndərib bizim şöbəyə. Bilirsən ki, Rostovda doğulduğu güman edilən Valeri Barsov Rusiyada da axtarışda olub və buna görə də Ermənistana gedib. Onun Rusiyadakı cinayətləri, əsasən, adam öldürmə və narkotik ilə bağlıdır. Bunlar, əlbəttə, bizim millətimizə qarşı törətdiyi cinayətlərin yanında heç nədir. MTN-in əməkdaşları onun Moskvada olduğunu bilib, onu orada izləməyə başlayıblar. Qalanından məlumatın var. Onu izləyənlər aerokassaya girib, Samir Tağıyev adıyla Bakıya bilet aldığını görüblər... Aprelin 23-nə...

Həmin gün burada onu qarşılamaq üçün tədbirlər görülüb və məlum olub ki, Kobra yükünü baqaja verib, qeydiyyatdan keçəndən sonra, nəyə görəsə, geriyə qayıdıb. - Polkovnik sözünə ara verib siqaretini sümürdü. - Yadındadı, demişdim ki, hava limanında Ağayev Nihat və onu oraya gətirən taksi sürücüsü Təhməzov Qantural adlı şəxslərdən şübhələniblər?

- Yadımdadı, - Cavadov dedi. - Nihat öldürülüb, Qantural isə axtarışdadır.

- Bəli, - Baratov davam etdi, - İndi gör, nə olub? Polis idarəsi Qanturalın evində bir daha axtarış aparanda oradan üzərində Nihatın əl izləri olan iki fotoşəkil tapıblar. Şəkillər cib telefonu ilə çəkilib. - Əlindəki şəkilləri Cavadovun qarşısına qoydu. - Bax, budur həmin şəkillərin surəti. Polis

həmin şəkilləri MTN-ə verib. Onlar isə bu surətləri



downloaded from KitabYurdu.org

məktubla birlikdə bizə göndəriblər. MTN müəyyənləşdirib ki, bu şəkillərdəki rus qadını - Natalya Nikitina aprelin 23-də Moskvadan Bakıya gəlib. O reyslə ki, həmin reyslə Kobra da gələcəkmiş, amma naməlum səbəbə görə son anda fikrindən daşınıb, geri qayıdıb.

- Siz düşünürsünüz ki, bu qadın Kobra ilə əlaqədardır? - Cavadov soruşdu.

- Mən hələlik heç nə düşünmürəm. - Baratov cavab verdi. - Amma MTN belə hesab edir ki, bəli, əlaqədardır. Onlar hələ Natalya Nikitinanın kim olduğu barədə araşdırma aparmayıblar. Amma onun şəklinin Nihat tərəfindən çəkilib Qanturalın mənzilinə qoyulması və Kobranı qarşılamaq üçün məhz həmin
Qanturalla Nihatın hava limanına getməsi göstərir ki, bu qadın da Kobra ilə birlikdə gəlirmiş Bakıya...

- Bəs niyə Nikitinə həmin sarı çantanı baqajdan götürməyib?

- O, çantanı götürməklə özünü ifşa edə bilərdi. Çünki Moskvadakı hava limanında son anda uçmaqdan imtina edən Kobra özünün ifşa edildiyini bilirmiş. Çanta da Samir Tağıyevin adına idi və ona yaxınlaşan adam şübhə hədəfinə çevrilməliydi.

- Belə çıxır ki, Natalya Nikitinə o vaxtdan Bakıdadır. Deməli, bizdə olan təxribatçı qrup da hər şeydən xəbərdardır.

- Düz deyirsən. Amma özlərini çox sakit aparırlar. Heç nədən xəbərləri yoxmuş kimi. Hələ baxaq görək, Mazanov xaricdən qayıdacaqmı? - Baratov cibindən darağını çıxarıb saçlarını arxaya
doğru daradı. - Onu da deyim ki, mən hələ də bu məsələdən



downloaded from KitabYurdu.org

şübhəliyəm. Heç inana bilmirəm baş verənlərə...

Mayor Cavadov əlindəki şəkillərə bir daha baxıb dilləndi:

- Şəkil doğrudan da kafedə çəkilib. Obyektivin əsas hədəfi də, sözsüz ki, bu rus qadınıdır. Natalya Nikitinə... Amma bəs bu gözəl qadın kimdir? Görünüşündən abırlı-həyalı ev xanımına oxşayır.

- Hə. - Baratov onunla razılaşdı. - Yanındakı kişinin, təəssüf ki, üzü yaxşı düşməyib. Mənim fikrimcə, o bizim ifşa etmək istədiyimiz xəyanətkar qrupun üzvlərindən biridir. Hələ stolun başında da kimsə oturubmuş, yəqin. O adam fotoya yerli-dibli düşməyib.

- Sizcə, bu şəkil nə vaxt çəkilib? - mayor sual verdi.

- Qadın Bakıya aprelin 23-də gəlib. Şəkil isə mənzilə aprelin 30-na qədər qoyulub. Çünki, Nihat Qantural tərəfindən aprelin 30-da öldürülüb. Deməli, bu şəkillər ən tezi ayın 23-də, ən geci 30-da çəkilib.

- İndi biz nə etməliyik? - Cavadov şəkilləri rəisinə qaytardı.

- Bizdən xahiş olunur ki, Natalya Nikitinanın axtarışında iştirak edək. İstəyirlər ayın 16-sına kimi yəni «Sarı çanta» əməliyyatının yekunlaşacağı günə kimi tapılsın bu qadın.

- Biz birinci növbədə bu şəkillərin harada çəkildiyini müəyyənləşdirməliyik, - Cavadov dedi.

- Hə! - polkovnik Baratov ayağa qalxıb otaqda gəzişməyə başladı. - Bu işlə sən məşğul olarsan.
Amma mənim başqa bir fikrim də var. Bu Samir Tağıyev məsələsində özümə qarşı göstərilən inamsızlığı bağışlaya bilmirəm. İstəyirəm, ələkeçməz hesab olunan Valeri


downloaded from KitabYurdu.org

Barsovu bizim şöbəmiz ələ keçirsin. Qoy görsünlər, Baratov hələ o qədər qocalmayıb ki, sıradan çıxsın.

- Bunun üçün neyləmək istəyirsiniz ki? - Cavadov təəccübləndi. - Axı Kobra Moskvada olmalıdır indi?! Onun arxasınca göndərilmiş qrup da əliboş qayıtdı.

Baratov müavininin qarşısında dayanıb bir qədər onu gözdən keçirtdi. Nəhayət, qəti qərara gəlibmiş kimi, birdən dilləndi:

- İstəyirəm, Leopardı çağırıb Moskvaya göndərim. Kobranı tutmağa.

- Leopardı?! - Cavadov eşitdiyi addan sanki diksinib, üz-gözünü turşutdu.

- Hə, Leopardı! - Polkovnik keçib yenidən öz yerində əyləşdi. - Bilirəm, nədənsə, sənin ondan xoşun gəlmir, amma bu iş üçün ondan yararlısını təsəvvür də etmirəm. Düşünürəm ki, yalnız o bacara bilər Kobra ilə! Bilirsən, Cavadov, çox istəyirəm ki, o əclafı bizim şöbə ələ keçirsin!

- Mən də istəyərdim ki, bizə qarşı bu qədər cinayət törətmiş adam tezliklə tutulub ədalət məhkəməsinə verilsin, amma...

- Heç bir amması yoxdur, Cavadov! - polkovnik qətiyyətlə dilləndi. - Onu tutmağı Leoparda tapşıracam. «Sarı çanta» əməliyyatına da qoşmadım onu. İstəmədim hər şeydən ötrü tanıdaq. Axı onun Leopard olduğunu və bizim şöbə üçün işlədiyini
özündən, bir də bizim ikimizdən başqa bilən yoxdur?! Amma bu iş əsl ona layiq işdir. Qoy pəncələrini itiləyib ova çıxsın! Onsuz da nə vaxtdır, yeyib-yatmaqla məşğuldur.

Otuz səkkizinci fəsil


downloaded from KitabYurdu.org

Tamerlanın dəfninin üçüncü günü idi. Ağaşamil sevimli oğlunun ruhunu şad etmək üçün dəbdəbəli ehsan verirdi. Mərasimə həddən artıq çox adam gəlmişdi. Azərbaycanın hər yerindən Ağaşamilin, Cahangirin, Xanəlinin tanış-bilişləri, Səxavətin, Cəhalənin, Həmidə müəllimənin bütün iş yoldaşları, qohumlar, dostlar dəstə-dəstə axışıb gəlirdilər. Yasxana nə qədər böyük olsa da, adamları tutmur, gələnlər çöldə dayanıb içəridəki yerlərin boşalmasını gözləməli olurdular.

Mikrofonla danışan gənc molla hərdən dinlə bağlı söhbətinə ara verib çadırdakıları sakitliyə dəvət etsə də içəridəki uğultunu kəsə bilmirdi. Adamlar ikibir, üçbir qruplara bölünüb ardıcıl baş vermiş cinayətlərdən danışırdılar. Hər ağızdan bir avaz gəlirdi:

- Deyir, Qantural vurub maşınla... Nihatın başını kəsən...

- Dəqiqləşib?

- Hə, maşın tapılıb. Qanturalın öz maşını olub. Sükanında da əl izləri... Ancaq maşının nömrəsini dəyişibmiş.

- Qurd ürəyi yeyibmiş zalım oğlu!

- Yox, qurd ürəyi-zadı yeməyib, gözünü qan tutub, sadəcə.

-Tuta bilmirlər, nədənsə...

- Tutacaqlar, geci-tezi var. Nə vaxta qədər gizlənəcək? İndi yəqin, onun şəkilləri bütün polis işçilərinə paylanıb.

- Divara da vurublar. Görmüşəm.

- Ancaq düz iş görmür. O, gərək Nihatla arvadını öldürəndən sonra gedib təslim olaydı. Onda deyərdim ki, kişi namusunu qoruyub. Yoxsa bu Tamerlan bədbəxtin nə



downloaded from KitabYurdu.org

günahı vardı?

- Özü də yazığın istədiyi qız var imiş.
- Nə isə... Belə namus intiqamı eşitməmişdim.

Üç insanın həyatına son qoymuş və hələ də azadlıqda gəzən Qantural haqqında müxtəlif cür danışırdılar. Ancaq onun adını çəkənlərin hamısının səsində səbəbi bilinməyən bir qorxu, bir narahatlıq hiss olunurdu.

Ağaşamil iri çadırın qapısından bir qədər kənarda dayanıb yasa gələnlərin başsağlığını qəbul edirdi. Olduqca tutqun görkəmi var idi. Müştüyə keçirtdiyi siqaretini təmkinlə sümürür, dünyasını dəyişmiş oğlanlarına rəhmət diləyənlərə başının hərəkətilə razılığını bildirirdi. Amma fikri, xəyalı tamam başqa yerdə idi, deyəsən.

Cahangir, Xanəli, Səxavət də burada idilər. Əldə-ayaqda işləyən, çadıra yemək daşıyan cavanlara nəzarət edirdilər.

Miraslanov başının adamları ilə çadırdan çıxıb Ağaşamilə yaxınlaşdı. Əlini onun qoluna toxundurub: - Allah rəhmət eləsin! - dedi və ətrafına boylanıb getdi. Adamları da onun arxasınca düşdülər.

Sonra başqaları yaxınlaşdı Ağaşamilə. Hamı eyni sözü deyirdi hüzr sahibinə və eyni cavabı da eşidirdilər:

- Sağ olun! Allah razı olsun sizdən!

Əlifağa Sadıxov iki gənc mühafizəçisi ilə gəlmişdi. O da çadırdan çıxanda əvvəlcə ətrafa boylanıb Cahangirlə Xanəliyə baxdı. Sonra Ağaşamilə yanaşıb asta hərəkətlə başını yellədi:

- Ağaşamil kişi, mən bircə oğlumu itirdim, sən isə dalbadal ikisini... Hər halda, başa düşürəm dərdini... Nə



downloaded from KitabYurdu.org

deyə bilərəm sənə? Allah səbir versin. Möhkəm ol!

- Sağ olun, Allah razı olsun! - Ağaşamil dərdli halda başını tərpətdi.

- Ancaq... - Sadıxov davam etdi. - Mən bilirəm ki, oğlumun qatili öz cəzasını çəkir və hələ çox çəkəcək. Bu mənə təskinlik verir bir az. Sənin düşməninsə hələ azad gəzir özü üçün. Baş aça bilmirəm, niyə axtarıb tutmurlar onu?

- Nə bilim?.. - Ağaşamil çiynini çəkdi. - Deyirlər, axtarırıq.

Əlifağa kinayə ilə əlini yellədi:

- Əşi, onlarınkı ancaq odur ki, biri gəlib düşə əllərinə, dərisini soysunlar. Başqa bir şey bacarmırlar!

Ağaşamil daha dinmədi. Sadıxov arıq, sallaq bığlı bir oğlanın onun yanında dayanıb başsağlığı vermək üçün növbə gözlədiyini gördü və:

- Allah rəhmət eləsin! - deyib adamları ilə oradan uzaqlaşdı.

Sallaqbığ oğlan irəli keçdi:

- Ağaşamil dayı, - dedi, - mən rəhmətlik Nihatla əsgərlik yoldaşı olmuşam. Səlahəddindi adım. Vallah, bu müsibətləri də dünən eşitmişəm. Bakıya, Nihatgilə gəlmişdim. Qonşular dedi ki, bəs belə...

- Hardansan, ay bala? - Ağaşamil mehribanlıqla soruşdu.

- Qusardanam.

- Yemək-filan yedinmi?

- Hə, narahat olmayın, yedim. Allah qəbul eləsin. Allah rəhmət eləsin hər ikisinə!

Başqa adamların ona yaxınlaşdığını görən Ağaşamil



downloaded from KitabYurdu.org

yaxında dayanmış Cahangiri Səlahəddinə göstərdi:

- Böyük oğlumdu, keç tanış ol! - dedi. - Camaat dağılsın, söhbət edərik.

Yenə Ağaşamili araya aldılar. Gəncədən gəlmişdi bu dəstə. Xanəlinin dostları idilər. Ev sahibinə başsağlığı verəndən sonra Xanəlinin başına yığışdılar.

Ətrafında sakitlik yaranmış Ağaşamilin gözü birdən kənarda dayanmış bir qıza sataşdı. Əyninə qara paltar geyinmiş bu gənc qız kədərli baxışlarını ona zilləmişdi. Gözlərində o qədər qəm-qüssə oxunurdu ki... Ağaşamil bu qızı tanımadı. Ona doğru bir neçə addım atıb:

- Qızım, burada niyə dayanmısan? - dedi. - Evə çıx. Qadınlar evdədir.

Qız özünü itirib nə deyəcəyini bilmədi. Ağaşamil ona lap yaxınlaşdı:

- Sən kimlərdənsən, qızım, tanıya bilmədim səni?..

Qızın gözləri doldu. Ağlamamaq üçün dodağını dişləyib, başını aşağı saldı. Bu Ağaşamili bir az da maraqlandırdı:

- Eşitmədin? Deyirəm, kimsən sən?

Qız başını qaldırıb kişinin üzünə baxdı. Nəsə demək istədi, amma deyə bilmədi. Onun yanaqları boyunca süzülən göz yaşlarını görəndə Ağaşamil hər şeyi anladı. Qızı özünə tərəf çəkib bağrına basdı. Qız buna bəndmiş kimi hönkürtü ilə ağlamağa başladı. Bu, Aytəkin idi...

## Otuz doqquzuncu fəsil

Səhəri gün, günortadan bir az sonra polkovnik Mirzəyev əməliyyat müvəkkili Allahverdi Əbilovu kabinetində qəbul etdi. Bazar günü olmasına baxmayaraq, idarənin əməkdaşları iş başında idilər və Qanturalın tapılması üçün



downloaded from KitabYurdu.org

tədbirlər həyata keçirirdilər. Mirzəyev də Qanturalın mənzilindən tapılmış şəkillərdən sonra Əbilovun nə kimi işlər gördüyü barədə məlumat almaq istəyirdi.

Kapitan Əbilov stolun arxasında əyləşən kimi dəri qovluğundan həmin iki fotoşəklin surətlərini çıxarıb izahata başladı:

- Cənab polkovnik, mən bu şəkillərə dönə-dönə baxmışam. Birinci şəkil, açıq görünür ki, hansısa kafedə çəkilib. Daha doğrusu, kafenin xəlvət həyətində. Burada aydın düşən yalnız bu qarasaçlı qadındır ki, mən elə fikirləşirəm, bu fotoşəkillə onu axtarmaq çətin məsələdir. Buna baxmayaraq, bir neçə əməkdaşımız bu şəkil əsasında onu axtarmaqla məşğuldur.

- Gözəllik salonları ilə əlaqə saxladınız? - rəis onun sözünü kəsdi.

- Bəli. - Əbilov dedi. - Tanıyan yoxdur onu.

-Yaxşı, davam elə!

Kapitan ikinci fotoşəkli əlinə götürdü:

- Bu şəkil, məncə, kafedən çıxanda çəkilib. Bu naməlum rus qadını, deyəsən, «Toyota» markalı maşına minir. Burada daha başqa maşın varsa da, görünmür. Küçədən isə bu bənövşəyi «Fiat»la ağ «Jiquli» keçir. Bu maşınları rənginə və adına görə axtarmaq da mənasız görünür mənə. Lap onları tapsaq da, aprel ayının son bir-iki həftəsində haralardan keçdiklərini soruşmalıyıq. Onlar isə bu müddətdə bəlkə də bütün şəhəri gəziblər.

- Bəs sən həmin kafeni necə tapmaq istəyirsən? - rəis soruşdu.

- Leytenant Nəsirov başda olmaqla bir qrup



downloaded from KitabYurdu.org

əməkdaşlarımız əsasən mərkəzdən kənarda yerləşən kafeləri gəzib yoxlayırlar. Baxırlar görək, hansının həyətində belə mozaik rəsm və söyüd ağacı var.

- Bu çox vaxt aparmayacaqmı? - Mirzəyev narazılıqla dilləndi.

- Ola bilər, çox vaxt aparsın, cənab polkovnik. - Əbilov dedi. - Ona görə də mən Nihatın şəxsi kafesi olan, yaxud kafedə işləyən tanışlarının siyahısını
tərtib edirəm. Çünki bizdə, adətən, adamlar tanımadıqları kafelərə getmirlər. Xüsusilə də qadınla...

- Nəyə əsasən elə düşünürsən ki, bu kafe Nihatın tanışının olmalıdır. Axı orada başqa adamlar da iştirak ediblər?! Kafeni başqaları da seçə bilər.

Əbilov bir qədər duruxdu. Rəis ciddi nəzərlərlə onu süzüb dilləndi:

- Mən bilmirəm, hansı vasitədən istifadə edirsənsə et, o kafeni tap. Kafe tapılsa, çox şey müəyyənləşəcək. Yadında saxla ki, Milli Təhlükəsizlik orqanları da axtaracaq oranı. Yaxşı olar ki, biz onlardan qabağa düşək. Buna bizim imkanımız da var.

Əbilov şəkilləri yenidən qovluğa qoydu:

- Arxayın olun, cənab polkovnik, biz kafeni tezliklə tapacağıq. Xahiş edirəm, elə edin, başqa rayonların polis idarələri də həmin mozaik rəsmə görə öz ərazilərində axtarış aparsınlar. Belə olsa, kafenin lap tez tapılacağına ümid etmək olar.

- Yaxşı. - Mirzəyev razılaşdı. - Bəs başqa nə iş görmüsən? Ümumiyyətlə, Qanturalın axtarışı ilə bağlı.

- Hələ ki, bir yenilik yoxdur. Güman olan bütün yerlər axtarılıb. Şübhəli bildiyimiz yerlər...



downloaded from KitabYurdu.org

Telefon zəng çaldı. Rəis əli ilə Əsədova susmaq işarəsi verib dəstəyi götürdü. Elə o saat da, nə eşitdisə, sifəti tutuldu:

- Nə danışırsan? Nə vaxt?

Gözü kapitanda olduğu halda telefonu dinlədi.

- Necə olub axı bu?

Nəhayət, dəstəyi yerinə qoyub narahat halda ona baxan Əbilova dedi:

- Canəlini öldürüblər!..

Allahverdi sıçrayıb ayağa qalxdı. Amma heç nə demədi, heç nə soruşmadı. Heyrət ifadə edən baxışlarını rəisə zilləyib dayandı.

Rəis də ayağa qalxıb qapıya doğru getdi və faciəli xəbərin təfərrüatını arxasınca gələn Əbilova ayaqüstü danışdı:

- İki, ya üç saat əvvəl maşınını çıxarmaq üçün qaraja düşüb. Orada linglə başına vurub öldürüblər. İndi həyətə düşən arvadı qarajın qapısını açıq görüb içəriyə baxıb...

Kabinetdən çıxıb pilləkənlə aşağı düşdülər. Rəisin maşını qapının ağzında hazır dayanmışdı. Mirzəyev kapitan Əbilovla birlikdə maşına oturdu və
hadisə yerinə yola düşdülər. Rəis fikirli halda arxaya çevrilib Əbilova baxdı:

-Zənnimcə, bu Qanturalın işidir!

- Ola bilər, - kapitan cavab verdi. - Canəli Zəkixanın ailəsini çox incidirdi...

Qırxıncı fəsil

Nahar fasiləsi olduğu üçün «Döyüş» idman klubunda sakitlik idi. Klubun əsas məşqçiləri olan İlqar, Tələt və Orxan həyətdəki skamyaların birində oturub söhbət



downloaded from KitabYurdu.org

edirdilər.

Burada, klubun üzvü olan yeniyetmələrə döyüş idmanının bütün növləri öyrədilirdi. Həm də yüksək keyfiyyətlə. Klubun məşqçiləri hazırlıqlı, seçmə idman ustaları idilər.

Otuz yeddi yaşlı İlqar ağır çəkili boksçu idi. Boks üzrə iki dəfə respublika çempionu olmuşdu. Klubda keçirilən məşqlərə ümumi cavabdehliyi o daşıyırdı. İntizamına, rəhbərlik qabiliyyətinə də heç söz ola bilməzdi.

Otuz yaşlı Tələt sambo ustası kimi tanınmışdı. Şagirdləri bu alçaqboylu, qarayanız gəncə hörmət etməklə bərabər, həm də çəkinirdilər ondan. Uşaqlara hərdənbir qulaqburması verməyi də var idi.

Karatedən məşğələ aparan Orxanın iyirmi altı yaşı təzəcə tamam olmuşdu. Bədəni başdan-ayağa yalnız daş kimi əzələlərdən və sümükdən ibarət olan bu arıq gənci dəyirmanın boğazından ölü salsaydın, diri çıxardı. Həm də deyib-gülən, zarafatcıl oğlan idi.

Əlbəyaxa döyüş üsullarının incəliklərinin öyrənilməsində hər üçü özünü Ələmdara borclu sayırdı. Ələmdar yaşca onlardan az fərqlənsə də onu öz müəllimləri, öz rəhbərləri kimi tanımış, ona ömürlük sadiq olacaqlarına and içmişdilər.

İlqarla Tələt skamyada oturmuşdular. Orxan isə onların qarşısında ayaq üstə durub əl-qolunu ölçə-
ölçə danışırdı. Söhbət, deyəsən, dünən baş vermiş bir cinayətdən - Canəli adlı polis işçisinin öz qarajında öldürülməsindən gedirdi. Onlar bu xəbəri səhər klubun gözətçisindən eşitmişdilər.

Bu vaxt klubun foyesində sarışın saçlı gözəl bir qadın



downloaded from KitabYurdu.org

tez-tez saatına baxaraq narahat halda o baş- bu başa gəzişirdi. Bu Cəhalə idi. Baş vermiş hadisələr - iki qaynının faciəli ölümü ona çox pis təsir etmişdi. Xüsusilə də Tamerlanın ölümü... İndi istəməsin, onun xətrini o biri qayınlarından artıq istəmişdi həmişə. Ancaq bu qorxu, kədər və sarsıntı ilə dolu günlərdə Cəhalə, Ələmdarı görməyə daha çox ehtiyac hiss etmişdi. O, xaricdən gələndən sonra bircə dəfə görüşmüşdülər. Ona da görüş demək olmazdı, əslində. Anasını gətirmişdi poliklinikaya. Cəhalə Əminə arvadı müayinə etmiş, onun üçün alıb saxladığı dərmanları vermişdi. Heç söhbət də edə bilməmişdi Ələmdarla. Sonra da bir-iki dəfə zəng vurmuşdu ona. Ancaq Ələmdar hər dəfə bir bəhanə ilə görüşdən imtina etmişdi. Axır dözməyib, özü gəlmişdi idman klubuna. İşçilər demişdi ki, Ələmdar haradadırsa, günortadan sonra gəlməlidir. Ona zəng vurub gəlişini bildirmədən dayanıb gözləməyi qərara almışdı.

İndi artıq həyətdə söhbət ondan gedirdi. Orxan məzəli eyhamla başını yelləyib dedi:

- Gərək Ələmdar qədeşə xəbər verəydik ki, bu yazıq səni gözləyir.

- Lazım deyil! - İlqar etiraz etdi. - Ehtiyac olsa, qız özü zəng vurar.

Orxan əlini-əlinə vurdu:

- Ancaq yaman gözəl zövqü varmış şefimizin. Qadınlardan həmişə uzaq gəzdi, ancaq axırda gör necə canan tapdı özünə.

Tələt ona acıqlandı:

- Az danış, ə! Bəlkə evlənəcək onunla?!

- Nə?! - Orxan ona təəccüblə baxıb güldü. - Bu ərdədir,


downloaded from KitabYurdu.org

ay avam! Ərini də görmüşəm. Özü ilə eyni poliklinikada işləyir. Aciz-avaranın biridir.

- Sənin də burnunu soxmadığın yer qalmayıb. - Tələt başını buladı. - Ərlidir, subaydır özləri bilər, sənə dəxli yoxdur!

Bu vaxt həyətə daxil olan «Volvo» düz gəlib onların qarşısında dayandı.

İlqar:

- Ələmdar qədeş gəldi! - deyib ayağa qalxdı və maşından düşən Ələmdarla görüşdü.

Tələtlə Orxan da öz böyükləri ilə görüşüb əmrə müntəzir dayandılar. Sadə idman stilində geyinmiş Ələmdar onların üzünə göz gəzdirib:

- İşlər necədir? - deyə soruşdu.
- Pis deyil. - İlqar cavab verdi.
- Məni soruşan olub?

- Keçən dəfə gələn xanım səni içəridə gözləyir. - Orxan dedi.

Ələmdar başa düşdü ki, söhbət Cəhalədən gedir. Daha bir söz deməyib, içəri keçdi. Oturacaqda əyləşmiş qadın onu görüb cəld ayağa qalxdı. Yaxına gəlib salamlaşdı.

- Darıxdım, səni görmək istədim, - dedi. Ələmdar onun yalvarış dolu gözlərinə baxıb
dilləndi:

- Çıxaq kabinetə!

İkinci mərtəbəyə qalxdılar. Ələmdar kabinetin qapısını açıb qadını içəri dəvət etdi. Bu sadə, ancaq təmiz və yaraşıqlı bir otaq idi. Divarların birində iri pəncəsini yuxarı qaldırmış vəhşi heyvanın rəsmi diqqəti cəlb edirdi. Digər bir divara çoxlu sayda fəxri fərmanlar, diplomlar


downloaded from KitabYurdu.org

vurulmuş, divardibi qoyulmuş stolların üstünə kuboklar düzülmüşdü. Bütün bunlar idman klubunun müvəffəqiyyətlərindən xəbər verirdi.

Cəhalə keçib divanda əyləşdi. Özündən asılı olmayaraq həyəcanlanmağa başlamışdı. İlk dəfə idi ki, Ələmdarla belə bir xəlvət, arxayın yerdə tək qalırdı. Ələmdarın öz kreslosunda oturaraq sakitcə ona baxdığını görüb özü dilləndi:

- Niyə məni itirib-axtarmırsan?

- Mən səni necə axtarım axı? - oğlan sadəlövhlüklə soruşdu.

- Necə yəni? Zəng vurmaq da çətin işdir?

- Birdən mən sənə zəng vurdum, həmin vaxt ərin yanında oldu, deməz ki, bu kimdir?

Cəhalə güldü:

- Uşaq kimi danışırsan, vallah! Birincisi, Səxavət lap mənim yanımda olsa da, heç vaxt telefonuma baxmır. İkincisi, o qədər xəstəm var ki, mənə zəng vurur. Üçüncüsü...

- Üçüncüsünü demə! - Ələmdar onun sözünü kəsdi. - Bilirəm, sən azadlıq, müstəqillik sevən qadınsan. Uşaqlıqdan ərköyün böyüdülmüsən. Ancaq hər halda, qadın gərək ərinin şəstini saxlasın. Şəxsən, mən istəmirəm ki, Səxavət həkimin qüruruna toxunum. Necə olmasa, kişidir.

- Sən onun qüruruna niyə toxunursan ki? - Cəhalə təəccübləndi. - Birincisi, o heç nə bilməyəcək. İkincisi də, mən səni sevirəm. Özü də, doğrudan sevirəm!

- Başqalarını yalandan sevmisən? - Ələmdar yarı



downloaded from KitabYurdu.org

istehzalı ahənglə soruşdu.

-Yox, başqalarını heç sevməmişəm. Ərimdən başqa kişi olmayıb həyatımda. Sən bəlkə də buna inanmırsan. Deyirsən, Cəhalədirdə, danışır... Ancaq atamın canına and olsun, düz deyirəm, indiyədək ərimdən başqa heç kəslə olmamışam... - Bir an duruxub, nəsə fikirləşdi və tərəddüdlə dilləndi: - Ancaq bir ay əvvəl az qalmışdı biri ilə olum... Özü də sənin ucbatından.

- Necə yəni mənim ucbatımdan? - Ələmdar təəccübləndi.

- Hə, sənə görə... - Cəhalə ah çəkdi. - Sən tutulan gün burada çox gözlədim səni... Elə bildim,
məni aldatmısan. Bir tanınmış adam var, mənə bir il əvvəl yaxınlıq təklif etmişdi. Sən gəlib çıxmadığına görə o qədər əsəbiləşmişdim ki, lap ağlımı itirmişdim. Evə gedəndən sonra da sakit ola bilmədim. Götürüb ona zəng vurdum, dedim ki, görüşməyə razıyam. O da gəlib məni evinə apardı. Amma orada hərəkətimə peşman oldum, xəyanət etmək istəmədim sənə... Sağ olsun, o da məni başa düşdü...

- Nə yaxşı!.. - Ələmdar istehza ilə gülümsədi.

- Mənə inanmırsan? - qadın ayağa qalxıb ona yaxınlaşdı.

- Kim idi o tanınmış adam? - Ələmdar maraqlandı.

- Nə fərqi var axı, kim idi? Dedim ki, heç nə olmadı aramızda. İnanmırsan mənə? Axı istəsəydim
heç danışmazdım bunu...

Ələmdar dinmədi. Söhbət ona toxunmuşdu, deyəsən. Cəhalə əlini onun saçlarında gəzdirib, birdən boynunu qucaqladı və üz-gözündən öpməyə başladı. Ələmdarı gözəl, bihuşedici ətir iyi vurdu. Bəlkə də buna görə qadını



downloaded from KitabYurdu.org

özündən uzaqlaşdırmaq istəmədi. Cəhalə onun dizlərinin üstündə oturdu:

- Doğrudan inanmırsan mənə?

- İnanıram. - Ələmdar başını buladı. - Ancaq fikirləşirəm ki, çox qəribə məxluqsunuz siz qadınlar. Sizdən ehtiyatlı olmaq lazımdır.

- Niyə axı? - Cəhalə kövrəldi. - Mən özümlə bacara bilmədim onda. Az qalmışdım dəli olam. Sevirəm axı səni?! Sənsə görüşmək də istəmirsən mənimlə. Elə bilirsən, səndən başqa şey istəyirəm? Düzdür, çox istəyirəm ki, səninlə olum. Yataqda...

Ancaq heç nə olmasa, bu da bəsimdir. Qoy axşamacan elə bu cür oturub sənin ürəyinin səsinə qulaq asım...

Ələmdar onun saçını sığalladı:

- Sən yaxşı qızsan, Cəhalə, ancaq ağıllı ol bir az, dəlilik eləmə!

- Neyləyim, dəliyəm də, dəli! Dəli eləmisən məni! - qadın onu ehtirasla qucaqlayıb bərk-bərk öpməyə başladı.

Ələmdarın cibindən çıxarıb stolun üstünə qoyduğu telefonu zəng çaldı. Mesaj gəldiyini başa düşən Ələmdar Cəhaləni yavaşca özündən kənarlaşdırdı:

- Bir dəqiqə dayan, görüm kimdir...

Qalxıb telefonu götürdü və gizlədilmiş nömrədən gələn mesajı səssiz oxudu: «Səni saat 15:30-da gözləyirəm» Vəssalam! Mesajı silib saatına baxdı. Üçə beş dəqiqə qalmışdı.

- Kimdəndir? - Cəhalə soruşdu.
- Heç! Telefon xidmətlərindəndir.

Cəhalə yaxınlaşıb onu qucaqladı:

- Mən istəyirəm ki, sən təkcə mənim olasan Ələmdar!



downloaded from KitabYurdu.org

Ələmdar onu özündən aralamağa çalışdı:
- Yaxşı, sakit ol, özünü ələ al!
- Bacarmıram özümlə... Bacarmıram!
- Dedim axı, dəlilik eləmə...

- Məni sevdiyini bilsəm, bəlkə də dəlilik eləmərəm. Ancaq sən bir söz demirsən axı?!

-Yaxşı...

Cəhalə Ələmdarın birdən-birə soyuduğunu hiss etsə də, bunun səbəbini başa düşmədi:

- Nə olub sənə, fikrin haradadır?

- Vacib işim var... - Ələmdar ilk ağlına gələn sözü dedi. - Getməliyəm. Anam gözləyir.

- Sən ki indi gəlmisən işə?!

- Bura baş çəkib qayıtmaliydım. Gedəsi yerimiz var.

- Yaxşı da... - Cəhalə küsdü. - Bəs nə vaxt görüşəcəyik?

- Zəngləşib danışarıq.

- Məni heç vaxt aldatma, Ələmdar! - Cəhalə yalvardı.

- Gəl çıxaq! Görüşüb, nə qədər istəsən, söhbət edərik.

Cəhalə incimiş halda qapıya doğru getdi. Birlikdə aşağı düşüb, həyətə çıxdılar. Məşqçilər hələ
də skamyada oturub söhbət edirdilər. Onları görüb ayağa qalxdılar.

- Səni evə aparım? - Ələmdar soruşdu.

-Yox, maşını küçədə saxlamışam. Arxa tərəfdə.

- Onda sağ ol!
- Hələlik!

Cəhalə gedən kimi, Ələmdar da işçilərinə bəzi tapşırıqlar verib öz maşınına oturdu.

Qırx birinci fəsil

O, maşınını avtobus dayanacağının yaxınlığında saxlayıb


downloaded from KitabYurdu.org

düşəndə saat dördə iyirmi dəqiqə işləmişdi. Dayanacağın arxasına keçib tini buruldu və dar səki ilə tələsmədən addımlamağa başladı. Bir qədər belə gedəndən sonra, qəfil sağa dönüb, açıq qapıdan yaşıllıqla örtülmüş bir həyətə girdi. Həyətdə köhnə üslubda tikilmiş birmərtəbəli bina var idi. Ətrafda, bir nəfər də olsun, adam gözə dəymirdi. Həyətin və binanın qapısı ağzında keşik çəkməli olan silahlı gözətçilər də yox idi. Başa düşdü ki, həmişə olduğu kimi, gözətçiləri də, digər əməkdaşları da yenə zala yığıblar. Onu görməmələri üçün...

Saatına baxdı. Dördə iyirmi altı dəqiqə işləmişdi. «Vaxta hələ var» - deyə düşünüb binanın qapısından on metr aralı, ağacların kölgəsinə qoyulmuş skamyada oturdu. Həmin anda mayor Cavadov qapıda göründü və ciddi nəzərlərlə Ələmdara baxmağa başladı. Ələmdar buna əhəmiyyət verməyib arxaya söykəndi. Ayağını ayağının üstünə aşırıb, öhdəsində olan bir neçə dəqiqəni keçirmək üçün Cəhalə ilə olan bayaqkı görüşü xatırladı.

Onun Cəhalədən xoşu gəlirdi. Həm də, bu vaxta qədər gördüyü qadınlardan daha çox ondan xoşu gəlirdi. Ancaq buna hələ məhəbbət demək olmazdı. Xoşu gəlirdi, xətrini istəyirdi, vəssalam! Doğrudan, bəs bu məhəbbət necə olurdu, görəsən? Neçə illərdən bəri tez-tez haqqında düşündüyü, ancaq
üzünü bir dəfə də görmədiyi, adını da bilmədiyi o qıza qarşı münasibətinə nə ad vermək olardı bəs? Məhəbbət demək olardımı buna? Yəqin ki, yox... Görmədiyin adama qarşı nə məhəbbət olacaqdı ürəyində? Bir də ki, o qızın indi təxminən otuz yaşı olmalıydı və yəqin ki, ərdəydi indi. Uşaqları da olardı, hər halda...


downloaded from KitabYurdu.org

Tez-tez saatına baxan mayor Cavadov, deyəsən, əsəbiləşməyə başlamışdı. Bunu başa düşən Ələmdar da saatına baxdı. Görüşə bir dəqiqədən az vaxt qalırdı. Tələsmədən ayağa qalxıb, qapıya doğru getdi. Cavadova çatıb ona laqeydliklə əl uzatdı. Mayor da heç nə demədən soyuq şəkildə onun əlini sıxdı. Ələmdar buna fikir verməyib binaya daxil oldu. Sola dönüb boş dəhlizlə
bir qədər getdi və qapıların birini döymədən açıb içəri girdi.

Stolun arxasında oturmuş polkovnik Baratov o saat ayağa qalxıb qollarını yana açdı və ucadan səsləndi:

- Xoş gəlmisən, Leopard!

Ələmdar:

- Xoş gördük, cənab polkovnik! - deyib görüşmək üçün rəisə yaxınlaşdı.

Baratov Ələmdarı qucaqlayıb, əyləşmək üçün stul göstərdi:

- Əyləş! Əyləş və danış görək, işlərin necə gedir? Gürcüstandan qayıdandan sonra gördüyümsən. Heç onda da doyunca söhbət edə bilmədim səninlə.

- Hər şey yaxşıdır. - Ələmdar qısaca cavab verdi.

Bu onun tez-tez işlətdiyi kəlmələr idi. Nə qədər xoşagəlməz vəziyyətə düşsə də, hesab edirdi ki, hər şey yaxşıdır... Bir də ki, hər xırda-para şeyləri rəhbəri və himayədarı hesab olunan Baratova deməyi artıq hesab edirdi. Heç polisdə bir gecə həbsdə olduğunu da deməmişdi polkovnikə. Boş və adi bir şey hesab edirdi o hadisəni. Rafiq adlı oğlanın ölümündə ondan şübhələnmişdilər və şübhəli şəxs qismində tutmuşdular. Özünün çox yaxşı tanıdığı kapitan Əbilov, belə çıxırdı ki,



downloaded from KitabYurdu.org

onu qətiyyən tanımamışdı. Heç onun Ələmdar haqqında topladığı məlumatların da çoxu düzgün deyildi. Ələmdarın əslində kim olduğundan, beş il Türkiyədə Ali hərbi məktəbdə oxuduğundan, orada kəşfiyyatçı
sənətinə yiyələndiyindən xəbərsiz idi kapitan Əbilov. Anadan olduğu yeri də pasportu əsasında Şamaxını göstərmişdi. Ancaq Ələmdar valideynləri Şamaxıdan köçüb Bakıya gələndən iki il sonra doğulmuşdu. O vaxt Bakıya qeydiyyatları olmadığı üçün doğum sənədini Şamaxıdan almalı olmuşdular və o vaxtdan doğulduğu yer bütün sənədlərində Şamaxı kimi göstərilmişdi.

Nə isə... Ondan şübhələnmişdilər və Ələmdarın kim olduğunu bilməyənlər üçün burada qəribə heç nə yox idi. Çünki Ələmdarın bütün uşaqlıq və yeniyetməlik dövrü dava-dalaşda keçmişdi. Hətta adam bıçaqlamaq üstündə azadlıqdan məhrum edilmişdi. O vaxtlar Ələmdar, doğrudan da, qan-qan deyirdi. Sözünün qabağında söz deyənləri, şəstinə toxunanları cəzalandırmasa rahat ola bilmirdi.
Əsgərlikdə də, həbsxanada da davasız günü olmamışdı. Hətta koloniyada Məhiyəddin adlı birini öldürməyi söz vermişdi özünə. Sonra elə oldu ki, onu da, Məhiyəddini də vaxtından əvvəl azad edib döyüşə göndərdilər. İstənilən vuruşmadan zövq alan və düşmənlərlə döyüşə həvəslə gedən Ələmdar, eyni zamanda, qət etmişdi ki, ilk imkan düşən kimi Məhiyyədindən intiqamını alacaq.

Bir gün... Həmin gün əslində Ələmdarın həyatında dönüş nöqtəsi oldu. Həmin gün çox şeyi başa düşdü o. Gecə çox vacib bir əməliyyatı yerinə yetirmək üçün Məhiyəddindən başqa bütün əsgər yoldaşları ilə görüşüb


downloaded from KitabYurdu.org

düşmən mövqelərinə tərəf gedən Ələmdar səs eşidib geriyə çevrildi və qaranlıqda arxasınca gələn Məhiyəddini gördü. Həbsxanada onun birinci düşməni hesab olunan Məhiyəddin dayanıb kövrək və qayğılı səslə dilləndi: - Sən cəsarətli oğlansan, Ələmdar, ancaq çalış, ehtiyatlı ol. O qayaya çıxmaq gecə vaxtı çox qorxuludur. Səni vura bilərlər!

Onda bəlkə də həyatında ilk dəfə kövrəldi Ələmdar. Bəli, Məhiyəddinin ona canı yanırdı. Məhiyəddin onun yağı düşmənlər tərəfindən öldürülməyini istəmirdi. Çünki öz millətinin oğlu idi o. Dalaşmışdılarsa da, vuruşmuşdularsa da, indi eyni səngərdə, eyni düşmənlə üzbəüz idilər. O düşmənlə ki, onların hər ikisinin qanına eyni cür susamışdı.

Hər ikisinin və bütün millətin!..

Onda əməlli-başlı utandı Ələmdar. Məhiyyədinlə boş yerə düşmənçilik etdiyinə görə... Amma tez də ciddiləşib ona əl uzatdı və:

- Qorxma, mən o dığalara can vermərəm! - dedi.

- Allah köməyin olsun! - Məhiyəddin də ona ürək dolusu xeyir-dua verdi.

Həmin əməliyyatdan uğurla qayıtdı Ələmdar. Gecənin zülmətində dərədəki çayı keçib sıldırım qayaya dırmandı. Qayanın başında gizlənmiş snayperə göz açmağa imkan verməyib, onun üstünə atıldı. Düşmənini asanlıqla susdurub, silahını götürdü və sağ-salamat geri qayıtdı.

Onun göstərdiyi şücaətlər tezliklə lazımi adamların qulağına çatdı və bir gün onu geriyə çağırıb həmin bu polkovnik Baratovun yanına gətirdilər. Sən demə, Baratov onunla dərindən maraqlanıbmış və ondan kəşfiyyatçı



downloaded from KitabYurdu.org

hazırlamaq istəyirmiş. Bakıda bir az təlim keçəndən sonra Ələmdarı Dağlıq Qarabağa kəşfiyyata yolladılar. O bu sınaqdan müvəffəqiyyətlə çıxdı. Beləliklə, onu Türkiyəyə oxumağa göndərdilər. Təhsilini bitirib qayıdandan sonra neçə-neçə çətin tapşırığın öhdəsindən layiqincə gəldi. Mayor rütbəsinə qədər qalxıb məxfi şöbənin ən etibarlı, ən bacarıqlı agenti oldu.

- Nə fikrə getdin? - polkovnikin səsi Ələmdarı fikirdən ayırdı. - Anan necədir?

- Çox sağ olun, yaxşıdır.

- Çay içirsən?

-Yox. Sağ olun...

- Bilirsən səni niyə çağırmışam?

- Hara gedəcəm? - Ələmdar suala sualla cavab verdi. Baratov gülümsədi:

- Moskvaya gedəcəksən. Amma tələsmə, de görüm, on üç il əvvəl Xankəndidə rastlaşdığın Valeri Barsovu xatırlayırsan?

Ələmdar birdən-birə tutuldu. Amma bunu büruzə verməməyə çalışıb:

- Xatırlayıram! - dedi.

Xatırlamaq nədir, onu heç unutduğu gün olmuşdumu? Onun o murdar baxışlarını unutmaq olardımı? Yox, unutmamışdı onu Ələmdar. Polkovnik Baratov onun Xankəndidə Kobra ilə rastlaşdığını bilirdi. Bunu polkovnikə həm Leopard özü demişdi, həm də əsirlikdən xilas etdiyi həmin oğlan. Ancaq polkovnik bilmirdi ki, Valeri Barsov Bakıda doğulmuş və Leopardın uşaqlıq yoldaşı olmuş ermənidir.

Ələmdar heç özü də bilmirdi ki, Kobranı uşaqlıqdan



downloaded from KitabYurdu.org

tanıdığını o vaxt Baratova niyə demədi.
Bunu bəlkə ona görə gizlətmişdi ki, onda hələ polkovnikin tam etimadını qazanmamışdı və qorxurdu ki, polkovnikdə ona qarşı şübhə yaranar? Ola bilər... Amma onda bunu gizlətmişdisə, indi də bu barədə danışmağa ehtiyac hiss etmədi. Düşündü ki, vaxt gələr, Kobradan intiqamını alandan sonra hər şeyi açıb rəisinə danışar.

- Bax onun dalınca gedəcəksən Moskvaya!

Polkovnik Baratov bunu deyib, Ələmdarı son günlər baş vermiş hadisələrlə tanış etməyə başladı. MTN əməkdaşlarının Moskvada Kobranı izləməsini, onun Samir Tağıyev adıyla Bakıya uçmaq üçün bilet almasını, lakin son anda Bakıya uçmaqdan imtina etməsini, baqaja verdiyi sarı rəngli çantanın ələ keçməsini, bir sözlə, hər şeyi danışdı. Sabah həyata keçiriləcək «Sarı çanta» əməliyyatı haqqında da
məlumat verib, Qanturalın mənzilindən tapılmış fotoşəkillərin surətlərini Ələmdarın qarşısına qoydu.

- Bu şəkillər Qantural adlı bir taksi sürücüsünün evindən tapılıb, - dedi. - Aprelin 23-də həmin Qanturalla Əli Mazanov bankının işçisi Nihat Ağayevi hava limanında görüblər. MTN zabitlərindən biri onlardan şübhələndiyi üçün Nihatın kimliyini və taksinin nömrəsini yadda saxlayıbmış... - Baratov əlindəki qələmlə stolu taqqıldatdı. - Şəklə sonra baxarsan, Leopard, dalına qulaq as! Aprelin 30-da bankın işçisi olan bir qızın toyu olub. Qanturalın arvadı da Nihatın müdir olduğu filialın işçisi imiş. Toyda bunlar hamısı iştirak edib. Qanturalın arvadı da, Nihat da məclisi tez tərk edib. Gecə mənzilinə qayıdan Qantural onları yataqda bir yerdə görüb və hər ikisini


downloaded from KitabYurdu.org

öldürüb. Hətta onların başlarını kəsibmiş...
İndi polis hər yerdə Qanturalı axtarır. Polisin MTN-ə verdiyi məlumata görə, aprelin 27-də Qantural Nihatın iş yerinə gedib kabinetdə onunla ciddi söhbət aparıb. İşçilərdən biri Qantural kabinetdən çıxarkən Nihatın ona dediyi sözləri eşidib. Nihat nəyəsə işarə edib deyirmiş ki, onları cır tulla, özünə də, mənə də problem yaratma. Hadisədən bir az sonra Qanturalın mənzilində axtarış aparan polis bu şəkilləri aşkar edərək götürüb. Onların deməsinə görə, fotolarda Nihatın əl izləri var imiş. Polis tapdığı şəkilləri MTN-ə verib. Oradan da bu surətləri bizə göndəriblər. Həm də bildiriblər ki, şəkildə görünən rus qadın aprelin 23-də Kobranın gəlmək istədiyi reyslə Bakıya gəlmiş jurnalist Natalya Nikitinədir.

Ələmdar polkovnikə qulaq assa da, əsas fikri şəkillərdə idi. Sifəti bir az da ciddiləşmiş, dodaqları
bir-birinə sıxılmışdı. Küçədə çəkilmiş fotonun surətinə bir daha nəzər salıb, onu stolun üstünə qoydu. Hansısa kafenin xəlvət həyətində çəkildiyi güman edilən şəklə daha maraqla baxmağa başladı. Bu şəkildəki qarasaçlı gözəl qadının siması ona qəribə təsir bağışlamışdı. Kim idi, görəsən, bu qadın? Ələmdara elə gəlirdi ki, sanki doğma bir adamının şəklinə baxır. Tanış gəlirdi ona? Yox, lap yəqin bilirdi ki, tanımır onu. Bəs bu nə demək idi?..

- Bu qadın kimdir? - deyə polkovnikdən soruşdu.

- Bilmirik, - Baratov cavab verdi. - Hələ bir de görüm bu şəkillər barədə sənin fikrin nədir?

Ələmdar dinmədi. Gözü hələ də əlindəki şəkildə idi. Onu stolun üstünə qoyub yenə də küçədə çəkilmiş fotosurəti götürdü. Sarışın saçlı qadına


downloaded from KitabYurdu.org

baxarkən üzündə istehzalı bir təbəssüm oynadı. Bu acı təbəssümün mənasını anlaya bilməyən polkovnik:

- Sənə nə olub, Leopard? - deyə soruşdu.
- Heç nə! - Ələmdar başını qaldırdı.
- Deyəsən, nəyə görəsə narahatsan?
- Yox, əksinə, sevinirəm.
- Sevinirsən? - Baratov təəccübləndi. - Niyə? Ələmdar əvvəlcə deməyə söz tapmayıb

duruxdu. Sonra birdən gülümsəyib:

- Mənə iş tapşırdığınız üçün! - dedi.

Baratov mənalı tərzdə başını tərpətdi:

- Yaxşı, bu şəkillər barədə şəxsi fikrin yoxdur? Sənin mülahizələrin mənim üçün maraqlıdır.

Ələmdar əlindəki şəkillərə bir də ani nəzər yetirib polkovnikə baxdı:

- Bu şəkillər aprelin 23-də, təxminən gündüz saat 12-də çəkilib.

- Maraqlıdır!.. - Baratov yerini rahatlayıb diqqətini topladı. - Nəyə əsasən belə fikir yürüdürsən?

Ələmdar izahat verməyə başladı:

- Bu əcnəbi qonağa fikir verin. Şəkil çəkilən anda əsən külək onun saçlarını tərpədirmiş. Bundan küləyin istiqamətini təyin etmək olur. Külək obyektivə tərəf əsirmiş. Mənim bildiyimə görə aprelin axır ongünlüyündə Bakıda yalnız cənub küləyi əsib. Deməli, şəkil üzü cənuba çəkilib. İndi bu maşının asfalta düşmüş kölgəsinə baxın. Görürsünüzmü, kölgə soldan sağa düşüb. Özü də lap az... Bu onu göstərir ki, günorta olmayıbmış hələ. Kölgənin ölçüsündən şəklin təxminən saat 12-də çəkildiyini demək olar. Bir də uşaqlara fikir verin. Yığılıb səkidə



downloaded from KitabYurdu.org

oynayırlar. Müxtəlif yaşlı olsalar da, hamısı məktəbyaşlıdır. Onlar məktəbdə hansı növbədə oxumalarından asılı olmayaraq saat 12-də ya məktəbdə olmalıydılar, ya da ora getməyə hazırlaşmalıydılar. Bundan şəklin ya bazar, ya da şənbə günü çəkildiyi qənaətinə gəlmək olar. Bu qonaq Bakıya aprelin 23-də gəlibsə və Qanturalın Nihatla bankdakı görüşü ayın 27-də olubsa bu araya yalnız bir bazar düşür ki, o da aprelin 23-dür...

Polkovnik Baratov başını razılıqla tərpədib:

- Daha nə deyə bilərsən? - deyə soruşdu.

- Bir də onu deyə bilərəm ki, - Ələmdar davam etdi. - Sabah sizin həbs etmək istədiyiniz adamlar heç bir təxribatçı qrupun üzvü deyillər!

- Nə dedin?! - Baratov qabağa əyilib gözlərini Leopardın üzünə dikdi. O, bilirdi ki, Leopard bilmədiyi şeyi danışan deyil.

- Bəli. - Ələmdar təkrar etdi. - O adamlar bəlkə də Azərbaycanın ən lazımlı adamlarıdırlar.

- Bunu deməyə əlində ciddi əsas varmı?

- Var! - Zirək kəşfiyyatçı dilləndi. - Mən sizə hər şeyi olduğu kimi izah edə bilərəm. Dediyiniz kimi, bizim Milli Təhlükəsizlik orqanlarının əməkdaşları Valeri Barsovu, yəni Kobranı, Moskvada izləyirmiş. Onlar onun ardınca aerokassaya girib Samir Tağıyev adıyla Bakıya bilet aldığını görüblər. Bu sizin dediyiniz kimi aprelin 17- də olub. Mənim fikrimcə, həmin vaxt olduqca hiyləgər və təcrübəli olan Kobra həmin əməkdaşlarımızdan şübhələnib. Başa düşüb ki, 23-də onu Bakıda qarşılayıb tutacaqlar. Ona görə



downloaded from KitabYurdu.org

də həm Bakıya gəlmək, həm də bizə tutarlı zərbə vurmaq üçün hiyləgər bir plan hazırlayıb. Səhəri, ya bir neçə gün sonra tamamilə başqa bir imic və adla aerokassaya gedib. Həmin reysə bilet alıb. Onun Samir Tağıyev adına yazılmış pasport kimi başqa adla da saxta pasportu var imiş. Beləliklə, Kobra ayın 23-də Moskvadakı hava limanına gedib, əvvəlcə Samir Tağıyev adıyla qeydiyyatdan keçib. Əvvəlcədən hazırlanmış, içinə təxribat xarakterli ədəbiyyat və qondarma siyahı qoyulmuş sarı çantanı da baqaja verib. Mən belə düşünürəm ki, o siyahının hazırlanmasında hansısa terrorçu təşkilat iştirak edib. Hə, sonra Kobra hansı bəhanə iləsə gömrük zonasından çıxıb, haradasa, ya tualetdə, ya həyətdə saxlanılmış maşında öz imicini və qiyafəsini dəyişib. Yeni adına uyğun saxta pasportla yenidən gömrük məntəqəsinə qayıdıb və qeydiyyatdan keçərək təyyarəyə minib. Buradan belə nəticə çıxır ki, Kobra sarı çantanı bilərəkdən baqaja verib və istəyib ki, o Bakıda MTN-in əlinə keçsin. Axı bayaq dediyim kimi, Kobra Moskvada onu izləyənlərdən şübhələnib və bilib ki, aprelin 23-də Bakıda Samir Tağıyev adıyla gələcək adamı da, onun yükünü də ələ keçirməyə çalışacaqlar.

- Dayan bir görüm, Məlikov, - polkovnik onun sözünü kəsdi. - Sənin bu fərziyyələrin hansı əsasa söykənir axı?

Ələmdar əlindəki şəkli qaldırıb Baratova göstərdi:

- Cənab polkovnik, aprelin 23-də Natalya Nikitinə adı altında Bakıya gəlmiş və dediyiniz həmin iki adam tərəfindən qarşılanıb bu kafeyə gətirilmiş qadın... Daha doğrusu, bu qadın deyil. Elə Kobranın özüdür!



downloaded from KitabYurdu.org

Polkovnik Baratov əlini uzadıb şəkli Ələmdardan aldı və ucadan səsləndi:

- Kobra?! Sən buna əminsənmi, Leopard?

- Bəli, cənab polkovnik! - Ələmdar arxayınlıqla cavab verdi. - Mən onun gözlərini, burnunu və xüsusilə də çənəsinin quruluşunu çox yaxşı xatırlayıram. Şəkildə gördüyünüz Valeri Barsovdur!

Baratov şəkli stolun üstünə tullayıb ayağa qalxdı. Əllərini arxasına qoyub əsəbi halda otaqda gəzişməyə başladı:

- Sən bir həyasızlığa bax! Gör gəlib haraya çıxıb! Nə imiş bunun məqsədi? Niyə gəlib o Bakıya? Yaxşı, bu sarı çanta məsələsini başa düşdük. Bu əlavə bir iş imiş. İyirmidən çox adamımızı ləkələyib
sıradan çıxarmaq istəyirmiş. Onu da deyim ki, sən onları böyük rüsvayçılıqdan xilas etdin, Leopard! Amma bu əclaf, onu izləməsəydilər Samir Tağıyev adıyla gələcəkmiş Bakıya. Görəsən niyə? Təxribat törətmək üçünmü? Əlbəttə, başqa nə ola bilər axı?

Birdən dayanıb Ələmdara tərəf çevrildi:

- Mayor Məlikov, mən sizə əmr edirəm, nəyin bahasına olursa olsun, tezliklə Kobranın Bakıdakı dayaqlarını aşkar edib, onu ələ keçirməlisiniz!

Ələmdar cəld ayağa qalxdı:

- Oldu, cənab polkovnik!

Baratov, nədənsə, birdən-birə yumşalıb, əlini sevimli yetirməsinin çiyninə qoydu:

- Leopard, sən bəlkə də Valeri Barsovun xalqımıza qarşı törətdiyi bütün cinayətlərdən xəbərdar deyilsən. O, qəddar, yırtıcı bir cani,



downloaded from KitabYurdu.org

terrorçudur. Digər tərəfdən də, onunla bağlı əməliyyatda bizim şöbəyə laqeydlik göstərmişdilər. Ona görə də mən istəyirəm ki, Kobranı biz ələ keçirək. İndi, oğlum, de görüm boynuna götürürsənmi bu işi?

- Mən sözümü dedim, cənab polkovnik! - Ələmdar ciddi şəkildə bildirdi. - Kobra əgər hələ Bakıdadırsa, onu tapacam. Yox, əgər buradan gedibsə, onun arxasınca dünyanın harasına göndərsəniz gedəcəm.

- Sənə neçə adam lazımdır? Kömək üçün.

- Mənə heç kəs lazım deyil. Müstəqil işləmək istəyirəm.

- Qoy sən deyən olsun. - Məxfi şöbənin rəisi razılaşdı. - Amma yadında saxla ki, istənilən anda, istənilən kömək üçün bir telefon zəngin kifayətdir.

- Çalışacam, sizi narahat etməyim.

- Xasiyyətini bilirəm. - Baratov gülümsədi. - Sənə mane olmayacam. Ancaq sən çalış ki, Kobranın yerini tezliklə müəyyənləşdirəsən. Bunun üçün birinci növbədə onun burada kimin qonağı olduğunu öyrən. Şəkillərin çəkildiyi həmin kafeni tapsan, bu sənin üçün o qədər də çətin olmayacaq. Bu şəkilləri də özünlə götür. Amma bir də təkrar edirəm, unutma ki, Kobra adi təxribatçılardan deyil. İlan kimi soyuqqanlı, tülkü kimi hiyləgərdir. - Ələmdarın gülümsədiyini görüb əlavə etdi. - Əlbəttə, sən də adi kəşfiyyatçı deyilsən. O Kobradırsa, sən də Leopardsan. Mən sənə inanıram. Onun harada olduğunu müəyyənləşdirən kimi mənə bildir. Qalanı ilə işin yoxdur.

- Siz onu neyləyəcəksiniz, cənab polkovnik? - Ələmdar birdən soruşdu.

Baratov təəccübləndi:



downloaded from KitabYurdu.org

- Əlbəttə, məhkəməyə veriləcək o!

- Siz onu alacaqsınız! - Ələmdar əminliklə dilləndi. - Mən gedə bilərəmmi?

- Gedə bilərsən, - rəis dedi. - Amma hələ dayan, qoy Cavadov ətrafı təmizləsin.

Bunu deyib, stolun üstündəki aparatın düyməsini basdı. Bir neçə dəqiqə sonra selektordan mayor Cavadovun səsi gəldi:

- Sakitlikdir, cənab polkovnik!

Baratov Ələmdarı kabinetin qapısına qədər gətirib yola saldı:

- Mən sənə inanıram, Leopard, sübut elə ki, Azərbaycana belə həyasızlıqla gəlmək olmaz!

Ələmdar adamsız dəhlizdən keçib həyətə düşdü. Həyətdə də Cavadovdan başqa heç kəs görünmürdü. Mayorla da başını tərpətməklə sağollaşıb küçəyə çıxdı. Gəldiyi yolla geriyə qayıdıb avtobus dayanacağının yanında saxladığı «Volvo»ya mindi. Maşını hərəkətə gətirib yola çıxdı və yanında kimsə varmış kimi ucadan:

- Hə, Artur, - dedi. - deyəsən, görüşə biləcəyik səninlə! On üç il sonra olsa da...

## Qırx ikinci fəsil

Canəlinin öldürülməsi idarənin bütün əməkdaşlarını sarsıtmışdı. Bu yandan da, onun vurulduğu lingdə Qanturalın əl izlərinə rast gəlinməsi onsuz da gərilmiş əsəblərin son həddə çatmasına səbəb olmuşdu. Elə o axşam rəisin göstərişi ilə Zəkixan, oğlanları, yaxın qohumları, Qanturalın dostları yenidən tutularaq idarəyə gətirilmişdilər. Tutulub saxlanılanların sayı iyirmiyə yaxın idi. Bütün gecəni və səhəri gün ciddi istintaq aparılmasına



downloaded from KitabYurdu.org

baxmayaraq, Qanturalın harada gizlənə bilməsi barədə heç nə öyrənmək mümkün olmamışdı.
Amma kapitan Əbilov əsasən kafenin axtarışı ilə məşğul idi. Tabeliyində olan polis əməkdaşları bütün
Bakıda öz qapısı, yaxud arxa həyətinin qapısı dar küçəyə açılan, kiçik və xəlvəti həyətində söyüd ağacı əkilmiş, həyətin iç divarına mozaik rəsm çəkilmiş kafeni axtarırdılar.

Əbilov kafenin tezliklə tapılacağına ümid edirdi. Onun heç xəbəri yox idi ki, bu gündən hərbi kəşfiyyatçı Ələmdar Məlikov da həmin kafenin axtarışına başlayacaq. Amma tamam başqa bir məqsədlə. Kobranı tapıb, ondan intiqam almaq məqsədilə...

Ələmdar məxfi şöbədən çıxandan sonra birbaş - «Döyüş» idman klubuna gəldi. Kabinetinə çıxıb öz yerində əyləşdi və özü ilə gətirdiyi fotoşəkil surətlərini qarşısına qoyub, onları diqqətlə nəzərdən keçirməyə başladı.

«Deməli, bu fotoşəkilləri Kobranı qarşılamaq üçün hava limanına getmiş Nihat çəkib və Qanturalın mənzilinə qoyub... Niyə? Bir də polkovnik dedi ki, Nihat Qanturala nəyisə cırıb atmağı məsləhət görübmüş... Görəsən, bu şəkilləri nəzərdə tuturmuş o?.. Burda bir az uyğunsuzluq yaranır axı?! Şəkli Nihat çəkir, sonra da deyir ki, cır at bunları, mənim üçün problem yaratma!..

Yaxşı... Bu şəkil süfrə başında çəkilib. Stol arxasında azı dörd nəfərin oturması dəqiqdir. Sifəti aydın görünən isə təkcə bu qarasaçlı qadındır. Gözəlliyinə heç bir söz ola bilməz bu qadının. Özü də lap yəqin ki, belə yerlərdə olmayıb bu vaxta qədər. Təmiz qadına oxşayır. Sıxılmağı da açıq- aydın hiss olunur. Ancaq niyə bu qadın mənə belə


downloaded from KitabYurdu.org

məhrəm təsiri bağışlayır? Təkcə məsum gözəlliyinə görəmi? Yox... Kimisə xatırladır mənə bu qadın. Ancaq kimi? Bu barədə sonra fikirləşərik. İndi bu kişiyə baxaq. Eynək taxdığına və əlini üzünə apardığına görə tanımaq mümkün deyil bunu. Qırx- qırx beş yaşlarında olar. Bu isə qadın cildinə girmiş Artur Saqiyan. Əclaf Kobra!.. Onun ancaq başının arxası görünür.

Dördüncü şəxs də, sözsüz ki, Nihatdır. Çünki şəkli o çəkib. Amma bu stolun başında da, ola bilsin ki, kimsə oturub. Əgər elədirsə, bu edir beş nəfər. Kimsə başda əyləşib, sağında bu kişi, sonra bu gözəl qadın. Solunda Kobra, ondan sonra Nihat... Hə, oturduğu yerdə sola burulub, guya kiminləsə danışırmış kimi telefonu qulağına aparıb və bu fotonu çəkib. O, ola bilsin ki, başda oturmuş adamla Kobranı kadra salmaq istəyib. Amma bu alınmayıb.

Hər halda şəklin görünüşü göstərir ki, bunu Nihat çəkibsə, o Kobranın solunda oturub. Onun da solunda kimsə oturubsa kadra düşə bilməzdi. Hələ bəlkə Qantural özü də bu süfrənin arxasında olub və Nihatın solunda əyləşib».

İkinci şəklə baxmağa başladı:

«Hə, Kobra, arvad qiyafəsinə girmisən demək. Elə səsin də qadın səsinə oxşayırdı... Bakıya gəlməkdə əsas məqsədin nədir, bilmirəm. Amma onu bilirəm ki, əcəl sürükləyib gətirib səni bura. On üç ildir yubanır Mahirə adlı o azəri qızının qisası. On üç ildir!..

Deməli, Qanturalla Nihat bu ilanı hava limanında qarşılayıb birbaşa bu kafeyə gətirib. Bu lap yəqindir. Kobra kafedən saat 12-də çıxıbsa, təyyarənin Bakıya enmə vaxtını, hava limanı ilə kafe



downloaded from KitabYurdu.org

arasındakı yola sərf edilən müddəti nəzərə alsaq, buna qəti hökm vermək olar. Özü də onlar kafedə az olublar. Təxminən bir saat. Kobra hava limanından birbaşa bu kafeyə gətirilibsə, burada kiminləsə görüşməli imiş. O adam kimdirsə, deməli, Kobra ilə, bəlkə də birbaşa erməni kəşfiyyatı ilə əlaqəli adamdır. Hər halda, belə çıxır ki, Bakıda düşmənə işləyən adamlar var! Bəs kim ola bilər onlar? Kobra Bakıda kimin qonağıdır? Həmin adam müəyyənləşərsə, deməli, Kobranı da tapmağa ümid etmək olar. Yoxsa bu boyda şəhərdə elə bir hiyləgər təxribatçını tapmaq o qədər də asan olmayacaq».

Ələmdar ayağa qalxıb əllərini, adəti üzrə, şalvarının cibinə qoydu və otaqda gəzişməyə başladı. Fikirləşib qərara gəldi ki, mütləq birinci növbədə kafeni tapmaq lazımdır. Özü də təcili! O
istəmirdi ki, bu kafeni başqaları ondan əvvəl tapsın. Elə olardısa, Kobra onun əlindən çıxa bilərdi. Yenidən stolunun arxasına keçib şəkillərə baxmağa başladı. Bu dəfə şəklin yuxarı sağ küncünə yarısı düşmüş ağ «Jiquli»yə daha çox diqqət yetirdi.

Maşının ancaq yarısı, özü də qabaq hissəsi şəklə düşmüşdü. Üst hissəsi də görünmürdü. Qapıdan yuxarıya doğru qara, solğun bir xətt gedirdi. Ələmdar qərara gəldi ki, bu məftildir və yəqin ki, maşının üstünə qoyulmuş taksi nişanına çəkilib. Bir çox taksi sürücüləri elektrik lampası ilə təchiz edilmiş nişanı, məftilini qapının arasından keçirməklə, maşının üstünə qoyur, lazım olmayanda götürürdülər. Deməli, bu maşın taksi olmalı idi.

«Görəsən, şəkil çəkilən anda bu maşın hərəkətdə imiş, yoxsa dayanıbmış? - deyə düşündü.


downloaded from KitabYurdu.org

- Hər halda, yəqin ki, bu Qanturalın maşını deyil. Lap dayanıbsa da, kafedən uzaqdadır».

Günəşin işığı maşının kölgəsini yerə salmışdı. Ancaq burun hissəsinin altı kölgəsiz idi. Maşının altındakı kölgənin qaraltısından başqa, burun hissənin altındakı işıqlı yerdə də qaraltı nəzərə çarpırdı. Sonra maşının nömrəsinə baxdı. Onu oxumaq çətin məsələyə oxşayırdı.

Yerindən qalxıb kompüter stolunun arxasına keçdi və şəkli kompüterə saldı. Sonra ekrandakı görüntünü böyüdüb diqqətlə müşahidə etməyə başladı:

«Bu dairəvi qaraltının bir hissəsi işıqlı, bir hissəsi isə kölgəli yerə düşür. Aha, bu maşından su damcılayıb asfalta. Ya da mühərrikindən yağ axır bunun. Deməli, bu maşın getmir, yerində dayanıb».

Bütün diqqətini toplayıb nömrəni oxumağa çalışdı:

«İlk iki rəqəm «10» dur. Yəqin ki, belədir. Bakı nömrəsidir bu. İndi hərflərə baxaq... Bu «A»-dan başqa heç nə ola bilməz. Bəs bu nə hərfidir? «0»-ya da oxşayır, «Q»-yə də... O biri rəqəmlərə baxaq. Burada iş lap qəlizləşir...»

Qarşısına vərəq qoyub oxuya bildiyi və ya oxşatdığı rəqəmləri yazmağa başladı. Bu iş onun yarım saata qədər vaxtını aldı. Vərəqə 24 maşın nömrəsi yazmışdı. Sonra şəklə bir daha diqqət yetirib gümanını bir qədər dəqiqləşdirdi və nömrələrin sayını on üçə endirdi.

Yerinə qayıdıb, stolun üstündə sıra ilə düzülmüş üç düymədən ikisini basdı. Bir dəqiqə keçməmiş
İlqarla Orxan kabinetə daxil oldular. Ələmdar vaxt itirmədən onlara üz tutdu:

- Bir işdə mənə köməyiniz lazım olacaq.

İlqarla Orxan bir ağızdan:


downloaded from KitabYurdu.org

- Biz hazırıq! - dedilər.

Ələmdar əvvəlcə Orxanın tapşırığını verdi:

- Orxan, sən elə indicə get, polis bölmələrinin birinin qarşısında axtarışda olan Təhməzov Qanturalın şəklini tap, telefonunla fotosunu çək, sabah işə gələndə mənə gətirərsən.

- Qədeş, arvadıyla onun oynaşının başını kəsəni deyirsən? - Orxan soruşdu.

- Hə, onu deyirəm.

- Sən də axtarmaq istəyirsən onu?

- Məni sorğu-suala tutmaqdansa, get verdiyim tapşırığı yerinə yetir. - Ələmdar ciddiləşdi.

- Baş üstə, qədeş!

Ələmdar on üç maşın nömrəsi yazdığı vərəqi İlqara verdi:

- Sən isə, İlqar, bu nömrələri qardaşına ver. Bunlardan hansı ağ rəngli «Jiquli»nindirsə o mənə lazımdır. Özü də mənim fikrimcə, taksi olmalıdır o maşın. Deyərsən ki, pulun düşüb qalıb bu maşında. Ya nəsə başqa bir şey uydur. Axır ki, o maşını mənim üçün tap!

İlqarın qardaşı Dövlət Yol polisinin şəhər şöbəsində işləyirdi. Ona görə də bu tapşırıq onun üçün heç də çətin tapşırıq hesab oluna bilməzdi. Vərəqi Ələmdardan alıb:

-Arxayın ol!-dedi.

- Gedin, vaxt çox azdır. Çalışın, tapşırdıqlarımı tez yerinə yetirin!

İlqarla Orxan kabinetdən çıxdılar. Ələmdar isə yenə də şəkilləri əlinə götürüb fikrə getdi.

... Axşam evə qayıdanda anası yenə də onu danlaqla qarşıladı:



downloaded from KitabYurdu.org

- Haralarda veyllənirdin bu vaxta qədər?

- İşdə idim, ay ana! - Ələmdar cavab verib vanna otağına keçdi.

- Bir özün kimi avara dostun gəlmişdi, səni soruşurdu. - Əminə arvad oğlunun arxasınca vanna otağına girib xəbər verdi.

- Kim idi? - əllərini yuyan Ələmdar soruşdu. -Adını soruşdum. Əhməd imiş adı. Dedi ki,
dostundur.

- Nə cür adam idi? - əlini qurulayıb otağa keçən Ələmdar maraqlandı.

- Arıq, uzunsifət kişi idi. Gözlərinə qara eynək taxmışdı. Lap banditə oxşayırdı.

Ələmdarın Əhməd adlı dostu-tanışı yox idi. «Bu Kobra olmaz ki?» - deyə fikirləşdi. Əgər Kobra olubsa, demək köhnə həyətlərinə gedibmiş əvvəlcə. Orada deyiblər bu mənzilin ünvanını. Köhnə qonşulardan orada yaşayan qalmamışdı. Amma Ələmdargil bu evə köçəndə ünvanlarını öz evlərini satdıqları adama vermişdilər. Ola bilərdimi ki, Kobra Ələmdara görə gəlsin Bakıya? İntiqam almağa... Yox, ona görə gəlməz, amma düşünər ki, elə gəlmişkən... Əslində Ələmdar ona neyləmişdi ki? Nə eləmişdisə, o eləmişdi. Əsir düşərgəsində onu tanıyıb ifşa etmiş, əsgərlərə döydürmüşdü. Sonra da Mahirəyə, onun ailəsinə qarşı etdiyi vəhşiliklər.
Başqa azərbaycanlılara qarşı etdiyi zülmlər, qırğınlar...

- Amma elə bil tanış gəldi o gədə mənə, - anası dedi. - Bizdə olmayıb ki, o?

- Qapını açdın? - Ələmdar soruşdu.

- Dəliyəm açım tanımadığım adama?



downloaded from KitabYurdu.org

- Düz eləmisən, mənim Əhməd adlı dostum yadıma gəlmir.

İstədi desin ki, həmin adam bir də gəlsə, evdə olmasam, mənə

zəng vur. Yadına düşdü ki, anası ev telefonundan cib telefonuna

zəng vura bilmir. Kodla nömrəni yazıb telefon aparatının yanına qoydu:

- O bir də gəlsə...

Nəsə düşünüb fikrindən daşındı və:

Qapını açma! - deyə sözünü tamamladı.

Qırx üçüncü fəsil

Axşam Dördbarmaq Ağaşamilin bütün ailə üzvləri yenə də onun mənzilinə toplaşmışdılar. Ailə başçısı özü, Cahangir, Xanəli, Səxavət, Şakir stolun arxasında, Nəzakət, Hicran, Həmidə, Cəhalə və Fatimə divanda əyləşmişdilər. Uşaqlar o biri otaqda idilər. Təkcə on bir yaşlı Fətəli atasının yanında ayaq üstə dayanmışdı. Ağaşamil də övladlarının hamısından çox istədiyi bu nəvəsinin söhbətə qulaq asmağına etiraz etməmişdi.

Otaqda daha üç nəfər var idi. Bu adamlar ailənin cangüdənləri kimi yenicə işə başlamış Səlahəddin, Qulu və Ramiz idilər.

Səlahəddin Bakıya üç gün qabaq Qusardan gəlmişdi. Nihatın əsgərlik yoldaşı olubmuş. Qusarda özünə iş tapa bilmədiyinə görə Nihatın Bakıda ona iş tapacağına ümid edirmiş. Ancaq ailənin başına gələn müsibəti eşidəndə Tamerlanın yas mərasiminə gələrək orada Nihatın qardaşları ilə tanış olmuşdu. Özünü və ailə üzvlərini qorumaq üçün cangüdən saxlamağı qərara almış Cahangir


downloaded from KitabYurdu.org

ilk təklifi Səlahəddinə eləmişdi. Vaxtilə Ukraynada belə işlə məşğul olmuş, uzun sallaq bığlı, gözlərindən cin tökülən Səlahəddin yaxşı əməkhaqqı veriləcəyini bilib təkliflə razılaşmışdı.

Qulu isə İrandan gəlmiş, bir-iki ay başqa yerdə fəhləlik edəndən sonra tikinti firmasında işləmək üçün Cahangirə müraciət etmişdi. Boy-buxunlu, qüvvətli cavan idi.

Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib iş axtaran Ramiz də Qulu kimi tikintidə işləmək üçün Cahangirin firmasına gəlmişdi. Əslən Mingəçevirdən olan bu oğlan yaşca o birilərdən kiçik olsa da, cəsarətli və özünəinamlı təsiri bağışlayırdı.

Hər üçü subay idi onların. Heç birinin Bakıda qohum-əqrəbası yox idi və hər üçü yaşamaq üçün özünə kirayə mənzil tutmuşdu. Cahangir onlara «Qaz-31» markalı bir maşın vermiş, hər üçünü silahla təmin etmişdi. Onlar lazım gəldikdə, bütün ailə üzvlərinin canını qorumaqla, əsasən Xanəliyə tabe olub, ondan göstəriş alacaqdılar. Düzdür, Ağaşamilin qohumları arasında dəliqanlı gənclər az deyildi və onlar öz ağsaqqallarının sözü ilə istənilən vaxt ölümə də gedə bilərdilər. Bunlardan başqa, Cahangirin, Xanəlinin sadiq adamları, işçiləri də az
deyildi. Lakin onların hamısı öz yerində, bu üç nəfərin əsas işi gecə-gündüz Ağaşamil ailəsini qorumaq olacaqdı.

Birinci olaraq, Cahangir sözə başlayıb, cangüdənləri otaqdakılara göstərdi:

- Bunları çağırdım ki, hamınız tanıyasınız, - deyib, bir-bir əlini onlara uzatdı. - Səlahəddin, Qulu, Ramiz... Bunlar bizim adamlarımızdırlar. Yəni bundan sonra tez-tez aramızda görəndə təəccüblənməyin.


downloaded from KitabYurdu.org

Cahangir sözünü qurtarandan sonra, Xanəli başı ilə cangüdənlərə çıxmaq işarəsi verib:

- Həyətdə gözləyin! - dedi.

Onlar mənzildən çıxan kimi otağa dərin bir sükut çökdü. İndi hamı ailə başçısının nə deyəcəyini gözləyirdi. Ağaşamil isə danışmağa tələsmirdi.
Müştüyə taxılmış siqaretini təmkinlə sümürür, otaqdakıları gözaltı süzürdü.

Oğlanları kimi, onun da üzünü tük basmışdı. Ancaq oğlanlarından fərqli olaraq, onun daha kədərli, daha tutqun görkəmi var idi. Nəyinsə barəsində elə hey düşünür, düşünürdü. Nəhayət, bir daha ailə üzvlərini diqqətlə süzüb, ağır-ağır dilləndi:

- Nihatın ağılsız hərəkəti ucbatından onu da, heç bir günahı olmayan Tamerlanı da itirdik. Nihat öləndə dedim ki, barışmasaq da, düşmənçiliyi davam etdirməyəcəyik. Ancaq Tamerlanın ölümü artıq oldu... Çox artıq oldu... Özü də lap belimi sındırdı mənim...

Hıçqırıq səsi eşidib dayandı. Ağlayan Fatimə idi. Onu sakitləşdirməyə çalışan Cəhalə də özünü saxlaya bilmədi və göz yaşları səssiz-səmirsiz
yanaqları boyu süzülməyə başladı. Nəzakətlə Həmidə dərindən ah çəkib başlarını yırğaladılar. Hicran oturduğu yerdə donub durmuşdu. Bilinmirdi, ətrafda baş verənləri eşidib-duyur, yoxsa yox.

Fətəli bütün diqqətini toplayıb, gözlərini babasının ağzına dikmişdi. Baxışlarında yaşına uyuşmayan bir ciddilik, bir kin-küdurət var idi.

Ağaşamil bir qədər susub dayanandan sonra sözünə davam etdi:


downloaded from KitabYurdu.org

- İndi Zəkixanın ailəsi bizim qan düşmənimiz sayılır. Bunu siz hamınız bilməli və hər zaman, hər yerdə öz hərəkətlərinizə fikir verməlisiniz. Ayıq-sayıq olmalısınız həmişə! Oğlanlarımı öldürən əclafı hələ də tutub damlaya bilməyiblər. O tutulana qədər hər biriniz daha ehtiyatlı olmalısınız. Uşaqları ya heç məktəbə buraxmayın, ya da üstündə ciddi
nəzarətiniz olsun. Özünüz də bir yerə gedəndə evdəkilər bilsin harda olmağınızı. Ancaq o tutulandan sonra da qurtarmayacaq bizim düşmənçiliyimiz. Dediyim odur ki, hər kəs bundan sonra hərəkətlərini ölçüb-biçsin. Həm özünüzü qoruyun, həm də mənim adıma, mənim ailəmin adına xələl gətirə bilən iş tutmayın. Əgər ən xırda bir nöqsanınızı duysam, kimliyindən asılı olmayaraq, bağışlamayacam!

Susub otaqdakılara göz gəzdirdi. Gəlinlər başlarını aşağı dikmişdilər. Fatimə yaylığı ilə gözlərini qurulayırdı.

- İndi siz durun, keçin uşaqların yanına! - Ağaşamil qadınlara əmr etdi.

Fatimə və gəlinlər sakitcə ayağa qalxıb qonşu otağa keçdilər. Yenə bir qədər kədərli sükut hökm
sürdü. Sonra birinci olaraq balaca Fətəli dilləndi:

- Qoy biz də onun uşaqlarını öldürək, baba! Ağaşamil nəvəsini əlinin işarəsi ilə yanına
çağırıb, onun başını sığalladı:

- Onun uşağı yoxdu bala, qatır kimi törəməzdi... Fətəli bir an duruxub, hikkə ilə dedi:

- Onda mən Əsmər müəlliməni öldürəcəm! Ya da qardaşı oğlunu... Vahidi!..

Ələkbərin oğlu Vahid Fətəlidən iki sinif yuxarı -



downloaded from KitabYurdu.org

yeddinci sinifdə oxuyurdu. Özü də yoldaşları arasında ən cəsarətli, ən güclü uşaq sayılırdı.

- Elə danışma, ayıbdır! - bayaqdan dinib- danışmayan Şakir dedi. - O sənin müəllimindir!

Fətəli bibisinin nişanlısına acıqlı nəzərlə baxdı:

- Bəs onun qardaşı mənim əmilərimi niyə öldürüb?

Şakir susub başını buladı. Ağaşamil əlini qürurla nəvəsinin kürəyinə vurdu:

- Mənim kişi balam, sən hələ qarışma belə işlərə. Atan var, əmilərin var...

Cahangir birdən üzünü atasına tutub dilləndi:

- Mən, şəxsən, heç istəmirəm Tamerlanın qanı yerdə qalsın...

- Onsuz da Qanturalı tapıb tutacaqlar, - işlərin gedişindən getdikcə narahatlığı artan Səxavət dedi.
- Düşmənçiliyi daha da böyütməyin nə xeyri olacaq?

- Səxavət düz deyir. - Şakir onunla həmfikir olduğunu bildirdi. - Mənim də xoşum gəlmir belə düşmənçilikdən.

Ağaşamil onların hər ikisini sərt nəzərlərlə süzdü:

- İndi nə demək istəyirsiniz? Qabağından qaçmalıyıq Zəkixan ailəsinin?!

- Ay ata, - Səxavət cavab verdi. - gedib türməyə girəsi deyilik ki?!

- Sənə deyən yoxdu, get türməyə gir! - atası səsini qaldırdı.

Bayaqdan susub qaşqabaqlı oturmuş Xanəli birdən sakit, ancaq ciddi səslə dilləndi:

- Mən bilən, bu söhbətin yeri deyil bura!

O, bu sözləri deyəndə intiqam barədə Şakirlə Səxavətin yanında danışmamağı nəzərdə tuturdu. Səxavət, onun


downloaded from KitabYurdu.org

fikrincə, nə ətdi, nə də balıq. Onunla intiqam barədə danışmaq yersiz idi. Sabah polisdə ağzının üstünə bir-iki şillə vuran kimi doğma qardaşını da sata bilərdi. Şakirdən isə onun heç əvvəldən xoşu gəlmirdi. Yazı-pozudan, bir də lovğa-
lovğa danışmaqdan başqa əlindən bir şey gəlmirdi onun.

Xanəli düşünürdü ki, gec-tez Tamerlanın qisasını almasa, tanış- biliş qabağına çıxmağa üzü olmayacaq. Deyəcəklər, Balta Xanəlinin iki qardaşını öldürdülər, başını aşağı dikib, dözdü buna...

Bir də ki, başqaları nə deyirlər desinlər, bu öz yerində, Xanəli özü dözə bilməzdi bu alçaqlığa! Ağaşamil, Cahangir bir yana dursun, belə çıxırdı ki, bu Qantural it oğlu Xanəlini də kişi saymayıb. Məgər o, Tamerlanı vurub maşının altına salanda bilmirdi ki, Xanəlinin qardaşıdı öldürdüyü? Əlbəttə, bilməmiş olmazdı. Nə olar?.. O, indi görər ki, Balta Xanəli kimdir! Deməli, o öz namusunu qorudu? Nihatın başını kəsdi buna görə? Yaxşı!.. Üstəlik Tamerlanı da vurdu? Hə, indi daha inciməsin! Xanəli Tamerlanın da qisasını alacaq, üstəlik hələ Nihatın da! Demir ki, mən belə istəyirəm? Xanəli də belə istəyir! Hər halda, görərlər kim kimdən güclüdür!

Atası dərhal Xanəli ilə razılaşdı:

- Düzdür, deyəsən, doğrudan da yeri deyil bu söhbətin. Amma bayaq dediklərimi bir də təkrar edirəm: özünüzü də, arvad-uşağı da qoruyun. Həm canlarını qoruyun, həm də adlarını, namuslarını. Bizim hər birimizin namusu hamımızın namusudur! Nihatın da uşaqlarını öz balanız bilin, qayğılarına qalın. Qoy Hicranın qardaşları gəlib o evdə ağalıq eləməsinlər. Onlar bizimdir, deməli, hər dərdi-


downloaded from KitabYurdu.org

səri də bizimlə olacaq.

Ağaşamil sözünü bitirib səbirsiz halda əlini yellədi:

- Yaxşı, durun gedin evinizə-eşiyinizə!

Ayağa qalxıb o biri otaqdan arvad-uşağı səslədilər. Ev sahibi ilə Xanəlidən başqa hamı həyətə düşdü. Səlahəddin, Qulu və Ramiz blokun qarşısında dayanmışdılar.

Əvvəl Səxavətgil getdilər. Cəhalə ağlamaqdan gözləri qızarmış Fatimənin üzündən öpüb, o biri gəlinlərlə və uşaqlarla sağollaşdı. Sonra Hicranla uşaqlarını maşına dəvət etdi.

- Gəlin oturun, sizi mən aparacam, - dedi.

Səxavət də Şakiri dəvət edib, onu qabaqda əyləşdirdi və özü də arxada, Hicrangilin yanında oturdu. Cəhalə sükanın arxasına keçib maşını işə saldı və yola düşdülər. Bu vaxt içində iki gənc kişi olan «BMV» markalı maşın da onların arxasınca tərpəndi. Onlar Miraslanovun muzdlu adamları idilər.

Qantural tutulana qədər Cəhaləni baş verə biləcək xoşagəlməz hadisələrdən qoruyacaqdılar.

Cahangirin sürücüsü qara rəngli «Mersedes»in yanında gözləyirdi. Nəzakət Fatimə ilə öpüşüb maşına əyləşdi. Uşaqları da onun yanına keçdilər. Cahangir bir qədər dayanıb Xanəlinin çıxmasını gözlədi. Fikirli halda blokun qapısından çıxan qardaşının qoluna girib onu kənara çəkdi:

- Belə şeyləri sən məndən də yaxşı bilirsən, ancaq səbirli ol! Səbirsizlikdən heç vaxt xeyir gəlməz.

- Mən daha xeyir haqqında düşünmürəm! - Xanəli qaşqabaqlı dilləndi.

- Hər halda, nə eləsən yüz ölç, bir biç!

Xanəli susub başını tərpətdi. Cahangir onunla



downloaded from KitabYurdu.org

görüşərək maşınına minib getdi. Həmidə artıq qızları ilə «Nissan»da oturmuşdu. Fətəli isə dayanıb atasını gözləyirdi. Xanəli əmrə müntəzir dayanmış cangüdənlərə getmək işarəsi verib sükanın arxasına keçdi. Fətəli də cəld onun yanında oturdu. «Nissan» hərəkətə gələn kimi Səlahəddinlə yoldaşları qara rəngli «Qaz-31»ə minib onun arxasınca düşdülər.

Fatimə baxışlarıyla onları yola salıb ətrafına boylandı. Solğun işıq düşən həyətin yarıqaranlığından üşürgələnib bloka girdi. Qaçaqaça yuxarı çıxıb mənzilə daxil olanda atasının hələ də stolun arxasında oturub dərin fikrə getdiyini gördü.

Qırx dördüncü fəsil

Ələmdar adətinin əksinə olaraq, səhəri gün işə çox tez gəldi. Kabinetinə girib, havanı təzələmək üçün pəncərəni açdı. Baratovun verdiyi fotoşəkilləri seyfdən götürüb stolun arxasına keçdi və bir daha onları nəzərdən keçirməyə başladı.

Məltəmin şəkli bu dəfə də diqqətini özünə çəkdi. Onun gözəl siması Ələmdarın yaman xoşuna gəlmişdi. Ağappaq bənizi, nazik, qara qaşları, həyalı, çəkingən dodaqları, gözəl quruluşa malik çənəsi, sanki yüz dəfə ölçülüb-biçilib yanağında yerləşdirilmiş kiçik qara xalları... Ən başlıcası isə, qadın gözəlliyinin tacı hesab edilən utancaqlıq... Bunların hamısı toplanmışdı bu qadında. Ələmdar onu, istər-istəməz, Cəhalə ilə müqayisə etdi. Sözsüz ki, Cəhalə də gözəl idi. Başqa cür gözəl. Amma nəsə ciddi bir fərq var idi bu qadınlarda... Hə, tapdı, deyəsən... Cəhalənin baxışları daha aydın, daha sadə idi. Onun gözlərinə baxan kimi bütün içini oxumaq olurdu. Bu qadının baxışlarında



downloaded from KitabYurdu.org

isə həya, çəkingənlik, hətta bir qədər kədər olsa da, bütün bunlar gizli istəklərdən xəbər verən incə qadınlıq duyğusu, qadın şıltaqlığı ilə qatışmışdı. Gizli və sirli bir hərarət duyulurdu bu baxışlarda...

Ancaq bu qadının burada nə işi ola bilərdi axı? Ələmdar inanmırdı ki, o bu süfrə ətrafında oturanlardan kiminsə arvadı olsun. Bu süfrə, lap yəqin, Kobranın qarşılanması üçün qurulmuşdu. Bəs onda bu nə gəzir burada? Ola bilər, o buradakılardan hansınınsa məşuqəsidir və onu həmin gün, sadəcə

olaraq, gözdən pərdə asmaq üçün çağırıblar buraya. Ələmdarın fikrincə, burada Kobra ilə hansısa bir nüfuzlu adamın görüşü təşkil edilib və bu gözəl qadını kafeyə gətirməkdə məqsəd ehtimal olunan şübhələri aradan qaldırmaq olub. Yəni uzaqbaşı, qoy fikirləşsinlər ki, həmin adam burada gözəl qadınla əylənirmiş... Amma hər kimdirsə, ağzının dadını bilirmiş köpək oğlu!..

Orxan qapını döyüb içəri girdi. Yaxınlaşıb salam verdi və Qanturalın fotosunu stolun üstünə qoydu.

Ələmdar şəklə baxıb:

- Sağ ol, Orxan! - dedi.

Orxan çiynini çəkdi.

- Boş şeydir. Gedə bilərəm?

Ələmdar bir an düşünüb:

- Tələt gəlib? - deyə soruşdu.
- Hə, gəlib, aşağıdadır. - Orxan cavab verdi.
- İlqardan xəbər yoxdu ki?

-Yox!

- Siz işinizdə olun!

Orxan çıxdı. Ələmdar stolun üstündəki şəkli əlinə



downloaded from KitabYurdu.org

götürüb ona diqqətlə baxmağa başladı. Nazik, uzun bığları sifətini bir az da zəhmli göstərən Qantural şəkildən sərt nəzərlərlə baxırdı. Görəsən, öz namusunu qorumaq üçün cinayət törətmiş bu adamın Kobra kimi terrorçu ilə, erməni kəşfiyyatının qaniçən əməkdaşı ilə nə əlaqəsi ola bilərdi? Nihat niyə Kobranın fotoşəklini bunun mənzilinə qoymalı idi? Bunu ifşa etmək üçünmü? Nəyini ifşa edəcəkdilər bunun? Sadə bir taksi sürücüsü idi Qantural... Nə isə... Çox qarışıq məsələyə oxşayırdı bu...
Cib telefonu zəng çaldı. İlqar idi.

- Ələmdar, haradasan? - deyə soruşdu.
- Klubda. - Ələmdar cavab verdi. - Bəs sən?
- Mən evdəyəm.
- Onda işə zəng vur!

Cib telefonunu qapadı. Stolun üstündəki şəhər telefonu səslənəndə dəstəyi götürdü:

- Hə, eşidirəm, İlqar!

İlqarın səsində qələbə əhval-ruhiyyəsi duyulurdu:

- O taksinin sürücüsü tapılıb. İndi mənim yanımdadır. And-aman eləyir ki, maşınında pul-zad qalmayıb.

- Maşının nömrəsi neçədir? - Ələmdar soruşdu. İlqar nömrəni dedi. Ələmdar stolun üstünə
qoyduğu siyahıya baxdı. Həmin nömrə siyahıda var
idi.

- Ağ rəngli taksidir? - deyə sual verdi.

-Hə!

- Ondan soruş ki, aprelin 23-də, günortaya yaxın maşınını harada saxlamışdı?

İlqar həmin sualı yanındakı sürücüyə verdi və onun cavabını Ələmdara çatdırdı. Ancaq Ələmdar, onsuz da



downloaded from KitabYurdu.org

sürücünün səsini eşidirdi:

- Deyir, o gün bazar günü idi. Qızına elçilər gəlibmiş. Maşın da evinin qabağında olub bütün günü.

- Soruş görək, haradadır onun evi?

- Deyir, «Çəməndağ» kafesinin arxa tərəfində. Ələmdar alt dodağını bərk-bərk dişlədi.

«Deməli, tapıldı kafe!..»

- İlqar, - dedi. - Sən o kişidən üzr istə, burax getsin. Özün də tez kluba gəl!

- Baş üstə, qədeş!

- Tez gəl, gözləyirəm!

Ələmdar dəstəyi yerinə qoyub Tələti yanına çağırdı. Bir dəqiqə sonra içəri daxil olan qarayanız sambo ustasının salamını alıb göstəriş verdi:

- Tələt, düş maşınının nömrələrini çıxart, yerinə Orxanınkını vur. Özünüz də həyətdə məni gözləyin, gedəsi yerimiz var.

- Oldu, qədeş!

Tələt heç soruşmadı da bu nömrə dəyişmək nəyə lazımdır. Adəti üzrə sağ əlini gözünün üstünə aparıb, aşağı saldı və kabinetdən çıxdı. Həyətə düşüb, Orxanla birlikdə göstərişi yerinə yetirdilər.

Azacıq sonra Ələmdar da fotoşəkilləri cibinə qoyub kabinetin qapısını bağladı və aşağı düşdü.

On dəqiqə keçmiş, İlqar da gəlib çıxdı. Ələmdarın göstərişi ilə vaxt itirmədən Tələtin qara rəngli «Mersedes»inə mindilər. Sürücünün yanında Orxan oturdu. Arxada İlqarla yanaşı oturan Ələmdar üzünü Tələtə tutub:

- Sür «Çəməndağ» kafesinə! - dedi.



downloaded from KitabYurdu.org

Qırx beşinci fəsil

«Mersedes» sürəti azaldaraq «Çəməndağ» kafesinin qabağından ötdü və dövrə vuraraq arxadakı küçəyə girdi. Ətrafa göz qoyan Ələmdar az gediş-gəlişli küçənin o biri tərəfindəki hasarla fotoşəkildəki görüntünün uyğun gəldiyini görüb yanılmadıqlarını başa düşdü. Maşını kafenin arxa qapısının ağzında saxlatdırıb, Tələtə maşında gözləməyi tapşırdı. Özü isə o birilərlə birlikdə geriyə qayıdıb əsas qapıdan kafeyə girdi. Hələ saat 11-ə işləyirdi. Ona görə də kafedə, demək olar, adam yox idi. Təkcə bir stolda iki-üç nəfər oturmuşdu. Ələmdar onları qarşılayan ofisianta:

- Biz arxa həyətdə oturmaq istəyirik! - dedi.

Ofisiant tanımadığı adamlara baxıb tərəddüdlə dilləndi:

- Ora xüsusi müştərilər üçündür...

- Elə biz də xüsusi müştəriyik! - Ələmdar bunu deyib, xəlvət həyətə açılan qapıya tərəf getdi.

Ofisiant özünü itirib İlqarla Orxana baxdı:

- Oraya Mehdi xidmət edir, - dedi və yoldaşını səslədi:

- Mehdi!

Mehdi adlandırılan iyirmi yaşlarında gənc yüyürüb gəldi və İlqargilin arxasınca həyətə keçdi.

Ələmdar uzun stolun yanında dayanıb kiçik həyətə göz gəzdirirdi. Divardakı rəsm, söyüd ağacı fotoşəklin məhz burada çəkildiyini sübut edirdi. Həyətin səliqə-sahmanı, qapıları yanaşı olan iki görüş otağı, sakitlik və xəlvətilik buranın doğrudan
da xüsusi müştərilərə xidmət etdiyini göstərirdi. Ələmdar ofisiantı başdan-ayağa diqqətlə süzüb:

- Bura sən baxırsan? - deyə soruşdu.



downloaded from KitabYurdu.org

- Bəli. - Mehdi hörmətlə cavab verdi.
- Həmişə?
- Bəli.
- Hələlik yüngül qəlyanaltı gətir bizə!

- Baş üstə! - Mehdi stolun üstünü tələsik silib getdi. Stolun arxasında oturdular.

- Bura nəyə görə gəldik, qədeş, xeyirdir? - Orxan soruşdu.

- Hə. - Ələmdar dedi. - Siz narahat olmayın, mən bir nəfəri axtarıram.

Ondan daha heç nə soruşmadılar. Ələmdarın xüsusi əhəmiyyətli gizli agent olduğunu ağıllarına
belə gətirmirdilər. Ancaq onun hər hansı göstərişi onlar üçün, onsuz da qanun idi. Mehdi podnosda pendir, göyərti, mer-meyvə gətirib süfrəyə düzdü. Stəkanlara mineral su süzüb getmək istəyəndə, Ələmdar onu saxladı:

- Dayan görüm, səndən bəzi şeylər soruşacam.

Mehdi dayanıb təəccüblə onlara baxdı:

- Buyurun!..

- Aprelin 23-də, yəni bazar günü, gündüz təxminən saat 12-yə kimi bu stolun arxasında oturanlar yadındadır?

- Nə bilim... - Mehdi duruxdu. - O qədər adam gəlir ki, buraya...

- Yalan danışırsan! - Ələmdar sakit səslə dilləndi. - Burada az adam olur. Çünki xüsusi müştərilər üçündür bura.

- Doğrusu, yadıma gəlmir. - Mehdi başını yellədi.

Ələmdar içəridən cəftəsi vurulmuş arxa qapını ona göstərdi:

- Çıx küçəyə bax, qayıt bura!


downloaded from KitabYurdu.org

Heç nə başa düşməyən ofisiant qapıya doğru gedib cəftəni çəkdi. Qapını açan kimi qarşısında dayanmış maşını görüb diksindi. Sükanın arxasında oturmuş oğlan ona çox diqqətlə baxırdı. Qapını örtüb, yenidən cəftəni çəkdi və şübhəli müştərilərinin yanına qayıtdı. Onun hərəkətlərini istehza ilə izləyən Ələmdar əvvəlki təmkinlə dilləndi:

- İndi biz səninlə birlikdə o maşına oturub aradan çıxsaq, heç kəs bilməyəcək ki, sən hara getdin və kiminlə getdin... Hə, nə oldu, yaddaşın yerinə gəldi?

Mehdi, deyəsən, əməlli-başlı qorxmuşdu:

- Vallah, mənə tapşırdılar ki, onların kimliyini heç kəsə deməyim. Qorxuram...

İrigövdəli İlqar birdən ayağa qalxıb onun qolundan yapışdı və Ələmdara baxaraq:

- Qədeş, icazə ver, bu uşağa bir dərs verim! - dedi.

Ələmdar əlini yellədi:

- Otur görüm! İşin olmasın bununla. Görürsən ki, Mehdi pis oğlana oxşamır. Nə görübsə, hamısını danışacaq, - üzünü ofisianta tutdu. - Bu kafe kimindir?

- Miraslanovun oğlunun. Mirkəlamın...

- Lap yaxşı! İndi de görək, o gün kimlər idi buraya gələnlər? - Ələmdar həmin gün bu stolun arxasında çəkilmiş fotoşəkli oğlana göstərdi. - Lazımdırsa, yadına sala bilərəm.

Mehdi şəklə baxıb, başını aşağı dikdi. O öz vəziyyətinin çıxılmaz olduğunu anlayırdı. Düşünürdü ki, bu naməlum adamlar onu, doğrudan da, arxa qapıdan çıxarıb apara bilərlər və belə olarsa iş yoldaşları da bundan xəbər tutmaz. Üstəlik, arxa qapının açıldığı küçə çox sakit və adamsız



downloaded from KitabYurdu.org

olduğu üçün heç kəs görməyəcəkdi onun qaçırılmasını. Nəhayət, danışmaq qərarına gəlib ölgün səslə:

- Rəhmətlik Nihatın qonaqları idi... - dedi.
- Nihatı tanıyırdın? - Ələmdar soruşdu.
- Hə, Mirkəlamın bacısının qaynı idi o.

- Yaxşı, danış görüm, həmin gün kimlər olub burada?

- Əvvəl, səhər Nihat özü gəldi. - Mehdi danışmağa başladı. - Dedi ki, buranı hazırlayım, qonaqları olacaq. Sonra, tələsik getdi və bir də saat 11-ə qalmış bir qara rəngli «Volqa» ilə gəldi. Onunla gələn bir rus qadını və maşının sürücüsü də bura keçdilər.

- Sürücü bu idimi? - Ələmdar Qanturalın şəklini ofisianta göstərdi.

- Bəli, bu idi, - şəklə diqqətlə baxan Mehdi cavab verdi.

- Bəs o qadın bu idimi? - Kobranın qadın görkəmindəki şəklini göstərdi.

-Bəli...

- Onlar hansı qapıdan gəldilər?
- Bu qapıdan, - Mehdi əlini arxa qapıya uzatdı.
- Bəs sonra nə oldu?

- Mən onlar üçün qəlyanaltı gətirdim. Nihat kiminləsə telefonla danışırdı. Bir azdan o özü qalxıb bu qapını açdı və qara rəngli «Toyota»da gəlmiş qonaqlarını qarşılayıb içəri gətirdi.

- Kim idi onlar? - Ələmdar ofisiantın sözünü kəsdi.

-Tanımadım.

- Mehdi, - Ələmdar barmağını onun üstünə silkələdi, - düzünü de!

- Atamın canı üçün, onları birinci dəfə idi görürdüm. Biri hündürboy, enlikürək kişi idi. Saçlarının çox hissəsi


downloaded from KitabYurdu.org

ağarmışdı. O biri isə ondan cavan olardı. Gözünə qara eynək taxmışdı. Nihat o yaşlı kişiyə daha çox hörmət göstərirdi.

- Nədən danışırdılar onlar?

- Bilmirəm. - Mehdi başını yellədi. - Daha çox rus dilində danışırdılar. Bir də ki, mən onların yanında olmurdum. Buraya sifarişləri olandan-olana gəlirdim.

- Bəs sonra? - Ələmdar Məltəmin şəklini göstərdi. - Bu qadın nə vaxt gəldi?

- Məni çağırıb dedilər ki, kafenin qarşısına çıxım, bir qadın gələcək, onu qarşılayıb yanlarına gətirim. Mən də küçəyə çıxıb bir az gözlədim. Həmin bu qadın taksi ilə gəldi...

- Nömrəsi yadındadırım o taksinin?

- Xeyr.

- Necə maşın idi?

- Ağ rəngli, köhnə «Qaz-24» idi. Üstünə taksi nişanı qoyulmuşdu. Qabaq sağ tərəfi vurulduğu üçün başdansovdu təmir edilib qırmızı rənglə rənglənmişdi. Motorunda da taqqıltı var idi maşının.

- Bura bax, - Ələmdar ofisianta şübhəli nəzərlərlə baxdı. - Nə yaxşı yadında saxlamısan o maşını? Yoxsa sürücünü tanıyırsan?

- Yox. - Mehdi gülümsədi. - Doğrusu, o qadın elə gözəl idi ki, onu gətirən maşın heç yaraşmırdı ona. Buna görə belə yadımda qalıb.

- Bəs sürücü necə adam idi?

- Qoca kişi idi. - Mehdi cavab verdi. - Altmışdan çox olardı yaşı.

- Qadın ona pul verdimi?



downloaded from KitabYurdu.org

- Bəli, bir manat verdi.
- Bir manat? - Ələmdar təəccübləndi.
- Bəli. Gözümlə gördüm.
- Bəs, sürücü nə dedi buna?
- Dedi ki, sağ ol, cibinə bərəkət!

Ələmdar qarşısındakı stəkanı götürüb onun üçün süzülmüş sudan bir neçə qurtum içdi. Nəsə fikirləşirdi. Nə İlqar, nə də öz səbirsizliyi ilə tanınmış Orxan dinib-danışmır, sorğu-sualın nəticəsini gözləyirdilər. Onlara elə gəlirdi ki, burada məhəbbət məsələsi var və şefləri maraqlandığı qadının burada kimlərlə görüşdüyünü öyrənmək istəyir.

- Daha nə deyə bilərsən? - sudan daha bir qurtum içən Ələmdar başını qaldırıb Mehdiyə baxdı.

- Nə deyim? - Ofisiant başını qaşıdı. - Hə, bir dəfə mən buraya girəndə Nihatla taksi sürücüsündən başqa heç kəsi görmədim. Bildim ki, həmin iki kişi ilə qadınlar bu otaqlara giriblər, - başı ilə görüş otaqlarını göstərdi.

- Otaqlara girmişdilər? - Ələmdar səsini qaldırdı. - Kim kiminlə?

- Orasını bilmədim. - Mehdi cavab verdi. - Mən daha nə lazım olduğunu soruşub çıxdım. Sonra məni bir də gedəndə çağırdılar.

- Necə getdilər? - Ələmdar soruşdu. Bu onun üçün çox maraqlı idi.

- Əvvəl o gözəl qadın getdi. Kafenin içinə girib əsas qapıdan çıxdı. Necə getdi, görmədim. Sonra hamısı arxa qapıdan çıxdı. Nihatla sürücü qonaqları yola salıb geri qayıtdılar. Nihat süfrənin haqq- hesabını ödədi və sonra da onlar çıxıb getdilər...


downloaded from KitabYurdu.org

Ələmdar suallarını dayandırıb bir qədər fikrə getdi. Sonra birdən nə düşündüsə, qəfil soruşdu:

- Onlar stolun arxasında necə oturmuşdular?

Mehdi heç düşünmədən cavab verdi:

- Başda, sizin oturduğunuz bu yerdə həmin yaşlı kişi oturmuşdu. Sağında onunla gələn o biri kişi, sonra o qarasaçlı qadın... Sol tərəfində birinci rus qadın, sonra taksi sürücüsü, daha sonra Nihat...

- Yaxşı fikirləş! - Ələmdar onun sözünü ağzında qoydu. - Rus qadından sonra, yəni onun solunda Nihat əyləşmişdi, yoxsa sürücü?

- Sürücü! - Mehdi inamla dedi.

- Yəni sən öz yaddaşına bu qədər arxayınsan? - Ələmdar kinayə ilə soruşdu.

- Bilirsiniz... - ofisiant tərəddüdlə dilləndi. - Bir şey adama az da olsa qeyri-adi görünəndə yaxşı yadda qalır. Rəhmətlik Nihat bizim hamımızın hörmət etdiyimiz bir adam idi. O günkü qonaqlar da onun qonaqları idi. Necə deyim?.. Nihatın sadəlik göstərib taksi sürücüsündən aşağıda oturması
diqqətimi cəlb etdi. Yəni bəlkə də burada qəribə bir şey yoxdu... Amma bu yadımda dəqiq qalıb. Rus qadının solunda sürücü oturmuşdu, onun da solunda Nihat.

«Belə çıxır ki, fotoşəkilləri Nihat çəkməyib - deyə Ələmdar fikirləşdi. - Əgər bu oğlanın dedikləri düzdürsə, o çəkə bilməzdi bu şəkilləri. Onları Kobranın solunda oturan adam, yəni Qantural çəkib. Qəribədir... Bəs bu nə deməkdir? Lənət şeytana! Şəkillərdə, polisin məlumatına görə, Nihatın əl izləri tapılıb. Bəlkə bunlar əlbir imiş? Ola bilər, şəkli Qantural çəkib, amma onu kompüterdə çap


downloaded from KitabYurdu.org

edən Nihat olub. Çap edib şəkilləri Qanturala verib... Ya da, mənzilinə qoyub... Yox, hər halda, çox dolaşıq işə oxşayır bu iş!»

Mehdi ayaq üstə dayanıb növbəti sualı gözləyirdi. Ancaq deyəsən, daha Ələmdarın sualı yox idi. Getmək lazım idi daha! Getmək və vaxt itirmədən o qarasaçlı gözəl qadını axtarmaq lazım idi. Getməmişdən qabaq onu maraqlandıran daha bir suala cavab almaq istədi:

- Həmin gözəl qadın özünü necə aparırdı? Buradan çıxıb gedəndə üzünü gördünmü onun?

- Özünü çox sakit, mədəni aparırdı. - Mehdi cavab verdi. - Gedəndə çox pərt idi, nədənsə. Elə bil üzünü hamıdan gizlətmək istəyirdi. Mən belə başa düşdüm ki, birinci dəfədir belə yerə gəlir...

- Heç adını çəkən olmadı onun, yaxud o iki kişinin?

- Xeyr. - Mehdi başını buladı. - Eşitmədim.

Ələmdar ayağa qalxdı:

- Sağ ol, Mehdi, daha başqa sualım yoxdur sənə!

İlqarla Orxan da yerlərindən durdular. Mehdi birdən-birə yazıq görkəm aldı:

- Xahiş edirəm, mənim adım olmasın...

- Sən nədən qorxursan ki? - Ələmdar ofisianta sınayıcı nəzərlərlə baxdı.

- Nihat çıxanda dedi ki, bizim bura gəldiyimizi heç kəsə demə. Yoxsa səni öldürərlər. Heç müdirimizə də deməmişəm bunu...

Ələmdar başı ilə yoldaşlarına çıxmaq işarəsi verdi. İlqarla Orxan arxa qapıdan küçəyə çıxdılar. Süfrədəki qəlyanaltı yeyilməmiş qalmışdı. Ələmdar süfrənin pulunu artıqlamasilə ödəyib astadan dilləndi:



downloaded from KitabYurdu.org

- Burada gördüklərini və bizim buraya gəlməyimizi heç kəsə demə! Heç polisə də! Yoxsa səni doğrudan da öldürərlər. Bir də yaxşı olar ki, heç olmasa, bir həftəliyə aradan çıxasan. Bunu sənin xeyrini istədiyim üçün deyirəm.

Mehdi aciz vəziyyətdə çiyinlərini çəkdi...

Ələmdar da arxa qapıdan çıxıb cəld maşına mindi. İlqarla Orxan artıq öz yerlərində oturmuşdular. Maşını işə salmış Tələt:

- Haraya gedəcəyik? - deyə soruşdu.

- Kluba sür! - Ələmdar ciddi səslə dilləndi. - Özü də cəld ol!

Kluba çatan kimi dördü də maşından düşüb içəri keçdilər. Qəti addımlarla ikinci mərtəbəyə qalxan Ələmdar yoldaşlarına arxasınca gəlməyi tapşırıb kabinetə girdi. Öz yerində əyləşib, qarşısında
dayanmış İlqara, Tələtə, Orxana ötəri nəzər salaraq fikrə getdi.

Qantural barədə düşünürdü. Düşünürdü ki, o bu fotoşəkilləri nəyə görə çəkib, görəsən? Bir də, onun Kobra ilə nə əlaqəsi ola bilərdi? Ya bəlkə də heç bir tanışlığı yox idi onun bu qəddar təxribatçı ilə? Şübhəsiz ki, Kobra Bakıda ofisiantın haqqında danışdığı həmin çalbaş kişinin qonağıdır. Qantural, sadəcə olaraq, həmin kişinin əlaltısı ola bilər. Nihat kimi... Bəs bu fotoşəkillər? Bəs şəkillərdəki əl izləri? Polis indi hər yerdə Qanturalı axtarır. O öz arvadını və Nihatı qətlə yetirərək qaçıb. Onları yataqda görübmüş... Təsadüfə bax! Gör, işlər bir-birinə necə qarışıb... Gəl, indi baş çıxart bu işlərdən!

Ələmdarın baş vermiş qanlı cinayət barədə məlumatı az


downloaded from KitabYurdu.org

idi. Bu hadisə artıq onu
maraqlandırmağa başlasa da, bu barədə polisdən heç nə öyrənə bilməzdi. Çünki onun əslində kim olduğunu Baratovla Cavadovdan başqa heç kəs bilmirdi. Baratova isə hər şeydən ötrü müraciət etmək istəmirdi. Təkbaşına işləməyi daha çox xoşlayırdı.

Bir də ki, ona Qantural yox, Valeri Barsov lazım idi. Kobra! Kobranı axtarırdı o və bu qaniçən əclaf öz ayağı ilə Bakıya gəlmişdisə, onu, nəyin bahasına olursa olsun, tapmalıydı. Bunun üçün də, Ələmdarın fikrincə, Kobranın Bakıda kimin qonağı olduğu müəyyənləşdirilməli idi. Yəni «Çəməndağ» kafesində aprelin 23-də həmin süfrənin başında oturmuş çalbaş kişi tanınmalıydı. Ələmdar mütləq öyrənəcəkdi o kişinin kim olduğunu. Mütləq! Hətta bunu hansı yolla edəcəyini də düşünmüşdü.

Stolunun siyirməsindən Məltəmin kompüterdən ayrılıqda çıxarılmış üç şəklini götürüb stolun üstünə atdı. Üzünü məşqçilərə tutub:

- Siz bu qadını hökmən tapmalısınız! - dedi.

İlqargil yaxınlaşıb hərəsi bir şəkil götürdü. Hər
üçünün üzündə təəccüb ifadəsi oxunurdu. Nəsə demək istəyirdilər ki, Ələmdar onları qabaqladı:

- Bunun üçün də, birinci növbədə, bu qadını indicə olduğumuz kafeyə aparmış həmin taksini tapmalısınız!

- Bu boyda şəhərdə nömrəsini bilmədiyimiz maşını necə tapa bilərik axı? - İlqar heyrətlə çiynini çəkib soruşdu.

Ələmdar gülümsədi:

- Bu boyda şəhərdə?.. Yox... O qədər də böyük olmayan ərazidə axtaracaqsınız onu. Bir də ki, gör
nə qədər əlaməti var onun: Ağ rəngli «Qaz-24»... Sürücüsü


downloaded from KitabYurdu.org

qoca kişi... Maşın köhnə və xarab... Motoru yaxşı işləmir. Adətən belə taksinin sürücüsü küçələrdə gəzib, müştəri axtarmır. Belələrinin bir dayanacağı olur ki, orada dayanıb müştəri gözləyirlər. Müştərini deyilən yerə aparandan sonra, qayıdıb yenə öz yerlərində dayanırlar.

- Lap belə də olsa çətindir bu, - İlqar dedi. - Şəhər böyükdür!..

- Qulaq as görüm! - Ələmdar onun sözünü kəsdi. - Siz ki, eşitdiniz, qadın sürücüyə bircə manat pul verib, o da bundan narazı qalmayıb. Əksinə, deyib ki, «sağ ol, cibinə bərəkət». Deməli, onun gəldiyi yol bir manatlıq, hətta daha da qısa yol imiş. Bu o deməkdir ki, siz o taksini tapa bilərsiniz!

Tələt başını tərpətdi:

- Amma Ələmdar qədeş, belə də ola bilər ki, qadın o maşını hərəkətdə olarkən, küçədə saxlatdırıb. Lap tutaq ki, həmin kafedən bir manatlıq məsafədə. Amma ola bilsin, taksinin dayanacağı uzaqda imiş. Harasa apardığı müştərini düşürüb, geri qayıdırmış, həmin vaxt.

- Başın işləməyinə işləyir, amma yarımçıq! - Ələmdar kinayə ilə dedi. - Yaxşı bilirsən ki, indi şəhərdə taksi çoxdur. Qadın küçəyə çıxanda çalışardı ki, özünə layiq bir taksi saxlasın. Daha həmin köhnə, ala-bəzək «Volqa»nı yox! Mən şəxsən inanıram ki, taksinin dayandığı yer qadının evinə yaxındır. Həm də mənim fikrimcə, bu qadının evi, gur küçələrdən uzaqdır. Yəni köhnə məhəllələrin birindədir.

Bunu deyib ayağa qalxdı. Seyfdən böyük bir kağız çıxarıb, stolun üstünə sərdi. Bu, Bakı şəhərinin planı idi.

- Qədeş, sən təsadüfən “Keqebe”-də işləmirsən? -



downloaded from KitabYurdu.org

Yaşda buradakıların hamısından kiçik, dili isə hamınınkından uzun olan Orxan soruşdu.

- Əvvəla, indi «Keqebe» yoxdur, «emteen» var. Ələmdar ona sərt nəzərlə baxıb dedi. - Sonrası da orada işləsəydim, sənin kimi boşboğaz avaranın köməyindən istifadə etməzdim.

- Düzdür, ağlabatan fikirdir! - Orxan müticəsinə boynunu bükdü.

Onların hər üçü yenə də belə hesab edirdilər ki, burada məhəbbət məsələsi var. Amma hər nə olur olsun, çox sevdikləri şeflərinin yolunda ölümə belə
getməyə hazır idilər. Ələmdar stolun üstündən bir qələm götürüb, planın üstündə gəzdirdi:

- Baxın, «Çəməndağ» kafesi buralardadır. İndi gəlin, bir manatlıq taksi yolu olan ərazini götürüb üç yerə bölək... İlqar, sən bu hissədə axtarış aparacaqsan. Tələt, sən burada, Orxan, sən də burada. Deməli, İlqar, səninlə Orxana köhnə məhəllələr düşür. Uşaqlardan həreniz özünüzə iki-üç nəfər köməkçi götürün. Yaxşı olar ki, bu ərazilərdə yaşayan olsunlar. Başlayın həmin taksini axtarmağa. Yadınızda saxlayın, ola bilsin, siz bu taksinin dayanacağına rast gələsiniz, amma həmin vaxt harasa müştəri aparmış olsun həmin «Volqa». Ona görə də, mütləq soruşun. Deyin ki, belə bir taksi olmalıydı burada...

- Taksini tapsaq, nə deyək sürücüyə? - İlqar soruşdu.

- Deyin ki, bizə aprelin 23-də «Çəməndağ» kafesinə apardığın qadın lazımdır. Bunun üçün nə uydurursunuzsa, özünüz bilərsiniz. Ancaq elə edin ki, sizdən şübhələnməsin və cavab versin. Şəkli hər ehtimala qarşı verdim sizə. Çalışın bu qadının harada yaşadığını öyrənin. Sürücü


downloaded from KitabYurdu.org

sizinlə danışmaq istəməsə, mənə zəng vurun. Ümumiyyətlə, maşını tapan kimi bildirin mənə!

İlqar, Tələt və Orxan şəkli ciblərinə qoyub qapıya doğru yönəldilər.

- Sizə uzağı axşamacan vaxt verirəm! - Ələmdar onların arxasınca dedi.

- Çalışarıq! - Bunu İlqar dedi və gənc məşqçilərin hər üçü kabinetdən çıxdı.

Qırx altıncı fəsil

Məktəbin direktoru öz kabinetində müavinləri ilə qarşıdan gələn buraxılış imtahanlarını necə keçirəcəklərini müzakirə edirdi. Birdən qapı açıldı və məktəbin gözətçisi hövlnak halda özünü içəri saldı:

- Məmməd müəllim, 5-B ilə 7-A-nın oğlanları həyətdə dalaşırlar!

Direktor hirsləndi:

- Necə yəni dalaşırlar, ə?! Niyə buraxmısan onları həyətə?

- Saxlaya bilmədim...

Məmməd müəllim müavinlərinin üzünə baxıb yenə gözətçiyə tərəf döndü:

- Bəs bunların müəllimləri, sinif rəhbərləri harada itib-batıblar? Bu da birinci növbə deyil ki, deyim böyük uşaqlardı, qorxurlar aralarına girməyə! Gedib ayırsınlar də!

Birinci növbədə yuxarı sinif şagirdləri təhsil alırdılar. Günortaya qədər direktorun da, müavinlərin də ən çətin saatları hesab olunurdu. İkinci növbə isə nisbətən sakit keçirdi. Beşincidən səkkizinciyə qədər siniflər düşürdü ikinci növbəyə.


downloaded from KitabYurdu.org

- Əsmər müəllimə getdi. Ancaq inanmıram ayıra bilsin, - gözətçi dedi və direktorun ona təəccüblə baxdığını görüb əlavə etdi: - Fətəligildi...

Hə, bu başqa məsələ!.. Davanı salan Fətəlidirsə, çətin olacaqdı. Direktor dönüb müavini Arzu müəlliməyə baxdı. Arzu müəllimə cəld qalxıb kabinetdən çıxdı.

Məmməd müəllim müzakirəni təxirə salıb, kabineti boşaltdı. Elə bu zaman katibənin otağında səs-küy qopdu. Arzu müəllimə, Əsmər müəllimə, Fətəli və Ələkbərin 7-A-da oxuyan oğlu Vahid kabinetə girdilər.

Fətəlinin sir-sifəti qan içində idi. Elə Vahidin də... Ancaq o, həm də sol qolunu tutmuşdu. Yaralı idi, deyəsən. Üstəlik, Əsmər müəllimənin də sağ əli qanamışdı. Direktor Arzu müəllimənin əlindəki kiçik, avtomatik açılan bıçağı görəndə məsələnin nə yerdə olduğunu başa düşdü.

- Deyin, bunu çıxarsınlar həkimin yanına! - deyə Vahidi göstərdi.

Qəbul otağına yığışmış müəllimlərdən biri Vahidin qolundan tutub məktəbin tibb məntəqəsinə apardı.

- Qardaşınızın oğludur o? - direktor Əsmərdən soruşdu.

- Bəli, Məmməd müəllim, - həyəcanlanmış müəllimə cavab verdi. - Fətəli onun anasına söyüb, o da bunu vurub. Sonra Fətəli sinfin oğlanlarını başına yığıb, onların sinfini davaya çağırıb...

- Beşinci sinif yeddinci sinfi? - direktor heyrətləndi.

- Bəli... Ayırmaq istəyəndə bıçaq mənim də əlimi kəsdi. Əlimdən çıxıb Vahidin üstünə şığıdı və bıçağı uşağın qoluna soxdu. Arzu müəllimə olmasaydı öldürəcəkdi Vahidi.

- Qardaşı oğlunun tərəfini saxlayır! - Fətəli hikkəli



downloaded from KitabYurdu.org

səslə dilləndi.

Məmməd müəllim Fətəlinin qırpılmadan ona zillənmiş iri, qara gözlərinə baxdı. Nə edəcəyini kəsdirə bilmirdi. Bunların qan düşmənçiliyindən xəbəri var idi və elə ona görə də hansı addımı atacağını ölçüb-biçirdi. Axır ki, dilləndi:

- Fətəli, daha mənim sənə sözüm yoxdur. Polisə verəcəm səni! - Arzu müəlliməyə baxdı. - Anasına zəng vurun, gəlib dəlisinə yiyə dursun! Qəribə işlər olur, vallah, özü başqa məktəbdə işləyir, dəli-cinləmə oğlunu salıb bizim boğazımıza. Çağırın gəlsin, ərizəsini yazıb, rədd eləsin burdan! Polisə isə mütləq deməliyəm. Qudurublar köpəkuşağı! Havalar istiləşəndən qızıb düşüblər bir-birlərinin canına. Bilmirik təhsillə məşğul olaq, yoxsa gündə bir dava yatırdaq. - Fətəlini hiddətlə süzüb qışqırdı: - Ə, niyə vurmusan onu? Neyləmişdi sənə?

Fətəli cavab vermədi. Eləcə, gözlərini qırpmadan direktora zilləyib durmuşdu.

- Səninlə deyiləm?!

- Onun əmisi mənim əmilərimi öldürüb, - Fətəli astadan dilləndi.

- Ə, onun nə günahı var bunda?

- Əmimin nə günahı var idi?!

- Ə, sən kimsən belə işlərə qarışırsan? - direktor telefonun dəstəyini götürdü. - Yox, sən cinayət eləmisən, adam bıçaqlamısan. Mütləq polisə xəbər verməliyəm. Qoy səni aparsınlar uşaq koloniyasına. Orada ağlın başına gələr!

Əsmər müəllimə bir addım qabağa yeridi:

- Məmməd müəllim, xahiş edirəm, zəng vurmayın!


downloaded from KitabYurdu.org

- Necə?! - direktor ona təəccüblə baxdı. - Bu boyda işi gizlətmək olar?

- Çox xahiş edirəm! - Əsmər müəllimə yalvardı. - Uşaqdılar, heç nə başa düşmürlər bunlar.

Direktor dəstəyi yerinə qoyub qabağında dayanmış bu uşağı bir də başdan-ayağa süzdü. Yaşına qətiyyən yaraşmayan bir cəsarət var idi bu uşaqda.

- Fətəli, - deyə hirsini boğub təmkinlə dilləndi. - Yəqin ki, Əsmər müəllimə öyrədib sizə. Kimdi bizim düşmənimiz?

- Ermənilər! - Fətəli düşünmədən cavab verdi.

- Niyə?

- Torpaqlarımızı işğal ediblər.

- Daha niyə?

- Çoxlu adamlarımızı vəhşiliklə öldürüblər. Analarımızı, bacılarımızı əsir ediblər...

- Bəs siz burada niyə bir-birinizi qırırsınız, bala?

Fətəli bir anlıq duruxdu. Sonra nəsə demək istəyirdi ki, direktor ona imkan vermədi:

- Sən böyüyəndən sonra torpaqlarımız uğrunda müharibə olsa, gedəcəksən döyüşə?

- Niyə getmirəm?! - Fətəli ürəkdən gələn təəccüblə soruşdu.

- Vahid də gedəcək. Bəlkə də eyni səngərdə vuruşacaqsınız. Yanaşı... Bəs niyə indi bir-birinizin qanını içirsiniz?

- Onun əmisi...

- Onun əmisi cinayətkardır! - Məmməd müəllim uşağın sözünü ağzında qoydu. -Tutub həbs edəcəklər. Etdiyi cinayətlərin cəzasını çəkəcək. Sən utanmırsan, hələ Əsmər



downloaded from KitabYurdu.org

müəllimøyə də bıçaq çəkirsən? Axı o sənin müəllimindir?! Axı o sizin gələcəyiniz üçün çalışır, sizi öz balası kimi istəyir!
Görürsən, mən səni polisə vermək istəyirəm, o imkan vermir, səndən ötrü yalvarır.

Fətəli dinmirdi...

Direktor ona kabinetdən çıxmağı əmr edib, Arzu müəlliməyə tapşırdı:

- Aparın, ağzını-burnunu bufetdə yuyun. Anası gələn kimi gətirin mənim yanıma. Bu iki uşaq eyni məktəbdə qala bilməz!

Arzu müəllimə:

- Baş üstə! - deyib otaqdan çıxdı.

Direktor qarşısında durmuş Əsmər müəllimənin dərdli sifətinə, kədər dolu gözlərinə nəzər salıb başını yellədi:

- Bu nə işdir, Əsmər müəllimə? Necə olacaq bu düşmənçiliyin axırı?

Tutulub durmuş qadın dayana bilməyib ağladı:

- Bilmirəm... Bilmirəm, necə olacaq...
- Bəs qardaşınızdan bir xəbər bilmirsiniz?

- Yox... - Əsmər başını silkələdi. - Heç nə bilmirik.

- Yaxşı, gedin, sizin də əlinizə spirtdən-filandan sürtsünlər. Görək, neynirik...

Əsmər müəllimə yaylığı ilə gözlərini qurulayıb, kabineti tərk etdi.

Bir azdan qəbul otağında yenidən səs-küy qalxdığını eşidən direktor cəld ayağa qalxıb kabinetdən çıxdı. Vahidin anası gəlmişdi. Deyəsən, uşağın yoldaşlarından kimsə zəng vurmuşdu evə. Qadın gücü gəldikcə çığırırdı:

- Bura məktəbdi, ya dəlixanadı? Yiyəsi yoxdu buranın?


downloaded from KitabYurdu.org

Bu saat bütün nazirliyi tökəcəm bura!
Televiziyanı tökəcəm bura! Mənim uşağımı bıçaqlayıblar? Tez olun verin mənim balamı!
Yaxşı ki, bu vaxt qolu sarınmış Vahid özü gəldi:
- Ay ana, - dedi - vallah, heç nə olmayıb.
Kamilə oğlunun qolundan tutub sarğıya baxdı:

- Necə yəni heç nə olmayıb? Daha bundan artıq nə olacaq? Haradadı o quldurun balası? Haradadı o canavardan əmələ gələn? Onu öz əlimlə didib-parçalamasam, sakit olmaram!

- Ay xanım, ay bacım, bir sakit olun görüm! - Məmməd müəllim qadını sakitləşdirməyə çalışdı.

Lakin nə onun, nə də qəbul otağına yığılmış qadın müəllimlərin səyləri bir nəticə vermədi. Əsmər ki, heç yaxına gələ bilmirdi Kamiləyə.

- Hanı o Fətəli?! - Qadın qiyyə çəkdi.

Birdən heç kəsin gözləmədiyi halda, öz adını eşitmiş uşaq qapıya yığılanların arasından keçib içəri girdi və Kamilənin qarşısında durdu:

- Mənəm Fətəli!

Hirsindən partlamaq dərəcəsinə gələn qadın, az qaldı ki, dəli olsun:

- Adə, it oğlu it, mənim oğluma bıçaq çəkirsən?!

- İt oğlu sənin oğlundur! - Fətəli qarşısındakı qadının əsəb gərginliyini son həddə çatdıran bir sakitliklə dedi. - Əmisinə deyin, üzə çıxsın. Yoxsa öldürəcəm oğlunu!

Kamilə onu vurmaq üçün əlini qaldıranda, direktor cəld tərpənib Fətəlini kabinetə dartdı, qapını çöldən bağlayıb, qadını sakitləşdirməyə çalışdı:

- Ay xanım, çıxın gedin, onun cəzasını özümüz


downloaded from KitabYurdu.org

verəcəyik!

Kamilə əllərini Məmməd müəllimin üstünə oynatdı:

- Siz bacarsaydınız, əvvəldən tərbiyə verərdiniz ona! Bu saat bütün polisi bura tökəcəm.

Direktor, artıq bu qadını necə yola gətirməyin yolunu bilmirdi. Nə yaxşı ki, əri gəlib çıxdı. Ona Kamilə özü zəng vurubmuş buraya gələndə. Ələkbər içəri girən kimi arvadı səsini kəsdi. Məsələnin nə yerdə olduğunu öyrənən Ələkbər heç nə demədən arvadı ilə oğlunu götürüb otaqdan çıxdı. Ancaq birdən nə düşündüsə, geriyə qayıdıb direktora dedi:

- Polisə-filana demək lazım deyil!

Onlar gedəndən sonra direktor öz otağına girib Fətəlini əməlli-başlı cəzalandırmaq qərarına gəldi. Həmidə müəllimədən ötrü qonşu məktəbə zəng vurmuşdularsa da, o, gəlib çıxmamışdı.

Əsmər müəllimə yenə kabinetə girdi:

- Xahiş edirəm, Məmməd müəllim, onu bu dəfə də cəzalandırmayın.

Direktor ona təəccüblə baxıb, nəsə demək istədi. Ancaq nədənsə, fikrindən daşınıb Fətəlini otaqdan çıxartdı və yalnız bundan sonra təmkinlə dilləndi:

- Bu gün biz bunu cəzalandırmasaq, sabah qardaşınız oğlunu öldürə də bilər!

- Yox, Məmməd müəllim, - Əsmər dedi. - qardaşımla danışacam, Vahidi başqa məktəbə keçirtsin.

- Əsmər müəllimə, bəlkə sizi də o sinfin rəhbərliyindən azad edim? Həm sinif rəhbərliyindən, həm də tarix dərsindən. Başqa bir sinif verərəm əvəzində.

Müəllimə bir az duruxub, başını yellədi:


downloaded from KitabYurdu.org

- Yox, Məmməd müəllim, öyrəşmişəm o sinfə! Elə Fətəliyə də...

Direktor yaxşı bilirdi ki, Əsmər müəllimə öz sinfinə təmənnasız-filansız can yandırır. Bilirdi ki, uşaqlar da xətrini çox istəyir onun. Ancaq bu Fətəli...

- Yaxşı, nə deyirəm, - nəhayət, könülsüz dilləndi. - qalsın səndə o sinif! Ancaq bu qan düşmənçiliyi pis şeydi. Çox pis!

Qırx yeddinci fəsil

Axşamüstü idi. Orxan özünün karate qrupundan götürdüyü üç şagirdi ilə ona tapşırılmış ərazinin çox hissəsini gəzib qurtarmışdı. Onlar bir yerdə gəzmirdilər. Cavanların hərəsini bir tərəfə göndərmiş, özünə isə daha böyük hissəni götürmüşdü.

Küçələri piyada ayaqlamaqdan yorulmuşdu artıq. Köhnə məhəllələrin birindən keçəndə, diqqətini kiçik meydançada dayanmış bir «Jiquli» avtomobili cəlb etdi. Avtomobilin üstünə taksi nişanı qoyulmuşdu. Maşının sürücüsü səkiyə qoyulmuş taxta oturacağın üstündə əyləşib yanındakı qoca ilə söhbət edirdi. Bu qoca satmaq üçün elə səkidəcə
qarşısına bir yığın dəmir-dümür töküb, müştəri gözləyirdi.

Orxan cəld onlara yaxınlaşdı:

- Salaməleyküm! Burada bir ağ «Qaz-24» dayanırdı. Taksi...

O bu gün həmin sözləri çox yerdə demişdi. Ancaq heç birində ürəyincə olan bir cavab almamışdı. İndi isə başqa cür oldu:

- Əliqulu kişini deyirsən? - gənc sürücü soruşdu.

- Qoca kişidir. Adını bilmirəm.



downloaded from KitabYurdu.org

- Hə, odur! - taksi sürücüsü inamla dedi. - Harasa müştəri apardı, bu saat gələr. Vacib işin varsa, mən qulluğunda hazır!

- Yox, mənə o lazımdır.

Orxan bunu deyib kənara çəkildi və adını eşidib, üzünü görmədiyi Əliqulu kişini gözləməyə başladı. Maşını tapdığı üçün yaman sevinirdi. Amma hələ Ələmdara xəbər vermək istəmirdi. «Bəlkə heç o deyil? - deyə düşünürdü. - O qədər ağ Volqa var ki, şəhərdə...»

Az keçmiş, üstündə taksi nişanı olan köhnə bir «Qaz-24» gəlib «Jiquli»nin yanında dayandı.

Maşının sağ tərəfində zövqsüz çəkilmiş qırmızı rəngi görən Orxan axtardığını tapdığına qəti əmin oldu. Maşından saçları tamamilə ağarmış bir kişi düşüb taxta oturacağa yaxınlaşdı. Sürücü yoldaşı həmin anda Orxanı ona göstərib dedi:

- Əliqulu dayı, bu oğlan səni istəyir.

Əliqulu kişi çevrilib tanımadığı gəncə baxdı:

- Nə lazımdır, ay oğul?
- Maşın lazımdır. - Orxan cavab verdi.

- Maşın lazımdı, gedək! - kişi qayıdıb təzədən maşına mindi. Orxan da keçib onun yanında oturdu.

Tini təzəcə burulmuşdular ki, maşını saxlatdırdı:

- Əliqulu dayı, dayan bir görüm, - mehriban səslə dedi. - Mən heç yana getmirəm.

Sürücü heyrətləndi:

- Bəs nə istəyirsən?

Orxan cibindən Məltəmin şəklini çıxartdı:

- Mənə bu qız lazımdır. Sən bunu üç həftə əvvəl kafeyə gətirmişdin. «Çəməndağ» kafesinə... O gündən


downloaded from KitabYurdu.org

vurulmuşam buna.

Əliqulu kişi qəribə müştərini şübhəli nəzərlərlə süzdü:

- Sən kimsən, ay bala? Haradan bilirsən mən bu qadını kafeyə aparmışam?

Orxan başını bulayıb gülümsədi:

- Dayday, yaddaşın xarab olub a, deyəsən. Bəs sən maşını kafenin qapısında saxlayanda bu qızı mən qarşılamadım? Orada işləyirəm də?!.. Ofisiantam.

- Əvvəla, qız yox, arvad! - Əliqulu kişi hirsləndi. - Sonrası da, sən heç o ofisianta oxşamırsan!

Orxan yenə gülümsədi:

- Ay Əliqulu dayı, sənin də yəqin gözün qalıbmış o qadında, mənə fikir verməmisən. O maşından düşəndə, gözümün qarşısında sənə bir dənə təzə manat verdi. Düzdür? Sən də dedin ki, sağ ol, cibinə bərəkət! Elə olmadı?

- Yaxşı, inandım ofisiant olmağına, - sürücü bir az sakitləşdi. - İndi nə istəyirsən məndən?

Orxan cibindən iki manat pul çıxartdı:

- Bax, dayday, elə hesab elə ki, məni harasa aparmısan. Necə olmasa, vaxtını alıram. O qadının evini mənə göstər. Qurban olum sənə, ölürəm ondan ötrü!

- Sənin ağlın çaşıb, vallah! - kişi başını yellədi.

- Nə olar, cavan olmamısan? - Orxan dil tökməyə başladı.

- Pulunu qoy cibinə, ayıbdır! - sürücü onun əlini itələdi.

- Göstər də evini, nə olar? - pulu yenidən cibinə qoyan Orxan yazıqlaşıb boynunu burdu.

Əliqulu kişi ona bir də şübhəli nəzər saldı:

- Hələ bir de görüm, bu şəkil səndə hardandı? Məni



downloaded from KitabYurdu.org

necə tapdın?
Orxanın cavabı əvvəldən hazır idi:

- Şəklini özüm çəkmişəm. Gizlin... Sonra hələ bir az söhbət elədim onunla. Soruşanda, dedi buralarda yaşayır. Dəqiq ünvanını soruşmağa utandım... Səhərdən bu məhəllələrdə veyl-veyl gəzirəm ki, bəlkə onu görə bilim. Göstər də, evini!

- Ay oğul, mən də bilmirəm axı?! - sürücü başa düşdü ki, bu oğlan ondan yapışıbsa, cavab almayınca qopmayacaq. - Burdan iki küçə yuxarıda olur, mən biləni. Elə bura yaxın... Hərdən yanımızdan keçib mağazaya gedəndə görürəm.

- Deməli, evini tanımırsan? - Orxan əl çəkmədi.

- Yox, Allah haqqı. - Əliqulu kişi əlini qabağa uzatdı. - Onu bilirəm ki, oralarda olur.

- Sağ ol, dayday! - Orxan maşından düşdü. - Allah sənin canını sağ eləsin!

- Sən də sağ ol! - Kişi maşını döndərib geri qayıtdı.

Orxan, əvvəlcə, onunla axtarış aparmağa çıxmış şagirdlərinə zəng vurub, evə qayıtmalarını tapşırdı. Sonra isə Ələmdarla danışıb, maşını tapdığını bildirdi. Ələmdar dərhal göstəriş verdi ki, axtarışı davam etdirib, qadının yaşadığı dəqiq ünvanı öyrənsin.

Orxan sürücünün göstərdiyi istiqamətdə gedib birinci paralel küçəyə çıxdı. Bir uşağı çağırıb rayondan gəldiyini və bacısının evini axtardığını dedi. Şəkli göstərdi. Uşaq Məltəmi tanımadı. Sonra daha bir uşağa yaxınlaşdı. O da şəklə baxıb başını buladı. Orxan bir az kənarda toplaşmış kişilərin şübhələnə biləcəklərindən ehtiyat edib o biri küçəyə



downloaded from KitabYurdu.org

keçdi. Ətrafa boylanıb, evlərinin qarşısında topla oynayan bir oğlana yaxınlaşdı:

- Qaqaş, mən rayondan gəlmişəm, bacımın evini axtarıram. Adı da Bəyimxanımdı. Tanımırsan
ki?

Oğlan çiynini çəkdi:

-Yox!

Cibindən şəkli çıxarıb uşağa göstərdi:

- Bax, şəkli də var... Gör tanıyırsan?

- Bu Bəyimxanım deyil, Məltəm xaladır! - oğlan təəccüblə dedi. - Qızı mənimlə oxuyur. Balaca oğlu da ikinci sinifdə.

- Hə də! - Orxan sevindi. - Məltəmi deyirəm. Biz evdə ona Bəyimxanım deyirdik.

Oğlan:

- Gəl dalımca! - deyib topunu götürdü və lovğa yerişlə qabağa düşdü. Otuz altı nömrəli qapının qabağında dayanıb Orxana baxdı: - Gir bu həyətə, solda ən axırıncı qapı onlarındır!

Orxan uşağa təşəkkür edib, tərəddüd etmədən həyətə daxil oldu. Deyildiyi kimi, axıra qədər gedib, soldakı kiçik pilləkənə qalxdı və qapını döydü. Sonra yenə düşüb həyətdə dayandı. Həmin andaca qapı açıldı və Orxanın yalnız şəklini gördüyü Məltəm təəccüblə ona baxdı:

- Kimi istəyirsiniz, ay qardaş?

- Tələt lazımdır. - Orxan dedi.

-Tələt kimdir?

- Bəs o burada yaşamır?

-Yox!..

«Gözəlliyinə heç bir şübhə ola bilməz, - qadını müştəri



downloaded from KitabYurdu.org

gözü ilə süzən Orxan fikirləşdi. - Görəsən, Ələmdar qədeş niyə axtarır bunu?..»

- Axı mənə buranı nişan verdilər? - elə soruşdu ki, sanki Məltəm günahkar idi buranın nişan verilməyinə.

- Yox, ay qardaş, bu həyətdə elə adam yaşamır. - Məltəm qətiyyətlə dedi.

- Bağışlayın!.. - Orxan peşman vəziyyət alıb həyətdən çıxdı.

Artıq yarım saat sonra Məltəmin yaşadığı evin dəqiq ünvanı yazılmış vərəq Ələmdarın stolunun üstündə idi...

Qırx səkkizinci fəsil

Saleh gördüyü qarışıq yuxunun təsirindən hövlnak ayılıb dəli kimi ətrafına boylandı. Səhərin açılmasına az qalsa da kamera hələ qaranlıq idi və gözləri bu qaranlığa alışmadığı üçün əvvəlcə harada olduğunu kəsdirə bilmədi. Amma yorğanından gələn xoşagəlməz qoxu onu tez ayıltdı və harada olduğu yadına düşdü...

Yuxuda görmüşdü ki, öz evində, divanda Məltəmlə yanaşı oturub. Uşaqlarının da hərəsi bir dizinin üstündə... Birdən qapı açılır və Şərafət xanım əlində uzun tiyəli bir bıçaq içəri girir. O, necə dəhşətli sifət idi, ay Allah! Heç Şərafət xanıma oxşamırdı o,
əslində. Amma Saleh onu o saat tanıdı və bildi ki, Şərafət xanımdır.

Yuxuda necə həyəcanlanmışdısa, ayılandan sonra da sakitləşə bilmirdi. Ürəyinin döyüntüsünü özü də aydın eşidirdi. Şükür, min şükür ki, bu yuxu imiş... Saleh düşündü ki, ola bilsin, Məltəmgilin başında nəsə bir iş var. Amma tez özünə təskinlik verib onların bu saat şirin yuxuda olduğuna inanmağa çalışdı. İstədi Məltəmlə,


downloaded from KitabYurdu.org

uşaqlarla keçirdiyi xoşbəxt anlarını xatırlasın. Bəlkə bu yolla Şərafət xanımın yuxuda gördüyü o qorxunc simasını unuda bilərdi.

Amma bu alınmadı. Neçə gündən bəri onu üzüb əldən salan fikir yenidən qəlbinə hakim kəsildi. Bu yeni başlanacaq gün mayın 17-si idi. Yəni mayın 21- nə dörd gün qalırdı. Dördcə gün...

Dörd gündən sonra onun «məhkəməsi» qurulacaqdı... Bir məhkəmə Salehi azadlıqdan məhrum edib ömrünün on bir ilini bu həbsxanada keçirməyə məcbur etmişdi. Məhbus Rizvanın hakimliyi ilə keçiriləcək ikinci məhkəmə isə onun həmin illəri necə yaşayacağını müəyyənləşdirəcəkdi... Yalnız bundan sonra məlum olacaqdı ki, Saleh burada məhbus kimi yaşayacaq, yoxsa heyvan kimi... Hər halda, insan kimi yaşamaqdan söhbət belə gedə bilməzdi, çünki insan kimi yaşamaq üçün azad olmaq lazım idi.

Qonşu çarpayıda yatan İbad birdən-birə sayıqlamağa başladı:

- Öldürəcəm! Öldürəcəm! Al gəldi, itin doğduğu!

Sonra sakitləşdi. Çarpayısının tərpənməyindən hiss olundu ki, o da ayılıb.

Arvadını öldürüb düşmüşdü buraya İbad. Saleh fikirləşdi ki, indi bu dəqiqə o, harada olduğunu dərk edəndən sonra peşmançılıq hissləri keçirir. O sözləri dediyinə görə də, arvadını öldürdüyünə görə də!

Yenə öz dərdinə qapıldı. Əli hər yerdən üzülmüşdü artıq onun. Heç nəyə ümidi qalmamışdı daha. Bir dustaq Salehə bildirmişdi ki, dünən azadlıqdan onun haqqında məlumat gəlib həbsxanaya. Bu məlumatın nədən ibarət


downloaded from KitabYurdu.org

olduğu bilinməsə də, həmin dustağın deməyinə görə, Salehin əleyhinə imiş öyrənilənlər. Artıq Saleh dustaqların rəhbərliyini aldatmış hesab olunurdu və bunu yəqin ki, ona bağışlamayacaqdılar.

Hələ Xudayara verməli olduğu pul! Haradan tapacaqdı o pulu? Əlbəttə, heç yandan! Heç daha pul barədə fikirləşmək də istəmirdi. Bezmişdi artıq
hər şeydən. Tüpürmək istəyirdi bu ədalətsiz dünyaya! Özündən də zəhləsi gedirdi elədiyi hərəkətə görə. O hərəkətə görə ki, həmin hərəkətinin ucbatından gəlib buraya düşmüşdü. Arvadını ərsiz, uşaqlarını atasız qoymuşdu on bir il. On bir ilmi?
Yox, əslində, həmişəlik! Saleh heç inanmırdı, inana bilmirdi ki, nə vaxtsa buradan sağ-salamat çıxa biləcək. Nədənsə, bu mümkün bir şey kimi görünmürdü ona.

Dünəndən özünü öldürmək barədə baş sındırırdı. Necə eləsin ki, ağrısız-əzabsız ölüb getsin bu mənasız dünyadan. Özünü asmağa, ya bıçaqla vurmağa əli gəlmirdi. İstəyirdi ki, çoxlu yuxu dərmanı qəbul etsin və yuxuya getsin ömürlük. Ancaq haradan tapacaqdı belə dərmanı o?..

Özünü öldürmək barədə düşünən Saleh bir şeydən xəbərsiz idi. Xəbəri yox idi ki, iki gün əvvəl Şərafət xanım həbsxanaya öz adamını göndərib və Xudayara Salehi öldürəcəyi təqdirdə istədiyi qədər pul təklif edib. Xudayar isə həmin adama mayın 20- də bir daha gəlməyi tapşıraraq, bu barədə Rizvanla məsləhətləşib. Xeyli götür-qoy edən Rizvan Salehin onu aldatması barədə bayırdan xəbər alan kimi verilən təkliflə razılaşıb və Şərafət xanımdan alacaqları məbləği müəyyənləşdiriblər.

Sonra, hətta Salehi necə öldürmək lazım gəldiyini də


downloaded from KitabYurdu.org

düşünmüşdülər. Bu zaman Xudayar belə təklif irəli sürmüşdü. Demişdi ki, Saleh neçə gündür çox həyəcan keçirir və bunu hamı görüb, başa düşür. Arıqlayıb çöpə dönüb. Meyitə oxşayır. Əgər o, intihar edərsə, buna heç kəs təəccüblənməz. Buna
görə də yatağında, ya tualetdə damarını ülgüclə kəsib, ülgücü əlinə vermək lazımdır.

Təklifi irəli sürən Xudayar işi də öz boynuna götürmüşdü. Onunla razılaşan Rizvan əlavə etmişdi ki, əvvəlcə mayın 21-də Salehin «məhkəməsi» qurulmalıdır. «İntihar» isə ondan iki gün sonra olsa yaxşıdır.

Bəli, Salehin bütün bunlardan xəbəri yox idi. Amma dərdi artıqlaması ilə bəs edirdi özünə. Öldürüləcəyini eşitsəydi, bəlkə də az fərq edərdi onun üçün... Onsuz da ölmək istəyirdi.

Həyatda inamını, ümidini tamamilə itirmiş adam, əslində, elə ölü kimi bir şeydir. Saleh də bu saat özünü canlı ölü hesab edirdi. Fərq bunda idi ki, Məltəmi, uşaqları xatırlaya bilirdi indi. Birdən ağlına gəldi ki, görəsən, öləndən sonra da xatırlayacağını
onları? Amma yox, bu ağlabatan şey deyildi. Sonra düşündü ki, bəs görəsən, Məltəmgil onu xatırlayacaqlarını o öləndən sonra? Birdən göz qapaqları gicişməyə başladı. Gözləri dolmuşdu, deyəsən. Yox, nə gözləri dolmaq, ağlayırdı əməlli- başlı... Ancaq bir ona çalışırdı ki, səsi çıxmasın. Səsi çıxsaydı eşidə bilərdilər. Yəqin ki, onun kimi diksinib yuxudan hövlnak ayılan az deyildi burada. Bura həbsxana idi...

Qırx doqquzuncu fəsil

Gündüz saat 10-da leytenant Etibar Nəsirovun “Jiquli”si



downloaded from KitabYurdu.org

“Çəməndağ” kafesinin qarşısında dayandı. Leytenantın yanında əyləşmiş Allahverdi Əbilov maşının içindən kafenin adını oxuyub:

- Demək, bizim axtardığımız kafe bu imiş... - dedi.

Maşından düşüb, kafeyə girdilər. Leytenant Nəsirov polis formasında, kapitan Əbilov isə adi mülki geyimdə idi. Əyninə mixəyi rəngli kostyum geyinmişdi. Kafenin müdiri Cəmil onları qarşılayıb, stollardan birinin arxasına dəvət etdi və ofisianta çay gətirməyi tapşırdı. Hələ ertə olduğu üçün kafedə, demək olar ki, başqa müştəri yox idi.

Bu kafe şəhərin başqa rayonunun ərazisində yerləşirdi. Əbilov iki gün əvvəl Nihatın yaxın adamlarına məxsus, yaxud onların işlədikləri kafelərin siyahısını tərtib edib tabeliyində olan polis işçilərinə vermiş və axtardığı yerin əsas əlamətlərini onlara başa salmışdı. Siyahıda Nihatın qardaşının qaynı olan Mirkəlamın da sahiblik etdiyi kafelərin adı var idi. Dünən axşamüstü polis əməkdaşlarından biri ona deyilən əlamətlərə həmin bu kafedə rast gəldiyini kapitana çatdırmışdı. Əbilov həmin vaxt başqa vacib işlə məşğul olduğu üçün buraya gəlməyi bu günə saxlamışdı.

Vəsiqəsini Cəmilə göstərib, çay içməzdən qabaq, kafenin arxada yerləşən həyətinə baxmaq istədiyini bildirdi. Cəmil etiraz etməyib onları dar dəhlizdən keçirərək həyətə apardı.

Qanturalın mənzilindən götürülmüş şəkillərin burada çəkilməsinə şübhə yeri qalmırdı. Əbilov əmin oldu ki, Nihat və onun ətrafındakılar aprelin 23-də burada olublar.

- Yadınıza sala bilərsinizmi, aprelin 23-də burada kimlər olublar? - deyə Cəmildən soruşdu.



downloaded from KitabYurdu.org

- Deyə bilmərəm. - Kafenin müdiri başını buladı. - Bura həmişə Mehdi baxır. Bizim ofisiant... Onun yadında qalar yəqin ki. Nəsə olub?

- Yox, sadəcə, biz həmin adamlarla maraqlanırıq. - Əbilov dedi və birdən soruşdu: - Bura Mirkəlamındır?

- Bəli. - Cəmil cavab verdi. - Amma özü çox az-az vaxtlarda gəlir bura. Bütün işləri mən aparıram.

- Yaxşı, heç cür yadına sala bilməzsən həmin gün kimlər olub burada? - Əbilov təkid etdi. - Həmin gün bazar günü olub.

Cəmil bir az düşünüb cavab verdi:

- Bazar günüdürsə, rəhmətlik Nihatın qonaqları olub həmin gün. Amma kimlər olub, bilmirəm. Mən mal dalınca getmişdim o gün.

- Nihat kimdir? - Əbilov qəsdən soruşdu.

- Mirkəlamın bacısının qaynı. İki həftə olar öldürüblər. - Cəmil cavab verdi və birdən nə düşündüsə əlavə etdi. - Ona görə maraqlanırsınız?

Əbilov onun sualını cavabsız buraxıb Mehdi ilə maraqlandı.

- Pis oğlan deyil. - Cəmil izahat verdi. - İki ildi bizdə işləyir. Xaçmazdan gəlib. Bir həyat yoldaşıdı,
bir də özü. Haradasa kirayədə yaşayırlar. Heç evlərinin yerini də bilmirəm.

- İndi buradadırsa, çağırın onunla söhbət etmək istəyirəm.

- Hələ gəlib çıxmayıb nədənsə. Keçək, siz çayınızı için, harada olsa, bu saat gələr.

Kafenin içinə girib, stolun arxasında oturdular. Çay içməyə təzəcə başlamışdılar ki, iki polis zabiti ilə bir cavan



downloaded from KitabYurdu.org

oğlan salona daxil oldular. Cəmil qalxıb onların qabağına getdi. Görüşməklərindən hiss olunurdu ki, mayor da, baş leytenant da buranın daimi müştərilərindəndir.

Cəmil onları da həmin stolun arxasına dəvət etdi. Baş leytenantla Etibar tanış çıxdılar.

- Bizim rayonda nə işiniz var sizin? - baş leytenant stol arxasındakıların hər ikisi ilə
görüşəndən sonra zarafatla soruşdu.

- Nədi, rayonunuzda çay da içmək olmaz? - Etibar güldü.

- Olar, niyə olmur? Amma doyunca yeyib- içəndən sonra, - baş leytenant bunu deyib ciddiləşdi. - Doğrudan, sizdən nə əcəb səhər tezdən?

- Heç! - Etibar cavab verdi. - Buradan keçirdik, bir stəkan çay içmək istədik.

Bunlar yaxındakı polis bölməsinin işçiləri imiş. Mayor bölmənin rəis müavini, baş leytenant da təhqiqatçısı. Mayor özləri ilə gətirdikləri oğlanı yaxına çağırdı:

- Orda niyə durmusan, gəl otur burda!

Bu kafenin ofisiantlarından biri olan Zülfi idi. Qarnının bir qədər qabağa çıxmasına baxmayaraq,
duruşundan və əzələli qollarından idmanla məşğul olduğu bilinirdi. Cəmil ona təəccüblə baxdı:

- Zülfi, nə olub? Niyə gec gəlmisən?

Zülfi stullardan birini çəkib müdirinin yanında əyləşdi. Suala onun əvəzinə mayor cavab verdi:

- Hələ şükür et ki, sağ-salamat gəlib. O biri ofisiantından xəbərin var? Mehdidən...

- Yox! - Cəmil açıq-aydın heyrətləndi. - Neyləyiblər axı?



downloaded from KitabYurdu.org

- Bunlar heç nə! - mayor dedi. - Bunlara neyləyiblər, qoy Zülfi özü danışsın.

Zülfi Cəmilin ondan cavab gözlədiyini görüb danışmağa başladı:

- Gecə Mehdi ilə burdan çıxıb evə gedirdik. Arxadakı küçədə tin var ha, həmişə qaranlıq olur, oradan keçəndə düz yanımızda bir maşın dayandı.
«Volsvagen» idi, deyəsən... Gözümüzü açmağa macal tapmamış içindən bir uzun boylu, maskalı adam düşüb Mehdidən yapışdı. Bilmədim, neylədisə, Mehdi çul kimi qucağına düşdü. Onu maşına qoyanda bu adamın qolundan yapışıb özümə tərəf dartmaq istədim. İlan kimi qıvrılıb əlimdən çıxdı. Geri dönüb məni necə vurdusa, daha ondan sonra heç nə yadıma gəlmir...

Əli ilə, sanki indicə zərbə alıbmış kimi, boynunu ovuşdurdu. Mayor mənalı baxışla Cəmilə baxıb, başını tərpətdi:

- Ayılandan sonra bizim bölməyə gəlib hadisə barədə məlumat verib... Səncə, nə məsələdir bu? Kim ola bilər onun düşməni?

Cəmil fikirli halda başını buladı:

- Mən bilən, onun düşməni-filanı yox idi...

Kapitan Əbilov çayından bir qurtum da içib ayağa qalxdı:

- Bizi bağışlayın, biz gedək, vacib işimiz var.

Nəsirov da ayağa qalxdı. Cəmil onları qapıya qədər ötürüb geri qayıtdı. Əbilov bir istədi, Cəmilə tapşırsın ki, buraya gəlməklərinin səbəbini bu polis işçilərinə deməsin. Amma tez də fikrindən vaz keçib, maşına oturdu.

Onun fikrincə, onsuz da, bu işləri birləşdirəcəkdilər.


downloaded from KitabYurdu.org

Onsuz da, bu iş böyüyəcəkdi. Qanturalın cinayət işi heç də tezliklə yekunlaşacaq işə bənzəmirdi. Başqa-başqa işlər qarışıb getdikcə mürəkkəbləşdirirdi bu işi...

Kim idi Mehdini aradan götürən adamlar? Əlbəttə, aprelin 23-də həmin bu kafedə Nihatla, o qarasaçlı gözəl qadınla, o sarışın rus qadınıyla və
bəlkə bir də Qanturalla eyni süfrə arxasında oturanlar... Onlar istəməmişdilər ki, bu ofisiant danışdırılsın. Niyə? Çünki onda o adamların kimliyi üzə çıxa bilərdi. Bu isə Allahverdi Əbilova çox lazım
idi.

Kim bilir, bəlkə də hər şey o rus qadının başındadır? Bəlkə bunlar bir cinayətkar qrupdurlar və Qanturalı da öz dəstələrinə cəlb ediblər? Ola bilərdi... Bəlkə doğrudan da dövlət əleyhinə bir iş görürlərmiş bunlar?

Necə oldusa, birdən-birə Xankəndidəki günləri yadına düşdü. Həmişə olduğu kimi, yenə də üşütməli bir həyəcan doldu bədəninə... Valeri Barsovu xatırladı. Yenə də həmin dəhşətli anlar gözləri önünə gəldi. Kobra bayrağı onun qarşısına atıb tapdamağı
əmr edir, Allahverdi isə onu yerdən götürüb sinəsinə basırdı. Sonra isə təpiklər, yumruqlar, işgəncələr...

- İdarəyə gedirik? - Etibarın səsi onu fikirdən ayırdı.

- Hə! - dedi. - Daha burada bizlik bir şey qalmadı. Gecikdik, özü də yaman gecikdik...

- Səncə, bu kimin işi ola bilər? Qanturalın?

- Yox! - Əbilov kəskin halda başını yellədi. - Məncə, hansısa təxribatçı bir qrupun əli var bu işdə...

Yenə həmin o həbs düşərgəsinə qayıtdı xəyalı. Kobra bir həftəyə yaxın ac saxladığı əsirlərin qabağına kartof



downloaded from KitabYurdu.org

qabığı tökürdü. Onlarda mələşə- mələşə cumurdular bu kirli kartof qabıqlarının üstünə... Sonra Kobra...

Kobra ilə on üç il əvvəl Xankəndidəki əsir düşərgəsində rastlaşmışdı. Ermənistanla müharibənin ən qanlı-qadalı vaxtları idi o vaxtlar. Ruslardan hərtərəfli yardım alan erməni dəstələri Azərbaycanın sərhəd rayonlarını dalbadal işğal edirdilər. Alınan rayonlarda hər cür ağlasığmaz vəhşiliklər törədilirdi. İnsanlar diri-diri yandırılır, başlar kəsilir, gözlər çıxarılırdı. Düşmənlərdə nə uşağa, nə qadına, nə də qocaya rəhm etmək duyğusu var idi...

Onda Allahverdinin iyirmi üç yaşı var idi. Bir çox həmvətənləri kimi torpağına, millətinə edilən bu qəsdə dözməyib, Bakıdan könüllü olaraq döyüşə getmişdi. Onda Azərbaycanda vahid mərkəzdən idarə olunan ordu təzə-təzə formalaşırdı. Könüllü yaradılmış və müstəqil fəaliyyət göstərən batalyonlar
hələ tamamilə orduya tabe edilməmişdi. Allahverdi də belə batalyonların birinin tərkibində, Nadir adlı gənc oğlanın komandirlik etdiyi dəstədə vuruşurdu.

Nadir, artıq özünün qeyri-adi cəsarətli hərəkətləri ilə bütün ətraf rayonlarda ad çıxartmışdı. Ölümdən-filandan qətiyyən qorxusu yox idi bu adamın. Təkcə Laçın rayonu alınandan sonra təkbaşına oraya girməsi, erməni qərargahlarının birinin üstünə taxılmış erməni bayrağını Azərbaycan bayrağı ilə əvəz etməsi düşmənə od qoymuşdu. Geriyə qayıdarkən öz adını qərargahın divarına iri hərflərlə yazması isə onlara açıq-aydın meydan oxumaq təsiri bağışlamışdı.

Cəbrayıl rayonu işğal olunarkən elə oldu ki, Nadirin kiçik dəstəsi tələyə düşdü. Altı nəfəri öldürüldü, dörd


downloaded from KitabYurdu.org

nəfəri isə güllələri qurtarandan sonra
əsir götürüldü. Bu dörd nəfərin içində Allahverdi də, Nadir özü də var idi...

Onları Xankəndidəki əsir düşərgəsinə apardılar. Cəbrayıl alınarkən qırğın dəstələrindən birinə başçılıq etmiş Valeri Barsov bu düşərgədə əməlli- başlı atamanlıq edirdi. Dördünü də qarşısında sıraya düzüb:

- Nadir Babayev hansınızsınız? - deyə Azərbaycan türkcəsində soruşdu.

Nə Nadir özü dilləndi, nə də yoldaşları onu tanıtmaq istədilər. Xilas olmağa az da olsa, ümidləri var idi. Düşünürdülər ki, ermənilərdən əsir düşən olarsa, onları dəyişdirə bilərlər. Amma onu da bilirdilər ki, Nadiri tanısalar, onu heç kimlə dəyişməyəcəklər. Yanıqlı idilər onun əlindən və yəqin ki, intiqamlarını almaq istəyəcəkdilər ondan.

- Mən dəqiq bilirəm ki, sizlərdən biriniz Nadir Babayevsiniz. Yaxşısı budur, o qabağa çıxıb özünü tanıtsın. Yoxsa dördünüzü də əzab verə-verə öldürəcəm. Elə əzab verəcəm ki, qəbirdə də rahat yata bilməyəcəksiniz ağrısından.

Sonra onlara cismani əzab verməyə başladı. Yenə heç biri dillənib Nadiri nişan vermək istəmədi. İgidliyinə görə, cəsarətinə görə çox istəyirdilər onun xətrini. Birdə ki, yoldaşlarını satmaqla, düşmənin qarşısında qorxaqlıqlarını göstərmək istəmirdilər. İşgəncələr isə getdikcə şiddətlənir, dözmək çətinləşirdi. Kobra hər dəfə “Hansınızsınız Nadir?” - deyə çığıranda Allahverdi oğrun nəzərlərlə komandirlərinə baxır, onun dodaqlarını bir-birinə sıxıb udqunduğunu görürdü. Başa düşürdü ki, əzab çəkir öz


downloaded from KitabYurdu.org

adını etiraf edə bilmədiyinə görə. Ancaq...

İnsanlıq qanunlarından kənar olan işgəncələrə dözmək bəzən doğrudan da mümkün olmur. Bunlara dözmək üçün gərək birinci növbədə sən özün də insanlığını itirəsən. Valeri Barsovun ehtiyat siyahısında isə hələ, deyəsən, çox belə işgəncələr var idi...

Bir azərbaycanlı körpə uşağın başını onların gözü qarşısında kəsdi. Sonra tonqalda bişirtdirib qarşılarına qoydu və şərt kəsdi ki, hər biriniz uşağın ətindən yeməsəniz, onun anasını da bu cür bişirtdirəcəyəm.

Daha buna dözə bilmədi Allahverdi. Onu daha dəhşətli işgəncələrin gözlədiyini bilsə də qabağa çıxıb nifrətlə Kobranın üzünə baxdı və:

- Mənə görə yoldaşlarımı incitmə, - dedi. - Nadir mənəm!

Yoldaşları ona qəribə nəzərlərlə baxırdılar. Elə Nadir özü də... Amma o birilərdən fərqli olaraq, Nadirin baxışlarında bir az xəcalətə, bir az da sanki minnətdarlığa bənzəyən bir məna oxunurdu...

O vaxtdan on üç il keçmişdi və həmin anları bəlkə on üç min dəfə xatırlamışdı Allahverdi. Amma hər dəfə bir şeyi anlaya bilmirdi ki, axı necə oldu, aralarında ən cəsarətli əsgər hesab olunan Nadir həmin anda qabağa çıxıb "Yalan deyir, Nadir o deyil, mənəm" demədi?

Bəlkə cəsarətin də, igidliyin də müxtəlif çalarları, müxtəlif məqamları var imiş? Bəlkə elə buna görə də azadlıqda olub, əlində silah tutarkən heç nəyin sonunu düşünmədən riskə gedən Nadir indi düşmən əlində olarkən, işgəncələrdən və ölümdən qorxmuşdu?.. Nə isə... Bu sualın cavabını axıra qədər tapa



downloaded from KitabYurdu.org

bilmədi Allahverdi.

Onda isə Kobra Allahverdiyə istehzalı bir nəzər salıb:

- Hə, bu başqa məsələ! - dedi. - İndi bildim ki, sən doğrudan da qəhrəmansan!

Öz ölümünü gözləyən Allahverdi bir-bir yoldaşlarının üzünə göz gəzdirdi. Fəxrlə, qürurla... Sevinirdi ki, onları ölümdən, əzabdan qurtardı. Daha bundan sonra ona neyləsəydilər fərqi yox idi, onun üçün.

Ancaq onun düşündüyü kimi olmadı. Elə o gün yoldaşlarının üçünü də gözünün qarşısında öldürdülər. Sonra yenə gözünün qarşısında cərrahiyyə stoluna uzadıb, daxili orqanlarını çıxararaq satmaq üçün qablaşdırdılar. Sən demə,
bütün bunlar ona veriləcək əzabların başlanğıcı imiş hələ...

Onu həyətə çıxarıb ikimərtəbəli bir evin böyründəki meydançada saxladılar. Azərbaycanın bayrağını yerə atıb tapdamağı əmr etdilər. Elə bil başına qaynar su tökdülər Allahverdinin! Elə bil ağır daş düşdü başına! Elə bil anasına, bacısına söydülər onun! Cəld əyilib bayrağı yerdən qaldırdı və onu qoynunda gizlətməyə çalışdı. Bunu görən Kobra qəzəblənib yanındakı əsgərlərə onu döyməyi əmr etdi. Bayrağı Allahverdinin əlindən qoparıb ala bilsələr də onu bu bayrağı tapdalamağa məcbur edə bilmədilər.

Bu işi hər gün bir neçə dəfə təkrar etməyə başladılar. Həmin yerdə, həmin ikimərtəbəli evin böyründə... Əzab verirdilər, döyürdülər, şişi qızdırıb
bədəninə dağ basırdılar, amma Allahverdi yenə də Kobranın dediyini eləmək istəmirdi.

Onu həmin meydançaya çıxarıb işgəncə verərkən



downloaded from KitabYurdu.org

ikimərtəbəli evin pəncərəsindən bir azərbaycanlı əsir qadın onlara baxırdı. Hətta bir dəfə dözməyib çığırmışdı da həmin qadın:

- Alçaqlar, vəhşilər, nə istəyirsiniz ondan? Öldürürsünüz, birdəfəlik öldürün! Sizi görüm, tikə- tikə doğranasınız! Sizi görüm, bağırsaqlarınıza dolanasınız! Sizi görüm qan qusasınız!

Kobra isə pəncərəyə tərəf rişxəndlə baxıb, sonra üzünü Allahverdiyə tutmuşdu:

- Yox, Nadir! Səni birdəfəlik öldürməyəcəm. Min dəfə öldürüb-dirildəcəm səni! Yaxşısı budur, tapdala bu parçanı!

Əgər Allahverdinin qarşısına adi bir parça atsaydılar, boş yerə inad göstərib, əzab verdirməzdi özünə. Kobranın dediyini eləyib canını qorumağa, ömrünü az da olsa uzatmağa çalışardı. Amma bu parçada üç rəngli zolaq var idi: göy, qırmızı, yaşıl. Qırmızı zolağın üzərində ağ rənglə aypara və səkkizguşəli ulduz rəsmi çəkilmişdi. Yox! Yox! Yox!

Bu parçanı ayaq altına atmaq olmazdı! Bu parça haqqında hətta bunu düşünmək də ayıb idi! Ona elə gəlirdi ki, yad kişilər anasının baş ləçəyini çıxarıb ayaq altına atıblar. Əyilib yenə də qamarlayırdı bayrağı. Vururdular, lap insafsızcasına, vəhşicəsinə vururdular, amma hamısına dözürdü. Sındıra bilmirdilər onu. Ancaq bir dəfə... Yadına düşəndə indi də qəzəbindən beyni partlamaq dərəcəsinə gəlirdi. Bir dəfə Kobra lap uşaq kimi ağlatdı onu... Görəndə

ki, dediyini bu tərs türk gəncinə elətdirə bilmir, özü çıxdı bayrağın üstünə... İrəli atılan Allahverdinin qollarını bərk-



downloaded from KitabYurdu.org

bərk tutmuşdular və onda ağlamaqdan başqa gücü heç nəyə çatmadı onun...

Kobra da daha bezmişdi və bildirdi ki, sabah onun bu dünyada yaşadığı axırıncı gün olacaq.

Bəlkə də kimlərəsə qəribə görünə bilər bu, amma Allahverdi onda sevindi bu xəbərə.

Səhəri gün Kobra və tanımadığı iki nəfər zabit gəlib onu həyətə çıxartdılar. Həyətdə üç dənə qara rəngli maşın dayanmışdı. Bunlardan biri hər tərəfi bağlı olan uzun maşın idi. Darvaza açılmış, divarboyu silahlı əsgərlər düzülmüşdü. Hamının sifətindən zəhrimar tökülürdü elə bil... Daha çox isə Kobranın. O, nəyə görəsə zabitlərin biri ilə mübahisə edirdi hətta.

Allahverdi elə başa düşdü ki, onu güllələməyə aparacaqlar. Amma niyə bəs belə dəbdəbə ilə?.. Orasını anlaya bilmədi. Onu maşınların birində otuzdurub yola düşdülər. Allahverdi bir də sərhəd postunda başa düşdü ki, onu general Karapetyanın əsir alınmış qızı ilə dəyişirlər. Onu və bir də ikimərtəbəli evin pəncərəsində gördüyü o gənc qadının meyitini...

Allahverdi indiyə qədər yaşadığı üçün özünü o gəncə borclu sayırdı. Onu xilas edən həmin gəncə. Onun əsl adını da öyrənə bilməmişdi indiyə qədər. Yəni doğrudanmı, Alik idi onun adı?!

Həmin gün Azərbaycan mövqelərinə yetişəndən sonra onları bir-birlərindən ayırdılar. Allahverdi bir daha üzünü görə bilmədi o gəncin... Səhəri gün onu polkovnik Baratovun yanına apardılar. Allahverdi əsirlikdə görüb-eşitdiklərinin hamısını polkovnikə danışdı. Onun polis sisteminə keçməsində də Baratovun köməyi



downloaded from KitabYurdu.org

oldu. Çoxdankı arzusu idi polis poqonu daşımaq, asayiş keşiyində durmaq.

Bir il sonra qəti qərara gəldi ki, onu əsirlikdən qurtarmış həmin oğlanı tapacaq. Çünki heç əməlli- başlı təşəkkürünü də bildirməmişdi ona. Birtəhər Baratovun qəbuluna düşə bildi və polkovnikdən xahiş etdi ki, onu Alik adlandırılan həmin oğlanla görüşdürsün. Amma polkovnik həmin oğlan barədə hər hansı məlumat verməkdən qəti imtina edib təkcə bunu bildirdi ki, onun xilaskarı indi Azərbaycandan kənardadır və hələ uzun müddət ölkəyə qayıtmayacaq.

Allahverdi o adamı tapmaqdan əlini üzsə də, bu günə qədər onu unutmamışdı. Evdə də onun
haqqında xeyli danışdığı üçün həm arvadı, həm də uşaqları "Alik" deyə qiyabi tanıdıqları o gənci həmişə məhəbbətlə xatırlayırdılar.

Düşündü ki, görəsən, indi bu saat haradadır o? Nə işlə məşğuldur? Ümumiyyətlə, sağdırmı?

Polis idarəsinə çatanda xəyallarından ayrılıb kədərli halda içəri girdi. Polkovnik Mirzəyevə verəcəyi xəbər heç də xoşagələn xəbər deyildi. Belə çıxırdı ki, hansısa cinayətkar qrup onların hərəkətlərini izləyirdi. Yoxsa necə ola bilərdi ki, dünən kafe tapılsın, elə o gecə də şahidlik edə biləcək ofisiant aradan götürülsün?..

## Əllinci fəsil

Həmin vaxt Bakının məhəllələrindən birində, dar küçənin kənarında dayanmış qəhvəyi rəngli «Hunday»ın arxa oturacağında hündür boylu, qarayanız bir gənc oturmuşdu. Sağ tərəfdən alnına tökülmüş qara saçları, təmiz qırxılmış ciddi sifəti, yaxası açıq köynəkdən görünən enli sinəsi, karateçilərə məxsus qıvraq və mütənasib bədəni, uzun


downloaded from KitabYurdu.org

qolları və onlara uyğun uzun, qüvvətli barmaqları bir-birləri ilə ahəng yaradaraq ona mükəmməl bir görkəm verirdi. Pələng baxışlarını xatırladan kəskin və nüfuzlu baxışlarını bir qədər qabaqda görünən 36 nömrəli həyətin qapısına zilləmiş bu gənc adı məxfi şöbənin sənədlərində Leopard kimi qeyd olunmuş mayor Ələmdar Məlikov idi.

O, buraya Orxanla gəlmişdi. Daha doğrusu, Orxan və onun nişanlısı Suna ilə. Maşın da Orxanınkı idi. İndi nişanlı cavanlar özlərini kirayə mənzil axtaran kimi göstərib, həyətdə Məltəmin qonşuları ilə söhbət edirdilər.

Uzun həyətin girəcəyində, sağdan birinci mənzildə yaşayan Bəturə arvadın, deyəsən, Sunadan yaman xoşu gəlmişdi. Əlindəki işləri bir kənara qoyub, onunla böyük həvəslə söhbət edirdi. Artıq həyətdə yaşayanların hamısı haqqında qısa məlumat verib qurtarmışdı.

- Baxın, o soldakı axırıncı qapının sahibini bu yaxınlarda tutdular. - dedi. - Öz müdirinin oğlunu öldürmüşdü. İndi arvadı iki uşağı ilə tək qalır.

- O hadisəni televiziyadan eşitmişəm. - Orxan yalandan dedi və cəld soruşdu: - Adı nə idi onun?

- Saleh. - Bəturə cavab verdi. - Sürücü idi. O bahalı maşınlardan sürürdü.

- Kimin sürücüsü idi o?

- Əlifağa var ha, bax onun.

- Yazıq gəlin! - Suna canıyananlıqla dilləndi. - İndi bir köməyi-arxası varmı onun? Qohumdan, qardaşdan.

- Yox, heç kəsi yoxdur, - qadın təəssüflə başını buladı. - Rayonlarını alanda erməni gözüçıxmışlar bütün əqrəbasını qırıblar. Elə əri tərəfdən də yaxın qohumu yoxdur Bakıda... Ancaq balam olsun, çox mehriban,


downloaded from KitabYurdu.org

şirindil, həyalı-abırlı gəlindir. Həm də çox gözəldir camyanmış! Görsən, qızlığınla vurularsan
ona! Uşaqları da yaxşı uşaqlardır. Tərbiyəli, üzüyola... İndi dərsdədirlər, yəqin.

- Heç olmasa, işləyib-eləyirmi?

-Yox, işləmir. Evdə olur həmişə...

Lazım olan hər şeyi öyrəndiklərini düşünən
Orxan nişanlısına qaş-göz elədi. Yəni qurtar söhbəti, gedək! Suna, o saat, nəsə demək istəyən qadını qabaqladı:

- Yaxşı, çox sağ ol, ay xala, daha biz gedək başqa yerdə mənzil axtaraq.

- Get, qurban olum sənə, get! - Bəturə onları şirin dillə yola saldı. - Heyif, burada imkan olmadı, yoxsa mən də çox istəyərdim ki, sizin kimi mərifətli qonşularım olsun.

- Sağ ol xala, bağışla səni də narahat etdik!

Orxan bunu deyib nişanlısı ilə həyətdən çıxdı. Arxayın addımlarla gedib maşına oturdular. Orxan öyrəndiklərini Ələmdara danışdı.

- Əlifağa Sadıxovun sürücüsü Saleh? - Ələmdar təəccübləndi.

- Hə! - Orxan təsdiq etdi. - Şefinin oğlunu öldürübmüş.

Ələmdar bir qədər fikrə getdi. Sonra yanındakı qara rəngli nazik qovluğu əlinə götürüb maşından düşdü.

- Siz qapıya göz qoyun, - dedi. - Həyətə şübhəli adam girsə, mənə xəbər verin.

- Baş üstə! - Orxan gümrah səslə dilləndi. Ələmdar həyətə girənədək baxışları ilə onu
arxadan izləyən Suna dönüb nişanlısına baxdı:

- Ələmdarın nəyinə lazımdır bu qadın?

- Bilmirəm. - Orxan çiynini çəkdi. - Yəqin ki, vurulub



downloaded from KitabYurdu.org

ona, çox gözəl qadındır.

- Pah! - Suna dodaqlarını büzdü. - Yoxsa sən də vurulmusan bu gözəl qadına?

- Mən demədim ki, səndən də gözəldir?

Orxan belə desə də, ürəyindən keçirtdi ki,
əslində, Məltəm, hərtərəfli götürəndə, Sunadan gözəldir. Ancaq onu da dəqiq bilirdi ki, Sunanı heç vaxt dəyişməz Məltəmə. Tək Məltəmə yox, ümumiyyətlə, heç kimə! Suna onun üçün doğmadan doğma, əzizdən əziz idi. Suna ilə adicə söhbətdən aldığı həzzi heç kimdən ala bilməzdi.

Nişanlısının sözündən razı qalmış qız bir an fikrə gedib, birdən dilləndi:

- Amma sən düz demirsən... Ələmdar vurulub- eləyənə oxşamır. Elə olsaydı, mən hiss edərdim.
Sözsüz ki, nəsə, başqa bir iş var burada...

- Nə iş ola bilər ki?

- Nə bilim?.. - Suna boynunu burdu. - Dost sənindi, sən bilərsən.

- O bizim böyüyümüzdür. - Orxan səmimiyyətlə dedi. - Ölümə də göndərsə, gedərəm. Qaldı ki buraya gəlməkdə məqsədi, özü bilər. Hər halda, pis işə baş qoşmaz Ələmdar qədeş!

Əlli birinci fəsil

Məltəm qapını açıb qarşısında dayanmış gənci görəndə bir anlığa özünü itirdi. Üst-başında hər şey qaydasında olsa da, xalatının düymələrinə əl gəzdirib, sonra saçlarını arxaya doğru sığalladı. Leopardın əsl kişi gözəlliyini əks etdirən boy-buxunu, yaraşıqlı, ciddi siması, təmiz, lakin bir az da vəhşi baxışları onu çaşdırmışdı.

- Sizə kim lazımdır? - deyə titrək və məlahətli səsilə



downloaded from KitabYurdu.org

soruşdu.

Ələmdarın da xoşu gəlmişdi qadından. Şəkildə gördüyü hələ heç nə imiş, sən demə... Məltəmin normal boy-buxunu, bu boy-buxuna uyğun gələn əti- əndamı oğlanı valeh etmişdi. Hər şey qədərində idi
bu qadında. Nə artıq bir şey vardı, nə əskik. Üzündəki xırda xalları da, elə bil yaradan yüz ölçüb, bir biçib düzmüşdü yanaqlarına. Ancaq Ələmdara daha çox xoş gələn şey Məltəmin simasındakı ürkəklik və ağlı başdan çıxara bilən həyalı işvəsi idi.

- Salehin tanışıyam, - dedi. - Sizinlə söhbətim var. İcazə verin, evə keçim.

- Salehin? - Məltəm ərinin adını eşidəndə özünü bir az da itirdi.

- Hə! - Ələmdar iti baxışlarını ondan çəkmədən başını tərpətdi.

- Buyurun!.. - ev sahibəsi kənara çəkilib onu içəri dəvət etdi.

Tanımadığı bu adamdan əri haqqında nəsə bir xəbər eşidəcəyini düşünüb həyəcanlanırdı. Həm də
qorxurdu ki, onun öz sirrindən xəbər tutmuş olsun Saleh.

İçəri keçib göstərilən stulda əyləşən Ələmdar otağa göz gəzdirdi. Hər şey sadəlikdən, təmizlikdən xəbər verirdi burada.

- Uşaqlar haradadır? - elə-belə, danışmaq xatirinə soruşdu.

- Məktəbə gediflər... - Məltəm cavab verdi. «Gediblər» yox ha, «gediflər»! Təkcə bu «f»
səsini bütün yad millətlərin qızlarına, qadınlarına dəyişməzdi Ələmdar. Canına yağ kimi yayıldı Məltəmin



downloaded from KitabYurdu.org

gözəl dodaqları arasından çıxan bu sözlər. Özü Bakıda doğulub, əslən Şamaxılı olsa da Azərbaycanın və hətta bütün türk soylarının ləhcələri ona doğma gəlirdi. Doğma, həm də şirindən şirin!

«Gediflər!..» Ələmdar özündən asılı olmayaraq gülümsədi.

Onun səmimiyyətdən xəbər verən təbəssümü Məltəmi bir qədər sakitləşdirdi və o hiss etdi ki, bir neçə dəqiqənin içində bu adama öyrəşməyə başlayır.

- Salehin yanından gəlirsiniz? - deyə soruşdu.

- Yox! - Ələmdar cavab verdi. - Həmin ölüm işi ilə əlaqədar məni də tutmuşdular. Bir gecə onunla polisdəki müvəqqəti saxlama kamerasında qaldım. Orada tanış olduq Salehlə. Mənim fikrimcə, pis adam deyil sizin əriniz... - bir an susub fikrə gedəndən sonra davam etdi. - Buraya gəlməkdə məqsədim başqadır. Mən bir nəfəri axtarıram... Həmin adam aprelin 23-də «Çəməndağ» kafesində olub...

- Aman Allah! - Məltəm əlləri ilə üzünü tutub inildədi.

- Sizə nə oldu, Məltəm xanım?

- Yalvarıram, ayaqlarınıza düşürəm! - qadın sözünə ara verib, ağlamamaq üçün üst dodağını bərk-bərk dişlədi. - Məndən əl çəkin, rüsvay eləməyin məni! Mənim heç bir günahım yoxdur, vallah! Məni yoldan çıxarıblar, məcbur eləyiblər. Mən heç kəsi tanımıram. Heç bir cinayət eləməmişəm! Oraya da bir qadın kimi getmişdim. Başqaları necə gedir, o cür...

- Sakit olun! - Ələmdar təmkinlə dilləndi. - Sizə deyən yoxdu ki, cinayət etmisiniz?! Ora qadın kimi getmisiz, hətta ərinizə xəyanət edirsiniz, bu sizin öz işinizdir!..



downloaded from KitabYurdu.org

Görürsünüz ki, mən sizinlə səmimi danışıram. Başqaları ilə belə rəftar etmirəm mən!
Sizdən kömək almaq və lazım gələrsə, sizə kömək etmək istəyirəm.

- Siz polisdənsiniz? - Məltəm bir qədər toxtayıb sual verdi.

- Yox! - Ələmdar başını buladı. - Dedim ki, mənim özümü də tutmuşdular o işin üstündə... Xahiş edirəm, mənə inanın və etibar edin. Həmin gün kafedə kimlərlə olmuşdunuz, onu öyrənmək istəyirəm sizdən.

Məltəm Ələmdara inanırdı əslində. Səbəbini bilməsə də, inanırdı. Amma öz gələcəyinə inanmırdı daha! Geriyə, əvvəlki vəziyyətinə qayıtmağa yol görmürdü. Düşünürdü ki, hər şey qurtarıb artıq. Düşünürdü ki, başqaları əri yanında ola-ola kiminləsə görüşür, oturub-durur, sirri çıxmır, ailəsi dağılmır, onun isə sirri lap tez aşkar oldu.
Pozğunluq, əxlaqsızlıq girdabına yuvarlandı birdəfəlik! İndi o, ancaq və ancaq qorxurdu. Özü üçün, uşaqları üçün, Saleh üçün qorxurdu. Hələ həbsxanadakılar da biləcəkdilər onun əməllərini və Salehin başına qaxınc olacaqdı bu.

Adını, kimliyini bilmədiyi bu gəncdən də qorxurdu Məltəm. O da əgər bu saat, elə buradaca ona sahib olmaq istəsəydi, yəqin ki, etiraz etməzdi. Təki onu tanış-biliş içində rüsvay eləməsin...
Canəlini xatırladı... O, buraya gəlib öz sözünü deyəndən sonra polisə aparılmaq qorxusu bir an da olsa Məltəmin ürəyindən çıxmamışdı.

- Bunu polisdən də gəlib soruşmuşdular, - dedi.
- Kim? - Ələmdar cəld soruşdu.

- Salehin işində məni polisdə danışdıran mayor. Adı da



downloaded from KitabYurdu.org

Canəlidir, deyəsən.
- Nə soruşdu sizdən?

- Şəklimi göstərib soruşdu ki, bunu harada, hansı kafedə çəkiblər?
- Şəkliniz ayrı idi, yoxsa süfrə arxasında?
-Ayrı...
- Siz ona hər şeyi danışdınız?
- Yox, heç nə demədim.
- Nə vaxt gəlmişdi buraya?
- Mayın 12-si... Cümə günü.

- Bəs niyə sizi polis idarəsinə aparmadı? - Ələmdar divanda onunla üzbəüz oturmuş Məltəmi şübhəli baxışlarla süzdü.

- Dedi ki, bazar günü gələcək... Mənə də fikirləşməyi tapşırdı.
- Gəldimi bazar günü?
- Yox, saat 11-də gəlməli idi, amma gəlmədi.

Ələmdar mayor Qismətovun həmin gün səhər öldürüldüyünü bilirdi. Odur ki, bu məsələ onu çox maraqlandırmışdı.
- O səndən nə istəyirdi? - deyə soruşdu.

Məltəm susub başını aşağı dikdi.

- Məndən utanmağın yeri deyil! - Ələmdar kinayə ilə dilləndi. - Nə istəyirdi o səndən? Niyə polisə aparmadı səni?

Məltəm başını qaldırmadan:

- Mənə onunla əlaqədə olmağı təklif edirdi. Mən razı olmadım. Dedi ki, bazar günü gələcək, onda da razı olmasam məni polisə aparacaq.

- Siz onun bazar günü buraya gələcəyini kiməsə


downloaded from KitabYurdu.org

demişdiniz?

Qadın duruxdu. Nə cavab verəcəyini fikirləşirdi sanki.

- Məltəm xanım?! - Ələmdar səsini qaldırdı.
- Demişdim... - Məltəm astadan dilləndi.
- Kimə?
- Həmin kafedə görüşdüyüm adama...
- Kimdi axı o?
- Deyə bilmərəm... Qorxuram!..
- Nədən qorxursunuz?
- Məni öldürərlər!

Ələmdar susub qadının qorxu ifadə edən simasına nəzər yetirdi. O anlayırdı ki, artıq Kobranın izinə düşmək üçün vacib və həlledici bir an yetişib. Məltəm elə bir adamı tanıyırdı ki, Kobra Bakıda həmin adamın qonağı idi və həmin adamın kimliyini bilməklə Kobranı ələ keçirmək xeyli asanlaşardı.

O adamın adını Məltəmdən öyrənməyin iki yolu var idi. Birinci yol bu qadını həbs etdirib Baratovun yanına aparmaq idi ki, belə edərdisə orada Məltəmdən hər şeyi öyrənə bilərdilər. Bu yol Ələmdarın xarakterinə uyğun deyildi. O, təkbaşına işləməyə öyrənmişdi və hər xırda şeydən ötrü məxfi şöbənin imkanlarından istifadə etmirdi. Həm də ki, Məltəmə pislik edib, onun adını dilə-dişə salmaq istəmirdi. Daxilindəki hansısa bir duyğu onu bu qadına hörmətlə yanaşmağa məcbur edirdi.

İkinci yol isə ondan ibarət idi ki, Ələmdar həmin kişinin adını Məltəmdən elə buradaca, bu saat öyrənsin. Necə olursa olsun!.. Əlbəttə, öz evinin içində qadına qarşı zorakılıq etmək fikrindən də uzaq idi.

Stulunu ev sahibəsinə yaxınlaşdırıb:



downloaded from KitabYurdu.org

- Qorxma, səni heç kəs öldürə bilməz! - dedi.

- Pislik eləmək istəsələr, kim müdafiə edəcək məni? - Məltəm kinayə ilə başını yellədi.

- Doğrudanmı, sizin Bakıda heç kəsiniz yoxdur? - Ələmdar mehribanlıqla soruşdu.

- Yox! - Məltəm kədərli səslə dilləndi. - Salehdən və o iki uşaqdan başqa heç kəsim yoxdur... Heç yerdə! Ermənilər rayonumuzu alanda ailəmizin hamısını qırıblar.

Ələmdar onun kədərinə şərik oldu:

- Allah rəhmət eləsin hamısına!

- Allah ölənlərinizə rəhmət eləsin! - Məltəm dedi. - Bacım Cəbrayıl rayonuna ərə getmişdi. Beş yaşında bir oğlu da var idi Cəbrayıl alınanda. Sonra eşitdim ki, ərini də, qohumlarını da öldürüb ermənilər. Mən Bakıda idim onda... Universitetdə oxuyurdum. Təkcə bacımdan, bir də beş yaşlı
oğlundan xəbər olmadı. Nə öldüləri bilindi, nə qaldıları.

Ələmdar sanki birdən-birə yuxudan ayıldı. Axı ilk dəfə bu qadının şəklinə baxanda Məltəm sanki tanış gəlmişdi ona?!

- Bacının adı nə idi? - deyə cəld soruşdu.

- Mahirə...

- Mahirə?! - Ələmdar ayağa qalxdı.

- Nədir ki? - Məltəm təəccübləndi. - Tanıyırdınız onu?

- Hə, tanıyırdım... - Ələmdar yenidən öz yerində oturub ah çəkdi. - Əsirlikdə rast gəlmişdim ona... On üç il bundan əvvəl... Oğlunu öldürmüşdülər onda. Özü də namusunu qorumaq üçün intihar elədi. Bıçaqla vurdu özünü, gözümün qabağında... Mən əsirlikdən xilas olanda



downloaded from KitabYurdu.org

onun
meyitini də alıb gətirdim, bizimkilərə verdim. Demişdim bacısı var Bakıda, universitetdə oxuyur. Yəqin səni axtarmağı lazım bilməyiblər. Özləri dəfn ediblər, haradasa... O vaxt mən buradan gedəsi oldum, yoxsa özüm axtarıb tapacaqdım səni...

Məltəmin gözlərindən axan yaş üz-gözünü tamamilə islatmışdı. Gözlərini Ələmdarın ağzına dikib, səsini çıxarmadan ağlayırdı. Çalışırdı ki, sevimli bacısını son kərə görmüş bu adamın bütün dediklərini eşidə bilsin. İstəyirdi ki, o yenə bacısı haqqında danışsın.

Amma Ələmdar birdən-birə ayağa qalxıb onun qarşısında dayandı və sağ əlinin geniş açılmış barmaqlarını Məltəmin gözləri qarşısında yelləyərək, qəzəblə dedi:

- Həm də bilirsən kimdən qoruyurdu o, namusunu? Bilirsən kim öldürmüşdü onun oğlunu? «Çəməndağ» kafesində üzbəüz əyləşdiyin o erməni! Qadın sifətinə girmiş o cəllad!

- O rus qadını? - Məltəm başını qaldırıb dəhşətlə Ələmdara baxdı.

- O qadın deyil! - Ələmdar yenə ayağa qalxıb, yaralı pələng kimi otaqda gəzişməyə başladı. - O, heç kişi də deyil! Şeytandır o, Şeytan! Düz on üç ildir, hər gün xatırlayıram onu. Yuxularımda vuruşub, bacının intiqamını alıram ondan! İndi Bakıya gəlib o! Buraya! Onu tapmaq üçün həmin gün kafedə kimlərin olduğunu mütləq bilməliyəm. Danış!
Süfrənin başında kim oturmuşdu o gün? Sənin yanındakı kim idi?

Məltəm yenə ağlayırdı...


downloaded from KitabYurdu.org

- Danış dedim sənə! - Ələmdar səsini qaldırdı. - Kim idi o süfrənin başındakı?!

Qadın başını qaldırıb Ələmdara baxdı. Göz yaşlarını əli ilə silib, astadan:

- Əlifağa... - dedi.

- Əlifağa Sadıxov? - Ələmdar heyrətləndi. - Sənin onunla nə işin vardı? Bu saat, nə bilirsənsə, danışmalısan mənə!

- Nəyi danışım?.. - Məltəm bu dəfə tam mütiliklə dilləndi.

- Hər şeyi! Onun oğlunun öldürüldüyü gündən bəri, hər şeyi!

Ələmdar bunu hökmlə deyib stulu yaxına çəkdi və ev sahibəsi ilə üz-üzə oturdu. Lakin elə həmin anda da qapının döyüldüyünü eşidib ayağa qalxdı. Ev sahibəsinə yerində qalmaq işarəsi verib qapıya
getdi. Pərdəni aralayıb baxanda məktəbdən qayıtmış uşaqların pilləkəndə dayandıqlarını görüb, qapını açdı və geriyə qayıdaraq stolun arxasında oturdu.

Uşaqlar otağa daxil olub, əvvəlcə təəccüblə yad qonağa, sonra isə analarına baxdılar. Deyəsən, analarının ağlamış olduğunu hiss etmişdilər.

- Niyə tez gəldiniz? - Məltəm yaylığı ilə üzünü qurulayıb soruşdu.

- Müəllimlərimiz iclasa getdilər, bizi də evə buraxdılar. - Gültay cavab verdi.

Eltay dinib-danışmadan çantasını divanın üstünə qoyub anasını qucaqladı. Məltəm onun başını sığallayıb özündən kənarlaşdırmaq istədi. Amma Eltay onu daha bərk qucaqlayıb üstünə dırmandı. Məltəm səndirləyib arxaya


downloaded from KitabYurdu.org

söykəndi və
getdikcə ona daha bərk sarmaşan oğlunu özündən qopara bilməyib:

- Bəsdi, Eltay, bəsdi, qurtar! - dedi.

Ələmdar anasına bərk-bərk sarılmış bu uşağın hərəkətlərini qəribə maraqla izləyirdi. Bu anda uşağın keçirdiyi hissləri, duyduğu ləzzəti başa düşmək istəyirdi. Həmin hissləri istədiyi kimi anlaya bilməsə də onda Eltaya qarşı bir qibtə hissi baş qaldırdı. Düşündü ki, kaş onun yerində olaydı və Məltəm də onun anası olmuş olaydı... Öz uşaqlığını xatırladı. Anasından ancaq danlaq və kötək görmüşdü uşaqlığında. Məltəm kimi deyildi onun anası... Övladına qarşı da həmişə soyuq olmuşdu. Ya bəlkə də bu onun xarakterindəki soyuqluqdan irəli gəlirdi, bəlkə də öz sevgisini büruzə verə bilməyənlərdən idi onun anası?.. Bəlkə də...

Məltəm Eltayı özündən çox çətinliklə ayıra bildi və üst-başını düzəldib:

- Gedin otağınıza, - dedi. - Mənim əmi ilə söhbətim var.

Uşaqlar Ələmdara sınayıcı nəzərlərlə baxıb öz otaqlarına getdilər. Ələmdarın onlardan çox xoşu gəlmişdi. Qəşəng uşaqlar idilər. Hər ikisində analarına oxşarlıq hiss olunurdu.

- Allah saxlasın, yaxşı uşaqlarınız var, - dedi.

Məltəm kədərlə gülümsəyib, başını tərpətməklə
razılığını bildirdi və bu dəfə Ələmdarı çox gözlətmədən danışmağa başladı:

- Aprelin 9-u idi həmin gün... Axşam yeməyini hazırlayıb Salehi gözləyirdim. O, saat 6-da, özü də çox pis vəziyyətdə gəldi. Qolundan bıçaqlamışdılar.


downloaded from KitabYurdu.org

Qorxudan rəngi ağarmışdı. «Məni tutacaqlar!» deyirdi. Qolunun sarğısını açıb, dəyişdim...

- Qolu sarınmışdı? - Ələmdar soruşdu.

-Hə!

- Nə ilə?
- Ağ mələfə parçası ilə...
- Necə mələfə idi o?

- Belə... ağ rəngdə, üstündə göy zolaqları var idi.

-Təmiz idi?

- Hə, təmiz, təzə... O bahalı mələfələrdən cırılıb sarınmışdı.

«Deməli, belə! - Ələmdar düşündü. - Saleh mənə deyirdi ki, guya yolda bıçaqlayıblar onu. Cinayəti boynuna alandan sonra isə, televizorda belə dedilər ki, darvazadan çıxanda Rafiqlə
rastlaşıb, mübahisə ediblərmiş. O bunu bıçaqlayıb, bu da daşla vurub onu. Guya sonra dərhal maşına minib evə sürüb. Bəs haradan çıxdı bu bahalı mələfə? Özü də, təzə, təmiz... Yox, aprelin 9-da, Sadıxovun mülkündə, nəsə, başqa hadisələr baş verib...»

Fikirdən ayrılıb:

- Davam elə! - dedi. - Sonra nə oldu?

- Dedi ki, onu yolda bıçaqlayıblar. Ancaq tanımırmış onların kim olduğunu. Hey ağlayırdı... - Bunu deyəndə Məltəm özü də ağlamsındı. - Sonra, bir qadın zəng vurdu bizə. Salehi istədi. Saleh, o nə dedisə, ondan sonra daha pis hala düşdü. Bir azdan iki kişi gəlib onu apardı...

- Bəs sən Əlifağa ilə nə vaxtdan görüşürdün? - Ələmdar səbirsizlik göstərib qadının sözünü kəsdi.

- Mən onu ilk dəfə oğlunun ölümündən üç gün əvvəl


downloaded from KitabYurdu.org

dənizkənarı bağında görmüşdüm. Qızımın ad gününü qeyd etmək üçün bizi oraya dəvət etmişdi. Sonra, aprelin 20-də özü gəldi buraya...

- Sadıxov? - Ələmdar təəccübləndi.

- Hə... Mənim ona böyük hörmətim var idi. Görəndə, özümü tamam itirdim. Fikirləşdim ki, bəlkə nəsə soruşmaq, Salehlə əlaqədar nəsə danışmaq istəyir mənimlə. Amma sən demə, məqsədi başqa imiş... İntiqam almaq istəyirmiş...

Məltəm yenə ağlamağa başladı.

- Məndən heç nə gizlətmə! - Ələmdar dedi. - Zorladı səni?

- Hə!.. - qadın başını aşağı dikmişdi və müsahibinin üzünə heç cür baxa bilmirdi.

- Bəs necə oldu ki, iki gün sonra onunla kafedə görüşdün?

Ələmdarın verdiyi bu sualın cavabını Məltəm özü də bilmirdi. Bilmirdi ki, necə oldu, bu... Ruhdan düşmüşdü, acizləşmişdi, gələcəyə ümidini itirmişdi. Əlifağa zorakılıqla ona sahib oldu... Necə oldu ki, səhər öz ayağı ilə onun yanına getdi? Hə, Əlifağanın onun üçün qoyub getdiyi pulları qaytarmağa. Lap qaytardı da həmin pulları. Bəs niyə bir də təslim oldu o əclafa? Həm də bu dəfə könüllü olaraq? Niyə iki gün sonra Nihat zəng vurub kafeyə çağıranda etiraz etmədi ona? Niyə geyinib-kecinib getdi oraya?.. Məltəm bu sualların heç birinə cavab verə bilmirdi.

O gün kafeyə çağırmaqda başqa imiş Sadıxovun məqsədi. Onu öz işçisi və əlaltısı Nəcməddinə calamaq istəyirmiş. Nəzərdə tutduğu



downloaded from KitabYurdu.org

intiqam planını axıra qədər yerinə yetirmək, Məltəmi Salehdən, uşaqlarından ayırıb Nəcməddinin məşuqəsinə çevirmək istəyirmiş. Əslində, çatdı istəyinə əclaf! Dağıtdı Salehin ailəsini! Viran qoydu!

Daha Məltəm üçün heç nəyin fərqi yox idi və o, Ələmdarın təkidi ilə hər şeyi ona anlatdı. Canəlinin buraya gəlməsi barədə zəng vurub Nəcməddinə bildirməsini də dedi. Kim idi bu oğlan, nəyi idi onun ki, ondan utanaydı? Uzaqbaşı ondan yaxınlıq tələb etsəydi, ona da razılaşardı. İslanmışın yağışdan nə qorxusu?!

Amma, yox! Bu adam ona başqa gözlə baxmırdı, deyəsən. Hətta məzəmmət də oxunurdu onun baxışlarında. Bir də ki o, Mahirəni axırıncı dəfə görən azərbaycanlı idi. Onun meyitini düşmənlərdən
alıb gətirmişdi. Yazıq Mahirə!.. Namusunu qorumaq üçün canına qəsd edibmiş... Amma onun bacısı...

Ələmdar danışmağa, deməyə söz tapmırdı. Mahirəni xatırladı. Onun lal baxışlarını yadına saldı. Ələmdara «qardaş» demişdi o! «Bacımdan nigaranam» demişdi. Məltəmin mehriban, qəlbi təmiz, amma həm də iradəcə zəif olduğunu demişdi. Bayaqkı səhnəni - Eltayın anasına sarmaşdığını gözləri önünə gətirdi. Bacısının ölümündən keçən 13 il ərzində, adını bilmədən, üzünü görmədən tez-tez xatırladığı Məltəmin düşdüyü bu çıxılmaz vəziyyəti dərk etməyə çalışdı.

Nədənsə, laqeyd qala bilmirdi bu qadına. Əsas məqsədi Kobranı axtarıb tapmaq olsa da, bu saat köməksiz vəziyyətdə olan Məltəmi ata bilmirdi. Gözü qarşısında bir ailənin dağılıb məhv olmasını qəbul
edə bilmirdi. Gördüyü bu gözəl uşaqların acınacaqlı



downloaded from KitabYurdu.org

gələcəyini düşünüb ürəkdən narahat olurdu. Bəlkə də bütün bunlar Məltəmə qarşı olan qəribə məhəbbətinin təzahürü idi, ya bəlkə də qanında olan kişilik, mərdlik xüsusiyyətlərinin tələbi idi, baş aça bilmirdi.

Uşaqlar analarının sözünə baxıb, otaqlarından çıxmırdılar. Ələmdar bu otağın örtülü qapısına ani nəzər salıb ayağa qalxdı:

- Sən yenə bu cür yaşamağa davam etmək istəyirsən?

Onun səsində kinayə də vardı, acıq da... Amma daha çox canıyananlıq vardı bu səsdə və bunu hiss edən Məltəm astadan:

-Mən istəməzdim belə olsun... - dedi.

Ələmdar onun çənəsindən tutub başını yuxarı qaldırdı:

- Olan olub, amma indi mənə qulaq as! Sən hələ tamamilə pozulmamısan. Əvvəlki həyatına qayıtmağın mümkündür hələ! Söz ver ki, bundan sonra həmin adamlarla əlaqəni birdəfəlik kəsəcəksən! Söz ver ki, bir daha belə işlərlə məşğul olmayacaqsan! Ərini düşün, gül kimi uşaqların var, onları düşün. Yəqin ki, onların böyüyəndə bədbəxt olmalarını istəmirsən.

- Biz onsuz da bədbəxt olmuşuq! - Məltəm bunu deyib, ağlamamağa çalışsa da gözlərindən axan yaşı saxlaya bilmədi.

- Yox! - Ələmdar etiraz etdi. - Sizin xoşbəxt həyatınız hələ qabaqdadır. Mənə inan, hər şey yaxşı olacaq. Mən sizə bacardığım qədər kömək edəcəm!

«Kömək edəcəm!..» Bu sözlər onsuz da səssizcə ağlayan Məltəmi bir az da kövrəltdi. Çətinliyə düşdüyü o gündən bəri heç kəs ürəkdən gələn belə bir söz deməmişdi ona. Əksinə, kimsəsizliyindən, köməksizliyindən istifadə



downloaded from KitabYurdu.org

etmişdilər onun.

- Bəs Saleh? - deyə artıq öz xilaskarı kimi qəbul etməyə başladığı adama baxıb soruşdu. - Nə vaxtsa qurtarıb gələndə, necə baxacam onun üzünə? Mən onu heç vaxt aldatmamışam axı?!

Ələmdar bu barədə düşünməmişdi, sanki. Bir anlıq duruxdu. Amma qarşısına qoyduğu məqsəddən geri çəkilmək fikrində də deyildi. Bu ailə dağılmamalıydı! Bu uşaqlar qayğısız, üzüağ böyüməli idilər. Atalı, analı! Odur ki, qətiyyətlə:

- Saleh heç nə bilməyəcək! - dedi. - Heç nə deməyəcəksən ona. Elə şeylər var ki, nəyinsə xatirinə gizlətmək lazımdır onu. Əgər sən, doğrudan da, tövbə edib öz yoluna qayıtmaq istəyirsənsə, bu tövbəni Allahın qarşısında et, Salehin yox! Saleh insandır, səni bağışlasa da, ömrünün axırına qədər şübhə qalacaq ürəyində.

- Bəs mən özüm? - Məltəm gözlərini yaylığı ilə quruladı. - Mən özüm unuda bilməyəcəm axı bunları?!

- Ürəkdən tövbə edirsənsə, çalış unut olub- keçənləri! Mən, şəxsən, səndə günah görmürəm. Sənin kimiləri yolundan çıxara bilən Əlifağa kimi iblislər çoxdu bu dünyada!

- Mən ondan çox qorxuram! - Məltəm dodaqlarını dişlədi.

- Qorxma, mən səni qoruyacam!

- Axı sən kimsən? - qadın ilk dəfə çəkinmədən xilaskarının üzünə baxdı.

- Kim olduğumu deyə bilməyəcəm sənə.

- Heç olmasa, adını de!

- Tələsmə, biz yəqin ki, yenə görüşəcəyik. İndi isə mən



downloaded from KitabYurdu.org

getməliyəm. Uşaqlara deyərsən ki, atanızın dostu idi gələn. Qəfil bir çətinliyə düşsən, mənə xəbər ver.

Sonra Ələmdar qadının mobil telefonunun nömrəsini soruşub öyrəndi, öz nömrəsini ona verib son sözlərini dedi:

- Çalış ki, küçəyə-filana az çıxasan. Heç kəslə əlaqə saxlama! Səni polisdən də axtarırlar, yəqin ki. Mən çalışacam, nəsə fikirləşim sənin barəndə, adın dilə-dişə düşməsin.

Bunları deyib, Məltəmin minnətdarlığını dinləmək istəmədən evdən çıxdı. Orxan nişanlısı ilə maşında oturub onu gözləyirdi. Ələmdar maşına minən kimi «Hunday» hərəkətə gəlib oradan uzaqlaşdı.

Bir neçə saat sonra Məltəmgilin həyət qapısı ilə üzbəüz, səkidə köhnə bir «Moskviç» dayandı. Ortaboylu, başında kepka olan bir oğlan maşından düşüb yük yerini açdı. Yük yeri ağzına qədər alma ilə dolu idi. Oğlan kürəyini maşına söykəyib əlindəki təsbehi oynada-oynada qışqırmağa başladı:

- Alma var, alma! Quba alması!

Bura sakit bir məhəllə idi. Küçədə tək-tək adamlar hərəkət edirdi. Səkilərdə dayanmış maşınlar onsuz da dar olan küçəni bir az da daraltmışdılar. Köhnə, sınıq-salxaq qapılar, bir-birinə yapışmış
birmərtəbəli evlərin dəmir şəbəkəli pəncərələri, küçənin qopub tökülmüş asfaltı qoca məhəlləyə acınacaqlı bir görkəm verirdi.

İyirmi metr aralıda, səkiyə qoyulmuş daşların üstündə dörd-beş nəfər kişi oturub nərd oynayırdı. Yanlarında bir ağsaqqal da var idi. Amma o, oyunla maraqlanmırdı, deyəsən. Evdən çıxartdığı stulun üstündə oturub, gəlib-


downloaded from KitabYurdu.org

gedənləri seyr edirdi.

- Alma var, alma! - kepkalı oğlan bir də səsləndi.

Nərd oynayanlardan biri başını döndərib almasatanı narazı baxışlarla süzdü.

- Bu haradan çıxdı ə, elə bil cəhənnəmdən qaçıb gəlib!

Sonra qarşısında oturmuş üzü tüklü kişiyə üz tutdu:

- Ağababa, məhəllənin şefisən, niyə belə şeylərə imkan verirsən? Vəliqulunun dükanında alma satırlar də! Bunun nə işi var idi burada?

Bu sözlər Ağababaya toxundu. Üzünü almasatana çevirib:

- Ə, burada səs-küy salma, get zir-zibilini başqa yerdə sat! - dedi.

Kepkalı oğlan, sanki eşitmədi onu. Ətrafına boylanıb daha bərkdən çığırmağa başladı:

- Alma var, alma! Hərəsi bir qarpız boyda!

- Ə, səninlə deyiləm?! - Ağababa ayağa qalxıb onun üstünə getdi. - Bu eşşək arabasını da sür, cəhənnəm ol buradan!

Kepkalı onu təəccüblə süzdü:

- Buranı almısan, qaqaş? Küçədi də!.. Hamı satır, mən də satıram. Balalarımı dolandırmalıyam, ya yox?

- Demədim, sürüş burdan?!

Ağababa əlini şalvarının cibinə salıb bir bıçaq çıxartdı. Amma, onu açmağını görmüşdü ki, almasatan ani hərəkətlə qolunu burub bıçağı əlindən aldı. Sonra bir əlindəki bıçağa, bir də qarşısında dayanıb heyrətindən özünü itirmiş Ağababaya baxıb, maşının yük yerindən bir alma götürdü və onu səbirlə soymağa başladı. Ağababa nə


downloaded from KitabYurdu.org

edəcəyini bilmədən onun hərəkətlərini təəccüblə izləyirdi.

- Ə, ver bura görüm, bıçağımı!

Oğlan, soyduğu almadan bir dilim kəsib ona uzatdı:

- Sən bir bu almanın dadına bax!
- Sənə deyirəm, bıçağı ver! - Ağababa çığırdı.

Bu vaxt stulda oturub küçəni seyr edən ağsaqqal ayağa qalxaraq özünü onlara çatdırdı:

- Ay Ağababa, - dedi, - nəyinə lazımdır dava salmaq? Görürsən kasıbçılığını eləyir. Satır, qoy satsın! İndi o vaxtkı zamanlar deyil ki, məhəlləyə başqa adam girməsin. Başını ağrıtma!

Bu nəsihət, deyəsən, Ağababanın lap ürəyindən oldu. Onsuz da almasatanın gücünü görmüşdü.

Başa düşmüşdü ki, dava-dalaşa başlasa, uduzacaq. Ona uzadılan bıçağı alaraq, kepkalı oğlana qanlı bir nəzər salıb öz yerinə qayıtdı.

Almasatan onun arxasınca qəribə nəzərlərlə baxıb sonra ağsaqqala tərəf döndü və:

- Sağ ol, ağsaqqal, - dedi, - dayan, sənə bir kilo müftə alma verəcəm.

Ağsaqqal etiraz etmədi. Ona sellofan torbada verilən bir kiloqram almanı alıb, təşəkkür edərək, sevincək evinə getdi.

Almasatanın müştəri çağıran səsi yenidən məhəlləyə yayıldı:

- Alma var, alma! Quba alması!..

Əlli ikinci fəsil

Mayın 18-də Cahangirin Rusiyada yaşayan dostu Davud Bakıya gəlmişdi. Nihatla Tamerlanın ölümünə görə başsağlığı verməyə.



downloaded from KitabYurdu.org

O, Moskvada tanınmış iş adamlarından biri idi. Kifayət qədər biliyi və bacarığı olduğu üçün yüksək dairələrdə özünə layiqli nüfuz qazana bilmişdi. Cahangirlə də neçə illər əvvəl Bakıda eyni tikinti firmasında işləyərkən dostlaşmışdılar.

Davud Bakıya gələcəyini Cahangirə xəbər verməmişdi. Onu hava limanında başqa dostları qarşılamış, sonra isə ticarət işləri ilə əlaqədar bir neçə yerə baş çəkmişdi.

Cahangirlə axşamüstü görüşüb, birbaş qəbiristanlığa yollandılar. Davud Bakıdakı dostlarından birinin maşınında, qardaşı Ariflə oturmuşdu. Arif Elmi-Tədqiqat İnstitutunda elmi işçi işləyirdi. Davud bir az əvvəl ona zəng vurub Bakıda olduğunu bildirmişdi. Dost-tanışın əlindən qurtulub qardaşının evinə gedə bilmədiyi üçün başqa yerdə görüşmüşdülər.

Cahangir öz maşınının arxa oturacağında, işə yeni qəbul etdiyi Səlahəddin isə qabaqda, sürücünün yanında əyləşmişdilər. «Mersedes» şəhərin kənarındakı qəbiristanlığa doğru şütüdükcə Cahangirin qəlbini qarşısıalınmaz bir kədər bürüməyə başlayırdı. Hansısa gözəgörünməz bir qüvvə ürəyini tutub sıxırdı, elə bil...

... Yanaşı salınmış qoşa qəbrin qarşısında durdular. Yastı torpaq təpəciklərindən biri çılpaq idi. Ona yalnız Nihatın adı yazılmış bir lövhə sancılmışdı. Tamerlanın qəbri üstünə isə, onun böyüdülmüş şəkli qoyulmuş, məzar gül-çiçəklə örtülmüşdü.

Mərhumların ruhuna hörmət əlaməti olaraq susmuşdular. Hamı başını aşağı dikmişdi. Yalnız, sürücü ilə bir qədər arxada dayanmış Səlahəddin diqqətli nəzərlərlə ətrafı gözdən keçirməkdə idi.


downloaded from KitabYurdu.org

Cahangirin yadına, birdən-birə, lap çoxdan olmuş əhvalat düşdü. Kiçik qardaşı Tamerlanı döyməsi... Onda Tamerlanın altı-yeddi yaşı olardı. Nəyin üstündə döymüşdü uşağı, yadına sala bilmədi. Amma yaman təsir etdi bu xatirə ona. Gözləri doldu.
Cibindən dəsmalım çıxarıb, gizlicə, yanaqlarına süzülməkdə olan göz yaşlarını sildi.

O əclaf nahaq qıydı Tamerlana... Bu bədbəxtin heç bir günahı yox idi axı?! Nihatı öldürməklə, öz namusunun intiqamını almışdı Qantural. Gərək dəyməyəydi Tamerlana! O, Tamerlanı öldürməklə əsl qatil, əsl cinayətkar adını qazandı. İndi öz canı hesabına ödəməliydi bu cinayətin əvəzini. Xanəli and içmişdi onu öldürməyə! Tamerlanın qanı, qətiyyən, yerdə qalmamalıydı!..

Amma gözlərini qan tutmuş Qantural hələ də tapılmırdı və nə qədər ki onun harada gizləndiyi məlum deyildi, bütün üstünlüklər onun tərəfində idi. Buna görə, hər halda, ehtiyatlı olmaq lazım gəlirdi. Yavaşca arxaya boylanıb, gözlərinə qara eynək taxmış, əllərini arxasında çarpazlayıb şax dayanmış
Səlahəddinə baxdı. Yox, Cahangir üçün, hələ ki, heç bir təhlükə yox idi. Bu oğlana bel bağlamaq olardı. Həm cəsarətli idi, həm də zirək, bacarıqlı... Hələ üstəlik, Cahangir özü də, hər yetənə can verən oğlanlardan deyildi. Lazım gələrsə, özü-özünü Qantural kimilərdən qoruya bilərdi. Əlini qaldırıb üstdən pencəyinin sağ cibinə sürtdü. Əlinin altında hiss etdiyi tapança onu bir qədər də sakitləşdirdi.

Qəbiristanlıqdan çıxandan sonra hansısa kafedə Davudla oturmalı idilər. Çoxdan görüşmədikləri üçün


downloaded from KitabYurdu.org

onunla beləcə ayrılmaq yaxşı düşməzdi. Dostu sabah Moskvaya qayıdacaqdı və bir-birlərini, kim bilir, bir də nə vaxt görəcəkdilər.

Davud qəbirlərdən aralanıb kədərlə başını yellədi və:

- Allah səbrinizi versin! - dedi.

- Allah köməyin olsun!

Cahangir ona razılığını bildirib Səlahəddinə baxdı:

- Siz minin maşına, gedin evinizə! Mən Davudla olacam.

- Onda evə qayıdanda zəng vurarsınız. - Səlahəddin dedi.

- Yox, mən gec qayıdacam. - Cahangir etiraz etdi. - Siz gedin, dincəlin!

Keçib o biri maşında Davudla yanaşı əyləşdi. Arif də qabaqda oturdu və qəbiristanlıqdan çıxıb şəhərə tərəf yola düşdülər. «Mersedes» də bir qədər onların arxasınca gəldi. Şəhərə girəndən sonra isə dönüb başqa istiqamətdə getdi. Kafedə iki nəfər dostu bayaqdan oturub Davudu gözləyirdi. Biri deputat idi. Cahangir onu qiyabi tanıyırdı. O biri isə
kənd rayonlarından birinin prokuror köməkçisi idi. Cahangir sonra bildi ki, onun qardaşı Davudun yanında işləyir. Hər ikisi Moskvadan gəlmiş hörmətli qonaqla çox mehriban görüşdü. Ayrıca otaqda dəbdəbəli süfrə hazırlanmışdı. Onlar stolun arxasında əyləşən kimi, ofisiant özünü yetirib, badələrə Rusiya istehsalı olan bahalı araqdan süzdü. Davud, birinci olaraq, əlini uzadıb öz badəsini götürdü və Cahangirə üz tutdu:

- Cahangir, əzizim, Allah sənin qardaşlarına rəhmət eləsin! O qansızın da bəlasını versin. Tezliklə tutulub öz



downloaded from KitabYurdu.org

cəzasına çatdırılsın. Özünü üzmə, bu həyatdır. Hər birimizin başına belə və bundan da pis işlər gələ bilər. Allah bizi bundan sonra pis niyyətlərdən və bir də mərdimazarlardan qorusun!
İndisə, icazə verirsənsə, bunu içək, bugünkü görüşümüzün şərəfinə!

Cahangir, istər-istəməz, öz badəsini götürdü və ona doğru uzadılan badələrlə toqquşdurdu. Əvvəlcə, içmək istəmirdi. Doğma qardaşının yeddisi dünən çıxmışdı. Ancaq sonra nə fikirləşdisə, arağı başına çəkdi. Onun bu hərəkəti süfrə arxasında oturanları yüngülləşdirdi. Anladılar ki, məclisin şən keçməsinə heç nə xələl gətirməyəcək.

Az keçmiş, məclis, doğrudan da, qızışdı. Sağlıqlar, xoş zarafatlar, lətifələr bir-birini əvəz etməyə başladı. Cahangir də, artıq xeyli araq içmişdi və bütün dərdi-qəmi, narahatlığı sovuşub getmişdi.

Hərdən qardaşlarının faciəli ölümü yadına düşürdüsə də, artıq buna bir qədər başqa cür yanaşırdı. Düşünürdü ki, qardaşları artıq yoxdular və
indi heç bir şey duyub, hiss etmirlər. Nə ağrı-acı, nə dərd-sər... Bunlar da, bundan sonra görüləcək işlər də dirilər üçün qalıb. İntiqamı alınmalıydı onların! Qantural mütləq tapılıb, cəzasına çatdırılmalıydı.

Saat artıq on birin yarısı olmuşdu. Gecə keçirdi. Yeyib-içib doysalar da, söhbətləri kəsilmək bilmirdi. Təkcə Arif özünü bir qədər naqolay hiss edirdi bu məclisdə. Süfrənin başında onun öz doğmaca qardaşı otursa da, ətrafındakı varlı-imkanlı adamların arasında artıq hesab edirdi özünü. Onların danışıq tərzinə də uyğunlaşa bilmirdi, nədənsə.


downloaded from KitabYurdu.org

Prokuror köməkçisi də, elə deputat özü də açıq- aydın Davuda yaltaqlanırdılar. Hey tərifləyir, şişirdib göylərə qaldırırdılar onu. Cahangir fikirləşdi ki, nəyə görəsə, adamların əksəriyyəti pullu adamlara əyilir,
ona yaxın olmağa çalışırlar. Hətta ondan bircə manatlıq xeyir görə bilməyəcəklərini anlasalar da!.. Məsələn, bu Davud özü qəpiyinin qədrini bilən adam idi və ömründə heç kəsə borc da verən deyildi. Elə bu süfrənin haqqını da, yəqin, Cahangir ödəyəcəkdi.

Kimsə təklif etdi ki, qalxıb pivə içmək üçün Füzuli meydanının yaxınlığındakı kafeyə getsinlər. Davud razılaşdı. Ayağa durub kafedən çıxdılar və maşınlara minib deyilən yerə sürdülər.

Burada yaxşı pivə və yanında Naxçıvan xərçəngi verirdilər. Söhbət edə-edə pivə içməyə başladılar. Prokuror köməkçisi xırda xərçənglərə yaman iştahayla girişmişdi. On dəqiqə keçməmiş, iri boşqab xərçəng qalıqları ilə doldu. Təzədən sifariş verdilər. Arif, deyəsən, belə xərçəngləri birinci dəfə görürdü. Gözaltı qarşısındakılara baxıb bunun necə
yeyildiyini öyrənsə də, prokuror köməkçisi onun səhvini tutdu. Demə, Arif xərçəngin ən dadlı yerini tullantı ilə birlikdə boşqaba atırmış. Prokuror köməkçisi xərçəngi necə yeməyi ona öyrətməyə başladı və bu Arifi bir az pərt etdi.

Saat birin yarısında kafedən çıxdılar. Küçədə tək-tək maşınlar hərəkət edir, səkilərdə isə adam gözə çarpmırdı. Sərin, təmiz havanı ciyərlərinə çəkib, bir az da kafenin qarşısında söhbət etdilər. Cahangir Davudu öz evlərinə dəvət etdi:



downloaded from KitabYurdu.org

- Gedək, gecəni bizdə qal, səhər özüm aparıb yola salaram səni.

- Yox. - Davud razılaşmadı. - Arifgildə qalacam. Qoy bir uşaqlarının da üzünü görüm. İstəsən, səhər görüşərik.

Cahangir daha inad göstərmədi:

- Nə deyirəm, səhər görüşək.

O birilər Davudla, Cahangirlə görüşüb öz maşınlarına mindilər. Cahangir yenə Davudla gəldiyi maşına oturdu. Onu aparıb evinə qoymalı idilər.

Maşını düz blokun qarşısında saxladılar. Cahangir Davuda sabah görüşəcəklərini bir daha xatırladıb yerə düşdü. Maşın tini burulub, uzaqlaşdı.

Gecədən xeyli keçdiyi üçün həyətdə heç kəs görünmürdü. Ətrafa tam sakitlik çökmüşdü. Yalnız blokun qapısı yanındakı zibil qutusunu eşələyən iki pişiyin mırıltısı eşidilirdi. Blokun girişində işığın söndüyünü görən Cahangir deyindi və addımlarını ehtiyatla atıb binaya daxil oldu. İçəri daha da qaranlıq olduğu üçün alışqanını cibindən çıxarıb yandırdı. Alışqanın kiçik alovu pilləkənə işıq sala
bilməsə də yaratdığı əcaib kölgələr ətrafda oynaşmağa başladılar.

Daha bir neçə addım atan Cahangir nəsə bir hənirti duydu və tapançasını cibindən çıxarmaq üçün alışqanı sol əlinə aldı. Bu zaman alışqan söndüyü üçün ətraf əvvəlkindən də zülmət qaranlığa qərq oldu. Əslində ürəkli adam olmasına və kafedə xeyli araq içməsinə baxmayaraq, həyəcandan alnına soyuq tər gəldi.

Birdən lap yaxınlıqda kiminsə nəfəsini duyub, cəld yana çevrildi və həmin andaca sol böyründə küt xırçıltı


downloaded from KitabYurdu.org

səsiylə müşayiət olunan gizilti, bir an sonra isə kəskin ağrı hiss etdi. Bədəni qıclaşdığı üçün tapançasını cibindən çıxara bilmədi. İçərilərini doğrayıb keçən bıçaq çox dərinə işləmişdi. Nə baş
verdiyini yenicə dərk edirdi ki, boynunda isti bir nəfəs hiss edib, pıçıltıyla deyilən sözləri eşitdi:

- Kökünüzü kəsəcəm sizin!

Əllərini dəhşətlə yana açıb, düşmənini tutmağa çalışdı. Amma, daha ətrafında heç kəs yox idi. Bədənində qalmış bıçağı çıxarmağa cəhd etsə də, bu alınmadı. Müvazinətini saxlaya bilməyib, yerə sərildi. Qışqırıb, köməyə adam çağırmaq istədisə də, səsi çıxmadı. Zəif iniltisi isə blokun yanındakı zibil qutusunun üstündə boğuşan pişiklərin səsi içində eşidilməz oldu...

## Əlli üçüncü fəsil

Səhər saat 10 idi. Yuxusuzluqdan gözləri qızarmış, üst-başı toz-torpağa batmış kapitan Əbilov mənzilinə təzəcə girmişdi. Gecə saat 3-də polis rəisi zəng vurub Ağaşamilin böyük oğlunun öldürülməsini xəbər vermiş və Əbilova hadisə yerinə gəlməyi əmr etmişdi. Saat 3-ə yaxın haradansa qayıdan bina sakinlərindən biri qaranlıq blokda Cahangirin meyitinə ilişib, məsələni anlayan kimi polisə zəng vurubmuş...

Polkovnik Mirzəyev zəng vuranda Allahverdi yatağına girmiş olsa da, gözünə yuxu getməmişdi. Elə həmin anda da neçə gündən bəri axtarışı ilə məşğul olduğu Qantural haqqında düşünürdü...

Necə dəhşətli gecə idi bu gecə... Cahangirin arvadının, uşaqlarının qışqırığı indi də Əbilovun qulaqlarında qalmışdı. Aləm bir-birinə dəymişdi, sanki. Cahangirin



downloaded from KitabYurdu.org

atası, qardaşları, qohumları tökülüb gəlmişdilər. Binanın ətrafında adam əlindən tərpənmək mümkün deyildi.

Cinayətin kim tərəfindən törədilməsi hələ dəqiqləşdirilməsə də heç kəs bunun Qanturalın işi olduğuna şübhə etmirdi. Blokun qarşısına yığılmış adamlar qatilin indiyədək tutulub zərərsizləşdirilməməsində polisi günahkar görür, narazılıq ifadə edən səslərini ucaldırdılar. Baş verə biləcək münaqişənin qarşısını almaq məqsədilə polkovnik Mirzəyev başqa polis idarələrindən kömək istəməli oldu. Zəkixanın ailəsini qorumaq üçün bir qrup silahlı polis əməkdaşı onun evinə göndərildi.

Xanəlini sakitləşdirmək isə heç cür mümkün olmurdu. O, hətta qızışıb polis işçilərindən birinə əl qaldırdı. Bundan sonra onu tutub yaxındakı polis bölməsinə apardılar. Bütün gecəni orada saxlayandan sonra Zəkixan ailəsindən intiqam almayacağı barədə iltizama qol çəkdirib evinə buraxdılar.

Səhərə yaxın ekspertiza Cahangirin, həqiqətən, Qantural tərəfindən öldürüldüyünü təsdiq etdi. Qatil yenə də, birinci dəfə olduğu kimi, qətl zamanı istifadə etdiyi cinayət alətini özü ilə aparmamışdı. Mərhumun bədənində qalan uzun, polad tiyəli bıçağın dəstəyində onun əl izləri aşkar edilmişdi.

Bu, artıq təkcə Ağaşamil ailəsinə yox, polisə də meydan oxumaq idi! Qantural aşkar surətdə intiqam alırdı. Arvadı ilə yataqda gördüyü Nihatın başını kəsməklə kifayətlənməmiş, onun iki günahsız qardaşını da qətlə yetirmişdi. Bu, ağılsız, ağılsız olduğu qədər də dəhşətli bir intiqam idi!



downloaded from KitabYurdu.org

Gecə, aldığı yeni zərbəyə dözməyən Ağaşamil ürək infarktı keçirdi. Xəstəxanaya aparılmış atanın indi nə vəziyyətdə olduğundan Əbilovun xəbəri yox idi.

Allahverdi Əbilova bacarıqlı polis işçisi, istedadlı təhqiqatçı demək olardı. O, gənc olmasına baxmayaraq, indiyədək neçə cinayətin üstünü açmış, neçə qaranlıq məsələni işıqlandırmışdı. Ancaq indi, qarşısında duran bu məsələdə bütün fikirlərini bir araya toplayıb məntiqi qərara gələ bilmirdi. Bəlkə yorğunluğu mane olurdu ona?
Düzdür, Nihatla Sənihənin faciəli qətlinin aşkar edildiyi gündən doyunca yata, istirahət edə
bilməmişdi. Ancaq o, sağlam və qüvvətli idi və yorğunluq onun ayıq başla düşünə bilməməsinə səbəb ola bilməzdi.

Əslində, səbəb qarşıya çıxmış məsələnin çox çətin bir məsələ olmasında idi. Baş vermiş hadisələrin içində bir-birini inkar edən məqamlar az deyildi. Allahverdi kiçik bir işıq şüası tapmaq ümidilə qaranlığın dərinliyinə getdikcə daha qatı zülmətə düşürdü.

Qantural haqqında çox şey öyrənmişdi. Fiziki cəhətdən güclü, sərt, tez özündən çıxan bir adam idi o. Həm də namusunun tapdalanmasına dözənlərdən də deyildi. Nihat, sözsüz ki, onun namusu ilə oynamışdı və Qantural bunu bağışlaya bilməzdi. Lakin Qantural Nihatdan və onun qardaşlarından təkcə öz namusunun intiqamını alırdı, yoxsa burada
başqa bir səbəb də var idi? Bu sualı Allahverdidən başqa heç kəs vermirdi. Təkcə o idi ardıcıl baş vermiş qanlı cinayətlərdə ikinci səbəbi axtaran.

Axı Nihat o gecə Qanturalın mənzilinə niyə girmişdi? Niyə şübhəli rus qadının şəklini orada gizlətmişdi? Onun


downloaded from KitabYurdu.org

mənzilə gələrkən özüylə gətirdiyi və Qanturalın gedərkən apardığı qara çantada nə ola bilərdi? Nihat nə üçün öz işçisinə Qanturalı toyda yubatmağı tapşırıb onun mənzilinə gəlmiş və bütün şkaflara, rəflərə əl gəzdirmişdi? O nə axtarırmış axı orada?

«Çəməndağ» kafesini böyük çətinliklə tapan kapitan Əbilovun orada bəxti gətirməmişdi. Kimlərsə zirək tərpənib ofisiantı aradan götürmüşdülər. Niyə? Əlbəttə, öz izini itirmək üçün. Ofisiant danışdırılsaydı, həmin gün o süfrənin başında
kimlərin olduğu aydınlaşacaqdı və bu da onların tutulmasına gətirib çıxaracaqdı.

Kapitan Əbilovun fikrincə, Qantural qatı cinayətkar, amansız qatil idi. Lakin onun tərcümeyi- halında vətən xaini ola bilməsinə işarə edən bircə məqam belə yox idi. O, ermənilərlə döyüşlərdə qəhrəmanlıq göstərmişdi. Müharibə əlili idi. Bəs onun öz millətinin, xalqının, dövlətinin düşmənləri ilə nə kimi əlaqəsi ola bilərdi axı?..

Az qala ruhdan düşməyə başlayan Əbilova təkcə bir şey təskinlik verirdi ki, Qantural, ustalıqla gizlənməyinə baxmayaraq, gec-tez tutulacaqdı və o zaman, yəqin ki, daha heç nə sirr olaraq qalmayacaqdı. Ancaq bəs onu haralarda axtarmaq lazım idi? Qanturalla az da olsa əlaqəsi olmuş elə bir
adam qalmamışdı ki, o yoxlanılmasın və evində axtarış aparılmasın.

Allahverdi soyuq su ilə əl-üzünü yuyub, həyat yoldaşı Zəhranın hazırladığı süfrənin arxasına keçdi. İndi, əslində, yeməkdən daha çox yatmağı arzulasa da, bu mümkün deyildi. Rəis onu idarədə gözləyəcəkdi. Evə də bir saatlığa


downloaded from KitabYurdu.org

ona görə gəlmişdi ki, əzik-üzük olub, bulaşmış kostyumunu dəyişsin.

Zəhra xanım ərinin kostyumunu əlinə götürüb o üz-bu üzünə çevirdi. Toz-torpaqdan başqa, pencəyin yaxası və qolu qana da bulaşmışdı. Cahangirin meyitini maşına qoyan polis işçilərinə kömək edərkən olmuşdu bu.

- Bunu təmizləmək çətin məsələdir. - Zəhra xanım dedi. - Yumaq lazımdır.

- Yumaq lazımdır, yu! - yeməyə çox iştahasız başlamış Allahverdi dilləndi.

Zəhra xanım pencəyin ciblərindəki əşyaları çıxarıb, stolun üstünə yığanda Məltəmin şəklini gördü. Ərinə inanmağına baxmayaraq, şəkildəki qadının gözəlliyi ürəyində qısqanclığa oxşar bir hiss yaratdı.

- Bu kimdir, Allahverdi? - şəkli ərinə göstərib mənalı tərzdə soruşdu.

- Onu axtarırıq... - Allahverdi şəklə gözucu baxıb könülsüz cavab verdi.

- Neyləyib ki bu? - Zəhra bir az arxayınlaşdı.

- Bilmirəm, deyiblər axtarın, biz də axtarırıq.

O, idarədəki işlər barədə evdə danışmağı xoşlamırdı.

- Dayan, dayan! - Zəhra xanım şəklə bir də diqqətlə baxıb, səsləndi. - Deyəsən, mən bu qadını tanıyıram.

- Tanıyırsan? - Heyrətlənmiş Allahverdi əlindəki stəkanı stolun üstünə qoyub, arvadına baxdı.

- Tanıyıram deyəndə ki, görmüşəm haradasa...

- Harada görə bilərsən, Zəhra? - Allahverdi arvadına yalvarıcı nəzərlərlə baxıb, ayağa qalxdı. - Fikirləş, yadına sal!



downloaded from KitabYurdu.org

- Bunu, deyəsən, məktəbdə görmüşəm. - Zəhra xanım dedi və sonra fikrini bir az da qətiləşdirdi. - Hə, məktəbdə görmüşəm. Yəqin bunun da uşağı bizim uşaqların məktəbində oxuyur.

- Bəlkə müəllimədir? - Allahverdi soruşdu.

-Yox, valideyndir!

- Bizimkilərlə bir sinifdə oxuyur uşağı?

- Yox, - Zəhra başını silkələdi. - Sinifdəki uşaqların analarını tanıyıram. Bununku, yəqin, başqa sinifdə oxuyur.

Allahverdi daha yarımçıq qalmış çayını içmək istəmədi. Arvadının verdiyi təzə kostyumu əyninə geydi və tələsik evdən çıxıb uşaqlarının oxuduğu məktəbə yollandı.

Məktəbin direktoru Təranə xanım onu tanımırdı. Vəsiqəsini göstərib, çox vacib iş üçün gəldiyini söylədi. Direktor ona kömək etməyə hazır olduğunu bildirəndə, Məltəmin şəklini cibindən çıxarıb stolun üstünə qoydu:

- Bu qadın sizin şagirdlərinizdən hansınınsa valideynidir. - dedi. - Tanıyırsınızmı?

Təranə xanım şəkli götürüb diqqətlə baxdı və qaytarıb stolun üstünə qoydu:

- Yox, valideynlər arasında beləsinə rast gəlməmişəm. Məktəb böyükdür. İki mindən çox şagirdimiz var.

- Qoy bu şəkil sizdə qalsın. - Əbilov dedi. - Xahiş edirəm, kimliyini müəyyənləşdirib, mənə bildirin. Amma heç bir səs-küy salmadan...

Direktor razılaşıb, şəkli stolun siyirməsinə atdı:

- Sinif rəhbərlərinə göstərərəm. Düzdür, indi valideynlər məktəbə çox az-az gəlirlər, ancaq bu qadın bir dəfə də olsun buraya gəlibsə, sinif rəhbəri tanıyacaq onu.

Kapitan Əbilov cib telefonunun nömrəsini bir vərəqə


downloaded from KitabYurdu.org

yazıb direktora uzatdı və ayağa qalxıb:

- Sizə arxayınam, Təranə xanım, - dedi - xahiş edirəm, heç kəs bilməsin onun polis tərəfindən axtarıldığını.

- Arxayın olun!

Əbilov direktorun kabinetindən çıxıb, polis idarəsinə getmək üçün məktəbin qarşısındakı küçədə taksi saxladı. Bu zaman yadına düşdü ki, məktəbə gəlməyinə baxmayaraq, valideyn olduğunu bildirib, öz uşaqlarının davranışı ilə maraqlanmadı.

Əlli dördüncü fəsil

Salehin həyəcanla, qorxuyla gözlədiyi gün gəlib çatmışdı. May ayının 21-i... Bu gün onun taleyi həll olunmalıydı. Koloniyanın «ali orqanı» olan «Qardaşlıq» birliyi Salehin dustaqlar arasındakı yerini müəyyənləşdirəcəkdi. Amma sözsüz ki, son söz Rizvanın olacaqdı. Ondan isə yaxşı bir qərar gözləmirdi Saleh. Dustaqların başçısı aldadıldığını dəqiqləşdirmişdisə, ondan güzəşt ummağa dəyməzdi.

O biri məsələ, yəni tələb olunan pulun Xudayara çatdırılması isə həll olunmuşdu. Keçən dəfə naməlum şəxs tərəfindən göndərilən pulu Salehə verən nəzarətçi dünən yenə ona yaxınlaşıb 300 ABŞ
dolları verdi və bu dəfə də bildirdi ki, pulu gətirən adam kim tərəfindən göndərildiyini deməyib. Heyrətlənmiş Saleh pulu alarkən təşəkkür etməyi belə unutmuşdu. Belə çıxırdı ki, ona pul göndərən adam həbsxanada baş vermiş işlərdən xəbərdardır. Ona qayğı göstərən bu adam kim ola bilərdi axı? Bu barədə nə qədər düşünsə də, bir qərara gələ bilmirdi Saleh.

Bir az əvvəl nəzarətçidən aldığı pulu Xudayara verəndə onun üzündə gördüyü murdar təbəssümü unuda bilmirdi.


downloaded from KitabYurdu.org

Necə də əclaf adamlar var imiş bu dünyada! Kimə ki gücləri çatır, incitmək, əzmək istəyirlər beləleri. İnsanlıq deyilən şey tamamilə uzaqdır onlardan...

Bir dustaq gəlib, Salehi Rizvanın yanına apardı. Ayaqları sözünə baxmırdı elə bil. Sanki dar ağacından asmağa aparırdılar onu. Məhkəmə öz hökmünü verəndə düşünmüşdü ki, hər şey bitdi daha. İstintaqlar, sorğu-suallar, işgəncələr... Amma bilmirdi ki, hələ dustaqlara da izahat verməli olacaq baş vermiş hadisə barədə. Qəbul edə bilmirdi bütün bunları. Dözə bilmirdi daha!

Ətrafına yeddi-səkkiz nəfər dustaq yığışmış Rizvan divanı xatırladan yatağın üstündə oturmuşdu. Xudayar da yanında idi. Rizvan kameraya daxil olub qarşısında dayanan Salehi kinayəli baxışlarla bir xeyli süzüb dilləndi:

- Sən bilirsən ki, məni aldatmaq nə deməkdir?

- Mən sizi aldatmamışam, - Saleh astadan cavab verdi.

- De görüm, sən neyləmişdin ki, Əlifağanın oğlu səni öldürmək istəyirmiş?

- Elə şey olmayıb. Mən həyətdən çıxanda onun meyitini görmüşəm...

- Bəs həyətdən çıxana qədər nə qələt eləmisən? - Rizvanın səsi xəncər kimi iti, buz kimi soyuq idi.

- Heç nə!..

Gözaltı Rizvanın əlində oynatdığı təsbehə baxan Saleh bir az qorxudan, bir az da hirsindən titrəyirdi. Lənət şeytana! Hər şeyi olduğu kimi, başdan-ayağa danışsınmı bu qatillərə? Ağlına gələn fikirdən daha da artıq qorxuya düşdü. Yox, başqa heç nə danışmayacaqdı! Qoy nə qərar verirlər, versinlər! Onsuz da kitabı bağlanmışdı Salehin və



downloaded from KitabYurdu.org

onun açılmağına heç bir ümid-filan da görünmürdü.

Bu vaxt bir nəfər içəri girib Rizvana yaxınlaşdı və:

- Rizvan qədeş, səni çağırırlar, görüşə gələnin var, - dedi.

Dustaqların başçısı təəccübləndi:

- Kimdir? Mən heç kəsi gözləmirəm.

- Adı İlqardır, - gələn adam cavab verdi.

Rizvan:

- Məni gözləyin! - deyib ayağa qalxdı və bir də təəccüblə çiynini çəkib kameradan çıxdı.

O çıxandan sonra Xudayar Salehə rişxəndlə baxıb başını buladı:

- Yaman ilişmisən, dostum! - dedi. - Nahaq elə fikirləşmisən ki, əməllərin gizli qalacaq. Sən o nağıllarınla ancaq müstəntiqi aldada bilərsən.

- Mən neyləmişəm? - Saleh dözməyib səsini qaldırdı.

Bu Xudayarı da özündən çıxartdı:

- Daha neyləyəcəksən ə, mən deyən? - deyə çığırdı. - Sənə çörək verən adama xain çıxmısan!

- Mən heç kəsə xain çıxmamışam.

Bunu deyən Saleh ürəyində fikirləşdi ki, axı necə olub, bu xəbər gəlib buraya çıxıb... Amma bir şey anlaya bilmədi. Xudayarın soyuq təmkinlə dediyi sözlər onu diksindirdi:

- Dayan, heç darıxıb eləmə, az qalıb daha!

Saleh susub üzünü yana çevirdi. Danışmaq istəmirdi zəhləsi getdiyi bu adamla. Qoy nə deyir, desin! Cəhənnəm olsun hər şey! Dustaqlar başqa şeylərdən danışmağa başladılar. Rizvanın qayıtmasını gözləyən Saleh isə onlara qulaq asmır, çox ağır keçən dəqiqələri



downloaded from KitabYurdu.org

sayırdı. Şərəflə yaşadığı son dəqiqələr hesab edirdi keçən bu dəqiqələri.

Düşünürdü ki, Xudayar kimi əclafların təhqir hədəfinə çevriləcək bundan sonra.

Rizvan fikirli halda içəri girib öz yerində oturdu. Söhbət edən dustaqlar səslərini kəsib gözlərini onun ağzına dikdilər. O isə danışmağa tələsmirdi. Nəyinsə barəsində çox dərindən düşünürdü, deyəsən. Axır ki, başını qaldırıb Salehə baxdı və sakit səslə soruşdu:

- Sənin Ələmdarla nə əlaqən var?
- Hansı Ələmdarla? - Saleh təəccübləndi.
- Rəhmətlik Vələddinin oğlu Ələmdarla!

Salehin yadına düşdü. Hə, bu o olacaq!

Müvəqqəti saxlama kamerasında tanış olduğu oğlan.

- Onunla polisin zirzəmisində bir gecə qalmışıq. Onu da bu işin üstündə tutmuşdular. Səhərisi buraxdılar.

Bunu deyəndən sonra birdən-birə fikirləşdi ki, bəlkə pulları da Ələmdar göndərirmiş ona? Müvəqqəti saxlama kamerasında da müdafiə etdi onu. Mərd oğlana oxşayırdı. Amma bəlkə elə...

Rizvan elə bil onun ürəyini oxumuşdu:

- Pulları da Ələmdar göndərirdi sənə?
- Yox... - Saleh başını buladı. - Bilmirəm.
- Əvvəldən dostluğun, tanışlığın olub onunla?

-Yox.

Rizvan əlini çənəsinə dayayıb fikrə getdi. Sonra Salehi bir daha sınayıcı nəzərlərlə süzüb, danışmağa başladı:

- Ələmdarı on beş ilə yaxındır görmürəm. O da bir il olub burda, mənimlə. Sonra döyüşə apardılar onu. Səsi-sorağı eşidilmədi daha. Hələ öldüyünü deyənlər də var



downloaded from KitabYurdu.org

idi... Amma sağ imiş. Allaha çox
şükür! Elə oğullar çox az-az doğulur. Atası da mərd adam idi. Çox yaxşılığı dəyib mənə. İndi ki, Ələmdar səni mənə tapşırır, mənim borcumdu onun sözünü eşitmək. Get, nə çətinliyin olsa mənə deyərsən!
Sonra ətrafındakı dustaqlara da sözünü dedi:
- Salehlə heç kəsin işi olmasın! O bu gündən mənim himayəmdədir!
Xudayar dözməyib, narazılığını bildirmək istədi:
- Rizvan, bəs axı?..
Rizvan ayağa qalxıb qəzəblə, Xudayarın gözlərinin içinə baxdı:
- Salehə gözün üstə qaşın var deyənin anasını ağlar qoyaram! Anlamadın dediklərimi?!
- Anladım... - Xudayar birdən-birə mütiləşdi.
- Aldığın pulları da sahibinə qaytar! - Rizvan dedi və əlavə etdi. - Salehinkini də, o adamdan
aldığını da!
- Nə deyərəm ona? - Xudayar astadan soruşdu.
- Deyərsən ki, Rizvan razılaşmadı.
- Baş üstə, Rizvan qədeş!
- İndisə, dağılışın!
Dustaqlar dağılıb, hərəsi öz yerinə getdi. Salehin üstündən elə bil böyük bir dağ götürülmüşdü. Amma heç nə anlaya bilmirdi yenə. Ələmdar niyə onun qayğısına qalırdı, görəsən? Bunun səbəbi nə idi? Bəs pulu kim göndərirdi ona? Ələmdarmı? Yox, Ələmdar göndərsəydi, adını gizlətməzdi. Kimdirsə, başqa adamdır bu...
Əlli beşinci fəsil
Tünd yaşıl rəngli «Volvo-S70» avtobus dayanacağının


downloaded from KitabYurdu.org

yaxınlığında dayandı. Sükanın arxasında oturmuş Ələmdar saatına baxıb maşından düşdü. Küləyin alnına dağıtdığı saçını əli ilə yana darayıb ətrafına boylandı. Sonra isə arxayın addımlarla iri şam ağaclarının kölgə saldığı səki ilə addımlamağa başladı. Polkovnik Baratov beş dəqiqədən sonra, yəni saat üç tamamda onu öz kabinetində gözləyəcəkdi.

Ələmdar iki gün əvvəl, Məltəmlə görüşüb söhbət edəndən sonra, polkovnikə gizli mesaj göndərərək Kobranın Bakıda Əlifağa Sadıxovun qonağı olduğunu bildirmişdi. O, arxayın idi ki, bu mesajdan
sonra Baratov Əlifağanın bütün ətrafını nəzarət altına aldıracaq və ola bilsin ki, bu yolla Bakıya şübhəli niyyətlə gəlmiş çağırılmamış qonaq ələ keçəcək.

Polkovnik Baratov onu mesajı alandan iki gün sonra görüşə çağırmışdısa, deməli, bu iki günü Sadıxov haqqında məlumat toplamağa sərf etmişdi. Yəqin ki, öz sevimli Leopardını görüşə çağırmaqda məqsədi topladığı məlumatları onunla bölüşmək və ona yeni göstərişlər vermək idi.

Ancaq Ələmdar hələlik öz rəisi ilə üz-üzə gəlməyi arzulamırdı. Bilirdi ki, o, ilk görüşdəcə Kobranın Əlifağa Sadıxovla əlaqəsini necə öyrəndiyini soruşacaq. Ələmdar isə Məltəmin bu işə qarışdırılmasını heç cür istəmirdi. İstəmirdi ki, bu
qadını təhlükəsizlik, kəşfiyyat, polis orqanları növbə ilə çağırıb sorğu-suala tutsunlar.

Ələmdar bu barədə özünü heç anlaya bilmirdi. Çünki o özünü bu peşəyə həsr edəndən indiyədək sentimentallığa yol verməmiş, dövlətin mənafeyi naminə qarşıya


downloaded from KitabYurdu.org

qoyulmuş vəzifəni yerinə yetirərkən heç kəsə rəhmi gəlməmişdi. Bəs onda nə üçün yenicə tanış olduğu bu qadının, sadəcə, kimlər tərəfindənsə danışdırılmaması üçün özünü belə çətinliyə salırdı?

Bəlkə doğrudan da ilk baxışdan vurulmuşdu Məltəmə? Axı Ələmdar kimi həm fiziki, həm də iradə baxımdan çox güclü adamlar belə tezliklə vurula bilməzdi?! Düzdür, Məltəm gözəl, cazibədar, sevimli bir qadın idi. Ancaq hər şey təkcə bununla həll olunmazdı yəqin ki... Məsələ burasında idi ki,

Məltəm Ələmdarın on üç il öz ürəyində doğma bir adam kimi gəzdirdiyi, hər gün bir dəfə də olsa xatırladığı Mahirənin bacısı idi. On üç il əvvəl gözləri qarşısında özünə qəsd etmiş qadından eşitmişdi Məltəm haqqında. Adını bilməsə də bu on üç ildə onun barəsində çox tez-tez düşünmüşdü. Surətini xəyalında canlandırmaq istəsə də, bir şey alınmamışdı. Ömründə üzünü görmədiyi bir adamı necə təsvir edə bilərdi? Amma sadəcə, bir duyğu kimi yaşatmışdı onu qəlbində. Əvvəllər beş il Türkiyədə oxuduğu üçün imkanı olmamışdı onu axtarmağa. Sonra isə özü lazım bilməmişdi bunu. Görüşüb, köhnə yaraları təzələmək istəməmişdi. Bir də ki, heç ixtiyarı da yox idi o əhvalat barədə kiməsə danışmağa və özünün kimliyi barədə şübhə yaratmağa.

Yəni sevirdimi onu Ələmdar? Yox, özü də bu qadına qarşı olan münasibətini sevgi hesab etmirdi. Sadəcə, Məltəmi bütün təhlükələrdən, xoşagəlməz söz-söhbətlərdən qorumaq istəyirdi və bunun üçün hər cür riskə getməyə də hazır idi.

Baxmayaraq ki, Məltəmin şəkli bəzi polis və milli



downloaded from KitabYurdu.org

təhlükəsizlik orqanı əməkdaşlarında var idi, baxmayaraq ki, onlar hamısı Məltəmi axtarırdı, ancaq bu axtaranlar arasında onun kimliyini və yerini Ələmdardan başqa bilən yox idi. Məltəmlə «Çəməndağ» kafesində olmuş Nihat öldürülmüşdü. Qanturalla Kobra axtarışda idilər. Əlifağa Sadıxovla Nəcməddin isə azadlıqda və göz qabağında olsalar da, hələ ki, bu barədə sorğu-suala tutulmayacaqdılar. Vəhşi qatil Valeri Barsov ələ keçənədək...

Tini burulub, səki ilə daha bir qədər gedəndən sonra dönüb açıq qapıdan məxfi şöbənin həyətinə girdi. O, həmişə buraya gələndə olduğu kimi, həyətdə yenə də heç kəs görünmürdü. Leopardın görüşə düz deyilən vaxtda gələcəyini bilən Baratov yenə də beş dəqiqə əvvəl, həyətdə keşik çəkən silahlı əsgərləri və şöbənin digər əməkdaşlarını kiçik akt zalına toplatdırmışdı. Mayor Cavadov yenə binanın qapısı ağzında təkcə dayanmışdı. O, nədənsə sevmədiyi gizli agenti soyuq baxışlarla qarşılayıb rəisin kabinetinə ötürəndən sonra zaldakıları «azadlığa» buraxdı.

Polkovnik Baratov, həmişə olduğu kimi, Ələmdarı sevinclə qarşıladı.

- Gəl görək, mənim Leopardım! - deyib onu qucaqladı və oturmaq üçün qarşısındakı kresloların birini göstərdi. - Danış görüm, necəsən? İşlər necə gedir?

- Hər şey yaxşıdır. - Ələmdar bunu deyib kresloda əyləşdi və düşündü ki, polkovnik bu saat Kobranın Əlifağa ilə əlaqəsini necə öyrəndiyini soruşacaq.

Doğrudan da, elə oldu. Keçib öz yerində əyləşən polkovnik onu məhəbbətlə süzüb soruşdu:



downloaded from KitabYurdu.org

- De görüm, necə oldu ki, Sadıxovun Kobra ilə əlaqəsini aşkar etdin? İnan ki, bu bizim üçün çox gözlənilməz bir şey oldu. Elə bir adam... Üstəlik Teyyubxan Cəlilovun qaynı... Kimin ağlına gələrdi belə bir iş? Hə, danış görək! Yoxsa o şəkildəki gözəl qadını tapmısan? Ya kafeni?

Ələmdar bu sualı gözlədiyi üçün cavabı da hazır idi:

- Cənab polkovnik, siz mənə Valeri Barsovu tapmağı əmr etmisiniz və mən də onu tutub sizə verməyə söz vermişəm. Ancaq xahiş edirəm, bu iş sona yetənədək, yəni Kobra tapılanadək bəzi xırda məsələləri gizli saxlamağıma icazə verəsiniz.

Baratov bir qədər düşünüb başını yırğaladı və nəhayət, təmkinlə dilləndi:

- Həmin şəkillərin çəkildiyi kafeni polis rəisi Mirzəyevin işçiləri tapıb. Bu, «Çəməndağ» kafesi imiş. Miraslanovun oğluna məxsus olan kafe... Yeri gəlmişkən onu da deyim ki, sənin «sarı çanta» barəsindəki fikirlərini və Natalya adıyla Bakıya gəlmiş şəxsin Kobra olduğunu öz adımdan MTN-ə bildirdim. Adları həmin siyahıda göstərilənlərin hamısı şübhə hədəfliyindən azad oldular... Mazanov da vaxtında gəlib çıxdı. Heç indi də xəbərləri olmadı

onlar barədə görülmüş tədbirlərdən. Hə... kafe tapılıb. Onun Mirkəlama məxsus olması yenidən bəzi şübhələr yaratsa da, hələlik qəti bir fikrimiz yoxdu bu barədə. Bəlkə də bu bir təsadüfdür. Kafeni tapan kapitan Əbilov orada olarkən eşidib ki, aprelin 23-də Kobragilə qulluq etmiş ofisiantı aradan götürüblər. Gecə kafedən çıxıb evlərinə gedərkən... Həm də məlum olub ki, qonaqları yalnız həmin



downloaded from KitabYurdu.org

ofisiant qarşılayıb və yola salıbmış...

Mayor Cavadov kabinetə daxil olub Ələmdardan bir az kənarda oturdu. Baratov da otaqda bir qədər gəzişib yenə yerinə keçdi və ciddi nəzərlərlə öz yetirməsinə baxdı:

- Görürsən, polis kafeni bizdən qabaq aşkar etdi. Biz gecikirik, Leopard! Mən çox istəyirəm ki, Kobranı dövlətə bizim şöbəmiz təhvil versin. Başa düşürsənmi bunu? Sən isə deyirsən ki, nəyisə məndən gizlətməyə icazə verim. De görüm, o qadını tapmısanmı?

Ələmdar fikirli halda başını tərpətdi:

- Tapmışam, cənab polkovnik! O, həmin məclisə təsadüfən düşmüş bir qadındır. Nəyə görəsə istəmirəm onun adı hallansın bu işdə. Bir də ki, həmin süfrədə başda oturan, lakin fotoya düşməyən kişinin Əlifağa Sadıxov olduğunu açıb deyəndən sonra bu qadın sizin üçün öz əhəmiyyətini itirir. Mən onun kimliyini sizə deyəcəm və sizdən xahiş edəcəm ki, onun adının gizli qalmasına kömək edəsiniz. Əlbəttə, əgər Kobranı biz tapsaq! Yoxsa Kobranı başqaları tapsa, biz onsuz da o qadını qoruya bilməyəcəyik. Mən bir daha sizə söz verirəm ki, Kobranın tapılması üçün bütün qüvvəmi sərf edəcəm. Amma yəqin ki, siz Əlifağanın adını heç kəsə verməmisiniz və əməliyyat bitənə qədər verməyəcəksiniz. Bunu mən öz tərəfimdən də xahiş edirəm, Sadıxova hələ toxunmayın. Qoy Kobra duyuq düşməsin. Duyuq düşsə ustalıqla aradan çıxacaq və onu tutmaq müşkül bir məsələyə çevriləcək. Bir də ki, Sadıxovu, ya onun adamı Nəcməddini tutub danışdırmaq mənasızdır. Onlar onsuz da heç nəyi boyunlarına almayacaq. Nəcməddin fotoda tanınmır, Sadıxov isə yerli-dibli düşməyib şəklə. Lap


downloaded from KitabYurdu.org

həmin qadın onların üzünə dursa da, deyəcəklər, böhtan atır.

- Hə! - Baratov çənəsini qaşıyıb zəndlə Ələmdarın üzünə baxdı:

- Yaxşı, qoy sən deyən olsun! Hələlik soruşmayacam o qadın barədə. İndisə qulaq as!

Bizimkilər Əlifağa Sadıxov barədə bəzi məlumatlar toplayıblar. O, bildiyin kimi, Teyyubxan müəllimin qaynıdır. İmkanlı və nüfuzlu adamlardan biridir. Gəncliyindən böyük vəzifələrdə işləyib. Xalq cəbhəsi hakimiyyətə gələndə işdən uzaqlaşdırılıb və o vaxtdan bizneslə məşğul olmağa başlayıb. Sonradan ona bəzi vəzifələr təklif olunsa da, getməyib. Bütün gücünü biznes sahəsinə yönəldərək, böyük şirkət yaradıb. Tərcümeyi-halında ləkəli bir şeyə rast gəlinmir. Düzdür, o vaxt bir çoxları kimi onun xeyli rus və erməni dostları olub. Deyilənə görə öz milləti barədə çox da yüksək fikirdə deyil. Keçmiş kommunist əqidəsini və beynəlmiləlçiliyini saxlayıb. Amma hər halda, xarici kəşfiyyatla əlaqəsi barədə azacıq da olsun, şübhəli bir şeyə rast gəlinməyib həyatında.

Üç dəfə ailə qurub. Xavər adlı birinci arvadından bir oğlu olub. Babək adlı bu oğlan ermənilərlə döyüşdə şəhid olub. İkinci dəfə Suzanna adlı erməni qızı ilə evlənib. Onda Babəkin səkkiz yaşı varmış. 1988-ci ildə ermənilər torpaq iddiasına başlayanda Suzannanı boşayıb. Suzanna çıxıb Ermənistana gedib. Üçüncü dəfə Şərafət adlı qadınla evlənib. Ondan da bir oğlu olub. Həmin oğlanı bu yaxınlarda Sadıxovun öz sürücüsü qətlə yetirib... Qaldı ki Nəcməddin, əvvəllər polisdə işləyib və mayor rütbəsində



downloaded from KitabYurdu.org

istefaya çıxıb. Bacarıqlı və zirək bir əməliyyatçı olub. İşində heç bir qüsur aşkar edilməyib. Təxminən beş ildir ki, Sadıxovun yanında işləyir və onun bütün biznes işlərinə rəhbərlik edir. Deyilənə görə, öz şefinə həddindən artıq sadiqdir.

Polkovnik sözünü kəsib, stolun üstündəki qovluqdan bir fotoşəkil götürdü. Özü bir daha şəklə nəzər yetirib, onu Ələmdara uzatdı:

- Bu Əlifağa Sadıxovun ailəsidir. Özü, arvadı Şərafət xanım, oğlu Rafiq...

Ələmdar şəkli alıb əvvəlcə Əlifağanın, sonra isə arvadının şəklinə diqqətlə baxdı. Daxilində birdən- birə baş qaldırmış hiddət və həyəcanı boğmaq üçün dişlərini bir-birinə sıxıb gözaltı Baratovla mayor Cavadovu süzdü. O, şəkildəki qadını tanımışdı. Şərafət xanım adlandırılan bu qadın Suzanna özü idi! Çəkməçi Surenin qızı! Artur Saqiyanın, yəni Kobranın bacısı. Son dəfə iyirmi il bundan əvvəl görməsinə baxmayaraq, Ələmdar onu tanımaya bilməzdi. Suzanna bir qədər kökəlmiş, yaşlanmışdı. Saçının forması, rəngi başqa cür idi. Amma gözləri, burnu, çənəsi həminki idi... Deməli, yalan imiş boşanıb Ermənistana getməyi. Deməli, adını dəyişdirib saxlayıb onu Əlifağa. Deməli, Bakıya bacısının yanına gəlibmiş Artur! Suzannanın oğlu öldürülüb axı?! Ola bilsin, eşidib bunu Kobra və bacısına başsağlığı verməyə gəlib. Ola bilər...

Baratov şəkli üzünə tutub dayanmış Ələmdara baxıb, sözünə davam etdi:

- Bizim adamlar Sadıxovun evini, dənizkənarı malikanəsini, ofis və müəssisələrini ciddi nəzarət altına



downloaded from KitabYurdu.org

alıb. Ancaq hələlik Kobranın heç bir izinə rast gəlinməyib. Əlifağanın həyatı və onun erməni kəşfiyyatı ilə nə kimi əlaqədə ola bilməsi daha dərindən araşdırılır.

Ələmdar rəisinin sözlərini eşitsə də, əslində ona qulaq asmırdı. Fikri kabinetdən uzağa - uşaqlıq illərini keçirdiyi köhnə Bakı məhəlləsinə uçmuşdu. Həmin bu Suzanna ilə bağlı bir əhvalat düşmüşdü yadına.

... Onda Ələmdarın on iki, Suzannanın on səkkiz, ilan balası Arturun isə on üç yaşı var idi. Ələmdarla Artur hər gün məktəbdən gələn kimi nahar edib, döyüşmək üçün qonşuluqda yaşayan Mixail Barsovun həyətinə qaçırdılar. Suzanna isə bir il idi ki, ayaqqabı fabrikində işləyirdi. Boylu-buxunlu, yetişmiş bir qız olmuşdu. Həm də bir az ciddiləşmişdi, sanki. Bu özünü uşaqlıqları eyni həyətdə keçmiş Ələmdarla münasibətdə də göstərirdi. Həyətdə qarşılaşanda, sadəcə, oğlanın üzünə gülümsəyir, bəzən də zarafatla saçlarını qarışdırıb keçirdi. Onun bu hərəkəti Ələmdara da xoş gəlirdi o vaxt.

Bir gün Suren arvadını və oğlunu da özüylə götürüb, Şamaxının Mədrəsə kəndində yaşayan qohumlarına baş çəkməyə getmişdi. Suzanna, nəyə görəsə onlara qoşulmayıb evdə qalmışdı. Gedərkən anası Əminə arvaddan xahiş etdi ki, axşam Ələmdar keçib onların evində yatsın. Demişdi ki, Suzanna tək qalsa, birdən gecə qorxub eləyər. Əminə arvad da Haykanuşla razılaşmışdı.

Gecə, yatmaq vaxtına az qalmış, Ələmdar anasının sözüylə, durub qonşuya keçdi. Suzanna onun gəldiyini görüb, çox sevindi. Tələsik, soyuducunu açıb, süfrəyə kolbasa, çörək, turşuya qoyulmuş kələm gətirdi. Sonra iri dolabın qapısını açıb oradan yarımçıq bir araq şüşəsi də


downloaded from KitabYurdu.org

götürdü. Ancaq Ələmdar yatmaq istəyirdi və bu, gözaltı Arturun çarpayısına baxmağından da hiss olunurdu. Körpəliyindən Suzanna ilə bir həyətdə yaşasa da, indi nədənsə, ondan utanırdı. Suzanna oğlanın yatmaq istədiyini başa düşüb, onu qonşu otağa çağırdı və ata-anasının iki nəfərlik enli çarpayısını göstərib:

- Burda yatacaqsan, Alik! - dedi. - Soyun, gir yerinə!

Ələmdar fikirləşdi ki, yəqin, Suzanna öz otağında tək yatmaq istəyir. Etiraz etməyib, qızın otaqdan çıxmağını gözlədi və soyunub yatağa girdi. Elə o saat da öz yatağı üçün qəribsədi. Bu yataqdan xoşagəlməz, yad bir qoxu gəlirdi. Buna bənzər bir qoxunu Arturdan duymuşdu bir neçə dəfə. Bir neçə dəfə də Haykanuş onu qucaqlayıb üzündən öpəndə. Başa düşdü ki, gözünə yuxu getməyəcək bu yataqda. Kürəyi üstə çevrilib gözünü tavana zillədi.

Bu vaxt Suzanna otağa daxil olub Ələmdarın gözü qarşısında soyunmağa başladı. Ələmdar cəld gözlərini yumsa da, özündən asılı olmayaraq göz qapaqlarını aralayıb qıza baxmağa başladı. Suzanna otağın işığını söndürmədən paltarlarını soyunub stolun üstünə atırdı. Onun axırıncı alt paltarını da əynindən çıxardığını görəndə, həyəcandan Ələmdarın bədənini tər basdı. Birinci dəfə idi ki, çılpaq qız görürdü. Bir dəfə də, Artur belə bir şəkil göstərmişdi ona, vəssalam. Qızın yumru döşlərinə, oradan üzüaşağı ağappaq bədəninə, tüklü qasığına baxıb gözlərini yumdu. Xoş gəlməmişdi bu vəziyyət ona. Səhər Suzannanın üzünə necə baxacaqdı, bilmirdi. Onun çılpaq bədəninə baxmağına peşman olmuşdu.

Suzanna Ələmdarın ona baxdığını duymuşdu. Ləng hərəkətlə işığı söndürüb yatağa, Ələmdarın yanına girdi.


downloaded from KitabYurdu.org

Oğlanın saçlarını sığallayıb:
- Yerin rahatdır? - deyə soruşdu.
-Hə...
- Yuxun gəlir?

- Hə... - Ələmdarın səsindən çətinliklə nəfəs aldığı hiss olunurdu.

- Ancaq mənimki gəlmir. - Suzanna dedi. - Gəl, bir az söhbət edək.

- Nə söhbət?

- Məsələn, de görək sənin sevdiyin qız var? - Suzanna ona bir az da yaxınlaşıb ayaqlarına toxundu.

- Yox! - Ələmdar düşünmədən cavab verib ayağını geri çəkdi.

- Niyə, Alik, sən ki, daha uşaq deyilsən?
- Bəs səninki? - Ələmdar cavabdan yayındı.
- Mənimki var.

- Kimdi? - oğlan cəld soruşdu və tez də əlavə etdi: - O gün səninlə gördüyüm kişi?

Ələmdar bir həftə əvvəl Suzannanı gənc bir kişi ilə görüşüb, onun maşınına minəndə görmüşdü. İndi Əlifağanın şəklinə baxanda dumanlı da olsa, xatırlayırdı ki, o kişi elə Əlifağa Sadıxov imiş. Ancaq o vaxt on iki yaşlı Ələmdar Əlifağa-filan tanımırdı.

- Yox! - Suzanna qəmli səslə dilləndi. - O, elə- belə... Tanışımdır. Mənim sevdiyim Sərkis adlı bir oğlandır. Bizdən iki məhəllə yuxarıda olur. Ancaq hayıf ki, o başqasını sevir...

- Bəs o kişi ilə niyə gəzirsən? - Ələmdar məzəmmətlə soruşdu.

Suzanna onu qucaqlayıb güldü:


downloaded from KitabYurdu.org

- Pullu kişidir. Həm də yaraşıqlıdır. Xoşum gəlir.
Suzannadan tut arağının xoşagəlməz qoxusu duyulurdu. Bu qoxuya, hələ üstəlik, sarımsaq qoxusu da qarışmışdı. Oğlan bir az kənara çəkildi.

- Xoşun gəlirsə, elə ona ərə get, - dedi. - Subaydır?

- Yox, evlidir. - Suzanna fikirli halda cavab verdi. - Amma mən desəm, günü sabah boşayar arvadını. Ölür məndən ötrü. Özüm istəmirəm ona ərə getməyi. Ömrüm boyu düşmənimlə bir evdə yaşamayacam ki!

- O sənin düşmənindir? - Ələmdar təəccübləndi.

- Türkdü də! - Suzanna ikrahla dedi. - Türklər hamısı bizim düşmənimizdir.

- Sizin, yəni kimin?

- Yəni ermənilərin.

- Axı o azərbaycanlıya oxşayır? - Oğlan sadəlövhlüklə dilləndi.

- Axmaq! - Suzanna əli ilə oğlanın saçını qarışdırdı. - Nə azərbaycanlı? Elə mən də azərbaycanlıyam də?! Ancaq millətim ermənidir... O isə türkdür! Elə sən də türksən!

- Mən türk deyiləm!

Ələmdar bunu dedi və o saat da yadına düşdü ki, Şamaxıda yaşayan babasından bu barədə eşitmişdi. Babası demişdi ki, bir vaxt onları da türk adlandırırlarmış. Ermənilərin onlarla düşmənçilik etdiyindən, neçə dəfə böyük qırğın törədib qadınları, qocaları, uşaqları qırdıqlarından danışmışdı.
Demişdi ki, ermənilər təkcə Şamaxıda on iki mindən çox adam öldürüblərmiş.

Ancaq o qanlı hadisələr 1918-ci ildə olmuşdu. Neçə müddət idi ki, ermənilər Azərbaycanda türklərlə mehriban


downloaded from KitabYurdu.org

yaşayırdılar. Türklər artıq belə hesab edirdilər ki, bu iki millət arasında olmuş düşmənçilik təsadüfi bir şey imiş və olub qurtarıb.

Çünki tarixi yaxşı bilən sovet rəhbərliyi türklərin yenidən birləşib qüvvətlənəcəyindən oddan qorxan kimi qorxurdu. Elə buna görə də bütün gücünü işə salıb azəri türklərinin yaddaşından keçmişləri qoparıb atmağa çalışırdı.

Azəri türkü bilməli idi ki, o, azərbaycanlıdır və onun nə Türkiyədəki türklərə, nə də Çindən başlayıb Avropanın içərilərinə qədər çox böyük bir əraziyə səpələnmiş türklərə dəxli yoxdur. Dəxli olmasaydı,
hələ yaxşı idi, üstəlik, düşmən etməyə çalışırdılar türkü türkə!

Böyük dövlətlər bir şeyi qəti şəkildə anlamışdılar ki, türklərlə üz-üzə vuruşub onları məğlub etmək mümkün deyil. Onları məğlub etmək üçün mütləq arxadan zərbə vurmaq, daha doğrusu, xəyanətlə içinə girib, onları bir-birinə qarşı qaldırmaq, ya da üzünə gülüb yatızdıraraq, yatdığı yerdə zərbə vurmaq lazımdır.

Elə buna görə idi ki, tarix boyu yetişmiş saysız hesabsız qüdrətli türk sərkərdələrinin əksəriyyəti xəyanətlə öldürülmüş, güclü türk dövlətləri bir-birinin üzərinə qaldırılaraq, hər iki tərəf zəiflədilmişdi.

Düşmən dövlətlər bir şeyi də anlamışdılar ki, türklərə arxadan zərbə vurmaq üçün ermənidən yaxşı silah yoxdur. Çünki bu millət ilan kimi kinli
olmaqla bərabər, öz kinini ustalıqla gizlətməyi və əlinə imkan düşəndə arxadan zərbə vurmaq üçün uzun müddət səbirlə üzə gülməyi bacarır...



downloaded from KitabYurdu.org

Ələmdarın o vaxt bütün bunlardan xəbəri yox idi və ona görə də Suzannanın sözlərindən heyrətlənmişdi:

- Biz də sizin düşməninizik?

- Siz, yəni kim? - ehtirasdan qovrulan qız soruşdu.

- Mən, anam...

- Yox. - Suzanna oğlanı qucaqlayıb bərk-bərk sinəsinə sıxdı. - Sən mənim xoşuma gəlirsən. Bizimkilər bir vaxt gəlib Bakını alanda, xahiş edəcəm sənə toxunmasınlar.

Qızın çılpaq döşləri Ələmdarın üzünə elə basılmışdı ki, oğlan az qalırdı boğulsun. Üstəlik, dodaqlarına toxunan tərli dərinin xoşagəlməz dadı, qızdan gələn turşumuş qoxu onu iyrəndirirdi. Başını geriyə çəkib, birtəhər onun qollarından çıxdı.

- Sizinkilər Bakını niyə alırlar ki? - deyə kinayə ilə soruşdu.

Suzanna onun uşaq hərəkətinə gülüb, sərxoş səslə dilləndi:

- Azərbaycanın torpaqları hamısı ermənilərin olacaq. Bakı elə əvvəl də bir dəfə bizim olub. 1918-ci ildə Türkiyədən Nuru paşa adlı biri öz qoşunuyla gəlib bizimkilərin çoxunu qırıb, qalanını da Bakıdan qovub. Onda türklər ermənilərə çox vəhşiliklə zülm ediblər.

Ələmdarın yenə yadına düşdü ki, tarix müəllimi həmin illər ermənilərin Azərbaycan türklərinə olmazın divan tutmalarından danışmışdı. On minlərlə dinc əhalini qırıblarmış Bakıda. Ağlasığmaz vəhşiliklər ediblərmiş onda. Ananın qarnını yarmış, balasının başını kəsib onun qarnına qoyaraq tikiblərmiş. Adamları diri-diri yandırıblarmış. Qadınları lüt soyundurub, quduz itləri üstlərinə buraxıblarmış... Bir də o yadına düşdü ki,



downloaded from KitabYurdu.org

müəlliminin deməyinə görə, Türkiyədən bir ordu köməyə gəlibmiş onda. Gəlməsəymiş, bir nəfər də azəri türkü qalmayacaqmış Azərbaycanda...

İçdiyi arağın və ehtirasın təsirindən xumarlanmış qız bu dəfə Ələmdarı daha bərk qucaqladı. Bir əlini oğlanın bədənində gəzdirib, onu ehtirasla öpməyə başladı. Sərxoş qızın bu hərəkətindən iyrənən Ələmdar:

- Sən hamısını yalan deyirsən! - deyib onu itələdi və ayağa qalxıb, paltarlarını geyinərək evdən
çıxdı.

Sonra bir müddət Suzanna ilə küsülü kimi davrandı. Bir müddət məşqlər zamanı Arturla daha ürəklə, daha amansızcasına vuruşdu. Lakin həmin gecə içib artıq- əskik danışmağından peşman olmuş Suzanna yenə öz şirin dili ilə onun qılığına girdi və beləliklə o gecənin nifrəti unudulub getdi.

- Sən, deyəsən, mənə qulaq asmırsan! - polkovnik Baratovun səsi gəldi.

- Yox, qulaq asıram! - Ələmdar fikirdən ayrılıb cavab verdi.

- Bəs niyə belə fikrə getmisən?

Ələmdar əlindəki fotoşəkli stolun üstünə qoyub, gözlənilmədən:

- Kobra Əlifağa Sadıxovun qaynıdır! - dedi.

- Qaynıdır? - Baratov heyrət ifadə edən baxışlarla gah Ələmdara, gah da mayor Cavadova baxdı.

- Bəli! Onun əsl adı Artur Saqiyandır. Valeri Barsov adını sonradan götürüb. O, Suzannanın qardaşıdır. Bu şəkildəki qadın da elə Suzannanın özüdür. O, heç yana getməyibmiş...



downloaded from KitabYurdu.org

- Sən bütün bunları haradan bilirsən? - mayor Cavadov söhbətə qarışıb şübhəli nəzərlərlə Ələmdara baxdı.

Ələmdar ona tərəf baxmadan, sözünü yenə Baratova dedi:

- Onlar neçə illər bizimlə eyni həyətdə yaşayıblar. Kobra mənim uşaqlıq yoldaşım olub. Mixail Barsov adlı bir rus qonşumuz bizə qaydasız döyüşdən dərs keçirdi. 1988-ci ildə milli hərəkat başlananda Kobra Mixail Barsova qoşulub Rusiyaya getdi. Az sonra ata-anası da evlərini satıb Ermənistana köçdülər. O vaxtlar, dörd il əvvəl Sadıxova ərə getmiş Suzannanın da ərindən boşanıb Ermənistana getdiyini eşitdik. Amma belə çıxır ki, bu xəbər yalan imiş...

Ələmdar susub 1993-cü ildə Xankəndidə Kobranın onu tanıdığını deyib-deməməyi fikirləşdi. Ancaq Baratov ona axıradək düşünməyə imkan vermədi:

- Demək, sən bütün bunları bizdən gizlətmisən?

Ələmdar incik şəkildə başını buladı:

- Cənab polkovnik, siz beş gün bundan əvvəl məni çağırıb Kobranı tapmağı tapşırdınız. Mən onda Kobranın uşaqlıq yoldaşım Artur olduğunu sizə deməyə elə bir ehtiyac hiss etmədim. Çünki siz onun axtarışını təkcə mənə tapşırdınız. Mən onu tapandan sonra onsuz da, hər şeyi sizə danışacaqdım.

- Yox, mayor Məlikov! - Baratov əlini hirslə stola vurdu. - Sən yenə də qaydalarımızı pozdun və əslində, buna görə cəzalanmalısan. Ancaq mən hələlik səni yalnız bu əməliyyatdan azad edirəm. Bundan sonra Kobranın axtarışı ilə mayor Cavadov məşğul olacaq. Sən isə get idman klubunda öz işini gör və çağırışımızı gözlə! Ancaq



downloaded from KitabYurdu.org

getməmişdən qabaq, Kobra haqqında daha nə öyrənmisənsə bizə deməlisən!

Ələmdar susmuşdu. Onun simasına öz səhvini başa düşmək və peşmançılıq ifadəsi həkk olunmuşdu. O, Baratovdan nəyisə gizlətməkdə düz iş görmədiyini anlayırdı, deyəsən.

- Səni gözləyirik! - polkovnik səsini qaldırdı.

Ələmdar qəti qərara gəlib, dilləndi:

- O, bir-iki gün əvvəl mən evdə olmayanda mənzilimə gəlib, özünü dostum kimi təqdim edərək məni soruşub.

-Kim?

- Kobra!

- Niyə? - Baratov hiddətlənib ayağa qalxdı.

- Deyə bilmərəm. - Ələmdar çiynini çəkdi.

- Deməli, belə çıxır ki, - polkovnik çənəsini sığallayıb astadan dilləndi. - O səndən intiqam almaq istəyib. Deməli, unutmayıb Xankəndidə etdiklərini.

- Ola bilər! - Ələmdar istehza ilə başını buladı. - Ancaq yəqin ki, mənim üçün gəlməyib Bakıya. Daha ağlabatanı odur ki, bacısı oğlu Rafiqin yasına gəlib.

Baratov bir qədər susub dayandı. Sonra başını qaldırıb mənalı nəzərlə Cavadova baxdı. Mayor o saat ayağa qalxıb kabinetdən çıxdı. Yenə də dəhlizi və həyəti işçilərdən təmizləməyə.

Kabinetdə yaranmış bir neçə dəqiqəlik üzücü sükutu Baratovun səsi pozdu:

- Dur get, Leopard! Səni mən yetişdirmişəm. Odur ki, itirmək də istəmirəm səni. Get, öz işinlə məşğul ol. Bir də nə vaxt lazım olsan, çağıracam səni. Hər halda, Kobranın Sadıxovla əlaqəsini sən aşkar etdin. Buna görə, sağ ol!


downloaded from KitabYurdu.org

Ancaq daha qalanı bizim işimizdir. Kobranı özümüz axtaracağıq. Get!

Ələmdar qalxıb kabinetdən çıxdı. Binanın qapısı ağzında dayanmış Cavadova heç nə demədən həyəti tərk edib, oradan uzaqlaşdı. Avtobus dayanacağının yanında saxladığı maşınına minib birbaş idman klubuna sürdü.

Amma klubda çox dayana bilmədi. Eşitdiyi töhmətlər, Suzannanın başqa ad altında Bakıda yaşaması, Kobranın ələ keçməməsi, ən əsası isə özünün axtarışdan uzaqlaşdırılması onu hövsələdən çıxartmışdı.

Maşına oturub evə yollandı. «Volvo»nu blokun qarşısında saxlayıb düşəndə binanın tinində dayanmış bir maşın diqqətini cəlb etdi. Qara rəngli bu «Opel» bina sakinlərindən heç birinin deyildi. Maşının yanında iki nəfər dayanmışdı. O biri tində də başqa bir yad maşın və yanında bir nəfər var idi. Ələmdar o saat anladı ki, bunlar mayor Cavadovun adamlarıdır və burada Kobranı gözləyirlər.
Gözləyirlər ki, Kobra Ələmdarı öldürməyə gələcək və onlar da Kobranı tutacaq.

Ələmdar başını istehza ilə bulayıb bloka girdi: «Demək bunlar ilanı tutmaq üçün tələ qurublar. Mən də tələyə taxılmış qurbağayam bunlar üçün.
Sən bir Cavadovun planına bax! Ölmüşdü Kobra, sənin qurduğun tələyə düşə!»

## IV HİSSƏ

«Allahım! Mən bütün ömrüm boyu sənə şükür eləmişəm. Yaxşı günümdə də, pis günümdə də! Mənə verdiyin canı bu saat alsan, yenə şükür edərəm. Amma məni qızımın



downloaded from KitabYurdu.org

namusu ilə sınağa çəkmə! Elə eləmə ki, dünyaya gəldiyim günə də, mənə verdiyin ömrə də, lənət oxuyum! Əsməri sənə tapşırıram, ya Rəbbim!..»
(Zəkixan kişinin namazdan sonra qızı Əsmər üçün etdiyi duadan)

«Mən səni sevirəm, Əlifağa! Sənsiz yaşaya bilmirəm. Sənin olmaq, həyatımı ömürlük sənə bağlamaq istəyirəm. İnan mənə, biz ailə qursaq, səni xoşbəxt edəcəm. Ölənə qədər səndən başqa kişi
tanımayacam. Ancaq səni sevəcəm, sənə sədaqətli olacam. Buna bütün namusumla söz verirəm!..» (Şərafət xanımın Əlifağa ilə dördüncü görüşündə ona dediklərindən. 1984-cü il...)

## Əlli altıncı fəsil

- Çıx sinifdən! Çıx rədd ol, gözüm səni görməsin! - Əsmər müəllimə Fətəlini bütün qüvvəsilə şilləleyib sinifdən qovdu.

Uşaqlarla həmişə mehriban rəftar etmiş müəllimə, bəlkə də birinci dəfə idi ki, belə özündən çıxmışdı. Hirsindən bütün bədəni titrəyirdi.

Bu, ikinci növbənin birinci saatı idi. Məktəbdə dərslərin bitməyinə cəmi səkkiz gün qalmışdı və Əsmər müəllimə beşinci sinifdə Azərbaycan tarixindən il ərzində keçdiyi mövzuları təkrar etdirirdi. Hamıdan arxada oturmuş Fətəli isə öz atmacaları, nadinc hərəkətləri ilə dərsi pozur, bacardığı qədər müəlliməni əsəbiləşdirib özündən çıxarmağa
çalışırdı. Axır ki, buna nail oldu. Ona beş-altı dəfə xəbərdarlıq edən Əsmər müəllimə axır ki, özünə nəzarəti itirdi...


downloaded from KitabYurdu.org

Əri müharibədə həlak olandan və meyiti böyük çətinliklə alınıb torpağa tapşırılandan sonra yaman əsəbi olmuşdu. Mahirsiz keçən on dörd ilə yaxın müddət də onun davranışında öz mənfi izlərini buraxmışdı. Gənc qadın üçün heç də asan iş deyildi on dörd il ərsiz yaşamaq. Yenə Mahirin nə vaxtsa qayıdacağına ümidi olsaydı bəlkə də dözmək asan olardı. Amma bu ümid-filan deyilən şey yox idi onun ürəyində. Mahirin çürümüş meyitini öz gözləri ilə görmüşdü və o gündən də küsmüşdü sanki həyatdan...

Gənc idi, özünə görə yarı-yaraşığı var idi. İstəsəydi, ərə gedə bilərdi bu illər ərzində. Hələ,
istəyəni də olmuşdu. Amma Əsmər üçün ərə getmək, mehrini Mahirdən başqa bir kişiyə salıb, gecələr onun qoynuna girmək kimi hisslər yad idi. Belə bir şeyi düşünən kimi Mahir gəlib dururdu gözləri qarşısında. Hələ Mahirin öz sağ-salamat anları olsaydı gözləri qarşısına gələn, yenə yaxşı idi. İstəsə də, istəməsə də onun tabutdakı dəhşətli görkəmini xatırlayırdı həmişə...

Atasının evinə yığışıb bütün fikrini-xəyalını ərinin yeganə yadigarı olan Elşadın böyüdülməsinə, tərbiyə edilməsinə verdi. Bir də məktəbə, şagirdlərinə... Nə yaxşı ki, bu məktəb var idi. Nə yaxşı ki, o vaxt oxuyub, müəllimlik diplomu almışdı. Yoxsa indi halı necə olardı, təsəvvür edə bilmirdi. Necə olmasa, başını qarışdırır, xoşbəxt ola bilmədiyini unutdururdu ona bu işi...

Fətəlinin sinfin qapısını var qüvvəsilə çırpıb dəhlizə çıxması onu narahat etdi. Düşündü ki, döyüldüyünü gedib direktora xəbər versə, yaxşı düşməyəcək. Daha çox isə, evlərinə getməsindən qorxurdu. Ata-anası bilsə aləm qarışacaqdı yenə.


downloaded from KitabYurdu.org

Uşaqların üzünə göz gəzdirdi. Hamısı səsini içinə çəkib qəribə nəzərlərlə ona baxırdı. Anlayırdılar ki, Fətəlinin döyülməsi xoşagəlməz hadisələrə səbəb olacaq. Buna görə də, sevimli müəllimləri üçün narahatlıq keçirirdilər.

Əsmər müəllimə dəhlizə çıxıb ətrafa boylandı. Fətəli görünmürdü. Yenə sinfə qayıtdı. Özünü ələ alıb, bayaq danışdığı mövzuya qayıtmaq istədi. Amma alınmadı. Axırıncı dəfə nədən danışdığını unutmuşdu. Fəal şagirdlərdən birini lövhəyə çağırıb, digər şagirdlərə növbə ilə ona illik mövzulardan sual
verməyi tapşırdı. Sonra keçib öz yerində əyləşdi. Həyəcanını hələ də boğa bilməmişdi. Məqsədsiz olaraq sinif jurnalını vərəqləyir, hərdən də başını qaldırıb, lövhədəki şagirdin üzünə baxırdı. Ona qulaq asmadığı üçün yoldaşlarının suallarına necə cavab verdiyini də bilmirdi.

Dərsin bitməsinə on dəqiqə qalmış cib telefonunun mesaj gəldiyini bildirən musiqisi eşidildi. Əvvəlcə, bunu dərk etmədi. Sonra şagirdlərin ona təəccüblə baxdığını görüb, stolun üstünə qoyduğu çantasına əl atdı və telefonunu çıxartdı. Ekrana baxanda qəlbini bayaqkından qat-qat dərin bir həyəcan bürüdü. Telefonu tutan əli açıq-aşkar titrəməyə başladı: Mesaj Qanturaldan idi!

Ona elə gəldi ki, şagirdlər də başa düşüb bunu. Yersiz olsa da, lövhədəki şagirdin telefonun
ekranından Qanturalın adını oxuya biləcəyindən qorxdu. Qeyri-iradi olaraq, telefonu sinəsinə sıxdı. Onun bu hərəkəti bu dəfə şagirdləri doğrudan da təəccübləndirib şübhəyə saldı.

Bunu anlayan kimi cəld ayağa qalxıb dəhlizə çıxdı.


downloaded from KitabYurdu.org

Dəhlizdə sakitlik idi. Təkcə direktor müavini Arzu müəllimə müəllimlər otağının qabağında dayanmışdı. Dəhlizin geniş pəncərələrindən birinə yaxınlaşıb, ürəyi əsə-əsə mesajı oxudu: «Məktəbdəsənsə, aşağıdakı parka gəl, səninlə vacib söhbətim var».

Bədənini təsvirəgəlməz bir qorxu hissi bürüdü. Dönüb, dəli kimi yan-yörəsinə boylandı. Heç kəs yox idi. Mesajı ondan başqa heç kəs oxumamışdı. Heç kəs bilmirdi bu mesajın ona, polis tərəfindən hər yerdə axtarılan və üç həftəyə yaxın vaxt keçməsinə
baxmayaraq, tapılmayan cinayətkar qardaşından gəldiyini. Amma yenə də ürəyindəki qorxu hissi azalmır, əksinə, getdikcə çoxalıb bütün vücudunu bürüyürdü.

Öz doğmaca qardaşındanmı qorxurdu Əsmər? Bəlkə də...

Qanturaldan indi adını eşidənlərin əksəriyyəti qorxurdu. Beş adam öldürmüşdü o üç həftənin içində. Beş adamın qanına bulamışdı əllərini. Vəfasız və namussuz arvadının, Nihat adlı o xəyanətkar əclafın... Daha sonra isə, əslində heç bir günahı olmayan adamların. Tamerlan adlı o yazıq gəncin, polis mayorunun, Nihatın böyük qardaşının... Çox qəddar bir intiqam almışdı Nihatdan... Qəddar, həm də yersiz, lüzumsuz. Qanturala xəyanət edən, onun namusuna sataşan
Nihat olmuşdu. Bəs qardaşlarının nə günahı var idi? Yəni gözlərini bu qədərmi qan örtmüşdü Qanturalın? Yəni doğrudanmı, artıq qorxunc bir qatilə çevrilmişdi qardaşı ?

Amma yox! Əsmər müəllimə daha çox qardaşı üçün həyəcan keçirirdi. Daha çox onun tutulacağından, ömürlük həbs ediləcəyindən, yaxud əks tərəfin intiqamına tuş


downloaded from KitabYurdu.org

gələrək, öldürüləcəyindən qorxurdu.

Belə çıxırdı ki, o indi məktəbdən bir qədər aşağıda yerləşən, iri ağacların kölgə saldığı köhnə bağdadır. Bacısı ilə görüşmək istəyir. Görəsən, nə deyəcəkdi ona? Hər halda, nəsə bir köməyə ehtiyacı var... Yoxsa riskə gedib bacısını görüşə çağırmazdı. Risk isə açıq-aşkar idi bu işdə. Qardaşını canından artıq sevən Əsmər mesajı oxuyarkən həyəcanlanıb
sirri aça bilərdi və beləliklə özünü də, Qanturalı da çıxılmaz vəziyyətə salardı.

Qantural qaçaq düşəndən sonra ailənin digər üzvləri kimi Əsmərin də gecəsi-gündüzü yox idi. Yerindən-yurdundan heç cür xəbər tuta bilmədiyi qardaşı üçün keçirdiyi qorxu və narahatlıq onu üzüb əldən salmışdı.

İndi isə, nəhayət ki, görə biləcəkdi onu. Amma doğrusu, ona nə münasibət göstərəcəkdi, nə danışacaqdı, özü də bilmirdi. Günahsız insanların qanını tökdüyü üçün qınayacaqdımı onu, ya qabağında diz çöküb polisə könüllü təslim olmağını istəyəcəkdi? Ya bəlkə də özünü qorumağını, daha yaxşı gizlənməyini, yaxud xarici ölkələrə qaçmağını israr edəcəkdi? Bir də ki, Qantural onun sözünə baxardımı? Yəqin ki, yox! İndi onun öz fikri, öz dəqiq
planı var idi və atası da gəlsəydi onu yolundan döndərə bilməzdi. Həmişə belə olmuşdu Qantural. Dediyindən döndərə bilməmişdi heç kəs onu. Müharibəyə gedib gələndən sonra isə lap tərs xasiyyətli olmuşdu.

Bütün bunlar öz yerində, Qantural Əsmərin qardaşı idi. Onu görüşə çağırırdısa, mütləq getməliydi. Həm də yubanmaq olmazdı. Qanturalı parkda görüb, tuta bilərdilər.



downloaded from KitabYurdu.org

Sinfin qapısını açıb, şagirdlərə sakit oturmağı tapşırdı və dəhliz boyu sürətlə yeriməyə başladı. Daha doğrusu, özündən asılı olmayaraq, qaçırdı. Birinci mərtəbəyə düşən pilləkəndə Arzu müəllimə ilə rastlaşdı. Onun təəccüb dolu baxışlarına cavab olaraq:

- Vacib işim var. Bu saat qayıdacam! - deyib direktor müavininin cavabını gözləmədən qapıya doğru yüyürdü.

Əlli yeddinci fəsil

Bu vaxt məktəbin darvazasından bir qədər kənarda, küçənin qırağında « Qaz-31» markalı bir avtomobil dayanmışdı. Maşında oturmuş iki nəfər kişi gözlərini darvazaya dikmişdilər. Bunlar Balta Xanəlinin adamları idilər.

Onlar buraya Xanəlinin göstərişini yerinə yetirmək üçün gəlmişdilər. Ələkbərin oğlu Vahidi qaçırmağa. Xanəli bu qəti qərara dünən gəlmişdi. Düşünmüşdü ki, qardaşı oğlunun oğurlandığını və ölüm təhlükəsi altında olduğunu eşidən Qantural ya gedib polisə təslim olacaq, ya da uşağı xilas etmək üçün onun yanına gələcək. Əslində, o, ikinci variantın baş tutmasını daha çox arzulayırdı. İstəyirdi
ki, Qantural onunla gizli bir yerdə təkbətək döyüşə çıxsın. O özünə arxayın idi və bilirdi ki, namərdcəsinə zərbə endirməyə adət etmiş bu qatillə açıq şəkildə üz-üzə gələrsə, onu öldürüb günahsız yerə qətlə yetirilmiş qardaşlarının intiqamını ala biləcək.

- Bu gədə, deyəsən, gəlməyəcək! - sükanın arxasında oturmuş Qulu dilləndi. - İndiki uşaqlar bizdən çox bilirlər.

- Hə! - Ramiz onun sözünü təsdiq etdi. - İndi bu ailə işlərini çox ehtiyatlı tutur. Gördün, evdən də bibisi ilə çıxdı



downloaded from KitabYurdu.org

uşaq. Lap yəqin, qayıdanda da onunla qayıdacaq.

Onlar bu gün əvvəlcə Zəkixanın evinin qarşısına getmiş, maşında dayanıb evi güdmüşdülər. Vahid evdən Əsmər müəllimə ilə birlikdə çıxmış, avtobus dayanacağına doğru getmişdilər. Uşağı burada qaçırmağın mümkün olmayacağını görən Səlahəddin maşını məktəbə sürməyi əmr etmişdi. Darvazanın yanında bir şagirdi saxlayıb, Vahidə atasının onu küçədə gözlədiyini çatdırmağı xahiş etmişdilər. Amma artıq bundan yarım saat keçmişdi və Vahid gəlib çıxmırdı.

- Ora bax! - Qulu darvazadan çıxan uşağı yoldaşına göstərdi- Xanəlinin oğludur!

Fətəli bir qədər səkidə dayanıb, sanki, nəsə fikirləşdi. Sonra küçəni keçib o biri tərəfdəki səki ilə addımladı və dönüb yaxındakı internet-kluba girdi.

- Sən bir buna bax! - Ramiz ucadan səsləndi. - Dərsdən qaçıb kompüterlə oynamağa gedir. Atası da arxayındı ki, oğlunu dərsə göndərib.

- Xanəliyə deməyəsən ha! - Qulu Fətəlini müdafiə etmək istədi. - Uşaq olmamısan?

- Olmuşam, amma...

Gözlərinə qara eynək taxmış Səlahəddin qapını açıb arxadan maşına oturdu. O, az əvvəl yaxındakı köşklərin birindən siqaret almaq üçün çıxmışdı.

Aldığı siqaret qutusundan bir siqaret götürüb yandırdı və:

- Çıxmadı? - deyə soruşdu.

- Yox hələ! - Qulu cavab verdi. - Belə getsə, deyəsən, heç çıxmayacaq.

- Çıxacaq! - Səlahəddin arxayın dilləndi. - Dərs qurtaranda da olsa, çıxacaq. Hər halda, biz Xanəlinin


downloaded from KitabYurdu.org

yanına əliboş qayıtmayacağıq!

Qulu da, Ramiz də buraya, əslində könülsüz gəlmişdilər və görəcəkləri bu işin məsuliyyətini az-
çox dərk edirdilər. Onlar qeyri-qanuni olsa da, şəxsi qoruyucu kimi işə düzəlmişdilər. Ağaşamil ailəsindən hər hansı birini qorumaq üçün, lazım gələrsə, vuruşmağa da hazır idilər. Yerinə yetirməli olduqları bu tapşırıq, yəni başqasının uşağını oğurlamaq isə onların vəzifəsinə aid deyildi.

Amma başqa çarələri də yox idi. Xanəlidən və bəlkə də daha çox arxada oturmuş sallaq bığlı, gözünə qara rəngli eynək taxmış bu adamdan çəkinirdilər. Eşitmişdilər ki, Səlahəddin Ukraynada hansısa qanuni oğrunun cangüdəni olub. Onu da bilirdilər ki, başçıları olan bu şəxs Balta Xanəlinin yaxın adamıdır. Xanəlinin rəhmətlik qardaşı Nihatla əsgər yoldaşı olub.

- Bircə Qantural özü əlimə keçsəydi, - yaranmış sükutu yenə Səlahəddin pozdu. - Başına
bir güllə çaxardım, hər şey qurtarıb gedərdi. Daha burada uşaq-muşaqla oynamazdıq.

Qulu ilə Ramiz dinmədilər. Getdikcə daha kəskin xarakter almaqda olan bu qan düşmənçiliyi onları açıq-aydın narahat edirdi. Onların nəyinə lazım idi axı belə bir qorxulu işin içinə girmək? Düzdür, Xanəli yaxşı məvacib verəcəkdi onlara. Amma aylıq məvacib üçün belə cinayətlərə baş qoşmaq doğrudanmı vacib idi? Səlahəddin heç! O, hiss olunurdu ki, belə işlərlə az məşğul olmayıb. Hələ bəlkə adam da öldürüb Ukraynada olanda. Bir də ki, Qanturalı özünə də düşmən hesab edir o! Əsgərlik dostunu öldürdüyü üçün. Bəs Qulu ilə Ramizə nə vacib düşmüşdü



downloaded from KitabYurdu.org

Qanturalın yaxınlarına pislik etmək?

Bir neçə dəqiqə keçdi və birdən məktəbin darvazasından çıxan Əsmər müəlliməni gördülər. O, şübhəli nəzərlərlə ətrafına baxıb sağa buruldu və iti addımlarla üzü aşağı getməyə başladı.

- Bu Qanturalın bacısı deyilmi? - qadını arxadan pis nəzərlərlə süzən Səlahəddin soruşdu.

- Hə, bayaqkı qadındır. - Ramiz dedi.

- Sür arxasınca! - Səlahəddin Quluya göstəriş verdi.

Qulu maşını hərəkətə gətirib küçənin qırağı ilə asta-asta sürməyə başladı. Bir az gedəndən sonra Əsmər burulub bağa doğru addımladı.

- Deyəsən, bağa gedir...- Qulu astadan dedi.

Bütün diqqəti qadında olan Səlahəddin yenə göstəriş verdi:

- Ondan çox geri qalma! Arxasınca bağa girəcəyik!

- Bu bizim nəyimizə lazımdır axı? - Qulu soruşdu.

- Qardaşı oğlunun əvəzinə bunu qaçıracağıq. - Səlahəddin soyuqqanlılıqla dilləndi. - Allah özü yetirdi bunu bizim üçün. Belə fürsət həmişə ələ düşmür.

- Axı Xanəli bizə uşağı tapşırıb?! - Ramiz narazılıqla arxaya boylanıb başçılarına baxdı.

- Hə! - Qulu da onunla həmfikir olduğunu bildirdi. - Baltanın xoşuna gəlməz bu iş!

- Xanəli nə tapşırıbsa, mənə tapşırıb, sizə yox! - Səlahəddin acıqlandı. - Gir bağa!

Dar bir maşın yolu bağı ortadan iki yerə ayırırdı. Əsmər də həmin bu yola təzəcə girmişdi. Yavaş hərəkətlə arxasınca düşmüş maşından xəbəri yox idi. Qocaman ağacların kölgə saldığı yolda adam- insan



downloaded from KitabYurdu.org

görünmürdü. Maşın Əsmərə lap yaxınlaşanda qadın səs eşidib geriyə baxdı və cəld sağa çəkilib ona yol vermək istədi.

Səlahəddin həmin andaca maşını saxlatdırıb yerə sıçradı və bir göz qırpımında qadını qamarlayıb içəri necə saldısa Qulu da, Ramiz də buna məəttəl qaldılar. Onlar hələ özlərinə gəlməmiş, əli ilə Əsmərin ağzını tutan Səlahəddin:

- Dayanma, sür! - deyə çığırdı.

Maşın hərəkətə gəlib o biri başdan küçəyə çıxmaq üçün bağın içi ilə irəliyə doğru getdi. Bu zaman Əsmər qardaşını görə bilmək ümidi ilə maşının pəncərələrindən bağa baxmaq istədisə də
Səlahəddinin qüvvətli əlləri başını oturacağa doğru basdığı üçün, bu mümkün olmadı...

Əlli səkkizinci fəsil

Xanəli evdə tək idi. Böyük qardaşı Cahangirin ölümündən və atasının bu faciəyə dözməyib infarkt keçirməsindən sonra, Qanturaldan layiqli intiqam alacağına söz verdiyi üçün qızlarını və Həmidəni, gizli olaraq, dostlarından birinin evinə göndərmişdi. Qarşısına qoyduğu planları həyata keçirmək üçün işini ehtiyatlı tutmağa çalışırdı. Hündür hasarla əhatə olunmuş bu ikimərtəbəli həyət evində, onunla ancaq Fətəli qalırdı ki, o da indi məktəbə getdiyi üçün evdə deyildi.

Artıq bir həftə idi ki, onsuz da dərs ilinin sonu olduğunu bəhanə edib qızlarını məktəbdən ayırmışdı. Elə Həmidə özü də onun təhrikilə
həkimdən bülleten götürmüşdü. Fətəlini isə məktəbdən, yoldaşlarından ayırmaq çətin məsələ idi və həm də atası



downloaded from KitabYurdu.org

arxayın idi ondan. Bilirdi ki, onu aldadıb tora salmaq o qədər də asan deyil.

Maşın səsini eşidib həyətə düşdü. Səlahəddingil artıq içəri girib darvazanı bağlamışdılar. Ələkbərin oğlunu görmək həvəsilə maşına yaxınlaşan Xanəli uşağın əvəzinə tanımadığı qadını görüb heyrətlə adamlarına baxdı və:

- Bu qadın kimdir? - deyə soruşdu.

- Qanturalın bacısıdır. - Səlahəddin cavab verdi. - Əsmər... Ələkbərin oğlunu izlədiksə də qaçırmağa imkan olmadı. Bunu təklikdə tutduq. Heç kəs görmədi.

Xanəli hirsindən dodaqlarını gəmirdi. O, namus məsələsində, atası kimi, həddindən artıq ciddi idi və belə hərəkətləri qəbul edə bilməzdi. Qantural onun üç qardaşını öldürsə də, bu hələ ona haqq vermirdi ki, Qanturalın namusuna sataşsın. Onsuz da, Nihatın hərəkətinə görə diliqısa, gözükölgəli idilər tanış-biliş arasında. Eşidən-bilən nə deyərdi onlara?! Üstəlik, bu qadın Fətəlinin müəllimi, sinif rəhbəri idi. Xanəli indiyədək onun üzünü görməsə də, adını evdə çox eşitmişdi.

Səlahəddini başının işarəsilə çağırıb evin arxasına apardı. Onun yaxasından yapışıb, qəzəblə:

- Ə, tülküyə oxşayan köpək oğlu, - dedi. - Mən sənə onun bacısını gətir, demişdim?

Səlahəddin dartınıb onun dəmir məngənəyə oxşayan güclü əlindən qopmağa çalışdı:

- Əlini çək, Xanəli!
- Kəs səsini, qancığın doğduğu!

Xanəlinin çənəsindəki çapıq tərpənməyə başlamışdı və Səlahəddin onu hələ az tanımağına baxmayaraq, bilirdi ki,


downloaded from KitabYurdu.org

bu vəziyyətində onun səbri ilə oynamaq heç kəsə xeyir verməz. Mülayim səslə:

- Anama söymə. - dedi. - Çək əlini yaxamdan!

Xanəli əlini çəkməyinə çəkdi. Amma həmin daş kimi ağır əliylə Səlahəddinin üzünə vurduğu zərbə o qədər qüvvətli alındı ki, Səlahəddin yıxılmamaq üçün divardan yapışmalı oldu. Partlamış alt dodağından süzülən qan çənəsinə doğru axırdı.

O, əli ilə çənəsinin qanını silib qəribə nəzərlərlə Xanəliyə baxdı:

- Məni niyə vurursan, Xanəli qədeş? Mən nə günah iş tutmuşam axı? Nə eləmişəmsə səni, sənin ailəni düşünüb eləmişəm.

Vurduğu şillədən sonra hirsi azacıq soyumuş Xanəli ona ikrahla baxdı:

- Mən səni kişi hesab edirdim. Elə bilirdim, ailəmi-uşağımı da etibar edə bilərəm sənə!

- Vallah, mən sənə sadiqəm, Xanəli qədeş! - Səlahəddin əyilib onun bayaq şillə vurduğu əlindən öpdü. - Sən mənə çörək verirsən, üstəlik də rəhmətlik Nihatın qardaşısan.

- Gördüm sədaqətini!

Xanəli kinayəli səslə bu sözləri deyib yaxındakı taxta oturacağa tərəf addımladı. Əyləşən kimi Səlahəddin onun yanına gəlib müti halda qarşısında dayandı:

- Xanəli qədeş, əgər səhvim olubsa, keç günahımdan! İnan mənə, uşağı çox gözlədik, çıxmadı küçəyə. Birdən gördük ki, bu qadın darvazadan çıxıb parka tərəf gedir. Fikirləşdim ki, onu qaçırsaq, daha sərfəli olar sənin üçün. Zəkixan qızının



downloaded from KitabYurdu.org

girov götürüldüyünü bilən kimi harada olsa, Qanturalı üzə çıxaracaq. Amma Ələkbərin oğlundan ötrü bu işi eləməyə də bilər.

Xanəli ona çəp-çəp baxdı:

- Elədi, eləmədi, heç kəs bunu mənə bağışlamaz ki, Balta Xanəli gedib Zəkixanın qızını qaçırıb. Özü də nə məqsədlə? İntiqam almaq üçün!

Səlahəddin başını buladı:

- Xanəli, qurban olum sənə, Qantural sənin üç qardaşını öldürüb. Üç dağ boyda qardaşını! İkisinin balalarını yetim, arvadlarını dul qoyub, birinin nişanlısını gözü yaşlı! Sən isə başlamısan onun qeyrətini çəkməyə! Mən rəhmətlik Nihatı yaxşı tanıyırdım. Hər cəhətdən canlara dəyən oğlan idi o!

Qanturalın pozğun arvadı onu yoldan çıxarmasaydı, Nihat ömrü boyu elə əskik iş tutmazdı. Lap onu qoyaq kənara! Tamerlan bədbəxtin nə günahı var imiş? Ya Cahangirin? Mən indiyədək tanış olduğum adamlar içində Cahangir qədər mədəni, gözəl insana rast gəlməmişdim. Qantural nə səni, nə atanı, nə bizi adam yerinə qoyur. İstədiyini eləyir. Nə tutub dama basan var, nə təpəsinə bir güllə vurub canını çıxaran!

Xanəli başını əllərinin arasına alıb fikrə getdi. Onun fikrincə, Səlahəddinin sözündə həqiqət çox idi. Qantural dalbadal onun üç qardaşını öldürmüşdü və üçünün də qanı hələ yerdə qalırdı. Xanəli dost-tanış arasında rüsvay olsaydı, buna görə rüsvay ola bilərdi. Qanturalın bacısını girov götürdüyünə görə yox! Qoy bacısının qeyrətini Qantural özü çəksin!

Qoy kişiliyi varsa, gəlib bacısını ondan tələb etsin.



downloaded from KitabYurdu.org

Yoxsa... Bəs idi daha! Xanəli heç nədə güzəştə getməyəcəkdi Zəkixan ailəsinə! Heç nədə! Qoy nə bacarırlarsa, eləsinlər. Qoy bilsinlər ki, Balta Xanəlinin qardaşını öldürmək nə deməkdir! Amma namussuzluq da etməyəcək Xanəli. Bu ad onlara yaraşır, Ağaşamilin ailəsinə yox! Heç bu saat xəstəxanada yatan atası da bağışlamaz ona namussuz hərəkəti.

Başını qaldırıb Səlahəddinə baxdı:

- Düzünü de, bu qadına qarşı artıq-əskik hərəkət etməmisiz ki?

-Yox! - Səlahəddin qətiyyətlə başını buladı. - Birbaş buraya gətirmişik.

Xanəli nəyin barəsindəsə bir az düşünüb, əmr etdi:

- Onun qollarını bağlayıb mənim maşınıma otuzdurun. Bir də bir döşəkcə, bir az çörək, su qoyun maşına. Onu özüm aparıb gizlədəcəm. Sizə etibar edə bilmərəm. Amma deyəcəyim vaxta qədər qardaşı üzə çıxmasa, onu sən öldürəcəksən! - Bir an sözünə ara verib əlavə etdi: - Mən qadına əl qaldırmaram!

Səlahəddin cəld maşının yanına getdi. Ağzına yapışqanlı sarğı yapışdırılmış Əsməri çıxarıb Xanəlinin maşınına mindirdilər. Yanına da bir döşəkcə və sellofan torbada ərzaq qoyub bu barədə Xanəliyə xəbər verdilər.

Xanəli ayağa qalxıb evin qabağına gəldi. Əmrə müntəzir dayanmış adamlarını sınayıcı nəzərlərlə süzüb dilləndi:

- Sizdən hansınızsa bu barədə bir kəlmə söz ağzından qaçırsa, qardaşlarımın ruhuna and içirəm, tikə-tikə


downloaded from KitabYurdu.org

doğrayıb hər tikəsini Bakının bir tərəfinə atdıraram!

Sonra üzünü ancaq Səlahəddinə tutdu:

- Zəkixana zəng vur, qoy bu gün saat dörddə oğlanları ilə zooparkın yaxınlığındakı şamlıqda olsunlar. Onlarla özüm danışacam!

Səlahəddin:

- Baş üstə! - deyib darvazanı açmağa getdi.

Xanəli maşına oturdu və qara «Nissan» onun üçün açılmış darvazadan çıxıb naməlum istiqamətə yola düşdü.

Əlli doqquzuncu fəsil

Elə həmin vaxtlarda Əlifağa Sadıxovun dənizkənarı malikanəsində işləyən fəhlələr küçədən gələn siqnal səsini eşitdilər. Umud tələsik darvazaya tərəf yüyürüb onu açdı. Nəcməddin qara rəngli «Ford- Mondeo»dan düşüb əlindəki ərzaq dolu zənbili Umuda verdi və tələsik həyətə daxil oldu. Umud da onun arxasınca həyətə keçdi. O, maşında qalan bir nəfər yad adamı maşının qara rəngli şüşələrindən görə bilmədiyi üçün Nəcməddinin buraya tək gəldiyini düşünürdü. Həmin adam Nəcməddinin etibarlı adamlarından biri idi və Nəcməddin ona maşından düşməməyi tapşırmışdı.

Tez qayıdacağını dedi və darvazanı içəridən bağlamadılar. Umud zənbili aparıb tikintisi başa çatmamış üçmərtəbəli villanın arxasındakı kiçik evdə Şərafət xanıma verdi. Həyətdə Umudla Yaqubdan və ev sahibəsindən başqa heç kəs yox idi. Villanın daş işini görüb qurtarmış bənnalar pullarını alıb getmiş, suvaq işlərini görəcək ustalar isə hələ gəlib çıxmamışdılar. Onlar, hazırda başqa yerdə işləyirdilər və əllərindəki işi qurtaran kimi gəlib



downloaded from KitabYurdu.org

binanın daxili suvaq işinə başlayacaqlarına söz vemişdilər. Umudla Yaqub isə artıq iki ay idi ki, hər gün buraya gəlib onlara tapşırılan xırda-xuruş abadlıq işlərini görürdülər. Onların işinə nəzarəti yenə də ev sahibəsi özü edirdi.

Nəcməddin Şərafət xanımla salamlaşıb, Əlifağa müəllimin bu gün bağa gəlməyəcəyini dedi və
həyətdə bir qədər gəzişib, guya ki, görülmüş işləri gözdən keçirtdi. Daha sonra, hələ pəncərələri də salınmamış villaya girdi. Səbirlə üçüncü mərtəbəyə çıxıb dənizə baxan eyvana adladı. Bir siqaret yandırıb Xəzərə tamaşa etməyə başladı. Çimərlik mövsümü hələ başlamadığı üçün dənizin sahilində tək-tək adam gözə çarpırdı. Göz işlədikcə uzanan dəniz, demək olar ki, tam sakit idi. Yalnız sahilə yaxın yerlərdə çox kiçik ləpələr gözə dəyirdi.

Siqaretini çəkib qurtarandan sonra çılpaq otaqların birinə keçib pəncərədən həyətə baxdı. Şərafət xanım görünmürdü. Yəqin ki, müvəqqəti yaşayış üçün tikilmiş evin içində idi. Umudla Yaqub isə hasarın yanında işləyirdilər. Elə yerdə idilər ki, onların dayandığı yerdən darvaza görünə bilməzdi.

Nəcməddin cib telefonunu çıxarıb, maşında əyləşmiş adama zəng vurdu və qısaca olaraq «
Gedə bilərsən!» deyib telefonu qapadı. Bir neçə saniyə sonra darvaza açılıb bərkdən örtüldü. Elə bərkdən ki, fəhlələr onun səsini eşidib arxaya boylandılar. Sonra maşın səsi gəldi və «Ford- Mondeo» uzaqlaşıb getdi.

Nəcməddin pəncərələrdən birinin qarşısında elə dayandı ki, həyətdən baxan olsa, onu görməsin. Özü isə darvazaya tərəf gedən yolu nəzarətdə saxlamağa başladı. Az keçmiş, Umud gedib darvazanın cəftəsini vurdu və


downloaded from KitabYurdu.org

dönüb yoldaşının yanına qayıtdı. İstefada olan polis mayoru yenə bir siqaret yandırıb otaqda gəzişməyə başladı. Arada bir pəncərəyə yaxınlaşıb ehtiyatla həyətə göz qoyurdu.

O, bir neçə gün bundan əvvəl ürəyinə dolub rahatlığını əlindən almış bir şübhəni dəqiqləşdirmək istəyirdi. Həmin gün nahardan az sonra buraya gələn Nəcməddin darvazanı döyüb, maşının siqnalını bir neçə dəfə səsləndirsə də darvaza çox gec açılmışdı. O, eyni zamanda, darvazanı açan Umudun sifətindəki çaşqınlıqdan da bəzi şeylər anlamışdı.

Nəcməddin, əgər ev sahibəsini yaxından tanımasaydı, bəlkə də hər xırda şeydən şübhəyə düşməzdi. Ancaq o, polisdən istefaya çıxandan sonra beş il idi ki, Əlifağa Sadıxovun yanında işləyirdi. Bu müddət ərzində Əlifağa onu sınaqdan keçirib, sədaqətinə inanmış və bütün biznes işlərini ona həvalə etmişdi. Sadıxovun ailə üzvlərindən birinə çevrilmiş Nəcməddin ilk vaxtlardan Şərafət xanımın ona ovsunlayıcı baxışlarla baxdığını görüb, bunu ciddiyyətlə qarşılamış, ehtiraslı qadının toruna düşməmişdi.

«Ən böyük biclik düzlükdür» teoreminə ürəkdən inanan Nəcməddin şefinin ona yüksək məvacib verdiyini və beləliklə, ömürlük təmin olunacağını görüb Sadıxova həmişə sədaqətli olmağa qərar vermişdi. Bir də ki, qadın düşkünü deyildi. Bu cinsə nə elə bir inamı, nə də elə bir marağı var idi. Yenicə tanış olduğu Məltəm onun qadınlara olan marağını xeyli artırsa da, inamını bir az da azaltmışdı.

Nəcməddin, hələ istefaya çıxmamışdan bir az əvvəl, arvadından ayrılmışdı. Arvadı iki uşağını da götürüb



downloaded from KitabYurdu.org

Gürcüstanda yaşayan qardaşının yanına getmişdi. Tamamilə tək yaşayan Nəcməddin, Əlifağaya rast gələndən sonra, əslində, bütün vaxtını
ona xidmətə həsr edirdi. Onun özündən təxminən on-on iki yaş böyük olan Əlifağaya təmənnasız hörməti var idi. Bu ağır təbiətli və eyni zamanda sadə adama can-başla qulluq etməkdən zövq alırdı.

Elə bu gün Şərafət xanımı güdüb, şübhələrinin nə dərəcədə düzgün olduğunu yoxlamaqda məqsədi də hörmətli şefinin namusunu qorumaq istəyindən başqa bir şey deyildi. Həm də, Əlifağa müəllimin sevimli və yeganə övladının faciəli ölümündən sonra kişiyə daha çox canı yanır, onun qulluğunda daha ürəkdən durmağa çalışırdı.

Amma Rafiqin ölümündən sonra Sadıxovun davranışında bəzi dəyişikliklər hiss edirdi. Ona elə gəlirdi ki, şefi artıq nələrisə ondan gizlədir. Əvvəllər Sadıxovun hər dəqiqəsindən xəbəri olurdusa, indi hətta bəzi saatlarından xəbərsiz olurdu. Duyurdu ki,
Əlifağa daha vacib işlərini onunla yox, başqalarıyla görür. O, heç bu vacib işlərin, əslində nədən ibarət olduğunu da bilmirdi.

Sadıxovun hərəkətlərindəki bəzi məqamlar isə, keçmiş polis işçisi olan Nəcməddinə, ümumiyyətlə, aydın deyildi ki, bunlar da, əsasən, oğlunun müəmmalı qətli ilə bağlı məqamlar idi.

Rafiq öldürüldü... Əlifağa da, Nəcməddin də, hətta polis də cinayətdə Salehi şübhəli bildilər və o həbs edildi. Bu işdə Şərafət xanımın adının hallanmaması üçün Nəcməddin də bacardığını etdi. İşi elə qurdular ki, guya Salehi bıçaqla Şərafət xanım yox, Rafiq vurub.


downloaded from KitabYurdu.org

Həmin vaxt Nəcməddinin yerində bir başqası olsaydı, bəlkə də Salehin öz şefinin arvadına sataşmasına inanmazdı. Deyərdi ki, Saleh kimi sakit,
mədəni, ağıllı bir adam belə iş tutmaz. Onun necə bir gözəl arvadı olduğunu görənlər isə bunu açıq-aydın böhtan hesab edərdilər. Amma Nəcməddin o gecə inandı Şərafət xanıma. Salehin sakit, mədəni, ağıllı bir adam olduğunu, arvadının Şərafət xanımdan yüz qat gözəl olduğunu bilə-bilə inandı. Birincisi ona görə ki, o gecə düşünməyə, şübhələnməyə vaxt yox idi. Nəcməddin yalnız öz şefinə və onun xanımına əlindən gələn köməyi etmək barədə fikirləşirdi.
İkincisi də, Nəcməddin uzun illər polisdə işləmişdi və onda belə bir qəti fikir formalaşmışdı ki, heç bir adam barəsində «0 belə bir iş tutmaz!» sözünü demək düzgün deyil. Keçmiş polis əməkdaşı yaxşı bilirdi ki, istənilən insanın qəlbinin dərinliklərində heyvani hisslər yaşayır və onun nə vaxtsa üzə çıxması şəraitdən çox asılıdır.

Amma hər halda, o polis kapitanının sözü olmasın, həyatda məntiq deyilən bir şey də var ki, ondan kənara çıxan fikirləri normal insan beyni qəbul edə bilmir. Necə oldu axı, həmin ağıllı Saleh, həmin sapsağlam Saleh birdən-birə ağlını itirib Şərafət xanıma hücum çəkdi və o da bıçağı qapıb bunu vurdu. Özü də kim? Şərafət xanım! İnanılası şey deyil axı bu?

Nə isə !.. Sonra həmin əməliyyat müvəkkili kapitan Allahverdi Əbilov ortaya çıxdı. Bütün gücünü işə salıb Salehin günahsız olduğunu sübut edən dəlillər gətirməyə başladı. O, bəzi suallarına cavab almaq üçün Sadıxovun evinə gəldi və axıra qədər dinlənilmədən təhqir edilib


downloaded from KitabYurdu.org

qovuldu. Əlifağa sonra onu dinləsə də fikirlərilə razılaşmadı. Salehin qatil olması fikrinin üstündə dayandı və Əbilovu
cinayətkarı qərəzli şəkildə müdafiə etməkdə təqsirləndirdi.

Amma həmin gün kapitan Əbilov otaqdan çıxandan sonra Əlifağa Amerika siqarını sümürə- sümürə xeyli fikrə getdi. Nədənsə, lap çox fikirləşdi onda. Sonra isə siqarını təmkinlə stolun üstündəki külqabına basıb söndürdü və qarşısında müntəzir dayanmış Nəcməddinə belə bir əmr verdi:

- Nəcməddin, mən sənin təcrübənə də, qabiliyyətinə də inanıram. Bu gündən bütün işlərini kənara atıb, özün təhqiqat apar! Mənim oğlumun kim tərəfindən, necə şəraitdə və hansı səbəbə görə öldürüldüyünü öyrən! Bu iş üçün sənə bircə həftə vaxt verirəm!

Nəcməddin onda əlindən gələni edəcəyi barədə şefinə söz verdi və fəaliyyətə başladı...

Allahverdi Əbilovun gətirdiyi əsas dəlillərdən biri bu idi ki, Rafiq öz dostu Fuadla restorandan saat 2- də çıxıb və Fuad ondan həmin vaxt ayrılıb. Ölüm isə, guya saat 17:20-də baş verib. Belə isə aradakı üç saatdan çox müddətdə Rafiq harada olub?

Nəcməddinin fikrincə, əslində bacarıqlı təhqiqatçı olan Əbilov bu suala ona görə cavab tapa bilməmişdi ki, Fuad onun öz rəisinin oğlu idi və onu lazımi qaydada istintaq etməyə imkanı yox idi. Fuadı yalnız bir dəfə rəisin kabinetində öz atasının yanında danışdırıblarmış... Fuad deyibmiş ki, Rafiqdən restorandan çıxan kimi ayrılıb və guya onun haraya getdiyindən xəbəri yoxmuş. Müstəntiqin də, kapitan Əbilovun da ona inanmaqdan başqa çarələri


downloaded from KitabYurdu.org

qalmayıb...

Nəcməddin isə başqa üsula əi atdı. O, Sadıxovun adamları vasitəsilə Fuadı, gizli olaraq, şəhər kənarındakı gölün yanına apartdı... Orada şəxsən özü maşında oturub üzünü göstərmədən onu danışdırdı. Öldürülüb gölə atılacağından əməlli-başlı qorxuya düşən Fuad bildiklərini Nəcməddindən gizlətmədi.

Nəcməddin Fuadın danışdıqlarından belə bir nəticə çıxartdı ki, Saleh bu işdə tamamilə günahsızdır. Hətta əsl cinayətkarın kim olduğunu özlüyündə dəqiqləşdirdi və həmin adamın adını Sadıxova bildirdi. Ən maraqlısı və hətta qəribəsi bu oldu ki, Əlifağa onun istintaqının nəticəsinə inanmaq istəmədi. Yenə də Salehin qatil olması fikrinin üstündə durub öz son və qəti qərarını verdi.

Bir az keçmiş Saleh belə bir ağır cinayəti boynuna aldı və ya boynuna qoydular, axır ki, məhkəmədə öz ifadəsi əsasında azadlıqdan məhrum edilib koloniyaya göndərildi. Özü də nə az, nə çox, düz on bir il iş kəsdilər bədbəxt oğluna...

Bax, Nəcməddin öz şefinin bu işini və bundan sonrakı müəmmalı davranışını anlaya bilmirdi. Bəlkə Salehlə Şərafət xanım arasında olan məsələyə görə sürücüsündən belə amansız intiqam aldı Əlifağa? Ola bilər... Sadıxov kinli adam idi və Salehin arvadını kafeyə gətirib Nəcməddinin yanına salması da bunu göstərirdi. Sadıxov Salehin onun namusuna sataşmasını heç cür bağışlaya bilmirdi. Məltəmlə kafedə olan ilk intim görüşdə, qadın özü boynuna almasa da, Nəcməddin onunla Əlifağanın arasında nəsə olduğunu hiss etmişdi. Hiss etmişdi ki, Məltəm



downloaded from KitabYurdu.org

Əlifağaya nifrət edir və bəlkə də bu nifrətə görə ilk dəfə şefinin malikanəsində görərkən abrına, həyasına valeh olduğu qadın ona könüllü təslim olmuşdu.

Yaxşı, tutaq ki, Saleh Əlifağanın arvadına sataşıbmış və o da Salehdən bunun intiqamını almaq istədi. Ancaq bu o demək deyildi ki, sevimli oğlunun əsl qatili azadlıqda gəzsin?! Niyə axı Əlifağa o adamın həbs edilməsini istəmədi? Niyə axı ondan oğlunun intiqamını almaq üçün heç bir təşəbbüs göstərmədi? Ya bəlkə doğrudan da Fuadın Nəcməddinə danışdıqlarını ciddi qəbul etməmişdi? Axı niyə?

Amma bu işdə ardıcıl olaraq özünü göstərən bəzi təsadüflər də Nəcməddini düşünməyə vadar
edirdi. Yəni bütün bunlar həyatın qəribə təsadüfləri idimi?

Aprelin 23-nü xatırladı. Oraya yalnız o rus jurnalistinə görəmi yığışmışdılar? Nihat, Əlifağanın sürücü kimi yenicə işə götürdüyü Qantural, Məltəm, o rus qadını... Qəribə idi vallah, Salehi də sürücülüyə Nihat təklif etmişdi, Qanturalı da! Axırda ikisi də qatil çıxdı...

Nəcməddin bütün bunları fikirləşəndə az qalırdı dəli olsun. Sən bir işə bax! Qantural mənzilində Nihatı öz arvadı ilə görür və hər ikisini qətlə yetirir. Sonra isə bununla intiqam hissi soyumur və Nihatın iki günahsız qardaşını öldürür. Dördbarmaq Ağaşamil başına gələn bu müsibətə dözməyib infarkt keçirir və xəstəxanaya düşür... Polis gecə-gündüz Qanturalı axtarır və tapa bilmir...

Yaxşı, bəs o rus qadın kim idi? Natalya... Doğrudanmı öz qəzetinə material hazırlamaq üçün gəlmişdi Bakıya? Nəcməddinin heç xoşu gəlməmişdi ondan. Bir qadın təravəti deyilən şey yox idi sifətində. Amma Əlifağa


downloaded from KitabYurdu.org

ceyran kimi Məltəmi Nəcməddinə verib, onunla özü girdi görüş otağına. Yəni şefinin doğrudanmı xoşu gəlirdi ondan? Bilirdi ki, Əlifağanın daha çox rus qadınlarından xoşu gəlir. Ancaq daha beləsindən də yox ki?! Ya bəlkə onunla, sadəcə, təklikdə söhbət etmək istəyirdi həmin otaqda?.. Oradan çıxandan sonra Əlifağa həmin qadını öz adamlarından birinə tapşırıb harasa göndərdi. Deyəsən, ev tutmuşdu onun üçün haradasa və daha ondan sonra Nəcməddin o qadını görməmişdi.

Amma Məltəmə görə Əlifağaya çox minnətdar idi Nəcməddin. Çox! Az bir vaxtın içində, demək olar ki, vurulmuşdu bu qadına. Ona elə gəlirdi ki, Məltəmdən aldığı ləzzəti ömrü boyu duymamışdı. Əlifağa keçmiş sürücüsünün arvadını otaqlardan birinə göndərib sonra da Nəcməddinə onun yanına girməyi tapşırmışdı. İçəri girən Nəcməddin qadının təəccüb və bəlkə də dəhşətlə ona baxmağından bəzi şeylər anlamışdı. Başa düşmüşdü ki, bu qadın buraya yalnız Əlifağa üçün gəlib. Ancaq taleyinə çox tez boyun əydi Məltəm. Çarpayının üstündə oturub onu öpə-öpə, oxşaya-oxşaya soyunduran Nəcməddinə heç bir müqavimət göstərmədi.

Düzdür, Nəcməddin heç istəməzdi ki, neçə il çörək kəsdiyi Salehin arvadına qarşı belə hərəkət etsin. Bu hiss həmin ilk görüşün ləzzətinə, şirinliyinə
bir az acı da qatmışdı, hətta. Amma neyləməliydi ki? Əgər Məltəm, əri tutulandan sonra bu işə başlamışdısa və həm də belə tez başlamışdısa, Nəcməddin onun başqa kişilərə yox, özünə qismət olmasını arzu edərdi.

Sonra bir dəfə də görüşdülər... Nəcməddin bu qadına göstərdiyi qızğın hissləri hələ indiyədək heç bir qadına



downloaded from KitabYurdu.org

göstərməmişdi. Onu az qala dəli eləyib öz təmkinindən çıxaran səbəb bütün bədənindən gözəllik və təravət yağan Məltəmin başqalarına, yəni bu işlə məşğul olan başqa qadınlara bənzəməməsi idi. Onun sifətində, ya davranışında həyasızlıqdan, əslində çox qadınları kişilərin gözündə adiləşdirən intim sərbəstlikdən əsər-əlamət belə yox idi. Məltəmin daxilində olan qadın utancaqlığını, qadın həyasını təkcə çəkingən gözəl gözləri, ya incə dodaqları yox, sanki bütün bədəni, hətta barmaqları büruzə verirdi. Amma eyni zamanda, onun gözünün lap dərinliklərində «Mən bütün vücudumla əsl qadınam. Sevilmək, oxşanmaq, əzizlənmək istəyirəm!» deyilən bir fikir oxunurdu ki, bunu da Nəcməddin kimi həyat təcrübəsi çox olan kişilər oxuya bilərdi.

Nəcməddinin əqidəsinə görə bu cür qadınların ərləri istər-istəməz qısqanc olurlar və arvadlarının üstündən nəzarəti əskik etmirlər. Həm bu nəzarətə, həm də əvvəldən aldıqları tərbiyəyə görə bu qadınlar çox vaxt bir ömür boyu ərlərinə xəyanət etmirlər. Amma vay o hala ki... Məsələn, lap Məltəm özü! Əgər Saleh tutulmasaydı, Məltəmin də başına bu işlər gəlməzdi, yəqin ki...

Mayın 12-də Məltəm zəng vurub Nəcməddinə dedi ki, Canəli adlı polis işçisi evinə gəlib onu narahat edir və polisə aparacağı ilə hədələyir. Sən demə Canəlidə Məltəmin «Çəməndağ» kafesində çəkilmiş şəkli varmış. Bu şəkli kim çəkə bilərdi, Nəcməddin bu barədə nə qədər düşünsə də bir qərara gəlməmişdi. Amma anlamışdı ki, polis Qanturalın axtarışı ilə bağlı Məltəmi də bu işə qoşacaq. Narahatlıq keçirib, bu xəbəri Sadıxova çatdırdı. Şefi bunu eşidən kimi dilxor olub:


downloaded from KitabYurdu.org

- Bu qadın bizim başımıza bəla olacaq, - dedi. - İmkan vermək olmaz onun danışdırılmağına!

Nəcməddin başa düşdü ki, Sadıxov hətta Məltəmi aradan götürmək fikrindədir. Niyə axı? Təkcə ona görəmi ki, aprelin 23-də Qanturalla bir süfrədə oturub? O gün Sadıxov Nəcməddinin özünə
də tapşırmışdı ki, kafedəki görüş barədə heç kəs heç nə bilməməlidir. Bəlkə o rus qadına görə belə narahat idi şefi? Axı kim ola bilərdi bu qadın?

Əlifağa o sözləri deyəndə Nəcməddin Məltəmi qorumaq qərarına gəldi. Ona toxunmamağı məsləhət görüb, söz verdi ki, qadınla danışacaq və kafedəki görüş barədə ağzından heç nə qaçırmamağı tapşıracaq. Həmin gün zəng vurub belə də tapşırdı Məltəmə. Məltəm, əslində, ona söz versə də nə qədər qorxu və həyəcan keçirdiyi səsindən açıq-aşkar duyulurdu.

Sən bir işə bax! İki gün sonra, yəqin ki,
Məltəmin yanına getməyə hazırlaşan Canəli öz qarajında öldürüldü. Özü də kim öldürdü onu? Qantural!.. Sən demə onun atasını, qardaşını, bacısını idarəyə çağırıb incidirmiş bu Canəli...

Keçmiş peşə yoldaşının öldürülməsi Nəcməddinə toxunsa da və buna görə Qanturala nifrəti coşsa da, hər halda, işin nəticəsi pis olmadı. Bu qəribə təsadüf Sadıxovun işinə yaradı. Eyni zamanda Nəcməddinin sevimli məşuqəsi də sağ- salamat qaldı.

Amma dünən Nəcməddin ona zəng vurub görüşməyi təklif edəndə çox soyuq münasibət göstərdi, nədənsə... Xahiş etdi ki, bir də onu narahat etməsin Nəcməddin. Bildirdi ki, hərəkətlərindən peşmandır və bir daha ərinə


downloaded from KitabYurdu.org

xəyanət etmək fikri yoxdur. Sonra da yalvarıb xahiş etdi ki, onun sirrini heç kəsə söyləməsin Nəcməddin...

Çox qəribə və ağlasığmaz işləri olur bu qadınların. Nəcməddin nə qədər fikirləşsə də bir şey anlaya bilməmişdi Məltəmdə olan dəyişiklik barədə. Axı hər iki görüşdə ondan razı qalmışdı bu qadın?!

İkinci görüş bitəndən dərhal sonra, bu vaxta qədər özü tərəfindən heç bir təşəbbüs göstərməyən və heç nə danışmayan Məltəm birdən-birə Nəcməddinin qolunu bütün gücüylə sıxdı və nəsə pıçıldayaraq, çevrilib üzünü döşəkdə gizlətdi. Nəcməddin həmin vaxt onun nə dediyini başa düşmədi. Çox şeyindən keçərdi qadının nə dediyini bilmək üçün, amma Məltəm təkrar etmək istəmədi o sözü...

Əlbəttə, Nəcməddin Məltəmin sirrini kiməsə danışmaq fikrindən çox uzaq idi və belə kişilərdən də zəhləsi gedirdi. Amma heç əl çəkmək fikri də yox idi Məltəmdən. Qoy hələ bir əlindəki vacib işlərini qurtarsın...

Çəkib qurtardığı siqareti döşəməyə tulladı. Yaxınlaşıb bir də pəncərədən baxanda fəhlələri görmədi. Bu dəfə o biri pəncərələrdən həyətə boylandı. Heç kəs görünmürdü. Nə qədər möhkəm və iradəli adam olsa da, həyəcanlanmağa başlamışdı. Çünki belə vəziyyətə birinci dəfə idi ki, düşürdü. Otaqda o baş-bu başa gəzişib vaxtın keçməsini gözlədi. Həyəcanını yox edib, özünü ələ almaq üçün tez-tez dodaqlarını gəmirirdi.

Nəhayət, qəti qərara gəlib, pilləkənlərlə həyətə düşdü. Villanın ətrafına hərlənib, ehtiyatla arxadakı kiçik evə yaxınlaşdı. Bu zaman içəridən qırıq-qırıq səslər eşidib, diqqətini bir az da topladı. Ehtirasdan doğan bu səsləri bir qədər dinlədikdən sonra ehtiyatla irəliləyib pərdələri axıra



downloaded from KitabYurdu.org

qədər çəkilməmiş pəncərədən içəri baxdı.

Gördüyü əcaib mənzərə gözlədiyindən də artıq idi. Tam çılpaq vəziyyətdə olan fəhlələr və tam çılpaq vəziyyətdə olan Şərafət xanım... Özündən asılı olmayaraq, başını cəld geri çəkdi. Amma sonra yenə baxmaq istədi və bu dəfə daha aydın gördü hər şeyi... Daha doğrusu, istəsə də baxa bilmirdi bu çirkin səhnəyə!

Bəli, bu da sənin Şərafət xanımın! Alçaq qadın! Əri onu necə sevir, necə onun üçün hər şeyindən keçir, bu da onun hərəkəti! Belə qoruyur ərinin adını, şəstini, mənliyini, kişiliyini!

Əlini pencəyinin altına salıb, arxadan qayışına keçirdiyi tapançasını çıxartdı. Əvvəl istədi ki, qapını təpiyi ilə vurub açsın və içəri girib hər üçünü öldürsün. Ancaq tez də hirsini cilovlayıb bir qədər ayıq başla düşünməyə başladı: «0 şeyi ki, sonra
istənilən vaxt etmək olar, qızışıb tələsik hərəkət etmək nəyə lazımdır?»

Ancaq əgər indi onları ifşa etməsə, sonra Sadıxovu inandıra biləcəkdimi gördüklərinə? Şefi ona nə qədər çox inansa da, hər halda, öz arvadına daha çox inanırdı axı... Bəs neyləsin?

Düşündü ki, o, artıq öz şübhələrinin həqiqiliyinə əmin olub. Sirri açıb-açmamaq və ya bu adamları necə cəzalandırmaq məsələsini isə fikirləşməyə hələ vaxt olacaqdı. Əgər bu adamlar belə işlə məşğuldurlarsa, onları istənilən vaxt ifşa etmək olar. Hər halda, səbir etmək hər şeydən yaxşıdır.

Bu fikirlə də tapançasını yenidən qayışına taxıb oradan uzaqlaşdı. Darvazaya tərəf gedərək, onu açıb küçəyə çıxdı.


downloaded from KitabYurdu.org

Bu zaman birdən ağlına gəldi ki, içəridəkilər cəftənin açıldığını görəcəklər. Duruxub,
bir anlığa yerində dayandı. Sonra isə nə düşündüsə, «Cəhənnəmə ki görsünlər!» deyib kimsəsiz küçə ilə addımlamağa başladı. Bir az gedəndən sonra fikirdən ayrılıb gedə-gedə cib telefonunu çıxardı və maşınını sürüb aparan, indisə haradasa, yaxınlarda dayanıb onun əmrini gözləyən adama zəng vurdu:

- Asfalt yola tərəf gəlirəm. Gəl qarşıma! Baxmayaraq ki, onu aparmağa maşın gələcəkdi, özündən asılı olmayaraq, yenə sürətlə addımlayırdı. Elə bil bu həyətdə gördüklərindən tezliklə uzaqlaşmaq istəyirdi. Arxaya da baxmırdı, heç! Beynində bircə fikir dolaşırdı və bu fikir onu içəridən üzüb əldən salırdı: Gördüklərini Əlifağaya necə deyəcək? Necə dili gələcək buna?

Birdən-birə ürəyinin dərinliyində öz şefinə lap yazığı gəldi. Ona yazığı gəldiyi üçün də Şərafət
xanıma sonsuz nifrət duydu özündə və bir istədi ki, geriyə qayıdıb onların hər üçünü yerindəcə güilələsin.

Elə həmin anda qarşıdan ona tərəf gələn qara rəngli «Ford»u gördü. Maşın gəlib onun yanında dönərək dayandı. Nəcməddin:

- Alçaq qadın! - deyib hirslə yerə tüpürdü və maşına minib qapını bərk vurdu.

- Hara gedəcəyik? - sükanın arxasında oturmuş oğlan soruşdu.

Haraya gedəcəyini, əslində, heç Nəcməddin özü də bilmirdi. Amma cavabını da çox gözlətmədi:

- Sür şəhərə tərəf! Birinci gördüyün kafedə saxlayarsan. İçmək istəyirəm! Lap sərxoş olana kimi...



downloaded from KitabYurdu.org

Altmışıncı fəsil

Lal Zəkixan bir neçə yerdən sürtülüb dağılmış köhnə divanda oturub fikirli halda təsbehini çevirirdi. Beş-on dəqiqə əvvəl telefonda eşitdiyi sözləri kəlmə-kəlmə xatırlayır, son dərəcə soyuqqanlılıqla deyilmiş həmin sözləri sanki bir daha eşidirdi:

«Qızın əlimizdədi, Zəkixan kişi! Polisə-filana xəbər versəniz, ancaq ölüsünü görəcəksiniz. Saat dörddə oğlanlarını da götürüb zooparkın yanındakı şam meşəsinə gəl! Xanəli qədeş sizinlə danışmaq istəyir».

Yaxşı ki, Nisə arvad evdə deyildi. Bacısıgilə getmişdi. Nəvələrini duyuq salmamağa çalışaraq, əvvəl Fərhada bildirdi bu xəbəri. Sonra isə o da zəng vurub öz taksisi ilə sərnişin daşımağa çıxmış Ələkbəri xəbərdar elədi.

Ağlı başından çıxmış Fərhad özünü heç cür ələ ala bilmirdi. Mənliyini təhqir olunmuş hesab edir, nə etmək lazım gəldiyini bilmədiyi üçün bağrı çatlayırdı. Ay yarım əvvəl o iki harınlamış gənc tərəfindən bağa dovşan tutmağa aparılarkən, elə zənn etmişdi ki, ömrü boyu ona edilən ən böyük təhqir kimi yadında qalacaq o hadisə. Amma indi Balta Xanəlinin onlara qarşı etdiyi bu hərəkət o hadisəni də, o hadisədən əvvəl və sonra eşidib-gördüyü təhqirləri də kölgədə qoymuşdu. Qardaşı Nihatın Qanturalın evinə soxulmağı bəs deyilmiş kimi indi də Xanəli onların namusu ilə oynamağa başlamışdı. Demək, belə çıxırdı ki, kişi saymırdı o Əsmərin qardaşlarını, qohumlarını!

Fərhad dar həyətdə o baş-bu başa gedib-gəlir, hirsini-hikkəsini tökməyə adam axtarırdı. Nəhayət, içində



downloaded from KitabYurdu.org

qaynayan kin-küdurəti cilovlaya bilməyib, yumruqlarını daş hasara döyməyə və Xanəlinin qarasına söyüşlər yağdırmağa başladı:

- Alçaq!.. Əclaf!.. Vicdansız köpək oğlu!

Söyüşü eşidən Zəkixan çıxıb oğluna təpindi:

- Cırqursaqlıq eləmə, bala! Bilirsən ki, onsuz da əlindən heç nə gəlməyəcək indi. Bacının qeyrəti səninçün doğrudan da əzizdirsə səbirli ol!

Sonra daha artıq söz demək istəməyib, yenidən evə keçdi və divanda oturub təsbehinin dənələrini çevirə-çevirə fikirləşməyə başladı.

Fərhadın yanında özünü sındırmaq istəməsə də, əslində içəridən sınıb-tökülmüşdü elə bil. Gəlininin yad kişi ilə yataqda tutulub öldürüldüyü gün
aldığı namus yarasının üzü hələ qurumamış təzə yara vurmuşdular ona. İndi o bu işdə hamıdan çox öz oğlu Qanturalı günahkar görür, ürəyində onu asıb-kəsirdi: «Başın batsın sənin, belə oğul! Qeyrət çəkən oldun mənim üçün! Sən doğrudan qeyrət, namus gözləyən idinsə, arvadınla onun oynaşını öldürəndən sonra polisə təslim olaydın. Sonra da cəzanı kişi kimi çəkib qayıdaydın. Qaçaq düşüb başladın günahsız adamları öldürməyə. Sənin ucbatından bütün ailəmiz əsir-yesir oldu. İndi də bax, Xanəli bacını qaçırtdırıb sənin. Yad kişilərin əlindədi doğmaca bacın! Neyləyəcəksən? Yerini də bilmirsən ki, gedib xilas eləyəsən. İndi nə istəsələr eləyə bilərlər bacına... Tfu sənə, biqeyrət övlad!»

Zəkixan kişi səsini içinə salsa da, başı çox dərd- bəia çəkmişdi bu may ayı girəndən. Öz dərdi, tanış-
bilişin giley-güzarı bir yana dursun, təkcə tez-tez polis



downloaded from KitabYurdu.org

idarəsinə aparılıb çək-çevirə salınması bezdirmişdi onu. Oğlu yaşında polis işçiləri onunla elə danışırdılar ki, ayaqlarının altına alıb döysəydilər min dəfə yaxşı olardı ondan. Ən çox da Qantural o mayoru öldürdükdən sonra incidirdilər bu ailəni. Ələkbər yazıq da daha az qalırdı gedib özünü öldürsün. Axı Zəkixan kimə nə pislik eləmişdi ki, Allah bu bəlanı göndərdi onun ailəsinə?

Ucadan danışıq səsləri eşidib həyətə düşdü. Ələkbər xalası oğlanlarını və bir neçə dəliqanlı dostunu başına yığıb özüylə gətirmişdi. Nə tədbir görəcəkləri barədə qızğın mübahisə edirdilər.

Onların içində Şiraslanı da görməsi Zəkixanın xoşuna gəlmədi. Heç istəməzdi ki, Ələkbərin bu quldura oxşayan dostu onun ailə probleminin həllində iştirak etsin.

Şiraslan bir neçə məhəllə yuxarıda olurdu. Adam öldürmək üstündə həbsxanada yatmışdı. Hündürboylu, pəhləvan cüssəli bu adamın əlindən bütün məhəllə qan ağlayırdı. Gücünə güc, sözünə söz çatdıran adam tapılmamışdı hələ məhəllədə. Üç- dörd il əvvəl, deyilənə görə, arvadını da döyə-döyə öldürübmüş. Ondan sonra evlənməmişdi. Keçən il həmin bu Əsməri almaq istədi. Amma nə Zəkixan kişi, nə də Əsmər özü razı olmadı.

Ələkbər pilləkənlə düşən atasını görəndə ona lap yazığı gəldi. Onsuz da arıq olan Zəkixan kişi son günlər çəkdiyi əzablardan büzüşüb yumağa dönmüşdü. Yaxınlaşıb əlini atasının qoluna toxundurdu:

- Ata, sən narahat olma! Biz deyilən vaxtda gedib o əclafla, necə lazımdır, danışacağıq, Əsməri də alıb


downloaded from KitabYurdu.org

gətirəcəyik evə!

Zəkixan oğluna bir an sakit-sakit baxıb başını buladı:

- Birincisi, o məni çağırıb danışığa. Özüm getməsəm, olmaz. İkincisi də hamınıza burada deyirəm, kim mənim icazəm olmadan artıq bir hərəkət edəcəksə, getməsin bizimlə!

Ələkbər dillənməmiş Şiraslan iri, qüvvətli qollarını oynadaraq söhbətə qarışdı:

- Zəkixan dayı, sənin hər sözün bizimçün qanundur. Ancaq mənəm-mənəm deyəni gərək yerində otuzdurasan!

Zəkixan Şiraslana ani bir nəzər salıb üzünü o biri gənclərə tutdu:

- Yadınızdan çıxarmayın ki, mənim oğlum onun üç qardaşını öldürüb.

Yenə hamının yerinə Şiraslan dilləndi:

- Elə bu gün Əsməri qaytarmasa, özünü də biz öldürərik!

Lal Zəkixan onsuz da indi, öz xarakterinin əksinə olaraq, çox danışmışdı. Odur ki, pencəyinin cibindən zəncirli saatını çıxarıb baxdı və Ələkbərə:

- Saat dördün yarısıdır. Hazırsınızsa, gedək! - dedi.

- Hə, gedək! - Ələkbər razılaşdı. - Küçədə də maşında gözləyənlər var.

- Nəyə lazım idi bu qədər adam?

- Lazımdır, ata! Sözsüz ki, o da dəstəsilə gələcək. Hər şey ola bilər.

Zəkixan daha bir söz demədi. Küçəyə çıxdılar. Üç maşının ətrafına Zəkixandan başqa on bir adam yığılmışdı. Maşınlara minib yola düşdülər.

Telefonda deyilmiş yerə çatanda saat dördü təzəcə


downloaded from KitabYurdu.org

keçmişdi. Şam meşəsində heç kəs görünmürdü. Maşınları yoldan bir qədər kənara çəkib düşdülər və meşənin içindəki kiçik talada toplaşdılar.

Zəkixan kişi bir şam ağacına söykənib səbirlə təsbehini oynadırdı. Ələkbər və ətrafındakı gənclər diqqətli baxışlarla ətrafa göz gəzdirirdilər. Fərhad atasından bir qədər kənarda həyəcanlı halda gəzişirdi. Hamı narahat idi. Hamı qan düşməni olan iki ailə arasında gedəcək söhbətin nə ilə nəticələnəcəyi haqqında düşünürdü. Dəqiqələr isə həddindən artıq ağır keçib gedirdi...

Altmış birinci fəsil

Bu vaxt həmin şam meşəsindən çox da uzaqda olmayan böyük xəstəxananın qarşısında «Nissan» və «Jeep» markalı iki avtomobil dayandı. «Nissan» dan düşən Xanəli ətrafına ani nəzər yetirib xəstəxananın həyətinə girdi. Maşının sükanı arxasında oturmuş Səlahəddin və ikinci maşındakı dörd nəfər silahlı şəxs isə yerlərində qaldılar.

Həyətə daxil olan Xanəlinin diqqətini ilk cəlb edən «Qaz-31» markalı maşın və onun içində oturub həyətə göz qoyan Qulu ilə Ramiz oldu. Deməli, Fatimə gəlmişdi artıq. Atası üç gün idi ki, burada infarktdan yatırdı və Fatimə ilə Cəhalə növbə ilə onun yanında qalırdılar.

Bir qədər kənarda dayanmış süd rəngli «Mersedes»in nömrəsinə baxdı. Bu Cəhalənin
maşını idi. Cangüdənləri də öz maşınlarının yanında ayaq üstə dayanmışdılar. Demək, o da getməmişdi hələ. Sonra gümüşü rəngli «Toyota» nın yanında dayanmış tanış sürücünü gördü. Başa düşdü ki, Miraslanov da qudasına baş çəkməyə gəlib.

Binaya daxil olanda pilləkənlə aşağı düşən



downloaded from KitabYurdu.org

Miraslanovla rastlaşdı. O tək idi. Görüşdülər.

- Şükür, kişinin halı lap yaxşıdır. - deyə Cəhalənin atası Xanəliyə ürək-dirək verməyə çalışdı.

- Şükür içində olasınız! - Xanəli hörmətlə cavab verdi.

- Sizin işləriniz necə gedir?

- Pis deyil... Çox sağ olun!

- Rəhmətlik qardaşlarının ailələri necədir?

- Əlinizi öpürlər... Sağ olun!

Miraslanov köksünü ötürdü:

- O manyak qatildən də bir xəbər yoxdur.

Dünən prokurorla danışdım. Tapa bilmirlər, nədənsə...

Xanəli çiynini çəkdi:

- Tapılar, inşallah...

- Hə!.. Atanızdan muğayat olun. Elə bütün ailənizdən də!.. Mənim də bir köməyimə ehtiyac olsa, mütləq deyin!

- Allah köməyiniz olsun!

Sağollaşıb ayrıldılar. Xanəli yuxarı qalxıb üçüncü mərtəbədə uzun dəhlizə daxil oldu. Atasının yatdığı tək adamlıq palataya girəndə xəstənin çarpayısı yanında əyləşmiş Cəhalə ilə Fatimə cəld ayağa qalxıb kənara çəkildilər. Xanəli onlara lap ani, sınayıcı və sərt bir nəzər salıb atasının yanında oturdu. Əlini onun arıq, damarları çıxmış, amma hələ
də möhkəmliyini itirməmiş dörd barmaqlı əlinin üstünə qoyub:

- Özünü necə hiss edirsən? - deyə soruşdu.

- Pis deyiləm... - Ağaşamil ağır-ağır dilləndi.

- Həkimlər necə baxır sənə?

- Yaxşı... Siqaret çəkməyə icazə versəydilər, lap yaxşı olardı.



downloaded from KitabYurdu.org

- Döz də, bir az! - Xanəli sanki uşağına nəsihət verirdi. - İcazə vermirlərsə, demək, belə lazımdır.
Ağaşamilin dodaqlarında istehza dolaşdı:
- Dözürəm...
- Gəlib-eləyən olub? - Xanəli başını çevirib Fatiməyə baxdı.
Əslində, Ağaşamilin yanına tək-tək yaxın adamlarından başqa heç kəsi buraxmırdılar. Bu üç gündə eşidib gələn qohum-əqrəbanın hamısını
dəhlizin qapısından geri qaytarmışdılar. Gecələr isə Cəhalə ilə Fatimə xəstənin yanında növbə çəkirdilər. İndi də Cəhalə növbəsini Fatiməyə verib getməli idi.
- Cəhalənin papası gəlmişdi, - Fatimə cavab verdi.
- Onu gördüm. - Xanəli dilləndi.
- Bir də, səhər Əlifağa Sadıxov gəlmişdi...
- Sonra?
- Daha heç kimi buraxmayıblar.
Əlifağa Ağaşamilin xəstəxanaya düşdüyü gün də gəlmişdi. Hətta kənardan təcili həkim də çağırtdırdı xəstənin üstünə. Ağaşamilin halı normallaşana qədər yanında dayanıb, sonra getdi. Belə çıxırdı ki, rəhmətlik Nihatın xətrini doğrudan da çox istəyirmiş. Elə belə də demişdi. Demişdi ki, yanımda işləyəndə oğulluq eləyib Nihat mənə...
Bunları Xanəli düşünürdü. Amma Fatimənin fikrincə, Əlifağanın atasına qayğı göstərməyinə səbəb Fatimə özü idi. Əlifağa hər görəndə qıza çox mənalı nəzərlərlə baxırdı. Keçən dəfə gələndə isə əlini atasından ötrü ağlayan Fatimənin çiyninə qoyub ah çəkdi və:
- Ağlama, hər şey yaxşı olacaq, - dedi.


downloaded from KitabYurdu.org

Sonra isə qızın saçlarını sığallayıb astadan
dilləndi:

- Oğlum səni sevirdi. Ancaq Allah başqa şey yazdı qismətinə!

Onda Fatimənin keçirdiyi hissləri dillə təsəvvür etmək mümkün deyildi. Şakirə nişanlı olan qız kiminsə onu sevməsi barədə eşitmək belə istəmirdi. Amma eyni zamanda, yeganə oğlunu itirmiş atanın düşdüyü vəziyyət də ağrıtmışdı onu. Hətta özünü bir
qədər günahkar da hiss etmişdi bu kişinin qarşısında.

Nədənsə duruxub, bir qədər fikrə gedən Xanəli üzünü yenidən atasına çevirdi:

- Bir şeyə ehtiyacın var?

- Yox! - Ağaşamil göz qapaqlarını yumub açdı. - Yası yola verə bilirsiniz?

- Hə, sən narahat olma, hər şey öz qaydasındadır.

- Uşaqlar necədir?

O, yəqin ki, Cahangirin uşaqlarını nəzərdə tuturdu.

- Yaxşıdırlar... - Xanəli kədərlə dilləndi.

- Muğayat ol! Elə hamısından!.. Hicranın uşaqlarından da...

Xanəli fikir verdi ki, atası Nihatın adını çəkmək istəmir. Başını tərpədib:

- Arxayın ol! - dedi.

Ağaşamil gözaltı qızı ilə gəlininə baxıb səsini alçaltdı:

- Amma yadında saxla, sənə ən çox Fatiməni tapşırıram. Gözdən qoyma onu. Ona bir şey olsa...

- Əşi, sən qəti narahat olma! - Xanəli atasının əlini sıxdı. - Sonrası da nə olub sənə, bir-iki günə özün duracaqsan ayağa. Uşaqlar hamısı sənin evə qayıtmağını



downloaded from KitabYurdu.org

gözləyir.

- Fətəlini yaman ürəyim istəyir...

Atası bunu deyərkən Xanəli onun dodaqlarında lap cüzi bir səyrimə hiss etdi. Ömründə heç nəyin qarşısında zəiflik göstərməyən Dördbarmaq
Ağaşamil istəkli nəvəsinin adını çəkəndə kövrəlmişdi elə bil.

- Gətirərəm! - Xanəli onu arxayın etdi.

Kişi bir qədər susub gözlərini palatanın tavanına dikdi. Sonra yenə səsini alçaldıb asta səslə danışmağa başladı:

- Bu gecə yuxuma girmişdi o!.. Palataya gəlmişdi... Qəribə baxışları var idi. Bir xeyli üzümə baxıb, birdən «Halın necədir?» deyə soruşdu. Nədənsə, dilim tutulmuşdu... Sonra sakitcə gəldiyi kimi, sakitcə də çıxıb getdi...

- Kim, Fətəli? - fikri dağınıq olan Xanəli qəfil soruşdu.

- Yox... - atası başını yırğaladı.

- Cahangir?

- Yox! - Ağaşamil üz- gözünü turşutdu. - O əclaf!

- Qantural? - Xanəli nifrət etdiyi bu adamın adını çəkməyə məcbur oldu.

Ağaşamil yenə də narazı halda başını yelləyib susdu. Onun yuxusuna kimin gəldiyini birdən-birə anlayan Xanəli yerində narahat halda qurcuxub atasına baxdı. Nihatın ölümündən sonra keçən günlər ərzində kişinin sifəti tamam dəyişmişdi. Ömrü boyu başına hər cür bəla gəlmiş, güllə yarası almış, qıçı sınmış, barmağını kəsib atmış, həbsxanada çətin günlər keçirmiş, dəfələrlə ölümlə üz-üzə dayanmış, amma bir dəfə də əhvalını pozmamış Ağaşamili tanımaq olmurdu indi. Üzünün əti çəkilmiş,



downloaded from KitabYurdu.org

gözləri çuxura düşmüşdü. Həm də yaman fikirli görünürdü. Üzünü yana əyərək, gözlərini çılpaq divara zilləyib durmuşdu. Elə bil nəsə demək istəyirdi. Amma deyəcəyi sözü beynində götür-qoy edib bir yana çıxa bilmirdi. Nəhayət, qərara gəlib, baxışlarını oğluna çevirdi:

- Ağlıma bir fikir gəlib, Xanəli! Yaman üzür məni...
- Nə? - Xanəli cəld soruşdu, - Nədir səni narahat edən?

Ağaşamil bir an susub, mənalı şəkildə Cəhaləgilə tərəf baxdı. Xanəli o saat dönüb onlara palatadan çıxmağı əmr etdi.

Cəhalə ilə Fatimə otaqdan çıxıb dəhlizdə, palatanın qarşısında qoyulmuş meşin üzlü yumşaq oturacaqda oturdular. Dinib-danışmırdılar. Hər ikisinin fikri içəridə, ata ilə oğulun arasında gedən gizli söhbətdə idi.

Fatimə əllərini qoynuna qoyub, gözlərini palatanın qapısına dikmişdi. Əynində qara rəngli nazik jaket və yanlarına kip oturmuş cins parçadan şalvar var idi. Kürəyinə tökülən uzun, qıvrım saçlarını yuxarıdan sancaqla bir yerə toplamışdı. İri, ala gözlərindəki dərin kədər təbii və saf gözəlliyinə heç bir xələl gətirmir, əksinə, əsmər sifətinə özünəməxsus bir cəlbedicilik verirdi.

Dönüb, yanında oturmuş Cəhaləyə baxdı. Əyninə dizlərini örtən qara rəngli don geymiş qardaşı arvadı hər dəfə buraya gələndə sadə geyinməsinə və kosmetikadan çox az istifadə etməsinə baxmayaraq, çox gözəl görünürdü. Püstə dodaqları, həmişə, baxanların nəzərində uşağa oxşadırdı onu. Amma sağlam və yaraşıqlı budları donun altından da qabarıq şəkildə gözə çarpırdı. Ona qardaşı



downloaded from KitabYurdu.org

Səxavətin gözü ilə baxmağa çalışdı və bəlkə yüzüncü dəfə qərara gəldi ki, Səxavət xoşbəxtdir belə arvadı olduğu üçün. Fatimə qardaşı arvadları içində ən gözəl Cəhaləni hesab edirdi. Elə xasiyyətdə də ən yaxşı o idi, qızın fikrincə. Sadə, mehriban, səmimi... Fatimə çox sevirdi Cəhaləni və onu qardaşı arvadı yox, doğmaca bacısı hesab edirdi.

İçəridə gedən gizli söhbət Fatiməni bir daha maraqlandırdı və ayağa qalxıb palatanın qapısına yaxınlaşdı. Qulağını qapıya tərəf tutanda Xanəlinin səsini eşitdi:

- Yox əşi, onun bu alçaqla nə əlaqəsi ola bilər, axı?!

- Nə bilim, vallah... - deyəsən atası belə dedi. Onun səsi çox zəif gəlirdi.

- Bir də, bilmirəm, bu sənin ağlına haradan gəlib? O heç cür xəbər tuta bilməz axı işin əslindən!.. - Xanəlinin səsi aydın eşidildi.

- Gəl otur yerində, yaxşı deyil! - Cəhalə narazı halda pıçıldayıb, baldızını yanına çağırdı.

Fatimə qayıdıb yerində oturdu. Onsuz da eşitdiklərindən bir şey başa düşə bilməmişdi.

- Qorxmursan, birdən Xanəli qapını açar? - gəlinbacısı yenə yavaş səslə dilləndi.

Fatimə nə qədər dərdli olsa da, gülümsəməyini saxlaya bilmədi. Cəhalə Xanəlidən yaman qorxurdu. Düzdür, elə Fatimə özü də bu qardaşından qorxub- çəkinirdi, amma daha Cəhalə qədər yox! Cəhalə hər dəfə Xanəlini görən kimi özünü yığışdırıb, səsini kəsirdi.

Doğrudan da, elə bu vaxt Xanəli qəfil hərəkətlə palatanın qapısını açıb dəhlizə çıxdı. İndi o da atası kimi


downloaded from KitabYurdu.org

çox dalğın və fikirli görünürdü. Ayağa qalxmış Cəhalə ilə Fatiməyə ciddi bir nəzər salıb, heç nə demədən, tələsik addımlarla dəhliz boyu uzaqlaşdı.

Pilləkənləri də sürətlə düşüb həyətə çıxdı. Qulu ilə Ramiz onu görən kimi maşından çıxmaq istədilər. Amma Xanəli əlinin hərəkətilə onları saxlayıb xəstəxananın həyətini tərk etdi. Sağ tərəfdən qapını açıb «Nissan»a oturdu və o saat da hər iki maşın hərəkətə gəlib Zəkixan ailəsinin yığışdığı şam meşəsinə tərəf yollandı.

Altmış ikinci fəsil

Saat artıq beşin yarısı olmuşdu. Şam meşəliyinə toplaşanlar Xanəlini gözləməkdən bezmişdilər. Elə bu zaman iki maşının asfaltdan dönüb torpaq yola düşərək, onlara yaxınlaşdığını gördülər. Hamı cəld Zəkixanın başına yığışdı. Əllərini ciblərinə salıb silahlarından yapışdılar. Tapançası olan tapançasından, bıçağı olan bıçağından. Bütün gözlər talaya çatmaqda olan «Nissan»la «Jeep»ə dikilmişdi.

Hər iki maşın asta-asta gəlib torpaq yolun kənarında, talanın qarşısında dayandı. Zəkixan kişi gördü ki, qabaqdakı maşından tək bir nəfər düşüb onlara tərəf gəlir. Qətiyyətlə və arxayın yerişlə
onların üstünə gələn boylu-buxunlu, qara bığları və çənəsindəki aypara şəklində olan çapıq sifətinə zəhmli görkəm verən bu adamı birinci dəfə görürdü. Dönüb sualedici nəzərlərlə qohumlarına baxdı. Lap yanında dayanmış gənc onu anlayıb astadan:

- Balta Xanəlidir! - dedi.

Zəkixan gördü ki, Xanəlinin adamlarının maşından düşmək fikri yoxdur. Ona görə də ətrafındakılara:



downloaded from KitabYurdu.org

- Ələkbərdən başqa hamınız kənara çəkilin! - deyə göstəriş verdi.

Sözünü eşidib, ondan bir qədər uzaqlaşdılar. Xanəli gəlib, ata ilə oğulun qarşısında dayandı. Heç nə demədən, gözlərini qıyıb növbə ilə onların üzünə baxmağa başladı. Elə bil özünün deməyə heç bir sözü yox idi və birinci olaraq, qarşısındakıların
danışmağını istəyirdi. Ələkbər bacısını qaçırtmış bu adamı nifrətlə süzür, Zəkixan isə təsbehini aramla çevirərək sakitcə Xanəlinin üzünə baxıb, onun nə deyəcəyini gözləyirdi.

Zəkixangildən iki-üç metr arxada dayanmış qohumları səbirsiz halda gah Xanəliyə, gah da onun adamlarının oturduğu maşınlara baxırdılar. Atasına o birilərdən daha yaxın dayanmış Fərhadın isə lap dişi bağırsağını kəsirdi.

Xanəlinin «Jeep»də oturmuş silahlı adamları onların hər bir hərəkətini maşının içindən izləyirdilər. «Nissan»ın sükanı arxasında oturub tapançasını dizləri üstünə qoymuş Səlahəddin isə ailələr arasında olan bu qarşıdurmaya sakit bir maraqla göz qoyurdu. Nəhayət, yaranmış sükuta birinci olaraq Ələkbər dözmədi:

- Bacım haradadır, Xanəli?!

Xanəli təmkinini pozmadan dilləndi:

- Mən bura bacının yerini deməyə gəlməmişəm. Gəlmişəm ki,
şərtimi sizə çatdırım...

Ələkbər onun sözünü kəsdi:

- Gücün qadına çatdı?

Xanəli əlini qaldırıb əsəbdən səyriməyə başlayan çapığını ovuşdurdu. Vəziyyətin gərginləşdiyini görən


downloaded from KitabYurdu.org

Zəkixan əli ilə oğluna toxunub, «Dayan, görüm!» - dedi. Amma özü ürəyindəki sözünü saxlamadı:

- Kişi, kişinin namusu ilə oynamaz, Xanəli! Mən səni kişi adam eşitmişəm!

- Düz eşitmisən! - Xanəli Zəkixan kişinin gözlərinin içinə baxıb, başını tərpətdi. - Sənin namusunla oynamaq fikrim də yoxdur. Ancaq bunu bilin ki, sabah axşama kimi Qantural üzə çıxıb açıq şəkildə yanıma gəlməsə, ya gedib özünü polisə təslim etməsə, qızını öldürəcəm!

- Yoxsa bizi uşaq-muşaq hesab edirsən? - Ələkbər yenə dözmədi.

Xanəli ona çəpəki bir nəzər yetirib üzünü yenə Zəkixana tutdu:

- Zəkixan kişi, ağsaqqal adamsan, görürsən ki, oğlun indidən danışığı pozmaq istəyir. Qızına yazığın gəlsin!

Bu zaman, onsuz da bayaqdan yerində qərar tuta bilməyən Şiraslan qabağa gəlib sağ əlini yelləyə-yelləyə Xanəlinin üstünə bağırdı:

- Ə, bura bax, camaata xox gəlmə! Kişisənsə, get Əsməri burax, gəl mənimlə danışaq!

Xanəli özündən də bir qarış hündür olan bu yekəpər adama baxıb, dişlərini qıcadı:

- Sən öləsən, sənin başına elə oyun açaram, ömrün boyu kişilikdən danışmağa utanarsan!

Xanəlinin ağzından bu sözlər çıxan kimi «Jeep» markalı maşının qapıları açıldı və dörd nəfər silahlı şəxs yerə atıldı. Səlahəddin isə, sadəcə olaraq, əlini tapançasının üstünə qoydu.

Heç kəs indiyədək Zəkixan kişini belə özündən çıxan


downloaded from KitabYurdu.org

görməmişdi. Bircə anın içində araya qan düşəcəyini görüb:

- Rədd olun burdan, mənim qızımın taleyilə oynamayın! - deyə əslində Şirasiana qəzəblənsə də, üzünü onunla birgə bütün adamlarına tutdu.

Atasının qırımını görən Ələkbər də cəld işə qarışıb Şirasianı arxaya çəkdi. Bir az Xanəlinin cəsarətli təhdidindən qorxuya düşən, bir az da Ələkbərdən keçə bilməyən Şiraslan tabe olub astadan donquldanaraq kənara çəkildi.

Tez də sakitləşib özünü ələ alan Zəkixan kişi məzəmmətli baxışlarla Şiraslana tərəf baxıb yenə üzünü Xanəliyə çevirdi:

-Xanəli, birinci sənin qardaşın Qanturalın namusuna sataşıb. Gedib evinə soxulub. Oğlum da öz namusunun qisasını alıb.

Əlbəttə, onun sənin o biri qardaşlarını öldürməyini ədalətli iş hesab etmirəm. Ancaq indi biz nə edə bilərik? Onun yerini-yurdunu, harada gizləndiyini bilmirik axı?!

- Bilirsiniz! - Xanəli başını mənalı şəkildə yellədi. - Yaxşı bilirsiniz! Bir də təkrar edirəm, Qantural üzə çıxmasa, sabah, günün sonunda qızın öldürüləcək. Polislə iş görməyi ağlınıza da gətirməyin. Mən Ağaşamilin oğluyam! Nə türmədən, nə də ölümdən qorxum var! Polisə xəbər versəniz də qızının yerini tapa bilməyəcəklər. O, dediyim vaxtda öldürüləcək. Hələ üstəlik, bacardığımı edəcəm sizinlə!

Zəkixan kişi hirsini boğub ağır-ağır dilləndi:

- Sən bizə ağılabatmaz şərt qoyursan, bala! Qanturalın harada olduğundan xəbərimiz yoxdursa, sabah axşama kimi onu necə üzə çıxara bilərik?



downloaded from KitabYurdu.org

Xanəli ilan kimi fısıldadı:

- Kişi, mənim əsəblərimlə oynama! Sənin oğlun mənim üç qardaşımı öldürüb. Gərək indiyə qədər mən də sizdən ən azı üçünü öldürəydim. Ancaq mən hələlik təkcə Qanturalı istəyirəm. Sən də deyirsən ki, ondan xəbərin yoxdur. Onda mənim sualıma cavab ver! Qismətov səni, ailəni get-gələ salıb kabinetində incidirdi, təhqir edirdi, düzdür?

- Hə... - Zəkixan bir az gec dilləndi.

- Oğlun da onu qarajında vurub öldürdü, düzdür?

Zəkixan kişi susub başını aşağı dikdi.

- Bəs Qantural haradan bilmişdi sizin incidilməyinizi?

- Nə bilim, ay oğul...

- Sabah gecə saat 12-yə kimi vaxtınız var! Xanəli bunu deyib geriyə çəkildi və maşınına tərəf getməyə başladı. Bu zaman Fərhad üstlərinə su ələnmiş kimi susub qalmış qohumlarının arasından qabağa çıxıb onu səslədi:

- Xanəli!

Xanəli adını eşidib arxaya döndü. Həyəcanlanmış Fərhad ona yaxınlaşıb tələsirmiş kimi birnəfəsə dedi:

- Sənə girov lazımdırsa, məni özünlə apar, bacımı burax. Dediyin vaxta qədər Qantural üzə çıxmasa, məni öldürərsən!

Xanəli qarşısında dayanmış bu oğlanı baxışları ilə başdan-ayağa süzüb bir anlıq duruxdu. Ancaq sonra nə düşündüsə:

- Görürəm, qeyrətli oğlana oxşayırsan. - dedi. - Ancaq mən daha sözümü dedim. Bura bazar açmağa gəlməmişəm!



downloaded from KitabYurdu.org

Sözünü bitirib maşınına əyləşdi və hirslə qapını çırpdı. «Nissan», onun arxasınca da o biri maşın hərəkətə gəlib oradan sürətlə uzaqlaşdılar.

Onlar gedən kimi hamı təzədən Zəkixanın başına yığışdı. Fərhad atasına baxıb titrək səslə:

- İndi biz nə edəcəyik? - deyə soruşdu.

Nə etmək lazım gəldiyini Zəkixan kişi özü də bilmirdi və ona görə də çarəsiz halda çiynini çəkib susdu. Atasının belə aciz vəziyyətə düşməsi Ələkbərə çox pis təsir etdi. Yumruqlarını bütün qüvvəsilə yanındakı şam ağacına çırpıb qəzəblə səsləndi:

- Əsmər əllərində olmasaydı, parça-parça edərdim onu!

- Mənim də dilimi qısa eləyən elə o oldu, - Şiraslan dedi.

Zəkixan kişi yaxınlaşıb əlini oğlunun çiyninə qoydu:

- Səbirli ol oğul, səbirli ol! Allah böyükdür!

Ələkbər ona tərəf çevrildi:

- Səbirli olmaq vaxtı deyil, ata! O tərs oğlu tərs, doğrudan da, dediyini eləyəndi. İş görmək lazımdı!

- Nə iş görəcəyik axı? Qantural bizi elə dərin quyunun içinə salmayıb ki, içindən çıxa bilək!

- Biz də onun bacısını, ya da uşaqlarından birini qaçırmalıyıq. Onda məcbur olub qaytarar Əsməri.

Ələkbər bunu deyib xalası uşaqlarının üzünə baxdı. Onlar dərhal başlarını yelləməklə razı olduqlarını bildirdilər. Ancaq bu fikir daha çox Şiraslanın ürəyindən oldu:

-Arxayın ol, Ələkbər, bu iş mənim boynuma!

Zəkixan kişi ona etiraz etdi:



downloaded from KitabYurdu.org

- Elə oturublar küçədə ki, gəl məni qaçırt! Bu işdən sonra, yəqin ki, onlar da işlərini ehtiyatlı
tutublar. Qızlarını, qadınlarını qorumamış olmayacaqlar.

Şiraslan əminliklə başını yellədi:

- Təki onun bacısı küçəyə çıxsın. İyirmi qoruyanı olsa da əllərindən alıb gətirərik! Ondan sonra Xanəli gəlib diz çökər qabağımızda.

Zəkixan kişi qızının xilası üçün hər şeyə razı olsa da, yenə dözmədi:

- Tutaq ki, onlar namərdlik, nakişilik elədi, bəs bizim kişiliyimizə nə gəlib?

Onun sözləri Ələkbərə toxundu:

-Ata, qızını qurtarmaq üçün başqa bir yol bilirsən?

- Yox bala, yox... - atası başını buladı. - Allahın ətəyindən yapışmaqdan başqa heç nə bilmirəm.

- Allah səni eşidənə qədər gec olacaq, ay kişi, vaxtımız azdır!

Zəkixan kişi daha dillənmədi. Ələkbər, Şiraslan, Ələkbərin xalası uşaqlarından Nəsir, Rəcəb və daha iki-üç nəfər fikirləşib plan qurmaq üçün məhəllədəki çayxanada yığışmağı qərara aldılar. Sonra isə hamısı maşınlara minib şam meşəliyini tərk etdilər.

Altmış üçüncü fəsil

Səhəri gün yenə atasının yanında növbə çəkən Fatimə palatadan çıxanda dəhlizdə, gözləmədiyi halda, Ələmdarla rastlaşdı. O, dəhlizin o biri başından gəlirdi. Əyninə açıq qara rəngli kostyum, mavi rəngli köynək geyinmişdi. Bu paltar onun hündür və mütənasib qamətinə xüsusi yaraşıq verirdi. Öz adətincə boynunu azacıq aşağı əyib sərt qaşlarının altından görə biləcəyi hər bir şeyə diqqət


downloaded from KitabYurdu.org

yetirirdi.

Fatimə onu görəndə, nədənsə, özünü itirdi. Bəlkə də Rafiqin ölümü ilə əlaqədar polis idarəsində verdiyi izahat yadına düşmüşdü. Onda, özü də istəmədən, Ələmdarla Rafiqin arasında baş vermiş
münaqişəni olduğu kimi danışmışdı. Amma sonra qız onu da eşitmişdi ki, Əlifağanın sürücüsü Rafiqi öldürdüyünü boynuna alıb...

Ələmdar gəlib Fatiməyə çatanda birinci olaraq qız salamlaşdı:

- Salam!.. Sizdən nə əcəb, burdasınız?

İlqarın əmisi də burada yatırdı və Ələmdar ona
baş çəkməyə gəlmişdi. Bunu qıza bildirib, onun kimin üçün gəldiyi ilə maraqlandı.

- Atam infarkt keçirib. - Fatimə kədərlə dilləndi. - Qardaşlarımın dərdi yıxdı kişini...

- Qardaşlarına nə olub?

O, qızdakı dəyişikliyi ona baxan kimi hiss etmişdi. Axırıncı dəfə parkda gördüyü Fatimədən əsər-əlamət qalmamışdı, elə bil. Bir az da arıqlamış,
gözlərinə sanki heç vaxt silinib getməyəcək kədər yığılmışdı.

Ələmdar, sözsüz ki, Qanturalın törətdiyi cinayətlərdən xəbərdar idi. Amma öldürülənlərin Fatimənin qardaşları olduğunu bilmirdi. Odur ki, qız hər şeyi ona, qısaca da olsa, danışmalı oldu.

Ələmdar qızın halına çox təəssüfləndi:

- Allah rəhmət eləsin! Neyləmək olar? Səbirli ol. Özünü üzmə!

Onun ürəkdən təskinlik verməsi Fatiməni kövrəltdi.



downloaded from KitabYurdu.org

Özü də bilmədən onunla yaxın adamı kimi danışmağa başladı:

- Daha səbirli ola bilmirəm. - dedi. - Hər dəqiqəmiz qorxu içində keçir. O qatili tapıb həbs edə bilmirlər ki, hər şeyə son qoyulsun. Ailəsi ilə də düşmən olmuşuq. İndi Xanəli hər birimizi qorumağa
adam tutub. İki nəfər bu saat həyətdə dayanıb mənə görə. Bezmişəm daha bütün bunlardan...

Ələmdar onu sakitləşdirməyə çalışdı:

- Darıxma... Mən, nədənsə, səni dözümlü, cəsarətli bir qız kimi tanıyıram. Ruhdan düşmək heç yaraşmır sənə.

- Təşəkkür edirəm!
- Nəyə görə?
- Təskinlik verdiyinizə görə.

- Arzu edirəm, bir də heç vaxt təskinliyə ehtiyacın olmasın!

- Çox sağ olun! - Fatimə hörmət naminə gülümsədi.

- Yaxşı, mən getməliyəm. Atanın yastığı yüngül olsun...

Ələmdar bunu demişdi ki, giriş tərəfdən dəhlizə daxil olan Cəhaləni gördü. Əyninə bəyaz köynək, boz rəngli yubka geyinmişdi. Onun da yerişində kədər və yorğunluq hiss olunurdu. Amma Ələmdarı görən kimi gözəl siması işıqlandı və sevincini büruzə verdi. Həm də bir həftə əvvəl incik şəkildə ayrıldığı, amma hər gün, hər saat haqqında düşündüyü oğlanı burada gördüyünə təəccüblənmişdi. Çatıb Fatimə ilə öpüşəndən sonra Ələmdara da əl uzatdı:

- Salam! Xeyir ola, nə əcəb səndən?

Ələmdar ona da xəstəxanaya gəlməyinin
səbəbini bildirib Fatiməyə baxdı:



downloaded from KitabYurdu.org

- Cəhalə xanım anamın həkimidir...

- Oy, nə yaxşı! - Fatimə sevindi. - Qardaşımın arvadıdır. Səxavətin.

- Hə? - Ələmdar təəccübləndi. - Demək o sizin qardaşınız imiş? Səxavət həkimi tanıyıram.

- Bəs siz haradan tanışsınız? - Cəhalə güclə hiss olunan qısqanc bir maraqla soruşdu.

- Universitetdən! - Fatimə dərhal cavab verdi. - Bir dəfə idman kafedrasından kəsirim var idi, Ələmdar müəllim düzəltdirdi.

- Belə de!..

Cəhalənin özündən asılı olmayaraq, dodağı qaçdı və Ələmdar başa düşdü ki, «müəllim» sözünə gülümsədi o.

Birdən yaxındakı palatanın qapısı açıldı və əyninə boz kostyum geyib, ağ köynəyinin üstündən enli qalstuk bağlamış Şakir dəhlizə çıxdı. İri qarnı köynəyi qabartdığı kimi, qalstukun da uc hissəsini yuxarıya doğru əyilməyə məcbur etmişdi.

Deyəsən, Ələmdarı tanımadı. Ona təəccüblə baxıb, Cəhalə ilə salamlaşdı:

- Salam, Cəhalə xanım!

- Salam Şakir müəllim!

Fatimə Şakiri Ələmdara göstərib:

- Tanış olun, nişanlımdır! - dedi.

Ələmdar onu həmin park əhvalatından tanısa da, bunu yada salmadan:

- Çox şadam! - dedi.

Şakir nəsə mızıldanıb başını tərpətdi və nişanlısına üz tutdu:

- Cəhalə xanım da gəldi. Gedək?



downloaded from KitabYurdu.org

- Hə, gedək! - Fatimə cavab verdi və palataya girib atası ilə sağollaşdı.

Sonra nişanlısına qoşulub gedəndə Ələmdara da:

- Sağ olun! - dedi.

Onlar uzaqlaşıb dəhlizdən çıxan kimi Cəhalə baş dumanlandıran bir işvə ilə Ələmdarın gözlərinə baxıb:

- Niyə görünmürsən? Niyə zəng vurmursan? - deyə soruşdu.

- Başım qarışıq olur. - Ələmdar cavab verdi. - Elə bu saat da klubda gözləyirlər məni... Sənin işlərin necədir?

- Nə bilim... - Cəhalə kədərlə çiynini çəkdi. - Çətin günlər keçiririk. Çox ağırdır... Qayınatamla üz- üzə gəlmək, qayınxatınların, uşaqların üzlərinə baxmaq... - dərindən ah çəkdi. - Amma belə vaxtda daha çox görmək istəyirəm səni. Daha çox ehtiyac hiss edirəm səninlə söhbətə...

- Özündən muğayat ol, özünü qoru.

- Kimin üçün?

Ələmdar bildi ki, qadın hansı cavabı gözləyir. Amma yayınmaq istədi həmin cavabdan:

- Əlbəttə, özün üçün, səni sevənlər üçün...

- Görəsən, sən də varsan onların içində? Əslində bu sualın cavabı Cəhalə üçün o qədər
vacib, o qədər maraqlı idi ki, sualı sərbəst və gülərüzlə verməyə çalışsa da alınmadı. Hər şeyi bir daha anlatdı gözləri, qızaran yanaqları, titrəyən dodaqları...

Buna baxmayaraq, Ələmdar yenə dəqiq cavabdan qaçdı:

- Sözsüz ki, sənin yaxşı olmağını istəyənlərdən biri də mənəm...



downloaded from KitabYurdu.org

Cəhalə kədərlə ah çəkib başını yellədi:

- Yaxşı... Anan necədi?

- Pis deyil. Çox sağ ol!

- Deyəsən, tələsirsən?

- Hə... - Ələmdar başını tərpətdi. - İşdə olmalıyam!

- İşdə... - Cəhalə kinayə ilə gülümsədi.

- Nədi, rişxənd edirsən mənim işimə? Nə olub ki?

- Heç nə! Sadəcə, mən çox istəyirəm ki, sən ciddi adam olasan.

Cəhalənin kənara baxıb, sanki gözləri yol çəkirmiş kimi dediyi bu sözlər Ələmdara toxundu:

- Mən ciddi adam deyiləm?

- Üzdən oxşayırsan. Amma nə özün ciddisən, nə işin...

Mənim fikrimcə, adamın həyatda gərək bir ciddi məqsədi, arzusu olsun. Bütün ömrünü də, lazım gəlsə, bu məqsəd uğrunda mübarizəyə həsr etsin....

Bu, əslində, Vətən üçün olduqca ciddi, olduqca əhəmiyyətli işlər görən gizli şöbənin ən bacarıqlı, ən prinsipial agenti mayor Ələmdar Məlikovun, yəni Leopardın ən ağrılı yeri idi. Heç kəs onu olduğu kimi tanımırdı. Nə anası, nə dostları, nə tanışları, nə də əleyhdarları... Hamı üçün o, rahat bir qazanc yeri tapıb başını girləyən Ələmdar idi. Dava-dalaşı sevən, adam bıçaqlayıb həbsə düşən Ələmdar... Lotu Vələddinin oğlu Ələmdar...

Bir an susub:

- Mən də millətimiz üçün idmançı yetişdirirəm, - dedi.

Cəhalə yenə gülümsədi:

- Qarşına belə bir məqsəd qoymusansa, bu da yaxşıdır. Amma gərək adamın öz şəxsi həyatında da



downloaded from KitabYurdu.org

bir məqsədi olsun. Heç nəyə baxmadan, heç nədən çəkinmədən mübarizə aparsın bu məqsədinə çatmaq üçün. Həyat həmişəlik verilməyib adama...

Onun nə demək istədiyini yaxşı anlayan Ələmdar söhbətin uzanacağından qorxub:

- Yaxşı, Cəhalə, - dedi. - Görüşüb söhbət edərik bu barədə, indi mən getməliyəm.

- Nə olar, get... - Cəhalə qayınatası yatan palatanın qapısına baxdı. - Mən də girim içəri, kişi indi narahat olub, yəqin ki...

- Sağ ol, hələlik!

- Yaxşı yol!

Ələmdar xəstəxanadan çıxıb pilləkənin üstündəki kiçik meydançada dayandı və həyətə göz gəzdirdi. O öz maşınını küçədə saxlamışdı. Amma həyətdə də maşın az deyildi. Adamlar ikibir, üçbir
dayanıb söhbət edir, bəziləri də maşınların yanında dayanıb kimisə gözləyirdilər. Cəhalənin süd rəngli «Mersedes»i və qoruyucularının maşını da burada idi. Onlar öz «BMW» markalı avtomobillərinin yanında dayanıb ətrafa tamaşa edirdilər.

Fatimə ilə nişanlısı hələ həyətdən çıxmamışdılar. Ələmdarın tanımadığı iki gənclə nəyin üstündəsə mübahisə edirdilər. Bunlar Qulu ilə Ramiz idi. Sən demə, Şakir nişanlısı ilə bir qədər piyada gəzmək istəyirmiş. Onlar isə buna razılıq vermirlərmiş. Ələmdar onların söhbətini eşitməsə də, Xanəlinin bacısına qoşduğu qoruyucular olduğunu anladı. Axır, deyəsən, Fatimə öz sözünü yeridə bildi və nişanlısı ilə birlikdə darvazaya doğru getdilər. Amma hiss olunurdu ki, qoruyucular heç də



downloaded from KitabYurdu.org

onları nəzarətsiz buraxmaq fikrində deyillər.

Ələmdar pencəyinin cibindən qara şüşəli eynəyini çıxarıb gözünə taxdı və pilləkəni düşmək istəyirdi ki, darvazanın yaxınlığında, küçə tərəfdə dayanmış iki nəfər diqqətini cəlb etdi...

Həmin iki nəfər Şiraslanla, Ələkbərin xalası oğlu Nəsir idi. O Nəsir ki, ona vuruşqanlığına, dəlisovluğuna görə yaşadığı məhəllədə Dəli Nəsir adı qoymuşdular. Onlar bu gün nəyin bahasına olursa olsun Fatiməni oğurlayıb bu barədə Xanəliyə xəbər vermək və onu Əsmərlə dəyişmək istəyirdilər.

Qızı Ələkbərin maşınında qaçıracaqdılar. O, artıq küçədə saxladığı maşında, sükanın arxasında oturmuşdu. Şiraslanla Nəsirdən başqa daha beş nəfər qohumu isə darvazadan bir az aralı, səkidə dayanıb, Fatiməni qorumaq istəyən olarsa, işə qarışmaq üçün məqam gözləyirdilər.

Ələmdar nə Şiraslanı, nə də Nəsiri qətiyyən tanımırdı. Amma onların şübhəli davranışından və Fatiməyə göz qoymalarından burada nəsə xoşagəlməz bir hadisənin baş verəcəyini duymuşdu. Pilləkəndən düşüb, küçədə saxladığı maşınının yanına getmək üçün darvazadan çıxanda, Nəsirin kənarda dayanmış beş nəfərə başıyla işarə etdiyini görüb məsələnin nə qədər ciddi olduğunu bir daha anladı.

Bir qədər uzaqda saxladığı maşınına çatıb qapını açdı. Amma o saat da gördü ki, maşını küçənin kənarı boyu sıra ilə düzülmüş maşınların arasından çıxara bilməyəcək. Kiminsə tələsik saxladığı «Opel» markalı maşın onun küçəyə çıxmaq üçün yolunu kəsmişdi. Ətrafa boylanıb, bəlkə


downloaded from KitabYurdu.org

də, yaxındakı mağazaya girmiş sürücünü gözləməyə başladı.

Bu vaxt Şakirlə Fatimə xəstəxananın darvazasından uzaqlaşıb sıx ağacların kölgə saldığı uzun səki ilə addımlayırdılar. Şakirin qanı qara idi.

Bu işlərin nə vaxt bitəcəyi və Fatimənin nə vaxtadək cangüdənlə gəzəcəyi barədə giley-güzar edirdi.

- Bu işlər mənim heç xoşuma gəlmir, - dedi. - Heç!..

- Kimin xoşuna gəlir ki? - Fatimə incik halda cavab verdi.

- Bilmirəm, kimin xoşuna gəlir... - Şakir açıqlandı. - Ancaq Nihatın əclaf hərəkətinin cəzasını mən çəkməməliyəm!

Onun sözləri Fatiməyə toxundu:

- Nə cəza çəkmisən ki sən? Qardaşlarını itirən mənəm.

Şakir nəsə demək istədi. Amma demədi. Əsəbi halda əlini yelləyib susdu.

Birdən qaça-qaça küçəni keçib səkiyə adlayan bir cavan oğlan onların qarşısına keçdi. Bu Fərhad idi. O, narahat halda ətrafına boylanıb Fatimədən:

- Siz Xanəlinin bacısısınız? - deyə soruşdu.

Təəccüblənmiş Fatimə:

- Tutaq ki, elədir, - dedi. - Siz kimsiniz? Nə lazımdı sizə?

- Mən Qanturalın qardaşıyam. - Fərhad tələsik dilləndi. - Sizi qaçırmaq istəyirlər. Tez bir taksi saxlayıb buradan uzaqlaşın!

Oğlanın sözləri, deyəsən, Şakiri bərk qorxutmuşdu. Cəld Fatimənin qolundan yapışıb onu
küçəyə tərəf çəkmək istədi. Amma qız onun əlindən çıxıb,



downloaded from KitabYurdu.org

qarşısında dayanmış mərdanə görkəmli, təmiz baxışlarından narahatlıq yağan oğlana baxdı:

- Məni qaçıranın gərək yeddi başı olsun!

- Xahiş edirəm! - Fərhad az qala yalvarmağa başladı. - Tez aradan çıxın! Mən istəmirəm, bizimkilər sizə pislik eləsin!

- Sizinkilər bizə elədiklərini eləyiblər! - Fatimə sərt şəkildə dilləndi. - Sənin qardaşın mənim üç qardaşımı öldürüb. Rədd ol qarşımdan, gözüm səni görməsin!

Deməyə söz tapmayan Fərhad peşman halda əlini yelləyib, yenə ətrafına boylandı və dönüb küçənin o biri tərəfinə keçdi.

- Gəl, bir taksi saxlayaq! - özünü itirmiş Şakir dedi.

- Niyə? - Fatimə etiraz etdi. - Gəzirik də özümüzçün! Mən heç kəsdən qorxmuram.

- Tərslik eləmə... - Şakir dönüb arxaya baxdı. Səkidə heç kəs görünmürdü.

Fatimə o biri səkiyə tərəf boylandı. Sanki Fərhadı bir də görmək istəyirdi. Demək, bu oğlan Qanturaiın qardaşı olsa da, Fatiməgilin ailəsi ilə düşmənçilik etməyin əleyhinədir... Yəni doğrudanmı Qanturaiın qardaşı idi bu? Dedikləri düzdürmü?.. Amma insafla deyəndə, mərd oğlana oxşayırdı...

Dinib-danışmadan səki ilə addımlayırdılar. Bu zaman Ələkbərin «Jiquli»si onlardan bir qədər qabağa keçib səkinin qırağında dayandı.

Bir neçə addım da atmışdılar ki, maşından düşən Şiraslanla Nəsir səkiyə çıxıb onların qabağını kəsdilər. Məsələnin nə yerdə olduğunu anlayan
Fatimə cəld arxaya baxdı. Onlardan on-on beş metr arxada



downloaded from KitabYurdu.org

tanımadığı beş nəfər Qulu ilə Ramizi dövrəyə almışdılar. Elə həmin anda da qıza tərəf gəlməyə can atan qoruyucularla Ələkbərin adamları arasında qızğın əlbəyaxa vuruş başladı.

Ələkbər sağ tərəfdən arxa qapısı açılmış maşınında hazır vəziyyətdə oturub gözləyirdi. Vaxt itkisinə yol verməmək üçün motoru da söndürməmişdi.

Çətin vəziyyətə düşdüklərini dərk edən Fatimənin həyəcandan boğazı qurudu. Hay salaraq geri dönüb küçəyə atılmaq istədi. Amma Şakiri üz- gözlərindən quldurluq yağan bu adamlarla tək buraxıb qaçmağı qəbul edə bilmədi. Dönüb nişanlısına baxdı. Onun vəziyyəti Fatiməninkindən heç də yaxşı deyildi.

Şakirin qarşısında dayanmış Şiraslan həyasız baxışlarıyia onu başdan-ayağa süzüb, rişxəndlə dilləndi:

- Nişanlın üç-dörd saatlığa bizə lazımdır, qaqaş! Şakir qorxudan udqunsa da nişanlısının yanında
susmaq istəmədi:

- Bu nə deməkdir?!

- Bu o deməkdir ki, ağzın-burnun əzilməmiş əkil burdan!

Bu sözləri Nəsir dedi və əliylə Şakiri kənara itələyib Fatimənin qolundan yapışdı. Qız həmin anda sərbəst qalmış sol əliylə Nəsirin sifətinə bir şillə vurdu:

- Burax qolumu, əclaf!

Amma Nəsir onu buraxmaq fikrində deyildi. Əksinə, aldığı şillədən sonra qızdan daha bərk
yapışıb maşına tərəf dartdı. Nişanlısını onun əlindən qurtarmaq istəyən Şakir Şirasianın vurduğu güclü yumruq zərbəsindən ikiyə qatlanıb dizləri üstə səkiyə çökdü və



downloaded from KitabYurdu.org

bundan sonra Şiraslan da Nəsirin köməyinə gəlib Fatimənin o biri qolundan tutdu.
Nəsir qızın bütün qüvvəsilə çırpınıb müqavimət göstərdiyini görüb:

- Xoşluqla keç maşına, elə eləmə ki, səni vurum! - dedi.

Əlindən başqa heç nə gəlməyən Fatimə onun üzünə tüpürdü:

- Qeyrətsizlər! Allaha and olsun, qardaşım bilsə, sizi öldürəcək!

Onu maşına tərəf itələyən Nəsir xırıltılı səslə güldü:

- Pah, bunun da qardaşı var imiş!

Bu an maşın təkərlərinin asfalta sürtünməsindən alınan kəskin səs onu diksindirib, sözünü ağzında qoydu. Tünd yaşıl rəngli «Volvo» Ələkbərin maşınının qabağına keçib dayandı və Ələmdar cəld maşından düşüb onların üstünə gəldi.

Şirasian qızın qolunu buraxıb ona tərəf döndü və yalnız bircə anlığa gözləri qarşısında geniş açılmış barmaqları görə bildi. Bu yalnız çox kiçik bir anda baş verdi və sonra daha heç nə görə bilmədi. Ələmdarın pəncəsilə vurduğu qüvvətli zərbə sifətini necə tutdusa, dünya-aləm qaranlıqlaşıb başına fırlanmağa başladı. Əlini qaldırmağa macal tapmamış, boynuna endirilən ikinci zərbə onu yerə çökməyə məcbur etdi.

Hadisə o qədər sürətlə cərəyan etmişdi ki, Ələkbər hələ maşından çıxmağa imkan tapmamışdı.
Nəsir isə qızdan əl çəkib bıçağını çıxartdı və Ələmdarı vurmağa cəhd göstərdi. Amma Ələmdar ağlasığmaz bir cəldliklə onun bıçaq tutan biləyindən yapışıb öz dizinə


downloaded from KitabYurdu.org

vurdu. Qol sümüyü qırılmış Nəsir ağrıdan çığıranda sinəsinə dəyən daha güclü zərbə onu arxasındakı ağaca çırpdı və o, ölü kimi yerə sərildi.

Şiraslan yerdə oturub bir əli ilə boynunu ovuşdururdu. Maşından düşən Ələkbər isə Nəsiri ölmüş bilib özünü onun üstünə atmışdı. Bundan istifadə edən Ələmdar Fatimə ilə Şakiri maşınına mindirib oradan uzaqlaşdı.

«Volvo» qarşıdakı tini burulandan sonra Ələmdar güzgüdə hələ də tam özünə gəlməmiş qızın həyəcanlı üzünə baxdı və:

- Kim idi bunlar, Fatimə? - deyə soruşdu.

- Bilmirəm... - qurumuş dodaqlarını yalayan qız çətinliklə dilləndi. - Yəqin ki, Qanturalın adamlarıdır...

- Onlar nə istəyirdi axı sizdən?

- Bilmirəm... Heç nə bilmirəm...

Fatimə bunu deyib ağlamağa başladı. Ələmdar əvvəl istədi qıza təskinlik versin. Amma sonra fikirləşdi ki, qoy ağlayıb ürəyini boşaltsın. Dönüb yanında oturmuş Şakirə baxdı. Onun halı özündə deyildi. Rəngi ağarmışdı. Çətinliklə nəfəs alırdı. Arxaya boylanıb:

- Sizi hara aparım? - deyə Fatimədən soruşdu.

- Zəhmət olmazsa, evimizə...- qız gözlərini qurulayıb dilləndi və öz evlərinin ünvanını bildirdi.

Şakir isə yenə dillənmədi. Amma bir az gedəndən sonra qəflətən Ələmdara baxıb:

- Saxlayın, mən düşüm! - dedi.

Ələmdar maşını saxladı. Fatimə təəccüblə:

- Hara gedəcəksən? - deyə nişanlısından soruşdu.

- Burdan avtobusa minib işə gedəcəm. - Şakir bunu deyib maşından düşdü və Ələmdara quruca təşəkkür edib


downloaded from KitabYurdu.org

qapını örtdü.
Fatimə:

- Bu vəziyyətdə nə iş? - dedisə də Şakir onu eşitmədi və yaxındakı dayanacağa tərəf addımladı.

Maşın yenidən yola düşdü. Daha Fatiməgilin evinə çatana qədər heç biri danışmadı. Evin qabağında maşından düşən qız xəcalətlə öz xilaskarına baxıb:

-Vallah, heç bilmirəm, sizə necə təşəkkür edim? - dedi.

Ələmdar gülümsədi:

- Təşəkkür-filan lazım deyil. Amma bundan sonra daha diqqətli ol. Bu işlər bitənə qədər... Evdə tək olanda da, çalış ki, qapını hər adama açmayasan.

Onsuz da vəziyyəti yaxşı olmayan Fatimənin sifəti, nədənsə, birdən-birə daha da tutuldu:

- Arxayın olun! - dedi. - Daha heç kəsə açmaram qapını! Heç kəsə!

Ələmdar bəlkə bir daha görməyəcəyi bu qızla vidalaşıb maşını birbaş «Döyüş» idman klubuna sürdü. Kobranın axtarışından uzaqlaşdırılandan sonra əslində əli heç bir işə yatmasa da, özünü daha çox burada rahat hiss edirdi. Dostlarının və şagirdlərinin yanında...

## Altmış dördüncü fəsil

Ələkbərin Fatiməni qaçırıb, girov götürülmüş bacısıyla dəyişmək planı baş tutmamış, beləliklə, Əsmərin xilas edilməsinə olan son ümid də kəsilmişdi. Balta Xanəii haqqında azdan-çoxdan eşitmiş Zəkixan kişi bir xeyli götür-qoy edəndən sonra hadisə barədə polisə xəbər vermək fikrindən də imtina etmişdi. Ən əsası isə Zəkixan da, Ələkbər də qaçaq düşmüş Qanturalın harada olduğundan xəbərsiz olduqları üçün, Xanəlinin qoyduğu


downloaded from KitabYurdu.org

şərti yerinə yetirib Əsməri ölümdən qurtarmaq imkanından məhrum idilər.

Flava qaraldıqca Zəkixanın ailəsində hökm sürən dəhşətli narahatlıq getdikcə artırdı.
Ağlamaqdan gözləri qızarıb şişmiş Nisə arvad çarpayısının üstündə oturub başını dərdli-dərdli yırğalayırdı:

- Bədbəxt balam! Bəxti qara balam! Bir gün yazmayıbmış Allah səninçün. Əlləri qurusun sənə əl qaldıranların! Balası yetim qalsın sənin kimi!

Əsmərin oğlu nənəsinin yanında oturub, başını onun dizlərinin üstünə qoymuşdu. Ağlamaqdan gözlərinin yaşı qurumuşdu və daha səsini də çıxarıb- eləmirdi. Ələkbərin uşaqları da nənələrinin o biri tərəfində büzüşüb oturmuşdular. Nisə arvad yenə bir qədər susandan sonra birdən-birə hövlləndi və əlini dizinə çırpıb bəlkə də ömründə ilk dəfə oğluna qarğış eləməyə başladı:

- Səni görüm belin sınsın, ay Qantural, belimizi sındırdın! Səni görüm qanına suvanasan! Gedib
əmin ölmüşün qancığını alıb gətirdin, rüsvay elədi axırda bütün əqrəbamızı. İndi də günahlı bilmirsən, günahsız bilmirsən, qisas alırsan guya! Hamımızı əsir-yesir eləmisən! Daha nə namus qaldı bizdə, nə qeyrət. Vayına oturum sənin kimi oğulun!

Səsini kəsib bir an nəsə düşündü və birdən ağlamağa başladı:

- Balamı əliqanlı eləyib çöllərə salanın goru çatlasın! Yerin cəhənnəmlik olsun sənin, ay Sənihə! Meyitini kaftarlar daraşdırsın!

Divanın üstündə ağzı üstə sərilib qalmış Fərhad anasının qarğışlarını eşitsə də səsini çıxarmırdı. Səhərdən


downloaded from KitabYurdu.org

ancaq Əsmər haqqında, onu xilas etmək haqqında fikirləşirdi. Dilinə bir tikə də çörək dəyməmişdi bu gün. Fikirləşməkdən və aclıqdan başı ağrıyırdı.

Birdən Fərhadın ağlına gəldi ki, ayağa qalxıb birbaş Ağaşamilin yatdığı xəstəxanaya getsin. Palataya girib Ağaşamilə bildirsin bu işi... Bəlkə də heç xəbəri yoxdu onun Əsmərin qaçırılmağından. Yalvar-yaxar eləyib desin ki, oğluna tapşırıb buraxdırsın Əsməri evə...

Amma bugünkü hadisəni, yəni Fatimənin qaçırılmasına cəhd göstərilməsini xatırlayanda ruhdan düşdü. Onu heç Ağaşamilin yanına buraxmazdılar da! Hələ Xanəli özü, ya adamları orada olsa...

Fərhad əvvəldən razı deyildi Ələkbərin bu planıyla. Gərək böyük qardaşı Xanəlinin bacısına sataşmayaydı. Hələ, nə yaxşı ki, bacarmamışdılar qızı qaçırmağı. Kimsə, qəflətən çıxıb alıbmış qızı
əllərindən. Görəsən, kim olubmuş o? Nəsirin də vəziyyəti çox ağırdır, deyirlər...

İndi, Xanəli eşidibsə, lap cin atına minib. Bacısına qarşı olan bu hərəkətdən sonra heç yumşalmaz... Sağ buraxmaz daha Əsməri...

Kamilə nəyisə itiribmiş kimi, fikirli halda otaqları gəzir, bir yerdə qərar tuta bilmirdi. Səsini çıxarmasa da, ürəyində Qanturalı və hətta Əsmərin özünü qınayır, daha çox əri üçün narahatlıq keçirirdi. Ərinin dünəndən bəri bir gün içində başının ağardığını, gözlərinin çuxura düşdüyünü görür, içindəki acığı, hikkəni tökməyə adam axtarırdı.

Ələkbər bir-iki yaxın qohumu ilə həyətdə oturub astadan söhbət edirdilər. Daha doğrusu, yanındakılar


downloaded from KitabYurdu.org

danışırdı, o isə susub gözlərini həyət qapısına dikmişdi.

Qol sümüyü sınıb, qabırğasından xəsarət alan Nəsiri xəstəxanaya yerləşdirib, yenicə qayıtmışdılar. Xəsarətin səbəbini soruşan polis əməkdaşına Nəsirin pilləkəndən yıxılıb bu hala düşdüyünü demişdilər.

Ələkbər onun planının həyata keçirilməsinə mane olan, qəfil fırtına kimi gəlib hər şeyi alt-üst edən Ələmdar haqqında fikirləşirdi. O, heç vaxt ağlına gətirə bilməzdi ki, gücdə Şiraslanın qabağına çıxa biləcək adam tapılsın... Ya elə Nəsirin... Kim idi görəsən o? Qızın qoruyucularından deyildi. Amma deyəsən, hər kimdirsə, qız tanıyır onu...

Axır ki, baş tutmadı onun planı... Lap yəqin, bacısını xilas eləyəcəkdi bu yolla. Yoxsa Fatimə onun nəyinə lazım idi ki?.. O, Xanəli deyildi ki qıza- qadına baş qoşsun! Heç vaxt belə şey eləməzdi

Ələkbər, bacısını qurtarmaq üçün başqa bir çarə bilsəydi. Heç vaxt!

Anasına da bildirməmişdilər bu işi. Nisə arvad bilsəydi qətiyyən razı olmazdı qız uşağına sataşmağa. Heç Zəkixan kişi özü də! O, bəlkə də heç inanmamışdı ki, bu Ələkbərin ciddi fikridir. Yoxsa mane olardı yəqin ki...

Artıq hava qaralmışdı. Otaqların birində bayaqdan Allaha dua etməklə məşğul olan Zəkixan kişi, nəhayət, namazını bitirib ayağa qalxdı və bu dəfə daha ucadan:

- Qızımı sənə tapşırıram, ya rəbbim! - dedi. - Onu özün öz pənahında saxla!

Altmış beşinci fəsil

- İrəvan, Göycə, Zəngəzur kimi tarixi ərazilərimizə kənardan köçürülüb, sonradan yerli azəri türklərini vəhşicəsinə qırmaq, sağ qalanları öz doğma torpaqlarından



downloaded from KitabYurdu.org

qovub didərgin salmaq hesabına kök salıb yaşayan ermənilər bununla kifayətlənməyib, Dağlıq Qarabağ və onun ətraf rayonlarını xaincəsinə işğal ediblər. Xocalı şəhərində amansızlığına görə analoqu olmayan soyqırım törədilmişdir. Azərbaycanın müxtəlif guşələrinə səpələnmiş və çadırlarda yaşayan bir milyondan çox qaçqın öz yurd-yuvasına qayıtmaq həsrətilə yaşayır.
Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında əsrlərin yadigarı olan tarixi
abidələrimizi məhv edir, müqəddəs torpaqlarımızı terrorçuların məşq meydançalarına, narkotik bitkilər plantasiyalarına çevirir, minillik meşələrimizi yandırıb külə döndərirlər.

Bütün bunları görən dünya birliyi öz səsini ucaltmaq əvəzinə susur, bəzi dövlətlər isə gizli yollarla işğalçılara havadarlıq edirlər.

Möhtərəm prezidentimiz cənab İlham Əliyev torpaqlarımızın beynəlxalq qanunlara uyğun və sülh yolu ilə qaytarılması uğrunda əlindən gələni edir. Biz müharibə istəmirik və çalışırıq ki, yenidən qan tökülmədən haqq-ədalət öz yerini tutsun, işğal olunmuş torpaqlarımız geri qaytarılsın. Lakin əgər bu sülh yolu ilə mümkün olmasa, biz hərb yolu ilə öz torpaqlarımızı geri qaytaracağıq. Bunun üçün bizim
qüdrətli ordumuz yetişib və bu ordu az bir müddətdə torpaqlarımızı azad etməyə qadirdir...

Ofisindəki kabinetində, kresloda yayxanıb oturmuş Əlifağa Sadıxov pultu əlinə alıb televizoru söndürdü və gənc natiqin çıxışını yarımçıq kəsdi. Sonra dodağının altında nəsə mızıldanıb, katibə qızın təzəcə gətirdiyi


downloaded from KitabYurdu.org

pürrəng çaydan bir qurtum içdi.

Əlifağanın fikrincə, iki millət arasında başlanmış və getdikcə uzanan düşmənçilik heç bir tərəfin xeyrinə olmamışdı. Beynəlmiləlçi ideyalarla, mehriban yaşayırdılar və bu yaşayışın özündə bir gözəllik, bir rəngarənglik var idi.

İqtisadiyyat və dəqiq elmlər sahəsində lazımi biliklərə malik olan Sadıxov lap əvvəldən Azərbaycan tarixini öyrənməyə maraq göstərməmişdi. Uşaqlıqdan rus dilində təhsil almış,
rus və xarici musiqiləri dinləmiş, rus, erməni dostları ilə oturub-durmuşdu. Bəlkə də elə buna görə idi ki, yaranmış bu düşmənçiliyin səbəblərini lazımi qaydada anlamır, iki millət arasında uzun illər davam edən dostluqdan sonra aranın birdən-birə qarışdırıldığını düşünürdü.

Bu düşmənçilik onun öz həyatına da mənfi təsirini göstərmişdi. Belə olmasaydı sevimli Suzannasının adını dəyişməyə heç bir ehtiyac qalmaz, qayınatasıgil ev-eşiyini satıb qızlarından ayrı düşməz, qaynı Artur öz bacısı oğlunun yasına oğru kimi gizli şəkildə gəlməzdi.

Rafiqin ölüm xəbərini Şərafət veribmiş Artura. Sən demə, Artur Bakıdan çıxıb gedəndən bacısının həmişə telefon əlaqəsi olubmuş onunla. Ərinin bu işdən narazı qalacağından qorxub, ona
bildirməyibmiş. Əlifağa bunu biləndə, o qədər də qınamadı arvadını. Axı necə olmasa, onun doğma qardaşı idi Artur?! Necə unuda bilərdi onu Şərafət kimi qeyrətli və qohumcanlı qadın? O, onsuz da, ailəsindən və bütün qohum-əqrəbasından ayrı düşməkdə, adını dəyişib Bakıda qalmaqda Əlifağa üçün böyük fədakarlıq eləmişdi. Əlifağa



downloaded from KitabYurdu.org

gərək bu fədakarlığı unutmayaydı.

Amma Arturu xəta-bəlasız geriyə yola sala bilsəydi, hər şey çox yaxşı olardı. Rafiqin dəfninin əlli ikinci günü mayın 31-nə düşürdü. Yəqin ki, dayısı ondan sonra qalmayacaqdı Bakıda. Bircə, milli təhlükəsizlik orqanları duyuq düşməmiş çıxıb gedə bilsəydi...

Düzdür, aprelin 23-də «Çəməndağ» kafesində olan ilk gizli söhbətdə Artur and içib demişdi ki,
Bakıdan gedəndən sonra nə Dağlıq Qarabağda, nə də Ermənistanda olub. Bu o demək idi ki, yəni erməni silahlı dəstələrinə qoşulub azərbaycanlılara bir dənə də güllə atmayıb. Demişdi ki, Mixailə qoşulub Bakıdan gedəndən, bir müddət Rostovda yaşayıb. Mixail onu oğru dəstəsinə cəlb edib. Nəhayət, bir gün həmin dəstənin bütün üzvləri keçirilmiş geniş əməliyyat nəticəsində yaxalanıb. Bu dəstədən ələ keçməyən təkcə Artur olub ki, o da Rostovda qala bilməyəcəyini görərək, Moskvaya köçüb.

Sadıxov qaynına tamamilə inanmışdı. Amma hər halda, o, özünü Azərbaycanın düşməni hesab etməsə də, Azərbaycana qarşı vuruşmasa da, erməni idi və Bakıya tamamilə başqa ad altında, qadın qiyafəsində gəlmişdi. Bu fakt ölkənin
təhlükəsizlik orqanlarına məlum olarsa, Sadıxovun karyerasına ciddi zərbə vurula bilərdi. Ondan sonra gəl sübut et ki, Artur Saqiyan Bakıya heç bir pis məqsədə görə yox, sadəcə olaraq, bacısı oğlunun yasında iştirak etməyə, bacısına başsağlığı verməyə gəlib.

Amma çox hiyləgər, cəsarətli adam imiş qaynı. Qadın qiyafəsində necə gəlib çıxa bilmişdi Bakıya, bu Əlifağaya ağlabatmaz bir iş kimi görünürdü. Kafedə, süfrə başında



downloaded from KitabYurdu.org

oturanlar da onun qadın olmadığından şübhələnməmişdilər. Gizli söhbət üçün görüş otağına keçəndə də elə bilmişdilər ki, Əlifağa bu qadınla əylənmək istəyir...

Hələ sən onun qurduğu planlara bax! Kəllədir, vallah, kəllə! Şeytan da baş aça bilməz onun əməllərindən...

Sadıxov Arturun hava limanından kafeyə gələrkən izlənə biləcəyindən narahat idi. Ona görə də bəzi təhlükəsizlik tədbirləri görmüşdü. Bu tədbirləri Arturun gəlməsindən üç gün qabaq, Şərafət onun gələcəyini dediyi vaxtdan fikirləşmişdi.

İş elə gətirmişdi ki, vaxtilə işçisi olmuş Nihat, Rafiqin yasında ona yeni bir sürücü təklif etmişdi. Həmin bu Qanturalı. Sadıxov ona baxıb, söhbət edəndən sonra bəyənmiş və işə götürəcəyinə söz vermişdi. Artur gələndə fikirləşdi ki, qoy onu qarşılamağa Nihat getsin. Həm də Qanturalla, onun köhnə taksisində. Bu o qədər də şübhə doğurmazdı və həm də Qanturalı ilk sınaqdan çıxarmış olardı.

Onlar hava limanına gedib kafedə oturmalı, Nihat əlində qırmızı rəngli daraq tutmalıydı. Şərafət artıq bu barədə qardaşına məlumat vermişdi.

Sadıxovun başqa bir etibarlı adamı isə «BMW» maşınında hava limanına gedib kənardan Nihatgilə göz qoymalı və kafedə oturarkən əlində ağ rəngli təsbeh oynatmalıydı. Bununla da Artur onun Sadıxovun adamı olduğunu biləcəkdi və Nihatgilin başına hər hansı bir iş gəlsəydi, ya onlar hava limanına getməsəydi Artur əlində ağ təsbeh olan həmin adama yaxınlaşacaqdı....

Hə!.. Hər şey yaxşı qurtardı və kafedən çıxıb Arturu


downloaded from KitabYurdu.org

onun üçün şəhərdə kirayə edilmiş evinə ötürdülər.

Yox, doğrudan da, qaynı çox zirək, bacarıqlı oğlandı. Kaş onun kimi bir adamı olaydı... İnsafən Nəcməddin də pis deyil. Həm sadiq, həm də ağıllı adamdır. Elə Rafiqin əsl qatilini o tapmadımı?..

Sadıxov da pis mükafatlandırmadı öz sadiq köməkçisini. Məltəm kimi gözəl qadın bağışladı ona. Onsuz da duldur, arvad sarıdan tamarzıdır, qoy kefini çəksin. Əlifağa bununla Şərafətə göz dikməyə cəsarət edən o Saleh küçükdən intiqamını artıqlamasıyla almışdı. Artıqlamasıyla!

Sözsüz ki, oğlu Rafiqin də intiqamını, necə lazımdı, alacaq. Gözləri qarşısında necə can verdiyinə tamaşa edəcək o adamın! Əlifağa Sadıxov çox kinli adam idi. Lap çox! Və kinli olduğu qədər də səbirli adam idi. Həddindən artıq səbirli!

Hələ qoy Rafiqin torpağa tapşırılmağının əlli ikinci günü də bitsin. Qoy Arturla üzülüşüb onu sağ- salamat, geriyə yola salsın. Sonra... Sonrasını hələ bir daha fikirləşəcəkdi ki, necə eləsin, intiqam ləzzətini ürəyi istədiyi kimi duya bilsin. Ondan sonra
Rafiqin qəbri üstünə gedəcəkdi, deyəcəkdi ki: Rahat yat, oğul! Sənə verdiyim sözü yerinə yetirdim! Aldım intiqamını!

Rafiqin çərçivəyə salınıb stolunun üstünə qoyulmuş şəklinə baxdı. Birdən-birə Şərafət yadına düşdü. Başını qaldırıb divardakı iri saata nəzər salanda əqrəblərin yeddinin yarısını göstərdiyini gördü. Malikanədə işləyən fəhlələr saat yeddidə evlərinə gedəcəkdi və Şərafət tək qalıb Əlifağanı gözləyəcəkdi. Sürücünü çağırtdırmaq üçün


downloaded from KitabYurdu.org

stolun üstündəki düyməni basdı.

Amma elə həmin anda da Nəcməddin qapını açıb içəri daxil oldu. Sadıxovun yadına düşdü ki, dünən günortadan sonra köməkçisini görməyib. Dünən günorta «Bir az xəstələnmişəm» deyib aradan çıxan idi.

Nəcməddinin görünüşü şefinin xoşuna gəlmədi. Keçən bir sutka ərzində sınıxmış, yuxusuzluqdan gözləri qızarmışdı. Salamı da çox könülsüz verdi, elə bil. Sözlü adama oxşaması Əlifağanın gözündən yayınmadı:

- Nə olub, Nəcməddin? Yoxsa bir problem var? - deyə soruşdu.

- Bəli, Əlifağa müəllim...

Nəcməddin onun üzünə baxa bilmirdi, nədənsə.

- Nə baş verib? - Sadıxovun marağı bir az da artdı.

Nəcməddin hələ də tərəddüd içində idi. Dünən dənizkənarı mülkdə gördüklərini şefinə deməliydimi? Bəlkə heç deməsin? Axı bu xəbər arvadını sevən Əlifağa üçün böyük zərbə olacaqdı?! Özünü onun yerinə qoydu. Belə bir xəbəri eşitsəydi, nə hala düşərdi?

Ancaq deməsə, bu da olmur axı?! Kişi ona özü qədər inanır, etibar edir. Bu xəyanəti gizlətmək özü xəyanətə ortaq olmaq deyildimi?..

- Səninləyəm, Nəcməddin, danış görüm, nə olub? Keç otur! - Sadıxovun hökmlü səsi Nəcməddinə daha nəsə düşünməyə imkan vermədi.

Stolun arxasında düzülmüş stulların birini çəkib oturdu və:

- Yaxşı xəbər deyil, Əlifağa müəllim! - dedi.

- Hər nədirsə, danış! - Sadıxov əmr etdi, - eşidirəm səni!



downloaded from KitabYurdu.org

- Sizə xəyanət edirlər! - axır ki, Nəcməddin sözü ağzından çıxartdı.

- Kim? - Əlifağa əlini uzadıb stolun üstündəki qutudan bir siqar götürdü. - Kim xəyanət edir mənə?

- Şərafət xanım...

- Necə?! - Əlifağanın gözləri böyüdü. - Çaşdın deyəsən, Nəcməddin!

- Yox, Əlifağa müəllim! - Nəcməddin başını bulayıb ah çəkdi. - Doğru sözümdü... Həyətdə işləyən fəhlələrlə gördüm onu... Evdə... Pəncərədən gördüm... Deyiləsi deyil...

Daha nə o bir söz dedi, nə də Əlifağa ondan bir söz soruşdu. Yorucu bir sükut çökdü otağa...

Sadıxov, deyəsən, gözlərini oğlunun stolun üstündəki şəklinə dikmişdi. Yandırmadığı siqar da hələ əlində idi. Amma şəklə baxsa da, əslində, onu görmürdü. Gözləri qarşısında, kino anonslarında olduğu kimi, müxtəlif kadrlar bir-birini əvəz edirdi.

Şərafət onu bərk-bərk qucaqlayıb «mən səndən başqa dünyada kişi tanımıram» deyirdi. «Bu fəhlələr yaxşı uşaqlardı, nə deyirəm eləyirlər» deyirdi. Sonra Əlifağa fəhlələrin hərəsinin qabağına bir yüz dollarlıq qoyurdu: «Bu da sizin bugünkü zəhmət haqqınız!» Sonra Şərafət: «Əlifağa, Saleh oğraş mənə əl atdı!» - deyirdi. Sonra Şərafət ən yağlı kabab tikələrindən yığıb aparırdı: «Qoy o gədələr də yesinlər, yazıqdırlar». Sonra Əlifağa arvadına: «Hələ yay girməmiş, nə var özünü belə əziyyətə salırsan? Gedək, şəhərdəki mənzilə, yayda yığışarıq bura» deyirdi. Şərafət cavab verirdi: «Yox, həyət-baca gərək özüm istədiyim kimi düzələ. Bu gədələrə özüm nəzarət


downloaded from KitabYurdu.org

eləməsəm, bir şey alınmaz». Sonra yenə Şərafət: «0 evdə hər şey Rafiqi yadıma salır,
Əlifağa! Yenə burda bir az sakit oluram» deyirdi. «Nəcməddin adam tanımır ki! Ozüm Salehlə gedəcəm fəhlə tapıb gətirməyə. Hər iti-qurdu həyətə buraxmaq olmaz!» deyirdi. Əlifağa isə iki dənə yüz dollarlığı stolun üstünə atıb: «Bu da sizin bugünkü zəhmət haqqınız!» deyirdi...

Yox, deyəsən, hər şey təzədən təkrar olunurdu. Kadrlar hamısı bir-birlərinə qarışmışdı beynində. Əlifağa Sadıxov tərpənmədən, azacıq da olsa, qımıldanmadan gözlərini oğlunun fotosuna dikib durmuşdu.

Bəlkə də yarım saat beləcə keçdi. Daha bu uzun sükutun əzabına dözə bilməyən Nəcməddin icazə almadan ayağa qalxıb, sakitcə kabinetdən
çıxdı...

Altmış altıncı fəsil

Gecə saat 12 oldu...

Balta Xanəli divardakı saata bir müddət matdım-matdım baxıb dişlərini qıcadı. Qanturalın qarasına ağır bir söyüş söyüb, bu gün bəlkə min dəfə etdiyi kimi, otaqda əsəbi hərəkətlərlə o baş-bu başa addımlamağa başladı. Sonra birdən-birə dayanıb soyuducuya yaxınlaşdı. Oradan bir araq şüşəsi götürüb stolun arxasına keçdi. İri çay stəkanını araqla doldurub başına çəkdi. Bununla, sanki içində baş qaldırıb bütün bədənini lərzəyə gətirən qəzəb və nifrət burulğanını sakitləşdirmək istəyirdi.

Stəkanı zərblə stolun üstünə qoyub ayağa qalxdı. Saata baxanda böyük əqrəbin, artıq, 12-nin
üzərindən adladığını gördü. Nə edəcəyini bilməyən



downloaded from KitabYurdu.org

adamlar kimi, bir qədər yerində dayanıb fikrə getdi. Sonra yataq otağına keçib öz çarpayısında yuxuya getmiş Fətəlinin başı üstündə dayandı. Uşağın gözləri yumulu olduğu üçün uzunluğu daha çox diqqəti cəlb edən kirpikləri qəşəng sifətinə bir az da yaraşıq verirdi. Əyilib, oğlunun alnından öpdü. Onun qarayanız sifətinə bir az tamaşa edib, yenidən o biri otağa qayıtdı.

Stolun üstünə salatdan, çörəkdən gətirib, yenə bir stəkan araq içdi. O, nə edəcəyini, doğrudan da, bilmirdi. Bütün günü evdə, həyətdə dolaşıb Qanturalı gözləmişdi. Gözləmişdi ki, Əsmərin qaçırılmağını ona çatdıracaqlar və o da bacısını qurtarmaq üçün birbaş buraya gələcək. Qanturalı öz evində gözlədiyi üçün, Fatimənin başına gələn hadisəni eşidib son
dərəcə qəzəblənən Xanəli gedib bacısını görməyə də imkan tapmamışdı. Gözləmişdi... Gözləmişdi ki, Qanturai gələcək və nəhayət, qardaşlarının qisasını ala biləcək bu qatildən. Amma Əsmərin həyatı üçün qoyulan müddətin tamam olmasına baxmayaraq, Qanturai gəlib çıxmamışdı.

Fatimənin qaçırılmasına cəhd göstərilməsini Qulugildən eşidəndə dəli kimi özündən çıxıb hirsini Qulu ilə Ramizin üstünə tökmüşdü. Sonra Şakirlə Fatimənin qarasına bir xeyli deyinib, nəhayət, uzaqdan-uzağa Ələkbəri hədələmişdi:

-Yaxşı, Ələkbər, eybi yoxdur... Qalsın qulluğunda!

Heç belə ağır günü olmamışdı Xanəlinin. İndiyə qədər ağzından çıxan hər bir sözün dalında durmağa çalışmış, dediyini, özünün nə qədər
ziyanına olsa da, eləmişdi. Qohum-əqrəba, dost- tanış da belə tanımışdı onu. Amma indi, Qantural gəlməzsə,



downloaded from KitabYurdu.org

bacısını öldürəcəyinə dönə-dönə söz vermiş Xanəli nə qədər ağılsız bir iş tutduğunu başa düşür, nə qədər çıxılmaz bir vəziyyətə düşdüyünü anlayırdı.

Atası xəstəxanada ürək infarktından yatırdı. Onunla bu barədə danışmaqdan söhbət belə gedə bilməzdi. Səxavət isə... qardaşı olsa da, belə məsələləri anlayan deyildi o. Xanəli onu necə başa salacaqdı ki, qardaşlarının intiqamı alınmadığı üçün içində rahatlıq tapa bilmir, adam içinə çıxmağa utanır, xəcalət çəkir. Yenə, sağ olsaydı Cahangirlə məsləhətləşmək olardı... Sağ olsaydı...

Xanəli yumruğunu stola elə vurdu ki, araq şüşəsi silkələnib yerə aşdı. Ayağa qalxıb pəncərəni
açdı və həyətdə gəzişən Ramizə Səlahəddini içəri göndərməyi tapşırdı. Səlahəddinlə Ramiz həyətdə pusquda durub Qanturalın gəlişini gözləyirdilər. Tapşırmışdı ki, gəlsə, xətər yetirmədən cəld ona xəbər versinlər. Evdə də özüylə Fətəlidən başqa heç kəs yox idi. Həmidə də, qızları da hələ bir müddət dostunun evində qalacaqdılar.

Səlahəddinlə məsləhətləşmək istəyirdi. Bu adam, dediyinə görə Ukraynada avtoritet yanında cangüdən olmuşdu və belə çəkişmələri, vuruşmaları az görməmişdi. Gedib qapını açaraq, Səlahəddini içəri buraxdı. Soyuducudan yenə dolu araq şüşəsi götürüb hər ikisi üçün süzdü.

Səlahəddin:

- Mən iş başındayam, Xanəli qədeş, içə bilmərəm, - dedi.

- Götür iç! - öz stəkanını başına çəkən Xanəli təkid etdi. - İş qurtardı. Saat birə işləyir. Gəlmədi namərd köpək oğlu!



downloaded from KitabYurdu.org

- Hə, gəlmədi... - Səlahəddin bunu deyib, onun üçün süzülmüş araqdan bir az içdi və stəkanı stolun üstünə qoydu.

- Gəlməz axı?! - Artıq sərxoş olmağa başlamış Xanəli əlini yenə bərkdən stola çırpdı. - O qorxaqdır, namərddir, nakişidir! O, Tamerlanı da, Cahangiri də namərdliklə vurdu. Kişiliyi yoxdu axı, açıq-aşkar çıxsın qabağıma!

- İndi neyləmək istəyirsən? - Səlahəddin soruşdu. - Qadın barədə deyirəm.

- Bilmirəm, Səlahəddin, bilmirəm! - Xanəli əlləri ilə başını tutdu. - Fikirləşməkdən başım partlayır daha! Neyləyəcəyimi bilmirəm. Necə oldu axı o qədər adamın qarşısında belə söz dedim? Mən qadına əl qaldıran adam deyiləm axı?! Deməzlərmi ki, Balta Xanəli əlini arvad qanına buladı?!

Səlahəddin fikirli halda başını buladı:

-Amma dediyini eləməzsən, Zəkixanın ailəsi fikirləşəcək ki, eləcə səs-küy salıb qorxutmağın var. Qantural da heç kəsdən qorxmadan bildiyini eləyəcək.

Xanəli sərxoş baxışlarıyla Səlahəddinə baxıb dişlərini qıcadı:

- Səlahəddin, mənə qardaşlarımın qanını tökən it oğlu özü lazımdır. O, əlimə keçsə, onu parça-parça edib itlərə yedizdirəcəm. Ancaq neyləyim ki, bacısını öldürməyə əlim gəlmir. Üstəlik, Fətəlinin müəlliməsidir o, axı?! Mənim yerimdə olsaydın, sən neyləyərdin?

Səlahəddin bir an düşünüb, özünə yenidən araq süzüb içən Xanəliyə baxdı və nəhayət, dilləndi:

- Mən nə deyə bilərəm?.. Belə müsibətə hələ rast gəlməmişəm. Üç qardaşını öldürüb Qantural. Həm də, sən


downloaded from KitabYurdu.org

demiş, namərdliklə... Əgər o səninlə kişi kimi düşmənçilik aparsaydı, deyərdim ki, sən də namərdlik eləmə. Amma necə deyim... Ramizgil sənə demədiklərini də mənə danışdılar... Hər dərədən bir avaranı yığıb Fatimənin qabağını kəsiblər. Nişanlısını gözünün qabağında döyüb, özünün də üstünə-başına əl atıblar. Həmin o dedikləri oğlan gəlib çıxmasaymış maşına basıb aparacaqlarmış. Gör, yazıq qız necə qorxubsa, Qulu ilə Ramiz sonradan dalıyca evlərinə gedib vəziyyətini öyrənmək istəyəndə onlara da qapı açmayıb...

Xanəli stolun üstündən stəkanı götürüb bütün gücüylə divara çırpdı. Çilik-çilik olmuş stəkanın qırıntıları otağa səpələndi. Ayağa qalxıb ucadan bağıraraq otaqda gəzməyə başladı:

- O Zəkixanın bütün nəslini kəsəcəm! Onun qızının da, oğlunun da, nəvələrinin də qanı halaldır mənə! Mənim bacıma əl atanın bacısını!..

Bu səfər araq şüşəsini götürüb divara çırpdı. Səlahəddin bunu görüb, ayağa qalxdı və onu sakitləşdirməyə cəhd göstərdi:

- Sakit ol, Xanəli qədeş, özünü ələ al!

Xanəli isə heç cür sakitləşmək bilmirdi:

- Necə yəni sakit ol, ə?! Nə danışırsan sən?! Ələkbər bu qədər qudurub ki, mənim qoyduğum şərti yerinə yetirmək əvəzinə bacıma hücum çəkir? Mənim? Balta Xanəlinin? İndi o fikirləşir ki, bacısını məndən sağ-salamat alacaq? Yox, Səlahəddin, yox! O müəlliməni buraxsam, deyəcəklər ki, Ələkbər əl bulaşdıran kimi qorxdu ondan.

- Necə istəyirsənsə, mən sənin qulluğunda hazıram,


downloaded from KitabYurdu.org

Xanəli. Amma sakit ol! Mən səni başa düşürəm. Gərək sənə bu cür sataşmayaydı Ələkbər!

Xanəli özünü bir qədər ələ alıb, barmağını Səlahəddinə tuşladı:

- Mənə qulaq as! Bu saat heç kəsi şübhələndirmədən çıxıb bizim küçənin başındakı yarımçıq binaya gedirsən. Rəhmətlik Cahangirin yarımçıq qoyduğu on altı mərtəbəli binaya. O qancığı zirzəmiyə salıb, qapısının qabağına kərpic yığmışam. Öldürüb, elə oralarda üstünü torpaqlayırsan. Maşınla getmə. Ora piyada on dəqiqəlik yoldu. Çalış, səni görən olmasın!

Səlahəddin:

- Baş üstə! - deyib qapıya tərəf getmək istədi.

- Haqqını artıqlamasıyla verəcəm. Arxayın ola bilərsən. Amma öldürüb basdıran kimi tez gəl xəbər ver ki, bir az sakitləşim. Yoxsa, ürəyim partlayacaq bu gecə!..

Səlahəddin başını tərpədərək, otaqdan çıxdı. Onu yola salıb qapını içəridən bağlayan Xanəli şkafı açıb yeni araq şüşəsi axtarmağa başladı.

Altmış yeddinci fəsil

Həmin vaxt Əsmər tikintisi yarımçıq dayandırılmış çoxmərtəbəli binanın zirzəmisində dəhşətli anlar keçirirdi. İçəri qaranlıq və soyuq idi. Eyni zamanda, hava da çatışmırdı, burada. Beton divarda açılmış kiçik deşikdən içəri zəif işıq süzülürdü.

Əsməri bura Xanəli özü gətirmişdi. Onu içəri salıb:

-Ağzını, əlini-ayağını bağlamıram. Ancaq səsini çıxarsan, içəri girib səni öldürəcəklər! - demişdi.

Sonra ağzını, əl-qolunu açıb, özüylə gətirdiyi döşəkcə ilə ərzağı yanına qoymuşdu. Əsmər bu adamı indiyədək,



downloaded from KitabYurdu.org

bir dəfə də olsun görməsə də, işin
gedişindən və davranışından Fətəlinin atası olduğunu başa düşmüşdü.

- Ay qardaş, - demişdi, - səni Fətəlinin canına and verirəm, burax məni çıxıb gedim, vallah, mənim sizinlə heç bir düşmənçiliyim yoxdur.

Xanəli ona heç bir cavab vermədən çölə çıxıb, dəmir qapını örtmüş, qapıda hələlik cəftə və ya qıfıl yeri olmadığı üçün qarşısına xeyli kərpic yığıb getmişdi. Belə vəziyyətdə Əsmər içəridən nə qədər itələsə də, qapını açmağa gücü çatmazdı.

Xanəli gedəndən sonra Əsmər qorxudan səsini çıxarıb heç kəsi köməyə də çağırmamışdı. Bir də ki, lap çağırsaydı da, çətin ki, səsi bu beton divarlardan kənara çıxaydı. Heç, əslində, binanın bu tərəfindən adam-insan da keçmirdi. Həyətdə tikinti materialı az olduğu üçün gözətçi-filan da qalmırdı burda.
Cahangirin ölümündən sonra tikinti işi tamam dayanmış, işçi qrupu dağılmışdı.

Otağın bir küncündə büzüşüb doyunca ağlayandan sonra, taleyinə boyun əyib, başına gələcəkləri gözləməyə başlamışdı.

İndi də döşəkcənin üstündə oturub gecənin soyuğundan və qorxudan tir-tir titrəyirdi. Hələ bu yandan da aclıq! Xanəlinin qoyub getdiyi çörəyə əlini də vurmamışdı.

Bu gün də bütün günü qardaşı haqqında düşünmüşdü. Qantural haqqında... Fikirləşirdi ki, görəsən, bağda çoxmu gözlədi qardaşı onu? İlişib- eləməyib ki, görəsən? Bacısının gəlmədiyini görəndə nə düşünüb onun haqqında? Əsməri qaçıranlar onun telefonunu da


downloaded from KitabYurdu.org

almışdılar. Görəsən, Qantural sonradan bir də mesaj göndəribmi ona? Əgər
telefonu açıb onun göndərmiş olduğu həmin mesajı oxuyublarsa, necə olacaq axırı?..

Əsmərin heç vaxt ağlına gəlməzdi ki, doğma qardaşı nə vaxtsa cinayətkar olacaq. Kimlərinsə qanına susayıb, dalbadal bir-birindən qanlı qətllər törədəcək. O, artıq, Qanturaldan incimişdi və onun ucbatından atasının, o biri qardaşlarının, nəhayət, özünün bu qədər əzab çəkməsinə dözə bilmirdi.

Ancaq yenə, necə olmasa, qardaş qardaşdır. Əsmər Qanturala heç cür nifrət edə bilmirdi. Əvəzində isə bütün nifrəti artıq ölüb getmiş Sənihəyə qarşı yönəlmişdi. Çünki hər şey onun ərinə xəyanətindən başlamışdı, Əsmərin fikrincə.

Əsmər heç cür anlaya bilmirdi ki, əri olan qadın başqa kişiyə necə tamah sala bilər? Anlaya bilmirdi belə qadınları. Nə istəyirlər axı onlar? Əgər kişi
istəyirsənsə, yanındakı kişidir də!.. Ozü də açıq- aşkar, istədiyin vaxt yanında. Gərək elə oğru kimi, gizlicə olasan başqasıyla?..

Bir dəfə Əsmər bir müəllimə yoldaşının yanında belə danışanda, o da gülüb demişdi ki, sən nə bilirsən yanındakı onun istədiyini axıradək yerinə yetirə bilir?.. Yox, vallah, Əsmərin başına girən şey deyildi bunlar. Heç girən şey deyildi! Onun əri on dörd il idi ki, ölmüşdü. Amma ürəyindən indiyədək başqa bir fikir keçməmişdi. Bəlkə də yalan olardı, ildə, iki ildə bir dəfə daxilində hansısa güclü bir hiss baş qaldırmışdısa da öz iradəsi hesabına boğa bilmişdi o hissləri.


downloaded from KitabYurdu.org

İndi də bu qaranlıq zirzəmidə onu ən çox qorxudub dəhşətə gətirən o idi ki, onu oğurlayıb buraya gətirən adamlar namusu ilə oynamaq
istəyərdilər birdən! Qadın kimi istifadə edib öz müvəqqəti baş qaldıran ehtiraslarını söndürmək istəyərdilər. Allah göstərməsin! Kaş öldürəydilər, amma belə şeyi ağıllarına gətirməyəydilər.

Amma bu qaranlıq və soyuq zirzəmidə, gözdən-qulaqdan uzaq yerdə ölüm haqqında düşünəndə də bədəninə titrətmə gəlirdi Əsmərin. Görəsən, onu necə öldürəcəkdilər? Bıçaqlamı, tapança iləmi? Ya kəndirləmi boğacaqdılar?.. Ya...

Birdən lap yaxınlıqda, gecənin zülmət qaranlığında Əsmərin tüklərini ürpərdən vahiməli bir səs eşidildi. Bu, binanın həndəvərinə toplaşmış sahibsiz itlərdən birinin ulaması idi. Onun ardınca daha başqa bir it də uladı və sonra ətrafa müdhiş bir sakitlik çökdü.

Qorxudan nəfəsini içinə çəkmiş Əsmər susub ətrafı dinləsə də daha başqa bir səs eşidə bilmədi. Birdən sanki kiminsə eşitməsindən ehtiyat edirmiş kimi sakitcə ağlamağa başladı. Onun nə günahı var idi axı? Kimə neyləmişdi? Müəllimə idi, xalqın balalarına dərs verirdi. Əri torpaq uğrunda döyüşlərdə şəhid olmuşdu...

Mahiri xatırladı. Ərini... Düşmənlə döyüşməyə, Qantural kimi, o da könüllü getmişdi. Gedəndən bir ay sonra ölüm xəbəri gəldi... O günləri xatırlayanda, həmişə qəlbi yenidən göynəyirdi Əsmərin. İndisə bu vəziyyətində əvvəlkilərdən də artıq təsir etdi həmin xatirələr ona.

Ermənilər ərinin meyitini vermək istəmirdilər. Bir neçə dəfə danışıqlar apardıqdan sonra yüksək məbləğdə pula


downloaded from KitabYurdu.org

satmağa razı oldular. Onda Zəkixan,
Ələkbər, Qantural, Mahirin öz qohum-qardaşı nə qədər əziyyət çəkdilər, nə qədər get-gələ düşdülər..

Qapalı qutuda gətirmişdilər meyiti. Qutunu açıb üzünü yaxın adamlara da göstərməyə razı olmurdular. Əsmər əl çəkmədi və məcbur edib açdırdı qutunu. Ancaq gərək baxmayaydı heç! Baxılası bir halı qalmamışdı bədbəxtin! Ölüsündən də qisas almışdılar...

Bir neçə ay sonra erməni əsirliyində olan bir oğlanı Azərbaycan tərəfin əsir aldığı erməni əsgəri ilə dəyişmişdilər. Həmin oğlan gəlib Zəkixangili tapd və Əsmərin yanında Mahir haqqında bildiklərini danışmağı özünə borc bildi. O oğlanın ürəkdən gələn yanıqlı söhbəti indi də dəqiq yadında idi Əsmərin:

- Əsl qəhrəman idi rəhmətlik. Mənim öz gözümün qabağında neçə düşmən əsgərini qırıb- tökmüşdü. Lap pələng kimi vuruşurdu. Mən əsir düşən gün daha qızğın bir döyüş oldu. Meşədə sərt bir qayanın qabağında döyüşürdük. Biz cəmi dörd- beş nəfər idik. Ermənilərə isə durmadan yeni qüvvələr köməyə gəlirdi. Biz çarəsiz qalıb, döyüşə- döyüşə qayaya tərəf çəkilirdik. Həmin vaxt mən güllə yarası alıb yerə yıxıldım. Bu vaxt gözüm Mahirə sataşdı. O, tamamilə tək qalmışdı. Atəş aça-aça özünü sərt qayaya çatdırıb, kürəyini ona söykədi. Yenə neçəsini vurub yerə sərdi. Sonra birdən dayandı. Başa düşdüm ki, gülləsi qurtarıb. Onun həmin andakı kədərli baxışlarını indiyədək unuda bilmirəm. Əlindəki silaha elə təəssüflə baxırdı ki... Birdən, nə düşündüsə onu hirslə yerə çırpdı. Sonra
isə üstünə gələn düşmən əsgərlərinə nifrətlə baxıb başını


downloaded from KitabYurdu.org

yuxarı qaldırdı. Əclaflar, nədənsə, əsir götürmədilər onu. Elə oradaca bədənini deşik-deşik elədilər güllələrlə...

Həmin oğlan bunları danışıb qurtaranda ağlamışdı. Lap belə ürəkdən ağlamışdı. Zəkixan kişi ona təskinlik verəndə:

- Mən acizliyimdən ağlamıram, dayı! - demişdi. - O cür igid oğulların çarəsizliyi ağladır məni. Çarəsiz qalmışdıq hamımız. Vaxtında əlimizə silah verib hamımızı qabağa göndərsəydilər, bircə aya gedib İrəvana çıxardıq!

Əsmər xəyalından ayrılıb özü haqqında düşünməyə başladı. Axı onu neyləmək istəyirlər? Yəni doğrudanmı öldürəcəklər onu? Öz millətinin kişiləri deyildimi bunlar? Niyə susayıblar bir-birinin qanına, görəsən?

Bayaqkı quduz it yenə ulamağa başladı. Özü də bu dəfə daha bərkdən ulayırdı. Sonra itlərin hürüşməsi eşidildi. Daha sonra bir taqqıltı səsi gəldi. Yenə ətrafa sakitlik çökdü.

Amma bu zaman Əsmər qapıda hənirti eşidib diqqətini topladı. Kimsə, qapının önünə yığılmış kərpicləri götürüb kənara atırdı. Əsmərin qorxudan ödü ağzına gəldi, sanki. Kim idi bu, görəsən? Gecənin bu aləmində neyləmək istəyirlər ona?

Saniyələr ağır-ağır keçib gedirdi. Əsmərin özünün də eşitdiyi ürək döyüntüsü isə daha sürətli idi. Ürəyi elə çırpınırdı ki, sanki sinəsindən çıxmaq istəyirdi...

Nəhayət, kərpic qurtardı və dəmir qapı cırıldayaraq açıldı. Bu zaman qapının ağzına və zirzəminin bir hissəsinə həyətdə asılmış elektrik lampasının zəif işığı düşdü və işıqla bərabər içəri təmiz hava da daxil oldu.


downloaded from KitabYurdu.org

Əsmər, əvvəlcə, qapıda dayanan uşağı tanıya bilmədi. Amma bircə an sonra üzünə düşən işıq şüasında onun Fətəli olduğunu gördü.

Uşağın həyəcandan, sanki dili tutulmuşdu. Danışa bilmirdi. Həm də uzun bir məsafəni böyük sürətlə qaçıb gəldiyi hiss olunurdu. İçəri diqqətlə baxıb, müəlliməsini gördü. Təngnəfəs halda əlini qapıya uzadıb, dili dolaşa-dolaşa dilləndi:

- Qaç müəllimə, tez qaç! Səni öldürəcəklər!!!

Əsmər cəld özünü qapıdan çölə atdı. Onu xilas edən uşağa nəsə deməyi, nəsə soruşmağı belə
unudub, bir an da ləngimədən küçəyə tərəf yüyürdü. Bu vaxt səkidən yarımçıq binaya tərəf burulan bir adamın kölgəsini görüb, binanın tikintisi üçün istifadə olunan iri su çəninin arxasında gizləndi. Çənin o biri tərəfindən keçib binaya yaxınlaşan adamı tanıdı. Bu onu qaçıran həmin sallaqbığ kişi idi... Səlahəddin...

Ayaqqabılarını çıxarıb əlinə götürdü. Səkiyə adlayıb, bütün gücü yetdiyi qədər sürətlə qaçmağa başladı. Geniş küçədə tək-tək maşınlar şütüyürdü. Qaranlıq səki bomboş idi. Əsmər isə hara, hansı istiqamətə getdiyini də bilmədən bütün qüvvəsilə qaçırdı...

Altmış səkkizinci fəsil

Ertəsi gün gecə yarı Bakı kəndlərindən birinin dar və qaranlıq küçələri ilə «Ford» markalı bir avtomobil hərəkət edirdi. Evlərin çoxunun işıqları söndürülmüşdü. Sakinlərin əksəriyyəti, yəqin ki, indi şirin yuxuda idilər. Yatmayanlar isə bu maşının səsini eşitdikdə onun şəhərdən qayıdan kənd sakinlərindən biri olduğunu düşünürdülər. Amma, «Ford-Mondeo» evlərin heç birinin yanında dayanmadı.


downloaded from KitabYurdu.org

Kəndi arxada qoyub dənizin sahilində görünən şiş qayalıqlara tərəf yol aldı.

Gecənin bu vaxtında kimsəsiz sahilə doğru gedən maşının içində üç nəfər oturmuşdu. Bunlar Nəcməddin və iki gənc fəhlə - Yaqubla Umud idilər.

Sükanın arxasında əyləşmiş Nəcməddin bu oğlanları öz şefinin göstərişi ilə, öldürməyə aparırdı. Bu göstərişi Əlifağa Sadıxov bu gün səhər vermişdi. Dünən axşamüstü köməkçisindən arvadının ağlasığmaz hərəkəti barədə eşidən Əlifağa dənizkənarı mülkünə getmək fikrindən vaz keçib bütün gecəni ofisdə qalmışdı. Onun gözünə görünmək istəməyib evinə gedən Nəcməddin isə orada da bir qərar tuta bilməyib hər dəqiqə şefinin onu çağıracağını gözləmişdi. Amma Sadıxov onu bir də səhər çağırdı yanına. Çağırdı və qısaca sözünü dedi. Sən demə, gecəni yatmayıb, hər şeyi düşünübmüş Əlifağa. Hər şeyi!..

Onun göstərişi Nəcməddinə qəribə görünmədi. Elə bunu da gözləyirdi Əlifağadan. Əvəzində isə ona qəribə görünən başqa şey oldu. Nəcməddin kabinetə girəndən ona anlaşılmaz təəssüflə baxan Sadıxov qapıdan yola salanda saxlayıb bir qədər üzünə baxdı və:

- Sən mənə beş il sədaqətlə xidmət etmisən, Nəcməddin! - dedi. - Haqqını halal elə!

Nəcməddin çiynini çəkdi:

- Bu nə sözdür, Əlifağa müəllim? Mən sizə bundan sonra da sədaqətlə xidmət etməyə hazıram!

Əlifağa, ilk dəfə olaraq, onu qucaqlayıb dilləndi:

- Mən sənə həmişə inanmışam, yenə də inanıram. Amma Şərafət belimi sındırdı mənim...



downloaded from KitabYurdu.org

Nəcməddin soyuqqanlılıqla verilmiş əmrə dinməz-söyləməz baş əysə də, bu onun özünün bu işə soyuqqanlılıqla yanaşması demək deyildi. O, ömrü boyu çoxlu sayda ölüm hadisəsi ilə qarşılaşmışdı, hər cür amansız cinayətlə yaxından
tanış olmuşdu. Amma özü adam öldürməmişdi. Edəcəyi bu cinayətə qol qoyması isə, təkcə şefinə olan sədaqətə görə yox, həm də Şərafət xanımla bu iki nankor gəncə olan nifrətinə görə idi. Ancaq yaxşı olardı ki, Sadıxov ona Şərafəti öldürməyi tapşıraydı. Nəcməddin onu, yəqin ki, daha ürəklə öldürərdi. Onun fikrincə, bu gənclərin günahları Şərafətinki ilə müqayisədə xeyli yüngül idi. Onlar, sadəcə olaraq, o alçaq qadının hökmünü yerinə yetirmişdilər.

Necə oldusa, birdən-birə Şərafəti öz məşuqəsi ilə müqayisə etmək istədi. Məltəmlə... Axı onun da əri var. O da... Heç özünün də xoşu gəlmədi müqayisəsindən. Gör kimi kiminlə yanaşı qoymaq istəmişdi. Onun fikrincə, Məltəm bir mələk idi, gəlib düşmüşdü adamların içinə. Bir də, onun fikrincə, Allahın bunca gözəllik bəxş etdiyi qadını nədəsə
mühakimə etmək düzgün deyildi. Həm də Nəcməddin inanırdı ki, o indiyəcən ərini aldatmayıb. Yəni yalandan heç nə deməyib ona. Yəni yalandan, «səni sevirəm» deyib gizlində başqasının qucağına atılmayıb. Nəcməddin hiss etmişdi ki, o qadın, doğrudan da, ərini sevir. Bəli, qəribə də olsa... Nəcməddinin əqidəsinə görə, dünyadakı adamların heç biri xaraktercə bir-birlərinə bənzəmədikləri kimi, sevgiləri də bənzəyə bilməz. Məltəm kimi gözəl, hamı tərəfindən bəyənilən, daxilində dişilik hissiyyatı


downloaded from KitabYurdu.org

güclü olan qadınla, kifir, özünün dişiliyi ilə erkəkliyinin fərqinə az varan, yalnız əri tərəfindən bəyənilən qadının nə məhəbbəti, nə də sədaqəti eyni ola bilərdi.
Amma bəlkə də heç belə deyildi. Bəlkə də Məltəmin gözəlliyinə, şirinliyinə, təbii utancaqlığına,
həyalı işvəsinə görə onu ideallaşdıran Nəcməddin ifrata varıb özünü aldatmağa məcbur olurdu. Nə isə!..

Yaqubla Umudu da aldatmışdı Nəcməddin. Axşamüstü işdən çıxıb evə getmək istəyən fəhlələri bir qədər yubadıb, vacib bir işlə əlaqədar onların köməyinə ehtiyac olduğunu bildirmişdi. Fəhlələr Nəcməddinin verdiyi tapşırığa əsasən, evlərinə gedib bir qədər vaxt keçirmişdilər. Sonra Yaqub arvadına, Umud isə anasına, guya bir dostu ilə vacib görüşü olduğunu deyib evdən çıxmışdılar. Onlar Nəcməddinin nişan verdiyi kiçik kafedə görüşərək, burada iki saatdan çox oturub şərtləşdirilmiş telefon zəngini gözləmişdilər. Gəncləri, gecə saat 12-yə qalmış, telefonla yaxındakı parkın qarşısına çağıran Nəcməddin onları maşına mindirib buraya gətirmişdi.
Onun bu planı qurmaqda məqsədi ondan ibarət idi ki, sonradan polis axtarışı zamanı fəhlələrin ailə üzvləri onların işdən çıxıb evə gəldiklərini, bir qədərdən sonra isə kafedə görüşmək üçün evdən çıxdıqlarını söyləsinlər. Əlbəttə, əgər polis istəsə axtarıb həmin kafeni də tapacaqdı və itmiş iki gəncin o gecə kafedə xeyli oturduqlarını öyrənəcəkdi. Bundan sonra isə izi itirəcəkdilər və ən əsası isə Sadıxovun dənizkənarı malikanəsi şübhədən uzaq olacaqdı.

Maşındakıların heç biri danışmırdı. Arxa oturacaqda Umudla yanaşı oturmuş Yaqubun əhvalı heç də pis deyildi.


downloaded from KitabYurdu.org

Bu bəlkə də ona görə belə idi ki, Nəcməddinin tapşırmağına baxmayaraq, kafedə arağı bir az artıq içmişdi. Belə hesab edirdi ki, bu gecə onlara gizli və vacib bir iş gördürüb, yaxşı da pul verəcəklər.

İyirmi iki yaşlı bu gənc keçən il uzaq bir rayondan gəlmişdi Bakıya. Kənddə özləri kimi kasıb bir ailədən olan Nədiməni bəyənib almışdı. Atasının evində üç-dörd ay yaşayandan sonra pulsuz, işsiz- gücsüz olduğu üçün orada baş saxlamağın çətin olacağını görüb, gənc arvadı ilə Bakıya köçmüşdü. Burada kiçik bir evi kirayə edib yaşayırdılar. Əvvəl hər gün özünə iş axtaranların toplaşdığı yerə gedib bir günlük, iki günlük iş tapır, iki nəfərlik ailəni birtəhər dolandırırdı. Sonra rastına bu Şərafət xanım çıxdı və onu götürüb bağa gətirdi. Ondan sonra hər gün evə yaxşı pul aparmağa başladı və bu Nədiməni də çox sevindirirdi. Amma bir həftə sonra ərinin hər axşam evə yorğun gəldiyini və onunla yataqda az maraqlandığını görən Nədimə ürəyində bunun dərdini çəkməyə başlamışdı.

Şərafət xanımla münasibətinin kökündən dəyişdiyi həmin gün yaxşı yadında qalmışdı Yaqubun. Həyətdə müvəqqəti quraşdırılmış, qapı əvəzinə bir tərəfindən qalın bez asılmış və guya hamam adlanan daxmada yaxalanırdı. Əynində də, təbii ki, heç bir paltar-filan yox idi. Birdən, heç gözləmədiyi halda, Şərafət xanım bezi qaldırıb, özünü tamamilə itirmiş Yaqubun gündən qaralmış sağlam bədəninə yuxarıdan aşağı ani bir nəzər saldı və əlindəki iri, təmiz dəsmalı divara vurulmuş mıxdan asdı. Sonra isə içəri girib, gülə-gülə:


downloaded from KitabYurdu.org

- Bu nədir, niyə əməlli- başlı yuyunmursan, yoxsa evdə hələ də anan çimizdirir səni? - deyib
sabunu əlinə aldı və əlavə etdi: - Çevril, kürəyini sabunlayım!

Əli ilə çılpaq bədənini örtməyə çalışan Yaqub utana-utana:

- Yox, siz zəhmət çəkməyin! - desə də qadın onun sözünə əhəmiyyət vermədi.

O gündən araları açıldı və hər şey də o gündən başladı. Həmin bu Umudu ondan iki gün əvvəl yola gətiribmiş. Özü də elə bu qaydada... Sonra bildi bunu...

Əslində, bədəninin bəzi yerlərini qalın tük basmış bu qadından iyrənirdi Yaqub. Amma maraqlıdır ki, iyrənsə də, onun istəklərini lazımınca yerinə yetirirdi. Birincisi ona görə ki, Şərafət yaxşı pul verdiyi üçün buranı əldən çıxarmaq istəmirdi, ikincisi də ona görə ki, qorxurdu bu ifritə qadından.
Özü də lap çox qorxurdu. Xüsusilə də Salehin başına gələn oyundan sonra!..

Umud isə yaman dalğın görünürdü. İri, sümüklü bədəninə baxmayaraq, Yaqubla müqayisədə ağlı xeyli az inkişaf etsə də, onun ürəyinə nəsə dammışdı deyəsən. Srağagün Sadıxovun həyətindən çıxıb evə gedərkən, o, Yaqubdan bir az qabağa düşmüşdü. Darvazanı açıb fikirli halda küçəyə çıxdı və birdən ona elə gəldi ki, darvazanın cəftəsi vurulmamışdı. Bu, sadəcə olaraq, ona belə gəldi. Fikirli olduğu üçün dəqiq iddia edə bilməzdi bunu. Amma ürəyində qorxu və şübhə yarandı bu işdən. Yaquba isə heç nə demədi. Bildi ki, desə, ondan yaşca böyük və üstündə nüfuzu olan Yaqub yenə hirslənib həmişəki kimi:


downloaded from KitabYurdu.org

- Öküzsən, vallah öküzsən! - deyəcək.

Umud da Bakıya kənddən təzə gəlmişdi. Xəstə və qoca anasından başqa heç kəsi yox idi. İşləyib, yaxşı pul qazanmaq məqsədilə Bakıya gələndə anasını kənddə qoya bilməzdi və onu da özü ilə gətirib yaşamaq üçün bir daxma kirayələmişdi.

O, Şərafət xanıma rast gəlməyinə görə, Yaqubla müqayisədə daha çox razı qalmışdı. Həm pula görə, həm də elə Şərafət xanıma görə...

Həyətdə işlədiyinin dördüncü günü idi. Tamam çılpaq soyunub hamam adlanan həmin daxmada yuyunurdu. Şərafət xanım əlində dəsmal içəri girəndə ömründə heç bir qadın cinsi ilə intim münasibətdə olmamış, heç kəsin yanında qurşaqdan yuxarı belə soyunmamış Umud, sanki şok vəziyyətinə düşdü. Əlləri elə bil sabunladığı başına yapışıb qalmışdı və aşağılarını əliylə örtməyi də ağlına gətirmirdi. Onun iri bədəninə baxıb, həddindən artıq bəyənən ev sahibəsi bir az həyəcanlansa da özünü tez ələ alıb güldü:

- Çevril kürəyini sabunlayım, əməlli-başlı yuyun!

Umud etiraz etmək istədikdə isə:

- Çevril görüm! - dedi. - Bir azdan mən də yaxalananda çağıracam, gəlib mənim belimi sabunlayarsan. Burda nə var ki?

Təkcə kürəyini yox, hər yerini sabunlayandan sonra işvəli baxışlarla gözlərini süzdürüb gedən qadından yenə də bir şey anlamamışdı Umud. Odur ki, Şərafət xanım bir saat sonra onu Yaqubdan gizlin öz kürəyini sabunlatmaq üçün çağırıb hamama girəndə, hər həftə iki dəfə anasını hamama salıb çimizdirən Umud burada bir pis şey


downloaded from KitabYurdu.org

görmədi. Amma içəri daxil olub ev sahibəsini lüt-anadangəlmə
görəndən və əlləri əsə-əsə kürəyini sabunlamağa başlayandan anladı ki, bu qadına anasına baxdığı kimi baxa bilməyəcək...

Elə o gün, oradaca Şərafət xanımın xahişi və təhriki ilə aradakı pərdəni tamamilə götürüb, münasibətin son həddinə çatdılar. Həmin gün daha axşamacan heç bir iş görə bilmədi Umud. Yaqub da anlaya bilmədi ki, yoldaşına nə olub, nəyə görə daşın üstündə oturub key kimi gözlərini döyür.

Umud həmin gündən, getdikcə, Şərafət xanıma daha çox vurulur, onu bəzən Yaquba qısqanırdı. Amma onu da hiss etmişdi ki, qadın onu Yaqubdan qat-qat çox istəyir. Yəqin ki, bədəninin böyüklüyünə və güclülüyünə, həm də üzüyolalığına görə...

Ay buludların arasından çıxıb ətrafı solğun və əsrarəngiz bir işığa qərq etdiyi üçün Nəcməddin
maşının işıqlarını söndürdü və yolun qalan hissəsini beləcə getdilər. Göz işlədikcə uzanan qumluq sahədə heç bir canlı gözə çarpmırdı. Maşına oturandan, bir kəlmə belə olsun, danışmamış fəhlələr bu uzun yolun qurtarmasını səbirsizliklə gözləyirdilər.

Axır ki gəlib, dalğaların döyəcləyib uğultulu səs çıxardığı kiçik qayalıqların yanına çatdılar. Nəcməddin maşını saxlayıb yerə düşdü və fəhlələrə də maşından çıxmağı əmr etdi. Hər iki gənc gecə vaxtı bu kimsəsiz yerə gətirilmələrindən bərk narahat olmuşdular. Bu narahatlıq onların davranışında özünü çox açıq göstərirdi. Birinci olaraq, Umud dözməyib buraya gətirilmələrinin səbəbini


downloaded from KitabYurdu.org

öyrənmək istədi:

- Biz burada nə edəcəyik?

Nəcməddin cavab vermədən maşının arxasına keçib, yük yerindən iki dənə gödək saplı bel çıxartdı. Onları fəhlələrə verib, ətrafa göz gəzdirdi. Sonra bir qədər qabağa addımlayıb ayağının altındakı yeri onlara göstərdi:

- Sizin işiniz buranı mənim istədiyim ölçüdə qazmaq, sonra isə mən tapşıranda yenidən torpaqlamaq olacaq. Başlayın, görək!

Fəhlələr onun düzbucaqlı formasında göstərdiyi yeri dinməz-söyləməz qazmağa başladılar. Burada yer qumluq olduğu üçün asan qazılırdı.

Nəcməddin çəkilib maşının oturacağında oturdu. Ayaqlarını açıq qapıdan çölə çıxarıb torpağın üstünə qoyaraq bir siqaret yandırdı və təmkinlə çəkməyə başladı.

Bir azdan Ay buludların arxasına keçdi və bütün ətraf birdən-birə zülmət qaranlığa qərq oldu. Bu qaranlıqda, yaxınlıqdakı şiş qayalar öz əcaib görkəmləri ilə güclə gözə çarpırdılar. Bir də, dəniz tərəfdə, lap uzaqlarda qırmızı bir işıq nöqtəsi görünürdü. Dəniz isə ümumiyyətlə, görünmür, özünün möhtəşəm və qorxunc varlığını yalnız arabir sahilə çırpdığı dalğalarının uğultusu ilə büruzə verirdi.

Yaqubla Umud qazdıqları iri qəbrin içini görməsələr də işlərini davam etdirir, hərdən öz aralarında pıçıltı ilə danışırdılar.

- Görəsən, buranı bizə nə üçün qazdırırlar? - Umud soruşdu.

- Mən bilən, - Yaqub daha astadan cavab verdi, - adam öldürüblər, onu basdıracağıq.

Elə Umudun da ağlına belə bir şey gəlmişdi. Amma


downloaded from KitabYurdu.org

inanmaq istəmirdi öz fərziyyəsinə. Qorxudan dili dolaşa-dolaşa nə dedisə Yaqub onu yaxşı eşidə bilmədi:

- Nə dedin?
- Deyirəm, meyit harada olar bəs?
- Harada olacaq? Yəqin baqajda...
- Kim olar, görəsən o bədbəxt?

-Allah bilir...

- Bəs belə dərin qazmaq nəyə lazımdır?
- Mən nə bilim, deyir qazın, qazırıq... - Yaqub astadan deyindi.

Susub bir qədər də işlədilər. İndi növbə ilə qazırdılar. Qəbrin içində ikisi birdən rahat işləyə bilmirdi.

-Anam indi yaman narahatdır. Hələ, belə getsə evə saat 3-də güclə gedib çatacağıq...

Bunu Umud dedi və Nəcməddin də eşitdi bu sözləri. Həmin anda da, özündən asılı olmayaraq, qəribə bir narahatlıq bürüdü ürəyini. Hər hansı günahın sahibi olmaqlarına baxmayaraq, bunlar da insan idilər! Onları sevən, arzulayan, onlara möhtac olanlar var idi...

Amma Nəcməddin azacıq sonra ayağa qalxıb onları öldürməli idi. Əlbəttə ki, öldürəcəkdi də! Bir şey ki, qəti qərara gəlinib, bir şeyi ki, dəyişmək Nəcməddinin ixtiyarında deyil, tərəddüd etməyin də bir mənası yox idi.

Fəhlələr düzbucaqlı formasında normal bir qəbir qazmışdılar. Yaqub əlindəki işi dayandırıb qaranlıqda üzünü görmədiyi Nəcməddinə tərəf baxdı:

- Bəs deyil, Nəcməddin müəllim?

Nəcməddin qalxıb qəbrə yaxınlaşdı. Cibindən çıxartdığı alışqanı içəri uzadıb yandırdı. Məzar iki nəfəri rahatca öz qoynunda gizlədə bilərdi. Amma Nəcməddin,



downloaded from KitabYurdu.org

nədənsə, vaxtı bir az da uzatmaq istədi və:
- Yox, bəs deyil! - dedi. - Bir az da qazın! Sonra isə maşının yanına qayıdıb oturacaqda
əyləşdi. Elə bu zaman, bayaqdan iri qara buludların arxasında gizlənmiş Ay qəflətən öz şüalarını ətrafa səpələdi. Dənizə tərəf baxan Nəcməddin həmin anda nə gördüsə, diksinib cəld ayağa qalxdı. Ona elə gəldi ki, ən yaxın qayanın üstündə dayanmış uzun boylu, qara maskalı bir adam görünüb tez də yox oldu...

Əlini cibindəki tapançaya aparıb, bütün diqqətini Ay işığında daha vahiməli görünən şiş qayalığa yönəltsə də, heç bir şey görə bilməyib yerində oturdu. Həyəcanlı halda, öz-özüylə danışırmış kimi:

- Lənət şeytana! - dedi. - Deyəsən, məni qara basır...

Altmış doqquzuncu fəsil

Həmin vaxt Əlifağa Sadıxov dənizkənarı malikanəsində, villanın çöl divarına vurulmuş lampanın gur işığı altında, həyətdəki stolun arxasında oturub dərin fikrə getmişdi. Nəcməddindən o xəbəri eşidəndən sonra buraya yalnız bu gün, saat 12-nin yarısında gəlmişdi. Onda arvadı yatmağa hazırlaşırdı. Ərindən nə üçün gec gəldiyini soruşanda Əlifağa «işim var idi» deyib onu özündən uzaqlaşdırdı. Nə iyirmi ilə yaxın bir yastığa baş qoyduğu arvadının üzünə baxa bilir, nə də birdəfəlik söhbəti açıb sözünü deyə bilirdi. Şərafət onun danışmaq həvəsində olmadığını görüb, bunu işlə əlaqədar hər hansı qanıqaralığa tərəf yozdu və
yatağına girib yatdı. Əlifağa isə yenə də düşünməyə başladı. Nə desin? Nə soruşsun? Nə cəza versin bu xəyanətkar qadına?..

İndi isə, artıq, gecə saat ikinin yarısı idi. Əlifağa,


downloaded from KitabYurdu.org

nəhayət, qəti qərara gəlib ayağa qalxdı. Evə girib, artıq yuxuya getmiş arvadını oyatdı:

- Qalx ayağa görüm!

Şərafət çiyninə toxunan əlin kobud təmasından diksinib ayıldı. Yarıyuxulu halda ərinin üzünə baxıb:

- Nə olub? Saat neçədir? - deyə soruşdu.

Əlifağa amiranə səslə:

- Qalx geyin, səni həyətdə gözləyirəm! - deyib evdən çıxdı.

Bir neçə dəqiqə sonra heyrət və qorxu içində olan qadın da həyətə çıxıb stolun arxasında oturmuş ərinin qarşısında dayandı. Təəccüblə ətrafına
boylanıb, sonra ərinin üzünə baxdısa da onun sifətindəki cizgilərdən bir şey anlaya bilmədi:

- Nə olub axı, Əlifağa?

Əlifağa deyəcəyini birbaşa, kəsəsinə dedi:

- Srağagün Nəcməddin səni o gədələrlə görüb!

- Məni?! - qadın yalançı heyrətlə səsləndi. - Kiminlə?!

- Bəli, səni! Həyətimizdə işləyən nökərlərlə! - Əlifağa sakit danışmağı qərara alsa da, bunu bacarmayıb hiddətləndi. - Sən mənə xəyanət etmisən! Sən namussuzun, şərəfsizin biri imişsən! Mənim qeyrətimi, adımı-sanımı, ləyaqətimi gədə- güdənin ayaqları altına atmısan!

Şərafət yerindəcə donub qalmışdı. Qorxudan və həyəcandan boğazı qurumuş, ayaqlarını əsməcə tutmuşdu. O, ərinin kinli və qəddar olduğunu bilirdi.
Amma onu bu qədər özündən çıxmış halda görməmişdi indiyədək. Arvadını sonsuz bir nifrətlə süzən Əlifağa azacıq ara verib nəfəsini dərəndən sonra sözünə davam



downloaded from KitabYurdu.org

etdi:

- Mən sənin üçün hər şey etdim. Çox şeydən keçdim sənin üçün. Sizinkilər cəhənnəm olub gedəndə, səni qoruyub saxladım. Özümü riskə atıb, adını dəyişdim. Amma sən demə, ilan bəsləyib saxlamışammış bu iyirmi ildə!..

Yenə sözünə ara verib, bir qədər sakitləşdi. Sonra tapançasını çıxarıb stolun üstünə qoydu. Bu dəfə həddindən artıq sakit və təmkinlə danışmağa başladı. Amma səsindəki soyuqluq Şərafəti əməlli- başlı üşütdü:

- Sən hər cür əzablı cəzaya layiqsən. Ancaq yenə də oğlumun anası olduğun üçün səni əzabsız öldürəcəyəm. Bu mənim sənə ən böyük güzəştim ola bilər.

- Sən nə danışırsan, Əlifağa?! - Nəhayət, qadının dili açıldı. - Mən sənə ömrüm boyu xəyanət etməmişəm!

- Nə dedin, həyasız?! - Sadıxov yerindən dikəlib, əlini tapançaya uzatdı.

- Qulaq as! - Şərafət hər iki əlini qabağa uzadıb, sanki bununla atılacaq güllələrdən özünü qorumağa çalışdı. - Qulaq as, Əlifağa! Mən indi başa düşdüm ki, o tülkü Nəcməddin bizi hansı vəziyyətdə görüb...

- Hansı vəziyyətdə? - Əlifağa aşkar istehza ilə soruşdu.

Şərafət, vaxtının azlığını başa düşürmüş kimi, birnəfəsə danışmağa başladı:

- O gün mən hamama girmişdim. O gədələr də həyətdə idilər. Birdən başım fırlandı, nəfəsim tutuldu Birtəhər, çılpaq vəziyyətdə həyətə çıxdım. Qışqırıb onları köməyə çağırmaq istədimsə də, səsim lap yavaş çıxdı. Ancaq onlar məni görüblərmiş. Üstümə yüyürdülər. Özümdən getdiyimə görə qalanını xatırlamıram. Ayılanda özümü


downloaded from KitabYurdu.org

burada gördüm. Evdə... Məni yatağa uzadıb, üstümü örtmüşdülər. İkisi də yanımda oturub məni ayıltmaq üçün qollarımı, ayaqlarımı ovxalayırdılar. Mən nə olduğunu soruşdum. Dedilər ki, ürəyiniz getmişdi, sizi güclə ayıltdıq. O vəziyyətimdən özüm də utanıb, xəcalət çəkdim. Daha heç sənə də deməyə üzüm gəlmədi. Ancaq Əlifağa, o bir oğlumun goruna and içirəm, onlar mənə pis məqsədlə toxunmamışdılar. Yoxsa başa düşərdim. O qaraqəlbli Nəcməddin də
yəqin pəncərədən baxıb, bizi həmin vəziyyətdə görüb...

Əlifağa sonsuz maraq və diqqətlə arvadının gözlərinin içinə baxırdı: «Yəni doğru danışırmı bu qadın?» Asta-asta başını yelləyib dilləndi:

- Məni aldatmağa çalışma, Şərafət!

Bir qədər arxayınlaşmış qadın keçib stolun arxasında oturdu. Əlləri ilə başını tutub ağlamağa başladı:

- Sənin mənə inamb-inanmamağının fərqi də yoxdu daha mənim üçün! Sən onsuz da məni fahişə hesab elədin! Özü də gör, nə vaxt? Bədbəxt balamın əti hələ sümükdən ayrılmayıb. Ruhu da, qəbri də od tutub yanır indi onun! Öldür məni, qoy gedim onun yanına! Onsuz da Rafiqdən sonra bir məna görmürəm yaşamağımda!

Təlatümlü anlar yaşayan Əlifağa ayağa qalxıb onun çiyinlərindən yapışdı:

- Məni aldatma, Şərafət, hər şeyi olduğu kimi danış! Boynuna al, xəyanət etmisənsə! Söz verirəm, səni buraxacam çıxıb gedərsən qardaşınla!

Şərafət başını qaldırıb gözlərini ərinin bərəlmiş gözlərinə dikdi:

- Nə danışım, Əlifağa? Nə varsa, nə olubsa, onu


downloaded from KitabYurdu.org

danışdım. İstəsən, sabah o gədələr gələndə, onlardan da soruş. Qoy ürəyin sakit olsun. Ancaq mən daha bağışlaya bilməyəcəm səni! Sən məni cındır yerinə qoydun! Guya, itə-qurda satmışammış bədənimi! Guya qəhbəlik eləmişəm bu yaşımda! Çox sağ ol! Çox sağ ol, Əlifağa, çox sağ ol, sənə iyirmi il sadiqliyimin əvəzini yaxşıca verdin!

Şərafət xanım çığırıb özündən getdi. Əlifağa onun qan təzyiqinin yenə artdığını anlayıb əl-ayağa düşdü. İçəri qaçıb onun dava-dərmanını gətirdi. Əlləri əsə-əsə qoluna iynə vurdu. Qadın özünə gəlməyə başlayanda onu buraxıb kənara çəkildi. Sonra həyətdə narahat halda o baş-bu başa gəzməyə başladı. Birdən, nə düşündüsə, telefonunu çıxartdı. Kiməsə zəng vurub uzun çağırış səslərinə qulaq asdı. Telefonu açmırdılar.

Həyəcanlanmış Əlifağa özündən asılı olmayaraq, ucadan:

- Aç Nəcməddin! - dedi. - Aç telefonu!

Ancaq telefonu qapadılar. Bu nə deməkdir? Əlifağa əsəbiləşdi. Nəcməddin ona niyə cavab vermək istəmirdi?

Bir də zəng vurdu. Nəcməddinin telefonu artıq söndürülmüşdü. Cəld başqa bir nömrəyə zəng vurdu. O da bağlı idi. Ağır-ağır stola yaxınlaşıb onun arxasında oturdu. Daha arvadının üzünə də baxmırdı heç! Başını əlləri arasına alıb astadan pıçıldadı:

- Heyif səndən, Nəcməddin! Heyif!..

## Yetmişinci fəsil

Ay yenə də qatı buludların arxasına keçdi. Sanki indicə, dənizin sahilində baş verəcək cinayəti görüb, şahid olmaq istəmirdi. Ətraf yenə qaranlığa büründü. Qaranlıq özüylə soyuq bir nəmişlik də gətirdi bu dəfə. Hiss olunurdu ki,



downloaded from KitabYurdu.org

sahildən uzaqlarda, dənizə yağış yağır. Hətta ildırım da çaxdı bir neçə dəfə oralarda. Nəcməddin əlinə düşən yağış damcısını hiss edib ayağa qalxdı. Daha vaxt itirməyinə dəyməzdi. Tapşırığı yerinə yetirməli idi. Hələ qazılmış torpağı qəbrə doldurub, üstünü hamarlamaq var idi qabaqda...

Dənizin uğultusu artmışdı. Sahilə adlayan dalğalar qazılmış qəbrin üç-dörd metrliyinə gəlib
çıxırdı artıq. Nəcməddin qəbrə yaxınlaşdı. Bu vaxt yağış aramla yağmağa başladı. Yaqub qəbrin içində idi. Umud isə açıqda dayanmışdı. Qaranlıqda, üstəlik də yağışlı havada göz-gözü seçmirdi. Nəcməddin maşının faralarını yandırmağa məcbur oldu. Gur işıq şüaları qaranlığı qalın bir xətt kimi yarıb, qalaqlanmış torpaq topasının üzərini işıqlandıraraq dənizə tərəf uzandı.

Fəhlələr üçün ən həyəcanlı an yetişmişdi. İndicə bu qəbrin nə məqsədlə qazılması onlara da aydın olacaqdı. Gözləyirdilər ki, Nəcməddin bu saat maşınının yük yerini açacaq, hansı bədbəxtinsə meyitini onlara göstərib, qəbrə aparmağı tapşıracaq. Nəcməddin isə, hələ də, nədənsə yubadırdı işi.

Düz qəbrin kənarında, işıq zolağında dayanmış Umudun səsi gəldi:

- Ay başına dönüm, sən Allah, nə eləyəcəksənsə tez elə qurtar! Mənim anam xəstədir. İndi yatmayıb məni gözləyir.

- Mənim də, yoldaşım təkdi evdə, indi qorxudan bağrı yarılıb.

Bunu da Umudunköməyilə dırmanıb qəbirdən çıxan Yaqub dedi.



downloaded from KitabYurdu.org

Nəcməddin, əli cibindəki tapançada olduğu halda, yavaş-yavaş qəbrə yaxınlaşırdı. Amma tapançanı tutan əli getdikcə boşalmaq üzrə idi. Yox! O bu tapşırığı yerinə yetirə bilməyəcəkdi. Öldürə bilməyəcəkdi bu adamları! Bu, artıq qeyri-adi bir iş kimi görünməyə başlamışdı ona!

Umudun xəstə anası gözləyirdi onu. Sabah, ya birigün gedib ona deyəcəklər ki, gözləmə daha
Umudu. Yoxdu sənin oğlun. Yaqubun da gənc arvadı eləcə...

Nəcməddin niyə bu adamları həyatdan məhrum etməliydi axı? Niyə? Ona görə ki, Əlifağa Sadıxov belə istəmişdi? Ona görə ki, Nəcməddin də Əlifağanın sadiq qulu idi və onun əmrini hökmən yerinə yetirməliydi? Yox, Nəcməddin bu yaşına qədər təmiz yaşamışdı, bundan sonra da cinayət edib, əlini insan qanına bulamayacaqdı!..

Düz Umudun qarşısında dayandı. İndi Umudun arxası qəbrə, Nəcməddininki isə şiş qayalıqlar tərəfə idi. Yaqub da sağ tərəfdən Nəcməddinə yaxınlaşdı və:

- Biz indi neyləməliyik? - deyə soruşdu.

Narın yağış artıq onların üst-başını islatmışdı. Dənizin uğultusu isə getdikcə artıb nəriltiyə çevrilirdi.
Nəyisə beynində sürətlə götür-qoy edən Nəcməddin, nəhayət ki, növbə ilə fəhlələrin üzünə baxıb acıqlı səslə dilləndi:

- İndi öz qəbrinizi necə qazmısınızsa, eləcə də doldurun! Sonra mən sizi maşınla evlərinizə aparacam. Günü sabah isə rədd olub gedəcəksiniz öz kəndinizə! Amma bu sizə dərs olsun! Bir də heç vaxt çörəyini yediyiniz adama xəyanət etməyin!

Umudla Yaqub onun sözlərindən dəhşətə gəlib


downloaded from KitabYurdu.org

yerlərindəcə donmuşdular. Artıq nəsə deməyə, nəsə soruşmağa da ehtiyac qalmamışdı. Hər şeyi anlamışdılar... Deməĸ, Əlifağa Sadıxov xəbərdar olubmuş onların işindən...

- Sizinlə deyiləm? - Nəcməddin çığırdı. - Cəld olun!

Fəhlələr əyilib, yerə atılmış belləri götürdülər. Elə o saat da Umud əlini Nəcməddinə sarı uzadıb dəli kimi çığırdı. O, qaranlıqdan işıq zolağına yaxınlaşan maskalı bir adam görmüşdü.

Nəcməddin cəld arxaya çevrildi. Yağışa bürünmüş zülmətin içində nə gördüsə, cəld əlini silahına tərəf apardı. Amma həmin anda da sinəsini deşən tapança gülləsi onu yerə sərdi. Fəhlələr nə baş verdiyini dərk etməmiş sərrast atılan ikinci güllə Umudun çığırtısına son qoydu. O, əvvəlcə, əlindəki belə söykəndisə də, müvazinətini saxlaya bilməyib, birbaş qəbrin içinə yıxıldı.

Əlində tutduğu beli yuxarı qaldıran Yaqub ətrafına boylansa da heç kəsi görə bilmirdi. Nəhayət, üçüncü güllə də atıldı və o, əlindəki bellə birlikdə yerə sərildi.

Bu vaxt Nəcməddinin cibindəki telefonu səsləndi. Qaranlıqdan çıxıb qəbrin yanına gələn, başına maska keçirmiş naməlum adam əyilib telefonu meyitin cibindən çıxartdı və ekrana baxdı. Zəng vuran Əlifağa idi... Telefonu söndürüb, onu bütün gücü ilə dənizə tərəf tulladı. Sonra qəbrin içinə düşüb Umudun, daha sonra isə qəbrin yanına sərilmiş Yaqubun telefonlarını götürdü. Onları da dənizə atıb, yenə qəbrə yaxınlaşdı.

Növbə ilə Nəcməddinlə Yaqubun meyitlərini sürüyüb qəbrə saldı. Sonra torpağın üstündə qalmış beli götürüb qəbri doldurmağa başladı. O bunu çox sürətlə edirdi və



downloaded from KitabYurdu.org

artıq on dəqiqə sonra qazılmış torpağın hamısı qəbrə tökülmüşdü.

Naməlum adam bundan sonra qəbrin üstünü tapdayıb, hamarladı. Əlindəki beli də dənizə tullayıb
maşına oturdu. «Ford-Mondeo» hərəkətə gəlib şiş qayalıqlardan uzaqlaşan kimi dənizin sahilinə yağan yağış birdən-birə gurlaşdı.

Yetmiş birinci fəsil

Həmin uğursuz və qorxunc gecənin ertəsi günü polkovnik Baratov müavini mayor Cavadovu onun xahişi ilə qəbul etdi. Gizli şöbənin rəisi kabinetə daxil olan mayora oturmaq üçün yer göstərib, vaxt itirmədən danışmağını tələb etdi:

- Danış görüm, Cavadov, nə baş verib?

Kobranın axtarışına təkbaşına cəlb edilmiş Leopard bu işdən kənarlaşdırılandan sonra, şöbədə əməliyyat-axtarış qrupu yaradılmış, mayor Cavadov qrupa rəhbər təyin edilmişdi. Buna görə də Baratov əmin idi ki, müavininin onunla səhər tezdən görüşmək istəməkdə məqsədi Kobranın axtarışı ilə bağlıdır.

Axtarış qrupunun rəhbəri göstərilən yerdə oturub təmkinlə danışmağa başladı:

- Cənab polkovnik, bildiyiniz kimi biz Kobranın harada gizləndiyini və Bakıda hansı fəaliyyətlə məşğul olduğunu öyrənmək üçün Əlifağa Sadıxovun və onun yaxın adamlarının üzərində gizli nəzarət təşkil etmişik. Bu adamların hara getdikləri, kiminlə görüşdükləri bizim tərəfimizdən kənardan müşahidə olunur və danışıqları dinlənilir.

- Evin içinə hələ yol tapa bilməmisiniz? - polkovnik



downloaded from KitabYurdu.org

müavininin sözünü kəsdi.

- Təəssüf ki, hələ yox. - Cavadov başını buladı. - Əvvəl istədim ki, Sadıxovun dəniz kənarındakı həyətində işlətdiyi Umud və Yaqub adlı iki gəncdən birini ələ alıb öz tərəfimizə çəkdirim. Ya pul təklif etməklə, ya qorxuzmaqla... Amma siz Sadıxovu və belələiklə, dolayısıyla Kobranı şübhələndirə biləcək heç bir hərəkət etməməyi tapşırdığınız üçün bu fikirdən vaz keçdim. Onlar bizi aldadıb hər şeyi Sadıxova danışa bilərdilər.

- Düz eləmisən! - polkovnik razılıqla başını tərpətdi.

- Sonra öz adamlarımdan birini fəhlə qiyafəsində oraya salmaq istədim. O, Yaqub adlı fəhlə ilə dolayı yolla tanış olub ona da öz işlədiyi həyətdə iş düzəltməyi xahiş etdi. Yaqub buna qəti etiraz edərək bildirib ki, malikanədə başqa fəhləyə heç bir ehtiyac yoxdur.

- Yaxşı... - Baratov hövsələsiz halda dilləndi. - Kənardan müşahidə aparmaqda davam edin. Heç bir şübhəli hərəkətə yol vermədən! Unutma ki, biz Bakıya heç də yaxşı niyyətlə gəlməmiş bir amansız düşməni - Valeri Barsovu axtarırıq. Bəlkə əvvəl ümid edə bilərdik ki, çantasından çıxan sənəddə adı qeyd olunmuş adamlar vasitəsilə onu aşkar edib tutmaq olar. Amma məlum oldu ki, o sənəd qondarma bir şeydir və həmin adamların nə erməni kəşfiyyatı ilə, nə də Kobra ilə bir əlaqələri yoxdur. Sonra Leopard Kobranın Sadıxovla əlaqəsini üzə çıxartdı. Məlum oldu ki, Valeri Barsov, yaxud olsun Artur Saqiyan Əlifağanın qaynıdır. Bu əslində bizim üçün çox böyük tapıntıdır və bunun üçün Leoparda minnətdar olmalıyıq. İndi biz bilirik ki, Kobranı Bakıda


downloaded from KitabYurdu.org

tapmaq üçün əlimizdə bir ip ucu var. Amma bir də xəbərdarlıq edirəm ki, bu ip çürük ipə oxşayır. Bərk dartsaq, qopa bilər. Ondan sonra Kobranı bu boyda şəhərdə axtarmaq, dənizdə iynə axtarmaq kimi bir şey olacaq.

- Amma cənab polkovnik, - Cavadov dalğın halda dilləndi. - Müşahidə aparmağımıza, telefon danışıqlarını dinləməmizə baxmayaraq, hələ də Kobra ilə Sadıxovun hansısa bir təmasını aşkar etməmişik. Artıq məndə belə bir fikir yaranıb ki, ola bilsin, Kobra Azərbaycandan çıxıb gedib... Məncə, biz bu işi çox uzadırıq. Artıq Əlifağa Sadıxovu və arvadını həbs edib danışdırmağın vaxtıdır.

- Qətiyyən! - polkovnik əlindəki qələmlə stolu taqqıldatdı. - Birincisi, onlar Kobranın Bakıya gəlməsini, onunla əlaqələri olmasını, ümumiyyətlə, Arturun Valeri Barsov, yaxud Kobra olmasını boyunlarına almayacaq...

Cavadov kinayə ilə gülümsədi:

- Cənab polkovnik, ölünü öz xoşuna qoysan...

- Bəsdir, Cavadov! - polkovnik əlini stola vurdu. - Onu mən də bilirəm. Ancaq o gücü ki, tətbiq etməklə məğlub olacaqsan, artıq o güc deyil, sadəcə, gücsüzlük və maymaqlıqdır! Lap təsəvvür et ki, biz onları həbs etdik və bunu görən, duyan Kobra gizləndiyi yeri dəyişib aradan çıxdı. Ondan sonra Sadıxov da, arvadı da lap könüllü olaraq bizə qoşulub sənin axtarış qrupuna qəbul edilsələr də bu Valeri Barsov kimi hiyləgər bir ilanın tapılmasına kömək etməyəcək. Əksinə, təkrar edirəm, biz Kobranı birdəfəlik itirəcəyik! Bu barədə qurtardıq!
İndi sən de görüm, yanıma gəlməkdə məqsədin nədir?

Cavadov yaman yorğun görünürdü. Gözlərinin azacıq şişməsindən və qızarmasından hiss olunurdu



downloaded from KitabYurdu.org

ki, bütün gecəni yatmayıb. Bir an susub, yenə təmkinlə danışmağa başladı:

- İstefada olan polis mayoru Nəcməddin Xəndanov Əlifağanın «sağ əli» hesab olunduğu üçün onun, xüsusi olaraq, izlənməsini baş leytenant Elsevər Yusifova tapşırmışdım. Yusifov bu gecə maraqlı bir hadisə iiə rastlaşıb...

- Aha! - polkovnik diqqətini topladı. - Sən birinci bunu deməliydin. Mətləbə keç görüm!

- Sadıxovun həyətində işləyən fəhlələri izləyən əməkdaşlarımızın deməyinə görə, onlar dünən axşam saat 7-də malikanədən çıxıb evə gediblər. Sonra, təxminən saat 10-da ucuz kafelərin birində görüşüb, saat 12-yə qədər orada oturublar. Onlara telefon zəngi olub və onlar kafedən çıxıb bir qədər piyada gedəndən sonra qara rəngli, «Ford-Mondeo»
markalı maşına miniblər. Həmin maşın Nəcməddinin imiş. Onu izləyən baş leytenant Yusifov da bunu görüb və öz maşınıyla onların arxasınca düşüb. «Ford» Bakı kəndlərinə tərəf gedirmiş. O, kəndləri də arxada qoyub dəniz sahilindəki şiş qayalıqlara doğru gedəndə Yusifov şübhə doğurmamaq üçün izləməni dayandırıb mənə zəng vurmuşdu. Mən əmr etdim ki, orada dayanıb, özünü göstərmədən, «Ford»un geri qayıtmağını gözləsin. Həmin vaxt dəniz tərəfdə leysan yağış yağırmış. Səhərə qədər Nəcməddingilin geri qayıtmağını gözləyən Yusifov onların qayıtmadığını görüb səhər tezdən, alaqaranlıqda maşınını dəniz sahillərinə sürüb. Amma orada heç kəsə rast gəlməyib. Hətta maşın izlərinə də...

-Və belə aydın olub ki, bütün bunları yuxuda görübmüş



downloaded from KitabYurdu.org

sənin Yusifovun! - Baratov istehza ilə dilləndi. - Elə düşünürsünüz ki, o qayalıqlardan şəhərə qayıtmaq üçün başqa yol yoxdur?

- Var... - Cavadov bir qədər pərt oldu. - Amma o yol uzun, həm də narahat yoldur...

Baratov məzəmmətlə başını buladı:

- Sənə səhlənkarlıq yaraşmır Cavadov, qətiyyən yaraşmır. Yaxşı, bəs həmin üç nəfərin gecə evlərinə qayıdıb-qayıtmaması barədə məlumatın var?

- Hər üçünün evinə şübhə doğurmayan əməkdaşlarımız gedib. Bir azdan baş leytenant Yusifov hər üçü haqqında mənə telefonla məlumat verməlidir.

- Nə deyirəm, gözləyək... - Polkovnik ayağa qalxıb pəncərənin qarşısına getdi və oradan həyətə baxıb, öz-özüylə danışırmış kimi astadan dilləndi. - Gecənin o vaxtında bunların dəniz sahilində nə işi ola bilərdi?..

Bir az həyətə tamaşa edəndən sonra birdən geri çevrilib yarıistehzalı səslə:

- Bəs bizim öz cinayətkarımızdan nə xəbər var? - deyə soruşdu.

Mayor Cavadov:

- Qanturaldan? - deyə soruşdu və cavab gözləmədən danışmağa başladı. - Heç olmasa, Kobranın Sadıxovla əlaqə saxladığı barədə inandırıcı gümanımız var. Qantural isə daha özünün harada, kimlərlə ola bilməsi barədə heç bir güman yeri qoymayıb. Mənim bildiyimə görə, bu saat polis onu, əllərində heç bir dəqiq plan olmadan, kor- koranə axtarır.

- Biz Valeri Barsovu axtardığımız kimi... - polkovnik yenə kinayə ilə gülümsədi.


downloaded from KitabYurdu.org

- Bəli! - Cavadov öz ciddiyyətini pozmadan dedi. - Ancaq mənim fikrimcə, polis Qanturalı tezliklə tuta bilsə də, bu işin bizə elə bir xeyri dəyməyəcək. Artıq biz bilirik ki, Nihat Sadıxovun köhnə işçisi, inanılmış adamı olub. Qanturalı da, həbs olunmuş sürücüsünün yerinə işə götürmək istəyib. Kobranı hava limanında qarşılamağa kimisə göndərməli idi, bunları göndərib. Burada nə var ki? Sonra kafedə bunlar da oturub Sadıxovla. Kobranın kafedən çıxanda da qadın qiyafəsində çıxması onu göstərir ki, onun əslində kim olduğunu Qanturalgildən gizlədiblər. Yəni Nihat da, Qantural
da Moskvadan gəlmiş qonağı axıra qədər Natalya adlı qadın kimi tanıyıblar. İndi, ola bilsin Nihat ondan şübhələnib şəklini çəkib, ya kim bilir, Qantural çəkib, amma sonra Nihata çap etdirib, bu öz işləridir. Əsas odur ki, onlar kafedən çıxandan sonra bir daha Kobranı görməyiblər. Qaldı ki, o cinayətə, axı onlar da insandır, öz şəxsi həyatları var... Bu tamamilə təsadüfidir ki, bir həftə sonra Nihat Qanturalın arvadıyla olub, o da bunları öldürüb... Bu işin Sadıxova, ya Kobraya, ya bizim milli təhlükəsizliyimizə nə dəxli var?

Müavininin adda-budda danışığına maraqla qulaq asan Baratov başını buladı:

- Maraqlı fikirlərin var, Cavadov. Ancaq bəs Nihatın öz əlində mənzilə gətirdiyi o qara çanta?..
Bəs Nihatın binaya qadından əvvəl gəlməsi? Mənzildə əməlli-başlı axtarış aparması?..

Cavadov candərdi gülümsədi:

- Cənab polkovnik, bütün gecəni gözümü də yummamışam. Əgər yersiz fikir söylədimsə, məni



downloaded from KitabYurdu.org

bağışlayın. Dediyim odur ki, hər ikimizin Qanturalın prokurorluqda açılmış cinayət işindən tam məlumatımız var. Hətta Qanturalın xarakterini də öyrənmişik. Bir az kobud desəm, başdanxarabın, tərsin biridir. Namus məsələsində heç güzəştə gedən deyil. Artıq bu bir faktdır və ekspertiza da təsdiq edib ki, Nihat o gecə bunun arvadıyla cinsi əlaqədə olub. Bütün bunları bilə-bilə biz niyə milli mənafelərimiz üçün təhlükəli olan Kobra kimi düşmənin axtarışına Qanturalı da qatıb işimizi lazımsız yerə ağırlaşdırmalıyıq?

Polkovnik Baratov bir an susub, ah çəkdi və aramla danışmağa başladı:

- Səni başa düşürəm. O cinayətdəki bəzi qaranlıq məqamları işıqlandırmaq və nəhayət, Qanturalı tapmaq üçün peşəkar bir polis xəfiyyəsi lazımdır. Amma mənim özümün də bəzi yeni mülahizələrim var bu iş barədə... O qara çanta məsələsinə heç də barmaqarası baxmaq lazım deyil... Nə də Nihatın mənzilə qadından əvvəl gəlməsinə. Mən belə hesab edirəm ki, Nihat oraya qarət məqsədilə gedib və həmin vaxt əlindəki qara çantanın içi boş olub. Nihat Qanturalın evindən nə oğurlamaq istəyirmiş? Qızıl, ya digər qiymətli əşyalar? Yox, biz bilirik ki, Qantural həmişə kasıb yaşayıb. Məncə, Nihat o mənzilə pula görə girib. Özü də külli miqdarda pula görə...

- Kasıb adamda külli miqdarda pul hardandır? - Cavadov dözməyib rəisinin sözünü kəsdi.

Baratov fikirli halda gülümsədi:

- Bax, elə bu məsələdə Qanturalın bizim apardığımız axtarışla əlaqəsi olma ehtimalı ortaya çıxır. Ola bilsin, burada, doğrudan da düşmənə işləyən qrup var və Sadıxov


downloaded from KitabYurdu.org

da, Nihat da bu qrupun üzvü ola bilər. Və bu da ola bilər ki, dəstəyə yeni cəlb olunan Qanturala gizli təşkilat tərəfindən külli miqdarda pul verilsin. Ya, tutaq ki, evində saxlamağa, ya bizim əleyhimizə hansısa işi görmək üçün. Bu pulun ona verilməsini Nihat da bilər və onu oğurlamaq üçün plan qurar.

- Bəs onun Qanturalın arvadı ilə əlaqəyə girməsi?

- Mən bunu danmıram ki? Onların arasında, yəqin ki, əməlli-başlı sevgi macərası yaşanırmış. Həmin gecə, təsadüfən evə tez qayıdan qadın Nihatı mənzildə görəndə, Nihat qadına mənzilə onun üçün gəldiyini deyər və...

- Cənab polkovnik, - Cavadov yenə səbirsizlik göstərib onun sözünü kəsdi. - gəlin, etiraf edək ki, bu cinayət işi, hər halda, namus üstündə törədilsə də, Oantural hazırda namusunun intiqamını artıqlamasilə, qəddarcasına alıb aradan çıxsa da çox mürəkkəb bir cinayət işidir. Biz bu cinayət işi ilə tanış olub, lakin təhqiqatdan kənarda olduğumuza görə yalnız quru fərziyyələr söyləyə bilərik.

- Əlbəttə! - Baratov razılığını bildirdi. - Bu işlə polis məşğuldur. Biz kapitan Əbilovu yaxşı tanıyırıq. Zirək oğlandır. İnanmaq olar ki, nəsə edəcək. Amma
təcrübəm və hissiyyatım mənə deyir ki, bu işlə, nə qədər gec deyil, polis yox, milli təhlükəsizlik orqanları məşğul olmalıdır.

Bu vaxt mayor Cavadovun telefonu zəng çaldı. Cavadov telefonda kimisə bir qədər dinləyib onu qapadı və rəisinə baxdı:

- Yusifovdur. Deyir, bu gecə nə Nəcməddin, nə də o fəhlələr evlərinə getməyiblər. Hətta Umud adlı oğlanın xəstə anası oğlundan ötrü bərk narahatlıq keçirib və səhərə


downloaded from KitabYurdu.org

yaxın ürək tutmasından keçinib...

Polkovnik Baratov düşüncəli halda bir qədər otaqda gəzişib, yerinə keçdi və üzünü müavininə tutub dilləndi:

- Cavadov, mən çox istəyirdim ki, Kobranı biz tutub təhvil verək dövlətə. Amma görürəm, işlər getdikcə dolaşır. Mən mütləq Milli Təhlükəsizlik Nazirliyinə məlumat verməliyəm.

- Bu gecəki müşahidəmiz barədə? - Cavadov soruşdu.

- Təkcə o barədə yox, həm də Kobranın kimliyi və Sadıxovla əlaqəsi barədə.

- Bəs onlar Əlifağanı dərhal həbs etməzlər?

- Zənnimcə, yox! - Baratov başını buladı. - Onlar da nəzarət altına alacaqlar. Amma birinci növbədə isə dənizin sahilində axtarış aparacaqlar.

Mayor Cavadov çiynini çəkdi:

- Qoy olsun! Təki bu əclaf Valeri Barsov tutulub məhkəməyə çıxarıla bilsin!

Baratov daha vaxt itirmədən telefonun dəstəyini götürüb kiminləsə danışdı və çox vacib, məxfi bir iş üçün yanına gəlmək istədiyini dedi.

Yetmiş ikinci fəsil

Günortaya yaxın ağ rəngli bir «Volqa» avtomobili kəndi keçib şiş qayalıqların yerləşdiyi dəniz sahilinə doğru gedirdi. Amma kənddən azacıq aralanmışdı ki, dayanmağa məcbur oldu. Burada işləyən ekskavatorun qazdığı uzun xəndək yolu kəsib keçmişdi. Sükanın arxasında oturmuş gənc oğlan yanındakı qıza baxdı:

- İşə düşmədik? Bunlar da vaxt tapdı xəndək qazmağa.

Qız çiynini çəkdi:

- Başqa yol yoxdur?



downloaded from KitabYurdu.org

Oğlan:

- Var, amma çox uzaqdır, - deyib başını çölə çıxartdı və ekskavatorun yanında dayanmış kişini səslədi:

- Yolu niyə kəsmisiniz?

Kişi oğlanı diqqətlə süzüb:

- Burdan boru keçəcək, - dedi. - İki-üç saata işimizi qurtaracağıq.

Oğlan maşını döndərib geri qayıtmağa məcbur oldu. Amma nə o, nə də ondan az sonra gəlib qayıdan maşının sərnişinləri bilmədi ki, əslində, yol xüsusi əməliyyat qrupunun rəhbəri mayor Kərimovun göstərişi ilə kəsilib.

Bundan başqa, heç bir piyadanın sahilə yaxınlaşmaması üçün iki-üç kilometr radiusda sahə nəzarət altına alınmışdı.

Yarım saat sonra şiş qayalıqların lap yaxınlığında sahilə bir motorlu qayıq yan aldı. Qayıqdan cəld sahilə atılan beş nəfər milli təhlükəsizlik orqanının xüsusi təyinatlı əməkdaşı ətrafa səpələnib sahil boyu axtarış aparmağa başladılar.

Qayalıqların o biri tərəfindən gələn «Jeep» markalı minik avtomobili onların yanında dayandı. Maşından düşən mayor Kərimov axtarış aparan əməkdaşlara:

- Hər qarışı diqqətlə axtarın! - dedi. - Təkər izi, qazıntı yeri, yaxud hər hansı bir şübhəli şey aşkar etsəniz, dərhal mənə bildirin.

Gecə bərk yağış yağdığı üçün yer hələ də yaş idi. Yağış bəzi çökək yerlərdə dayaz gölməçələr də yaratmışdı. Bir yerdə əməkdaşlardan birinin ayağı
qumlu torpağa batdı. O, daha bir addım atıb geriyə döndü və dərinə düşmüş ləpirinin ətrafına diqqətlə göz gəzdirib cəld yaxınlıqda olan Kərimovu səslədi:



downloaded from KitabYurdu.org

- Cənab mayor, burada torpaq qazılıb!

Yağış torpağın üzünü yuduğu üçün qazılmış yeri təyin etmək asan deyildi. Amma əməliyyat qrupunun rəhbəri də baxan kimi həmin yerdən şübhələndi və yaxındakı üç nəfər əməkdaşa:

- Başlayın qazmağa! - deyə əmr verdi.

Əməkdaşlardan biri qayığa tərəf yüyürüb oradan iki bel gətirdi və yumşaq torpağı sürətlə qazmağa başladılar. Onlar gizli qəbri düzgün aşkar etmişdilər və artıq on beş dəqiqə sonra Nəcməddinlə iki gənc fəhlənin quma bulaşmış meyitləri çıxarılıb sıra ilə yerə uzadılmışdı.

Cəsədlərin yanında ayaq üstə dayanıb onlara diqqətlə nəzər yetirən mayor Kərimov yanındakılara:

- Hər üçü güllə ilə vurulub, - dedi və bu an vertolyot səsini eşidib, başını yuxarı qaldırdı.

Dəniz tərəfdən gələn və kənddən görünməməsi üçün çox alçaqdan uçan hərbi vertolyot onlardan bir qədər kənarda yerə endi. Vertolyotdan düşən polkovnik Baratovla mayor Cavadov yaxınlaşıb mayor Kərimovla görüşdülər.

Baratov gülümsəyib:

- Yəqin ki, sizə mane olmadıq, eləmi? - dedi.

- Yox, əlbəttə! - Kərimov əlini meyitlərə uzatdı. - Siz demişdiniz ki onlar cəmi üç nəfər olub?

- Bəli... - Rəisinin əvəzinə Cavadov cavab verdi. - Bunlar elə həmin adamlardır.

Kərimov kinayə ilə üzünü turşutdu:

- Bunlar, əlbəttə, bir-birlərini vurub öldürə bilərdilər. Amma özlərini dəfn edə bilməzdilər axı?!

- Sözsüz ki, burada dördüncü adam olub!.. - Baratov



downloaded from KitabYurdu.org

gənc mayorun kinayəsinə ciddi cavab verdi.

- Sizcə, həmin dördüncü adam Kobradırmı? - Kərimov da ciddiləşdi.

- Mən buna əminəm!

- Bəs sizcə, o, haraya qeyb ola bilər?

Baratov cavab verməyib meyitlərə bir az da yaxınlaşdı və əyilib onları diqqətlə nəzərdən keçirməyə başladı. Sonra ayağa qalxıb yanında dayanmış Cavadova dedi:

- Belə çıxır ki, Nəcməddin bu oğlanları buraya öldürməyə gətirib və qəbri də özlərinə qazdırıb. Eyni zamanda, Kobra da Əlifağadan Nəcməddini öldürmək əmri alıbmış. Amma çox maraqlıdır, nəyə görə?..

- Yəqin ki, bunlar Kobranı görüblərmiş. Şahid olmasınlar deyə...

- Bəlkə də!.. - Baratov meyitlərdən aralandı.

Qayalıqların o biri tərəfində axtarış aparan iki əməkdaşdan biri iti addımlarla onlara tərəf gəlirdi. O, gəlib çatan kimi Kərimova raport verdi:

- Cənab mayor, orada sahilin sıldırım yerinə tərəf gedən təkər izinə rast gəldik. İz dənizin altı- yeddi metrliyindədir. Mən belə fikirləşirəm ki, həmin maşın güclü yağışda yolu itirib, birbaş dənizə yuvarlanıb. Çünki sıldırımın sonunda bir qədər uçqun yeri də hiss olunur.

Cəld həmin yerə getdilər. Sıldırımın kənarına yaxınlaşıb aşağı baxdılar. Burada dəniz kifayət qədər dərin idi və bir qədər dərində burulğan olduğunu bildirən köpüklü sulardan başqa heç nə görünmürdü.

Mayor Kərimov dönüb özüylə gətirdiyi üzgüçüyə işarə



downloaded from KitabYurdu.org

etdi. Üzgüçü göz qırpımında dalğıc geyimini geyinib dənizə baş vurdu. Onu çox gözləməli olmadılar. Az sonra üzə çıxıb suyun altında minik avtomobilinin olduğunu bildirdi.

Beş dəqiqə sonra Baratovu gətirən hərbi vertolyot onun əmri ilə havaya qalxıb qarmaqlı nazik trosları dənizə salladı. Üzgüçü onları maşına keçirib sudan çıxdı və vertolyot qara rəngli «Ford- Mondeo»nu asanlıqla qaldırıb sahilə qoydu.

Qapısının biri açıq olan maşında insan meyiti görməyən əməkdaşlardan biri:

- Kimsə, maşını itələyib salıb dənizə, - dedi.

Qırılmış kapotu qaldırıb mühərrikə baxandan sonra başını sükan tərəfdən maşının içinə salıb müşahidə aparan mayor Kərimov ona etiraz etdi:

- Yox, məncə elə deyil! Sükanın arxasında oturan adam da maşınla birlikdə dənizə düşüb.

Bunu deyib, dikəldi və Baratovun üzünə baxdı:

- Və heç inanmıram ki, o oradan sağ çıxsın. Çünki orada, suyun altında güclü burulğan var...

Polkovnik:

- Nəyə görə deyirsiniz ki, maşını itələyib salmayıblar? Yolunun lazımi qədər eniş olmadığına görəmi?

- Təkcə ona görə yox, - Kərimov cavab verdi. - Maşın suya düşərkən, mühərrik işlək vəziyyətdə olub. Bunu sürət ötürücüsündən, ən əsası isə
mühərrikin sərinkeşinin pərlərinə sarınmış yosundan bilmək mümkündür.

- Bəs onun meyiti?.. - kimsə soruşdu.

- Axtarmaq lazımdır. - Kərimov dilləndi. - Hər halda,


downloaded from KitabYurdu.org

dalğalar hardasa sahilə çıxaracaq onu...

Yaxındakı sahillərin axtarışı bir nəticə vermədi. Baratovun təkidi ilə maşının yenidən suya atılmağına Kərimov da razı oldu və vertolyot bu işi dərhal yerinə yetirdi. Meyitləri isə paketlərə salıb «Jeep» markalı maşına qoydular.

Əməkdaşlar qazılmış yeri yenidən doldurub hamarladılar və yalnız bundan sonra əvvəlcə qayıq, sonra isə «Jeep» yola düşdü.

Vertolyota tərəf gedən Cavadov onunla yanaşı addımlayan rəisinə dedi:

- Necə bilirsiniz, cənab polkovnik, Kobra doğrudanmı ölüb?

Baratov dönüb fikirli halda müavininə baxdı və başını bulayıb:

- O kafirin ölüsünü görməsəm, inanmaram! - dedi.

Yetmiş üçüncü fəsil

Səhəri gün, gündüz saat 10-da, Fatimə, artıq, palatada özlərinə məxsus nə vardısa, torbalara yığıb hazır qoymuş, özü isə atasının uzandığı çarpayıda, ayaq tərəfdə oturmuşdu. Bir saatdan sonra həkimlər Ağaşamili evə buraxacaqdılar və bu, may ayı girəndən bir dəfə də olsun üzü gülməmiş Fatimənin dərdlərini az da olsa unutdurmuşdu.

Əyninə göy rəngli nazik parçadan beli büzməli şalvar və həmin rəngdə köynək geyinmiş gənc qız bu qiyafədə daha qıvraq görünürdü. Fətəlinin kirpiklərinə oxşar uzun, qara kirpikləri iri, ala gözlərini daha cazibədar edir, sifətinə əsrarəngiz yaraşıq verirdi.

Başı bir ayın içində tamam ağarmış, üzündəki qırışları


downloaded from KitabYurdu.org

dərinləşmiş Ağaşamil özünü, heç nə olmamış kimi, sakit və təmkinli aparırdı. Qızının uzun barmaqlı arıq əlini əlinə alıb sığallayır, mehriban baxışlarını üzündə gəzdirirdi. Bu mehribançılığı oğlanlarının heç biri görməmişdi ondan. Aralarında həmişə ciddi pərdə saxlanmışdı. Övladlarından təkcə Fatimə sözünü deyə bilmişdi ona, lazım gələndə. Bir də bir az Xanəli... Nəvələrindən də ki Fətəli idi can-ciyəri.

Amma heç Fatimənin özü ilə də indiki kimi mehriban olmamışdı. Qətlə yetirilmiş oğlanlarına görə qəlbi sınıq idi, ya xəstəliyinə görəmi, yaman yumşalmışdı kişi.

- Bilirsən səni niyə hamıdan çox istəyirəm? - deyə birdən soruşdu.

- Qızınam da... - Fatimə gülümsədi.

- Tək ona görə yox. Rəhmətlik anama çox oxşayırsan... Anam cavanlıqda, deyilənə görə, çox gözəl qız olub. Gözəl, həm də igid, cəsarətli. Oğlanlar bir-biri ilə dava salırlarmış onun üstündə. Amma heç biri cəsarət edib yaxınlaşa bilmirmiş ona...

- Demək istəyirsən, mən də gözələm? - Fatimə nazlandı.

Amma birdən, nəyə görəsə, yenə də üzünə kədər çökdü. Atası isə, deyəsən, keçmişləri xatırlamışdı və bəlkə də ilk dəfə idi ki, qızıyla belə baş-başa, məhrəmanə söhbət edirdi:

-Anam Şamaxıda bəy qızı olub. Ermənilər Şamaxıda qırğın törədəndə... Müəllimlərindən eşitməmiş olmazsan, on səkkizinci ildə
azərbaycanlıların kökünü kəsmək istəyiblər axı onlar... Bakıda, rayonlarda... Amma ən çox Şamaxıda qırıblar camaatı. Başçıları da Lalayan adlı biri olub. Bir də bir Artur Saqiyan olub. Onun köməkçilərindən biriymiş.



downloaded from KitabYurdu.org

Əzazilliyinə, qaniçənliyinə görə Lalayandan geri qaimırmış. Hə... Sənin rəhmətlik Ceyran nənəndən danışırdım axı... Sonradan da nənənin dilindən düşmürdü bu Artur Saqiyanın adı. Həmişə qarğış edirdi, goruna söyürdü onun... Həmin qırğınlar olanda anamın beş yaşı varmış. Ermənilər silahlı dəstələrlə küçə-küçə gəzib həyətlərə soxulur, camaata qan uddururlarmış. Qoca kişilər danışırdı ki, həmin vaxt Şamaxının özündə yaşayan, şamaxılıların çörəyini yeyən ermənilər də onlara hər vasitəylə kömək edirmiş. Babamın sözü keçən ağsaqqal, bəy olduğunu da onlar həmin
Artura çatdırıb, onun dəstəsini həyətə gətirirlər. Babam silahla müqavimət göstərsə də bir xeyri olmur. Onu da, arvadını da, iki cavan oğlunu da öldürürlər. Sonra isə Artur özü onları doğrayıb həyətdəki su quyusuna tökür və axırda da evi, tövləni yandırıb gedirlər... Anam onda həyətdəki ayaqyolunda gizlənib hər şeyi öz gözüylə görübmüş. Sonra bibisi onu aparıb saxlayıb. Artur Saqiyanın adını da bibisindən eşidibmiş anam...

- Yazıq nənəm!.. - Fatimə doluxsunub atasının sözünü kəsdi.

Ağaşamil dərindən bir ah çəkib söhbətinə davam etdi:

- Hə, ancaq çox qeyrətli, təəssüb çəkən arvad idi rəhmətlik. Altmış səkkizinci il idi, deyəsən... Mənim onda otuza yaxın yaşım var idi. Sənə
demişəm, indiki bu sirk binasından yuxarıda olurduq. Bir gün anam çox pis halda gəldi evə. Qanıqara, tamam özündən çıxmış vəziyyətdə. Səbəbini soruşanda, dedi ki, Artur Saqiyanı görüb. Guya kömürçü bazarında oturub ayaqqabı yamayırmış, həmin Artur. Dedim, ay ana, elə şey



downloaded from KitabYurdu.org

olmaz, özün deyirdin ki, Nuru paşa öldürüb onu?! Dedi, yox ki yox, ya məni qara basır, ya da o elə Artur Saqiyanın özüdür. Boy eyni, sir-sifət eyni, yaş da elə həmin yaş olar...

Sonra, bazara anamla birlikdə getmiş qonşu arvad danışdı ki, anam həmin çəkməçinin üstünə şığıyıb yaxasından yapışıbmış. Güclə əlindən almasaymışlar öldürəcəkmiş kafiri... Hə, qorxmaz arvad idi rəhmətlik...

- Yaxşı, bəs kim imiş o çəkməçi? - Fatimə maraqla soruşdu.

- Sonra bir köhnə ayaqqabı götürüb onun yanına getdim, - Ağaşamil söhbətinə davam etdi. - Otuz yaşlarında bir erməni idi. Bəhanə ilə tanış oldum. Adı Suren idi. Soyadı da, elə doğrudan da Saqiyan... Başa düşdüm ki, nəvəsi ola bilər bu həmin o Arturun.

- Neylədin ona? - Fatimə, özündən asılı olmayaraq, hiddətləndi.

- Neyləyəcəkdim? - Ağaşamil təəssüflə başını yırğaladı. - O vaxt başımızın üstündə Sovet hökuməti var idi. Bir şey eləsəydim, Moskvaya qədər gedib çıxardı səsi. Həm də, fikirləşdim ki, olan olub, keçən keçib, babası gorbagorun elədiklərindən buna nə?.. Mehriban, şirindil adam idi. Bir şey eləyib
türməyə girəsi deyildim ki... - Bir anlıq susub, birdən-birə nədənsə kinayə ilə gülümsədi. - Amma dörd-beş ay sonra, onsuz da, düşdüm oraya... Onda Cahangirlə, Xanəli anadan olmuşdu təkcə.
Məhəllədə Məmməd adlı biriylə sözümüz çəp düşdü, heç nədən vurub öldürdüm bədbəxt oğlunu...

Fatimənin üzü birdən-birə tutuldu. Əlini ehtiyatla atasının əlindən çıxarıb, üzünü yana çevirdi. Ağaşamil


downloaded from KitabYurdu.org

söhbətin mövzusunu dəyişməyi məsləhət bilib:

- Bəs Şakir harada olur, heç görünmür? - deyə soruşdu.

Şakiri üç gündü ki, Fatimə özü də görmürdü. Ələmdarın maşınından düşəndə ayrıldığı idi ondan. Telefonunu da söndürmüşdü, nədənsə, ondan sonra. Ağaşamilin bundan da, qızının qabağının kəsilib
qaçırılmasına cəhd göstərilməsindən də xəbəri yox idi. Xəstəliyinə görə, gizlətmişdilər ondan bu hadisəni.

- İşdə başı qarışıqdı, - dedi.

Ağaşamil susub bir neçə dəqiqə dərin fikrə getdi. Sonra, nə keçirmişdisə ürəyindən, ah çəkib birdən-birə təəssüflə dilləndi:

- Təki sənin ürəyincə olsun hər şey...

Bu vaxt palatanın qapısı açıldı və «Asmera» ətrinin baş dumanlandıran, gözəl qoxusu içəri yayıldı. Gələn Cəhalə idi...

O özündən asılı olmayaraq, otağa bir bayram əhval-ruhiyyəsi gətirdi. Ötən günlərə nisbətən bu gün xeyli şən idi və həm də çox gözəl görünürdü. Sarışın saçlarını incə zövqlə düzəltmişdi. Sifətinin bir
tərəfinə tökülən nazik saç topası, onsuz da təravətli olan görünüşünü bir az da təravətləndirirdi.

Əyninə yenə də cins parçadan şalvar və bəyaz rəngli köynək, köynəyin üstündən uzun, qolsuz jilet geyinmişdi. Şalvarın üstünə sallanmış jilet, Cəhalə palataya girərkən iki yerdən düymələnsə də, şalvarı qabaq tərəfdən partlamaq dərəcəsinə gətirən əzaların qabarıqlığını gizlədə bilmirdi. Amma həmin anda onun ümumi görünüşünün çox məlahətli və cazibədar olduğunu baxan hər kəs etiraf edərdi...



downloaded from KitabYurdu.org

Cəhalə əyilib qayınatasının üzündən öpdü və:

- Necəsən, ata? - deyə soruşdu.

- Yaxşıyam, qızım, - Ağaşamil razılıqla dilləndi. - Şükür Allaha, çıxıram daha burdan!

Cəhalə ayağa qalxmış Fatimə ilə də öpüşdü və ikinci çarpayının üstündə, yanaşı oturdular. Fatimə qardaşı arvadının gözəlliyinə heyranlıqla baxırdı. Yaman çox istəyirdi onu və az qalırdı, elə atasının yanında qucaqlayıb bərk-bərk bağrına bassın.

- Daha sən niyə gəldin? - dedi. - Xanəli gələcək, kişini çıxarıb gətirəcəkdik evə.

- Nəzakətlə Hicran sizdədilər. Hazırlıq görürlər. Mən də, dedim, bəlkə burda kömək lazım oldu...

- Səxavət nə əcəb gəlmədi? - Ağaşamil soruşdu.

- Onun poliklinikada vacib işi var, yoxsa gələcəkdi. - Cəhalə sanki ərinin yerinə üzrxahlıq etmək istəyirdi.

Ağaşamil başını tərpətdi:

- Sən də, qızım, zəhmətini halal elə! Neçə gündür, işini-gücünü atıb əziyyətimi çəkirsən burda.

Cəhalə qızardı:

- Ağaşamil əmi, elə demə, sən Allah! Borcumdu mənim...

- Gəlinim təkcə sən deyilsən ki?! - kişinin səsində giley hiss olundu.

O, əvvəl gəlinlərindən Hicranı dostunun qızı olduğu üçün, Həmidəni ciddi xasiyyətinə görə, Nəzakəti həm böyük gəlini sayıldığına, həm də dilli- dilavər olduğuna görə çox istəyirdi. Kiçik gəlinini isə, özü tam anlamırdı ki, çox gözəl olması qorxudur onu, ya bir az açıq-saçıq geyinməsi toxunur ona... Axır ki, bir qədər soyuq yanaşırdı



downloaded from KitabYurdu.org

Cəhaləyə.

Elə Səxavətin özünə də o biri oğullarından fərqli münasibət göstərirdi. Düşünürdü ki, ən az Səxavət oxşayıb ona övladlarından. Anası rəhmətliyə çəkmişdi yazıqlığında, dilsizliyində, əfəlliyində...

Hə, Cəhaləni, bəlkə bir az da, Səxavətin arvadı olduğu üçün az istəyirdi. Bir də o, necə olmasa, Miraslanovun qızı idi. Başqa tərbiyə görmüş, ərköyün böyüdülmüşdü...

Amma bu ağır günlərində Cəhaləni daha dərindən tanıdı. Gördü ki, hər xasiyyətində o biri gəlinlərdən artıqdır. Xarab süd əmməyib... Ərköyün böyüdülsə də, ailəsini, böyüyünü, kiçiyini tanıyandı. Hələ qayınatası bir yana, Xanəlinin qabağında uşaq kimi dayanır. O biri gəlinlərin Miraslanov kimi ataları, Səxavət kimi də əfəl ərləri olsaydı, minib çapardılar bütün ailəni...

- Onları qınama... - Cəhalə qayınatasına cavab verdi. - Uşaqlar başlarını qatıb. Yoxsa hər gün gələrdilər... - nazla gülümsəyib əlavə etdi. - Bir də mən gəlinin deyiləm ki, qızınam!

- Allah hamınızın işini avand eləsin! - Ağaşamil bunu deyib, üzünü divara çevirdi.

Fatimə zarafatla gəlinbacısının qulağına pıçıldadı:

- Bura bax, ay qız! Dilinlə öz yerini şirin salma, onun bircə qızı var, o da mənəm.

Cəhalə güldü:

- Nə olsun? Soruş gör, hansımızı çox istəyir?

Fatimə ona cavab verməyə macal tapmadı.

Palatanın qapısı döyüldü və həkim qırx yaşlarında, ciddi şimalı bir kişi ilə içəri daxil oldu. Cəhalə, əynində tünd göy rəngli bahalı kostyum olan, qalstukuna brilyant qaşlı, qızıl



downloaded from KitabYurdu.org

sancaq taxılmış adamı görən kimi özünü itirdi. Bu, rəhmətlik Nihatın işləmiş olduğu bankın sahibi Əli Mazanov idi...

Deyəsən, elə o da Cəhaləni gördüyünə görə özünü bir balaca itirmişdi. Əvvəlcə Cəhaləyə, sonra isə Fatiməyə baxıb başını tərpətməklə salam verdi və dərhal çarpayıda uzanan Ağaşamilə tərəf döndü:

- Salam, Ağaşamil əmi, necəsiniz? - deyib ona əl uzatdı. Ağaşamil onun əlini sıxdısa da, bir az gec tanıdı. Cəmi iki dəfə, hansısa məclislərdə görmüşdü onu.

- Sağ ol, oğlum, - dedi, - babatam.

Həkim stolun birini çarpayıya yaxın çəkib:

- Əyləşin, Əli müəllim! - dedi və üzünü xəstəsinə tutdu. - Hə, ağsaqqal, özünü necə hiss edirsən? Hazırsanmı, çıxmağa?

- Çox sağ ol, həkim, Allah balalarını saxlasın!

Stulda əyləşən Mazanov üzrxahlıq etmək istədi:

- Nihatın başına gələni eşidəndə xaricdə idim. Gələndən sonra o biriləri də eşitdim, çox pis oldum. Həm də eşitdim xəstə yatırsınız. Gəldim, həkim dedi bu gün çıxırsınız...

Ağaşamil də, Fatimə də Mazanovun, nədənsə, özünü itirdiyini hiss etdilər. Amma bunu hərəsi başqa tərəflərə yozdular.

- Bu kimdir? - Fatimə Cəhalənin qulağına pıçıldadı.

- Papamın dostudur. - Cəhalə astadan dilləndi. - Rəhmətlik Nihatın işlədiyi bankın sahibi. Gəl, çıxaq dəhlizə, söhbətlərini eləsinlər.

Dəhlizə çıxıb oturacaqda əyləşdilər. Bir dəqiqə keçməmiş, Əli Mazanov da çıxıb getdi. Palatadan



downloaded from KitabYurdu.org

çıxarkən, Cəhaləyə yalnız ani bir nəzər saldı.

O hələ dəhlizin başında olanda Xanəli ilə oğlu gəldilər. Cəhalə də, Fatimə də qalxıb Fətəlini qucaqladılar və uşaq atasının dalınca palataya girdi.

- Ölürəm də, bundan ötrü. - Cəhalə dedi. - Elə istəyirəm ki, bunun kimi bir qəşəng, cəld, nadinc oğlum olsun...

- Olar, Allah qoysa! - Fatimə onu bir qolu ilə qucaqladı. - Nə yaşınız var ki?!

Cəhalə, az qaldı desin ki, Səxavətə qalsa, heç inanma olsun... Amma demədi. Qorxdu ki, qızın xətrinə dəyər. Əvəzində isə başqa söz çıxdı ağzından:

- Ələmdarı tez-tez görürdün universitetdə?

- Yox, bircə dəfə görmüşəm. - Fatimə cavab verdi. - Sonra bir dəfə akademiyanın parkında Şakiri gözləyirdim. İki oğlan mənə sataşmaq istədi.
Ələmdar təsadüfən gəlib çıxdı və cavabını verdi onların. Bir dəfə də o gün burda... Dedim də sənə, o əclaflar Şakirlə mənim qabağımızı kəsəndə də o xilas elədi bizi.

Bəlkə də Cəhalənin ürəyində, özündən asılı olmayaraq, Ələmdarı Fatiməyə qısqanmaq kimi bir hiss də baş qaldırmışdı. Bəlkə də... Bu bütün qadınlara xas olan ən adi bir xüsusiyyət idi. Amma Cəhalənin Fatiməni sorğu-suala tutmaqda əsas məqsədi, sadəcə olaraq, Ələmdardan danışmaq idi. Onun sevdiyi oğlanı Fatimənin də tanıdığını biləndə, əslində, sevinmişdi. Çox istəyirdi ki, Ələmdar barədə fikirlərini, ona qarşı olan hisslərini Fatimə ilə bölüşə bilsin. Amma onu da anlayırdı ki, bu baş tutan şey deyil. Çünki Səxavət Fatimənin qardaşı idi və Fatimə razı olmazdı ki, qardaşının arvadı başqasının fikriylə


downloaded from KitabYurdu.org

yaşasın. Qəribədir. Həm də gülməlidir... Məgər Fatimənin, ya lap elə Səxavətin razılığı ilə olmalıdır Cəhalənin nə fikirlə yaşaması? Yox, belə çıxırdı ki, Fatimə ilə lazım olan qədər yaxın ürək dostu deyildilər. Yoxsa açıb hər şeyi deyə bilərdi ona. Deyərdi ki, qardaşının arvadı olsam da, onu yox, Ələmdarı sevirəm. O da əgər həqiqi dost olsaydı, başa düşərdi Cəhaləni.

Belə bir vəziyyət heç xoşuna gəlmirdi Cəhalənin. Özü də istəmədən kimisə aldadırdı, kimdənsə, nəyisə gizlədirdi. Belə olmaq istəmirdi Cəhalə! Heç olmaq istəmirdi!

- Mən də, o gün özü dedi sənə, anasını müalicə edirəm. Arvadı o gətirir yanıma həmişə. Özü də yaxşı oğlandır. Sevirəm onu!

Bax, bu sözləri deyən əsl Cəhalə idi. Axır ki, ürəyindəkini dedi. Düzdür, bir az dolayı dedi, bir az zarafat kimi çıxdı sözü, amma əsas odur ki, dedi. Bu sözləri deyəndə azacıq qızarsa da ürəyində böyük bir yüngüllük hiss etdi birdən-birə.

Bu sözlərdən əlbəttə ki, Fatimə onun Ələmdarın xətrini çox istədiyini anladı. Amma eyni zamanda, «sevirəm» sözünü zarafat kimi qəbul edərək, özü də zarafatla cavab verdi:

- Ey, bura bax, özünü yığışdır ha, Səxavətə deyərəm!

- De də! - Cəhalə gülümsədi. - Səxavət müasir adamdır. Yəqin ki, məhəbbətin nə olduğunu da anlayır...

Onun üçün şirin və ləzzətli olan bu söhbəti yarımçıq kəsməyə məcbur oldu. Çünki Fatimənin
nişanlısı dəhlizə daxil olmuşdu və onlara tərəf gəlirdi.

Şakir çatan kimi hər ikisi ayağa qalxıb onunla



downloaded from KitabYurdu.org

görüşdülər. Amma oğlan, nədənsə, çox tutqun görünürdü.

- Ağaşamil dayı necədir? - bir qədər soyuq səslə soruşdu.

- Yaxşıdır, bir azdan çıxacaq. - Cəhalə dedi.

- Neçə gündür niyə səsin çıxmır? - Fatimə soruşdu.

- Vacib işim var idi. - Şakir cavab verdi və sonra əlavə etdi: - Bir dəqiqə olar səni?

- Hə... - Fatimənin ürəyinə nəsə damıbmış kimi, birdən-birə tutuldu. - Gəl görək, nə deyirsən...

Cəhalədən bir qədər aralandılar.

- Nə olub?

Hiss olunurdu ki, Şakir deyəcəyi sözləri dönə- dönə əzbərləyib:

- Fatimə, incimə məndən! - dedi. - Mən çox fikirləşdim, gördüm ki, bizimki tutmayacaq. Ailə qurandan sonra peşman olmaqdansa, indidən ayrılsaq yaxşıdır.

Fatimə özünü ələ almaq üçün dodağını bərk- bərk dişləməyə məcbur oldu:

- Niyə? Mənim üstümdə bir yumruq vurdular sənə, ona görə? Bəs danışanda elə danışırdın ki, mənim üçün ölümə də getməyə hazır idin?

Şakir əsəbi halda başını yellədi:

- Məsələ bir yumruqda deyil. Mənim heç gözüm su içmir sizin bu işlərdən! Ayrı-ayrı adamlarıq biz. Mən başqa cür ailədə tərbiyə almışam. Sizin nəsil düşmənçiliyinizə qarışmalı halım yoxdur. Hər dəfə biri qabağını kəsəcək, biri gəlib xilas edəcək... Kim idi onlar axı? Yaxşı, qabağımızı kəsənləri başa düşdük. Beləlin hələ çox olacaq, nə qədər ki qardaşların düşmən qazanmaqla məşğuldurlar. Bəs bizi qurtaran kim idi?



downloaded from KitabYurdu.org

Fatimə rişxəndlə:

- Nişanlımsan, - dedi. - Üç gündən sonra niyə gəlib soruşursan bunu?

Şakir səbirsizliklə başını bulayıb, öz barmağındakı nişan üzüyünü çıxartdı. Onu qıza uzadıb:

- Bu söhbətlərin heç bir mənası yoxdur daha. Biz bütün ailəmizlə bu qərara gəlmişik. Nihatın əclaf hərəkətinin cəzasını mən çəkən deyiləm! Ver mənim üzüyümü, çıxıb gedim!

Cəhalə söhbətin xoşagəlməz məcraya yönəldiyini hiss edib, onlara yaxınlaşdı:

- Nə olub, Şakir?

Onun əvəzinə Fatimə cavab verdi:

- Mənim qardaşlarımı öldürüblər, qorxur ki, bunu da öldürərlər!

Sonra birdən hövlənak halda barmağındakı üzüyü çıxarıb dəhlizə tolazladı:

- Götür, rədd ol, başına dəysin sənin üzüyün!

Bunu deyib əlləri ilə üzünü tutdu və hıçqıraraq bayaq əyləşdiyi oturacağa tərəf qaçdı. Duruxub qalan Şakir isə əlindəki üzüyü kimə verəcəyini, hara qoyacağını bilmirdi. Bunu görən Cəhalə üzüyü onun əlindən aldı və Şakir yerdəki üzüyü götürüb dəhlizin qapısına doğru gedəndə ardınca:

- Külü qoyum, sənin kişi başına! - dedi.

Palatadan çıxan Xanəli bacısını ağlayan görüb səbəbi ilə maraqlandı. Amma Fatimə cavab verəcək halda deyildi. İçindən qaynayıb daşan qəhər o qədər güclü idi ki, göz yaşlarının qabağını heç cür saxlaya bilmirdi.

Cəhalə, məcbur olub, hər şeyi danışdı qaynına.



downloaded from KitabYurdu.org

Məsələnin nə yerdə olduğunu öyrənən Xanəli bir müddət susub matdım-matdım Cəhalənin üzünə baxdı. Sonra isə bacısına tərəf dönüb qəzəblə dilləndi:

- Qoy cəhənnəm olub getsin! Onsuz da mənim əvvəldən xoşum gəlməmişdi ondan. Sən də sil gözünün yaşını, kişi xəbər tutsa, təzədən halı pisləşəcək.

Yetmiş dördüncü fəsil

Məltəm uşaqları məktəbə yola salandan sonra bulaşmış qab-qacağı yumuş, evi təmizləmiş, indi isə axşam yuyulmuş paltarları stolun üstünə töküb, ütüləməyə başlamışdı.

Adını bilmədiyi o gəncin, yəni Ələmdarın evinə gəlməsi və onunla etdiyi ciddi söhbət Məltəm üçün təsirsiz ötüşməmişdi. Ələmdar, sanki onu ayıldıb təzəcə düşdüyü bu yanlış yoldan qayıtmağını tələb etmişdi. Ondan sonra qəlbində bir peşmançılıq, bir xəcalət hissi yuva salmışdı. Amma yəqin ki, heç bir tələb, heç bir qorxu, heç bir peşmançılıq qadını düşdüyü yolundan qaytara bilməyəcəkdi. Əgər

gələcəyə inamı olmasaydı. Məsələ burasında idi ki, bu inamı da vermişdi Ələmdar ona.

O, Salehi sevdiyinə bir daha əmin olmuşdu. Anlamışdı ki, Salehi heç kəs əvəz etməyəcək onun üçün. Baş vermiş bu təlatümlü hadisələrdən sonra yenə də onu xatırlayır, onu arzulayır, onu özünün doğma adamı bilirdisə, deməli, Saleh onun taleyinə yazılmış bir yazı idi. Həm də təsadüfi bir yazı yox, əbədi, silinməz bir yazı...

Hətta ərinin görüşünə də getdi. Bir xeyli yemək, şirniyyat şeyləri bişirib aparmışdı. Salehlə görüşəndə, xəcalətdən ərinin üzünə baxa bilməmiş, başını dizlərinə


downloaded from KitabYurdu.org

əyib acı göz yaşları tökmüşdü.

Saleh, canından çox sevdiyi arvadını görməyinə sevinsə də, ona bir daha həbsxanaya gəlməməyi qəti tapşırmışdı. Demişdi ki, ondan narahat olmasın, vəziyyəti lap yaxşıdır daha. Demişdi ki, koloniyadakılar arasında nüfuzu olan Ələmdar adlı bir dostu onu tapşırıb burdakılara. Demişdi ki, yemək-içməkdən korluğu da yoxdur ondan sonra. Məltəm də adını ilk dəfə eşitdiyi həmin Ələmdar adlı adam üçün ürəyində dua eləmişdi. Hər kimdisə,
Allah ömrünü uzun eləsin, demişdi.

Sonra Gültayı, Eltayı soruşmuşdu. Uşaqlarının adını çəkəndə əməlli-başlı kövrəlmişdi Saleh. Qorxa- qorxa soruşmuşdu ki, onu arzulayırlarmı balaları. Ya bəlkə nifrət edirlər artıq ona?

Məltəm uşaqların onu yenə çox sevdiyini deyib ürək-dirək vermişdi Salehə. Adını bilmədiyi Ələmdar haqqında ərinə heç bir söz deməsə də, ondan aldığı inamdan Salehə də pay verərək, hər şeyin yaxşı
olacağını, haqqın-ədalətin öz yerini tutacağını demişdi.

Ələmdarla olan söhbətdən sonra Məltəm uşaqların dərsinə, tərbiyəsinə yenidən ciddi fikir verməyə başlamışdı. Axşamlar da Eltayı bağrına basıb yatırdı və ona elə gəlirdi ki, bu uşaqla olan yaxın təmas onu daha çox təmizləyir, daha çox özünə qaytarır.

O gündən sonra hamama daha tez-tez düşürdü. Soyunma otağında gözü güzgüdəki çılpaq əksinə sataşanda bədənində yenə də Əlifağanın, Nəcməddinin əllərinin təmasını duyurdu. Nə qədər unutmaq istəsə də, onlarla olduğu anların hər dəqiqəsi, hər söz, hər hərəkət beyninə


downloaded from KitabYurdu.org

həkk olub qalmışdı və unuda bilmirdi bunları. Ən çox Əlifağanın ilk dəfə ona sahib olduğu anı... Özü istəmədən, arzu etmədən olduğu üçün kəskin ağrıyla, sarsıntıyla başlanan o əlaqəni, özündən asılı olmayaraq, gündə bir neçə dəfə xatırlayır və hər dəfə həmin anları təzədən yaşayırdı elə bil... Və həmin anlar Məltəm üçün o qədər qeyri-adi olmuşdu ki, onda duyduğu siqarın və odekolonun tünd qoxuları indi də burnuna gəlirdi sanki...

Duşun altına girib, bərk-bərk sabunlanırdı. Bununla elə bil gözəl və təravətli əndamına tökülən su şırnağı sabunla birlikdə o yad təmasları da yuyub aparırdı. Amma... İçində qalan qəribə bir gizilti, onu ruhdan salan, incidən, kövrəldən bir hiss tamamilə yuyulub getmək bilmirdi ki, bilmirdi...

Üç-dörd gün əvvəl qonşu qadınlarla həyətdə söhbət edərkən, söz nədən düşmüşdüsə, kimdən danışırdılarsa, qadınlardan biri o birinə dedi:

- Mən onu-bunu bilmirəm, qadın ki kəbinsiz kiminləsə oldu, deməli, qəhbədir!

Bu söz Məltəmi necə tutmuşdusa, evə çıxıb, çarpayısına uzanmış, doyunca ağlamışdı... Bu nə demək idi? İnsanların ruhuna hopmuş bu hiss, bu anlam nədən yaranmışdı axı? Adam öldürən cəzasını çəkib qurtaran kimi cinayətkar adı üstündən götürülürdü, oğurluq edən bağışlanırdı, adamı söyən, döyən, şikəst edən bağışlanırdı, amma bədəni başqa kişinin bədəninə qovuşan qadın bağışlanmırdı ki, bağışlanmırdı. Məltəm bütün bunları heç cür anlaya bilmirdi və maraqlı burası idi ki, heç özü də özünü bağışlamırdı.

Yeri-göyü yaradan ulu Tanrı yaratdığı canlıların, yəni



downloaded from KitabYurdu.org

bitkilərin, heyvanların, insanların sonradan Tanrının müdaxiləsi olmadan törəyib artmaları və
beləliklə, nəsillərinin kəsilməməsi üçün onları iki cinsdə yaratmışdı. Erkək və dişi cinslərdə... Amma müdrik Tanrı, eyni zamanda, başa düşmüşdü ki, canlıların özünə qalsa, heç vaxt törəyib artmağa bir o qədər də həvəs göstərməyəcək və beləliklə də Yerdə həyat sönüb gedəcək. O, belə olanda yaratdığı əks cinslərin ruhlarına bir-birlərini cəzb etmək qüdrəti verdi. Necə ki, bu qüdrəti daha əvvəl yaratdığı və bütün kainatı təşkil edən gözəgörünməz zərrəciklərə vermişdi...

Tanrının əks cinslərin ruhlarına bəxş etdiyi həmin qüdrəti məhəbbət adlandırmaq olardı. Deməli, kişi ilə qadın arasında olan məhəbbət onların ruhlarının bir-birinə qovuşmaq istəyidir. Bəli, məhz istəyi! Çünki ruhlar heç vaxt bir-birlərinə qovuşmurlar...

Tanrının canlıların törəyib artması üçün onlara verdiyi cinsi əlaqə imkanı sonradan iki cür təzahür etməyə başladı. Bunun biri elə məhəbbətdən, yəni ruhları qovuşdurmaq istəyindən yaranan əlaqədir.

Kişi ilə qadın bir-birini görüb bəyənir, qəbul edir və nəhayət, sevir. Qovuşmaq üçün onlar bir-birlərinə yaxınlaşırlar və nəhayət, sarmaşırlar bir-birlərinə. Daha yaxın, daha yaxın, daha yaxın olmaq istəyirlər ruhlarını qovuşdurmaq üçün. Həmin anda başqa heç nə düşünmürlər və ruhlarını birləşdirib bir ruhda olmağa can atırlar. Bədənlər, aradan su keçməyəcək dərəcədə bir-birinə sıxılır. Amma yenə birləşmir ruhlar. Sanki bədənlər özləri mane olur daha yaxın olmağa. Bax həmin anda cinsi əlaqəyə ehtiyac yaranır və o baş verir. Hər iki tərəf


downloaded from KitabYurdu.org

ruhlarının nə dərəcədə yaxın olduğunu onda duyurlar və bu ruhları qovuşdurmaq üçün bir-birlərinə doğru daha həvəslə, daha ehtirasla can atırlar. Bu arzu, bu istək getdikcə çoxalmağa doğru gedir və həddini aşıb dəlilik dərəcəsinə çatır. Amma əslində, sonra məlum olur ki, mümkün iş deyil ruhların bir-birinə qovuşmağı. Yenə, nə yaxşı ki, müdrik Tanrı həmin, getdikcə artan çılğınlığın qabağını alıb, onu dayandırmaq üçün də tədbir görübmüş...

Əlaqənin təzahür etdiyi o biri mənadan isə bəlkə heç Tanrının da xəbəri yox imiş. Burada tərəflər bir- birinə qəlblərinə müvəqqəti hakim olmuş ehtiraslarını söndürmək üçün yaxınlaşırlar. Bu əlaqə insanların çoxu tərəfindən indi də qəbul olunmur və bunu Şeytanın yoldan çıxarması kimi anlayırlar.

Ən pisi o idi ki, bu cür əlaqə kişinin qadını məğlub etmək, onun mənliyini, qürurunu əzib təhqir
etmək vasitəsinə çevrilmişdi. Burada iştirak edən tərəflər eyni hüquqlu deyildi. Qadın məğlub idi, kişi qalib. Burada dünyada tanınan rəqabətlərin ən qəribəsi olan bir rəqabət gedirdi və onun qəribəliyi onda idi ki, məğlub tərəf həmişə əvvəldən məlum idi: Qadın! Və sonra qalib tərəf də, başqaları da ona istehza ilə, həqarətlə baxırdılar, ona müxtəlif adlar qoyurdular və bu adlar qadına qarşı ən populyar söyüş növü kimi işlədilirdi.

Məltəm Salehlə olan məhəbbət əlaqələrindən sonra, birinci dəfə Əlifağa ilə olmuşdu. Əlbəttə, onda o, məhəbbətdən doğan əlaqənin əvəzolunmaz həzzini duya bilməzdi, çünki o kişini sevmir, yalnız həmin vaxta qədər hörmət bəsləyirdi. Amma əvəzində o həzdən, o ləzzətdən qat-qat az olsa da, tamamilə yeni, tamamilə fərqli bir həzz


downloaded from KitabYurdu.org

duymuşdu
Məltəm. Bu həzz birində az, birində çox olmaqla ancaq qadınlar tərəfindən duyula bilərdi. Bu həzzi Tanrımı vermişdi qadınlara, Şeytanmı, məlum deyildi. Bu həzz ağrılı, acılı bir həzz idi. Bu həzz, adı nə qədər qəribə səslənsə də, məğlubiyyət həzzi idi!..

Birinci dəfə həddindən artıq qorxduğu üçün Məltəm bu həzzin yalnız işartısını duymuşdu. Bəlkə elə ona görə ikinci dəfə Əlifağa onu çox da çətinlik çəkmədən yoldan çıxartdı. Çünki Məltəm, özündən qətiyyən asılı olmadan, həmin həzzi bir də duymaq istəyirdi... O bunu ömrü boyu bilməyəcəkdi, bilsəydi də, buna çatmaq üçün ömrü boyu can atmayacaqdı. Amma zəifliyindən istifadə edib yoldan çıxartdılar onu...

Nə yaxşı ki, adını bilmədiyi o adam var imiş... Məltəm artıq görürdü ki, lap az vaxtın içində
ailəsindən necə soyuyubmuş. Uşaqlar da dərs oxumur, korlanmağa qarşı gedirdi daha. Gözəl, nümunəvi bir ailə dağılıb gedəcəkmiş, belə getsəydi... Nə yaxşı ki, o gəldi. Nə yaxşı ki, bacısının öz namusunu necə qoruduğunu danışdı, nə yaxşı ki, ona başqa kişilər kimi baxıb şəxsiyyətini alçaltmadı. Əksinə, düşdüyü bataqlıqdan çıxarmaq üçün əlini uzatdı ona...

Qapını döydülər. Məltəm əlindəki ütünü stolun üstünə qoyub qapını açmağa getdi. Əynində mixəyi rəngli kostyum olan gənc bir kişi pilləkənin ayağında dayanıb onu maraq və diqqətlə süzürdü.

- Sizə kim lazımdır, qardaş? - deyə titrək səslə soruşdu.
- Məltəm xanım sizsiniz?
- Bəli... Siz kimsiniz?


downloaded from KitabYurdu.org

- Mən polisdənəm! - kişi bir addım qabağa gəlib vəsiqəsini göstərdi. - Sizinlə söhbətim var. İcazə verin, evə keçim.

Bu, polis kapitanı Allahverdi Əbilov idi. O, iki həftədən bəri axtardığı qadını, nəhayət ki, ələ keçirdiyinə inana bilmirdi...

Kapitan Əbilov Bakıya bu gecə saat 11-də gəlib çıxmışdı. İki gün idi ki, İsmayıllı rayonunda idi. Ayın 23-də Qanturalın əsgərlik yoldaşının yaşadığı kənddən bir qədər aralı, meşədə mal otaran uşaq naməlum bir adama rast gəlir. Çiynində çanta olan bu saqqallı adamı görən uşaq ondan şübhələnir. Axşamüstü evə qayıdanda bunu kəndin sakinlərinə danışır. Xəbər kəndin icra nümayəndəsinə çatan kimi, o zəng vurub bu barədə rayon polis şöbəsinə məlumat verir. Dərhal kəndə bir neçə polis göndərirlər və meşədə axtarış başlanır. Amma o gecə heç kəsi tapa bilmirlər. Həmin adamın Qantural olmasını ehtimal edən polis şöbəsi bu barədə polkovnik Mirzəyevə də məlumat verir. Mirzəyev həmin gecə kapitan Əbilova zəng vurub səhər tezdən İsmayıllıya getməyi tapşırdı. Mayın 24-ü səhər rayona gedən Allahverdi iki gün rayon polisinə qoşulub dağda-daşda həmin adamı axtarmışdı. Axır ki, həmin şəxs qonşu kəndlərin birinin yaxınlığında tapıldı və məlum oldu ki, bu Bakıdan gəlmiş bir rəssamdır. Rəssamın dediyinə görə dağları gəzməkdə məqsədi yeni mənzərə rəsmləri yaratmaq imiş...

Hə, Əbilov 24-ü günü rayona təzəcə çatmışdı ki, məktəb direktoru Təranə xanım Bakıdan onun cib telefonuna zəng vurub fotoşəklini onda qoyduğu qadının kimliyini müəyyənləşdirdiyini dedi.



downloaded from KitabYurdu.org

Amma daha geriyə qayıda bilməyən Əbilov direktordan onu gözləməsini xahiş etdi. Bu gecə yorğun halda Bakıya qayıdıb evə getmiş, səhər isə yuxudan durub yeməyini yeyən kimi özünü məktəbə çatdırmışdı. Təranə xanım Məltəmin adı və ünvanı yazılmış vərəqi kapitana verib demişdi:

- Bilmirəm bunu niyə axtarırsınız, amma müəllimimizin deməsinə görə çox ağıllı və mədəni bir qadındır. Düzdür, əri adam öldürmək üstündə həbsdə yatır, amma uşaqları da düzgün tərbiyə görmüş uşaqlardır.

Əbilov Məltəmin Salehin arvadı olduğunu eşidəndə çox təəccüblənmişdi. Direktora təşəkkürünü bildirib məktəbdən çıxmış, vaxt
itirmədən leytenant Etibar Nəsirova zəng vurub ona maşınıyla məktəbin qabağına gəlməyi tapşırmışdı. On beş dəqiqə sonra isə onun maşınına oturub birbaş buraya gəlmişdilər.

- Buyurun... - ev sahibəsi qapıdan kənara çəkilib könülsüz də olsa, kapitanı içəri dəvət etdi.

Əbilov içəri girib diqqətli baxışlarla otaqlara göz gəzdirdi. Evdə heç kəsin olmadığına əmin olandan sonra Məltəmə üz tutdu:

- Siz Həsənov Salehin həyat yoldaşısınız?
- Bəli. - Məltəm sakitcə dilləndi.
- Yanına gedib-gəlirsiniz?
- Bir dəfə getmişəm.

- Niyə bir dəfə? - Əbilov qadına sınayıcı bir nəzər yetirdi.

- Özü razı deyil getməyimə...
- Vəziyyəti necədir?



downloaded from KitabYurdu.org

- Pis deyil.

- Kömək edən varmı? - Aliahverdi bu sualı boş-boşuna vermirdi. O hələ də belə hesab edirdi ki, Saleh həbsdə kiminsə əvəzinə yatır. - Maddi köməyi nəzərdə tuturam. Ümumiyyətlə, sizi kim dolandırır?

- Heç kim...

Kapitan Əbilov keçib stolun arxasında əyləşdi.

O bilirdi ki, bu qadını tutub polis idarəsinə aparmaqla rəisinə əla sürpriz edəcəkdi. Amma tələsmir, onu maraqlandıran bəzi şeyləri elə buradaca, sakitlikdə öyrənmək istəyirdi. Bu qadın, onun fikrincə, çox gözəl olmaqla bərabər, həm də ağıllı qadına oxşayırdı. Bəs bunu «Çəməndağ» kafesinə,

Qantural kimi bir cinayətkarla eyni süfrə başına aparıb çıxaran səbəb nə olmuşdu, görəsən?..

Kapitanın birdən ağlına gəldi ki, bu qadını necə olub polis idarəsində görməyib. Salehin işi ilə əlaqədar bu da danışdırılmışdı axı...

- Saleh tutulandan sonra polisdə olmusunuz? - deyə soruşdu.

- Bəli. İki dəfə...

- Sizi kim danışdırıb? Mayor Qismətov?

- Əvvəl Canəli adında mayor, sonra müstəntiq. Bu anda Məltəmin stolun üstünə qoyduğu cib

telefonu səsləndi. Qadın yaxınlaşıb telefonu götürdü. Ekranda görünən nömrə tanış deyildi. Qeyri-ixtiyari olaraq, telefonu açıb qulağına apardı:

- Alo!... Eşidirəm.

Bir anlıq ləngimədən sonra təmkinlə danışan kişi səsi gəldi və Məltəm bu səsi eşidib, həyəcanlandı.



downloaded from KitabYurdu.org

- Yanında polis işçisi var? - həmin səs soruşdu.

- Bəli... - Məltəm cavab verib, gözucu Əbilova baxdı. Bu zaman kapitanın da diqqəti onda idi.

- Çalış ki, ona heç bir sirr verməyəsən! - səs davam etdi. - Əgər səni polis idarəsinə aparmaq istəsə, onu evdə bir qədər yubat. Həyət qapısından çıxanda ondan qabağa düşməyə cəhd et və qapının ağzında dayanmış taksiyə min! Dediklərimə mütləq əməl et, yoxsa sənin işin çox pis olacaq. Soruşsa, zəng vuran uşaqların müəlliməsidir.

Zəng vuran danışığını bitirib, telefonu qapadı. Məltəm çaşqın halda kapitana baxdı.

- Kim idi? - Əbilov soruşdu.

- Heç... - Məltəm bir anlıq karıxıb cavab fikirləşdi. - Uşaqların müəlliməsi idi. Məktəbə çağırır məni...

- Uşaqlardan hansının müəlliməsidir?

- Eltayın. - Məltəm bu dəfə çox düşünmədən cavab verdi. Çünki Eltayın müəllimәsi, doğrudan da, onunla hərdən telefon əlaqəsi saxlayırdı.

- Telefonu verin! - Şübhəli baxışlarla Məltəmi süzən kapitan əlini irəli uzadıb əmr etdi.

- Neynirsiniz telefonu? - qadın ona etiraz etmək üçün cəsarətsiz səslə dilləndi.

- Zəng vuracam, görək doğrudanmı müəllimə idi bu?

-Axı nömrəsini yad kişiyə verməyimə acığı tutacaq?! - Məltəmin həyəcanı getdikcə artır, yanaqlarına qızartı gəlirdi.

- Dedim ki, verin telefonu! - Əbilov bu dəfə daha ciddi səslə əmr etdi.

Məltəm, daha başqa çarəsi qalmadığı üçün, telefonu verdi. Əbilov indicə zəng gəlmiş nömrəni ekrana gətirib



downloaded from KitabYurdu.org

müvafiq düyməni basdı. O biri tərəfdə telefonu bir qədər gec açdılar və Əbilov məlahətli qadın səsi eşitdi:

- Bəli?

- Bağışlayın, siz Eltayın müəllimləsisiniz? - kapitan soruşdu.

- Bəli. - səs cavab verdi. - Siz Eltayın nəyisiniz?

- Dayısıyam, - Əbilov dedi. - İstədim öyrənim görək anasının məktəbə gəlməyi vacibdirmi? Nəsə olub?

- Daha nə olacaq?! - qadın məzəmmətlə dilləndi. - Nə verdiyim tapşırıqları yerinə yetirir, nə də imkan vermir dərs keçməyə!

- Yaxşı, xanım, iki-üç gün qalıb dərslərin qurtarmağına, birtəhər yola verin. Anasının indi vacib işi var, sonra gələr. Sağ olun!

Kapitan Əbilov bunu deyib, telefonu qapadı və sonra isə söndürüb Məltəmə uzatdı:

- Müəllimə yaman odlu danışırdı. Deyəsən, uşağınız bezdirib onu.

Heç nə başa düşməyən Məltəm heyrətlə çiynini çəkdi.

Bu vaxt öz «Jiquli»sini həyət qapısının qarşısında saxlamış, əynində polis forması olan leytenant Nəsirov sükanın arxasında oturub açıq qapıdan həyətə göz qoyur, kapitan Əbilovu gözləyirdi. Dörd ailə yaşayan uzun həyətdə sakitlik idi və heç kəs gözə dəymirdi.

Dar küçədən hərdənbir maşın keçir, səkilərdə tək-tək adamlar hərəkət edirdi. Küçənin o biri tərəfində, Məltəmgilin yaşadığı həyətlə üzbəüz həyətin qapısı yanında köhnə bir «Moskviç» dayanmışdı. Maşının açıq yük yerinə xeyli alma yığılmışdı. Orta boylu, üzünü tük basmış, gözlərindən sanki cin tökülən cavan oğlan səkiyə



downloaded from KitabYurdu.org

qoyduğu sınıq-salxaq stulun üstündə oturub müştəri gözləyirdi.

Leytenant Nəsirov boylanıb, sağdakı qapının pəncərəsindən oğlanı səslədi:

- Ə, bura gəi görüm!

Almasatan küçəni keçib, sükan tərəfdən leytenanta yaxınlaşdı:

- Bəli, rəis, mənə görə qulluğun?

Nəsirov onun enli kepkasına, əzik-üzük köynəyinə baxıb:

- Adın nədi ə? - deyə soruşdu.
- Mirsəməndər.
- Pah! Nə uzun oldu, əl? Seyidsən?
- Həri! Lap ağırından! - oğlan fəxrlə cavab verdi.
- Alma satmağa yer tapmırsan? Burdan heç adam-insan keçmir axı?!
- Rəis, Allah məhlədəkilərin cibinə bərəkət versin, onlar bəsimdi.
- Səməndər!
- Mirsəməndər, rəis! - oğlan düzəliş verdi.
- Yaxşı, olsun Mirsəməndər! - Nəsirov güldü. - Get o almalarından bir dənə yaxşısını gətir, dadına baxım!
- Hamısı yaxşıdı rəis, Quba almasıdı, özü də İrandan gətiriblər.

Oğlan bunu deyib «Moskviç»in yanına qaçdı və iki dənə alma götürərək, gətirib leytenanta verdi:

- Birini də yoldaşına verərsən, rəis!
- Sağ ol! - Etibar almaları alıb yanına qoydu.

Elə bu dəm üstünə «Taksi» nişanı qoyulmuş bir «Volsvagen» asta-asta gəlib, öz arxasını «Jiquli»nin



downloaded from KitabYurdu.org

arxasına yaxınlaşdıraraq dayandı. Dolu bədənli sürücü qapını açıb maşından düşdü. Bir qədər ətrafa boylanıb, Nəsirova yaxınlaşdı:

- Bacıoğlu, zəhmət olmazsa, bir-iki metr qabağa get, mən qapının ağzına yaxınlaşım. Maşına soyuducu qoyacaqlar.

Etibar, bəlkə özündən də bir-iki yaş cavan olan bu pəhləvan cüssəli sürücüyə istehza ilə baxıb:

- Baş üstə, dayı! - dedi və maşını işə salıb bir qədər qabağa sürdü.

Sürücü:

- Çox sağ ol, bacıoğlu! - deyib maşınına oturdu. Arxaya sürüb həyət qapısının qabağında saxladı. Sonra təzədən yerə enib maşının arxasına keçdi. Yük yerini açıb açıq qoydu. Əyilib maşının təkərlərinə göz gəzdirdi.

Bu zaman almasatan oğlan əllərində dörd-beş alma, yenə də Nəsirova yaxınlaşdı:

- Rəis, bunu da evdə uşaqlara verərsən!

Nəsirov almaları alıb, oğlana təşəkkür etdi:

- Çox sağ ol, Səməndər!

- Mirsəməndər, rəis! - oğlan yenə onun səhvini düzəltdi.

- Yaxşı, yaxşı Mirsəməndər olsun! Keç günahımızdan.

Almasatan qayıdıb, yenidən öz stulunda oturdu. Taksinin sürücüsü isə maşının həyətə tərəfki arxa qapısını açıq qoyub, sonra öz yerinə keçdi və boylanıb maşının içindən həyətə göz qoymağa başladı...

Bu zaman evdə, stolun arxasında oturmuş kapitan Əbilov, nə düşündüsə, baxışlarını kəskin hərəkətlə Məltəmin üzünə dikdi:


downloaded from KitabYurdu.org

- Deyirsiniz, sizi Canəli danışdırmışdı polisdə?

- Bəli. - Ayaq üstə dayanıb, sorğu-sualın nə vaxt bitəcəyini gözləyən Məltəm cavab verdi.

Kapitan fikirləşdi ki, rəis Məltəmin şəklini ona verəndə Qismətov da kabinetdə idi. Mirzəyev şəklin birini də ona verdi. Bəs onda Canəli niyə bu qadını tanıdığını gizlətdi?..

- Sizi neçə dəfə danışdırıb o? - deyə sual verdi.

- Bir dəfə... İdarədə...

- Bəs sonra? Sonra sizinlə görüşüb?

Məltəm çaşıb qalmışdı. Bilmirdi bu suala necə cavab versin.

- Sualımı eşitmədiniz? - Əbilov bir qədər hökmlə dilləndi.

- Buraya gəlmişdi... - Məltəm ağır-ağır dilləndi.

- Niyə?

Qadının dodaqları qurumuşdu. Elə boğazı da. Əgər bu kapitan onunla burada belə danışırsa, gör polis idarəsinə aparsa, necə danışacaq. Məltəm bu saat yaman su içmək istəyirdi. Ancaq Əbilovun ona su təklif etmək heç yadına da düşmürdü. Fikirlər beynində bir-birini qovmağa başlamışdı.

“Canəlinin bu qadın haqqında başqa fikri varmış. Hə, ondan çıxardı belə şeylər... Ancaq... Polisdə hamı belə hesab etdi ki, Qantural onu öz atasını, qardaşını incitdiyinə, təhqir etdiyinə görə öldürdü. Ancaq, iş başqa cür də ola bilər. Ola bilər ki, bu qadının Qanturalla əlaqəsi var. Hələ bəlkə yerini də bilir”.

- Siz aprelin 23-də «Çəməndağ» kafesində olmusunuz. Sizinlə bir yerdə süfrə arxasında oturanlar kimlər olub?


downloaded from KitabYurdu.org

Kapitanın qəfil və gözlənilməz sualından diksinən Məltəm özünü itirdi:

- Mən orada olmamışam!

- Olmusunuz! - Əbilov qadına kinayə ilə baxıb başını buladı. - Bunu sübut edəcəm sizə. Oradakı süfrə başında sizdən başqa bir rus qadın və azı üç kişi olub. Məni ən çox sizin yanınızda əyləşən eynəkli kişi maraqlandırır. Kim idi o?

- Mən o kafedə olmamışam! - Məitəm səbirsizliklə başını silkələdi.

Bunu görən kapitan Əbilov ayağa qalxdı:

- Məitəm xanım, siz mənimlə polis idarəsinə getməlisiniz. Xahiş edirəm, hazırlaşın, gedək!

- Axı niyə? - Məitəm narahatlıq göstərdi.

- Siz gözəl qadınsınız. - Allahverdi bir an susub, davam etdi. - Ev xanımısınız. İstəməzdim sizinlə başqa cür rəftar etsinlər. Ancaq görürəm, başqa cür mümkün deyil. Siz danışmaq istəmirsiniz.

- Axı mən nə etmişəm?

- Siz çox şey etmisiniz! - Əbilov hökmlə dedi. - Geyinin gedək! Rəis indi məni gözləyir.

Məltəm daha etiraz etmək istəməyib, qonşu otağa keçdi və qapını içəridən bağladı. Başına nələr gələcəyini bilmədiyi üçün həyəcanlanır, bu həyəcanı boğmaq, özünü ələ almaq üçün incə dodaqlarını gəmirirdi.

Əynindəki, bir neçə yerdən süzülmüş, qara kalqotkasım çıxarıb, açıq qəhvəyi rəngli yenisini geyindi. Sonra xalatını da soyunub çarpayının üstünə atdı. Şkafdan göy rəngli yubkasını və həmin rəngdə olan nazik koftasını götürüb geyindi. Güzgüyə baxıb, üz-gözünə, saçlarına tələsik əl


downloaded from KitabYurdu.org

gəzdirdi. Ən vacib şeylərini çantasına yığıb götürdü. Sonra qapını açıb yenidən kapitanın yanına qayıdaraq, tərəddüdlə dedi:

- Uşaqlar məktəbdədir. Gəlib həyətdə qalacaqlar...

- Açarı qonşuya verərsiniz! - deyən Əbilov evdən çıxdı və pilləkənin qarşısında dayanıb Məltəmi gözləməyə başladı.

Məltəm bilirdi ki, uşaqlar gəlib analarını evdə görməyəndə çox narahat olacaq. Bir vərəqə nəsə yazıb, stolun üstünə qoymaq istədi. Amma nə yazacağını da bilmirdi heç...

Evdən çıxıb, qapını bağladı. Qonşu qadını səsləyib, açarı ona verdi və tələsik addımlarla həyət qapısına doğru addımladı. Onun arxasınca gedən Əbilov bu qadının polisdə danışdırılması ilə bəzi qaranlıq məsələlərin işıqlanacağına qəti əmin idi.

Həyət qapısından çıxan Məltəmin diqqətini düz qapının ağzında dayanmış maşın cəlb etdi. Onun
çıxdığını görən sürücü artıq mühərriki işə salmışdı. Bircə anlıq ətrafına boylanan qadın, daha tərəddüd etmədən, açıq qapıdan maşına minərək qapını çırpdı və elə həmin anda da «Volsvagen» yerindən götürüldü.

Bunlar kapitan Əbilovun gözü qarşısında baş vermişdi. O, işi başa düşən kimi yüyürüb Etibarın maşınına oturdu və çığıraraq əmr etdi:

- Tez ol, gözdən qoyma onu!

Nəsirov maşını döndərib, artıq qarşıdakı tini burulmuş taksinin dalınca sürdü. Amma heç iyirmi metr getməmişdi ki, maşın dayandı və Etibar düşüb maşının arxasına keçdi. Arxadakı təkərlərdən biri bıçaqla deşildiyi üçün tamamilə



downloaded from KitabYurdu.org

boşalmışdı...

Təkərin boşaldığını kapitana bildirəndə, o da maşından düşdü. «Volsvagen»in getdiyi səmtə
qəzəblə baxıb leytenanta tərəf döndü:

- Biz yenə ehtiyatsızlıq etdik, Nəsirov! Bu qadın bizim düşündüyümüzdən də əhəmiyyətli şahid imiş...

Təəssüflə başını bulayıb, pərt halda arxaya baxan Nəsirov birdən çığırıb əlini hirslə maşına vurdu:

- Almasatan!

Almasatan oğlan öz köhnə «Moskviç»i ilə birlikdə yoxa çıxmışdı. Ondan nişanə olaraq, oturduğu sınıq-salxaq stul qalmışdı ki, o da yəqin ki, yaxın həyətin sakinlərinə məxsus idi. Əbilov həmin həyətdən küçəyə çıxan kişini əli ilə yaxına çağırdı:

- A kişi, burada alma satan o oğlan kim idi?

Kişi dönüb baxanda maşını yerində görmədi və
təəccüblə çiynini çəkdi:

-Vallah, cənab kapitan, məhəllədə heç kəs tanımırdı onu. Bir həftədən bir az artıq olardı ki, burda alma satırdı. Bir onu bilirəm ki, adı Mirsəməndər idi. Özü də, deyəsən, Qubadan gəlmişdi.

Kapitan Əbilov Etibardan bir siqaret alıb yandırdı və özünü bir qədər ələ alıb leytenanta əmr etdi:

- Mən bir taksi tutub idarəyə gedəcəyəm. Sən isə təkəri dəyiş, sür get məktəbdən bu qadının uşaqlarını götür, gəl ora!

- Hansı məktəbdən? - Etibar fikirli halda soruşdu.

- Bu saat hansı məktəbdən gəldik bura?! - kapitan səbirsizliklə dilləndi. - Cəld ol! Mən
göstərəcəm onlara, mənimlə oyun oynamaq nə deməkdir!


downloaded from KitabYurdu.org

Bu vaxt köhnə Bakı məhəllələrinin dar və dolambac küçələri ilə hərəkət edən «Volsvagen»in sürücüsü maşını xəlvət bir küçədə, uçuq binanın yanında dayanmış «Mersedes»in arxasında saxladı və geri çevrilib Məltəmə baxaraq:

- Xanım, xahiş edirəm, düşün, o maşına əyləşin! - dedi.

Ətrafında nələr baş verdiyini tam anlamayan Məltəm heç bir söz demədən maşından düşdü və qabağa gedib onun üçün açılmış arxa qapıdan «Mersedes»ə oturdu.

«Mersedes» yerindən tərpənib gözdən itən kimi «Volsvagen»in sürücüsü taksi nişanını və nömrələri açıb maşının yük yerinə atdı. Oradan götürdüyü başqa nömrələri maşına vurub sükanın arxasına keçdi. Arxayın bir hərəkətlə maşını işə saldı və «Volsvagen» köhnə Bakı məhəllələrindən uzaqlaşıb, şəhərin gur küçələrində hərəkət edən maşınlara qarışdı.

Yetmiş beşinci fəsil

Ələkbər polis idarəsinə çağırılanda elə düşünmüşdü ki, yenə də ondan qardaşı Qanturalın yerini soruşacaqlar. Hər dəfə bu idarənin həyətinə ayaq basanda ürəyi sızıldayır, əlləri əsirdi. Bezmişdi daha bu sorğu-suallardan. Eyni bir sualı neçə dəfə verərdilər adama? Bunlara deyən gərəkdi ki, balam, cinayəti eləyən Qantural deyil?! Axtarın da, axtarın tapın, basın türməyə, canı çıxsın, çəksin cəzasını! Daha burada Ələkbər yazığın nə günahı var? O nə bilsin, harada gizlənib, kimin qoltuğuna sığınıb qardaşı? Qantural nə vaxt qardaşının məsləhəti ilə iş görmüşdü ki, indi də görsün?..

Ancaq sən demə, onu buraya başqa işə görə çağırıblarmış. Fatimənin keçmiş nişanlısı Şakir dörd gün



downloaded from KitabYurdu.org

əvvəl xəstəxanadan çıxarkən qabaqlarını kəsib onu döydüklərinə görə Ələkbərgildən şikayət ərizəsi veribmiş...

Onu, nəyə görəsə, birbaşa idarə rəisinin kabinetinə apardılar. Polkovnik Mirzəyev kabinetdə tək idi. Ələkbərə oturmaq üçün stul göstərib, bir müddət heç nə demədən onun son günlər arıqlayıb dərisi çəkilmiş sifətinə, çuxura düşmüş gözlərinə, yarıdan çoxu ağarmış saçlarına baxdı. Sonra isə sakit, lakin həm də ciddi səslə:

- Nə üçün çağrılmağım deyiblər sənə? - deyə soruşdu.

Növbətçi otağında ayaqüstü başa salmışdılar onu. Odur ki, başını aşağı dikib, astadan:

- Bəli... - dedi.

- Qardaşını hələ tutub damlamamışıq, bu yandan da sən başlamısan? - rəis, nədənsə, sakit danışırdı. - Günahsız adamın qabağını kəsib döyürsünüz, nişanlısını küçədə sürüyürsünüz?! Sənin qardaşın onlardan üçünü öldürüb. Yenə onlar intiqam almaq həvəsinə düşsələr, başa düşmək olar. Sən nə istəyirsən? Niyə kişiyə yaraşmayan namussuz hərəkət eləyirsən? Sənin arvadına, bacına sataşsalar, küçədə tutub maşına bassalar, xoşun gələr?

- Başına dönüm, rəis! - Ələkbər kövrəlmiş halda danışmağa başladı. - Mən heç vaxt elə iş tutmazdım. Bizim nəslimizdə də heç vaxt olmayıb belə şey... Amma Xanəli bir gün qabaq mənim bacımı qaçırmışdı. Demişdi ki, Qanturalı tapıb verməsək, öldürəcək onu. Mən də bilmirəm axı onun yerini, hardan tapaydım?.. Başqa çarə görmədiyimə görə, mən də onun bacısını qaçırmaq istədim ki, öz bacımla dəyişim... Ancaq alınmadı. Tanımadığımız, küçədən keçən



downloaded from KitabYurdu.org

bir adam gəlib xilas etdi onu. Hələ ən çox ziyan çəkən də biz olduq o gün...

- Bəs niyə bizə xəbər vermədin bacın qaçırılanda? - rəis acıqlı səslə soruşdu. - Sən özünü kim hesab edirsən ki, adam oğurlayırsan, adam dəyişirsən?

- Qorxdum ki, sizə xəbər versəm öldürər bacımı...

- Pah! - Mirzəyev əlini stola vurub səsini qaldırdı. - Mafiya düzəldiblər mənim üçün, köpək uşağı! Bura sizin üçün nə İtaliya deyil, nə də
Amerika! Bura Azərbaycandır. Sizin ciyərinizi ağzınızdan çıxartdıraram!

- Rəis, mən qələt eləyərəm, elə şey eləmərəm. O da bir işdir, özüm də peşman oldum sonra... Bacım da ertəsi gün təzədən gəlib çıxdı. Xanəlinin oğlu xilas edibmiş onu gizlədildiyi yerdən.

- Kim olub bu Şakiri döyən?

- Dostumdu... Şiraslan... Amma döyməmişdi. Elə bir yumruq vurmuşdu. Sonra özü ondan pis hala düşdü...

- Bəs onları qurtaran o oğlan kim olub?

- Bilmirəm... Birinci dəfə idi görürdük onu. Vəhşi idi elə bil... Nə gəlməyindən xəbərimiz oldu, nə getməyindən... Şiraslanın sifətini pis hala saldı, xalam oğlunun da qolunu-qabırğasını sındırdı...

Ələkbər bunları deməzdi bəlkə də. Amma burda gördüyünü görmüşdü və həbs olunmaqdan qorxurdu.

- Nə cür adam idi o? - rəis maraqlandı.

- Belə, hündürboy, cavan adam idi. Əyninə qara kostyum geyinmişdi. Gözlərində də qara eynək...

- Səncə, Xanəlinin bacısı onu tanıyırdı?

- Deyəsən, hə... Çünki qız özü qaçıb girdi onun



downloaded from KitabYurdu.org

maşınına...

- Maşını hansından idi?

- «Volvo»... Rəngi də qaraya çalan yaşıl idi, deyəsən...

- Xanəlinin adamı olub yəqin... - polkovnik dedi və birdən sual verdi: - Onun əsas şərti nə idi, bacını qaçıranda?

- Dedi ki, ya Qantural gəlib polisə təslim olsun, ya da onun yanına getsin...

Mirzəyev gülümsədi:

- Əslində, mən Xanəlini qınamıram bacını qaçırdığına görə. Sənin əclaf qardaşın onun heç bir günahı olmayan qardaşlarını öldürəndə, qaçaq düşüb, bu qədər polisin gecəsini gündüzünə qatanda, bunları fikirləşməli idi.

Sonra birdən ciddiləşib, sınayıcı baxışlarla Ələkbərin gözlərinə baxdı və soruşdu:

- Qardaşından bir səs-səmir yoxdur ki?

Ələkbər karıxıb qaldı. Bilmədi, bunu desin, ya gizli saxlasın. Amma polkovnik Mirzəyevin zəhmli baxışları, sanki onun lap içərilərinə nüfuz edirdi və rəis sözsüz ki, ondan əl çəkməyəcəkdi. Odur ki, danışmaq qərarına gəldi:

- O gün Əsmərə mesaj göndərib...

- Əsmər kimdir? - rəis, özündən asılı olmayaraq, səsini qaldırdı.

- Bacım... Məktəbdə imiş. Qanturaldan mesaj gəlib telefonuna. Yazıbmış ki, məktəbin yanındakı bağa gəlsin. Vacib sözü varmış... Bacım da ora gedəndə Xanəlinin adamları görüb, dalınca düşüblər. Sonra bacım Qanturalla görüşməmiş, bağa girən kimi qaçırıblar onu...

- Hansı nömrədən göndərib mesajı?



downloaded from KitabYurdu.org

- Öz nömrəsindən. Köhnə nömrədən... Sizə vermişik o nömrəni.

- Ondan sonra daha heç birinizlə danışmayıb ki, Qantural?

- Yox! - Ələkbər qətiyyətlə dilləndi. - Danışsaydı sizdən gizlətməzdim.

Mirzəyev əli ilə üzünü ovuşdurub, dərin fikrə getdi. Sanki Ələkbərin kabinetdə olduğunu da unutmuşdu. Hey fikirləşir, fikirləşirdi...

Kabinetdə yaranmış və Ələkbər üçün çox üzücü olan bu sükut, bəlkə də hələ çox sürəcəkdi. Amma bu zaman qapı döyüldü və kapitan Əbilov içəri daxil oldu.

Rəis onun qırımının yaxşı olmadığını anlasa da, bunu İsmayıllıya uğursuz səfəri və yorğunluğu ilə əlaqələndirdi:

- Gəl, Əbilov, gəl görək, İsmayıllıda neylədin?

Allahverdi Əbilov Ələkbərə narazı baxışlarla baxıb rəislə görüşdü və stolun arxasında əyləşdi. O, gecə Bakıya qayıdan kimi zəng vurub hər şeyi rəisinə danışmışdı. Buna görə də, Mirzəyev onu əlavə sorğu-suala tutmadan Qanturalın öz bacısına
mesaj göndərdiyini bildirdi. Amma əməliyyat müvəkkilinin belə bir maraqlı fakta o qədər də diqqətlə qulaq asmadığını görəndə, nəsə ciddi bir hadisənin baş verdiyini duydu. Söhbətini kəsib, üzünü Ələkbərə tutdu:

- Ələkbər, - dedi. - Mən səni bu saat içəri saldıra bilərəm. Amma yazığım gəlir sənə. Gör bir qardaşının ucbatından nə hala düşmüsən? Get, o qıza və nişanlısına elədiyin əclaf hərəkətə görə onlardan, əsas da o Şakirdi nədi, ondan üzr istə.
Qoy gəlib geri götürsün şikayətini. Özünüz də, qurtarın bu


downloaded from KitabYurdu.org

söz-söhbətləri! Qardaşın, nə qədər ki, tutulub cəzasını almayıb, gərək sənin dilin qısa olsun onların yanında! Dur get, bir də qıza-qadına qarşı belə əclaf hərəkət eləmə! Adamın iki gözünü bir deşikdən çıxardarlar! Dur get!

Ələkbər, qulaqlarına inanmırmış kimi, heyrətlə ayağa qalxıb, rəisə təşəkkür etdi və qapıya doğru gedəndə Mirzəyev onun arxasınca:

-Amma sabah bacını da götür, mənim yanıma gəl! - dedi.

Ələkbər:

- Baş üstə! - deyib kabinetdən çıxdı və rəis dərhal Əbilova tərəf döndü:

- Nə baş verib, Allahverdi, danış görək!

Kapitan Əbilov Məltəmin şəklini məktəb direktoruna verməsindən tutmuş, bu gün qadının naməlum adamlar tərəfindən qaçırılmağına qədər hər şeyi danışıb sözünü belə yekunlaşdırdı:

- Bura gələndə leytenant Nəsirova tapşırdım ki, həmin məktəbə gedib, qadının uşaqlarını şöbəyə gətirsin. Amma bayaq Nəsirov zəng vurub dedi ki, Məltəm özü məktəbə gedərək, uşaqlarını götürüb... Polkovnik Mirzəyev əsəbi halda köksünü ötürdü:

- Mən səndən heç gözləməzdim bunu, Əbilov! Birincisi, mənə demədən o evə nahaq getmisən. İkincisi də, adicə bir qadını tutub gətirə bilməmisən!

- Cənab polkovnik, - Əbilov təəssüflə başını yırğaladı. - Heç ağlıma gətirməzdim bunu. Mən istədim...

Rəis əsəbi halda əlini yelləyib onun sözünü kəsdi:

- Deməli, əvvəl o bədbəxt ofisiantı aradan götürdülər, indi də bunu...



downloaded from KitabYurdu.org

- Deyirsiniz ki, bu qadını da öldürmək istəyirlər? - Əbilov dalğın halda soruşdu.

Mirzəyev başını buladı:

- Elə etmək istəsəydilər, yəqin ki, uşaqlarını məktəbdən götürməzdilər. Amma yenə nə bilmək olar? Sən o qadına zəng vuran adamın telefon nömrəsini götürdün?

- Xeyr... - Əbilov başını aşağı dikdi. - Düşündüm ki, onsuz da qadının özünü buraya gətirəcəm...

- Bəs taksinin nömrəsini?

- İmkan olmadı...

- Çox təmiz iş görüblər! - polkovnik dilləndi. - Peşəkar adamlar imiş... Belə çıxır ki, almasatan göz qoyurmuş o qadının həyətinə girib-çıxanlara... Nə oldu adı?

- Məltəm... Həsənova Məltəm...

- Bu türk adıdır ki?

- Bəli. - Əbilov təsdiq etdi. - Az qala yadımdan çıxmışdı, o Salehin arvadıdır.

- Salehin? - rəis doğrudan da heyrətləndi. - Əlifağanın sürücüsünün?

- Bəli, rəis... - Əbilov dedi və bir an düşünüb əlavə etdi. - Cənab polkovnik, deyirəm, bəlkə onu qaçıranlar Əlifağa Sadıxovun adamları imiş?

- Boş-boş danışma, Allahverdi! - Mirzəyev kəskin hərəkətlə əlini yellədi. - Sadıxov indi ona da düşməni kimi baxır, bu öz yerində, amma Məltəmi qaçırtdıran onunla «Çəməndağ» kafesində eyni süfrədə oturan naməlum adamdır.

- Niyə axı?

- Qəribə sual verirsən. Salehin arvadı bizə çox şey


downloaded from KitabYurdu.org

deyə bilərdi. Süfrənin başında oturmuş həmin vacib şəxsin kimliyi barədə, həmin rus qadının
onunla əlaqəsi barədə. Ofisiantı niyə aradan götürdülər? Elə həmin səbəbə görə!

Kapitan Əbilov bədbinləşmiş halda başını yırğaladı:

- Cənab polkovnik, inanın, daha başımı itirmişəm. Bilmirəm nələr baş verir. Biz Qanturalı axtarırıq. Cinayət törədib qaçdığına görə... Bu yandan o şəkillər ortaya çıxdı. Həmin rus qadın hərdən yuxuma da girir. Mənə elə gəlir ki, burada çox güclü bir qrup, bəlkə də mafiya fəaliyyət göstərir. Amma öz namusunun intiqamını alan, sonra da manyaklaşmış qatilə çevrilən Canturalın bunlarla nə əlaqəsi var, baş aça bilmirəm. Yaxşı, tutaq ki, ofisiantı aradan götürənlər, Məltəmi qaçıranlar istəməyib ki, biz o adamı və şübhəli rus qonağını tanıyaq. Bəs Oantural mayor Gismətovu niyə
öldürdü? Təkcə, atasını, qardaşını incitdiyinə görəmi? Məltəmin deməyinə görə, Qismətov onun evinə gedibmiş. Siz ona qadının şəklini verəndən sonra... Belə anladım ki, hətta aralarında da nəsə olub. Vurulubmuş ona yəqin ki! Sonra da Qantural onu öldürdü! Belə çıxmırmı ki, Məltəmin Qanturalla da əlaqəsi var?!

- Canəli necə tapıb o qadını? - rəis təəccübləndi.

- Salehin işi ilə əlaqədar burada danışdırmışdı onu. Kim olduğunu yaxşı bilirdi.

- Əclaf! - Mirzəyev ölüb getmiş işçisinin qarasına deyindi. - Bir gözəl qadın görəndə az qalırdı dalından öpsün!

Arada yaranmış qanıqaralıq sükutla müşahidə olundu və bu sükutu birinci kapitan Əbilov pozdu:


downloaded from KitabYurdu.org

- Cənab polkovnik, mən belə düşünürəm ki, bizim apardığımız axtarış, belə getsə, bir nəticə verməyəcək. Bu iş milli təhlükəsizlik orqanı ilə birlikdə aparılmalıdır.

- Onlar bekar dayanmayıblar, Əbilov! - Mirzəyev əsəbi halda dilləndi. - Biz sənin tapdığın şəkilləri onlara verəndən bu işlə məşğuldurlar. Sən bu gün o qadını əldən buraxmasaydın, o, milli təhlükəsizlik idarəsinin də işinə yarayacaqdı. Hər halda, mən bugünkü hadisəni də onlara bildirəcəm. Ancaq yadında saxla, Qanturalın o cinayətkar qrupla əlaqəsi olsa da, olmasa da, özünün etdiyi cinayətlər göz qabağındadır. Onun haqqında cinayət işi açılıb, barəsində axtarış elan olunub və bu axtarışı aparmaq birinci növbədə bizə tapşırılıb. Biz Qanturalı tapmalıyıq!

Əbilov könülsüz halda ayağa qalxdı:

- Mən gedə bilərəmmi, cənab polkovnik?

- Get! - rəis əlini yellədi. - Get dincəl! Görürəm, yorğunsan!

Allahverdi kabinetdən çıxıb öz otağına getdi. Stolunun arxasında oturub başını əllərinin arasına aldı və fikirləşməyə başladı. Fikirləşməli məsələlər isə çox idi. Həddindən artıq çox!

## Yetmiş altıncı fəsil

Süd rəngli «Mersedes» Miraslanovun alman arxitekturası üslubunda yeni tikilmiş malikanəsinin qarşısında dayananda Cəhalə mühərriki söndürüb yanında əyləşmiş Ələmdara baxdı:

- Bu da bizim əməliyyatın sonu! Razı qaldın?

Ələmdar:

- Çox sağ ol, Cəhalə, səndən çox razıyam! - deyib yerə endi və arxa qapını açaraq Məltəmlə uşaqlarının maşından



downloaded from KitabYurdu.org

düşmələrinə kömək etdi.

Artıq on gündür ki, öz klubdakı işini köməkçisinə tapşırıb, köhnə məhəllədə alma satan və Ələmdarın göstərişi ilə Məltəmgilin həyətinə göz qoyan sambo qrupunun məşqçisi Tələt bir az əvvəl həyətə polis işçisinin daxil olduğunu görüb Ələmdara zəng vurmuşdu.

Baratovun göstərişinə baxmayaraq, Kobranın axtarışından heç cür geri çəkilmək istəməyən hərbi kəşfiyyatçı Məltəmin polis və ya digər orqanlar tərəfindən ələ keçirilib danışdırılmasını qətiyyən istəmirdi. O, düşünürdü ki, Məltəmdən hər hansı yollasa həmin gün «Çəməndağ» kafesində, süfrənin başında oturan adamın Əlifağa Sadıxov olduğunu öyrənəcəklər. Sonra isə, lap yəqin ki, Sadıxovu şübhəli şəxs kimi danışdıracaq, kafedə çəkilmiş fotoşəkilləri qarşısına qoyub, şübhəli rus qadınının kim olduğunu soruşacaqdılar. Bu isə o demək idi ki, qəddar olduğu qədər ayıq və hiyləgər olan Kobra duyuq salınacaqdı. Ondan sonra Kobranı Bakıda axtarıb tapmaq bəlkə də qeyri-mümkün olacaqdı ki, buna da Leopard razı ola bilməzdi. Ona, nəyin bahasına olursa olsun, Kobranı tapmaq lazım idi.

Buna görə də, Tələtdən məlumatı alan kimi, təcili olaraq, əməliyyat planı düşünüb, İlqarı yanına çağırdı. Həmin vaxt Cəhalə də kabinetdə idi. On dəqiqə olardı ki, onunla görüşə gəlmişdi. Heç hələ əməlli-başlı söhbət etməyə də imkan olmamışdı. Elə Cəhalənin yanındaca İlqara lazımi təlimat verdi və sonda harada görüşəcəklərini bildirib, onu yola saldı. Cəhaləyə isə məsələni belə anlatdı ki, həbsdə olan yaxın dostunun arvadından intiqam almaq istəyirlər və buna görə də onu aradan çıxarıb, gizlətmək


downloaded from KitabYurdu.org

lazımdır.

Sonra ağlına gəldi ki, Cəhalənin də bu işə köməyi dəyə bilər. Bunu qadına deyən kimi razılaşdı. Aşağı düşüb, Cəhalənin həyətdə dayanmış
maşınına mindilər. Ələmdar maşını birbaşa İlqarı gözləyəcəkləri yerə sürdürdü və elə yoldaca, telefonla danışmaq lazım gələrsə, nə deyəcəyini Cəhaləyə başa saldı...

Məltəm maşından düşüb, ətrafa ani nəzər yetirən kimi baxışlarını Ələmdarın üzünə dikdi.

Qorxu və həyəcanı hələ keçib getməsə də, bu baxışlarda yaxşı hər şey var idi: Minnətdarlıq, hörmət, istək, doğmalıq... Maşında olarkən Cəhalənin dilindən adını eşitmişdi Ələmdarın. Eşitmişdi və anlamışdı ki, bu Ələmdar elə Salehin dediyi Ələmdardır. Ərinin dostu, ona uzaqdan-uzağa həbsxanada da arxa dura bilən adam. Amma baş aça bilmirdi ki, kim idi bu Ələmdar! Kim idi ki, onun özünün, ailəsinin qeydinə bu qədər qalırdı. Məltəmin polis idarəsinə aparılmasına razı olmayıb, onu
qaçırmaq üçün bu boyda riskə gedirdi. Təkcə Salehin dostu olduğuna görəmi edirdi bunları? Ya, bədbəxt bacısı ilə tanış olduğuna və onun başına gələn faciəni unutmadığına görəmi?..

- Çox sağ olun, Ələmdar qardaş! - dedi. - Sizin bu yaxşılıqlarınızı ömrümüz boyu unutmayacağıq.
Nə mən, nə də Saleh...

Ələmdar əlini uzadıb, Eltayın başını sığalladı:

- Dəyməz! Mən nə lazımdırsa, onu edirəm. Siz keçən bu on gündə mənim dediklərimə əməl etdiniz, mən də verdiyim sözü yerinə yetirdim. Bundan sonra da sizi


downloaded from KitabYurdu.org

incitmələrinə imkan verməyəcəm.

- Bura kimin evidir? - Məltəm marağını gizlədə bilməyib soruşdu.

Ələmdar əlini, darvazanın zəngini çalıb, onun açılmasını gözləyən Cəhaləyə uzatdı:

- Əvvəl tanış olun, Cəhalə xanım mənim anamın həkimidir. Bura da onun atasının evidir. Amma atası özü, burada yaşamır.

Məltəm Cəhalənin gözəl üzünə, döşlərinin yarısına qədər açıq qalan ağappaq sinəsinə, çılpaq toppuş ayaqlarına baxıb öz həmişəki utancaq təbəssümü ilə gülümsədi. Amma bu zaman gözlərinin dərinliyində oynayan qısqanc qığılcımları Ələmdar duymadı. Bunu ancaq Cəhalə görə bilərdi və gördü də...

Eltay anasının ayaqlarını qucaqlayıb ona sığındı və Ələmdarın güclə eşidəcəyi səslə:

- Ana, bu əmi o gün bizə gələndir? - deyə soruşdu.

- Hə, odur, atanın dostudur. - Məltəm cavab verdi: - Həm də, rəhmətlik xalangilin tanışıdır...

- Biz niyə gəldik bura?

-Atanı tutduranlar bizdən də intiqam almaq istəyirlər. Ona görə də əmi bizi bura gətirdi. O pis adamları tutacaqlar, sonra biz də evimizə qayıdacağıq...

Ələmdar onun dediklərini eşitdi və əslində, xoşu gəldi onun düşünüb quraşdırdığı bəhanədən... Demək, Salehə də belə deyəcəkdi. Deyəcəkdi ki, Əlifağa sənə görə incitmək istəyirdi məni, Ələmdar qardaş köməyimizə çatdı. Axı hər halda uşaqlar nə vaxtsa bu gördüklərini atalarına deyə bilərdilər?! Onda Salehi şübhəyə salmamaq üçün ağlabatan bir şey tapıb demək lazım idi.


downloaded from KitabYurdu.org

Məltəm də, artıq, söz tapmışdı özünü təmizə çıxarmağa və Ələmdarın fikrincə, hər şeyi yoluna qoya biləcəkdi Salehlə... Ax, qadınlar, qadınlar!..
Nələr var imiş sizdə?! Ələmdar güclü məktəb keçmiş və püxtələşmiş hərbi kəşfiyyatçı, məxfi şöbənin bacarıqlı xəfiyyəsi olsa da, hiss edirdi ki, hiyləgərliyin bəzi incə məqamlarını qadınlardan öyrənmək lazımdır. Bax bu Məltəmin utancaq gözlərini, xəfif qızartı əskik olmayan yanaqlarını, ancaq təmiz məhəbbət istəyindən xəbər verən, çəkingən dodaqlarını, abırlı yerişini-duruşunu, geyimini görənlər deyə bilərdilərmi ki...

Lakin Ələmdar o qədər də qınamırdı Məltəmi. Bəlkə də ona görə ki, başına gələnləri sona qədər Salehdən gizlətməyi özü tapşırmışdı ona. Başqa yol da görmürdü Ələmdar. Qərara gəlmişdi ki, bu ailə dağılmamalıdır və deməli, dağılmayacaqdı da! Bu, ən azı, həmin bu günahsız uşaqların və bir də Salehin xoşbəxtliyi demək idi. Məltəm isə... Hər
halda o da düşəcəyi pozğunluq bataqlığından və pis ana kimi dözülməz bir adı daşımaqdan qurtulacaqdı...

Darvaza açıldı və onu açan gənc oğlan gələnləri görüb, sevindi:

- Xoş gəlmisiniz, Cəhalə xanım! Xoş gəlmisiniz, Ələmdar qardaş!

Bu Mehdi idi... Bəli, «Çəməndağ» kafesinin ofisiantı. Cəhalənin qardaşı Mirkəlama məxsus olan kafenin. Ancaq heç Mirkəlam da bilmirdi onun burada olduğunu. Təkcə Mirkəlam yox, heç kəs! Ələmdarla Cəhalədən başqa... Ələmdar dostları ilə birlikdə kafeyə gedib, Mehdini danışdırdığı günün axşamı heç kəsə bildirmədən, tək


downloaded from KitabYurdu.org

başına «Çəməndağ» kafesinin qarşısına getmiş, oranı nəzarət altında saxlayıb ofisiantın çıxmasını
gözləmişdi. Gecə saat 11-dən sonra bir iş yoldaşı ilə kafedən çıxıb evə getmək istəyən Mehdini qaçırıb kluba aparmış, gecəni orada saxlayıb, səhər Cəhalənin köməyi ilə burada yerləşdirmişdi. O, Cəhalə ilə söhbətlərinin birində eşitmişdi ki, atasının təzə tikilmiş, amma hələ tam istifadəyə verilməmiş villasına gözətçi lazımdır. Bunu yadına salan Ələmdar Mehdini etibarlı bir oğlan kimi Cəhaləyə təqdim etmiş, razılıq alandan sonra Mehdinin kirayə qaldığı evə gedərək, onun gənc həyat yoldaşını da buraya gətirmişdi. Ələmdar gənc ofisiantı başa salmışdı ki, onun həyatı təhlükə altındadır və bu təhlükə sovuşana qədər buradan heç yana çıxmamalı, heç bir tanışı ilə əlaqə saxlamamalıdır. Əslində isə Mehdini qaçırmağının səbəbi də elə təxminən Məltəminkiylə eyni idi. Yeri-yurdu, onsuz da, məlum olmayan Valeri Barsovun, yəni Kobranın duyuq salınmaması üçün görülürdü bu tədbirlər!

Ancaq deyəsən, bura Mehdinin xoşuna gəlmişdi. Xidmətçi heyəti üçün ayrıca tikilmiş və hər şəraitlə təchiz olunmuş otaqlarda yaşayırdı.
Düşdüyü vəziyyətdən razı qalması üz-gözündən də hiss olunurdu. Yaxına gəlib Ələmdarla görüşdü:

- Mənə görə qulluğun?!

Ələmdar Məltəmi ona göstərib:

- Bu xanım dostumun həyat yoldaşıdır. Bir neçə gün burada qalacaq. Necə lazımdır, qulluğunda durun!

- Baş üstə! - Mehdi bunu deyib, Məltəmə baxdı: - Buyurun içəri!

Məltəm dönüb məhzun baxışlarını Ələmdarın üzünə


downloaded from KitabYurdu.org

dikdi. Elə bii ayrılmaq istəmirdi ondan.

- Keçin! - Ələmdar əli ilə qapını göstərdi. - Cəhalə xanım məni iş yerinə qoyub, yenə qayıdacaq. Xırda-xuruşdan tutmuş, pal-paltara qədər nə ehtiyacınız olarsa, çəkinmədən ona deyin. Başqa heç kəslə əlaqə saxlamayın. Telefonunuzu da xahiş edirəm mənə verin. Mən sizin üçün təzə telefon alıb göndərənə qədər, bir problem çıxarsa, Mehdinin telefonu ilə mənə zəng vura bilərsiniz.

Məltəm cib telefonunu çantasından çıxarıb, Ələmdara uzatdı. Deyəsən, nəsə demək istəyirdi, amma Cəhaləyə baxıb susdu.

- Gedə bilərik? - Cəhalə mənalı baxışlarla Ələmdarı süzdü.

- Hə, gedək!

Ələmdar mehribanlıqla uşaqların başını sığallayıb, maşına oturdu. Sükanın arxasına keçən
Cəhalə maşını işə saldı və bir qədər gedəndən sonra dönüb, arxada oturmuş Ələmdara baxdı: -Amma yaman şeysən ha, Ələmdar!

- Nədi ki? - Ələmdar təəccübləndi.

- Məltəm xanım barədə deyirəm...

Ələmdar onun Məltəmin adını xüsusi vurğu ilə
deməsindən qısqandığını başa düşdü. Üz-gözünü turşudub:

- Yaxşı, Cəhalə, ayıbdır! - dedi. - Mənim ona heç bir başqa münasibətim yoxdur və ola da bilməz! O, dostumun arvadıdır!

- Nə deyirəm ki?.. - Cəhalə gülümsədi. - Dostunun arvadı ola bilər. Amma özü də çox cazibədardır... Xüsusilə də belindən aşağı lap sənin ürəyin istəyəndir. Enli və bir az


downloaded from KitabYurdu.org

yastı...

- Qurtar bu söhbəti, Cəhalə! - Ələmdar qaşqabağını salladı.

- Elə bilirsən, qısqanıram? - Cəhalə güldü. - Xeyr, qısqanıb-eləmirəm. Çünki onsuz da arxayınam ki, dünyanı gəzsən də məndən yaxşısını tapa bilməyəcəksən!

Ələmdar istər-istəməz Məltəmin bədənini gözü qarşısına gətirdi. Gör bu darmacalda necə vaxt tapıb onun əzalarını gözdən keçirmişdi Cəhalə!... Təklikdə olan ilk söhbətlərinin birində Cəhalə soruşmuşdu ki, qadınlarda ən gözəl bədən quruluşunu necə təsəvvür edirsən? Ələmdar da onun əl çəkmədiyini görüb, nəsə demişdi. Gör necə də hamısını yadında saxlayıb Cəhalə! Ən əsas da o yeri ki, o yer özündə bir az fərqli idi...

Ələmdar, özündən asılı olmayaraq, gülümsədi. Maraqlı burası idi ki, Cəhalə Ələmdarı qısqanırdı Məltəmə və istəyirdi ki, onu oğlanın gözündən salsın. Amma özü də bilmədən elə danışırdı ki, az qalırdı Ələmdarın Məltəmdə görə bilmədiyi yaxşı cəhətləri də ona göstərsin. Yəni qaş düzəltdiyi yerdə vurub gözü də çıxardırdı...

- Özü də beləsinə heç qısqanmaram səni! - Cəhalə davam etdi. - Nədir ki o?.. Düzdür, üz-gözü çox qəşəngdir... Heç fiqurasına da sözüm yoxdur... Amma...

Ələmdarı bu dəfə gülmək tutdu. Doğrudan da çox ürəyi təmiz qadın idi bu Cəhalə...

- Yaxşı, ammasını saxla, sonra deyərsən, - dedi. - Məni düşürt, xahiş edirəm, onlara baş çək. Gör nə çatışır, nə çatışmır. Evdən tələsik çıxıb. -
Əlini cibinə saldı. - Pul verim, nə lazım olsa, artıqlamasıyla al!



downloaded from KitabYurdu.org

- Pulunu özünə saxla! - Cəhalə incidi. - Qonaq mənimdir, hər problemini də özüm həll edərəm. Sən onu de görək, nə vaxt görüşürük? Bu gün də baş tutmadı görüşümüz...

- Niyə baş tutmadı? Səhərdən mənimləsən.

- Mən belə demirəm. Təklikdə. Otaqda...

- Yaxşı, sabah, ya birigün görüşüb söhbət edərik...

Ələmdar onu ürəkdən sevən bu qadının qəlbinə dəymək istəmirdi. Həm də bu gün ona bu qədər kömək edəndən sonra.

Amma Cəhalə də başa düşmürdü ki, Ələmdarın bu saat heç bir görüş-filan gözündə deyil. Onu indi maraqlandıran bircə şey var idisə o da Bakı kimi böyük şəhərin harasındasa, hansı künc- bucağındasa gizlənib, kim bilir, hansı təxribatla məşğul olan Kobranın tezliklə tapılması idi. Beynində ancaq və ancaq bu ad dolaşırdı onun: Kobra!

İdman klubunun yanında maşından düşüb Cəhalə ilə sağollaşanda da, həyətdə rastlaşdığı İlqarla görüşəndə də, pilləkəndə üz-üzə gəldiyi Orxanın hansısa sualına cavab verəndə də beynində bu ad səslənirdi: Kobra! Kobra! Kobra!

Bu zəhərli ilan mütləq tapılmalıydı! Həm də, mütləq, heç kim yox, Ələmdar özü tapmalıydı onu!

Amma necə tapaydı bu əclafı? Əziyyət çəkib onun Əlifağa Sadıxovla əlaqəsini ortaya çıxartmışdısa da onunla heç yerdə görüşmürdü bu hiyləgər tülkü! Başqa əlaqə də məlum deyildi. Necə tapmaq olardı onu, belə olan halda?..

Kabinetinə girəndə, həmişə olduğu kimi, gözü başının üstündə divardan asılmış iri rəsmə sataşdı. Sağ pəncəsini


downloaded from KitabYurdu.org

yuxarı qaldırmış qəzəbli leopard və qarşısında qıvrılıb onun üzərinə atılmağa hazırlaşan kobra ilanı... Bu rəsmi iki il əvvəl özü sifariş verib çəkdirmişdi...

Bir istədi ki, məxfi şöbəyə gedib, Baratovla görüşsün və axtarışın necə getdiyi ilə maraqlansın. Amma tez də fikrindən daşındı. Qoy özləri öz bildikləri kimi axtarsınlar Valeri Barsovu. Bəlkə də yaxşı oldu, məsuliyyəti götürdülər onun üzərindən. İndi Leopard özü öz düşməni olan Kobranı axtaracaqdı! Amma necə? Bax, bunu düşünmək lazım idi...

## Yetmiş yeddinci fəsil

Polis idarəsindən bir qədər arxayınlaşmış halda çıxan Ələkbər küçədə saxladığı taksisinə tərəf getmək istəyirdi ki, qara rəngli «Nissan» gəlib, demək olar ki, düz qarşısında dayandı və Xanəli iki nəfərlə maşından düşdü. Bunlar onun qoruyucuları Qulu ilə Ramiz idilər.

Ələkbər qərara gəlmişdi ki, Fatiməni də, Şakiri də görüb onlardan üzr istəsin. İndisə Xanəli ilə qəflətən rastlaşdığı üçün bir az özünü itirmişdi və bilmirdi bu məqsədlə ona yaxınlaşsın, ya yox. Amma onu görən kimi Xanəli özü yaxınlaşıb qabağına keçdi. Qanlı nəzərlərlə bir neçə an üzünə baxıb:

- Ələkbər, sən belə qudurmusan ki, mənim bacımın qabağını kəsirsən? - dedi.

Ələkbər baxışlarını rəqibinin qan-qan deyən gözlərindən çəkməsə də, aranı qızışdırmaq da istəmədi:

- Məni elə ona görə çağırmışdılar. Rəis dedi ki, get, üzr istə onlardan, bağışlasınlar...

- Nə bağışlamaq, ə?! - Xanəli əlini qaldırıb onun gözü qarşısında yellədi. - Get, bacıma əl atan o nadürüstün əlini



downloaded from KitabYurdu.org

kəs gətir, bağışlayım!

Ələkbər başını buladı:

- Xanəli, sənin bacına heç kəs əl atmayıb. Vallah, səhv çatdırıblar sənə. Mən ancaq istəyirdim ki, bacımla dəyişim onu.

- Ələkbər, mən onu-bunu bilmirəm! - Xanəli dişlərini qıcadı. - Siz oyun oynadınız mənimlə.
Qantural ki gəlmədi, qardaşlarımın qanını bir-bir sizdən alacam!

Bunu deyib Ələkbərdən aralandı və yanındakılarla birlikdə polis idarəsinə girdi. Ələkbər isə, sanki yerində quruyub qalmışdı. Bu nə demək idi, Xanəli onu belə hədələyirdi? Özü də düz polis idarəsinin qarşısında... Görəsən, niyə gəlib buraya? Ələkbərdən şikayətə? Bəs niyə belə gec?..

Fikirli halda öz maşınına minib, onu işə saldı. 20-30 metr getməmişdi ki, 35-40 yaşlarında arıq bir kişi ona əl elədi. Ələkbər bir istədi ki, maşını saxlamasın. Amma danışıb ürəyini boşaltmağa da adam axtarırdı bu saat. Maşın dayanan kimi kişi qapını açıb oturdu və gedəcəyi ünvanı dedi. Yola düşdülər.

Ələkbər söhbətə başlanğıc vermək üçün:

- Daha havalar istiləşir yavaş-yavaş... - dedi. Sərnişini qaraqabaq adam imiş. Ona cavab
olaraq, sadəcə:

- Elədir... - deyib susdu.

Ələkbər məcbur olub ürəyini birbaşa boşaltmaq istədi:

- Deyirəm, çox qəribə millətik biz. Bir-birimizin qanını tökməyə hərisik.

Sərnişin bu dəfə ancaq başını tərpətdi. Ələkbər də



downloaded from KitabYurdu.org

söhbətə körpü sala bilməyəcəyini görüb susdu. İndi xəyalında danışırdı kimlərləsə. Kimisə qınayırdı, kimisə müdafiə edirdi...

Xanəli onun bacısını qaçırtdı. Qanturala görə. Dedi, Qantural gəlsin, buraxım. Qantural gəlmədi. Hardan gəlsin, xəbər tuta bildi ki, gələ? Ələkbər də əvəzində Xanəlinin bacısını qaçırtmaq istədi.
Qoymadılar, mane oldular. Sonra Xanəlinin oğlu öz müəllimısini xilas elədi. Görəsən, o uşaq qurtarmasaydı neyləyəcəkdilər Əsmərə? Yəni doğrudanmı Xanəli qadına əl qaldıracaqdı?..

Ələkbərin xəbəri yox idi ki, Xanəli onun bacısı haqqında ölüm fərmanı verəndə nə vəziyyətdə idi. Nə də xəbəri yox idi ki, Səlahəddin gecə yarımçıq binanın yanında Fətəlini görüb, qadını onun xilas etdiyini atasına xəbər verəndə Xanəli öz oğlunu necə insafsızcasına döymüşdü...

Həmişə kasıbçılıqla çörəyini qazanan, amma sakit yaşayan Ələkbərin heç yuxusuna da girməzdi ki, belə dərdli, qorxulu, ağır günlər yaşayacaq. Evlərində də vəziyyət çox ağır idi bu saat. Bir adamın üzü gülmürdü. Gülmək nədi, quruyub
qurtarmışdı hamısı dərd çəkməkdən, qorxu keçirtməkdən...

Nədən başladı bütün bunlar axı? Hə, əmisi qızı və qardaşı arvadı sayılan Sənihədən. Qızıbmış, sən demə, itin doğduğu! Ələkbər buna başqa cür ad verə bilmirdi. Deməli, bu qadın qızmışdı ki, ərinin gec-tez toydan evə qayıdacağını bilə-bilə yad kişini gətirib yatağına salmışdı. Özü heç! Ölüb getdi, cəhənnəmə! Amma özündən sonra


downloaded from KitabYurdu.org

böyük bir nəsli həm öz-özünə düşmən etdi, həm də başqalarına...

Onun ucbatından Qantural əlini qana bulayıb, qatil oldu. Gecəsi-gündüzü yoxdur indi onun da.

Hələ atası, ya Ələkbər özü nə zülmlər çəkdilər.

Bacısı Əsmər... Səhərin ala-toranında gəlib çıxdı evə. Bütün gecəni küçələrdə gəzib, evlərinin səmtini axtarıbmış.

Amma çox əclaflıq elədi Xanəli. Onun bu işini cəzasız qoymaq olmazdı. Heyif, çox heyif ki, qaçıra bilmədilər onun bacısını. Onda Xanəli görərdi ki, o Xanəlidirsə, bu da Ələkbərdir. Amma hər halda, bir az payını götürdü. Bildi ki, lazım olsa, onun bacısına da nəsə eləmək olar...

- Saxla!

- Sərnişinin səsi Ələkbəri xəyaldan ayırdı və diksinib ona tərəf çevrildi:

- Nə?!

- Dedim, saxla!

Ələkbər əyləci basıb maşını saxladı. Bura maşınların az hərəkət etdiyi sakit bir küçə idi. Sağ tərəfdəki səkidə bir nəfər də olsun adam görünmürdü.

- Burda düşürsən? - deyə Ələkbər soruşdu.

Cavab əvəzinə sərnişinin cibindən çıxartdığı bıçaq şaqqıltı ilə açıldı. Elə həmin anda da Ələkbərin sinəsindən fəvvarə vuran qan maşının sükanını qırmızı rəngə boyadı. Gözlərində heyrət nişanəsi donub qalan Ələkbər ağzını açdısa da, heç nə deyə bilmədi...

Sərnişin qanlı bıçağı öz qurbanının sinəsindən çıxararaq baxdı. Sonra onun tiyəsini Ələkbərin paltarına sürtüb təmizlədi. Bıçağı cibinə qoydu. Soyuqqanlılıqla


downloaded from KitabYurdu.org

maşından düşüb, qapını örtdü. Sağ əlinə geydiyi əlcəyi də soyunub cibinə qoyandan sonra səki ilə addımlamağa başladı. Amma beş-on metr getməmiş, birdən-birə dayanıb, arxadan gələn bir taksiyə əl qaldırdı.

Bu adam Səlahəddin idi. O, Ələkbəri öldürmək göstərişini bu saat mühafizəçiləri ilə polis idarəsində olan Xanəlidən almışdı. Onun adı da, varlığı da polisdən gizlədilmişdi və orada Xanəlidən şübhələnsələr də, onun Ələkbəri kimə vurdurduğunu tapa bilməyəcəkdilər.

V HİSSƏ

«Mən böyüyəndə torpaqlarımızı düşmənlərdən xilas etmək üçün döyüşə gedəcəm. Onlar bizim torpaqlarımızı namərdliklə işğal ediblər. Qocaları, qadınları, uşaqları vəhşiliklə öldürüblər. Amma mən düşməndən qorxmuram. Atam deyir ki, bizim birimiz onların onuna qalib gələ bilərik. Biz torpaqlarımızı geri alacağıq. Torpaqdan pay olmaz. Mən düşmənlərdən qorxmuram. Amma atam deyir ki, biz həmişə ayıq olmalıyıq. Çünki bizim düşmənlərimiz çox xain və hiyləgərdir.

(5-ci sinif şagirdi Ağayev Fətəlinin ədəbiyyat dərsində yazdığı inşadan)

«Salam, anacan! Bu gün Bakıya vertolyot gələcəkdi. Ona görə də bu məktubu tələsik yazdım ki, sənə göndərim. Burada çoxlu qar yağıb. Biz düşmənlə üzbəüz dayanmışıq. Onlar tez-tez atəş açırlar. Biz də onları susdurmağa məcbur oluruq. Amma məndən ötrü narahat olma. Mən sənin başın heç vaxt aşağı eləmərəm. Sən özündən muğayat ol Dünən onu yuxuda gördüm. Atamı... Nədənsə, mən inanıram ki, o, gec-tez peşman olub, yanımıza qayıdacaq. Ancaq heç özüm də bilmirəm, onu bağışlayacam, yoxsa yox... Nə


downloaded from KitabYurdu.org

isə... Bu məktubu alan əllərindən, oxuyan gözlərindən öpürəm. Sağ ol!»

(Milli Ordunun 16 yanvar 1995-ci ildə qəhrəmancasına şəhid olmuş əsgəri

Sadıxov Babək Əlifağa oğlunun anasına məktubundan.

15 yanvar 1995-ci il.)

Yetmiş səkkizinci fəsil

Kapitan Allahverdi Əbilov kabinetində tək idi. Taksi Ələkbərin öldürülməsi ilə bağlı yeni açılmış cinayət işinin qovluğunu qarşısına qoyub dərin fikrə getmişdi. Srağagün Ələkbəri öz maşınında qətlə yetirib, heç bir iz qoymadan yoxa çıxmış qatili necə aşkar edə biləcəyi barədə düşünürdü.

Həmin gün rəisin yanına girən Əbilov Ələkbəri kabinetdə görmüşdü. O, Şakirin şikayət ərizəsi ilə əlaqədar çağırılıbmış. Şakirlə nişanlısının qabağını kəsdiklərinə, qızı qaçırmağa cəhd göstərdiklərinə və Şakiri döydüklərinə görə... Rəis Ələkbəri zərərçəkənlərdən üzr istəməsi şərti ilə evə buraxdı. Bir azdan kabinetdən çıxan Əbilov Xanəli ilə iki
adamını idarədə gördü. Onlar guya həmin iş üçün Ələkbərdən şikayət etməyə gəlmişdilər...

Xanəligil gedəndən bir saat, ya saat yarım sonra başqa rayonun polis şöbəsindən zəng vurub, Ələkbərin öldürülməsini bildirdilər. Əbilov dərhal hadisə yerinə getdi. Orada məlum oldu ki, Ələkbər Xanəlinin polis idarəsində olduğu vaxt qətlə yetirilib.

Buna baxmayaraq, Allahverdi Əbilov bu qətlin Xanəlinin tapşırığı ilə törədildiyinə əmin idi. Odur ki, elə həmin gün, axşamüstü bir neçə polis əməkdaşı ilə


downloaded from KitabYurdu.org

Xanəlinin evinə gedib, onu və iki qoruyucusunu - Qulu ilə Ramizi polis idarəsinə gətirdi. Daha sonra isə bununla kifayətlənməyib Səxavəti və onların bir neçə şübhəli qohumunu tutdurdu. Xanəlidən başqa hamısını ciddi şəkildə danışdırıb, həmin gecə evə
buraxdılar. Xanəli özü isə hələ də polisin müvəqqəti saxlama kamerasında idi.

Əsmərin qaçırılması məsələsini dərindən araşdırmayan, hətta bununla əlaqədar qadının özünü danışdırmayan Əbilovun Səlahəddin adlı bir adamın varlığından xəbəri belə yox idi. Dindirilmə zamanı nə Xanəli, nə də Qulu ilə Ramiz onun adını çəkməmişdilər. Beləliklə, Xanəlinin yaxın qohumları, dostları və işçilərindən ibarət şübhəlilər siyahısında Səlahəddinin adına rast gəlinmirdi.

Məsələ burasında idi ki, Ələkbəri öldürmək barədə Səlahəddinə göstəriş verən Xanəli cinayət baş verən zaman özünün və iki qoruyucusunun polisin gözü qabağında olması, bununla da şübhədən uzaqlaşmaları üçün tədbir görmüşdü. Həmin gün Ələkbəri izləyən Səlahəddin zəng vurub,
bu barədə Xanəliyə xəbər vermişdi və bu zaman Ələkbərin polis idarəsinə girəcəyini ağlına gətirməmişdi. Belə çıxırdı ki, Ələkbər polisdən bir az gec, Xanəligil oranı tərk edəndən sonra buraxılsaydı, bu cinayət baş verməyəcəkdi. Yəni hər halda, həmin gün baş verməyəcəkdi...

Hə... Xanəli Səlahəddinin varlığını gizlətməyi Qulu ilə Ramizə də tapşırmışdı və beləliklə Ələkbərin qatili olan bu adam şübhəli şəxs qismində danışdırılanlar siyahısına düşməmişdi.

İki gecədir ki, polisdə saxlanılan Xanəli Ələkbərin



downloaded from KitabYurdu.org

öldürülməsi barədə kiməsə göstəriş verməsini qətiyyətlə inkar edirdi. Əbilov artıq tərəddüd etməyə başlamışdı: yəni Şakirin yaxınlarından kimsə törədərdimi bu cinayəti?.. Amma yox! Bu iş Xanəlidən uzaq deyildi. O öldürtmüşdü Ələkbəri! Özü də Fatiməyə qarşı etdiyi hərəkətə görə...

Ələkbəri dünən dəfn etmişdilər. Mayın 28-i, bazar günü... Dünən həm də «Respublika Günü» idi. İdarədə bununla əlaqədar bəzi tədbirlər keçirilməsinə və işin çoxluğuna baxmayaraq, Allahverdi də iştirak etdi dəfndə. Həm də, tək yox, bir neçə mülki geyimli polis işçisi ilə birlikdə.

Ələkbər üçün də həmin qəbiristanlıqda yer götürmüşdülər. Ağaşamilin uşaqlarının dəfn olunduğu qəbiristanlıqda... İki ailə məzarları arasında on-on beş metr məsafə güclə olardı. Polis idarəsi narahat idi ki, dəfn vaxtı Ağaşamilin qohumlarından kimsə qəbiristanlığa, öz ölülərinə baş çəkməyə gələr və araya qan düşər. Üstəlik, Qanturalın özünün də gizli şəkildə buraya gəlmə ehtimalı var idi. Odur ki, içəridə də, çöldə də, bəzi ehtiyat tədbirləri görmüşdülər.

Amma Ələkbərin dəfninə toplaşanların üzündə qəribə bir sükut var idi. Heç kəs dinib-danışmır, heç kəs bu qətlin kim tərəfindən törədilməsini müzakirə etmirdi. Cinayətin səbəbkarı hamıya bəlli idi, sanki. Hamı bu cinayətlə əlaqədar Xanəlinin tutulduğunu eşitmişdi. Hamı başa düşürdü ki, əks tərəf Qanturalın öldürdüyü qardaşların intiqamını almağa başlayıb və belə gedərsə, iki nəsil arasına düşən bu qan düşmənçiliyi heç vaxt səngiməyəcək.

Məzarın başının üstündə, molla ilə yanaşı dayanmış



downloaded from KitabYurdu.org

Zəkixan kişi heykəl idi, elə bil. Yalnız təsbehin dənələrini çevirən barmaqları aramla tərpənirdi. Bir aydır ki, daşıdığı ağır dərd yükünün
təsirindən beli bükülmüş, arıqlayıb tanınmaz hala düşmüşdü.

Cəsədi qəbrə endirənlərə kömək edən Fərhadın fikri, sanki tamamilə başqa yerdə idi. Heç istəmirdi düşmənçilik bu yerə gəlib çatsın, heç! Fatimənin qaçırılmasına da etiraz etmişdi əvvəldən. İndi bu saat kəfənə bükülüb dərin məzara endirilən bu qardaşına demişdi ki, lazım deyil yanan ocağa benzin tökmək! Qantural o ailədən üç canlı insanın həyatına son qoymuşdu və o ailə onsuz da intiqam alovuyla alışıb yanırdı. Lazım deyildi, üstəlik, onların namusuyla oyun oynamaq!

Dəfn çox sakit keçdi. Nə Qantural gəlib çıxdı ora, nə başqa bir qarışıqlıq törəndi. Ağır, üzücü bir sükutla başlanıb, eləcə də bitdi. Amma polis idarəsi hadisənin belə sakitliklə ötüşəcəyindən heç də əmin
deyildi və idarənin rəisi polkovnik Mirzəyev baş verə biləcək yeni cinayətləri düşünüb, haqlı olaraq, narahatlıq keçirirdi. Yenə Qantural tezliklə tutulub həbs edilsəydi, aranın sakitləşəcəyinə bəlkə də ümid etmək olardı...

Allahverdi qarşısındakı qovluğu əsəbi hərəkətlə kənara itələdi. Qanturalın ilk cinayəti törədib qaçmasından bir ay ötürdü. Bu bir ayda o daha üç nəfərin həyatına son qoymuşdu ki, bunun da biri polis işçisi idi. Amma kapitan Əbilov hələ də onun izinə düşüb, ələ keçirə bilmirdi. Son günlər isə Qanturalla əlaqəsi olsa da, əslində axtarışa heç bir köməyi olmayan məsələlər onun başını daha çox qarışdırırdı. Əsmərin qaçırılması, ona cavab olaraq


downloaded from KitabYurdu.org

Fatimənin qaçırılmasına cəhd, kiminsə naməlum bir adamın onu xilas etməsi... Bu adamı tanıdığını
Fatimə də boynuna almamışdı və onun kimliyi Əbilov üçün maraqlı olduğu qədər də qaranlıq qalırdı.
Sonra Şakirin şikayəti, nəhayət, Ələkbərin ölümü... Əbilov bütün bunlarla məşğul olmağa məcbur idi. Amma onu narahat edən əsas məsələ o idi ki, bütün bu cəhdlərə baxmayaraq, Qanturalın axtarışı hələ bir nəticə vermirdi.

Üstəlik, Qanturalın mənzilində baş vermiş hadisənin özü də müəmmalı olaraq qalmaqda idi. Nihatın o məşum gecədə mənzilə Sənihədən əvvəl gəlməsi, bu zaman əlində qara rəngli bir çantanın olması... Onun evdəki bir çox əşyalara əl gəzdirməsi, şübhəli fotoşəkilləri mənzildə gizlətməsi oraya yalnız Sənihə ilə intim görüşə gəlməsi fikrini inkar edirdi. Bundan başqa, Nihatın Sənihə ilə yatağa girərkən qapının cəftəsini vurmaması,
Qanturalın mənzilə gözlənilmədən, qəfil girməsi, cinayəti törədib evdən gedərkən Nihatın gətirmiş olduğu həmin qara çantanı özü ilə aparması ciddi şübhə doğuran amillərdən idi.

Amma... Şübhə doğuran məqamların qarşısında dura biləcək ciddi faktlar da var idi ki, bu qarşıdurma Əbilovun beynindəki çalpaşıq fikirləri daha da qarışdırırdı. Bəli, fakt fakt olaraq qalırdı! Həmin gecə Nihatla Sənihə eyni yataqda öldürülmüşdülər! Tibbi ekspert onların həmin gecə cinsi əlaqədə olmasını sübut etmişdi! Qanturalı toydan qayıdıb bloka girəndə və yarım saat sonra əlində qara çanta maşınına minib qaçanda görmüşdülər! Nihat da, Sənihə də Qanturala məxsus olan bıçaqla öldürülmüş, bıçaqda yalnız Qanturalın əl izlərinə rast gəlinmişdi! İlk


downloaded from KitabYurdu.org

baxışdan hər şey aydın
və sadə idi. Mənzilinə daxil olan ev sahibi arvadını başqa kişiylə yataqda görüb və hər ikisini qətlə yetirərək qaçıb!

Amma indiyədək açdığı cinayət işlərində hər şeyi son nöqtəsinə qədər, məntiqlə anlamağa çalışan və buna nail olan kapitan Əbilov indi bəzi suallara məntiqli cavab tapa bilmədiyi üçün narahat idi.

O, indi də öz stolunun arxasında oturub, bütün bunları bir daha beyninin süzgəcindən keçirir, düyün düşmüş kələfin ucunu tapmağa çalışırdı.

Allahverdi Əbilov bu bir ay ərzində çox əziyyət çəkmiş, çox cəhdləri boşa çıxmışdı. «Çəməndağ» kafesini tapmış, Nihatın o gecə həmin mənzilə Sənihədən oğurladığı açarın surətini çıxartmaqla girdiyini öyrənmiş, kafedəki görüşdə iştirak edən
gözəl qadının kimliyini aşkar etmişdi. Lakin bu tapıntıların da, hələlik ki, heç bir əhəmiyyəti olmamışdı.

Xüsusilə, iki gün əvvəl, Məltəmin əlindən alınıb qaçırılması ona çox yer eləmişdi. Həmin adamlar kim idilər axı? Onların Məltəmlə, ya Qanturalla nə kimi əlaqəsi var idi? Bu suallar da digər bir çox suallarla birləşib Əbilovu yorur, onu açıq-aşkar özündən çıxarırdı.

Qapı döyülərək açıldı və Ələmdar içəri daxil oldu:

- Olarmı, cənab kapitan?

Əbilov, nədənsə, xoşlamadığı bu adamı başdan- ayağa süzüb:

- Daha gəlmisən, gəl görək, nə deyirsən! - dedi.

Ələmdar gəlib kapitanın yaxınlığında, göstərilən stulda əyləşdi. Əyninə nazik, ağ zolaqları olan qara kostyum, mavi rəngli mil-mil köynək geyinmişdi. Üzünü təmiz



downloaded from KitabYurdu.org

qırxmış, saçlarını səliqə ilə daramışdı. Kapitanın üzünə dikdiyi ciddi baxışlarında özünə inam və arxayınlıq oxunurdu.

- Sizinlə olduqca vacib söhbətim var.

- Buyurun! - Əbilov onu dinləməyə hazır olduğunu bildirdi.

- Amma əvvəlcə özümü sizə təqdim etmək istəyirəm.

Ələmdar Kobranı nəyin bahasına olursa olsun tapıb, intiqamını almaq fikrindən dönməmişdi. Amma onu necə tapmalıydı? Sanki heç belə bir adam Bakıya gəlməmişdi. Harada gizləndiyini, hansı təxribatla məşğul olduğunu təxmin etmək mümkün deyildi. Sadıxovla hər hansı bir əlaqəyə girsəydi, yəqin ki, indiyə kimi ələ keçərdi. Ya o, artıq, hansı yollasa respublikanı tərk etmişdi, ya da başqa adamların himayəsində gizlənib fəaliyyət göstərirdi. Bunu isə belə böyük bir şəhərdə müəyyən etmək olduqca çətin idi.

Ələmdar hərtərəfli düşünüb belə qərara gəlmişdi ki, Qanturalın mənzilindən tapılmış fotoşəkillər heç də təsadüfi rol oynamır. Bu şəkillər onu sübut edirdi ki, Qanturalın az, ya çox dərəcədə Kobranı himayə edən dəstə ilə əlaqəsi olub və bəlkə yenə də var. O fikirləşirdi ki, Qanturalın törətdiyi bir qədər müəmmalı cinayətin mahiyyəti aşkar edilərsə, bəzi sirlər açılar və bu, ola bilsin ki, Kobranın da axtarışına yardım edər.

Bunun üçün də Qanturalın axtarışı ilə məşğul olan Allahverdi Əbilovdan istifadə etmək məcburiyyətində qalmışdı. O, erməni əsirliyindən xilas etdiyi bu adamı yaxşı tanıyırdı. Dözümünə, iradəsinə, Vətənə sədaqətinə yaxşı bələd idi. Amma bunlarla belə, özünü ona tamamilə


downloaded from KitabYurdu.org

tanıtdırmaq fikrində də deyildi. Buna heç ixtiyarı da yox idi. Sadəcə olaraq, zabit vəsiqəsini çıxarıb Əbilova uzatdı.

Kapitan vəsiqəni alıb oxudu:

«... mayor Ələmdar Məlikov».

Başını qaldırıb təəccüblə Ələmdara baxdı:

- Heç gözləməzdim, doğrusu... Bəs siz?.. Bəs idman klubu?.. Ələmdar gülümsədi:

- Mümkündürsə, gəlin, hələlik bununla kifayətlənək.

- Yaxşı, eşidirəm sizi! - Əbilov vəsiqəni sahibinə qaytardı.

- Siz Qantural adlı bir cinayətkarın axtarışı ilə məşğulsunuz. - Ələmdar danışmağa başladı. - Onun mənzilini axtararkən oradan iki fotoşəkil tapıb, milli təhlükəsizlik orqanlarına göndərmisiniz. Biz də həmin şəkillərdəki rus qadını ilə maraqlanırıq...

- Hə!.. - Əbilov başını tərpətdi. - Bunu gözləyirdim. Gözləyirdim ki, Qanturalın axtarışı təkcə polisin öhdəsində qalmayacaq. Amma... Siz axı sənədinizə görə, sadəcə, döyüşən ordunun zabitisiniz...

- Axı dedim ki, tanışlığımız kifayətdir. - Ələmdar ciddiləşdi.

Kapitan hər iki əlini başına aparıb saçlarını qarışdırdı və dərindən ah çəkdi:

- Bir aydan çoxdur ki, bir-birindən dolaşıq olan işlərin içində itib-batmışam. Siz bu dolaşıq işlərin başlanğıcında, parkda baş vermiş kiçik hadisədə təsadüfi bir fiqur idiniz. İndi sizin, əslində, kim olduğunuzu biləndən sonra dolaşıq hesab etdiyim işlər bir az da qəlizləşir. Bütün bunlar nə deməkdir axı?!

Ələmdar kinayə ilə başını yellədi:



downloaded from KitabYurdu.org

- Narahat olmayın, mənim gəlişim heç nəyi qəlizləşdirməyəcək. Əksinə, biz birlikdə işləyib nəsə əldə edəcəyik. Amma bu başdan deyirəm ki, mənim kimliyim və bu işə qarışmağım hamıdan gizli qalmalıdır. O cümlədən rəisinizdən də!

Əbilov razılaşdı:

- Məndən, konkret olaraq, nə istəyirsiniz?

- Siz baş vermiş hadisələr barədə bütün bildiklərinizi mənə danışın! Lap başdan!

- Əlifağanın oğlunun ölüm hadisəsindən?

- Siz məgər bu hadisələr arasında əlaqə görürsünüz?

- Əvvəl görmürdüm. - Allahverdi düşüncəli halda dilləndi. - Amma kafedə fotoya düşmüş o gözəl qadını tapandan və onun Sadıxovun sürücüsünün arvadı olduğunu biləndən sonra bu barədə baş sındırıram.

- Siz, deməli, o qadını tapmısınız? - Ələmdar yalançı təəccüblə soruşdu.

-Tapmışdım. Məltəm adlı həmin qadını evindən çıxarıb buraya gətirmək istəyəndə, onu naməlum adamlar qaçırdılar.

- Sizcə, onlar kim ola bilərlər?

- Bilmirəm... - Əbilov pərt halda dilləndi. - Onlar ya sizin rus qadını ilə, ya da Qanturalla əlaqəli adamlardır. Ya bəlkə də hər ikisi ilə! Mənə elə gəlir ki, Əlifağanın oğlunu da onlar öldürüblər. Doğrusu, mən əvvəldən Salehin cinayətkar olduğuna inana bilmirdim...

- Bəs niyə həbsxanaya göndərdiniz onu? - Ələmdar güclə sezilən istehza ilə soruşdu.

- Onu həbsxanaya məhkəmə göndərib. - Allahverdi bir qədər incik cavab verdi.


downloaded from KitabYurdu.org

- Nə olsun? - Ələmdar əl çəkmədi. - Təhqiqatı ki, siz aparmışdınız?!

- Görünür, təhqiqat aparmaq sözdə sizə çox asan gəlir. Amma inanın ki, bu o qədər də asan iş deyil. Bir də mənə kömək etmək əvəzinə mane oldular. Biri elə Əlifağa Sadıxov özü. Öldürülən oğlanın atası... Tərsliyinə salıb, dedi ki, qatil Salehdir, vəssalam! Başqa heç bir izahat-filan da vermək istəmədi...

Ələmdar bir qədər fikrə gedib, nəhayət dilləndi:

- Xahiş edirəm, siz aprelin 30-da baş vermiş hadisədən danışın!

Kapitan Əbilov bu hadisənin təfərrüatını, sanki əzbər bilirdi və ona görə də çətinlik çəkmədən danışmağa başladı:

-Aprelin 30-da Nihatın işçisi olan Xədicə adlı qızın toyu olub. Toyda iş yoldaşları, o cümlədən Qanturalın arvadı Sənihə ilə Qantural özü də iştirak edib. Nihat toyda özünü şübhəli aparırmış. Heç kəsə qoşulmur, ürəklə yeyib-içmirmiş. Qantural isə Nihatın işçisi olan bir oğlanla hey araq içib, söhbət edirmiş. Sonra öyrəndim ki, Nihat həmin oğlana Qanturalı şadlıq evində yubatmağı tapşırıb. Saat doqquzun yarısında Nihatın cib telefonuna zəng gəlib. Nihat səs-küydə danışa bilmədiyi üçün çölə çıxıb və tez də qayıdıb. On dəqiqə sonra isə şadlıq evini birdəfəlik tərk edib. Həmin vaxt ona kim tərəfindən zəng vurulduğunu öyrənmək istəsək də, buna nail ola bilmədik. Çünki həmin nömrə telefonla birlikdə əsl sahibindən avtobusda oğurlanıbmış. Hə... Saat 10- da Qanturalın arvadı Sənihə qalxıb, gəlinlə görüşüb və qonşu binada yaşayan tanışları ilə birlikdə zaldan çıxıb. Bu



downloaded from KitabYurdu.org

zaman darıxdığını, nəyə görəsə narahat olduğunu bəhanə edib. Qantural isə həmsöhbəti olan həmin oğlandan ayrıla bilməyərək qalıb.

Biz Qanturalla üzbəüz mənzildə yaşayan qonşusunu danışdırdıq. O, həmin gecə tez-tez balkona çıxıb orada çay içirmiş. Qonşu, birinci
olaraq, Sənihənin evə təkcə gəldiyini görüb. Bu, 11- in yarısında olub. Təxminən bir saat sonra Qantural öz maşını ilə gəlib. Maşını blokun qarşısında saxlayıb evə girib. Otuz-qırx dəqiqə sonra həmin qonşu maşın pultunun səsini eşidib balkondan boylanıb və Qanturalı maşına minən görüb. Onun deməyinə görə, bu zaman Qanturalın əlində qara rəngli, iri çanta olub. Maşın sürətlə yerindən tərpənib və oradan uzaqlaşıb... - Əbilov bir anlıq nəfəsini dərib, yenə söhbətinə davam etdi. - Sonra biz blokun qarşısındakı kiçik dükanda çörək satan qadını da dindirdik. O bildirdi ki, mixəyi rəngli «Opel»də gələn göy köynəkli bir kişinin həmin bloka girdiyini görüb. Onun əlində qara çanta var imiş. Qadın bunu Sənihənin gəlişindən, olsun ki, yarım saat əvvəl görüb. Sonra, saat 10-da yığışıb evinə
getdiyi üçün, Sənihənin gəlişini görməyib. Biz həmin «Opel»i blokun qapısına yaxın dayanmış tapdıq. Bu Nihatın maşını idi... Bir də, deməyi unutdum, mən araşdırıb öyrəndim ki, Nihat bir-iki gün əvvəl işdə Sənihənin çantasından mənzilin açarını götürüb, yaxınlıqda surətini çıxartdırandan sonra qaytarıb yerinə qoyub.

- Hadisə yerində siz də olmusunuz, eləmi? - bayaqdan kapitana diqqətlə qulaq asan Ələmdar soruşdu.

- Bəli... - Allahverdi kədərlə dilləndi. - Çox acınacaqlı


downloaded from KitabYurdu.org

bir mənzərə idi. Nihatın da, qadının da başı bədənindən ayrılmışdı. Qanturalın özünə məxsus, üstündə yazı olan iri bıçaq Nihatın sinəsinə saplanıb qalmışdı... Qantural içəri girəndə onları yataqda, yarılüt vəziyyətdə görüb. Bıçaqla birinci
zərbəni Nihatın sinəsindən vurub. Sonra, məncə, arvadının başını kəsib. Daha sonra isə Nihatın da başını bədənindən ayırıb...

- Bunu nəyə əsasən əminliklə deyirsiniz?

- Nihatın sinəsindən qan çox axmışdı. Başından, boğazından isə az...

- Yaxşı, davam edin! - Ələmdar xahiş etdi.

- Sonra isə Qantural Nihatın maykasını yuxarı sıyıraraq sinəsinə, qarnına, ən çox da sağ böyrünə sıx bıçaq zərbələri endirib. Belə görünür ki, bununla öz qəzəbini soyutmaq istəyibmiş.

Ələmdar kinayə ilə gülümsədi.

- Bəs maykanı niyə yuxarı çəkib? Deşib korlamaq istəmirmiş?

- Bilmirəm... - Allahverdi çiynini çəkdi. - Həmin vaxt ağlını itiribmiş yəqin ki...

- Belə çıxır ki, Qantural evə gələndə qapını öz açarı ilə açıb içəri girib. Bəs bunlar yatağa girəndə cəftəni vurmayıblarmış?

- Bu bizə də qəribə göründü. Amma belə çıxır ki, vurmayıblar. Yalnız qıfıllayıblar. Bu zaman isə həmin qıfılı çöldən açarla açmaq olur. Sadə qıfılların xüsusiyyəti belədir.

- Sizcə, Qantural gedərkən, mənzildən nə aparıb? - Ələmdar növbəti sualını verdi.


downloaded from KitabYurdu.org

Kapitin Əbilov dərindən köks ötürdü:

- Gedərkən, əlində həmin qara çanta olub. Bu çantadakı isə külli miqdarda pul olubmuş, ya hansısa qiymətli əşyalar olubmuş, yaxud təxribat xarakterli bir şey olubmuş, bu bizim hamımız üçün qaranlıqdır. Mənim bildiklərimdən isə sənədlərini və olsa-olsa xırda-xuruş şeylərini aparıb. Heç Nihatın
barmağındakı qiymətli üzüyə də dəyməmişdi. Onu meyitin barmağından mən çıxartdım...

Ələmdar aprelin 30-da baş vermiş cinayətlə bağlı daha bir neçə az əhəmiyyətli sual verəndən sonra kapitandan sonrakı cinayətlər barədə danışmağı xahiş etdi.

- Sonrakı cinayətlərdə qeyri-adi və ya qəribə görünən bir şey yoxdur. - Əbilov dilləndi. - Azğınlaşmış Qantural Nihatın iki qardaşını da, bizim əməliyyat müvəkkilimizi də güdüb, əlverişli fürsət taparaq ustalıqla qətlə yetirib. Özü də onu deyim ki, bu cinayətləri bizə açıq-aşkar meydan oxumaqla edib. Yəni izini-filanını gizlətmək belə istəməyib. Hətta Cahangiri vurandan sonra bıçağı da hadisə yerində qoyub getmişdi.

Ələmdar kapitan Əbilovda olan cinayət işi materiallarını alıb vərəqləməyə başladı və birdən başını qaldırıb:

- Nihatın sağ qalan ailə üzvlərini qorumaq barədə tədbir görürsünüz? - deyə soruşdu.

Allahverdi Əbilov başını tərpətdi:

- Görürük... Elə özləri də bəzi tədbirlər görüb. Nihatın iki qardaşı qalıb indi. Xanəli və Səxavət. Xanəli iki qoruyucu götürüb özünə. Hə, bir də bacıları var. Fatimə. Siz onu park əhvalatından tanıyırsınız. Xanəlinin adamları



downloaded from KitabYurdu.org

onu da qoruyur. İki gün əvvəl Qanturalın böyük qardaşı Ələkbəri öldürdülər. Maraqlıdır ki, o öldürülən vaxt Xanəli ilə qoruyucuları burada idilər. Ramiz və Qulu adında oğlanlardır. Bizi axmaq yerinə qoyublar! Guya həmin vaxt bunlar burada olduqları üçün biz daha
Xanəlidən şübhələnməyəcəyik. Amma mən bilirəm ki, bu iş ondan uzaq deyil. Tutub salmışıq aşağı. Bu saat da buradadır. Kimə öldürtdürüb, bilmirəm, amma o öldürtdürüb Ələkbəri...

Ələmdar kapitan Əbilovu qəribə bir maraqla süzür, sanki heç ona qulaq asmırdı. Müsahibi sözünü qurtaran kimi gülümsəyib:

- Siz Rafiqin ölümündə də məndən şübhələnirdiniz, - dedi.

Allahverdi çiyinlərini çəkdi:

- İşimizin xüsusiyyəti belədir, neyləyək... Atalar misalı var, deyir, mal bir yerə gedir, güman yüz yerə...

- Qanturalın mənzili nə vəziyyətdədir? - Ələmdar söhbətin mövzusunu dəyişdi.

- Nə mənada? - kapitan sualı yaxşı anlamadı.

- Yəni hadisədən sonra dəyişiklik edilməyib ki?

- Yox! - Əbilov cavab verdi. - Necə var, elə də saxlanılıb. Qapını bağlayıb, surğuclamışıq.

- Sizdə açar var?

- Yox, açar müstəntiqdədir. Eldar İmanovda.

- Xahiş edirəm, onu bir saatlığa alın. Guya bu sizin özünüzə lazımdır. Mən mütləq mənzilə baxmaq istəyirəm.

- Yəni buna ehtiyac var? - Əbilov inamsız halda soruşdu.

- Bəlkə də bunun bir nəticəsi olmayacaq. - Ələmdar



downloaded from KitabYurdu.org

qəti şəkildə ayağa qalxıb əllərini şalvarının cibinə qoydu. - Amma mən öz şefimə hər şey barədə dəqiq məlumat verməliyəm. Fotoşəkilləri haradan tapıb götürdüyünüzü də mənə göstərərsiniz.

Əbilov bir müddət, qarşısında dayanmış bu ucaboylu, arıq olsa da bədəni sanki qranitdən yonulmuş oğlana baxıb, birdən:

- Sizi polkovnik Baratov göndərib? - deyə soruşdu.
- Baratov kimdir? - Ələmdar guya ki, təəccübləndi.
- Məxfi şöbə...
- Yox! - Ələmdar onun sözünü kəsdi. - Mənim nə milli təhlükəsizlik orqanları, nə də hər hansı məxfi şöbə ilə heç bir əlaqəm yoxdur.

Əbilov da ayağa qalxıb saatına baxdı. On birə on dəqiqə qalmışdı. Bir saata yaxın idi ki, bu adamla söhbət edirdilər.

- Gedək! - dedi. - İmanov indi prokurorluqda olar. Görüm, açarı bu dəfə hansı bəhanə ilə alıram ondan... Siz maşınlasınız?

- Hə. - Ələmdar qapıya doğru getdi. - Aşağıda saxlamışam.

Birlikdə polis idarəsindən çıxıb «Volvo»ya oturdular. Əbilov:

- Prokurorluğa sürün! - deyib, mənzilə bir daha baxmaq istəyini müstəntiq İmanova necə əsaslandıracağını düşünməyə başladı.

O, yanında oturmuş mayorun təhqiqatçılıq qabiliyyətinə heçdə inanmırdı. Buna baxmayaraq, lazımi orqanların bu işlə maraqlanmasından razı qalmışdı. Belə hesab edirdi ki, fotoşəkildə olan həmin şübhəli rus qadınla ciddi maraqlanmağa başlayıblarsa, bu hökmən Qanturalın



downloaded from KitabYurdu.org

tapılmasına kömək edəcək.

Yetmiş doqquzuncu fəsil

Onlar qırx dəqiqə sonra, artıq, Qanturalın mənzilində idilər. Kapitan Əbilov surğucu qoparıb, açarla qapını açdı.

İçəri girən kimi, onları mənzilin ağır havası vurdu. Qan qoxusu hələ də çəkilib getməmişdi içəridən...

Əbilov qalın dəmirdən düzəlmiş qapını örtdü. Dəhliz alaqaranlıq olduğu üçün işığı yandırdı. Ələmdar, birinci növbədə, qapının qıfılına və yerində rahat hərəkət edən cəftəsinə baxdı. «Bəli, bu cəftə hökmən vurulmalıydı...» - deyə düşünüb təəccüblə başını buladı.

Sonra, qətl hadisəsinin baş vermiş olduğu otağa keçdilər. Burada hər şey öz əvvəlki yerində idi. Əlbəttə, meyitlərdən və qətl zamanı istifadə olunan bıçaqdan başqa... Hər şey burada ağır, qəddarcasına bir cinayətin baş verdiyini göstərirdi. Hər şeymi?.. Yox, otaqdakı hər şey, o cümlədən üstündə yorğanların sıyrılıb-yumurlanıb yerə düşdüyü ikinəfərlik çarpayı da adi görünə bilərdi. Əgər vaxtilə bəyaz olmuş mələfənin, balışların, yorğanların boğuq qırmızıya çalan rəngləri olmasaydı... Bütün yataq qana boyanmışdı...

Ələmdar çarpayının qarşısında dayanıb, bir müddət bu ürəksıxıcı mənzərəni seyr etdi. Baş hissədən, çarpayının hər iki tərəfində stul var idi. Stulların birinin üstünə Sənihənin donu, koftası və corabları atılmışdı. O biri stulda isə şalvar və kişi

corabları diqqəti cəlb edirdi. Göy rəngli bir köynək isə stulun başına keçirilmişdi.

- Alovlu məhəbbət və amansız qısqanclığın nəticəsi! - gəlib Ələmdarın yanında dayanmış Allahverdi dilləndi.



downloaded from KitabYurdu.org

Ələmdar dönüb ona baxaraq:

- Mən isə deyərdim ki, sadəcə olaraq, ağılsızlığın nəticəsi! - dedi və çarpayıdan aralandı.

Otağı gəzib hər şeyə, o cümlədən paltar şkafına diqqətlə göz gəzdirdi. O biri otağa keçib burada da müşahidə apardı. Mətbəxdəki zibil qutusuna qədər diqqət yetirdi. Televizor, divan, stol və stullar qoyulmuş otağa qayıdanda üzünü Əbilova tutdu:

- Zibil qutusundakı siqaret kötüklərindən görünür ki, Qantural çəkən olub. Amma heç külqabı gözümə dəymədi...

- Onu biz götürmüşük. - Əbilov cavab verdi. - Qanturalın əl izlərini götürmək üçün. Külqabını, üzünü qırxmaq üçün işlətdiyi alətləri, diş fırçasını...

- Deyirdiniz ki, Nihat ev əşyalarına əl gəzdirib?..

- Hə! Biz meyitin barmaq izlərini də götürmüşdük. O izlərə evin bəzi əşyalarında, eləcə də paltar şkafının rəflərində rast gəlmək olurdu.

- Bəs fotoşəkilləri haradan tapmışdınız?

- Gəlin, göstərim!

Əbilov bunu deyib qabağa düşdü. Vanna otağının qapısını açıb oradan tualetin üstünə qoyulmuş iki yüz litrlik su çənini göstərdi.

- Baxın, bu çənin üstündə idi şəkillər. Nihatın gecə vaxtı bu mənzilə girməsinin, bəlkə də ən əsas səbəbi kafedə gizlin surətdə çəkdiyi həmin şəkilləri buraya qoymaq olub.

Ələmdar istədi desin ki, fotoşəkilləri Nihat yox, Qantural çəkib. Amma demədi. Çünki bunu desəydi, gərək özünün «Çəməndağ» kafesində olmasını və ofisiantla



downloaded from KitabYurdu.org

söhbətini də deyəydi. Əvəzində başqa söz dedi:
- Nə yaxşı, ağlınıza gəlib buraya baxmaq?
Allahverdi gülümsədi:

- Mən əvvəldən bilirdim ki, bu mənzildə hansısa gizli bir foto və ya sənəd var. Amma sonradan qorxurdum ki, Qantural gedərkən onları da aparmış olar. Birinci axtarışdan sonra prokurordan icazə alıb bir də buraya gəldim və onları tapdım.

- Nədən bilirdiniz mənzildə sənəd, yaxud şəkil olduğunu? - Ələmdar maraqla kapitana baxdı.

- Nihatın işçisi demişdi ki, Qantural bu hadisədən bir-iki gün qabaq, daha doğrusu, həftənin
birinci günü onların iş yerinə gəlib və Nihatla kabinetdə ciddi söhbət aparıb. Qantural çıxıb gedərkən həmin qız Nihatın ona dediyi son sözləri eşidib. Nihat deyibmiş ki, onları cır at, özünə də, mənə də, problem açma. Amma nəyi deyirmiş o, qız anlamayıb. Mən başa düşdüm ki, Qanturalda nəsə bir təxribat xarakterli sənəd və ya foto olub...

- Görəsən, Qantural nə üçün evdən gedəndə həmin şəkilləri özüylə aparmayıb? - Ələmdar soruşdu.

Kapitan Əbilov yüngül istehza ilə gülümsədi:
- Elə bir vəziyyətdə adamın yadına şəkil düşər?

- Yox, niyə ki... - Ələmdar etiraz etdi. - Görünür ki, o mənzilə girən kimi içəridəkilərə göz açmağa imkan vermədən, onları dərhal öldürüb. Sonra, sizin deməyinizə görə, azı yarım saat qalıb
burada. Hər halda, nələri götürəcəyi barədə düşünməmiş olmazdı...

Ələmdar baş vermiş hadisə haqqında artıq demək olar


downloaded from KitabYurdu.org

ki, kapitan Əbilov qədər məlumatlı idi. Bəzi şeyləri əvvəldən Baratov ona bildirsə də, yenə kapitandan soruşur, hər şeyi incəliyinə qədər bilib, dərk etmək istəyirdi.

Bir daha vanna otağına, mətbəxə baxıb, televizor qoyulmuş otağa keçdi. Məqsədsiz halda olsa da, hər şeyə bir kəşfiyyatçı gözü ilə diqqət yetirir, hərtərəfli müşahidə aparırdı. Əbilovun artıq darıxmaq üzrə olduğunu görüb, onunla şəxsi söhbətə başladı:

- Evlisiniz, cənab kapitan?

- Hə! - Əbilov dedi və birdən-birə üzünə təbəssüm qondu. - İki uşağım da var.

- Oğlan, qız?

- Biri oğlandı, biri qız. Alik, Mahirə...

- Niyə Alik? - Ələmdar təəccübləndi. - Azərbaycanlı adı tapmırdınız?

Allahverdi Əbilov nədənsə bir az gec dilləndi:

- Doxsan üçüncü ildə döyüş zamanı ermənilərə əsir düşmüşdüm. O gün ki, məni öldürəcəkdilər, bizim bir kəşfiyyatçımız xilas elədi məni. Elə mənimlə yaşıd olardı. Alik adında... Ya bəlkə də əsl adı Alik deyildi. Axır ki, onun adını qoymuşam uşağa...

- O ölüb? - Ələmdar laqeydliklə soruşdu.

- Yox... - Kapitan başını buladı. - Bilmirəm. Amma sonradan axtarıb tapmaq istədim onu. Mümkün olmadı.

Allahverdi divanda oturmuşdu. Ələmdar isə televizorun yanındakı kiçik kitab şkafını araşdırırdı. Birdən nə düşündüsə, onu qəribə bir hiss bürüdü. Cəld geri çevrilib:

- Bəs qız? - deyə soruşdu. - Qızın adını haradan qoymuşunuz?


downloaded from KitabYurdu.org

Polis kapitanının üzünü dərhal kədər bürüdü:

- Mən əsirlikdə olanda Mahirə adlı gənc bir qadını da əsir alıb həmin düşərgəyə gətirmişdilər. Bir-iki dəfə saxlandığı evin pəncərəsindən baxan görmüşdüm onu. Gözəl qadın idi. Sonra bildim ki, namusunu qorumaq üçün özünə qəsd edib. Məni xilas edən həmin Alik onun da meyitini ermənilərdən alıb gətirdi. Bədbəxt qadının gözlərini də çıxartmışdılar... Orada bir Valeri var idi. Kobra da deyirdilər ona. Qaniçənin biri idi. O əsir almışdı həmin qadını... Bir dəfə mənə həyətdə işgəncə verəndə pəncərədən baxan Mahirə dözməyib, onların üstünə çığırdı, qarğış elədi... İnanın ki, tüklərim biz-biz durdu onda. Öz dərdim yadımdan çıxdı. Çox qeyrətli qadın idi... Əgər indiyədək onun qarğışı o Valeri alçağı tutmayıbsa... Nə deyim...

Ələmdar əlindəki işi saxlamışdı. Yaranmış bir qədər sükutdan sonra sakit səslə soruşdu:

- Nə qarğış edirdi, yadınızdadı?

Allahverdi ona bir qədər təəccüblə baxdı:

- O səhnələr, olduğu kimi, bəzən gecələr də yuxuma girir. Onun o çığırtısını nə cür unuda bilərəm? Valeri mənə işgəncə verəndə, «Səni görüm qan qusasan! Səni görüm bağırsaqlarına dolanasan!» dedi. Amma... Nə bilim, vallah!

Bilmirəm Allah necə göz yumdu o zülmlərə?..

- Sənə çox işgəncə verirdilər? - Ələmdar gənc polis zabitinə hörmətlə baxıb ona «sən» deyə müraciət etdi.

Allahverdi birdən ayağa qalxıb, əlini yellədi:

- Yadıma salma, xahiş edirəm! - dedi.

Bir qədər susdular. Sonra Ələmdar yenə də qətlin baş



downloaded from KitabYurdu.org

verdiyi otağa keçdi. Yenidən çarpayının qarşısında dayanıb ona baxmağa başladı.

Diqqətini nə cəlb etdisə, yaxınlaşıb stolun başına keçirilmiş köynəyi əlinə götürdü. Göy rəngli köynəyin sağ yaxasında çətinliklə gözə çarpan çoxlu sayda xırda qan ləkələri var idi. Çarpayıya baxdı: Qan buradan köynəyin üstünə sıçraya bilərdimi?.. Dönüb, o biri otaqda qalmış əməliyyat müvəkkilini səslədi:

- Allahverdi!

Kapitan Əbilov otağa daxil oldu:

- Getməyək, cənab mayor?

- Mənə mayor-filan demə, öyrəşməmişəm buna, sadəcə, Ələmdar de! - köynəyi əlində saxlamış Ələmdar dedi. - Bu köynəkdə çoxlu xırda qan ləkəsi var!

- Görmüşəm, - kapitan laqeydliklə dilləndi, - çarpayı tərəfdən sıçrayıb. Görürsən, divarda da ləkələr var...

- Onlar heç! Onları görürəm. Amma bunlar...

Ələmdar daha işıqlı olan o biri otağa keçib köynəyi stolun üstünə sərdi. Onun yaxasını düymələyib hamarladı. Sonra, nə gördüsə, yenə kapitanı səslədi:

- Əbilov, burada bir qan ləkəsi var...

- Nə? - o biri otaqdan gələn Allahverdi onu yaxşı eşitməmişdi.

- Qan ləkəsi!

- İndicə deyirdin, çoxlu qan ləkəsi var. - Kapitan kinayəli səslə dilləndi. - O ləkələr Qantural bıçaqla Nihatın sinəsinə vuranda da sıçraya bilərdi, başını kəsəndə də... Başa düşmürəm, orada qəribə nə görürsən...

Ələmdar hadisənin baş verdiyi otağa qayıdıb, köynəyi yerinə qoydu.


downloaded from KitabYurdu.org

- Siz ilk dəfə buraya gələndə, köynək stulun başına bu vəziyyətdə geydirilmişdi? - deyə soruşdu.
- Həl... Nədir ki? - Əbilov maraqlandı.
- Heç nə! - Ələmdar fikirli halda dilləndi. - Nəsə qəribə göründü mənə.
- Qəribə görünən başqa şeyiərdir. - Əbilov dedi.
- Nə, məsələn?
- Lap elə Nihatın mənzilə qadından əvvəl gəlməsi... Bizə məlumdur ki, Sənihə mənzilə girəndən bir az sonra ev telefonu ilə baldızı Əsmərə zəng vurub. Təxminən on beş dəqiqə danışıblar.
- Nə danışıblar? - Bu məsələ, deyəsən, Ələmdarı maraqlandırmışdı.
- Sənihə deyibmiş ki, guya yaman narahatdır, guya nədənsə qorxu hissi keçirir...

Ələmdar, gözü yenə də qanlı çarpayıda olduğu halda susub, heç nə demədi. Ortalığa çökmüş sükutu bir qədərdən sonra kapitan Əbilov pozdu:
- Nə fikirləşirsən?
- Fikirləşirəm ki, aprelin otuzu gecəsi burada nə baş verib?
- Bunu bilmək üçün mən də çox şeydən keçərdim. - Əbilov dedi və əlavə etdi: - Məncə daha hər şeyə baxdın. Gedək?
- Gedək! - Ələmdar bir daha otağa boylanıb dilləndi.

Mənzildən çıxan kimi hər ikisi təmiz havada ciyər dolusu nəfəs aldı. Kapitan qapını bağlayıb, yenidən surğucladı. Pilləkənləri düşəndə:
- Fotoşəkillərin buraya gəlib çıxması barədə indi fikrin nədir? - deyə soruşdu.


downloaded from KitabYurdu.org

- Qanturalı tapmaq lazımdır! - Ələmdar qəti şəkildə dilləndi.

- Bunu mən də bilirəm, - kapitan çiynini çəkdi. - Amma necə?

- O barədə fikirləşərik...

Blokun ağzından bir az kənarda dayanmış «Volvo»ya əyləşdilər. Ələmdar maşını əvvəlcə rayon polis idarəsinin qarşısına sürdü. Artıq nahar fasiləsi olduğu üçün Əbilov mənzilin açarını prokurorluğa bir azdan sonra özü aparacaqdı. Maşından düşüb Ələmdarla sağollaşdı və birdən:

- İndi nə etmək istəyirsən? - deyə soruşdu.

Ələmdar:

- Mən bir az fikirləşmək istəyirəm, - dedi. - Təklikdə...

Sonra maşını geri döndərib birbaşa idman klubuna sürdü. Qarışıq fikirlər beynində elə xaos yaratmışdı ki, bu saat tək qalıb düşünməyə, doğrudan da, böyük ehtiyacı var idi.

## Səksəninci fəsil

Foyedə Orxanla rastlaşan Ələmdar başını tərpətməklə salamlaşdı. Orxan onun fikirli olduğunu hiss edib, yanından səssiz sovuşdu, amma bir neçə addım atandan sonra birdən arxaya dönüb ucadan:

- Ələmdar qədeş, Cəhalə xanım yuxarıdadır. Bayaqdan səni gözləyir, - dedi.

Ələmdarın qanı qaraldı. Onun bu dəqiqə kiminləsə görüşməyə, danışmağa, söhbət etməyə qətiyyən həvəsi yox idi. Bayaqkı köynəkdə gördüyü bir qan ləkəsi onun qarşısında elə bir sual qoymuşdu ki, təcili olaraq, bu suala cavab tapmasaydı, heç cür rahat ola bilməyəcəkdi. O,



downloaded from KitabYurdu.org

kapitan Əbilovla söhbət etməklə, Qanturalın mənzilində müşahidə aparmaqla
hələ ki yeni bir şey qazanmamışdı. Əksinə, baş vermiş qanlı cinayətin mahiyyəti onun üçün daha da mürəkkəbləşmiş, daha da qaranlıq olmuşdu. Amma onu da anlayırdı ki, düz iş görüb Əbilovun yanına getməkdə...

Qanturalın mənzilində olarkən o, nə müstəntiqin, nə də əməliyyat müvəkkilinin görmədiyi bir şeyi görmüşdü. Bu, qan ləkəsi idi. Tək bir qan ləkəsi!

Amma bu, hələ ki ona heç nə vermirdi. Bu qan ləkəsi, hələ ki, onun fikirlərini qarışdırırdı. Fikirləşmək lazım idi. Dərindən fikirləşmək və həmin qan ləkəsinin sirrini açmaq lazım idi. Ələmdarın fikrincə, bu qan ləkəsinin sirri açılardısa, bir aydan bəri Əbilovun, müstəntiq İmanovun və bir çox
başqalarının beynini yoran suallara birdən cavab tapılacaqdı.

Cəhalə ikinci mərtəbədə, kabinetin qarşısında gəzişirdi. Ələmdarı görüb qaşqabağını salladı. «Bu saat giley-güzar başlanacaq» deyə düşünən Ələmdar onunla salamlaşdı:

- Salam! Çoxdan burdasan?
- Lap çoxdan! - Cəhalə dedi. - Harada idin bayaqdan? Telefonunu da söndürmüsən.
- Vacib işim var idi...

Ələmdar kabinetin qapısını açıb onu içəri dəvət etdi. Cəhalə içəri keçib divanda əyləşdi. Ələmdar da televizoru qoşub, öz yerinə keçdi...

Qan ləkəsi barədə düşünürdü. Ancaq qan ləkəsi barədə. Bu nə demək idi? Bu o demək idi ki ...

Cəhalənin bütün diqqəti onda idi. Sərbəst qalıb



downloaded from KitabYurdu.org

düşünməsinə mane olurdu üzünə zillənmiş bu baxışlar. Onu da danışdırmaq lazım idi.

- Necəsən?
- Pis! - Cəhalə kinayə ilə cavab verdi.

«Aha, tutaq ki, bu mənim düşündüyüm kimidir. Bəs onda...» Ələmdar indi polis idarəsində olarkən, vərəqləyib oxuduğu izahatlar haqqında düşünürdü. Daha doğrusu, onlardan biri haqqında. Qanturalın qonşusu... Nə idi onun adı? Rəhman?.. Bəhmən? Hə, deyəsən, Bəhmən! Onun izahatını xatırlayırdı. Amma bir də oxuya bilsəydi, çox yaxşı olardı o izahatı...

- Niyə? Nə olub axı? - deyə fikirli halda soruşdu.

- Hələ bir soruşursan da? O gün söz verdin ki, bu günə mütləq vaxt tapıb görüşəcəyik...

Cəhalə bu gün başqa cür geyinmişdi. Qara rəngli köynək, cins şalvar... Köynəyi elə idi ki, göbəyi də görünürdü, az qala. Şalvarı da tamamilə ətinə yapışmışdı. Əslində pis yaraşmırdı bu geyim ona. Amma tez çıxıb getsəydi, çox yaxşı olardı... Bəlkə desin ki, dur get, vacib işim var?.. Yox, qoy qalsın. O qədər də mane olmur... Bəs Əbilov bu saat yerindədirmi, görəsən? Prokurorluğa getməyibsə, yerində olar...

- Demişdim, görürsən ki, görüşdük. Hələ de görüm, o qadına, uşaqlara bu gün baş çəkmisənmi? Necədilər?

Cəhalənin incidiyi o saat hiss olundu:

- Məltəm xanımı soruşursan? Lap yaxşıdır. Rahat yer, o cür cavan oğlan da böyründə...

- Yaxşı görək! - Ələmdar tutuldu. - Camaata şər atma! Oğlanın öz arvadı yanındadır.

- Nə olsun? Arvadı heç nədi bunun yanında.



downloaded from KitabYurdu.org

- Məltəm elə qadın deyil!

Ələmdar bunu dedi və fikirləşdi ki, gərək Əbilovun iş və mobil telefonlarının nömrəsini götürəydi. Zəng vurub, oxutdurmaq olardı o izahatı...

- Pah! - Cəhalə başını işvə ilə silkələdi. - Sənin Məltəm xanımının elə sakit görünməyinə baxma.
Sən bilməzsən onun canında nələr var. Üzdən gözəldir, utancaqdır, hələ bir az da ağırtəbiətliyə oxşayır. Amma sən ona bir yaxınlaş, nə istəsən eləyər sənin üçün. Əri də ki, türmədə. Kimdən
qorxacaq? Elələrini ancaq qorxu saxlayır. O mənim yerimdə olsaydı, bilirsən nələr eləyərdi?

- Yaxşı, Cəhalə, axı sən niyə Məltəmdən danışırsan? Onun mənə nə dəxli var axı? Gözəldir, əri bilər, özü bilər. Biz, sadəcə, ona insanlıq xatirinə kömək etdik. Bir də ki, sənin özündən heç xəbərin yoxdur, bu gün necə gözəl görünürsən...

Cəhalə nazla gülümsədi:

- Mən həmişə gözəl görünürəm. Amma sən fikir vermirsən. Qaldı ki, sənin Məltəminə, gözəlliyinə- filana sözüm yoxdu. Amma... - bir az dayanıb, sözünün dalını rus dilində dedi. - Yağlı inəyə oxşayır!

Ələmdar kinayə ilə başını buladı. Hətta güclə sezilən bir təbəssüm də keçdi üzündən. Məltəm heç də kök-zad deyildi. Cəhaləyə nisbətən bir az bədəni
iri idi, bir azca da əti. O da ki, lazım olan yerlərdə. Bir də axı bunların ona nə dəxli var idi? Cəhaləyə nə olmuşdu bu gün? Yox, deyəsən, əməlli-başlı fikirləşməyə qoymayacaq onu... Amma fikirləşmək lazım idi. Əgər o qonşunun izahatını yadında düzgün saxlamışdısa... Onda bundan nə


downloaded from KitabYurdu.org

nəticə çıxmalıydı?..

Stolun üstündə telefon kitabçasını axtarmağa başladı. Tapan kimi vərəqləyib, barmağını rayon polis idarəsinin nömrəsinin üstünə qoydu. Sonra telefonun dəstəyini qaldırıb nömrəni yığa-yığa Cəhaləyə baxdı:

- Sənə nə olub Cəhalə, heç özündə deyilsən...

Cəhalə başını silkələdi:

- Səndə necə də dəhşətli səbir var! Guya bilmirsən ki, gecəm-gündüzüm yoxdur mənim. Hər an, hər dəqiqə səni fikirləşirəm. Daha Səxavətdən
də tamam soyumuşam. Neçə gündür ki, özü də hiss edir bunu...

Ələmdar əlini qaldırıb, Cəhaləyə susmaq işarəsi verdi və telefonun dəstəyinə:

- Salaməleyküm! - dedi. - Mənə Allahverdinin iş telefonunun nömrəsi lazımdır... Bəli... - Stolun üstündən qələm götürüb yazmağa başladı. - Çox sağ olun!

Elə danışırdı ki, hara zəng vurduğunu Cəhalə başa düşməsin. Ona «bir dəqiqə bağışla!» deyib kapitan Əbilovun nömrəsini yığmaq istəyirdi ki, qapı açıldı və Tələtlə yekəpər bir kişi içəri girdilər. Ələmdar telefonun dəstəyini əlində tutduğu halda onlara sərt nəzərlə baxıb:

- Nə soxulursunuz içəri? - deyə soruşdu.

Amma Tələtdə günah yox idi. Qapını bu kişi açmışdı. Tələt izahat verməyə başladı:

- Ələmdar qədeş, bu kişi işıq idarəsindən gəlib. Deyir ki, guya təzə pulla beş yüz manat borcumuz var. İlqar burda yoxdu. Amma on beş gün olar köçürtmüşdü pulu. Deyirdi ki, borcumuz-zadımız yoxdu!

Kişi etiraz etdi:



downloaded from KitabYurdu.org

- Xeyr, beş yüz manat borcunuz var!
Tələt çılğın halda əlini yellədi:

- Ə, on beş günə bu qədər pul? Hardan verək onu sənə? Pul kəsirik burda?

Yekəpər təmkinlə başını yellədi:

- Əl-qolunu üstümə oynatma, bala! Mənimlə adam kimi danışsaydınız, dil tapıb razılaşardıq.

Bu an Ələmdar oturduğu yerdən kişini ikrahla süzüb:

- Nə dil tapacaqsan ə, bizimlə? - dedi. - Sən öləsən, sənin dilini boğazından çıxardaram. Səni buradaca elə hala salaram ki, başınla ayağının yerini dəyişik salarsan!

Kişi heyrətlə gözlərini bərəldib Ələmdara baxdı və kəkələdi:

- Bu necə danışıqdır?! Bu sözləriniz sizə baha başa gələcək!

Ələmdar Tələtə ani bir baxışla baxıb, Əbilovun nömrəsini yığmağa başladı. Şefinin nə demək istədiyini anlayan Tələt o saat kişinin yaxasından yapışıb onu dəhlizə fırlatdı və qapını örtdü. Ələmdar, artıq, bir gözü Cəhalədə olduğu halda danışmağa başlamışdı:

- Mənəm, Ələmdar. Səndən bir xahişim var. O qonşunun yazdığını tap, oxu mənim üçün, bir məsələni dəqiqləşdirmək istəyirəm... Yox, başqa şeyə görə lazımdı, sonra deyərəm... Gözləyirəm. - Cəhaləyə: - incimə, xahiş edirəm, - deyib, yenə Əbilovla danışmağa başladı: - Hə, eşidirəm... Aha... - susub, bir qədər dinlədi. - Çox sağ ol, Allahverdi! Görüşəndə danışarıq, telefon söhbəti deyil. Hələlik!

Dəstəyi yerinə qoydu. Ona elə gəldi ki, hər şey bir az da qəlizləşdi. Ya, əksinə? Bəlkə bir az da baş sındırsaydı,


downloaded from KitabYurdu.org

bir şey anlaya biləcəkdi bu məsələdən? Nihat... Qantural... Qan ləkəsi... qara çanta... Yox, heç nə alınmırdı! Heç nə!

Cəhaləyə baxdı:

- Ərindən niyə soyumusan? Axı mən istəmərəm ki, sənin ailən dağılsın!

- İstəyirsən! - Cəhalə etiraz etdi. - Nə qədər ki, görüşməyimizə razılıq vermirsən, nə qədər ki mənə olan münasibətini dəqiqləşdirmirsən, mən belə olacam. Onda ailəmiz doğrudan da dağılacaq. Ancaq biz lap həftədə bircə dəfə görüşsək, mən bilsəm ki sən məni... - bir az duruxub, sonra əlavə etdi, - az da olsa istəyirsən, onda rahat olaram. Onda Səxavət də heç nə başa düşməz. Onunla da, heç olmasa, mehriban davrana bilərəm...

Qapı döyülərək açıldı və Orxan başını içəri uzatdı:

- Ələmdar qədeş, nahar eləyəcəksinizsə, yeməyinizi gətirim bura. Biz aşağıda oturmuşuq...

Ələmdar başını yellədi və Orxan dərhal çıxdı. Yemək yadına düşmürdü. İndi də Qanturalın mənzilindən götürülmüş fotoşəkillər haqqında düşünürdü. Polisin deməyinə görə şəkillərdə Nihatın əl izləri aşkar edilmişdi. Amma Ələmdar bilirdi ki, bu fotoşəkilləri kafedə Nihat yox, Qantural çəkib... Bu necə ola bilərdi? Bəlkə Qantural çəkib, amma çap etməyi Nihat edib?... Ya bəlkə?.. Başqa necə ola bilər ki?.. Şəkillərdə Nihatın əl izləri... Ev əşyalarının bir çoxunda, hətta paltar şkafında Nihatın əl izləri... Maraqlıdır...

Televizorda idmana həsr olunmuş bir veriliş göstərirdilər. Arada gənc idmançılar, məşqçilər müsahibə verirdilər. Karateçilərin məşqlərindən hissələr göstərməyə başladılar. İndi onların gənc məşqçiləri danışırdı. Ələmdar



downloaded from KitabYurdu.org

gülümsədi. Bu məşqçi də onun klubunda işləyirdi. Keçən il yaxşıca döyüb qovdu onu. Kluba gecə vaxtı, gizlicə, qadın gətirmişdi...

- Nəyə gülürsən? - Cəhalə incik səslə soruşdu. Bir gözü televizorda olan Ələmdar ayağa qalxıb soyuducudan albalı şirəsi götürdü. İki stəkana süzüb, birini Cəhaləyə verdi, o birindən isə bir qurtum içib yenə öz yerinə keçdi.

- Cəhalə, biz demək olar ki, həftədə azı bir dəfə görüşürük.

- Mən belə görüşmək demirəm! - Cəhalə hirsləndi. - Bir də ki, lap istəyirsən, ayda bir dəfə görüşək. Ancaq bilim ki, sənin ürəyindəki mənəm. Başa düşürsən məni?

Ələmdar onu lap yaxşı başa düşürdü. Bilirdi ki, bu qadın onu sevir. Sevir və ondan da eyni sevgi gözləyir. Lakin Ələmdar hələ ki, onun düşdüyü bəlaya düşməmişdi və aldatmaq da istəmirdi onu. Belə hesab edirdi ki, ona «sevirəm» sözünü desə, qadını yolundan azdırmış olacaq və bunu sonradan özünə bağışlaya bilməyəcək.

O, Cəhalənin ona qədər ərinə xəyanət etmədiyinə inanırdı. Bu gənc və gözəl qadının, əslində, qəlbən təmiz və sadəlövh olduğunu da duyurdu. Bəzən lap yazığı da gəlirdi ona... Ancaq neyləməliydi ki?.. Lap tutaq ki, onun dediyini elədi. Başladılar tez-tez görüşməyə. Məhəbbət də alovlanıb öz əndazəsindən çıxdı. Bəs sonra? Sonrası nə ilə qurtaracaqdı bunun? Səxavət gec-tez xəbər tutub boşayacaqdı Cəhaləni... Ələmdar onunla evlənməyəcəkdi ki?! Hələ anası bilsəydi, gör nə tufan qopardı. Düzdür, Əminə arvad Cəhaləni yaman çox istəyirdi. Amma heç cür


downloaded from KitabYurdu.org

qəbul edə bilməzdi bu sayaq işləri. Ələmdarı quru yuyub, yaş sərərdi...

- Niyə başa düşmürəm? Lap yaxşı başa düşürəm... - dedi.

Birdən gözü televizorun ekranında Qanturalın iri planda göstərilən şəklinə sataşdı. Əlini qaldırıb, Cəhalənin demək istədiyi sözü ağzında qoydu.
Sonra cəld pultu götürüb televizorun səsini qaldırdı. Diktor qızın səsi otağa yayıldı:

- ...gözləri qonurdur. Böyründən aldığı güllə yarasından, yeriyəndə sağ ayağını azacıq çəkir. Sağ qaşının üstündə kiçik çapıq var. Ona rast gələnlərdən xahiş olunur ki, dərhal aşağıda göstərilən telefonlara zəng vurub məlumat versinlər. Zəng vuran şəxsin anonimliyi təmin olunacaq...

Ələmdar televizorun səsini yenidən azaldıb, pultu stolun üstünə atdı. Albalı şirəsindən bir qurtum içib yenə dərin fikrə qərq oldu. Cəhalə birinci dəfə idi
ki, Qanturalın şəklini görürdü. Televizorda verilən elanı yarımçıq eşitdiyi üçün:

- O kim idi? - deyə soruşdu.
- Qantural! - Ələmdar fikirli halda cavab verdi.
- Qantural? - Cəhalə sanki söhbətin kimdən getdiyini anlamadı.
- Hə, sənin qayınlarını öldürən adam...
- Allah onun bəlasını versin! - Cəhalə ürəkdən qarğış elədi. - Kaş o güllə onun böyrünə yox, ürəyinin başına dəyəydi o vaxt!

Ələmdar bayaqdan əlində tutduğu stəkana baxırdı. Birdən başını qaldırıb qəribə nəzərlərlə Cəhaləni süzdü.



downloaded from KitabYurdu.org

Bir neçə an beləcə keçəndən sonra nəsə demək istədi. Amma fikrindən daşındı, deyəsən. Sonra bu sözlər ağzından qeyri-iradi çıxdı elə bil:

- Niyə elə deyirsən? Ermənilərlə döyüşdə yaralanıb o...

- Nə olsun?! - Cəhalə onunla razılaşmadı. - Belələri düşməndən də pisdi bizim üçün. Düşmən yenə bilirsən ki, düşməndir!

Ələmdar ona yaxşı qulaq asa bilmirdi. Ayağa qalxıb:

- Bağışla, bu saat qayıdıram, - dedi və kabinetdən çıxdı.

Əllərini şalvarının ciblərinə qoyub, boş dəhliz boyu addımlamağa başladı. Qaşları alnının ortasında düyünlənmiş, dodaqları bərk-bərk bir- birinə sıxılmışdı. Elə hey, nəyinsə barəsində düşünürdü. Dəhlizin o biri başından gələn İlqar ona çatanda təəccüblə:

- Nə olub, Ələmdar? - deyə soruşdu.

Ələmdar hövsələsiz halda əlini yellədi və İlqar dərhal ondan uzaqlaşıb birinci mərtəbəyə endi. Dəhlizdə yenə də o baş-bu başa gəzən Ələmdar birdən dayanıb, sağ əlinin yumruğunu yuxarı qaldırdı və bütün qüvvəsilə divara çırpdı.

- Tapmışam, deyəsən! - deyə dodağının altında pıçıldadı.

Divara vurduğu əli zərbənin təsirindən gizildəyirdi. Bu, elə bil onu bir az sakitləşdirdi. Öz- özünə:

- Bir az da fikirləşmək lazımdır! - dedi. - Bir az da...

Ancaq ağlına yenicə gəlmiş fikir beynini elə doldurmuşdu ki, daha başqa bir şey fikirləşə də bilmirdi. Məqsədsiz halda bir qədər də dəhlizdə



downloaded from KitabYurdu.org

gəzişib kabinetə qayıtdı. Yerinə keçib, fikirli halda, albalı şirəsindən bir neçə qurtum içdi.

- Nəsə, birtəhərsən, Ələmdar, nə olub? - ona canıyananlıqla baxan Cəhalə soruşdu. - Bəlkə hansısa sözümdən incidin?

- Yox, heç nə olmayıb. - Ələmdar başını buladı.

- Bəlkə Məltəm haqqında dediklərim xətrinə dəydi? O qadından mənim də xoşum gəlir. Gözəldir, mehribandır, şirindildir... Sənə də biganə deyil. Hiss eləmişəm... Amma... Müasir xarakterli qadın deyil... Mənim verə biləcəklərimi verə bilməz sənə... O cür qadınlar öz ehtiraslarını həmişə içlərində gizlədirlər. Həmişə tərəf müqabilindən nəsə gözləyirlər...

«Bu nə danışır?...» Ələmdar gülümsədi:

- Narahat olma, xətrimə-zada dəyməmisən. O qadından da az danış, bir az. Mən onun haqqında, ümumiyyətlə, düşünmürəm.

Cəhalə, sanki, bir az sakitləşdi. Yenə birdən-birə ciddiləşən Ələmdar telefonun dəstəyini əlinə alıb, Allahverdi Əbilovun nömrəsini yığdı:

-Alo, Allahverdi, yenə mənəm, Ələmdar... Yox, mənə bir şey lazım deyil. Zəng vurdum deyəm ki, göstəriş olmasın, çalışın, bir müddət Xanəlini, qardaşını, ümumiyyətlə, ailə üzvlərini qoruyun...

Yox, mən hər halda, nə dediyimi bilirəm... Bir də çalış, Qanturalla əlaqədar nə tədbir görsən, nə əməliyyat keçirsən, mənim xəbərim olsun. Ələkbərin işi ilə əlaqədar, Xanəlinin vəziyyəti daha qorxuludur... Bilirəm... Bəlkə də hələ içəridə qalması onun üçün daha sərfəlidir. Buraxıb eləsəniz, mütləq mənə deyin!.. Yeri gəlmişkən, sən cib


downloaded from KitabYurdu.org

telefonunun nömrəsini de, yazım. Zəng vuracam, mənim də
nömrəm səndə olsun. Lazım olar. - Qələmi götürüb, Əbilovun nömrəsini stolun üstündəki qeyd dəftərinə yazdı. - Yaxşı, mən indi zəng vuracam. Bir də deyirəm, siz hələlik ancaq onların təhlükəsizliyini təmin edin. Mən hələ bir az fikirləşməliyəm. Sonra görüşüb, lazım olarsa, birlikdə tədbir görərik. Sağ ol!

Dəstəyi yerinə qoyub, cib telefonunu çıxartdı.
Öz nömrəsini bildirmək üçün Əbilova zəng vurub, yenidən telefonu qapadı. Sonra Cəhaləyə baxıb:

- Sən də, bacardığın qədər ehtiyatlı ol! - dedi. - Səxavətə də tapşır heç yerə tək çıxmasın!

- Səxavətin kiminlə işi var ki, onunla da kiminsə işi olsun. - Cəhalə gülümsədi. - Qaldı mənə, narahat olma, məni iki nəfər əjdaha kimi oğlan qoruyur.

Ələmdar yüngül bir istehza ilə dilləndi:

-Arxayın olma! Namərdliklə vurulan zərbə əjdaha üçün də qorxuludur.

- Başa düşmürəm, sən nə üçün bu işlərə qarışırsan? - Cəhalə təəccüblə soruşdu.

Bu suala başqa cavab tapmayan Ələmdar yalan deməyə məcbur oldu:

- Sənə görə!

Bu cavab Cəhalənin çox xoşuna gəldi. Neçə gündən bəri canına hopmuş narahatlıqlar uçub getdi elə bil. Şirin-şirin gülümsədi:

- Əgər doğrudan belədirsə, mən xoşbəxtəm!

Ələmdar söhbətin yönünü dəyişmək istədi:

- Xanəlini polisdən buraxsalar, Qantural ondan mütləq



downloaded from KitabYurdu.org

intiqam almağa çalışacaq. Gərək, ehtiyatlı olsun.

- Xanəlinin də üç qoruyucusu var. - Cəhalə dedi. - Təkcə elə başçıları beş Qantural kimisinə bəsdir. Əməlli-başlı banditə oxşayır.

- Kimdi ki o? - Ələmdar maraqla soruşdu.

- Qusardan gəlib. Adı da Səlahəddindi, deyəsən...

Ələmdar fikrə getdi. Kapitan Əbilov ona Xanəlinin iki qoruyucu saxladığını demişdi. Həmin iki nəfər Ələkbər öldürülən gün Xanəli ilə birlikdə polis idarəsində olublarmış. Onların adları başqa idi... Ələmdarın ağlına gəldi ki, Ələkbəri elə həmin Səlahəddin öldürüb. Hə, bu çox ağlabatan idi. Xanəli Səlahəddinə öldürtdürüb Ələkbəri. Sonra da Səlahəddinin varlığını polisdən gizlədiblər. Qatili Xanəlinin şübhəli qohumları, dostları, işçiləri arasında axtaran kapitan Əbilov da buna görə heç nəyə nail olmamışdı. Ələmdar bir istədi ki, zəng vurub bunu Allahverdiyə bildirsin. Amma tez də fikrini dəyişdi. Ağaşamil ailəsinin Səlahəddin kimisinə ehtiyacı var idi bu saat. Onu bütün işlər yoluna qoyulub, ara sakitləşəndən sonra da həbs etmək olardı.

- Bəs sənin qoruyucuların haradan gəlib? - yarızarafat soruşdu.

- Nə bilim? - Cəhalə çiynini çəkdi. - Mən onlarla danışmıram. Nədi? Yoxsa qısqanırsan məni?

- Niyə də qısqanmayım?.. - Ələmdar ayağa qalxıb onun yanına gəldi. Çox istəyirdi ki, Cəhalə indicə durub getsin. Tək qalıb fikirləşməyə çox ehtiyacı var idi.

- Deyəsən, bu gün mənim, doğrudan da, xoşbəxt günüm olacaq! - deyən Cəhalə ayağa qalxıb Ələmdara sarıldı.



downloaded from KitabYurdu.org

«Asmera»nın gözəl iyi o saat Ələmdarı vurdu.
O, iki əli ilə qadının belini ehmalca qucaqladı.
Cəhalə yuxarı dartındığı üçün, Ələmdarın əlləri onun çılpaq belinə toxunurdu. Ələmdar onu çılğınlıqla öpən qadını ehtiyatla özündən aralayıb:

- Daha bəsdir, indi get, sonra görüşərik, - dedi. - Uşaqlar yanıma çıxacaqlar. Vacib tədbirimiz var.

Başqa vaxt olsaydı, bəlkə də Cəhalə inciyərdi. Amma indi incimədi.

- Nə vaxt görüşəcəyik? - deyə sakitcə soruşdu.
- Lap tez...
- Yaxşı, nə deyirəm... Əminə xala necədir?
- Yaxşıdır, çox sağ ol! - Ələmdar qapıya baxdı.
- Mən getdim!

-Get!

Cəhalə bir daha Ələmdara sarılıb onun üzündən öpdü. O otaqdan çıxan kimi Ələmdarın sifəti birdən- birə tutuldu. Öz yerinə keçib stolun üstündəki düymələri basdı. Bir dəqiqə sonra İlqar, Tələt, Orxan qapını açıb içəri daxil oldular...

Səksən birinci fəsil

Ertəsi gün, günortaya yaxın Miraslanovun yeni tikilmiş villasının həyətində darıxdırıcı bir sakitlik hökm sürürdü. Mehdi həyat yoldaşı Baharla həyətdəki kölgəliyə qoyulmuş stolun arxasında oturmuşdu. Heç biri danışmırdı. Bahar günorta yeməyinə hazırlıq görmək üçün kartof soyur, Mehdi isə siqaretini sümürə-sümürə nəyinsə barəsində fikirləşirdi. Ona təklif olunmuş bu yeni iş müəyyən mənada ürəyindən olsa da, malikanədən kənara çıxmaq imkanından məhrum olması və yoldaşları ilə əlaqə


downloaded from KitabYurdu.org

saxlaya bilməməsi qanını qaraldırdı. Amma Ələmdar demişdi ki, bu vəziyyət uzun sürməyəcək və Mehdi də tezliklə azadlığa çıxacağına inanırdı.
Qəribədir... Görəsən, bu Ələmdar kim idi?.. Bütün bu işləri həmin bu Məltəm xanımın ələ keçməməsi üçünmü edirdi? Ya bəlkə Mehdinin bilmədiyi başqa məsələlər də var idi bu işdə?..

Mehdi bu qadının aprelin 23-də kafeyə gəlməsini, o kişilərlə bir süfrə arxasında əyləşməsini yaxşı xatırlayırdı. Hələ, yanında oturduğu həmin kişi ilə otağa da girmişdi. Bütün bunları xatırlasa da, gördüklərinə inanmaq istəmirdi Mehdi. İnanmaq istəmirdi, vəssalam! Birincisi, otağa girəndə görməmişdi onları. Sonrası da lap girmişdisə də, yəqin, tamam başqa məqsəd var imiş burada...

Məltəmdən yaman xoşu gəlirdi Mehdinin. Onun fikrincə, bu qadın çox gözəl idi və eyni zamanda, gözəllikdən başqa nəsə var idi bu qadında... Həmin «nəsə» Məltəmi bu gənc oğlanın nəzərində
başqalarından çox-çox fərqləndirirdi. Ona elə gəlirdi ki, Məltəm heç vaxt, heç bir kişi ilə yaxınlıq etməyib və bunu heç ağlına da gətirmir. Heç kəsin əli toxunmayıb ona.

Bəs kafedəki o kişi?.. Əşi, yox! Orada heç nə olmayıb! Mehdi uşaq-zad deyil ki... Elə işlə məşğul olan qadınları üzdən lap yaxşı tanıyırdı. Məltəmə heç kəsin əli-zadı dəyməyib. Heç bəlkə ərinin də... Özündən asılı olmayaraq, öz fikrinə gülümsədi. Bu qadının iki uşağı var idi... Deməli, ən azı, ən azı iki dəfə...

Amma nə qədər qəribə görünsə də, Mehdi bunu təsəvvürünə gətirə bilmirdi. Niyə?.. Məltəmin bir qadın kimi çox cazibədar görünüşü var idi. Öz bədəninin


downloaded from KitabYurdu.org

gözəlliyini, bir çoxları kimi, qabarıq şəkildə göstərməyə heç bir səy göstərməsə də, ağzının
dadını bilən hər bir kişinin diqqətini cəlb edə bilərdi. Bəlkə bu qadının simasındakı təmizliyin, abır- həyanın, analıq duyğusunun daha qüvvətli nəzərə çarpması idi Mehdini çaşdıran?..

Çalışdı ki, Məltəmi soyunub kiminsə qoynuna girdiyi vəziyyətdə təsəvvür etsin. Lap elə tutaq ki, ərinin. Amma bundan bir şey alınmadı. Bu qadını, hətta xəyalda da soyundurmaq mümkünsüz gəldi ona. Sonra özü ilə təsəvvür etmək istədi onu... Elə bu fikrin özündən bədənini xoş bir həyəcan bürüdü. Amma... Yenə dərinə gedə bilmədi xəyalında. Ağlabatmaz bir şey hesab elədi bu xəyallarını və qəti qərara gəldi ki, bu qadın... Yox, bəlkə heç soyunmur da!..

Arvadına baxdı. Bahar arıq, ağbəniz bir gəlin idi. Ona baxanlar hansısa bir xəstəliyi olduğu barədə
düşünərdilər. Bəlkə də indiyə qədər yaşadıqları havası ağır, nəm zirzəminin ucbatından belə xəstəhal görünürdü. İndisə, deyəsən, çox razı idi düşdükləri bu yerdən.

- Elə həmişəlik qalarıq burada, - bu sözü artıq neçənci dəfə idi ki, deyirdi.

Mehdi başını tərpətməklə razılığını bildirdi. Bahar onun xalası qızı idi və onunla evlənməyinə peşman olmamışdı. Sakit, mehriban xasiyyəti var idi. Ondan yaxşısını tapmaq barədə heç düşünməmişdi də. Amma indi necə oldusa, arvadını bir anlıq Məltəmlə müqayisə etdi. Çox istəyərdi ki, Məltəmin ərinin yerində olsun. Çox istəyərdi! Amma onu da anlayırdı ki, belə qeyri-adi xoşbəxtlik hər kəsə nəsib olmur və ona görə də bu xam


downloaded from KitabYurdu.org

xəyalını beynindən qovub uzaqlaşdırdı. Onun bəxtinə Bahar düşmüşdü

və əslində, heç də narazı-filan deyildi ondan. Məltəm kimisinin əri olub xoşbəxtlikdən dəli olmaqdansa, belə sakit və xoş ömür sürmək daha sərfəli olardı, yəqin ki...

Bu vaxt Məltəm villadan çıxıb onlara tərəf gəlməyə başladı. O, uşaqları ilə birlikdə villanın birinci mərtəbəsində yerləşmişdi. Mehdi isə öz arvadı ilə həyətdə xidmətçi heyət üçün tikilmiş otaqların birində olurdu. Məltəm gəlib Baharın yanında əyləşdi. Əlini kartof yığılmış qaba uzadıb:

- Ver, mən soyum! - dedi.

- Yox, Məltəm bacı, narahat olma, özüm soyacam. - Bahar minnətdarlıqla etiraz etdi.

Məltəm əl çəkməyib, öz şirin ləhcəsi ilə:

- Ver, sən Allah! - dedi. - Onsuz da bekaram.

Elə bil özündən dörd-beş yaş kiçik olan bu cavanlardan da utanırdı. Yanaqlarına zərif bir qızartı çökmüşdü. Bahar daha inad etməyib, əlindəki bıçağı ona verdi və Məltəm kartofları soymağa başladı.

- Uşaqlar yatıblar? - Bahar soruşdu.

- Yox, - Məltəm başını silkələdi, - oynayırlar özləri üçün.

Mehdi oğrun baxışlarla ona göz qoyurdu. Əynində yenə də evdən çıxanda geyindiyi göy rəngli kofta və yubka idi. Bir qədər qabağa əyildiyi üçün, yuxarıdan aşağı göy rəngin altında gizlənmiş bədəni bir qədər gərilmiş, arxa hissəsi qabarmışdı. Bahar ayağa qalxıb:

- Mən də gətirib salat düzəldim, - dedi və pomidor-xiyar gətirmək üçün mətbəxə getdi.



downloaded from KitabYurdu.org

Onu arxadan izləyən Mehdi baxışlarını Məltəmə sarı döndərəndə gözü bayaqkı göy rəngin arasında yaranmış açıq qəhvəyi rəngli zolağa sataşdı. Bir qədər gec olsa da, bunun qadının kalqotkasının bel hissəsi olduğunu anlayan Mehdini təsvirəgəlməz bir xoş həyəcan bürüdü. Ona elə gəldi ki, bayaqkı xam xəyallarının gerçəkliyinə doğru tam bir addım atıb.

Bu vaxt ürəyinin döyüntüsü də artdı sanki və Məltəmin bunu duyacağından qorxurmuş kimi, nə edəcəyini bilmədən, ətrafına boylandı.

Məltəm hər şeyi başa düşmüşdü, deyəsən. Dikəlib, özünü düzəltdi və sol əlindəki kartofu stolun üstünə qoyub, koftasının ətəyini aşağı çəkdi. Kirpiklərinin ucu ilə Mehdiyə ani bir nəzər salıb, bu ortaboylu, çəlimsiz oğlanın nə hala düşdüyünü qadınlara məxsus incə qürur hissi ilə müşahidə etdi.

Bahar əlindəki qabda pomidor, xiyar, gətirib stolun arxasına keçdi və salat hazırlamağa başladı. O, ərində baş vermiş dəyişikliyi hiss etməmişdi. Ağlına heç nə gətirmədən öz işi ilə məşğul idi.

Məltəm Mehdinin nə düşündüyünü yaxşıca anlayırdı. Hətta az qaldı ki, bu gəncin istədiyini öz xəyalında canlandırsın. Ancaq tez də qaçdı bu fikirdən. Salehi, uşaqlarını xatırladı... Nə yaxşı ki, nə yaxşı ki, bu Ələmdar var imiş! Nə yaxşı ki, o vaxtında Məltəmin həyatına daxil oldu. Onun ruhunu, mənliyini özünə qaytardı. Nə yaxşı ki, Məltəm, əzab çəkə-çəkə də olsa, Salehin yanına getdi, onunla görüşdü. Bütün bunlar onun qəlbində özünün, uşaqlarının gələcəyinə az-çox inam yaratmışdı. Az- çox... Amma yenə də hərdən ruh düşkünlüyünə qapılırdı. Saleh



downloaded from KitabYurdu.org

hələ uzun müddət həbsxanada
yatacaqdı... Lap günahsız olsa da, olmasa da... Nələr gözləyirdi Məltəmi bundan sonra? Lap tutaq ki, dözüb uşaqlarını böyüdəcək, Salehi gözləyəcək, bəs sonra? Salehlə yenidən bir yerdə yaşayanda hər gün necə baxacaq onun üzünə? Lap tutaq ki, Ələmdarın dediyi kimi, uşaqların gələcəyi üçün, ailənin dağılmaması üçün hər şeyi ərindən gizlətdi... Bəs özü?.. Unutmaq istəsə də, unuda bilmirdi axı, Əlifağanın onu zorlamağını, özünün bu təhqirlə barışmağını, daha sonra Nəcməddinlə olmasını... Unuda bilmirdi. Hər dəfə yadına düşəndə özünü narahat hiss edirdi, hər şey mənasızlaşırdı gözündə. Niyə belə olurdu, özü də baş aça bilmirdi. Niyə axı artıq olub keçmiş bir şeyi unutmaq olmurdu?..

Necə oldusa, birdən-birə düşündü ki, kaş o alçaqların əvəzinə Ələmdarla olmuş olaydı... Bu,
xəyanətin mahiyyətini dəyişməsə də, heç olmasa, ağrı-acıyla, nifrətlə xatırlamazdı o hadisəni... Özünü bu qədər təhqir olunmuş hiss etməzdi hər yadına düşəndə... Hələ bəlkə də... Nə isə... Bu fikir birdən- birə ağlına gəlmişdi və özü də tam anlamırdı ki, düz fikirləşir, yoxsa yox...

Tez-tez Allaha üz tutub yalvarırdı ki, onun sirrini açmasın. Elə qorxurdu ki, nə vaxtsa Əlifağa, ya Nəcməddin, ya həmin o Qantural adlı adam onun sirrini yaya bilər. Ya elə həmin bu Mehdi... Görəsən, o görmüşdümü Məltəmin Nəcməddinlə görüş otağına girməyini?..

Darvazanın zəngi çalındı. Mehdi cəld ayağa qalxıb qapını açmağa getdi. Gələn Ələmdar idi. Məltəm, özündən asılı olmayaraq, sevincək ayağa


downloaded from KitabYurdu.org

qalxıb əlindəkiləri stolun üstünə qoydu və onun qabağına getdi...

Ələmdar əlindəki ərzaq dolu torbaları Mehdiyə verib, onu mətbəxə göndərəndən sonra qarşısına gələn Məltəmə diqqətli bir nəzər saldı. Bu qadın, nədənsə, getdikcə daha çox doğma gəlirdi ona. Nədən idi bu görəsən? Üzünü görməsə də, neçə illər yadına salıb, xatırladığına görəmi? Ya Ələmdarın ağır gününün şahidi olmuş, öz qeyrətli hərəkəti ilə ona əlavə güc verib düşmən əsirliyindən xilas olmasına bir növ kömək etmiş bacısı Mahirəyə görəmi? O vaxt Mahirənin həmin bu Məltəm haqqında dediyi sözlər indiyə kimi yadında qalmışdı:

«Bir bacım qalıb Bakıda, universitetdə oxuyur. Çox gözəldir. Həm də, mehriban, səmimi qızdır.
Hamı çox istəyirdi onu. Qohumlar, qonşular... Belə,
necə deyim, istiqanlıdır, şirindillidir... Amma o mənim kimi dözümlü deyil, bir az zəifdir, iradəsizdir. Nə yaxşı ki, o faciələri gözüylə görmədi. Yoxsa dözməzdi, dözə bilməzdi....»

Taleyin işinə bax! Gör, onları necə rastlaşdırdı... Amma o vaxt tələbə olan cavan bir qız uşağı idi Məltəm və keçən on üç il ərzində onu elə beləcə xatırlamışdı Ələmdar. İndi isə... Ərdə idi o... İki uşaq anası idi...

- Salam! - Məltəm çatıb mehribanlıqla salam verdi.

- Salam! - Ələmdar da onun salamını eyni mehribanlıqla aldı. - Vəziyyət necədir? Darıxmırsan ki?

- Yox... Çox sağ olun!..

Məltəmin gözlərində mehribanlıqdan, minnətdarlıqdan başqa bir nisgil, bir qorxu da var idi. Ələmdar bəlkə də bunları görmək istəmədiyi üçün baxışlarını ondan çəkdi:


downloaded from KitabYurdu.org

- Darıxma, hər şey yaxşı olacaq, - dedi. - Hər şey öz yoluna düşəcək. Bunun üçün sənin azacıq iradə göstərməyin kifayətdir.

Məltəm kövrəldi və bayaq düşündüklərini özü də bilmədən dilinə gətirdi:

- Nə yaxşı ki, siz varsınız...

Ələmdar susdu. Sonra nəsə demək istəyirdi ki, cib telefonu zəng çaldı. Zəng vuran İlqar idi.

Ələmdar telefonu qulağına aparıb:

- Hə, İlqar, eşidirəm! - dedi.

Sonra İlqarı bir qədər dinləyib, bir gözü Məltəmdə olduğu halda danışmağa başladı:

- Nə cür qızdır yanındakı?.. Yox, onda hələlik işiniz olmasın. Amma gözdən də qoymayın. Mənimlə tez-tez əlaqə saxlayın... Yaxşı... Yorulanda bir- birinizi əvəz edin. Zənginizi gözləyəcəm!

Telefonu qapayıb pencəyinin cibinə qoydu. Bir az Məltəmə baxıb sonra dilləndi:

- Sabah həbsxanaya Salehin yanına gedəcəm. Sözündən-filandan yoxdur ki?..

- Salam deyərsiniz... - Məltəm dedi və birdən nə düşündüsə, soruşdu: - Siz ona nə deyəcəksiniz?

Ələmdar mənalı şəkildə başını tərpətdi:

- Sən o gün oğluna vəziyyəti necə anlatdınsa elə o cür də deyəcəm.

Məltəm qızardı.

- Utanma! - Ələmdar davam etdi. - Bizim başqa yolumuz da yoxdur. Mən çox istəyirəm ki,
sizin ailənizi yenə də bir yerdə, özü də xoşbəxt görüm.

- Bu mümkün ola bilərmi? - Məltəm kədərlə başını



downloaded from KitabYurdu.org

yırğaladı.

- Həyatda mümkün olmayan heç nə yoxdur! - Ələmdar bunu deyib saatına baxdı. Deyəsən, harasa tələsirdi. - Bir şeyə ehtiyacınız var?

- Yox, sağ olun, Cəhalə xanım lazım olan hər şeyi alıb gətirib.

Məltəm Cəhalənin adını, elə bil ki, bir az qısqanclıqla çəkdi. Ya bəlkə də bu Ələmdara belə gəldi. Darvazaya doğru gedib onu açdı. Bir də geriyə dönüb:

- Darıxmayın! - dedi. - Evinizə qayıtmağınıza az qalıb.

Onu yola salıb stolun yanına qayıdan Məltəm Baharın ona qadınlara xas olan qəribə bir maraqla baxdığını hiss etmədi. Ələmdarın münasibəti yaman kövrəltmişdi onu. Doyunca ağlayıb ürəyini boşaltmağa gizlin yer axtarırdı...

Səksən ikinci fəsil

Artıq hava qaralmışdı. Dəniz kənarında yerləşən «Mirvari» kafesindən çıxan Fuadla Nərgiz söhbət edə-edə küçəyə tərəf addımladılar.

- Demək, sabah «son zəng»di sizdə... - Fuad dilləndi.

- Hə. - Nərgiz cavab verdi. - Saat 12-yə qədər məktəbdə olacağıq. Sonra evə gedib paltarımızı dəyişəcəyik. Saat 5-də restoranda yığışmalıyıq. Əsas tədbir orada olacaq...

- Onda, birisigün yenə görüşərik.

Sabah, əslində, Fuadın da başı qarışıq olacaqdı. Əlifağa Sadıxov oğlunun dəfninin əlli ikinci günü ilə əlaqədar yenə ehsan verəcəkdi və Fuad da orada iştirak etməliydi.

- Yaxşı... - qız razılaşdı.

Fuad orta məktəbi sabah bitirəcək bu bəstəboy, ağbəniz



downloaded from KitabYurdu.org

qızla bir ilə yaxın idi ki, tanış olmuşdu. Bir neçə dəfə görüşüb gəzintiyə də çıxmışdılar. Polis rəisinin bu ərköyün oğlu oturub-durduğu çox saylı qadınlar, qızlar içində Nərgizə xüsusi münasibət bəsləyirdi. Onun səmimiliyi, sadəlövhlüyü oğlana çox xoş gəlirdi. Amma dostu Rafiqin ölümündən sonra heç bir qızla, o cümlədən Nərgizlə də görüşməmişdi. Həmin faciəli hadisədən keçən iki aya yaxın müddət ərzində hamıdan gen gəzib, özünə qapılan Fuad bu gün ilk dəfə qəlbinə daha yaxın hesab etdiyi Nərgizlə görüşmək qərarına gəlmişdi. Gündüz saat 11-də görüşmüşdülər. İndiyə qədər bir yerdə idilər və vaxtın haradan gəlib keçməsindən də xəbərləri olmamışdı.

- İndi evdə narahatdılar mənə görə, - qız saatına baxıb dilləndi.

- Gedək, səni aparıb evinizə qoyum. - Fuad sağ əli ilə Nərgizin çiynindən yapışıb, onu özünə sıxdı.

Maşını küçənin kənarında saxlamışdı. Qapını açıb əvvəlcə qızı içəri dəvət etdi. Sonra isə özü də sükanın arxasına keçib maşını hərəkətə gətirdi. Elə həmin anda, alaqaranlıq küçədə, beş-on metr arxada dayanmış «Volsvagen» markalı maşın da yerindən tərpənib onu addımbaaddım izləməyə başladı...

Fuad Rafiqin öldürülməsindən sonra çox dəyişilmişdi. Keçirtdiyi qorxu və sarsıntılar həm xarici görkəminə, həm də xarakterinə təsirsiz ötüşməmişdi. Xeyli arıqlamış, qaradinməz və adamayovuşmaz olmuşdu.

O, Rafiqə qoşulandan sonra narkotik maddələrin dadını bilmiş, gününü kafelərdə, restoranlarda, barlarda, saunalarda qızlarla- qadınlarla keçirməyə başlamışdı. Ona elə gəlmişdi ki, bütün həyatı belə kef-damaq içində


downloaded from KitabYurdu.org

keçəcək. Qəti inanmışdı ki, ona mane ola bilən, qarşısına çıxıb «Dur!» deyə bilən bir adam yoxdur və olmayacaq da!

Ancaq Rafiqin qətlindən sonra möhkəm qorxmuşdu. Həm də bu qorxu ötüb keçən bir hiss olmamış, onu əməlli-başlı sarsıdıb, sındırmışdı.

Üstəlik, dostunun əsl qatilini tanıması və onun adını dilinə gətirə bilməməsi Fuadı içəridən yeyib- tökürdü. O bilirdi ki, Saleh günahsız yerə yatır

həbsdə. Bilirdi ki, Rafiqi öldürən tamamilə başqa bir adamdır. Amma qorxurdu o adamdan... Çox qorxurdu! Bu dəhşətli sirri onu gölün kənarına apartdırıb danışdıran o naməlum şəxsdən başqa heç kəsə, heç atasına da açmamışdı. Düşünürdü ki, bu sirri açarsa, Rafiqin qatili, nə vaxtsa, ondan öz intiqamını alacaq...

Bundan başqa, onu gölün kənarına aparan adamlardan da çox qorxurdu. «BMV»-də oturub onu sorğu-sual edən həmin kişi gördüklərini, nə vaxtsa, kiməsə danışmağı qəti qadağan etmişdi ona. Fuad yaşamaq istəyirdi. Həm də, dinc, rahat və qorxusuz yaşamaq istəyirdi...

Rafiqin ölümündən sonra, onun qatili neçə gecə yuxusuna girmişdi Fuadın. Gözlərini bərəldərək, dəmir kimi möhkəm barmaqlarını boğazına keçirmiş,

onu boğmağa çalışmışdı. Bütün bədəni tər içində, dəhşətlə ayılmışdı belə yuxulardan... Polkovnik Mirzəyev onda baş verən bu dəyişiklikləri hiss edib, dəfələrlə sorğu-suala tutsa da, heç nə deməmişdi atasına.

Qanturaiın törətdiyi cinayətlərdən də xəbəri var idi. Bilirdi ki, atasının başçılıq etdiyi polis şöbəsi bir aydan çoxdur bu ələkeçməz qatili axtarır. Dalbadal baş verən cinayətlərin mahiyyətini hələ də anlaya bilmirdi Fuad və



downloaded from KitabYurdu.org

bütün bu müəmmalı hadisələr onun narahatlığını durmadan artırırdı...

İndi isə, Nərgizlə görüşməsi onu bir qədər sakitləşdirmiş, qorxu və həyəcanını az da olsa, unutdurmuşdu. İki aya yaxındır ki, ürəyinə yığılıb qalmış sıxıntılar uçub getmişdi elə bil. «Daewoo» nu Nərgizin yaşadığı binanın qarşısında saxladı. Qızla
birlikdə maşından düşüb bir neçə addım binaya tərəf getdilər. Bir-birlərindən ayrılmağa qətiyyən tələsmirdilər.

- Birisigün saat neçədə görüşək? - Fuad soruşdu.

İki ay əvvəlki görüşlərində doyunca öpüşmüşdülər. Bu gün isə oğlan Nərgizə çox fikirli görünmüşdü. Yalnız söhbət etmiş, ya da uzun dəqiqələr susub xəyala dalmışdılar.

- Görüşməyə, doğrudan, həvəsin var? - qız suala sualla cavab verdi.

- Hə, əlbəttə! - Fuad sanki onu başa düşübmüş kimi, əyilib üzündən öpdü.

Nərgiz gülümsədi:

- Onda elə bugünkü kimi, saat 11-də...
- Yaxşı! - oğlan razılaşdı.
- İndi gedim. Evdə gözləyirlər.
- Get, gecən xeyrə qalsın!
- Sənin də!

Nərgiz ondan ayrılıb, yüngül qaçışla evə tərəf getdi.

Fuad onun arxasınca bir qədər baxıb, maşınının yanına qayıtdı və qapını açıb, sükanın arxasına keçdi.

Yerini təzəcə rahatlamışdı ki, kimsə arxadan əlini uzadıb, cəld bir hərəkətlə nazik və yumşaq kəndiri onun boğazına doladı. Sonra eyni cəldliklə kəndiri arxaya çəkib


downloaded from KitabYurdu.org

Fuadın başını geriyə dartdı. Diksinib çığırmaq istəyən oğlanın səsi çox yavaş çıxdı:

- AyyL.

Bircə anda boğula biləcəyini anlayıb, əl-qol atmağın mənasız olduğunu başa düşdü. Maşına gizlicə girmiş adamı görmək üçün güzgüyə baxdı. Maşının yarıqaranlıq salonunda, arxada oturmuş adamın üzünü bəlkə də görə bilərdi. Ancaq güzgü bir qədər sağa buruldluğu üçün heç nə görə bilmədi.

Əlini uzadıb, boğazına dolanmış kəndiri boşaltmaq istədisə də, kəndir boğazına sıxıldığı üçün bunu bacarmadı. Xırıltılı səslə:

- Kimsən? Məndən nə istəyirsən? - deyə soruşdu.

- Kimliyimi bilməyəcəksən! - kəndirin uclarından yapışmış adam sakitcə dilləndi. - Amma yaşamaq istəyirsənsə, mənə tabe olub, suallarıma düzgün cavab verməlisən!

Bu səs Fuada tanış gəldi, sanki. Amma heç cür xatırlaya bilmədi bu səsin sahibini. Ağlına ilk gələn qorxulu fikrin təsirilə:

- Sən Qanturalsan? - deyə soruşdu.

- Necə tanıdın? - arxada oturan adam istehza ilə dilləndi.

- Tanıdım... - Fuad udqundu. - Vallah, mənim heç bir günahım yoxdur. Atamgil səni axtarır, ona görə ki, vəzifəsidi onların. Onları da məcbur eləyirlər... Ancaq mən səni kişi adam hesab edirəm, atamın canı üçün...

Fuad səhv edirdi. Bu adam Qantural deyildi. Kobranın izinə düşmək üçün son vaxtlar baş vermiş qaranlıq hadisələri dərindən öyrənməyi qarşısına ciddi məqsəd



downloaded from KitabYurdu.org

qoymuş Leopard idi... Yəni məxfi şöbənin agenti mayor Ələmdar Məlikov...

- Kəs səsini! - Ələmdar ciddi, lakin sakit səslə dilləndi. - De görüm, dostun Rafiqi kim öldürüb?

Onsuz da, qorxudan bağrı çatlayan Fuadı dəhşət bürüdü:

- Bilmirəm!.. Heç nədən xəbərim yoxdur mənim...
- Bilirsən! - Ələmdar kəndiri bir az da dartdı. - Aprelin 9-da onunla bir yerdə olmusan. Nə bilirsən, hamısını mənə danışmalısan!
- Boğuluram... - Fuad xırıldadı.
- Ya bu boğazından bir də heç vaxt hava keçməyəcək, ya da hər şeyi danışacaqsan!
- Aç kəndiri, ölürəm... - oğlan, deyəsən, doğrudan da boğulurdu.

Ələmdar kəndiri bir qədər boşaltdı.

- Danış, vaxtın çox azdır!

Fuad əlini boğazına aparıb zarıdı:

- Bunu bir dəfə soruşmuşdular, hər şeyi danışmışdım...

Söz Fuadın ağzından qəfil çıxdı və bu Ələmdarı çox maraqlandırdı:

- Kim soruşmuşdu?
- Bilmirəm... - Fuad cavab verdi. - Rafiqin ehsanı verilən gün tanımadığım adamlar maşınıma minib məni gölün yanına apardılar. Öldürməklə hədələyib həmin gün Rafiqin haralarda olmasını soruşdular...
- Bildiklərini danışdın onlara?
- Hə... - Fuad lap astadan cavab verdi.

Ələmdar kəndiri geriyə dartıb yenə boşaltdı:

- İndi də bütün bildiklərini mənə danışacaqsan.


downloaded from KitabYurdu.org

Aprelin 9-da nə baş verib, nə görmüsən, hamısını!
Əgər bu gecə evinizə sağ-salamat getmək istəyirsənsə, yalan danışmağı ağlına gətirmə!

- Hər şeyi danışacam, ancaq məni öldürmə! - Fuad yalvardı. - Atamın canı üçün mənim heç bir təqsirim yoxdur.

- Gözləyirəm! - Ələmdar sakitcə dilləndi.

Fuad başqa heç bir çarəsinin olmadığını anladığı üçün danışmağa başladı:

- O gün Rafiqlə gürcü yeməkləri verilən kafedə oturmuşduq... Yeyib-içirdik. Rafiqin Ələmdar adında bir oğlanla haqq-hesabı var idi. Adamlarını onun üstünə göndərmişdi. Gözləyirdi ki, Ələmdarı tutub xəlvət bir yerə aparandan sonra ona xəbər verəcəklər... Ancaq xəbər gəldi ki, bir şey eləyə bilməyiblər... Rafiq bundan dilxor olub, bir az da çox içməyə başladı... Sonra dedi ki, dur gedək Fatiməgilə...

- Fatimə kimdir? - Ələmdar onun sözünü kəsdi.

Fuad bir anlıq duruxub davam etdi:

- Ağaşamilin qızı... Nihatın, Xanəlinin bacısı... Universitetdə oxuyur. Rafiq çoxdan onun dalınca düşmüşdü. Ancaq qız nişanlı olduğu üçün əl vermirdi. Elə həmin Ələmdarla da onun üstündə dalaşmışdılar.

- Sonra?

- Həmin gün bazar günü idi. Dedi ki, qız indi evdə olacaq... Mən çox çalışdım ki, oraya getməsin. Çünki çox içmişdi. Məni eşitmək istəmədi. Biz onun maşınıyla idik... Hə... Nə qədər dedim, sözümə baxmadı. Maşına minib Fatiməgilin evinə sürdük. Blokun qabağında maşından düşüb evə girdi. Mən


downloaded from KitabYurdu.org

maşında gözlədim. On-on beş dəqiqə keçdi. Bildim ki, qızı yola gətirib, içəri girib. Yoxsa, tez qayıdardı... Bir də gördüm ki, qızın atası gəlir... Ağaşamil... Onu görəndə qorxudan nə edəcəyimi bilmədim. Gəlib bloka girdi... Əvvəl istədim, zəng vurub telefonla Rafiqi xəbərdar edim. Ancaq daha gec idi. Maşından çıxıb, blokun qabağındakı şam ağaclarının arasında gizləndim... Bəlkə yarım saat keçdi. Rafiq çıxmadı. Bir azdan Balta Xanəli maşınıyla gəlib çıxdı və maşından düşüb tələsik binaya girdi. Mən daha qorxumdan orada dayana bilməyib, evimizə qaçdım. Bir də səhəri gün eşitdim ki, Rafiqi öldürüblər... Ancaq atamın canı üçün, kim öldürüb, necə öldürüb, heç nə görməmişəm.

- Bir şey qalmadı ki? - Ələmdar soruşdu.
- Nə? - Fuad, deyəsən, sualı anlamadı.
- Deyirəm, danışmağa bir sözün qalmadı ki? -Yox... Mənim gördüklərim ancaq bunlar olub.

- Bunu o dediyin adamlardan başqa daha kimlərə danışmısan?

- Heç kimə! Heç atama da deməmişəm!

Fuad düşündü ki, əgər bu adam Qanturaidısa,
deməli o, Ağaşamilin düşmənidir. Əgər belədirsə, o Fuada pislik etməməlidir. Amma hər ehtimala qarşı ona xoş gəlməyə çalışdı:

- Onlar çox əclaf adamlardır! - dedi.
- Kimlər? - Ələmdar ciddi şəkildə soruşdu. - Ağaşamil... Oğlanları...

Ələmdar bir anlıq susdu. Sonra kəndiri Fuadın boğazından açıb daha ciddi və hökmlü səslə dilləndi:

- Mən maşından düşən kimi, arxaya baxmadan,


downloaded from KitabYurdu.org

cəhənnəm ol, sür get!

- Çox sağ ol, Qantural qədeş! - Fuad bunu tamamilə ürəkdən deyib, maşını işə saldı.

Ələmdar qapını açıb yerə düşdü və Fuad, doğrudan da, arxaya baxmadan, həmin andaca maşını sürüb getdi. Ələmdar isə bir qədər onun arxasınca baxandan sonra dönüb, kənarda saxladığı «Volsvagen»ə doğru addımladı. Şübhə doğurmamaq üçün öz maşınını idman klubunun həyətində saxlamış, bu maşını isə bir neçə saatlığa İlqardan almışdı.

Səksən üçüncü fəsil

- Evin işığını söndürdülər... - kapitan Əbilov sükanın arxasında oturub mürgüləyən Etibara baxaraq, astadan dilləndi.

Leytenant Nəsirov saatı öyrənmək üçün cib telefonunu çıxarıb ekranı işıqlandırdı.

- Saat on ikiyə işləyir. - dedi. - Yəqin, yatacaq. Neçə gecədir, əməlli-başlı yatmır axı...

Əbilov alnını bərk-bərk ovuşdurdu:

- İmkan olsaydı elə mən də yatardım. Ancaq, nədənsə, ürəyimə damıb ki, bu gün tutacağıq o əclafı...

Kapitan Əbilov polis idarəsində saxlanılan Xanəlini bu gün, günortaya yaxın evə buraxmışdı. Xanəli, Ələkbərin qətlində əli olduğunu heç cür boynuna almırdı və bunu ona sübut etmək üçün kapitanın əlində elə bir ciddi əsas da yox idi. Amma əslində, Allahverdinin onu evə buraxmaqda məqsədi tamamilə ayrı şey idi. Əməliyyat müvəkkili inanırdı ki, Xanəlinin polisdən buraxılmasını hər hansı yollasa öyrənən Qantural bu gün, ya uzaqbaşı sabah ondan qardaşı Ələkbərin intiqamını almağa gələcək. Bu


downloaded from KitabYurdu.org

ələkeçməz qatil, onsuz da, Nihatın qardaşlarını bir- bir aradan götürürdü. Belə olan halda, üstəlik Ələkbərin qətlində şübhəli bilinən Xanəlinin öldürülməsini sonraya saxlayacağı ağlabatan görünmürdü.

Xanəli evə buraxılandan sonra polis tərəfindən ciddi nəzarət altında olmuşdu. O, birbaş öz evinə gəlmiş, onu görmək istəyən yaxınları başına yığışmışdılar. Axşamüstü isə hamı Xanəlinin təhriki ilə dağılışıb öz evlərinə getmişdi.

Hava qaralmağa başlayanda Allahverdi Əbilov Etibarla birlikdə, onun maşınında buraya gələrək, küçəyə nəzarəti həyata keçirən polis əməkdaşını əvəz etmişdi. Onlar hər ikisi adi mülki geyimdə idilər. Maşını qəsəbənin sakit və qaranlıq küçəsində, Xanəlinin uca hasarlı həyətinin darvazasından əlli-
altmış metr məsafədə saxlayıb içəridə oturmuş, silahlarını hazır vəziyyətdə saxlayaraq gözlərini irəlidə görünən darvazaya dikmişdilər.

Xanəlinin həyəti iki küçənin kəsişməsində yerləşirdi. O biri küçədə, xəlvət bir yerdə saxlanmış maşında daha dörd nəfər polis əməkdaşı oturmuşdu ki, onlar da həyətin yan tərəfini nəzarətdə saxlayırdılar. Həyətin digər iki tərəfi isə qonşu həyətlərə bitişik idi və bu həyətlərin arasında da adam boyundan hündür daş hasar çəkilmişdi.

Allahverdigilin dayandığı küçədən hərdən bir maşın keçir, maşın sovuşub gedəndən sonra küçəyə yenidən lal bir sakitlik çökürdü. Belə sükutlardan birini maşının içində leytenant Nəsirov pozdu:

- Sən belə fikirləşirsən ki, Qantural bu gecə intiqam almaq üçün cəsarət edib birbaşa Xanəlinin



downloaded from KitabYurdu.org

evinə gələ bilər?

- Niyə gələ bilmir? - Əbilov təəccübləndi. - Qantural, onsuz da, gec-tez tutulub ömürlük həbs ediləcəyini gözünün qabağına alıb.

Etibar fikirli halda çiynini çəkdi:

- İndiyədək öldürdüklərini güdüb, qəflətən zərbə vurub axı?!

- Birincisi, indi vəziyyət başqa cürdür. - Allahverdi izah etdi. - Xanəli Nihatın qardaşı olmaqla bərabər, həm də çoxlarının, o cümlədən Qanturalın nəzərində Ələkbərin qatilidir. Sonrası da, sən niyə elə deyirsən?.. Qantural öz maşınıyla gedib Tamerlangilin evinin qabağında dayanmamışdı? Ya, düz Cahangirgilin blokunun içində gizlənib onu gözləməmişdi? Daha sonra, çəkinmədən gedib Canəlinin qarajına girməmişdi? Bunlar ki, hamısı cəsarət tələb edən risklərdir?! Onun gözünü qan tutub və ondan hər şey gözləmək olar... - bir anlıq ara verib, yenə danışmağa başladı. - Bir də, mən demirəm ki, gəlib Xanəlinin darvazasını döyərək onu duelə çağıracaq... Hasardan aşıb həyətdə gizlənə bilər ki, Xanəlinin nə vaxtsa həyətə çıxmağını gözləsin. Ya, eiə bu küçədə pusqu qurub səhər onun darvazadan çıxmağını gözləyə bilər...

- Deməli, biz səhərə qədər burada dayanacağıq? - Etibar gülümsədi.

- Başqa çarəmiz yoxdur. - Allahverdi qətiyyətlə dilləndi. - Qanturalı tutmaq istəyiriksə özümüzü əziyyətə salmalıyıq!

Bu vaxt onun cib telefonu səsləndi. Zəng vuran Ələmdar idi. Danışmağa başladılar:

- Salam, Allahverdi!



downloaded from KitabYurdu.org

- Salam! Gecə vaxtı xeyir ola?..

- Gördüm səsin çıxmır, dedim zəng vurum görək səndə nə təzə xəbər var?

- Elə bir yenilik yoxdur. - Allahverdi bir qədər könülsüz dilləndi.

O, keçirdiyi bu əməliyyat barədə mayor Ələmdar Məlikovu xəbərdar etməyə ehtiyac hiss etməmişdi.

Bu əməliyyat vasitəsilə Qanturalı ələ keçirəcəyinə inanırdı. Bu baş tutardısa, onun həmin rus qadınının axtarışı ilə əlaqədar mayor Məlikova da köməyi dəyə bilərdi. Yox, əgər ona bir köməyi dəyməsə də, o qədər fərq etmirdi. Çünki Əbilova Qantural lazım idi və onu da tutacaqdı. Ondan sonra Ələmdar Məlikov qoy gedib öz sarışın rus qadınını axtarsın...

- Mənə elə gəlir ki, sən sabah Xanəlini evə buraxsan, yaxşı olar. - Ələmdar dedi. - Amma bir şərtlə ki, mənim bundan əvvəldən xəbərim olsun.

Allahverdi bir anlıq susub, sonra dilləndi:

- Mən bu gün günortaya yaxın buraxmışam onu...

- Nə?! - Ələmdarın səsində heyrətlə bərabər güclü narazılıq hiss olundu. - Axı sənə demişdim ki, məndən xəbərsiz əməliyyat keçirmə?!

- Bu bizim işimizdir, Ələmdar! - kapitan Əbilov da narazılıqla dilləndi. - Mən əməliyyat keçirəndə rəisimin razılığını alıram.

- O indi haradadır? - Ələmdar özünü bir qədər sakit danışmağa məcbur etdi.

- Harda olacaq? Evində, rahat yatır. Biz də küçədə dayanıb onun keşiyini çəkirik.

- Köməyiniz var? - Ələmdar soruşdu.



downloaded from KitabYurdu.org

- Yəni deyirsən, tək mən Qanturalın öhdəsindən gələ bilmərəm? - Əbilov kinayəli şəkildə cavab verdi.

- Zarafata salma, Allahverdi, - Ələmdar acıqlı səslə dedi. - Xanəli indi öz qəsəbədəki evindədi?

- Hə!

- Gözlə, bu saat gəlirəm oraya!

Ələmdar bunu deyib, cavab gözləmədən telefonu qapadı.

- Bu hansı Ələmdardır? - leytenant Nəsirov marağını boğa bilməyib soruşdu.

- «Döyüş» idman klubunun rəhbəri. - Əbilov fikirli halda cavab verdi. - Rafiqin ölümü ilə əlaqədar tutmuşduq ha, bax o!..

- Hə, demişdin. Miraslanov buraxdırdı onu. - Etibar bunu deyib, sonra birdən təəccüblə kapitana baxdı. - Onun səninlə, ya Xanəli ilə nə işi var?

Kapitan Əbilov, başqa yolu olmadığı üçün onu azdırmağa çalışdı:

- Sonra münasibətimiz yaxşılaşdı Ələmdarla. Həm də o, Xanəlinin yaxın dostu imiş. İndi buraya gələcək. Xanəlini qorumaqda bizə kömək etmək üçün...

Deyəsən, Etibar bir şey anlamadı. Başını bulayıb:

- O, Xanəlinin dostu-zadı deyil... - dedi. - Qardaşı arvadının oynaşıdır!

- Qardaşı arvadı kimdir?

- Səxavətin arvadı. Cəhalə xanım! - Etibar inamla dedi. - Hələ üstəlik bacısı Fatimə də...

- Arvad kimi qeybət eləmə! - Allahverdi leytenanta acıqlandı. - O nişanlı qızdır. Üstəlik də sən deyənlərə oxşamır.



downloaded from KitabYurdu.org

- Onda sənin heç nədən xəbərin yoxdur. - Etibar məğlub olmaq istəmədi. - Şakir onun nişanını geri alıb. Özü dedi mənə.

- Kim dedi?

- Şakir... Mən onunla söhbət elədim axı, Ələkbərin ölümünə görə. Onda dedi... Özü də bəlkə ən çox, bu Ələmdara görə pozub nişanı. Ələkbərin adamları qızı qaçırmaq istəyəndə də onu xilas edən Ələmdar olub. Amma qız boynuna almırdı... İndi görürsən, mən düz deyirəm? Cəhalə də, Fatimə də Ələmdarın məşuqələridir. Hərəsinin öz yeri, öz ləzzəti... Lotu Vələddinin oğlu öz işini yaxşı bilir...

- Dedim ki, arvad kimi qeybət eləmə! - Allahverdi onun sözünü kəsdi. - Dayan görüm, bu kimdir?

Bir nəfər darvazanı açıb, Xanəlinin həyətindən küçəyə boylandı. Sonra küçəyə çıxıb darvazanı astadan örtdü və onlara tərəf gəlməyə başladı. Yerişi ağırlıq qaldırmaqla məşğul olan idmançıların yerişinə oxşayırdı. Maşına yaxınlaşanda kapitan Əbilov onu tanıdı. Bu Xanəlinin şəxsi mühafizəçilərindən biri olan Ramiz idi. Onun maşına yaxınlaşdıqca daha ehtiyatla irəlilədiyini görən kapitan ucadan səsləndi:

- Gəl, mingəçevirli balası, qorxma, bizik!

Ramiz sükan tərəfdən əyilib maşının içinə baxdı. Kapitan Əbilovu tanıyıb:

- Hə, sizsiniz? - dedi. - Axşamınız xeyir!

- Nə axşam? - Etibar kinayəli gülümsədi. - Görmürsən, gecə keçib? Niyə gedib yatmırsan?

- Bəs siz? - Ramiz də öz növbəsində soruşdu.

- Biz sənin şefini qoruyuruq. - Allahverdi cavab verdi.



downloaded from KitabYurdu.org

- Xanəli qədeşin Allahdan başqa heç kimdən qorxusu yoxdu. - Ramiz dedi. - O da ki ola, Qanturaldan! Bir də mən ölməmişəm ki?!

-Axı mən Xanəliyə dedim ki, onun şəxsi mühafizəçi saxlamağa ixtiyarı yoxdur. - Əbilov məzəmmətlə dilləndi.

- Nə mühafizəçi, canım?! - Ramiz narazı halda üz-gözünü turşutdu. - Benzindoldurma məntəqəsində işçisiyəm, üstəlik, dostuyam. Çətin günündə onun yanında olub qorumağımın kimə nə dəxli var?

- Silahın var? - Etibar sınayıcı baxışlarını onun alaqaranlıqda çətinliklə görünən üzünə dikdi.

- Mənim silahım budur! - Ramiz qüvvətli yumruğunu düyünləyib ona göstərdi. - Qoy gəlsin Qantural, görək neyləyəcək!..

- Yaxşı, hirslənmə! - Kapitan Əbilov gülümsədi. - De görüm, səndən, Xanəlidən başqa kim var həyətdə?

- Mən həyətdə təkəm. - Ramiz cavab verdi. - Xanəli də evdə oğlu ilə yatır. Başqa heç kəs yoxdur...

- Bəs qalanlar? - Əbilov soruşdu.

- Arvadı, qızları nə vaxtdır burada qalmır. Özü polisdə olanda oğlunu da arvadının yanına aparmışdılar. Bu gün atasının çıxdığını eşidib gəlmişdi. Nə qədər elədilər, getmək istəmədi, atası ilə qaldı.

- Yaxşı, get həyətə! - Kapitan Əbilov dedi. - Amma bizim burada olduğumuzu Xanəli də bilməsin.

Ramiz əmrə tabe olub onlardan uzaqlaşdı və həyətə girib darvazanı bağladı.

- Cəsarətli oğlana oxşayır. - Etibar dilləndi.

- Hə...

Allahverdi fikirli halda cavab verib, saatına baxdı.



downloaded from KitabYurdu.org

Artıq saat 12-ni keçirdi. Bir qədər susub beləcə dayandılar. Küçədə adam-insan gözə çarpmırdı. Yalnız hərdən sürətlə şütüyüb keçən hər hansı bir maşın buranın sakitliyini müvəqqəti olaraq pozurdu.

Xanəlinin evindəki bütün işıqlar söndürülmüşdü. Həyətdə yanan elektrik lampası evin çöl divarlarına zəif işıq salırdı. Bu həyətdə də ətrafdakı digər həyətlər kimi tam bir sakitlik hökm sürürdü.

Danışmağa sözləri olmadığı üçün susmuşdular. Etibar əlindəki cib telefonu ilə məşğul idi. Deyəsən, bekarçılıqdan nəsə bir oyun oynayırdı. Allahverdi isə, bir qədər fikirli olsa da, gözü Xanəlinin evində idi. Bəlkə də heç bu gün gəlməyəcəkdi Qantural... Bəlkə də heç Xanəlinin evə buraxılmasından xəbər tutmamışdı o... Amma bu gecə gəlməsəydi, sabah axşam yenə burada dayanacaqdı Allahverdi. Ta ki, bu ələkeçməz cinayətkarı tələyə salıb tutanadək...

Ələmdar, dediyi vaxt çıxmışdısa, bir azdan burada olmalı idi. Maşını sürətlə sürsə, yarım saatlıq yolu var. Ya, bir az artıq...

Görəsən, o niyə belə canfəşanlıq edirdi? Niyə hirsləndi Xanəlinin buraxıldığını eşidəndə? Belə çıxırdı ki, o da Qanturalın bu gecə intiqam almaq üçün gələcəyinə inanırdı?.. Yəqin ki!.. Amma kapitan
Əbilov heç istəmirdi onun indi buraya gəlməyini.
Hələ ki, ehtiyacı yox idi onun köməyinə. Qantural gələrdisə, onu tərksilah edib tutmaq problem olmayacaqdı kapitan Əbilov üçün. Nə az, nə çox, altı nəfər silahlı polis işçisi nəzarət edirdi həyətə...

Evin bir otağında işıq yandı. Xanəlinin gözünə yuxu



downloaded from KitabYurdu.org

getmirdi yəqin ki... Allahverdi bir anlıq özünü onun yerinə qoydu. Çətin məsələ idi, əlbəttə ki! Üç qardaşını öldürmüşdülər onun... Üç, necə deyərlər, dağ boyda qardaşını... Hələ, üstəlik, öz həyatı da təhlükədə idi. Amma Ələkbərin öldürülməsi ondan uzaq deyildi. Kapitan Əbilov lap qəti əmin idi ki, bu fitva ondan keçib. Qoy hələ bir Qantural ələ keçsin, sonra bu məsələ ilə də ciddi məşğul olacaqdı...

Birdən Xanəlinin həyətindən güllə səsi eşidildi. Bu, tapança gülləsinin səsi idi. Bunu kapitan Əbilovla
eyni vaxtda Etibar da eşitdi və ani olaraq çaşqın nəzərlərlə bir-birlərinin üzünə baxdılar...
İlk olaraq vəziyyəti dərk edən Əbilov çığırıb:
- Nə durmusan, maşını qapıya sür! - deyə əmr
etdi.

Amma Etibarı gözləməyib cəld maşından çıxdı və tapançasını əlində hazır vəziyyətdə tutub bütün gücü ilə darvazaya tərəf qaçdı. O biri küçəni nəzarətdə saxlayan maşın da sürətlə gəlib Etibarın maşını ilə eyni vaxtda darvazanın qabağında dayandı. Əllərində silah olan polis işçiləri maşınlardan çıxdılar.

- Siz niyə postunuzu buraxıb gəldiniz? - deyə o biri maşından düşən polis əməkdaşlarına qışqıran Əbilov darvazanı bərk-bərk silkələməyə başladı.

Dəmir darvazanın gurultulu səsi gecənin sakitliyində bütün məhəlləni başına götürdü. Qapı içəridən bağlanmışdı və onu açmağa gələn də yox
idi...

Əbilov polis əməkdaşlarından birinin üzünə baxdı. O birilərə nisbətən daha gənc və zirək olan bu əməkdaş


downloaded from KitabYurdu.org

kapitanın nə demək istədiyini anlayıb, yoldaşlarının köməyilə cəld hasara dırmandı və onun üstündən həyətə atılıb darvazanı açdı.

Əllərində silah, dərhal içəri doluşdular.

Pilləkənin başında, ikinci mərtəbənin qapısı açıq idi. Pilləkənə tərəf getmək istəyən kapitan Əbilovun diqqətini evin yan tərəfində, yarıqaranlıq həyətdə yerə sərilmiş adam cəlb etdi və cəld onun yanına yüyürdü.

Bu Ramiz idi... Sinəsindən aldığı güllə yarasından arxası üstə yerə yıxılmışdı. Qəzəb və həyəcanından sinəsi aramsız olaraq qalxıb-enən Əbilov əlini onun boynuna toxundurdu. Bir az əvvəl öz fiziki gücü ilə öyünən cəsarətli gənc artıq keçinmişdi...

Əbilov dikəlib cəld hərəkətlə pilləkənə doğru getdi. Pillələri yüyürərək qalxıb, yarıaçıq qapını özünə tərəf çəkdi və o anda da geri çevrilib, əvvəlcə, arxasında dayanmış Etibar Nəsirova, sonra isə pilləkənə yaxınlaşmaqda olan o biri polis işçilərinə baxdı. Onun baxışlarında elə bir dəhşət var idi ki, bunu sözlə ifadə etmək qətiyyən mümkün deyildi. Bir neçə dəfə udqunandan sonra, sanki dili açıldı və titrək səslə:

- O, burada olub!.. - dedi. - Cəld olun, yan küçəni, qonşu həyətləri axtarın. Biriniz rəisə zəng vurun. Sonra buraya yaxın polis bölmələrindən də kömək istəyin!..

Dörd polis işçisi qaçaraq həyətdən çıxdılar. Etibar isə kapitanın yanında dayandı. Heç vaxt onu belə vəziyyətdə görməmişdi. Qətiyyən özündə deyildi indiyədək nə qədər belə hadisələr görmüş Allahverdi. Səsi titrəyir, qəzəbdən əlləri əsirdi.

Bu dəfə içəri birlikdə baxdılar. Kapitan Əbilovun



downloaded from KitabYurdu.org

həyəcanı Etibara da keçmişdi və o, başının tüklərinin biz-biz durduğunu hiss edib əlini saçlarına çəkdi. Dar dəhliz başdan-başa qan içində idi. Sinəsində, qarnında bir neçə bıçaq yarası olan Xanəli qapının ağzındaca, böyrü üstə yerə yıxılmışdı. Ayaqyalın idi. Əyninə, sadəcə, şalvar və alt köynək geyinmişdi ki,
ağ rəngli bu alt köynək də tamamilə qırmızı rəngə boyanmışdı. Gözləri bərəlib o qədər geniş açılmışdı ki, deyərdin, bu saat yerindən partlayıb çıxacaq. Tapançası yanında düşüb qalmışdı.

Meyitin yanından ehtiyatla adlayıb keçmək istədilər. Amma yenə də, ayaqqabılarının altı qana bulaşdı. Birinci otağa baxdılar. Burada heç kəs yox idi. Xanəli bu otaqda yatıbmış. Bu onun açıq yatağından görünürdü.

Heç nə danışmadan çıxıb qonşu otağa keçdilər. Burada onları daha acınacaqlı bir mənzərə gözləyirdi. Öz yatağında arxası üstə uzanmış on bir yaşlı oğlan uşağının sinəsinə iri bir bıçaq saplanmışdı. Uşağın iri, qara gözləri açıq idi və sakit- sakit otağın tavanına baxırdı. Bu Fətəli idi...

Leytenant Nəsirov hiss etdi ki, kapitanın halı qətiyyən yaxşı deyil. Onun qoluna girib yaxındakı stolun arxasına qoyulmuş stulda əyləşdirdi. Əbilov, doğrudan da, key kimi olmuşdu. Rəngi tamamilə ağarmış, bədənini titrətmə tutmuşdu. Diqqətlə stolun üstünə qoyulmuş açıq şagird dəftərinə baxırdı. Etibar da əyilib dəftərə nəzər saldı. Bu Fətəlinin inşa dəftəri idi, deyəsən...

Allahverdi birdən əlləri ilə başını tutub:

- Bunu Allah götürməz! - dedi və... hönkürtü ilə ağlamağa başladı.


downloaded from KitabYurdu.org

Leytenant Nəsirov polisdə işlədiyi müddətdə kişilərin ağladığını az görməmişdi. Bəziləri peşmançılıqdan ağlamışdı, bəziləri polis işçilərinin ürəyini yumşaltmaq üçün yalandan ağlamışdı, bəziləri... Amma heç beləsini görməmişdi. İgid adam
hesab etdiyi, üstəlik xətrini çox istədiyi Allahverdinin uşaq kimi ağlaması onun da ürəyinə od qoydu. Əlini kapitanın çiyninə qoyub:

- Özünü ələ al, Allahverdi! - dedi.

Əbilov qəflətən başını ona tərəf çevirib:

- Kişi kişidən belə qisas almaz, Etibar! - deyə çığırdı, - Kişi kişidən belə qisas almaz! Bu vəhşilikdir! İnsan qanı yox imiş bunda!

Etibar onun qoluna girib ayağa qalxızdı və həyətə düşürtdü. Evin yanındakı stullardan birini onun üçün gətirməyə gedəndə gözü həyətin arxa tərəfindəki hasarın dibinə qoyulan taxta oturacağa sataşdı. Bir anlıq duruxub oturacağa tamaşa etdi. Deməli, Qantural bu həyətə qonşu həyətdən keçib gəlib və qaçanda da elə oradan qaçıb. Leytenantın fikrincə, bu başqa cür ola da bilməzdi. Çünki həyətin
küçələrə baxan iki hasarı polislər tərəfindən nəzarətə alınmışdı. Səhvlərini dərhal başa düşdü. Düşündü ki, gərək, qonşu həyətlərə də adam qoyulaydı... Amma gec idi daha! Qantural bu dəfə də istədiyini eləyib aradan çıxmışdı!..

Darvazanın qarşısında maşın səsi eşidildi. Darvaza açıldı və Ələmdar həyətə daxil oldu. Bir qədər narahat baxışlarla ətrafına ani göz gəzdirib, kapitan Əbilova yaxınlaşdı. Amma heç nə demədi ona. Elə Əbilovun da


downloaded from KitabYurdu.org

danışmağa heç bir həvəsi yox idi. Onun həyəcanlı sifətindən və qızarmış gözlərindən hər şeyi anlayan Ələmdar dönüb evin yan tərəfində gördüyü meyitə tərəf addımladı. Aşağı əyilib Ramizin cansız cəsədinə bir qədər tamaşa etdi. Nəyə görəsə, əlini üstdən onun ciblərinə sürtdü. Sonra yan-yörəsinə boylanıb bir qədər kənara
düşmüş tapança gülləsinin gilizinə baxdı. Əyilib onu yerdən götürmək istədi. Amma tez də fikrindən daşınıb pilləkənə tərəf getdi. Bu zaman Əbilov da sakitcə onun arxasınca düşdü və birlikdə evə girdilər.

Ələmdar Xanəlinin də meyitini bir neçə saniyə gözdən keçirtdi. Əyilib meyitin yanına düşmüş tapançanı iki barmağı ilə götürdü. O üz bu üzünə göz yetirib kapitan Əbilova baxdı. Sonra isə tapançanı yenidən ehtiyatla götürdüyü yerə qoydu. Allahverdi nəsə düşünəcək halda deyildi. Sadəcə olaraq, hansı orqana xidmət etdiyi hələ də anlaşılmayan bu mayorun hərəkətlərini seyr edirdi.

Ələmdar Xanəlinin yatmış olduğu otağa da baş çəkib o biri otağa keçdi. Fətəlinin çarpayısının başı üstündə, heç nə demədən, azı beş dəqiqə sakitcə dayandı. Qurd ürəkli bu adamın da sarsıldığı açıq-
aydın hiss olunurdu. Yenə heç nə demədən, əlini uzadıb, uşağın gözlərini qapadı. Sonra birdən-birə dönüb, kəskin hərəkətlə otaqdan çıxdı. Həyətə düşəndə, onun arxasınca gələn Allahverdi yenə dözüb əsəblərini cilovlaya bilmədi:

- Bu insan deyil, Ələmdar, - dedi - quduz itdir! Elə quduz it kimi də güliələmək lazımdır onu!

Ələmdar ona ani və mənalı bir nəzər salıb, ait dodağını bərk-bərk dişlədi. Sonra heç bir cavab vermədən dönüb, darvazaya tərəf getdi. Maşın səsi darvazanın ağzından


downloaded from KitabYurdu.org

uzaqlaşıb yox olandan sonra leytenant Nəsirov əməliyyat müvəkkilinə baxıb, təəccüblə çiynini çəkdi...

Səksən dördüncü fəsil

Qəbiristanlıqda adam əlindən, maşın əlindən tərpənmək müşkül məsələ idi. Sıx-sıx dayanmış adamlar müxtəlif rəngli, müxtəlif görkəmli başdaşılarına qarışmışdılar.

Başdaşıları... Qırmızı, qara, ağ mərmərdən olanları da var idi, adi, ucuz daşdan olanları da... Bəziləri hündür idi, bəziləri alçaq... Bəzilərinin üstünü toz basmışdı, yanlarını da ot-alaq... Bəziləri isə par-par parıldayır, ətrafında əkilmiş çiçəklər göz oxşayırdı. Bu qəbirlərin sahibləri adam tutub, ona aylıq məvacib verirdilər ki, hər gün başdaşının tozunu silsin, çiçəkləri sulasın. Başdaşıları da təbəqələrə bölünmüşdü adamlar kimi. Varlısı da var idi, kasıbı da. Gözəli də var idi, çirkini də. Qürurlusu, lovğası, özündən müştəbehi də var idi, yazığı da... Amma bir eynilikləri, bir oxşar cəhətləri də var idi ki, bu da hamısının sakit və səssiz olması idi. Hamısı susmuşdu... Hamısı, elə bil ki, nəsə fikirləşirdi...

Həm də bu fikirləşməyin ən fərqli və ən qəribə xüsusiyyəti onda idi ki, bu fikirləşmək əbədi idi və axırı heç vaxt, heç yana çıxmayacaqdı...

Bu gün, Xanəli ilə oğlunun dəfnində, adamlar da bir az baş daşlarına bənzəyirdilər. Onlar da daş sükutuna qərq olmuşdular. Onlar da hey nəyinsə barəsində fikirləşirdilər və deyəsən, bu fikirlərin də axırı bir yana çıxana oxşamırdı. Hamının üzündə kədər, qorxu və nifrət oxunurdu. Amma daha çox sirli bir heyrət dolaşırdı adamların sifətində. Heyrət!.. İnana bilmirdilər bütün bu baş verənlərə. Dərk edə


downloaded from KitabYurdu.org

bilmirdilər Ağaşamil ailəsinin başında dolaşan məntiqsiz olayları...

Nihatın, Tamerlanın, Cahangirin qəbirlərinin yanında daha iki qəbir qazmışdılar. Biri böyük, biri bir az ondan balaca... İç adamları boş məzarların başı üstündə, mollanın ətrafında dayanmışdılar. Səxavət, Mirkəlam, Səxavətin bibisi oğlu Ağakərim, o biri bibisi uşaqları, Cahangirin oğlu Yasəf qəbirlərə daha yaxın idilər. Səlahəddinlə Qulu Səxavətin arxa tərəfində durmuşdular. Onlar səhər yoldaşları Ramizin meyitinin Mingəçevirə yola salınmasında iştirak edib, sonra buraya gəlmişdilər. Çox tutqun və kədərli görkəmləri var idi. Elə bil Xanəlinin də, Ramizin də ölümündə özlərini günahkar bilirdilər...
Bu gecə bir yerdə olmuşdular. Gecə saat 1-dən səhərə kimi... Fatiməgilin blokunun qabağında,
maşında oturmuşdular. Ata ilə qızını qorumaq
üçün...

Bu hadisəni də səhər eşidib öyrənmişdilər. İkinci dəfə infarkt keçirən Ağaşamili xəstəxanaya aparmaq üçün təcili yardım maşını gələndə. Yəqin ki, polisdən zəng vurub bildiriblərmiş oğlunun, nəvəsinin ölümünü.

İndi Ağaşamii yenə də həmin xəstəxanada, həmin palatada yatırdı. Cəhalə ilə Fatimə də yanında idilər. Kişilərin başı dəfnə qarışdığı üçün xəstəxanadakı işlər Cəhalənin boynuna düşmüşdü. O biri gəlinlər isə ev-eşiyi yığışdırıb bir ayın içində dördüncü matəm mərasiminə hazırlıq görürdülər. Miraslanovla Əlifağa Sadıxov da getmişdi xəstəxanaya. Onların da çox köməyi olubmuş
Ağaşamilə təcili tibbi yardımın yüksək səviyyədə təşkil edilməsində...


downloaded from KitabYurdu.org

Ələmdarla İlqarda qəbiristanlıqdakı adamların içində idilər. Ələmdar tanınmamaq üçün gözlərinə qara rəngli eynək taxmışdı. Məzarların ayaq tərəfində, sıx toplaşmış adamların arasında dayanıb dəfnə gələnlərə göz qoyurdu. Bu gün onun qarşısında duran bəzi vacib işlər var idi ki, buradan çıxan kimi onları yerinə yetirməiiydi. Fatimə ilə görüşüb söhbət edəcək, daha sonra isə həbsxanaya, Salehin görüşünə gedəcəkdi. Bəzi işlərdə dostlarının da köməyi dəyməliydi ona. Tələtlə Orxan bu saat küçədə saxladıqları maşınlarında oturub onun əmrini gözləyirdilər. İlqar isə yanında idi.

Dünənki hadisə Ələmdara çox pis təsir etmiş, onun nifrətini coşdurmuşdu. Gözlənilməz və
ağlagəlməz bir şey idi bu və Ələmdar bilmirdi ki, bu hadisənin bu şəkildə baş verməsində kapitan Əbilovu qınasın, yoxsa yox...

Ələmdar hiss edirdi ki, qəbiristanlıqda gizli polis nəzarəti təşkil olunub. Amma Allahverdi Əbilov özü gözə dəymirdi. Ələmdar dünənki faciədən sonra onunla heç telefon əlaqəsi də saxlamamışdı.

Meyitləri məzara qoymaq məqamı gəlib çatdı. Əvvəl Xanəlinin cəsədini yaxına çəkdilər. Kimsə dedi ki, mərhumu qəbrə qardaşı qoymalıdır və bu sözdən sonra Səxavət qabağa durub qəbrin içinə girdi. Bibisi oğlanları kəfənə bürünmüş cəsədi ehtiyatla götürüb qəbrə salladılar. Bu zaman Ağakərim gördü ki, Səxavətin halı üstündə deyil. Onun kəfənin baş tərəfindən yapışmış əlləri titrəyir, dodaqları əsirdi. Cəld aşağı düşüb cəsədi onun əlindən aldı və:

- Sən çıx kənara! - dedi.


downloaded from KitabYurdu.org

Səxavət yaşca ondan böyük olan bibisioğluna tabe olub qəbirdən çıxdı və əlləri ilə üzünü tutub adamların arasına girdi.

Qəbri torpaqlayandan sonra Ağakərim ikinci qəbrin qarşısında dizi üstə çöküb Fətəlinin cəsədini istədi. Nəyə görəsə, yaxındakı gənclər çaşıb özlərini itirdilər. Elə bil, uşağın meyitinə toxunmağa cəsarət etmirdilər, ya ürəkləri gəlmirdi. Bunu görən Səlahəddin cəsədi götürüb Ağakərimin qucağına verdi...

Bu zaman adamların başı üstündən boylanıb qabağa baxan İlqar ağzını Ələmdarın qulağına yaxınlaşdırıb pıçıldadı:

- Fikir verdin?.. Uşağın sinə tərəfində iri qan ləkəsi görünür. Yaxşı yumayıblar, deyəsən.

Ələmdardan səs çıxmadı. İlqar ona baxanda daş heykəl kimi dayanıb dodaqlarını bir-birinə sıxdığını gördü və danışmağa həvəsi olmadığını başa düşüb, daha heç nə demədi.

İlqar özünün və o biri yoldaşlarının buraya nə üçün gəldiyini bilmirdi. Ələmdar demişdi ki, ola bilsin, dəfndən sonra sizinlə işim olacaq. İlqar öz şefinə artıq-əskik sual verməyə adət etməmişdi və onun hər bir əmrini yerinə yetirməyə canla-başla hazır idi. Elə dünən də bütün günü gah o, gah da Tələtlə Orxan polis rəisinin oğluyla yeniyetmə bir qızı addımbaaddım izləmiş, onların haralara getməsi barədə tez-tez Ələmdara məlumat vermişdilər. İlqar şefinin dövlət üçün çalışdığını və vacib işlər gördüyünü, az da olsa, anlayırdı. Amma bu barədə öz fikrini heç kəslə bölüşmür, Ələmdara da heç bir sual vermirdi.



downloaded from KitabYurdu.org

Bir azdan Fətəlinin də qəbrini torpaqlayıb qurtardılar və molla dua oxumağa başladı. Bu zaman Ələmdar yanlarından gəlib keçən bir oğlan uşağını saxlayıb, asta səslə ondan nəsə soruşdu. Bu Cahangirin oğlu Yasəf idi. Uşaq Ələmdarın suallarına cavab verib onlardan uzaqlaşdı.

Artıq dəfn bitmək üzrə idi. Ələmdar əyilib İlqarın qulağına nəsə pıçıldadı. Onun nə dediyini ən yaxında dayanmış adamlar da eşidə bilməzdilər.

İlqar başını tərpətməklə razılığını bildirdi.

Ələmdar dərhal ondan aralanıb, adamları yara- yara qəbiristanlığın darvazasına doğru getdi. Küçəyə çıxıb, öz maşınlarında, sükanın arxasında oturmuş Tələtlə Orxana ani bir nəzər saldı. Sonra isə tünd

yaşıl rəngli «Volvo»ya əyləşib sürətlə oradan uzaqlaşdı.

Səksən beşinci fəsil

Polis idarəsinə yorğun və əsəbi vəziyyətdə gələn Allahverdi Əbilov raport vermək üçün birbaş rəisin kabinetinə girdi. Müstəntiq Eldar İmanov da bu zaman kabinetdə idi. Polkovnik Mirzəyev gecədən bəri pərtliyi hələ də keçməmiş əməliyyat müvəkkilini sınayıcı baxışlarla süzüb, ona oturmaq üçün stul göstərdi:

- Əyləş, Allahverdi! Sən də əldən-ayaqdan düşdün daha. Danış görək, dəfn necə keçdi?

Əbilov rəisin qarşısında, müstəntiq İmanovla üzbəüz əyləşdi. Özünü elə aparırdı ki, sanki otaqdakıların üzünə baxmağa xəcalət çəkirdi. Elə rəisin sualına da çox könülsüz cavab verdi:

- Dəfn normal keçdi. Heç bir münaqişə-filan olmadı.

Mirzəyev müstəntiqə baxıb, yenə də üzünü kapitan Əbilova tutdu:



downloaded from KitabYurdu.org

- Ekspertiza öz işini qurtarıb. Uşağın sinəsinə sancılıb qalan bıçaqda Qanturalın əl izləri var... Belə əl izlərinə hasarın yanına qoyulmuş oturacaqda və qonşu həyətin darvazasında da rast gəlinib. Belə qənaət hasil olur ki, Qantural qonşu həyətə girərək, aradakı hasardan Xanəlinin həyətinə keçib. Bu zaman qabağına çıxan qoruyucunu güllə ilə vurmağa məcbur olub. Sonra tələsik evin qapısına yüyürüb. Eyni zamanda, güllə səsi eşidən Xanəli yerindən qalxıb, tapançasını götürərək qapıya gedib. Onu açan kimi, gözləmədiyi halda Qanturalla rastlaşıb və Qantural onu bıçaqla vurub... Daha
sonra, uşağın yatdığı otağa keçib, onu da öldürüb və gəldiyi yolla geriyə qaçıb... Mənim hesabıma görə, əgər siz həyətə bir neçə saniyə tez daxil ola bilsəydiniz, qatili tuta bilərdiniz... Amma... Qonşu həyətlərdə adam qoymamağın heç bağışlanan səhv deyil. Sən axı, birinci dəfə deyil ki, əməliyyat keçirirsən?!

Əbilov başını aşağı dikmişdi. Bütün gecəni yatmaması bir yana dursun, keçirtdiyi narahatlıq, peşmançılıq, xəcalət hissləri onu yorub əldən salmışdı. Tələsik əməliyyat planı qurub Xanəlini müvəqqəti saxlama kamerasından evə buraxması, əməliyyatın uğursuz keçməsi nəticəsində onun ölümünə bais olması kapitana, doğrudan da, əzab verirdi. Hələ Ələmdar da demişdi ona. Demişdi ki, əməliyyat keçirəndə onun da xəbəri olsun. Amma bir
tərəfdən də baxanda, neyləyəcəkdi Ələmdar? Həyətin ətrafını adamla doldurub mühasirəyə alacaqdılar, onda heç Qantural o tərəflərə hərlənməyəcəkdi! Xanəlidən intiqam almağı da sonraya saxlayacaqdı. Yox! Səhvin hamısı Allahverdinin özündə oldu. O inanmışdı ki, Qantural


downloaded from KitabYurdu.org

gələcək həmin gecə. Gərək həyəti daha ciddi nəzarət altına aldıraydı.
Başını qaldırıb polkovnikə baxdı:

- Cənab polkovnik, - dedi. - Mən səhvimi boynuma alıram. Nə cəza versəniz də, qəbul etməyə hazıram. Amma inanın, mən heç gözləmirdim ki, Qantural hasardan aşıb gələcək. Düzdür, orada hasar çox elə də hündür deyil. Amma Qanturalın ayağında, az da olsa, şikəstlik var. Ayağını çəkir. Bunun bu qədər dözümlü, bu qədər cəld olduğunu
təsəvvürümə gətirməzdim. Mən gözləyirdim ki, o gəlib həyətin ətrafına dolaşaraq güdükdə duracaq. Xanəlinin həyətdən çıxmasını gözləyəcək. Birdə... Qonşu həyətə bir nəfər adam qoymağı fikirləşmişdim. Sonra fikrimi dəyişdim. İndi düşünürəm ki, elə həmin adamı da güdaza verəcəkdik, bəlkə. Necə ki, Xanəlinin o cür zirək mühafizəçisi güdaza getdi...

- Görürəm, yaman ruhdan düşmüsən, - rəis başını mənalı şəkildə yellədi. - Bəlkə Qanturalın axtarışını başqa adama tapşıraq? Onsuz da bu gecəki hadisədən sonra bizi o ki var danlayacaqlar. Yuxarılar daha ciddi şəkildə qarışacaq bu işə.

Əbilov pərt halda çiynini çəkdi:

- Özünüz bilərsiniz... Amma mən yenə bütün gücümlə bu axtarışda iştirak etməyə hazıram.
Qantural tapılana qədər rahatlığım olmayacaq mənim...

- Tək sənin yox, heç birimizin rahatlığımız olmayacaq, - müstəntiq İmanov söhbətə qarışdı. - Bu adam çox cəsarətli, güclü, eyni zamanda zirək bir adamdır. Deyilənə görə, elə müharibədə də özünü belə göstərib. Görün, bu


downloaded from KitabYurdu.org

adam cinayətkar olmasaydı, ordumuza nə qədər lazımlı bir adam olardı. İndi isə təhlükəli bir qatilə çevrilib özümüzünkülərin qanını tökür. Biz də, açıq deyirəm, aciz qalmışıq əlində. Niyə belə olmalıdır? Niyə belə adamlar cinayətkara çevrilməlidir?

- Bu, artıq, başqa söhbətin mövzusudur. - Rəis bir qədər ciddi şəkildə dilləndi. - O, artıq cinayətkardır və bizim də borcumuz odur ki, onu tutub məhkəmədə otuzduraq!

- Orası, əlbəttə, elədir, - müstəntiq razılaşdı. - Ancaq yenə deyirəm, görün, necə cəld və cəsarətli bir adamdır bu. Həyətə girib, mühafizəçini güllə ilə vurub. Allahverdinin dəstəsi güllə səsi eşidən kimi özlərini darvazaya çatdırıblar. Özlərinin deməsinə görə, burada da çox yubanmayıblar. Ancaq yenə də bunlar darvazanı açıb, həyətə girənə kimi Qantural ata ilə uşağı öldürüb aradan çıxa bilib.

Kapitan Əbilov, həvəssiz də olsa, dillənməyə məcbur oldu:

- Biz, doğrudan da, güllə səsini eşidəndən sonra heç bir gecikməyə yol vermədik. Gücümüz çatan son həddə qədər, özümüzü evə daha tez çatdırmağa çalışdıq. Amma onu da deyim ki... - bir anlıq susub, əlini yellədi. - Nə isə!..

Rəis onun sözünü yarımçıq kəsdiyini görüb maraqla üzünə baxdı:

- Nədir, Allahverdi, sözlü adama oxşayırsan?..

Allahverdi, nədənsə, bir az gec dilləndi:

- Mən çalışıram ki, həmişə, nəyinsə barəsində ciddi fikir söyləməyə tələsməyim. Amma bəzi şeylər adamı elə çaşdırır ki...


downloaded from KitabYurdu.org

- Nə, məsələn? - rəis dözməyib, onun sözünü kəsdi.

- Gecə biz Etibarla maşında oturub, uzaqdan həyətə göz qoyurduq. - Əbilov inamsız halda sözünə davam etdi. - Gördük ki... Daha doğrusu, onda Etibar öz telefonu ilə oynayırdı. Mən gördüm ki, Xanəlinin otağının işığı yandı. Buna o qədər əhəmiyyət də vermədim, doğrusu...

- Güllə atılandan əvvəl yandı işıq? - rəis soruşdu.

- Bəli. Bir neçə dəqiqə əvvəl...

- Sən buna əminsən?

- Bəli... Düzdür, mən yorğun idim, hətta yaman fikirli idim həmin vaxt. Ancaq bu boyda səhv də eləyə bilmərəm axı?! İşıq güllə səsini eşitməyimizdən əvvəl yandı.

- Yaxşı, bundan nə nəticə çıxır? - müstəntiq başını buladı. - Qantural oraya qonşu həyətdən keçib gəlib. Bir güllə atılıb və onunla da Ramiz adlı həmin oğlan öldürülüb. Əgər Qantural Ramizlə rastlaşmadan, birinci olaraq, qapıya gedibsə... Bu ağlabatan olmur axı?! Belə çıxır ki, gedib qapını döyüb, ya Xanəlini səsləyib. Xanəli də, tutaq ki, tapançasını götürüb, qapıya gedib. Yəni işığı yandırandan sonra... Qapıda gözlük var. Gözlükdən baxıb, Qanturalı görüb. Dərhal da qapını açıb. Deyək ki, Qantural ondan daha cəld və daha güclüdür. Ona tapançanı işlətməyə imkan verməyib, bıçaqla vurub. Sonra içəri girib uşağı öldürüb və sonra çıxanda həyətdə Ramizə rast gəlib...

Doğrusu, bu mənim başıma girmir. Ramiz harada olub ki, qapının döyülməyini eşitməyib? Ya eşidibsə, niyə silahını çıxarıb qapıya qaçmayıb? Bildiyimiz kimi, Ramizin cibindən tapança tapılmışdı... O, hasardan həyətə düşən Qanturalı, bir az gec də olsa, görməli idi. Yox! Qantural



downloaded from KitabYurdu.org

Ramizi güllə ilə vurub, sonra evin qapısına gedib. Belə olanda, heç qapının döyülməsinə ehtiyac qalmır. Güllə səsini eşidən Xanəli yüz faiz başa düşüb ki, artıq Qantural həyətdədir. Tapançasını götürüb qapıya yüyürüb. O onsuz da qardaşlarının qatilini gözləyirmiş və onunla üzbəüz gəlməkdən qətiyyən qorxmurmuş.

Gözlükdən baxıb ya baxmayıb, onu deyə bilmərəm, axır ki, qapını cəsarətlə açıb və Qanturalı vurmaq istəyib... İstəyib, amma bacarmayıb...

- Bəs işıq? - polkovnik soruşdu.

Müstəntiq İmanov çiyinlərini çəkdi:

- Otağın işığının güllə səsindən əvvəl yanması, ancaq təsadüf ola bilər. Xanəli, yəqin ki, həmin gecə bərk narahat olub və yata bilməyib. Ola bilsin, su içməyə, ya nəyə görəsə qalxıb işığı yandırıb və bir neçə dəqiqə sonra güllə səsini eşidib. Bu tamamilə normal bir haldır.

- Sən nə deyirsən buna? - rəis Əbilova baxdı.

Kapitan fikirli halda başını yellədi:

- Mən qəti heç nə deyə bilmərəm. Ancaq hər bir hadisədə dəqiq bir məntiq olmalıdır. Hər şeyin ağlabatan izahı olmalıdır. Məsələn, mən Eldar müəllimdən soruşmaq istəyirəm, sizin fikrinizcə, Qantural niyə Ramizi tapança ilə vurub, Xanəli ilə oğlunu isə bıçaqla?

Müstəntiq gülümsədi:

- Bunlar hər ikisi silahdır. Tapança da, bıçaq da. Amma hərəsinin öz yeri var. Hasardan həyətə düşən Qantural qəflətən Ramizi görüb və ona silahını çıxarmağa imkan vermədən, tapança ilə vurub.

Sonra isə qapıya gedib və qapını açan Xanəlini daha yaxın məsafədən bıçaqla vurub...



downloaded from KitabYurdu.org

Allahverdi Əbilov başını buladı.

- Nədir? - İmanov soruşdu. - Sənin məntiqinlə düz gəlmədi?

Kapitan başını aşağı dikib, astadan:

- Yox... - dedi. - Hətta mən Ramizin meyitinin vəziyyətindən də belə anladım ki, Qantural onu həyətdən gedəndə vurub, gələndə yox.

- Necə yəni? - İmanov təəccübləndi.

- Qəti demirəm, amma meyitin yıxılma vəziyyəti göstərirdi ki, Qantural onu Xanəligili öldürüb qaçmaq istəyəndə vurub. Bəlkə də belə deyil, amma...

- Bəlkə, - rəis sözə qarışdı. - Qantural həyətə girəndə, əvvəlcə, Ramizi görməyib?.. Bəlkə o haradasa olub. Məsələn, tualetdə...

- Bilmirəm, cənab polkovnik, - Əbilov başını yellədi. - Həyətə girəndə özümdə deyildim heç. Təsəvvür edin ki, uduzduğumu görüb nə hala düşmüşdüm. İndi də yuxusuzluqdan, yorğunluqdan başım işləmir. Düşünə bilmirəm, nəsə...

Polkovnik Mirzəyev bir qədər fikirləşib, nəhayət dilləndi:

- Əslində, bunların o qədər fərqi yoxdur. İşıq əvvəl yandı, ya güllə səsi əvvəl gəldi. Qoruyucusunu əvvəl öldürdü, ya Xanəlini... Əsas məsələ aydındır ki, Qantural gəlib həmin üç nəfəri öldürüb. Hansını hansı silahla öldürməyin də, məncə, elə bir əhəmiyyəti yoxdur. Axır ki, öldürüb və bu dəfə də əlimizdən çıxıb... -danışığına bir qədər ara verəndən sonra üzünü kapitan Əbilova tutdu. - Sən, dur get! Görürəm, əhvalın, doğrudan da, yaxşı deyil. Get dincəl, sonra ətraflı danışarıq.



downloaded from KitabYurdu.org

Allahverdi ayağa qalxıb, qapıya doğru getdi. O bu saat doyunca yatıb dincəlməkdən başqa heç nə arzulamırdı.

Səksən altıncı fəsil

Həbsxana nəzarətçilərindən biri Rizvana xəbər gətirdi ki, Vələddinin oğlu Ələmdar onun görüşünə gəlib. Dustaqların başçısı sevinməklə bərabər, bir az da təəccübləndi. Neçə illər səsi-sorağı çıxmayan Ələmdardan nə əcəb, görəsən?..

Sakit bir otaqda qucaqlaşıb görüşdülər. Rizvan, dərhal, hər ikisi üçün çay gətizdirdi. Oturduğu yerdə Ələmdarı başdan-ayağa süzüb:

- Maşallah, - dedi, - lap əjdaha kimi oğlan olmusan. Amma elə o vaxt da yaman idin.
Yadındadı, burdakılara necə qan uddururdun? Sonra o gedən oldun. Düzdür, səsini-sorağını, eşidirdim, ancaq çox az-az. Danış görüm, nə işlə məşğulsan?

Ələmdar idman klubundakı işlərindən qısa şəkildə danışdı və öz növbəsində sual verdi:

- Sənin işlərin necə gedir?

- Niyə ki, pis deyil... - Rizvan cavab verdi. - Hörmətimizi saxlayırlar, Allaha şükür! Ancaq... Belə, necə deyim, getdikcə cırlaşır elə bil adamlar... Əvvəllər kişini kişi eləyən xasiyyət var idi ki, əgər özünə kişi deyirsənsə, o xasiyyətlər səndə olmalı idi. Amma indi yerindən duran özünə kişi deyir. Di gəl ki, kişiyə xas olan bir dənə xüsusiyyəti yoxdur. Pul, mal kişilərin çoxunu diz çökdürüb öz qabağında. Nə sözün qiyməti qalıb, nə kişiliyin... Əvvəl kişilər olub burda, sənin rəhmətlik atan Vələddin kimi, dördbarmaq Ağaşamil kimi... Hə... Deyir, bu gecə Balta Xanəlini öldürüblər, doğrudur?



downloaded from KitabYurdu.org

- Hə! - Ələmdar təsdiq etdi. - Özünü də, on bir yaşlı oğlunu da.

Rizvan təəssüflə başını buladı:

- Nakişiliyə bax sən! Uşağa əi qaldırıb qurumsaq! Eybi yox, yəqin ki, o Qantural buraya gəlib çıxacaq... Mənim Xanəli ilə elə bir tanışlığım- zadım olmayıb, amma mərd adam olduğunu eşitmişdim. Bilirsən də, atası da sənin atanla yaxın olub.

- Yox, bilmirdim, - Ələmdar dedi.

- Hə, yaxın olublar. Necədi indi görəsən, Ağaşamil kişi?

-Xəstəxanada yatır. İnfarktdan.

- Hələ çox möhkəm adamdır ki, dörd oğul itkisinə dözüb. Çox çətin məsələdir. Həm də heç başıma girmir bu intiqam mənim. O Qanturaldır
nədir, namus intiqamı alana oxşamır heç! Ağaşamil kimi adama sataşmaq, özü də belə... Ağlını itirib o, vallah ağlını itirib!

Rizvan çayından bir qurtum içib, əlindəki təsbehi oynatmağa başladı. Daha yaşlaşmış, saçlarının çoxu ağarmışdı. Ona baxan Ələmdar həbsxanada keçən günlərini xatırladı. Təzəcə xəyala dalmışdı ki, Rizvanın səsi onu fikirdən ayırdı:

- Xeyir ola gəlməkdə, Ələmdar, mənə görə bir qulluğun?

- Çox sağ ol! - Ələmdar razılığını bildirdi. - Salehlə bir söhbətim var. Dedim, gəlmişkən səni də görüm.

- Hə... - Rizvan gözünü əlindəki təsbehə zillədi. - Sənin sözünü mənə çatdırandan sonra burada hamıya tapşırmışam onu. İndi vəziyyəti lap yaxşıdır.



downloaded from KitabYurdu.org

Amma deyir, arvadı, uşaqları yoxa çıxıb. Bunu eşidəndən sonra heç özündə deyil. Mən də maraqlandım, ancaq bir şey öyrənə bilmədim bu barədə.

- Saleh nə vaxt eşidib bunu?

- İki gündür. - Rizvan cavab verdi. - Sən özün maraqlanmısan bu məsələ ilə?

- Hə! - Ələmdar fikirli halda dilləndi. - Amma onların harada olduğundan xəbərim yoxdur. Elə Salehlə də buna görə söhbət etmək istəyirəm. Onlardan intiqam almaq istəyirlər. Ola bilsin ki, arvadı da buna görə uşaqlarını götürüb, hansısa qohumunun, ya rəfiqəsinin evində gizlənib.

Rizvan bir istədi ki, Ələmdardan Salehlə olan yaxın münasibəti barədə soruşsun. Amma soruşmadı. Onun üçün Salehin buraya düşməsi də,
lap elə Ələmdarla olan münasibəti də şübhəli idi. Əgər dəqiq bir cavab ala bilməyəcəkdisə, soruşmağın nə mənası olacaqdı?..

- İndi Salehi göndərim yanına? - deyə ayağa qalxıb soruşdu.

- Hə, göndər, gəlsin! - Ələmdar da ayağa durdu.

Rizvan onunla qucaqlaşıb gedəndən beş dəqiqə sonra Saleh otağa daxil oldu. O, Ələmdarı tanıyıb onunla çox mehriban görüşdü. Amma yaman sınıxmışdı fikir çəkməkdən. Gözlərində təsvirəgəlməz bir qorxu, bir kədər yuva salmışdı.

- Necəsən? - görüşüb, stolun arxasında üzbəüz oturandan sonra Ələmdar soruşdu.

- Çox sağ ol, yaxşıyam sayəndə, - Saleh ürəkdən razılıq elədi.



downloaded from KitabYurdu.org

Amma heç yaxşıya oxşamırdı. Az vaxtda, çuxura düşmüş gözlərini Ələmdarın ağzına dikmişdi və əslində, ondan yalnız bəd xəbər gözləyirdi.

- Eşitdim, ailənin yoxa çıxmasını bilib, bərk narahat olmusan? - Ələmdar onu diqqətli baxışlarla süzüb dilləndi.

- Hə... - Saleh kövrəldi. - Lap ürəyim partlayır, doğrusu. Başlarına nə iş gəlib, anlaya bilmirəm.

-Ailən etibarlı yerdədir. Mənim tanışım olan hörmətli bir xanımın himayəsi altındadır.

- Doğrudan? - Saleh sevindi. - Necə olub axı bu?

Ələmdar bir an susub ciddi şəkildə danışmağa başladı:

- Mənə diqqətlə qulaq as! Sənin ailən nə əzab çəkibsə, sənin ucbatından çəkib. Yəni sənin qorxaqlığının və acizliyinin ucbatından... Mən polisin kamerasında səninlə tanış olandan sonra başa düşmüşdüm ki, Əlifağa Sadıxovun oğlunun öldürülməsində sənin günahın yoxdur. Sonra mən bu işlə dərindən maraqlandım. Hətta arvadınla görüşdüm... - Bunu deyəndə, Ələmdar Salehin rənginin avazıdığını hiss etdi. - Məlum oldu ki, mən onun bacısı Mahirəni tanıyırammış... Cəbrayıl rayonu alınanda Mahirə ermənilərə əsir düşmüşdü. Mən də həmin vaxt əsirlikdə idim və onu orada görmüşdüm. O, qeyrətli, namuslu bir qadın kimi düşmənlərə təslim olmaq istəməyib özünü öldürdü. Sənin arvadın da ağıllı, qeyrətli qadındır. Səni çox sevir... - Burada Salehin gözlərinin əməlli-başlı yaşardığını gördü. - Bəli... O da, uşaqların da çox sevirlər səni. Sənin günahsızlığına inanırlar və sənin buradan çıxıb evə qayıtmağını gözləyirlər.
Sadıxovun özü və arvadı onlardan intiqam almaq istəyirdi. Mən bunu duyan kimi arvadını da uşaqların da, dediyim



downloaded from KitabYurdu.org

həmin qadının köməyilə onun evinə apardım. Amma bir də təkrar edirəm, onlar yalnız sənin qorxaqlığının və acizliyinin ucbatından əzab çəkirlər...

- Axı mənim heç bir günahım yoxdur?! - Saleh başını aşağı dikib dilləndi.

- Yox! - Ələmdar etiraz etdi. - Sənin ailən qarşısında günahın çoxdur. Mənim polisdə nüfuzlu adamlarım var. Xahiş etdim, bu işi yenidən araşdırdılar. Sənin, həyat yoldaşının, amma daha çox uşaqlarının xatirinə. Məlum oldu ki, Əlifağanın oğlunu sən öldürməmisən. Hətta əsl qatilin də kim olduğu artıq məlumdur.

- Kim öldürüb onu?! - Saleh özünü saxlaya bilməyib Ələmdarın sözünü kəsdi.

Ələmdar bir anlıq susub sözünə davam etdi:

- Hər şey vaxtında məlum olacaq. Mən səni bu cəhənnəmdən xilas edib ailənə qovuşduracam. Ancaq, iki şərtlə!

Saleh narahatlıqla ətrafına boylanıb əlləri ilə üzünü qapadı:

- Bilirsən, Ələmdar, mən buradan çıxmağı çox istəyirəm. Çox! Daha dözə bilmirəm buranın havasına, mühitinə... Amma məni başa düş ki, mən çox qorxuram. Elə ailəm üçün qorxuram. Bu işi boynuma götürəndə fikirləşdim ki, qoy mən türmədə yatım, təki, ailəmə bir şey olmasın. Təki... Təki, sağ olum, heç olmasa. Uşaqlarım bilsin ki, mən sağam...

Ələmdar istehza ilə başını buladı:

- Belə sağ olmaqdansa, bəlkə ölmək yaxşı idi. Bir də deyirəm, mən səni ailənə qaytarmaq istəyirəm. Ancaq iki şərtimə əməl etməyə özündə kişilik, cəsarət tapmalısan!


downloaded from KitabYurdu.org

Saleh, sanki hər şeyi əbədilik itirəcəyindən qorxub tələsik dilləndi:

- Mən hər bir şərtə razıyam!

Ələmdar məmnun halda gülümsədi:

- Birinci şərtim odur ki, arvadının, uşaqlarının sənə olan istəyini qiymətləndirəcəksən. Kim nə deyir desin, onların qədrini bilib, sevəcəksən.

- Mən onları canımdan artıq istəyirəm, - Saleh astadan dilləndi.

- Bilirəm. - Ələmdar dedi. - Amma sənin ucbatından Məltəm polisin, müstəntiqin qabağında oturub utandığından tər tökə-tökə izahatlar verməli oldu. Sənin ucbatından onları daha nələr gözləyirdi, bir Allah bilir.

- Mən özüm də xəcalət çəkirəm, amma inan ki...

- İkinci şərtim budur ki, - Ələmdar onun sözünü kəsdi. - Aprelin 9-da başına nə iş gəlib, hamısını mənə bircə-bircə danışacaqsan.

Saleh birdən-birə tutuldu. Dodaqlarının titrəməsini saxlamaq üçün onları gəmirməyə başladı. Baxışlarını Ələmdardan yayındırıb otağın bir küncünə dikdi.

Ələmdar onun nəyisə gizlətdiyini hiss edib dilləndi:

- Bir də deyirəm, Rafiqi öldürən adam məlumdur. O, tezliklə həbs ediləcək və sən buradan buraxılacaqsan. Amma sən mənə inanmalı və bu sirri mənə açmalısan. Aprelin 9-da Sadıxovun bağında nə baş vermişdi? Səni bıçaqla kim vurmuşdu və nə üçün? Nəyə görə sən bu boyda cinayəti boynuna götürdün? Hə, gözləyirəm. Onu da deyim ki, vaxtım çox azdır.

Saleh qarşısında oturmuş bu adamın sözünün təsirini



downloaded from KitabYurdu.org

artıq görmüşdü. Neçə gün idi ki, burada onun adının kölgəsində dolanırdı. Bu yandan da deyirdi ki, Rafiqin əsl qatili tapılıb. Demək, onu doğrudan da buraxa bilərdilər. Amma bəs Şərafət xanımın sirrini necə açsın? Onu lap buradan buraxsaydılar da, sirr açılsaydı, Şərafət xanım ondan intiqam almayacaqdımı? Əlbəttə, alacaqdı!..

- Gəl, məndən bunu soruşma, Ələmdar! - dedi. - Lap məni buradan buraxsalar da, sonrasından qorxuram...

Ələmdar əsəbiləşib ayağa qalxdı:

-Ancaq necə döyərəm səni?! Sən nə əclaf adamsan ə?! Bayaqdan sənə bu qədər söz danışdım, bir təsiri olmadı? Arvadına, uşağına sahib olmaq istəmirsən? İstəyirsən, Əlifağa, Şərafət bildiklərini eləsin onlara? Mən sənə öz köməyimi təklif edirəm, deyirəm ki, hər şeyi danış, səni evə buraxdırım. Sən isə mənə naz edirsən!

Saleh başa düşdü ki, bu onun son şansıdır və hər şeyi olduğu kimi danışmalıdır. Başını qaldırıb Ələmdarın üzünə baxdı və danışmağa başladı:

- Ələmdar, sənin mənim üstümdə haqq-sayın çoxdur. Mən ölənə kimi səni özümə qardaş biləcəm. Odur ki, istəmirəm, məni qorxaq hesab edəsən. Mən hər şeyi sənə olduğu kimi danışacam. Özün də görəcəksən ki, mənim başqa heç bir çarəm

olmayıb... Həmin gün Əlifağa mənə bəzi şeyləri alıb dənizkənarı villasına aparmağı tapşırmışdı. Mən onun dediyi şeyləri alıb maşını oraya sürdüm. Darvazanı bir dəfə döydüm, açan olmadı.

Axşamüstü idi. Fikirləşdim ki, bəlkə də fəhlələr işdən tez çıxıb gediblər. Arvada da əziyyət vermək istəmədim. Elə bil Allah ağlımı almışdı. Heç elə şey eləməmişdim, birdən-



downloaded from KitabYurdu.org

ikiyə... Maşını hasara yaxınlaşdırıb üstünə çıxdım. Onun köməyilə hasardan aşıb, darvazanı açdım. Torbaları maşından götürüb içəri apardım. Həyətdə heç kəs yox idi. Orada, həyətin ortasında böyük villa tikilib. Amma hələ hazır deyil. Arxa tərəfində müvəqqəti yaşamaq üçün balaca bir ev var. Şərafət orada olurdu. Əlifağanın arvadı. Qapıya yaxınlaşanda əcaib səslər
eşitdim. Necə oldusa, heç nə fikirləşmədən əlimdəki torbaları yerə qoyub qapını açdım. İçəri girəndə...

Saleh susub, dərindən nəfəs aldı. Sanki daha danışmaq iqtidarında deyildi. Bu, Ələmdarı bir az hövsələdən çıxartdı. Ciddi səslə:

- Qurtar, görək! - dedi. - Nə görmüsən, hamısını danış! Biz ikimiz də kişiyik!

Saleh davam etdi:

- Gördüm ki, üçü də çılpaqdır...
- Hansı üçü? - Ələmdar səbirsiz halda soruşdu.

- Şərafət, bir də iki fəhlə. Umudla Yaqub. Onlar bir aydan çox idi ki, hər gün səhər o həyətə gəlib, axşam gedirdilər. Onları Şərafət özü tapıb gətirmişdi mənimlə. Həyətdə xırda-xuruş işlər görmək üçün... Daha nə deyim? Seksin ən iyrənc formaları ilə məşğul idilər. İnanın ki, şok vəziyyətinə düşmüşdüm.
Ağlım üstümdə deyildi. Elə onlar da özlərini itirmişdilər. Fəhlələrin üstünə şığıyıb, onları, necə gəldi, vurmağa başladım. Onlar mənə o qədər də müqavimət göstərmədilər. Amma birdən arvad qaz plitəsinin üstündən mətbəx bıçağını götürüb üstümə atıldı. Onun həmin anda aldığı əcaib sifət indi də gözümün qabağına gələndə, məni qorxu bürüyür. Yuxuma da girib sonradan həmin


downloaded from KitabYurdu.org

vəziyyətdə. Ürəyimdən vurmaq istəyirdi, yəqin ki. Ancaq bıçaq qoluma dəydi. Qan fəvvarə vurub qolumu bulayanda fəhlələr özlərinə gəlib, araya girdilər və ikinci zərbəni vurmağa ona imkan vermədilər. Mən qaçıb həyətə çıxdım. Onlar geyindilər. Şərafət dayanmadan məni söyür, öldürəcəyi ilə hədələyirdi. Sonra döşəkağından parça cırıb qolumu sarıdılar. Şərafət məni hədələyib dedi ki, əgər bu sirri bir adama
açsam, özümü öldürtdürəcək, arvadımı da... Arvadımı da tutub, həmin oğlanlara verəcək...

- Yaxşı, sonra nə oldu? - Ələmdar əsəbi halda soruşdu.

- Sonra məni yenə də xeyli söyüb qovdu. Mən, həyətdən çıxanda gördüm ki, oğlunun maşını darvazadan bir az aralı dayanıb. Rafiqin də meyiti maşınla hasarın arasında atılıb qalıb. Yaxınlaşıb baxdım. Onun öldüyünü biləndə məni dəhşət bürüdü. İstədim, geri qayıdıb, bunu arvada xəbər verim. Amma nə qədər elədim, ayağım getmədi. Qorxdum. Qorxdum ki, məndən biləcək bunu... Bir neçə dəqiqə key vəziyyətdə dayanıb durdum. Doğrusu, beynim elə tutulmuşdu ki, fikirləşə də bilmirdim. Sonra ağlıma gəldi ki, ən yaxşısı qaçıb evə getməkdir. Guya heç görməmişəm meyiti... Elə
də elədim. Maşına oturub birbaş evə sürdüm... Qorxudan cib telefonumu da bağlamışdım. Bir azdan Şərafət evə zəng vurub, onu satmamaq barədə bir də xəbərdarlıq etdi. Sonra Əlifağanın adamları gəlib məni apardılar. Bıçağı meyitin əlinə verib plan qurmuşdular ki, guya mən Rafiqlə dalaşmışam. O məni bıçaqla vurub yaralayıb, mən də daşla onun başından vurub, öldürmüşəm... Ən dəhşətlisi isə o idi ki, guya mən Şərafətə sataşmaq istəmişəmmiş. Guya o


downloaded from KitabYurdu.org

buna görə vurubmuş məni. Bunu anlayanda, elə bil yer ayağımın altından qaçdı. Necə uydurmuşdu bunu qadın, dərk eləyə bilmədim. Yəqin ki, fəhlələri də şahid göstəribmiş mənim hərəkətimə. Yəqin ki, öyrədibmiş onları da... Həmin gecəni Allah mənim ömrümə yazmasın. Həm qorxurdum, həm xəcalət çəkirdim Əlifağanın qabağında... Amma
danışıb hər şeyi olduğu kimi deyə bilmirdim. Məni söydü, təhqir elədi Əlifağa. Guya arvadına sataşdığıma görə. Sonra da, o ki var, döydürdü məni. Şərafət də durub rahatca baxırdı bütün bunlara. Müstəntiq məni dindirəndə cinayəti heç cür boynuma götürmək istəmirdim. Ancaq qolumun yaralanması məsələsini də ağlabatan şəkildə izah edə bilmirdim. Hər şeyi olduğu kimi deyib, Şərafətin sirrini də aça bilməzdim. Arvad özü o yana dursun, heç Əlifağa məni sağ qoymazdı. Arvadını ləkələdiyimə görə... Axır ki, hər şeyi onların dediyi kimi boynuma almağa məcbur oldum... Bax, Ələmdar, mən sənə inanıb həqiqəti ilk dəfə sənə danışdım. Heç Məltəmə də danışmamışdım bunu. İndi səndən xahişim budur ki, bu sirri çıxarma. Onlar bunu bağışlamazlar mənə...

Ələmdar dinmirdi. Xəyalı uşaqlıq illərinə getmişdi. Suzanna ilə onların evində qaldığı gecəni xatırlayırdı. Ancaq xatirələrinə tezliklə son verib, ayağa qalxdı. Bunu görən Saleh də yerindən durdu. Ələmdar onu diqqətlə süzüb, gözlənilmədən soruşdu:

- Nəyəsə ehtiyacın var? Pula, ya başqa bir şeyə?

- Yox! - Saleh başını silkələdi. - Çox sağ ol! Amma yeri gəlmişkən soruşum, mənə pulu sən göndərirdin? İndiyədək üç dəfə pul göndəriblər, ancaq göndərən adam



downloaded from KitabYurdu.org

adını deməyib.

- Yox... - Ələmdar fikirli halda cavab verdi. - Amma təxminən bilirəm, kim ola bilər o...

- Kim? - Saleh maraqla soruşdu.

- Rafiqi öldürən adam.

- Kimdi axı o?

- Bax, bunu vaxtı gələndə biləcəksən. - Ələmdar görüşmək üçün əlini ona uzatdı. - Bu söhbətimiz barədə heç kəsə bir kəlmə də demə. Ailəndən də tam arxayın ol. Amma özünü elə göstər ki, onların yerini bilmirsən. Mən çalışacam ki, hər şey yoluna düşsün və sən də ailənə qayıdasan.
Onlardan da qorxub eləmə. Hər şey yaxşı olacaq.
Bir sözün yoxdursa, mən getməliyəm.

- Uşaqlara, Məltəmə məndən salam de! - Saleh bunu deyib kövrəldiyini göstərməmək üçün üzünü yana çevirdi.

Sağollaşıb ayrıldılar. Ələmdar nəzarətçilərə təşəkkürünü bildirib həbsxanadan çıxdı. Bu gün yaman narahat gün idi onun üçün. Gecə Xanəlinin evindən gələndən sonra saat 4-də güclə yuxuya
getmişdi. Səhər işdə, sonra isə Xanəli ilə o yazıq uşağın dəfnində olmuşdu. İndi də burda... Acı həbsxana xatirələri. Saata baxdı. Altı olmağa az qalmışdı. Maşına tərəf gedəndə telefonuna mesaj gəldi. Cəld açıb oxudu. Mesaj İlqardan idi. Qısaca olaraq bir cümlə yazılmışdı. Ələmdar, özündən asılı olmayaraq gülümsədi və telefonu cibinə qoyub maşına əyləşdi.

Səksən yeddinci fəsil

Gecə saat ikini ötmüşdü. Bakının küçələrində yalnız tək-tək maşınlar gözə çarpırdı. Harasa tələsən bu maşınlar boş



downloaded from KitabYurdu.org

küçələrə uğultu salaraq keçib gedir, ətrafa səpələnmiş lal sükutu dağıdırdı. Sonra həmin lal sükut yenə öz yerinə qayıdırdı. Bu zaman küçə fənərlərinin işıq saldığı boş küçələr, əsrarəngiz yuxularda olduğu kimi, qəribə və vahiməli bir təsir bağışlayırdı.

Mikrorayonlar tərəfdən gələn bir maşın «Şamaxı yolu» deyilən yerdən burulub şəhərin çıxışına doğru yol aldı. Gecənin bu aləmində, təsadüfən küçələrdə görünən başqa maşınlardan fərqli olaraq, bu maşın asta sürətlə hərəkət edirdi. Sanki şəhər sakinlərinin əksəriyyətinin şirin yuxuda olduğu bir vaxtda gedəcəyi yerə tələsmir, boş küçələri gəzməkdən zövq alırdı.

Bir qədər beləcə getdikdən sonra daxil olduğu qəsəbənin sakit küçələrində hərlənməyə başladı. Nisbətən dar və uzun bir küçəyə girəndə isə sürətini bir az da azaltdı. Sonra işıqlarını da söndürdü və nəhayət, səkinin kənarında, iri, qollu-budaqlı söyüd ağacının altında dayandı.

Maşının içində olan tək adam tələsmədən maşından düşüb boş və qaranlıq küçəyə nəzər saldı. Sonra o biri səkiyə keçib gəldiyi yolun əksinə addımlamağa başladı. Küçənin hər iki tərəfində hasara alınmış həyət evləri uzanıb gedirdi. Naməlum adam iyirmi-otuz addım gedəndən sonra belə evlərdən birinin darvazası qarşısında dayandı. Bu iki mərtəbəli köhnə, balaca bir ev idi. Nə evdən, nə də həyətdən heç bir işıq gəlmirdi. Rəngi solmuş darvazaya iri bir qıfıl vurulmuşdu.

Naməlum adam geriyə çəkilib, darvazanın yaxınlığında olan yoğun bir ağacın arxasında gizləndi. Kürəyini ağaca söykəyib bir qədər fikrə gedəndən sonra özü ilə götürdüyü


downloaded from KitabYurdu.org

qara rəngli maskanı başına keçirib, əllərinə əlcək taxdı. Qayışına keçirdiyi tapança ilə bıçağı əli ilə yoxlayıb ağacın dalından çıxdı. Sıçrayışla hasara atılıb onun üstündən aşdı və səssizcə həyətə düşdü.

Ətrafı bir qədər dinlədikdən sonra cəld və səssiz hərəkətlə kiçik evin yan tərəfinə keçdi.

Bu evin birinci mərtəbəsi alçaq zirzəmi idi ki, onun sınıq-salxaq qapısından paslı qıfıl asılmışdı. Ev çox kiçik idi və ikinci mərtəbədə, yəqin ki, bircə otaq

var idi. Naməlum adam elə həmin otağın pəncərəsinin altında dayanmışdı. O, ətrafa boylanıb alaqaranlıq, kiçik həyətdə ərik ağacına söykənmiş gödək nərdivanı gördü. Ehtiyatla yaxınlaşıb, nərdivanı götürdü. Onu evin divarına söykəyib yuxarı dırmandı və çərçivələrinin rəngi solub getmiş pəncərədən içəri baxdı.

Otaq qaranlıq idi və içəridə, demək olar ki, heç nə görünmürdü. Amma naməlum adamın gözləri bu qaranlığa alışandan sonra oradakı tək çarpayını, şkafı və stolu seçə bildi. Bundan sonra cibindən çıxardığı kiçik fənəri yandırıb işığını içəri saldı. Çarpayıdakı yataq boş idi...

Naməlum adam elə nərdivandaca, bir anlıq nəsə düşünüb işə başladı. Nazik, paslı mıxları əyməklə, pəncərənin şüşələrindən birini çıxartdı.

Əlini içəri salıb, cəftəni çəkdi və pəncərəni açıb pişik cəldliyi ilə içəri daxil oldu. Otağı gəzib fənərin işığında hər şeyə göz qoymağa başladı.

Stolun üstündə köhnədən qalma saatdan və təmiz külqabıdan başqa heç nə yox idi. Saat da heç işləmirdi. Naməlum gecə qonağı çarpayıya yaxınlaşıb, səliqə ilə salınmış nazik yorğanı baş tərəfdən qaldırıb qoxuladı və


downloaded from KitabYurdu.org

yenə ehtiyatla yerinə salıb hamarladı. Sonra köhnə taxta şkafı açıb, fənərin işığını onun içinə saldı. Şkafda tək bir köynək asılmışdı. Bu, bir tərəfində qırmızı, bir tərəfində göy zolaq olan ağ rəngli köynək idi...

Şkafın qapısını örtüb mətbəxə keçdi. Balaca stolun üstündə bir neçə bulaşıq qab-qacaq var idi. Zibil yeşiyində boş konserv qutusu və xama qabları nəzərə çarpırdı. Xama qablarının birini götürüb,
fənərin işığını içinə saldı. Qabın divarlarına yapışıb qalmış xama kif bağlamışdı.

Kiçik soyuducunun qapısını açıb içərisinə baxdı. Orada sellofana bükülmüş yarımçıq çörək, üstündən azacıq yeyilmiş bir qab xama, iki yumurta və dilimlənmiş kolbasa parçası var idi.

Maskalı adam soyuducunun elektrikdən ayrıldığını görəndə bir anlıq duruxub qaldı. Cəld buzxananın qapağını açıb əlini oraya saldı. Buzxana hələ bir qədər sərin idi... Soyuducunun qapısını örtüb, bir də ətrafına nəzər saldı və cəld hərəkətlə otağa keçib, pəncərədən nərdivana adladı. Pəncərəni əvvəlki kimi bağlayıb, nərdivanı öz yerinə qoydu və həyətə göz gəzdirməyə başladı.

Həyətdə cəmi üç dənə ağac var idi. Bura baxımsız vəziyyətdə idi və hiss olunurdu ki, çoxdan
əl gəzdirilmir. Ağacların dibini alaq və tikan basmışdı. Yalnız pilləkəndən bir qədər aralı, hasarın dibində sıra ilə əkilmiş beş dənə iri qızılgül kollarının dibi bellənmişdi. Ancaq bu kolların da budaqlarının hamısı yarıyadək qurumuşdu.

Naməlum adam sonuncu dəfə həyətə göz gəzdirib, küçəyə baxan hasara yaxınlaşdı. Hasarın üstündən atılıb



downloaded from KitabYurdu.org

səkiyə düşdü. Ətrafına baxıb, onu heç kəsin görmədiyinə əmin olandan sonra maskasını və əlcəklərini çıxarıb maşınına tərəf addımladı.

Bir azdan həmin maşın şəhərin geniş küçələrində göründü. Amma bu dəfə asta hərəkətlə getmirdi. Sanki harayasa tələsirmiş kimi, sürətlə şütüyürdü.

Səksən səkkizinci fəsil

Bu gün iyun ayının birinci günü idi. Dünən səhər ürək infarktından xəstəxanaya gətirilmiş Ağaşamilin vəziyyəti indi bir qədər yaxşılaşmışdı. Bu gecəni Səxavət, Cəhalə, Fatimə xəstəxanada keçirtmişdilər. Səhər açılandan sonra Səxavət evə getmişdi ki, bir az dincəlib, Xanəlinin ehsanına hazırlıq məsələləri ilə maraqlansın. Yas mərasiminə rəhbərliyi bibisi oğlu Ağakərim öz boynuna götürmüşdü və Səxavət onunla görüşüb bir şeyə ehtiyacı olub-olmadığını öyrənəcəkdi. Cəhalə ilə Fatimə isə xəstəxanada qalmışdılar.

Cəhalə Fatiməni xəstənin yanında qoyub, palatadan çıxdı. Dəhlizdəki oturacaqda əyləşib

çiyinlərinə dağılmış saçlarını əli ilə düzəltdi. Xanəli ilə oğlunun ölümü onu əməlli-başlı sarsıtmışdı. Ən çox da Fətəlinin. Yaman çox istəyirdi yazıq uşağı...

O da dünən səhər bilmişdi əhvalatı. Qayınatasının pis vəziyyətdə xəstəxanaya aparılmasını eşidib, özü də birbaşa buraya gəlmişdi. İndi həmin vaxtına baxanda halı xeyli yaxşı idi kişinin. Bura gətiriləndə dili də tutulmuşdu.

Cəhalənin atası gəldi, sonra Əlifağa Sadıxov gəldi. Ən yaxşı həkimləri gətirmişdilər Ağaşamilin üstünə.

Cəhalə dünən səhər evdən çıxan idi və bəlkə də ömründə birinci dəfə idi ki, üst-başına əl gəzdirməmiş



downloaded from KitabYurdu.org

evdən çıxmışdı. Əynində qara rəngli, sadə, uzun don var idi. Saçlarını xüsusi olaraq düzəltməmiş, üz-gözünə heç nə vurmamışdı. Amma elə bu cür də gözəl görünürdü. Təmiz, mavi gözləri,
boyasız, bir qədər solğun püstə dodaqları, üzünün hamar, ağ dərisi qara rəngli donu ilə uyuşub məhrəmanə bir görünüş yaradırdı.

Ələmdarın dəhlizlə ona doğru gəldiyini görüb ayağa qalxdı. Belə ağır anlarında onu gördüyünə sevinmişdi, deyəsən və bu sevincini gizlətməyə çalışsa da gözlərindəki parıltı bunu aşkar edirdi. Ələmdar ona çatıb astadan salam verdi. Yorğun, narahat və bir qədər əsəbi görünürdü. Başı ilə yaxındakı palatanın qapısına işarə edib:

- Burada yatır? - deyə soruşdu.
- Hə... - Cəhalə başını tərpətdi.
- Vəziyyəti necədir?
- İndi pis deyil. Amma dünən səhər qorxutdu bizi.
- Böyük müsibətdir. - Ələmdar ah çəkdi. - Başınız sağ olsun!

Cəhalə kövrəldi:

- Heç o birilərin ölümü bu qədər təsir etməmişdi mənə. Bu tifil uşaq... Onun günahı nə idi görəsən?

Ələmdar oturacaqda əyləşib ona da yanında yer göstərdi:

- Fatimə buradadır?
- Hə, içəridədir.
- Bu gecə xəstənin yanında hansınız qalacaqsınız?
- Fatimə. Mən də sabah axşam qalacam, yəqin ki...

Yaylığını çıxarıb, gözlərindən axmağa başlayan yaşı quruladı. Ələmdar əlini yüngülcə onun saçlarına çəkib,


downloaded from KitabYurdu.org

təskinlik vermək istədi:

- Dərdinizi başa düşürəm. Amma neyləmək olar? Öləni geri qaytarmaq mümkün deyil.

Cəhalə daha da kövrəlib başını onun çiyninə qoydu. Ələmdarın üzünə toxunan saçlarından zəif ətir iyi gəlirdi. Astadan, hıçqırıqlı səslə:

- Qorxuram, Ələmdar, çox qorxuram! - dedi.

Ələmdar ətrafına boylandı. Dəhlizin o biri başında bir tibb bacısı əynində zol-zol xəstəxana paltarı olan bir kişi ilə söhbət edirdi. Qadının başını ehtiyatla özündən aralayıb:

- Kimdən qorxursan, axı? - deyə soruşdu.

- Hamıdan, hamıdan qorxuram daha! - Cəhalə yenə yanaqlarındakı göz yaşlarını sildi. - Yad adamlar hamısı qatil kimi görünürlər gözümə.

- Qorxma, belə getməyəcək bu. Yəqin ki, tutacaqlar o əclafı.

- Nə vaxt tutacaqlar? Hamımızı qırıb qurtarandan sonra? - qadın səsini bir az qaldırıb, sonra birdən-birə sakitləşdi və dərindən ah çəkdi. - Papam deyir ki, gəl səni göndərim, get bir ay Türkiyədə dincəl...

- Pis olmaz. - Ələmdar başını tərpətdi.

Cəhalə ona təəccüblə baxdı:

- Burda qayınlarımın yasını saxlasınlar, mən də gəzməyə gedim? Nə deyərlər buna?

- Sən ki başqalarının nə düşünməsini, nə deməsini nəzərə alan deyildin?..

- Düz deyirsən! - Cəhalə təsdiq etdi. - Başqalarına görə yox, öz vicdanım qəbul eləməz bunu. Bir də... Lap düzünü soruşsan, sənə görə gedə bilmərəm. Burda səni tez-tez görə



downloaded from KitabYurdu.org

bilməsəm də, heç olmasa, bilirəm ki, eyni şəhərdəyik... Dözə
bilmərəm, kənarda, sənsiz. Dünən də, bu gün də çox arzuladım səni... Çox sağ ol ki, gəldin. Heç belə bilmirdim özümü, Ələmdar, doğrudan, çox qorxuram.

Yenə Ələmdara sığınmaq istədi. Ələmdar buna mane olsa da, qadının qəlbini qırmaq istəməyib, onun əlindən tutdu.

- Sakit ol, hamısı keçib gedəcək. Yəqin, qəfil xəbərdən stress keçirmisən. Sənə bir qədər dincəlmək lazımdır.

- Lap həkim kimi məsləhət verirsən. - Cəhalə acı-acı gülümsədi.

- Bəs Səxavət haradadır? - Ələmdar söhbəti dəyişdi.

- Sabah ehsan veriləcək. Getdi ki, görsün nə iş görüblər. Xanəlidən sonra o da yaman qorxur. Heç özünə yer tapa bilmirdi dünən. Elə gözü qapılarda
qalmışdı. Axşam Səlahəddin zəng vuranda uşaq kimi sevindi.

- Səlahəddin kimdir? - Ələmdar soruşdu.

- Demişdim axı... Nihatın dostu olub. Xanəligil işə götürmüşdü onu. Mühafizəçilərə başçılıq eləyirdi.

- Axşam gəldi bura?

- Yox. - Cəhalə başını yellədi. - O iranlı oğlan gəldi. Qulu. İndi onların əmək haqqını biz verəcəyik. Səlahəddin gəlmədi. Deyib ki, bu gecə ona ehtiyac yoxdu, onsuz da polis işçiləri var burda.

Bu gecə xəstəxanada polis işçilərinin növbə çəkdiklərini Ələmdar yaxşı bilirdi. Bu barədə ona İlqarla Tələt məlumat vermişdi. Amma özünü bilməməzliyə qoyub bunu Cəhalədən soruşdu.


downloaded from KitabYurdu.org

- Hə! - Cəhalə cavab verdi. - İki polis işçisi səhərədək burda qaldı. Mənim qoruyucularım da
burada idilər. Bir də Qulu... Ancaq məncə, Səlahəddin özü polislərin gözünə görünməmək üçün gəlmədi.
- Niyə? - Ələmdar yalandan maraqlandı.
- Mən bilən, - Cəhalə izah etdi. - Qanturalın qardaşını o öldürüb. Xanəlinin tapşırığı ilə...
- Nədən bilirsən?
- Səxavətlə Qulunun danışığından başa düşdüm. - Cəhalə səsini alçaltdı. - Həm də onun əlindən gələ bilər belə iş. Xanəli başqa kimə elətdirə bilərdi bunu?..
- Bilmədiyin bir şeyi danışma! - Ələmdar məzəmmətlə dilləndi. - Səxavət kiminlə getdi?
- Məni qoruyan oğlanlarla. Qulu Fatiməyə görə burada qaldı.
Ələmdar palatanın qapısına ötəri nəzər salıb yenə Cəhaləyə üz tutdu:
- Birdən Fatimə çıxar, sözümü deyə bilmərəm. Səndən bir xahişim var.
- Nə xahiş? - Cəhalə təəccüblü baxışlarını onun üzünə dikdi.
Ələmdar öz fikrini necə izah edəcəyini bir qədər götür-qoy edib dilləndi:
- Sənə demək artıqdır. Özün bilirsən ki,
Qanturai tutulub həbs edilməyincə intiqamından əl çəkənə oxşamır. Onu da anlamamış olmazsan ki, növbə sənin ərinindir. Səxavətin... Bu qatil öz planını həyata keçirməyə gedərkən, qarşısına çıxan heç bir kəsə rəhm eləmir. Görürsən, Xanəlidən intiqam almağa gəlirkən o günahsız mühafizəçini də, uşağı da qətlə yetirdi. Deməli, əslində,


downloaded from KitabYurdu.org

indi təhlükə sənin
özündən də uzaq deyil. Mənə belə gəlir, o, Səxavətin üstünə gəlməyi sonraya saxlamayacaq. Ona görə də, səndən xahiş edirəm, Səxavəti razı sal, mən bu gecə sizin evinizdə qalım.

- Niyə sən bu işə qarışırsan ki? - Cəhalə həyəcanla soruşdu.

- Ən birincisi, sənə görə! - Ələmdar, yalandan olsa da, qətiyyətlə dedi. - Sonra, bu yaxında bilmişəm ki, Ağaşamil kişi ilə mənim atam həbsxanada bir yerdə yatıblar. Dost olublar. Başqa bir səbəb də var ki, mən Qanturalın tezliklə tutulmağını istəyirəm. Bu səbəbi, ehtiyac olarsa, sənə sonra anladaram.

Cəhalə fikirli halda boyasız dodaqlarını çeynədi:

- Dedim ki, Səxavət, onsuz da indi yaman qorxu keçirir. Hər bir adamın onu qorumağına razı ola bilər.
Ancaq mən sənin bizə gəlməyini necə izah edim ona? O səni tanıyır. Bilir ki, xəstəmin oğlusan...

- Məncə, sən bunu bacararsan. - Ələmdar düşünmədən dilləndi. - Deyərsən ki, atan məni də sizə mühafizəçi verib. İkisini verməyib sənə? Mən də olum üçüncü. Amma başa sal ki, mən evinizdə, onun öz yanında olmaq istəyirəm. Həyətdə hərlənməklə sizi qorumaq çətindir.

- Deyirsən, yəni, pəncərədən, balkondan da gələ bilər o? - Cəhalə vahimələndi. - Sən məni daha da qorxudursan, Ələmdar! Axı bizdə hər yer dəmir barmaqlıqlarla tutuludur?!

- Hər şey ola bilər... - Ələmdar sakit səslə dilləndi.

-Yaxşı... Mən Səxavəti başa salaram... - Cəhalə cavab verdi.


downloaded from KitabYurdu.org

-Amma mənim sizə gələcəyimi səninlə Səxavətdən başqa heç kəs bilməməlidir. Heç mühafizəçilər də! Yoxsa onlar arxayınlaşıb, çıxıb gedə bilərlər. İstəyirlərsə, qoy onlar da həyətdə növbə çəksinlər. Qantural sizin fikirləşdiyinizdən də qorxulu adamdır.

Cəhalə üşüyürmüş kimi çiyinlərini ovxaladı:

- Sən məni çox qorxutdun! - dedi. - Mən inanmıram bu gecə qorxudan yata bilim...

- Qorxma, mən yanınızda olacam!

Ələmdar bunu deyib ayağa qalxdı və saatına baxıb soruşdu:

- Evə nə vaxt gedəcəksən?

- İndi Həmidəgilə getməliyəm. - Cəhalə cavab verdi. - Heç bu hadisədən sonra gedə bilməmişəm axı... Sonra oradan çıxıb evə gedəcəm. Üstüm- başım yaman gündədi. Gedib yuyunmalıyam.

- Onda, axşam görüşənə qədər!

Ələmdar Cəhalədən tələsik ayrılıb, xəstəxanadan çıxdı. Küçədə saxladığı maşınına oturub qapını örtdü. Amma mühərriki işə salmadı. Gözünü darvazaya zilləyib Cəhalənin süd rəngli «Mersedes»inin oradan nə vaxt çıxacağını gözləməyə başladı. Onun Fatimə ilə çox ciddi və gizli bir söhbəti var idi və Cəhalənin bu söhbətdən xəbər tutmağını istəmirdi.

Səksən doqquzuncu fəsil

Yarım saatdan sonra onlar xəstə yatmayan boş bir palatada, hərəsi bir çarpayının üstündə, üzbəüz oturmuşdular. Dünəndən bəri xəstə atasının yanında olduğu üçün doyunca ağlamağa imkan tapmayan Fatimə göz yaşlarını sel kimi axıdırdı. Heç nə deməsə də, daha


downloaded from KitabYurdu.org

doğrusu, içindən qovrulub gələn göz yaşları nəsə deməyə imkan verməsə də Ələmdar onun qardaşı Xanəli və qardaşı oğlu Fətəli üçün nə qədər yandığını hiss edirdi.

Bu qız aprelin əvvəlində universitetin qabağındakı parkda gördüyü vaxt da kök deyildi. Amma özünə görə əti-canı, top kimi möhkəm bədəni
var idi. Ondan sonra keçən iki ay ərzində nə qədər arıqlamışdı.

Ələmdar heç nə danışmadan oturub, qızın ağlayıb ürəyini tamam boşaltmağını gözləyirdi. Ona baxa-baxa düşünürdü ki, gör bu arıq qızın canında nə qədər güc var, iki ay ərzində başına gələn bu qədər bəlalara dözüb dayana bilib. Gözünün qarşısında adam öldürülməsi, bu boyda sirri ürəyində daşıması, qardaşlarının dalbadal faciəli surətdə öldürülməsi, nişanlısının dönüklüyü, qorxu, həyəcan, narahatlıq, yuxusuz gecələr... Bunlar hamısı belə yeniyetmə bir qız uşağı üçün çox ağır yüklər idi və o bu yüklərin hamısını daşımışdı.

Ağladıqca arıq çiyinləri titrəyir, kiçik, yumru döşləri qalxıb-enirdi. Əlində tutduğu burun yaylığı tamam islanmışdı. Uzun qıvrım saçları dağılıb, bir
hissəsi üzünə töküldüyü üçün sifəti aydın görünmürdü.

Ələmdar bir istədi ki, heç nə soruşmasın bu qızdan. Elə bil yazığı gəlmişdi ona. Onsuz da, müstəntiq hər şeyi təzədən araşdıracaqdı və Fatiməni də dönə-dönə danışdıracaqdılar. Ancaq ürəyində yaranmaq istəyən yersiz rəhm duyğusunu yerindəcə boğub, qəti qərara gəldi ki, qarşısına qoyduğu məqsədə çatmaq üçün hər şeyi incəliyinə qədər öyrənəcək. Bu qız bu saat çox ağır və kədərli anlar keçirsə də, aprelin 9-da başına gələn hadisəni



downloaded from KitabYurdu.org

xatırlamalı və hər şeyi Ələmdara danışmalıydı. Belə olardısa, bəlkə də qəlbindən asılıb qalmış ağır yükün bir hissəsindən azad olmuş olardı.

Fatimə, nəhayət, doyunca ağlayıb üz-gözünün yaşını, burnunun suyunu quruladı. Başını qaldırıb,
saçlarını geriyə yığdı və dodaqlarını yalayıb, iri gözlərini Ələmdara dikdi.

- Bağışlayın ki, sizi də narahat elədim, - dedi.

Ələmdar başını yellədi:

- Heç bir narahatlığı yoxdur. Mən özüm sənə təskinlik vermədim ki, doyunca ağlayıb, ürəyini boşaldasan. Mən az görüşməyimizə baxmayaraq, səni yaxşı tanıyıram. Bilirəm ki, güclüsən, iradəlisən, mərdsən. Başına gələnlərin hamısından xəbərim var. Hətta nişanının pozulmağından da... Amma bilirəm ki, sən bütün bunlara dözüb, yaşamaq üçün mübarizə aparacaqsan. Bu güc səndə var! Sənin həyatın hələ qabaqdadır. Gördüyün pis günlərdən yüz dəfə artıq xoş günlər görəcəksən.

Fatimə yenə ağlamsındı. Ancaq bu dəfə dodaqlarını dişləyib, özünü ağlamaqdan saxlaya
bildi.

- Çox sağ olun! - dedi. - Siz mənim qarşıma həmişə ən çarəsiz anlarımda çıxmısınız. Sizə çox minnətdaram.

Ələmdar əllərini dizinin üstünə qoyub, ona tərəf əyildi:

- Fatimə, insanlar bir-birini anlayanda, heç yaxın qohum olmasalar da doğmalaşa bilirlər. Mən sənin xətrini bir kiçik bacım kimi, çox istəyirəm. Bu günlərdə eşitdim ki, bizim atalarımız da bir-birləri ilə yaxın olublar. Əlbəttə, bu elə vacib şərt deyil. Əsas odur ki, biz ikimiz də bir-birimizə qarşılıqlı hörmət bəsləyirik, bir-birimizi başa



downloaded from KitabYurdu.org

düşürük. Sən bundan sonra da, istənilən vaxt, ən çətin anlarında mənim köməyimə arxalana bilərsən...

Fatimə sakitləşmişdi. Gözlərini Ələmdarın əyləşdiyi çarpayının bir kənarına zilləyib, xətrini həddən artıq çox istədiyi oğlana diqqətlə qulaq asırdı. Onun sözünə ara verdiyini görüb, asta səslə:

- Çox sağ olun, mən də sizi qardaşım hesab edirəm, - dedi.

Ələmdarın vaxtı az idi. Eyni zamanda, Fatiməni də axtara bilərdilər. Ona görə də gəlişinin məqsədini açmağa tələsdi:

- Mənim buraya gəlməyimin əsas məqsədi səninlə ciddi bir söhbət etməkdir. Əgər sən məni, doğrudan da, qardaşın hesab edirsənsə, əgər qəlbini sıxan ağır yüklərin bir azını mənimlə paylaşmaq istəyirsənsə, gərək mənimlə səmimi danışasan, məndən heç nə gizlətməyəsən.

- Mən sizdən heç nə gizlətmərəm. - Fatimə sadəliklə dilləndi. Amma gözlərində açıq-aydın bir narahatlıq da oxundu.

Ələmdar daha onu intizarda qoymaq istəməyib, birbaşa mətləbə keçdi:

- Aprelin 9-da, bazar günü, günortadan az keçmiş, Əlifağa Sadıxovun oğlu Rafiq, yəni sənə parkda sataşmaq istəyən həmin oğlan sizin mənzilə gəlib. Bu zaman onun dostu Fuad, hansı ki, sən onu da tanıyırsan, onu blokun qabağında gözləyirmiş. Amma Rafiq bir daha oradan çıxmayıb. Daha doğrusu, sağ çıxmayıb. Fuad da bütün gördüklərini, artıq, lazımi adamlara danışıb...

Heyrətdən Fatimənin gözləri bir az da iriləndi. Dodaqlarının titrəməsini saxlamaq üçün əlini ağzına



downloaded from KitabYurdu.org

aparmalı oldu. Handan-hana özünə gəlib, titrək və ölgün səslə:

- Atamı tutacaqlar? - deyə soruşdu.

Ələmdar o vaxtdan bəri qızı qorxudan və
narahat edən bu sualın cavabından yayındı və bir an düşünüb, təmkinlə dilləndi:

- Sən mənə etibar edə bilərsən. Çalış, həmin gün baş verənləri bir daha xatırla və hər şeyi olduğu kimi mənə danış. Nə etmək lazım gəldiyini sonra birlikdə fikirləşərik.

Nə xatırlamaq?! Heç həmin uğursuz gündə baş verən hadisə Fatimənin beynindən bircə gün, bircə saat çıxmışdımı? Hər şey ən xırda detalına qədər yadında idi. Hər şey!..

Həmin gün bazar idi. Xanəiinin benzindoldurma məntəqəsində işləyən Tamerlan üçün həmin gün də
iş günü hesab olunurdu və buna görə də səhər tezdən çıxıb işə getmişdi. Günorta vaxtı Fatimə yemək hazırladı və atası ilə birlikdə nahar etdilər. Hələ, bişirdiyi xörək də yadında idi indiyədək. Toyuqla kartof qızartmışdı... Nahardan sonra atası qalxıb:

- Bir az gəzib gələcəyəm, - dedi və evdən çıxdı.

O gedəndən sonra Fatimə süfrəni yığışdırıb, qabları yudu. Vanna otağına girib yuyunmağa başladı. Fikrində ancaq nişanlısı Şakirlə sabaha şərtləşdikləri görüş idi. Axırıncı dəfə dörd gün əvvəl universitetin qabağındakı parkda görüşmüşdülər və həmin görüş Rafiq adlı o sırtıq oğlanın ucbatından çox soyuq keçmişdi. Fatimə Şakirlə nişanlanandan sonra çox az görüşmüşdülər. Bu görüşlər də,
adətən, həmin parkda olurdu ki, bir az oturub söhbət edir,



downloaded from KitabYurdu.org

sonra ayrılırdılar. Nişanlanmaqdan qabaq isə görüşməkdən söhbət belə gedə bilməzdi. Ağaşamil qızını çox ciddi qaydalarla tərbiyə etmişdi və Fatimə də bu qaydaları qəbul edib, onlara alışmışdı. Düzdür, uşaq vaxtı həyətdə oğlanlarla çox oynayırdı. Hər gün də kimisə döyüb gəlirdi evə. Ağaşamil hərdən qızını danlasa da, onun cəsarəti, gücü, cəldliyi ilə fəxr edirdi. Həmişə deyirdi ki, mənim altıncı oğlumdu Fatimə. Ancaq qız yaşa dolub yetişdikcə qaydalar da dəyişdi və ona evin qızı, ailənin namusu kimi baxmağa başladılar.

Şakirlə hələ heç bir dəfə də öpüşməmişdilər. Yəqin ki, onun bir qədər ciddi təbiəti Şakirin bu barədə cəsarətini azaldırdı və buna səy göstərmirdi. Amma Fatimə ürəyində istəyirdi bunu. Tək öpüşmək
yox, elə hər şey istəyirdi. İstəyirdi ki, toyları tez olsun...

Əslində, o, Şakiri sevib-sevmədiyini dəqiq bilmirdi. Nişanlanandan sonra bu sualı özünə verməmişdi və heç vermək də istəməzdi. Şakirə öz razılığı ilə nişanlanmışdı və deməli, onunla da ailə quracaqdı. Onunla bir yastığa baş qoyacaqdı və elə bu fikrin özü Şakiri ona daha da doğmalaşdırır, daha da əziz edirdi.

Universitetdə Fatiməni görən, tanıyan oğlanlar hamısı onu qəşəng qız hesab edirdilər. Özünə görə uca boyu, gözəl qədd-qaməti var idi. Üzü də, gözləri də çox qəşəng idi. Yaraşıqlı ayaqları var idi. Uzun, qıvrımtəhər saçları da boy-buxununa, geyiminə yaraşırdı. Daha nə qalırdı ki?.. Bir az qarayanız idi?
Əslində, elə olmasaydı, bəlkə də ümumilikdə belə qəşəng görünməzdi.

Ancaq ilk baxışdan çox ciddi görünürdü. Özünü


downloaded from KitabYurdu.org

ağırtəbiətli aparırdı həmişə. Bəlkə də buna görə oğlanlar ona yaxınlaşmağa bir o qədər maraq və ya cəsarət göstərmirdilər. Amma universitetdə aspirant kimi qalan Şakir ona yaxınlaşdı, bir-birindən xoş, bir- birindən şirnikləşdirici sözlər dedi və axır ki, qızı ovsunlaya bildi. Sonra da elçilərini göndərdi, qızın dilindən «hə» cavabını qopardılar, barmağına üzük taxdılar, vəssalam! İndi Şakir onun halal nişanlısı idi. Sabah onunla görüşəcəkdilər və istəyirdi ki, bu görüş tez gəlsin...

Qurulanıb təzə alt paltarı geyindi. Ev xalatı olmadığı üçün gödək, əyninə boş duran köhnə donunu müvəqqəti olaraq əyninə keçirib vanna
otağından çıxdı. Saçlarını tam qurulamamışdı və buna görə də dəsmal hələ əlində idi.

Bax, həmin o uğursuz dəqiqədə qapının zəngi çalındı. Atasının gəldiyini düşünən Fatimə cəld qapıya getdi. Gözlükdən baxanda qapının qarşısında atasını yox, zəhləsi getdiyi, nifrət elədiyi həmin oğlanı görəndə heyrətindən yerində donub qaldı. «Bunun burada nə işi var?» deyə düşündü.

Amma gərək bunu yalnız düşünəydi. Daha ucadan dilinə gətirməyəydi bu fikrini. Səsini çıxarıb, özünün evdə olduğunu bildirməyəydi o həyasıza.

- Sənin burada nə işin var, rədd ol burdan! - dedi.

Rafiq, nə qədər sərxoş olsa da, onun içəridə tək olduğunu başa düşdü. Səsinin mənzildə eşidilməsi üçün ucadan dilləndi:

- Aç qapını, sənə sözüm var!

- Dedim ki, cəhənnəm ol, get burdan, yoxsa polis çağıraram!


downloaded from KitabYurdu.org

Amma Rafiqin dünya-aləm vecinə deyildi. Bu dəfə daha ucadan səsləndi:

- Aç qapını, ceyran, bir kəlmə söz deyib, gedirəm!

Fatiməni titrətmə tutdu. Qonşular oğlanın səsinə çıxa bilərdilər. Sonra, gəl sübut elə ki, bu oğlanla heç bir əlaqən-filanın yoxdu.

- Fatimə!!!

Oğlanın sərxoş olduğu səsindən açıq-aydın duyulurdu. Bu zaman özünü itirən Fatimə ikinci səhvə yol verdi və qapını açdı... Onu aralı saxlamağa çalışıb asta səslə:

- Nə istəyirsən, it oğlu it?! - dedi.

Amma elə bunu dediyini gördü. Rafiq cəld onu itələyib içəri girdi və qapını arxasınca örtdü. Bunu görən Fatiməni əsəb qarışıq bir həyəcan bürüdü. Oğlanın yaxasından yapışıb onu mənzildən çıxartmağa çalışdı:

- Tez ol, çıx çölə, bu saat atam gələcək!

Rafiq sərt hərəkətlə yaxasını onun əlindən
qoparıb birinci otağa keçdi. Fatimə onun ardınca otağa girib həyəcanlı səslə ucadan çığırdı:

- Atam gəlib səni burda görsə, ikimizi də öldürəcək! Tez ol, çıx rədd ol burdan!

Rafiqin gözləri axırdı. Qızın çılpaq ayaqlarına şəhvətlə baxıb:

- Sən mənim olmayınca, heç yana getməyəcəm! - dedi.

Əli hər yerdən üzülən Fatimə mətbəxdən bıçaq götürmək üçün geriyə dönüb, qapıya doğru getmək istədi. Rafiq, həmin anda, gözlənilmədən, qızın üstünə şığıyıb onu bərk-bərk qucaqladı. Qəfil hücumun təsirindən hər ikisi yerə yıxıldı. Fatimənin başı zərblə divara dəydiyi



downloaded from KitabYurdu.org

üçün bir anlığa hər şey gözlərində dumana büründü. Elə həmin anda da Rafiq onun donunu sinəsinə qədər sıyırıb, alt paltarını əynindən çıxara bildi...

Huşu tezcə özünə qayıtmış qız üstünə atılan oğlanın soyunmağa başladığını görüb gözlərini yumdu. Özündən asılı olmayan qızlıq marağının təsirilə gözlərini açanda, nə gördüsə, bir an sonra hər şeyin bitəcəyini anlayıb çığırdı və çırpınıb yerindən qalxmaq istədi. Onun tamamilə açıqda qalmış bədənini görən Rafiq azğınlaşıb hər şeyi unutmuşdu. Qarşısında çırpınan, çırpındıqca daha canlı və daha gözəl görünən bu bədənə sahib olmaq arzusu bütün qalan duyğularını o qədər zəiflətmişdi ki, qapı zənginin səsini belə eşitmirdi.

Onun çılpaq bədəni qıza toxunanda, qız daha ucadan çığırdı və eyni zamanda anladı ki, müqavimət göstərməyə gücü azalır. Çırpınıb ağzı üstə çevrildi. Qollarından bərk-bərk yapışıb, ondan əl çəkmək istəməyən bu zəlidən qurtulmaq üçün o qədər güc sərf edirdi ki, az qalırdı ciyəri ağzına gəlsin. Bu zaman, birdən-birə oğlanın üstündən qalxdığını hiss etdi və özü də sıçrayıb dizi üstə oturanda atasını başlarının üstündə dayanmış gördü...

Bax, həmin anı bir də xatırlamaq istəmirdi Fatimə. Heç xatırlamaq istəmirdi. Donunun ətəyini aşağı dartaraq ayağa qalxdı. Xəcalətindən yer yarılsaydı, yerə girərdi həmin anlarda...

Sol əlinin qüvvətli barmaqları ilə Rafiqin boynundan yapışıb onu ayağa qaldıran Ağaşamilin qəzəbdən az qalırdı gözləri hədəqəsindən çıxsın. Rafiq də, deyəsən, bir az özünə gəlmişdi. Üst-başını düzəldib, kişinin üstünə xoruzlandı:



downloaded from KitabYurdu.org

- Burax boynumu!

Ağaşamil, hələ ki, onu buraxmaq fikrində deyildi və heç nə demədən, qanlı nəzərlərlə onun arıq sifətini süzürdü.

Rafiq dartınıb onun əlindən çıxmaq istədi və bunun mümkün olmadığını görüb kişinin sinəsinə yumruqla vurdu:

- Çək əlini, dedim sənə!

Ağaşamil onun boynundan daha bərk yapışıb stola tərəf çəkdi. Sağ əli ilə stolun üstündəki iri şüşə güldanı götürüb:

- Al, qəhbənin balası! - deyərək Rafiqin başına çırpdı.

Fatimə oğlanın cansız halda xalçanın üstünə sərildiyini görüb, qorxudan qışqırdı. Bir anlığa yerində donub qalmış Ağaşamil sanki bu səsdən ayılıb, əlindəki güldanı öz yerinə qoydu və Fatimənin üstünə gəldi...

O vaxta qədər atasının onu döydüyü heç yadına gəlmirdi. Nə qədər şillə vurdu onda ona... Özü də heç nə demədən vururdu. Heç nə soruşmurdu. Soruşmurdu ki, bu oğlan kimdir. Soruşmurdu ki, qapını niyə açmısan... Elə vururdu. Fatimə də çalışırdı səsini çıxarmasın. Özünü yox, ancaq atasını
fikirləşirdi. Fikirləşirdi ki, bu oğlan əgər ölübsə, necə olacaq atasının aqibəti?..

Qız zərbələrə dözməyib, yerə yıxılanda Ağaşamil onun yarıçılpaq olduğunu xatırlayaraq kənara çəkildi və qəzəblə:

- Rədd ol, get, geyin! - dedi.

Fatimə güclə ayağa qalxıb, yataq otağına keçdi. Yatağına uzanıb doyunca ağlayandan sonra əyninə paltar geyinib, donunu dəyişdi. Bu zaman gözü anasının


downloaded from KitabYurdu.org

divardakı şəklinə sataşdı. Yenə üzüqoylu yatağına sərilib ağlamağa başladı. O biri otağa keçməyə qorxurdu. Qorxurdu ki, atası onu da öldürəcək. Lap o öldürməsə də, Xanəli sağ buraxmayacaqdı onu. Mütləq öldürəcəkdi!.. Nə də onları başa sala bilməyəcəkdi ki, aralarında ciddi bir şey olmadı bu alçaq gədə ilə... Nə indi olmadı, nə də əvvəllər heç nə olmayıb... Yenə anası sağ olsaydı, o başa düşərdi Fatiməni. İnanardı ona...

O biri otağa bir də yarım saat sonra, Xanəli gələndə keçdi. Oğlunu Ağaşamil özü zəng vurub çağırmışdı. Demişdi ki, tək gəlsin. O biri oğlanlarının heç birini xəbərdar etmək istəmirdi bu sirdən.

Fatimə otağa girəndə gözü, birinci növbədə, Rafiqin yıxıldığı yerdə qalmış meyitinə sataşdı. Sən demə, oğlan elə vurulduğu andaca keçinibmiş. Qızın bədənini təsvirəgəlməz bir həyəcan bürüdü. Ömründə birinci dəfə idi ki, belə yaxından meyit görürdü.

Xanəli qızın görkəmindən artıq, bəzi şeyləri anlamışdı. Qəzəbindən çənəsindəki çapıq yeri dartılır, qaşları düyünlənib bir-birinə sıxılırdı. Əlini həmişə cibində gəzdirdiyi bıçağa aparıb qızın üstünə gəldi:

- Bunu buraya sən gətirmisən?!

Nahaq elə sual verdi qardaşı! O söz indiyədək yandırırdı Fatiməni... Gərək elə fikrə düşməyəydi bacısı haqqında. Fatimə heç vaxt elə şey eləməzdi, eləyə bilməzdi və gərək Xanəli də bunu qəti biləydi. Həmin anda isə bəlkə də onu vuracaqdı qardaşı.
Heç işin əslini öyrənməmiş vuracaqdı. Amma atasının zəhmli səsi onu saxladı:

- Qızla işin olmasın, Xanəli! Onun heç bir günahı


downloaded from KitabYurdu.org

yoxdur! - dedi və sonra səsini bir qədər alçaldıb əlavə etdi. - Nə də heç bir şey olmayıb...

Bu sözlərdən sonra Xanəli bir az özünə gəldi. Sakitləşib, qızı sorğu-suala tutdular. Fatimə bildiyi hər şeyi danışdı. Bu oğlanın Əlifağa Sadıxovun oğlu olduğunu, indiyədək bir neçə dəfə qabağını kəsdiyini bildirdi. Söhbət axırda gəlib qapının açılmağına çıxanda Xanəli yenə qəzəbləndi və bacısına sərt nəzərlərlə baxıb:

- Sənin başını əzmək lazımdır! - dedi. - Sən niyə qapını yad adama açmısan axı?!

Müştüyünə təzə siqaret keçirib odlayan Ağaşamil yenə də oğlunu sakitləşdirmək istədi:

- Sakit ol, oğul! Bu bir bəladır bizim başımıza gəldi. Bəla isə gələndə qapı-zad tanımır!..

Sonra meyiti nə edəcəkləri barədə düşünməyə başladılar. Ağaşamil bir qədər fikirləşəndən sonra dörd barmaqlı əlində tutduğu müştüyü axırıncı dəfə sümürüb, külqabıda söndürdü və təmkinlə dilləndi:

- Mən polisə gedib bu gədəni öldürməyimi boynuma ala bilərəm. Türmədə yatmaqdan da qorxum-filanım yoxdur. Amma doğrusu, sizin üçün qorxuram. Ən çox da Fatimə üçün... O Əlifağanı yaxşı tanıyıram. Çox kinli adamdır. Həm də pullu, arxalı. Qorxuram mənim türmədə yatmağımla əl çəkməyə bu işdən, sizə pislik eləmək fikrinə düşə...

- Heç bir qələt eləyə bilməz! - Xanəli qətiyyətlə dedi. - Uşaq-muşaq deyilik onun üçün. O vaxt Nihat onun əlinin altında işləyirdi, ona görə hörmətini saxlayırdıq. Yoxsa o, heç kimdi mənim nəzərimdə! Nə ondan arxasız deyilik, nə də pulsuz. Nə də kişiliyimiz əskik deyil onunkundan!



downloaded from KitabYurdu.org

Amma mən də polisə getməyinin tərəfdarı deyiləm. İcazə ver, özüm götürüm bu işi boynuma!

Ağaşamil narazılıqla başını buladı:

- Bunun nə fərqi olacaq ki?.. Yenə düşmən olacağıq onunla. Bacını fikirləş, uşaqları fikirləş!..

Xanəli yerə sərilmiş meyitə bir qədər tamaşa edib, birdən, nə düşündüsə, başını qaldırıb atasına baxdı:

- Ən yaxşısı, aparım bunun leşini tullayım harasa, heç kəs bizdən bilməsin!

- Hara tullamaq istəyirsən? - atası soruşdu.

- Əlifağanın dənizin lap yaxınlığında bir həyəti var. - Xanəli dedi. - Tanıyıram oranı. Aparıb atacam düz darvazalarının qabağına. Qoy öz küçüklərinin ölüsünə yiyə dursunlar.

Yenə bir az məsləhətləşdilər. Fatimədən Rafiqin maşını barədə soruşanda, qız dedi ki, oğlanın boz rəngli «Mersedes»i vardı. Xanəli həyətə düşüb maşını blokun yaxınlığında gördü. Açarlar da maşının üstündə idi. Sükanın arxasında oturub maşını blokun qapısına yaxınlaşdırdı. Mənzilə
qayıdıb meyiti köhnə bir adyala bükdü. Onu gətirib maşının yük yerinə qoyandan sonra adyalı yenidən geriyə qaytardı...

- Səni yolda saxlaya bilərlər!.. - atası xəbərdarlıq etdi.

- Saxlamazlar! - Xanəli arxayınlıqla dilləndi. - Bir az xəlvət yollarla gedəcəm. Bir də, lap uzaqbaşı, saxlayırlar, saxlasınlar! Hər şeyi boynuma götürərəm! Sən qətiyyən narahat olma!

Sonra qərara gəldilər ki, bu sirri üçündən başqa heç kəs bilməməlidir. Bu barədə Fatiməyə də çox ciddi xəbərdarlıq



downloaded from KitabYurdu.org

etdilər...

Fatimə izahat vermək üçün polisə çağırılanda Xanəli özü onu lazımi qaydada təlimatlandırdı. Nə demək, özünü necə aparmaq lazım gəldiyini öyrətdi. Öyrətdi ki, Fatimə özünü Rafiqin ölümündən
tamamilə xəbərsiz kimi aparsın. Qızı özü öz maşınıyla apardı polis idarəsinə və hər şey də onun qurduğu plan üzrə getdi. Fatiməni danışdıranlar ondan, qətiyyən, şübhələnib eləmədilər.

Sonra Əlifağanın öz sürücüsü Saleh Rafiqin ölümündə təqsirli bilinib həbs olundu. Əlbəttə, günahsız bir adamın onun atasının əvəzinə həbsxanada yatması Fatimənin ürəyini ağrıdırdı. Amma neyləyə bilərdi?.. Fləm ata, həm ana hesab etdiyi ən doğma adamının bu qoca vaxtında həbsdə yatmasına razı ola bilməzdi axı!.. Bir də ki, bu iş heç də onun ixtiyarında deyildi. Atası, Xanəli duran yerdə onun heç bir qərar verməyə ixtiyarı yox idi.

Hə!.. Fləmin uğursuz, dəhşətli gündə - aprelin 9-da baş verən hadisə belə olmuşdu və Fatimə bütün bunları, necə ki danışmaq mümkündür, bəzi
yerləri açıq, bəzi yerləri üstüörtülü Ələmdara danışdı.

Ələmdar axıradək susub onu dinləmişdi. Qız söhbətini qurtarandan sonra da bir qədər fikrə gedib, astadan dilləndi:

- Sən o gün qapını onun üzünə açmaqla özünün düşündüyündən də dəhşətli bir səhvə yol vermisən!

Fatimə ona bir qədər təəccüblə baxıb, yenə ağlamsındı:

- Əgər o işə görə atama cəza versələr, həmişə özümü günahkar hesab edəcəm. Bağışlamayacam özümü... - bir az ara verib, sözünə davam etdi. - Ancaq işə bax ki, Allah


downloaded from KitabYurdu.org

atamı başqa tərəfdən cəzalandırdı... Nihata görə... Dörd oğul, bir də nəvə dağı göstərdi ona Allah... Qantural vasitəsilə...

- Yox! - Ələmdar etiraz etdi. - Burada, məncə Allahın əli yoxdur. Şeytan əli girib bu işə! Şeytan!

Fatimə açıq-aydın yalvarış oxunan baxışlarını Ələmdarın üzünə dikib:

- Atamı tutacaqlar? - deyə bir daha soruşdu. Ələmdar dərindən bir ah çəkib, ayağa qalxdı:

- Deyə bilmərəm, Fatimə... Deyə bilmərəm! Özünüz bilərsiniz, istəsəniz deyərsiniz ki, Xanəli öldürüb o oğlanı... Bu işə mən qarışmayacam. Mənim məqsədim, daha çox səni qorumaqdır. İstəyirəm bu bəlalardan salamat çıxasan sən. Qantural sizin ailədən intiqam almaqda davam edir. Sən də özünü gözləməlisən. Bu gecə sən qalacaqsan atanın yanında?

- Hə!... - Fatimə cavab verdi.

- Hər halda, ehtiyatlı ol! - Ələmdar məsləhət verdi. - Həyətə-filana çıxıb eləmə!

Fatimə də ayağa durdu. İndi Ələmdarla üzbəüz durmuşdular.

- Necə olacaq bu düşmənçiliyin axırı? - deyə soruşdu.

Ələmdar bu qızın bu saat nəvazişə, mənəvi qayğıya çox ehtiyacı olduğunu anlayıb, onun saçlarını sığalladı. Fatimə oğlanın sinəsinə sığındı. Deyəsən, ağlayırdı yenə. Ələmdar onun çiyinlərini qucaqlayıb, ehtiyatla özündən kənarlaşdırdı.

- Qorxma, - dedi, - mən səni tək qoymayacam. Mənə doğma qardaşın kimi arxalana bilərsən!

Sonra isə dönüb otaqdan çıxdı. Yaman yorğun idi və iş


downloaded from KitabYurdu.org

yerinə gedib, divanda bir qədər yatmaq istəyirdi. Evə getməyəcəkdi. Getsəydi, bilirdi ki,
anası istirahətini haram eləyəcək. Bu gecə də evdə olmamışdı və Əminə arvad, yəqin ki, onun əlindən bərk yanıqlı idi...

Doxsanıncı fəsil

Gümüşü rəngli «Volsvagen» küçənin kənarına çıxıb çoxmərtəbəli binanın qarşısında dayandı. Bu zaman artıq axşam saat 10 olardı. Binanın bütün pəncərələrindən gur işıq gəlirdi. Arxada əyləşmiş Ələmdar:

- Sağdan üçüncü blok, dördüncü mərtəbə... - deyə sakitcə dilləndi.

İlqar cəld maşından düşüb evin arxasına keçdi. Ələmdar qayışına taxdığı tapançanı çıxarıb pencəyinin cibinə qoydu və onu gözləməyə başladı. Bir neçə dəqiqə sonra o gəldi. Başını tərpətməklə Ələmdara hər şeyin qaydasında olduğunu bildirdi və
sükanın arxasında oturdu. Ələmdar o saat maşından düşüb:

- Ayıq ol! - dedi və binaya doğru getdi.

Evin o biri başına keçəndə üçüncü blokun
qarşısında dayanmış süd rəngli «Mersedes» diqqətini cəlb etdi. Onun qabağında saxlanan «BMW» markalı maşının yanında iki gənc kişi durmuşdu. Onlar bloka girən Ələmdara yalnız ötəri bir nəzər saldılar. Bu adamlarda Qanturalın fotosu var idi, onu üzdən tanıyırdılar və əgər Ələmdar ona oxşamırdısa, demək bu adamlar üçün maraqlı da deyildi.

Dördüncü mərtəbəyə qalxıb zəngin düyməsini basdı. Qapını açan Cəhalə utancaq bir təbəssümlə:

- Xoş gəlmisən! - deyib onu mənzilə dəvət etdi.



downloaded from KitabYurdu.org

Ələmdar içəri girib ayaqqabılarını soyundu. Cəhalə qapını içəridən bağladı və birlikdə geniş, işıqlı bir otağa keçdilər.

Cəhalədə nəsə bir dəyişiklik hiss edirdi Ələmdar. Bu nə idi görəsən? Çox gözəl görünürdü, «Asmera»nın ətri otağı bürümüşdü, Ələmdara qarşı çox iltifatlı idi... Amma bunlar həmişə vardı. Hə!.. İlk dəfə idi xalatda, yəni ev xaiatında görürdü Cəhaləni. Açıq çəhrayı rəngli bu xalat ona həkim xalatından fərqli bir yaraşıq verirdi. Əsl təzəgəlin ev xanımına oxşayırdı Cəhalə.

Bir az özünü itirmişdi, deyəsən. Qonağa əyləşmək üçün divanda yer göstərib o biri otağa keçdi. Amma deyəsən, məqsədsiz keçmişdi oraya. Tez də qayıdıb, bu dəfə mətbəxə girdi.

Ələmdar divanda əyləşib otağa göz gəzdirdi. Bahalı mebellər, bahalı qab-qacaqlar, xalçalar otağı çox gözəl göstərirdi. Amma məsələ heç də bu şeylərin bahalı-ucuz olmasında deyildi. Bütün otaqda Cəhalənin özünə məxsus incə zövqü, səliqə- sahmanı duyulurdu.

- Bəs Səxavət hanı? - otağa daxil olan Cəhalədən soruşdu.

Cəhalə iri kresloların birində onunla üzbəüz oturdu və:

- Səxavət xəstəxanaya getdi. - dedi.
- Niyə? - Ələmdar qulaqlarına inanmadı.
- Bu gecə atasının yanında qalacaq. Fatimə ilə...

Bax, bunu heç gözləmirdi Ələmdar! Necə yəni atasının yanında qalacaq?.. Bəs?..

- Sən mənim sözümü ona çatdırmamışdın? Buraya gələcəyimi deməmişdin?



downloaded from KitabYurdu.org

- Əlbəttə, demişdim! - Cəhalə cavab verdi. - Əvvəl etiraz etmədi. Ancaq bir saat bundan əvvəl dedi ki, atasından ötrü narahatdır, onun yanında gecələmək istəyir.

- Bəs sən...

Ələmdar sözünü yarımçıq kəsdi. Anlaya bilmirdi Səxavətin bu hərəkətini. Yəni doğrudanmı, bu qədər qorxurdu o?.. Hə, lap yəqin ki, Cəhalə məsələni ona izah edəndə Qanturalın mütləq bu gecə buraya gələcəyini düşünüb və buradansa xəstəxanada olmağı üstün tutub. Axı dünən gecə orada polis işçiləri növbə çəkmişdilər...

Cəhalə də ərinin xəstəxanaya qorxudan getdiyini anlayırdı. Amma nədənsə bunu Ələmdara açıb-ağartmaq istəmədi:

- Mənə dedi ki, sən gəlsən, onun xəstəxanaya getdiyini deyim. Bir də dedi ki, qapını heç kimə açma. Həm də o bilir axı, mənim adamlarım burda olacaq.

- Onda, mən gedim... - Ələmdar bunu deyib divandan qalxmaq istədi.

Amma Cəhalə ondan tez ayağa qalxdı və bu zaman elə etdi ki, əynindəki xalatın ətəkləri aralandı və ağappaq, sağlam budlarından biri axıradək göründü. Ələmdar qadının bu hərəkəti bilərəkdən edib-etmədiyini tam anlaya bilmədi. Çünki dünən səhərdən bəri onun üz- gözündə yuva salmış kədər və qorxu hələ tam çəkilib getməmişdi və Ələmdar belə vəziyyətində ondan əvvəlki şıltaqlıqlarını gözləmirdi.

Cəhalə:

- Əyləş, sənə çay gətirəcəm! - deyib, cəld mətbəxə getdi.

Ələmdar onun ürəyini qırmaq istəməyib, yenidən öz


downloaded from KitabYurdu.org

yerində oturdu. İdman klubunda bir az yatıb dincəlməsinə və öz qüvvəsini bərpa etməsinə baxmayaraq, o da narahat görünürdü. Xüsusilə, Səxavətin belə bir gözlənilməz hərəkət etməsi onu tamam dilxor etmişdi.

Şəhər telefonu zəng çaldı. Cəhalə mətbəxdən gəlib dəstəyi götürdü. Anası imiş. Lətifə xanım. O da həkim işləyirdi. Amma başqa poliklinikada.

- Hə, mama... - dedi. - Lap yaxşıyıq... Yox, narahat olma... Papaya da de, narahat olmasın... Sən nə danışırsan, ay mama, evdəyik də, gəlib
qapını sındırmayacaqlar ki?! Bizdən qəti narahat olmayın. Gecəniz xeyrə qalsın... Sağ ol!

Dəstəyi qoyub Ələmdara baxdı:

- Mamam idi. Onlar da bərk narahatdırlar bizim üçün. Belə elədikcə, lap qorxuya düşürəm. Elə bilirəm, adamdan yox, sehrli bir kabusdan qorunuruq. Sanki qapını, pəncərəni bağlasan da, divarı yarıb girəcək evə.

Ələmdar gülümsədi:

- Lap elə də çox qorxmaq lazım deyil. Xüsusilə də bu saat sənin üçün heç bir təhlükə yoxdur.

Cəhalə mətbəxə keçib çay gətirdi. Süfrəyə bir neçə cür mürəbbə qoydu.

- Sən yanımda olduğuna görə özümü elə xoşbəxt hesab edirəm ki, Ələmdar!

Ələmdar dinmədi. Ayağa qalxıb stolun arxasında Cəhalə ilə üzbəüz oturdu və onun üçün süzülmüş çaydan içməyə başladı. Düşdüyü bu vəziyyət ona bir az qəribə gəlirdi. Cəhalələgilin mənzilində, Cəhalə ilə təkcə ikisi oturub çay içirlər. Cəhalə ev xalatında çox gözəl görünür... Amma o, bütün bunları lazımınca qiymətləndirə bilmirdi.


downloaded from KitabYurdu.org

Daha çox bu gecə, demək olar ki, təkbaşına keçirmək istədiyi və baş tutmayan əməliyyat barədə fikirləşirdi.

Ev sahibəsinin cib telefonu səsləndi. Götürüb qulağına apardı:

- Hə, Səxavət... Gəlmişdi, dedim xəstəxanadasan, çıxıb getdi... Yox, arxayın ol, heç kəsə açmaram... Hə, aşağıdadırlar, yəqin ki... Kişi necədir?... Fatimə yanındadır?... Yaxşı, sağ ol, indi durub yatacam...

Telefonu qapayıb stolun üstünə qoydu.

- Niyə dedin ki, mən çıxıb getmişəm? - Ələmdar yüngülvarı kinayə ilə soruşdu.

- Nə deyəydim? - Cəhalə təəccübləndi. - Deyəydim ki, oturub mənimlə çay içirsən?..

- Heç belə deyildin sən...

- Düz deyirsən, yalan danışmaq özümə də xoş gəlmir. Ancaq neyləyim, sevirəm səni. Bunu başqalarına başa salmaq olmaz axı.

Ələmdar çayını içib qurtaran kimi ayağa qalxdı:

- Mən gedim, daha gecdir! - dedi.

- Hara gedəcəksən? - Cəhalə də təəccüblə ayağa durdu.

- Xəstəxanaya.

- Səxavətə görə gedirsənsə, orada onsuz da polis işçiləri var. Bir də... Deyirdin, daha çox mənim üçün narahatsan...

Ələmdar deməyə söz tapmadı:

- Əlbəttə, sənin üçün narahatam. Amma burada sənə qorxu yoxdur.

- Bəs niyə bizdə gecələmək istəyirdin? - Cəhalə əl çəkmədi.



downloaded from KitabYurdu.org

- Mən düşündüm ki, Qantural Səxavətə görə gələcək. Amma... İndi onun adamları, bəlkə də ona xəbər verib ki, Səxavət xəstəxanadadır. Bir də ki, Qantural buraya gəlsə də, sən qapını açmayacaqsan...

- Guya Səxavət olsaydı, açacaqdı?

- Bəlkə də... Səxavət kişidir. Xanəli açmamışdı qapını?

- Sən Xanəli ilə Səxavəti bir tutursan? - Cəhalə istehza ilə dedi. - Xanəli özü o qatillə üz-üzə gəlmək istəyirdi. Deyirsən, onun bacara bilmədiyi adamla Səxavət bacaracaq?

-Axı mən Səxavətin yanında olacaqdım?!

- İndi ki, mən burda təkəm, mənim yanımda ol. Qanturalı tutmaq istəyirsənsə, gələndə açarsan qapını.

Ələmdar sanki deməyə söz axtarırmış kimi susdu. Bunu görən Cəhalə yaxınlaşıb onu qucaqladı və başını sinəsinə qoydu:

- Getmə, Ələmdar, sənə qurban olum, getmə! Mən istəyirəm ki, sən bu gecə mənim yanımda qalasan. Ürəyim dərddən partlayar əgər getsən. Getmə! Dözə bilmirəm daha sənsiz! Bir də ki, unutmaq istəyirəm içimi yeyib-dağıdan bu dərdləri, bu qan-qadaları. Bezmişəm daha vallah! - Ələmdarın daha etiraz etmədiyini görüb, onun pencəyini əynindən çıxarıb stula keçirtdi. Qolundan tutub divanda, öz yanında əyləşdirdi. Çiyinlərini qucaqlayıb:

- Hamıya nifrət etməyə başlamışam! - dedi. - Sənə qovuşa bilmədiyimə görə, iş yoldaşlarıma da, qohumlara da, tanışlara da, hamıya! Güdürlər hər yerdə gözüçıxmışlar! Özləri hər cür əclaflıq, alçaqlıq edirlər, çirkabın içindədilər boğazacan, başqasını da özləri kimi görmək üçün ləkə axtarırlar. Bu gecə güclə əlimə


downloaded from KitabYurdu.org

düşmüsən. Bütün o sözbazların, yalançı namus təəssübkeşlərinin acığına, buraxmayacam səni! Getmək istəsən, öldür məni, sonra get! Onsuz da bir qəpiyə dəyməz belə dünyada yaşamaq!

Gözəl qadının ürəkdən gələn səmimi etirafları və hər bir normal kişini məst edə bilən ətirli təması öz işini görməkdə idi. Ələmdar, deyəsən, təslim
olurdu, artıq. Ona sığınan qadını bir qolu ilə qucaqlayıb:

- Yaxşı, getmirəm, burda qalacam! - dedi.

Cəhalə ona sarmaşıb, üz-gözündən öpməyə başladı. Xalatının bir düyməsi açıldığı üçün çılpaq budları yarıya qədər açıqda qalmışdı. Bir düymə isə gərilib qırılmaq həddinə çatırdı. Əlini uzadıb onu da açdı və bu zaman Ələmdar onun bəyaz rəngli alt paltarını gördü. Əlbəttə, Ələmdar qadın düşkünü- filan deyildi. Ancaq Cəhalə kimi, hərtərəfli gözəl qadının gizli dünyasının hər hansı bir guşəsi ilə tanışlığa laqeyd də qala bilməzdi. Odur ki, bu qadına qarşı özündə ciddi bir həvəsin baş qaldırdığını hiss edib onu özünə tərəf çəkdi...

Bir az beləcə öpüşəndən sonra Cəhalə ayağa qalxıb:

- Qalmağa razılıq verdiyinə görə çox sağ ol! - dedi. - Bu saat sənin üçün xörək hazırlayacam.

- Lazım deyil! - Ələmdar etiraz etdi. - Mən bura gələndə yemişəm. Aclığım yoxdur.

Cəhalə mətbəxə keçib, soyuducudan konyak və şirniyyat gətirdi.

- Mən içki içmirəm. - Ələmdar başını buladı.

- Doğrudan a, sən idmançısan axı! Bəs neyləyək? Çay içirsən?

- Yox!



downloaded from KitabYurdu.org

- Onda bəlkə yataq? Gecə də keçir...
Cəhalə bu sözləri deyəndə bir az qızardı və bu Ələmdara xoş gəldi.

- Yaxşı, yataq! - dedi və onu sınamaq üçün əlavə etdi. - Mən elə burada, divanda yatacam.

- Elə niyə? - Cəhalə heyrətləndi.

- Bəs harda yatmalıyam?

- Mənim yanımda. Çarpayıda. Sənə deyiləsi o qədər sözüm var ki...

Ələmdar birdən-birə ciddiləşdi:

- Cəhalə, zarafat öz yerində, axı yaxşı deyil bu... Sənin ərin var...

- Ərimin olduğunu indi bilirsən? - Cəhalə incidi. - Gör nə vaxtdandı görüşürük biz?

- O görüşlər başqa, amma...

- Nə fərqi var ki? Ya öpüş, ya bir yerdə yatmaq?.. Sən də lap bəzi adamlar kimi danışdın. Hər gün bir-birlərinə xəyanət eləyirlər. İşdə, ailədə, yoldaşlıqda... Sözdə, hərəkətdə, nə bilim, daha nədə. Bütün xəyanətləri adiləşdirib eləyiblər adi, təbii bir şey. Bir dənə bunu şişirdib, adını xəyanət saxlayıblar. Mən səni sevirəm, səni arzulayıram,
sənsiz dözə bilmirəm, indi ərim var deyə, boğum bu istəyimi, qovrula-qovrula yaşayıb çürüyüm gedim bu boş dünyadan?..

Ələmdar onun kövrəldiyini görüb, gülümsədi:

- Yaxşı, bir sözdü dedim, incimə!

O bu gecəni belə gözəl bir qadınla yaşamalı olacaqdı. Heç, özünü maymaq yerinə qoyub, keçmək, imtina etmək fikrində də deyildi ondan. Ancaq bu saat beyni, əslində,


downloaded from KitabYurdu.org

ciddi məsələlərlə məşğul idi. Kobranın Bakıya gəlməsini bildiyi gündən onu axtarıb tapmağı, ondan intiqam almağı qarşısına məqsəd qoymuşdu. Qanturalın axtarışına kömək etmək və beləliklə Kobraya yetişmək məqsədilə kapitan Əbilovun yanına getdiyi gündən isə bu istəyi, bu arzusu daha qarşısıalınmaz olmuşdu. O, Kobranı tapmalıydı! Nəyin bahasına olursa olsun, tapmalıydı!

O, Leopard adından imtina edəcəkdi, əgər Kobranı tapıb cəzasına çatdırmasaydı!

Amma bir halda ki bu gün nəzərdə tutulmuş əməliyyat baş tutmamışdı, Səxavət arvadını evdə tək qoyub getmişdi, bir halda ki, Cəhalə özü onunla olmaq istəyirdi, daha Ələmdar niyə imtina etməliydi bundan?..

Cəhalə yataq otağının qapısını göstərib:

- Bu otaqda yatacağıq... - dedi və özü həmin otağa girdi.

Ələmdar cib telefonunu çıxarıb, bir anlıq fikrə getdi. Sonra İlqara zəng vurub danışmağa başladı:

- İlqar, uşaqlara de, postlarını tərk eləsinlər. Bu gün lazım olmadı. Onlardan biri, ya hər ikisi xəstəxanaya gedib, oraya küçədən nəzarət eləsinlər. Səxavət həkim xəstəxanadan çıxmalı olsa, onu izləyib, həm də dərhal mənə xəbər versinlər. Sənsə, həmin evə bir baş çək. Son dərəcə ehtiyatla. Yaxında maşın saxlayıb eləmə! Qapıda qıfıl yoxdursa, ya evdə işıq yanırsa, o saat mənə bildir! Amma bir də deyirəm, ehtiyatlı ol! Yaxşı, hələlik...

Telefonu qapayıb, divanın üstünə atdı və ayağa qalxıb, yuyunmaq üçün vanna otağına keçdi...

Cəhalənin yataq otağına Ələmdardan qabaq, tək


downloaded from KitabYurdu.org

girməkdə məqsədi var idi. İstəyirdi ki, öz yatağında, bir dəqiqə də olsa, tək uzansın. Sonra Ələmdar gəlsin, yanında otursun, doyunca öpüb, xoş, şirin sözlər desin. Onsuz da onun olan ürəyi yenidən, öz zəhməti ilə ələ gətirsin. Daha sonra yorğanı qaldırıb onun yanına girsin...

Bunu ayrı-ayrı vaxtlarda, bəlkə yüz dəfə xəyalından keçirtmişdi. Ən şirin, ən gözəl, ən isti
xəyalları olmuşdu bu xəyallar. Amma indi, deyəsən, bu xəyallar gerçəyə çevriləcəkdi. Şükür, min şükür Yaradana! Şükür ki, Cəhalənin arzusunu qoymadı ürəyində. Bir gecə, bir gecə dolusu xoşbəxtlik göndərdi ona ki, bəlkə də bu xoşbəxtlik bundan sonrakı ömrü boyu ona bəs edəcəkdi.

Bayaqdan o Ələmdara yalvarıb, onu yola gətirməyə çalışırdı. Bu, onun nəzərində, intim münasibətlərin ləzzətini bir az azaldırdısa da, başqa çarəsi yox idi. Ancaq artıq oğlanı yola gətirmişdi. İndi öz xəyallarında arzuladığı o ülvi ləzzəti duymaq istəyirdi. Yorğanın altına girib, gözləmək istəyirdi onu.

Özünə söz verdi ki, əgər, işdi, birdən gəlməsə, çağırmayacaq Ələmdarı. Çağırmayacaq?.. Birdən, doğrudan, gəlmədi?! Yox, çağırmayacaq! Ələmdar
özü gəlməsə, deməli, Cəhalənin, qadın kimi, onun gözündə bir qara qəpiklik qiyməti yoxdur. Onda, elə gəlməsə yaxşıdır!

Ayaq üstə dayanıb, iki nəfərlik böyük çarpayıya baxırdı.

Bu onların yatağı idi. Səxavətlə onun... Yatağın üstünə qiymətli, zövqlü naxışlarla bəzənmiş yataqüstü salınmış, baş tərəfdə iki dənə qar kimi ağ üzlüyü olan balış qoyulmuşdu. Bunlar hamısı onun cehiz gətirdiyi


downloaded from KitabYurdu.org

əşyalardan idi. Toyları yadına düşdü. Birdən-birə kövrəldi. İçində acı bir göynərti baş qaldırıb, onu incitməyə başladı. «Niyə bu həyat belədir?» - deyə düşünüb, ağlamaqdan özünü zorla saxladı.

Səxavətlə bağlı xatirələri, o xatirələr ki, indi bir- bir yadına düşürdü, beynindən qovub uzaqlaşdırmağa çalışdı. Əyilib yataqüstünün bir tərəfindən yapışdı və qaldırıb yatağı açmaq istədi. Amma nə düşündüsə, birdən-birə dayandı.

Nədənsə, ona mümkünsüz göründü bu yatağa başqasıyla girmək. Burada Səxavətlə yatmışdı həmişə. Səxavətin qoxusu var idi bu yataqda... Bir anlıq təsəvvürünə gətirdi ki, sabah axşam Səxavət yorğanı qaldırıb, həmin bu yatağa girir və heç ağlına da gətirmir ki, dünən gecə burada başqa kişi yatıb. Yazığı gəldi Səxavətə...

Qoşa yataqdan kənara çəkilib bir anlıq fikrə getdi. Təsadüfən, bəxtinə düşən bu gecənin verəcəyi əvəzolunmaz, qeyri-adi ləzzəti də əldən çıxarmaq istəmirdi. Otağın bir küncündə yığılıb- açılan çarpayı qoyulmuşdu. Cəld gedib onu götürdü. Açıb, üstünə qonaq-qara üçün nəzərdə tutulmuş döşəklərdən birini atdı. Daha sonra işlənməmiş balış və yorğan götürüb təzə yataq düzəltdi. Xalatını əynindən çıxarıb düzəltdiyi bu yatağa girdi və yorğanı üstünə çəkdi.

Qapı açıq idi. Birdən ayağa qalxıb qapını örtdü. Otağın işığını söndürüb gecə lampasını yandırdı. Sonra yenidən yorğanın altına girib gözlərini yumdu. Çağırmayacaqdı... Əgər Ələmdar özü gəlməsəydi, çağırmayacaqdı və beləcə yatacaqdı səhərə kimi. Yata biləcəkdimi?! Yata bilməyəcəkdi, eləcə uzanıb qalacaqdı, amma


downloaded from KitabYurdu.org

çağırmayacaqdı onu!..

Vanna otağında, duşun altında dayanmış Ələmdar yaman fikrə getmişdi. Fikirləşirdi ki, bəlkə çıxıb getsin buradan?.. Yenə başqa yerdə olsaydı... Axı Cəhalə də gündə birilə yatan pozğun qadınlardan deyildi. Birinci dəfə idi, yəqin ki... Bəlkə
heç olmasın?... Bəlkə düzələcək Səxavətlə münasibətləri?..

Ancaq Cəhalənin onu sevdiyini də bilirdi və heç ürəyini sındırmaq istəmirdi bu gözəl qadının. Gözəlliyinə isə söz ola bilməzdi. Doğrudan da, gözəl idi Cəhalə!

Çoxmu belə gözəl qadın tanıyırdı Ələmdar?
Yox, hardan tanıyırdı, tökülmüşdü elə... Yadına salıb, saymağa çalışdı: Bu özü... Məltəm... Oğlunu idman klubuna yazdıran, hərdən gəlib onun məşqləri ilə maraqlanan o qadın... nədi onun adı, hə, Könül... Sonra... Fatimə özü... Qurtardı, deyəsən... Bəzən deyirlər ki, bütün qadınlarda gözəllik var, ya qadın özü elə gözəllik deməkdir. Bəlkə də bu sözdə həqiqət var idi. Amma baxırdı kimin, kimi, nə cür, nə vaxt, hansı şəraitdə cəlb etməyinə. Heç də gözəl
olmayan, beş-altı açıq-aşkar eybi olan bir qadınla da kimsəsiz adaya düşsən, ya heç ada-filan lazım deyil, uzun müddət bir otaqda işləməli olsan, nə vaxtsa o da sənin gözünə cəlbedici görünə bilər. Amma qəbul edilən gözəllik normaları da var axı. Yəni norma deyəndə ki, elə dəqiq norma da yox idi. Amma elə qadınlar var ki, onlar birinin, ikisinin yox, çoxlarının, hamının nəzərində qəşəngdi. Bax, elə bu Cəhalə kimi. Onun gözəl sifətini, düzgün mütənasib bədən quruluşunu, bir qədər yumru arxasını gözləri önünə


downloaded from KitabYurdu.org

gətirdi. Bayaq gördüyü səhnə yadına düşdü. Çoxmu qadında o görünüş o cür cəlbedici ola bilərdi? Yox, yəqin ki... Ancaq bəs Məltəmdə?.. Bu fikir birdən gəldi ağlına və tez də qovdu başından. O qadınla münasibətlərə heç bir ləkə gətirmək istəmirdi. Başqa şey düşündü. Düşündü ki, anası bu saat onun

burada olduğunu bilsə, nə edər? Anası yaman çox istəyirdi Cəhaləni. Lap belə, doğrudan, çox istəyirdi onu. Canıciyəri idi elə bil qız... Bunu xatırlayanda Cəhalə bir az da doğmalaşdı ona. Məhrəmləşdi, sanki. Daha onu çox gözlətmək istəmədi. Qurulanıb, təkcə alt paltarını geyindi və vanna otağından çıxdı.

Yataq otağının qapısında bir anlığa dayandı. Qapını niyə örtüb, görəsən? Amma çox baş sındırmaq istəmədi bu fikrin üstündə. Qapını açıb, içəri girdi. Otaq gecə lampasının ürəyə sakitlik gətirən əsrarəngiz işığına bürünmüşdü. Cəhaləni otağın ortasında yeni düzəlmiş yataqda görəndə, çox düşünmədən, bunun səbəbini anladı. Anladı və ürəyində razı qaldı Cəhalədən. O da istəməzdi Səxavətə məxsus olan yatağa girməyi...

Yaxınlaşıb Cəhalənin yanında oturdu. Qadın arxası üstə uzanıb, ona baxsa da danışmırdı. Baxışlarından və tez-tez dodaqlarını çeynəməyindən, həyəcanlı olduğu hiss edilirdi. Əyilib üzündən öpdü və zarafat xatirinə:

- İkimiz bura necə sığacağıq? - dedi.

Cəhalə utancaq halda gülümsədi. Amma heç nə demədi. Daha doğrusu, nəsə demək istədi, amma deyə bilmədi. Dili ilə dodaqlarını yalayıb, udqundu.

Ələmdar yorğanı qaldırıb onun yanına girdi. Sinəsinə sıxıb öpməyə başladı. Maraqlıdır, başqa vaxtlar özü fəallıq



downloaded from KitabYurdu.org

göstərən Cəhalə indi sıxılırdı. Ələmdarın əli onun əynində olan yeganə geyimə toxunanda, həyəcanından boğulan qadın birdən, gözlənilmədən:

- Dayan! - dedi.
- Niyə? - Ələmdar, həqiqətən təəccübləndi.
- Halım pisləşir, dayan!
- Nə olub axı sənə?
- Ürəyim dayanacaq, elə bil...
- Ürəyində problem var?

- Heç bir problem yoxdur! - Cəhalə inildədi. - Niyə başa düşmürsən? Dözə bilmirəm!..

Ancaq Ələmdar daha onun sözünə baxan halda deyildi. Cəhaləni soyundurub, bütün qüvvəsi ilə özünə tərəf çəkdi. Bu zaman Ələmdarın bədəninin bütün hüceyrələrindəki güc, həyat eşqi, hərarət birləşib, damarları ilə axaraq eyni bir yerdə qovuşdu və çox güclü, qarşısıalınmaz bir fırtına yaratdı. Bircə anda Cəhalənin içərilərini yarıb keçən bu fırtına qadının təpədən dırnağadək, bütün vücuduna hakim olub, huşunu başından aldı. Bu zaman o, fiziki
ağrıdan yox, aldığı həzz sevincinin çoxluğu əzabından nalə çəkdi və bu naləsi həmin qeyri-adi həzzin sevincini insanlara bəxş edən ulu varlığa yönəlmişdi:

-Ay Allah!!!

Ələmdar isə bu anlarda əməlli-başlı qələbə həzzi yaşayırdı. Bu həzz müharibədə qələbə çalıb yad torpaqları ələ keçirən güclü hökmdarın, qatı düşmənini öldürüb, qanını içən kinli qəhrəmanın ala biləcəyi həzdən qat-qat güclü idi. Çünki bu anda o, cənnət qapısını taybatay açıb, oraya qədəm qoymuşdu. Qədəm qoymaq azdır, oranı başdan- başa, axıradək zəbt etmişdi, özününküləşdirmişdi.



downloaded from KitabYurdu.org

Zəbt etdiyi ərazinin qeyri-adi istiliyi, hərarətdə odun-alovun istisindən geri qalmasa da, ondan fərqli olaraq, qızmış qəlbini sərinlədir, içindəki bütün odu- alovu çəkib özünə aparırdı...

Cəhalə öz canından artıq sevdiyi oğlanın qoynunda olduğu üçün, bu saat özünü bəxtəvərliyin, xoşbəxtliyin ən uca zirvəsində hiss edirdi. Bəxtindən, taleyindən, bu saat bu yataqda keçirtdiyi halından çox-çox razı idi və düşdüyü bu vəziyyətin nöqsan cəhəti olsa-olsa onda idi ki, aldığı zövqü duya-duya, aniaya-anlaya, dərk edə-edə ala bilmirdi. Ləzzət dünyasının içində itib-batmışdı və nəyisə dərk etmək, nəyisə anlamaq iqtidarında deyildi.

Bəzənsə lap, doğrudan-doğruya, ürəyinin gedəcəyindən, huşunu itirəcəyindən qorxurdu.

- Bəsdi, Ələmdar, bəsdi! - deyirdi. - Ürəyim partlaya bilər bu saat! Ölə bilərəm! Vallah, doğrudan ölərəm!

Ya da:

- Səni sevirəm! Yalnız səni! - deyirdi. - Mən səninəm! Heç kəsin yox, sənin! Sən də mənim olmalısan! Heç kəsə verməyəcəm səni! Heç kəsə! Heç kəsə!

Sonra, arada ağladı da... Ələmdar baş açmadı, o, sevincindən ağlayır, yoxsa... Ağlaya-ağlaya:

- Sənə qurban olum! - deyirdi. - Sənə qurban olum! Sənə qurban olum!..

Cəhalənin dodağından sızan qanın ılıq tamını ağzında hiss edən Ələmdar daha da coşub özünü unutdu.

İndi o, sanki bir qədər vəhşiləşmişdi və caynaqlarındakı bu qadına öz ovu kimi baxırdı. İndi o, Cəhaləni, doğrudan da, öldürə bilərdi...

Bunu, deyəsən, Cəhalə də anlamışdı. O, hələ ruhən


downloaded from KitabYurdu.org

yorulmasa da, cismən yorulub gücdən düşmək üzrə idi. Hətta iniltili səslə zarıyıb:

- Öldüm! - deyirdi.

Ancaq hər cür ölümdən qorxan, yaşamaq, sevmək, sevilmək istəyən Cəhalə belə ölümdən heç qaçmaq fikrində də deyildi və doğrudan da, ölümə bənzər bir zəiflik halına yaxınlaşdıqca, ürəyindəki çılğın sevinc hissi getdikcə çoxalırdı.

Nəhayət, Ələmdar erkək çılğınlığının mümkün ola bilən son həddinə çatdı və bu zaman, nə qədər iradəli, nə qədər dözümlü olsa da, özünü unudub bayaqdan bəri göstərdiyi fəallığın sirrini açdı. Çılğınlaşdığı dəqiqələrdə öz qoynunda təsəvvür etdiyi, yəni əslində, Cəhalənin yerində olmasını arzuladığı, sevdiyi, lakin sevdiyini heç yerdə, heç
kimə açmaq istəmədiyi qadının adını dilinə gətirdi. Coşqunluğun zirvəsinə qalxdığı ən son anda ucadan:

- Səni sevirəm, Məltəm! - dedi.

Yataqda qovuşduqları andan, bir dəqiqə də
olsun, sakitləşməyən, yerində başı kəsilmiş ceyran kimi çırpınan Cəhalə bu adı eşidəndə birdən-birə buz kimi soyuyub dayandı. Sakit bir səslə:

- Mənim adım CəhalədirL. - dedi.

Ancaq bu sakit səsdə bütün dünyanın kədəri var idi, elə bil... Peşmançılıqla, təəssüflə dolu acı bir kədər... Qadın sanki yerindəcə donub qalmışdı və daha nə edəcəyini, nə deyəcəyini bilmirdi.

Bunu duyan Ələmdar heç bir söz demədən qalxıb otaqdan çıxdı. Vanna otağına keçib, güzgüdə özünə baxdı. Dodaqlarındakı qan ləkələri əvvəl


downloaded from KitabYurdu.org

təəccübləndirdi onu. Amma sonra hər şeyi başa düşdü... Necə oldusa, birdən-birə on üç il əvvəl, Xankəndidəki əsir düşərgəsində olması yadına düşdü. Komendantın ətini dişləri ilə qopartmasını xatırladı. Hətta bunu o qədər dəqiq xatırladı ki, ağzında pis tam hiss edib tüpürdü. Yenə Kobra yadına düşdü. Yumruqlarını bərk-bərk düyünləyib özünün güzgüdəki əksinə nifrətlə baxdı. Sonra əl- üzünü yuyub vanna otağından çıxdı. Paltarlarını geyinib getmək istəyəndə, əynində xalat, yataq otağının qapısı ağzında dayanıb acı bir kədərlə ona baxan Cəhaləni gördü.

Cəhalə:

- Gedirsən? - deyə soruşdu.

Bu səsdə bir az laqeydlik də var idi, bir az soyuqluq da... Ancaq daha çox qüssə, peşmançılıq,
bədbinlik duyulurdu bu səsdə.

- Hə! - Ələmdar qısa cavab verdi.

- Saat üçün yarısıdır. Gecə vaxtı Əminə xalanı da narahat eləyəcəksən...

Bunu Cəhalə bir ev sahibəsi kimi qonaqpərvərlik xatirinə deyirdi, bəlkə də. Ya da, bayaq Ələmdarın ağzından çıxan sözün mənasını hələ isti-isti dərk etməmişdi. Bir azdan dərk edəcəkdi bunu və əsl zərbəni də onda alacaqdı, yəqin ki...

- Evə getməyəcəm...

Ələmdar bunu deyib qapıya doğru getdi və mənzilin qapısından çıxanda:

- Sağ ol, gecən xeyrə qalsın! - deməyi özünə borc bildi. Cəhalə də:

- Yaxşı yol! - dedi və qapını içəridən bağlayıb cəld yataq otağına keçdi. Ağlayıb, ürəyini boşaltmaq



downloaded from KitabYurdu.org

üçün...

Pilləkənləri düşən Ələmdar telefonunu çıxartdı və iki saat əvvəl İlqarın mesaj göndərdiyini gördü. İlqar yazmışdı ki, qapı bağlıdır və evdə heç kəs yoxdur... Tələtə zəng vurdu. O, xəstəxananın qabağında, hələ də öz maşınında oturubmuş. Azadlıq prospektinin səkisi ilə addımlayacağını deyib, təxmini yerini göstərdi və tapşırdı ki, gəlib onu götürsün.

«BMW» markalı maşın hələ də həyətdə idi. Yəqin ki, Cəhalənin qoruyucuları maşında yatmışdılar. Ələmdar evin qabağına keçib, səki ilə addımlamağa başladı. Küçədə maşın-filan görünmürdü. Hündür ağaclar küçə fənərlərinin işığının qabağını kəsdiyi üçün küçəboyu uzanıb gedən dar səki yarımqaranlıq idi.

Səki ilə addımladıqca gah Cəhalə, gah da Məltəm haqqında düşünürdü. Düşünürdü ki, əgər sevmək mütləq lazım idisə, kaş elə bu Cəhaləyə vurulaydı. Hər şey var idi bu qadında. Gözəllik də, hələ desən, abır-həya da, mədəniyyət də, dünyagörüşü də... Problemi də çox böyük deyildi. Uşağı-zadı yox idi. Ona vurulsaydı, uzaq başı, bütün dedi-qodulara tüpürüb, onun ərindən boşanmağına razı olardı və evlənərdi onunla. Ancaq bu Məltəm... Yəni doğrudanmı sevirdi onu Ələmdar? Ya özünü aldadırdı? Yox, bu boyda da yalan olar? Əgər Cəhalə kimi gözəl-göyçək, özünün də xoşuna gələn bir qadınla yataqda olarkən yadına o düşmüşdüsə,
ya, daha doğrusu, beynindən, ürəyindən heç çıxmamışdısa, demək...

Qarşı tərəfdən arıq, ortaboylu bir oğlan ağaclıqdan çıxıb qollarını yelləyə-yelləyə onun üstünə gəlməyə


downloaded from KitabYurdu.org

başladı. Ələmdar başa düşdü ki, bu oğlan onu soymaq məqsədilə gəlir üstünə. Və onu da anladı ki, təcrübəsizdi o belə işlərdə. Oğlan çatıb onun qabağını kəsdi. Əlindəki iri mətbəx bıçağını Ələmdarın sinəsi bərabərində qaldırıb:

- Pullarını, telefonunu çıxart! - dedi.

Ələmdarın qanı onsuz da qara idi. Qarşısında titrəyən mətbəx bıçağına baxıb, nəsə etmək istəyirdi ki, birdən-birə heç özü də gözləmədən, fikrini dəyişib, dilləndi:

- Hamısını çıxararam, amma bir sualıma cavab ver!
- Nə sual? - üzünü çil basmış arıq oğlan təəccübləndi.

- Əgər sən əri, uşaqları olan bir qadını sevsəydin, neyləyərdin?

Gecə vaxtı adam soymaq üçün küçəyə çıxıb beş-on manat qabağa düşmək istəyən çilli oğlan, nə qədər təcrübəsiz olsa da, başa düşmüşdü ki, qarşısındakı bu adamdan məcburən heç nə ala bilməyəcək. Odur ki, sualına cavab vermək istədi. Azacıq düşünüb:

- Mən heç elə qadını sevmərəm, axı!.. - dedi.

Ələmdar:

- Rədd ol, başımdan! - deyib, bir əli ilə oğlanı qarşısından kənara itələdi və yoluna davam etdi.

Amma üç-dörd addım atan kimi dayanıb geriyə qanrıldı. Yerində quruyub qalmış oğlana baxıb öz-özüylə danışırmış kimi astadan:

- Gic oğlu gic! - dedi. - Elə bilir, adamın özündən asılıdı...

Sonra səkidən çıxıb işıqlı asfalt yolun kənarı ilə addımlamağa başladı. Bir az getmişdi ki, qara rəngli «Mersedes» düz yanında dayandı. Onun üçün açılmış



downloaded from KitabYurdu.org

qapıdan maşına minib, Tələtə:

- Kluba sür! - dedi.

- Kluba? - sükanın arxasında oturmuş Tələt heyrətləndi. - Evə getmirsən?

- Gecənin bu vaxtında məni döydürmək istəyirsən? - Ələmdar acı-acı gülümsədi. - Kluba deyirəm, kluba sür! Sonra özün də çıx get evə, yat dincəl, sabah işimiz çox olacaq.

«Mersedes» klubun qarşısında dayananda saat 3-ü keçmişdi. Ələmdar öz açarı ilə qapını açıb
binaya girəndə onu görüb cəld ayağa qalxan gecə gözətçisi o qədər də təəccüblənmədi. Birinci dəfə deyildi «şef»in klubda gecələməsi...

Ələmdar cəld hərəkətlə ikinci mərtəbəyə qalxıb kabinetinə girdi. Məltəmin də, Cəhalənin də fikrini başından uzaqlaşdırıb, pencəyini soyunaraq stolun üstünə atdı. Arxası üstə divana uzanıb, əllərini başının altına qoydu. Baxışlarını tavana zilləyib «Əgər bu iş sabah da baş tutmasa, mən uduzdum!» deyə fikrindən keçirtdi və gözlərini yumaraq yuxuya getdi...

Doxsan birinci fəsil

Səhəri gün - iyun ayının 2-si, gündüz saat 10-da məxfi şöbənin rəisi polkovnik Baratov müavini mayor Cavadovu kabinetinə çağırdı. Kabinetə daxil olan mayor rəisinin qanının qara olduğunu dərhal hiss etdi və keçib stolun arxasında əyləşən kimi:

- Nəsə olub, cənab polkovnik? - deyə soruşdu.

- Səbir elə, əvvəl səni Rusiya Daxili İşlər Nazirliyindən gəlmiş məktubun məzmunu ilə tanış edəcəm, - polkovnik əlində tutduğu bir məktuba baxaraq



downloaded from KitabYurdu.org

dilləndi.

- Bizə gəlib?

- Yox. Bizim Milli Təhlükəsizlik Nazirliyinə gəlib. Onlar da bizə müvafiq məktub göndəriblər. Məsələ burasındadır ki, Valeri Mixailoviç Barsov əslən erməni olsa da, Rusiya vətəndaşıdır. 2004-cü ildən orada axtarışdadır və bizdən xahiş olunur ki, onu tutan kimi dərhal onlara təhvil verək. Valeri Barsov, onların məktubunda göstərildiyi kimi, 1986-cı ildə Bakıdan Rostova gedib, orada cinayətkar bir qrupa qoşulub. Sonra həmin qrup dağılıb. Barsov Ermənistana gedib, 1994-cü ilə kimi gah orada, gah da Dağlıq Qarabağda olub. Onun həmin illərdə bizim soydaşlarımıza qarşı törətdiyi olduqca amansız cinayətlərə qətiyyən toxunmurlar. Qeyd edirlər ki, Valeri Barsov, yəni Kobra 1994-cü ildə yenidən Rostova qayıdaraq orada özü cinayətkar dəstəsi düzəldib. Oğurluq, qarət, adam öldürmə, zorlama, narkotik alveri və sair kimi çoxlu sayda cinayətlər törətmiş həmin dəstə 2004-cü ildə keçirilmiş geniş
əməliyyat nəticəsində ələ keçib. Başçıları Kobra isə aradan çıxıb və o vaxtdan axtarışdadır.

- Deməli, biz Kobranı tutub sağ-salamat onlara təhvil verməliyik. - Cavadov dilləndi. - Əlbəttə, əgər tuta bilsək...

- Təəssüf ki, bəli... - Baratov dedi.

- Məgər bizim onu mühakimə etməyə ixtiyarımız yoxdur? - Cavadov narazılığını bildirdi. - Ya, beynəlxalq məhkəməyə verməyə?.. Axı o, bizim xalqımıza qarşı bu qədər cinayət törədib?!

- Əlbəttə, buna hüququmuz çatır. Amma məsələ burasındadır ki, onun bizə qarşı törətdiyi cinayətlərin


downloaded from KitabYurdu.org

böyük əksəriyyətindən məlumatımız varsa da, bu barədə əlimizdə sübut çox azdır. Biz onu məhkəməyə versək, uzun müddət çalışıb sübutlar toplamalıyıq. Amma onun Rusiyada törətdiyi
cinayətlərin sübutu var. Ələ keçmiş dəstənin üzvləri, yəqin ki, başçılarının Kobra olduğunu bildiriblər.
Digər tərəfdən, bu adam oranın vətəndaşıdır və onu bizdən istəməyə haqları var.

- Onda qoy özləri tutub cəzasını versinlər! - Cavadov əsəbiləşdi. - Bir də ki, mən daha Kobranın Azərbaycanda olduğuna inanmıram. Dənizdən də heç bir meyit-filan tapılmadı. O, yəqin ki, buradan çıxıb gedib.

Polkovnik bir neçə anlıq fikrə gedib, təmkinlə dilləndi:

- Buradan gedib-getmədiyini dəqiq deyə bilmərəm. Hər halda, çox güman ki, getməyib.
Ancaq dünən iştirak etdiyim yığıncaqda qərara alındı ki, Kobranın axtarışında başqa heç bir ip ucu aşkar edilmədiyi üçün sabah yox, birisigün - iyunun 4-də
Əlifağa Sadıxovun evlərində, bağında, ofis və müəssisələrində əməliyyat keçirilsin və o, arvadı ilə birlikdə həbs edilsin.

- Bazar günü? - Cavadov təəccüblə soruşdu.

-Bəli...

- Niyə birdən-birə belə qərara gəldilər? Axı Kobranı duyuq salıb qaçırmamaq üçün toxunmaq istəmirdilər onlara?!

- Məsələ burasındadır ki, - Baratov izah etdi. - Kobra, onsuz da, tapılmır. Harada gizlənib, nə işlə məşğuldur, bilinmir. Bakıya gələndən sonra onun hansı əməli bizə məlumdur? «Çəməndağ» kafesinin ofisiantını və arvadını


downloaded from KitabYurdu.org

aradan götürüb. Aprelin 23-də həmin kafedə olan Məltəm adlı qadın uşaqları ilə birlikdə yoxa çıxıb. Sadıxovun sağ əli olan Nəcməddin və iki gənc fəhlə öldürülüb. Bunlardan da
onun bir izini tapa bilməmişik. Durmuşuq ki, Kobranı axtarırıq. Amma harada? Necə? Gərək əlimizdə bir ilişki olsun. Yenə nə yaxşı ki, Leopard onun Sadıxovun qaynı olduğunu aşkar etdi.

Düzdür, heç mən də inanmıram ki, Sadıxovu həbs etməklə Kobranı tapa biləcəklər. Əksinə, qorxuram, bununla Kobranı birdəfəlik itirmiş olaq. Ancaq neyləmək olar, daha qərar verildi. Birisigün Sadıxov həbs olunmalıdır.

- Yaxşı, indi bizim konkret vəzifəmiz nə olacaq?

- Elə səni ona görə çağırdım. Ayın 4-də keçiriləcək əməliyyatda biz də iştirak edəcəyik.
Sonra isə... - Baratov bir anlıq duruxub əlavə etdi. - Əgər bu əməliyyat nəticəsində Kobra ələ keçməsə, onun axtarışını davam etdirəcəyik. Amma bu dəfə işimiz əvvəlkindən də qat-qat çətin olacaq. Çünki bu
dəfə əlimizdə ümumiyyətlə, heç bir ip ucu olmadan axtaracağıq onu.

- Bəs Qanturalın işi ilə əlaqə məsələsi? Şəkil...

Baratov inamsız halda başını yellədi:

- Polis Qanturalı hələ də tapa bilmir. Deyəsən, ələ keçməzlikdə Kobradan geri qalan deyil o... İki gün əvvəl, yenə bir uğursuz əməliyyat keçiriblər. Gecəykən evə basqın edib üç nəfəri öldürən Qanturalı yenə ələ keçirə bilməyiblər. Amma mən daha inanmıram ki, onun Kobra ilə, ya Sadıxovla bir əlaqəsi olsun. Lap əvvəl olubsa da, artıq, bu əlaqə öz əhəmiyyətini itirib. Qantural özü


downloaded from KitabYurdu.org

təkbaşına əvvəl namusunun, sonra isə qardaşının intiqamını alıb, vəssalam! Hər halda, ümid edək ki, polis tezliklə tutacaq onu...

- İnşallah! - Cavadov ayağa qalxdı. - Mən gedə bilərəm?

- Sənin nəzarətçilərindən nə xəbər var?
Sadıxov nə işlə məşğuldur?

- Sadıxov neçə gündür, axşamları dənizkənarı mülkündə keçirir. Arvadı ilə ikisi. Mayın 31-də oğlu üçün şəhərdə yenə bir ehsan verdi. Dənizkənarı mülk elə yerdədir ki, çox yaxınlığında nəzarət qoymaq mümkün deyil. Şübhə doğurur. Amma bu vaxta qədərki müşahidələrimiz göstərib ki, Sadıxov Kobra ilə ya heç əlaqə saxlamır, ya da bunu şəhərdə, hansısa gizli yolla həyata keçirir.

- Məncə, nəzarəti götürə bilərsiniz. - Baratov dedi. - Birisigün əməliyyat olacaqsa, onları duyuq salmaq lazım deyil.

- Oldu, cənab polkovnik!

Cavadov kabinetdən çıxandan sonra Baratov qalxıb özü üçün çay süzdü və yerində əyləşib fikrə getdi. «Yəni, doğrudanmı, Kobranın bizə qarşı etdiyi cinayətlər cəzasız qalacaq? Belə çıxır ki, onu tuta bilsək, vətəndaşı olduğu ölkəyə təhvil verəcəyik və orada ona beş-on il iş kəsəcəklər. Oğurluğa, qarətə görə... Biz səsimizi çıxaranda da sübut istəyəcəklər. Nə olar?.. Əziyyət çəkib sübut da, şahid də göstərərik. Şahid... Amma neyləyək ki, onun əməllərinin şahidi olanlar indi şahid yox, şəhiddirlər...»

## Doxsan ikinci fəsil

Palatanın işığı hələ yandırılmadığı üçün bir qədər ala-


downloaded from KitabYurdu.org

toranlıq idi. Çarpayıda arxası üstə uzanıb gözlərini pəncərəyə dikmiş Ağaşamil havanın yavaş- yavaş qaraldığını seyr etdikcə, ürəyini, özünün də baş açа bilmədiyi bir narahatlıq bürüyürdü.

Yenə gecə gələcəkdi və oia bilsin ki, o gədə yenə yuxusuna girəcəkdi. Əlifağanın oğlu... Gəlib çarpayısının yanında dayanıb öz iyrənc gülüşüylə güləcək və «Halın necədir, kişi?» deyə soruşub gedəcəkdi... Sonra da hövlnak ayılan Ağaşamilin yuxusu yenə ərşə çəkiləcəkdi.

Rafiqi öldürməyinə peşman deyildi Ağaşamil. Onu Fatimənin üstündən qaldırdığı və hər ikisini
çılpaq gördüyü anı, xatırlamaq istəməsə də, hərdən xatırlayırdı və bu zaman düşünürdü ki, Rafiq dirilib gəlsə, tərəddüd etmədən, bir də öldürər onu.
Düzdür, sonra, otağa girərkən gördüyü həmin dözülməz mənzərəni bir də gözünün qarşısına gətirib özünü inandırmışdı ki, o əclaf Fatiməyə elə də ciddi bir şey etməyib. Amma hər halda, öz murdar bədəni ilə qızın çılpaq bədənini örtmüşdü ki, bunu da düşünəndə Ağaşamilin tüstüsü təpəsindən çıxırdı.

Sonradan onu narahat edən şeylərdən biri bu idi ki, həmin işin üstündə Saleh adlı o sürücüyə nahaqdan iş kəsmişdilər və o, heç bir günahı olmaya-olmaya Ağaşamilin əvəzinə həbsxanada yatmalıydı. Xanəliyə tapşırmışdı ki, onun kaloniyadakı vəziyyəti ilə tez-tez maraqlansın və lazım olanda puldan-paradan göndərsin. Rəhmətlik
Xanəli də eləmişdi bunu. Dediyinə görə bir neçə dəfə öz adını bildirmədən pul göndərmişdi ona. Sonra Salehin ailəsinə yardım etmək barədə də düşünmüşdü Ağaşamil.


downloaded from KitabYurdu.org

Ancaq bunun, hələ ki, bir yolunu tapa bilməmişdi.

Axır günlər isə Ağaşamilin anlaya bilmədiyi bəzi məsələlər onun beynini daha çox məşğul edir, narahatlığını daha da artırırdı. O, Əlifağanın oğlunu öldürdü və bu sirri özündən, Xanəlidən və Fatimədən başqa heç kəs bilmirdi. Amma qəribə tale elə gətirdi ki, onun dörd oğlu və bir sevimli nəvəsi tamamilə yad və kənar bir adam - Qantural tərəfindən dalbadal qətlə yetirildi. Yəni doğrudanmı, Qantural onlardan Nihatın namussuz hərəkətinin intiqamını alırdı? Belə də intiqam olardımı?.. Neçə illər həbsdə yatmış, cinayət aləmi ilə az-çox tanış olan dördbarmaq
Ağaşamil ömründə belə intiqam görməmiş, eşitməmişdi. Hələ Əlifağa Sadıxov... Yəni onun, doğrudanmı, Ağaşamilə canı yanırdı?.. Nəyə görə? Təkcə ona görə ki, Nihat bir vaxt onun işçisi olmuşdu?..

Oğlanlarının ölümü kişinin sinəsinə çalın-çarpaz dağ çəkmişdi. Ən çox da nəvəsi Fətəlinin ölümü... Necə dözmüşdü onun ölümünə, ürəyi birdəfəlik partlamamışdı, özü də baş açmırdı. Əgər o Qantural Ağaşamilin əlinə düşsəydi, dünyanın bütün əzablarını ona daddırıb, sonra öldürərdi. İndisə dözməkdən başqa çarəsi yox idi. Dözürdü və bu işlərin nə ilə qurtaracağını gözləyirdi.

Amma bu gün, hava qaraldıqca qaranlıqla birlikdə ürəyinin dərinliklərinə çökən qəribə narahatlıq hissi nəsə yeni bir şeylə bağlı idi.
Ağaşamilin ürəyinə nəsə dammışdı elə bil və özü də anlamırdı ki, nədir onun ürəyini yenidən narahat edən...

Bu gecə Fatimə ilə birlikdə Səxavət də onun yanında xəstəxanada qalmışdılar. Ağaşamil oğlunu danladı ki, niyə


downloaded from KitabYurdu.org

arvadını evdə tək qoyub gəlib. O da dedi ki, Cəhalənin cangüdənləri həyətdə olacaq. Ancaq Ağaşamil gecə yenə də narahatlıq keçirtdi gəlini üçün. Oğlanlarının içində həmişə ən az Səxavəti istəmişdi. Çox xasiyyətlərində ona oxşamadığına görə. Xüsusilə də belə-belə işlərini heç başı götürmürdü. Amma Səxavət indi onun sağ qalan yeganə oğlu idi. Ona da bir şey olsaydı, daha qətiyyən dözə bilməzdi.

Səxavət səhər buradan öz evinə yox, birbaşa Xanəlinin evinə getdi. Bu gün ata-oğulun dəfninin üç günlüyü ilə əlaqədar ehsan veriləcəkdi. Gedərkən əyilib atasının üzündən öpdü. Elə bil heç ayrılmaq istəmirdi kişidən. Neçə gündən bəri canını dəhşətli qorxu hissi bürümüşdü və yalnız burada, atasının yanında özünü bir qədər arxayın hiss edirdi. Ağlı kəsəndən sonra birinci dəfə idi ki, atasının üzündən öpürdü. Bu Ağaşamili də bir balaca kövrəltdi və oğlunun əlindən tutub:

- Özündən muğayat ol, bala! - dedi.

O gedəndən sonra, Cəhalə gec gəlib çıxdığına görə Fatimə axşamüstü saat 5-ə kimi atasının yanında tək qaldı. Fatimə...

Ağaşamil üçün həmişə beş oğlu bir yana olmuşdu, təkcə Fatimə bir yana. Flamıdan çox istəyirdi qızını. Fatimə boy-buxunda da atasına çəkmişdi, qaralıqda da. Elə xasiyyəti də eynən atasının xasiyyətinə oxşayırdı. Cəsarətli idi, dözümlü idi. Heç kəsdən söz götürən deyildi. Ağaşamil ona öz nənəsinin adını qoymuşdu.

Gecə-gündüz ürəyində Allaha yalvarırdı ki, təki Fatiməyə bir şey olmasın. Dörd oğlunu və ən istəkli


downloaded from KitabYurdu.org

nəvəsini itirib birtəhər dözən Ağaşamil, əgər Fatimənin namusuna, ya lap elə canına bir şey olsaydı, dözə bilməzdi. Lap yəqin, dözə bilməzdi və bunu anladığı üçün qızını gözündən kənara buraxmaq istəmirdi. Amma yazıq qız daha lap yorulub əldən düşmüşdü. Dünəndən bir küncdə oturub hey məhzun-məhzun atasına baxırdı. Nə olmuşdu ona, nə fikirləşirdi, görəsən, baş aça bilmirdi Ağaşamil. Əlbəttə, qardaşlarının dərdi az dərd deyildi bacı üçün. Fatimənin ürəyi onsuz da, başa qədər dərdlə, kədərlə dolmuşdu və artıq bir dərdə yer də qalmamışdı. Amma atasının üzünə zillənən baxışlarında başqa bir şey də vardı. Sanki daha çox atasının dərdini çəkirdi...

Ağaşamil demişdi ki, Fatimə yasa-filana getməsin. Birbaşa evə gedib rahatlansın, yatıb dincəlsin. Səxavətə də qəti tapşırmışdı ki, axşam olan kimi bacısının yanına gedib, gecəni də onunla qalsın. Cəhalə, onsuz da, bu gecəni xəstəxanada, qayınatasının yanında olacaqdı.

Cəhalə saat 5-də gəlib Fatiməni yola saldı. Ağaşamilin gözünə birtəhər görünürdü gəlini. Elə bil bir gecənin içində solmuşdu yazıq qız. Gözlərinin altı bir balaca göyərmiş, rəngi bir az da ağarmışdı. Əməlli-başlı xəstələnənə oxşayırdı. Dodağının da bir tərəfi partlamışdı deyəsən. Bəlkə gecəni tək qaldığı üçün qorxmuşdu, zavallı?.. Onu bu halda görəndə yenə Səxavəti qınadı.

Bu hadisələr baş verəndən sonra Cəhaləni daha dərindən tanımışdı. Tanımış və sevmişdi gəlinini. Fatiməni sevdiyi qədər... Düşünürdü ki, Allah hər yaxşı xasiyyəti verib bu gəlininə. Onun hərdən öz geyimində bir balaca



downloaded from KitabYurdu.org

əndazəni aşmasını da daha bağışlayırdı ona. Cəhalə gözəl idi və nə geysəydi, nə cür geysəydi yaraşırdı ona. Həm də, gözəl olduğu qədər ağıllı idi. Tərbiyəli idi, yerbilən idi, gözü-könlü tox idi. Ağaşamilin fikrincə, o biri gəlinləri belə gözəl olsaydılar, ya Miraslanov kimi adamın qızı olsaydılar, tanrıya tabaq atardılar, ərlərinin də, qayınatalarının da başına çıxardılar.

Qeyrətli gəlin idi Cəhalə... Əgər Ağaşamil ailəsinin faciəsini öz faciəsi hesab edib bu qədər
dərd çəkirdisə, bu qədər göz yaşı tökürdüsə, əgər qayınatasını öz atası hesab edib qulluğunda belə dururdusa, əgər atasının böyük imkanlarını, gücünü, var-dövlətini əlində bayraq tutub ərinə yuxarıdan aşağı baxmırdısa, qeyrətli gəlin idi. Ağaşamil gəlinindən yerlə göy arası qədər razı idi və onun qədrini əvvəldən bilmədiyinə, o biri gəlinləri qədər əzizləmədiyinə görə xəcalət çəkirdi.

Amma Cəhaləyə doğrudan da nəsə olmuşdu. Bəlkə də rejimini pozduğuna, palatada yuxusuz gecə keçirtdiyinə görə xəstələnmişdi? Ola bilərdi... Bəs niyə gələndən qayınatasının yanında dayana bilmir, tez-tez dəhlizə çıxıb-qayıdırdı?.. Ağaşamil başını çevirib qapıya baxdı. Çıxdığı yarım saatdan çox idi gəlinin. Niyə gəlmirdi, görəsən, içəri?..

Cəhalə bu vaxt dəhlizdəki oturacaqda əyləşib cib telefonunu əlində tutaraq Səxavətə yazdığı mesajı oxuyurdu. Uzun bir məktub alınmışdı:

«Biz ayrılmalıyıq Səxavət! Bu mənim qəti qərarımdır. Əgər ayrılmasaq, hər gün sənə qarşı riyakarlıq eləmiş olacam. Bunu da istəmirəm.



downloaded from KitabYurdu.org

Bağışla ki, belə dərdli, ağır günlərində qaldırdım bu məsələni. Amma daha bir gün də, bir saat da gözləyə bilmərəm. Səninlə üz-üzə gəlmək çətindir mənə. Səbəbini soruşma. Onsuz da bilirsən ki, bir- birimizi elə dərin məhəbbətlə sevməmişik. Daha, yəqin ki, görüşməyəcəyik. Heç vaxt! Papama deyəcəm, boşanmağımızı özü tez həll etsin. Evdə də gözüm yoxdur. Hər şey sənin olsun. Ancaq özümə məxsus olan şeyləri götürüb açarı qonşuya verəcəm. İş yerimi də dəyişəcəm, ola bilsin. Səndən heç bir narazılığım yoxdur. Əksinə, səni xoşbəxt edə bilmədiyimə görə xəcalət çəkirəm. Əlvida. Cəhalə»

O qədər də bəyənmədi yazdıqlarını. Bir az şübhəli çıxırdı, nəsə... Amma nəyisə dəyişməyə, ya təzədən yazmağa hövsələsi qalmamışdı. Səxavətin nömrəsini ekrana gətirib «göndəriş» düyməsini basmaq istədi. Əgər bu düyməni bassaydı, mesaj uçub gedəcəkdi və əlini uzatmaqla da tutub saxlamaq olmayacaqdı. Dayanıb, bir az da fikirləşmək istədi...

Halı, doğrudan da, yaxşı deyildi. Bu gecə səhərədək yata bilməmişdi. Elə hey düşünmüşdü, düşünmüşdü... Səhər açılandan sonra da, ta buraya gələnədək... Ev telefonunu xətdən ayırmış, cib telefonunu söndürmüşdü. Divanda oturub düşünmüşdü, yataqda uzanıb düşünmüşdü...

Qərara gəlmişdi ki, Səxavətlə bir evdə yaşaya bilməyəcək daha! Yataq otağının ortasında açdığı çarpayını gec yığışdırmışdı. Girib-çıxıb baxmışdı əzik-üzük olmuş bu yatağa... Bəlkə də həyatının ən xoşbəxt saatlarını keçirmişdi bu gecə, bu yataqda... Sonra isə hər şey alt-üst oldu. Ələmdar sevmirmiş onu... O əzmə-büzmə,


downloaded from KitabYurdu.org

utancaq, abırlı-həyalı, ətli- əndamlı qadını sevirmiş. İki uşaq anasını... Məltəm xanımı...

Əslində, Ələmdarı, bir o qədər də qınamırdı. Ələmdar Cəhaləyə nə vaxt «səni sevirəm» sözünü demişdi ki?.. Heç vaxt! Cəhalə idi bu sözü tez-tez dilinə gətirən, görüşüb qovuşmaq üçün az qala yalvaran! Belə çıxırdı ki, arzusuna çatmışdı. Bu gecə bu yataqda keçirtdiyi saatlar bəlkə doğrudan da bütün ömrünə bəs edəcəkdi. Ya bəlkə də yox?..

Bir də otağa girib həmin çarpayıya baxdı. Birdən düşündü ki, gündüz saat 10 olub, birdən Səxavət gəlib çıxar və... Cəld yatağı yığışdırıb, hər şeyi öz yerinə qoydu və bax onda öz hərəkətindən daha çox xəcalət çəkdi. Deməli, artıq əri ilə gizlənqaç oynamağa başlayıb. Düzdür, o artıq neçə ay idi ki, Ələmdarla az-az da olsa, görüşürdü. Neçə dəfə onun yanına, idman klubuna getmişdi. Elə, əslində, onda da, öz hərəkətini normal saymırdı Cəhalə. Amma düşünürdü ki, ərini aldadıb-eləmir. Səxavətə nəyi yalan demişdi ki? Əgər o, qəflətən Cəhaləni tutub soruşsaydı ki, idman klubuna, Ələmdarın yanına getmisən, bəlkə də deyərdi, hə, getmişəm. Hər şeyi tamam açmasa da, deyərdi ki, aramızda bir şey yoxdur, sadəcə, dostluq edirik. Çünki aralarında, əslində, doğrudan da, ciddi bir şey olmamışdı.

Amma indi... Axşam Səxavəti telefonda aldatdı. Ələmdarla qovuşmaq məqamında heç nə gözünə görünmürdü onun. İndi, təsadüfən, gəlib soruşsa ki, Ələmdar bu gecə burada səninlə qalıb, deyəcək, yox, nə danışırsan, elə şey olmaz... Yox, belə yaşamaq istəmirdi Cəhalə!



downloaded from KitabYurdu.org

Düzdür, Ələmdarı qınamırdı onu sevmədiyinə görə. Heç qınaya da bilməzdi. Ağlı başında olan insan idi, ali təhsilli həkim idi, bilirdi ki, adamın özündən asılı olan şey deyil bu... Ancaq, soyumuşdu ondan. Gecə o gedəndən sonra, hətta az qala, nifrət edirdi ona. Çünki onun fikrincə, Ələmdar lap başqa bir qadını sevmiş olsaydı belə, onu sevən, bütün qəlbini, canını, namusunu ona bağışlamağa hazır olan belə gözəl qadınla yataqda olanda gərək hər şeyi unudaydı... Belə çıxırdı ki,
Cəhalə Məltəm xanımı bir neçə saatlığa da unutdura bilməmişdi ona. Bax, ən çox bu idi Cəhalənin mənliyinə toxunan... Ən çox bu idi onu Ələmdardan soyudan...

İndi burada, xəstəxananın dəhlizindəki oturacaqda əyləşib barmağını telefonun «göndəriş» düyməsinin üstünə qoyduğu halda yenə Səxavət haqqında, onunla olan münasibətləri haqqında düşünürdü.

Axı onlar bir-birlərini sevib evlənmişdilər... İndi belə çıxırdı ki, sevməyiblərmiş bir-birlərini? O özü şəxsən nə vaxtdan soyumağa başladı Səxavətdən? Bunu demək çətin idi. Amma deyəsən, Səxavətin öz təhriki ilə ondan əvvəl görüşdüyü oğlanla keçirtdiyi intim anları danışandan sonra... Neyləyəydi? Dnışmayaydı? Ya, Səxavət özü soruşmayaydı,
gərək? Qəribədi vallah! Bax elə bu gecəki işi Səxavətə danışmalı olsa, iki şeydən biri hökmən baş verəcək. Ya Səxavət onu bağışlamayacaq, ayrılacaqlar, ya da bağışlayacaq və o saat da Cəhalənin gözündən düşəcək. Deməli, ailənin dağılmağını istəmirsənsə, gərək belə iş ya heç olmaya, ya da olsa, mütləq onu sirr kimi saxlayasan ərindən...


downloaded from KitabYurdu.org

Yox, Cəhalə belə istəmirdi. İstəmirdi, vəssalam! Gərək Səxavət də inciməsin. Gərək o da etiraf eləsin ki, Cəhaləyə qarşı nə qədər mehriban olubsa da, onun heç bir arzusunun əleyhinə çıxmayıbsa da, əslində, sevməyib onu! Bəli, sevməyib! Cəhalə heç vaxt əsl məhəbbətin hərarətini hiss etməyib onda.

Özünü tamam bədbəxt hesab edirdi bu saat... Görəsən, nə vaxt xoşbəxt olmuşdu ki?.. İş yoldaşları, qayınxatınları, rəfiqələri onun hər şeyinə qibtə edirdilər, onu xoşbəxtlərin xoşbəxti sayırdılar. Amma daha demirdilər ki... Hə, Ələmdarla tanış olub, onunla görüşməyə başladığı ilk vaxtlarda özünü bir az xoşbəxt hesab edirdi. Ancaq o, aldadıcı bir şey imiş... Elə onda da həmişə qorxu keçirirdi ki, görəsən Ələmdar onu sevir, yoxsa yox? Axır, məlum oldu!

Amma Ələmdarla yataqda keçirtdiyi o iki saat ərzində, doğrudan, xoşbəxt idi... İndi bilmirdi ki, həmin iki saata görə Ələmdara minnətdar olsun, yoxsa xoşbəxtliyin dadına baxdırıb, sonra həmişəlik əlindən aldığı üçün nifrət etsin...

Yenə Səxavəti düşündü... Yox, o, riyakar, iki üzlü həyata uşaqlıqdan alışmamışdı və bundan sonra da belə həyat istəmirdi! Ürəyi götürmürdü bunu. Götürmürdü, vəssalam!

Göndəriş düyməsini basdı! Telefonun ekranında «Mesaj göndərildi» yazısını oxuyanda içində birdən- birə nəyinsə qırıldığını, qəlbində dərin bir boşluq yarandığını hiss etdi. Deməli, Səxavət aldı mesajı. İndi oxuyur, yəqin ki... Oxuyur və dəhşətə gəlir... Başa düşmür bunun səbəbini. Ya, elə fikirləşir ki, gecə Cəhaləni tək qoyub buraya gəldiyinə görə acıq edir. Bəlkə indi özü zəng


downloaded from KitabYurdu.org

vuracaq...

Cəld telefonunu söndürdü. Söndürdü və içindən qaynayıb gözlərini dolduran acı göz yaşlarını heç cür saxlaya bilmədi. Üzünü əlləri ilə qapayıb hönkür- hönkür ağlamağa başladı. Bir azdan çiynində bir əl hiss edib başını qaldırdı və qarşısında tanış tibb bacısını gördü. Tibb bacısı:

- Niyə ağlayırsınız, Cəhalə xanım, səbirli olun, qayınatanızın halı getdikcə yaxşılaşır, - dedi.

Cəhalə cəld ayağa qalxıb dəhlizin o biri başındakı tualetə getdi. Su kranında üzünü yuyub cib dəsmalı ilə quruladı. Bir qədər özünə gəlib oradan çıxdı və geri qayıdanda dəhlizdə Nəzakətlə qarşılaşdı. Onu özü zəng vurub çağırmışdı. Demişdi ki, özünü yaxşı hiss eləmir, gəlib bir gecəlik qayınatasının yanında qalsın.

- Nə olub, ay qız? - Nəzakət maraqla soruşdu.

- Xəstələnmişəm... - Cəhalə yalan deməyə məcbur oldu.

- Özünə yaxşı bax də! - Nəzakət, guya canıyananlıq elədi və başı ilə palataya işarə edib soruşdu. - Kişi təkdir?

- Hə! - Cəhalə başını tərpətdi. - Sən bir dəqiqə əyləş burada, məni gözlə, Ağaşamil əmiyə söz deyib çıxıram.

- Yaxşı... - Nəzakət iri gövdəsini oturacağa basıb çantasını yanına qoydu.

Cəhalə həyəcanlı vəziyyətdə palataya daxil oldu.

- Sən harada idin, ay qızım? - Ağaşamil diqqətli nəzərlərini gəlininin üzünə zilləyib soruşdu.

Cəhalə irəli gəlib onun yatağının kənarında oturdu. Əhvalının yaxşı olmadığı o saat duyulurdu.

- Ağaşamil əmi, - dedi, - mən özümü yaxşı hiss eləmirəm. Nəzakəti çağırdım ki, yanında o qalsın, mən evə



downloaded from KitabYurdu.org

gedim. Papamgilə gedəcəm. Xəstələnmişəm, deyəsən.

Ağaşamil başını məzəmmətlə buladı:

- Ay bala, özündən muğayat ol, get dincəl. Heç Nəzakəti də nahaq çağırmısan. Mənə nə olacaq ki, burda? Get qızım, get bir-iki gün sənə qulluq eləsinlər, sağal. Bu bəlalar hamımızın bəlasıdır, amma ölənlə ölmürlər. Yaşamaq lazımdır, sabahı fikirləşmək lazımdır.

- Bağışla məni, Ağaşamil əmi... - Cəhalə başını aşağı dikib kədərli səslə dedi.

- Neyləmisən, səni bağışlayım? - Ağaşamil təəccübləndi. - Mən səndən dünyalar qədər razıyam. İnan ki, Fatimədən ayırmıram mən səni. Əksinə, sən öz zəhmətini halal elə. Çox zəhmətimi çəkdin bu bir ayda. Sən olmasaydın, Fatimə olmasaydı bu qədər dərdə tab gətirib durmazdı ürəyim. Çox sağ ol! Ananın südü sənə halal olsun!

Cəhalə dözməyib, yenə ağlamağa başladı. Ağaşamil onun əlindən tutub özünə tərəf çəkdi və başını sinəsinə basdı:

-Ağlama, qızım! Başa düşürəm sənin halını. Sənin nə yaşın var, nə canın var ki, bu qədər çətinliyə düşəsən. Özü də evinizdə dərd-sər, çətinlik görmədən böyümüsən. Allah baisin evini yıxsın, hamımızı yaman günə qoydu. Ancaq ruhdan düşmək lazım deyil. Sizin həyatınız hələ bundan sonradır. Allahdan diləyim budur ki, sizə bir uşaq da qismət eləsin. Eləyəcək də, inşallah! Bir dərdim budur, bir də o Şakir gədə nadürüst çıxdı, deyirəm Allah Fatimənin bəxtinə bir adam balası çıxartsın.

Kişi uşaqdan söhbət salanda Cəhalənin az qala ürəyi düşdü. Görəsən, Ələmdardan uşağa



downloaded from KitabYurdu.org

qalmayacaq ki?.. Ancaq qalma ehtimalı çox böyük idi...

Bu vaxt maraqdan bağrı çatlayan Nəzakət qapını açıb içəri girdi və onları bu vəziyyətdə görəndə:

- Bu nədir, ay kişi, - dedi, - gəiinini nə əzizləyirsən?

Cəhalə başını qayınatasının sinəsindən ayırıb, gözlərini yaylığı ilə quruladı.

Ağaşamil Nəzakətə çəp-çəp baxıb:

- O mənim gəlinim deyil, qızımdır, - dedi.

- Allah başacan eləsin! - Nəzakət zarafat elədi. Amma nə Cəhalənin, nə də Ağaşamilin zarafat
edəcək halı yox idi. Hər ikisi çox təsirlənmişdi. Cəhalə əyilib qayınatasının üzündən öpdü və:

- Yastığın yüngül olsun! - deyib palatadan çıxdı.

Həyətə düşən kimi maşınına əyləşib evə yola düşdü. Mühafizəçilərin oturduğu «BMW» də arxasınca gəlirdi. Elə indicə evə gedib bu oğlanların köməyilə pal-paltarını, kitablarını, digər xırda-xuruş əşyalarını atası evinə aparacaqdı. Bilirdi ki, ata- anasını başa sala biləcək. Uzaqbaşı, lap lazım olarsa, hər şeyi olduğu kimi danışacaqdı onlara.

Doxsan üçüncü fəsil

Axşam saat 9-u keçmişdi. Ağaşamilin mənzilində qəmli və yorğun bir sakitlik hökm sürürdü. Bayaqdan bəri cib telefonunu əlində tutub divanda əyləşmiş Səxavət elə dərin fikrə getmişdi ki, hətta deyəsən, bacısı Fatimənin otaqda olduğunu da unutmuşdu. Fatimə atasının paltarlarını yuyub
qurutmuşdu və indi də onları ütüləməklə məşğul idi. Qardaşının çox fikirli olduğunu görüb, onu danışdırmaq istəmir, otaqdan otağa keçəndə də, özündən asılı



downloaded from KitabYurdu.org

olmayaraq, asta hərəkət edib səs salmamağa çalışırdı. Bu mənzildən, Nihatın öldüyü gündən bəri, yas havası çəkilməmişdi. Televizorun üstünə atılmış qara rəngli parça bu boğuq yas havasını bir az da ağırlaşdırırdı.

Fatimə özü də fikirdən-xəyaldan uzaq deyildi. Bu saat stolun üstündəki paltarı ütüləyə-ütüləyə atası haqqında düşünürdü. Yəni doğrudanmı, həbs edəcəkdilər qoca atasını?.. Yəni yaşlı, xəstə kişi bu yaşında həbsxanada yatmalıydımı? Əlbəttə, adam öldürmüşdü və artıq bu sirr açılmışdısa, deməli, yatmalıydı... Ələmdarın xəstəxanadakı söhbət zamanı verdiyi təklifi xatırladı. Bəlkə doğrudan da
desinlər ki, Xanəli öldürüb Rafiqi?.. Atası da, Fatimə də belə bir izahat versələr müstəntiq inanacaq. Axı mənzildə həmin vaxt başqa bir şahid olmayıb?! Amma belə düşünəndə qardaşı gəlib dururdu gözünün qabağında. Məzəmmətlə bacısına baxıb «Utanmırsan bacı, ölümə də şər atırsan? Mən öldürmüşəm o köpək oğlunu?» deyirdi. Fatimə, doğrudan da, utanırdı onda öz fikirlərindən. Ancaq hər dəfə bu barədə fikirləşəndə belə olmurdu. Bəzən Xanəli gözlərinə görünüb hirsli-hirsli əllərini havada oynadırdı: «Bu nə sözdür? Əlbəttə, mən öldürmüşəm o gədəni! Mən! Qoca, ağsaqqal kişi adam öldürəndir? O, tutub saxlamışdı Rafiqi. Zəng vurub məni çağırdı. Deyirdi ki, bu oğlanı polisə verək, evə soxulduğuna görə. Ancaq mən güldanı
götürüb Rafiqin təpəsinə vurdum. Mən! Atamın heç bir günahı yoxdur bu işdə! Ağlınızı başınıza yığın!»

Çalpaşıq fikirlərin əlində dolaşıb qalmışdı yazıq qız. Bilmirdi neyləsin. Atasına isə hələ demək olmazdı belə


downloaded from KitabYurdu.org

sözləri. Halı yenidən xarablaşa bilərdi. Fatimə dərindən ah çəkib, ütüləyib qurtardığı paltarı kənara qoydu. Qız yorulub əldən düşmüşdü tamam. Qanturalın qorxusu bir yandan, qardaşlarının faciəsi bir yandan, atasının dərdi də bir yandan üzürdü ürəyini. İnsan ürəyi necə dözümlü olurmuş, İlahi!..

Birdən qapının zəngi çalındı... Hər ikisi diksinib, qorxu və həyəcanla bir-birlərinə baxdılar. Yenə çalındı. Səxavət qalxıb ehtiyatla qapıya doğru gedəndə Fatimə də onun arxasınca düşdü. Səxavət eyni ehtiyatla gözlükdən baxdı və qapının ağzında
dayanmış polis sahə müvəkkili Cavanşiri tanıdı. Bacısına:

- Sahə müvəkkilidir... - deyib qapını açdı.

- Axşamınız xeyir! - Mülki geyimdə olan enlikürək, orta boylu, dolu bədənli sahə müvəkkili onları astadan salamladı.

- Axşamınız xeyir... - Səxavət salamı alıb təəccüblə ona baxdı.

- Vəziyyət nə yerdədir? - Cavanşir soruşdu.

- Heç... - Səxavət çiynini çəkdi. - Oturmuşuq

- Kim var mənzildə?

- Elə ikimizik. Mən, bacım...

- Qapını içəridən bağlayın, rahat yatın. Mənə sizi qorumağı tapşırıblar. Saat 3-ə kimi buralarda olacam. Həyətdə. - Səxavətə kiçik bir vərəq uzatdı - Burada mənim cib telefonum yazılıb. Nəsə bir
narahatlıq olsa, mənə bildirin. Tanımadığınız adama qətiyyən qapı açmayın! Arxayın yatın, gecəniz xeyrə qalsın!

Sahə müvəkkili bunları deyib, pilləkənlərlə aşağı


downloaded from KitabYurdu.org

düşdü. Ancaq öz gəlişiylə Səxavətin qorxusunu birə- beş artırdığından xəbəri olmadı. Dünən Cəhalə ona demişdi ki, Ələmdar mənzilimizdə gecələyib,
Qantural üçün güdükdə durmaq istəyir. Demək, gecə Qanturalın ondan ötrü buraya gəlməsinə ehtimal böyük imiş. Bunu sahə müvəkkilinin sözləri də təsdiq edirdi.

Qapını bağlayıb, cəftəni çəkdi və otağa qayıtdılar.

- Bir adamın əlində giriftar olub bu qədər polis!
- Fatimə həyəcanlı səslə deyindi. - Nə vaxt tutacaqlar bunu ki, biz də rahat nəfəs ala bilək.

- Sən qorxma, gələ bilməz bura... - Səxavətin səsi titrəyirdi və bunu duyan Fatimənin qorxusu bir az da çoxaldı.

Rafiq onun gözünün qabağında öldürülmüşdü. Maşınla vurulmuş Tamerlanın gözlərini geniş açıb bu dünyaya baxan son baxışlarını görmüşdü. Ölməyin, öldürməyin nə demək olduğunu az-çox bilirdi. Ölümdən çox qorxurdu son vaxtlar... Amma daha çox namusunu itirməkdən qorxurdu. Bu qorxunu kəskin şəkildə iki dəfə duymuşdu, artıq. Bir dəfə Rafiq ona hücum çəkəndə və daha müqavimət göstərməyə gücünün çatmayacağını anlayanda, bir dəfə də Oanturalın qardaşı Ələkbərin adamları onu qaçırmağa cəhd göstərəndə...

Ona elə gəlirdi ki, namusunu itirərsə, yaşadığı bu dünyadan zövq almaq duyğularından ən
başlıcasını - mənlik duyğusunu birdəfəlik itirəcək. «Bu mənəm, Fatiməyəm. Mən də insanam, yaşayıram, duyuram, zövq alıram, sevirəm, sevilirəm!» deyə bilməyəcək. Qəlbində kəsilib atılması qeyri-mümkün olan bir yara, bir ləkə hiss edəcək həmişə...


downloaded from KitabYurdu.org

Başını qarışdırmaq üçün qalan paltarları götürüb, ütüləməyə başladı. Amma qulağı səksəkədə idi. Hər çıqqıltıdan, hətta küçədən keçən maşınların siqnal səsindən diksinib başını qaldırırdı.

Yenidən divanda oturub telefonunu əlində tutmuş Səxavət isə canına dolmuş qorxunu dəf etmək üçün Cəhalə haqqında düşünürdü. O özlüyündə yüz faiz əmin idi ki, arvadı ondan dünənki hərəkətinə görə ayrılmaq istəyir. Dünən gecə onu evdə tək qoyub, xəstəxanaya getdiyi üçün. O, niyə
gecəni öz evində qalmaq istəmədi axı?.. Qorxudan? Hə, qorxmağına doğrudan da, qorxmuşdu. Bəs niyə Cəhaləni də özüylə aparmadı? Cangüdənlər həyətdə olacaqdı, onun üçün elə bir qorxu yox idi. Həm də onu aparmaq istəsəydi, qorxduğunu başa düşərdi axı Cəhalə!.. Hər halda, düz iş görməmişdi. Özü də bilirdi ki, gecə Ələmdar gələcək. O Ələmdar ki... Nə isə!.. Görəsən, doğrudanmı, Ələmdar gəlib qapıdan qayıdıb, yoxsa... Əlbəttə, əgər Cəhalə belə deyirdisə, deməli, belə idi. O Cəhaləyə inanırdı.
Bilirdi ki, Cəhalə ondan heç nə gizlədən deyil. Yox əşi! Yəni ciddi bir şey olsa da gizlətməyəcəkdi? Amma ciddi bir şey ola da bilməzdi axı! Cəhaləni ki o cür tanıyırdı, ola bilməzdi!

Bu Qanturalın da qorxusu imkan vermirdi ki, bir əməlli-başlı düşünsün. İndi nə olacaqdı? Yəni
doğrudan ayrılacaqdılar? Axı onlar bir-birlərini sevirdilər. Axı onlar çox mehriban yaşamışdılar bu bir neçə ildə... Sevirdilər?.. Hə, hər halda bir-birlərini sevib evlənmişdilər və son vaxtlara qədər də iynə ucu boyda şübhə, narazılıq olmamışdı aralarında.


downloaded from KitabYurdu.org

Tibb universitetində oxuyanda nazlı, ədalı yerişilə, bahalı və bir qədər də açıq-saçıq geyimilə, daş-qaşıyla hamıdan seçilirdi Cəhalə. Onu məktəbə xüsusi maşın aparıb-gətirirdi. Qrupda elə bir yaxın rəfiqəsi yox idi. Hamıya elə gəlirdi ki, Cəhalə özünü çəkir. Amma bir-iki ildən sonra ona göz qoyan Səxavət gördü ki, xeyr, bu qız özünü çəkib-eləyən deyil, çox sadə, səmimi, hətta təvazökar bir qızdır. Sadəcə, qızlar özləri özlərindən ürküb ona yaxınlaşmırlar. Bir də lap yaxınlaşsalar belə, onun dedi-qodu, qeybət xoşlamadığını görüb, ondan tez aralanardılar. Oğlanlara da başqa gözlə baxıb eləmirdi. Eləcə «salam», «sağ ol», vəssalam! Təmiz gözləri vardı, elə indi də elədir gözləri... Bu gözlərə diqqətlə baxan o saat görərdi ki, onun nəyi var üzdədir, içinin dərinliyində gizlənən bir şeyi yoxdur onun... Səxavət onu beləcə tanıdı və sevdi. Varlı, imkanlı ailənin qızı olmağına baxmayaraq, o da özünü çox naza qoymadı. Sevişdilər, bir-birlərinin olmağa razılaşdılar, evləndilər...

Evlənəndən sonra Cəhalənin bir sözünü də iki eləmədi. Kobudluq edib, xətrinə dəymədi. Ailədə üstünlük, əslində Cəhalənin əlində idi. Amma Cəhalə ərindən yerli-yersiz tələblər edən, ona yuxarıdan aşağı baxan, şəstini sındıran, üstünə çımxıran gəlinlərdən də deyildi. Qətiyyən yox! Birincisi, hələ bu vaxta qədər ondan bircə dənə də şey istəməmişdi. Hər şeyin yerini bilirdi. Ərinin qazancını da, ailənin büdcəsini də. Özü işləyirdi, özünə lazım olan şeyi özü alırdı. Çox qiymətli bir şey lazım olanda da atasına deyirdi. Səxavətə qarşı kobudluq etməmişdi. Hansısa sözünə qəti şəkildə «yox» deməyi də yadına gəlmirdi. Amma hər halda üstünlük onun tərəfində idi və bu


downloaded from KitabYurdu.org

üstünlüyü o özü tələb edib qazanmamışdı, Səxavət özü vermişdi ona.

Elə intim münasibətlərdə, yataqda da təşəbbüsü o ələ alırdı həmişə. O qucaqlayırdı Səxavəti, o öpürdü Səxavətin üzündən-gözündən, sinəsindən... Bir də gördün, Səxavət divanda oturanda gəlib onun köynəyini əynindən çıxarırdı. Yataq otağına keçib orada lüt-anadangəlmə soyunur, Səxavətin köynəyini əyninə geyinib ortadan tək bir düyməsini
bağlayırdı. O vəziyyətdə gəlib ərinin qucağında otururdu. Başlayırdı onu öpüb-oxşamağa...

Bu vaxtlarda onun gözəl bədəninə, hamar, ağappaq, düz ayaqlarına baxan Səxavət ehtirasa gəlib, onu bərk-bərk qucaqlayırdı. Amma yenə də çox vaxt təşəbbüsü öz əlinə almağa imkan tapmırdı. Cəhalənin onu duz kimi yalaması və bədənindən gələn gözəl, bihuşedici ətir Səxavətin beynini dumanlandırırdı. Bu yandan da Cəhalə özü mane olurdu ona:

- Dayan! - deyirdi. - Səni doyunca öpmək istəyirəm.

Hərdən onun geyiminə irad tuturdu Səxavət. Birlikdə toya, ad gününə, ya elə-belə gəzməyə-filana gedəndə. Deyirdi, bu şalvar əyninə çox kipdir. Ya, məsələn, göbəyin görünür bu paltarın altından, ya
sinən çox açıqdır, ya nə bilim, daha nə... Düzdür, belə şeylər, lap elə də çox olmurdu, amma Səxavət bu cür iradlar tutanda nə desəydi yaxşı idi, deyirdi ki:

- Görünsə də, görünməsə də, mənim hər şeyim sənə məxsusdur! Yalnız sənə!

Səxavət də deyirdi ki, bu öz yerində, ancaq başqa kişilər də baxır axı sənə...


downloaded from KitabYurdu.org

- Pis mənada baxırlar? - Cəhalə belədə bir az pərt olurdu.

- Yox! - Səxavət deyirdi. - Sən qapalı geyinsən də baxırlar. Xoşları gəldiyi üçün... Amma belədə daha çox baxırlar.

Bu barədə qəribə fəlsəfəsi var idi Cəhalənin. Deyirdi, sən istəyərsənmi ki, arvadına heç bir kişi baxmasın? Xoşun gələr bundan? Ya xoşuna gələr ki, kişilər desin, Səxavətin arvadı bekara şeydir,
gözəlliyi-filanı yoxdur, kifirdir. Xoşun gələr? Biri sənə desə ki, sənin arvadınla bircə gecə keçirməkdən ötrü dünyaları verərəm, bilirəm, bəlkə də o saat vurub öldürərsən onu. Heç qınamaram da səni, çünki bu başqa söhbətdi. Qeyrət məsələsi... Amma təsəvvür et, biri sənə deyir ki, mənə dünyaları versələr də, sənin arvadınla olmaram! Xoşuna gələr?..

Bəzən ona deməyə söz tapmırdı Səxavət...

Əlində tutduğu cib telefonu səslənəndə, diksinib xəyaldan ayrıldı. Səlahəddin idi zəng vuran. Telefonu qulağına apardı.

- Doxtur, salam, haradasınız? - Səlahəddin soruşdu.

- Atamgildəyəm, - baş mühafizəçilərinin səsini eşidən Səxavət elə bil bir az rahatlıq tapdı.

- Fatimə bacı da yanınızdadı?

- Hə, ikimizik.

- Mən saat 11-dən sonra evin həndəvərində olacam. Ta səhərə kimi! Qəti narahat olmayın!

- Bəs Qulu haradadır? - Səxavət soruşdu.

- Qulu xəstəxananın həyətində duracaq.

- Sahə müvəkkili də gecə saat 3-ə kimi buralarda



downloaded from KitabYurdu.org

olacaq.

- Onlara çox bel bağlama! - Səlahəddin kinayəli gülüşlə güldü. - Gördük onların adam qorumağını.

- Yaxşı, Səlahəddin, gələndə zəng vurarsan, bilərəm.

- Oldu, doxtur!

Bu zəngdən sonra Səxavət qismən arxayınlaşdı. Onun fikrincə, Səlahəddin qurdun biri idi və Qantural kimilərə də can verənə oxşamırdı. O
gecə Xanəlinin həyətində Ramiz bədbəxtin əvəzinə bu olsaydı Qantural bir şey eləyə bilməzdi...

- Səlahəddin idi? - Fatimə maraqla soruşdu.

- Hə. - Səxavət cavab verdi.

- Burada olacaq? - qızın buna sevindiyi hiss olunurdu.

- Hə!

- Ancaq... - Fatimə birdən nəsə düşünüb dilləndi. - Polis onu görməsə yaxşıdır. Axı...

- Polis onu üzdən tanımır. Uzaqbaşı bildirməz kimliyini. Hər halda, mən dedim Cavanşirin burada olduğunu. Qoy işini ehtiyatlı tutsun. Bir də, Cavanşir səhərə qədər burada qalan deyil. Bir az hərlənib, çıxıb gedəcək evinə, yatmağa...

Hə... Cəhalə haqqında fikirləşirdi. Bu qadının ürəyi də, xasiyyəti də açıq idi, gözləri kimi tərtəmiz
idi. Amma buna baxmayaraq, Səxavət o qədər də inanmırdı, inana bilmirdi ki, Cəhalənin gizli bir sirri, ondan saxladığı bir xatirəsi olmasın. Lap azacıq şübhəsi var idi onun hansısa sirrinin olmasına. Lap azacıq! Başladı cidd-cəhdlə bunu ondan soruşmağa Ancaq bilmədi ki, həmin lap azacıq şübhə idi Cəhaləni onun üçün az da olsa maraqlı edən, bu idi onu qısqanmağına və deməli, həm də


downloaded from KitabYurdu.org

sevməyinə səbəb olan... Bunu bilmədi və dönə-dönə soruşdu. Soruşdu ki, nə vaxtsa, uşaqlıqdan tutmuş bu günə kimi, kiminləsə lap az da olsa intim münasibətdə olubmu Cəhalə?.. Cəhalə onda çox fikirləşdi, ömür tarixçəsini çox vərəqlədi və tək bircə şey tapıb çıxartdı ortaya. Birinci kursda oxuyanda Səxavətin də tanıdığı bir oğlan buna ürəyini açıbmış. Tək bir dəfə auditoriyada tək qalıblar və o bunun əlindən
tutub, yüngülvarı sıxıb özünə, öpüşüblər... Vəssalam! Cəhalə çox səmimi danışırdı, ona inanmamaq mümkün deyildi. Beləliklə qəti məlum oldu ki, Cəhalənin başına bir çox qızların dəfələrlə başına gələn intim oyunların, hadisələrin heç biri gəlməyib. Məlum oldu ki, bundan sonra da heç nə olmayacaq və lap olsa da, Cəhalə bunu gizlətməyəcək. Qəribə də olsa, bu etiraf özünün yaxşı yox, pis nəticəsini göstərdi. Cəhalə nə qədər eyibsiz bir gözəl olsa da, ərinin nəzərində marağını itirdi. Səxavət daha onu az qısqanmağa başladı. Bildi ki, onun arvadının ondan başqa heç kəsdə gözü yoxdur və ola da bilməz! Amma onu bilmədi ki maraq öləndə, qısqanclıq öləndə elə məhəbbət də ölür...

Lakin hər halda, Səxavət son vaxtlar özü də hiss edirdi arvadına qarşı soyuduğunu. Və özünün soyuduğunu duyduğu üçün arvadının ondan soyuduğunu duya bilmirdi. Bir dəfə yataqda olanda, yəqin ki, yenidən özündə arvadına qarşı bir maraq yaratmaq üçün, ya nəyə görəsə, Cəhaləyə belə bir sual verdi. Soruşdu ki, yəni Cəhalənin heç ətrafında xoşuna gələn bir kişi olmayıbmı? Yəni, təbii ki, Səxavətdən başqa. Onda Cəhalə bu suala öz xarakterinə uyğun, əsl Cəhalə kimi cavab verdi. Nə bir çoxları kimi


downloaded from KitabYurdu.org

riyakarlıq elədi, nə də ərini aldatmağa çalışdı.

- Səxavət, sən çox qəribə sual verirsən! - dedi. - Mən cavan qadınam. Allah məni qadın yaradıb. Özü də bilirsən ki, heç bir ruhi, ya fiziki xəstəliyim də yoxdur. Sapsağlamam. Kişilərlə rastlaşanda
gözlərimi bərk-bərk yuma da bilmərəm. Necə ola bilər ki, ətrafımda gördüyüm bu qədər kişidən xoşuma gələn, ya istər xasiyyəti, istər boy-buxunu, sifəti, nə bilim daha nəyi ürəyimə yatan olmasın?.. Bu, əlbəttə, tamam başqa şeydir ki, çalışıram heç kəsə başqa gözlə baxmayım, heç kəsi səndən qəlbən üstün tutmuram, səndən başqa heç kəsi sevmirəm və bir də istəyirəm ərim olduğun üçün səni heç kəsin ayağına verməyim, sən hamıdan uca olasan. Bax, təsəvvür elə ki, Allah eləməmiş, sən hamının gözündən düşdün, oldun qeyrətsiz bir kişi... Hə? Onda mən kim olacam? Əlbəttə, qeyrətsiz kişinin arvadı! O ad kişi üçün nə qədər alçaqdırsa, bu ad da qadın üçün o qədər alçaq, o qədər ağrıdıcıdır.

Onda Səxavət onunla razılaşıb susmaq əvəzinə başladı gic-gic soruşmağa ki, kimdir xoşuna gələn kişi? Cəhalə bu sualın cavabından yayınmaq istədi. Dedi ki, kiminsə adını çəksəm, əslində, əhəmiyyətsiz bir şey olsa da səni şübhəyə salacaq. Sonra bunu özünə də, mənə də dərd eləyəcəksən. Amma Səxavət əl çəkmədi ki, çəkmədi. Onda Cəhalə dedi ki, Əminə adında şəkəri olan bir xəstəm var, onun oğlu ikinci dəfədir ki, anasını yanıma gətirir. Səxavət soruşdu ki, nəyi xoşuna gəlir onun? Cəhalə bir az tutuldu, hətta qızardı və əlbəttə, qızarmağını görə bilməzdi alaqaranlıq yataqda, dedi ki:

- Nə bilim?.. Ümumiyyətlə, xoşuma gəlir... Boy-


downloaded from KitabYurdu.org

buxunu... Baxışı...

- Adı nədir? - həyəcanlanmış Səxavət maraqla soruşdu.

-Adı?... Adı, deyəsən, Ələmdardır...

- Sənə nəsə deyib o?

- Yox! Yox! - Cəhalə inamla dedi. - Heç baxışıyla da bir şey hiss elətdirməyib.

- Bəs bu saat dedin ki, baxışlarından xoşun gəlir?!

Cəhalə yenə tutuldu və bir az gec dilləndi:

- Mən, ümumiyyətlə, dedim... Baxışı canavar baxışına oxşayır...

Səxavət bir istədi ki, Ələmdar adlı o oğlanı özü ilə müqayisə etdirsin. İstədi soruşsun ki, onun hansı cəhətləri məndən üstündür. Amma qorxdu bunu soruşmağa. Bildi ki, Cəhalə yenə də düşündüyünü deyəcək. Bəlkə də sadalayacaq onun üstün cəhətlərini. Qorxdu ki, pərt ola bu müqayisədən və daha heç nə soruşmadı.

Ondan sonra Səxavət arvadını yenə bir az qısqanmağa başladı. Həmin Ələmdarı özü də bir neçə dəfə poliklinikada, Cəhalənin kabinetində gördü. Əlbəttə, anası ilə birlikdə.

Öz dili ilə etiraf eləməsəydi, qısqanıb- eləməyəcəkdi onu. Başqaları lap yüz söz desələr də... Bu söhbətdən dörd-beş ay əvvəl poliklinikada tibb bacısı işləyən Təriqə Səxavətin qulağı eşidə- eşidə atmacalar atmağa başlamışdı. Məsələn, Səxavətin kabinetinin qapısı ağzında dayanıb ucadan kiməsə deyirdi ki:

-Ay qız, Dəyanət həkimi axtarırsansa, Cəhalə həkimin kabinetindədir!

Və başqa bu kimi sözlər... Bir dəfə də evdə olanda



downloaded from KitabYurdu.org

telefon zəng çaldı. Dəstəyi götürdü, gördü ki, zəng eləyən bir qadındır. Adını bildirmək istəmədən bunları deyib əlaqəni kəsdi:

- Doktor, heç bilirsən sənin can-ciyər arvadın poliklinikada Dəyanətlə nə oyunlardan çıxır? Yaxşı deyil axı, qadın var, uşaq var, başqalarının da tərbiyəsini pozur...

Sonra bu səsi dönə-dönə xatırlayıb, başa düşmüşdü ki, elə Təriqə özü imiş zəng vuran da! O bu sözlərə inanmamışdı. Çünki heç Dəyanət həkimin bir yaraşığı da yox idi. Amma yenə də bu barədə Cəhaləyə deyib, Dəyanətlə aralarında nə olduğunu soruşmuşdu. Onda Cəhalə yaman hirslənmişdi:

- Ay Allah, yaşamaq olmur da bu xarabada! - demişdi. - Hər addımda istəyirlər adama bir ləkə yaxsınlar. O Dəyanət bir-iki dəfə mənim otağıma girib. Özün də bilirsən ki, boğazında hülqum-zad yoxdu, hamıyla eyni cür danışır, zarafat eləyir. İnsafla deyəndə, çox vaxt maraqlı söhbətləri də olur. Özü də desəm ki, mənə lap bacısı gözüylə baxır, yalan deyərəm. İndi, necə olmasa, o da kişi qırığı hesab edir özünü, hərdən görürsən ağzının suyu axmağından nəsə başa düşürəm. Ancaq Səxavət, papamın canı üçün, ömrü boyu kişisiz qalsam, ayağımı sürtmərəm onun üstünə...

Onda da inanmışdı Cəhaləyə. Amma Təriqə, doğrudan da, çox canfəşanlıq edirdi söz-söhbət yaymaqda. Bu Ələmdar söhbətindən sonra Səxavət lap qəti bildi ki, Dəyanət söhbəti boş söhbətdir. Bildi ki, bir şey olsaydı, etiraf edərdi Cəhalə.

Bir dəfə Səxavət, necə oldusa, ona dedi ki, çalış, mənə heç vaxt xəyanət eləmə. O da cavabında:



downloaded from KitabYurdu.org

- Mən sənə xəyanət eləsəm, özüm bir gün də yaşamaram səninlə! - demişdi.

- «Bir gün də...» Dayan, dayan! Bəlkə elə?.. Dünən gecə evdə tək qaldı. Ələmdar da gəlməliydi. O Ələmdar ki, ondan özünün də xoşu gəlirdi. Boy- buxunundan, baxışlarından... O Ələmdar ki, baxışları, doğrudan da, elə canavar baxışlarına oxşayırdı.

Bəlkə... Artıq neçənci dəfə Cəhalənin cib telefonuna zəng vurdu. Yenə, bağlı idi. Ayağa qalxıb ev telefonu ilə xəstəxananı yığdı. Mərtəbə növbətçisindən xahiş etdi ki, on səkkizinci palatadan Cəhaləni telefona çağırsınlar. Bir azdan dəstəkdə Cəhalənin əvəzinə Nəzakətin səsi eşidildi:

- Cəhalə yaman pis idi, ay Səxavət, - dedi, - rəngi, İraq olsun, ölü rənginə oxşayırdı. Boyun-
boğazı göyərmişdi, dodağı şişmişdi. Nə bilim, soyuqlayıb, ya bərk qorxub... Bəs sən görməmişdin onu?..

- Yox... - Səxavət dedi. - Mən oradan çıxıb hüzrə getmişdim.

- Hə, məni çağırdı ki, mən qalım kişinin yanında, özü getdi.

- Hara getdi?
- Deyəsən, atasıgilə...
- Yaxşı, sağ ol...

Dəstəyi yerinə qoydu. Heç atasının halını soruşmaq da düşmədi yadına. Fikirləşdi ki, əgər onların arasında dünən gecə nəsə olubsa, bunun günahı Cəhalədən də çox özündədir... Arvadına yazığı gəldi, birdən-birə...

Bu zaman balkon tərəfdən nəsə bir taqqıltı səsi eşidildi. Fatimə o biri otağa keçdiyi üçün eşitməzdi bu səsi. Səxavətin bütün vücudunu təsvirəgəlməz bir qorxu hissi


downloaded from KitabYurdu.org

bürüdü. Ayağa qalxıb balkona tərəf baxdı. Oranı görmək üçün pərdəni aralamaq lazım gəlirdi. Amma, Səxavət, pərdəyə yaxınlaşmağa qorxurdu.

Boğazı tamam quruduğu üçün bir neçə dəfə udqundu. Kimsə balkondan gələ bilərdimi, yəni?..

Axı dəmir barmaqlıqlar vurulub!.. Ancaq onları kəsmək də elə çətin iş deyil, axı?! Gördüyü bəzi xarici filmlər yadına düşdü. Orada balkondan mənzilə daxil olub içəridəkiləri öldürürdülər. Dayanıb, bütün diqqətini topladı. Qulağına heç bir səs gəlmirdi. Yalnız küçədən şütüyən maşınların uğultusu eşidilirdi. Bütün olub-qalan cəsarətini toplayıb, pərdəni araladı. Yox, balkonda heç kəs görünmürdü...

Cib telefonunu götürüb Səlahəddinə zəng vurdu. Arxayın olmaq istəyirdi ki, o doğrudan da, gələcək, yoxsa yox. Amma telefonu bağlı idi...

Bu zaman otağa daxil olan Fatimə Səxavətin sifətinin əcaib hala düşdüyünü gördü. Onun sifəti kağız kimi ağarmış, ait dodağı sallanmışdı...

Doxsan dördüncü fəsil

Saat 11 -in yarısında qapı zənginin cingiltili səsi eşidildi və yenə də hər ikisi bu səsdən diksinib qorxuya düşdülər. Səxavətin yerindən qalxmadığını görən Fatimə bu dəfə qapıya özü getdi. Ayaqlarını döşəməyə asta basaraq, ehtiyatla yaxınlaşıb gözlükdən baxdı. Ələmdarı qapının qarşısında görəndə gözlərinə inanmadı. Bir də baxıb, zənnində yanılmadığına əmin olandan sonra tələsik qapını açdı. Heç gözləmədiyi halda, belə ağır və qorxulu anlarında öz xilaskarını görməsinə çox sevinirdi. Bu sevinc, bir anlıq, ona hər şeyi unutdurdu və ucadan


downloaded from KitabYurdu.org

səsləndi:
- Ay Allah! Sizdən nə əcəb?! Xoş gəlmisiniz!

Ələmdar içəri keçib qapını örtdü. Qızın sevincinə gülümsəməklə cavab verib:

- Səxavət həkim evdədirmi? - deyə soruşdu.

- Hə, evdədir, keçin! Keçin! - Fatimə onu otağa dəvət etdi.

Səxavət, yata biləcəyinə inanmasa da, bir azdan yatağına girmək fikrində idi. Ayağa qalxıb gecə vaxtı qəfil gəlmiş qonaqla bir qədər soyuq görüşdü. O, əslində, bu gecə buraya Qanturaldan başqa kim gəlsəydi sevinərdi. Onda ki ola, onu qorumağa gəlmiş adam olsun! Amma indi elə vəziyyətdə idi ki, sevincini bildirməyə halı da yox idi.

Ələmdar stolun arxasında, Fatimənin təklifi ilə, onun göstərdiyi stulda əyləşdi. Səxavət də, candərdi, onunla üzbəüz oturdu. Fatimə:

- Bu saat sizə çay gətirim! - deyib mətbəxə keçdi.

Ələmdar, qarşısında Səxavətin əvəzinə başqa bir kişi olsaydı, dünən gecə arvadı ilə bir yatağa girdiyi üçün, onun üzünə düz-əməlli baxa bilməzdi. Daha doğrusu, baxa bilərdi, amma istəməzdi bunu. İndi isə onu qınayıcı, məzəmmətedici və hətta bir az da qalib baxışlarla süzür, həm də Səxavət baxışlarını ondan yayındırdığı üçün onun qorxudan ağarmış sifətinin hər bir əzasına diqqət yetirə bilirdi. Deməli, o, dünən gecə bunun arvadı ilə olmuşdu... Cəhalə ilə... Kim nə deyir desin, çox istəyirdi Cəhalənin xətrini. Xoşlayırdı onun düzlüyünü, təmizliyini, mərdliyini... Xoşu gəlirdi onun gözəlliyindən...
Dünən gecə də ondan bir qadın kimi çox razı
qalmışdı. Amma, heyif, axırda, özündən asılı olmayaraq,


downloaded from KitabYurdu.org

ürəyini qırdı onun. Çox heyif!

Bircə anlıq özünü pis hiss elədi, dünən gecə sahib olduğu qadının əri ilə üzbəüz oturduğu üçün. Amma yenə Cəhaləni xatırladı. Düşündü ki, heç ona yaraşmır bu adam. Heç! Onun əvvəldən zəhləsi gedirdi qorxaq, xoşqeyrət kişilərdən. Fikirləşdi ki, Cəhalənin, qətiyyən, bəxti gətirməyib bu həyatda. Mərd, cəsarətli, ər xasiyyətli bir kişiyə rast gəlsəydi, xoşbəxt ola bilərdi.

İndi heç Səxavətə yazığı-filanı da gəlmirdi. Onu bir daha diqqətlə süzüb, yaranmış xoşagəlməz sükutu özü pozdu və güclə hiss edilən bir istehza ilə dilləndi:

- Dünən gecə sizə qonaq gəlmişdim. Cəhalə xanım sizə demişdi axı gələcəyimi?! Eşidəndə ki,
xəstəxanaya getmisiniz, çox təəccübləndim...

- Hə... - Səxavət, istədisə də, yenə onun üzünə şax baxa bilmədi. - Kişinin vəziyyəti yaxşı deyildi. Getdim. Qalmalı oldum yanında.

Ələmdar yenə gözünü onun bir qədər ətli, ağbəniz sifətinə zilləmişdi. Bilirdi ki, yalan deyir.
Bilirdi ki, Qanturalın qorxusundan qaçıb getmişdi xəstəxanaya. Orada adam çox idi, necə olmasa, polis işçiləri var idi. Görürdü ki, qorxu bu adamı birtəhər eləyib. Gördü ki, özü də başa düşür səhvini və üzünə baxa bilmir onun. Bir anlıq da olsun onu başa düşməyə çalışdı. Amma yenə yazığı gəlmədi ona. Ölümdən, ya hər nədənsə, kimdənsə qorxmaq uşaqlıqdan yad olmuşdu Ələmdara. Özü belə olduğu üçün başqalarını başqa cür görəndə anlaya bilmirdi onları.

- Ancaq hər halda, ehtiyatlı olmalısınız! - dedi.
- Sizin düşməniniz var. Həm də, vəziyyət belədir ki, o sizi


downloaded from KitabYurdu.org

görür, siz onu görmürsünüz.

Səxavət çalışdı ki, qorxduğunu bu adamdan gizlətsin:

- Dərdimiz-sərimiz o qədər çoxdur ki, ehtiyatlı olmaq heç yadımıza düşmür.

- Dərdinizi anlayıram. - Ələmdar dedi. - Böyük dərddir. Allah rəhmət eləsin qardaşlarınıza.

- Allah sizin də ölənlərinizə rəhmət eləsin! Səxavət bunu dedi və istədi soruşsun ki, sən nə
üçün bu qorxulu işə qarışırsan, nə üçün bizdən ötrü riskə gedirsən? Amma çəkindi bunu soruşmağa. İstədi bunun səbəbini özü araşdırıb tapsın.

Cəhalənin o vaxt dediyi sözləri xatırladı. Demişdi ki, xoşu gəlir Ələmdardan. Açıq-aydın demişdi. Demişdi
ki, baxışları canavar baxışlarına oxşayır. Ələmdar bir kişi kimi yaraşıqlı idi, boy-buxunlu idi. Baxışları da elə, Cəhalənin dediyi kimi, qurd baxışlarına oxşayırdı. Ağlına gəldi ki, onun Cəhalə ilə əməlli- başlı münasibəti var və bu qoruma məsələsi də Cəhalənin xahişi ilə olub. Axı Cəhalə dedi ki, atam onu da mənə mühafizəçi götürüb?! Atası haradan tanıyırdı ki, Ələmdarı?.. Bəs, yaxşı, Cəhalənin o mesajından, ayrılmaq istəyindən sonra niyə gəlmişdi Ələmdar buraya? Bəlkə... Bəlkə Fatimə ilə yaxın əlaqəsi var?.. İndi içəri girəndə qız çox mehriban qarşıladı bunu. Ola bilər... Şakir də nişanı geri aldı... Hər şey ola bilər...

Nəzakətin telefonda dediyi sözlər yadına düşdü: «Boyun-boğazı göyərmişdi, dodağı şişmişdi...» Yox, lap yüz faiz bunlar gecəni bir yerdə olublar!

Ələmdarla CəhaləL. Başqa cür ola bilməz! Cəhalənin bundan xoşu gəlirdi. Bu mənzilə gələndə o tək olub... Nəzakətin dedikləri... Cəhalənin yazdıqları da üstəlik!..



downloaded from KitabYurdu.org

İşlər var imiş, sən demə! Cəhalə onu necə də aldatdı. Zəng vurub soruşanda dedi ki, guya Ələmdar gəlib qapıdan qayıdıb...

Bəzən deyirlər ki, insanın ruhuna ən güclü təsir edən, onun ağlını, düşüncəsini əlindən alan duyğu ehtirasdır. Amma əslində, zəif adamın ağlını, düşüncəsini, hətta yeri gələndə mənliyini, kişiliyini, qeyrətini əlindən ala bilən daha güclü bir hissiyyat var ki, bu da qorxudur! Bəli, qorxu! Bu saat Səxavət belə bir hissiyyatın ağuşunda idi. Dərk etmə qabiliyyəti zəiflədiyi üçün Qanturalın hansı yollasa, evin içinə gəlib girəcəyindən qorxurdu. Sahə müvəkkilinə etibarı yox idi, o qədər də... Səlahəddin telefonunu söndürmüşdü və hələ ki, gəlib çıxmırdı.

Belə bir vəziyyətdə dünən gecəki işə görə nifrət edə bilmirdi Ələmdara. Canının əldən getmək qorxusu arxa plana keçirirdi hər şeyi!.. Bu saat belə bir qüvvətli, qorxmaz adamın onun yanında olması, onu qorumağa çalışması Səxavətə az-çox rahatlıq gətirir, qorxusunu bir qədər azaldırdı.

Fatimə iki stəkanda çay süzüb gətirdi və stolun üstünə qoydu. Sonra özü çəkilib divanda oturdu və Ələmdara baxmağa başladı. Xətrini çox əziz tutduğu bu adamın bura gecə vaxtı gəlməsini tam anlaya bilməsə də, onun gəlişi qızı sevindirirdi.

Səxavətin fikri yenə dünən gecəki əhvalatda idi. Fikirləşdi ki, görəsən, harada yatıblarmış, divanda, ya ikinəfərlik çarpayıda?.. Qərara gəldi ki, əlbəttə, çarpayıda. Onların yatağında! Səxavətlə Cəhalənin... Bunu gözlərinin qabağına gətirməyə çalışdı. Keçirdiyi qəribə hissiyyatdan əli əsdiyi üçün stəkanını aşırıb, çayı süfrəyə


downloaded from KitabYurdu.org

dağıtdı. Fatimə cəld ayağa qalxıb mətbəxdən dəsmal gətirdi. Süfrəni qurulayıb, qardaşı üçün təzədən çay süzdü.

- Bağışlayın!.. - Səxavət pərt halda dilləndi. - Yaman fikirliyəm.

- Eybi yoxdur! - Ələmdar onu maraqlı nəzərlərlə süzüb üzünü Fatiməyə tutdu. - Sən özün niyə çay içmirsən, Fatimə?

- Mən içmək istəmirəm. - Fatimə cavab verdi.
- Dərsləriniz qurtardı?
- Hə, qurtarıb.
- İmtahanlar nə vaxt başlayır?
- Deyirlər, bir həftə sonra...

- Sən, yəqin, bu hadisələrə görə, azı bir ay dərsdən qalmısan.

- Hə... - Fatimə ah çəkdi.

- Darıxma, - Ələmdar ona təskinlik verdi. - Sizin dekanla aramız yaxşıdır. Xahiş edərəm, kömək eləyər sənə.

- Çox sağ olun!..

Ələmdar bir an fikrə gedib, gəlişinin məqsədini qıza açdı:

- İstəyirəm bu gecə sizdə qalım. İşdir, birdən əgər o əclaf gəlib eləsə, sizə dayaq olmaq istəyirəm. Olar?

- Niyə olmur? - Fatimə qorxu və kədər qarışıq gülümsədi. - Xoş gəlmisiniz!

- Sağ ol! Amma hər ikinizə xəbərdarlıq edirəm. Məndən xəbərsiz qapını heç kəsə açmayın!.. Yəni, ümumiyyətlə, sizin qapı ilə işiniz yoxdur. Lazım olarsa, mən açacam onu.

- Yaxşı! - Fatimə razılaşdı.


downloaded from KitabYurdu.org

Ələmdar Səxavətə baxdı:
- Eşitdiniz, doktor?
- Eşitdim! - Səxavət quru səslə cavab verdi.
İndi o, istəsə də, beynində canlanan bəzi
xəyallardan qurtula bilmirdi. Amma özünün bildiyi kimi canlandırırdı dünən gecə olanları. Cəhalə divanda oturmuş Ələmdarın köynəyini çıxarır, sonra özü lüt soyunub, həmin köynəyi əyninə keçirərək Ələmdarın qucağında otururdu...

- Əgər yatmaq istəyirsinizsə, yatın! - Ələmdar birdən dilləndi. - Mən elə bu otaqda, divanda uzanacam.

- Hə!.. - Səxavət ayağa qalxdı. - Yaman yorğunam mən də...

O biri otağa keçib, Fatimə ilə nəsə danışdılar. Bu vaxt Səxavətin stolun üstünə qoyduğu cib telefonu səsləndi. Ələmdar gözucu ekrana baxıb orada «Səlahəddin» yazıldığını gördü. Səxavət cəld gəlib telefonu götürdü. Qulağına aparıb:

- Hə?.. Yaxşı... Çox sağ ol! - dedi və qapayıb özündə saxladı.
- Kim idi? - Ələmdar soruşdu.
- Bizim mühafizəçi idi... Deyir, gəlmişəm, aşağıdayam.
- Daha nə ehtiyac var? Mən ki burdayam...
- İşinin adı nədir? Qoy gözləsin! - Səxavət bunu deyib, yenə o biri otağa keçdi.

Fatimə bir balış və nazik yorğan gətirib divanın üstünə qoydu.

- Çarpayı gətirim sizin üçün. Divanda narahat olacaqsınız, - dedi.

- Yox! - Ələmdar etiraz etdi. - Heç bir narahatlığı


downloaded from KitabYurdu.org

yoxdur. Siz gedin, rahat yatın! Gecəniz xeyrə qalsın!

Fatimə də:

- Gecəniz xeyrə qalsın! - deyib yataq otağına keçdi və qapını örtdü.

Ələmdar otağın qapısını açıq saxladı. İşığı söndürüb, divana yaxınlaşdı. Stulun birini götürüb divanın yanına qoydu. Pencəyini çıxarıb stula keçirtdi. Dəhlizdə yanan lampanın işığından otağa da düşürdü və buna görə də otaq alaqaranlıq idi. Yorğanı götürüb stolun üstünə atdı. Birdən öz-özünə

- Bu nədir, deyəsən, həyəcanlanıram?... - dedi.

Sonra isə dodağının altında astadan əlavə etdi:

- Yox, səbirli ol, Leopard, az qalıb! Lap az qalıb!

Hər iki əlini çiyinləri bərabərində yuxarı qaldırıb, barmaqlarını geniş açdı. Sonra onları yumanda barmaqları bərk şaqqıldadı. Bunu bir neçə dəfə təkrar edəndən sonra tapançasını stula keçirdiyi pencəyin cibindən çıxarıb balışın altına qoydu.

Arxası üstə divana uzanıb qollarını başının altında çarpazladı. Gözlərini tavana dikib Kobra haqqında fikirləşməyə başladı.

Kobra! Ələmdarın bu saat ən böyük arzusu ondan elədiyi qəddar cinayətlərin intiqamını almaq idi. Bundan başqa, heç nə düşünmək istəmirdi. Heç nə! Ən əsas da Məltəmin bacısının intiqamını alacaqdı ondan. Söz vermişdi o qadının ruhu qarşısında! Yerlə göy bir olsaydı da, bu sözünün üstündə durub intiqamını alacaqdı Kobradan!

Məltəmi xatırladı... Görəsən, indi neyləyir o? Neyləyəcək, yəqin ki yatıb. Necə yatıb, görəsən? Yəqin,



downloaded from KitabYurdu.org

böyrü üstə, bir azca da büzüşüb... Bəlkə də bir əli ilə Eltayı qucaqlayıb... Gözlərini də, sözsüz ki, yumub. O gözəl gözlərini... Heç kəsin oxuya bilmədiyi o mənalı ala gözlərini... Həm utancaqlıq yağan, həm də lap dərinliyində şeytan qığılcımlar oynayan sirli, sehrli gözlərini...

Özü özünü məcbur elədi ki, Məitəm haqqında düşünməsin. Lazım deyildi, qətiyyən lazım deyildi belə fikirlər! O, on üç il əvvəl Məitəm haqqında bacısı Mahirədən eşitmişdi. On üç il, üzünü görməyə-görməyə xatirində saxlamışdı belə bir adamın varlığını. İndi isə, nəhayət, rastlaşmışdı
onunla. Amma artıq onun ailəsi vardı, gül kimi uşaqları vardı. Ələmdar Mahirənin müqəddəs ruhu xatirinə, Məltəmin özünə olan istəyi xatirinə söz vermişdi ki, bu ailəni dağılmağa, məhv olmağa qoymayacaq. Sözünün üstündə durmalıydı,
Ələmdar! Həmişə durmuşdu və mütləq indi də durmalıydı!

Anasını yadına saldı. Görəsən, o da yatıbmı indi? Yatar, hər halda. Amma lap yəqin, yamanca yanıqlıdır Ələmdarın əlindən. Evə gedəndə, kötəkləməsə əl çəkməyəcək. Ayağındakı kiçik yara yeri gizildədi, elə bil. Dizindən bir qarış aşağıda idi bu yara və anası onu iki ay əvvəl, dəmir xəkəndazla döyəndə yaranmışdı. Həmin günü yadına salanda, özündən asılı olmayaraq, gülümsədi. Arvad özündən necə çıxmışdı, ay Allah! Təxmini də olsa,
hesablamaq istədi, görək, anası indiyədək ona neçə şillə ya kötək vurub. Müharibəyə gedib bu işə qoşulandan sonrakıları saymadı heç. Döyülməyə başladığı dörd yaşından illəri əskiyi ilə günlərə vurdu. Kötəklərin də sayını əskiyi ilə götürdü. Ən azı gündə beş kötəkdən...


downloaded from KitabYurdu.org

Yenə sayı otuz iki mini keçdi. Ancaq indi daha qocalıb, gücdən düşüb bir az. Əvvəlkilər kimi bərk vura bilmir... Birdən-birə qəribə bir kövrəklik gəldi ona... «Əllərinə qurban olum, ay ana,- dedi ürəyində, - əllərinə qurban olum!»

Cib telefonu ani olaraq səslənib, tez də susdu. Bu kim idi görəsən, belə? Əlini uzadıb pencəyin cibindən telefonu götürdü. Cəhalə imiş zəng vuran... Ələmdar təəccübləndi. Niyə yatmayıb, görəsən, gecənin bu vaxtı? Nə demək istəyir ona? Nömrəni
yığıb zəng vurdu. Maraqlıdır, telefonunu bağlamışdı Cəhalə...

Yerində uzanandan sonra nə qədər vaxt keçdiyini bilmirdi. Yataq otağından qulağına pərakəndə səslər gəlməyə başladı:

- Məndən əl çək!.. Qantural... Gəlmə!.. Mən yox! Mən yox! Onlar!.. Nihat... Xanəli... Gəlmə!.. Gəlmə!..

Bu Səxavətin səsi idi. Yuxuda sayıqlayırdı...

Cəhalənin zəngi barədə düşündü... Gərək imkan tapıb barışa onunla. Könlünü ala... Amma yox, lazım deyil! Onun dediyini edə bilməyəcəksə, onu xoşbəxt edə bilməyəcəksə, lazım deyil! Qoy öz həyatını yaşasın!.. Amma necə yaşasın Səxavətlə? Heç layiqdimi, sən Allah, ona bu?!

Yataq otağının qapısı açıldı. Öskürəyinin səsindən bildi ki, Səxavətdi duran. Tualetin qapısı açılıb örtüldü. Sonra yenə... Sonra vanna otağının qapısı açıldı. Əlini yuyub vanna otağından çıxan Səxavət Ələmdar olan otağın qapısı ağzına gəlib içəri boylandı. Əynində yalnız alt paltarı var idi. Ələmdarın əlləri başının altında, gözləri yarıyumulu



downloaded from KitabYurdu.org

vəziyyətdə idi.

Elə bu vaxt qapının zəngi çalındı!.. Səxavət diksinib dayandı və sonra asta hərəkətlə qapıya doğru yeridi. Ələmdar daha onu görmürdü. Cəld yerindən sıçrayıb tapançasını balışın altından götürdü və:

- Qapını açma! - deyə ucadan səsləndi.

Amma, Səxavət onu ya eşitmədi, ya da eşitmək istəmədi. Qapının gözlüyündən baxıb, onu dərhal
açdı. Ələmdar bunu cəftənin səsindən duydu və Səxavətin dediklərini eşitdi:

- Nədir, Səlahəddin, nə lazımdır?

Gələn adam:

- Susuzluqdan yanıram, bir stəkan su ver! - dedi.

Ələmdar tapançanı əlində hazır tutub otağın qapısına tərəf addımladı. Həmin anda yenə Səxavətin səsi gəldi:

- İçəri keç, bu saat gətirim...

Mənzilin qapısı örtüldü. Elə o anda da yanıqlı bir çığırtı eşidildi:

- Ay ana!!!

Bu Səxavətin səsi idi. Onu artıq vurmuşdular. O, tappıltı ilə yerə sərildi. Otağın ortasında dayanmış Ələmdar tərpənmirdi. Onsuz da gec idi daha!..

Mənzilə girən adam əlində qanlı bıçaq qapının ağzında göründü. O, birbaş Fatimənin yatdığı otağa gedirdi. Amma dönüb sağa baxanda alaqaranlıq otaqda dayanmış Ələmdarı gördü və bir saniyə də ləngimədən əlindəki bıçağı ona tulladı. Ələmdar onun məqsədini tez başa düşüb kənara sıçramasaydı, qüvvətlə tullanmış bıçaq, yəqin ki, sinəsini deşəcəkdi. Ancaq indi bıçaq otağın o biri başına qədər uçub pəncərənin taxta çərçivəsinə sancıldı.



downloaded from KitabYurdu.org

Bıçağı atan adam artıq görünmürdü. O, mənzilin qapısına tərəf çəkilib, tapançasını çıxarmışdı. Bu vaxt o, Ələmdarın sakit və qətiyyətli səsini eşitdi:

- Təslim ol, Kobra, onsuz da mənimlə bacarmayacaqsan!

Bəli, bu Səlahəddin adı altında maskalanmış Kobra idi. Əvvəlki adı Artur Saqiyan, sonrakı adı Valeri Barsov olan Kobra!

- Sənin səsin mənə tanış gəlir... - Kobra ilan kimi fısıldadı.

Bütün diqqəti otağın açıq qapısında olan Ələmdar kinayə ilə gülümsədi:

- Uşaqlıq yoldaşını tanımadın, Artur?! Ələmdaram!..

- Alik?! - Kobra heyrətlə çığırdı.

- Hə, Artur, at silahını yerə, səninki bitdi daha! Kobra irəli sıçrayıb otağa dalbadal iki güllə atdı

və sürətlə yerinə qayıtdı. Amma Ələmdar yerini dəyişmişdi və atılan güllələr ona dəyə bilməzdi. Onun əvvəlkindən də sakit və təmkinli səsi eşidildi:

- Nə bacarırsan göstər, Kobra! Nə bacarırsan, elə! Sənin ananı ağladacam, onsuz da!

Birdən mənzilin qapısı açılaraq, bərkdən örtüldü. Kobra qaçmışdı... Ələmdar onun ardınca getmək istəyəndə yataq otağından yarıçılpaq halda çıxan Fatiməni görüb dayandı. Güllə səsinə oyanmış qız əlində tapança tutmuş Ələmdara heyrətlə baxırdı. Birdən gözü qardaşının yerə sərilmiş meyitinə sataşdı və ucadan qiyyə çəkib irəli atıldı:

- Səxavət! Ay qardaş hey!.. Ay qardaş, səni kim vurdu?!

Sonra dikəlib, Ələmdarın sinəsini dəli kimi



downloaded from KitabYurdu.org

yumruqlamağa başladı:
- Onu sən vurdun?! Onu sən vurdun?
Ələmdar tapançasını arxadan şalvarının
qayışına keçirib, ağlını itirməkdə olan yarıçılpaq qızı bərk-bərk qucaqladı:

- Sakit ol, Fatimə! - dedi. - Onu Qantural vurdu. Vurub qaçdı. Səxavət özü açdı qapını. Demişdim açma, özü açdı! Sakit ol! Sən çılpaqsan, get geyin, indi adamlar gələcək bura!

Fatimə elə bil birdən ayıldı. Onun qolları arasından çıxıb, yataq otağına qaçdı. Ələmdar Səxavətin meyitini qapının ağzından götürüb otağa apardı. Onu divana uzadıb, cəld pencəyini geyindi. Qapıya doğru gedəndə paltarını tələsik əyninə keçirmiş Fatimə ilə üz-üzə gəldi. İki əli ilə keyləşmiş qızın qollarından tutub silkələdi və onun gözlərinin içinə baxıb:

- Qulaq as, Fatimə! - dedi. - Hər şey bitdi. Tutacaqlar o əclafı! Özünü ələ al, səbirli ol! Mən indi onun dalınca gedirəm. Mənim barəmdə səndən
soruşanda, tanımadım deyərsən. Yaxşımı? Deyərsən ki, Səxavət tanıyırdı onu, mən yox, yaxşı?

Gözlərindən yaş süzülən Fatimə başını tərpətməklə razılığını bildirdi. Ələmdar onun alnından öpüb:

- Hələlik! - dedi və qapıdan çıxıb pilləkənləri sürətlə düşməyə başladı.

Blokun qapısından iki addım uzaqlaşmışdı ki, yıxıldığı yerdən yenicə qalxıb sinəsini ovuşduran bir nəfər tapançasını ona uzatdı:

- Təslim ol, mən polisəm! - dedi. - Əllərini qaldır!

Bu Cavanşir idi. Polis sahə müvəkkili. Onu blokun


downloaded from KitabYurdu.org

qapısında qəflətən üzləşdiyi Kobra təpiklə vurub yıxıbmış. «lşə düşmədik? Mən onsuz da xeyli vaxt itirdim...» deyə düşünən Ələmdar anladı ki,
burada zorakılıqdan başqa heç nə işə yaramayacaq. Cavanşirin gözlərinə zillədiyi iti baxışlarını bircə anlığa yana sürüşdürməklə onu çaşdırdı. Həmin istiqamətə baxan sahə müvəkkili bir də onda ayıldı ki, biləyinə dəyən güclü zərbədən silahı əlindən çıxıb xeyli kənara düşüb. Ələmdar daha vaxt itirmədən yüyürüb binanın qarşısına keçdi. Oradan küçəyə adlayıb özünü səkinin kənarında dayanmış «Volsvagen»ə çatdırdı. Artıq onun üçün açılmış qapıdan içəri atılıb İlqara:

- Tez ol, sür! - dedi.

İlqar, onsuz da, maşını işə salmışdı və onu yerindən tərpədib küçə boyu sürməyə başladı. Bir az getmişdi ki, Ələmdar ona yolun sağında olan xəlvət bir dalanı göstərdi:

- Dayan, hara sürürsən? - dedi. - Maşını sal bu dalana!

İlqar ona tabe olub maşını həmin dalana saldı. Bu vaxt elə etdi ki, maşının üzü küçəyə tərəf düşdü. Mühərriki söndürüb:

- Bəs biz o «Qaz-31»-in arxasınca getməyəcəyik? - deyə soruşdu.

- Sən gördün onu?

- Hə!

- Hara getdi?

- Elə bu istiqamətə.

- Deməli, Orxanın postu tərəfə? - Ələmdar fikirli halda soruşdu.

- Hə! - İlqar cavab verdi.

«Orxanın postu» deyəndə «Şamaxı yolu» adlanan yeri



downloaded from KitabYurdu.org

nəzərdə tuturdular. Şəhərin
çıxışlarından birini. Əgər Kobra özü üçün kirayələn- miş həyət evinə gedirdisə oradan keçib getməliydi. Bu zaman öz «Hunday»ını oralarda saxlayıb dayanmış Orxan onu görəcəkdi. Yox, əgər Kobra Əlifağa Sadıxovun bağına getmək istəsəydi, onda mütləq hərlənib-fırlanıb Bağırov körpüsü deyilən körpünün altından keçəcəkdi. Tələt isə bu saat öz «Mersedes»i ilə orada dayanmışdı.

- Yox! - Ələmdar başını buladı. - O tülkü bizi aldatmağa çalışacaq. Gərək gözləyək! - Sonra isə İlqara göstəriş verdi. - Sən keç mənim yerimə. Maşını özüm sürəcəm!

Yerlərini dəyişdilər və sükanın arxasına keçən Ələmdar əvvəlcə qoruyucu kəmərini bağladı. Sonra cibindən telefonunu çıxarıb əlində tutdu və beləcə gözləməyə başladılar.

Bir neçə dəqiqə sonra polis maşınlarının qulaqbatırıcı sirena səsləri eşidildi. Dörd-beş maşının qarşılarından keçib Fatiməgilin evinə tərəf getdiyini gördülər.

- Düş, maşının nömrələrini çıxart! - Ələmdar İlqara tapşırdı.

İlqar maşından düşüb nömrə nişanlarını açdı. Onları yük yerinə atıb, yenidən maşına oturdu. Onların dayanmış olduqları dalan qaranlıq idi. Buraya küçə fənərlərinin işığı düşmürdü. Hər ikisi sakit oturmuşdu və heç nə danışmırdılar. Amma hər ikisi bir qədər həyəcanlı idi. İlqar görəcəkləri işin qeyri-adi olacağını duyub, lakin mahiyyətindən xəbərdar olmadığı üçün həyəcan keçirirdi. Ələmdar isə çoxdan gözlədiyi intiqam anının çatdığını hesab
edirdi və buna görə də ovunun iyini hiss etmiş leopard kimi



downloaded from KitabYurdu.org

başını sağa-sola döndərirdi.

Bir dəqiqə də ötdü və telefon səsləndi. Bu Tələt idi.

- Qədeş, - dedi. - «Qaz-31» körpünün altından keçdi.

Ələmdar ona:

- Orxana de, getsin evə, sənsə maşını şərtləşdiyimiz yerə sürüb məni gözlə! - deyə göstəriş verib İlqara baxdı. - Gördün? Əclaf bizi azdırmaq istəyib.

Saata baxdı. İkinin yarısı idi. Gizli nömrəni yığıb polkovnik Baratova zəng vurdu. Baratov yatıbmış. Telefonu bir qədər gec götürdü və nəhayət, Ələmdar onun yuxulu səsini eşitdi:

- Sənsən Məlikov? Gecənin bu vaxtında xeyir ola?

Ələmdar qısaca olaraq:

- Kobra Əlifağa Sadıxovun dənizkənarı malikanəsindədir, - dedi.

- Kobra? - polkovnik heyrətləndi. - Sən özün haradasan?

- Mən hələlik şəhərdəyəm.

- Qulaq as, Leopard, sənə əmr edirəm... Ələmdar birdən-birə telefonunu qapayıb onun sözünü ağzında qoydu. Sonra isə telefonu söndürüb yanına tulladı. O bu əmri, sadəcə olaraq, eşitmək istəmirdi. Eşitsəydi, gərək icra edəydi. Polkovnik ya deyəcəkdi ora getmə, ya da deyəcəkdi ki, Kobra bizə sağ-salamat lazımdır...

Ələmdar isə... İlqar onu heç vaxt belə şən vəziyyətdə görməmişdi. Ucadan gülərək:

- Hə, İlqar! - dedi. - Kəmərini bağla, uçuruq!

O, əslində, bunu zarafatla desə də, İlqar cəld



downloaded from KitabYurdu.org

qoruyucu kəməri bağladı. Ələmdar:

- Ya Allah! - deyib maşını işə saldı və «Volsvagen» qəfil təkanla küçəyə sıçrayıb, boş asfalt yolda yüksək sürətlə irəliləməyə başladı.

Doxsan beşinci fəsil

- Alo!.. Alo!.. Leopard!..

Polkovnik Baratov əlindəki telefonu hirslə stulun üstünə atıb, yatağından qalxdı. Tələsik geyinib, yenidən telefonu əlinə götürdü və zəng vurub sürücüsünü evə çağırdı. Sonra da, vaxt itirmədən, bu gecə şöbədə növbətçi qalmış müavini mayor Cavadova zəng vurub əmrlərini verdi:

- Mayor, elə bu dəqiqə Leopard zəng vurmuşdu. Kobra Əlifağa Sadıxovun dənizkənarı malikanəsinə gedib. Dərhal, şərtləşdiyimiz hərbi hissəni ayağa qaldırın! Bütün əsgərləri!

Yubanmadan yola düşüb Sadıxovun malikanəsini hər tərəfdən mühasirəyə alsınlar. Kobra nəyin bahasına olursa olsun, sağ-salamat ələ keçirilməlidir! Bizim vertolyotu da hazırlayıb, məni gözləyin!

- Oldu, cənab polkovnik! - deyib telefonda tapşırılan hərbi hissənin nömrəsini yığan Cavadov əməlli-başlı heyrətlənmişdi... Necə yəni, Leopard zəng vurub?.. Belə çıxır ki, Leopard Kobranın axtarışından əl çəkməyibmiş?..

Polkovnik Baratov Milli Təhlükəsizlik Orqanlarına da məlumat verəcəkdi. Amma beş-on dəqiqə sonra. İstəyirdi ki, Kobranı başqaları yox, məhz onun şöbəsi ələ keçirsin. İndi isə, bir də Leoparda zəng vurdu. Yox, telefon bağlanmışdı. Baratov, artıq, məsələnin nə yerdə olduğunu anlamağa başlayırdı...



downloaded from KitabYurdu.org

Əgər Leopard polkovnik Baratovun onu bu əməliyyatdan kənarlaşdırmasına baxmayaraq, Kobranın axtarışını təkbaşına davam etdirmişdisə, deməli, onun intiqam arzusu çox güclü imiş. Belə olan halda, qətiyyən imkan vermək olmazdı ki, o, malikanəyə hərbi hissənin əsgərlərindən tez çatsın.

Bu zaman, artıq, Ələmdarın sürdüyü «Volsvagen» yüksək sürətlə Bağırov körpüsünün altından keçirdi...

Hərbi hissədə isə həyəcan siqnalı verib əsgərləri ayağa qaldırmışdılar. Tələsik geyinib silahlanan əsgərlər, hərbi hissənin həyətində, sıra ilə düzülmüş üstü brezent örtüklü iri maşınlara doluşurdular...

Sürücüsünü gözləyən Baratov, qəti qərara gəlib, bir də mayor Cavadova zəng vurdu:

- Cavadov, mənim fikrimcə, Leopard bu saat malikanəyə gedir. Şəhərdən çıxmaq üzrə olar. İndi, yəqin ki, intiqam həvəsi onun ağlını başından alıb. Təcili olaraq, onun yolu üstündə olan hərbi və yol polisi postlarına xəbər ver. Qoy onu tutub saxlasınlar. Amma elə et ki, onun əslində kim olduğunu və məqsədini bilən olmasın!

Bu vaxta qədər həmişə Leopardın əleyhinə olan, onu kobud, məsuliyyətsiz, bəzən, hətta qəddar adlandıran Cavadov, indi, nədənsə, başqa cür münasibət göstərdi:

- Niyə, cənab polkovnik? Gedirsə, buraxaq getsin! Bizdə bir yaxşı məsəl var, deyir, dinsizin öhdəsindən imansız gələr...

- Sən nə danışırsan Cavadov? - Polkovnik hirsləndi. - Mən bilirəm, onun intiqamı çox amansız olacaq! Çox! Sonra başımız ağrıya bilər! Bir də ki, Kobranı sağ-salamat ələ keçirməliyik. Sən əmrimi yerinə yetir!



downloaded from KitabYurdu.org

- Oldu, cənab polkovnik!

Mayor Cavadov müvafiq ərazinin yol polisi şöbəsinə zəng vurub, məlumatı onlara özünün məsləhət bildiyi kimi çatdırdı. Bircə dəqiqə keçməmiş şəhərin çıxışından tutmuş, kəndlərə qədər bütün yol polisi postlarına belə bir əmr göndərildi:

- Diqqət! Diqqət! Diqqət! Son dərəcə təhlükəli cani şəhərdən çıxıb sizin postlar istiqamətində gəlir. O, böyük ehtimalla, tünd yaşıl rəngli «Volvo S70» markalı avtomobildədir. Amma başqa maşında da ola bilər. Onu təcili olaraq, tutub saxlamaq lazımdır!

Bu vaxt şəhərin çıxışına doğru sürətlə şütüyən «Volsvagen»in sükanı arxasında oturmuş Ələmdarın bütün bunlardan xəbəri yox idi. O bu əməliyyatın planını düşünərkən, çox şeyi nəzərə almışdı. Amma onun əleyhinə yönələn bu boyda tədbirlərin görüləcəyini ağlına gətirməmişdi. Əgər ağlına gətirsəydi, Kobranın yeri barədə polkovnik Baratova belə tez məlumat verməzdi.

Yol polislərinə verilən əmr isə bir daha təkrar olunurdu:

- Baş verə biləcək qanlı cinayətin qarşısını almaq üçün yolları kəsib bütün şübhəli maşınları saxlayın! Təhlükəli cani kəndlərə çatmamış yaxalanmalıdır!

Kobra artıq, həmin yolları keçib getmiş, kəndlərin də bir neçəsini arxada qoymuşdu. Sadıxovun villasına çatmağına o qədər də çox qalmırdı. Görülən bütün bu ciddi tədbirlər isə yalnız Ələmdarı tutub saxlamaq üçün idi. Hazırda «təhlükəli cani» o hesab olunurdu...

Şəhər çıxışından bir qədər aralı, üç dənə radiolaşdırılmış yol polisi maşını yolu kəsib, yalnız bir



downloaded from KitabYurdu.org

maşının keçə biləcəyi dar yol qoymuşdular. Şəhər tərəfdən bir maşının qeyri-adi sürətlə gəldiyini görən yol polisi əməkdaşlarından biri həmin dar yola çıxıb, əlindəki çəhrayı rəngli çubuğu qaldıraraq saxlamaq işarəsi verdi. Amma yaxınlaşan maşının öz sürətini, qətiyyən, azaltmadığını görüb, ən son anda canını xilas etmək üçün kənara sıçradı. Elə həmin andaca, nömrə nişanları çıxarılmış «Volsvagen» onun yanından külək kimi ötüb keçdi. Bunu görən əməkdaşlar maşınlara oturub onun arxasınca düşdülər.

Bu vaxt bütün şəxsi heyəti ayağa qaldırılmış hərbi hissənin iri darvazası təzəcə açılmışdı. Kuzası silahlı əsgərlərlə dolu olan altı hərbi maşın bir- birlərinin ardınca darvazadan çıxırdılar. Vəziyyət barədə məlumatlandırılan polkovnik Baratov bundan sonra zəng vurub Kobranın dənizkənarı malikanədə olması barədə lazımi orqanlara xəbər verdi. O özü bu saat maşınla şöbəyə gedirdi və Kobranın tutulması əməliyyatına şəxsən rəhbərlik etmək üçün vertolyotla Sadıxovun malikanəsinə uçmaq fikrindəydi.

Gecə vaxtı olduğu üçün yollarda yalnız tək-tək maşınlara rast gəlmək olurdu. Üç radiolaşdırılmış yol polisi maşınının qovub çatmağa çalışdığı «Volsvagen» geniş asfalt yolda ağlasığmaz sürətlə gedirdi. İlqar öz maşınını heç vaxt belə sürətlə
sürməmişdi. Narahat halda dönüb, sükandan bərk- bərk yapışan Ələmdarın üzünə baxdı və:

- Bir az ehtiyatlı ol! - dedi. - Çox sürətli gedirik...

Ələmdar üzdən sakit görünürdü. Bilirdi ki, getdiyi bu yolda vaxt itkisinə yol vermək, gecikmək olmaz! Bilirdi ki,


downloaded from KitabYurdu.org

Kobra Sadıxovun malikanəsində çox qalmayacaq və uzağı bir saatdan sonra oranı tərk edəcək. Bilirdi ki, Baratovun adamları bağa ondan qabaq çatsa, o daha Kobradan öz intiqamını ala bilməyəcək. Ona görə də bütün diqqətini yola vermişdi və başqa heç nə barədə düşünmürdü.

Onu qovan yol polisi maşınları bir qədər arxada qalmışdılar. Onlar bir-birlərini ötüb keçə-keçə inadla irəliləyir, nəyin bahasına olursa olsun, «Volsvagen»ə çatmağa çalışırdılar. Birdən İlqar həyəcanla:

- Deyəsən, qabaqda yolu kəsiblər! - dedi.

Doğrudan da, qabaq tərəfdə, uzaqdan polis maşınının alışıb- yanan göy işığı görünürdü. Az keçmiş, Ələmdar «Kamaz» markalı bir yük maşınının yola perpendikulyar istiqamətdə durduğunu gördü. Bir yol polisi avtomobili də onun yanında dayanmışdı. «Kamaz» yolun hər iki tərəfində azacıq yer saxlamışdı ki, buradan da keçib getmək mümkün deyildi. Yol təzəcə kəsilmişdi və hələ burada ilişib dayanan kənar maşın görünmürdü. Yük maşınının sürücüsü sükanın arxasında oturmuşdu.

Ələmdar bircə anın içində düşünüb, nə edəcəyini qərarlaşdırdı. İlqara:

- Sükanın arxasına keç! - deyib, maşını lap Kamazın burnunun dibində saxladı. Bundan sonrakı hadisələr elə ani və gözlənilməz baş verdi ki, polis maşınının yanında dayanmış iki yol polisi əməkdaşı özlərini itirib nə edəcəklərini bilmədilər. Cəld hərəkətlə maşından sıçrayıb çıxan Ələmdar irəli atılıb yük maşınının qapısını açdı. Sürücünün qolundan yapışıb onu yerə salaraq, özü sükanın arxasında oturdu. Vaxt itirmədən maşını azacıq arxaya verdi və həmin anda «Volsvagen»in



downloaded from KitabYurdu.org

burun tərəfdən sivrişib keçməyinə imkan yaratdı. Sonra isə eyni cəld hərəkətlə yük maşınını öz yerinə qaytardı və bu zaman qarşısından keçmək istəyən yol polisi maşınının qabaq sağ tərəfini vurub əzdi. Bu maşın onu qovan üç maşından biri idi ki, özünü çatdırıb Ələmdarın «Volsvagen» üçün açdığı yoldan keçmək istəyirdi. Beləliklə, yolu yenidən bağlamış olan Ələmdar maşının açarını da özüylə götürüb, o biri
tərəfdən yerə atıldı və qaçıb onu gözləyən «Volsvagen»ə mindi. Maşın yerindən tərpənən kimi arxadan bir neçə güllə atdılar. Amma bunun bir əhəmiyyəti olmadı və onlar «Kamaz»ı qarşılarından çəkib yolu açmağa çalışan yol polisi əməkdaşlarından uzaqlaşdılar.

Maşını indi İlqar sürürdü. Yanında oturan Ələmdar isə narahat halda yola baxır, hərdən də onu tələsdirirdi:

- Sürəti artır, İlqar! Sürəti artır! Bu gedişlə gecikə bilərəm.

İlqar artıq əmin idi ki, onun şefi dövlət üçün işləyən gizli agentdir. Onu da bilirdi ki, bu saat bir cinayətkarın, ya təxribatçının izi ilə gedirlər. Amma bir şeyi anlaya bilmirdi ki, niyə onların yolunu kəsib saxlamaq istəyirlər? Normadan artıq sürətlə
getdikləri üçünmü? Əgər belədirsə, niyə Ələmdar düşüb onlara kim olduğunu və vacib əməliyyat keçirdiyini bildirmir? Bütün bunlar İlqar üçün qaranlıq olsa da, bilirdi ki, indi sual vermək vaxtı deyil. Əsas məsələ o idi ki, Ələmdar dəniz sahilində yerləşən villaya, imkan olduğu qədər tez çatmaq istəyirdi və bu işdə ona kömək etmək lazım idi.

Onları arxadan qovanlar, hələ ki, görünmürdülər. Artıq


downloaded from KitabYurdu.org

birinci kəndə çatmağa lap az qalmışdı. Bu kəndi keçib, daha sonra gələn iki kəndi də adlasaydılar, Əlifağa Sadıxovun malikanəsinə yetişə biləcəkdilər.

Qabaqda, kəndin girişində polis maşınlarının alışıb-yanan göy-qırmızı rəngli işıqları elə geniş sahəni işıqlandırmışdı ki, gecənin qaranlığında havanı yaran bu işıqlar qəribə bir mənzərə
yaratmışdı. Bu mənzərənin tutduğu sahə orada yığışan polis maşınlarının çoxluğunu göstərirdi. Kəndə girən yol tamamilə kəsilmişdi...

Bunu ikisi də eyni vaxtda gördü və Ələmdar:

- Saxla! - deyə əmr verdi.

İlqar maşının sürətini azaldıb saxladı. Ələmdar yerindəcə oturub, nə edəcəyini düşünürdü. Vaxt çox az idi. Bir azdan arxadan gələn maşınlar da gəlib yetişəcəkdilər. Onlar indi, yəqin ki, yük maşınını öz yollarından kənara çəkə bilmişdilər.

Qarşılarındakı kəndin çox hissəsi yolun solunda yerləşirdi. Qarşıdakı postu keçmək üçün düşüb kəndin başına piyada dolanmaq həddindən artıq çox vaxt aparardı. Sağ tərəfdə isə evlər az idi, amma ətraf ərazi bataqlıqlarla, dərə-təpə ilə dolu idi. Özünü birtəhər kəndin o biri tərəfində, yolun kənarında
yerləşən təkər təmiri emalatxanasına çatdıra bilsəydi, yaxşı olardı...

Daha, çox fikirləşmək istəməyib İlqara tərəf döndü:

- Qabağa getməyinə dəyməz. Bizi yüz faiz saxlayacaqlar. Mən burada düşürəm. Sən cəld geri dön. Bir az gedən kimi sağa ayrılan torpaq yol görəcəksən. İstəsən, oraya girib, gözdən yayına bilərsən.



downloaded from KitabYurdu.org

- Sən burada düşüb neyləyəcəksən? - İlqar etiraz etdi. - Gecənin bu vaxtında heç kəs maşın da saxlamayacaq sənin üçün...

- Sən məndən ötrü narahat olma! - Ələmdar bunu deyib maşından düşdü. - Nə deyirəm, onu elə! Get! Bəlkə də bizi görüblər. Şübhələnsələr, bu saat buraya gələcəklər.

İlqar maşını geriyə döndərən kimi, Ələmdar ətrafına boylanıb yoldan çıxdı və sağ tərəfdəki dərəyə düşdü. O indi böyük bir sahədə qövs cızaraq, hərlənib kəndin o biri başında yenidən asfalta çıxmalıydı.

Əvvəl addımlarını yeyinlətdi. Sonra isə sürətini artırıb, bütün gücü ilə qaçmağa başladı.

Ətraf qaranlıq idi. Keçəcəyi yerlərdə qarşısını tez-tez iri gölməçələr, qamışlıqla əhatələnmiş bataqlıqlar, bəzən də daş hasarlar kəsirdi. Amma Ələmdar bütün bunlara baxmayaraq, dayanıb nəfəsini dərmədən qaçırdı.

Bir yerdə hər iki ayağı dizə qədər bataqlığa girdi. Amma yaxşı ki, cəld tərpənib özünü xilas edə bildi. Yolunu dəyişib, vaxt itirmədən irəliyə doğru qaçmağa başladı. İndi onun beynində tək bircə fikir var idi. Kobra aradan çıxmamış ona çatmaq! Gözlərinin qabağına onun murdar sifəti gəlirdi. Kobra ona iyrənc bir istehza ilə baxıb:

- Sənin cərrahiyyə əməliyyatına ehtiyacın var, Alik! - deyirdi.

- Qoy olsun, Artur! Qoy olsun! Amma sənin heç bir əməliyyata ehtiyacın olmayacaq! Qoy hamı yolumu kəsib sənin o murdar vücudunu xilas etməyə çalışsın! Alınmayacaq bu, atamın qəbrinə and olsun, alınmayacaq! Səni daha heç kəs xilas edə bilməyəcək əlimdən!



downloaded from KitabYurdu.org

Onun yerində kim olsaydı, yarı yoldaca yıxılıb qalardı. Çətin idi, çox çətin idi fasilə vermədən, dayanıb dincəlmədən hər addımda qarşıya çıxan maneələri aşmaq, kolları, qamışları yara-yara sulu, palçıqlı yerlərdə qaçmaq. Amma o dayanmağı ağlına
belə gətirmədən qaçırdı. Kobranı əldən çıxarsaydı, bunu heç vaxt bağışlamazdı özünə.

Hərdən hirslənib Baratovun da, Cavadovun da qarasına söyürdü... Onu belə artıq əziyyətlərə saldıqları üçün... O hər şeyi başa düşmüşdü və anlamışdı ki, onun Kobra ilə üzləşməsini istəmirlər rəisləri. Peşman olmuşdu Kobranın yerini onlara bildirməyinə.

Yorulmuşdu... Yaman yorulmuşdu... Amma dayanıb dincəlməyi ağlına gətirmirdi yenə. Mahirənin özünü vurarkən ona son dəfə baxan lal baxışlarını xatırlamışdı bu dəfə... İndi ona əlavə güc verirdi bu baxışlar. «AI intiqamımı o ilandan!» - deyirdi Mahirə.

Kobra Sadıxovun malikanəsindən çıxsaydı, daha tapmaq olmayacaqdı onu. Bakıdakı bütün izlərini itirib birdəfəlik yoxa çıxacaqdı. Tələsmək
lazım idi, tələsmək! Hələ bu asfalt yola çıxandan sonra iki kənd var idi qarşıda... Pencəyinin ona mane olduğunu görüb, əynindən çıxararaq tulladı və əvvəlkindən daha inadla qaçmağa başladı.

Özü-özüylə danışırmış kimi:

- Kəsin qabağımı, kəsin! - deyirdi. - Onu da sağ-salamat, rahat maşına mindirib aparın məhkəməyə. Sonra da havadarları dünyanın hər yerindən qalxıb sübut eləsinlər ki, o cinayətkar deyil, mələkdir! Mələk! O, heç nə eləməyib. Nə eləmişiksə, biz eləmişik. Mahirəni də o


downloaded from KitabYurdu.org

vurmadı ki!.. Mahirə özü vurdu özünü... İndi necə sübut edim ki, niyə qıydı özünə o?.. Onun on üç ildir ürəyimi göynədən o gözlərində yazılmışdı hər şey... Ancaq hanı indi o gözlər? Çıxartdılar onları... Həmin bu Kobra çıxartdı onun gözlərini!.. Dayan Kobra, dayan! Ananı mələr qoyacam sənin!

Qarşıdan keçən tək-tək maşınların işığını görüb sürətini bir az da artırdı. Asfalt yola çatırdı artıq... O təkər təmiri emalatxanası da elə buralarda olmalı idi. Yaxınlaşdıqca, diqqətini toplayıb ətrafa nəzər salırdı. Nəhayət, axtardığını gördü. Qara rəngli bir «Mersedes» avtomobili yolun kənarında dayanmışdı.

Son gücünü toplayıb, sürətlə maşına tərəf qaçdı. Arxa qapını açıb özünü maşının içinə saldı və təngnəfəs halda:

- Sür, Tələt, nə qədər bacarırsan, bərk sür! - dedi.

Doxsan altıncı fəsil

Əlifağa Sadıxov yata bilməyəcəyini anlayaraq, qalxıb çarpayının üstündə oturdu. Yuxusu tamam qaçmışdı. Dönüb Şərafətə baxdı. Yatağında arxası üstə uzanmış qadın asta səslə xoruldayırdı. Ağzı açıq qalmışdı. Qalın dodaqlarına yaxdığı rəng qarışıb dişlərini də bulamışdı. Gözlərinin altında və ağzının büküklərində əmələ gəlmiş əcaib qırışlar indi, nədənsə, daha kəskin nəzərə çarpırdı. İlk dəfə idi ki, arvadının sifəti ona xoş gəlmirdi. Daha baxmaq istəməyib, üzünü çevirdi. Durub, geyinərək həyətə çıxdı. Üçmərtəbəli villanın divarına bərkidilmiş projektor həyətə gur işıq saçırdı.

Bir siqaret yandırıb, həyətdə gəzişməyə başladı. Yaman narahat idi. Bu gecə Artur üzərinə düşən son işi yerinə yetirib qurtarmalı idi. Gərək, indiyə qədər zəng vurub


downloaded from KitabYurdu.org

yeznəsinə bir şey bildirəydi. Amma ondan heç bir səs-soraq yox idi. Telefonunu da bağlamışdı. Görəsən, başına bir şey gəlməyib ki?.. Gəlməz, inşallah! Nə olacaq ki, ona? Şeytandan çox hiyləgərdir. Dəyirmanın boğazından ölü salsan, diri çıxar. Hər şey yaxşı qurtarsa, sabah onunla, haradasa, gizli bir yerdə axırıncı dəfə görüşəcəkdilər. Əlifağa ona boyun olduğu pulları verəcəkdi və Artur çıxıb gedəcəkdi Azərbaycandan. Sabah, iyunun 3- ü... Necə gedəcəyi, sərhədi haradan keçəcəyi barədə yeznəsinə də bir söz deməmişdi bu tülkü. Amma eybi yoxdur, təki sağ-salamat çıxıb getsin buradan...

Bu gecə Dördbarmaq Ağaşamilin sağ qalan sonuncu iki övladı - Səxavətlə Fatimə öldürülməli idi. Bununla da Əlifağa sevimli oğlunu öldürmüş o qansız əclafdan öz intiqamını artıqlamasıyla almış olacaqdı. Bir övlada görə altı övlad!..

Əgər ona dəyən axırıncı zərbələrdən Ağaşamilin ürəyi partlamasa, sabah xəstəxanaya - onun görüşünə getməliydi Sadıxov. O qoca qurdun sifətinə doyunca baxıb intiqam həzzi almaq istəyirdi. Əgər o vaxta qədər ürəyi partlamasa... Onda, bəlkə hər şeyi danışacaqdı ona! Gözlərinin içinə baxa- baxa özü partladacaqdı ürəyini! Amma əgər buna da dözsə... Yox, bu heç mümkün deyildi ki, iki dəfə ürək infarktı keçirən adam yenə iki övladını itirsin, üstəlik övladlarının qatili başının üstündə dayanıb öz intiqamından həzz alsın və o da buna dözsün...
Mümkün ola bilən şey deyildi bu! Əlifağa necə düşünmüşdüsə, elə də olacaqdı!

Əslində, bütün bu cinayətlərin baş planını Artur özü düşünüb hazırlamışdı. Sadıxov, yalnız, qaynına böyük


downloaded from KitabYurdu.org

məbləğdə pul vəd edərək, ona Ağaşamilin altı övladını qətlə yetirməyi tapşırmışdı. Həm də bu qətllər elə törədilməli idi ki, heç kim, heç vaxt Əlifağa Sadıxovdan şübhələnməsin.

Əlifağa, əvvəlcə, Salehdən dəhşətli intiqam almağı düşünmüşdü. Yavaş-yavaş zəlil hala salıb məhv edəcəkdi onun bütün ailəsini... Ancaq o polis kapitanı Əlifağanı vaxtında duyuq saldı və o da Nəcməddinin vasitəsilə oğlunun əsl qatilinin kim olduğunu öyrəndi...

Yazıq Nəcməddin... Öz yersiz şübhələrinin güdazına getdi bədbəxt oğlu. Əlifağa Sadıxov istəməzdi ki, arvadı ilə bağlı o hadisəni bilən bir adam sağ qalsın. Elə ona görə də aradan götüzdürdü Nəcməddini. Ancaq, heyif!.. Bir az tələsməsəydi, Şərafətin günahsızlığı üzə çıxacaq və o da Nəcməddinə hər şeyi başa salacaqdı. Həm də möhkəm danlayacaqdı onu. Deyəcəkdi ki, sən pəncərədən ani olaraq gördüyünlə kifayətlənməyib, qapını açaraq içəri girməliydin. Əgər belə etsəydin, hər şey aydın olar və sən də bilmədən öz şefinin arvadına qara yaxmazdın...

Amma Saleh Şərafətə bircə dəfə əl atmağının əvəzini yaxşıca ödədi. Özü həbsxanaya girdi, arvadı da... Əlifağa məmnun halda gülümsədi. Qoy bilsin ki, Əlifağa Sadıxova sataşmaq nə deməkdir! Məltəmi xatırladı. Düzdür, o öz millətindən olan qadınların intim bacarıqlarını heç vaxt bəyənməmişdi. Amma bu qadından razı qalmışdı. Xüsusilə, sonradan, onunla olduğu saatları xatırlayanda daha dərindən başa düşmüşdü bunu. Başa düşmüşdü ki, bu qadında nəsə var. Nəsə var ki, adamı özünə cəlb edir.


downloaded from KitabYurdu.org

Birinci dəfə onu məcburən zorlamışdı Əlifağa. Qadın canında olan bütün gücünü işə salıb, bu əlaqədən qaçmaq, bu əlaqənin baş tutmasına mane olmaq istəyirdi. Lap yəqin, ona görə ki, bunu pis bir şey, qanunsuz bir şey, gələcəyi biabırçılıqla qurtara bilən bir şey hesab edirdi. Amma belə vəziyyətə düşən qadınların təbii halından fərqli olaraq, onun bədəni hərarətdən alışıb yanırdı. Hətta o vaxt, tam məğlub olandan sonra, biləərəkdən, ya bilməyərəkdən elə bir incə hərəkət etdi ki, bunu sonradan xatırlayan Əlifağa bu qadının nə qədər sirli
duyğulara malik olduğunu başa düşdü. Elə, əslində, onu ilk dəfə bağda görəndə də, onun utancaq, çəkingən, həyalı olmaqla bərabər güclü bir hissiyyata malik olduğunu duymuşdu... Düşündü ki, gərək bir imkan tapıb, onunla yenə görüşsün. Yoxsa Nəcməddindən sonra kim bilir, nə cür adamlara qismət olacaq?.. Kimləri bəxtəvər edəcək öz hərarətli, ətirli bədəniylə, daxilində gizlətdiyi sirli şıltaqlıqlarıyla...

Hələ, bircə bu Arturu yola sala bilsəydi Bakıdan!.. Ondan sonra ürəyi tamam rahat olardı. Bu gədənin başına bir iş gəlsəydi, tutulub eləsəydi Şərafətin üzünə baxa bilməzdi.

Həyətdə heç kəs yox idi. Həmin gənc fəhlələrlə bağlı o hadisədən sonra gecə gözətçisi-filan da saxlamırdı. İri bir it alıb gətirmişdi həyəti qorumağa.
Xaricdən gətirilmiş bu qüvvətli it xüsusi olaraq öyrədilmişdi. O, səs salmadan həyətdə gəzib dolanır, hasardan həyətə adlamaq istəyən hər hansı adamı bir göz qırpımında yaxalaya bilirdi. Həmin gənc fəhlələri isə, sadəcə olaraq, qovduğunu demişdi Şərafətə. Onları da,



downloaded from KitabYurdu.org

Nəcməddini də... Nəcməddinin işdən qovulmasını eşidən Şərafət bundan sevinmiş, fəhlələr barədə isə narazı qalsa da, bu narazılığını üzə vura bilməmişdi.

Villanın qarşı tərəfində, alaqaranlıq həyətdə gəzişən Sadıxov küçə tərəfdən gələn maşın səsi eşitdi. Bayaqdan villanın yan tərəfində dayanıb sahibinə göz qoyan it birdən yerindən götürülüb darvazaya tərəf qaçdı. Kimsə, bu vaxt hasardan aşıb həyətə düşdü. Əlifağa tapançasını çıxarmaq üçün əlini böyrünə aparanda, onun içəridə, pencəyin cibində qaldığını xatırladı. Elə həmin anda da dalbadal atılan üç güllə səsi eşidildi. İt zingildəyib yerə sərildi və ev sahibi gələn adamın qaynı Artur olduğunu gördü...

Kobra itin yerə sərilmiş ölüsünə ikrahla baxıb, Əlifağaya tərəf gəldi:

- Bunu nə vaxt gətirmisən buraya? - deyə acıqlı səslə soruşdu.

Sadıxov onun sualına cavab vermədi:

- Hələ bir sən de görüm, buraya niyə gəlmisən? İti niyə vurdun?

- Yoxsa sənin itin parçalamalı idi məni? - tapançasını belinə taxan Kobra kinayə ilə dedi.

- Niyə gəldin buraya? Nə baş verib? - Əlifağa sualını təkrar etdi.

O, Bakıya gələndən sonra bu həyətdə üç dəfə olmuşdu. Bacısı ilə görüşmək üçün gizli gəlib, gizli də getmişdi. Əlifağa iləsə, əsasən, telefonla, tez-tez dəyişdikləri nömrələrlə əlaqə saxlamışdı. Bu gecə isə buraya gəlməməli idi. Yəqin, nəsə fövqəladə bir şey baş vermişdi.

- İfşa olundum! - Kobra yeznəsinə nifrətlə baxıb, fısıldadı. - Özü də sənin ucbatından! Sənə dedim ki, birinci



downloaded from KitabYurdu.org

onu aradan götürməsəm, rahat gəzə bilməyəcəm Bakıda. Sən qoymadın!

- Kimi? - Əlifağa çaşbaş qalmışdı.

- Necə yəni, kimi? Sənə dediyim o əclafı! Ələmdarı!

- Nə olub axı?!

- Onunla üz-üzə gəldim! - Kobra acıqlı səslə dilləndi. - Özü də bilirsən, harada? Ağaşamilin mənzilində! O mənim izimə düşübmüş. Tanıdı məni! Belə çıxır ki, Bakıya gəlməyimdən xəbərdar imiş.

- Necə?! - Əlifağa başını tutdu. - Bu çox pis oldu! Çox!

Onlar danışa-danışa villanın arxasına keçib, kiçik evin qarşısına qoyulmuş stolun yanına gəldilər.

- Suzanna yatıb? - Kobra bir qədər sakitləşmiş halda soruşdu.

- Hə... - yeznəsi cavab verdi və sonra öz- özünə danışırmış kimi astadan dedi. - Deməli, bütün planlar pozuldu...

- Nə pozuldu? - Kobra səsini qaldırdı. - Mən Səxavəti də öldürdüm. Bacısını da vuracaqdım, o əclaf mane oldu. Mənim pullarımı ver, mən çıxıb gedirəm. Özü də cəld ol, mənim dalımca buraya gələ bilərlər!

Xalatını tələm-tələsik əyninə geyinən Şərafət səsə həyətə çıxdı. Təəccüblə qardaşına, sonra isə ərinə baxıb:

- Nə olub, nə səs-küy salmısınız? - deyə soruşdu.

- Heç! - Kobra cavab verdi. - Səninlə görüşməyə gəlmişəm. Rafiqin intiqamını, necə lazımdır, aldım. Sabah çıxıb gedirəm buradan. - dönüb Əlifağaya baxdı. - Cəld ol görüm, pulları gətir! Mən burda çox qala bilmərəm!

- Səni tanıyıblar? - Şərafət həyəcanla soruşdu.

- Hə! - Kobra hirslə yerə tüpürdü. - Həm də, ərinin


downloaded from KitabYurdu.org

ucbatından. Yoxsa mən işimi elə tutmamışdım ki, tanınım.

O, Bakıya gələndə üzü təmiz qırxılmışdı. Qadın görkəmində gəldiyi üçün. Özünü Qusardan gəlmiş Səlahəddin adı ilə təqdim edəndən isə uzun, çənəsinə sallanan bığ saxlamışdı.

- Sən o qaldığın evə getmə! - Şərafət məsləhət gördü. - Bu gecə burada qal!

- Harada qalacağımı özüm yaxşı bilirəm. Mənə ağıl öyrətməyin. Mən, onsuz da, iki gecədir o evdən çıxmışam.

- Bəs harada yatırdın? - Əlifağa soruşdu.

- Harada oldu! Maşında. Səni gözləyirəm. Pulları gətir!

Ev sahibi fikirli halda içəri keçib, bir azdan əlində kiçik bir çanta ilə qayıtdı. Çantanı stolun üstünə qoyub:

- Burada əlli mindir. - dedi. - ABŞ dolları.

- Niyə belə az? - Kobra heyrətləndi.

- Qızı öldürməmisən axı?!

Kobra əlini irəli uzadıb, az qaldı yeznəsinin gözünə soxsun:

- Bəs uşaq? Bəs o iki fəhlə? Nəcməddin? O birilər? Mən buraya gələndən gör nə qədər adam öldürmüşəm sənin sözünlə!

- Əvvəla, hamısını mənim sözümlə öldürməmisən, - Əlifağa əsəbiləşdi. - Bəzisi öz qurduğun planın güdazına gedib, bəzisinə də pul danışmamışıq. O fəhlələri də mən Nəcməddinə tapşırmışdım, sənə yox! Qaldı uşaq, onu da öldürməyi mən tapşırmamışdım sənə, özün öldürmüsən!

Şərafət, bu zaman, Əlifağaya açıq nifrətlə baxırdı. Fəhlələri öldürtdüyünə görə. Əri ona demişdi ki, guya o gədələri işdən qovub... Amma Əlifağa


downloaded from KitabYurdu.org

qadının nifrətli baxışlarını görmürdü. Görən halda da deyildi...

- Yaxşı, Xanəlinin oğlunu çıxıram! - Kobra keçib stolun arxasında oturdu. - Onun sənə dəxli yoxdur. Ondan öz intiqamımı almışam.

- Neyləmişdi sənə o uşaq? - Sadıxov heyrətləndi.

Kobra iyrənc bir sifət aldı:

- Daha neyləyəcək? Mənə dağ çəkdi o köpək oğlu! O gecə Xanəli məni Qanturalın bacısını öldürməyə göndərəndə, yaxşı bir planım var idi o qadın barədə. Öldürəndən sonra olacaqdım onunla! Yəqin eşitməmiş olmazsan, canı çıxandan on beş- iyirmi dəqiqə keçənədək qadın bədəni çox güclü ləzzət verir adama. Mən bunu iki dəfə yoxlamışam, indiyədək. Hə... Gedib gördüm, it balası qapını açıb,
buraxıb arvadı... Həmin ləzzəti bu gecə Xanəlinin öz bacısından almaq istəyirdim, ona da bu əclaf mane oldu... Ələmdar...

Bayaqdan qaynına nifrətqarışıq bir heyrətlə baxan Əlifağa daha dözmədi:

- Sən nə vicdansız, alçaq adam imişsən ə?!
Sən nə qansız adam imişsən!!! - stolun üstündəki çantanı ona tərəf itələdi. - Götür pulları, cəhənnəm ol burdan! Bir də səni gözüm görməsin!

Kobra yerindən qalxmadan Əlifağaya istehzalı bir nəzər saldı:

- Demək, vermirsən pulların qalanını?

- Sənə dedim ki, dur, rədd ol buradan! - Əlifağa çığırdı.
Kobra yenə də təmkinini pozmadı:

- Gördün, itini necə öldürdüm? Səni də eləcə


downloaded from KitabYurdu.org

öldürərəm! Gətir, pullarımı ver!

Şərafət özünü itirmiş halda gah ona-gah buna baxır, danışmağa söz tapmırdı. Ancaq elə eyni sözü təkrar edirdi:

- Bəsdir, sakitləşin görüm...

Kobra bacısına məhəl qoymayıb, əlini tapançasına apardı:

- Pulları gətir!

- Evimin içində mənə hədə-qorxu gəlirsən, küçük?!

Əlifağa bunu deyib, silahını götürmək üçün evin qapısına tərəf yeridi. Elə həmin anda da arxadan atılan atəş onu dayanmağa məcbur etdi. Kobra bir də tətiyi çəkdi. Lakin gülləsi qurtarmışdı...

Sadıxov geriyə dönüb, əlini Kobraya uzatdı. Gözləri elə dəhşətli şəkil almışdı ki, deyərdin, bu saat hədəqəsindən çıxıb töküləcək. Bir addım atıb səndirlədi və arxası üstə yerə sərildi. Ancaq hələ ölməmişdi. İndi əlini Şərafətə uzadıb, nəsə demək istəyirdi. Sanki kömək istəyirdi ondan...

- Neylədin sən?! - Şərafət qorxu və təlaş hissi ilə qardaşına baxdı.

- Qoy cəhənnəm olsun! - Kobra əlini yellədi. - Hər şeyi sənə qalacaq.

- Bəs bunu neyləyəcəyik?

Kobra bir az fikirləşib dilləndi:

- Deyərsən, Nəcməddin vurub qaçdı. Qoy sonra, nə qədər istəyirlər, axtarsınlar Nəcməddini. Mənim burada olduğumu heç vaxt boynuna alma. Başını ağrıdarlar...

Bu zaman Əlifağanın zarıltılı səsi eşidildi:

- Şə...ra...fətL. Su...

Şərafət yaxınlaşıb ona doğru əyildi:



downloaded from KitabYurdu.org

- Su da verərdim sənə, hələ yaranı da sarıyardım. Amma eləməyəcəm! Öl, it oğlu it! O yazıq fəhlələri niyə öldürtdün? Sənin eləyə bilmədiklərini eləyirdilər, ona görə?

- Sən... deməli... - Əlifağa danışa bilmirdi. Ancaq əli Şərafətə tərəf uzana qalmışdı.

- Nə «deməli», «deməli» salmısan? - Şərafət əlini belinə qoydu. Belə lap düz idi Nəcməddinin dedikləri! Nədi? Yoxsa sizin arvadlar kimi yolunda çürütməliydim özümü? Hə?! Kökünüz kəsilsin sizin!

Əlifağa gözlərini yumdu. Yeznəsini ölmüş zənn edən Kobra ayağa qalxıb onun çiyinlərindən yapışdı və sürüyüb evə saldı. Sonra yenə həyətə qayıdıb üzünü bacısına tutdu:

- Mən gedən kimi, zəng vurub polis çağırarsan. Deyərsən, Nəcməddin vurdu. İndisə keç evə, axtar gör nə pulu var, gətir mənim üçün. Mənə pul çox lazım olacaq.

Şərafət:

- Yaxşı, bu saat! - deyib, cəld evə girdi.

Kobra yenə stolun arxasında oturub pul yığılmış çantanı qarşısına çəkdi. Onu açıb, içindəki pullara nəzər yetirdi. O, Bakıya gələndən sonra bir-birinin ardınca törətdiyi qanlı cinayətləri, əslində, bu pullara görə etməmişdi. Onun burada öldürdüyü adamlar hamısı türk idi və istənilən bir türkün qanını tökmək Kobraya xüsusi bir həzz verirdi. Bu xəstəlik onun qanına hələ körpəliyindən ata-anası tərəfindən yeridilmişdi. Ağlı təzə-təzə kəsəndə görmüşdü ki, valideynləri həyətdə Əminə arvadla, digər azərbaycanlı qonşularla həddindən artıq mehriban dolanır, evdə, onların



downloaded from KitabYurdu.org

eşidə bilməyəcəyinə əmin olandan sonra isə türklərin qatı düşmən olmasından, onların kökünün kəsilməsinin vacibliyindən danışırdılar. Artur da bu xarakteri çox tez mənimsədi. Bir gün milçəköldürəni əlinə götürüb mətbəxdə milçəkləri qırmaqla məşğul olan uşaq valideynlərinin oturduğu otağa girib:

- Ana, düz on dənə türk öldürdüm! - deyəndə ata-anası bu sözə təəccüblənməklə yanaşı, eyni zamanda çox məmnun qaldılar.

Anası onun başını sığallayıb:

- Mənim qəhrəman balam! - dedi.

Hə!.. Pula görə öldürməmişdi Kobra bu adamları. Şərafət ona zəng vurub oğlunun öldürüldüyünü deyəndə, Bakıya gəlməyi qərara almışdı. Amma əliboş gəlmək də istəmədi bu düşmən şəhərinə. Həmin sarı rəngli çantanı hər cür zir-zibillə doldurub, ölkəyə lazım olan bir qrup adamı ləkələyib sıradan çıxartmağa çalışdı. Daha sonra, Əlifağa ona Ağaşamilin övladlarını qətlə yetirməyi tapşıranda bu iş, bu məşğuliyyət onun çox ürəyindən oldu. Əlavə olaraq, ona təklif olunan puldan da imtina etmədi. Yeznəsi kimi axmaqlar ona belə bir iş üçün pul təklif edirdisə, niyə də imtina etməliydi?..

Doxsan yeddinci fəsil

Ələmdar düşmənini duyuq salmamaq üçün maşını dənizkənarı malikanədən bir qədər aralı saxlatdırdı. O da Tələt də artıq buralarda bir neçə dəfə olmuşdular və kəndin sahilə yaxın olan bu hissəsinin bütün giriş-çıxışlarına yaxşı bələd idilər. Ələmdar maşından düşüb Tələtə:

- Sən buralarda görünmə! - dedi. - Sür get, şərtləşdiyimiz yerdə gözlə.


downloaded from KitabYurdu.org

Sonra tini burulub, qaranlıq bir küçəyə girdi. Bir qədər gedib iri darvazaya yaxınlaşanda qara rəngli «Qaz-31»in burada dayandığını görüb sevindi. Deməli, Kobra hələ içəridə idi. Yüyürüb bir göz qırpımında hasardan aşaraq həyətə düşdü. Burada
yerə sərilmiş itin ölüsünə bir anlıq tamaşa edib tapançasını belindən çıxartdı. Cəld addımlarla irəli gedib, villanın arxasına keçdi və silahını stulda oturub pullarını saymaqla məşğul olan Kobraya uzatdı.

Sıçrayıb ayağa qalxmış Kobra gözlərini sürətlə ətrafa dolandırıb, ani olaraq qaçmağın, xilas olmağın, müqavimət göstərməyin mümkün ola biləcək bütün variantlarını araşdırdı. Amma canını xilas edə bilmək üçün heç bir yol görmədi. Qarşısında dayanıb silahını ona tuşlamış bu adamın gücünə də, cəsarətinə də yaxşı bələd idi. Amansızlığını da bilirdi onun və bu saat gözlərində oxuduğu nifrət onun güzəştə getmək fikrində olmadığını bir daha anladırdı Kobraya. Leopard istənilən anda tətiyi çəkib onu öldürə bilərdi. Kobra
isə ölmək istəmirdi. Ölmək üçün gəlməmişdi buraya. Sabah çıxıb getməliydi Azərbaycandan və bir də buraya - bu türk şəhərinə qalib kimi gəlmək arzusundaydı, nə vaxtsa. O, həmfikir olduğu bir çox erməni ilə birlikdə bu arzusunun həyata keçəcəyinə inanırdı. İnanırdı ki, dənizdən dənizə, qədim türk torpaqlarında yaradılacaq Böyük Ermənistanın var olmasına çox qalmayıb... Amma Leopardın baxışlarında oxunan intiqam arzusu da çox güclü idi və Kobra anladı ki, onu məqsədindən döndərmək mümkün olsa, yalnız şirin dili işə salmaqla, hiyləgərliklə mümkün ola bilər. Əllərini yuxarı qaldırıb:


downloaded from KitabYurdu.org

- Sakit ol, Alik! - dedi. - Sakit ol! Görürsən ki, mən silahsızam...

- Mən sakitəm! - Ələmdar, doğrudan da, sakit səslə dilləndi.

- Nə istəyirsən məndən? - Kobra da sakit və hətta mehriban səslə soruşdu. - Axı mənim sənə elə bir pisliyim dəyməyib?!

- Canını istəyirəm, Kobra, canını! - Ələmdar dişlərini qıcadı.

Bu vaxt evdən çıxan Şərafət onları bu vəziyyətdə gördü. İşin nə yerdə olduğunu anlayıb, özünün adını, kimliyini dəyişdirməsini də unutdu və riyakar bir sevinclə:

- Bu sənsən, Alik?! - deyə Ələmdarın üstünə yeridi.

Son dəfə gördüyündən iyirmi il keçməsinə baxmayaraq, Ələmdar onu dərhal tanıdı. Düzdür, Baratovun kabinetində, bu illərdə çəkilmiş fotoşəklinə baxmışdı bu qadının. Amma lap baxmasaydı da tanıyardı onu. Suzanna, keçən bu illər ərzində xeyli kökəlsə də, üz-gözündə qırışlar əmələ gəlsə də, gözləri həmin gözlər idi. Həmin riyakar, saxta işvə ilə dolu, aldadıcı gözlər...

Qadını, ani olaraq nifrətli baxışlarla süzüb:

- Geri dur, qancıq! - dedi və yenə bütün diqqətini onun qardaşına yönəltdi.

Kobra arxası villaya tərəf dayanmışdı. Şərafət yandan hərlənib onunla Ələmdarın arasına girməyə cəhd etdi.

- Axı, biz qonşu olmuşuq, Alik! - dedi. - Özü də çox mehriban qonşu olmuşuq. Heç bilirsən, o günləri necə xatırlayıram? Lap burnumun ucu göynəyir o günlər üçün... Əminə xala necədir? Sağdırmı?



downloaded from KitabYurdu.org

Harada olursunuz indi? Yenə o həyətdəsiniz, yoxsa köçmüsünüz?

Ələmdar ona qulaq asmırdı. Bütün diqqəti yenə Kobrada idi. Daha doğrusu, onun bir an yerində dayanmayan hiyləgər gözlərində. Bilirdi ki, bu ilan, əlinə ani bir fürsət düşən kimi, qıvrılıb irəli atıla bilər. Ancaq, qadını da cavabsız qoymadı:

- Çəkil, Suzanna! - dedi. - Sənin bəxtin onda kəsib ki, mən qadınlara əl qaldırmıram. Çəkil get, qoy biz söhbətimizi edək! Cəhənnəm ol!

Şərafət isə səsini kəsmək fikrində deyildi:

- Gör bir, neçə il bir həyətdə yaşamışıq biz! Duz-çörək kəsmişik. Olmaz axı belə! Arturla qardaş kimi olmusunuz...

- Biz onunla heç vaxt qardaş olmamışıq! - Ələmdar qadının sözünü ağzında qoydu. -
Vuruşmuşuq həmişə!

- Ancaq heç vaxt silahla vuruşmamışıq! - nəhayət, Kobra da dilləndi. - İndi mən silahsızam. Sən isə məni tapança ilə hədələyirsən.

- Düz deyirsən, Artur, mən səni həmişə silahsız döymüşəm!

Ələmdar bunu deyib, tapançasını arxadan qayışına keçirtdi. Aralarına girmiş Şərafəti bir əliylə kənara itələyib Kobranın üstünə getdi. Onun zərbə endirmək üçün qalxmış sağ qolunu havadaca tutub, qarşısıalınmaz bir qüvvə ilə öz dizinə vurdu. Bu anda Kobranın çığırtısı, onun sınmış qol sümüyünün şaqqıltı səsini eşidilməz etdi. Amma Ələmdar, bircə saniyə də fasilə vermədən, onun sinəsinə qüvvətli yumruq zərbəsi endirdi və Kobranın kürəyini villanın


downloaded from KitabYurdu.org

divarına çırpan bu zərbə onun səsini kəsdi. Divara söykənmiş Kobra sarsılmış halda, dəhşətli nəzərlərlə, amansız düşməninin yeni zərbəsini gözləyirdi.

İndi isə Şərafət çığırırdı. Bərkdən çığırır, Ələmdarın üstünə qarğış-nalə tökürdü:

- Səni görüm, əlin qurusun! Səni görüm gülləyə gələsən!

Ələmdar isə elə bil bir az da sakitləşmişdi. Şərafətə fikir vermədən sol əliylə Kobranın köynəyinin yaxasından tutub onu divara sıxdı:

- De görüm, Bakıya niyə gəlmisən?

Qolunun ağrısından rəngi ağarmış Kobra çətinliklə dilləndi:

- Bacımın oğlunu sizinkilər öldürüblər. Onun yasına gəlmişdim...

-Yoxsa başını sığallamalı idilər, sənin gülməşəkər bacı oğlunun?

- Siz hamınız vəhşisiniz! - Kobra qəzəblə fısıldadı.

- Düz deyirsən! - Ələmdar sakit səslə cavab verdi. - Biz ilan görən kimi öldürürük!

Bu zaman diqqətdən kənarda qaldığını düşünüb səsini kəsən Şərafət ətrafa boylanıb, kiçik evin qapısı yaxınlığında, divara söykənmiş baltanı gördü. Cəld irəli yeriyib onu götürdü. Arxadan ehtiyatla Ələmdara yaxınlaşıb baltanı yuxarı qaldırdı və onu gücü gəldikcə düşməninin başına endirmək istədi. Lakin ani olaraq çevrilən Ələmdar sol qolunu baltanın sapına necə vurdusa, güclü zərbənin təsirindən geri qayıdan baltanın küpü qadının başına dəydi. Eyni anda da təpiklə Kobranı vurmağa



downloaded from KitabYurdu.org

məcbur oldu. Yaranmış vəziyyətdən istifadə edib onun üstünə atılmaq istəyən yaralı Kobra aldığı zərbədən bir daha villanın divarına çırpıldı. Şərafət isə artıq cansız halda yerə sərilmişdi.

- Sən mənim bacımı öldürdün! - Kobra başını dəli kimi silkələyib, inildədi.

- Bəlkə də belə yaxşıdır, Artur! - Ələmdar kinayə ilə gülümsədi. - Bizim söhbətimizə mane olmaz... Yadındadı, Artur?..

- Uşaqlığımızı deyirsən? - bərk qorxmuş Artur bir qədər mütiliklə dilləndi.

- Yox, onu demirəm! - Ələmdar başını buladı. - On üç il əvvəl... Xankəndidəki qadın...

- Hə, yadımdadı...

- Onun gözlərini niyə çıxartmışdın?!

Kobra dinmədi.

- Niyə çıxartmışdın? - Ələmdar səsini qaldırdı.

Kobra yenə dinmədi. Deməyə söz axtarırdı. Nə desin ki, gözlərini intiqam azarı tutmuş bu adamı bir qədər sakitləşdirə bilsin? Nə desin ki, onu yola gətirib əlindən xilas ola bilsin? Onsuz da bilirdi ki, güc hesabına onun əlindən qurtarmaq gecdi daha. Sağ qolu biləkdən qırılıb yanına sallanmışdı. Üstəlik, Ələmdarın qüvvətli barmaqları onun köynəyinin yaxasını sıxdıqca boğulur, nəfəsi kəsilirdi...

Ələmdar daha sualını təkrar etmədi. Birdən-birə sağ əlinin barmaqlarını geniş açıb, düşməninin sifətinə çırpdı. Kobranın sifəti bircə anda al-qana boyandı. Bir gözü isə tamamilə qanla doldu. Çırpınıb əl-qol atmaq istədisə də alınmadı.


downloaded from KitabYurdu.org

Yenə ümidi ölməmişdi. Yenə xilas olmağa bir çarə axtarırdı amansız düşməninin əlindən. Yenə
çırpınırdı onun son dərəcə qüvvətli barmaqları arasında. Birdən uşaq vaxtı həmin bu Alikə qalib gəldiyi döyüşü xatırladı. Mixail öyrətmişdi həmin fəndi ona və o, ən çarəsiz vəziyyətində qəflətən Ələmdarın gözlərinin içinə tüpürməklə onu çaşdıra bilmişdi. Bəs indi də bu yolla qalib gələ bilərdimi? Hə! Ələmdar bircə anlığa özünü itirsəydi, belindəki tapançanı çıxartmaq olardı. Sonra isə... Sonra isə güllələri doldurardı onun bədəninə.

Amma Ələmdar Kobranın udqunmağından məqsədini dərhal başa düşdü. Sol əlini köynəyin yaxasından çəkib onun ağzını qamarladı və bərk- bərk sıxıb, istehza ilə güldü:

- Kobrasan ki Kobra! Amma daha alınmaz sənin köhnə fəndlərin! Yerində sakit dayan,
suallarıma cavab ver. O qadının oğlunu da sən öldürmüşdün, düzdür?

Yenidən köynəyin yaxasından yapışıb, onu qüvvətlə dartdı. Düymələrin hamısı açılıb töküldü və Kobranın sinəsi, qarnı açıqda qaldı.

- Cavab ver, küçük! - deyə Ələmdar qəzəblə bağırdı.

- Hə!.. Hə!.. - Kobra sol qolunu qaldırıb özünü müdafiə etməyə çalışırdı. Salamat qalmış tək gözü sürətlə yerində oynayırdı.

- Öldürəndən sonra onun qarnını da cırmısan düzdür? - Ələmdar bu dəfə sakit səslə soruşdu.

- Xatırlamıram!.. - Kobra boğazından yapışmış əli özündən qoparmağa çalışsa da, buna gücü çatmırdı.

- Xatırla, Kobra, çalış xatırla! - Ələmdar səbirlə


downloaded from KitabYurdu.org

dilləndi. - Atasını güllələyəndə beş yaşlı uşaq sənin üstünə yüyürüb. Sən də onu vurub öldürmüsən. Sonra da qarnını bıçaqla yarıb, bağırsaqlarını çıxarmısan... Yadına düşdümü?

Kobra dinmədi.

- Onun günahı nə idi, Artur? Xanəlinin oğlunun günahı nə idi?

- Burax məni, Alik! - Kobra yalvarmağa başladı. - Biz müharibə şəraitindəyik. Nə etmişiksə, Allahın əmrilə etmişik.

- Kəs səsini kafir! - Ələmdar çığırdı. - Sən Allahın yox, şeytanın əmrilə hərəkət eləmisən. Elə özün də şeytan kimi bir şeysən!

- Keç günahımdan, mən tövbə edirəm!

- Tövbə Allah adamları üçündür, Şeytan törəmələri üçün yox! Bir də ki, çox tövbə eləmisiniz siz!

- Sənə yalvarıram, Ələmdar, burax məni, çıxıb gedim buradan! - Kobra daha ürəkdən yalvarmağa başladı.

Ələmdar bu dəfə dinmədi, nədənsə. Bundan bir qədər ürəklənən Kobra:

- Sənin ayaqlarının altından öpərəm, məni buraxsan! - dedi.

Ələmdar yenə dinmədi. Amma bütün diqqəti düşməninin üzündə idi. Yalvaran ağzında, yalvaran tək gözündə...

- Məni Əminə xalaya bağışla, Ələmdar. - Kobra dedi. - Məni nə qədər qucağına götürüb o... Bir dəfə körpə vaxtı anam xəstə olanda süd verib mənə... Ona bağışla məni!

Ələmdar susurdu.


downloaded from KitabYurdu.org

- İnsafın olsun, Ələmdar, heç olmasa, məni özünüzkülərə təhvil ver. Qoy məhkəmədə versinlər cəzamı!

Ələmdar birdən sağ əlinin geniş açılmış pəncəsini çiyni bərabərində qaldırdı. Dişlərini nifrətlə qıcayıb:

- O uşağı öldürməyini xatırladınmı, Kobra? - deyə soruşdu.

Kobra diksindi bu sualdan. Deməli, onu bağışlamaq fikri yox imiş bu adamın! Yox imiş! İndi tək gözü ilə, dəhşətli bir qorxu içində, onun geniş açılmış pəncəsinə baxırdı. Gözünün qarşısında
dayanmış bu uzun barmaqların nə qədər sərt, nə qədər qüvvətli olduğunu isə çoxdan bilirdi.

- Xatırladınmı Kobra?! - Ələmdar çığırdı.

- Hə, xatırladım... - Kobra boğula-boğula cavab verdi.

Ələmdar sağ əlini aşağı saldı. Barmaqlarını yumub-açaraq astadan başını tərpətdi:

- Deməli, axır ki, xatırladın... Çox yaxşı, Kobra, çox yaxşı!

Kobranın gözü yenə də onun sağ əlində idi. Sonsuz bir dəhşətlə baxırdı bu əlin barmaqlarına. Bir-birinə sıxılıb şax dayanmış uzun barmaqlar enli xəncər tiyəsini xatırladırdı. Başa düşdü ki, Ələmdar ona sonuncu zərbəni endirməyə hazırlaşır. Başa düşdü ki, onu diri-diri parçalamaq istəyir Leopard...
Amansız düşmənini rəhmə gətirmək üçün bir daha cəhd göstərmək istədi:

-Yalvarıram, Ələmdar...

Amma sözü boğazında qaldı. Ələmdarın sağ əli birdən-birə, ildırım sürətilə irəliyə gəlib qarnına çırpıldı və


downloaded from KitabYurdu.org

qüvvətli barmaqlar dərini parçalayaraq içəri keçdilər.

Kobra boğuq bir səs çıxararaq, dartındı. Tək gözü böyüyüb, oyuğundan çıxmaq dərəcəsinə gəldi.

Ələmdar düşməninin isti içalatını öz barmaqlarının ucunda hiss edirdi. Barmaqlarının arasından süzülən isti qan on üç ildən bəri onu yandıran intiqam alovunun üstünə damcılayan su damcıları kimi, damcı-damcı yerə tökülür, ürəyini sərinlədirdi.

Kobra indi gözünü Ələmdarın üzünə zilləmişdi. Sağ idi hələ... Amma elə bil heç nəyi dərk eləmirdi. Ağrı da duymurdu, sanki... Fikri, diqqəti, qarnına girmiş dəmir kimi möhkəm barmaqlarda idi və yerindən tərpənməyə, çırpınmağa da qorxurdu.

Ələmdar o biri əli ilə, hələ də, Kobranın boğazından yapışmışdı. Nifrətli baxışlarını onun üzünə dikib:

- Ölmə hələ, Kobra! - dedi. - Mənə qulaq as! Özü də diqqətlə qulaq as! Səni o uşağa, onun anasına görə öldürürəm! Xanəlinin oğlunu öldürdüyünə görə öldürürəm! Laçında, Kəlbəcərdə, Cəbrayılda, Bakıda, nə bilim, daha harada, öldürdüyün azərbaycanlılara görə öldürürəm! Get! Get, o dünyada da Allah özü verəcək cəzanı!

Bu sözləri son dərəcə təmkinlə deyib, düşməninin bədəninə işləmiş güclü pəncəsilə onun içalatını qamarladı. Sonra bütün qüvvəsini sağ qoluna verib onu geriyə dartdı. Kobranın qarnı parçalanıb cırıldı və bağırsaqları çölə çıxdı. Bu zaman ağzından axan qan Ələmdarın sol əlinə süzülüb onu buladı. Mahirənin on üç il əvvəl etdiyi qarğış yerini tutmuşdu, sanki. Kobra qan qusurdu...

Ələmdar geri çəkilib düşməninin boğazını buraxdı və


downloaded from KitabYurdu.org

Kobra boş çuval kimi divarın dibinə çökdü. Onun meyitinə baxıb, ikrahla tüpürən Ələmdar əyilib qana bulaşmış əllərini quma sürtərək təmizlədi.

Sonra yaxınlaşıb, bir müddət Suzannanın meyitinə baxdı. Fikri uzaq uşaqlıq illərinə, köhnə məhəllədəki həyətlərinə getdi. Ancaq bu acı
xatirələrin gəlməyilə yoxa çıxmağı bir oldu. Əvvəlcə, küçə tərəfdən maşın səsləri, sonra isə havadan vertolyot səsi eşidildi.

O, tələyə düşmüş əsl leopard kimi bircə an yerində vurnuxdu. Ancaq tez də qəti qərara gəlib tapançasını çıxartdı. Villanın divarına vurulmuş və həyətin arxa hissəsini gur işığa qərq edən projektora atəş açıb, onu söndürdü. Sonra isə zülmət qaranlıqda həyətin aşağısına, dənizə baxan tərəfə yüyürdü. Tərəddüd etmədən hasarı aşıb, qaranlıq sahildə yox oldu...

Doxsan səkkizinci fəsil

Bir neçə dəqiqə sonra dənizkənarı malikanə artıq hər tərəfdən mühasirəyə alınmışdı. İyirmidən çox əlisilahlı əsgər villanın qarşı tərəfindəki hasardan aşıb həyətə düşdü. Onlar iki qrupa bölünərək, müxtəlif tərəflərdən villanın başına dövrə vurub, hadisənin baş verdiyi yerdə birləşdilər. Kiçik dəstənin komandiri əlindəki fənərin işığını əvvəlcə Şərafətin, sonra isə Kobranın üzərinə salıb gecikdiklərini başa düşdü. İkinci meyitin acınacaqlı vəziyyəti onu xüsusilə heyrətləndirmişdi. Dönüb yanındakı əsgərə: - Biz gecikdik! - dedi. - Burada başqa adam da olub. Ancaq görəsən, ələ keçirmək istədiyimiz budur, yoxsa bunu bu hala salıb qaçan?..

Kiçik evin işığı yanırdı. İçəri keçən əsgərlər orada



downloaded from KitabYurdu.org

döşəməyə uzadılmış Əlifağaya rast gəldilər. Evə birinci girən əsgər əlini onun boynuna toxundurub, hələ ölmədiyini başa düşdü və ucadan yoldaşlarını səslədi:

- Bu adam sağdır!

Köməkləşib Əlifağanı həyətə çıxartdılar və açıq bir yerdə qumun üstünə uzadıb onun yarasını sarımağa çalışdılar. Bu zaman Əlifağa gözlərini açıb, qorxunc bir heyrət ifadə olunan baxışlarını başına toplaşmış əsgərlərə dikdi. Çox qan itirdiyi üçün üzünün rəngi tamam solmuşdu. Göz qapaqlarını tərpətmədən baxırdı və bu vəziyyəti üzünə salınmış fənər işığında daha əcaib görünürdü. Birdən:

- Siz kimsiniz? - deyə xırıltılı səslə soruşdu.

Yaralının danışdığını görən komandir ona tərəf əyilib öz sualını verdi:

- Səni kim vurdu?

- O vurdu!.. O!.. - Əlifağanın dodaqları titrədi.

-Kim?

- Artur... Şərafət...

Komandir bir şey anlamayıb çiynini çəkdi. Kim idi, görəsən, bu Artur? Parçalanmış halda divarın dibində sərilib qalmış adam, yoxsa bu cinayəti törədib qaçan?..

Bu vaxt artıq darvaza açılmışdı və polkovnik Baratovla mayor Cavadov məxfi şöbənin bir neçə əməkdaşı ilə gəlib onların yanında dayandılar. Silahlı dəstənin komandiri polkovnikə yaxınlaşıb ona məlumat verdi:

- Cənab polkovnik, bu kişi hələ sağdır. Qadınla başqa bir kişi isə öldürülüb. Həyətdə başqa adam yoxdur.

Baratov Şərafətin və Kobranın meyitlərinə yaxınlaşıb onlara baxdı. Yaman qəzəbli görünürdü. Bir anlığa nəsə



downloaded from KitabYurdu.org

düşünüb üzünü əsgərlərin başçısına tutdu:

- Hərbi hissənin bütün əsgərlərini təcili öz yerinə qaytarın!

Komandir:

- Oldu, cənab polkovnik! - deyib, həyətə girmiş əsgərlərlə birlikdə darvazaya doğru getdi.

Kobranın əcaib meyitinə bir daha diqqətlə nəzər salan Baratov dönüb, yanında dayanmış Cavadova acıqlı nəzərlərlə baxdı və şöbənin digər əməkdaşlarının eşidə bilməməsi üçün astadan:

- Bu Leopardın işidir! - dedi. - O, burada olub.

Mayor Cavadov günahkar adamlar kimi
boynunu burdu:

- Cənab polkovnik, inanın, biz bacardığımız qədər çalışdıq ki, onun buraya gəlib çıxmağına imkan verməyək. Bütün yollar kəsilmişdi...

- Yaxşı! - Baratov əsəbi halda əlini yellədi. - Qoy Sadıxovu vertolyota aparsınlar.

Əmr dərhal icra olundu. Yaralını vertolyota aparan əməkdaşlar tez də geri qayıtdılar. Baratov hələ də dayanıb Kobranın meyitinə tamaşa edirdi.

Nəhayət, cidd-cəhdlə axtardıqları terrorçu, qatı cinayətkar Valeri Barsov ələ keçmişdi!... Ələ keçmişdi və polkovnikin fikrincə, öz əsl layiqli cəzasını almışdı. Amma bəzi məsələlər var idi ki, onlar Baratovu sevinməyə qoymur, əksinə, narahat
edib əsəbiləşdirirdi. Birincisi, Kobra sağ-salamat ələ keçirilməmişdi. Öldürülmüşdü və açıq-aydın görünürdü ki, ondan amansız intiqam alınıb. Bilirdi ki, buna görə ona «çox sağ ol» deməyəcəklər... İkincisi, Kobranın ölməyi o


downloaded from KitabYurdu.org

demək idi ki, onun Bakıya gəlişi, bu gəlişdən sonra törətdiyi bəzi cinayətlər sirr olaraq qalacaqdı. Üstəlik, bacısı da ölmüşdü. Əlifağanın da sağalacağına ümid az idi. Çox qan itirmişdi. Deməli, Kobranın bir aydan çox müddətdə harada yaşaması, kimlərlə əlaqə saxlaması bilinməyəcəkdi. Hələ uşaqları ilə birlikdə yoxa çıxmış Məltəm adlı o qadının da, «Çəməndağ» kafesinin ofisiantının da taleyi qaranlıq qalacaqdı...

Və üçüncüsü... Polkovnik Baratov bu saat Leoparda nə qədər qəzəblənsə də özünün seçib üzə çıxartdığı, yetişməsində böyük roi oynadığı bu
kəşfiyyatçını itirmək istəmirdi. Onun bir kəşfiyyatçı kimi varlığından polkovnikin özündən və mayor Cavadovdan başqa heç kəsin xəbəri yox idi. Amma indi belə çıxırdı ki, heç nə gizli qalmayacaqdı... Bax, bu üçüncü səbəb onu bu saat daha çox narahat edirdi. Leopardı itirmək olmazdı! O, məxfi şöbəyə hələ bundan sonra çox lazım olacaqdı!

Gözlərini Kobranın meyitindən çəkib geriyə döndü. Əməkdaşlarından birini - baş leytenant Yusifovu yaxına çağırdı. Diqqətli baxışlarını onun üzündə gəzdirib, dilləndi:

- Siz əlinizdə silah buraya hücum edəndə Əlifağa Sadıxovun və arvadının vurulduğunu görmüsünüz. Kobraya təslim olmağı əmr edəndə o öz əlində tutduğu qumbaranı partladıb. Nə demək istədiyimi başa düşdün?

Təəccüblənmiş Yusifov gah polkovnikə, gah da divarın dibindəki meyitə baxıb, nəhayət, cavab verdi

- Başa düşdüm, cənab polkovnik! Amma qumbara...

- Qumbaranı onun əlində özünüz partladın! - polkovnik bunu deyib, başıyla Cavadova işarə edərək



downloaded from KitabYurdu.org

oradan aralandı.

Darvazaya tərəf onunla yanaşı addımlayan Cavadov:

- Bunu Leopardın adının gizli qalması üçün etdiniz? - deyə soruşdu.

- Bəs nəyə görə?! - hirsi hələ də soyumamış Baratov cavab verdi. - O dəlidir, vəhşidir, hər nədir, gərək boynumuza alaq ki, bizə çox lazımdır!

- Bəs... - Cavadov tərəddüdlə dilləndi. - Əgər Əlifağa sağalsa və gördüklərini danışsa?..

Polkovnik Baratov başını bulayıb:

- O sağalana oxşamır... - dedi və bir qədər susandan sonra qətiyyətlə əlavə etdi. - Əgər Leopardı burada görübsə, qətiyyən sağalmamalıdır!

Bu zaman vertolyot hələ öz yerində dayanmışdı Xərəyə uzadılmış Əlifağa gözlərini yummuşdu. Ancaq qanı çəkilmiş solğun dodaqları tərpənirdi.

- Deyəsən, danışır! - yanında oturmuş əsgərlərdən biri o birisinə dedi.

- Hə, dayan görək, nə deyir... - o biri əsgər başını yaralıya doğru əydi. Əlifağanın dodaqları yenə aralandı:

- Xavər!..
- Xavər nəyidi görəsən? - birinci əsgər soruşdu
- Sakit! - yoldaşı ona susmaq işarəsi verdi.

- Xavər... Babək... - yenə yaralının səsi eşidildi.

Əsgərlər susub diqqətlə qulaq asırdılar.

- Babək!., oğlum...

- Oğlunun adı Babək imiş... - birinci əsgər dilləndi.

Yaralının dodaqları yenə də aralandı. Amma bu dəfə nə dediyini eşidə bilmədilər. Sonra dodaqlar daha tərpənmədilər.



downloaded from KitabYurdu.org

Mayor Cavadovun vertolyota çıxdığını görən əsgərlər cəld ayağa qalxdılar və onlardan biri dilləndi:

- Cənab mayor, yaralı indicə sayıqlayırdı.

Cavadov əyilib əlini Əlifağanın boynuna toxundurdu və başını qaldırıb təəccüblə əsgərlərə baxdı:

- Necə yəni, sayıqlayırdı?.. O, artıq ölüb!

Doxsan doqquzuncu fəsil

Səhəri gün, gündüz saat 10-da polkovnik Baratov müavini ilə birlikdə öz kabinetində oturmuşdu. Yenə də bu gecə baş vermiş hadisəni müzakirə edirdilər. Bir qədər yorğun görünməyinə baxmayaraq, polkovnikin əhvalı gecəkinə nisbətən yaxşı idi.

Gecə Baratovu narahat edən üç məsələdən ikisi onun xeyrinə qurtarmışdı. Onun adamlarından bir az sonra malikanəyə gəlmiş səlahiyyətli şəxslər Leopardın varlığının gizlədilməsindən şübhəyə düşməmişdilər. Baratov onlara əməliyyatın əsas iştirakçısı kimi baş leytenant Elsevər Yusifovu göstərmişdi. O biri məsələ, yəni Kobranın sağ- salamat tutulub təhvil verilə bilməməsi də Baratova qarşı elə bir narazılıq yaratmamışdı. Əksinə, hamı bu qocaman və təcrübəli kəşfiyyatçıya qibtə ilə baxırdı. Ona görə ki, Vaieri Barsov kimi hiyləgər və qorxulu düşmən onun şöbəsi tərəfindən tapılıb zərərsizləşdirilmişdi.

Amma polkovniki narahat edən əsas məsələ hələ də qalmaqda idi. Kobra öldürüldüyünə görə bəzi sirlər açılmamış qalacaqdı. Kobra Bakıya niyə gəlmişdi? Bakıda olduğu müddətdə nə işlərlə məşğul olmuşdu? Harada yaşamışdı? Kimlərlə əlaqəsi olmuşdu? Bu gün saat 2-yə onu Milli Təhlükəsizlik Nazirliyinə çağırmışdılar və yəqin


downloaded from KitabYurdu.org

ki, bütün bu suallar ona veriləcəkdi. Bu gecə imkan olmadı bütün bu sualları ona verməyə. Üstəlik, Baratov da çalışırdı yayınsın verilən tək-tək suallardan. Amma hamısını soruşacaqdılar. Bir də onu soruşacaqdılar ki, Kobranın izinə necə düşdünüz və necə tapdınız onu? Əlbəttə, polkovnik, uzaqbaşı deyərdi ki, Sadıxovun malikanəsini yenə də ciddi nəzarətdə saxlamışdıq və əməkdaşımız Kobranın gecə oraya girdiyini görüb. Amma bu, qazanılmış qələbəni bir qədər sadələşdirir, ucuzlaşdırırdı. Bir də ki, polkovnik Baratovun özü üçün də çox maraqlı idi bu məsələ. Necə oldu ki, Leopard Kobranın izinə düşə bildi və özü şəhərdə olduğu halda onun malikanəyə getdiyi barədə rəisinə məlumat verdi...

Bütün bunlara görə, bu saat Leopardla görüşməyi çox arzulayırdı. Həm də onun özü üçün də narahat idi və bilmirdi ki, bu gecə başına nə gəlib. Amma Leopardın telefonu bağlı olduğu üçün onunla əlaqə saxlamaq da mümkün deyildi.

Artıq, danışmağa elə bir sözləri qalmadığı üçün susmuşdular. Saat 2-də polkovnik nazirlikdə olmalıydı və ondan ətraflı məlumat istəyəcəkdilər. Buna görə də tez-tez, narahat halda, saatına baxır, Leoparddan nəsə bir xəbər gözləyirdi. Belə bir vaxtda telefonuna mesaj gəldi. Orada cəmi üç kəlmə yazılmışdı: «Mən qapıya yaxınlaşıram».

Mesajı oxuyan Baratov başını qaldırıb müavininə baxdı və qısaca olaraq:

- O, qapıya yaxınlaşır! - dedi.

Mayor Cavadov cəld ayağa qalxıb kabinetdən çıxdı. Bir dəqiqə ərzində, həyət qapısından tutmuş dəhlizlərə qədər, hər yer tamamilə boşaldı. Həyətə də, binaya da məchul bir


downloaded from KitabYurdu.org

sakitlik çökdü. Daha bir dəqiqə də keçdi və Cavadov Ələmdarla birlikdə şöbə rəisinin kabinetinə daxil oldu.

Baratov ayağa qalxıb, öz yetirməsi hesab etdiyi kəşfiyyatçını sevinclə qarşıladı:

- Gəl, Leopard! - dedi. - Gəl, əyləş! Bayaqdan səni gözləyirəm. Düzünü deyim ki, səni danlamaq istəyirəm, amma danlaya bilmirəm. Doğrudan da, böyük iş gördün, başımı uca elədin mənim.

Hər üçü keçib stolun arxasında əyləşdi. Öz yerini boş qoyub, Ələmdarla üzbəüz oturan polkovnik davam etdi:

- Hələ bir de görüm, gecə nə üçün mənim sözümü axıradək dinləməmiş telefonu söndürdün? Hə?! Bu hərəkətin məni əməlli-başlı təşvişə saldı. Elə ona görə də səni saxlamaq üçün müəyyən tədbirlər görməyə məcbur olduq.

- Müəyyən? - Ələmdar kinayə ilə gülümsədi. - Əslində, siz çox ciddi tədbirlər görmüşdünüz məni saxlamaq üçün. İndiyədək, bəlkə də heç bir cinayətkara görə bu tədbir görülməmişdi. Hətta mənim arxamca güllə də atdılar. Bütün yollarım kəsilmişdi.

- Yaxşı, Leopard, - polkovnik barışdırıcı ahənglə dilləndi. - Bütün bunlar barədə başqa vaxt oturub doyunca söhbət edərik. Amma gərək sən məni axıradək dinləyəydin. Biz malikanəni mühasirəyə alıb, o əclafı tutacaqdıq...

- Bunu, hələ bilmək olmazdı. - Ələmdar rəisinin sözünü kəsdi. - Kobra yenə də qaça bilərdi.

- Necə qaça bilərdi? - Cavadov güclə hiss olunan istehza ilə dilləndi. - Bütün bir hərbi hissənin əsgərləri tökülmüşdü oraya!



downloaded from KitabYurdu.org

Ələmdar da ona istehza ilə cavab verməyə məcbur oldu:

- Sizin vertolyotun səsini eşidəndən sonra mən necə qaçdım, o da elə!

Sonra isə üzünü yenə də Baratova tutdu:

- Qaldı ki telefonu söndürməyimə, boynuma alıram ki, onu bilərəkdən söndürmüşdüm. Onda şəhərdən təzəcə çıxıb Kobranı təqib etməyə başlayırdım. Siz mənə Kobraya toxunmamağı əmr edə bilərdiniz. Mən, bir növ, vəzifə borcumu yerinə yetirib, onun haraya getməsi barədə sizə məlumat verdim. Amma onunla özümün də haqq-hesabım var idi. Mən onu öldürməyi qəti qərara almışdım...

Bilirsiniz ki, doxsan üçüncü ildə Xankəndidə olarkən məni uşaqlıqdan tanıyan həmin bu Artur Saqiyanın ucbatından ifşa olunmuşdum. O, orada məni döydürdü və üstəlik, gözlərimin qarşısında millətimin qeyrətli bir qızının namusuna toxunmaq
istədi. Təsəvvür edirsiniz, bu nə deməkdir? Gözlərimin qarşısında! O qadın həmin vaxt böyük qəhrəmanlıq göstərərək özünü vurdu və beləliklə, namusunu qoruya bildi. Amma Mahirə adlı o qadın, heç bəlkə özü də bilmədi ki, məni nə qədər böyük bir işgəncədən xilas elədi... Mənim onda qollarım da, ayaqlarım da, bağlı idi. Heç nə eləyə bilməzdim... Ancaq Kobradan intiqam alacağıma and içdim onda və bu günə qədər də o andımı unutmadım. - Ələmdar bir anlıq susub, yenə dilləndi. - Onu da deyim ki, siz mənim yolumu kəsdirmək istəməklə böyük riskə yol verdiniz bu gecə. Mən, ən son həddə, qarşımı kəsənlərə qarşı silah işlətməyə məcbur olacaqdım. Lap beş nəfəri, on nəfəri düşünmədən öldürərdim Kobraya yetişmək üçün...



downloaded from KitabYurdu.org

- Mən səni tamamilə başa düşürəm, Leopard! - polkovnik başını kədərlə yırğaladı. - Və səni, necə lazımdır, müdafiə edəcəm. Sənin adın olmayacaq bu işdə. Heç kəs səndən hesabat istəməyəcək. Ancaq sən bir danış görüm, bu ələkeçməz ilanı necə tapdın?

- Bu saat hamısını deyəcəm. - Ələmdar söhbətinə davam etdi. - Siz mənə Kobranın axtarışını tapşıranda mən işə başlayıb «Çəməndağ» kafesini aşkar etdim. Bunun mənə əsas köməyi o oldu ki, Arturun Əlifağa Sadıxovun qaynı olduğunu öyrəndim. Kafenin ofisiantı ilə söhbətdən daha bir şeyə əmin oldum ki, orada çəkilmiş fotoşəkilləri Nihat yox, Qantural özü çəkib. Amma ekspertiza göstəribmiş ki, şəkillərdə yalnız Nihatın əl izləri var. Bu, əslində, çox şübhəli məsələ idi və mənim diqqətimdən heç də kənarda qalmadı. Sonra mən həmin ofisiantı aradan çıxarıb gizlətdim ki, məndən başqa bir adam yenidən onu danışdırıb izə düşə bilməsin. Çünki mən həmin izlə Məltəm adlı qadını tapıb, həmin gün kafedə olmuş adamın Əlifağa olduğunu ondan öyrənmişdim. İstəmirdim ki, başqaları da Əlifağanın bu işlə əlaqəsini bilib, beləliklə Kobranı duyuq salsınlar...

- Deməli, o ofisiantı sən qaçırmısan?! - Baratov təəccüblə soruşdu. Elə mayor Cavadov da yaman heyrətlənmişdi.

- Bəli! - Ələmdar təsdiq etdi. - Onu da, Məltəm adlı həmin qadını da mən gizlətmişəm. Onlar hazırda etibarlı və rahat yerdədirlər.

- Yaxşı, bu barədə sonra danışarıq, söhbətinə davam elə! - Baratov yenə saatına baxdı.

Ələmdar nə deyəcəyini azacıq düşünüb, danışmağa


downloaded from KitabYurdu.org

başladı:

- Mən, Əlifağa Sadıxovun oğlunu öldürməkdə təqsirləndirilib tutulan Salehlə bir gecə polisdə qalmışdım. Onda mənim ürəyimdə, az da olsa, inam yaranmışdı ki, Saleh öldürməyib o oğlanı. Ancaq cinayəti onun boynuna qoydular və o, həbsxanaya göndərildi. Bütün bunlar şübhəli görünürdü mənə. Ağlıma isə heç nə gəlmirdi, doğrusu... Sonra siz məni Kobranın axtarışından kənarlaşdırdınız. Amma mən onun axtarışından əl çəkmək istəmirdim və əl çəkməmişdim də! Düşündüm ki, onun fotoşəkli Qanturalın mənzilindən çıxıbsa, bunların arasında, az da olsa, əlaqə olmamış deyil. Qanturalın törətdiyi ilk cinayət və onun axtarışı ilə bağlı hər şeyi dərindən öyrənmək üçün bu işi əvvəldən aparan əməliyyat müvəkkili kapitan Əbilovun yanına getdim...

- Özünü tanıtdın ona? - polkovnik dözməyib Ələmdarın sözünü kəsdi.

- Yox! - Ələmdar başını buladı. - O mənim kim olduğumu və onu əsirlikdən xilas etdiyimi bilmir. Mənə verdiyiniz adi vəsiqəni göstərdim ona...

- Sonra?

- Kapitan Əbilov məni cinayət işindəki sənədlərlə tanış etdi. Sonra biz Qanturalın mənzilində olduq. Mən orada elə bir şey gördüm ki... Mənim fikrimcə, əgər o mənzildə olmasaydım və həmin şey diqqətimi cəlb etməsəydi, Kobra tapılmayacaqdı. O, nəzərdə tutulmuş cinayətləri törədib, Bakıdan gedəcəkdi. Polis isə hələ uzun müddət Qanturalı axtaracaq, nəhayət, heç bir nəticənin hasil olmadığını görüb, axtarışı dayandıracaqdı...

- Sən orada nə gördün axı? - Cavadov səbirsizlik


downloaded from KitabYurdu.org

göstərib onun sözünü kəsdi.

- Qan ləkəsi! - Ələmdar cavab verdi. - İlk baxışdan baxanda, adi bir qan ləkəsi. Əslində, stulun başına geydirilmiş və guya Nihata məxsus olan göy rəngli köynəyin sağ yaxasında xeyli xırda qan ləkəsi var idi. Amma ləkələrdən biri, köynəyin yaxasının kənarına ən yaxın olanı mənə şübhəli göründü. Bu ləkə yarımçıq idi elə bil... Yarımçıq dairə şəklində... Köynəyi stolun üstünə sərib yaxasını düymələdim və gördüm ki, həmin qan ləkəsinin o biri yarısı, köynəyin sol yaxasının lap qırağındadır. Bu hissə çox kiçik idi. Diqqəti, qətiyyən, cəlb etmirdi. Mən onda xeyli təəccübləndim. Belə çıxırdı ki, bu qan
ləkələri həmin köynəyə, köynək stula keçirildiyi halda yox, kiminsə əynində olduğu vaxt düşüb...

Təhqiqata görə, Nihatı yataqda, soyunmuş vəziyyətdə vurmuşdular. Bu onu göstərirdi ki, qətl zamanı həmin köynək qatilin əynində olub. Mən bunu, birinci dəfə indi danışıram. Heç Əbilova da bir söz demədim bu barədə. Yoxsa köynəyin Nihata məxsus olub-olmadığını öyrənmək polis üçün çətin deyildi. Nə isə... Dediyim kimi, bu məni çox təəccübləndirdi. Amma mənzildə olarkən, bu barədə düşünüb, nəsə anlamağa imkanım yox idi. Sadəcə olaraq, çaşıb qalmışdım... Bir də, cinayət işi ilə tanış olanda bir neçə şey, ən əsası isə biri daha çox təəccüblü görünmüşdü mənə. Qantural, guya Nihatı öldürüb, başını kəsəndən sonra, onun maykasını yuxarı çəkib sinəsinə, qarnına və ən çox da sağ
böyründə eyni bir yerə çoxlu bıçaq zərbəsi vurubmuş. Bu, əlbəttə, heç də məntiqi hərəkət deyildi. Amma, bir şey də


downloaded from KitabYurdu.org

anlamaq olmurdu bu məntiqsizlikdən. Mən həmin şübhəli qan ləkəsini görəndən bir şeyi anlamağa başladım ki, bu işdə çox qəribə bir sirr var. Burada nəsə dəyişik düşüb elə bil. Kimsə kimisə əvəz edir. Şəkli çəkən Qantural, üzərində Nihatın əl izi... Köynək, guya öldürülən adamın, amma qan ləkəsi göstərir ki, öldürənin imiş. Belə çalpaşıq fikirlərin təsirilə mənzildən çıxıb iş yerimə getdim. Orada da fikirlər məni rahat buraxmadı. Düşündüm ki, bu köynək qatilin əynində olub. Göy köynək!.. Çörəksatan qadın da bir nəfər göy köynəkli kişinin əlində qara çanta bloka girdiyini görüb. Yaxşı, bəs qatil öz köynəyini çıxarıb mənzildə qoyubsa, gedəndə hansı köynəklə gedib? Cinayət işində oxuduqlarımdan belə anlamışdım ki, Qanturalın qonşusu onu gələndə aydın görüb, gedəndə isə, əslində, yox! O vaxt balkondan boylanıb baxıb ki, maşın pultunun səsini eşidib və ağ rəngli, göy-qırmızı zolaqlı köynəkdə olan adamı sol əlində qara çanta, maşına minən görüb. Qantural evə gələndə də həmin köynəkdə imiş. Mən kapitan Əbilova zəng vurub Bəhmən adlı həmin qonşunun izahatını ona bir də oxutdurdum. Əmin oldum ki, qonşu maşına minib gedən adamın, əslində, yalnız sol çiynini, qolunu və ayağını görə bilərdi. Bütün fikirlər yenə də beynimdə bir-birinə qarışdı. Mənə elə gəlirdi ki, həqiqətə xeyli yaxınlaşmışam və bu saat hər şey mənə aydın olacaq. Amma sonra hər şey yenidən qəlizləşirdi... Elə bu vaxt televizorda verilən bir elan mənə xeyli kömək etdi. Bu Qanturalın

axtarışı üçün verilən elan idi. Əlamətlərinin birində deyilirdi ki, sağ böyründən aldığı güllə yarasından ayağını çəkir. Fikir verirsinizmi?! Sağ böyründən! Və birdən-birə


downloaded from KitabYurdu.org

hər şey mənə aydın oldu...

- Nə?! - Cavadov onun susduğunu görüb dözmədi.

- Aydın oldu ki, - Ələmdar mayora baxmadan dilləndi, - mənzildə öldürülən kişi Nihat yox,
Qantural özüdür!

- Sən nə danışırsan, Leopard?! - polkovnik Baratov heyrətlə əlini yellədi. - Necə yəni...

- Bəli! - Ələmdar qətiyyətlə dedi. - Həmin gecə o mənzildə Qanturalla Sənihə öldürülüb, Nihat yox! Nihatın kənarda kəsilmiş başı isə mənzilə, hamını bu günə qədər maraqlandıran həmin qara çantada gətirilib. Mən həmin qan ləkəsindən və televizordakı
elandan sonra hər şeyi anladım və hətta qatilin kim olduğunu da təxmin etdim.

- Kim imiş əsl qatil? - Baratov soruşdu.

- Əlbəttə, Kobra! - Ələmdar bir qədər təəccüblə cavab verdi. - Düzdür, onda mən hələ törədilmiş cinayətin əsl səbəbini bilmirdim. Amma əgər Kobranın şəkli o mənzildən çıxmışdısa, və cinayət bu dərəcədə mükəmməl hiyləgərliklə törədilmişdisə, mənim ağlıma kim gələ bilərdi?

- Hər şeyi daha aydın danışa bilməzsən? - mayor Cavadov bir az əsəbi səslə dilləndi.

- Yaxşı! - Ələmdar bu dəfə ona baxdı. - Onda icazə verin, hər şeyi başdan danışım. Məsələ belə olub... Sadıxovun oğlu Rafiq, polkovnik Mirzəyevin oğlu ilə kafedə yeyib-içəndən sonra, Ağaşamilin, yəni Nihatın atasının evinə gediblər. Rəisin oğlu
həyətdə gözləyib, Rafiq isə mənzilə soxularaq Ağaşamilin qızı Fatimənin namusuna toxunmağa cəhd edib. Bu vaxt,



downloaded from KitabYurdu.org

təsadüfən evə qayıdan Ağaşamil, qapını öz açarıyla açıb, mənzilə girib və Rafiqi qıza hücum edən görüb. Ani qəzəb vəziyyətində, oğlanı, başından küt alətlə vurmaqla, qətlə yetirib. Sonra oğlu Xanəlini evə çağırıb və qərara gəliblər ki, Xanəli meyiti aparıb Sadıxovun dənizkənarı malikanəsinin qarşısına atsın. Xanəli belə də edib... Fləmin gün malikanəyə gələn sürücü Saleh şefinin arvadını iki cavan fəhlə ilə biabırçı bir vəziyyətdə görüb. Onların üstünə çıxanda son dərəcə qəzəblənmiş Şərafət onu bıçaqla yaralayaraq həyətdən qovub. Bu zaman darvazadan çıxan Saleh Rafiqin meyiti ilə rastlaşıb. Amma qorxudan, geriyə qayıdıb bu barədə məlumat vermək əvəzinə, evə qaçıb. Beləliklə də onu şübhəli şəxs kimi tutublar...

Baratov mənalı nəzərlərlə mayor Cavadova baxdı:

- Deməli, Əlifağa o fəhlələri arvadına görə öldürtdürübmüş... Yaxşı, bəs görəsən, arvadını niyə öldürməyib?.. Nəcməddinin nə günahı var imiş?

- Onları öldürüblər? - Ələmdar təəccübləndi.

- Hə! - Baratov dedi. - Onların üçünü də Kobra dənizin sahilində öldürüb basdırmışdı. Biz aşkar eləyib çıxartdıq. - Ələmdarın fikrə getdiyini görüb, əlavə etdi. - Sən söhbətinə davam elə, vaxtımız azdır. Mən saat 2-də nazirlikdə olmalıyam.

Ələmdar yenə danışmağa başladı:

- Salehi həbs ediblər. Lakin sonra Əlifağa Sadıxov öz adamları vasitəsilə polis rəisinin oğlunu oğurlatdırıb, ondan hər şeyi öyrənib. Başa düşüb ki, oğlunu Saleh yox, Ağaşamil öldürüb. Əslində, hər şey elə bundan sonra başlanıb. Əlifağa Ağaşamildən dəhşətli intiqam almağı qarşısına məqsəd qoyub. Bu vaxt bacısı oğlunun


downloaded from KitabYurdu.org

ölümünü eşidən Kobra Bakıya gəlib. Ya bəlkə də onu çağırıblar, burasını dəqiq deyə bilməyəcəm... Axır ki, Kobra Bakıya gəlib. Onu hava limanında qarşılamağa Nihatla Qanturalı göndəriblər. Nihat Əli Mazanovdan qabaq Əlifağanın işçisi olubmuş. Onu hava limanına göndərərkən və «Çəməndağ» kafesində görüş üçün yer hazırlatmağı tapşırarkən Əlifağa artıq qərara gəlibmiş ki, Ağaşamilin övladlarını öldürtdürəcək. Hətta ola bilsin, qərara gəlibmiş ki, onları məhz Kobraya öldürtdürəcək. Yəqin, elə buna görə Kobranı qarşılamağa onu göndərib ki, qoy Kobra onu indidən

görüb tanısın. Qanturalı isə Nihat aparıb özüylə. Amma onun sonra kafedə də Sadıxovla bir süfrədə oturması göstərir ki, artıq Əlifağa da onu tanıyırmış və ola bilsin onu işə götürmək istəyirmiş. Çünki mənim bildiyimə görə, Salehi də Əlifağa üçün Nihat tapıbmış. Hə... Nihat öz qohumunun sahiblik etdiyi «Çəməndağ» kafesində qonağı qarşılamaq üçün tədarük gördürüb. Bütün bunları o, yalnız Əlifağa Sadıxova sədaqətini bir daha sübut etmək üçün edib. Bir azdan Əlifağa da Nəcməddinlə birlikdə kafeyə gəlib. Sonra kafedəki gizli görüşün bir o qədər şübhə doğurmaması üçün, ya başqa məqsədə görə, Əlifağa Salehin arvadını da kafeyə gətizdirib.

- Salehin arvadını? Bu həmin şəkildəki gözəl qadındır? - Baratov soruşdu.

- Hə... - Ələmdar təsdiq etdi.

- Onların nə əlaqəsi var imiş axı?! Digər tərəfdən, Əlifağa onun ərini tutdurub...

Ələmdar bu suala heç cavab vermək istəmirdi. Nəsə, ağır gəlirdi ona... Amma başqa çarə də yox idi. Baratova



downloaded from KitabYurdu.org

hər şey aydın olmalı idi. Ona görə də çətinliklə dilləndi:

- Əlifağa bir az əvvəl o qadını zorla özünə məşuqə edibmiş. Guya Saleh onun arvadına sataşıbmış və o da bunun əvəzini Məltəmdən çıxıb.

- Yaxşı, davam elə! - Baratov dedi.

- Kobra Nihatia Qanturalın müşayiəti ilə gəlib çıxıb. Qantural hava limanında, yolda, ya süfrə arxasında, qadın qiyafəsində olan Kobradan yəqin ki, şübhələnib. O, Qarabağ uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmişdi və heç vaxt erməni ilə işbirliyi qurub, onunla çörək kəsməyə razı olmazdı.

Fikirləşib ki, burada nəsə təxribat hazırlanır və telefonu ilə gizlicə Kobranın şəklini çəkib.

Qanturai sonra həmin şəkilləri çap edərək evdə gizlədib. Cinayət işində Nihatın işçisi olan Xədicə adlı qızın izahatı var. O göstərir ki, toyundan bir-iki gün əvvəl Qanturai onların iş yerinə gedib və Nihatın kabinetinə girərək onunla mübahisə edib. Qanturai qapıdan çıxarkən, Nihat ona «Onları cır at, öz başını da ağrıdarsan, mənim də...» deyib. Mən, şəxsən, belə düşünürəm ki, Qanturai Nihatdan Kobranın, yəni onların nəzərində, Natalya Nikitinanın kim olduğunu soruşub. Sonra, hətta onun şəklini çəkdiyini də bildirərək Nihatı hədələyib. Ola bilsin, Kobranın kim olduğunu heç Nihat da bilmirmiş. Ancaq çox güman ki, o, Qanturalın danışığını Əlifağa Sadıxova çatdırıb.

Əlifağa Sadıxov, artıq, öz qaynına yüksək məbləğdə pul təklif edərək, Ağaşamilin övladlarını öldürməyi tapşırıbmış. Eyni zamanda, Qanturalın ondan şübhələndiyini eşidən Kobra düşünərək olduqca hiyləgər



downloaded from KitabYurdu.org

və çirkin bir plan qurub.

Onu qeyd edim ki, Nihat Rafiqin atası tərəfindən öldürüldüyünü bilməyib. Ümumiyyətlə, bu sirri Ağaşamil, Xanəli, Fatimə və bir də rəisin oğlu Fuaddan başqa heç kəs bilmirmiş. Ağaşamil qızına tapşırıbmış ki, bunu heç o biri qardaşları da bilməsin. Beləliklə, Nihat, heç nədən şübhələnmədən Əlifağanın, yaxud elə birbaşa Kobranın tapşırıqlarını yerinə yetirirmiş. Mənim fikrimcə, onlar Nihata tapşırıb ki, Qanturalın mənzilinin açarını ələ keçirib surətini çıxartsın. Nihatın artıq belə bir iş gördüyünü kapitan Əbilov öyrənmişdi. Nihat həmin açarın surətini Əlifağagilə verib. Nəzərdə tutulmuş qanlı cinayətin icrası Xədicənin toy gününə təyin edilib və Nihata onu da tapşırıblar ki, toyda Qanturalı içirdib yubatmağa çalışsın. Nihat, artıq, Qanturalla soyuq münasibətdə olduğu üçün bu işi öz işçisinə tapşırıb. O, yəqin belə fikirləşirmiş ki, Əlifağanın adamları gizlicə Qanturalın mənzilinə girib, orada həmin fotoşəkilləri axtaracaqlar. O bu işə köməklik göstərsə də, əslində, işin nəticəsindən qorxurmuş. Onun toyda çox narahat vəziyyətdə olduğunu Xədicə öz izahatında göstərmişdi.

Toyda Nihatın telefonuna zəng vurublarmış. Bu zəngi vuran, fikrimcə, Kobra olub. Başqasından oğurlanmış nömrədən. Kobra həmin toy gecəsi özünü Nihata Natalya kimi göstərib, ya kişi sifətində göstərib, bunu da deyə bilmərəm. Amma bu bir həqiqətdir ki, o, şadlıq evinin yaxınlığında Nihatı gözləyib və zəng vurub bildiriblər ki, Nihat on dəqiqə sonra çıxsın. Şahidlər də göstərib ki, Nihat zəng gələndən on dəqiqə sonra şadlıq evindən birdəfəlik çıxıb. O, haradasa,



downloaded from KitabYurdu.org

yaxınlıqda Kobranı öz maşınına götürüb və onun göstərişi ilə Kobra üçün kirayələnmiş kiçik həyət evinə sürüb. Həmin gizli həyət evi şadlıq evindən maşınla iyirmi dəqiqəlik məsafədədir.

- Sən onun qaldığı həyət evini tanıyırdın? - polkovnik qəfil soruşdu.

- Yox. - Ələmdar cavab verdi. - Srağagün öyrənmişəm.

- Yaxşı, davam et! - Baratov söhbətin ardını eşitmək üçün diqqətini bir az da topladı.

- Onlar həmin evə çatan kimi Kobra Nihatı öldürüb. Sonra onun başını kəsib həmin qara rəngli çantaya qoyub. Bu zaman, nədənsə, onun paltarlarını soyundurub götürməyib. Belə də oia bilər ki, Nihatı bıçaqlayıb öldürdüyü üçün onun köynəyi işə yaramayıb. Bir də onu qeyd edim ki, onun öz köynəyi ilə Nihatınkı oxşar imiş. Yəni, hər ikisi göy rəngdə imiş. Hə, sonra Nihatın barmağındakı qiymətli üzüyü çıxarıb özüylə götürüb. Qara çantanı Nihatın maşınına qoyaraq, onu Qanturalın yaşadığı evin qarşısına sürüb. Maşından düşüb bloka girərkən çörəksatan qadın onu görüb. Kobra mənzilin qapısını ona verilmiş açarla açıb içəriyə girib və orada Qanturalla Sənihənin toydan qayıtmalarını gözləyib.

Söhbət etməyə yanında bir rəfiqəsi olmayan Sənihə darıxaraq evə qayıtmaq istəyib və bunu Qanturala deyib. Qanturalın başı arvadının iş yoldaşı ilə söhbətə və içməyə qarışdığı üçün evə belə tezliklə qayıtmaq istəməyib. Onda Sənihə onun razılığı ilə qonşu binada yaşayan tanışlara qoşularaq evə qayıdıb.

O gələnə kimi mənzildə tək olan Kobra fotoşəkildən ötrü hər yeri axtarıbsa da tapa bilməyib. Axtarış zamanı


downloaded from KitabYurdu.org

Qanturala məxsus olan və dəstəyində hərflər cızılmış iri bıçaq əlinə keçib. Özü ilə bıçaq gətirməsinə baxmayaraq, qətli mənzildən tapdığı həmin bıçaqla törətməyi qərara alıb.

Mən Qanturalın mənzilində olarkən dəhlizin üstündə, artıq ev əşyalarını yığmaq üçün böyük rəf gördüm. Belə rəflər bir çox mənzillərdə olur. Lap
yəqin, Sənihə mənzilə girərkən, Kobra çıxıb orada gizlənib. Sənihə yarım saata qədər mənzildə özünü tək hesab edir, hətta bu təklikdən qorxu da keçirir, amma heç ağlına da gətirmir ki, qəddar bir cinayətkar onun bu qədər yaxınlığındadır.

Bir azdan sonra Qantural da evə qayıdıb. Kobra rəfdə uzanaraq, səbirlə onların yatağa girməyini gözləyib. Çünki onun qurduğu plana görə qurbanları ölərkən yataqda olmalı idilər. Toydan yarımsərxoş vəziyyətdə gəlmiş Qantural, yəqin ki, tez yatmaq istəyib və ər-arvad soyunaraq yatağa giriblər. Bunu duyan Kobra gizləndiyi yerdən düşərək, əlində bıçaq yataq otağına girib və qəfil hücumla Qanturalın sinəsinə zərbə endirib. Sonra qorxudan özünü itirib dəhşətə gəlmiş qadının başını kəsib. Daha sonra, ölmüş Qanturalın başını kəsərək, onu çantadakı
başla dəyişdirib. Nihatın başını çantadan çıxarıb Qanturalın qanına bulayaraq yatağa atıb. Bunu ona görə belə düşünürəm ki, kapitan Əbilovun deməyinə görə, ekspertlər başın boğaz hissəsindəki qandan da nümunə götürüblərmiş.

Hiyləsinin adi bir təsadüf üzündən açılacağından narahat olan Kobra Qanturalın bədənində xüsusi bir



downloaded from KitabYurdu.org

əlamətin olub-olmadığını öyrənmək üçün onun maykasını yuxarı sıyırıb. Meyitin sağ böyründəki yara yerini görəndə, şübhə yarada biləcək bu əlaməti yox etmək üçün oraya dalbadal bıçaq zərbələri vurub. Daha sonra, yeni bir şübhə hədəfi qoymamaq üçün meyitin sinəsini və qarnını da deşik-deşik edib. Axırda isə bıçağı meyitin sinəsinə saplayaraq, orada qoyub. Beləliklə meyitlə işini bitmiş hesab edib və bu zaman Nihatın
barmağından çıxartdığı üzüyü onun barmağına taxmağı da unutmayıb.

Kobra, ev sahibləri gələnədək, onsuz da fotoşəkli axtardığı üçün hər yerdə öz əl izini qoymuşdu. Amma yenə də, getməmişdən qabaq Qanturaiın çox işlətdiyi şəxsi əşyalardan Qanturalın əl izlərini silərək, öz əl izlərini qoyub. Bunlar ev sahibinin külqabısı, üzqırxanı, diş fırçası və digər şeylər olub ki, ekspertlər də məhz həmin əşyalardakı əl izlərini Qanturalın əl izləri kimi qəbul ediblər.
Həqiqi Qanturalın bədənini Nihatın bədəni hesab etdikləri üçün onun barmaqlarından götürülmüş izləri isə Nihatınkı kimi qəbul ediblər.

Kobra mənzildən çıxarkən əynindəki köynəyi çıxarıb Qanturalın köynəyini geyməyi, yəqin, əvvəldən düşünübmüş. Amma öz köynəyinin
yaxasına düşən qan ləkələrini, ola bilsin ki, görməyib. O, çıxarkən Qanturalın sənədlərini, telefonunu, maşınının açarını da özüylə götürüb. Mənzilin qapısını açarla bağlayıb həyətə düşüb və Qanturalın maşınına minərək, aradan çıxıb. Bu zaman pultun səsini eşidərək balkondan boylanan qonşu maşına minmək üzrə olan Kobranın yalnız


downloaded from KitabYurdu.org

əynindəki köynəyi görərək, onu yüz faiz əminliklə Qantural zənn edib.

İki-üç gün sonra hadisə yerində olan müstəntiq və polis əməkdaşları ilk baxışdan hər şeyin aydın olduğu qənaətinə gəlsələr də, öz vəzifələrini vicdanla yerinə yetirib, meyitlərdən qan nümunələrini, əl izləri- filanı, necə lazımdır, götürüblər. Amma Kobra bu cinayətin planını o qədər incəliklə düşünübmüş ki,
bütün qaydalara düzgün əməl etmələrinə baxmayaraq, təhqiqatçılar yanlış yola düşüblər.

Beləliklə, öz əl izlərinin polisdə Qanturalın əl izləri kimi qeyd olunmasına nail olan Kobra, artıq ölüb getmiş Qanturalın adından bir-birindən ağır cinayətlər törətməyə başlayıb. Polis isə, əl izlərinə əsaslanaraq, hər dəfə cinayətin Qantural tərəfindən törədilməsi barədə qəti hökm verib. Baxın, Kobranın qurduğu planın əsl üstünlüyü də bunda idi. O, nə qədər cinayət törədirsə, törətsin, polis yalnız Qanturalı axtaracaqdı. Qantural isə...

Ələmdar burada susdu. Deyəsən, danışmaqdan yorulmuşdu. Polkovnik Baratova elə gəldi ki, o danışığını bitirmək istəyir. Odur ki, bir daha qolundakı saata baxaraq, narazılıqla başını bulayıb dilləndi:

- Sən heç demədin axı, o hiyləgər ilanı necə tapdın?!

Yüzüncü fəsil

Ələmdar stolun üstündəki qrafindən stəkana su süzüb içdi. Mayor Cavadova ötəri bir nəzər salıb, yenə üzünü şöbə rəisinə tutdu:

- Mən həmin köynəkdəki qan ləkəsini görəndən və idman klubunda televiziya elanını eşidəndən sonra, əlimdə ciddi əsas olmasa da, aprelin 30-da və ondan sonra


downloaded from KitabYurdu.org

törədilən cinayətlərin Qantural tərəfindən yox, Valeri Barsov tərəfindən törədildiyinə əmin oldum. Əslində, Qantural bu cinayətləri törədib, polisin nəzərindən belə ustalıqla yayına da bilməzdi. O, peşəkar cani deyildi. Kobra isə bütün bunları asanlıqla bacarardı, çünki o, artıq təcrübəli və peşəkar bir qatil idi. Mayor Canəli Qismətovun
ölümünü yadınıza salın. Onun qarajında tapılmış cinayət alətində Qanturalın əl izləri müəyyən edildiyi üçün, hamı inandı ki, o, Qanturalın ailəsini tez-tez polisə çağırıb incitdiyi üçün öldürüldü. Əslində isə başqa cür də ola bilərdi. Mən Məltəmlə söhbət edəndə öyrəndim ki, o, qadının mənzilində olub, «Çəməndağ» kafesində kimlərlə olduğunu deməyəcəyi təqdirdə onu polisə aparacağı ilə hədələyib və bazar günü, yəni iki gün sonra yenə onun yanına gələcəyini deyib. Qorxuya düşmüş qadın bu barədə zəng vurub Nəcməddinə bildirib və beləliklə Qismətov Əlifağanın göstərişi ilə Kobra tərəfindən aradan götürülüb.

Beləliklə, əslində, mən Kobranın Bakıda nə işlə məşğul olduğunu bilmiş oldum. Deməli, o, Ağaşamil ailəsinin ətrafında dolaşır, onları bir-bir aradan
götürürdü. Salehin günahsız olduğuna az-çox inandığım üçün, hələ onda Rafiqin Ağaşamil ailəsi tərəfindən qətlə yetirilməsi barədə məndə şübhələr yarandı. Axı mən, hələ aprelin əvvəlində həmin oğlanın Fatiməyə sataşdığının və ondan əl çəkmək istəmədiyinin şahidi olmuşdum!..

Amma bunu hələ dəqiq deyə bilməzdim. Bir onu bilirdim ki, Ağaşamil ailəsini hədələyən təhlükə onların və polisin düşündüyündən daha böyük və qorxuludur. Çünki mən, artıq, onların izinə düşən qatilin Qantural yox,


downloaded from KitabYurdu.org

təhlükəli cinayətkar Valeri Barsov olduğunu bilirdim. Onda Xanəli polisdə müvəqqəti həbsdə idi. Qanturalın qardaşı Ələkbərin ölümündə təqsirli bilinib tutulmuşdu. Mən düşündüm ki, o polisdən buraxılan kimi Kobra onu öldürəcək və bunu hamı Qanturalın intiqamı kimi başa düşəcək.

Kapitan Əbilova zəng vurub xahiş etdim ki, Xanəlini hələlik polisdən buraxmasın. Və bir də məsləhət gördüm ki, Ağaşamilin ailəsi ciddi şəkildə qorunsun. Onun deməyindən belə anladım ki, polis onsuz da bu ailəni qoruyur... Amma əslində, kimdən? Yalnız Qanturaldan! Polis əməkdaşlarında Qanturalın şəkli var idi və onların gözü hər yerdə yalnız Qanturalı axtarırdı. Mən isə əmin idim ki, Qantural yoxdur, o ölüb. Başa düşürdüm ki, Xanəli də, ailənin digər üzvləri də, yeri-yurdu bilinməyən, üzü polisdə tanınmayan, eyni zamanda olduqca bacarıqlı bir cani olan Kobradan qorunmalıdır. Amma bunu Əbilova deyə bilmirdim.

Onu da deyim ki, mən artıq Ələkbərin kim tərəfindən öldürüldüyünü anlayırdım. Polis Xanəlidən şübhələnsə də, onun Ələkbəri kimə öldürtdüyünü
bilmirdi. Məsələ burasındadır ki, Xanəli üç mühafizəçisindən Səlahəddin adlı birinin varlığını polisdən gizlətmişdi və mənim də bundan xəbərim var idi. Mən Səlahəddinin üzünü görməmişdim, amma inanırdım ki, Ələkbəri Xanəlinin göstərişi ilə öldürən odur. Onun Bakıya, guya Qusardan gəldiyini və üz-gözündən heç də dinc adama oxşamadığını da eşitmişdim.

Deməli, başqaları da, mənim kimi, Ələkbərin ölümündə Xanəlidən şübhələnirdi və mən inanırdım ki, onsuz da, bu



downloaded from KitabYurdu.org

ailədən qisas alan «yalançı Qantural» Xanəli polisdən buraxılan kimi növbəti qisas hədəfi onu seçəcək. Amma mən Kobranın harada gizləndiyini, qəflətən haradan çıxıb cinayət törədərək yox olacağını bilmirdim. Mən hələ deyə bilmirdim ki, onun izinə düşmüşəm, yoxsa yox. Lap düşmüşdümsə də, bu iz çox şübhəli bir iz idi. Amma yenə də yeganə çarə Xanəlinin və qardaşının ətrafında dolanıb, onu gözləmək idi. Daha çox da Xanəlinin!

Polkovnik Baratovla mayor Cavadov Ələmdara çox diqqətlə qulaq asırdılar. O, yenə qrafindən su tökərək içdi və söhbətinə davam etdi:

- Mayın 30-da kapitan Əbilov Xanəlini, mənə xəbər vermədən, evə buraxıb. Gecə isə polis əməkdaşları ilə birlikdə onun həyətinə kənardan nəzarət etməyə başlayıb. Mən bunu gec bildim və bilən kimi də dərhal oraya getdim...

Polkovnik Baratov yerində qurcuxub onun sözünü kəsdi:

- Kapitan Əbilov əməliyyat keçirəcəyini sənə əvvəldən desəydi, yəqin ki, o gecə həmin üç nəfər sağ qalardı. Amma əslində, onu bir o qədər də qınamıram. Çünki o həmin gecə Qanturalı gözləyirmiş, Kobranı yox!

Ələmdar başını buladı:

- Mən indi qəti deyə bilmərəm ki, əvvəldən Əbilovun yanında olsaydım o üç nəfər sağ qalacaqdı. Çünki Kobra onda heç birimizin ağlımıza gəlməyəcək bir yerdə idi. Yəni Xanəlinin öz yanında... Amma... ola bilsin, mən orada olsaydım, hadisəni törədib qaçanda onu yaxalaya bilərdik və bununla da Səxavətin həyatı xilas olunardı. Xanəlinin və oğlunun xilası isə həmin vaxt artıq



downloaded from KitabYurdu.org

mümkünsüz kimi bir şey idi. Hə... - Ələmdar dərindən köks ötürdü. - Mən ora çatanda, artıq, hər üçü öldürülmüşdü. Diqqətimi, birinci olaraq, həyətdəki meyit cəlb etdi. Başa düşdüm ki, bu cavan
oğlan mühafizəçilərdən biridir. Bəs o birilər? Bəs heç olmasa, Səlahəddin? Onun varlığından Əbilovun xəbəri yox idisə də, mənim xəbərim var idi... Mühafizəçinin yıxılma vəziyyəti məni dərhal şübhələndirdi. O, tapança ilə sinəsindən vurulmuşdu. Həyətdəki asfaltın üstünə elə yıxılmışdı ki, sanki evə tərəf gələn adam tərəfindən yox, evdən gedən tərəfindən vurulub. Bunu yerə düşmüş tapança gülləsinin gilizi də sübut edirdi. Sonra evə çıxdım. Xanəli, düz qapının ağzında bıçaqla vurulmuşdu. Yanında iri qan gölməçəsi əmələ gəlmişdi. Tapançası da həmin bu qan gölməçəsinin içində idi.

Tapançanı ehtiyatla qaldırıb baxdım. Onun altında qana bulaşmamış bircə nöqtə də qalmamışdı. Əgər o tapança, Xanəli qapıya gedəndə
onun əlində olsaydı və vurulduğu anda əlindən düşsəydi belə olmazdı. Bədənindən axan qan tapançanın ətrafını bürüyəndə onun alt hissəsinin hər yerini bulamazdı. Başa düşdüm ki, tapança oraya Xanəli yerə yıxılandan sonra atılıb. Deməli, Xanəli qapını açmağa gedərkən, tapança əlində olmayıbmış. Bu nə deməkdir? Bu o deməkdir ki, Xanəli qapını açmağa gedəndə heç bir təhlükə hiss etməyib. Yəni düşmən hesab etmədiyi bir adam səsləyib onu... Yaxud qapını döyübsə də, düşmən hesab etmədiyi adamı görüb qapıda və silahını əlinə almadan qapını açıb. Bu adam kim ola bilərdi? Küçə nəzarət altında idi və kənar adam, yəni dostundan, tanışından bir adam gəlsəydi, polis


downloaded from KitabYurdu.org

onu görərdi. Deməli, o adam elə həyətdəki mühafizəçilərdən olub və bu da ancaq Səlahəddin ola bilərdi. Həmin ölən
mühafizəçi yalnız Səlahəddinin həyətdə olduğunu gizlədə bilərdi polisdən. Beləliklə, mən orada olarkən artıq Kobranın izinə düşdüm. Bildim ki, Səlahəddin elə Kobranın özüdür!..

Bunu dəqiqləşdirmək üçün səhər öz uşaqlarımızla qəbiristanlığa gedib, dəfndə iştirak etdim. Təsəvvür edə bilməzsiniz ki, mən orada, Səxavətin arxasında dayanmış Kobranı görüb tanıyanda hansı hissləri keçirtdim... On üç ildən sonra ilk dəfə idi ki, görürdüm onu. O, tanınmamaq üçün uzun, sallaq bığ saxlamış, saçlarını başqa formada kəsdirmişdi. Ailə üzvlərindən hesab etdiyim bir uşaqdan onun kimliyini soruşdum.
«Səlahəddindir, - dedi. - Rəhmətlik Xanəli əminin işçisi».

Mən, əlbəttə, dərhal sizə zəng vurub məlumat verə bilərdim. Yəqin ki, siz, o qədər də çətinlik çəkmədən, onu tuta bilərdiniz... Mən bəlkə də on üç il əvvəl verdiyim sözün üstündən keçib, bunu edərdim. Bəlkə də intiqam həvəsimi vəzifə borcuma qurban verə bilərdim. Amma həmin gecə Xanəlinin oğlunun meyitini görmüşdüm. Çox gözəl, ağıllı gözləri var idi o uşağın və özüm öz əllərimlə qapamışdım o gözləri. Ürəyimdəki intiqam alovunun üstünə benzin tökmüşdülər elə bil. Mən mütləq onu öldürməliydim. Özü də gözlərinin içinə baxıb, əzabla öldürməliydim!.. Özümü ona göstərmək istəmədiyim üçün uşaqlara tapşırdım ki, onun haralara getdiyini öyrənsinlər. Salehlə söhbət edib həbsxanadan çıxanda mənə mesajla onun qaldığı evin ünvanını göndərdilər. Daha sonra isə


downloaded from KitabYurdu.org

öyrəndim ki, o, şəhərdə
bir qədər hərlənəndən sonra, axşamüstü həmin evə gedib və tez də çıxıb. Ondan sonra bizim uşaqlar onun izini itiriblər.

Gecə, şəhərin bu biri başında, qəsəbədə yerləşən həmin həyət evinə getdim. Darvazada da, evin qapısında da qıfıl var idi. Pəncərədən girib evi axtardım. Bu bir otaq və bir mətbəxdən ibarət kiçik evdir. Tək çarpayıya salınmış yatağı iyləyəndə bildim ki, Kobra nə vaxtsa orada yatıb. O, otaqda heç bir iz qoymamışdı. Ancaq şkafda, təkcə Qanturalın axırıncı dəfə geydiyi köynəyə rast gəldim. Mətbəxdə içində ərzaq olan soyuducunun elektrik xəttindən ayrıldığını görəndə, başa düşdüm ki, Kobra oradan birdəfəlik çıxıb. Bu, doğrusu, məni çox dilxor elədi. Deməli, mən onu yenə itirmişdim...

Amma bir şey mənə təskinlik verirdi. Mən onu qəbiristanlıqda, Səxavətin yanında görmüşdüm. Bu o demək idi ki, Kobra öz işini hələ başa çatdırmayıb və qarşıda hələ Səxavətin öldürülməsi var... Deməli, növbə Səxavətin idi və nə yaxşı ki, mən artıq bunu bilirdim.

Evin həyətinə göz gəzdirəndə gördüm ki, bu həyətə çoxdan qulluq olunmur. Təkcə, divarın dibində sıra ilə əkilmiş beş qızılgül kolunun ətrafı bir- iki ay əvvəl bellənənə oxşayırdı. Kolların beşinin də budaqları yarıya qədər qurumuşdu. Başa düşdüm ki, onların dibi bellənməyib. Onlar kötüklərindən çıxarılıb, yenidən əkilib. Belə olanda köklər öz yerini tutub fəaliyyətə başlayana qədər, budaqların uc hissəsində quruma baş verir. Xüsusilə də, onda ki, belə iri kolları çıxarıb yenidən əkəndən sonra hər


downloaded from KitabYurdu.org

gün sulamayasan. Nə isə!.. Mənə aydın oldu ki, bu qızılgül kollarının altında nəsə basdırılıb... Yəqin ki, nə demək istədiyimi başa düşdünüz?..

- Aydındır! - Baratov kədərlə köksünü ötürüb dilləndi. - Sən davam elə!

- Beləliklə, mənə hər şey məlum oldu. - Ələmdar hər iki əlinin pəncələrini geniş açıb, yenə yumdu. - Mən qərara aldım ki, Səxavətlə eyni mənzildə gecələyib Kobranın gəlməsini gözləyəcəm. Kobranı tutmaq üçün daha başqa çarə də qalmamışdı... Birinci gecə Ağaşamiiin halı yaxşı olmadığı üçün Səxavət də, bacısı Fatimə də xəstəxanada gecələdi. Orada polisdən nəzarətçilər olduğu üçün Kobra oraya getməzdi. Səxavət qorxaq adam idi. Həm də, necə deyim, birtəhər xasiyyəti var idi. Ona görə də mən onunla işbirliyi qurub, hər şeyi
onunla açıq danışa bilmirdim. Düşünürdüm ki, Səlahəddinin əslində kim olduğunu bilsə, qorxusundan onu tanıdığını büruzə verər, yaxud başqa bir hoqqa çıxarıb mənim planımı poza bilər. Ona görə də, onu Qanturaldan qorumaq istədiyimi demişdim. İkinci gecə Səxavət qorxusundan yenə öz evində yox, xəstəxanada gecələdi. Nəhayət, bu gecə başqa çarəsi qalmadığı üçün bacısıgildə qalmağa məcbur oldu və mən də oraya getdim. Mən, doğrusu, artıq bərk narahat olmağa başlamışdım. Kobra Səxavətin üstünə gəlmədən, Bakıdan çıxıb gedə bilərdi...

Mən Səxavətə demişdim ki, qapını heç kəsə açmasın. Ancaq o Səlahəddinə məndən daha çox etibar edirdi. İş elə gətirdi ki, gecə Kobra qapının zəngini çalanda Səxavət ayaq üstə idi. Mən onu
saxlaya bilmədim. Gözlükdən baxıb, Səlahəddin hesab



downloaded from KitabYurdu.org

etdiyi Kobranı görən kimi qapını açdı. Kobra onu vurdu. Otağa girib bacısını da öldürmək istəyəndə mən mane oldum. Sonra o qaçdı və qalanı daha sizə məlumdur...

- O, qapının zəngini hansı bəhanə ilə çalmışdı gecə vaxtı? - Baratov soruşdu.

- Su istəyirdi. - Ələmdar cavab verdi. - Bir-iki saat əvvəl zəng vurub Səxavətə demişdi ki, mən səhərə qədər həyətdə olub, sizi qoruyacam. Səxavət onun həyətdə olduğunu bilirdi. Mən də!.. Gecə də, guya ki, bərk susayıbmış. O, yəqin, Xanəlinin də qapısını döyəndə su bəhanəsi ilə döyübmüş.

Polkovnik Baratov yenə saatına baxdı. Artıq, saat ikiyə işləyirdi.

- Çox sağ ol, Leopard! - dedi. - Artıq mən nazirlikdə Valeri Barsovu necə tapmağımız barədə hesabat verə biləcəm. Səninlə daha geniş söhbətə yəqin ki, vaxt tapacağıq. Mənə elə gəlir, sənin adın olmayacaq bu işdə. Gecə Səxavətin mənzilində qalan da sən olmamısan. Hesab edək ki, baş leytenant Yusifov olub. O qızla da danışacağıq bu barədə. Səxavətin bacısıyla... Amma sən gördüyün işin mükafatını məndən alacaqsan. Bundan arxayın ol!

- Mənə heç nə lazım deyil! - Ələmdar ciddi şəkildə etiraz etdi. - Mən Kobradan öz intiqamımı almışam. Demək olar ki, şəxsi... Bu erməni dığası Xankəndidə məni təhqir etmək istədi və on üç il sonra da olsa cavabını aldı. Elə Bakıya gəlməsi də, o uşağı öldürməsi də, təhqir idi mənim üçün... Onun
yaşaması, bildiyini eləməsi mənliyimə toxunurdu mənim.

- Yaxşı, Leopard, bunlar barədə sonra danışarıq! -



downloaded from KitabYurdu.org

Baratov bunu deyib, müavininə baxdı. - Cavadov, ətrafı təmizlə, Leopard çıxsın. Sonra isə sürücüyə de, maşını hazırlasın, nazirliyə gecikə bilərəm.

Cavadov qalxıb otaqdan çıxdı. Leopard da ayağa durdu və bir anlıq nəsə düşünüb:

- Cənab polkovnik, sizdən iki xahişim var! - dedi.

- Buyur?! - Polkovnik təəccübləndi.

- Tapşırın, Salehin arvadını heç bir inzibati orqana çağırıb çək-çevirə salmasınlar. Daha doğrusu, ümumiyyətlə, çağırmasınlar heç yana. Onu bu işlərə qarışdırmasınlar.

- Yaxşı... - Baratov fikirli halda dilləndi və birdən mənalı tərzdə gülümsədi. - Amma... Bilmək olarmı, nə üçün?

- O, Xankəndidəki əsir düşərgəsində özünə qəsd edən, mənim meyitini alıb gətirdiyim həmin qadının bacısıdır. Mən onun ruhu qarşısında özümü borclu bilirəm. Həm də Məltəmin baş vermiş bu hadisələrdə heç bir günahı olmayıb. Onun çox gözəl uşaqları var. Ailəsinin dağılmağını istəmirəm. Onu da deyim ki, kapitan Əbilov onu tapmışdı. Tutub polis idarəsinə aparmaq istəyəndə, mən onu qaçırdım.

İndi o, bir tanışımın evində gizlənir. Xahiş edirəm, onun başına gələnlər sirr kimi saxlanılsın!

- Bu düzələr! - polkovnik razılıqla başını yellədi. - Bu barədə xahiş edərəm. Qaçırılmasından da narahat olma! Deyərəm ki, qurduğumuz əməliyyat planının pozulmaması üçün onu da, ofisiantı da mənim əmrimlə qaçırıblar. Bəs ikinci xahişin nədir?

Ələmdar bu dəfə bir az gec dilləndi:



downloaded from KitabYurdu.org

- İkinci xahişim də budur ki, məni gizli agentlikdən azad edib, döyüşən orduya keçirin. Bir alay komandirliyi versələr, lap yaxşı olar.

- Niyə?! - şöbə rəisi heyrətləndi.

-Açıq döyüşmək istəyirəm, cənab polkovnik! Üz-üzə! Bezmişəm kimliyimi gizlətməkdən, gizli fəaliyyət göstərməkdən. Doğmaca anam da bilmir ki, mən dövlətə qulluq edirəm. Məni avaranın, tüfeylinin biri hesab edir...

Baratov çənəsini ovuşdurub bir neçə saniyəlik fikrə gedəndən sonra dilləndi:

- Leopard, əzizim, birincisi, biz bu saat tam müharibə etmirik ki, sən gedib döyüşəsən. Heç,
əslində, müharibə olmağını da istəmirik. İkincisi, lap müharibə olsa da, döyüşməyə ürəyin istədiyi qədər bacarıqlı zabitimiz də var, igid əsgərimiz də. Sənin kimiiərə isə indi də, sabah da ehtiyacımız olacaq. Nə qədər ki bizi istəməyənlər var, həmişə ayıq olmalıyıq! Həmişə! Düşmən ölməyib, ölməyəcək də!

- Xahiş edirəm, cənab polkovnik! - Ələmdar israr etdi. - O qədər torpaqlarımızı alıblar, Kobra kimi qatillər həmin torpaqlarda gəzirlər, mənsə burada rahat oturmuşam.

- Yaxşı, get, Leopard! - Baratov yalandan əsəbiləşdi. - Görürəm, hələ çoxlarının qarnını cırmaq istəyirsən. Sonra baxarıq bu məsələyə!

- Nə vaxt? - Ələmdar əl çəkmədi.

- Üç-dörd aya bir hərbi hissə təşkil olunmalıdı. Çağıraram səni! Amma hələ fikirləşməliyəm.

- Sağ olun, cənab polkovnik! - Ələmdar qapıya doğru getdi.

- Sənə yaxşı yol! - Baratov onun arxasınca dedi. - Get,



downloaded from KitabYurdu.org

dincəl!

Ələmdar birdən geriyə qayıdıb:

- Sizə Kobranın qaldığı evin ünvanı lazım deyil? - deyə soruşdu.

- Lap başımı itirmişəm! - polkovnik ucadan dilləndi. - Əlbəttə, lazımdır! Elə bu gün orada axtarış aparmalıyıq!

Ələmdar ünvanı bir vərəqə yazıb rəisə uzatdı:

- İnanıram ki, o qızılgül kollarının altını qazsalar oradan bir bədən, bir baş tapacaqlar!

Baratov vərəqi ondan aldı:

- Bu Qanturalı axtaranlar üçün də sürpriz olacaq. Sağ ol, mənim Leopardım! İndisə, get daha!
Get, dincəl!

Ələmdar boş dəhlizlə gedib, həyətə düşdü. Həyətdə də heç kəs yox idi. Küçəyə çıxıb, sakit səki ilə bir qədər addımlayandan sonra tində saxladığı maşınına mindi. Onu işə salmamışdan qabaq haraya gedəcəyi barədə düşündü. Çox sakit idi. Amma eyni zamanda, ürəyində bir boşluq hiss edirdi, elə bil. Kobradan intiqamını almaqla, ən böyük arzularından birinə çatmışdı. Bəlkə indi, doğrudan da, bir az dincəlmək olardı?.. Yox! Özünü heç yorğun-filan hiss etmirdi Ələmdar. Fatiməyə baş çəkib bir az təskinlik vermək lazım idi ona. Ancaq onun yanına sonra gedərdi. Axşamüstü. İndisə, Məltəmə, uşaqlarına şad xəbər vermək daha yaxşı olardı. Qoy bilsinlər ki, Saleh lap tezliklə həbsdən buraxılacaq. Hə, qoy
sevinsinlər! Onsuz da bütün sirlər açılacaqdı bu
gün...

Maşını işə salıb, onu birbaş Miraslanovun malikanəsinə sürdü. Darvazadan içəri girəndə həyətdə uşaqları ilə



downloaded from KitabYurdu.org

oturmuş Məltəm ayağa qalxıb hədsiz sevinclə onun qarşısına yeridi və:

- Nə yaxşı gəldin, Ələmdar qardaş! - dedi.

EPİLOQ

«Ermənistanın silahlı qüvvələri Ağdamın işğal altındakı ərazilərində yenidən hərbi təlimlərə başlayıb. Hərbi təlimlər bir saata qədər davam edib...»

(Azərbaycanın televiziya kanallarının birində verilən xəbərdən. 17 noyabr 2006-cı il). Həmin ilin noyabr ayı idi. Ayın on yeddisi. Bu gün Bakıda hava küləksiz olsa da, bir qədər soyuq hiss olunurdu. Göyün üzü nazik buludlarla örtülmüşdü. Günortaya qədər havanı bir az ılıqlandıran Günəşin qarşısını günortadan sonra həmin bu nazik buludlar tutmuş, hava bir az da soyumuşdu.

Tünd yaşıl rəngli, «Volvo» markalı avtomobil şəhərin kənarındakı böyük qəbiristanlığa daxil oldu. Ələmdarla Fatimə maşından düşüb qəbirlərin arası ilə yeriməyə başladılar. Onlar bir az əvvəl şəhərdə təsadüfən rastlaşmışdılar. Öz maşınında avtobus dayanacağının yanından keçən Ələmdar, əlində bir dəstə gül tutmuş Fatimənin burada dayandığını görüb, maşını saxlamış, onun hara getmək istədiyini soruşmuşdu. Qızın qəbiristanlığa gəlmək fikrində olduğunu biləndə isə ondan əl çəkməmiş, təkidlə maşına əyləşdirmişdi. Onsuz da bu gün bekar idi və bir neçə saat vaxtını Fatiməyə həsr etmək onun da ürəyindən olacaqdı.

Gəlib Ağaşamil ailəsinə məxsus olan yerə çatdılar. Qəbirlərin üstünə hələ daş salınmamışdı. Hələ də torpaq təpəsindən ibarət idi bu qəbirlər.

Təpələrin qarşısına altında yatanların şəkli və adı yazılmış



downloaded from KitabYurdu.org

lövhələr vurulmuşdu. Ələmdar onlara bir-bir göz gəzdirdi: «Nihat, Tamerlan, Cahangir, Xanəli, Fətəli, Səxavət...»

Dönüb Fatiməyə baxdı. Başdan ayağa qara rəngdə geyinmiş, başına qara örpək bağlamış qızın gözləri dolmuşdu. Ancaq ağlayıb ürəyini boşaltmaq fikrində deyildi, deyəsən. Elə ona görə də alt dodağını dişlərinin arasına alıb bərk-bərk sıxırdı.

- Allah rəhmət eləsin! - Ələmdar kədərlə dilləndi.

- Çox sağ olun! Allah sizin də ölənlərinizə rəhmət eləsin... - qız titrək səslə cavab verdi.

Sonra arada yenə sükut yarandı. Sakitcə dayanıb qəbirlərə baxdılar. Qəbiristanlıqda onlardan başqa bir nəfər də var idi. Bu cavan oğlan onlardan aralıda, iki torpaq qəbrin qarşısında heykəl kimi dayanmışdı. Ələmdar yenə qızı danışdırmaq istədi:

- Bəs ananın qəbri haradadı, Fatimə?

Fatimə ah çəkdi:

- O başqa qəbiristanlıqdadır. Atasının yanında dəfn eləyiblər onu... Anam öləndə bu yeri hələ götürməmişdi atam...

Ələmdarın Fatiməyə yazığı gəlirdi. Əvvəl anasını itirmişdi, sonra da az vaxtın içində başına bu qədər bəla gəldi. Qardaşları öldü, nişanlısı dönük çıxdı... İndi, deməyinə görə, evdə Cahangirin oğlu ilə qalırdı. Atası belə istəmişdi, Nəzakət də bir söz deyə bilməyib razılaşmışdı.

Ağaşamil həbs olunmuşdu... Fatimə, özü üçün nə qədər ağır olsa da, ona təklif etmişdi ki, qoy Xanəlinin üstündə qalsın Rafiqin öldürülməyi. Ancaq Ağaşamil razılaşmamışdı buna. Demişdi ki, Xanəli sağ olsaydı və bunu özü istəsəydi, bəlkə də razı olardım, amma


downloaded from KitabYurdu.org

indi şər ata bilmərəm ona... Bir çox şeyi nəzərə alıb, az iş kəsmişdilər Ağaşamilə və həmin koloniyaya göndərmişdilər. Salehin bir aya yaxın yatdığı koloniyaya. Rizvan onu çox böyük hörmətlə qarşılayıbmış. İndi də, deyilənə görə, Dördbarmaq Ağaşamilin vəziyyəti pis deyildi orada...

- Atandan nə xəbər var? - Ələmdar soruşdu.

- Ağakərim gedib-gəlir yanına. - Fatimə cavab verdi. - Bibim oğlu. Deyir, yaxşıdır... Amma ürəyi çox möhkəm imiş...

- Kimin? - Ələmdarın fikri yayınmışdı, deyəsən.

-Atamı deyirəm. Səxavətin də ölümünü eşitdi, dözdü... Axırda biləndə ki, oğlanlarını ondan intiqam almaq üçün öldürüblər, yenə peşman olmadı o gorbagoru vurmağına. Dedi, beş oğlum da olsa, yenə qurban verərəm Fatimənin namusuna... Ancaq dedi, mən Əlifağanın oğlunu bir dəfə öldürdüm, o alçaq da gərək məni bir dəfə öldürəydi, intiqam alırdısa. Daha altı dəfə öldürüb diriltməyəydi...

- Doğrudan da çox qəddarcasına qisas aldılar kişidən. - Ələmdar köksünü ötürdü.

- Fətəlinin ölümü daha çox yandırdı onu. Dilindən bir dəqiqə düşmürdü. - Fatimə bunu deyib, daha özünü saxlaya bilmədi və hıçqırıb ağladı.

Ələmdar əlini onun çiyninə qoyub, təskinlik verməyə çalışdı:

-Ağlama, özünü ələ al. İntiqamı yerdə qalmadı bunların. Sən o erməninin sifətindəki son əzabları görsəydin, yəqin ki, rəhmin gələrdi ona...

- Bir də, Nihata görə çox peşmançılıq çəkdi kişi? - qız



downloaded from KitabYurdu.org

göz yaşlarını qurulayıb, davam etdi. - Onun hörmətsiz dəfn olunmasını, ruhunun təhqir edilməsini dərd edirdi özünə...

Elə həmin gün, iyunun 3-də polkovnik Baratov nazirlikdə hesabat verəndən sonra hər şey aşkar olmuş, lazımi məlumatlar polis idarəsinə və prokurorluğa göndərilmişdi. Kobra üçün kirayələnmiş evin həyətində qazıntı aparıb Nihatın başsız bədəniylə, Qanturalın kəsilmiş başını çıxarmışdılar. Sonra isə Nihatın qəbri açılmışdı. Bu dəfə Nihatın öz cəsədi qəbrə tapşırılmış, Qanturalın başıyla bədəni isə Zəkixan ailəsinə verilmişdi.

Ələmdar bunları öz gözlərilə görməmişdi. Amma kapitan Əbilovun ona danışdığına görə həmin gün Zəkixanın ailəsi üçün çox dəhşətli bir gün olubmuş.
Zəkixan kişi elə o günün axşamı oğlunun başı bədənindən ayrılmış cəsədini alıb, Ələkbərin yanında dəfn edibmiş. Əbilov deyirdi ki, kişi əməlli- başlı havalanmışdı eşitdiyi xəbərlərin təsirindən...

Bayaqdan iki torpaq qəbrin qarşısında dayanmış oğlan hərəkətə gəlib qəbiristanlığın çıxışına doğru addımladı. O, istər-istəməz, gəlib Ələmdarla Fatimənin dayandığı yerin yaxınlığından keçməliydi. Artıq onlara yaxınlaşmışdı və Ələmdarın ona göz qoyduğunu görən Fatimə bir qədər həyəcanlı ahənglə:

- Qanturalın qardaşıdır, - dedi.

- Hə... - Ələmdar başını tərpətdi. - Mən də elə düşündüm. Siz tanışsınız?

- Yox... - Fatimə tutuldu. - Mən onu bir dəfə görmüşdüm. Qardaşının adamları mənim qarşımı kəsdiyi gün... Onda bu məni müdafiə etmək istəyirdi...

Oğlan onların yaxınlığından keçəndə oğrun nəzərlərlə


downloaded from KitabYurdu.org

Fatiməyə baxırdı. Bu, Ələmdarın nəzərindən yayınmadı. Oğlanı səsləyib, yaxına çağırdı. O, gəlib qarşısında dayananda:

- Rəhmətlik Qanturalın qardaşısan? - deyə soruşdu.
- Hə...
- Gəl, tanış olaq. Ələmdar. - Ələmdar əlini ona uzatdı.
- Fərhad, - oğlan da ona əl verdi.
- Maşınlasan?
- Yox. - Fərhad başını buladı. - Dayanacağa qədər gedib, avtobusa minəcəm.
- Gedək, mən şəhərə qədər aparacam səni.
- Yox, siz zəhmət çəkməyin! Mən özüm gedəcəm.
- Gəl, görək, həm də səninlə söhbətim var. - Ələmdar etiraza yol verməyən səslə dillənib, qabağa düşdü.

Qəbiristanlıqdan çıxıb maşına əyləşdilər. Fərhad bir qədər çəkingən hərəkətlə qapını açıb, ön tərəfdə, Ələmdarın yanında oturdu. Fatimə isə, buraya gələndə olduğu kimi, arxaya keçdi. Şəhərə tərəf yola düşdülər.

Əvvəl bir qədər sükut yarandı aralarında. Heç biri danışmırdı. Fərhad da, Fatimə də sıxılırdılar elə bil. Birinci olaraq, Ələmdar dillənib üzünü Fərhada tutdu:

- Bir erməninin qurduğu hiyləgər planın ucbatından sizin ailələriniz arasında əməlli-başlı düşmənçilik yaranmışdı. Ancaq yaxşı ki, sonra hər şey məlum oldu. Bəs sizin ailənizdə indi necədir münasibət? Atangil nə düşünürlər bu barədə?

Fərhad bir qədər duruxub, boğazını arıtiayandan sonra danışmağa başladı:

- Dediyiniz kimi, hər şey aydın oldu. Bilindi ki, Qanturalın heç bir günahı yox imiş. Nə də onların... Amma



downloaded from KitabYurdu.org

Ələkbərin ölümü... Atam onu unuda bilmir. Bir də Ələkbərin arvadı. Rəhmətlik Xanəlidən bilirlər bunu. Elə anam da...

- Bəs sən? Bacın? - Ələmdar soruşdu.

Fərhad yenə bir az gec dilləndi:

-Vallah, mən əvvəl də düşmənçiliyin əleyhinə idim. İndi hər şey bilinəndən sonra da görürsən ki, qınamaq olmur heç kəsi. Xanəli elə bilirdi ki, onun qardaşlarını Qantural öldürüb. Tək o yox, elə hamı
belə bilirdi. Sonra da bacısına qarşı o hərəkəti elədilər... Mən əvvəldən dedim ki, lazım deyil belə işlər. Əsmər də biləndə Xanəlinin oğlu üçün nə qədər göz yaşı tökdü. Heç Ələkbər üçün, Qantural üçün o qədər ağlamamışdı. Oktyabrın əvvəlində gedib girib direktorun kabinetinə, xahiş edib ki, onu altıncı sinfin rəhbərliyindən azad etsinlər. Direktor təəccüblənib, səbəbini soruşub. Bu da deyib ki, girə bilmirəm o sinfə, Fətəli yadıma düşür...

Fərhad bunu deyəndə arxada hıçqırıq səsi eşidildi. Hər ikisi geriyə boylanıb Fatimənin yaylıqla gözünü quruladığını gördülər. Ələmdar ona nəsə təskinlikverici bir söz demək istədi, amma nədənsə fikrindən vaz keçib yenə Fərhada baxdı:

- Qulaq as, Fərhad! Mənim bu işin istintaqından axıra qədər xəbərim var. Xanəlinin Qulu adında bir
mühafizəçisi ifadə verib ki, nə Ələkbərin ölümündə, nə də bacın Əsmərin qaçırılmasında Xanəlinin xüsusi təşəbbüsü olub. O, Ələkbərin oğlunu oğurlamağı tapşırıbmış, həmin erməni isə bilərəkdən Əsməri qaçırıb. Niyə? Əlbəttə, iki ailə arasındakı düşmənçiliyi bir az da qızışdırmaq üçün. Bu ona sərf edirdi. Sonra Qulunun deməyinə görə, Ələkbərin



downloaded from KitabYurdu.org

öldürülməsi məsələsini də, konkret olaraq, o atıb ortaya. Xanəlini bu işə güclə razı salıb. Görürsənmi, düşmən öz işini gizlicə görüb. Siz isə bir-birinizə qatı düşmən olmusunuz. Sən bunları atana da, o biri qohumlarına da başa sal. Kin saxlamağın heç bir mənası yoxdur. Özü də boş yerə!..

Fərhad bilmirdi ki, ona nəsihət verən bu adam kimdir. Onu gah Fatimənin qohumu hesab edirdi, gah da... O, Fatimənin nişanlısını görmüşdü və
onların ayrılmaqlarından da xəbəri var idi. Amma... Bu nəyidir, görəsən Fatimənin?.. Hiss etdi ki, deyəsən, qızı qısqanır bu adama...

- Əmingil necə baxırlar bu işə? - Ələmdarın səsi onu fikirdən ayırdı. - Səhv eləmirəmsə, Qanturalın arvadı əminizin qızı idi...

- Hə... - Fərhad başını kədərlə tərpətdi. - Qanturaiı dəfn eləyəndən bir-iki gün sonra atamla ikimiz getdik rayona. Əmimgilin kəndinə... Bizi yaxşı qarşılamadı əmim. Sənihənin məzarının üstünə getdik. Atam ağladı qəbrin üstündə... İşin əslini öyrənəndən sonra orada da vay-şivən düşmüşdü. Əmimin arvadı heç qəbrə yaxınlaşmağa qoymurdu bizi. Atam nə qədər dil-ağız elədi, nə qədər yalvardı... Bir gecə qalıb, qayıtdıq. Səhər gələndə də soyuq yola saldılar bizi...

- Darıxmayın, hər şey yoluna düşəcək yavaş- yavaş. - Ələmdar dedi. - Bu hadisələrdə Fatiməgilin ailəsi sizdən də çox bəla çəkdi.

Fərhad maşına minəndən ikinci dəfə qanrılıb arxaya baxdı və bircə anlığa Fatimə ilə baxışları toqquşdu. Özünü itirib, gözlərini qızdan çəkərək, tez də qabağa baxdı. Bu bir


downloaded from KitabYurdu.org

anlıq baxışmada heç biri digərinin gözlərində kindən, narazılıqdan əsər- əlamət görməmişdi. Əksinə, istəyə oxşar bir şey görüb-duymuşdular bir-birlərində.

Amma Ağaşamil ailəsinin başı, doğrudan da, çox bəla çəkdi bu ilin uğursuz may ayında... Beş kişi, bir uşaq torpağa tapşırıldı. Neçə uşaq yetim, neçə qadın ərsiz qaldı.

Fatimə öz mənzillərində qardaşının oğlu ilə tək qalırdı. Universitetə gedib-gəlirdi, güclə də olsa,
dərslərini çatdırırdı, amma ürəyində yaranmış dərin boşluğu heç nə ilə doldura bilmirdi. Nədənsə, mənasız görünürdü ona yaşamaq. Nəzakət, Həmidə, Hicran hərdən-bir baş çəkirdilər ona. Bir az oturub, gedirdilər. Bəlkə də Ağaşamilin qorxusundan. Həbsxanada olmasına baxmayaraq, kişinin zəhmi üstlərində idi hələ...

Nəzakət rəhmətlik Cahangirin firmasındakı işi yavaş-yavaş öz əlinə alırdı. Bu işdə, hərdən, Ağakərimin də köməyi dəyirdi ona. Həmidə iki qızı ilə evlərinə çəkilmişdi. Özü məktəbə gedib-gəlirdi, qızlar oxuyurdular. Amma heç kəslə gediş-gəlişləri yox idi. Onsuz da qaraqabaq olan Həmidə indi bir az da özünə qapanmışdı. Hicrana qardaşları kömək edirdilər, əl tuturdular. Nihatın, əslində, günahsız öldürüldüyünü bilən Hicran ər qohumlarından
soyumuşdu. Ağaşamil Nihat üçün adicə ehsan da verilməsinə razı olmamışdı, axı?!

Cəhalə Səxavətin yasında iştirak eləmədi. Daha doğrusu, atasıgil buraxmayıbmış onu. Bir həftədən çox xəstə yatıbmış atasının evində... Sonra ərinin qırxına gəldi. Öz evlərinə yox, Ağaşamilin evinə... Ehsan burada verilirdi. Ağaşamil on gündən çox idi tutulmuşdu onda.



downloaded from KitabYurdu.org

Mərasimə Ağakərim başçılıq edirdi. Cəhalə gəldi, qonaq kimi oturub, getdi. Elə o gedən də oldu. Heç kəslə bir əməlli kəlmə də kəsmədi o gün. Qayınxatınları, baldızı onun sınıxdığını, qaradinməz olduğunu görüb, bu dəyişikliyin səbəbini ərinin ölümü ilə bağlayırdılar.

Sonra mənzilini də satdı Cəhalə. Satıb, başqa yerdə mənzil aldı. Səxavətin qırxından sonra keçən beş ay ərzində Fatimə ilə görüşməmişdilər. Amma
bir-iki dəfə zəng vurub hal-əhval tutmuşdu. Elə iki həftə bundan qabaq da zəng vurub soruşdu ki, Fatimənin bir köməyə, pula-filana ehtiyacı varmı?.. Fatimə təşəkkür edib, heç nəyə ehtiyacı olmadığını dedi. O, başa düşürdü ki, Cəhalə artıq onların ailə üzvlüyündən uzaqlaşıb, amma bunun səbəbini tam anlaya bilmirdi.

Maşın şəhərə daxil olmuşdu. Ələmdar gənclərin danışmadığını görüb, Fərhada ani nəzər salaraq dilləndi:

- Nə işlə məşğulsan, Fərhad?

- İşsizəm... - Fərhad bir qədər xəcalətlə cavab verdi. - İş tapmıram.

- Bir sənətin, ixtisasın var?

- Hə! Neft Akademiyasını bitirmişəm...

Ələmdar azacıq fikrə gedib gülümsədi.

- Bu lap yaxşı oldu.

Sonra cibindən bir vizit kartı çıxarıb ona verdi:

- Bu adamın yanına gedərsən, sənə yüz faiz iş verəcək. Neft Şirkətində işləyir. Deyərsən, məni Ələmdar göndərdi. «Döyüş» idman klubunun sahibi. Onun oğlu bizim şagirdimizdi...

- Çox sağ olun! - vizit kartını Ələmdardan alan Fərhad ürəkdən təşəkkür etdi. - Bilmirəm, heç xəcalətinizdən necə


downloaded from KitabYurdu.org

çıxacam?..

- Boş şeydir! - Ələmdar bunu deyib, güzgüdə Fatiməyə baxaraq, söhbəti dəyişmək istədi. - Fatimə, heç yadıma düşmədi səndən soruşum, yay imtahanların necə keçdi, dərslərin necə gedir?

- Allah köməyiniz olsun! - Fatimənin çöhrəsi işıqlandı. - Dekanımız çox kömək elədi. Sizin sözünüzə görə. Dərslərim də yaxşı gedir indi.

- Lap yaxşı! - Ələmdar dedi. - Atanın görüşünə getmək istəsən, mütləq mənə xəbər ver, özüm maşınla aparım səni.

- Sağ olun. Deyərəm... - Fatimənin sifəti yenə azacıq tutuldu.

Ağaşamili yaxşılaşıb xəstəxanadan çıxandan bir neçə gün sonra həbs etmişdilər. Fuadın, Fatimənin, Salehin və onun özünün izahatı kifayət etmişdi işi məhkəməyə çıxarmağa. Ağaşamili azadlıqdan məhrum edib, Salehi azadlığa buraxmışdılar.

Kapitan Əbilovun deməyinə görə, Mirzəyev oğlu Fuadı qayışının altına salıb, o ki var, döyübmüş. Aprelin 9-da gördüklərini atasından gizlətdiyinə və beləliklə təhqiqatın düzgün gedişinə kömək etmək istəmədiyinə görə...

Salehin həbsdən çıxdığı gün onu qarşılamağa Ələmdar da getmişdi. Daha doğrusu, Məltəm və uşaqlarını öz maşınıyla aparmışdı həbsxananın qarşısına. O gün, yəqin ki, Ələmdarın xatirində həmişəlik qalacaqdı. Üstündən beş ay keçməsinə baxmayaraq, hər şey dəqiq yadında qalmışdı. Danışılan sözlər, hərəkətlər, baxışlar, hətta Məltəmin geyiminin incəliklərinə qədər hər şey...

O gün Bakıda havalar təzə-təzə istiləşməyə başlayırdı və Məltəm əyninə qara rəngli yüngül kostyum, boz rəngli,



downloaded from KitabYurdu.org

yaxası açıq kofta geyinmişdi. Qulaqlarındakı sırğalar, barmağındakı üzük, açıq sinəsindəki boyunbağı koftasının rəngi ilə həmahənglik təşkil edərək ona xüsusi yaraşıq verirdi.

Maşını darvazadan bir qədər uzaqda saxlamışdı. Düşüb, maşının yanında dayanmışdılar. Yaxınlıqlarında kənar adam yox idi. Nədənsə, dinib- danışmırdılar. Hərəsi öz aləmində idi, elə bil. Ancaq hərdən Gültay, hərdən də Eltay analarına yaxınlaşıb: - Bəs ata nə vaxt çıxacaq? - deyə soruşurdular. O gün, orada Ələmdar lazım olandan çox baxırdı Məltəmə və deyəsən, qadın özü də bunu başa düşürdü. Ələmdar Məltəmin az bir hissəsi açıqda qalmış hamar sinəsinə, qəşəng sifətinə, təravətli dodaqlarına baxıb düşünürdü ki, bəzən insana acı görünən bu həyatın nə qədər şirinliyi də varmış. Amma bunu düşünən zaman onu da özlüyündə qət edirdi ki, bu şirinliyi dadmaq və duymaq imkanı ondan çox-çox uzaqdır.

Hələ Məltəmin gözləri... Bu gözlərə, nədənsə, çox baxmaq olmurdu. Amma ani olaraq da olsa, hər baxanda bu gözlərdə təzə bir şey oxuyurdu Ələmdar. Bilmək olmurdu onun ürəyindən keçənləri. Gözlərinin dərinliyində oxunan və bir-birinin əksinə olan mənalar Ələmdarı əməlli-başlı çaşdırırdı. Kim bilir, bəlkə də bu çaşqınlıq idi ona qarşı marağı artıran?..

Ələmdarın yanında dayanmış Məltəm, əslində, heç bir ehtiyac olmadığı halda, üzünü uşaqlara tutub:

- Burda səs-küy salmayın, gedin o tərəfdə qumla oynayın! - dedi.

Uşaqlar dərhal onun sözünü eşidib, bir qədər kənarda görünən qum təpəciyinə tərəf qaçdılar. Maşının yanında



downloaded from KitabYurdu.org

ikisi tək qaldı. O və Məltəm...
Məltəm onun üzünə baxmırdı. Bir əliylə o biri əlinin barmaqlarını tutub sıxır, sanki bununla həyəcanını yatırmaq istəyirdi. Sonra titrək səslə:

- İstidir... - deyib, pencəyi əynindən çıxartdı və maşına qoydu.

Ətrafına boylanıb, koftasının ətəyini aşağı çəkdi. Həmin anda gözü Məltəmdə olan Ələmdarın ürəyindən olduqca güclü bir istək keçdi. Fikirləşdi ki, kaş indicə bu qadının belini qucaqlaya biləydi... İki əliylə belindən tutub özünə tərəf çəkmək, onu öz sinəsinə azacıq toxundurmaq və uzun müddət beləcə dayanmaq. Başqa heç nə istəmirdi. Daha doğrusu, çox şey istəyirdi, amma bütün başqa istəklərini ürəyindən çıxarıb atmağa çalışırdı. Təkcə, belini qucaqlayıb, bağrına basmaq, vəssalam! Əgər bu qadının, ümumilikdə bu ailənin xoşbəxtliyi üçün
bu qədər çalışmışdısa və artıq buna nail olmaq üzrə idisə, Məltəmə qarşı heç bir başqa fikir, başqa niyyət lazım deyildi!..

Elə bil onun arzusunu Məltəm də başa düşmüşdü. Ələmdara doğru bir addım atıb dayandı. Bu zaman baxışları bir də toqquşdu və həyəcanlanmış Məltəm lap yavaşcadan başını tərpətdi. Bu hərəkətin mənası «Nə istəyirsən, nə olub?» demək idi. Sual dillə verilməsə də, o qədər aydın idi ki, Ələmdar ona cavab verməyə məcbur oldu:

- Heç! Düşünürəm ki, kaş səni xoşbəxt görə biləydim...

Məltəm birdən-birə tutulub baxışlarını kənarlaşdırdı. Həyəcanlı halda dodaqlarını gəmirib dilləndi:

- Sənin yaxşılığını heç vaxt unutmayacam. Heç vaxt!


downloaded from KitabYurdu.org

Qardaşdan artıq oldun sən mənə! Amma...

- Daha nə «amma»?

Məltəm onun sualına cavab vermədi. Onun kövrəldiyini görən Ələmdar heç nə soruşmadı daha. Ürəyindən keçirtdiyi dəli istəyini də birtəhər boğub, kənara çəkildi.

- Tez-tez bizə gələrsən! Yaxşı? - Məltəm birdən, gözlənilmədən dilləndi və sonra əlavə etdi. - Uşaqlar da çox sevirlər səni...

Ələmdar əvvəlcə bir qədər kənarda qumla oynayan uşaqlara, sonra isə Məltəmə baxıb, acı-acı gülümsədi:

- Elə mən də sevirəm... Ancaq... Yaxşı olar ki, o günlərlə bağlı hər şeyi birdəfəlik unudasan. Ailənizin xoşbəxtliyi xətrinə.

- Unuda bilməyəcəm! - Məltəm başını silkələyib, üzünü yana çevirdi. - Nə o pislikləri, nə də sənin yaxşılığını...

Onda həmin dəli istək yenə də Ələmdarın ürəyinə hakim oldu. Məltəmə lap yaxınlaşdı da! Amma özünə əməlli-başlı zülm eləmək bahasına olsa da, yenə o istəyini boğa bildi. Əlini lap yüngülcə, qadının saçlarına çəkib:

- Yaxşı!.. - dedi.

Qəribədir, Ələmdarın əlindən uzun müddət o saçların təması silinib getmədi. Elə indinin özündə də həmin anı xatırlayanda sol əlində qəribə bir məhrəmanə duyğu hiss elədi...

Sonra Saleh çıxdı... Uşaqlar necə sarılırdılar atalarına, necə atılırdılar onun üstünə!.. Elə Saleh özü də! Elə bil bir ay yox, bir il, beş il idi ki, görmürdü
uşaqlarını. Gah onu duz kimi yalayırdı, gah bunu...



downloaded from KitabYurdu.org

Ələmdar yanlarında olduğu üçün Məltəmlə, elə-belə, əl tutub görüşdü.

Sonra Ələmdar onları birbaş evlərinə apardı. Nə qədər xahiş-minnət elədilər, evə çıxmaq istəmədi. Axırda Saleh ürəkdən xahiş elədi ki, bir gün vaxt tapıb onlara gəlsin. Razılaşıb, ayrıldı onlardan...

Ürəklərini qırmaq istəməyib, bir gün qonaq getdi onlara. Daha doğrusu, elə özünün də ürəyindən keçirdi Məltəmi görmək. Özü də lap çox keçirdi... İyulun 9-u idi, deyəsən. Bazar günü... Əvvəl zəng eləyib sonra getdi. Həmin gün Məltəmin necə bir əl qabiliyyəti olduğunun da şahidi oldu. Çox gözəl süfrə açmışdı onun üçün. Çox dadlı xörəklər bişirmişdi.

Ələmdar həmin gün belə başa düşdü ki, artıq bu ailədə hər şey öz yolundadır. Saleh də, Məltəm də, uşaqlar da çox xoşbəxt görünürdülər. Buna olduqca sevindi Ələmdar. Ailədəki problem təkcə Salehin işsizliyi idi ki, onun da düzələcəyinə söz verdi. Sonra polkovnik Baratovdan xahiş edib, onun üçün doğrudan da, yaxşı bir iş düzəltdirdi. Bir də oktyabrın 8-də olmuşdu onların evində. Saleh dəvət etmişdi onu, işin düzəlməsini qeyd etməyə. Ondan sonra görməmişdi Məltəmi...

Şəhərdə məşhurolan, bahalı kafelərdən birinin qarşısından keçəndə maşını birdən-birə saxladı.

Bu, Ələmdarın ağlına qəfil gəlmişdi. İstəyirdi yanındakı cavanlarla bir süfrə arxasında otursun, çörək kəssin. Dönüb, növbə ilə onların üzünə baxdı:

- Düşək, mənimlə bir çay içək, çörək yeyək!
- Mən ac deyiləm. - Fərhad etiraz etdi.
- Mən... - Fatimə sözünün arxasını deyə bilmədi.


downloaded from KitabYurdu.org

- Heç mən də ac deyiləm. - Ələmdar onun sözünü kəsdi. - Ancaq sizinlə bir süfrə arxasında oturmaq istəyirəm. Sözümü yerə salmayın!

Daha heç bir söz tapmadılar deməyə. Razılaşıb maşından düşdülər. Ələmdar özü bu kafedə cəmi bircə dəfə olmuşdu və burdakı yüksək xidmətdən çox razı qalmışdı. Qapıdan içəri girəndə Fərhad çəkilib, hörmətlə Fatiməyə yol verdi. Fatimə onun üzünə gülümsəyib:

- Çox sağ ol... - dedi.

Onların üzlərindəki ifadə Ələmdarın nəzərindən qaçmadı və o da gülümsədi. Ancaq gizlicə... Şüşədən düzəldilmiş pilləkənlərlə ikinci mərtəbəyə qalxdılar. Döşəməsi, tavanı, divarları rəngli
şüşələrdən olan zalda təkcə üç stolun arxasında adam görünürdü. Bunlardan birinin arxasında əyləşmiş iki nəfər Ələmdarın diqqətini dərhal cəlb etdi. Əyninə tünd bənövşəyi rəngli bahalı kostyum geyinmiş ciddi şimalı kişi bank sahibi Əli Mazanov idi. Ələmdar onu bir qədər gec tanıdı. Əsasən, televizorda görmüşdü onu. Mazanov qarşısında əyləşmiş gənc və gözəl qadınla baş-başa verib, nəyin barəsindəsə, söhbət edirdi. Əyninə qırmızı rəngli gödək yubka və bəyaz rəngli pencək geyinmiş sarışın saçlı qadın çılpaq ayaqlarını bir-birinin üstünə aşırmışdı. Bu qadının arxası Ələmdara tərəf olsa da, Ələmdar onu tanımaya bilməzdi. Bu Cəhalə idi...

O unudulmaz gecədən sonra görməmişdi bu qadını. O gecədən... O gecədən ki, Cəhalə Ələmdara çox xoş, çox mənalı bir neçə saat bəxş
edib, ondan ömrü boyu unutmayacağı, xoşbəxtliklə dolub-daşan bir neçə saat almışdı. O gecədən ki, o gecə Cəhalə


downloaded from KitabYurdu.org

ən böyük arzusuna çatmışdı və sevincindən az qalırdı dəli olsun. O gecədən ki, o gecə Ələmdar Məltəmə olan gizli münasibətini ilk dəfə həm özü anladı, həm də Cəhaləyə anlatdı...

Qəribədir, vallah, qəribədir bu məhəbbət deyilən şey!.. Nə vaxt gəlir, necə gəlir, hansı şəraitdə gəlir, bilmək olmur. Bircə onu bilirsən ki, artıq gəlib... Ondan sonra lap çıxartmaq istəsən də çıxara bilmirsən ürəyindən...

Amma bu məhəbbət deyilən şey nə qədər sirli olsa da, Ələmdar, deyəsən, onun bir gəlişindən xəbər tutmuşdu indicə. Hiss etmişdi ki, yanında dayanıb çəkingən nəzərlərlə ətrafa boylanan bu iki gəncin hər ikisinin ürəyinə məhəbbət toxumu

səpiləcək bu gün. Hətta nədənsə, bu toxumların cücərəcəyinə də inam yaranmışdı onda... Boş stolların birinə yaxınlaşıb, ətrafında əyləşdilər. Ələmdar stolun üstündəki menyunu götürüb, təzəcə gözdən keçirməyə başlamışdı ki, ofisiant gəldi. Gənclərin nəsə sifariş vermək fikrində olmadıqlarını görüb, özü, ən yaxşı xörəklərdən, sulardan, salatlardan sifariş verdi. Ofisiant sifarişləri bloknotuna qeyd edərək getdi.

Fərhadla Fatimə bir-birinə oğrun nəzərlərlə göz yetirirdilər. Bu anlarda nə düşündüklərini bilmək o qədər də asan deyildi. Ələmdarın isə diqqəti hələ də Cəhalədə idi...

O hadisədən sonra anası iki dəfə öz sevimli həkiminin qəbuluna getməli olmuşdu. İkisində də Ələmdar bir bəhanə ilə aradan çıxıb anasını İlqarla

göndərmişdi Cəhalənin yanına. Biri elə dünən, günortadan sonra... Ələmdar anasının qorxusundan axşam da evə


downloaded from KitabYurdu.org

getməyib, klubda gecələmişdi. Elə indi də ürəyində bir narahatlıq qalmışdı ki, evə gedən kimi anası üstünə düşüb ağzına gələni deyəcək ona. Hə, bu gün səhər İlqardan soruşdu nəticəni... Cəhalə, həmişəki kimi, Əminə arvadı çox yaxşı qarşılayıbmış. Hal-əhval tutub, hətta «oğlunuz necədir?» deyə soruşubmuş. Sonra da müayinəsini- filanı, necə lazımdırsa, eləyib mehribanlıqla yola salıbmış...

Ələmdar Cəhalədən razı idi. Lap belə, yerdən göyə qədər razı idi. Ancaq neyləyə bilərdi ki?.. Nə özünü, nə də onu aldatmaq istəyirdi. Ondan çox yaxşı dost ola bilərdi... Düzdür, deyirlər, kişi ilə qadının dostluğu tutan şey deyil, amma yalan sözdü
bu! Yüz nəfər ikiüzlü, təmənnalı, gərəksiz kişi dostdansa belə qadın daha yaxşıdır... Kim bilir, bəlkə də baş tutacaqdı onların dostluğu. İndi bu Əli Mazanovla tapışıblarsa, lap yaxşı, xoşbəxt olsunlar! Cəhalə layiq idi belə xoşbəxtliyə. Ancaq heç qaçmaq da lazım deyildi ondan. Uşaq-zad deyildi ki o? Hər şeyi başa düşən müasir qadındır. Gərək, gələn dəfə özü aparsın anasını poliklinikaya...

Ofisiant gəlib, müxtəlif, dadlı yeməkləri stolun üstünə düzdü. Ələmdar:

- Hə, başlayın! - deyib əlini çəngələ uzatdı və həmin anda telefonuna mesaj gəldiyini bildirən musiqinin səsi eşidildi.

Telefonunu çıxarıb, lazımi düyməni basdı. Ekranda «səni saat dörd tamamda gözləyirəm»
yazısını oxuyub, cəld saata baxdı. Saat üçü on beş dəqiqə adlamışdı artıq.

- Bir dəqiqə, məni bağışlayın! - deyib ayağa qalxdı.

Mətbəxə keçib onlara qulluq edən ofisiantı yaxına


downloaded from KitabYurdu.org

çağırdı. Süfrənin haqqını öyrənib, artıqlamasıyia ödədi. Ofisiantdan bir vərəq və qələm alıb nəsə yazdı. Onu ofisianta uzadıb:

- Xahiş edirəm, bunu o uşaqlara ver! - dedi.

Ofisiant onun xahişini dərhal yerinə yetirdi.

Fərhadla Fatimə yazını oxuyub ətrafa boylandılarsa da Ələmdarı görə bilmədilər. Ələmdar isə onların üzlərində gəzən bəxtəvər təbəssümü lap yaxşı görürdü. Həmin vərəqdə yazılmışdı: «Yeməyin pulu çatıb. Bağışlayın ki, məni çox təcili çağırdıqlarına
görə sizinlə otura bilmədim. Siz bir-birinizə çox yaraşırsınız. Xoşbəxt olun!»

Ələmdar elə mətbəxdəncə birinci mərtəbəyə enib, kafedən çıxdı. Maşına əyləşib, onu birbaş məxfi şöbəyə sürdü. Polkovnik Baratov onu belə təcili çağırırdısa, yəqin ki, arzusunu yerinə yetirmişdi. Axı o, polkovnikdən xahiş etmişdi ki, onu açıq hərbi vəzifəyə keçirsin?! Polkovnik də söz vermişdi ki, ilk imkan düşən kimi bunu eləyəcək...

Amma kabinetə daxil olub, Baratovla görüşəndən və təcili çağırılmağının səbəbini biləndən sonra sevincinin əbəs olduğunu başa düşdü. Polkovnik Baratov ona oturmaq üçün yer göstərib ağır-ağır danışmağa başladı:

- Leopard, əzizim, sənin köməyinə yenə də çox böyük ehtiyac yaranıb. Mən özüm də təəssüf edirəm
ki, bu iş belə tələsik oldu... Sən sabah səhər tezdən yola düşməlisən!

- Haraya? - Ələmdar sakit səslə soruşdu.

- Sabah tezdən burada olanda biləcəksən! Lazımi sənədlər də onda veriləcək sənə...

- Mən axı sizdən xahiş etmişdim?! - Ələmdarın səsində



downloaded from KitabYurdu.org

azacıq inciklik hiss olunurdu.

- Alınmadı, Leopard! - Baratov başını buladı. - Sənin kimi kəşfiyyatçını əldən buraxa bilmərik. Doğrudan da, çox ehtiyacımız var sənə...

- Nə qədər müddətə gedirəm? - Ələmdar yenə sakitcə soruşdu.

Baratov dərindən köks ötürdü:

- Bu çox ağır işdir!.. Həm ağır, həm təhlükəli. Ola bilsin, iki ay çəkər, ola bilsin bir az çox. Amma səndən gizlətməyəcəm, həqiqətən çox təhlükəli və riskli bir tapşırıq alacaqsan! Əgər başqasına arxayın ola bilsəydik, heç səni təklif etməzdim, doğrusu... Təkcə sən öhdəsindən gələ bilərsən bu tapşırığın! Hə, nə deyirsən?

Ələmdar çiynini çəkdi:

- Nə deyəcəm ki?! Mənim getməyim lazımdırsa, deməli gedəcəm! Ancaq... Gec qayıtsam, ya başıma bir iş gəlsə, iki nəfəri sizə arxayın olmaq istəyirəm. Yəni bir çətinliyə düşsələr...

- Aydındır! - Baratov onun sözünü kəsdi. - Biri anandır. Həmişə demisən onu. Arxayın ola bilərsən ki, gözümüz üstündə olacaq! Əlbəttə, gizli şəkildə... Bəs o biri kimdir?

Ələmdar dinmədi. Bəlkə də heç lazım deyildi, onun adını çəkmək? Onu İlqargilə tapşıra bilərdi və tapşıracaqdı da... Nə ehtiyac vardı ki, belə bir nüfuzlu və imkanlı adama tapşırsın onu?..

- Məltəm? - Baratov ona mənalı bir təbəssümlə baxıb, dilləndi.

Ələmdara birdən-birə elə gəldi ki, dünyada ən əziz, ən doğma adamıdı bu kişi. Az qaldı onu qucaqlayıb, üzündən



downloaded from KitabYurdu.org

öpsün. Ürəyini oxuduğuna və onu başa düşdüyünə görə. Amma yenə dinmədi...

- Qoymarıq, çətinliyə düşsün! - polkovnik ayağa qalxdı. - Arxayın ol! İndisə, dur get, hazırlaş, görüşmək istədiyin adamlarla görüş. Sabah, səhər saat 9-da burda olmalısan!

Ələmdar ordan çıxan kimi maşını düz Məltəmgilin məhəlləsinə sürdü. Məhəlləyə çatanda saat 5-i ötmüşdü. «Volvo»nu həyət qapısından bir az aralıda saxladı. Orada ki, həmin yerdə bir vaxt
Orxanın maşınında oturub Orxanla nişanlısının həyətdən çıxmasını gözləmişdi. Onlar gəlib lazımi məlumatı verəndən sonra, özü düşüb həyətə girmişdi. İlk dəfə həmin gün görmüşdü Məltəmin özünü. On üç il xəyalında canlandırıb əzizlədiyi Məltəmi...

Bir neçə oğlan uşağı küçədə futbol oynayırdı. Daha doğrusu, buna qətiyyən, futbol demək olmazdı. Sadəcə olaraq, topu dar küçədə bir-birlərinə ötürüb qışqırışırdılar. Ələmdar onların arasında olan Eltayı tanıdı. Necə də qəşəng, şirin uşaq idi. Həm də çox şən idi. Uşaqların hamısından çox o sevinirdi, elə bil... Anası evdə idi, yəqin ki. Gültayla birlikdə. Atası da bir azdan işdən qayıdacaqdı.

Ələmdar birdən-birə düşündü ki, buraya niyə gəldi?.. Məltəmlə görüşməyə? Vidalaşmağa?.. Bu
nəyə lazım idi axı? Olmazmı ki, yenidən başladıqları bu həyatlarını sakit davam etdirsinlər? Sakit və xoşbəxt?..

Xoşbəxt!.. Ələmdar özü öz fikrinə acı-acı gülümsədi. Baxır, kim necə başa düşür xoşbəxtliyi. Məltəmin həbsxananın qarşısında dediyi «Amma...» sözünü xatırladı. Elə bu «amma»lar idi adamların, doğrudan da,



downloaded from KitabYurdu.org

xoşbəxt olmağına mane olan...

Bir də ki, nə deyəcəkdi Məltəmə? Sözsüz ki, bir yalan uydurmalı olacaqdı. Deyəcəkdi ki, xaricə gəzməyə gedirəm, ya idman yarışına gedirəm, ya da nəsə başqa bir yalan... Yox! Heç nə lazım deyildi. Qoy yaşasınlar özləri üçün. Bəlkə də Məltəm bu uşaqların sevincində, xoşbəxt gələcəyində tapacaqdı öz xoşbəxtliyini?.. Bəlkə də...

Maşını işə salıb köhnə məhəllədən uzaqlaşdı. İdman klubuna getdi. Ayın 12-də, bazar günü Orxanla Sunanın toyu olmuşdu. Ələmdar başda olmaqla iş yoldaşları hamısı iştirak etmişdilər toyda. Ondan sonra birinci dəfə idi işə çıxırdı Orxan. Onunla görüşdü, İlqarla, Tələtlə görüşdü. Yalandan vacib iş üçün Türkiyəyə gedəcəyini deyib, onlara öz tapşırıqlarını verdi. Həmişə olduğu kimi, kluba rəhbərliyi İlqara tapşırdı. Üçünə də tapşırdı ki, anasına tez-tez zəng vurub hal-əhval tutsunlar. Bir şeyə ehtiyacı olarsa, işinə yarasınlar...

Klubdan gec çıxdı. Evə gələndə saat 10-u ötmüşdü. Yaman narahat idi anası sarıdan. Düşünürdü ki, onu cəzasız qoymayacaq. Söyəcək, danlayacaq dünən onu poliklinikaya İlqarla göndərdiyinə görə, gecə evə gəlmədiyinə görə...

Ancaq qəribədir, çox qəribədir ki, anası onu danlayıb-eləmədi. Ac olub-olmadığını soruşub, yemək gətirdi qabağına. Özü də, nəsə, elə bil kədərlə baxırdı Ələmdara. Sanki onun sabah ölümlə, dəhşətlə, qanla dolu bir ölkəyə, olduqca çətin bir tapşırıq yerinə yetirməyə gedəcəyindən xəbər tutmuşdu ana ürəyi... Kim bilir, bəlkə də!..

Ələmdar ac olmasa da, anasının gətirdiyi yeməyi yedi. Sonra özünü məcbur edib, idmançılarla məşq aparmaq


downloaded from KitabYurdu.org

üçün, guya Türkiyəyə dəvət olunduğunu və sabah tezdən yola düşəcəyini bildirdi. Yenə də qəribədir ki, anası heç nə demədi...

Səhər isə... Ələmdar yeməyini yeyib anasının üzündən öpdü. Mənzildən çıxıb pilləkənlə aşağı düşəndə Əminə arvad onun arxasınca bir qab su atıb, kövrək səslə:

- Səni Allaha tapşırıram! Sağ-salamat qayıt! dedi.

SON

7 iyul 2006-cı il-29 avqust 2007-ci il Bakı-Şamaxı



downloaded from KitabYurdu.org